ISSN 2708-955X (print)
ISSN 2709-6033 (on-line)

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
МИНИСТЕРСТВО НАУКИ И ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
THE MINISTRY OF SCIENCE AND EDUCATION OF THE REPUBLIC OF AZERBAIJAN

KONFRANS MATERİALLARI

МАТЕРИАЛЫ КОНФЕРЕНЦИЙ

CONFERENCE PROCEEDINGS

2023 № 4/II

SUMQAYIT - 2023

ISSN 2708-955X (print)
ISSN 2709-6033 (on-line)

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ

МИНИСТЕРСТВО НАУКИ И ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
СУМГАИТСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ

MINISTRY OF SCIENCE AND EDUCATION AZERBAIJAN REPUBLIC
SUMGAYIT STATE UNIVERSITY

KONFRANS MATERİALLARI

МАТЕРИАЛЫ КОНФЕРЕНЦИЙ

CONFERENCE PROCEEDINGS

2023 № 4/II

SUMQAYIT – 2023
СУМГАИТ – 2023
SUMGAYIT – 2023

Sumqayıt Dövlət Universiteti
Konfrans materialları

REDAKSİYA HEYƏTİ

ELXAN HÜSEYNOV *prof., rektor (baş redaktor)*
RAMAZAN MƏMMƏDOV *prof., elm və innovasiyalar üzrə prorektor, (baş redaktor müavini)*
ƏKBƏR AĞAYEV *prof. (təbiət və texniki elmlər bölməsi üzrə məsul katib)*
NİGAR İSGƏNDƏROVA *prof., (sosial və humanitar elmlər bölməsi üzrə məsul katib)*

Сумгаитский государственный университет
Материалы конференций

РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ

ЭЛЬХАН ГУСЕЙНОВ *проф., ректор (главный редактор)*
РАМАЗАН МАМЕДОВ *проф., проректор по науке и инновациям (заместитель главного редактора)*
АКПЕР АГАЕВ *проф. (ответственный секретарь раздела естественных и технических наук)*
НИГЯР ИСКЕНДЕРОВА *проф., (ответственный секретарь раздела социальных и гуманитарных наук)*

Sumgayit State University
Conference proceedings

EDITORIAL BOARD

ELKHAN HUSEYNOV *prof., rector (chief editor)*
RAMAZAN MAMMADOV *prof., vice-rector for science and innovations, (deputy chief editor)*
AKBAR AGAYEV *prof. (executive secretary of the department of natural and technical sciences)*
NIGAR ISGANDAROVA *prof., (executive secretary of the department of social and humanitarian sciences)*

MAGİSTRANTLARIN XXIII RESPUBLİKA ELMİ KONFRANSI

(Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunur)

(11-12 may 2023-cü il)

XXIII РЕСПУБЛИКАНСКАЯ НАУЧНАЯ КОНФЕРЕНЦИЯ МАГИСТРАНТОВ

(Посвящается 100-летию со дня рождения общенационального лидера Гейдара Алиева)

(11-12 мая 2023 год)

XXIII NATIONAL UNDERGRADUATE RESEARCH CONFERENCE

(Dedicated to the 100th anniversary of national leader Heydar Aliyev)

(May 11-12, 2023)

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ

Ümummilli lider Heydər Əliyevin
100 illiyinə həsr olunur

MAGİSTRANTLARIN XXII RESPUBLİKA ELMİ KONFRANSININ

M A T E R İ A L L A R I

II HİSSƏ

SUMQAYIT – 2023

TƏŞKİLAT KOMİTƏSİ

SƏDR

Elxan Hüseynov	Rektor, professor

SƏDR MÜAVİNİ

Ramazan Məmmədov	Elm və innovasiyalar üzrə prorektor, professor

ÜZVLƏR

Natiq Talıbov	Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor, dosent
Qafar Atayev	Beynəlxalq əlaqələr üzrə prorektor, dosent
Elmar Xəlilov	Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektor, dosent
Naib Hacıyev	İqtisadi məsələlər üzrə prorektor
Əsəd Məmmədov	Ümumi işlər üzrə prorektor
Sabir Xəlilov (məsul katib)	Doktorantura və magistratura şöbəsinin müdiri, dosent
Adil Baxşəliyev	Tarix və coğrafiya fakültəsinin dekanı, professor
Sevinc Həmzəyeva	Filologiya fakültəsinin dekanı, dosent
Ulduz Ağayev	Mühəndislik fakültəsinin dekanı, dosent
Xalidə Həsənova	Riyaziyyat fakültəsinin dekanı, dosent
Mahal Muradov	Kimya və biologiya fakültəsinin dekanı, dosent
Tamella Əhmədova	Fizika və elektroenergetika fakültəsinin dekanı, dosent
Aynurə Yəhyayeva	İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı, dosent
Samir Orucov	Elmi hissənin müdiri, dosent
Xəyalə Mürsəliyeva	Gənc alimlər şurasının sədri, dosent
Lalə Bunyatova	Tələbə elmi cəmiyyətinin elmi rəhbəri, dosent
Alik Abdullayev	Linqvistik mərkəzin rəhbəri

XI BÖLMƏ
İQTİSADİYYAT

MÜASİR ŞƏRAİTDƏ AZƏRBAYCANDA DÖVLƏT MALİYYƏSİNİN İDARƏ EDİLMƏSİ PROSESİNDƏ BÜDCƏDƏNKƏNAR FONDLARIN ROLU

Abbaslı A.M.
OdlarYurdu Universiteti
E-mail: Aqil.abbasli@gmail.com

Regional idarələrin əsas fəaliyyət məqsədi dövlətin məaliyyə vəsaitlərinin rasional, plana uyğun və vaxtı-vaxtında icra edilməsini nəzarət altında saxlamaqdır. Bu tərdiblərin mahiyyəti aşağıda göstərilən bəndlərdə qeyd edilib:

- dövlətin büdcəsində olan maliyyə vəsaitlərinin icra edilməsinə dair nəzarət sisteminin gücləndirilməsi;
- büdcədənkənar fondların və dövlətin digər maliyyə vəsaitlərinin icra edilməsinə dair nəzarət sisteminin gücləndirilməsi;
- dövlətin büdcəsində olan maliyyə vəsaitlərinin gəlir və xərclərinə, büdcədənkənar fondlara, dövlətin digər maliyyə vəsaitlərinə və mülkiyyətdən əldə edilən gəlirlərə dair nəzarətların və ya monitorinq prosedurların həyata keçirilməsi;
- hüquq – mühafizə orqanların verdiyi göstərişlərin əsasında hər bir sahibkarlıq fəaliyyətinin işləmə sisteminə dair monitorinq prosedurların həyata keçirilməsi.

Dövlət sektorunun İqtisadiyyatda əhəmiyyətini araşdırdıqdan sonra maliyyə nəzarətinin vacibliyi daha da əhəmiyyətli faktor olduğu aşkar edilmişdir. Dövlətin maliyyə vəsaitlərinin idarə olunmasında maliyyə nəzarətinin yaranması təkcə dövlət xərclərinin idarə olunması ilə yox, həmçinin onların səmərəliliyinin qiymətləndirilməsi ilə də əlaqəlidir. Dövlət vəsaitinin xərclənməsinin səmərəliliyini yüksəltmək məqsədi ilə nəzarətin təkmilləşdirilməsində onun auditinə keçmək lazımdır. Hazırda dövlət xərclərinin səmərəliliyinin auditinin aparılmasının vahid üsulu yoxdur və dövlət vəsaitinin istifadəsi səmərəliliyinin meyarları və göstəriciləri müəyyən edilməmişdir Maliyyə nəzarətini hayata keçirin orqanların şəffaf və səmərəliliyi inkişaf etdirilsə də onların idarəsində çatızmazlıqlar və problemlər mövcuddur ki, bu problemlərin aradan qaldırılması üçün tədbirlər görülməlidir. Maliyyə nəzarətini həyata keçirən orqanların çatışmazlıqlarından biri vahid standartın olmaması ilə bağlıdır.Maliyyə nəzarətinin səmərəliliyinin artırılması üçün ilk əvvəl maliyyə nəzarəti sahəsində olan problemlərə nəzər salaq. Belə ki, maliyyə nəzarətinin ən başlıca problemlərindən biri audit institutları ilə maliyyə nəzarətini həyata keçirən orqanlar arasındakı zəif əlaqələrin olmasıdır. Həmçinin bu çatışmazlıqlar sırasına maliyyə nəzarəti sahəsində kadr hazırlığının kifayət qədər qənaətbəxş olmaması və maliyyə nəzarətinin həyata keçirilməsi üçün vahid standart normaların olmamasını da aid etmək olar. Buna görə də qeyd edilən probeləmlərin aradan qaldırılması maliyyə nəzarəti sahəsində səmərərəliliyinin artırılması üçün ilk addımlardan olacağını fikirləşirəm. Maliyyə nəzarətinin səmərəliliyinin artırılması üçün yeni nəzarət orqanlarının yaradılması bu sahədə aparılan islahatların göstəricisidir. Yaradılmış Hesablama Palatası, Auditorlar Palatası və digər nəzarət orqanlarınının nəticəsi olaraq yuxarıda da qeyd edilmişdir ki, dövlət büdcəsinə külli-miqdarda vəsaitlərin bərpası təmin olunmuşdur.

İnkişaf edən sosial-iqtisadi şəraitdə maliyyə nəzarətinin dövlət maliyyəsinin idarə olunmasında əhəmiyyətli nəticələri olmuşdur. Belə ki, dövlət maliyyə vəsaitlərinin idarə olunmasında əhəmiyyətli islahatlar keçirilmiş və bu islahatlar nəticəsində büdcə xərclərinin daha səmərəli və şəffaf idarə edilməsinə, dövlət büdcəsində qalan vəsaitin daha sərbəst şəkildə idarə edilməsinə, xarici valyutada olan gəlirlərin milli valyutaya çevrilmədən xərclənməsinə, dövlət sektorunun və dövlət tərəfindən maliyyələşdirilən bütün təşkilatlarda maliyyə əməliyyatlarının beynəlxalq standartlara uyğun şəkildə aparılmasına nail olunmuşdur. Həmçinin dövlət tərəfindən maliyyələşən və dövlət büdcəsindən maliyyə yardımı alan təşkilatların əldə etdikləri gəlirlərin qalıq hissəsinin büdcəyə daxil olması təmin edilmişdir. Tədqiqat zamanı dövlət büdcəsinə daxil olan vəsaitlərin statistikası araşdırılmış və illər üzrə ən çox daxilolmalar maliyyə nəzarətini həyata keçirən orqanlardan biri olan Vergilər Nazirliyinin payına düşmüşdür. Bu faiz isə tədricən azalmış və 2019-cu ilin daxilolma proqnuzuna əsasən Vergilər Nazirliyinin xətti ilə daxilolmaların payı 31.9% hesablanmışdır. 2017 və 2018-ci ildə isə bu göstərici müvafiq olaraq 42.2 və 33.3% təşkil etmişdir. Həmçinin dövlət sektorunun

idarəedilməsində maliyyə nəzarətinin əhəmiyyəti əsas göstəricilərdən biri olan dövlət borclarına nəzarətlə bağlı olmuşdur. Dövlət nəzarətinin xarici borc üzərində ciddi nəzarəti əsas götürülməlidir. Əks halda dövlət büdcə defisitini aradan qaldırılması zamanı xarici borcun həddindən artıq olmasına və iqtisadiyyatın geriləməsinə səbəb ola bilər. Tədqiqat zamanı aparılan araşdırma nəticəsində maliyyə nəzarəti orqanlarının büdcə sisteminin idarə olunmasında böyük rolu olduğu aşkar edilmişdir. Belə ki, büdcə gəlirlərinin və xərclərinin nəzarət edilməməsi qarşılığında büdcə kəsrinin artacağı müəyyən edilmiş və bunun nəticəsində də ümumi dövlət borclarının həm dövlət sektorunda, həm də ümumi ölkə iqtisadiyyatında qarşısı alınmaz nəticələrə səbəb olacağı aşkara çıxmışdır.

İqtisadiyyatın qeyri-dövlət sektorlarına dövlət maliyyə nəzarəti onların vergi və digər məcburi tədiyyələrinin və pul öhdəliklərinin yerinə yetirilməsində, həmin təşkilatlara ayrılmış büdcə yardımlarının, kreditlərin məqsədyönlü istifadəsində qanunçuluğa riayət olunmasında, habelə hesabat işlərinin aparılmasında dövlət qaydalarına əməl edilməsində ifadə olunur.Dövlət maliyyə nəzarəti vasitəsilə planlaşdırılmış bütün vəsaitlərin vaxtında dövlət fondlarına daxil olunmasına və bu vəsaitlərdən məqsədyönlü istifadəyə nəzarət həyata keçirilir.Maliyyə nəzarətinin həyata keçirilməsi sahəsində Maliyyə Nazirliyi çox mühüm rola malikdir. Belə ki, bu orqan tərəfindən maliyyə siyasəti işlənib hazırlanır, habelə onun həyata keçirilməsinə nəzarət edilir. Maliyyə Nazirliyinin bütün struktur bölmələri bu və ya digər formada maliyyə münasibətlərinə: dövlət büdcəsinin tərtibi prosesinə, büdcə vəsaitinin daxil olması və xərclənməsinə, büdcədənkənar fondların vəsaitlərinin hərəkətinə, valyuta əməliyyatlarının və dövlət investisiyalarının istifadəsinə nəzarəti həyata keçirir. Nazirlik büdcə vəsaitinin qeyri-qanuni xərclənməsini, yaxud vəsaitin təyinatı üzrə istifadə edilmədiyini aşkar etdikdə, dövlət büdcəsindən maliyyələşdirmə məhdudlaşdırıla bilər, cərimə tətbiq edilməklə vəsait geri alına bilər. Respublikada maliyyə nəzarəti orqanlarının fəaliyyətini tənzimləyəcək qanunvericilik aktına ehtiyacı nəzərə alaraq Maliyyə Nazirliyi tərəfindən "Maliyyə nəzarəti haqqında" qanun layihəsi hazırlanılmışdır ki, onun da yaxın dövrlərdə Milli Məclisin müzakirəsinə təqdim olunması gözlənilir.Qeyd olunan qanun ölkədə maliyyə şəffaflığının təmin olunması, dövlət vəsaitlərinin xərclənməsi üzərində nəzarətin genişləndirilməsi ilə yanaşı maliyyə nəzarətinin tətbiqinin vahid hüquqi və metodoloji əsaslarını, habelə dövlət maliyyə nəzarəti orqanlarının vahid sistemini və onların qarşılıqlı əlaqəsini təmin edəcəkdir.

GƏNCƏ-DAŞKƏSƏN İQTİSADİ RAYONUNDA AQRAR SAHƏNİN İNKİŞAFINDA MƏSLƏHƏT XİDMƏTLƏRİNİN ROLU

Abbasov M.A.
Azərbaycan Dövlət Aqrar Universiteti
E-mail: mehraliabbasovs@gmail.com

Respublikamızda aqrar potensialına görə fərqlənən regionlardan biri Gəncə-Daşkəsən iqtisadi rayonudur. İqtisadi rayon Gəncə və Naftalan şəhərlərini, Daşkəsən, Goranboy, Göygöl və Samux rayonlarını əhatə etməklə, 1 yanvar 2022-ci il tarixinə 612,1 min nəfər təşkil edir. Digər regionlarda olduğu kimi, son illərdə Gəncə-Daşkəsən iqtisadi rayonunda da aqrar sahənin inkişafına dövlət dəstəyinin artması kənd təsərrüfatı məhsulları istehsalının səviyyəsinin yüksəlməsinə əhəmiyyətli dərəcədə təsir göstərməkdədir. Bu dəstək tədbirlərinə əsasən vergi güzəştləri, bitkiçilik və heyvandarlıqda verilən subsidiyalar, güzəştli kreditlər, kənd təsərrüfatı texnikalarının və heyvanlarının güzəştli qiymətlərlə satışı daxildir. Statistik məlumatlara nəzər saldıqda məlum olur ki, 2005-ci illə müqayisədə 2021-ci ildə iqtisadi rayonda taxıl istehsalı 30,0%, pambıq 17,6 dəfə, dən üçün günəbaxan 63,5%, tərəvəz 48,7%, meyvə və giləmeyvə 29,3%, üzüm 23,9% artmışdır.Qeyd olunan artım müqayisə olunan illərdə əkin sahələri ilə yanaşı məhsuldarlığın yüksəldilməsi hesabına təmin edilmişdir ki, burada da innovativ texnologiyaların tətbiqi, eləcə də aqrar məsləhət xidmətlərinin təşkili mühüm rol oynamışdır. Müasir dövrdə aqrar sahənin inkişafında məsləhət xidmətlərinin rolu durmadan artır. Bu xidmətlər dövlət və özəl sektoru təmsil edən subyektlər tərəfindən həyata keçirilir. Gəncə-Daşkəsən iqtisadi rayonunda aqrar məsləhət xidmətlərinin müasir dövrün tələblərinə uyğun təşkili üçün böyük potensial mövcuddur. Belə ki, Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan qurumların-Azərbaycan Dövlət Aqrar Universiteti, Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutu, Elmi-Tədqiqat Heyvandarlıq İnstitutu, Süni Mayalanma Mərkəzi, Aqrar Xidmətlər Agentliyinin müvafiq qurumları və digər struktur vahidləri regionda fəaliyyət göstərməsi aqrar məsləhət xidmətlərinin səmərəli təşkilinə mühüm töhfələr verir.

Regionda aqrar sahənin rəqabət qabiliyyətinin artırılmasının mühüm şərtlərindən biri kimi, aqrar məsləhət xidmətlərinin gücləndirilməsi bu sahədə ardıcıl və sistemli tədbirlərin həyata keçirilməsini önə çəkir. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin strateji 5-ci-kənd təsərrüfatı sahəsində elm, təhsil və informasiya-məsləhət xidmətləri sisteminin inkişaf etdirilməsi hədəfində aqrar sahənin ehtiyaclarına cavab verən informasiya-məsləhət xidməti şəbəkəsinin formalaşdırılması məsələləri şərh olunmaqla, aqrar sahədə məsləhət xidmətlərini tənzimləyən mexanizmlərin hazırlanması, Aqrar İnnovasiya Mərkəzinin fəaliyyət mexanizminin təkmilləşdirilməsi, məsləhətçilər şəbəkəsinin yaradılması, maliyyə dayanıqlığının artırılması və digər tədbirlər öz əksini tapmışdır ki, onların da həyata keçirilməsi bütün regionlarda, o cümlədən də Gəncə-Daşkəsən iqtisadi rayonunda aqrar sahənin inkişafına müsbət təsir göstərməkdədir.

AZƏRBAYCANDA TURİZM SEKTORU VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

Abbasova E.R.
OdlarYurdu Universiteti
E-mail: abbsv.em@mail.ru

Ölkədə sosial turizmin inkişafına gəldikdə:- sosial turizmin inkişafı həmin ölkənin sosial nailiyyətini özündə əks etdirir. 1980- ci ildə keçirilən Ümümdünya konfrans iştirakçılarının gəldikləri qənaətə görə sosial turizmin hədəfi aztəminatlı insanların istirahət imkanlarının genişlənməsinə xidmət etməlidir. Yəni sosial turizmin əsas funksiyasına ilk növbədə dövlətin, yerli hakimiyyətin büdcə hesabına ayırdığı vəsaitlə gerçəkləşən istirahət imkanı başa düşülməlidir. Sosial turizm aztəminatlı ailələr, tələbələr, sağlamlıq imkanları məhdud olanlar və əlillər üçün nəzərdə tutulan turizm növüdür. Bu turizm növünün reallaşması üçün hər bir müəssisənin maliyyə imkanları olmalıdır. Sovetlər birliyi müddətində bu yalnız həmkarlar ittifaqı xətti ilə qabaqcıl işçilərin istirahəti və sağlamlıqlarının bərpası məqsədi ilə həyata keçirilirdi. Müasir şəraitdə sosial turizmin inkişafı müxtəlif ölkələrdə müxtəlif səviyyədədir. Məsələn, ABŞ və Almaniya kimi inkişaf etmiş ölkələrdə dünya turizm istiqaməti kimi sosial turizm yoxdur.

Bir sıra digər ölkələrdə isə ümumiyyətlə sosial turizmə dövlət dəstəyi yoxdur. Bu ilk növbədə onunla izah olunur ki, turizm mənfəət verməlidir, halbuki sosial turizm yalnız vəsait qoyuluşları tələb edir. Üsrtəlik sosial turistlər əyləncə sənayesinin inkişafına kömək etmək iqtidarında deyil. Deməli, sosial turizmin əsas problemlərindən biri onun maliyyələşdirilməsi mənbələrinin aşkar edilməsindən ibarətdir.Buna baxmayaraq uzun illər milyonlarla turistlər yenə də sosial turizmin hesabına səyahət edirlər. Sosial turizmin maliyyə mənbələrini formalaşdıran orqanlara aiddir: 1.Dövlət müəssisələri; 2.Dövlət fondları; 3.Qeyri-hökümət fondları; 4.Xeyriyyə təşkilatları.Avropanın bəzi dövlətlərində sosial turizmə son vaxtlar müəyyən diqqət artmaqdadır.Məsələn bu sahə üzrə Almaniyada xristian mehmanxanalar şəbəkəsi məşhurdur. Xidmət xərclərini xüsusi fondlar ödəyir.Ölkədə turizm sənayesinin inkişafı ilə əlaqədar tikinti materiallarına tələbat artmışdır.Bu baxımdan hər bir inzibati rayon daxilində turizm məqsədli tikintilərin planlı aparılması, xüsusilə kənd təsərrüfatına yaralı torpaqların azalmasının qarşısını almaq üçün kənd təsərrüfatının istifadəsindən çıxarılmış ərazilərdə istirahət mərkəzlərinin tikintisinin aparılması məqsəd əuyğundur.

Yüngül və kustar sənaye turizm bazarında mühüm rol oynamaqla əsasən turistlər üçün suvenir və hədiyyələr istehsalından ibarətdir.Ölkəmizdə yüngül sənayenin ənənəvi sahələrindən sayılan xalçaçılıq və ipəkçilik turistləri daha çox cəlb edir. Xarici turistlər xalçaçılıq və ipəkçilikdə toxunan məhsullara daha çox maraq göstərsə də, yerli turistlər də getdikləri bölgələrdən yadigar suvenir məhsulları, hədiyyələr almağa üstünlük verirlər. Buna görə ölkəmizin ayrı-ayrı regionlarında milli xüsusiyyətləri əks etdirən xalçaçılıq, ipəkçilik məhsullarının satışının təşkil olunması əsas məsələlərdən biridir.Turizmin sürətli inkişafı və kütləvi xarakter alması. onun əsaslı tədqiq edilməsinin vacibliyini ortaya qoyur. Bu tədqiqatlar turizmin müxtəlif problemlərinə, o cümlədən onun müstəqil fəaliyyət sahəsi kimi öyrənilməsinə, inkişafının əsas xüsusiyyətlərinə, inkişaf qanunauyğunluqlarına və s. həsr olunur. Turizmin iqtisadiyyatı turistlərin istehlak tələbatlarının ödənilməsi üçün turizm məhsulunun istehsal-istehlak prosesində meydana çıxan iqtisadi münasibətləri öyrənir. Bu münasibətlər iki səviyyədə nəzərdən keçirilə bilər: 1. makro səviyyədə (destinasiya, region və dövlət səviyyəsində); 2. mikro səviyyədə (turizm məhsul və xidmətləri istehsal edən müxtəlif müəssisələr səviyyəsində). 50 Turizmin iqtisadi mahiyyəti ondan ibarətdir ki, o, vahid sosial sistem kimi aşağıdakı məsələlərin həlli üsullarını öyrənir və tədqiq edir: 1. müəyyən zaman kəsiyində nə qədər, hansı

keyfıyyət və çeşiddə məhsul və xidmətlər istehsal ediləcək; 2.həmin turizm məhsulları və turizm xidmətləri necə, hansı mənbələrdən və hansı texnologiya ilə istehsal ediləcək; 3.istehsal edilmiş turizm məhsulları və turizm xidmətləri yerli və xarici turistlər arasında necə bölüşdürüləcək; 4.zamana görə iqtisadi fəaliyyət necə inkişaf edəcək. Məlumdur ki, istənilən turizm müəssisəsi tərəfindən təklif edilən turizm məhsul və xidmətlərinin sayı, keyfıyyəti və çeşidi zaman keçdikcə dəyişir. Müəyyən çeşid məhsul və xidmət təklifinin həcmi azala, arta və ya ümumiyyətlə istehsaldan çıxa bilər. Paralel olaraq turistlərin tələbatlarının ödənilməsi məqsədilə yeni çeşid və keyfıyyətdə məhsullar yaradılır və turizm bazarına çıxarılır. Bu zaman meydana belə bir sual çıxır: turizm məhsulu və xidmətləri hansı mexanizmlərdən istifadə edilməklə və hansı meyarlar əsasında formalaşır, onların sayı, çeşidi və tərkibi necə müəyyən edilir? Hər hansı ölkə, region və ya turizm mərkəzində təklif edilən turpaket və xidmətləri müxtəlif üsullarla istehsal edə bilərlər. İstehsal üsullarının hansı, meyarlara əsasən seçilməsi, turpaket və xidmətləri başqa üsulla istehsal edə bilərmi məsələsi də sual yaradır. Region və turizm mərkəzində istehsal edilən turizm məhsul və xidmətləri həm xarici (gəlmə), həm də daxili turistlər arasında bölüşdürülür və onların tələbatlarını ödəyir. Turizmin iqtisadiyyatında əsas məsələlərdən biri də digər sahələrdə olduğu kimi, turizm məhsul və xidmətlərinin bölüşdürülməsinin hansı meyara əsasən həyata keçirildiyini müəyən etməkdən ibarətdir . Bu problem hər hansıəsassız seçilmiş meyara əsasən həll edilə bilməz. Tədqiqatlann nəticəsi olaraqməlum olur ki, turizmdə məhsul və xidmətlərinin bölüşdürülməsində bir çox amillərin (psixoloji, demoqrafik, fərdi və s.) təsiri var. Dernəli, turist qəbul edən istənilən ölkə, rcgion və turizm mərkəzi, istehlak dəyərlərinin bölüşdürülməsində öz meyarlarını seçir və bu seçimdə müəyyəniki qrup (daxili və xarici) amillərə əsaslanır.Turizmin iqtisadiyyatı, mənşəyi nəzərə alınmadan istənilən turistin tələbatı nəzərə alınmaqla turməhsul və xidmətlərinin həcminin artması nəticəsində inkişaf edir. Turizm məhsul və xidmətlərinin həcminin artması ilə paralel onların keyfiyyəti də yüksəlməlidir. Turizmdə iqtisadi inkişaf ölkənin, regionun və turizm mərkəzinin (destinasiyanın, klasterin) inkişaf səviyyəsindən də asılıdır . Turizmdə əsas iqtisadi problemlər ilk növbədə turistlərin fərdi tələbatlarının qeyri-müəyyən sayı, turizm məhsul və xidmətlərinin bölüşdürülməsinin vaciblik dərəcəsindən asılıdır. İkincisi, turistlərin tələbatlarını ödəmək məqsədilə istifadə edilən məhdud və nadir turizm ehtiyatları müxtəlif istifadə üsullan ilə əlaqələndrilməlidir.

ALTERNATİV ENERJİ MƏNBƏLƏRİNİN İNKİŞAFI VƏ ONUN PERSPEKTİV İMKANLARI

Abdullayev N.İ.
Azərbaycan Memarlıq və İnşaat Universiteti
E-mail: Nurlanabd523@gmail.com

Ötən əsrin ortalarından inkişaf etmiş ölkələrdən başlayaraq təbiətin çirklənməsi mövzusu geniş müzakirələrə səbəb olmuş, ötən əsrin 70-ci illərində bu ölkələrdə ekologiya üzrə müxtəlif dövlət qurumları yaradılmağa başlamışdır. Bu qurumlar yığılan faktlar əsasında müvafiq siyasətlər həyata keçirməli idi. İqtisadi inkişafın nəticəsində həm yeni texnologiyaların enerjiyə tələbatı, həm də məyişət və sənaye tullantılarının, çirkab suların həcminin artması da müşahidə edilməkdədir. "Yaşıl iqtisadiyyat" termini ilk olaraq 1989-cu ildə Böyük Britaniya hökuməti üçün hazırlanmış hesabatda ətraf mühit mütəxəssisləri tərəfindən istifadə edilmişdir. BMT-nin Ətraf Mühit Proqramı (UNEP) tərəfindən "yaşıl iqtisadiyyat" termini insanların rifahını və sosial ədalətini təmin edən və eyni zamanda ətraf mühitin risklərini kəskin şəkildə azaldan iqtisadiyyat kimi müəyyən edilir. Həmçinin Davamlı İnkişaf Konsepsiyası işlənilir ki, bu konsepsiya çərçivəsində aşağıdakı əsas problemin həlli məqsəd kimi irəli sürülür:

1) İqtisadiyyatın davamlı artımının ekoloji sistemə uyğun olması;

2) Resursların təkcə indiki nəsil üçün yox, həmçinin gələcək nəsillər, eləcə də digər bioloji canlılar arasında ədalətli bölgüsünün aparılması;

3) Təbii kapitalı adekvat olaraq nəzərə alan resursların zamanda effektiv bölgüsünün həyata keçirilməsi.

Cənubi Koreya və Çin Yaşıl artıma yönəlmiş iqtisadi stimul paketlərinin həcminə və səmərəliliyinə görə Asiya ölkələri arasında daha öndədir. Beləki, Çinin ÜDM-ində "yaşıl" sektorların inkişafı üçün təşviqat paketi cəmi 3% təşkil edir və bu məbləğ 2020-ci ilə kimi 1,8 milyon yeni iş yerlərinin yaradılmasına yönəldilir. 2020-ci ilədək Çin ÜDM-in 3 %-ni yüksək sürətli qatar, külək və günəş enerjisi, eləcə də səmərəli işıqlandırma sisteminin inkişafına sərf etməyi qərara planlaşdırıb. Müqayisə üçün qeyd edək ki, ABŞ ÜDM-in 0,7%-ni "yaşıl" təşviqat paketi üçün xərcləyir, AB-nin "yaşıl" təşviqat paketi üçün xərci isə ÜDM-in 0,2%-ni təşkil edir. AEM-in səmərəli inkişaf etməsi üçün dəstək proqramları olduqca vacibdir. Bu proqramlardan biridə Yaşıl

Tarif proqramıdır. Yaşıl Tarifin (Feed in Tariff) əsas xüsusiyyəti ondan ibarətdir ki, bu tarif alternativ elektrik enerjisi istehsalçılarının hər kilovat - saat enerjisinin təyin edilmiş (minimum) qiymətinə ödəniş zəmanəti verir. Bu tarifin əsas meyarları aşağıdakılardır: Zəmanətli və güzəştli enerji təchizatı şəbəkəsinə qoşulma və elektrik enerjisinin AEM-dən şəbəkəyə göndərilməsi; Yetərli olan minimum yaşıl tarif; Benefisiarlar üçün qanunla müəyyən edilmiş təhlükəsizliyin təmin edilməsi. Məsələn, müəyyən zaman ərzində tarifin ödənilməsi (investisiya xərcinin müddətlə ödənilməsi) üçün qanunla müəyyən edilmiş (minimum) qiymət ödəniş zəmanəti; Hər bir AEM texnalogiyalarına aid ayrıca yaşıl tariflər; Mümkün olan qiymət azaldılması. Yüksək effektivlik, investisiya təhlükəsizliyi Yaşıl tarifin effektiv şəkildə planlaşdırılmasının əsas üstünlükləridir. Yaşıl iqtisadiyyat yeni iqtisadiyyat anlayışı olaraq da ifadə edilə bilər və ya klassik iqtisadiyyatın təməllərinə insan və təbiət faktorlarının əsaslı bir şəkildə əlavə olunması kimi də təyin oluna bilər. Azərbaycan yaşıl iqtisadiyyatın inkişafı üçün güclü potensial imkanlara və tərəflərə malikdir. Lakin zəif tərəflər və təhlükələr yaşıl iqtisadiyyatın inkişafını məhdudlaşdırır. Hazırda yaşıl iqtisadiyyatın sistem yaradan paradiqması - insan kapitalının inkişafı Azərbaycanda dövlətin iqtisadi siyasətinin təməlini təşkil edir.

AEM-nin inkişafında mühüm Dövlət Proqramları və onun vəzifələri AEM-in səmərəli inkişafı üçün dəstək proqramları olduqca vacibdir. Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində özəl investisiya mənbələrini cəlb etməklə alternativ (bərpa olunan) enerji mənbələrinin imkanlarından maksimum istifadə edərək ölkənin elektrik enerjisi sisteminə əlavə güclər qoşula bilər. Azərbaycanda AEM-in inkişafı istiqamətində ən mühüm addımlardan biri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 21 oktyabr tarixli 462 №-li sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında alternativvə bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"dır. Dövlət Proqramına daxildir: enerji alınmasında alternativ enerji mənbələrinin ehtiyatını müəyyən etmək; bərpa olunan enerji mənbələrini istifadəyə yönəltməklə,ölkənin enerji potensialından istifadənin səmərəliliyini artırmaq; yeni mənbələrin yaradılması hesabına əlavə iş yerlərinin yaranmasını təmin etmək; Azərbaycan Respublikasında ənənəvi enerji potensialını nəzərə almaqla, alternativ enerji mənbələri hesabına enerji gücünün yüksəldilməsinə və ölkənin enerji təhlükəsizliyinə nail olmağı təmin etmək.

Dövlət proqramının mahiyyətini qəbul edərək, proqramdan irəli gələn məsələlərin məqsədyönlü həyata istifadəsini təmin etmək məqsədilə 2010-cu ildən etibarən Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyinin nəzdində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi fəaliyyətə başlamışdır. 2012- ci ilin 1 iyun tarixində Dövlət Agentliyi ləğv edilmiş, Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Şirkəti yaradılmışdır. Sonradan isə ölkə Prezidentinin 2013-cü il 1 fevral tarixli 810 nömrəli Fərmanı ilə Dövlət Şirkəti yenidən təşkil olunaraq "Azalternativenerji" Məhdud Məsuliyyətli Cəmiyyət adlandırılmış və yeni yaradılmış ABEMDA-nın tabeliyinə verilmişdir. Dövlət Agentliyi tərəfindən 2011-ci ildə Qobustan rayonunun ərazisində Qobustan Eksperimental Poliqonu və Tədris Mərkəzi istifadəyə verilmişdir. Poliqonda dünyada analoqu olmayan hibrid tipli (külək, günəş və biokütlə) elektrik və istilik stansiyası yaradılmışdır. Həmçinin, Tədris Mərkəzində "1ev-1 elektrostansiya" prinsipi əsasında işləyən 10 kotec tipli elektrik stansiyası və "ağıllı şəbəkə" sistemi qurulmuş və idarəetməyə verilmişdir. Stansiyanın əsas məqsədi gələcəkdə Qobustan rayonunu tam alternativ enerji mənbələri hesabına istehsal olunan enerji ilə təmin etməkdən ibarətdir. Burada yaradılmış İdarəetmə Mərkəzi regionlarda quraşdırılan elektrik stansiyalarının müasir texnologiyalar əsasında "ağıllı şəbəkə" sistemi ilə idarə olunmasına şərait yaradır.

Respublikanın yerləşdiyi ərazinin əlverişli coğrafi mövqe və iqlim şəraiti ekoloji cəhətdən təmiz alternativ enerji mənbələrindən geniş istifadə edilməsinə imkan verir. Əlverişli coğrafi mövqe həm istilik elektrik stansiyalarında yandırılan yanacağa qənaət etməkdə, həm də ətrafa atılan zərərli tullantıların miqdarını da xeyli azaltmaqda xüsusi rol oynayır. Alternativ enerji mənbələrinin elektrik və istilik enerjisi istehsalına cəlb edilməsi üçün ölkənin təbii potensialından istifadə etməklə elektroenergetikanın gələcək inkişaf istiqamətlərində mütərəqqi dəyişikliklər etməyə imkan yaradılacaqdır. Alternativ enerji mənbələrindən istifadə edilməsi ölkədə istilik elektrik stansiyalarında yandırılan yanacağa qənaət edilməsinə və ətraf mühitə atılan zərərli tullantıların miqdarı azaldılmasına imkan yaradacaqdır.

Elektroenergetikanın gələcək inkişaf istiqamətlərini müəyyənləşdirməyə əsas verən mərhələlərdən biri də ölkəmizdə mövcud olan təbii potensialından istifadə etməklə alternativ enerji mənbələrinin elektrik və istilik-enerjisi istehsalına cəlb edilməsidir. Bütün bunlar yerinə yetirildikdən sonra alternativ enerji mənbələrinin zəngin olduğu ölkəmizin enerji sisteminin gücü artacaq və gələcəkdə Azərbaycan elektrik enerjisini Avropaya ixrac edəcək.

QLOBAL ŞƏBƏKƏLƏRDƏ ETİBARLILIQ VƏ İNFORMASİYANIN QORUNMASI

Ağalarzadə Ş.İ.
Odlar Yurdu Universiteti
E-mail: sh.aghalarzade@outlook.com

Doğru təhsil prosesini müəyyən etməkdən əlavə, universitetlər, koleclər və məktəblərdə idarəetmə bacarıqları və tətbiqini yaratmaq da önəmli yer tutur. Qurumların ümumi keyfiyyətinə təsir edən müəyyən idarəetmə istiqamətləri vardır:

- Qurumsal liderlik. Bu, müəllimlərin keyfiyyətin vizionunu anlama səviyyəsini göstərir. Bu xüsusiyyət sadəcə rəhbərlər və ya rektor, dekan üçün deyil,eyni zamanda müəllimlərin siniflərində liderlik edə bilmələri üçün də gərəklidir. Qurumlarının keyfiyyətini inkişaf etdirmək üçün uzun müddətli hədəflər bəlirləyən, prosesləri dəyərləndirən və keyfiyyət hədəflərinə bağlı olan müəllimlər və idarəçilərlə əlaqəli xüsusiyyətdir. Hər müəllim və qurum başçısı təhsilin keyfiyyətindən məsul tutulmalıdır. Bu cür liderlik komanda işi, uzun müddətli keyfiyyət hədəfləri, ortaq cəhd, uyğun təhsil, doğru siyasət olmadan müəllim və rəhbərlik tərəfindən davam etdirilə bilməz.

- Keyfiyyətin administrasiyası. Administrasiyanın funksiyası iki səviyyədə önəmlidir. Qurumsal və sinif. Rəhbərlər və ya məmurlar qurumsal idarəetməni gerçəkləşdirir, müəllimlər isə sinifi idarə edir. Keyfiyyətin administrasiyası aşağıdakılardan ibarətdir: Dərslik, bina, masa və s.; Qurum binası, kitabxana, laboratoriya və s.; Müəllimlərin və tələbələrin intizam və etik qaydaları; Tədris proqramına uyğunluq; Standart iş prosedurası və qurum siyasətinin sənədləşdirilməsi.

- Keyfiyyətdən əminlik çərçivəsi. Bu, 3 təməl prinsip üzərində işləyir. Keyfiyyətin planlaşdırılması, keyfiyyəti və keyfiyyətə nəzarəti ölçmə və keyfiyyətiartırma cəhdləri. Təhsil qurumlarında başlıca fəaliyyətlər bunlardır: performans ölçümü üçün göstəricilər hazırlamaq; bu göstəriciləri toplamaq və analiz etmək; əsas səbəblərini düzəltmək üçün zaman ayırmaq; keyfiyyəti artırmaq; prosedurları inkişaf etdirmək və gözdən keçirmək; daxili keyfiyyət monitorinqi; akademik standartlar yaratmaq; sistemlərin sənədləşdirilməsi; insan resurslarının idarə olunması (müəllimlər və qurumsal personal); mükafatlandırma proqramları.

Fakültənin keyfiyyəti. İxtisaslı müəllim keyfiyyətli müəllim mənasına gəlmir. Yüksək ixtisaslılıq təhsilin dərəcələrini göstərir. Amma bu nadir hallarda mövzunu təsirli şəkildə öyrədə biləcəyini göstərir. Bir müəllimin yaxşı ola bilməsi üçün mövzunun yanında bir çox sahədə də bacarıqlarını inkişaf etdirməsinə ehtiyacvardır.İş dünyası baxımından önəmli müəssisələrin əsas sərvəti insan resurslarının keyfiyyətidir. Bu təhsil qurumları üçün daha doğrudur. Müəllimlərdən sadəcə bacarıqlar deyil, eyni zamanda sosial maraqlara bağlı keyfiyyətin zərurətlərinigöstərən iştirak və etik dəyərlər tələb olunur. Kadrların keyfiyyətində nəzərdə tutulur: Sosial vəziyyət; Genderlə bağlı bərabərsizliyi azaltma istəyi; Kadrları ləyaqət prinsipi əsasında idarə etmək; Cəmiyyətdə rolunu yerinə yetirmək üçün lazım olan təhsili təmin etmək; Cəmiyyətin dəyişməsi üçün tədqiqatçıların işlərinin təşviq olunması.İmtahan keyfiyyəti və qiymətləndirmə. Təhsilin və qurumun keyfiyyəti müəllimlərin, tədris proqramı, tədris materialları, metodologiya, avadanlıq və fiziki qurğuların keyfiyyəti ilə bağlıdır. Bu faktorların təhsilin keyfiyyəti üzərindəki gerçək təsirinin etibarlı araşdırma ilə müəyyənləşdirilə bilinəcəyi anlaşılmalıdır. Müəllimlərin və tələbələrin performans nəticələri sadəcə imtahan nəticələrinə əsaslanır.İmtahanın keyfiyyətinə təsir edən dörd əsas istiqamət vardır: Planlama: dərs planları, müstəqillik, dil, gizlilik və s.; Etibarlılı - imtahanların ehtiyac duyulanı ölçməsini təmin edir; Rəhbərlik – təsirli bir şəkildə həyata keçirilməsini təmin edir; Nəticələrin uyğun statistika texnikaları ilə analizi.

MÜXTƏLİF AMİLLƏRDƏN ASILI OLARAQ DAŞINMAZ ƏMLAKIN İCARƏ QİYMƏTİNİN PROQNOZLAŞDIRILMASI

Ağayev M.R.
Odlar Yurdu Universiteti
E-mail: mehemmedmemmedov130@gmail.com

Daşınmaz əmlak bazarına ölkə hüdudlarında daşınmaz əmlak obyektlərini formalaşdırmaq, onlarla alqı-satqı əməliyyatları aparmaq, onlara mülkiyyət hüququnu dəyişmək başqasının istismarına vermək və maliyyələşdirmək kimi proseslər həyata keçirilən üçün fəaliyyətlərin reallaşdırıldığı bazar mexanizmlərinin məkanı kimi baxmaq lazımdır.

Son illərdə daşınmaz əmlak bazarının fəaliyyətinin səmərəli tənzimlənməsi məqsədilə Azərbaycanda dövlət tərəfihdən çox sayda normativ-hüquqi aktlar qəbul edilmişdir. Bu nəticə etibarı ilə samballı hüquqi bazanın yaradılması ilə müvafiq strukturlara tənzimləmə sahəsində səmərəli fəaliyyət üçün geniş imkanlar açmışdır. Azərbaycan Respublikasının vergi qanunvericiliyinə əsasən əmlak vergisi bazası ölkəmizdə sürətlə artdığı bir dövrdə həm dövlətin, həm də vergi ödəyicilərinin mənafeyinin tam təmin edilməsi baxımından mülkiyyətində olan əmlakın dəqiq uçotunun aparılmalıdır. Aparılan tədqiqatlar belə bir nəticə çıxarmağa əsas verir ki, daşınmaz əmlak bazarı iki mexanizmlə idarə olunur: iqtisadi və hüquqi. Hüquqi idarəetmədə dövlət aşağıdakı funksiyaları həyata keçirməlidir: mükəmməl normativ-hüquqi bazarının yaradılması; mövcud normativ-hüquqi bazarının daimi əsasda genişləndirilməsi və təkmilləşdirilməsi; daşınmaz əmlak bazarı iştirakçılarının hüquq və vəzifələrinin müasir tələblərə uyğun genişləndirilməsi və s.

Azərbaycanda müasir daşınmaz əmlak bazarının tənzimlənməsi prosesinə münasibətdə dövlət tərəfindən aşağıdakı hüquqi təyinatlı tədbirlərin görülməsi zəruridir: daşınmaz əmlak obyektlərinin fəaliyyətini tənzimləyən qanunların, qərarların, qaydaların, təlimat və əsasnamələrin yaradılması; daşınmaz əmlak obyektləri üzərində aparılan sövdələşmələr zamanı normativ tələblərin pozulmasına görə məsuliyyət mexanizminin tətbiq olunması; bütün bazar subyektlərinin müəyyən edilmiş norma və qaydalara əməl edilməsi üzərində nəzarət; daşınmaz əmlak 89 obyektinə hüquqların və onunla bağlı sövdələşmələrin qeydiyyatı; daşınmaz əmlak sferasında sahibkarlıq fəaliyyətinin lisenziyalaşdırılması.

Əmlak bazarında gedən proseslərin mürəkkəbliyi bazar iştirakçılarından tələb edir ki, yerli şəraiti, perspektiv inkişafı və bazardakı prosesləri ardıcıl izləməklə düzgün qərarlar çıxarda bilsinlər. Eyni zamanda daşınmaz əmlak bazannda mümkün və diqqət tələb edən maliyyə risklərini aşağıdakı prosesi dövlətin diqqət mərkəzində olmalı və onun səmərəli tənzimlənməsi üçün təmilləçmiş müvafiq hüquqi mexanizm yaradılmalıdır. Daşınmaz əmlak bazarının səmərəli fəaliyyəti digər iqtisadi sahələrin inkişafı üçün stimul yaradır, tikintinin sürəti artır, tikinli materiallarına, mebelə vo s. əşyalara tələbat artır. Ona görə də çox vaxt daşınmaz əmlak sektorunun inkişafını iqtisadiyyatda ümumdaxili məhsulun həcm artımının dartıcı qüvvəsi-lokomotivi adlandırırlar. Daşınmaz əmlaka qoyulan investisiyanın gəlir dərəcəsinin düzgün müəyyənləşməməsi bu sahədə problemlər yaradır. 2000-2013-cü illərdə ölkədə gedən unkişaf proseslərini daha da dinamik etmək üçün daşınmaz əmlak bazarındakı yüksək rentabellik dərəcəsinin tənzimlənməsi yolu ilə sənayenin və kənd təsərrüfatı məhsullarını emalı sektorunda investisiya qoyuluşunun artırılmasına istiqamətləndirmək lazımdır. Hazırda Azərbaycanda qiymətləndirmə vahid standart olmaması səbəbindən əmlakın qiymətləndirməsi zamanı müxtəlif normativ-hüquqi aktlardan və xarici ölkələrin standartlarından istifadə edilir. Bu isə qiymətləndirmə müqavilələrini və hesabatlarını tərtib edərkən obyektiv və subyektiv səbəblərdən nöqsanlara yol verilməsinə gətirir. Bu halı aradan qaldırmaq üçün müvafiq dövlət orqanlarının nəzarəti və fəaliyyəti daha da gücləndirilməlidir.

NAĞDSIZ HESABLAŞMALARIN TƏŞKİLİNİN ƏSAS PRİNSİPLƏRİ VƏ FORMALARI

Allahverdiyeva A.İ.
Azərbaycan Memarlıq və İnşaat Universiteti
E-mail: Aytac_allahverdiyeva@internet.ru

Pul dövriyyəsi həm nağd, həm də nağdsız formada valyutanın davamlı mübadiləsidir. Aşağıdakı marşrutların məcmusu pul dövriyyəsini təşkil edir: banklarla əhali arasında; müəssisələr (təşkilatlar) və əhali arasında; müəssisələr (təşkilatlar), banklar və mərkəzi bank arasında; vətəndaşlar və fiziki şəxslər arasında; banklar və müəssisələr arasında.Nağd hesablaşmalar, hamımızın bildiyimiz kimi, faktiki hesablarla ödənişləri nəzərdə tutur. Nağdsız hesablaşmalar, faktiki pul mübadiləsi aparılmadan insanlar və ya müəssisələr arasında əldə edilən razılaşmalar üçün daha ümumi bir termindir. Əvəzində pul bank vasitəsilə ödəyicinin hesablaşma (cari) hesabından alıcının hesabına köçürülür. Hər kəs, o cümlədən müəssisələr, fiziki və hüquqi şəxslər bu ödəniş üsulundan istifadə edə bilər. Nağdsız ödəniş forması ödənişlərin sürəti və icrası baxımından ən əlverişli hesablaşma variantlarından biridir. Nağdsız ödənişlər zamanı vəsaitlər elektron qaydada kreditləşdirilir və debet edilir. İş gününün sonunda hesab sahibinə günün əvvəlində və sonunda balansı, habelə bütün daxil olan və çıxan əməliyyatları əks etdirən hesabdan çıxarış təqdim olunur ki, bu da hesab sahibinə əməliyyatların hərəkətini izləməyə imkan verir. Nağdsız ödənişlərin bir çox növləri var, o cümlədən: ödəniş tapşırıqlarından istifadə etməklə hesablaşmalar; akkreditivlər vasitəsilə hesablaşmalar; inkasso sərəncamları və ya inkasso

vasitəsilə hesablaşmalar; çek kitabçaları vasitəsilə ödənişlər; plastik kartlardan istifadə etməklə ödənişlər; elektron pul köçürmələri şəklində hesablaşmalar.

Ödəniş tapşırıqlarından istifadə etməklə hesablaşmalar zamanı ödəniş sənədində göstərilən məbləğin ödəyicinin hesabına köçürülməsi barədə banka göstəriş verən sənəd - ödəniş tapşırığı tərtib edilir. Köçürmə üçün ödəniş forması kimi ödəniş tapşırığına uyğun olaraq, göndərən bank vəsaiti qəbul edən bank hesabına sərəncamda göstərilən şəxsə köçürür. Köçürmə prosesini həyata keçirən bank iştirakçı, tərəflər isə ödəyici və alıcıdır.Ödəyici köçürməni operativ şəkildə və sifarişdə göstərilən alıcıya həyata keçirir. Ödəniş tapşırığı da kağızın imzalandığı gün daxil olmaqla, on gün ərzində həyata keçirilir.Akkreditiv bankın vasitəçiliyini tələb edən əməliyyatları həyata keçirmək üçün istifadə olunan xüsusi hesabdır. Akkreditiv, alıcının bankı tərəfindən tədarükçünün bankına akkreditiv ərizəsində göstərilən şərtlərlə çatdırılmış mallara və ya göstərilən xidmətlərə görə tədarükçünün hesablarını ödəmək üçün verilən icazədir.

Ödəyici köçürməni vaxtında və sərəncamda göstərilən fiziki şəxsə çatdırır. Həmçinin, ödəniş tapşırığı sənədin tarixi nəzərə alınmadan on gün müddətində etibarlıdır. Akkreditiv bankın xidmətlərindən istifadə tələb edən əməliyyatları həyata keçirmək üçün istifadə edilən xüsusi hesabdır. Akkreditiv alıcının bankının tədarükçünün bankına akkreditiv ərizəsində göstərilən şərtlərlə çatdırılan mallara və ya göstərilən xidmətlərə görə tədarükçünün hesablarının ödənilməsi tələbidir.Hesablaşmalar akkreditivdən istifadə edilərkən, pulu alan tərəfindən ödəniş edən banka məhsulların çatdırılması, sənədlərin təqdim edilməsi və s. kimi müəyyən şərtlər yerinə yetirildikdə şərtlər onun alıcısına pul köçürməsini tələb edir. Belə ki, alıcı öz bankında akkreditiv açır və alqı-satqısının dəyərini ora köçürür, sonra isə təchizatçı bu vəsaiti malın çatdırılması və ona müşayiət olunan sənədlərin məktubun olduğu banka təhvil verilməsi şərti ilə ala bilər. Burada ilk növbədə kredit açılır, yalnız bundan sonra bank pul köçürür. Həmçinin, hərəkətlərin ardıcıllığını nəzərə alsaq, aydın olur ki, akkreditiv ödəniş formasının əsas üstünlüyü və rahatlığı əməliyyatın təhlükəsizliyidir.

İnkasso tapşırığı və ya borcun inkassasiyası ilə emal növü yalnız o halda mümkündür ki, kollektor (alıcı) borclunun (ödəyicinin) hesabına tələb irəli sürmək hüququna malik olsun. Bu hüquqlar qanunla və ya hesab sahibi (borclu) ilə bank arasında müqavilə ilə müəyyən edilə bilər. Odur ki, pulu alan şəxs tələb olunan məbləği bərpa etmək üçün ödəyicinin hesabının bankına borclu və onların öhdəlikləri haqqında lazımi məlumatları təqdim etməlidir.Digər nağdsız ödəniş üsulu olan çeklər hüquqi şəxslərdən (sahibkarlardan) və ya fərdi sahibkarlardan çeklə ödəniş alan çek sahibləri tərəfindən hesablanır. Bu zaman çek sahibinin hesabı debet edilir və ya nağd pul çek sahibinin hesabına köçürülür. Çeklərin rəsmiləşdirilməsi yalnız çeki verənin hesabında kifayət qədər vəsait olması və çeki verənin şəxsiyyətinin yoxlanılması və sonra çekin özünün həqiqiliyinin yoxlanılması şərti ilə həyata keçirilir.Plastik kart ödənişlərinə gəlincə, plastik kart onun sahibinə nağdsız ödənişlər etmək və nağd pul almaq imkanı verən ödəniş alətidir. Plastik kartlarla ödənişlər bankların və plastik kartlarla birgə emissiya və əməliyyat aparan digər iştirakçıların cəlb olunduğu müəyyən sistemin mövcudluğunu tələb edir. Plastik kartlarla nağdsız ödənişlər bankların ödəniş sistemlərinin sahibləri ilə bağladıqları müqavilələrə və onların müəyyən etdiyi standartlara və qaydalara uyğun olaraq həyata keçirilir.

Elektron pul mübadiləsi çərçivəsində hesablaşma strategiyasında vətəndaşlar (xarakterik şəxslər) mübadilə etmək üçün şəxsi bank hesablarından kastodianlara vəsait köçürürlər.

Nağdsız hesablaşma sistemi aşağıdakı meyarlara əsaslanır:

1- Qanunilik siyasəti: Bütün nağdsız mübadilələr qanunun tələblərinə uyğun olaraq, belə demək mümkünsə, hüquq sistemi çərçivəsində həyata keçirilir.

2- Ehtiyat bolluğu siyasəti: Bütün hesablaşma əməliyyatları məzənnənin formalaşması üçün adekvat ehtiyatlarla təmin edilməlidir.

3- Tanınma siyasəti: Bu qayda bildirir ki, hesab sahibinin razılığı və ya əvvəlcədən xəbəri olmadan əməliyyatlar hesabdan silinə bilməz.

4- Müqavilə əsasında bütün əməliyyatların aparılması siyasəti: Direktivdə göstərilir ki, xidmət göstərən banklar, belə demək mümkünsə, hesab sahibi ilə bank və hesab sahibi arasında bağlanmış müqavilələr sistemi çərçivəsində fəaliyyət göstərməyə borcludurlar.

5- Taksit siyasəti: Bu o deməkdir ki, bank hesablarından ödənişlər ödəyicinin müəyyən etdiyi müddətdə həyata keçirilməlidir.

6- Seçim İmkanı siyasəti: Bu siyasətin mahiyyəti ondan ibarətdir ki, ödəniş üzvləri istənilən nağdsız ödəniş növünü seçməkdə sərbəstdirlər və banklar bu seçimə təsir edə bilməzlər.

KƏND TƏSƏRRÜFATINDA BEYNƏLXALQ MALİYYƏ HESABATI STANDARTLARININ TƏTBİQİ: ÇATIŞMAZLIQLAR VƏ HƏLL YOLLARI

Aslanzadə G.X.
Azərbaycan Dövlət Aqrar Universiteti
E-mail: gulchin.aslanzadeh@gmail.com

Hazırda müasirliyin fəsadlarından biri kimi əhalinin ərzaq təhlükəsizliyinin etibarlı təminatı məsələsi getdikcə aktuallaşır.Bu məsələnin ən mühüm cəhəti ondan ibarətdir ki, ərzaq təhlükəsizliyi birbaşa olaraq kənd təsərrüfatının inkişaf səviyyəsindən asılıdır. kənd təsərrüfatında elmi və texnoloji yeniliklərdən istifadə yüksək məhsuldarlıq deməkdir ki, bu da öz növbəsində əhalini fasiləsiz yüksək keyfiyyətli ərzaq məhsulları ilə təmin edir.

Buradan çıxış edərək görmək olar ki, Azərbaycanda müasir innovasiyaların düzgün tətbiqi başqa məsələlərdə də modernləşmə və onun bütün zəruri cəhətlərinin iqtisadiyyata daxil olması demək deyil. Beləliklə, görünür ki, güclü iqtisadi inkişaf mühasibat uçotunun inkişafını tələb edir. iqtisadiyyatın güzgüsü sayılan, həm kəmiyyət, həm də keyfiyyət dəyişiklikləri tələb edir. “ Mühasibat uçotu haqqında ” 2 sentyabr 2004-cü il tarixli Qanunu, “ Mühasibat uçotu haqqında ” Qanunun tətbiq edilməsi haqqında ” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 192 nömrəli Fərmanı Azərbaycan Respublikasında mühasibat işinin müasirləşdirilməsi istiqamətində dəyərli addımlar kimi qiymətləndirilməlidir. Xüsusilə, əksər beynəlxalq maliyyə hesabatı standartlarının əsas tətbiqi beynəlxalq maliyyə (mühasibat) mühitinə keçidi asanlaşdırmaq üçün düşünülmüş addım kimi dəyərləndirilir. Sürətlə inkişaf edən ölkələrdə istənilən mühasibat uçotu sistemi daimi çətinliklərlə üzləşir desək, yanılmarıq. Beləliklə, digər prinsiplərə əsaslanan mühasibat uçotu sistemindən müasir prinsiplərə və güclü maliyyə (mühasibat) ənənəsinə malik dünyəvi uçot sisteminə keçid, təbii ki az problemlı həyata keçirilməlidir. Bu kimi ziddiyyətlər Azərbaycanda “ Mühasibat uçotu haqqında ” Qanunun qüvvəyə minməsi, milli mühasibat uçotu standartlarının keçid dövrünün tətbiqi və beynəlxalq qanun və prinsiplərin üstünlüyü ilə xeyli dərəcədə yumşaldılmış, lakin onlar hələ də tam həllini tapmamışdır.

Kənd təsərrüfatı sektorunun təbii amillərdən, xüsusən də işçi qüvvəsinin, alətlərinin və əmək orqanlarının spesifikasiyasından asılılığı onu bu sektorda hesabatların düzgünlüyünə iqtisadiyyatın digər sahələrinə nisbətən daha həssas edir. Hesabat məsələləri, mühasibat uçotu qaydaları və bu qaydalardan irəli gələn digər məsələlər mütəmadi olaraq yoxlanılmalı və bu sistemin üstünlükləri tam nəzərə alınaraq Beynəlxalq Mühasibat Uçotu Standartları ilə kənd təsərrüfatı sahəsinə tətbiq edilməlidir. Artıq qeyd edildiyi kimi, bu keçid prosesində dövlətin mühasibat uçotu sahəsində dəqiq və əhatəli konsepsiyası olmalıdır. Əks halda, adekvat nəzərdən keçirilməyən və mövcud maliyyə (mühasibat) mühitini nəzərə almayan beynəlxalq mühasibat uçotu standartlarına keçid problemi yoxdur. Hesab edirik ki, keçmiş sovet respublikalarından olan ölkəmiz üçün milli mühasibat uçotu standartlarından beynəlxalq mühasibat uçotu standartlarına keçid bizim mühasibat uçotu konsepsiyamızda ən uğurlu addımlardan biri olmuşdur.Ümumiyyətlə, konsepsiya konkret bir sahəyə nəzəri diqqətin yönəldilməsi kimi başa düşülür. Predmeti və onların müəyyən şəkildə hadisə və ya prosesin inkişafına istiqamətləndirici kimi sistemli şəkildə bölüşdürülməsi. Hazırda müasir mühasibat uçotu konsepsiyası əsas mühasibat uçotunun nəzəri işlənməsi və həyata keçirilməsini özündə ehtiva edir. Görkəmli maliyyə ekspertlərinin fikrincə, Azərbaycanın mühasibat uçotu konsepsiyası mühasibat uçotu və hesabat elminin beynəlxalq prinsiplərinin ən son nailiyyətlərinə uyğun olaraq, bazar iqtisadiyyatına yönəlmiş digər ölkələrin təcrübəsindən istifadə edilməklə işlənib hazırlanmışdır. Təəssüf ki, nəzəri məsələlərin həllində əsas hesab edilən milli mühasibat uçotu konsepsiyasının müddəaları hələ də praktikada tam tətbiq olunmur. Bunun bir neçə səbəbi var:

- Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq müvafiq orqanların hesabat sistemləri-nin tam aktual cavablarla uyğunsuzluğu.
- Vergi qanunvericiliyinə uyğun olaraq aktivlərə, öhdəliklərə, kapitala, xərclərə və gəlirlərə fərqli yanaşma.
- Beynəlxalq mühasibat standartlarına riayət etmək üçün bu sahələrdə kifayət qədər təcrübənin olmaması.
- Müasir mühasibat təfəkkürünün və mühitinin hərtərəfli inkişafı məsələsində biz bilirik ki, bu problemin həllində ali və orta ixtisas təhsili müəssisələrinin rolu nə qədər böyük olsa da, azsaylı müəllimlər cəlb olunmadan müasir mühasibat elminə uyğun tədris mövcud problemləri tam həll etmək mümkün deyil.

- Mövcud maliyyə (mühasibat uçotu) mühitimiz üçün mövcud dərsliklərə Beynəlxalq Maliyyə Hesabatları Standartları üzrə əlavə materiallar əlavə edilir. Mövcud ədəbiyyat ya səlis (dəqiq) tərcümə olunmur, subyektiv fikirlərlə müşayiət olunur, ya da bəzi kənd təsərrüfatı sahələrində çox zəif və ya çox mürəkkəb dildə yazılır.

- Mühasibat uçotu standartlarına uyğun vahid, standartlaşdırılmış hesabat formatına ehtiyac var ki, informasiyanın təqdim edilməsi və ya alınması zamanı hər bir təşkilatın müxtəlif dövlət qurumları tərəfindən fərqli rəftar etməməsi təmin edilsin.Lakin son zamanlar Beynəlxalq Maliyyə Hesabatları Standartları adiyyatı Dövlət vebsaytlarda işıqlandırılan məsələlər, təlim və məlumat xarakterli fəaliyyət, göndərilən suallara uyğun cavabların veriməsi tərəfimizdən müsbət qarşılanır. Hazırda kənd təsərrüfatı uçotu standartlarının tətbiqində vəziyyət tam ürəkaçan olmasa da, mövcud standartların tətbiqində bəzi problemlərdən qoruyur. Bununla belə, kənd təsərrüfatında, 41 saylı Beynəlxalq Maliyyə Hesabatları Standartı kənd təsərrüfatı uçotunun bütün sahəsini əhatə edən standart kimi tanınır. Baxmayaraq ki, bu standart kənd təsərrüfatına aiddir. bioloji aktivlər; məhsul yığımı zamanı kənd təsərrüfatı məhsulları; onun bioloji aktivlərə dövlət subsidiyalarına tətbiqi qeyd edilmişdir.

Yüksək halda belə nəticəyə gəlmək olar ki, bütün imkanlar satışa ən yaxşı hazır hesab edilən kənd təsərrüfatı məhsullarının düzgün dəyərindən satışa hazır olan, məhsul yığımı zamanı təxmin edilən kənd təsərrüfatı məhsullarının ilkin dəyərini çıxmaqla hesablanır. Qeyd edək ki, kənd təsərrüfatının uçotu sistemi Beynəlxalq Maliyyə Hesabatları Standartlarının qanunvericiliyinə tabedir və fiziki şəxslər uçot siyasətlərində yuxarıda göstərilən məsələləri göstərib həyata keçirməlidirlər. Bunlar kənd təsərrüfatının mühasibat uçotu ilə bağlı məsələlərin bir neçəsidir. Maliyyə hesabatlarının Beynəlxalq Standartlarının kənd təsərrüfatında tətbiqi və onların milli hesablara təsiri ilə bağlı çox güman ki, daha çox araşdırmalara ehtiyac vardır və hesab edirik ki, hələ gələcəkdə müasir standartlara tam uyğunlaşma ilə əlaqədar daha elmi yükü olan araşdırmalar aparılacaqdır.

AZƏRBAYCANDA TURİZM SEKTORUNUN İNKIŞAF ETDİRİLMƏSİNDƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONUNUN ROLU

Aşurzadə E.R.
OdlarYurdu Universiteti
E-mail: quluzadanurlan13@gmail.com

İctimai həyatın və iqtisadiyyatın mühüm sahələri olan turizm və mehmanxana biznesi bir vəhdət şəklində yaranıb inkişaf etmiş və fəaliyyətini davam etdirməkdədir. Turizm və mehmanxana xidmətinin qarşılıqlı fəaliyyəti bu sahələrin təşkilat formalarının inkişaf tarixi ilə sıx bağlıdır. Xidmət sektoru mövcud beynəlxalq ticarət imkanlarına görə ölkə iqtisadiyyatına müsbət təsirə malikdir. Bu baxımdan da istənilən ölkə daxilində bu sahənin inkişaf etdirilməsi üçün ilk növbədə beynəlxalq ticarətin həyata keçirilə bilməsinin qarşısında duran məhdudiyyətlər aradan qaldırılmalıdır. Hazırda dünyanın müxtəlif hissələrində yaradılmış turizm bölgələri öz növbəsində mehmanxanaların saylarındakı ciddi artıma səbəb olmuş və mehmanxana təsərrüfatında ciddi bir rəqabət mühitinin formalaşmasına gətirib çıxarmışdır. Bu bazarda nəaliyyət qazanmaq istəyən mehmanxanaların işi daha da çətinləşmişdir.Hazırda Azərbaycan mehmanxana biznesində yeni, yüksək dərəcəli mehmanxanaların sayı getdikcə artır. Bu mehmanxanaların əksəriyyətinin həmtəsisçisi xarici şirkətlərdir. Bu şirkətlər qonaqlara xidmətlərin standart texnologiyasını təqdim edirlər. Onlar digər mehmanxanaların rəqibinə çevrilirlər. Nüfuzlu qonaqlar adi mehmanxanalardan fərqli olaraq yeni, Avropa standartlarına uyğun xidmət göstərən otellərə üstünlük verirlər. Yalnız qonaqlara daha yüksək və keyfiyyətli xidmət göstərən otellər rəqabətə davam gətirə bilirlər. Mehmanxanaların rəqabətə davam gətirmələri üçün isə keyfiyyət, komfort , müasir standartlara cavab verən xidmətlə yanaşı qüsursuz və effektiv şəkildə təşkil olunmuş mühasibatlıq sisteminə malik olması zəruridir.

Ümumiyyətlə, mehmanxana fəaliyyəti göstərən müəssisələrdə bütün fəaliyyətin təsirli şəkildə aparılması nizamlı şəkildə işləyən mühasibatlıq sistemi ilə birbaşa əlaqədardır. Eyni zamanda bu sistem mehmanxana idarəçilərinin bütün ehtiyaclarını qarşılayacaq və təyin olunan məqsədlərə xidmət edə biləcək bir xüsusiyyətə malik olmalıdır.Üstəlik nəzərə alsaq ki, digər müəssisələrdən fərqli olaraq mehmanxanalarda sürətli xidmət, bir çox gəlir mərkəzlərinin mövcudluğu, maddi əməliyyatların çoxluğu və dəyəri yüksək olan xidmətin həyata keçirilməsi və s. nəticəsində xəta və fırıldaqçılığa rast gəlmək halları daha çoxdur. Məhz buna səbəbdəndir ki, Respublikamızda da bu kimi halların qarşısının alınması üçün mehmanxana rəhbərliyi bu kimi

hallara qarşı tədbirlər görməlidir. Ən yaxşı tədbir isə əlbəttə ki, mənim fikrimcə qeyd olunan problemlərə qarşı hər bir ehtiyaca cavab verən mühasibatlıq sistemi və daxili nəzarət sisteminin təşkilidir.

Turizmin sosial-iqtisadi mahiyyəti, onun ölkə iqtisadi potensialının formalaşması və dinamikasında rolu, xüsusi resursları və digər iqtisadi və əhali potensialı ilə izah olunur, iqtisadi ədəbiyyatlarda turizmə fəaliyyət novu, iqtisadi sahə, sahələrarası kompleks və ya bazar, ərazi potensialı və həmçinin sosial-iqtisadi inkişaf amili kimi baxılma istiqamətləri mövcuddur. Hər bir ölkənin iqtisadi və sosial potensialı onun sahə və ərazi strukturunu formalaşdırır. Səmərəlilik baxımından turizm, müasir beynəlxalq inkişaf strategiyasında ən mühüm sahə olmaq imkanlarına malikdir. Turizmin başqa sahə və fəaliyyət növündən fərqi odur ki, bu sahədə ancaq ölkənin xüsusi resursları deyil, həmçinin xarici ölkələrin maliyyə, maddi və insan resurslarını cəlb etməklə multipikativ səmərəlilik əldə etmək imkanları mövcuddur. Ona görə də bütün dünya ölkələri hələ çox-çox əvvəllər onun inkişafında maraqlı olmuşlar. Təsadüfi deyil ki, artıq dünya iqtisadiyyatında turizm sənayesi neft istehsalı və avtomobil istehsalı sənayesi ilə yanaşı ən yüksək gəlir gətirən sahəyə çevrilməyə başlamışdır. Bu baxımdan respublikamızın zəngin turizm resurslarına malik olması, ölkədə milli turizm bazarının formalaşması və dünya turizm bazarında özünəməxsus yer tutması üçün geniş imkanlar yaradır. Mövcud turizm resurslarının aşkara çıxarılması, qiymətləndirilməsi və onlardan səmərəli istifadə olunması Azərbaycanda turizmin inkişafının strateji məqsədi olmalıdır.

Turizm - fransız sözü olub, tərcümədə səyahət, gəzinti mənasım verir. Bu istirahətin fəal bir növü kimi özündə - ətraf mühiti, bu və ya digər regionun təbiətini, xalqlarını, onların yaşayışını, milli xüsusiyyətlərini öyrənmək məqsədilə səyahəti; idman və bizneslə əlaqədar olaraq səfərləri əks etdirir.Turizmə bazar iqtisadiyyatı şəraitində menecment obyekti, sahibkarlıq predmeti, həmçinin ərazi və əhalinin iqtisadi və sosial tələbatının ödənilməsi sferası kimi baxılması gündəmdədir.Turizmə bazar münasibətləri şəraitində tədqiqat obyekti olaraq «xalis sahə» kimi yox, təsərrüfat fəaliyyəti kimi kompleks sosial-iqtisadi, ərazi idarəetmə obyekti kimi baxmaq, fıkrimizcə daha məqsədəuyğundur.

Turizm bazarını ölçmək, onun fəaliyyəti üçün İqtisadi dövriyyə cəlb olunan investisiya xərcləri, məşğulluq səviyyəsi və həmçinin regionun təbii-coğrafi və əmək resurslarının iqtisadi dövriyyə cəlb edilməsi dərəcəsi və intensivliyi ilə ölçülür. Turizm bazarı sahə və ərazi bazar sistemində münasibətlər sisteminin tərkib hissəsi olmaqla iqtisadi artım və əhali istehlakının formalaşması amili kimi çıxış edir.

Turizm bazarının qiymətləndirilməsi turizm məhsulunu, turizm sahəsinin prioritetliyi və onun sosial-iqtisadi mənası ilə qiymətləndirilir.Turizmin qiymətləndirilinəsi uyğun olaraq göstəricilər sistemi və ayrı-ayrı sahələrin turizmlə bağlı inkişaf meyilləri ilə ölçülür. Turizmin qiymətləndirilməsi metodikası sistem təhlil, proqnoz və prinsiplər əsasında baş verir. Ona görə də turizmin inkişafına sistem olaraq baxırıq və bu sistem dinamik inkişaf edən sahələr və ərazinin resursları ilə ölçülür. Turizm resursları bu sahəyə hər hansı marketinq və strateji planlaşma üçün zəruri olan resursların bölgüsü və yenidən bölgüsü sxemi kimi baxmaq olar. Turizmin bazan regionda ərazi kompleksinin inkişafı, ixracat yönlü məhsul və xidmət istehsalı həmçinin inteqrasiya elementi kimi qəbul olunur. Turizm bazarının əsas elementlərinə tələbat, seqmentləşmə və istehlak sferası daxildir.

BAZAR MÜNASİBƏTLƏRİNİN İNKİŞAFINDA LOGİSTİKA ƏMƏLİYYATLARININ TƏSİR İMKANLARININ DƏYƏRLƏNDİRİLMƏSİ

Atayev O.T.
OdlarYurdu Universiteti
E-mail: oqtay.atayev@gmail.com

Kommersiya təşkilaları müxtəlif təyinatlı ola bilər və bu onların fəaliyyət sahələrilə müəyyən edilir. Kommersiya təşkilalarının əsas məqsədi məhsul istehsalı və satışını həyata keçirməklə minimum xərclərlə maksimum mənfəət əldə etməkdir. Kommersiya təşkilalarının müəssisələrinin fəaliyyətinin zəmini onun material, maddi – texniki, maliyyə, kadr və informasiya resurslarıdır. Kommersiya təşkilalarının fəaliyyəti, hər hansı bir digər sahibkarlıq fəaliyyəti kimi xeyli dərəcədə dövlət tərəfindən tənzimlənir. Dövlət hər şeydən əvvəl istehsal – kommersiya müəssisələrinin yaradılması və fəaliyyətinin bütün aspektlərini əhatə edən normativ – hüquqi bazanı foralaşdırır. Aydındır ki, bu məsələlər ilk növbədə Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları, Nazirlər Kabinentinin qərarı və sərəncamları ilə tənzimlənir. Bundan savayı, dövlət xüsusi olaraq əlahiddə fəaliyyət növlərinə (məsələn, spirtli içkilər, siqaret və s.) qadağa qoymaqla, istehsal - kommersiya fəaliyyətinin müxtəlif növlərinə lisenziya (xaricə mal aparmaq və xaricdən ölkəyə mal

gətirmək üçün icazə) verməklə, vergi imtiyazları və ya əksinə, yüksək vergiləri tətbiq etməklə insafsız rəqabətin və ya inhisarçı fəaliyyətin qarşısını almaqla, istehsal - kommersiya təşkilatlarının təsərrüfat fəaliyyətini nizamlaya bilər. Nəzərə almaq lazımdır ki, praktiki olaraq bütün ölkələrdə dövlət qiymət siyasətini tənzimləyir və ya bilavasitə bəzi mal və xidmətlərin qiymətlərini müəyyən edir və onlara nəzarəti həyata keçirir. Bu məqsədlə bir çox ölkələrdə xüsusi qanun, fərman və qərarlar hazırlanır və həyata keçirilir. Dünya təcrübəsinə əsaslanaraq, ən önəmli rol oynanyan bütün iqtisadi sistemdə düzgün fəaliyyətin təminidir. Buna görə baxımdan dövlətin iqtisadi müdaxilələri, dövlət ilə iqtisadiyyatdakı qarşılıqlı münasibətlərin uyğun nisbətdə və hüdudların müəyyənləşdirilməsi və hazırki vəiyyətdə dövlətin tənzimlənməsində iqtisadiyyatın təkmilləşdirilməsində əsas problemdir. Hər bir iqtisadiyyatın sistemlərində dövlətin iqtisadiyyata müdaxiləsi edir və bunun bazarı çatışmazlıqların yox etməyə istiqamətlənir.

Logistik qərarların qəbul edilməsi metodologiyasının inkişaf etdirilməsi üçün bazis rolunu oynayan ümumi məsrəflər konsepsiyasının (bəzi ədəbiyyatlarda bu məhsulların fiziki bölüşdürülməsinə çəkilən ümumi məsrəflərin azaldılması konsepsiyası adlanır) təşəkkül tapması iqtisadiyyatın logist-ləşdirilməsini şərtləndirən amillərdən hesab olunur. Nəqletmə və ehtiyatların idarə edilməsi kimi iki mühüm logistik funksiyalar arasında qarşılıqlı münasibətlərin tənzimlənməsinə xidmət göstərən bu konsepsiyaı mahiyyət ehtibarı ilə məhsulların istehsalçılardan istehlakçılara hərəkəti zamanı çəkilən bütün məsrəflərin ümumi səviyyəsinin azaldılması məqsədilə onların bölüşdürmə şəbəkələrində mütləq qruplaşdırılmasını nəzərdə tutur. Məsələn, avtomobil nəqliyyatı ilə məhsul daşımaların gözləmələrə yol vermədən hava nəqliyyatı ilə davam etdirilməsi digər logistik əməliyyatların, xüsusilə də «əlaltı» anbarların yaradılması zəruriyyətini aradan qaldırır. Başqa sözlə, xammal, material və hazır məhsulların anbarlaşdırılması, saxlanılması və ehtiyatların idarə edilməsi üçün heç bir canlı və maddiləşmiş əmək məsrəfinə ehtiyac olmur. Lakin məhsulların xüsusi nəqlinə-daşınmasına çəkilən ümumi məsrəflərin (göstərilən nümunədə avtomobil nəqliyyatı+hava nəqliyyatı) həcmi artsa da bölüşdürmə şəbəkələrində məsrəflərin ümumi səviyyəsi azalır. Daha doğrusu, bölüşdürmə şəbəkələrində çəkilən ümumi məsrəflərin səviyyəsinin azalma tempi daşımalara çəkilən məsrəflərin artma tempini üstələyir. Aydındır ki, iqtisadiyyatda logistk metodologiyadan istifadə edilməsinə şərait yaradan obyektiv amillərdən biridə rabitə vasitələri və informatika sahəsində texniki tərəqqi hesab edilir. Bu, hər şeydən əvvəl logistik təfəkkürün inkişafına təsir göstərən və logistik metodların tətbiqinə əlverişli şərait yaradan kompyüter və kommunikasiya texnologiyalarının biznes sferasında geniş tətbiqi ilə əlaqələndirilir. Menecerlər biznes sahəsində məsrəflərin azaldılması və optimal idarəetmə qərarlarının qəbul edilməsi vasitəsi kimi informasiya-kompyüter texnologiyalarının tətbiqinə daha çox maraq göstərirlər. Kompyüter texnologiyası ilə logistik prinsiplərin sintezinin nəticəsi olaraq istehsaldaxili mikrologistik sistemlərin (materiallara tələbatın hesablanması) işlənib hazırlanması buna əyani nümunədir.

Bazar iqtisadiyyatı yolu ilə inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, İKT-dən istifadə çoxalternativli və optimallaşdırma məsələlərinin həll edilməsinə əlverişli şərait yaradır, eləcə də ən yüksək səviyyədə bütün əsas və köməkçi hesab edilən məhsulyeridilişi proseslərinə nəzarət işinin aparılmasını asanlaşdırır. Bu sistem xammal və yarımfabrikatların mövcudluğuna, hazır məhsul buraxılışına,ehtiyatların cari səviyyəsinə, göndərilən dəstləşdirici məmulatların həcminə, sifarişlərin yerinə yetirilməsi dərəcəsinə, istehsalçı-istehlakçı dövriyyəsində yüklərin yerləşdirilməsinə avtomatik nəzarət etməyə imkan verir. Material axınlarının hərəkətinə müasir informasiya texnologiyalarını tətbiq etməklə nəzarət edilməsi «kağızsız» texnologiyadan istifadə olunmasına şərait yaradır. Nəqletmə zamanı yüklər müşahidə edən çox saylı sənədlərlə yanaşı rabitə kanalları vasitəsi ilə sinxron olaraq daşınan yükləri xarakterizə edən zəruri rekvizitlər haqqında informasiyalarda ötürülür. Belə bir sistemdən istifadə etməklə istənilən vaxt yüklərin hərəkət traektoriyası üzrə lazımı informasiyaları əldə edilməsi və operativ idarəetmə qərarlarının qəbulu mümükün olur. «Kompüter» logistikasının köməkliyi ilə bütün xidmət zənciri üzrə firmanın fəaliyyətinin təhlilini aparmaq və rəqiblərlə müqayisədə onun mövcud vəziyyətini qiymətləndirmək imkanı əldə edilir. Aydındır ki, bu tip informasiya sistemləri bazarı tutumu və onun bu və ya digər məhsullarla təminat dərəcəsini haqqında məlumatlara malik olur. Digər tərəfdən alqı-satqı sövdələşmələri ilə bağlı hesablaşma əməliyyatlarının rəsmiləşdirilməsi həyata keçirilir. Bu tip əməliyyatların tezliyi və dəqiqliyi firmanın cari vəsaitlərin hərəkətini əks etdirən balans hissəsinə və nəticə ehtibarı ilə dövriyyə kapitalına təsir edir. Bazar iqtisadiyyatının müasir inkişaf mərəhələsi ayrı-ayrı ölkə və region-lar üzrə ixtisaslaşmadan dünya təsərrüfat sisteminin multitəşkilinə doğru istiqamətlə xarakterizə olunur. Ölkələr arasında siyasi şəraitlə bağlı müxtəlif-liyin aradan qaldırılması, beynəlxalq əmək bölgüsünün yeni formasının təşək-kül tapması, dünyanın ayrı-ayrı ölkələrində istehlak standartları arasında mövcud sərhədlərin aradan qaldırılması qeyd edilən istiqamətin fərqləndici cəhətləri kimi səciyyələndirilə bilər.Dünya təsərrüfat sistemində baş verən dəyişikliklər təbii ki, rəngarəngliyi ilə seçilən dünya bazarını tam əhatə etməklə

ona intensiv təsir göstərir. Bütün regional bazarlara daxil olmaq üçün siyasi şəraitin formalaşdırılması əmtəə və xidmətlərə tələbin həcmini dinamik olaraq artırır və buda öz növbəsində müştəri tələbinin dolğun ödənilməsi üçün prinsipial yeni istehsal strukturlarının formalaşmasına zəruriyyət yaradır.

ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONUNUN STRATEJİ ƏHƏMİYYƏTİ

Baxışov S.V.
Bakı Mühəndislik Universiteti
E-mail: sbaxishov1@std.beu.edu.az

Son illər ölkə tarixində baş verən hadisələr xüsusən də 44 günlük Vətən Müharibəsində qazandığımız qələbə ölkədə yeni reallıqlar yaratdı. Torpaqlarımızın işğaldan azad olunması ilə ölkə başçısının 7 iyul 2021-ci il tarixli fərmanı ilə iki yeni iqtisadi rayon – Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradıldı və bununla da ölkədə olan iqtisadi rayonların sayı 14-ə çatdı.Zəngəzur dəhlizinin açılması ilə ölkədə daha bir strateji müasir yol infrastrukturu formalaşmış olacaq ki, bu da Şərqi Zəngəzur iqtisadi rayonunu gələcəkdə nəqliyyat-logistika mərkəzinə çevirəcək.Həmçinin Zəngilan və Laçın rayonunda fəaliyyətə başlayacaq beynəlxalq hava limanları gələcəkdə bölgənin turizmin inkişafına, həm də ölkə hava nəqliyyatının inkişafına xeyli təkan verəcəkdir. Cəbrayıl rayonun ərazisində yaradılan "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı da yeni istehsal sahələrinin yaradılmasına və məşğulluğun təmin olunmasına xüsusi töhvə verəcəkdir.

Azərbaycan Respublikasının Prezindentinin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə əsasən, son onillikdə reallaşdırılmalı olan ölkənin sosial-iqtisadi inkişafı üçün yeni hədəflər müəyyən edib, qeyri-neft sektorun iqtisadiyyatın inkişaf mərkəzinə çevrilməsi nəzərdə tutulub. Qeyri-neft sektorunun inkişaf etdirilməsi inkişaf etdirilməsi sosial-iqtisadi inkişafın effektivliyi, dövlət büdcəsinin gəlirlərinin artırılmasını baxımından əhəmiyyətli hesab olunur. Yaxın gələcəkdə Qarabağ və Şərqi Zəngəzurun iqtisadi rayonlarının sosial-iqtisadi inkişafının təmin edilməsi, bütövlükdə Azərbaycanın sosial-iqtisadi inkişafına xeyli güc qatacaq və bu regionların inkişafı ölkə iqtisadiyyatını xeyli gücləndirəcək və ölkəmizdə rəqabət qabiliyyəti daha da yüksələcəkdir. Şərqi Zəngəzur iqtisadi rayonun sosial-iqtisadi inkişafı, habelə ölkə iqtisadiyyatına reinteqrasiyası ölkəmizin iqtisadi qüdrətinin xeyli artırır. Regionda əsas məsələ milli təhlükəsizliyin təmin edilməsi, əhalinin doğma yurdlarına qaytarılması, yeni iş yerlərinin yaradılması və s. kimi məsələləri ön plana çəkilir. Bütün bunları həyata keçirmək üçün bir sıra tədbirlərin həyata keçirməsi zəruri hesab etmək olar:

1. Şərqi Zəngəzur iqtisadi rayonunda təbii iqtisadi resurslardan maksimum dərəcədə səmərəli istifadə edilməsi;
2. Yeni texnika və texnologiyalardan istifadə etməklə ənənəvi iqtisadiyyat sahələrinin bərpası və inkişafı, yüksək texnologiyalar əsaslı iqtisadiyyat sahələrinin formalaşdırılması;

MİLLİ İNNOVASİYA SİSTEMİ VƏ ONUN İQTİSADİ ARTIMA TƏSİRİ İSTİQAMƏTLƏRİ

Bayramov C.E.
Sumqayıt Dövlət Universiteti
Email: bayramovc530@gmail.com

Bir cəmiyyətin rəqabət gücünün çox olması üçün cəmiyyət iqtisadi baxımdan güclü olmalıdır. Rəqabət gücünü artıran ən mühüm vasitə innovasiyadır. Çünki, məhsuldarlığın artırmaq üçün innovasiya ən səciyyəvi faktordur. İqtisadi artım və maddi rifahın innovasiya ilə birbaşa əlaqəli olduğunu iddia edə bilərik. Ölkənin innovasiya qabiliyyətinə təsir edən bir neçə aspekt var. Fərdi qabiliyyətlər, təşəbbüskarlıq və dövlət yardımı yenilik üçün kifayət deyil. Yenilik üçün mühit lazımdır. Trendlərin müəyyən edildiyi bir bazarda yeni bir şirkətin innovativ sahələrdə rəqabətli mövqe əldə etməsi çətindir. Azərbaycan əsas məsələnin əlavə dəyər yaratmaq olduğunu unutmadan orta və uzunmüddətli innovasiya strategiyasını tərtib etməlidir. Lakin, bugünkü şiddətli rəqabət dünyasında, iqtisadiyyatların innovasiyalar olmadan inkişaf etmək üçün mübarizə aparacağını qəbul etməliyik. Digər tərəfdən, biz müşahidə edə bilərik ki, ölkələrin R&D və ya innovasiya xərcləri ÜDM-ə nisbətdə artmaqdadır. O, yalnız bir məqsədə xidmət edir: ölkələr innovasiyalar vasitəsilə öz rəqabət

qabiliyyətlərini qoruyub saxlamaq və artırmaq məqsədi daşıyır. İnnovasiya strategiyasının tərkib hissəsi olan Milli İnnovasiya Sistemi ölkə hüdudları daxilində yeni və iqtisadi cəhətdən faydalı məlumatların yaradılması, tətbiqi və yayılmasında iştirak edən qarşılıqlı əlaqədə olan komponentlər və əlaqələrin məcmusudur.

Azərbaycanda innovasiya sisteminin tədbiqinin inkişafı milli iqtisadiyyatın ən prioritet məsələlərindən biridir. İnnovativ fəaliyyəti artırmaq və ümumilikdə milli innovasiya sistemini təkmilləşdirmək məqsədilə dövlət tərəfindən çoxsaylı qanunlar, təşəbbüslər və dövlət proqramları hazırlanıb və hazırda həyata keçirilir. Bu dövlət layihələri sırasında dövlət başçısının 29 dekabr 2012-ci il tarixli Sərəncamı ilə qəbul edilmiş "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf ideyası da var. Bu anlayışda ölkəmizin 2020-ci ilədək əsas diqqət mərkəzində olan istiqamətləri vurğulanır. Bu anlayışa görə əsas prioritet istiqamətlər iqtisadi inkişafın genişləndirilməsi, bilik iqtisadiyyatının inkişafı və elm tutumlu məhsulların istehsalının artırılmasıdır. Nəticə etibarilə, ölkəmizin əsas xüsusiyyətlərini diqqətdə saxlamaqla ölkədə elmi yüksəlişə üstünlük vermək əzmində idi. Məqsədlərə nail olmaq üçün elmi sahənin texnoloji bazası təkmilləşdiriləcək, elm istiqamətində infrastruktur genişləndiriləcək. Elmə ayrılan maliyyə resurslarının genişləndirilməsi üçün bu inkişaf ideyası çərçivəsində dövlət büdcəsindən əlavə digər mənbələr də təşviq ediləcək. Eyni zamanda, növbəti bölmədəki statistik məlumatlardan da göründüyü kimi, tədqiqat institutlarında aparılan tədqiqatları bazar tələbləri ilə daha yaxşı uyğunlaşdırmaq üçün ölkəmizdə elm və sənaye arasında əlaqələrin inkişaf etdirilməsi nəzərdə tutulur. Bu ideyada vurğulanan əsas məsələ xalqımızda innovasiya fəallığının artırılması və yaradıcı sahibkarlığın gücləndirilməsi üçün tələb olunan proseslərin formalaşdırılması və əlverişli mühitin yaradılmasıdır.

Azərbaycan Prezidenti 2016-cı il martın 16-da iqtisadiyyatımızın 11 sektorunu əhatə edən 12 strateji yol xəritəsini əks etdirən sərəncam imzalayıb. Qısa, orta və uzunmüddətli dövrləri əhatə edən bu strateji yol xəritələrində 2020-ci ilə qədər iqtisadi inkişaf planı, 2025-ci ilə qədər uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəflər müəyyən edilib. Strateji yol xəritələrində iqtisadiyyatımızın bütün sahələrinin inkişaf hədəfləri müəyyən edilib. Yaradıcılıq fəaliyyətini təşviq etmək və insan kapitalını artırmaq üçün bütün səviyyələrdə təhsil keyfiyyətinin yaxşılaşdırılması məqsədi daşıyır. Ölkəmizdə əsas məqsəd ali təhsil çərçivəsində "təhsil-tədqiqat innovasiyası" şəklində inkişafın stimullaşdırılması idi. Eyni zamanda, elmi-tədqiqat və tədqiqat fəaliyyətlərində irəliləyiş əldə edilməsinə və biliyə əsaslanan iqtisadiyyatın qurulmasına yönəlmiş tədbirləri dəstəkləmək məqsədilə tədqiqatın keyfiyyətinin yüksəldilməsi və tədqiqat kəşflərinin istehsalat sektorunda tətbiqinin stimullaşdırılması üçün müvafiq addımların atılması müəyyən edilmişdir. Bu məqsədlə elmi tərəqqi təşviq ediləcək və özəl bizneslər tədqiqata sərmayə qoymağa çağırılacaq.

Kornell Universiteti (ABŞ), INSEAD İdarəetmə Məktəbi (Fransa) və 132 ölkənin daxil olduğu Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) 15-ci birgə nəşri - 2022 Qlobal İnnovasiya İndeksinin (Qİİ) əvvəlki illərdə olduğu kimi ÜƏMT-də təqdimatı baş tutdu. Tədqiq olunan göstəricilər qanunvericilikdən, elmdən və təhsildən tutmuş bazara, biznesə və infrastruktura, digərləri ilə yanaşı, geniş spektri əhatə edir və narahatlıqların inkişafına qədər müxtəlif məlumatları əhatə edir. Qİİ-nin buraxılmasının əsas məqsədi ölkələrin innovativ fəaliyyət sistemlərinin effektivliyinin qiymətləndirilməsinə imkan yaratmaqdır.

Cədvəl 1. Qlobal iinovasiya İndeksi üzrə Azərbaycanın dünya reytinqində tutduğu yer

Kateqoriyalar	Dünya sıralamasında yeri
"İnnovativ resurslar" alt indeksi "Təsisatlar" blokunda "biznes mühiti"istiqaməti üzrə	79 19
"İnsan kapitalı və elm" blokunda Azərbaycan "tədqiqat və inkişaf" inteqral göstəricisində	76
"Biznesin inkişafı" blokunda "əqli əmək işçiləri" istiqaməti "təlimlər keçirən şirkətlər" istiqaməti "İnnovasiya əlaqələri" istiqaməti	 65 47 56
"İnnovativ əlaqələr" istiqamətində "Patent ailələri"	 66
"innovativ nəticələr" alt indeksi	110

Mənbə: Qlobal innovasiya indeksləri (2022) əsasında hazırlanmışdır.

Azərbaycanda müasir institutlar yaradılıb, insan kapitalı, elm və təhsil imkanları inkişaf etdirilib, effektiv biznes modelləri tətbiq edilib ki, bu da ölkənin böyüməsinə böyük resursların yatırıldığını və nəticə şəklində proqnozlaşdırılan mükafatların olduğunu göstərir. Bu, ÜDM-i artırmaq üçün bir mənbədir. Qİİ-nin

tərtibatçı-ekspertlərinin fikrincə, "Azərbaycan innovasiyalara investisiyaların nəticələri ilə müqayisədə daha çox göstəricilər nümayiş etdirir".

XARİCİ TİCARƏTİN AZƏRBAYCAN İQTİSADİYYATINDA ROLU

Bəhrəmli E.D.
Sumqayıt Dövlət Universiteti
E-mail: elvin.behremli@gmail.com

Hazırda müxtəlif ölkələrdə iqtisadiyyatın inkişafının müasir tendensiyaları müəyyən fəaliyyət növlərinin yeni inkişaf və rəqabət səviyyəsinə yüksəlməsinə şərait yaratmışdır. Bununla əlaqədar olaraq, həlli xarici ticarətin inkişafına kömək edən yeni vəzifələr ortaya çıxır: yerli istehsalçıların dövlət tərəfindən dəstəklənməsi və inkişafı; malların və xidmətlərin müxtəlif bazarlara çıxarılmasına xidmət edən istehsalın və ticarətin reallaşdırılması məqsədilə müəyyən şəraitin yaradılması; dünya bazarında rəqabətin təhlili əsasında konkret xarici ticarət strategiyasıının hazırlanması. Xarici ticarət mal və xidmətlərin ixrac və idxalından ibarət ölkələr arasında ticarətdir. Əsasən malların, xidmətlərin, informasiyanın və əqli mülkiyyətin xarici ticarəti sahəsində əməliyyatlar vasitəsilə reallaşdırılır. Bu prosesi tənzimləmək üçün gömrük tarifi, lisenziyalaşdırma, qeyri-tarif məhdudiyyətləri, eləcə də ixrac subsidiyaları kimi vasitələrdən istifadə olunur.Bir ölkə nə qədər təbii sərvətlər, əhali və digər mühüm amillərlə zəngin olsa da, yenə də bütün mal və xidmətləri istehsal edə bilməyəcək. Odur ki, xarici ticarəti inkişaf etdirmək zəruridir. Xarici ticarət həmişə iqtisadi həyatın ən dinamik sahələrindən biri olmuşdur. Dövlətlər arasında iqtisadi əlaqələrin uzun tarixi var. Yerli istehsalçıları qorumaq üçün dövlət proteksionizm siyasəti aparır - idxal olunan mallara rüsumları artırır. Bununla belə, idxal bir çox ölkələr üçün vacibdir, çünki onlar əhalini müəyyən bir ölkədə istehsal olunmayan məhsullarla təmin etməyə imkan verir. Xarici ticarət təkcə iqtisadiyyatın deyil, həm də ölkənin rifahının və inkişafının göstəricilərindən biridir .Odur ki, həmin göstəricinin ölkəmizin timsalında təhlil edilməsi böyük önəm daşıyır.

Azərbaycanın xarici ticarətin vəziyyətini öyrənmək üçün ölkə üzrə idxal və ixracın həcmini nəzərdən keçirək.



Şəkil 1. Azərbaycanda ixrac və idxal

Şəkil 1-dən görünür ki, tədqiq olunan dövrlər ərzində ölkənin xarici ticarətinin əsas hissəsi ixrac təşkil etmişdir. İxrac idxaldan həmişə yüksək olmuşdur. İxracda neft və neft məhsulları üstünlük təşkil edir. İxracın həcmi ən çox 2010-cu ildə olmuşdur (26560,1 milyon ABŞ dolları). 2021-ci ildə ixracın həcmi isə 23850,6

milyon ABŞ dolları olub ki, bu da həmin ildə ticarət dövriyyəsinin 67,1%-i deməkdir. 2021-ci ildə xarici ticarət dövriyyəsi 35556,4 milyon ABŞ dolları olub ki, bu da 2015-ci ildən bəri ən yüksək göstəricidir (bax şəkil 2).



Şəkil 2. Azərbaycanın xarici ticarət dövriyyəsi

Xarici ticarət axınlarının əmtəə strukturu və onların həcmi əsasən dövlətin təkcə iqtisadi deyil, həm də siyasi statusunu müəyyənləşdirir. Odur ki, ölkənin xarici ticarət dövriyyəsindəki dəyişikliklərin dinamikasının təhlili onu deməyə əsas verir ki, xarici ticarətdə potensialdan istifadəyə yönəlmiş bəzi tədbirlərin görülməsi zəruridir. İlk öncə, yerli malların daha rəqabətqabiliyyətli olmasına və ixracın yalnız yanacaq-enerji xammalı üzərində cəmləşməsinə yol verməyən innovativ texnologiyaların inkişafı və istifadəsinə diqqət yetirilməlidir. Digər sektorlarda da əhəmiyyətli rəqabət üstünlüklərinə malik olmaq məqsədilə ölkəmizin iqtisadiyyatını daha yüksək səviyyəyə çatdırmağa imkan verən yeni yüksək texnologiyaların tətbiqinə şərait yaratmaqla, iqtisadiyyatın həmin sahələrində əsas kapitalın texnoloji yenilənməsi reallaşdırılmalıdır. Bunlar xarici ticarətdə ölkənin mövqeyinin daha da yaxşılaşdırılmasına imkan verəcəkdir.Azərbaycan iqtisadiyyatının mövcud fəaliyyəti şəraitində xarici ticarətin yeni reallıqlara uyğunlaşması üçün yanaşmalar hazırlamaq və gələcəkdə xarici ticarətin inkişafına dəstək vermək lazımdır. Ölkəmizin qarşısında iqtisadi təhlükəsizliyin təmin edilməsi və innovativ rəqəmsal iqtisadiyyatın yaradılmasına yönəlmiş səylərin gücləndirilməsi kimi çətin vəzifə durur. Bu problemin həlli yerli istehsalçıların və xarici iqtisadi fəaliyyətin iştirakçılarının dəstəklənməsi üçün tarif, qeyri-tarif, inzibati və maliyyə tədbirlərindən istifadəni nəzərdə tutan ona nail olmaq üçün kompleks yanaşma tələb edir. Beləliklə, iqtisadi sabitliyi qorumaq üçün xarici ticarətin dəyişən şərtlərinə sürətli uyğunlaşmanı təmin edən yanaşmaların işlənib hazırlanması məsələsi aktualdır.

XARİCİ İQTİSADİ FƏALİYYƏTİN TƏNZİMLƏNMƏSİNDƏ QEYRİ-TARİF METODLARINDAN İSTİFADƏ

Bəşirov X.H.
Sumqayıt Dövlət Universiteti
E-mail: xezerbesirov111@gmail.com

Müasir dövrdə xarici iqtisadi fəaliyyətin inkişaf etdirilməsi, bu məqsədlə ölkə iqtisadiyyatının qlobal təsərrüfat sisteminə səmərəli inteqrasiyasıın təşkil olunması ölkəmizin sosial və iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərindəndir. Milli iqtisadiyyatımızın dünya təsərrüfat sistemində yeri və iqtisadi inkişaf səviyyəsi, təbii, iqtisadi potensialın həcmi ilə ölçülür. Bu səbəbdən xarici ticarət əlaqələrinin genişləndirilməsi, xarici fəaliyyətin tənzimlənməsinin qeyri-tarif metodlarının öyrənilməsi, mövcud iqtisadi vəziyyətdə uğurla reallaşdırılması, dünya təsərrüfat sisteminə inteqrasiyanın tam təmin olunması aktuallıq kəsb edir. Azərbaycan

dövlətinin qarşısında duran əsas vəzifələrdən biri dünya təsərrüfat sisteminə səmərəli inteqrasiya olunmaqdan ibarətdir.Qeyd edək ki, ölkələr arasındakı ticarətin dövlət tənzimlənməsi dedikdə digər ölkələrlə iqtisadi münasibətlərin tənzimlənməsinə və inkişafına yönəldilmiş tədbirlər başa düşülür. Beynəlxalq ticarət formaları isə proteksionist və sərbəst icarət olaraq iki formada həyata keçirilir. Xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi xarici iqtisadi münasibətlərdə digər dövlətlərlə və ya bir qrup ölkələrlə strateji münasibətləri müəyyənləşdirməyi qarşıya məqsəd qoyur. Belə ki, uğurların əldə edilməsi və qazanılmış nailiyyətlərin qorunub saxlanılması üçün olan metod və vasitələrin işlənib hazırlanması əsas məsələlər kimi xarakterizə edilir.

Xarici iqtisadi siyasətin əsas xüsusiyyətləri sırasında əmtəələrin və xidmətlərin beynəlxalq bazarda alınıb satılması, pul, əmək və intellektual resusların hərəkəti yer almışdır. Hazırda əksər ölkələrdə istifadə olunan xarici iqtisadi siyasət vasitələri ölkəyə xarici ticarət əlaqələrini inkişaf etdirməyə və digər ölkələrlə xarici iqtisadi əlaqələri müasir tələblər baxımından yüksəltməyə imkan verir. Digər tərəfdən, ölkənin xarici iqtisadi siyasəti onun daxildə yürütdüyü siyasətlə sıx bağlıdır. Hazırda qlobal bazarda rəqabətin güclənməsi, tədiyyə balansı və valyuta kursunun qeyri sabitliyi, İnkişaf etməkdə olan ölkələr və keçid dövrünü yaşayan ölkələrin xarici valyuta borcları artmaqdadır. Proteksionizm-ölkələrin öz daxili bazarlarını xarici rəqabətdən qorumağa çalışması, bəzən isə xarici bazarın zəbt edilməsinə yönəldilmiş iqtisadi siyasətdir. Liberallaşma prosesi isə proteksionizmin əksinə olaraq, xarici iqtisadi əlaqələrin inkişaf etdirilməsinə müsbət təsir göstərən, rüsumların azaldılması və digər maneələrin aradan qaldırılması üçün yürüdülən iqtisadi siyasətdir. Qlobal bazarda uzun dövr ərzində xarici ticarət təcrübəsində tez-tez dəyişən fərqli meyllər olmuşdur. Bu meyllərin intensiv dəyişməsi ölkələrin xarici ticarətə inamsızlığına səbəb olur və nəticədə ölkələr yerli istehsalın inkişafına şərait yaradaraq proteksionizmə daha çox üstünlük verirlər. Amma müasir proteksionizm daha çox sahələrdə, əsasən kənd təsərrüfatı, polad istehsalı, toxuculuq və s. sahələrdə tətbiq olunur. Ölkələrin iqtisadi səviyyəsinin aşağı olması proteksionizmin nisbətən geniş tətbiqinə şərait yaradır. İqtisadi inkişaf baxımından zəif olan ölkələr bu yolla daxili bazara həddindən artıq xarici məhsulun daxil olmasının qarşısını alır. İqtisadi cəhətdən inkişaf etmiş ölkələr belə müəyyən sahə və müəssisələrin qorunması tədbirlərinə ehtiyac görürlər. Hətta ölkənin müəyyən məhsula olan tələbatı fəsillərdən asılı olaraq da dəyişə bilir. Bu səbəbdən xarici ticarət siyasətində istifadə olunan alətlər hədsiz dərəcədə müxtəlifdir. Xarici iqtisadi siyasətin dövlət tənzimlənməsi bu sxem vasitəsilə reallaşdırılır: "Xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi: tarif və qeyri-tarif".

Xarici ticarət siyasəti iqtisadi, hüquqi, təşkilati və digər məsələlərlə də sıx bağlıdır. Belə ki, xarici ticarət fəaliyyətinin tənzimlənməsinin "Qeyri-tarif tədbirləri" termini geniş olaraq yayılmışdır. Burada əmtəələrin ixracı və idxalı zamanı həyata keçirilən nəzarət tədbirləri öz əksini tapır və bu halda gömrük tarifləri istisna təşkil edir. Xarici iqtisadi fəaliyyətdə dövlət tənzimlənməsi vasitələri xarakterinə görə gömrük tarifinə əsaslanan qeyri-tarif və tarif metodlarına bölünür.

1960-cı illərdə tarif və ticarət üzrə razılaşmaların (QATT) Baş katibliyi tərəfindən edilən təklifə əsasən, ilk dəfə xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi tarif və qeyri-tarif metodlarına bölünmüşdür. Bu razılaşmalarda beynəlxalq ticarətin sərbəst axınına mane olar hər cür fəaliyyət (tariflərdən başqa) qeyri-tarif məhdudiyyətlər olaraq müəyyən edilmişdir. Bütün ölkələr üçün qeyri-tarif metodların Vahid Beynəlxalq Təsnifatı verilmişdir. QATT Beynəxalq ticarət palatası, Beynəlxalq İnkişaf və Yenidənqurma Bankı, Amerika Birləşmiş Ştatları tarif komissiyası, Ticarət və İnkişaf üzrə BMT konfransı və s. beynəlxalq təşkilatlar bu istiqamətdə təsnifat variantlarını irəli sürmüşlər. Nəhayət, təsnifata aid prinsipial sxem QATT Katibliyi tərəfindən 1970-ci illərdə hazırlanmış və indiyə qədər 800-dən artıq qeyri-tarif metodu müəyyənləşdirilimişdir. Bunlar isə öz növbəsində beş amillə daha çox bir-birinə bağlıdırlar: 1.Qlobal ticarət əməliyyatlarında ölkənin iştirakı ilə bağlı məhdudiyyətlər: idxalı əvəz edən sahələrə dotasiyalar, subsidyalar və yerli xammaldan istifadəyə üstünlük; 2. İdxal və ixraca qarşı maneələr: gömrük qeydiyyatının çətinləşdirilməsi, sənədlərin qeydiyyatına yüksək tələbkarlıq və gömrük dəyərinin müəyyənləşdirilməsi metodları; 3. Malların sertifikasiyası qaydaları ilə əlaqədar standartların tətbiq edilməsi və tələb edilməsi, ekoloji və sanitar normalara uyğunluq, malların kodlaşdırılması; 4. İnzibati tədbirlər, idxal kvotaları, qadağalar və valyuta məhdudiyyətləri; 5. Ödəmələrə uyğun məhdudiyyətlər, məsələn, differensional vergilər, kompensasiya rüsumları, sərhəd vergi yığımları və s.

Qeyd edək ki, BMT-nin Ticarət və İnkişaf Konfransı beynəlxalq ticarətə maneə törədən hər cür dövlət prosedurlarını qeyri-tarif məhdudiyyəti kimi qiymətləndirir və s.

RƏQƏMSALLAŞMA ŞƏRAİTİNDƏ İNNOVATİV İQTİSADİYYATIN ROLU

Cəfərova A.M.
Sumqayıt Dövlət Universiteti
E-mail: cafarova.84@mail.ru

Rəqəmsal texnologiyalar bu gün iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasında və bir çox ölkələrin iqtisadi artımının stimullaşdırılmasında əsas rol oynayır. Milli iqtisadiyyat da oxşar ssenari üzrə inkişaf edir. Rəqəmsal texnologiyaların geniş tətbiqi iqtisadiyyatın ənənəvi sahələrinin modernləşdirilməsinə kömək edir, həmçinin iqtisadi artım üçün əsas olan yenilərinin yaradılmasına gətirib çıxarır. Rəqəmsal texnologiyalar bütün dünyada öz mövqelərinizi möhkəmləndirmək üçün istənilən ölkəyə bu rəqabət üstünlüklərindən istifadə etməyə imkan verir. Yeni rəqəmsal texnologiyaların tətbiqi əmək məhsuldarlığını artırır, biznes xərclərini azaldır, informasiyanın əlçatanlığını artırır və yeni bazarlara çıxış üçün maneələri azaldır və nəticədə bütövlükdə iqtisadiyyatın inkişafına multiplikativ təsir göstərir. Beləliklə, qlobal innovativ dəyişikliklər dövründə yaşayan insanların həyatının bütün sahələrinə nüfuz edən, texniki və intellektual tərəqqinin ayrılmaz və əvəzsiz elementinə çevrilən rəqəmsallaşmanın üstünlükləri göz qabağındadır.Rəqəmsallaşma proseslərinin genişləndirilməsi ölkədə inovativ iqtisadiyyatın formalaşdırılmasını sürətləndirir.

Son illərdə innovativ iqtisadiyyat getdikcə iqtisadçıların diqqətini cəlb edir və iqtisadi tədqiqatların obyektinə çevrilir. İnnovativ iqtisadiyyat yüksək texnologiyalı inkişafı nəzərdə tutur. İnnovativ iqtisadiyyat cəmiyyətin məhsuldar qüvvələrinin və iqtisadi münasibətlərə əsaslanan müvafiq istehsal münasibətlərinin yüksək inkişaf səviyyəsində yaranır və inkişaf edir. İnnovativ iqtisadiyyat, ilk öncə, cəmiyyətin innovativ potensialıdır, bilavasitə innovativ məhsulların və ictimai istehsalın digər nəticələrinin istehsalı prosesində istifadə olunur. Yeniliklər eyni zamanda həm elmin inkişafına, həm də ictimai istehsalın inkişafına xidmət edir və bununla da elmlə ictimai istehsal arasında əlaqə rolunu oynayır. İnnovativ iqtisadiyyat ənənəvi iqtisadiyyatdan daha yüksək səviyyədə istehsal səmərəliliyi və yüksək texnologiyalı məhsulların böyük bir hissəsi ilə fərqlənir. İnnovasiyanın iqtisadiyyata təsiri və deməli, innovativ iqtisadiyyatın inkişaf səviyyəsi çox dərəcədə innovasiyaların özlərinin yeniliyindən və orijinallığından asılıdır. Onlar həm istehsalın bütün sahələrinə aid iqtisadiyyatda əsaslı dəyişikliklər edə, yeni texnika və texnologiyalar yarada, həm də iqtisadiyyatın kəskin inkişafına səbəb olmayan mütərəqqi dəyişikliklər edə bilərlər.

İnnovativ iqtisadiyyatın postindustrial cəmiyyətin formalaşması prosesləri ilə sıx əlaqəlidir. İnnovativ iqtisadiyyatın xüsusiyyətlərini və onun postindustrial cəmiyyətin formalaşması prosesləri ilə əlaqəsini aşağıdakı kimi verə bilərik: istehsal sferasında innovasiyaların tətbiqi postindustrial cəmiyyətin formalaşmasına dolayı təsir göstərir;innovasiyalar həyat keyfiyyətinin yaxşılaşdırılması üçün nəzərdə tutulmuş əmtəə (satış obyekti) kimi çıxış edir; xidmət sektorunun maddi istehsal sahəsi üzərində üstünlük təşkil etməsi yüksək texnologiyalı sənayedə ikinci dərəcəli amil kimi səciyyələndirilə bilər. Texnoloji yeniliklərin tətbiqi cəlb olunan resursların miqyasını azaltmağa imkan verir, bunun nəticəsində onları xidmət sektorunun inkişafına yönəltmək mümkün olur; iqtisadiyyatın innovativ sektoru inkişaf tempini müəyyənləşdirir. İnnovasiyaların inkişafı və tətbiqi uğrunda rəqabətli mübarizə texnologiyaların təkmilləşdirilməsini stimullaşdırır.Müasir tədqiqatçılar innovativ iqtisadiyyata xas olan aşağıdakı əsas xüsusiyyətləri irəli sürürlər: 1. Milli sərvətin yaradılmasının əsasını yeni biliklərə və innovasiyalara əsaslanan istehsal sahələri təşkil edir. 2. ETT-ni sürətləndirmək üçün inkişaf etmiş infrastruktur kimi çıxış edir. 3. Ölkənin innovativ inkişafı yeni biliklər istehsal etməyə qadir olan yüksək ixtisaslı kadrların əməyinə əsaslanır. Yuxarıda göstərilən xüsusiyyətlərin ümumiləşdirilməsi belə deməyə əsas verir ki, innovativ iqtisadiyyat strukturunda xidmət sektorunun (qeyri-maddi istehsalın) üstünlük təşkil etməsi yüksək səmərəli material hesabına formalaşan postindustrial cəmiyyətin istehsal münasibətlərinin məcmusudur. İnnovativ iqtisadiyyatın formalaşması prosesində dövlətin rolu vardır ki, bunu müxtəlif üsullarla müəyyənləşdirmək olar ki, onlardan ən əsaslarına aiddir: Tənzimləmə vasitələrinin (qanunvericilik və dəstək proqramları) köməyi ilə;Tədqiqat institutları (texnoloji inkişaflar) və universitetlər (elmi tədqiqatlar) vasitəsilə; Özəl şirkətlər vasitəsilə (kommersiyalaşdırma).

Müasir dünyada innovativ fəaliyyət demək olar ki, bütün ölkələrdə iqtisadi artımın təmin edilməsində mühüm rol oynayır ki, bu da istehsalın texniki və texnoloji təşkilinin davamlı təkmilləşdirilməsinə, məhsulların keyfiyyətinin yüksəldilməsi yolu ilə onların rəqabət qabiliyyətinin artırılmasına, habelə istehsalın səmərəliliyini təmin etməyə imkan verir. Cəmiyyətin elmi və texnoloji nailiyyətlərindən səmərəli istifadə edə bilən iqtisadiyyat innovativdir. Dövlət siyasəti innovativ iqtisadiyyatın səmərəli inkişafına böyük təsir göstərir.

İnnovativ iqtisadiyyatın davamlı inkişafı inkişaf etmiş maliyyə və hüquq institutlarının mövcud olmasını tələb edir ki, onların da formalaşdırılmasında dövlətin iştirakı tələb olunur. Dövlətin innovasiya siyasəti ölkədə innovasiya fəaliyyətinin inkişafına və stimullaşdırılmasına yönəlmiş dövlət siyasətinin tərkib hissəsidir. Dövlətin əsas məqsədi ölkədə yüksək rəqabətədavamlı iqtisadiyyat qurmaqdır ki, bu iqtisadiyyat ölkəni yeni iqtisadi inkişaf səviyyəsinə çıxara biləcək biliklərə əsaslanmalıdır. Bunun üçün innovasiya prosesinə dəstək verən dövlət mexanizmləri yaradılmalıdır. Belə mexanizmlər ola bilər: 1. İnnovasiyaların inzibati resurslar hesabına bölüşdürülməsi. 2. Prioritet istiqamətin seçilməsi. 3. Elmi və texniki fəaliyyətin maliyyələşdirilməsi. 4. İT sahəsində dövlət-sahibkarlıq əməkdaşlığının təmin edilməsi. 5. İnnovativ risklərin dövlət tərəfindən sığortalanması. 6. Elmi-texniki sahədə kiçik müəssisələrin inkişafına kömək etmək üçün innovasiya və texnologiya mərkəzlərinin, texnoparkların, vençur fondların yaradılması.

İnnovativ inkişafların formalaşdırılması ilə bağlı çətinliklər də vardır ki, bunlar birbaşa büdcə vəsaitlərinin çatışmazlığı və elmlə biznes arasında əlaqənin olmaması ilə bağlıdır. Bu baxımdan, özəl sektordan investisiyaların cəlb edilməsi sualı yaranır və yalnız dövlət həmin sektorla dialoqun təşəbbüskarı ola bilər, çünki o, yüksək texnologiyalı sənayelərdə mal və xidmətlərin əsas inkişaf etdiricisi və istehsalçısıdır. Bu cür əməkdaşlığın bir forması iqtisadiyyatın qloballaşması şəraitində ölkənin biznesinin rəqabət qabiliyyətini artırmağa imkan verən və innovativ iqtisadiyyatın formalaşmasına müsbət təsir göstərən dövlət-özəl əməkdaşlıq ola bilər. İnnovativ iqtisadiyyatda dövlət və özəl sektor arasında qarşılıqlı əlaqənin xüsusiyyətləri innovasiyaya elmi nəticələrin gətirilməsi üçün iştirakçıların güclü tərəflərinin birləşdirilməsindən ibarətdir. Bu tandemin üstünlüyü yüksək texnologiyalı məhsulların yaradılması üçün risklərin yenidən bölüşdürülməsi və xərclərin yüklənməsidir. Bundan əlavə, milli innovasiya sisteminin yaradılması məqsədilə əməkdaşlıq üçün optimal şərtləri tərəfdaşlar özləri müəyyənləşdirirlər. İnnovativ iqtisadiyyatın formalaşması şəraitində dövlət-özəl əməkdaşlıq alətindən istifadə edərkən hər bir tərəf öz məqsədlərini güdür. Dövlət innovasiya prosesinin yüksək inkişaf edən iştirakçıları (istehsalçılar, maliyyəçilər, elmi-tədqiqat institutlarının işçiləri və s.) arasında səmərəli qarşılıqlı əlaqəyə nail olmağa çalışır.Beləliklə, yuxarıdakı mexanizmlər innovativ iqtisadiyyat üçün əlverişli şəraitin yaradılmasını məqsədyönlü şəkildə idarə etməyə, onun effektivliyini maksimum dərəcədə artırmağa imkan verir.

BÖHRAN ZAMANI AZƏRBAYCAN ŞİRKƏTLƏRİNDƏ STRATEJİ MARKETİNQİN İDARƏ EDİLMƏSİ

Cahangirov M.X.
OdlarYurdu Universiteti
E-mail: xaza342@gmail.com

Ümummilli lider H.Əliyevin fundamental islahat kursu və bu kursun Cənab prezident İ.Əliyev tərəfindən yaradıcılıqla davaml inkişafı dünyanı saran qlobal böhran şəraitində də Azərbaycan iqtisadiyyatının inkişaf dinamizmini qoruyub, saxlayıb.Cənab prezident İ.Əliyev çox düzgün qeyd edib ki, «Azərbaycan son 11 il ərzində dünyada iqtisadi artım templərinə görə ən yüksək inkişaf edən ölkədir».

Sosial-iqtisadi cəhətdən formalaşan inkişafın yüksək qiymətləndirilməsi ilə bərabər, əlavə etmək lazımdır ki, Azərbaycanın innovativ fəaliyyət təşkilinin və inkişaf sahəsində xeyli ölkəinin müvafiq innovasiya və iqtisadi cəhətdən çox zəifdir . Qeyd olunmalıdır ki, müasir mərhələdə ölkələrin uzunmüddətli sosial-iqtisadi inkişafı əvvəlki tarixi mərhələlərlə müqayisədə daha əhəmiyyətli dərəcədə elmi-texniki tərəqqinin özünün dinamikası ilə müəyyənləşir. Hazırda inkişaf etmiş ölkələrin ixracının əhəmiyyətli hissəsini 20% və bəzən daha çoxunu elmtutumlu yüksək texnoloji məhsullar tutur və aqrar iqtisadiyyat və sənaye iqtisadiyyatı müasir növ iqtisadiyyatdan fərqlənir. Müasir dövürdə bilik istehsalı inkişaf etmiş ölkələrin iqtisadi artımında əsas mənbəsidir.

Ölkəmizin iqtisadi cəhətdən İEÖ-dən elmi-texniki geridə qalmaların yox edilməsi və onlar tərəfdaş olaraq dünyəvi innovativ sahəyə aid olması ölkənin innovasiya sisteminin tezliklə formalaşmasından olduqca asılı haldadır. Bununla əlaqli uyğun inkişaf proqramını hazırlan əksər məsələlərin optimal həllini, idarəetmə qərarlarının qəbul edilməsi üçün vacib olan əsaslı, zəruri innovasiyanın sistemli nəzəriyyəsinin işlənilməsinin mühüm əhəmiyyəti onun əsas planıdır. Milli iqtisadiyyatın innovasiyasının düzgün müəyyənləşdirilməsi həmçinin innovasiyanın ümumi təcrübələrinin geniş araşdırılmasını, bu təcrübələrin Azərbaycanda tətbiqinin imkanlarının araşdırılması tələbi vacibdir. iqtisadiyyatın davamlı və dinamik inkişafı innovasiya proseslərinin effektivliyindən birbaşa asılıdır və bu proseslərin effektivliyi isə məqsədyönlü

idarəetməni tələb edir. Belə bir idarəetmə ilə başqa innovative istiqamətli fəaliyyətlərin, makro səviyyədə və mikro səviyyədə hazırlanan və reallaşdırılan innovasiya siyasətinin fərqli üsullarının uyğunlaşdırılması, bir-birlərinin tamamlanmasını, yəni ki, system formada yanaşmanın zərurəti yaranır. Buna görə də Milli İnnovasiya Sisteminin (MİS) formalaşması innovasiya inkişafının ən zəruri mexanizmi hesab edilməlidir və bu zərurət MİS-lərin çevik formalaşması üçün ən müxtəlif səviyyələrdə müvafiq tədqiqatların aparılmasını tələb edir.

Azərbaycanın ticarət-iqtisadi əlaqələri sistemində biznesin həyata keçirilməsi strategiyası rəqabət mühitində həyata keçirilir. Belə müddəa ondan irəli gəlir ki, ölkələr arasındakı ticarət-iqtisadi əlaqələr ölkənin rəqabət qabiliyyətliliyi, regionların rəqabət qabiliyyətliliyi, əmtəənin rəqabət qabiliyyətliliyi və rəqabət mühitinin digər növlərinin təsiri altında baş verir.Bununla əlaqədar olaraq, iqtisadi ədəbiyyatda bütün yuxarıda sadalanan istiqamətlər üzrə rəqabət qabiliyyətliliyinin mahiyyətinin müəyyən edilməsi üzrə böyük müzakirələr gedir. Xüsusi halda, bir qrup alimlər hesab edirlər ki, ölkənin rəqabət qabiliyyətliliyinin tərifi müxtəlif iqtisadi indikatorları özünə daxil etməlidir: məhsulun inkişaf etdirilməsi və istehsalının artırılması üçün makroiqtisadi şərait; daxili və xarici bazarların nəzərə alınması ilə ölkənin makroiqtisadi tənzimlənməsi; ölkənin və milli bazarın rəqabət qabiliyyətliliyi sistemində regionun yerinin müəyyən olunması; əmtəə-analoqlar və idxalı əvəzetmə sahəsində fərqləndirici göstəricilərin aşkar olunması. İqtisadi proseslərin qloballaşması şəraitində ölkələr arası iqtisadi əlaqələrin genişlənməsi, asılılıqların güclənməsi, qarşıya çıxan problemlərin həllərinin çətinləşməsi ilk növbədə milli iqtisadiyyatın təkmilləşdirilməsi və beynəlxalq iqtisadi əlaqələrin konseptual əsaslarının hazırlanmasından asılıdır. Xarici ticarət iqtisadi əlaqələrin əsas mərhələsi kimi çıxış edir.

Xarici ticarət siyasəti ölkələrin birbaşa ticarət balansına təsir edən,əmtəə və xidmət alqı-satqısını və idxal-ixrac proseslərini şərtləndirən dövlət siyasətidir. İqtisadi siyasi amillərin tez-tez dəyişməsi və dünya bazarındakı dəyişikliklərin ölkədaxili iqtisadiyyata təsiri dövlətin xarici iqtisadi əlaqələrin daima diqqət mərkəzində saxlamağa məcbur edir. Hər bir ölkənin iqtisadi idarəetmədə əsas məqsədi xarici ticarət balansına nəzarəti müsbət olaraq dəyərləndirə bilməkdir. Ölkənin ixrac yönümlü siyasətinin güclü olması və davamlı olaraq inkişafı iqtisadi gücünün müsbət olaraq artmasına və xarici ticarət balansındada yüksəlişə gətirib çıxaracaqdır. Bu məqsədlədə inkişafı sürətləndirməyə çalışan ölkələrdə əsas xarici ticarət siyasətinin əsasən ixracyönümlü olaraq inkişafıdır. Xarici ticarət əlaqələrinin formalaşması ölkə daxilində iqtisadi qanunvericilikdən, verilən fərmanlardan, keçirilən iqtisadi tədbirlərdən asılı olaraq dəyişir.

Xarici ticarət siyasəti elə bir ticarət siyasətidir ki, bu ticari fəaliyyətdə ölkənin xarici siyasət idarələri xarici ticarət əlaqələrinin tənzimlənməsində fəal iştirak edirlər. İEÖ-in siyasi fəaliyyətində ticarət əlaqələrinə təsirin daha çox olması nəzərə çarpır. Xarici iqtisadi problemlərin daxili iqtisadi inkişafla sıx əlaqəsi bir çox ölkələrdə təşkilatlararası orqanların yaranmasını zəruri edir. Dünya təcrübəsi göstərir ki xarici ticarət siyasətinin və xarici iqtisadi əlaqələrin səmərəli fəaliyyəti ölkədə nazirliklərin xarici əlaqələr komitəsi, beynəlxalq əlaqələr kooperasiyası yaradılmalıdır. Lakin bu heçdə o demək deyilki xarici ticarət əlaqələri tamamilə dövlət inhisarında olmalıdır. Beynəlxalq aləmdə xarici ticarət texnologiyanın inkişafı ilə yeni ehtiyacların yaranmasına, sifariş və çatdırılma proseslərinin texnologiya vasitəsilə idarəolunmasına böyük təsir göstərrməkdədir. Ölkələr arasında sosial-iqtisadi, siyasi və mədəni əlaqələrin artması xarici ticarətin öz çərçivəsi hüdudlarından kənara çıxmağa, turizm və xidmət sektorunun çoxşaxəli inkişafa nail olmasına səbəb olur. Xarici ticarət siyasəti inkişaf etdikcə rəqabət sürətlənir region və beynəlxalq aləmdə tənzimləmə fəaliyyətinin vacibliyini özündə şərtləndirir.Ölkənin iqtisadi fəaliyyətinin təşkili və inkişafına baxmış olsaq və onu dünya iqtisadiyyatına uyğunlaşma konsepsiyası kimi araşdırsaq burda iki mövqeydən yanaşmanın araşdırmaya ehtiyacı olduğunu görmüş olarıq. Ilk mərhələ olaraq keçid dövrünün öz mahiyyəti etibarı ilə ikinci mərhələ olan real bazar mərhələsinə çatması üçün bazarın formalaşması və keyfiyyət aspektində təşəkkül tapması vacibdir. Ikinci mərhələdə isə iqtisadi fəaliyyətin sosial iqtisadi məğzində və cəmiyyətin siyasi tərkibində dəyişikliklərin dünya ticarətinə və iqtisadiyyatına inteqrasiyanın funksional həyata keçməsinə şərait yaradacaqdır. Xarici ticarətin təhlükəsizliyinin təmin olunması xüsusi bir element kimi nəzərə alınmalı və formalaşdırılmalıdır. Dövlətin xarici ticarət fəaliyyətinin möhkəmləndirilməsi üçün başlıca olan amil ticarətin nə dərəcədə inkişaf etməsi və necə təşkil olunması proseslərinə dayanır. Iqtsadi fəaliyyətin getdikcə daha da inkişaf etməsi və dərinləşməsi ölkənin xarci ticarət sferasında müxtəlif dəyişikliklərin olmasını tələb edir.

Şirkət böhran şəraitində ən uğurlu marketinq aləti kimi qiymət amilində çox məharətlə istifadə edə bilmişdir. Əsas qiymət strategiyaları isə aşağıdakı kimi olmuşdur: Elastiki qiymət; Bazara nüfuzetmə (market penetration); Loyal kart sahiblərinə yönəlik qiymətlər.Marketinq xidmətinin və onun işçilərinin vəzifə və funksiyaları müəssisənin marketinq fəaliyyətinin vəzifə və funksiyaları, müəssisənin Nizamnaməsi və marketinq xidmətinə dair Əsasnamə ilə müəyyən olunur və onlardan irəli gəlir. Müəssisənin marketinq xidmətinin əsas vəzifəsi müəssisə qarşısında qoyulan məqsədi (məsələn, təchizat və satışın yaxşılaşdırılması

kimi) daha yüksək effektlə həyata keçirməyə imkan verən marketinq fəaliyyəti təşkil etməkdir. Baş verən son böhran bütün müəssisələrdə böhran komandalarının yaradılmasını zəruri etmişdir. Dissertasiya işinin ən önəmli bölməsi məhz anti-böhran strategiyaları içərisində "müştəri marketinqi modeli"nin nəzəri və praktiki əsaslarının öyrənilməsi olmuşdur. Çünki ancaq bu halda böhranı öncədən duyma və ona hazır olma mümkündür.Böhran şəraitində müəssisələrin strateji marketinq idarəetməsinə Azərbaycan şirkətlərində biri timsalında dissertasiya işində təhlillər aparılmışdır. Konkret olaraq pərakəndə satış sektorunun özəllikləri və böhran şəraitində atılmış addımlar təhlil edilmişdir.

KİÇİK VƏ ORTA BİZNES SUBYEKTLƏRİNDƏ TƏRƏFDAŞLIQ ƏLAQƏLƏRİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

Cahangirova C.C.
Azərbaycan Dövlət Aqrar Universiteti
E-mail: ceyhunecahangirova251@gmail.com

Bu gün qlobal iqtisadi fəaliyyətin əsas oyunçuları kiçik və orta müəssisələrdir (KOS). KOS müəssisələrin ümumi sayının böyük bir hissəsini təşkil edir və iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsidir. Ona görə də KOS-ların əhəmiyyəti iqtisadi inkişaf baxımından vurğulanmalı olan bir məsələdir.

KOS iqtisadiyyata mühüm töhfə verir. Onların ən mühüm töhfələri arasında məşğulluq, istehsal, ixrac və innovasiya var. KOS, xüsusən də inkişaf etməkdə olan ölkələrdə işsizlik probleminin həllinə öz töhfəsini verir. Bundan əlavə, KOS istehsal sektorunda fəaliyyət göstərərək iqtisadi artıma töhfə verirlər. KOS-ların istehsal fəaliyyəti ümumiyyətlə yerli bazarlara yönəlib. Bununla belə, bəzi KOS da ixrac bazarlarına çıxa bilirlər. Bu, ölkə iqtisadiyyatına öz töhfəsini verir. KOS innovasiya baxımından da mühüm rol oynayır. Kiçik biznes ümumiyyətlə innovativ məhsul və xidmətlərin inkişafına daha açıqdır və innovasiya fəaliyyətlərinə daha çox sərmayə qoyur.

KOS bir çox üstünlükləri var. Bunlardan ən əsası yerli bazarlarda fəaliyyət göstərmələridir. Kiçik bizneslər yerli bazarlarda daha yaxşı tanınır və müştəri loyallığı yaratmaqda daha uğurlu olur. Bundan əlavə, KOS-lar idarəetmə baxımından daha çevikdir. Bu, daha sürətli qərar qəbul etməyə və bazar şərtlərinə daha tez uyğunlaşmağa imkan verir. Bundan əlavə, KOS əməliyyat xərclərini aşağı saxlaya bilirlər ki, bu da onların rəqabət qabiliyyətini artırır. Bununla belə, KOS mənfi cəhətləri də var. Bunlardan ən mühümü maliyyə imkanlarının məhdudluğudur.Kiçik və orta sahibkarlıq iqtisadi artım və inkişafda mühüm rol oynayır. Onlar iş yerlərinin yaradılmasına, innovasiyalara və bazarda rəqabətə töhfə verirlər. Müasir biznes mühitində KOS arasında tərəfdaşlıq əlaqələri onların rəqabət qabiliyyətini və bazardakı mövqeyini yaxşılaşdırmaq üçün getdikcə daha çox əhəmiyyət kəsb edir. Bu tezisdə kiçik və orta sahibkarlıq sahəsində tərəfdaşlıq əlaqələrinin inkişafı aspektlərini müzakirə edəcəkdir.

KOS-da ən çox yayılmış tərəfdaşlıq əlaqələrindən biri strateji ittifaqdır. Bu, müəyyən bir layihə və ya tapşırıq üzərində əməkdaşlıq etmək üçün iki və ya daha çox müəssisə arasında razılaşmadır. Strateji ittifaqlar KOS-lar üçün faydalıdır, çünki onlar resursları və təcrübəni bölüşə, xərcləri azalda və bazar payını artıra bilər. Bu tip tərəfdaşlıq qarşılıqlı etimad və ünsiyyət, eləcə də bir-birinin məqsəd və vəzifələrini aydın başa düşməyi tələb edir.

KOS-da tərəfdaşlıq münasibətlərinin başqa bir növü birgə müəssisədir. Bu, yeni müəssisə yaratmaq və mənfəət və zərərləri bölüşmək üçün iki və ya daha çox müəssisə arasında bağlanan əmək müqaviləsidir. Birgə müəssisələr KOS üçün faydalıdır, çünki onlar resursları və təcrübəni birləşdirə, riskləri azalda və yeni bazarlara çıxış əldə edə bilərlər. Bu cür tərəfdaşlıq güclü öhdəlik və bir-birinin güclü və zəif tərəflərini aydın başa düşməyi tələb edir.

Françayzinq KOS-da tərəfdaşlıq münasibətlərinin başqa bir növüdür. Bu, bir biznesin (françayzerin) öz adından, məhsullarından və xidmətlərindən başqa bir müəssisəyə (françayzer) ödəniş müqabilində istifadə etmək hüququnu verdiyi iki müəssisə arasında müqavilədir. Françayzinq KOS üçün faydalıdır, çünki bu, onlara bizneslərini sürətlə genişləndirməyə, riskləri azaltmağa və müəyyən edilmiş brend adlara və müştəri bazalarına çıxış əldə etməyə imkan verir.

Nəhayət, şəbəkələşmə KOS tərəfdaşlıq əlaqələrinin digər mühüm inkişaf istiqamətidir. Şəbəkə bilik, təcrübə və resursları bölüşmək üçün digər bizneslər, sənaye assosiasiyaları və dövlət qurumları ilə əlaqələrin qurulmasını əhatə edir. Şəbəkə KOS üçün faydalıdır, çünki bu, onlara yeni müştərilər əldə etməyə, yeni bazarlara çıxışa imkan verir və sənaye meylləri və inkişaflarından xəbərdar olmağa imkan verir.

Nəticədə, tərəfdaşlıq əlaqələri KOS üçün rəqabət qabiliyyətini və bazar mövqeyini yaxşılaşdırmaq üçün çox vacibdir. KOS müxtəlif tərəfdaşlıq əlaqələrindən, o cümlədən strateji ittifaqlardan, birgə müəssisələrdən, françayzinqdən və şəbəkələşmədən faydalana bilər. Uğurlu tərəfdaşlıq əlaqələrini inkişaf etdirmək üçün KOS qarşılıqlı etimad yaratmalı, effektiv ünsiyyət qurmalı və bir-birlərinin məqsəd və vəzifələrini aydın şəkildə başa düşməlidirlər.KOS arasında tərəfdaşlığın əsas faydalarından biri rəqabət qabiliyyətinin artmasıdır. Resurslar və təcrübə bir araya gətirməklə, KOS bazarda daha böyük müəssisələrlə rəqabət edə bilərlər. Bu, geniş rəqabət və kiçik müəssisələr olan sənayelərdə bu, özləri də yaşamaq üçün mübarizə apara bilər.

Tərəfdaşlıqlar yeni bazarlara KOS daxil ola bilər. Digər müəssisələrlə tərəfdaşlıq yolu ilə, KOS yerli bazarlarından kənarda girişi genişləndirə və yeni müştərilərə çata bilərlər. Bu, böyümək və genişləndirmək istəyən müəssisələr üçün xüsusilə vacib ola bilər. KOS arasında tərəfdaşlıqdan başqa bir faydası resursları bölüşmək qabiliyyətidir. Digər müəssisələrlə tərəfdaşlıq edərək, KOS, xərcləri azaltmağa və məhsuldarlığı artırmağa kömək edə biləcək avadanlıq, qurğuları və digər mənbələri paylaşa bilər. Bu, öz bahalı avadanlıqlarına və ya obyektlərinə investisiya qoyacaq maliyyə mənbələri olmayan kiçik müəssisələr üçün xüsusilə vacibdir.Ümumiyyətlə, inkişaf etmiş ölkələrdə KOS arasında tərəfdaşlıq bir çox fayda təklif edir. Bu ortaqlıqlar rəqabət qabiliyyətlərini artıra, yeni bazarlara daxil olmağa imkan yarda bilər. KOS inkişaf etmiş ölkələrin iqtisadiyyatlarında mühüm rol oynamağa davam etdikcə, tərəfdaşlıq, ehtimal ki, böyümə və uğur üçün vacib bir yol olmağa davam edəcəkdir.

MALLARIN GÖMRÜK DƏYƏRİNİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ ÜSULLARI

Camalxanov A.A.
Sumqayıt Dövlət Universiteti
E-mail: asif.camalxanov771@gmail.com

Gömrük ödənişlərinin məbləğini təyin etmək üçün idxal və ixrac edilən malların dəyərinin qiymətləndirilməsi ən çətin gömrük əməliyyatlarından biridir. Çünki malların gömrük dəyərini (MGD) müəyyənləşdirmək üçün müxtəlif üsullardan istifadə etməklə malların məbləğinə əhəmiyyətli dərəcədə təsir göstərmək olar. Gömrük ödənişləri ölkənin gömrük tənzimlənməsi sistemində xüsusi rol oynayır. Çünki onlar ölkə büdcəsinin gəlirlərinin əhəmiyyətli dərəcədə doldurulması mənbəyidir və eyni zamanda müəyyən malların daxili bazarında yerli istehsalçıları qorumaq üçün nəzərdə tutulmuşdur.

Gömrük dəyərinə bir sıra spesifik amillər təsir edir, o cümlədən: 1. Qiymət, müqavilənin ümumi məbləği. 2. Hesablaşma valyutası. 3. Mal partiyasının həcmi. 4. Çatdırılma şərtləri (FAS, FOB, SİF və s.). 5. Sığorta və s.

Gömrük dəyəri ƏDV və aksizlər üzrə vergitutma bazasının əsas elementidir.

İdxal olunan MGD onlarla aparılan əməliyyatın dəyəridir, yəni bu mallar gömrük ərazisinə ixrac üçün satılarkən faktiki ödənilmiş və ya ödənilməli olan qiymətdir. Bəyannaməçi etibarlı və obyektiv məlumat əsasında gömrük ödənişlərinin (vergilər, rüsumlar və ya ödənişlər) məbləğini düzgün təyin etməyə və əsaslandırmağa, təsdiqedici sənədləri (məsələn, çeklər, müqavilələr, qaimə-fakturalar və s.) təqdim etməyə və ödəməyə borcludur.

Bu gün gömrük ödənişləri hesablanarkən gömrük orqanlarının fəaliyyətində mühüm və aktual problemlərdən biri məhz MGD-nin müəyyənləşdirilməsi və ona nəzarətdir. Ölkəmizdə MGD-nin hesablamaq üçün müəyyən üsullardan istifadə olunur. Müvafiq metodun seçimi, ilk öncə, müəyyən bir məhsulun xüsusiyyətlərindən, həmçinin bağlanan müqavilədən asılıdır. Məsələn, MGD-nin müəyyənləşdirilməsi ixrac edilən (satıcının xərclərinə uyğun olaraq), eləcə də bilavasitə analoji məhsullarla aparılan əməliyyatın dəyəri ilə reallaşdırılır. Bundan əlavə, bəzi hallarda MGD-yə düzəlişlər edilə bilər. MGD-nin hesablanması dövlət tərəfindən müəyyən edilmiş müxtəlif üsullarla reallaşdırılır.

Bu metodlar müəyyən ardıcıllıqla tətbiq olunur. Belə ki, hər bir sonrakı üsul yalnız MGD-nin müəyyənləşdirilməsi qeyri-mümkün olduğu hallarda tətbiq edilir.

MGD-nin müəyyənləşdirilməsi üçün əsas üsul 1-ci üsuldur ki, bu idxal edilən mallarla əməliyyatın dəyərinə görə hesablanmasına əsaslanır. Hesab-fakturaya uyğun olaraq mənşə ölkəsində malın dəyərinin və malların ölkənin sərhədinə çatdırılması xərclərinin cəminə əsaslanır. Həqiqətən də ixrac və idxal əməliyyatlarının təxminən 90%-i bu üsulla həyata keçirilir.

Şəkil 1-də MGD-nin müəyyən edilməsi üçün altı metod əks olunub.



Şəkil 1. MGD-nin müəyyənləşdirilməsi üsulları

2 və 3-cü üsulların mühüm xüsusiyyəti eyni və bircins mallar anlayışıdır. Deməli, ilk ad fiziki xüsusiyyətləri, keyfiyyəti və reputasiyası da daxil olmaqla hər cəhətdən eyni olan mallara verilir. Görünüşdəki kiçik uyğunsuzluqlar malın belə tanınmaması üçün əsas deyil. İkincisi, bütün xüsusiyyətlərinə görə eyni olmayan, lakin oxşar xüsusiyyətlərə malik olan və eyni materiallardan hazırlanmış oxşar komponentlərdən ibarət olan mallardır ki, bu da onlara qiymətləndirilən (idxal edilən) mallarla eyni funksiyaları yerinə yetirməyə və kommersiya baxımından onlarla əvəz edilə bilər. 4 və 5-ci üsullar mövcud əməliyyat qiymətindən istifadə etmək qeyri-mümkün olduqda və ya tələb olunan əməliyyatlar olmadıqda istifadə olunur. Bu metodların fərqli xüsusiyyəti hər iki üsulun bir-biri ilə istənilən ardıcıllıqla istifadə oluna bilməsidir.

Ehtiyat metodu – MGD-ni yuxarıda göstərilən üsullarla müəyyənləşdirmək qeyri-mümkün olduqda tətbiq edilir və hesablamalar və ekspert qiymətləndirmələri əsasında aparılır. Qiymətləndirmələr maksimum mümkün həddə idxal olunan malların əməliyyatının dəyərinə əsaslanır. Bu halda, MGD-nin ən dəqiq müəyyən edilməsi imkanı azalır ki, bu da ölkənin gömrük orqanlarının fəaliyyətinin səmərəliliyinin azalmasına səbəb olur. Şəkil 2-də metodların necə istifadə olunduğunun iyerarxiyasını göstərə bilərik.



Şəkil 2 – MGD-nin müəyyənləşdirilməsi üsullarından istifadənin iyerarxiyası

Beləliklə, MGD-yə nəzarət zamanı ortaya çıxan ən aktual məsələ əməliyyatın məbləğinin təyin edilməsi üçün qiymət məlumatı mənbələrinin seçilməsidir. MGD-yə dair tənzimləyici milli bazanın daha da inkişafı və təkmilləşdirilməsi onun bu sahədə beynəlxalq norma və qaydalara daha çox uyğunlaşdırılması yolu ilə reallaşdırılır. Gömrük orqanları tərəfindən ölkənin mövcud gömrük qanunvericilikdəki boşluqları aradan qaldıran bir sıra sənədlər qəbul edilmiş, xüsusən də gömrük rüsumlarının birləşdirilmiş dərəcələri tətbiq edilmişdir.

Gömrük işinin mürəkkəb məsələlərindən biri olan MGD ona nəzarətin müasir və dünya təcrübəsinə uyğun sisteminin yaradılmasını, qiymətlərin daimi monitorinqini, MGD-yə nəzarət etmək üçün məlumat bazalarının yaradılmasını, habelə gömrük rüsumu iştirakçılarının məqsədyönlü şəkildə hərtərəfli yoxlanılmasını tələb edir.

MÜƏSSİSƏLƏRİN AKTİVLƏRİ QƏBUL ETMƏSİ VƏ MÜVAFİQ BÖLMƏDƏ UÇOTUNUN TƏŞKİLİ İLƏ BAĞLI MÜHÜM MƏQAMLAR

Cəfərov K.A.
Naxçıvan Dövlət Universiteti
E-mail: kananjafarov14@gmail.com

Mühasibat uçotunda təşkili və həyata keçirilməsində mühüm məsələlərdən biri kimi də müəssisənin vəsaitlərinin, həmçinin təsərrüfat əməliyyatlarının və maliyyə nəticələrinin forma və növlərinin qruplaşdırımasıdır. Bu sıraya kifayət qədər geniş spektri əhatə edən təsnifatları da əlavə etmək zəruridir. Bu sırada aşağıdakıları sistemləşdirmək yerinə düşər:

Uzunmüddətli aktivlər, o cümlədən uzunmüddətli maddi aktivlər; uzunmüddətli qeyri-maddi aktivlər.
Qısamüddətli aktivlər, o cümlədən qısamüddətli maddi aktivlər; qsamüddətli qeyri-maddi aktivlər.
Pul vəsaitləri, o cümlədən nağd pul vəsailəri; bank hesablaşma hesablarında olan vəsaitlər; bankdakı xüsusi hesablarda olan vəsaitlər:

Hesablaşmalar, o cümlədən qısamüddətli hesablaşmalar; uzunmüddətli hesablaşmalar;

Kapital və ehtiyatlar: kapitallar; ehtiyatlar; Borclar və s;

Məsrəflər;

Maliyyə nəticələri: mənfəət; zərərlər və s.

Təsərrüfat subyektləri vasitəsilə mühasibat uçotunun təşkilində mərkəzləşdirilmiş üsulun tətbiqi özündə bütün uçot sənədlərinin mərkəzi mühasibatlıqda təmərküzləşməsindən xəbər verməkədir. Vahid məkanda məskunlaşan sənədlər öz növbəsində aşağıdakı fəaliyyət mərhələlərinə də qədəm qoymalıdır.

Müvafiq prosesilərin nümunəvi qaydada təsnifləşdirilməsi aşağıdakı mühüm bəndlərin ortaya çıxmasına səbəb olmaqdadır: zərurət nəticəsində təsərrüfat əməliyyatlarının kəmiyyətlərinin uyğun ilkin sənədlərə köçürülməsi; analitik məlumatların uyğun bölmələrədə birləşdirilməsi; ibtidai sənədlərin qarşılaşdırılması üsulu əsasında mümkün səhvlərin ortaya çıxarılması; səhvlərin müəyyən ediləməsi və düzəlişlərin icrası əsasında sintetik uçotun sistemli təşkili; əməliyyatların məzmun əlamətləri nəzərə alınmaqla sadə və mürəkkəb mühasibat müxabirləşmələrinə müraciət olunması; dövriyyə və dövriyyədən çıxarış cədvəllərinin əməliyyatların valyutaları nəzərə alınmaqla tərtib olunması;

Sadalanan bəndlər özündə kifayət qədər tutumlu məlumat massivlərini cəmləməkdədir. Digər tərəfdən, uçotun təşkili zamanı təsərrüfat əməliyyatlarının arasında olan əlaqənin sənədləşmə proseslərinə də siraət etməsi zəruridir. Belə ki, fərdi bloklar arasında əlaqənin mövcud olmaması son nəticədə mühasibat balansında və digər hesabatlarda səhvlərin formalaşmasına səbəb olacaqdır. Müəssiələrdə uçotun düzgün təşkili və apraılması qaydalar çərçivəsində olmasından ötrü yuxarıda sadaladığım aktivlərin,öhdəliklərin,kapitalın və onun elemetlərinin,pul vəsaitlərinin qeydiyyatı çox mühümdür.Aktivlər müəssisələr tərəfindən qəbul edilərkən qısamüddətli və yaxud uzunmüddətli olması ən başda məlum olmalıdır və bunun əsasında uçotu təşkil oluna bilsin.Aktivin qısamüddətli aktiv kimi uçota alınması müəssisənin həmin aktivə 1 illik və yaxudda 1 ildən daha aşağı bir dövr üçün nəzərdə tutması deməkdir.Bu həmin aktivin çox zaman kommersiya müəssisələrində satılacaq olan məhsul kimi dəyərləndirilir.Bundan əlavə uzunmüddət üçün də balansa alınan aktivlərdən söz açmalıyıq ki,belə hallarda da müəsissə həmin aktivə 1 ildən daha artıq bir dövr nəzarət edəcəyini öz qeydiyyat sənədlərində göstərir.

Tutaq ki,müəssisə qısamüddətli mal alışı edir, bu halda müxabirləşmə aşağıdakı şəkildə olacaqdır:

DT	Məbləğ	KT	Məbləğ
205 Mallar (Mobil tel)	3500	223 Bank hesablaşma hesabı	3500
Yekun	3500	Yekun	3500

Uzunmüddətli aktivin müəssisəyə alışında isə müxabirləşmə belə olmalıdır:

DT	Məbləğ	KT	Məbləğ
111 QMA (proqram t)	5000	223 Bank hesablaşma hesabı	5000
Yekun	5000	Yekun	5000

NEFTİN QİYMƏTİNİN VƏ DEVALVASİYANIN AZƏRBAYCAN BANK SEKTORUNA TƏSİRİ

Dadaşov M.Ə.
OdlarYurdu Universiteti
E-mail: miryusif.dadashov@bk.ru

Neft və qaz sektoru iqtisadiyyatın digər sektorlarının inkişafında aparıcı rol oynamışdır. Xüsusilə 1994 – cü ildə bağlanmış "Əsrin Müqaviləsi" XX əsr Azərbaycan iqtisadiyyatında yeni mərhələnin əsasını qoydu. Əsrin müqaviləsində 8 ölkə (Azərbaycan, Yaponiya, Rusiya, Türkiyə, ABŞ, Səudiyyə Ərəbistanı, Norveç və Böyük Britaniya) və 13 neft şirkəti (ARDNŞ, Amoco, BP, McDermott, Ramco, Lukoil, Unocal, Türkiyə Petrolları, Delta, Statoil, Exxon, Pennzoil, ITOCHU) iştirak etmişdir.

Bu müqavilədə Azərbaycan Neft Şirkətinin 20%, ABŞ şirkətlərinin isə (Amoco, McDermott, Unocal, Exxon) birlikdə 50% payı var idi. Beləliklə, Azərbaycan belə bir razılaşmanın əldə olunması nəticəsində beynəlxalq arenada tanınmış və nəzərəçarpan mövqe qazanmış, dünya miqyasında neft ixrac edən ölkəyə çevrilmişdir.Daha sonra Bakı-Supsa və Bakı-Novorossiysk boru kəmərləri istifadəyə verildi. Bu bir faktdır ki, bu neft boru kəmərləri ölkənin artan neftini dünya bazarına ixrac edə bilmədi. Buna görə də əsas neft ixrac edən boru kəmərini ən qısa zamanda inşa etmək lazım idi. Bu məsələ Bakı-Tiflis-Ceyhan boru kəmərinin aktual məsələ kimi qurulmasına gətirib çıxardı. Neft ehtiyatlarının inkişafı üçün hazırlanmış strategiyanın reallaşdırılması və beynəlxalq neft şirkətləri ilə əhəmiyyətli müqavilələrin bağlanması üçün bir neçə milyard dolları olan xarici investorlar layihəyə cəlb olunmuşdur.

Azərbaycan iqtisadiyyatı 2003–cü ildən sonra dinamik iqtisadi inkişaf mərhələsinə qədəm qoydu. Son 10 ildə devalvasiyadan öncə ÜDM və qeyri-neft sektoru müvafiq olaraq 3,4 və 2,7 dəfə artmışdır. Ölkənin iqtisadi valyuta ehtiyatları 30 dəfə artaraq 50 milyon dollara çatmış və əhalinin gəlirləri 6,1 dəfə artmış, çoxlu sayda iş yerləri açılmışdır. Bu müddət ərzində yoxsulluq səviyyəsi və işsizlik ardıcıl olaraq 6% və 5,2% -ə qədər azalmışdır. Azərbaycan iqtisadiyyatına 132 milyon dollar investisiya edilmiş, xarici ticarət dövriyyəsi 6.3 dəfə artmışdır. Sahibkarlıq subyektlərinə 1.2 milyard manat həcmində dövlət borcları verilmiş və verilmiş kreditlər təxminən 113.1 min iş yerinin açılmasına səbəb olmuşdur. Dövlət büdcəsinin gəlirləri 14.1 dəfə, dövlət büdcəsinin xərcləri 13.8 dəfə, əhalinin əmanətləri 24 dəfə, vergi daxilolmaları 7.3 dəfə, bankların aktivləri 18 dəfə artmışdır.Beynəlxalq Maliyyə Korporasiyası və Dünya Bankı tərəfindən hazırlanan "Doing Business 2009" hesabatında 2007-2008 ci illər ərzində Azərbaycan dünyada ən islahatçı ölkə seçilmişdir. "Doing Business 2019" hesabatında isə Azərbaycan 190 ölkə arasında 2017 ci ilə nəzərən 32 pillə irəliləyərək 25 ci yerdə öz yerini almışdır. Beynəlxalq Reytinq Agentliyi hesab edilən "Standard and Poor's" tərəfindən ölkənin iqtisadi vəziyyətini "Stabil"-dən "Positiv"-ə qədər yüksəldiyini açıqlamışdır.

Dünya İqtisadi Forumunun (DİF) 2017-2018 Qlobal Rəqabətlilik Hesabat– ında Azərbaycan iqtisadi rəqabət qabiliyyətinə görə 2 pillə irəliləyərək 137 ölkə arasında 35- ci yerə yüksəlib. 2018–2019 Qlobal Rəqabətlilik Hesabat–ında Əhalinin elektrik enerjisi ilə təmin olunmasına görə isə 100%-lik nəticə ilə ilk pillədə qərarlaşıb. Biznesin dinamikliyi reytinqində isə 140 ölkə arasında 31-ci yerdədir. Bu indikatorda investisiya qoyuluşunun payı əhəmiyyətli çəkiyə malikdir. (Business, 2018). Bank elə bir iqtisadi qurumdur ki, əmtəəsi pul olub pul ilə bağlı olan əməliyyatlar - pul emissiyası, pulun alınıb-satılması, kreditlərin verilməsi, deposit qoyuluşları, investisiya qoyuluşu kimi bir sıra fəaliyyətlərin həyata keçirilməsində mühüm rol oynayır və ən əsası bank bütün bu həyata keçirilən əməliyyatlar qarşılığında müəyyən dərəcədə faiz əldə edir. Bildiyimiz kimi Azərbaycan iqtisadiyyatı üçün neft sektoru əsas faktordur buna baxmayaraq son illərdə qeyri-neft sektorunun inkişafı iqtisadiyyatın neftdən asılılığını azaldır ki, bu da bank sektorunda böyük əhəmiyyətə malikdir.

Azərbaycan dövləti müstəqillik qazandıqdan sonra bank sektorunda böyük nailiyyətlər əldə edilmişdir. Belə ki, nüfuzlu maliyyə institutlarına və beynəlxalq təşkilatlara üzv olmuşdur. Həyata keçirilən islahatlar nəticəsində bank sektoru inkişaf potensialını qoruyub saxlamışdır. Xarici investorların cəlb edilməsi üçün infrastruktur tədbirlər həyata keçirilmiş və buna müəyyən qədər nail olunmuşdur.Ötən illərdə yerli iqtisadiyyatın, layihələrin və tənzimləyici islahatların əhəmiyyətli artmasına baxmayaraq, Azərbaycanın bank

sektoru iqtisadiyyatın həcminə nisbətən kiçik paya sahibdir. Hazırda enerji resursları ilə zəngin olan Azərbaycan hökuməti qeyri-neft sektorunun inkişafı istiqamətində əhəmiyyətli tədbirlər görür, bank sektorunun bu hədəfin dəstəklənməsi və reallaşdırılması üçün əhəmiyyətli bir rol oynaması da vacib faktlardandır. Bankın məcmu kapitalının minimum miqdarı 10 (on) milyon manat, 2015-ci il 1 yanvar tarixindən isə 50 (əlli) milyon manat məbləğində olmalıdır. (ARHADR, 2012)

Bəzi banklar devalvasiya nəticəsində bankın kapitalının azalması səbəbilə öhdəliklərini gələcək dövrdə qarşılaya bilməməsini proqnazlaşdırılaraq bağlanma qərarı almışdır.Devalvasiyadan sonra Azərbaycan Mərkəzi Bankının həyata keçirdiyi bu siyasət nəticəsində yalnız 26 bankın nizamnamə kapitalının 50 (əlli) milyon manat olduğu aşkar olunmuş və nizamnamə kapitalı 50 (əlli) milyon manatdan az olan kiçik banklar öz fəaliyyətlərini dayandırmışdır.Azərbaycan iqtisadiyyatında inkişafın ən vacib göstəricilərindən biri də neft sektorudur. Neft qiymətlərinin aşağı düşməsi və ya əksinə olaraq qalxması iqtisadiyyata demək olar ki, birbaşa təsir göstərir. Əsasən də bu təsir özünü iqtisadiyyatın qan damarları hesab edilən bank sektorunda büruzə verir.

Qlobal maliyyə bazarlarında ölkələrin rəqabəti və dəyişən elmi-inkişafi prosesləri nəticəsində maliyyə böhranlarının baş verməsi qaçınılmazdır. Son illərdə baş verən maliyyə böhranlarının səbəblərinin araşdırılması üçün elmi-tədqiqat işlərinin sayı olduqca artmaqdadır. Qlobal maliyyə böhranlarının ən çox təsir etdiyi sahə bank sektoru olmuşdur. Bankların 2008 - ci il böhranından sonra maliyyə iqtisadi vəziyyəti kəskin sürətdə aşağı düşməyə başladı və bunun nəticəsində banklar müflisləşərək öz fəaliyyətlərini dayandırmağa məcbur oldular. Son illərdə isə böhranın miqyası getdikcə genişlənərək daha çox ölkələri əhatə etməyə başladı. Böhranın baş verməsi nəticəsində bankların iri kreditorlarının və əmanətçilərinin hüquqlarını qoruya bilmək üçün lazımı mexanizmlərin təşkil olunmadığı əsas gətirilmiş bunun nəticəsində isə banklar öz nüfuzlarını maliyyə-bank sektorunda getdikcə itirməyə başlamış və depozit qoyuluşlarının həcmi kəskin olaraq azalmışdır. Bu problemlərin yaşanmaması üçün bank sektorunun maliyyə sabitliyini qorumaq məqsədilə banklar tərəfindən kompleks tədbirlər həyata keçilir.

BANKLARIN İNVESTİSİYA SİYASƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

Dünyamaliyev A.H.
OdlarYurdu Universiteti
E-mail: abdindunyamaliyev@gmail.com

Almaniya fondların səmərəliliyinin sərbəst hərəkətindən necə faydalana biləcəyi məsələsində uğurlu addımlar atır, Fondun davamlı işlərini alqışlayır və özünü dəyişkən kapital axınlarının müvafiq siyasətlərin təsirindən qoruyur. Bu çərçivədə kapital axını tədbirləri ilə makroprudensial tədbirlər və onların effektivliyi arasındakı qarşılıqlı əlaqəni araşdırmaq üçün davamlı iqtisadi tədbirlər yüksək səviyyədə təmin edilir. Yaxın gələcəkdə bu məsələlərlə bağlı müzakirələrə və ümumiyyətlə maliyyə sabitliyinə cavab verəcək yeni makroprudensial məlumat bazasını gözlənilir. Alman maliyyə sektoru bir çox cəhətdən çox mürəkkəbdir.

Birincisi, bank sektorunda çox sayda müxtəlif istiqamətli qurum var: Fond analizində 1700-dən çox müəssisəni nəzərdən keçirmişdir. Bir çox fərqli funksiyalı sığortaçı təşkilatlar da mövcuddur. Bu təşkilatlar fərqli dərəcədə mürəkkəblik dərəcələrinə, bir çox payı ümumi xüsusiyyətlərə malikdir və bir çoxları maliyyə sabitliyi üçün potensial əhəmiyyət daşıyırlar. Almaniyanın maliyyə sektoru yüksək səviyyədə bir-biri ilə əlaqələndirilir. Bizim təhlilimiz göstərdi ki, bu yaxın əlaqələr səbəbindən, orqanlar banklar və həyat sığortaçlarını yaxından izləmək və sistemli risk analizlərini aparmaqda davam etdirilməlidirlər. Almaniyada ayrıca, dünyanın bir çox ölkəsindən təxminən 190 təmizlik qrupuna xidmət verən klirinq evi Eurex Clearing AG, eləcə də sığortaçı Allianz SE, Deutsche AG bankı da daxil olmaqla, qlobal sistemli əhəmiyyətli qurumlara ev sahibliyi edir. Bu, bizim təhlilimizin nəzərə alınması lazım olan əlavə bir beynəlxalq əlaqələndirici təbəqə yaradır: xarici təsirlər Almaniyadakı inkişaflara təsir edə bilər və Alman maliyyə sistemində baş verənlər bütün dünyada böyük əks-səda doğurur. Bu potensial qlobal təsirlər risk idarəetməsini, sistemli qurumların sıx nəzarətini və onların monitorinqini xüsusilə vacib edir.

İkincisi, biz çox fərqli bir institusional mühitlə üzləşirik. Avro bölgəsində aparılan islahatlar, bankların tənzimləndiyi və nəzarət olunduğu yolları dərindən dəyişən Təkmilləşdirilmiş Nəzarət Mexanizmi (Single Supervisory Mechanism) və böhrana hazırlıq və bankın həlli ilə məşğul olmaq üçün yeni qaydalar müəyyən edən vahid qərar mexanizmi (Single Resolution Mechanism) yaratdı.

Bank ilk kommersiya əməliyyatını 1946-cı il iyunun 25-də həyata keçirmişdir. 1947-ci il noyabrın 15-də isə BMT-nin Baş Assambleyasının qərarı ilə onun mütəşəkkil təşkilatına çevrilmişdir.Bankın ilk prezidenti

Yucin Mayer olmuşdur.Dünya Bankı ilk olaraq Fransa, Danimarka, Çili, Polşa, Çexoslovakiya və Lüksemburqa kredit vermişdir.Dünya Bankının Əsasnaməsi müxtəlif dövrlərdə dəyişikliklərə məruz qalaraq 11 maddə və 2 əlavədən ibarətdir.1-ci maddə Bankın məqsədlərini özündə ehtiva edir. Maddədə göstərilən müddəalara əsasən, DB-nın yaradılması məqsədi aşağıdakılardır:

- İştirakçı ölkələrin müharibə nəticəsində yaranmış dağıntıların aradan qaldırılması da daxil olmaqla,inkişaf və yenidən qurulma səylərinə effektiv sərmaye qoyuluşları kanalı ilə yardım edilməsi,inkişaf etməkdə olan ölkələrin resurslarının və səmərəli imkanlarının inkişafının stimullaşdırılması.
- Özəl və xarici kapital qoyuluşlarının cəlb olunması və ya kredit vasitəsilə dəstəklənməsi; özəl kapitalın yetərli olmadığı yerlərdə öz resurslarını istifadə edərək yardım edilməsi.
- Beynəlxalq ticarətin inkişaf etdirilməsi və hesablaşma balansını sabitləşdirmək üçün inkişafa yönəlmiş beynəlxalq investisiyaların stimullaşdırılması.
- Digər kanallardan əldə olunan kreditləri yenidən tənzimləmək və ya zəmanət vermək şərti ilə daha səmərəli və vacib layihələrdə istifadə olunmasının təmin edilməsi.
- Müharibədən sülhə keçid dövründə mümkün olan ən əlverişli şəraitin yaradılmasına istiqamətlənmiş beynəlxalq investisiyaların idarə olunması. Ümumiyyətlə Dünya Bankı Beynəlxalq Valyuta Fondu ilə birgə, 1946-cı ildən 1973-cü ilə qədər Beynəlxalq Valyuta Sistemində etibarlı olan "Bretton-Vuds Sisteminin" mühüm bir hissəsi kimi yaradılmışdır. Bu iki təşkilatın qurulduğu 1944-cü il, İkinci Dünya müharibəsinin sona çatması və kapitalizmin ən böyük böhranının reallaşdığı iki müharibə arası dövrün qapandığı siqnallarının verildiyi bir il idi. Müharibə nəticəsində, Avropanın böyük bir hissəsi məhv olmuş, müharibədə iştirak edən bütün ölkələrin sənayeləşmə prosesi və sosial infrastrukturları bütövlükdə yaralar almışdı.Bu səbəbdən məhz Bretton-Vuds konfransında hər bir ölkə öz tələblərini dilə gətirməyə çalışırdı.Qeyd olunmalıdır ki,bu istəklər bizə dövr və bu dövrdə baş tutan hegemoniya mübarizəsi haqqında çox vacib məlumatlar verir.

Beynəlxalq Valyuta Fondu beynəlxalq valyuta əməkdaşlığının və ticarətin tarazlı bir şəkildə inkişafına dəstək olmaq,hesablaşmalar balansında çətinliklərlə üzləşən üzv ölkələrə ,kvotalarına uyğun maliyyə yardımları etməklə onların ödəmə balansında yaranan problemlərin həll yollarının tapılmasına səy göstərmək və bunların bir təzahürü olaraq qlobal iqtisadi sistemin dayanıqlılığını təmin edərək beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsi misyasını öz üzərinə götürmüşdü. Digər tərəfdən isə Dünya Bankı öz məqsədini, müharibə nəticəsində məhv olmuş Qərbi Avropa ölkələrinin yenidən bərpası və bu ölkələrin müharibə iqtisadiyyatından asılılığının azaldılmasına yardım edərək, az inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin inkişafına nail olmaq olaraq təyin eləmişdi.Qeyd olunduğu kimi Dünya Bankının yaradılmasında əsas məqsəd artan iqtisadi problemlərə, beynəlxalq ticarətdə yaranmış disbalansa və yoxsulluğa çarə tapmaq,eləcə də restrukturizasiya və inkişafa nail olmaq idi. ABŞ tərəfindən hazırlanmış Marşal planı çərçivəsində Avropa iqtisadiyyatının rekonstruksiyasının təmin edilməsindən sonra, bankın məqsədi dəyişmiş və inkişaf etməkdə olan ölkələrin investisiya krediti ehtiyaclarını ödəmək üçün bir növ investisiya və inkişaf bankına çevrilmişdir.

RESPUBLİKAMIZDA QEYRİ-KOMMERSİYA STURUKTURLARININ STRATEJİ İDARƏÇİLİYİ

Duquşova A.Q.
OdlarYurdu Universiteti
E-mail: aysun200016@gmail.com

Strateji idarəetmə - hər hansı bir təşkilatın məqsədlərinə çata bilməsi üçün düzgün strategiyaları inkişaf etdirməsi, bu strategiyaların məhsuldar bir şəkildə tətbiqini və alınan nəticələrini qiymətləndirərək məqsədə doğru gedib-getmədiyini müəyyən edən idarəetmə prosesidir. Strateji idarəetmə prosesi, qurumun hər alt vahidinin əsasında fərqlilik göstərmir. Ümumi bir təşkilat üçün təyin olunan strateji idarəetmə anlayışı var və bütün alt vahidlər, üst idarəçilərin məsuliyyətində olan bu strateji idarəetmə məfhumu istiqamətində üzərlərinə düşəni yerinə yetirirlər. Strateji idarəetmədə istifadə edilən vasitə strateji plan adlanır. Strateji planda da strateji düşünmək dəstəklənir, bu səbəbdən də strateji idarəetmə təşkilatın idarə olunmasında strateji düşünmə tərzinin tətbiq olunması kimi də müəyyən oluna bilər. Strateji idarəetmənin həmçinin digər idarəetmə yanaşmalarından, əl-əxsus da funksional idarəetmədən (başqa sözlə: əməliyyat, maliyyə, insan qaynaqları, mühasibat, marketinq, və s.) kiçik, lakin olduqca vacib fərqlilikləri və özünə məxsus xüsusiyyətləri vardır. Strateji idarəetmə bir neçə funksiyaları özündə birləşdirir. Hazırki yüksək rəqabətin mövcud olduğu mühitdə funksional ixtisas uğur üçün gərəkli olmaqdan əlavə, təkbaşına olması kifayət etmir. Strateji üst səviyyə menecer, hər bir funksiyanın

uğurunu, bir bütün olaraq müəssisənin missiyası, müvəffəqiyyəti və strategiyası ilə bütövləşdirib məlumatlandırarsa funksional səviyyədəki müvəffəqiyyətin mənası olar. Funksional menecer də uğurlarını təşkilatın bütöv uğuru ilə əlaqələndirərsə strateji menecer olar.

Strateji idarəetmə - bir bütöv olaraq bir qurumun və ya təşkilatın uğurlu olmasına enerji sərf edir. Ən məhsuldar menecerlər müəssisələrinin, ya da təşkilatlarının bütün hədəflərini anlaşıla biləndir. Ancaq öz şöbəsinin məqsədinə fokuslanan funksional menecer yerli maksimum ilə dünyəvi optimum şansını qaçıra bilər, belə ki öz hissəsi üçün maksimum nöqtəsinə çatan zaman qurumun bütünlüyünə ziyan vermiş ola bilər. Bir qurumun hər bir məqsədi ilə, həmçinin hər bir funksiyasının ehtiyacları arasında olan fərqi anlaması üçün şöbə menecerinin strateji idarəetmə prosesində iştirakı vacibdir. Yalnız bu yolla bölməsinin qurumun hər bir məqsədinə hansı töhvələr verdiyini və ya verə biləcəyini anlaya bilər.

Qeyri-kommersiya təşkilatları hesab olunan hüquqi şəxslər, fondlar, ictimai birliklər, hüquqi şəxslərin birləşmələri formasında, həmçinin qanunvericilikdə nəzərdə tutulan digər formalarda da yaradılması mümkündür. Qeyri-kommersiya hüquqi subyektləri sahibkarlıq fəaliyyəti ilə ancaq o halda məşğul ola bilər ki, fəaliyyət zamanı onların yaradılması prosesində qarşıya qoyulmuş hədəflərə çatmağa xidmət etsin, həmçinin bu hədəflərə uyğun gəlsin. Qanunvericilikdə birbaşa öz əksini tapmasa da, ancaq sahibkarlıq fəaliyyətinin ən əsas məqsədi olan mənfəət əldə olunması sistemli, müntəzəm xarakter daşımalıdır, belə ki mənfəət əldə olunması məqsədi ilə epizodik bir şəkildə hər hansı işin yerinə yetirilməsi, xidmətlərin göstərilməsi və s. özü-özlüyündə sahibkarlıq fəaliyyəti kimi qələmə verilə bilməz. Sistemli və müntəzəm şəkildə mənfəət qazanmaq ən əsas məqsədi olan sahibkar həmin fəaliyyətlə (yəni sahibkarlıq fəaliyyəti ilə) məşğul olmanı peşə halına gətirməli, hətta öz fəaliyyət istiqamətini dəyişsə belə (misal üçün, xidmətlər göstərilməsi sferasında məşğul olan bir sahibkarın öz fəaliyyət istiqamətini dəyişərək kənd təsərrüfatı ilə məşğul olması və s.) əsas hədəf, yəni sistemli və müntəzəm şəkildə gəlir qazanmaq hədəfi dəyişməz qalmalı, bu hədəfə yönəldilmiş fəaliyyət ilə sahibkar bir peşə şəklində məşğul olmalıdır. Bazar iqtisadiyyatına keçid şəraitinin olduğu mühitdə rəqabətin güclənməsi, bazarın subyektləri arasında sahibkarlıq fəaliyyətinin uyğun şərtləri, həmçinin ciddiliyi sahibkarlıq fəaliyyətinin ən əsas atributlarının birini də şərtləndirir və bu, sahibkarlıq fəaliyyətinin təşəbbüskarlıq xarakterlərindən ibarətdir.

Hüquqi şəxslərin fəaliyyətində əsas məqsəd mənfəət əldə etməkdən ibarət olan (bura aiddir kommersiya hüquqi şəxsləri) ya da əsas missiyası mənfəət əldə etməkdən ibarət olmayan və ya götürülən mənfəəti iştirakçıları arasında divident olaraq bölüşdürməyən (qeyri-kommersiya hüquqi şəxsləri) təşkilatlar ola bilər. Qeyri-kommersiya təşkilatları adını daşıyan hüquqi şəxslər fondlar, ictimai birliklər, hüquqi şəxslərin birləşmələri formasında, həmçinin qanunvericiliklə nəzərdə tutulmuş digər formalarda da yaradıla bilər. Qeyri-kommersiya hüquqi subyektləri sahibkarlıq fəaliyyəti ilə yalnız o zaman məşğul ola bilər ki, həmin fəaliyyət onların yaradılanda qarşıya qoyulmuş hədəflərə nail olmağa xidmət etsin, həmçinin bu hədəflərə uyğun gəlsin. Sahibkarlıq fəaliyyətini reallaşdırmaq üçün qeyri-kommersiya hüquqi şəxsləri öz növbəsində müxtəlif təsərrüfat qurumları yarada bilərlər ya da onlarda iştirak edə bilərlər. Qeyri-kommersiya qurumları, həmçinin fondların yaradılması strategiyasına sahib olmalıdır. Onun vəsaitinin mənbəyi qazanc güdməyən sektor, həmçinin hökumət və biznes sektorları arasında, demək olar ki, ən böyük əsas fərqdir. Biznes qurumu öz müştərilərinə nəsə satmaqla pul əldə edir, hökumət isə vergilərlə. Mənfəət güdməyən qurumlar isə donorlardan pul yığır. Bu tip təşkilatlar öz pulunun böyük bir qismini, ümumi prosedurda iştirak etmək istəyən, fəqət ondan faydalanmayan adamlardan toplayır.

Demək olar ki, təyinatına əsasən həmişə qeyri-kommersiya qurumlarında pul çatışmazlığı halları olur. Bəzən bir çox qeyri-kommersiya qurumlarının icraçı rəhbərləri belə düşünürlər ki, əgər onların aktivində daha çox pulu olarsa, o zaman bütün problemləri həll etmiş olarlar. Əslində isə, onlardan bəziləri belə bir fikirdən yanadır ki, pul toplanması həqiqətən də onların missiyasıdır. Məsəl üçün, bəzi kollec və universitetlərin rəhbərlərini göstərmək olar ki, onlar, ümumiyyətlə, pul toplanması işinə o qədər başları qarışıb ki, təhsil prosesinə rəhbərlik etməyə nə zamanları, nə də fikirləri var.Lakin pul toplanması məsələsindən asılı olan hər hansı qeyri-kommersiya qurumu ciddi bir problemlə üzləşir və nəticədə ciddi böhran yaşayır. Pul toplanması strategiyasının əsas məqsədi, tam dəqiq olaraq, qeyri-kommersiya qurumunu öz missiyasını yerinə yetirən zaman pul toplanması məsələsindən mümkün qədər asılı etməməkdir. Elə buna görə də, qeyri-kommersiya qurumlarında işləyən əməkdaşlar istifadə etdikləri "pul toplanması" ifadəsini daha çox "fond yaradılması" ifadəsi ilə əvəz ediblər. Pul toplanması əlində kasa, gəzərək adamlardan yardım etmələrini xahiş etməkdir, belə ki ehtiyac həddindən artıq böyükdür. Fond yaradılması isə quruma yardım göstərən sponsor dairəsinin yaradılması prosesidir

Qeyri-kommersiyada marketinq, qeyri-kommersiya qurumları tərəfindən ictimai maraqlar səbəbilə, hər hansı bir ideyanın və ya sosial proqramların, həmçinin xeyriyyə tədbirlərinin və bu kimi digər qeyri-

kommersiya məqsədli tədbirlərin təbliği üçün həyata keçirilən fəaliyyətdir. Qeyri kommersiya tipli reklamlara qeyri-kommersiya obyektlərinin (məsələn, bir neçə siyasi qurumların və ya siyasi dövlət xadimlərinin, ideyanın, ərazinin və ya təşkilatların) reklamları və ya sosial reklamları şamildir. Qeyri-kommersiya müəssisələrinin reklamları müxtəlif siyasi partiyaların, müttəfiqlərin və siyasi xadimlərin, habelə ictimai və dövlət təşkilatların, ideya, ərazi və bu kimi digər faktorlar qeyri-kommersiya obyektlərinin, əvəzində sosial reklamlar isə xeyriyyə və ya digər ictimai faydalı hədəflərə nail olunmasına, həmçinin dövlət, cəmiyyət və müxtəlif vətəndaşların şəxsi və ümumi maraqlarının dəstəklənməsinə yönəldilmiş reklamlar növləridir.

TİKİNTİ SEKTORUNUN İNKİŞAFI VƏ BU SAHƏYƏ QOYULAN İNVESTİSİYALAR

Əbilov O.E.
Azərbaycan Memarlıq və İnşaat Universiteti
E-mail: Orxan.ebilov58@gmail.com

Hazırda Azərbaycan iqtisadiyyatı son dövrlərdə dünya iqtisadi artım tempinə malik ölkələrindən birinə çevrilmişdir. Bu müddətdə ölkədə həyata keçirilən iqtisadi islahatlar iqtisadiyyatın həcmini nəzərə çapacaq dərəcədə genişlənməsinə, əhalinin sosial rifahının yüksəldilməsinə, sosial–iqtisadi infrastrukturun tamamilə genişləndirilməsinə və müasirləşdirilməsinə imkan vermişdir. İqtisadi siyasət sahəsində atılan addımlardan biri olan Strateji Yol Xəritəsi Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş və uzunmüddətli dövr üçün investisiya qoyuluşlarına əlverişli şəraitin yaradılması və buna müqabil iqtisadiyyatın sahələrinə yerli və xarici investorların cəlb edilməsi strateji hədəflərdən biri kimi nəzərdə tutulmuşdur. Respublikada həyata keçirilmiş iqtisadi islahatlar ölkənin qlobal reytinq göstəricilərinin əhəmiyyətli yüksəlməsi ilə də nəticələnmişdir.

Azərbaycanda ən mühüm sahələrdən biridə tikinti sektorudur. Tikinti sektorunun böyüməsini şərtləndirən amillərdən biridə dövlət tərəfindən göstərilən dəstək və güzəştlər təşkil edir. Ölkə ərazisində tikinti sənayesininə bütün dövrlərdə dəstək verilmiş və bir sıra tədbirlər, o cümlədən vergi güzəştləri tətbiq edilmişdir. Tikinti sahəsi neft sektorundan sonra ikinci sahədir ki, ölkə ərazisinə qoyulan investisiyaların çox hissəsi məhz bu sahəyə yönəldilir. Bunun səbəbi tikintiyə qoyulan investisiyaların bir sıra üstünlüklərinin olmasıdır:

- yüksək likvidlik;
- tikilmiş obyektdən daimi passiv kirayə gəlir əldə etmək imkanı;
- mənzil fondu ilə bağlı daşınmaz əmlak alanlar üçün gəlir vergisi dərəcəsi azaldılması;
- sektorun daim aktuallığı.

Müasir dövrdə Azərbaycanın inşaat sahəsindəki iştirakçıları içərisində dövlət şirkətləri ilə yanaşı, bu işdə peşəkar şəkildə fəaliyyət göstərən özəl sektora məxsus tikinti şirkətləri də ölkə ərazisində olan tikinti-quraşdırma işlərində fəal şəkildə iştirak edir. Azərbaycan Respublikasında sahibkarlığın inkişafı və fəaliyyət sahəsinin genişləndirilməsinə dair görülən işlər, tətbiq edilən güzəştlər bütün sektorlarda olduğu ki, tikinti sektorunda da fəaliyyət göstərən sahibkarlara da tətbiq edilmişdir. Dövlət tərəfindən göstərilən bütün bu güzəşt və imkanlar sayəsində tikinti sektorunda fəaliyyət göstərən sahibkarların maliyyə əməliyyatları artaraq onları imkanlı və prespektiv şəxslərə çevirmişdir.

Son dövrlərdə tikintidə həm dövlət, həm də özəl investisiyaların həcmində yüksək artım dövlət tərəfindən investisiya qoyuluşlarını tənzimlənməsini, bu sahədə dünyanın qabaqcıl ölkələrinin təcrübəsindən istifadə etmək zərurətə çevirmişdir. Qeyd edilən faktorların həm tənzimlənməsində, həmdə iqtisadi göstəricilərinin artırılmasında, ölkə ərazisində bank-kredit, vergi sistemində bir sıra dəyişikliklər edərək, yüksək səviyyədə inkişaf etdirilməsi lazımdır. Sadalanan sektorların inkişafı baxımından mənzil tikintisi sahəsində Almaniya Federativ Respublikasının təcrübəsinin çox böyük əhəmiyyəti var. Sözü gedən ölkədə tikinti sektoru və onun material bazarı əsasən əhalinin öz vəsaiti hesabına formalaşır. Burada banklar əhaliyə aşağı faizli, uzunmüddətli kreditlər ayırır və bu zaman tikinti firmaları əsasən müəyyən haqq müqabilində tikinti işlərini görən podratçı qismində çıxış edir.

Azərbaycan Respublikasında 2010-2021-ci illər üzrə tikinti-quraşdırma işlərinə sərf edilmiş investisiyaların dəyəri aşağıdakı Diaqram 1-də göstərilmişdir. Nəzərdən keçirlən illər ərzində ən yüksək göstərici 2014-cü ildə olmuşdurki, bunun da əsas səbəbi 2013-cü ildə baş verən qiymət artımları və il ərzində mənzil bazarında 20%-ə qədər qiymət artımının baş verməsi, eyni zamanda bu sahəyə paralel olaraq, torpaq sahələrinin də qiymətlərində oxşar artımların olması ilə bağlıdır. Bütün bunların nəticəsində, 2014-cü

ildə tikinti bazarında aparılan alqı-satqı əməliyyatlarının dinamikası, özündən əvvəlki illərə nisbətən yüksəlmişdir.

Bu günkü dövrdə Azərbaycanda tikinti sənayesi kifayət qədər inkişaf etmiş və bu sahədə istənilən nəticələrə nail olunmuşdur. Əgər ölkə ərazisində istifadə edilən tikinti materialları əvvəllər idxal edilirdisə, bu gün bəzi tikinti materialları ölkə ərazisində fəaliyyət göstərən müəssisələr tərəfindən istehsal olunur və istehsal olunmuş materiallar daxili tələbatı ödədikdən sonra yerdə qalan hissəsi xarici ölkələrə də ixrac edilir. Yeni yaradılmış tikinti müəssisələri ölkə tələbatını ödəməklə yanaşı həmdə makroiqtisadi göstərici olan işsizliyin azalmasında da müstəsna rola malik olaraq, orada çalışan əhalinin rifah halının yaxşılaşdırılmasına müsbət təsir göstərirmişdir.

Diaqram 1. Tikinti-quraşdırma işlərinə sərf edilmiş investisiyalar



Aşağıdakı diaqram 2-də neft-qaz və qeyri neft-qaz sektorları üzrə tikinti-quraşdırma işlərinə yönəldilmiş investisiyaların 5 illik dəyişiklik dinamikası təsvir olunmuşdur.

Diaqram 2. Neft-qaz və qeyri neft-qaz sektorları üzrə tikinti-quraşdırma işlərinə yönəldilmiş investisiyalar



	2017	2018	2019	2020	2021
Tikinti-quraşdırma işləri	12 447 039,10	11 737 621,40	11 974 844,60	11 021 953,10	11 200 125,00
neft-qaz sektoru	5 456 458,70	2 879 410,70	2 251 001,10	2 527 609,60	2 097 993,60
qeyri neft-qaz sektoru	6 990 580,40	8 858 210,70	9 723 843,50	8 494 343,50	9 102 131,40

Burada nəzərdən keçirilən illər ərzində ən yüksək göstərici 2017-ci ildə 12 447 039,1 min manat təşkil edirki, bunun 5 456 458,7 min manatı neft-qaz sektorunun, 6 990 580,4 min manatı isə qeyri neft-qaz sektorunun payına düşür

Tikinti sektorunun inkişafı sahəsində dövlət tərəfində aparılan digər tədbirlərdən biri də sosial mənzillərin tikintisi ilə əlaqədar olaraq həmin sahədə fəaliyyət göstərən sahibkarların maraqlarını arıtmış, yerli xammaldan istifadə etməyə imkan yaranmış və tikinti materialları sənayesinin inkişafını təmin etmişdir.

AKTİV MƏŞĞULLUQ TƏDBİRLƏRİ İLƏ BAĞLI DÖVLƏT SİYASƏTİ

Əliyev S.V.
Naxçıvan Dövlət Unveristeti
E-mail: Samad.aliyev12@gmail.com

Məşğulluq və əmək bazarına yönəlmiş dövlət siyasəti dövlətin makroiqtisadi hədəflərə çatması, maddi nemətlərin ədalətli bölgüsü və cəmiyyətin rifahının təmini baxımdan ən mühüm sosial iqtisadi tədbirləri əhatə edir. Aktiv əmək bazarı siyasətinin və əlaqəli tədbir və tətbiqlərin bu baxımından əhəmiyyəti böyükdür. Aktiv məşğulluq siyasəti Covid-19 pandemiyasın iqtisadiyyata xüsusi ilə məşğulluqda səbəb olduğu uzunmüddətli neqativ təsirləri aradan qaldırmaqda ən əsas tədbirlər sistemini təşkil edəcəkdir.Aktiv məşğulluq siyasəti tətbiqi baxımından aşağıdakı üç əsas istiqamət üzrə proqramlaşdırılır: mövcud əmək bazarlarında təhsil və tədris proqramları, yeni iş yerləri yaratma proqramları, mövcud iş yerlərinə yerləşdirmə ilə bağlı məşğulluq xidmətlərinin göstərilməsi.Beynəlxalq təcrübə göstərir ki, əmək bazarlarında aktiv məşğulluq siyasətinin effektivliyi fərqlidir və faydalanan hər bir subyekt üçün xərclər müxtəlif şəkildə dəyişkəndir yəni faydalılıq əmsalı fərqlidir.

Dövlət məşğulluq xidmətləri əmək tələbi ilə əmək təklifi arasındakı uyğunsuzluğu azaltmağa kömək edir. Eynilə, onlar mövcud vakansiyaları qiymətləndirərək və onları işaxtaranların profilləri ilə uyğunlaşdıraraq yüksək keyfiyyətli iş uyğunluğunu asanlaşdıra bilərlər. İşaxtaranlarla işəgötürənlər arasında işə yerləşdirmə agentliklərinin vasitəçi rolu işaxtaranların bacarıqlarının yerli əmək bazarının ehtiyaclarına uyğunlaşdırılmasını asanlaşdıra və yerli firmaların məhsuldarlığını artıra bilərlər. Məşğulluq xidmətlərinin rolunun gücləndirilməsi, işə qəbulun adətən qeyri-rəsmi kanallar vasitəsilə həyata keçirildiyi yüksək qeyri-rəsmi dərəcələri ilə xarakterizə olunan inkişaf etməkdə olan ölkələr kontekstində bəlkə də daha aktualdır Məşğulluq xidmətləri çox səmərəli ola bilər, lakin əmək bazarlarında tələbinin zəif olduğu bölgələrdə ondan məhdud səviyyədə istifadə olunur. Bu baxımdan Naxçıvan Muxtar Respubilikası kimi regionlarda əsas vasitə olaraq tətbiqi doğru olmazdı.

Hökumət tərəfindən maliyyələşdirilən təlim proqramları benefisiarların yeni texniki və yumşaq bacarıqlar əldə edə biləcəyi ümumi və ya xüsusi təlimlər verməklə onların məşğulluq perspektivlərini artırmaq məqsədi daşıyır. Təhsil və təlim xərcləri yüksək kimi görünə bilər. Köhnə sektorlardakı işlərini itirən işçilər yenidən hazırlana və yeni sektorlardakı yeni, tələb olunan işlərlə uyğunlaşdırıla, beləliklə, struktur dəyişikliyinə və sənaye sistemlərinin təkamülünə uyğunlaşdırıla bilər. Lakin ixtisar olunan işçilərə yeni iş imkanları yaratmaq baxımından əhəmiyyətlidir. Eyni zamanda məşğuluğun təmini ilə əldə olunacaq vergi gəliri ilə əlaqəli gəlirləri nəzərə alındığındığı zaman bu xərclərin böyük ölçüdə qarşılandığını qeyd edə bilərik.

Tənəzzül dövrlərində genişmiqyaslı iş yerlərinin dəyişdirilməsi kontekstində tətbiq olunan aktiv məşğulluq proqramlar xüsusi çətinliklərlə üzləşir, çünki işçilər asanlıqla bir sektordan digər sektora keçə bilmirlər. Onların müvafiq sahədə çalışmaq üçün bacarıqları yetərli standardlarda olmaya bilər, mövcud iş yerləri də az ola bilər və ya başqa bölgəyə köçmək imkanları məhdud ola bilər. Bu baxımından ciddi təlim və tədris proqramlarına ehtiyac yaranmaqdadır. Bu prosesdə potensial işverənlərin iştirakı ilə həyata keçirilməsi təcrübəsindən dünya praktikasında geniş istifadə olunur.

Qeyd etməliyik ki, 2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyasıda əmək bazarında tədris proqramları mühüm yer tutmaqdadır. Respubilikamızı hal hazərda demoqrafik cəhtdən dinamik ölkələr qurupuna aid edə bilərik ki, bu da əmək bazarında daimi olaraq aktiv məşğulluq siyasətinin təbiqini zəruri etməkdədir. Aktiv məşğulluq proqramları çərçivəsində sertifikatlaşdırmanın əhəmiyyəti olduqca böyükdür. Bu baxımdan bir sıra qabaqcıl inkişaf etmiş ölkələrdə geniş təccrübə mövcuddur. Əmək bazrında yeni yaranan yüksək ixtisas tələb edən peşələrin tədris yolu ilə sertifikatlaşdırılması və buna uyğun olaraq işverənlərin işçilərlə bağlı öhdəliklərində güzəştlər tətbiq edilərək və yaxud dövlətin bu öhdəliklərin bir qismini üzərinə götürməsi ilə onların yerləşdirilməsininin təmin edilməsini buna misal göstərə bilərik.

Əmək bazarında tarazlığın təmin edilməsi ən böyük makroiqtisadi problemlərdən biri kimi qarşımızda durmaqdadır. Yeni iş yerlərinin yardılması istiqamətində tədbirlərin görülməsi bu baxımdan mühüm əhəmiyyət kəsb etməkdədir. Aktiv məşğulluq siyasəti çərçivəsində özünü məşğulluq proqramlarının tətbiqi, mikro, kiçik və orta sahibkarlığın dəstəklənməsi yeni potensial iş yerlərinin formalaşmsına kömək edəcəkdir.

Sahibkarlığa və özünü məşğulluğa dəstək baxımından supsidyalar, güzəştli kreditlər və vergi güzəştləri ilə yanaşı biznes təşəbüskarlıq fəaliyyət ilə bağlı tədris proqramları mühüm əhəmiyyət kəsb etməkdədir. Bu formalaşacaq potensial sahibkarların uğurlu olması baxımından mühümdür. Bunla əlaqədar olaraq infrasturuktur bağlı zəruri tədbirlərin görülməsi və əlavə olaraq texniki dəstəyin verilməsi də əhmiyyətlidir.

Covid-19 pandemiyyasının əmək bazarındakı nəticələrini aradan qaldırmaq üçün bu tədbirlər istifadə baxımından kompleks yanaşma tələb etməkdədir. Bu tədbirləri alternativ kimi deyil bir-birinin tamamlayıcısı kimi düşünmək olar. Iqtisadiyyatın və əmək bazarınının sturukturundan aslı olaraq bu tədbirlərin birinin tətbiqinə üstünlük verilə bilər.

KƏND TƏSƏRRÜFATI MÜƏSSİSƏLƏRİNDƏ MARKETİNQİN İDARƏÇİLİYİN TƏŞKİLİ

Əliyeva N.A.
OdlarYurdu Universiteti
E-mail: nurteneliyeva97@gmail.com

Bütün dövrlərdə kənd təsərrüfatı iqtisadyyatın ən mühüm sahələrindən biri olmaqla ölkə əhalisinin ərzaq, sənayenin isə xammala olan tələbatının ödənilməsində mühüm rol oynamışdır. Əhalinin istehlak etdiyi gündəlik tələbat məhsullarının 75%-i kənd təsərrüfatı təbiətli olduğundan bu sahə bilavasitə cəmiyyət üzvlərinin yaşayış səviyyəsini xarakterizə edən maddi istehsal sferası kimi xarakterizə olunur. Kənd təsərrüfatının strateji əhəmiyyəti onun bilavasitə dövlətin ərzaq müstəqilliyinin təmin edilməsində önəmli rol oynaması ilə xarakterizə olunur. İstehsalın digər sahələrindən fərqli olaraq kənd təsərrüfatı özünəməxsus spesifik xüsusiyyətlərə malikdir. Kənd təsərrüfatının özünəməxsusluğunu aşağıdakı kimi səciyyələndirmək olar: Kənd təsərrüfatında torpağın əsas istehsal vasitəsi kimi çıxış etməsi; Torpaq resurslarının məhdudluğu və bu baxımdan kənd təsərrüfatının inkişafının daha çox intensiv amillərə əsaslanma labüdlüyü; Kənd təsərrüfatı istehsalının mövsümi xarakter daşıması, istehsal dövrü ilə iş dövrü arasında uyğunsuzluğun mövcudluğu; Kənd təsərrüfatı istehsalının təbii-iqlim şəraitindən asılılığı; Kənd təsərrüfatının az gəlirliliyi; Kənd təsərrüfatının daxili və xarici rəqabətin əlverişsiz təzahürlərinə effektiv reaksiya göstərmək iqtidarında olmaması.

Kənd təsərrüfatının bu spesifik xüsusiyyətlərinə, xüsusilə bazar iqtisadiyyatı şəraitində rəqabətə davamlı sahə olmamasına baxmayaraq bu sahənin varlığı və inkişafı milli təhlükəsizliyin təmin edilməsində müstəsna rol oynayır. Bildiyimiz kimi qida məhsullarına tələbat insanın ilkin və həyati vacib tələbatlarından ən birincisidir. Bu tələbatın ya tamamilə ödənməməsi ya da qismən ödənməsi cəmiyyətdə ciddi problemlər yarada bilər. Bundan başqa, məlum həqiqət və obyektiv zərurətdir ki, bu gün də, gələcəkdə də kənd təsərrüfatı kənd əhalisinin məşğulluğunun təmin edilməsində, yaşayış səviyyəsinin yaxşılaşdırılmasında əsas rol oynayacaqdır. Bazar infrastrukturu bazar iqtisadiyyatının ayrılmaz hissəsidir. O bazarın geniş-ləndirilməsi imkanlarını və rəqabət qabiliyyətini müəyyən edən vacib amillərdən biri-dir. Eyni zamanda, bu sektor yeni iş yerlərinin yaradılması və məşğulluğun təmin olunmasında mühüm rol oynayır. Müxtəlif ölkələrin təcrübəsi göstərir ki, inkişaf etmiş bazar infrastrukturu şəraitində müasir marketinq və strateji planlaşdırma sis-temləri daha səmərəli istifadə olunur, bununla da iqtisadi və sosial inkişafa nail olmaq mümkündür.

Bildiyimiz kimi, milli və ictimai təhlükəsizliyin ayrılmaz hissəsi ərzaq təhlükəsizliyidir. Dövlətin ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün ona güclü inkişaf etmiş aqrar-sənaye kompleksi lazımdır. ASK dövlət təhlükəsizliyi baxımından iqtisadiyyatın strateji vacib sektorudur. ASK-nın inkişafı isə bazar infrastrukturu olmadan mümkün deyil. Bununla əlaqədar, aqrar sektorunun bazar infrastrukturu ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi və əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılması üçün strateji əhəmiyyət kəsb edir. İşdə dayanıqlı aqrar iqtisadiyyatının formalaşmasında bazar infrastrukturunun rolu ekonometrik modelləşdirilmə baxımından tədqiq edilmiş və uyğun ekonometrik model qurulmuşdur. Bu modeldə kənd təsərrüfatı istehsalının həcminin, binalar, maşın və avadanlıq, nəqliyyat vasitələri, iş və məhsuldar mal-qara, çoxillik bitkilər kimi infrastruktur göstəricilərdən funksional asılılığı müəyyən edilmişdir.

Milli iqtisadiyyatın inkişafı və kənd təsərrüfatı sektorunun problemləri, kənd təsərrüfatının davamlı inkişafının sosial-iqtisadi problemləri də öyrənilmişdir. Ilk növbədə davamlı kənd təsərrüfatı ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından çox əhəmiyyətlidir. Tədqiqatın əsas məqsədi ekonometrik modelləşdirmə baxımından dayanıqlı aqrar iqtisadiyyatın formalaşmasında bazar infrastrukturunun rolunu qiymətləndirməkdir. Aqrar iqtisadiyyatda bazar infrastrukturunun rolu bu sektorda dayanıqlı inkişafı yardım etməkdir. Iqtisadiyyatın hər hansı sektorunun davamlı inkişafı isə istehsalın həcminin artımında ifadə olunur. İnfrastrukturun mahiyyəti makroiqtisadi yanaşma əsasında başa düşülə bilər. Bu yanaşmaya görə, bazar iqtisadiyyatı sistemində infrastruktur nəinki iqtisadiyyata bütövlükdə xidmət edir, həm də onun normal inkişafını təmin edir. Başqa sözlə, iqtisadi sistemin infrastrukturu bu sistemin əsasən obyekt və subyektlərinin fasiləsiz qarşılıqlı əlaqəsini təmin edən elementlərdən ibarətdir. Bu nöqteyi nəzərdən çıxış edərək infrastruktur böyük bir sistemin, iqtisadiyyatın alt sistemi olaraq ilk növbədə sistemin elementlərinin qarşılıqlı fəaliyyətini

təmin etməlidir. Bundan əlavə, infrastruktur öz elementləri arasında qarşılıqlı əlaqəni tənzimlədiyindən, həm də tənzimləyici kimi çıxış edir.

Aqrar sferanın vacib alətlərindən biri bu sahədə yaranan bazar infrastrukturudur. Bu instrument qida istehsalının səmərəliliyinin artırılmasında, aqrar-sənaye istehsalının yekun nəticələrinin müəyyən edilməsində mühüm rol oynayır. Aqrar sektorun bazar infrastrukturu istehsalçıların reurslarla təmin olunmasında və kənd təsərrüfatı məhsullarının satışının təşkil edilməsində vasitəçi kimi çıxış edir. Mal dövriyyəsində vasitəçi kimi formalaşmış infrastruktur kənd təsərrüfatı sektorunda istehsalın inkişafı və onun səmərəliliyinin səviyyəsinə birbaşa təsir göstərir. Aqrar sektorun bazar infrastrukturu iqtisadiyyatın mürəkkəb və açıq sistemi kimi fəaliyyət göstərir. Bu sistem xarici mühitlə mübadilə əlaqələrini maddi, pul və əmək resurslarınnı hərəkətini əks etdirən iqtisadi, istehsal- texniki və sosial sistemlər vasitəsilə reallaşdırır. Onların qarşılıqlı fəaliyyəti prosesində yeni iqtisadi əlaqələr, mənafelər və onların qiymətləndirilməsinin yeni mexanizmləri əmələ gəlir. Iqtisadiyyatın aqrar sektorunda bazar infrastrukturu bir açıq sistem olaraq öz- özünə inkişaf qabiliyyətinə malikdir. Bazar infrastrukturunun iqtisadiyyatın səmərəli inkişafını təmin edən xüsusiyyəti də ilk növbədə məhz bununla bağlıdır. Eyni zamanda, bazar infrastrukturunun inkişafına yönəldilən vəsait qoyuluşları multiplikasiya effektinə malikdirlər.

Sistemli yanaşma aqrar sferada bazarın bütün subyektlərinin ayrılmasını tələb edir. Aydındır ki, kənd təsərrüfatı məhsullarının istehsalçıları kimi fermer təsərrüfat-ları, əhali, müxtəlif mülkiyyət formasına aid müəssisələr çıxış edirlər. Həmin subyektlərlə istehsal vasitələri ilə təminat və istehsal- texniki xidmət müəsisələri, habelə emal müəssisələri arasında məhsulların alqı- satqısı münasibətləri yaradılır. Əkinçilik və heyvandarlıq məhsullarını təmin edən müəsisələr kənd təsərrüfatı xammalının tədarükünü həyata keçirən əsas vəsilələrdən biridir. Kənd təsərrüfatı istehsalçıları və emal müəssisələri tərəfindən istehsal edilən məhsullar həm istehsalçıların öz mağazaları və həm də tədavül prosesinə xidmət edən infrastruktur təşkilatları və müəssisələri vasitəsilə istehlakçılara çatdırılır.

MÜƏSSİSƏLƏRDƏ SATIŞIN TƏŞKİLİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Əlizadə N.H.
OdlarYurdu Universiteti
E-mail: nuran.alizade@mail.ru

Strateji idarəetmə müasir bazar konyukturası şəraitində müəssisənin qabaqcıl fəaliyyətinin və rəqabətqabiliyyətliliyinin formalaşmasında əvəzedilməz silahdır. Müəssisə digər şirkətlərlə, yəni rəqibləri ilə mübarizədə məhz atmış olduğu və ya planlaşdırdığı strateji gedişlər hesabına öz fəaliyyətini qorumağa, imkan düşərsə daha da genişləndirməyə cəhd edir. Ona görə cəhd edir deyirik ki, heç də həmişə strateji gedişlər müəssisənin fəaliyyətinə müsbət nəticə ilə töhfəsini vermir, hətta yalnış atılmış addımlar hesabına müəssisə geriyə doğru addımlayır və "qaçılmaz son" ortaya çıxır. Deməli onda müəssisənin ayaqda qalmasının və davamlı inkişafının başında düzgün və yerində atılmış strateji gedişlər dayanır. Çünki, bazar iqtisadiyyatı "böyüyün" "kiçiyi" və yaxud da "güclünün" "gücsüzü" udduğu iqtisadiyyatdır. Rəqabət mühitinin münbitliyi həm kiçik, həm orta, həmçinin də iri müəssisələrin davamlı fəaliyyətinin özəyində durur. Strateji idarəetmənin kommersiya təşkilatlarının fəaliyyətində oynamış olduğu ən mühim elemetlərdən biri də strateji idarəetmə sayəsində müəssisənin zəif və güclü tərəflərinin müəyyən olunması, eləcə də müəssisənin onu əhatə edən xarici mühitlə qarşılıqlı əlaqəsinin təmin edilməsi və xarici mühitə adaptasiya oluna bilmə qabiliyyətinin formalaşması ilə ölçülür. Müəssisə özünün zəif tərəflərini aşkara çıxartmaq hesabına gələcək dövrdə daha uğurla fəaliyyət göstərmək imkanına sahib olmuş olur. Müasir şəraitdə təsərrüfat fəaliyyətinin səmərəli həyata keçirilməsi və perspektiv inkişafının təmin edilməsi təşkilatlarda strateji idarəetmənin tətbiqindən,missiya və məqsədlərin müəyyən edilməsindən,daxili və xarici mühitin tətqiq olunmasından və baş verən dəyişikliklərin araşdırılmasından,alternativ strategiyaların seçilməsindən və reallaşdırılmasından əhəmiyyətli dərəcədə asılıdır. Strateji menecment müəssisənin idarə edilməsi prosesinin ilkin mərhələsi olaraq idarəetmənin bütün funksiyalarını özündə ehtiva edir.Yaxşı strateji idarəetmə müəssisəni gələcəyə istiqamətləndirir,uzunmüddətli inkişaf istiqamətlərini və biznesdə öz mövqeyini müəyyən eməyə imkan verir.Strateji idarəetmənin nəticələri müəssisənin bazarda qazandığı mövqeyində və iqtisadi-maliyyə göstəricilərinin uzunmüddətli meyllərində təzahür olunur.Təşkilatın strateji idarəedilməsi onun uzun müddətli inkişafının təımin edilməsinin əsasıdır.Strateji idarəetmə təşkilatın missiyası,onun plan və proqnozlaşdırılmasının, məqsədlərinin, strategiyalarının təsərrüfatçılıq metodlarının və funksiyalarının yerinə yetirilməsi ilə bağlıdır.Strateji

idarəetmə dedikdə təşkilatın qarşısında duran məqsədlərə nail olmaq üçün spesifik strategiyaların işlənib hazırlanmasına yənəldilən idarəetmə qərarlarının və praktiki hərəkətlərin məcmusu başa düşülür.Strateji idarəetmə strateji səviyyədə təşkilatın idarə edilmsi problemləri ilə əlaqədar olan əsələlərin geniş dairəsini əhatə edir.Strateji idarəetmə təşkilatda ardıcıl işlənmiş kompleks prosesdir.

Kommersiya fəaliyyəti hər bir müəssisənin uğurla apara biləcəyi fəaliyyət sferası olmadığından bu sahədə strateji idarəetmənin də həyata keçirilməsi prosesi heç də həmişə müvəffəqiyyətlə yekunlaşmaya bilər. məhz qeyd edilən bu nüanslar mövzuya olan aktuallığı artırı və mövzunun öyrənilməsində kompleks yanaşma tələb edir. Strateji idarəetmə müasir bazar konyukturası şəraitində müəssisənin qabaqcıl fəaliyyətinin və rəqabətqabiliyyətliliyinin formalaşmasında əvəzedilməz silahdır. Müəssisə digər şirkətlərlə, yəni rəqibləri ilə mübarizədə məhz atmış olduğu və ya planlaşdırdığı strateji gedişlər hesabına öz fəaliyyətini qorumağa, imkan düşərsə daha da genişləndirməyə cəhd edir. Ona görə cəhd edir deyirik ki, heç də həmişə strateji gedişlər müəssisənin fəaliyyətinə müsbət nəticə ilə töhfəsini vermir, hətta yalnış atılmış addımlar hesabına müəssisə geriyə doğru addımlayır və "qaçılmaz son" ortaya çıxır. Deməli onda müəssisənin ayaqda qalmasının və davamlı inkişafının başında düzgün və yerində atılmış strateji gedişlər dayanır. Çünki, bazar iqtisadiyyatı "böyüyün" "kiçiyi" və yaxud da "güclünün" "gücsüzü" udduğu iqtisadiyyatdır. Rəqabət mühitinin münbitliyi həm kiçik, həm orta, həmçinin də iri müəssisələrin davamlı fəaliyyətinin özəyində durur.

Strateji idarəetmə anlayışının izahını verməzdən öncə strategiya anlayışına toxunmaq lazımdır. Elə isə strategiya nədir?Strategiya anlayışı idarəetməyə hərbi sahədən daxil olub. Elə strategiya sözünün hərfi mənası da bunu sübut edir. Belə ki, "stratos" sözü ordu, "aqo" isə aparıram deməkdir. Lüğəti mənasına görə isə "general, sərkərdə məharəti", "hərb sənəti" deməkdir. Deməli strategiya "ordunun idarə olunması", eləcə də "generalın müharibə aparma məharəti" kimi də başa düşülür.İdarəetmə elmində strategiya dedikdə isə bazarlarda mövqelərin qazanılması, möhkəmlənməsi və istehlakçıların tələbatlarının səmərəli surətdə təmin edilməsi vasitəsilə məqsədlərə nail olmağa yönəldilmiş tədbirlərdən ibarət olan plan başa düşülür.Müəssisənin idarə edilməsinin əsasını onun strategiyasının işlənib hazırlanması, strategiyanın şirkətin xüsusiyyətlərinə uyğunluğu və onun reallaşdırılması təşkil edir. Strategiya anlayışı bir çox hallarda taktika anlayışı ilə qarışdırılır. Əslində bir-birinə çox yaxın kimi görünən bu iki anlayış arasında böyük fərqlər var. Hər şeydən əvvəl strategiya daha geniş anlayışdır. taktika isə onun tərkib hissəsi olmaqla qoyulan məqsədə nail olmaq üçün konkret bir yoldur. Yaxşı taktikasız strategiya nəticə verməz. digər bir nüans- taktikanın həyata keçirilməsinə daha az vaxt sərf olunur, nəinki strategiyanın.Qarşıya qoyulmuş məqsədə müvəffəqiyyətlə nail olmaq üçün həm düzgün strategiya, həm də strategiyanın həyata keçirilməsi üçün düzgün yollar seçilməlidir. Həmin qeyd olunan "düzgün yollar" taktikanın özüdür. Deməli onda strategiya taktiki addımların cəmindən ibarətdir.Strateji idarəetmə strateji proseslə başlayır. Strateji proses təşkilatın missiyasının formalaşmasından başlayır. Missiya dedikdə isə təşkilatın məqsədlərinin və prioritetlərinin eyni zamanda ifadə edilməsi kimi başa düşülür. Təşkilatın missiyası həm əməkdaşlarda, həm də müşahidəçilərdə, ilk öncə isə potensial və hazırkı müştərilərdə etimad hissini doğurmalıdır. Missiyanın formalaşmasında ictimai və ümumbəşəri dəyərlərlə təşkilatın daxili korporativ mədəniyyətinin vəhdətliyi nəzərə alınmalıdır.

SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ İDARƏETMƏNİN SƏMƏRƏLİLİYİ

Əsədov E.E.
Sumqayıt Dövlət Universiteti
E-mail: elvinasadov2020@gmail.com

Müasir təsərrüfat sisteminin qarşısında duran əsas vəzifələrdən biri sənaye müəssisələrinin fəaliyyətinin səmərəliliyinin hərtərəfli artırılmasıdır. Yeni çağırışlar şəraitində müəssisələr tarazlığı qorumaq üçün öz maliyyə vəziyyətlərinə nəzarət etməlidirlər. Sənaye müəssisələrinin iqtisadi azadlıq və onun nəticələrinə görə tam məsuliyyət əldə etməsi nəticəsində bazar iqtisadiyyatı şəraitində idarəetmənin artan rolu həmin sferayaa əlavə resursların cəlb edilməsinə səbəb olur. Müəssisə sahibi üçün təkcə idarəetmə resurslarının xərclənməsi deyil, həm də idarəetmənin bazarda müəssisəyə nə dərəcədə strateji üstünlüklər verməsi, onun rəqabət qabiliyyətini yüksəltməsi, sosial əhəmiyyətini qoruyub saxlaması vacibdir. Rəqabətli mühitdə menecerlər məhsuldarlıq və səmərəliliyin qayğısına qalmalıdırlar. Müəssisələrin fəaliyyəti əsasən idarəetmənin səmərəliliyi ilə müəyyənləşdirilir. Hal-hazırda ölkə iqtisadiyyatının idarəetmə sistemlərinin dəyişdirilməsinin prioritet istiqamətlərindən biri, xüsusən də müəssisə səviyyəsində effektiv idarəetmə üçün əsaslı nəzəri və metodoloji müddəaların işlənib hazırlanmasıdır. Müasir dünyada "səmərəlilik" kateqoriyası elmin, istehsalın,

təhsilin müxtəlif sahələrində, hətta "şəxsi səmərəlilik" ifadəsində də istifadə olunur. İdarəetmənin məzmununu açıqlamaq üçün onun idarəetmə fəaliyyətinin xarakterini və mahiyyətini ən tam əks etdirən əsas xassəsini vurğulamaq lazımdır. İdarəetmənin belə inteqrativ xüsusiyyəti səmərəlilikdir. İdarəetməyə əsas xarakter verən səmərəliliyin inteqrativ keyfiyyətidir. İdarəetmə elmi səmərəliliyi sosial-iqtisadi kateqoriya kimi öyrənir. Bununla belə, səmərəliliyin formalaşmasının əsasını iqtisadi məzmun təşkil edir. Məhz müəssisənin iqtisadi nəticələri onun səmərəliliyini qiymətləndirmək üçün kəmiyyət əsası kimi xidmət edir.İdarəetmənin səmərəliliyi problemi idarəetmə elminin tərkib hissəsidir və o, aşağıdakıların öyrənilməsini əhatə edir: idarəetmə sisteminin malik oldu və onun istifadə etdiyi bütün növresursların məcmusunu birləşdirən idarəetmə potensialı; müvafiq idarəetmə funksiyalarının reallaşdırılması məqsədilə işin təşkili, məzmunu, həcmi və texnologiyası ilə müəyyənləşdirilən idarəetmə xərcləri; əməyin idarə edilməsinin xarakteri; idarəetmənin səmərəliliyi, yəni təşkilatın maraqların reallaşdırılmasında, fəaliyyəti prosesində, müəyyən məqsədlərə çatmaqda insanların əməyinin səmərəliliyi. İdarəetmə prosesində müxtəlif resurslardan istifadə olunur və onlardan nə dərəcədə məharətlə və məqsədyönlü istifadə olunmasından asılı olaraq bu və ya digər nəticə əldə edilir. İdarəetmə, istənilən digər fəaliyyət növü kimi, onun xüsusi qiymətləndirilməsini, səmərəliliyinin müəyyənləşdirilməsini tələb edir.

İdarəetmə məktəbləri tərəfindən müəssisənin idarə edilməsinin səmərəliliyi probleminin müxtəlif aspektləri işlənib hazırlanmışdır. Məsələn, elmi idarəetmə məktəbinin müəlliflərindən olan F.Teylor, Q.Emerson, L.Qilbert və başqaları istehsal səviyyəsində idarəetmənin səmərəliliyinin yüksəldilməsini tədqiq etmişlər. İdarəetmə səmərəliliyi ilə müəssisənin təşkilati strukturu arasındakı əlaqəyə böyük önəm verən Q.Emerson bu problemin öyrənilməsinə xüsusi diqqət yetirmişdir. İdarəetmənin klassik məktəbinin nümayəndələri A.Fayol, L.Urvik, D.Muni və başqaları bu prosesin səmərəliliyini daha geniş mənada - bütün təşkilatın işinə münasibətdə hesab edirdilər. Onların məqsədi təşkilatı mütləq uğura aparmalı olan universal idarəetmə prinsiplərini yaratmaq idi. İnsan münasibətləri məktəbinin müəllifləri Q.Münsterberq, M.Follet, R.Likert, A.Maslou və başqaları insan amilini idarəetmənin səmərəliliyinin əsas elementi hesab etmiş və insan resurslarından istifadənin səmərəliliyinin artırılması ilə bağlı müxtəlif nəzəriyyələr işləyib hazırlamışlar.

Ümumiyyətlə, idarəetmənin səmərəliliyi istehlak edilmiş resursların əldə edilmiş nəticə ilə müqayisəsidir. İdarəetmənin səmərəliliyini qiymətləndirərkən ən çətini onun nəticəsini müəyyənləşdirməkdir. Çox vaxt idarəetmənin nəticəsi kimi bəzi istehsal və iqtisadi nəticələr qəbul edilir: əmək məhsuldarlığının artım tempi, keyfiyyət, işin ritmi və s. Bu nəticələrin hər biri, əlbəttə ki, idarə heyətinin maddiləşmiş əməyini ehtiva edir. Həmçinin, menecerlərin əmr, göstəriş və s. şəklində təsirləri bir çox hallarda yuxarıdan aşağıya doğru bir sıra idarəetmə səviyyələrindən keçir. İdarəetmənin asılı olduğu şərtlər çoxdur ki, bunların ən əsaslarına istehsal vasitələri, işçinin potensialı, onun müəyyən işi yerinə yetirmək qabiliyyəti, fərdin və bütövlükdə kollektivin fəaliyyətinin sosial aspektləri, təşkilat mədəniyyəti və digərləri aiddir. Onlar əsasən liderin özünün şəxsiyyətindən asılıdır: onun səlahiyyəti, iş tərzi və s. Odur ki, bütün bu amillər birlikdə, inteqrasiya vəhdətində fəaliyyət göstərir. İdarəetmənin son nəticəsi çox vaxt idarəetmənin təsiri adlanır. Təsir istehsalın, biznesin və bütövlükdə təşkilatın təkmilləşdirilməsinə yönəlmiş tədbirlərin görülməsinin nəticəsidir. İdarəetmənin səmərəliliyi üç komponentdən ibarətdir: iqtisadi səmərə – birbaşa xərc formasına malik olan, yəni pul və ya fiziki ifadə ilə ölçülən təsir növü; sosial-iqtisadi səmərə - iqtisadi səmərə ilə sosial sabitlik və əmin-amanlığın birləşməsindən ibarət kompleks xarakterə malikdir. Məsələn, əmək şəraitinin yaxşılaşdırılması, peşə xəstəliklərinin səviyyəsinin azaldılması (müəyyən şəraitdə o, normal iqtisadi effektə çevrilə bilər); sosial səmərə - prinsipcə kəmiyyətlə ölçülə bilməyən təsir növü, məsələn, sosial münaqişənin qarşısının alınması.

Beləliklə, iqtisadi səmərəlilik dinamiklik və tarixilik xüsusiyyətləri ilə xarakterizə olunan ən mühüm iqtisadi kateqoriyadır. İstehsal fəaliyyətinin səmərəliliyi hər bir ictimai formasiyanın məhsuldar qüvvələrinin müxtəlif inkişaf səviyyələrinə xasdır. Səmərəlilik, ilk öncə, məqsədlərə çatma dərəcəsini əks etdirən sırf idarəetmə xarakterli proseslərin və təsirlərin xüsusiyyətidir. Fəaliyyət tam və ya qismən məqsədlərə nail olmağa gətirib çıxarırsa, səmərəli hesab edilir. Səmərəlilik potensial səmərəlilik kimi fəaliyyətə başlamazdan əvvəl də müəyyən edilə bilər, real olan isə məqsədlərə nail olmaq dərəcəsindən, yəni praktikada əldə edilən nəticələrdən asılıdır. Bazar strukturları ilə bağlı araşdırmalar göstərir ki, əksər sənaye müəssisələrinin əsas strateji diqqəti son əlavə mal vahidindən maksimum qazanc əldə etmək və ya ən yaxşı halda sadəcə müəyyən miqdarda mənfəət əldə etməkdir.Bu gün səmərəli istehsal və səmərəli idarəetmə problemləri ayrılmaz şəkildə nəzərdən keçirilməlidir. Təşkilati idarəetmə sistemləri əsas məqsədlərinə uyğun olaraq müəyyən effektə, yüksək iqtisadi, sosial və ekoloji səmərəliliyə nail olmağa yönəldilməlidir. Müəssisənin xarici mühitinin strukturunu təsvir etmək üçün müxtəlif yanaşmalar mövcuddur. Ən çox iqtisadi ədəbiyyatda müəssisələrin xarici mühiti mikromühitdən – birbaşa ətraf mühitdən və makromühitdən - hər biri müəyyən amilləri özündə

birləşdirən dolayı mühitdən ibarət iki səviyyəli sistem kimi nəzərdən keçirilir. Mikromühitin (birbaşa təsir mühitinin) əsas amilləri resurs təminatçılarıdır: məhsul və xidmətlərin istehlakçıları; rəqiblər; müəssisənin fəaliyyətinə bilavasitə təsir edən dövlət orqanları və normativ hüquqi aktlar. Makromühit (dolayı təsir mühiti) - bunlar təşkilatın fəaliyyətinə birbaşa təsir göstərməyən, lakin hələ də dolayı yolla təsir göstərən amillərdir. Dolayı təsir mühiti adətən birbaşa təsir mühitindən daha mürəkkəbdir. Dolayı təsirin təşkili üçün mühitin elementləri bunlardır: - texnologiya, - iqtisadiyyat, - sosial və mədəni mühit, - siyasət, - beynəlxalq mühit. Xarici mühitin təhlili rəhbərlikdən daimi diqqət tələb edir, odur ki, çoxlu məlumatların öyrənilməsi əsasında həyata keçirilir və düzgün və vaxtında qərarlar qəbul etmək üçün spesifikasiya tələb edir. Dinamik dəyişən bazar mühitində bir müəssisənin uğurlu fəaliyyətinin problemlərini müəyyən etmək üçün vaxtaşırı olaraq sənaye müəssisəsinin və onun ayrı-ayrı komponentlərinin hərtərəfli diaqnostikasını, o cümlədən nəzarət sistemlərinin qiymətləndirilməsini nəzərə almaq lazımdır. Bunun üçün sənaye müəssisələrində idarəetmənin səmərəliyi təmin edilməlidir.

Məlumdur ki, sənaye müəssisələrində sosial transformasiya prosesləri sürətləndikcə, idarəetmənin sosial aspektləri daha çox önəm kəsb edir. Kadrlarda, ölkənin iqtisadi potensialında baş verən dəyişikliklər sosial aspektlərin, yəni bir-biri ilə əlaqəsi olmayan amillərin rolunun artmasına səbəb olur. Məhsulun keyfiyyətinin və əmək məhsuldarlığının yüksəldilməsi üçün işçilərin peşə və ümumi təhsil hazırlığının, şüurunun, onların nizam-intizamının, əməkdə qarşılıqlı yardımın, yaradıcılıq və əmək fəallığının yüksəldilməsi həlledici önəm daşıyır. Odur ki, sosial amillərin belə müəssisələrin fəaliyyətinə təsirinin başa düşülməsi müvafiq sahələrdən biri sayıla bilər. Təbii ki, onlar istehsal səviyyəsini maksimuma çatdırmağa və nəticədə mənfəət əldə etməyə yönəliblər. Bununla belə, onların uğurlu fəaliyyəti üçün əsas şərtlərdən biri sabit sosial şəraitin mövcudluğu hesab edilə bilər. Odur ki, sənaye müəssisələrində idarəetmənin səmərəliliyinin təmin edilməsi üçün sosial amillər mütləq nəzərə alınmalıdır.Sənaye müəssisələrinin idarə edilməsində əsas sosial amillər onların fəaliyyətinin səmərəliliyinin artırılmasını, cəmiyyətin tələbat və tələblərinə uyğunlaşdırılmasını şərtləndirən amillərdir. Sənayeçilər və sahibkarlar şəxsi mənfəət üçün deyil, ümumi mənafe üçün hərəkət etməlidirlər. Bu işdə uğurun açarı, xüsusən də sosial idarəetmə vasitələrinin praktiki tətbiqi hesab edilə bilər.

SAHİBKARLIĞIN İNKİŞAFININ MİLLİ İQTİSADİYYATDA ROLU

Əsgərli T.E.
Sumqayıt Dövlət Universiteti
E-mail: esgerlitural50@gmail.com

Sahibkarlığın inkişafı bazar iqtisadiyyatının yüksəlişinin ən mühüm amili, keçid iqtisadiyyatında isə bazar islahatlarının uğurunun göstəricisidir. İnkişaf etmiş bazar iqtisadiyyatı sistemində sahibkarlığın əhəmiyyəti iki əsas məqamla müəyyənləşdirilir: 1. Bütövlükdə iqtisadiyyatda və onun ayrı-ayrı sektorlarında onların real miqyasının artması; 2. Digər iqtisadi strukturlarla qarşılıqlı əlaqə mexanizmlərinin formalaşması.

Bazar iqtisadiyyatının fəaliyyət mexanizmində sahibkarlığın yeri və rolunu ümumiləşdirərək onun nə qədər böyük və əhəmiyyətli olduğunu deyə bilərik. Yeni əlavə iş yerlərinin yaradılması, istehsal olunan məhsulların, malların və xidmətlərin keyfiyyətinin yüksəldilməsi, eləcə də milli iqtisadiyyatın durmadan yüksəldilməsi və inkişafı – bütün bunlar sahibkarlığın qarşısında duran vəzifələrin tərkib hissəsidir.

Sahibkarlığın inkişafı iqtisadi artımın əsas mənbəyidir. İqtisadi artım və sahibkarlıq arasındakı əlaqəyə dair nəzəri və empirik tədqiqatların əksəriyyəti ekzogen dəyişənlər kimi onların səbəb-nəticə əlaqəsinin mümkünlüyünü vurğulayır. Bu o deməkdir ki, sahibkarlıq iqtisadi artıma təsir göstərə bilər, iqtisadi artımdakı dəyişikliklər da sahibkarlığın səviyyəsinə təsir edə bilər. Bu əlaqə altı əsas sahədə müəyyən edilə bilər: yeni innovasiyaların tətbiqi, rəqabətin, məşğulluğun, məhsuldarlığın artması, struktur dəyişikliyi və makroiqtisadi sabitlik.

Birincisi, sahibkarlıq fəaliyyəti innovasiyaların tətbiqini nəzərdə tutur, çünki neoklassik ənənəyə görə, sahibkarlıq mənfəətini yalnız novator alır. Sahibkarlar yeni texnologiyalar tətbiq edir, yeni məhsullar hazırlayır və yeni bazarlar yaradırlar. Yeni bazarlara çıxmaq və rəqabət qabiliyyətini saxlamaq üçün firmalar innovativ texnologiyalara daha çox pul xərcləyirlər.

İkincisi, sahibkarlıq fəaliyyəti qurulmuş firmalar üçün rəqabəti artırır. Bazarların təmizlənməsi yalnız ən məhsuldar firmaların məhsul çeşidini artıraraq qiymətləri aşağı salır.

Üçüncüsü, sahibkarlıq fəaliyyəti ortamüddətli perspektivdə məşğulluğu artırır.

Dördüncüsü, yeni firmalar məhsuldarlığı artırır. Məhsuldarlığın artırılması sahibkarlığın iqtisadi artıma müsbət təsirinin kanalı kimi çıxış edir.

Beşincisi, sahibkarlıqda struktur dəyişiklikləri iqtisadi artıma müsbət təsir göstərə bilər.

Altıncısı, sahibkarlıq fəaliyyəti kontekstində makroiqtisadi sabitlik çox vaxt bu fəaliyyət növünü iqtisadi artıma təsir göstərməsi üçün önəmli hal hesab olunur.

Müasir inkişaf etmiş bazar iqtisadiyyatı bir-birini tamamlayan iqtisadi strukturların üzvi birləşməsi kimi təqdim edilə bilər: böyük, orta və kiçik. İri sahibkarlıq milli iqtisadiyyatlar sisteminin tanınmış flaqmanları, yüksək beynəlxalq rəqabət qabiliyyətinin təminatçısı, dünya iqtisadiyyatının qloballaşması şəraitində əsas hərəkətverici qüvvə kimi çıxış edirlər. Kiçik və orta sahibkarlıq (KOS) milli iqtisadiyyatın əsas çərçivəsini təşkil edir. Birlikdə götürdükdə bütün sahibkarlıq formaları vahid iqtisadi mexanizmin tərkib hissələri kimi çıxış edirlər. Eyni zamanda, onların optimal birləşməsi vacibdir ki, bu da davamlı iqtisadi artımdan asılıdır.

Bazar iqtisadiyyatına, azadlıq dəyərlərinə və öz rifahı üçün məsuliyyətə əsaslanan istənilən cəmiyyətdə öz biznesini qurmaq istəyənlərin nisbəti həmişə olur. KOS inkişaf etmiş iqtisadiyyatın tərkib hissəsidir. KOS-lar iqtisadiyyatın ahəngdar inkişafına imkan verən bir sıra funksiyaları yerinə yetirməlidirlər. KOS sektorunun əhəmiyyəti bütün dünyada qəbul edilir. İnkişaf etmiş ölkələrdə KOS sektorunun həcmi kifayət qədər böyükdür, o, iş yerləri yaradır, əhalinin əhəmiyyətli hissəsini gəlirlə təmin edir, ölkənin sosial-iqtisadi vəziyyətini müəyyənləşdirir.

Beş amil - bazarların dinamikası, infrastrukturun vəziyyəti, kommersiya infrastrukturunun inkişafı, peşə təhsili və dövlət proqramlarının keyfiyyəti KOS-a müsbət təsir göstərir. İnfrastrukturun inkişafı mütəxəssislər tərəfindən yüksək qiymətləndirilir. Bazar dinamikası amili də ekspertlər arasında yüksək qiymətləndirilir. KOS-un iqtisadiyyatdakı rolu onunla bağlıdır ki, kiçik şirkətlər xarici mühitdə yaranan imkanlara həssaslıqla reaksiya verə, yeni məhsul və xidmətlər təklif edə bilər.

Hazırda Azərbaycanda KOS-un mövcud vəziyyətini təhlil etmək məqsədilə aşağıdakı şəkilə diqqət yetirək. Şəkildən görünür ki, 2021-ci ildə ölkə üzrə KOS-ar üzrə yaradılan əlavə dəyərin həcmi 2020-ci illə müqayisədə artmışdır. Mikro sahibkarlıq üzrə artım 30,0%, kiçik sahibkarlıq üzrə 47,4%, orta sahibkarlıq üzrə isə 18,8% olmuşdur. Ümumilikdə 2021-ci ildə KOS-lar üzrə yaradılan əlavə dəyər 13956,1 milyon AZN olub ki, bunun 41,5%-i mikro, 17,1%-i kiçik, 41,4%-i isə orta sahibkarlıq üzrə olub. Sahibkarlıq strukturlarının və orada çalışanların sayında da artım müşahidə olunub.



Şəkil. Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq üzrə yaradılan əlavə dəyər

Hazırda sahibkarlıq dövlətin diqqətinə və daimi dəstəyə ehtiyac duyur. sahibkarlığın hərtərəfli inkişafı üçün bir sıra problemlər həll edilməlidir ki, onları 4 qrupa bölmək olar:

1) Ümumi problemlər;
2) Sahibkarlığın təşkilində qarşılaşılan problemlər;
3) KOS-ın fəaliyyətinin ilkin mərhələsindəki problemlər;
4) formalaşma və inkişaf mərhələsində problemlər.

KOS-ın ümumi problemləri çərçivəsində inkişafın istənilən mərhələsində istənilən müəssisə üçün istisnasız olaraq yaranan makro səviyyəli problemləri başa düşmək və nəzərə almaq lazımdır. Bu problemlərin həlli üçün aşağıdakılar zəruridir: qanunvericilik bazasının mükəmməl olması; KOS-a təsir göstərən vergi

sistemlərinin tam inkişaf etməsi. Bu sistemlər sahibkarların ehtiyaclarını ödəməli və real yardım göstərməlidir; maliyyə-kredit sisteminin mükəmməl olması; KOS-un təhlükəsizliyinin təmini.

KOS-un təşkili mərhələsində aşağıdakı məsələlər həll edilməlidir: perspektivli ideyanın, müvafiq və bazarda tələb olunan uyğun fəaliyyət sahəsinin axtarışı; tərəfdaşların cəlb edilməsi; başlanğıc kapital üçün vəsait çatışmazlığının aradan qaldırılması; qeydiyyat maneələrinin olmaması, məlumatlılığ və müəssisənin qeydiyyatı üçün yaxşı işlənmiş mexanizmin olması; lisenziyalaşdırma işlərinin səmərəli təşkili, onların təkmil olması; sertifikatlaşdırma prosedurunun qüsursuz olması.

KOS-un fəaliyyətə başlaması mərhələsində aşağıdakı məsələlər həll edilməlidir: dövriyyə vəsaitlərinin çatışmazlığı problemi aradan qaldırılmalı; məhsul və ya xidmətlərin satışı üçün kanal tapmaqda çətinliklərin aradan qaldırılması; ixtisaslı kadr təminatı; biznesin təşviqinə kömək edəcək yüksək keyfiyyətli reklam üçün qiymət münasibliyinin təmin edilməsi; bilikli, bacarıqli və peşəkar kadrların olması.

KOS-un formalaşması və inkişafı mərhələsində aşağıdakı tədbirlər görülməlidir: informasiya bazarı haqqında məlumat əlçatanlığının təmin edilməsi; tənzimləyici orqanların hüquq və səlahiyyətləri haqqında etibarlı və kifayət qədər məlumatın olması; nəzarət və audit strukturları tərəfindən aparılan yoxlamaların sistemli olması və s.

Yuxarıda sadalanan vəzifələrin həlli səmərəli sahibkarlığın formalaşmasına öz təsirini göstərər və onların reallaşdırılması ölkənin inkişafını təmin edə və bazar vəziyyətini yaxşılaşdıra bilə

MÜASİR ŞƏRAİTDƏ AZƏRBAYCANDA DƏNİZ NƏQLİYYATI MÜƏSSİSƏLƏRİNDƏ SOSİAL-İQTİSADİ İNKİŞAFIN METODOLOJİ ASPEKTLƏRİ

Əzimov A.N.
OdlarYurdu Universiteti
E-mail: zimovamil@gmail.com

Dəniz nəqliyyatı dünya ölkələri arasında qarşılıqlı iqtisadi əlaqələrin və əmtəə mübadiləsinin inkişafında mühüm rol oynayır. Vahid nəqliyyat sistemində qədim tarixi ilə fərqlənən gəmiçilik, uzun müddətdir ki, milli maraqları aşaraq beynəlxalq miqyas almış, beynəlxalq əmək bölgüsündə maddi xarakter daşımaqla dünya istehsalının və əmtəə mübadiləsinin artımına səbəb olmuşdur. Ona görə də milli donanmaya sahib olan ölkələr yükdaşımaları özlərinə məxsus gəmilərlə həyata keçirməyə çalışırlar. Bu cür ölkələrdə milli donanma inkişaf edərək, daşıma xərclərinə qənaət hesabına, dəniz nəqliyyat xidmətlərinin ixracından əldə olunan xarici valyutanın artımına səbəb olaraq, beynəlxalq dəniz ticarətinin həcmini artıracaqdır. Dəniz nəqliyyatı dünya iqtisadiyyatında xüsusi istehsal fəaliyyəti ilə bərabər, kapital istehlakçısı, sənaye məhsuluna və sifarişçiyə xidmət fünksiyalarını da yerinə yetirərək dəniz ticarətinin artımına səbəb olmaqla dünyanın istənilən regionunda yaranan iqtisadi-siyasi dəyişikliklərə daha tez cavab verir. Beynəlxalq əmək bölgüsünün dərinləşməsi və dünya iqtisadi əlaqələri, dünya mühitinin yaxınlaşmasını stimullaşdırmaqla, iqtisadi əlaqələrin müxtəlif ölkələr arasında genişlənməsinə şərait yaradır.

Beynəlxalq əlaqələrin 80%-ni beynəlxalq ticarət təşkil edir. Fiziki həcminə görə dünya ticarətinin 80%-i dəniz nəqliyyatı ilə həyata keçirilir. İnkişaf etmiş ölkələrdə isə beynəlxalq ticarətin 90%-i dəniz nəqliyyatının payına düşür. Dəniz nəqliyyatının inkişafına dünya ticarətinin inkişaf səviyyəsi daha çox təsir edir. Dəniz daşımalarının dünya üzrə həcmi 2015-ci ildə 10,5 milyard ton təşkil edərək, 2014-cü illə müqayisədə 2,1% və yaxud 204 milyon ton artmışdır. 2015-ci ildə dünya ümumi daxili məhsulu (ÜDM) 2,5% artmışdır ki, bu da 2014-cü illə müqayisədə eyni artım tempi deməkdir. Neftin qiymətinin dünya bazarında ucuzlaşması və Çin iqtisadiyyatının artım tempinin zəifləməsi başqa ölkələrdə müxtəlif iqtisadi meyilərin yaranması ilə müşahidə edilmişdir. Bu səbəbdən də dünya əmtəə ticarətinin fiziki həcminə görə artım tempi 2015-ci ildə 1,4% azalmışdır. Qlobal maliyyə böhranları, dünya üzrə qloballaşma prosesinin genişlənməsi, əmtəə ticarəti ilə bərabər regional ixtisaslaşmanı da artırır. Regional ixtisaslaşma hesabına qloballaşma prosesi ölkələr və regionlar arasında əmtəə mübadiləsinin artımına səbəb olur. Dünya üzrə daşınan yüklərin strukturunda 2016-cı il üzrə tanker yükləri (maye yüklər), kütləvi və konteyner yükləri üstünlük təşkil etmişdür. Lakin, həmin dövrdə yükdaşımaların tərkibində kütləvi yüklərin artım tempi digər yüklərlə müqayisədə aşağı səviyyədə olmuşdur. Son 15 ildə xam neft üzrə daşımaların həcmi 11%, hazır neft məhsullarının daşınması 1,9 dəfə, mayeləşmiş qazın daşınması 2,3 dəfə, kütləvi yüklər 2,4 dəfə, o cümlədən dəmir filizi 2,9 dəfə, kömür 2,4 dəfə, taxıl 1,5 dəfə, konteyner daşımalarının həcmi isə 2,6 dəfə armışdır.

Azərbaycan iqtisadiyyatında dəniz nəqliyyatı dövlət sərhədlərinin qorunmsaında, sərnişin daşımalarda, dənizdə neft-qaz hasilatı və idxal-ixrac əməliyyatları üzrə yük daşımalarda mühüm rol oynayır. "Pirallahı", "Gürqan-dəniz", "Çilov" adası yataqlarının istismarı dünya ölkələrinin Azərbayacana marağının artmasına səbəb oldu. Sonradan "Neft Daşları","Azəri", "Çıraq", "Kəpəz" və "Günəşli" kimi yataqların istismara verilməsi respublikamızı bütün dünyaya tanıtdı. 20 sentyabr 1994-çü ildə "Əsrin müqaviləsi" Sazişinin imzalanması müstəqillik illərinin əvvəllərində ölkəmızdə iqtisadi tənəzzulün qarşısının alınması ilə nəticələndi. Həmin dövrdən başlayaraq aparılan iqtisadi islahatlar nəticəsində iqtisadiyatın digər sahələrinin neft sektoru hesabına inkişafı ilə Azərbaycan Respublikası dinamik nkişaf yoluna qədəm qoymuşdur. Ölkəmiz 2017-ci ildə iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə görə dünya dövlətləri arasında 35-ci yerə çıxmışdır. İqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəlməsində dəniz nəqliyyatı üzrə təyinatına görə müxtəlif tip gəmilərə sahib olan "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Xəzər Dəniz Neft Donanması və Dəniz Nəqliyyat Donanmasının böyuk rolu olmuşdur. Xəzər Dəniz Neft Donanmasının texnoloji xarakterli gəmiləri dənizdə neft-qaz hasilatında, Dəniz Nəqliyyat Donanmasının xarici sularda fəaliyyət göstərən gəmiləri beynəlxalq yükdaşımalarda, hərbi-dəniz donanmasının gəmiləri isə Xəzər dənizində dövlət sərhədlərimizin qorunmasını təmin edərək, dəniz nəqliyyatının ölkəmizin siyasi-iqtisadi qüdrətinin güclənməsində mühüm əhəmiyyətini müəyyən edir.Ölkə iqtisadiyyatında dəniz nəqliyyatının səmərəliliyinin və rəqabətqabiliyyətliliyinin artırılması, Böyük İpək Yolunun bərpası hesabına yükdaşımalardan və ölkəmizin tranzit potensialından istifadənin yüksəldilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin 22 oktyabr 2013-cü il tarixli "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin yaradılması haqqında sərəncamı, bir daha respublikamızın dəniz nəqliyyatında yükdaşımaların mövcud problemləri, onların aradan qaldırılması və iqtisadi səmərəliliyinin yüksəldilməsi yollarının araşdırılmasını tələb edir.

İqtisadiyyatın bütün sahələrinin inkişafına yönəldilmiş, Azərbaycanı inkişaf etmiş dövlətlər sırasına çıxartmaq iqtidarını özündə ifadə edən tarixi bir sənəd kimi Azərbaycan Respublikası Prezidentinin 29 noyabr 2011-ci il tarixdə imzaladığı "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyasının hazırlanması barədə sərəncamı qeyri-neft sektorunun, o cümlədən dəniz nəqliyyatının inkişafında da mühüm əhəmiyyət kəsb etmişdir. Müvafiq Konsepsiyasının hazırlanması barədə" Prezident İlham Əliyevin sərəncamının əhəmiyyəti öz tarixiliyi və zərurəti baxımından xüsusi əhəmiyyət kəsb edir.

QİDA TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNDƏ AQRAR SAHƏNİN YERİ VƏ ƏHƏMİYYƏTİ

Fərhadova Z.T.
Azərbaycan Memarlıq və İnşaat Universiteti
E-mail: Zeyneb.ferhadova@list.ru

Hazırda dünyada iqtisadiyyatındada,o cümlədən Azərbaycanda kənd təsərrüfatının inkşafı və onun iqtisadiyyata müsbət təsiri dövlət tərəfindən hər zaman nəzarətdə saxlanılır.Dövlət tərəfindən insanların tələbatın təmin edilməsi üçün bir sıra tədbirlər həayat keçirilir.Məsələn, cəmiyyətin sağlam həyat tərzi sürməsi üçün ərzaq,qıda məhsullarına olan tələbatın fasiləsiz,düzgün şəkildə və davamlı formada gedişatının təmin edilməsi üçün bir sıra vacib msələlər həyata keçirilir. Hər hansı bir dövlətin özünə məaxsus ərzaq sərbəstliyi mövcuddur. Beləliklə, hər hansı bir dövlətdə fövqalədə vəziyyət olarsa, o zaman o dövlətin ərzaq ehtiyatı olduqca yüksək olmalıdır və insanları bununla təmin etməlidirlər.

Uzun illər boyunca bəşəriyyətdə ən böyük problemlərdən biri qida təminatıdır. Nəticədə bu problemin əsasında taxılın istehsalıda xüsusi yer tutur. Çünki taxılın bazardakı yeri çox önəmildir və başqa-başqa ölkələrdə qida təhlükəsizliyinin əsas bir hissəsi sayılır. Taxıl istehsalının ümumi iqtisadiyyata və kənd təsərrüfatına təsiri və yeri böyükdür. Bununla yanaşı taxıl və ondan alınan məhsullar cəmiyyətin həyat fəaliyyətinə çox böyük təsir göstərir. Bundan başqa cəmiyyətin qida ehtiyatının ödənməsindən taxıldan başqa meyvə,tərəvəz, bostan bitkiləri, heyvandarlıqdan əldə edilən məhsullar həmin bu tələbatın ödənməsində xüsusi səciyyə daşıyır.Nəzərdə tutlan bu məhsullar hal-hazırda cəmiyyətin əsas tərkib hissəsinidə təşkil edir və ərzaq təhlükəsizlik sisteminin quruluşu aşağıdakı kimidir:

Ərzaq təhlükəsizliyinin qiymətləndirilməsi dedikdə biz aşağıda yazılmış formada qəbul edirik: fiziki yolnan əldə ediləməsi**;** qidanın iqtisadi yolnan əldə edilməsi; təhlükəsiz qidanın əldə edilməsi.

Dünya standartlarına əsasən belə nəticəyə gəlinirki hər hansı bir dövlətin qida ehtiyatı 80% dəyərin özü qarşılayırsa bu ölkədə qida təhlükəsizliyi təmin olunmuş sayılır.Hal-hazırki zamanda cəmiyyətin qida təhlükəsizliyinin təmin edilməsində əsas iki formaya baxılır: onlardan biri nəzərdə tutlan bazarda məhsulların olması , ikincisi isə bu məhsulları əldə etmək üçün maddi imkanın olması. Qida məhsullarının varlığı istehsal və idxal münasibətlərindəndə asılı olur.Bu formalardan əgər biri olmazsa o zaman ərzaq təhlükəsizliyi təmin edilmir.Ərzaq təhlükəsizliyi dedikdə onun dört növü mövcuddur.bunlardan biri qlobal təhlükəsizlik,milli təhlükəsizlik,regional və ev təsərrüfatının ərzaq təhlükəsizliyidir.Ərzaq təhlüksizliyinin əsas səbəbi bütün dünyadaki yoxsulluğu,aclığı aradan qaldırmaq və insanların yaşam tərzini dahada yaxşılaşdırmaq, aclıq hiss etmədən yaşamaqdır.Bundan başqa cmiyyətin qidalanma keyfiyyəti aşağıdaki formada qiymətləndirilir: enerji təminatına; inqridentlər kompleksinə əsasən.

Göstərilən formalar insanın yaşan keyfiyyətinə, fiziki gücünə,firəvan həyat tərzinə təsir edir.Qidalanma prossesinin ölçülməsi kaloriylə hesablanır.Beləliklə, cəmiyyətin qidalanma norması onun yaşam tərzindən, yaşından, cinsindən, ölkənin qida ehtiyatına baxılır və hər bir şəxsində qidanlanma norması bu sayılan göstəricilərə əsasən aparılır.Natamam qidalanma dedikdə isə , qidalanma prossesində təkcə kaloriyə deyil həmdə zülala,yağlara,mikroelenemtlərin baxılmalıdır. Əgər bunlar yetərincə deyilsə onda natamam qidalnma sayılır və buna həmdə gizli aclıq deyilir.Həmçinin buna insanların artım tempidə öz təsirini göstərir.Nəticədə insanlar artdıqca qidaya olan tələbatda artır buda öz növbəsində ərzaq artımına təsir edir və digər tərəfdəndə bu tələbat ilbəil təkmilləşər və təzələnir.Ölkədə ərzaq təhlükəsizliyinə bir sıra vacib amillər təsir edir. Ərzaq təhlükəsizliyinə təsir edən əsas amillər: ölkədə ərzaq və qida məhsulları istehsalının səviyyəsi; ərzaq və qida məhsulları istehsalının iqtisadi məqsədəuyğunluğu; ərzaq və qida məhsulları qiymətlərinin səviyyəsi; ölkə əhalisinin alıcılıq qabiliyyəti; əhalinin orta aylıq gəliri və əməkhaqqı; güzəştlər və müavinətlər.

Ərzaq və qida təhlükəsizliyi insanların sosial, iqtisadi, fəal həyat tərzi üçün çox önəmlidir.Ölkəmizin kənd təsərrüfatı məhsulunun istehsalına və emalına dair strateji yol xəritəsiqəbul edilmişdir.Bu xəritənin əsas məqsədi ərzaq və qida təhlükəsizliyini gücləndirmək üçün yollar axtarmaqdır.Nəticədə biz bu niyyətimizə nail olmaq üçün ərzaq təhlükəsizliyinin gücləndirilməsinə qarşı düz fikir verməkdir.Ərzaq təhlükəsizliyi o zaman təmin olunacaqdır ki,Cəmiyyət hər zaman sağlam formada və keyfiyyətli qidalanma məhsullar əldə etsin.

Bəzi araşdırmalar nəticəsində əldə edilən məluamata əsasən ərzaq təhlükəsizliyinin göstəriciləri ərzaq təhlükəsizliyinin qiymətləndirilməsi üçün BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı tərəfindən qəbul edilən göstəricilərdən fərqlənir. Həmin göstəricilərə aiddi onun fiziki mövcudluğu, qida əlçanlılığı, qida çatışmamazlığı və.s bunlara diqqət edir. Qlobal Ərzaq Təhlükəsizliyi İndeksinin hesablanmasında istifadə olunan göstəricilər aşağıdakılardır :

- Əlyetərlik- İstehlakçıların ərzaq almaq qabiliyyətini, onların qiymət şoklarına qarşı həssaslığını və şoklar baş verdikdə müştəriləri dəstəkləmək üçün proqram və siyasətlərin mövcudluğunu ölçür ;
- Mövcudluq- Milli ərzaq təminatının yetərliliyini, tədarükün pozulması riskini, ərzaq məhsullarının yayılması üçün milli imkanları və kənd təsərrüfatı məhsullarının istehsalının genişləndirilməsi üçün tədqiqat səylərini ölçür;

- Keyfiyyət və təhlükəsizlik- Orta qidalılıq dərəcəsinin müxtəlifliyini və qida keyfiyyətini, həmçinin qida təhlükəsizliyini ölçür;

- Təbii sərvətlər və davamlılıq -Ölkənin iqlim dəyişikliyinin təsirlərinə məruz qalmasını qiymətləndirir, onun təbii resurs risklərinə həssaslığını və ölkənin bu risklərə necə uyğunlaşdığını müəyyən edir.

AZƏRBAYCAN RESPUBLIKASINDA ŞƏHƏRƏTRAFI DAŞINMAZ ƏMLAK BAZARININ İNKİŞAF TENDENSİYALARI

Fərzəliyev C.Ə.
Azərbaycan Memarlıq və İnşaat Universiteti
E-mail: cefer.ferzeliyev17@gmail.com

Ölkə daşınmaz əmlakı ən fəal inkişaf edən və müxtəlif bazar seqmentlərindən biridir. Bu konsepsiyaya kənd evləri, kotteclər və kottec kəndləri, şəhərətrafı yaşayış kompleksləri və şəhər evləri, eləcə də gələcəkdə bağ evlərinin və ya kotteclərin özlərinin tikintisi üçün torpaq sahələri də daxil olmaqla geniş çeşidli təkliflərin daxil edilməsi adətdir.Burada qeyd etmək lazımdır ki, "kottec" kimi bir konsepsiya yavaş-yavaş, lakin şübhəsiz ki, müasir şəhərətrafı daşınmaz əmlak bazarını tərk edir və geri qaytarılmaz olaraq keçmişdə qaldı. Əgər bu yaxınlarda şəhərətrafı ərazilərdə bu yaşayış obyekti haqqında danışarkən bağçılıq və əyləncəli pikniklər üçün bir yer nəzərdə tuturduqsa, indi çoxları üçün daimi yaşayış yerinə çevrildi. Niyə? Əvvəla, Avropa tendensiyaları bizə çatdığı üçün "şəhərdə işləmək, şəhərətrafı ərazilərdə ev" dövrümüzün əsas tendensiyalarından biridir,

Şəhərətrafı daşınmaz əmlak bazarı elə bir sahədir ki, hər bir obyekt fərdi olur, onun həm güclü, həm də dəyərinə təsir edən zəif tərəfləri var. Müəyyən bir təklifin seçilməsi və düzgün qiymətləndirilməsinin mürəkkəbliyi məhz bu spesifiklikdə və çoxlu sayda məqamları nəzərə almaq ehtiyacındadır. Uzun illərdir ki, şəhərətrafı ərazilər pullarını sərfəli şəkildə yatırmaq istəyənlərin diqqətini çəkir. Axı, şəhərdən kənarda daşınmaz əmlak maliyyə resurslarının ən perspektivli investisiyalarından biri olmuşdur və qalır. Bununla belə, onlar alıcının hansı məqsədlə bağ evi və ya kottec almaq istədiyi barədə aydın təsəvvürə malik olmasını tələb edirlər.Bağ daşınmaz əmlakı məsələsini nəzərə alsaq, onun dəyərini qeyd etməmək olmaz. Həmişə iki əsas komponentdən ibarətdir. Birincisi, torpaq sahəsinin özünün qiymətindən, ikincisi, üzərində yerləşən obyektin qiymətindən. Üçüncü komponent də var - ətraf ərazinin abadlaşdırılması və rahatlığının dəyəri. "Şəhərətrafı daşınmaz əmlak" anlayışının dəyişməsi ilə yanaşı, onun Obyektinin müəyyən edilməsi meyarları da dəyişib. Bu gün bütün təklifin qiymətinə əsasən torpaq sahəsi təsir edir. Bunu izah etmək asandır, çünki hər hansı bir bina, istər şəhərətrafı ərazilərdəki kiçik bir bağ evi, istərsə də qəşəng şəhər evi, zaman keçdikcə köhnəlir, texniki cəhətdən köhnəlir və sadəcə olaraq dəbdən çıxır, bu da onun dəyərinin tədricən azalmasına səbəb olur. Torpaq sahələri harada olmasından asılı olmayaraq həmişə əbədi dəyərə malikdir. Mümkün olan ən böyük torpaq sahələri olan kiçik praktik evlərə həmişə tələbat olacaqdır. Eyni zamanda, alıcının bütün çoxsaylı tələblərini ödəyəcək ən yaxşı variantı tapmaq olduqca çətindir. Axı, burada şəhərətrafı daşınmaz əmlakın olması lazım olan istənilən ərazini və ərazinin landşaftını, binanın su hövzələrinə və meşələrə yaxınlığını, ərazinin inkişafı və giriş yollarını nəzərə almaq lazımdır. Nəhayət, bütün bunlar bizi bir istiqamətə bərabər görünən sahələrin dəyərinin əhəmiyyətli dərəcədə dəyişdiyinə gətirib çıxarır.

Təbii ki, şəhər daşınmaz əmlakı ilə müqayisədə şəhərətrafı təkliflər bazarı bir çox üstünlüklərə malikdir. Onlardan ən danılmazı isə şəhərin səs-küyündən uzaq, ekoloji cəhətdən təmiz ərazilərdə yaşamağa imkan verməsidir. Onu da qeyd etmək lazımdır ki, bu yerləşdirmə ən rahat və müasir şəraitdə həyata keçiriləcək. Axı bu gün demək olar ki, bütün kottec və istirahət kəndlərinin inkişaf etmiş infrastrukturu, yaxşı qurulmuş su və qaz təchizatı var.Ölkə inkişafı üzrə yeni Baş Planın konsepsiyası tikilməkdə olan bütün mənzilləri çoxmənzilli və tək mənzilli mənzillərə bölür. Qeyd edək ki, yaxın gələcəkdə ölkənin yaşayış zonasında 10 milyon kvadratmetr artım gözlənilir. Bəs neçə mərtəbəli evlər azmərtəbəli yaşayış evləri sayıla bilər? Yarı ayrı kotteclər? Üç və ya beş hekayə? Bununla bağlı standartların olmaması tərtibatçıları ənənəvi azmərtəbəli ərazilərdə yeddi və hətta doqquz mərtəbəli evlər tikməyə sövq edir.

Daşınmaz əmlak, aşağıdakı terminlərin istifadəsi ilə bağlı konsensus təklif olunur:

- taun-haus (taun-haus, ingiliscə) - mənzillərin mülkiyyətçilərinə mülkiyyət və ya icarə əsasında məxsus olan, bitişik divarları və bitişik torpaqdan ayrı girişləri olan iki və ya daha çox mənzildən ibarət azmərtəbəli bloklu ev.

- azmərtəbəli seksiyalı yaşayış binaları (taunhauslar daxil olmaqla) - fərdi spesifikasiyalara uyğun tikilmiş evlər. ərazinin inkişafı qaydaları nəzərə alınmaqla layihələr (çardaqlı üç və ya dörd mərtəbəyə qədər).

- azmərtəbəli binalar - vahid arxitektura-planlaşdırma həlli çərçivəsində tikilmiş, vahid mühəndis təminatına (avtonom və ya ümumi istilik sistemləri, qaz təchizatı, elektrik enerjisi, su təchizatı, telefon quraşdırılması, kanalizasiya, giriş və çıxış nəzarət sistemi, təhlükəsizlik və video nəzarət və s. d.), əsasən torpaq tək təkmilləşdirilməsi. Kompleksə mərtəbələrin sayı, sahəsi, binaların planı və digər xüsusiyyətləri ilə fərqlənən bir neçə növ azmərtəbəli seksiyalı yaşayış binaları daxil ola bilər.

-kottec (kottec, ingilis dili) - icarə və ya mülkiyyət hüququ ilə bitişik torpaq sahəsi olan və ərazinin inkişafı qaydalarını nəzərə alan layihə üzrə tikilmiş, əsasən şəhərətrafı yaşayış binası. "Kottec" sözü ilə əlaqəli olmayan alternativ adlar: malikanə, saray (yay və ya qış), mülk, daxma, dacha, hacienda və s.

Əvəzində şəhərin mərkəzində yaşayış mənzillərinin qiyməti kənarlara nisbətən daha yavaş dəyişib, qeyri-yaşayış sahələrinin qiyməti isə şəhər kənarına nisbətən daha dinamik olub. Eyni vəziyyət ölkə səviyyəsində də müşahidə olunur.

Bir sıra rayon və şəhərlərin mənzil və qeyri-yaşayış fondu deqradasiya dövrünü yaşamış, arzuolunmaz görkəm almışdır. Bütün bunların qarşısını almaq üçün dövlət tərəfindən qəbul edilmiş "regional iqtisadi inkişaf proqramı" son 3 ildə daşınmaz əmlak bazarında müəyyən dəyişikliklərə səbəb olmuş, bəzi rayon mərkəzlərində, turizmin inkişafının perspektivli olduğu ərazilərdə müsbət yüksəlişlər baş vermişdir. Hazırda bu sahələrdə mövcud müsbət saldo investorlar üçün stimul rolunu oynayır. Hazırda yolların bərpası və ya yenilərinin tikintisi, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin və Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikilib istifadəyə verilməsi, hava limanlarının, sənaye şəhərciklərinin tikintisi və s. tədbirlər həmin ərazilərdə əmlakın qiymətini qaldırdı. Hazırda ölkə iqtisadiyyatının inkişaf mərhələsində iqtisadiyyatın sahələri arasında fərqli inkişaf tempi müşahidə olunur, yüksək rentabelli obyektlər fəaliyyət göstərir, az gəlirli obyektlər təyinatını dəyişərək yenidən yaşamağa çalışır, bu sahədə fəaliyyət göstərə bilməyən müəssisələr bazarda şiddətli rəqabətə tab gətirmək üçün qapadılır, əvəzinə daha gəlirli müəssisələr işə salınır. Torpaqdan istifadə forması və daşınmaz əmlaka sahiblik forması dəyişir, əmlak gəlirlərinin faiz dərəcələri iqtisadi tempə uyğun Bütün bunların fonunda ölkənin daşınmaz əmlak bazarı bu proseslərə adekvat münasibət nümayiş etdirdi.

Daşınmaz əmlak ölkənin milli sərvətinin əsasını təşkil etməklə yanaşı, mülkiyyətçilərin sayına görə kütləvi xarakter daşıyır və vergi daxilolmalarında əmlak vergisinin payı da əhəmiyyətlidir. Məhz bu baxımdan uğurlu biznes qurmaq istəyən hər bir sahibkar daşınmaz əmlakının qiymətləndirilməsi əsasında vergi ödənişlərini vaxtında həyata keçirməli, daşınmaz əmlak bazarını bilməklə yanaşı, vergi qanunvericiliyi haqqında geniş məlumata malik olmalıdır.

Yuxarıda göstərilənlərə əsaslanaraq, əsas nəticə belədir ki, bazarın ən dar sektoru ən varlılara yönəlib, bu seqment cəmi 2,45% təşkil edir maksimum tələbat 4,79 min ev olaraq qiymətləndirilir. Təəccüblü görünsə də, ən çox tələbatı 32,92 min evdən ibarət "orta gəlir" qrupuna aid olan ailələr təqdim edə bilər.

KƏND TƏSƏRRÜFATI MÜƏSSİSƏLƏRİNDƏ MATERİAL İSTEHSALAT EHTİYATLARININ DAXİLİ AUDİT METODOLOGİYASININ TƏKMİLLƏŞDİRİLMƏSİ

Hacıyev İ.C.
Azərbaycan Dövlət Aqrar Universiteti
E-mail: hacıyevizzet5@gmail.com

İstehsal prosesində çoxlu sayda müxtəlif növ xammal və materiallar sərf olunur. Onların təhlükəsizliyində əsas rolu ehtiyatların hərəkətinin bütün mərhələlərində (alınma, qəbul, saxlama, istehsalata buraxılma, istehsalda istifadə və digər məqsədlər üçün) uçotu və daxili audit oynayır. Material istehsalat ehtiyatlarının uçotu tədarükün vaxtında aparılmasına, inventar standartlarına audit təmin etməli, uçota alınmayan materialları aşkar etməli, ehtiyatlardan düzgün istifadəyə audit etməli, idarəetmə məqsədləri üçün lazımi məlumatların vaxtında verilməsini təmin etməlidir. Bu baxımdan ehtiyatların uçotunun təkmilləşdirilməsi, onun səmərəliliyinin artırılması təxirəsalınmaz tələbatdır.

Təsərrüfat fəaliyyətinin demək olar ki, bütün prosesləri ehtiyatların hərəkəti hesabına həyata keçirilir. Onların dövriyyənin istənilən mərhələsində olmaması istehsal və dövriyyənin davamlılığının və ritminin pozulmasına gətirib çıxarır. Eyni zamanda, artıq ehtiyatlar istehsalın səmərəliliyini azaldır və təklifdə gərginlik yaradır. Yuxarıda göstərilənlərə əsasən, müəssisənin taleyi, onların maliyyə vəziyyəti birbaşa ehtiyatların idarə edilməsinin effektivliyindən (həcm, struktur, dövriyyə dərəcəsi və s.) asılıdır. Bunda daxili audit bütün növ

ehtiyatların təhlükəsizliyinin, səmərəli və qənaətli istifadəsinin təmin edilməsində aparıcı rol oynayır. Ehtiyatlar haqqında məlumatların kəmiyyətinin və ya təxmininin qəsdən və ya təsadüfən təhrif edilməsi, bitməmiş iş dərhal həm maliyyə nəticələrinə (bu, satılan malların dəyərinin müəyyən edilməsinə təsir etdiyi üçün), həm də bütövlükdə balans hesabatına təsir göstərir. Bundan əlavə, ehtiyatların miqdarı, vəziyyəti və qiymətləndirilməsi haqqında obyektiv məlumatın olmaması təşkilatın maliyyə vəziyyətinə mənfi təsir göstərir, çünki birincisi, təsərrüfat subyektinin rəhbərliyi öz fəaliyyətini adekvat planlaşdıra bilmir; ikincisi, təşkilatın maliyyə vəziyyətinin göstəriciləri təhrif olunur və hesabatların kənar istifadəçiləri iqtisadiyyatın gəlirliliyi və ödəmə qabiliyyətini obyektiv qiymətləndirə bilmirlər; üçüncüsü, vergilərin məbləğlərinin təhrif edilməsi var ki, bu da cərimələrin tətbiqinə və təşkilatın maliyyə vəziyyətinin pisləşməsinə səbəb ola bilər.

Kənd təsərrüfatı təşkilatları üçün material istehsalat ehtiyyatlarının daxili auditinin təşkili təşkilatda audit sisteminin mühüm istiqamətidir, çünki məhsulların keyfiyyəti maddi sərvətlərin vəziyyətindən asılıdır. Kənd təsərrüfatı təşkilatlarının daxili audit sisteminin əsas xüsusiyyətləri bunlardır: Təşkilat üzrə ehtiyatların hərəkət yollarının müəyyən edilməsi; Hər bir sahədə ehtiyatların hərəkətinə və saxlanmasına cavabdeh olan şəxslərin müəyyən edilməsi; İnventarların hərəkətində təşkilatın hər bir işçisinin rolunun nəzərə alınması; Materialların təhlükəsizliyinə görə anbardarın məsuliyyət payının müəyyən edilməsi; Ehtiyatların düzgün uçota alınmadan istifadəsinə baxılması; Lazımi sənədlər olmadan ehtiyatların mümkün xərclərinin və ya israfının nəzərə alınması; Tamamlanmamış işin mümkün təhriflərinin müəyyən edilməsi; Mümkün itkilərin və ya ehtiyatların talanmasının müəyyən edilməsi; Mövcud materialların və hazır məhsulların hesabatının düzgünlüyünün müəyyən edilməsi; Analitik uçot registrlərində göstərilən mühasibat balanslarının inventarizasiyanın nəticələrinə uyğunluğunun müəyyən edilməsi; Daxili audit prosedurlarının müəyyən edilməsi; Ehtiyatların saxlanması sahəsində daxili auditin istiqamətlərinin müəyyən edilməsi.

Mühasibat uçotunun və deməli, auditin ən mürəkkəb və həcmli sahələrindən biri ehtiyatların uçotudur. Ehtiyatların payı balans aktivinin 5% -dən çoxunu təşkil edirsə, yoxlama zamanı çox diqqətli olmalıdır, çünki materialların dəyəri məhsulların maya dəyərinin əhəmiyyətli hissəsini tutur. Çox vaxt bütün təşkilatın fəaliyyətinin maliyyə nəticəsi materialların alınması və çatdırılması ilə bağlı məsələlərin həllindən birbaşa asılıdır. Bundan əlavə, mühasibat uçotunda yol verilən səhvlər hazır məhsulların maya dəyərinin düzgün formalaşmamasına, maliyyə nəticəsinin, vergi tutulan mənfəətin təhrif edilməsinə səbəb olur. Müəssisənin rəhbərliyi ilə qarşılıqlı əlaqə baxımından daxili auditorun əsas vəzifələrindən biri aşkar edilmiş pozuntular barədə vaxtında məlumat vermək və tövsiyələrin icrasına audit etməkdir. Bu prosedurların "Daxili auditin nəticələrinin xülasəsi" işçi sənədinin təklif olunan formatında sənədləşdirilməsi məqsədəuyğundur.

Daxili auditin effektivliyinin monitorinqi nöqteyi-nəzərindən kənd təsərrüfatı təşkilatının rəhbərliyi və sahibləri üçün aşağıdakı göstəricilər sistemini tətbiq etmələri məqsədəuyğundur: Şirkət rəhbərliyi tərəfindən təsdiq edilmiş planla müqayisədə tamamlanmış audit yoxlamalarının sayı; Bir auditora düşən dövr ərzində aparılan auditlərin sayı; Büdcəyə uyğun olaraq aparılan audit yoxlamalarının sayı; Audit tövsiyələrinin yerinə yetirilmə faizi; Təkrar audit tövsiyələrinin sayı; Audit tövsiyələrinin icrasından birbaşa xərclərə qənaət/qənaət; Auditin müştərilərinin (müştərilərinin) məmnunluğu.Daxili auditin keyfiyyətinin artırılmasına yanaşma hərtərəfli olmalıdır. Bu tədbirlərin həyata keçirilməsi auditin keyfiyyətinin yüksədilməsinə müsbət təsir göstərmiş olar. Yalnız yuxarıda göstərilən bütün tədbirlərin həyata keçirilməsi daxili audit sisteminin işinin, o cümlədən mühasibat uçotunun (maliyyə) ən əhəmiyyətli maddələrini təşkil edən ehtiyatların uçotunun ən əhəmiyyətli sahələrindən birində yaxşılaşdırılmasına ən böyük töhfə verəcəkdir.

TURİZMDƏ SOSİAL-MƏDƏNİ XİDMƏTLƏRƏ TƏLƏBATIN ƏSAS GÖSTƏRİCİLƏRİ

Hacıyev İ.İ.
Naxçıvan Dövlət Universiteti
E-mail: 3494330@gmail.com

Tələbat şüurlu sürətdə formalaşan, ehtiyac duyulan maddi və qeyri-maddi ehtiyaclardır. İnkişaf etməkdə olan dövrümüzdə tələbatlar müxtəlif formalarda təzahür etmişdir. Tələbatın müxtəlif formada təazahür etməsində sosiyal mühit və intelektual inkişaf xususi rola malikdir. Tələbatın formalaşmasına təsir göstərən amillər arasında coğrafi, tarixi, milli xususiyyətlər və həyat şəraiti təsir göstərir. Qədim dövürdən bəri insanlar tələbatlarını ödəmək üçün müxtəlif yollar axtarmışlar. Zaman keçdikcə insanların rifah halının yüsəlməsi, iş saatının azalması, zəruri ehtiyacları ödəyən yüksək əmək haqqı insanların özlərinə vaxt ayırmaq imkanı yaratdı. Bu özünü turist məhsuluna duyulan ehtiyac şəklində özünü göstərdi. Turizm, insanların sosial

ehtiyaclara olan tələbatını ödəmək üçün formalaşmışdır. Tələbat bazar iqtisadiyatı şəraitində formalaşdığı üçün burada əsas qayda tələb və təklif qanunları əsasında formalaşır. Tələb və təklif qanunlarından başqa burada qiymət amili də mühüm rola malikdir.Tələbatlar iki cür olur: şəxsi və ictimai tələbatlar. Turizm tələbatı – şəxsi tələbatdır. Insanların bir-birilə ünsiyyətdə olması ictimai tələbatdır.Turizm sahəsində tələbat anlayışının açılışında çətinlik yaranır. Çətinlik yaradan səbəb onun istehsal prosesinin bütün fazalarında yəni, həm istehsalda həm də, istehlakda iştirak etməsidir. Tələbat istehlakın bir forması olduğu üçün bazardakı alıcıların və ya istehlakçıların cəmi ilə ölçülür. Əgər bazarda alıcı yoxdursa, tələbat da yoxdur demekdir.

Turizm sahəsinə tələbatın yaranması və inkişaf etməsinə təsir göstərən əsas amil kimi maddi bazanın təsirini göstərmək olar. İnsanları maddi tələbatları nə qədər yaxşı ödənilərsə, o qədər də turizm məhsuluna ehtiyacı çoxalır. Maddi baza ilə paralel olaraq burada insanların düşüncə tərzi və dünya görüşü mühüm rola malikdir. Müasir dövrümüzdə dünya ilə sıx inteqrasiyada olduğumuz üçün dünya görüş və düşüncə tərzi daha yaxşı formalaşır. Bu formalaşma əsasında insanlar turizm məhsuluna ehtiyac duyur. Turizm xidmətləri insanları mənəvi cəhətdən qidalandırır. Turizm məhsulu iqtisadi kataqoriyadır, buna baxmayaraq, o psixo-fizoloji xarakter daşıyır. Bunun üçün də turizm məhsulundan istifade eden insanların davranış motivlərini və psixologiyasını öyrənilməsi əsas götürülür.

Turizm məhsuluna tələbat yaradan faktorlar: gəlir, xidmətin qiyməti və asudə vaxt. Bundan başqa, tələbat eyni zamanda alıcının hazırlığından, onun mədəni səviyyəsindən və turist məhsulunun özünün cazibədarlığından aslıdır.Turizm iqtisadiyyatının əsasını qoyanlar B.Xinsiker və K.Krapf turizm məhsuluna olan tələbata belə tərif verirlər: Iqtisadi cəhətdən turizm tələbatı turistlərin müəyyən qiymətlərə almaq istədiyi mallarınn turist xidmətlərinin miqdarıdır. Başqa sözlə desək, turizm tələbatı turist gedən ölkənin qiymətləri ilə əlaqədar turizm xidmətləri və malların şəxsi istifadəsidir.Turizm məhsuluna olan tələbat təbii tələbatdır və insanın inkişafı nəticəsində meydana gəlmişdir. Istehlak prosesi nöqteyi-nəzərdən, o, insanın şəxsi tələbatıdır. Ictimai istehsal nöqteyi nəzərdənsə, o ictimai xarakter daşıyır və ictimai tələbatdır. İnsanların günü-gündən artan tələbatları onu göstərir ki turizm mahsuluna duyulan tələbat da günü-gündən artır və genişlənir. İnsanın yaşadığı müddətcə turizm məhsuluna duyulan tələbatda mövcud olacaq və cəmiyyət dəyişdikdə onun yalnız strukturu dəyişikliyə uğrayacaqdır. Bu isə bizə onu deməyə imkan verir ki, turizm tələbatını insanın təbii və tarixi tələbatıdır.

MÜASİR ŞƏRAİTDƏ AZƏRBAYCANDA MALİYYƏ BAZARININ PERSPEKTİV İNKİŞAF İSTİQAMƏTLƏRİ

Hacıyev V.A.
OdlarYurdu Universiteti
E-mail: vasif.haciyev.m5@gmail.com

Son illərdə Azərbaycan Respublikasında maliyyə bazarının bütün subyektləri inkişaf etməkdədir. Ölkənin bank sektorunda, qiymətli kağızlar bazarında. sığorta sahəsində və s. inkişaf meylləri baş verir. Bununla belə, həm biznesin inkişaf səviyyəsi maliyyə bazarlarının inkişafını, həm də maliyyə bazarlarının inkişaf səviyyəsi biznesin inkişafını lazımi səviyyədə təmin etmir. Belə ki, maliyyə bazarlarının inkişafında bir sıra problemlər mövcuddur ki, bunlar da onların biznesin inkişafına təsirini məhdudlaşdırır. Artıq təcrübə göstərir ki, bazar münasibətələrınə keçid avtomatik olaraq iqtisadi inkişafı təmin etmir. İqtisadi inkişafın təmin olunması, ölkə iqtisadiyyatının kəmiyyət və keyfiyyət göstəricilərinin yaxşılaşdırılması iri həcmli investisiya qoyuluşları tələb edir. Eyni zamanda, bu investisiya qoyuluşlarını həyata keçirmək iqtidarında olan biznes strukturlarının mövcud olması da iqtisadi İnkişafın zəruri şərtlərindən biridir. Ölkədə biznesin inkişafı və maliyyə bazarlarının formalaşması biri digərinin səbəb-nəticəsi kimi çıxış edir. Real sektorun inkişafı maliyyə bazarlarının formalaşmasına gətirib çıxarır, maliyyə bazarlarının inkişafı isə real sektorun inkişafının zəruri şərtlərindən biri kimi çıxış edir.Bu baxımdan, hazırda maliyyə bazarları ilə iqtisadiyyatın real sektorunun qarşılıqlı əlaqələrinin və onların bir-birlərinə təsirinin elmi tədqiqinə böyük ehtiyac vardır. Azərbaycan iqtisadiyyatının bazar münasibətlərinə keçidi bazar mexanizminin iqtisadi fəaliyyətin bütün tərəflərinin tənzimlənməsində rolunun artmasına gətirib çıxarmışdır. Bu baxımdan, maliyyə bazarının formalaşması ölkədə həyata keçirilən iqtisadi islahatlarla bilavasitə əlaqədardır.

Ölkədə dövlət əmlakının özəlləşdirilməsi nəticəsində xüsusi banklar və digər maliyyə firmaları və maliyyə sektora ilə qaşılıqh əlaqədə fəaliyyət göstərən özəl biznes subyektləri yaranmışdır. Maliyyə bazarlarını dinamikasına, maliyyə (faiz dərəcələri və inflyasiya), ümumi iqtisadi (məşğulluq səviyyəsi, beynəlxalq ticarət)

və siyasi faktorlar, xəbərlər, eyni zamanda təbii fəlakətlər təsir edir.Bu faktorların ayrı-ayrılıqda tətqiq olunması aktual məsələlərdəndir.Bazar mexanizmində hərəkətverici «mühərrik» rolunu Rəqabət oynayır. Bazar əmtəələrin istehsalı ilə əks əlaqə yaradır. Bazarı 3 əsas hissəyə ayırmaq olar: əmtəə, maliyyə və əmək bazarına. Maliyyə bazarı analayışına gəldikdə isə bu termini alınıb satılan "əmtəə" maliyyə resursları kimi xarakterizə edə bilərik.Yığım= Cari gəlir- Carı xərc (Y=Cg-Cx) düsturundan da aydın olur ki, cari gəlirdən cari xərc çıxıldiqdan sonra qalan yıgım əsasən maliyyə bazarına gedir. Maliyyə sisteminin səmərəliliyindən ümumilikdə iqtisadiyyatın səmərəliliyi aslıdır.Maliyyə bazarında depozitar və qeyri-depozitar təşkilatlar var. Depozitar təşkilatlara qiymətli kagızları saxlayan, uçotunu aparararaq digər xidmətlər də göstərən institutlar aiddir. Onlara depozitari deyilir. Bəzi ədəbiyyatlar depozit qəbul edib saxlayan bankları da depozitar təşkilat kimi səciyyələndirir.Maliyyə bazarının alətləri, onların növlərinə depozit, kredit, hesab,Veksel, səhm, istiqraz, fyüçers, əskinaz (banknot), çek, konosament,repo, spot, svop, debet və kredit kartları və s. qeyd etmək olar. Maliyyə bazarının infrastrukturu- dedikdə bazarda maliyyə alətlərinin hərəkətini təmin edən texniki vasitələrdə, institutlarda, norma və qaydalarda maddiləşmiş texnologiyaların məcmusu başa düşülür.Maliyyə bazarının hissələrinin aşağıdaki sadalanan xüsusiyətləri ilə qisa xarakterizə etmək olar.

Kredit bazarı. Burada kreditin bank krediti növündən söhbət gedir. Kredit bazarı pulun kreditordan borc alana ötürülməsi təşkil olunan iqtisadi müstəvidir. Kreditor kimi beynəlxalq maliyyə- kredit təşkilatları, reqional banklar, mərkəzi bank, banklar (mənfəət əsasında işləyənlər), kredit təşkilatları (bank olmayan) çıxış edir. Dünya kredit bazarının həcmi ildə 40 trilyon ABŞ dollarından coxdur. İslam bankçılıgı əsasında verilən kreditlərin həcmi artır.İlkin bazara şirkətlər və dövlət orqatılan tərəfindən buraxılmış qiymətli kağızlar çıxardır. İlkin bazarda qiymətli kağızlar kimi istiqrazlar və səhmlər alınıbsatılır, ilkin bazarın əsasını qiymətli kağızların mülkiyyətçilər tərəfindən satın alınması təşkil edir. Xarici baxımdan bu rol öz əksini iqtisadi dövrün müxtəlif mərhələlərində emissiya həcminin və strukturunun dəyişməsində tapır. Böhran dövründə qeyri-maliyyə sektorunda fəaliyyət göstərən korporasiyalarda Ödəniş dövriyyəsinə xidmət göstərilməsi üçün pul vəsaitinə böyük ehtiyac yaranır. Çünki, bu zaman miiəsssiənin ödəniş və kredit qabiliyyəti kəskin aşağı düşür və bankdan kredit almaq çətinləşir. Bir qayda olaraq, müəssisə qısamüddətli maliyyələşmə mənbəyi olan bank kreditləri istiqraz formasında olan maliyyə resurslarına istiqamətlənir. Təcrübə göstəriri ki, böhran dövrlərində emissiya sturkturunda istiqrazların payı daha çox olur. Ödəniş böhranının aradan qaldırılması və durgunluğundan çıxmaq məqsədilə korporasiyalar real kapitalın səmərəliliyininin artırılması və konkret bazarda öz mövqelərinin möhkəmləndirilməsi məqsədilə kapital strukturunun yenidən qurulmasına başlayırlar. Qeyd edilən məqsədlər ilk növbədə səhmdar kapitalın artırtması hesabına baş verir. Səhmdar kapitalın artırılması əlavə səhm buraxılışı hesabına həyata keçirilir.

İlkin bazarda bu öz əksini məcmu emissiya artımında tapır ki, bu da emissya strukturunda səhmlərin payının artmasına gətirib çıxarır. Emissiyanın bu cür strukturu canlanma mərhələsinin ilkin dövrü üçün xarakterikdir. Lakin onun inkişafından sonra emisisyanın ümumi payında isitiqrazlarm payı yenə də azalmağa meyl edir. Törəmə maliyyə alətləri, derivativ (latınca derivare sudan törəmə, ingiliscə derivative törəmə), əvvəlcədən razılaşdırılmış qiymətə alıcının öz üzərinə əmtəə, valyüta, qiymətli kagızı almaq və satıcının isə satmaq öhdəliyi götürməsini təsdiq edən yazılı şəhadətnamədir. Bu əməliyyatda məqsəd qiymət artımı-azalmasından qorunmaqdır. Əlbəttə burada tərəflərdən biri vəsaiti qazana, digəri isə itirə bilər. İ.e.d., professor Ruslan Grinberg dünya törəmə maliyyə alətləri bazarının 900 trilyon dollara yaxınlaşdıgını bildirir.Sərmayə Fondları bazarı- sərmayələrin təşkilini təmin edən iqtisadi müstəvidir. Sərmayədarlar sərmayə (investisiya) fondları vasitəsilə pullarını işlək aktivlərə çevirir. Təkcə açıq sərmayə fondlarının məcmu aktivləri 27.9 trilyon dollardan çoxdur. Sıgorta bazarı sıgorta şəhadətnamələrinin satışının təşkil edildiyi iqtisadi müstəvidir. Sıgora şirkətləri tərəfindən toplanan tədiyyələr sərmayə vəsaiti kimi cıxış edir. Dünya sıgorta bazarının həcmi 4.6 trilyon dollardır (2012). 21 şirkətdən ibarət olan Azərbaycan sıgorta bazarının həcmi 2017–cı ildə 556.9 milyon manat təşkil etmişdir.

İpoteka, lizing, forfeytinq, faktoring bazarı- ipoteka, lizing, forfeytinq, faktorinq əqdlərinin baglanmasını təşkil edən iqtisadi müstəvidir. Yada salaq ki, ipoteka (yunanca hypotheke-girov) daşınmaz əmlakın girov qoyulması ilə kreditin götürülməsidir. Lizinq(ingiliscə leasing- icarə)- lizinq şirkəti tərəfindən əmlakın (əsasən avadanlıgın) satıcıdan alınaraq istehlakçıya uzunmüddətli icarəsi və ya pulu hissə-hissə ödənilməklə satışıdır. Faktorinq (latınca faktor- vasitəçi, ticarət agenti) və Forfeytinq (ingiliscə forfaiting, fransızca à forfait — bütöv, tam məbləg) borc tələblərinin satıcıdan güzəştli qiymətə alınması və sonradan pulun borc götürənin ödəməsini təmin etməsidir. Faktorinqdə satıcıya ilkin olaraq məbləgin bir hissəsi, alıcıdan alındıqdan sonra isə güzəşt çıxılmaqla qalan hissəsi ödənilir. Forfeytinqdə isə risk forfeytorda qalır, beləki satıcıya müəyyən güzəşt cıxıldıqdan sonra məbləgin qalan hissəsi dərhal ödənilir. Güzəşt dedikdə faktor və ya forfeytorun mənfəəti nəzərdə tutulur.

Bizim fikrimizcə, təqdim etdiyimiz bölgü Maliyyə bazarının reallığını daha dürüst ifadə edir və vəsaitlərin təkrar hesablanmasına yol vermir. Maliyyə bazarı hissələrə başqa cür də bölünür. Pul bazarı və Kapital bazarı. Pul bazarı 1 ilədək olan əqdlərin baglandıgı iqtisadi müstəvidir. Ona kredit, qiymətli kagızlar və sair maliyyə alətləri üzrə əməliyyatlar aiddir.

DAŞIMALARDA YARANAN RİSKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ NƏQLETMƏ PROSESİNİN ƏN YAXŞI VARİANTLARININ SEÇİLMƏSİ

Hacıyeva B.X.
Bakı Mühəndislik Universiteti
E-mail:bhaciyeva2@std.beu.edu.az

Multimodal daşımaların həyata keçirlməsi və bu zaman yarana biləcək risklər, nəqletmə prosesinin variantları araşdırılmışdır. Multimodal nəqliyyat özündə hava nəqliyyatı, dəmir yolu, yük maşını, gəmi və digər nəqliyyat növlərini birləşdirərək qlobal nəqliyyatı təmin edən əsas ünsürlərdən biri hesab edilir. Mühəndislik, iqtisadiyyat, əməliyyat tədqiqatları, politologiya, psixologiya, digər təbiət və sosial elmlər, idarəetmə və hüquq nəzəriyyələri və metodları multimodal daşımaların təqdiqində və tətbiqində əsas araşdırma obyektlərindəndir. Məqalədə müəllifin fikirləri yer almış, sonda isə tədqiqatdan alınan nəticələr ümumiləşdirilmişdir.Multimodal nəqliyyat mahiyyət etibarilə gəmi, dəmir yolu, yük maşını, təyyarə və s. kimi müxtəlif nəqliyyat növləri ilə, ilk növbədə, konteynerlərdən istifadə etməklə beynəlxalq nəqliyyat birləşməsidir. Konteynerlər vahid yükün mənşəyindən son təyinatına qədər səmərəli və minimum risklə daşınmasını təmin edəcək.

Woxenius-a görə, yük konteynerlərindən istifadə konsepsiyası Roma dövründən başlayır, lakin dəmir yolu ilə konteyner daşınması 1830-cu ildə kömür daşınması üçün Roll-on/Roll-off konteynerlərindən istifadə edən Liverpool və Manchester Railway tərəfindən təqdim edilmişdir. Birmingham və Derbi Dəmiryolu 1839-cu ildə vaqonlar və at arabaları arasında konteynerlərin ötürülməsi ilə multimodal nəqliyyatın erkən formasını təqdim etdi. Nyu York Mərkəzi Dəmiryolu 19 mart 1921-ci ildə Klivlend və Çikaqodan ilk xüsusi konteyner xidmətini inkişaf etdirdi və istifadəyə verdi. Konteynerləşmə daha da böyüdü. "Qapıdan qapıya" daşıma vasitəsi kimi, qoşquların özlərinin ixtisaslaşdırılmış "Yastı avtomobillərdə" daşındığı Piggy Back Sisteminin inkişafı ilə təkan verdi. Multimodal nəqliyyat xidməti təmin edildikdə, multimodal nəqliyyat operatoru (MTO) mənşə nöqtəsindən təyinat məntəqəsinə qədər məsuliyyət daşıyacaq (UNCTAD, 1995a). O, bir nəqliyyat sənədi verəcək, bu sənədə yük haqları üçün faktura, həmçinin tranzit müddətinə zəmanət daxildir. Bu andan etibarən MTO yükgöndərən və ya yükalanın adına deyil, fərdi daşıyıcılarla, avtomobil yolu, dəmir yolu, gəmi xətləri, liman rəhbərliyi, terminal operatorları, stevedorlar və s. ilə bir sıra sub-müqavilələr bağlayır. Yalnız MTO hər bir faktiki subdaşıyıcıdan malları götürmək və növbəti subdaşıyıcıya ötürmək hüququna malikdir. MTO, prinsipial olaraq, bütün nəqliyyat zəncirinə cavabdehdir.

MTO-nun səmərəli nəqliyyat vasitələrini layihələndirmək və təmin etmək bacarığına malik olması əsasdır. Mallar yükgöndərəndən alıcıya daşınarkən, on və ya on iki fərqli nəqliyyat əlaqəsi tələb oluna bilər. Hər bir ötürmə nöqtəsində mallar daha sonra boşaldılacaq və yüklənəcək, gözləniləcək və ya saxlanılacaq, çəkisi ölçüləcək, yoxlanılacaq və ya qeydə alınacaq, qablaşdırılacaq/yenidən birləşdiriləcək. Bütün bu intermodal köçürmələr vaxt və pul bahasına başa gəlir, beləliklə, müəyyən marşrutların rəqabət qabiliyyətinə təsir göstərir.

MTO multimodal nəqliyyat əməliyyatının dizaynı və planlaşdırılması üçün nəqliyyat sisteminin təhlilinə etibar etməli olacaq. Manheimə görə, nəqliyyat sisteminin təhlili sahəsi aşağıdakı xüsusiyyətlərə malikdir: Bütün nəqliyyat növlərini əhatə edən multimodaldır; O, hökumətin, özəl sənayenin və ictimaiyyətin problemlərini və baxışlarını əhatə edən çoxsahəlidir; Bu, qaydalar, qaydalar və siyasətlərdən tutmuş müştəri xidmətləri səviyyələrinə və maliyyə və iqtisadi məqsədəuyğunluğa qədər çoxlu problemdir; Mühəndislik, iqtisadiyyat, əməliyyat tədqiqatları, politologiya, psixologiya, digər təbiət və sosial elmlər, idarəetmə və hüquq nəzəriyyələri və metodlarına əsaslanan çoxsahəlidir.

Məsələn, bir çox daşımalar coğrafi səbəblərə görə unimodal olaraq həyata keçirilə bilməz və ya kifayət qədər yük maşını tutumu yoxdur. Praktikada konkret nəqliyyat variantının seçilməsinin ən mühüm səbəbi təbii ki, iqtisadi aspektdir - hansı nəqliyyat alternativi daha sərfəlidir? Multimodal nəqliyyatın təşkili təbii ki, çoxlu aktorların iştirakı ilə daha mürəkkəbdir və lazımi idarəetmə prosesləri daha çox planlaşdırma səyi tələb edir. Buna görə də yük maşınları ilə daşınma ilə müqayisədə qənaətliliyə zəmanət vermək çox vaxt çətindir və çox

vaxt yalnız daha uzun daşımalar üçün lazımdır. Buna görə də multimodal nəqliyyat adətən qısa məsafələrdə rəqabətə davamlı deyil.

Beləliklə, multimodal nəqliyyatın iqtisadi dizaynı üçün aşağıdakı amillər vacibdir:

- İdarəetmə proseslərinin səmərəli dizaynı;
- Daşımadan əvvəl və sonrakı daşıma üçün xərclərin azaldılması;
- Əlavə xərcləri kompensasiya etmək üçün əsas dövrədə paketləşdirmə;
- Əlavə xidmətlər təklif etmək.

Rejimlərin birləşməsi həmçinin hər rejimin xüsusi üstünlüklərindən istifadə etməyə və hər birinin mənfi cəhətlərini minimuma endirməyə imkan verir. Hər rejimin bəzi güclü və zəif tərəfləri aşağıdakı cədvəldə verilmişdir.Yüksək şəbəkə sıxlığına və qısa nəqliyyat məsafələrinin sürətinə görə avtomobil nəqliyyatı multimodal daşımaların əvvəli və sonrakı daşınması üçün xüsusilə əlverişlidir. Ətraf mühitə aşağı təsir və orta və uzun məsafələr və yüksək həcmlər üçün dəmir yolu və su yollarının nisbətən aşağı nəqliyyat xərclərinə görə, bu iki nəqliyyat növü multimodal nəqliyyatın əsas ayağı üçün uyğundur. Yük daşımalarını birləşdirməklə iqtisadi baxımdan bu növlərlə daşımaları əsaslandıran müvafiq daşıma həcmlərinə nail olmaq olar.

Bununla belə, multimodal nəqliyyat həmişə optimal həll yolu deyil. Seçim kimi istifadə etmək üçün müxtəlif tələblər yerinə yetirilməlidir. Mallar yükləmə bölmələrində daşınmağa uyğun olmalıdır və müvafiq daşınma həcmi də mövcud olmalıdır. Hər şeydən əvvəl toplu yüklər və ya yüksək və ağır parça yüklər multimodal daşıma üçün uyğundur.Bundan əlavə, multimodal nəqliyyatın mümkün olması üçün müvafiq infrastruktur mövcud olmalıdır. Müxtəlif nəqliyyat vasitələrinə və daşıyıcılara çıxış xüsusilə vacibdir. Terminallar və qovşaqlar da multimodal nəqliyyatda mühüm rol oynayır.Bir tərəfdən, onlar nəqliyyat növləri arasında daşıma proseslərini təmin edir, asinxron çatdırılma və yığım üçün anbar kimi xidmət edir və tələb olunarsa əlavə xidmətlər təklif edir. Bunlara, məsələn, yükləmə aqreqatlarının təmiri, texniki xidməti və ya təmizlənməsi və ya qabların doldurulması və ya soyulması daxildir.

Multimodal daşımada bir neçə aktor və nəqliyyat növü iştirak etdiyinə görə, daşıma müvafiq olaraq təşkil edilməli və daha yüksək təşkilati səylə əlaqələndirilməlidir. Bundan əlavə, multimodal nəqliyyatın həyata keçirilməsi üçün müvafiq yükləmə vasitələri və beləliklə, infrastruktur mövcud olmalı və müxtəlif nəqliyyat növlərinə çıxış təmin edilməlidir. Daşınma müddəti həm də daşınma prosesləri ilə uzadıla bilən mühüm amildir və həmçinin toplama, daşıma və çatdırılmanın müvafiq koordinasiyasını tələb edir. Müxtəlif nəqliyyat növlərinin istifadəsi və daşınma proseslərinin istifadəsi unimodal daşıma ilə rəqabət apara bilməyən əlavə xərclərə səbəb ola bilər. Bundan əlavə, təhlükəsizlik mühüm məsələdir, çünki yüklərin idarə edilməsi prosesləri daha çox mallara ziyan vurur və ya gecikmələrə səbəb olur.

Çoxlarının başa düşdüyü kimi, multimodal nəqliyyat adətən bir operatorun nəzarəti və ya mülkiyyətində olan birdən çox nəqliyyat növü ilə bir daşıyıcı tərəfindən idarə olunan nəqliyyat sisteminə aiddir. Bu, bir-birinin ardınca yük maşını, vaqon, təyyarə və ya gəmi kombinasiyası kimi birdən çox nəqliyyat vasitəsinin istifadəsini nəzərdə tutur, məsələn. iki qatlı qatarların həm gəmi, həm də rels sistemini idarə edən konteyner xətti.Tək əməliyyat kimi planlaşdırılan və koordinasiya edilən multimodal daşıma, daşınma məntəqələrində vaxt itkisini və yükün itkisi, oğurlanması və zədələnməsi riskini minimuma endirir. Multimodal nəqliyyat operatoru öz kommunikasiya əlaqələrini saxlayır və daşınma məntəqələrində mübadilə və irəli daşımaları rəvan şəkildə əlaqələndirir.Bu üstünlüklərdən yaranan xərclərə qənaət adətən multimodal daşıma operatoru tərəfindən tutulan yük tariflərində və həmçinin yük sığortasının qiymətində əks olunur. Əmanətlər istehlakçıya ötürüldükcə tələbat artır.

QLOBALLAŞMA ŞƏRAİTİNDƏ XARİCİ TİCARƏT-İQTİSADİ ƏLAQƏLƏRİN TƏNZİMLƏNMƏSİ ZƏRURİLİYİ

Həsənov M.V.
Naxçıvan Dövlət Universiteti
E-mail: meherremhesenov37@gmail.com

Xarici və yerli iqtisadi ədəbiyyatların araşdırılmasının məntiqi davamı olaraq söyləmək olar ki, qloballaşma şəraitində milli iqtisadiyyatların inkişafı məsələsinin müvəffəqiyyətli həlli xarici ticarət əlaqələrinin genişləndirilməsindən, lokal iqtisadi sistemlərin dünya təsərrüfat sisteminə inteqrasiyasından asılıdır. Qeyd edək ki, milli iqtisadiyyatların xarici ticarət əlaqələrinin coğrafiyasının genişlənməsi və əmtəə nomenklaturasının artması bir tərəfdən ölkə əhalisinin tələbatlarının ödənilməsinə, iqtisadiyyatın strukturunun

müasir dövrün tələblərinə uyğun formalaşdırılmasına, çağdaş idarəçilik təcrübəsinin qazanılmasına, mütərəqqi texnika və texnologiyanın istehsala tətbiqinə, digər tərəfdən ölkənin malik olduğu prioritetlərin beynəlxalq əmək bölgüsündə reallaşdırılmasına imkan verir. Parantez açaraq nəzər diqqətinə çatdıraq ki, öz növbəsində beynəlxalq əmək bölgüsünün dərinləşməsi xarici ticarətin inkişafının maddi bazasını təşkil edir.

Dünya təcrübəsinə əsaslanaraq qeyd edək ki, xarici ticarətin inkişafı dünya təsərrüfatında maddi nemətlər istehsalı və xidmətlərdə baş verən bütün prosesləri əks etdirir. Həmçinin xarici ticarət mallar və xidmətlərin hər hansı bir ölkənin milli sərhədlərindən keçməsi səbəbi ilə onun xarici dövlətlərlə qarşılıqlı əlaqəsini əks etdirir. Xarici ticarət dövlətə milli malların və xidmətlərin xaricdə satışından əlavə gəlir əldə etməsinə, daxili bazarı təmin etməsinə, yerli resursların məhdudluğu problemini aradan qaldırmasına, eyni zamanda, dünya bazarında müəyyən məhsulların təchizində ixtisaslaşaraq əmək məhsuldarlığının artmasına imkan verir . Xarici ticarətin istiqamətini elmi texniki tərəqqi və beynəlxalq iqtisadi münasibətlərin qloballaşması şərtləndirir. Xarici ticarət təsərrüfat həyatının beynəlmilləşməsi prosesinin tamlığını əks etdirməklə xalqları və qitələri yaxınlaşdırır, onlar arasında dostluq və işgüzar münasibətlərin inkişafına səbəb olur . Məhz bu baxımdan xarici iqtisadi əlaqələrin əsasını təşkil edən xarici ticarətin arealının genişləndirilməsi Azərbaycan Respublikasında iqtisadiyyatın formalaşdırılması istiqamətində həyata keçirilən islahatların strateji addımlarından biridir.

Dünya təsərrüfat sisteminə səmərəli iqtisadi inteqrasiya xarici ticarətin inkişafı nəticəsi olub kortəbii şəkildə baş vermir və çevik dövlət tənzimlənməsi sisteminin yaradılmasını nəzərdə tutur. Bu zaman belə bir sual meydana çıxır: "Dünyada, o cümlədən respublikamızda xarici ticarətin dövlət tənzimlənməsi nədən önəmlidir?". Belə ki, Azərbaycan Respublikası qlobal dünyanın bir hissəsi olduğundan qloballaşma prosesi respublikamızın beynəlxalq əlaqələrinin səmərəli inkişafına şərait yaratmaqla əmtəə və xidmətlərin beynəlxalq standartlara uyğunlaşdırılmasını, texniki səviyyəsinin yüksəldilməsini təmin etsə də, qlobal şirkətlərin və iqtisadi birliklərin şəxsi mövqedən çıxış edərək atdıqları addım bəzən cəmiyyətimizin məqsəd və mənafeyi ilə uzlaşmamaqdadır. Başqa sözlə desək, qlobal şirkətlərin gəlir əldə etmək məqsədinə xidmət edən investisiya qoyuluşu qərarlarında onların şəxsi mənafeyi ilə cəmiyyətin maraq və mənafeləri toqquşmaqdadır. Belə ki, qlobal şirkətlərin qısa müddətdə məhsuldar olan və dolayısı ilə yüksək gəlir əldə edə biləcəyi sahələrə meyl etməsi, investisiya qoyuluşlarını daha çox mərkəzi regionlara yönəltməsi regionlararası sosial-iqtisadi inkişaf fərqlərinin artmasına şərait yaratmışdır ki, bu nöqteyi-nəzərdən xarici ticarət-iqtisadi əlaqələrin tənzimlənməsi zəruridir.Digər bir tərəfdən dövlət ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi və ümummilli maraqlarının mühafizə olunması məqsədilə xarici ticarətin dövlət tənzimlənməsini həyata keçirir. Qeyd edək ki, bütün dünya ölkələrində xarici ticarətin dövlət tənzimlənməsi mövcuddur və xarici ticarətin tənzimlənməsi hər bir dövlətin daxili və xarici siyasətindən, müasir dünya təsərrüfat sistemindəki mövqeyindən və s. asılıdır və qarşıya qoyulmuş konkret məqsəd və vəzifələrə uyğun olaraq müəyyən olunur .

Yuxarıda qeyd olunanlara əsaslanaraq söyləmək olar ki, dövlətin xarici ticarət sferasını tənzimləməsi funksiyası institusional, proqram, pul-kredit, vergi, qiymət və s. tənzimləmə formaları ilə sıx bağlıdır. Məhz bu baxımdan xarici ticarətin dövlət tənzimlənməsinə müvafiq strukturların ölkə maraqlarının və milli təhlükəsizliyin təmini üçün istifadə etdikləri müxtəlif iqtisadi münasibətlərə təsir formaları, alətləri və metodlarının məcmusu kimi baxmaq olar. Dövlət tənzimlənməsi hökumət qanunları, fərman və qərarlarının qəbulu kimi metodlarla həyata keçirilir. Parantez açaraq qeyd edək ki, respublikamızda xarici ticarət əməliyyatları yerli qanunlarla yanaşı, beynəlxalq konvensiya və sazişlərlə də tənzimlənir. Belə ki, xarici ticarətin tənzimlənməsində dövlətlər aşağıdakı təsir vasitələrindən istifadə edir: dövlətlərarası razılaşmalar və müqavilələr; gömrük tarifləri; ixrac və idxalı stimullaşdıran tədbirlər; məhdudlaşdırıcı şərtlər.

Dünya ticarət təcrübəsində xarici ticarətdə alqı-satqı əməliyyatlarının tənzimlənməsi əsasən aşağıdakı mənbələr üzərində tətbiq olunur:

-"Malların beynəlxalq alqı-satqı müqavilələri haqqında" Birləşmiş Millətlər Təşkilatının konvensiyası;

-"Malların beynəlxalq alqı-satqısında iddia müddətləri haqqında" Birləşmiş Millətlər Təşkilatının konvensiyası;

- "Malların beynəlxalq alqı-satqısı müqavilələrinə tətbiq edilən hüquqlar haqqında" konvensiya;

- Digər ikitərəfli və çoxtərəfli müqavilələr və s.

İqtisadçı alimlərin elmi araşdırmalarına əsaslanaraq qeyd edə bilərik ki, xarici ticarət-iqtisadi əlaqələrin tənzimlənməsinin nəzəri-metodoloji və praktiki problemləri həmişə iqtisad elminin diqqət mərkəzində olmuşdur. Belə ki, tarixi təkamül prosesində iqtisadçı alimlərin xarici ticarətin tənzimlənməsi ilə bağlı fikirləri ümumiləşdirilib iki istiqamət üzrə inkişaf etdirilmişdir: fritrederçilik (azad ticarət) və proteksionizm (himayəçilik).

Bu haqda verdiyimiz məlumatlara əlavə olaraq qeyd edək ki, azad ticarət tərəfdarlarının fikrincə, fritrederçilik siyasəti sərbəst ticarətin təmin edilməsi olub, burada gömrük orqanları sadəcə gömrük ərazisindən keçən malların və nəqliyyat vasitələrinin qeydiyyatını aparan orqan rolunu oynayır. Bu siyasət xarici ticarət dövriyyəsini idxal və ixrac rüsumları ilə məhdudlaşdırmır, əksinə iqtisadiyyatdakı səmərəlilik itkilərinin, istehsal və istehlak pozuntularının qarşısını alır. Hələ XIX əsrdə azad ticarət siyasəti Böyük Britaniyanın rəsmi xarici iqtisadi siyasəti olmuşdur. Yaşadığımız çağdaş dövrdə isə Çinin tərkibində olan və fərqli iqtisadi siyasət həyata keçirən Honkonq tarif və ya idxal kvotalarına malik olmayan yeganə iqtisadiyyatdır. Aparılan araşdırmaya əsasən deyə bilərik ki, xarici ticarətin tənzimlənməsi istiqamətlərindən biri olan azad ticarət siyasəti yüksək effektli iqtisadiyyata sahib olan ölkələrə çox uyğundur. Çünki bu ölkələrin sahibkarları xarici rəqabətə davam gətirə biləcək qədər güclü potensiala malikdirlər.

Xarici ticarət əməliyyatlarının tənzimlənməsinin dünya təcrübəsinə nəzər yetirdikdə, proteksionist siyasətdən daha çox istifadə olunduğunun şahidi oluruq. Xarici ticarət əməliyyatlarının proteksionist siyasət əsasında tənzimlənməsinin dünya dövlətlərində geniş vüsət tapmasının başlıca səbəbi dünya ölkələrinin böyük əksəriyyətinin iqtisadi inkişaf səviyyələrinin aşağı olmasıdır ki, bu da bu ölkələrin daxili bazarlarına həddindən artıq daxil olan xarici malların qarşısını almaq üçün tətbiq edilən müdafiə tədbiridir. Qeyd edək ki, hətta iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin də müəyyən sahə və müəssisələrinin dövlət tənzimləməsinə ehtiyacları olur. Xarici ticarətin tənzimlənməsi istiqamətlərindən biri olan proteksionizm siyasətinin real məqsədi dövlət büdcəsini gəlirlərlə təmin etməkdən, yerli sənaye sahələrini idxal ilə rəqabətin nəticəsi olan aşağı qiymətlərdən mühafizə etməkdən və ölkənin iqtisadi təhlükəsizliyini qorumaqdan ibarətdir. Tarif və qeyri-tarif metodları ilə xarici ticarətin tənzimlənməsini nəzərdə tutan proteksionist siyasət ölkə iqtisadiyyatının dayanıqlı inkişafını təmin edir və əmtəənin qiyməti ilə təklif səviyyəsi arasındakı düz mütənasiblik kontekstindən yanaşaraq yerli istehsalın öz fəaliyyətini genişləndirməsini stimullaşdırır.

FİRMADAXİLİ PLANLAŞDIRMA SİSTEMİNİN TƏŞKİLİ İSTİQAMƏTLƏRİ

Həsənov N.S.
Sumqayıt Dövlət Universiteti
E-mail:natig.h@inbox.ru

Müəssisənin işində bütün mövcud resurslardan istifadə onun dəqiq müəyyənləşdirilmiş məqsədi və ona nail olmaq proqramı olmadıqda istənilən nəticəni verməyə bilər. Firmadaxili planlaşdırma prosesi müəssisənin qısa və uzunmüddətli məqsədlərinə nail olmaq üçün effektiv proqramın formalaşdırılmasına yönəldilmişdir. İstənilən müəssisə ümumi iqtisadi amillərdən və fəaliyyətlərinin sahədaxili şəraitindən asılı olaraq bu və ya digər planlaşdırma formasının seçilməsini təmin edir, firmadaxili planın işlənib hazırlanmasının əsas müddəalarını və metodoloji yanaşmalarını müəyyənləşdirir.Müasir iqtisadi şəraitdə səmərəli planlaşdırma sistemi obyektiv zərurətdir, müəssisənin idarə edilməsinin ayrılmaz və vacib elementidir. Planlaşdırma müəssisənin fəaliyyətinin bütün sahələrini əhatə etməli və onun idarə edilməsinin səmərəliliyinin artırılmasına yönəldilməlidir.Firmadaxili planlaşdırma, düzgün olaraq, effektiv idarəetmənin təşkili üçün ən çox vaxt aparan, vacib fəaliyyət sahələrindən biri adlandırıla bilər. Məqsədlərin qoyulması prosesi son dərəcə çətin olduğundan, bazar mühitinin qeyri-müəyyənliyinin mövcud şəraitində müvafiq proqramın formalaşdırılması da daxil olmaqla, müəssisənin fəaliyyət istiqamətinin yekun seçimini tələb edir. Planlaşdırma müəssisənin rəqabət qabiliyyətini və bazarda iqtisadi təhlükəsizliyini artırmaq üçün onun məhdud resurslarından istifadənin səmərəliliyini maksimuma çatdırmağa yönəlmiş prinsiplər, forma və metodlar toplusunu birləşdirən müəssisənin idarəetmə sistemində əsas həlqədir. Konkret planın məzmunu müəssisənin miqyasına uyğun olmalı, sənayenin və məqsədli bazarların xüsusiyyətlərini, əhatə etdiyi dövrü nəzərə almalı, məhsulların rəqabət və istehsal qabiliyyətinin mütərəqqi artımını təmin etməli, tələbin strukturunda baş verən dəyişikliklərə uyğunlaşdırılmalıdır.

Firmadaxili planlaşdırmanın effektiv sisteminin qurulması bütün zənciri - xammalın qəbulundan məhsulun satışına qədər birləşdirən yanaşma çərçivəsində nəzərdən keçirilməlidir. Firmadaxili planlaşdırma prosesi aşağıdakı ardıcıllıqla reallaşdırılmalıdır: müəssisənin inkişafı üçün strateji planın hazırlanması; fəaliyyət nəticələrinin planlaşdırılması; resursların planlaşdırılması; planlı və faktiki göstəricilərin müqayisəsi.

Kənarlaşma aşkar edilərsə, tənzimləmə aparılır və bunun nəticəsində planlar düzəldilir. Faktiki göstəricilər planlaşdırılanlara nə qədər yaxındırsa, plan bir o qədər ətraflı və etibarlıdır.Firmadaxili planlaşdırmanın tətbiqi aşağıdakı mühüm faydaları yaradır: 1. Qarşıdan gələn əlverişli şərtlərin tətbiqi üçün

ehtimal hazırlığı yaradır; 2. Yaranan çətinlikləri aydınlaşdırır;3. Rəhbərləri gələcək işlərində öz qərarlarını reallaşdırmağa həvəsləndirir; 4. Müəssisədə fəaliyyətin əlaqələndirilməsini təkmilləşdirir; 5. Menecerlərin təhsil hazırlığının artırılması üçün ilkin şərtləri formalaşdırır; 6. Müəssisənin zəruri informasiya ilə təmin edilməsi imkanlarını artırır; 7. Resursların ən rasional bölüşdürülməsini təşviq edir; 8. Müəssisədə nəzarəti təkmilləşdirir.

İstənilən müəssisənin səmərəli işi firmadaxili planlaşdırmanın hansı dərəcədə təkmilləşdirilməsindən asılıdır. Müəssisə rəhbərliyi firmadaxili planlaşdırma sistemini təkmilləşdirərkən tətbiq edilən dəyişikliklərə olan ehtiyacı və onların təşkilat üçün faydalı olub olmadığını qiymətləndirməlidir. Pis qərarların əksəriyyəti həm müəssisənin daxili mühitini, həm də xarici mühiti düzgün nəzərə almayan insanların səriştəsizliyindən irəli gəlir. Müəssisə rəhbərinin istehsalın və nəticədə mənfəətin azalmasına səbəb olacaq qərarlar qəbul etməsi yersizdir. Müəssisədə firmadaxili planlaşdırmanın təşkili üzrə işin təkmilləşdirilməsi planlaşdırma və təsərrüfat xidmətlərinin rəhbərləri və mütəxəssisləri tərəfindən reallaşdırılır. Kiçik müəssisələrdə adətən idarəetmə funksiyalarının ciddi bölgüsü yoxdur və menecerlər özləri planlaşdırma prosesində iştirak edirlər və ya onu təşkil edirlər. İri müəssisələrdə cari və perspektiv planların hazırlanması üzrə işlər, bir qayda olaraq, mərkəzləşdirilməmiş şəkildə aparılır. Şöbələr səviyyəsində gələcəkdə şirkətin gələcək planının əsasını təşkil edə biləcək biznes təklifləri irəli sürülür. Beləliklə, firmadaxili planların hazırlanması sxeminin düzgün seçilməsi istənilən müəssisədə planlaşdırma sisteminin təkmilləşdirilməsinin ilk istiqamətlərindən biridir.

Müəssisədə firmadaxili planlaşdırma sisteminin təkmilləşdirilməsi istiqamətlərini aşağıdakı şəkil vasitəsilə göstərə bilərik.



Bazar şəraitində firma elə planlaşdırma sxemini seçməlidir ki, istehsal və satış planlarını və ilk öncə mənfəət planını ən yaxşı şəkildə inkişaf etdirməyə və operativ nəzarət etməyə imkan versin.

Beləliklə, bizim nöqteyi-nəzərimizdən səmərəli firmadaxili planlaşdırma dedikdə, müəssisənin planlaşdırma sisteminin aşağıdakı meyarlara cavab verən təşkili başa düşülməlidir: firmadaxili planlaşdırma sisteminin məqsədləri qrafik üzrə yerinə yetirilir; nəticələr və məsrəflərin nisbəti üzrə planlaşdırılmış tələblər yerinə yetirilir; planlaşdırarkən səmərəlilik prinsipinə əməl olunur.

Ümumilikdə, effektiv firmadaxili planlaşdırma sistemi, hərəkətləri planlaşdırma xərclərinin optimal səviyyəsində müəssisənin inkişaf məqsədlərinə nail olmağa yönəlmiş, bir-biri ilə əlaqəli elementlər toplusudur.

BEYNƏLXALQ TİCARƏTİN İNKİŞAFINDA GÖMRÜK TARİF SİYASƏTİNİN ROLU

Hüseynov Ş.Ə.
Sumqayıt Dövlət Universiteti
E-mail: huseynov.sakir@gmail.com

Beynəlxalq ticarət bütün dünya ölkələrinin xarici ticarətinin məcmusunu təşkil edən beynəlxalq əmtəə-pul münasibətləri sahəsidir. Hələ heç bir ölkə özünü dünya iqtisadi sistemindən təcrid edərək sağlam iqtisadiyyat yarada bilməyib. Dünyada istənilən ölkənin iqtisadi uğuru beynəlxalq ticarətə əsaslanır. Müxtəlif ölkələrin əmtəə istehsalçıları arasında BƏB əsasında yaranan qarşılıqlı əlaqənin əsas forması kimi məhz beynəlxalq ticarət çıxış edir. Beynəlxalq iqtisadi fəaliyyətin qloballaşması və dövlətlərin artan qarşılıqlı asılılığı obyektiv olaraq beynəlxalq ticarətin tənzimlənməsi sistemində ticarət-iqtisadi əlaqələrin çoxtərəfli əlaqələndirilməsinin rolunun və müvafiq beynəlxalq təşkilatların statusunun artmasına səbəb olur. Çoxtərəfli tənzimləmə müasir BƏB-in üstünlüklərindən daha dolğun istifadəyə kömək edir. Beləliklə, beynəlxalq ticarətin aşağıdakı inkişaf istiqamətlərini ayırmaq olar: 1. Beynəlxalq ticarət dünyanın əksər ölkələrinin ümumi daxili iqtisadi inkişaf templərindən daha sürətlə artır. 2. Beynəlxalq ticarətin əsas axını inkişaf etmiş ölkələrin qarşılıqlı ticarətidir. 3. Beynəlxalq ticarətin əmtəə strukturu dəyişir: beynəlxalq ticarətdə iştirak edən bir sıra mallar şaxələnir; hazır məhsulların xüsusi çəkisi artır; xammal və ərzaq mallarının beynəlxalq ticarətinin payı azalır.

Beynəlxalq ticarətin inkişafında gömrük orqanları önəmli rol oynayır. Gömrük orqanlarının əsas vəzifələrinə aşağıdakılar daxildir:1. Gömrük siyasətinin hazırlanması və reallaşdırılmasının təkmilləşdirilməsi. 2. Gömrük sərhədindən keçirilən mallara münasibətdə iqtisadi siyasət tədbirlərinin hazırlanmasında və həmin tədbirlərin reallaşdırılmasında iştirak. 3. Öz səlahiyyətləri daxilində ölkənin iqtisadi maraqlarının təmin edilməsi və iqtisadi təhlükəsizliyinin qorunması. 4. Ölkə üçün strateji və digər mühüm məhsulların ixracına nəzarətin reallaşdırılması. 5. Xarici ticarətin, iqtisadi əlaqələrin gömrük tənzimlənməsi tədbirlərinin formalaşdırılması. 6. Gömrük vergi, rüsum və digər ödənişlərinin alınması. 7. Gömrük sərhədindən ticarətin sürətləndirilməsinə şərait yaradan amillərin tətbiqi, öz ixtisasları çərçivəsində valyuta nəzarətinin təkmilləşdirilməsi. 8. Gömrük işi sahəsində dövlət orqanları, müəssisə, idarə və təşkilatlar üçün elmi-tədqiqat işlərinin aparılması, məsləhətlərin verilməsi, bu sahədə mütəxəssislərin hazırlanması və onların ixtisaslarının artırılması.Gömrük orqanlarının ən ümdə vəzifəsi səmərəli gömrük siyasətinin hazırlanmasıdır. Dövlət gömrük siyasəti dövlətin xarici iqtisadi siyasətinin tərkib hissələrindən biridir və malların və nəqliyyat vasitələrinin, habelə əmək resurslarının gömrük sərhədindən keçirilməsini tənzimləyən tədbirlər, prosedurlar və əməliyyatlar sistemini müəyyən edir. Dövlət gömrük siyasəti dövlətin xarici iqtisadi fəaliyyətinin (XİF) konsepsiyası kimi aşağıdakı hərəkətləri təmin edir: milli təhlükəsizliyin təmin edilməsi; iqtisadi müstəqilliyin qorunması; milli istehsalın inkişafı; ətraf mühitin mühafizəsi; büdcənin gəlirli hissəsinin formalaşdırılması.

Dövlətin gömrük siyasəti dövlətin strategiyası və ölkə iqtisadiyyatının formalaşması perspektivləri, konstitusiyanın hüquq normaları, dövlət orqanlarının qanunları və digər normativ hüquqi aktları, gömrük siyasətinin ümumi qəbul edilmiş prinsipləri və normaları əsasında hazırlanır. Gömrük siyasətinin öz tarixi inkişafı var və müxtəlif dövrlərdə fərqli şəkildə formalaşıb. Gömrük siyasəti xarici iqtisadi siyasətin ən mühüm elementlərindən biridir, gömrük münasibətləri isə XİF-in əsas tərkib hissələridir. Gömrük hüquq münasibətləri XİF-in reallaşdırılması zəncirinin həlqəsidir və öz növbəsində müəyyən ölkədə gömrük münasibətlərinin formalaşmasının xüsusiyyətləri ilə ticarət əlaqələrinin inkişafı istiqamətlərinə və prioritetlərinə həlledici təsir göstərir. Gömrük siyasəti iqtisadi münasibətlərin dövlət tənzimlənməsinin əsas alətlərindən biridir. Gömrük siyasəti həm də iqtisadi fəaliyyətin ictimai münasibətlərinin bütün spektrini və onların hüquq normalarına uyğunlaşdırılmasını nəzərdə tutur. Dövlətin gömrük siyasətində milli və dövlət maraqlarının üstünlüyü nəzərə alınmaqla XİF-in metodoloji tənzimlənməsi üçün siyasi rəhbərlərin müəyyən məqsədləri olmalıdır. Buna uyğun olaraq gömrük siyasəti bütün dövlət orqanlarının səylərini birləşdirir. Onun əsas əhəmiyyəti subyektlərin xarici ticarət fəaliyyətini tənzimləməkdə maraqlı olan dövlət hakimiyyətinin bütün qanunvericilik və icra strukturlarının əməl etməli olduğu vəzifələri müəyyən etməkdir.

Bazar münasibətlərində gömrük tənzimlənməsində ən mühüm element iqtisadi tənzimləmədə əsas rol oynayan gömrük tarif siyasətidir. Xarici ticarətin əlaqələndirilməsi üçün gömrük tarif siyasəti malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən idxalı və ixracı üçün aydın normaların müəyyən edilməsi məqsədi ilə hazırlanır. Müasir dünyada ticarətin gömrük tarif tənzimlənməsi dövlətin milli iqtisadiyyatını qorumaq üçün istifadə edildiyi üçün ölkənin iqtisadi və siyasi fəaliyyət mexanizmində önəmli rol oynayır. Gömrük tarif siyasəti də xarici ticarət siyasəti zəncirinin mühüm həlqəsidir. Gömrük tarif siyasəti tarif güzəştlərinin,

kvotaların və üstünlüklərin istifadəsinə cavabdeh olan gömrük rüsumlarının dərəcələrinin tənzimlənməsindən ibarət iqtisadi və hüquqi tədbirlər sistemidir. Sərhədlərdən malların daşınmasının koordinasiyası, ölkələr arasında malların tədarükü, həmçinin tərəfdaş ölkələrin iqtisadi və siyasi vəziyyətinə təsir etmək imkanı onun üzərinə düşür. Gömrük tarif siyasətinin əsas aləti ölkə büdcəsinin qeyri-vergi gəlirləri qrupuna daxil olan gömrük rüsumlarıdır. Onlar büdcə gəlirlərinin formalaşmasında mühüm kateqoriyadır.

Gömrük tarif siyasətinin iki əsas növü var: Proteksionizm - idxal olunan mallara yüksək gömrük rüsumlarının tətbiqi üzərində qurulub. Beləliklə, dövlət yerli istehsalçılar üçün rəqabəti azaltmağa çalışır; Azad ticarət - bu siyasət gömrük rüsumlarının minimum səviyyəsinin müəyyən edilməsi yolu ilə tətbiq edilir. Xarici malların daxili bazara idxalını stimullaşdırmaq məqsədi daşıyır. Tariflər xarici ticarətin tənzimlənməsinin ən geniş yayılmış üsullarıdır. Tariflərin müəyyən edilməsində məqsəd əlavə maliyyə resursları yaratmaq, yerli istehsalçıları qorumaq və xarici ticarət resurslarını tənzimləməkdir. Tarif tənzimlənməsinin üstünlüyü ondan ibarətdir ki, o, malların ixrac və idxal hərəkətlərinə təsir göstərə bilən çevik mexanizmdir. Tarif dərəcələrinin dəyişməsi müxtəlif növ malların idxal və ixracının vəziyyətinə müxtəlif üsullarla təsir göstərməyə imkan verir.

Gömrük rüsumları iki əsas funksiyanı yerinə yetirir: Fiskal - büdcə gəlirlərinin formalaşması; Proteksionizm - yerli istehsalçıların xarici rəqabətdən qorunması.

Gömrük tarif siyasətinin məqsədləri aşağıdakılardan ibarət ola bilər: ixrac və idxalın sabit nisbətinin təşviqi; yerli istehsalçılar tərəfindən rəqabət qabiliyyətinin artırılması; xarici investorlardan investisiyaların cəlb edilməsi və s.Gömrük tarif siyasətin məqsədlərini təkmilləşdirmək üçün gömrük qanunvericiliyi alətlərindən istifadə dünya praktikasında bir qayda olaraq qəbul edilir.

Gömrük tarif siyasəti malların idxal və ixracı arasında rasional nisbətin saxlanmasına, istehsalçıların rəqabət qabiliyyətinin artırılmasına, xarici ticarətin əmtəə strukturunun təkmilləşdirilməsinə, iqtisadiyyatda investisiya proseslərinin stimullaşdırılmasına, o cümlədən birbaşa xarici investisiyaların cəlb edilməsinə yönəldilməlidir. Gömrük tarifi iqtisadi fəaliyyəti stimullaşdırmaq və birbaşa xarici investisiyaların cəlb edilməsi məqsədilə şərait yaratmaq kimi mühüm tənzimləmə funksiyasını özündə saxlayır. Qarşıdakı dövrdə iqtisadiyyatın sahələrinin rəqabətqabiliyyətli qiymətlərlə xammal, material və investisiya malları ilə təmin edilməsi zərurəti nəzərə alınmaqla tariflərin tənzimlənməsi prinsipinin reallaşdırılmasını davam etdirmək lazımdır.

TURİZMİN İNKİŞAFINDA MALİYYƏ MEXANİZMLƏRİNİN ROLUNUN QİYMƏTLƏNDİRİLMƏSİ

Hüseynova A.B.
Sumqayıt Dövlət Unversiteti
Email:ay.huseynova.00@mail.ru

Mövzunun aktuallığı müasir şəraitdə turizmin hər hansı bir ölkənin iqtisadiyyatının və sosial sferasının inkişafı üçün son dərəcə vacib olması ilə təyin edilir. Turizmin sənayesini maliyyələşdirilməsi üçün səmərəli fəaliyyət göstərən maliyyə mexanizmi mövcud olduqda, onun inkişafındakı problemlərin əksəriyyətinin qarşısını almaq olar.Maliyyə siyasətlərini uğurla həyata keçirmək və maliyyə mexanizminlərindən istifadə olunur. İqtisadi və sosial inkişaf üçün əlverişli şəraitin təmin edilməsi üçün cəmiyyətin istifadə etdiyi sistemdir. Maliyyə mexanizminə maliyyə münasibətlərinin təşkilinin növləri, forma və üsulları, onların kəmiyyətcə müəyyənləşdirilməsi üsulları daxildir. Maliyyə mexanizmlərinin strukturu kifayət qədər mürəkkəbdir. Buraya maliyyə münasibətlərinin müxtəlifliyinə uyğun gələn müxtəlif elementlər daxildir. Məhz maliyyə münasibətlərinin çoxluğu onların təşkilinin çoxlu sayda növlərinin, formalarının və üsullarının istifadəsini daha müəyyən edir. Dövlət özünün icra və qanunvericilik orqanlarının simasında iqtisadi qanunların fəaliyyətinin, maliyyə inkişafı qanunlarının, iqtisadi və maliyyə siyasətinin məqsədlərinin diqqətlə öyrənilməsi əsasında dövlət büdcəsinin paylanması üsullarını müəyyən edir. ictimai məhsul, milli gəlir, yığılan pul forması, ödəniş növlərini nəzərdə tutur, dövlət maliyyə resurslarından istifadə prinsiplərini və istiqamətlərini müəyyən edir və s.Maliyyə mexanizminlərinin hər bir sahəsi və ayrıca həlqəsi vahid bir bütövün tərkib hissəsidir. Onlar bir-birinə bağlıdır və bir-birindən asılıdır. Bununla belə, sferalar və keçidlər nisbətən müstəqil fəaliyyət göstərir. Bu hal maliyyə mexanizminin tərkib hissələrinin daim əlaqələndirilməsini zəruri edir. Maliyyə mexanizminin tərkib hissələrinin daxili əlaqəsi onun effektivliyinin vacib şərtidir.

Maliyyə mexanizminin sferaları və həlqələri mürəkkəblik dərəcəsinə və ayrı-ayrı elementlərin şaxələnməsinə görə fərqlənir. Məsələn, büdcə mexanizmi bir çox vergi növlərinin sistemi, müxtəlif məqsədyönlü vasitələrin və maliyyələşdirmə üsullarının mövcudluğu ilə xarakterizə olunur. Müəssisə və təşkilatlarda ayrı-ayrı pul formaları arasında əlaqə müəyyən edilir, mənfəət bölüşdürülür, fondlar formalaşır və istifadə olunur. Sığorta təşkilatlarında geniş inkişaf etmiş ehtiyat fondları sistemi mövcuddur.

Maliyyə mexanizminin elementlərinin - maliyyə münasibətlərində təşkil formalarının, növlərinin, üsullarının birləşməsi onun hər bir elementinin kəmiyyət parametrlərini təyin etməklə hərəkətə gətirilən "maliyyə mexanizminin qurulmasını" təşkil edir, yəni. çıxarılması dərəcələrinin və normalarının, vəsaitlərin həcminin, xərclərin səviyyəsinin və s. müəyyən edilməsi Kəmiyyət parametrləri və onların müəyyən edilməsinin müxtəlif üsulları maliyyə mexanizminin ən mobil hissəsidir. Onlar daha tez-tez düzəlişlərə məruz qalırlar və istehsal şəraitindəki dəyişikliklərə həssaslıqla reaksiya verirlər. Məsələn, mənfəətin bölüşdürülməsi üsulları və onun müəssisə ilə dövlət arasında bölüşdürülməsinin nisbətləri dəfələrlə dəyişdirilmiş, vergi dərəcələri düzəldilmişdir və s.Dövlət maliyyə mexanizmini formalaşdıraraq onun həmin dövrün maliyyə siyasətinin tələblərinə tam cavab verməsini təmin etməyə çalışır, bu da qarşıya qoyduğu məqsəd və vəzifələrin tam şəkildə həyata keçirilməsinin açarıdır. Eyni zamanda, maliyyə mexanizminin və onun müxtəlif elementlərinin şəxsi və kollektiv maraqlarla ən tam şəkildə əlaqələndirilməsinə daim səy göstərilir ki, bu da maliyyə mexanizminin səmərəliliyinin açarıdır. Səyahət şirkətinin maliyyəsi təsərrüfat subyektinin maliyyəsidir. Səyahət agentliyinin vəzifələrinə vəsaitlərin toplanması və istehsal, xidmət və maliyyə fəaliyyəti üçün istifadə edilməsi, mənfəət əldə edilməsi və maliyyə sabitliyinin təmin edilməsi daxildir. İstehsal və xidmət prosesində bir çox maliyyə münasibətləri yaranır: turoperatorla turagent, başqa turizm agenti ilə turagent, kirayə və kommunal xərcləri ödəmək üçün mənzil-kommunal xidmətləri olan turizm agentlikləri, işçiləri ilə səyahət agentlikləri, səyahət. bank sistemi ilə agentliklər, büdcə və qeyri-büdcə fondları ilə turizm agentlikləri və s.

Turizmdə yuxarıda gördüyümüz əlaqələrin xüsusiyyətləri vardır. Daha ətraflı nəzərdən keçirək.

1. Turizm agentliklərinin maliyyə resursları xüsusi tərkibi və strukturu ilə xarakterizə olunur. Bu turizm bazarında turizm agentliklərinin və turoperatorların olması ilə təşkil olunur. Maliyyə resurslarının, eləcə də onların mənbələrinin tərkibinin və strukturunun özəlliyi turizm bazarında subyektlər arasında pul və borc axınının özəlliyi ilə bağlıdır. Bu, turist məhsulunun satış anı ilə istehlak aktı arasında əhəmiyyətli vaxt fərqinin olması ilə təyin edilir.

2. Turizm agentliklərində maliyyə resursları mənbələrinin xüsusi tərkibi və strukturu ilə xarakterizə olunur. Maliyyələşdirmə əsasən borc vəsaitləri (2/3-dən çox) və qismən isə öz vəsaitlərinin hesabına həyata keçirilir. Borc götürülmüş vəsait yoxdur. Bu, turizm agentliyinin qəbul etməsi ilə bağlıdır.

3. Maliyyə münasibətlərinin özəlliyi həm də turizm məhsullarının qiymətqoyma xüsusiyyətləri ilə bağlıdır. Turist məhsulunda qiymətin hesablanması standart hesablama əsasında aparılır bu da turun maya dəyərini deyil, onun satış qiymətini müəyyən etməyə başlayır. Standart maya dəyərinin tətbiqi adətən turizm şirkətlərinin gəlirlilik səviyyəsində əhəmiyyətli dalğalanmalara səbəb olur ki, bu da onların maliyyə vəziyyətini əks etdirir.

Turizm bazarının hazırkı inkişaf mərhələsində iki tendensiya var: bazarın siyasi və iqtisadi amillərin təsirinə həssaslığı və həm ölkəmizdə, həm də xaricdə əlverişsiz mühitdə öz həcmini tez bərpa etmək qabiliyyəti. Son zamanlar xarici ölkə vətəndaşları tərəfindən Azərbaycana ziyarət, etnik və görməli yerlər məqsədilə səfərlərə tələbat artmaqdadır.

Nəticə: Maliyyə mexanizmində maliyyə resurslarının formalaşması və istifadəsi prosesinin təşkili, planlaşdırılması, idarə edilməsi və nəzarətində ifadə olunan maliyyə rıçaqları toplusunun dinamik fəaliyyət sistemidir. Maliyyə mexanizminin strukturuna təşkilati, planlaşdırma və stimullaşdırma aiddir. Maliyyə mexanizmində turizm fəaliyyətinin səmərəliliyinə təsiri ilk növbədə turizm agentliyinin dövriyyə vəsaitlərinin dövriyyəsinin sürətləndirilməsində, xalis mənfəətin formalaşmasında və turizm fəaliyyətinin rentabelliyinin artırılmasında özünü göstərir. Turizm şirkətinin maliyyə resurslarından istifadəsinin mühüm göstəricisi onun gəlirliliyidir. Turizm şirkətinin maliyyə sabitliyi əsasən iqtisadi cəhətdən əsaslandırılmış gəlirlilik səviyyəsi ilə xarakterize olunur. Turizmdə maliyyə mexanizminin fəaliyyətinin təkmilləşdirilməsi müvafiq yanaşmanın işlənib hazırlanmasını tələb edir. Bu yanaşmanın istiqamətlərindən biri olan maliyyə mexanizminin qiymətini artırmaqdır. Turizm biznesinin nəticələri aydın maliyyə planlaşdırması əsasında proqnozlaşdırılmalıdır. Turizm şirkətinin maliyyə vəziyyəti əsasən gəlirdən asılıdır, yəni. satılan turizm məhsulu üçün vəsaitin daxil olduğu məbləğdən. Gəlir əsasən şirkətin reytinqi ilə xarakterize olunur.

Xətti yanaşma ilə, bazarın və iqtisadi vəziyyətin təsiri, sahibkarların motivasiyası, innovasiyanın radikal xarakteri, məhsulun həyat dövrünün mərhələləri və s. kimi innovasiya fəaliyyətinin elementləri və amilləri tədqiqatçılar tərəfindən praktiki olaraq nəzərə alınmadı.Zəncirvari yanaşmada innovasiyanın uğur və ya uğursuzluğunu müəyyən edən əsas amil innovasiya dövrünün müxtəlif mərhələləri arasında mövcud əlaqələrin effektivliyidir. Yəni zəncir modelində elmin rolu əsaslı şəkildə dəyişir. O, təkcə innovativ ideyaların mənbəyi kimi deyil, həm də innovasiya dövrünün istənilən mərhələsində yarana biləcək problemlərin həlli üçün resurs kimi çıxış edir.

AZƏRBAYCANDA İAŞƏ MÜƏSSİSLƏRİNDƏ MARKETİNQ XİDMƏTİNİN SƏMƏRƏLİ TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ

İsmayılova E.E.
OdlarYurdu Universiteti
E-mail: elnara.ismayilova.99@mail.ru

Beynəlxalq iqtisadi inteqrasiya ayrı-ayrı ölkələrin ticarət-iqtisadi əlaqələrinin başlıca qarşılıqlı fəaliyyət sferaları və strukturu ilə sıx şəkildə əlaqədardır.Bu problemin həlli üçün aşağıdakı iki istiqamətdə böyük analitik iş aparılmalıdır: 1. Ticarət-iqtisadi əlaqələrin başlıca qarşılıqlı fəaliyyət sferalarının strukturunun aşkar edilməsi üzrə daxili analitik iş; 2. İkitərəfli ticarət-iqtisadi münasibətlər sferasında müştərək analitik fəaliyyət.

Birinci qrupa (daxili) bizim tərəfimizcən analitik işin aşağıdakı ardıcıllığı daxil edilmişdir: Azərbaycanın idxalının coğrafi strukturu,Azərbaycanın ixracının coğrafi strukturu, ticarət standartlarının beynəlxalq təsnifatına uyğun olaraq Azərbaycanın idxalının coğrafi strukturu,ticarət standartlarının beynəlxalq təsnifatına uyğun olaraqAzərbaycanın ixracının coğrafi strukturu.

İkinci qrupa (müştərək) bizim tərəfimizdən analitik işin aşağıdakı ardıcıllığı daxil edilmişdir: Azərbaycanın beynəlxalq indikatorları, Azərbaycanın xarici ticarət dövriyyəsinin dinamikası, Azərbaycanın idxal və ixrac üzrə əsas xarici ticarət partnyorları, Azərbaycanda əsas məhsullar üzrə idxal və ixracın dinamikası, Azərbaycanda beynəlxalq turizmin strukturu və inkişaf dinamikası, Azərbaycanda mehmanxana təsərrüfatının strukturu və inkişaf dinamikası. Ölkələr arasında ticarət-iqtisadi əlaqələrin təkmilləşdirilməsi problemləri milli ixracın, o cümlədən kiçik və orta biznes sisteminin effektivliyinin artırılması yollarının müəyyən edilməsi məsələsini ön plana çıxarır.

İri firma və korporasiyalarla yanaşı kiçik və orta sahibkarlıq subyektləri də ölkənin ticarət-iqtisadi əlaqələrində fəal iştirak edir. Buna görə də, ixrac fəaliyyəti ilə məşğul olan milli sahibkarların bu sahə ilə daha yaxından tanış ola bilmələri üçün, bizim fikrimizcə, kiçik və orta biznesin daha dərindən öyrənilməsi məqsədəuyğundur.İnkişaf etməkdə olan ölkələr arasında Azərbaycan perspektiv investisiya rejimi olan ölkələrdən biri kimi çıxış edir, habelə bağlanmış investisiya razılaşmaların sayına görə birinci yerlərdən birini tutur. Hazırki dövrdə investisiya siyasətinin prioritet istiqaməti iqtisadiyyatın müxtəlif sahələrinə, o cümlədən xarici ticarətə uzunmüddətli investisiyaların cəlb edilməsidir.Azərbaycanın xarici ticarət əlaqələrinin strukturunun təhlilinə keçməzdən əvvəl respublikanın idxal və ixracının coğrafi strukturunu müayinə etmək məqsədəuyğundur. İdxal və ixrac strukturlarını şirkət strukturu, hesabın strukturu, forma strukturu və ümumi parametrlər kimi qiymətləndirmək olar. Bu strukturlar arasındakı əlaqə xarici ticarət əlaqələrinin və siyasətinin formalaşması üçün əsas ünsürlərdən biri kimi çıxış edirlər.Qeyd etmək lazımdır ki, son illər ərzində respublika idxalının coğrafi strukturu əhəmiyyətli dərəcədə genişlənmiş və böyümüşdür. Milli iqtisadiyyatın genişlənməsi, formalaşdırılması, biznes mühitinin dərinləşməsi, cəmiyyətin keyfiyyətli həmçinin ucuz qiymətə məhsulla təmin etmək baxımından kiçik sahibkarlığın o cümlədən də orta sahibkarlığın inkişafı mühümdür. Həmçinin inteqrasiya proseslərinin artımı, istehsal quruluşunda dəyişikliklərin baş verməsi, ixracat yönümlü sahədən hazır məhsula keçid, iqtisadi və sosial vəziyyətin yaxşılaşdırılması da geniş imkanlar yaradır. Məhz buna görə, kiçik və orta sahibkarlığın inkişaf etməsi üçün daima yeni innovasiyalar aşkar olunur və onların geniş tətbiqinə çalışılır. Beynəlxalq təcrübədə isə françayzinq bu prosesdə istifadə olunan səmərəli alətlərdən biri sayılır.Sahibkarlığın və sahibkarlıq təbəqəsinin formalaşmasının müxtəlif yolları vardır.Araşdırma göstərir ki,sahibkarlığın formalaşmasının ilk mərhələsində özlərinin şəxsi vəsaitləri və riskləri ilə müxtəlif növ fərdi,ailə ,kollektiv ,işgüzar müəssisələr yaradan ən təşəbbüskar və ən əməksevər insanlar mühüm yer tutmuşdur .İnkişaf etmiş ölkələrdə bu günə qədər bu volun üstün rolu saxlanılmışdır. Xüsusi sahibkarlığın təkrar istehsalının digər yolu dövlət əmlakının özəlləşdirilməsidir. Özəlləşdirmə milli iqtisadiyyatın səmərəliliyini təmin etmək məqsədilə dövlət mülkiyyətinin xüsusi mülkiyyətə

transformasiyasını nəzərdə tutur. Bu və ya digər dərəcədə dövlətin rolu azalır ,eyni zamanda ictimai həyatın ilk növbədə iqtisadiyyatın müxtəlif sahələrində xüsusi sektorun rolu yüksəlir. Bu planda mühüm əhəmiyyət kəsb edən cəhət dövlət müəssisələrinə və aktivlərinə mülkiyyət hüququndan imtina etməsi, mal və xidmətlərin istehsal hüququnun xüsusi kompaniyalara keçməsidir.Kompleks amillərin nəticəsində Azərbaycan da daxil olmaqla postsosialist ölkələrində özəlləşdirmə sahibkarlığın təkrar istehsalının və formalaşdırılmasının başlıca vasitəsi olmuşdur.Bu konteksdə qeyd etmək lazımdır ki,mülkiyyət haqqında məsələ əhalinin bütün təbəqələrinin mənafeyinə toxunan mürəkkəb məsələlərdən biridir.

Mülkiyyətin mahiyyəti onun obyekt və subyekləri,mülkiyyət obyektlərinə sahibolma baxımından insanlar arasındakı münasibətləri təhlil etməklə izah edilir. Bazar islahatlarının tətbiqi müxtəlif səviyyələrdə olan postsosialist dövlətin olduğu kimi Azərbaycanda da kiçik sahibkarlıq xüsusi funksiyalara malikdir. Azərbaycanda o, iqtisadiyyatın inhisarsızlaşdırılmasında, mülkiyyətin özəlləşdirilməsində, sağlam rəqabətin yaradılmasında və təbii resursların səfərbərliyində mühüm rol oynayır. Ölkədə sahibkarlıq mühitinin formalaşdırılması və ona əlverişli şəraitin yaradılması nəticəsində iqtisadiyyatda qeyri-dövlət mülkiyyətli kiçik sahibkarlıq subyektlərinin fəaliyyət miqyası xeyli genişlənmişdir. Dövlət mülkiyyətinin özəlləşdirilməsi nəticəsində dövlət bölməsində fəaliyyət göstərən kiçik müəssələrin sayı, işçi potensialı və istehsal olunmuş məhsulların həcmi ilbəil azalmış, qeyridövlət bölməsində isə bu göstəricilərə hər il artım müşahidə olunmuşdur.

Beləliklə, araşdırma göstərir ki, Azərbaycan Respublikasında kiçik və ortan biznes özündə böyük potensial formalaşdırmışdır. Başqa sözlə desək, kiçik və orta sahibkarlığın inkişafının müasir səviyyəsi bazar tipli iqtisadiyyatın formalaşmasının ilkin mərhələsinə uyğundur və hələ ki, öz potensial imkanlarının tam reallaşdırılmasından uzaqdır. Bununla yanaşı onun sahəvi quruluşunun səmərəli olmamasına baxmayaraq ölkədə iqisadi islahatların həyata keçirildiyi dövr ərzində kiçik və orta sahibkarlığın inkişaf prosesinə müsbət meyl xas olmuşdur. Azərbaycan Respublikasında son illərdə həyata keçirilən siyasət ölkə iqtisadiyyatında əsaslı keyfiyyət dəyişikliklərinə səbəb olmuş, makroiqtisadi sabitliyə nail olunaraq dinamik iqtisadi inkişaf təmin edilmişdir. Regionların sosial-iqtisadi inkişafı üzrə həyata keçirilən çeşidli tədbirlər nəticəsində regionlarda kiçik sahibkarların sayı və dinamikasında, həmçinin onların fəaliyyətini səciyyələndirən bir sıra göstəricilərdə müsbət dəyişikliklər müşahidə olunmuşdur.Ümumiyyətlə rebrendinq və ya ciddi sərmayələr tələb edən hər hansı yenilik haqqında yekun qərar verməzdən əvvəl ətraflı müsahibə adlanan araşdırma aparmaq məqsədəuyğundur. Bu üsul diaqnostik tədqiqatlar üçün ən optimal və bəlkə də yeganə rasionaldır: mühasibat uçotu və nəzarət sistemlərinin effektivliyinin qiymətləndirilməsi, restoranın ümumi idarə edilməsi, marketinq və reklam fəaliyyətinin təhlili, təchizat və logistika.Beləliklə, restoran biznesində əsas tədqiqat vəziyyəti qiymətləndirməyə kömək etmək, optimal inkişaf strategiyasını hazırlamaq və yanlış qərarlar qəbul etmək riskini azaltmaqdır. Bazar araşdırmasına ehtiyac adətən yeni bir restoran açıldıqda, mövcud müəssisə səmərəsiz olduqda və ya uğurlu konsepsiyanın təkrarlanması zamanı yaranır.

COMMITMENTS OF WTO MEMBERS ON DIRECT SUBSIDIES IN THE AGRICULTURAL SECTOR

Kazimova S.E.
Azerbaijan Stat Agrarian University
E-mail: azizsevinj@gmail.com

Joining the World Trade Organization (WTO) has been a significant step for many countries in terms of opening up their economies and integrating into the global trading system. However, joining the WTO also means agreeing to follow certain rules and regulations, including those related to subsidies in the agriculture sector.Direct subsidies, which are payments made by the government to farmers or agribusinesses, have been a controversial issue in the agriculture sector. While they can provide support to farmers and help stabilize prices, they can also distort markets and cause overproduction.Upon joining the WTO, countries are committed to reporting their direct subsidies in the agricultural sector and following certain rules to prevent excessive subsidies. These rules include the de minimis rule, which limits the total amount of subsidies a country can provide, and the amber box, which includes subsidies that have the potential to distort trade and are subject to reduction commitments.Therefore, it is important for countries to understand the implications of joining the WTO and the regulations surrounding direct subsidies in agriculture. Countries must carefully evaluate their

subsidy programs to ensure compliance with WTO rules while still providing necessary support to their agricultural sector.

Direct subsidies in agriculture are a complex issue that requires careful consideration and evaluation by countries. Upon joining the WTO, countries must adhere to certain rules and regulations related to subsidies in order to prevent market distortion and ensure fair trade practices. It is important for countries to balance the need to support their agricultural sector with compliance with WTO rules.In addition, direct subsidies in agriculture can have social and environmental implications. They can lead to the overuse of natural resources, such as water and land, and can cause environmental degradation. They can also have negative social impacts, such as creating income inequalities and reducing the competitiveness of small farmers. Therefore, when evaluating their direct subsidy programs, countries must also consider the potential social and environmental impacts. They should aim to design subsidy programs that are sustainable and have minimal negative impacts on the environment and society.Moreover, the agriculture sector is a crucial component of many countries' economies, especially in developing countries. Direct subsidies can provide necessary support to farmers and help reduce poverty in rural areas. However, they should be used in conjunction with other policies, such as investments in infrastructure, education, and research and development, to promote long-term growth and development.

Furthermore, it is important for countries to engage in international dialogue and cooperation regarding subsidies in agriculture. The WTO provides a platform for countries to discuss and negotiate subsidy regulations and reduction commitments. Countries should take advantage of this platform to ensure that their subsidy programs are fair and sustainable, while also contributing to global efforts to promote fair and sustainable trade practices.In conclusion, direct subsidies in agriculture are a complex issue that requires careful evaluation and consideration. When designing subsidy programs, countries must also consider the potential social and environmental impacts, and aim to promote long-term growth and development in the agriculture sector.

AZƏRBAYCANIN BEYNƏLXALQ VALYUTA FONDU İLƏ ƏLAQƏLƏRİ VƏ ÖLKƏ İQTİSADIYYATINDA ROLU

Kərimli İ.E.
OdlarYurdu Universiteti
E-mail: oneqa102@gmail.com

Azərbaycanda, həm də, beynəlxalq ticarətdə və eləcə də alqı-satqı proseslərində qızıldan, daha sonralar isə qızılı əvəz etmək iqtidarında olan kağız pullardan istifadə olunmağa başladı. Kağız pul olaraq elə valyuta seçilməli idi ki, həmin valyuta yüksək dönərliliyə malik olsun. Başqa sözlə desək, həmin valyuta digər ölkələrin milli valyutalarına asanlıqla çevrilə bilsin. Beynəlxalq valyuta-kredit münasibətlərinin yaranıb formalaşması nəticəsində kapitalın hərəkəti prosesi güclənməyə başlamışdır. Belə ki, artıq xarici-iqtisadi əlaqələrin və ticarətin genişlənməsi nəticəsində kapitalın hərəkəti ölkə hüdudlarını aşaraq beynəlxalq xarakter daşımağa başlamışdır. İstər beynəlxalq ödənişlərin təmin olunmasında, istərsə də istehsalın xarici ölkələrə daşınması nəticəsində kapitalın beynəlxalq hərəkəti baş verir.Kapitalın beynəlxalq hərəkəti haqqında nəzəriyyəçilərdə müxtəlif fikirlər formalaşmışdır. Kapitalın beynəlxalq hərəkəti ilə əlaqədar olaraq yaranmış nəzəriyyələrdən biri də "Beynəlxalq Finans" nəzəriyyəsidir. Beynəlxalq valyuta mübadiləsində iştirak baxımından hər bir ölkənin milli valyutası fərqli xüsusiyyətlərə malikdir. Eyni zamanda da alınıb satılması qaydalarına görə valyutaların üç növü xüsusilə fərqləndirilir. Onlar aşağıdakılardır: Sərbəst çevrilmə qabiliyyəti olan tam çevrilən valyutalar; Qismən çevrilən valyutalar; Çevrilmə qabiliyyəti olmayan, yəni çevrilməyən valyutalar.Dünya dövlətləri arasında bir çoxunun valyutaları tam çevrilmə qabiliyyətinə malik olan valyutalardır. Bu tip valyutaları digər dövlətin valyutasına asanlıqla çevirmək mümkün olduğundan tam çevrilən valyutalar hesab olunurlar. Haqqında danışdığımız bir dövlətin valyutasının tam sərbəst şəkildə başqa dövlətin valyutasına çevrilməsi prosesinə valyutanın konvertləşdirilməsi deyilir. Araşdırmalardan məlum oldu ki, beynəlxalq valyuta sisteminin təkamülünün üçüncü mərhələsi olan Bretton-Vudz valyuta sisteminin yaranması dünya ölkəri arasındakı xarici iqtisadi və ticarət əlaqələrinin, habelə ödəniş vasitəsi kimi qızılın saxlanması, bununla yanaşı ABŞ dollarının üstün mövqeye malik olması kimi mühüm məsələlər xüsusi tənzimlənmə vasitəsinin yaranması zərurətini ortaya çıxartdı. Belə yaranmış tənzimlənmə vasitələrindən biri də Beynəlxalq Valyuta Fondunun yaranması idi. Beynəlxalq Valyuta Fondunun əsası 1944-cü ildə ABŞ-ın

Hempşir şəhərinin Bretton-Vudz əyalətində dünya ölkələrinin xarici iqtisadi və ticarət əlaqələrinin həyata keçirilməsində ödəniş vasitəsinin müəyyən olunmasına həsr olunmuş beynəlxalq konfransda qoyulmuşdur. Beynəlxalq Valyuta Fondunun yaranmasında əsas şərt ilkin olaraq dünya ölkələri arasında valyutanın tənzimlənməsi mexanizmini təmin etmək idi. Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının aşağı faizli kreditlər verməsinin əsas məqsədi iqtisadiyyatı zəif olan ölkələrdə iqtisadi sabitliyi təmin etmək, maliyyə ehtiyatlarına yaranmış tələbatı aradan qaldırmaq idi. Beynəlxalq Valyuta Fondunun və Dünya bankının yaranıb formalaşması nəticəsində dünya ölkələri arasında beynəlxalq valyuta münasibətlərinin formalaşması ilə yanaşı beynəlxalq kredit münasibətləri də yaranıb formalaşmağa başlamış, eləcə də kapitalın beynəlxalq hərəkəti prosesi güclənmişdir.

Beynəlxalq Valyuta Fondunun idarə edilməsi fondun üzvlüyündə olan hər bir ölkənin idarəedici və onun müavini qismində çıxış etməyinə əsaslanan İdarəedicilər Şurası tərəfindən həyata keçirilir. İdarəedicilər Şurası Beynəlxalq Valyuta Fondunun ali rəhbər orqanı hesab olunur. Beynəlxalq Valyuta Fondunun idarəedici direktorlarının sayı 53-dür. Beynəlxalq Valyuta Fondunun üzvlüyündə olan ölkələrin heç də hamısı eyni səs hüququna malik deyildirlər. Beynəlxalq Valyuta Fonduna daxil olan ölkələr içərisində ən çox səs sayına malik olan dövlət Amerika Birləşmiş Ştatlarıdır. Bunun da əsas səbəbi kimi məhz ABŞ dollarının beynəlxalq ödəniş-hesablaşma vasitəsi kimi istifadə olunması ilə bağlıdır.Beynəlxalq Valyuta Fondunun fəaliyyəti iki əsas məqsədə xidmət edir. Həmin məqsədlər aşağıdakılardır: Üzv ölkələrin tədiyyə balansındakı qeyri-stabilliyinin aradan qaldırılmasını təmin etmək; Ölkələrin makroiqtisadi sabitliyinə yönəldilmiş tədbirlərin icra olunmasının təmin olunması

Beynəlxalq Valyuta Fonduna üzv olan ölkələrin bu fonddan götürdükləri kreditin həcmi kvotanın ümumi həcminin 25%-dən yüksək ola bilməz. Daha yüksək həcmdə maliyyə resurslarının cəlb olunması üçün Beynəlxalq Valyuta Fondunun direktorunun xüsusi razılığı tələb olunur. Beynəlxalq Valyuta Fondunun direktorunun vermiş olduğu qərar isə birmənalı olaraq həmin ölkənin ümumi-iqtisadi və maliyyə siyasətinin təhlili əsasında formalaşmış olur. Ümumi götürsək, Beynəlxalq Valyuta Fondu krediti üzv ölkələrin müraciəti əsasında və həmin sözügedən ölkələrin iqtisadi vəziyyəti qiymətləndirildikdən sonra kreditin ayrılması ilə əlaqədar qərar qəbul olunur. Beynəlxalq Valyuta Fondunun üzvlüyündə olan ölkələrin Fondun maliyyə ehtiyatlarından istifadə etməsi və ya kredit götürməsi üçün Fond tərəfindən ölkələr qarşısında müəyyən şərtlər qoyulmuşdur.

Azərbaycan Respublikasının bank-kredit sistemi dedikdə isə, bank fəaliyyəti ilə məşğul olan, eləcə də kreditlərin verilməsini təmin edə bilən banklar və yaxud da bank olmayan kredit təşkilatları və maliyyə institutlarının məcmusu başa düşülür. Azərbaycan Respublikasının maliyyə sisteminin ayrı-ayrı həlqələrinin xarakteristikasına nəzər salsaq görərik ki, ən yüksək həlqə məhz Azərbaycan Respublikasının dövlət büdcəsidir. Azərbaycan Respublikasının maliyyə sisteminin əsas həlqələrindən biri də büdcədənkənar dövlət fondlarıdır. Sözügedən bu fondlar Azərbaycan Respublikasına məxsus olsa da, büdcə sisteminə daxil deyildir və müvafiq qanunvericilik aktlarına uyğun olaraq tənzimlənir. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra inzibati-amirlik sistemindən bazar iqtisadi sisteminə keçid dövrünü yaşadı. Belə bir dövrdə xarici-iqtisadi əlaqələrin zəifliyi və inzibati-amirlik sistemindən qalmış prinsiplərin özünü doğrultmaması iqtisadi vəziyyəti getdikcə ağırlaşdırırdı. Bu səbəbdən də ölkədə aparılmış uğurlu islahatlar nəticəsində Azərbaycan Respublikası bugünkü mütərəqqi səviyyəsinə gəlib çatmışdır. Belə ki, Azərbaycan Respublikası digər ölkələrlə xarici-iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsi məqsədilə aparıcı beynəlxalq maliyyə təşkilatlarına, qlobal və regional maliyyə institutlarına üzv olmaqla həm iqtisadi sabitliyi təmin edə bildi, həm iqtisadi artım tempinin ardıcıl artan olmasına şərait yaratdı, həmçinin də xarici-iqtisadi və ticarət əlaqələrinin kifayət qədər möhkəmlənməsinin əsasını qoymuş oldu. Azərbaycan Respublikası 1992-ci ilin sentyabrın ayının 18-i tarixindən etibarən Beynəlxalq Valyuta Fondunun da üzvlüyünə daxil olmaqla xarici-iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsi istiqamətində həlledici addım atmış oldu. Azərbaycan Respublikası indiki dövrə qədər Beynəlxalq Valyuta Fondundan altı proqramın həyata keçirilməsi ilə əlaqədar olaraq kredit yardımı almışdır. Lakin 2005-ci il tarixindən etibarən Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fondu ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərsə də, həmin Fonddan kredit alınmasından imtina edib. Azərbaycan hökuməti ilə Beynəlxalq valyuta Fondunun danışıqlarında dövlət banklarının özəlləşdirilməsi, sənayenin inkişaf etdirilməsi, Neft Fondunun fəaliyyətində şəffaflığın təmin olunması, neft gəlirlərinin səmərəli istifadə olunmasının təmin olunması, enerji və su təchizatı problemlərinin aradan qaldırılması və bu sahələrdə islahatların aparılması zərurəti əsas prioritet olaraq qəbul edilmişdir.

AZƏRBAYCANDA FƏALİYYƏT GÖSTƏRƏN BANKLARDA ETİK DAVRANIŞ QAYDALARININ TƏTBİQİ MEXANİZMİNİN TƏHLİLİ

Kərimov R.S.
Odlar Yurdu Universiteti
E-mail: dxrustem@gmail.com

Bank sektoru Azərbaycanın iqtisadi inkişafında həlledici rol oynayır. Bununla belə, bank sektorunda ictimai inamsızlığa və maliyyə qeyri-sabitliyinə səbəb olan bir neçə qeyri-etik davranış halları baş verib. Ona görə də Azərbaycanın müasir şəraitində fəaliyyət göstərən banklarda etik davranış qaydalarının tətbiqi mexanizminin qiymətləndirilməsi zəruridir. Bu dissertasiya bankların etik davranışla bağlı mövcud təcrübə və siyasətlərini təhlil etmək və təkmilləşdirilməsi lazım olan sahələri müəyyən etmək məqsədi daşıyır.

Mövzunun aktuallığı. Müasir şəraitdə Azərbaycanda fəaliyyət göstərən banklarda etik davranış qaydalarının tətbiqinin təhlilinin hazırkı vəziyyəti mühüm araşdırma və müzakirə mövzusudur. Bank sektorunda artan rəqabət və istehlakçılar arasında etik məsələlərlə bağlı məlumatlılığın artması fonunda bankların öz fəaliyyətlərində ciddi etik standartlara riayət etmələri mühüm əhəmiyyət kəsb edir. Buraya müştərilərlə ədalətli və şəffaf münasibətlər, müştəri məlumatlarının mühafizəsi, məsuliyyətli kreditləşdirmə təcrübəsi və maraqların toqquşmasından qaçınmaq daxildir.Azərbaycanda fəaliyyət göstərən banklarda etik davranış qaydalarının tətbiqi mexanizminin təhlili mövzusu normativ-hüquqi bazanın, bankların daxili siyasət və prosedurlarının, bununla bağlı bankların faktiki təcrübələrinin hərtərəfli öyrənilməsini əhatə edir. Bu tədqiqat, mövcud sistemdəki hər hansı boşluqları və ya zəif cəhətləri müəyyən etməyə və təkmilləşdirilməsi üçün tövsiyələr verməyə kömək edə bilər.

Yekun olaraq, müasir şəraitdə Azərbaycanda fəaliyyət göstərən banklarda etik davranış qaydalarının tətbiqi mexanizminin təhlili mövzusunun aktuallığı sənayenin uzunmüddətli sabitliyini və dayanıqlığını təmin etmək üçün bank sektorunda əsaslı etik mədəniyyətə ehtiyac olduğunu ortaya qoyur.Tədqiqatın nəticələrinin tətbiq sahəsi: Bu dissertasiyanın tədqiqat nəticələri müxtəlif sahələrdə tətbiq oluna bilər. Birincisi, ondan siyasətçilər və tənzimləyicilər bank sektorunu tənzimləyən normativ bazanı təkmilləşdirmək üçün istifadə edə bilərlər. İkincisi, banklar tərəfindən işçilər arasında etik davranışı təşviq etmək üçün etik siyasət və təlimatlar hazırlamaq və həyata keçirmək üçün istifadə edilə bilər. Üçüncüsü, tədqiqatçılar və alimlər tərəfindən bank sektorunda etik davranış anlayışını və onun maliyyə sabitliyinə və iqtisadi artıma təsirini daha da araşdırmaq üçün istifadə edilə bilər. Nəhayət, ictimaiyyət tərəfindən bankların etik təcrübələri haqqında məlumat əldə etmək və onların maliyyə əməliyyatları ilə bağlı əsaslandırılmış qərarlar qəbul etmək üçün istifadə edilə bilər.

Tədqiqatın vəzifələri. Müasir şəraitdə Azərbaycanda fəaliyyət göstərən banklarda etik davranış qaydalarının tətbiqi mexanizminin təhlilində tədqiqatın vəzifələrinə aşağıdakılar aid edilə bilər:

1. Bank sektorunda etik davranış mövzusu və Azərbaycanda etik davranış qaydalarının tətbiqinin mövcud vəziyyəti ilə bağlı mövcud ədəbiyyatın nəzərdən keçirilməsi.
2. Azərbaycanda bank sektorunda etik davranış qaydalarına dair normativ bazanın hərtərəfli təhlilinin aparılması.
3. Azərbaycanda bankların etik davranışla bağlı daxili siyasət və prosedurlarının araşdırılması.
4. Müştərilərlə ədalətli və şəffaf rəftar, müştəri məlumatlarının qorunması, məsuliyyətli kreditləşmə praktikaları və maraqların toqquşmasından qaçınmaq daxil olmaqla, etik davranış baxımından bankların faktiki təcrübələrinin qiymətləndirilməsi.
5. Azərbaycanda fəaliyyət göstərən banklarda etik davranış qaydalarının mövcud tətbiqi mexanizmində boşluqların və ya zəif tərəflərin müəyyən edilməsi.
6. Tədqiqatın nəticələrinə əsasən təkmilləşdirilməsi üçün tövsiyələrin verilməsi.
7. Azərbaycanda bank sektorunda möhkəm etik mədəniyyətin inkişafına töhfə vermək və sənayenin uzunmüddətli sabitliyini və davamlılığını təşviq etmək.

Tövsiyələr. Azərbaycanda fəaliyyət göstərən banklarda etik davranış qaydalarının tətbiqi mexanizminin təkmilləşdirilməsi üçün aşağıdakı tövsiyələr təklif olunur: Bank işçiləri üçün etik davranış qaydaları haqqında məlumatlılığı və anlayışı artırmaq üçün hərtərəfli təlim və təhsil proqramlarını hazırlamaq və həyata keçirmək; Etik davranış qaydalarına və siyasətlərinə riayət olunmasını təmin etmək üçün bankların daxili nəzarət sistemlərinin gücləndirilməsi; Etik davranış qaydalarına riayət olunmasına nəzarət etmək və banklara rəy

bildirmək üçün müstəqil monitorinq və hesabat sisteminin yaradılmasını təşviq etmək; Bankların etik davranış təcrübələri haqqında mütəmadi olaraq məlumat dərc etməklə bank sektorunun şəffaflığını artırmaq;Mükafatlar və tanınma proqramları kimi müxtəlif təşəbbüslər vasitəsilə etik dəyərləri və prinsipləri təşviq etməklə bank sənayesində etik davranış mədəniyyətini inkişaf etdirin.Tədqiqat nəticələrinin tətbiqi sahəsinə bank sənayesi, tənzimləyici orqanlar, siyasətçilər və akademik tədqiqatçılar daxildir. Tədqiqatın nəticələri banklar tərəfindən öz etik davranış təcrübələrini təkmilləşdirmək, tənzimləyici orqanlar tərəfindən etik davranış qaydalarına riayət olunmasına nəzarət etmək, siyasətçilər tərəfindən effektiv tənzimləyici çərçivələr hazırlamaq və tətbiq etmək üçün, akademik tədqiqatçılar isə etik davranış qaydalarının tətbiqi mexanizmini daha da araşdırmaq üçün istifadə edilə bilər.

Nəticə: Yekun olaraq qeyd edək ki, müasir şəraitdə Azərbaycanda fəaliyyət göstərən banklarda etik davranış qaydalarının tətbiqi mexanizminin təhlili həlledici tədqiqat mövzusudur. Tədqiqat bank sektorunun inkişafına töhfə verəcək, dayanıqlı iqtisadi artımı təşviq edəcək və sektoru tənzimləyən tənzimləyici bazanın effektivliyi barədə məlumat verəcək. Tədqiqatın nəticələri müxtəlif sahələrdə, o cümlədən siyasətin qurulması, bank idarəçiliyi, tədqiqat və ictimaiyyətin məlumatlandırılmasında tətbiq oluna bilər. Ona görə də bu tezis Azərbaycanda və ondan kənarda bank sektorunun inkişafına mühüm töhfə vermək məqsədi daşıyır.

AZƏRBAYCANDA İNFORMASİYA BAZARININ PROBLEMLƏRİ

Mehdizadə V.R.
Odlar Yurdu Universiteti
E-mail: vasifmehdizade123@gmail.com

İnformasiya sisteminin müasir anlayışı, informasiyanın işlənməsinin əsas texniki vasitəsi kimi kompüterdən istifadəni əhatə edir. Bundan əlavə, məlumat sisteminin texniki tətbiqi özü üçün, məlumat üçün nəzərdə tutulan şəxsin rolu nəzərə alınmırsa və onsuz qəbul etmək və təqdim etmək mümkün deyilsə, heç bir məna kəsb etməyəcəkdir. Kompüterlərlə informasiya sistemləri arasındakı fərqi anlamaq lazımdır. Xüsusi proqram təminatı ilə təchiz olunmuş kompüterlər informasiya sistemləri üçün texniki baza və vasitədir. İnformasiya sistemi personal və kompüter və telekommunikasiya ilə qarşılıqlı əlaqə olmadan təsəvvür edilə bilməz.Qanuni mənada bir informasiya sistemi "təşkilati qaydada sifariş edilmiş sənədlər toplusu (sənədlər seriyası) və informasiya texnologiyaları, o cümlədən informasiya proseslərini həyata keçirən kompüter texnologiyaları və rabitə istifadəsi" kimi müəyyən edilir.

İnformasiya prosesi - "məlumatların yaradılması, toplanması, işlənməsi, toplanması, saxlanması, axtarışı, yayılması və istehlakı proseslərdir". İnformasiya mənbəyi fərdi sənədlər və ayrı-ayrı sənədlər massivləri, sənədlər və məlumat sistemlərindəki sənədlər massivləri (kitabxanalar, arxivlər, fondlar, məlumat bankları, digər məlumat sistemləri).

Tənzimləmə aspektində bir sənəd maddi daşıyıcıda qeyd edilməsinə imkan verən təfərrüatları ilə qeyd olunan məlumatlar olaraq təyin edilir. Sənədləşmə prosesi məlumatları informasiya mənbəyinə çevirir. İstənilən məqsədli bir məlumat sisteminin işini təmin edən proseslər şərti olaraq aşağıdakı bloklardan ibarət olaraq təmsil oluna bilər: xarici və ya daxili mənbələrdən məlumatların daxil edilməsi; giriş məlumatlarının işlənməsi və əlverişli formada təqdim edilməsi; istehlakçılara təqdim etmək və ya başqa bir sistemə ötürmək üçün məlumatların çıxarılması; geribildirim, daxil olan məlumatları düzəltmək üçün müəyyən bir təşkilatın insanları tərəfindən işlənmiş məlumatdır.

İnformasiya prosesləri, giriş məlumatlarını müəyyən bir nəticəyə işləmək üçün bu və ya digər mexanizmi tətbiq edən informasiya prosedurlarından istifadə etməklə həyata keçirilir. Aşağıdakı məlumat prosedurları mövcuddur:

1. Tamamilə rəsmiləşdirilmiş, burada məlumatların işlənməsi alqoritmi dəyişməz və tam müəyyənləşdirilmişdir (axtarış, mühasibat, məlumatın saxlanması, ötürülməsi, sənədlərin çapı, modellərdə hesablama).

2. Formalaşdırılmamış informasiya prosedurları, bu müddət ərzində yeni unikal məlumatların yaradılması və ilkin məlumatın işlənməsi alqoritminin naməlum olması (seçim alternativləri toplusunun formalaşdırılması, alınan dəstdən bir variantın seçilməsi).

3. Məlumatın işlənməsi alqoritminin dəyişə biləcəyi və tam müəyyənləşdirilmədiyi zəif rəsmiləşdirilmiş informasiya prosedurları (planlaşdırma vəzifəsi, iqtisadi siyasət seçimlərinin effektivliyini qiymətləndirmək).

İnformasiya sistemlərini yaradan və saxlayan məlumat şöbələrinin funksiyaları (administrator xidməti): müraciətlərin bildirilməsi və işlənməsi; məlumatların bütövlüyünün və təhlükəsizliyinin qorunması; məlumatların vaxtaşırı nəzərdən keçirilməsi; məlumat indeksləşdirilməsinin avtomatlaşdırılması proseslərini əhatə edir. Bu proseslərin əsas məqsədi informasiya və kommunikasiya texnologiyalarının müxtəlif sahələrə tətbiqini asanlaşdırmaq və bunun nəticəsi olaraq bu sistemlərin istifadə olunduğu sahələrdə böyük həcmli məlumatların yığılmasını, saxlanmasını, emalını və alınan nəticələrin ümumiləşdirilməsini və digər məlumat bazalarına ötürməkdən ibarətdir.Ümumiyyətlə, informasiya sistemləri aşağıdakı xüsusiyyətlərə görə müəyyən edilir: hər hansı bir informasiya sistemi ümumi sistem prinsipləri əsasında təhlil edilə, qurula və idarə edilə bilər; informasiya sistemi dinamik və inkişafdadır; bir məlumat sistemi qurarkən sistemli bir yanaşma istifadə etmək lazımdır; informasiya sisteminin nəticəsi, qərarlar qəbul edilən məlumatlardır; informasiya sistemi insan-maşın məlumat emal sistemi kimi qəbul edilməlidir. İnformasiya sistemlərinin tətbiqi aşağıdakılara kömək edə bilər: riyazi metodların tətbiqi ilə idarəetmə problemlərinin həlli üçün daha rasional variantların əldə edilməsi; avtomatlaşdırılması sayəsində işçilərin gündəlik işlərdən azad edilməsi; məlumatların etibarlılığının təmin edilməsi; məlumat axınlarının strukturunun təkmilləşdirilməsi (sənəd idarəetmə sistemi daxil olmaqla); istehlakçılara unikal xidmətlər göstərmək; məhsul və xidmətlərin istehsal məlumatlarının azaldılması (məlumatlar daxil olmaqla).

MÜASİR ŞƏRAİTDƏ AZƏRBAYCANDA MALİYYƏ BAZARININ SEQMENTLƏRİ VƏ ONLARIN QİYMƏTLƏNDİRİLMƏSİ MEXANİZMLƏRİ

Məhərrəmov E.T.
OdlarYurdu Universiteti
E-mail: elnur99mega@gmail.com

Azərbaycan Respublikasında həyata keçirilən iqtisadi islahatlar və onun dünya iqtisadiyyatı sisteminə inteqrasiyasının dərinləşməsi iqtisadiyyatın dinamik inkişafına şərait yaratmışdır. Daxili və xarici resursların iqtisadi inkişafa cəlb edilməsini təmin edilməsi məqsədilə ölkəmizdə maliyyə bazarının formalaşması zərurətə çevrilmişdir.

Maliyyə bazarları inkişaf etmiş bazar iqtisadiyyatının ayrılmaz hissəsi olub sərbəst pul vəsaitlərinin kapital axımnlarına çevrilməsini təmin edirlər. 70-ci illərə qədər maliyyə bazarlarının təhlili sistemində daha mühüm olan «fundamental» və «texniki təhlil» məktəbləri çıxış edirlər ki, onların da hər birinin özünə məxsus mövqeyi olub. 70-ci illərin ortalarından onların hər ikisi komponent və bir sıra nəzəriyyələrin komponent və elementlərindən çıxış etmiş və əsasən də «effektiv bazar» modeli və «təsadüfi seçim» konsepsiyasına əsaslanmışlar. Qeyd edək ki, onlar hələ də maliyyə bazarlarının təhlilində vacib rol oynayır. Bununla belə «Fundamental məktəbin» tərəfdarları səhmin gələcək qiymətinin proqnozlaşdırlımasmda əsasən balansların, hesabatların və müxtəlif statistik materialların öyrənilməsinə diqqət yetirir. Bundan fərqli olaraq «Texniki təhlil» məktəbinin tərəfdarları isə hər şeyin birja məzənnələrində əks olunduğunu hesab edirlər. Buna görə də, onların yanaşmasına əsasən ən vacib məsələ alış və satış əsasında qiymətli kağızlara olan tələb və təklifin öyrənilməsidir. Texniki təhlil məktəbinin tərəfdarları öz tədqiqatlarında qiymətli kağızlar bazarının vəziyyəti ilə əlaqədar bir sıra nəzəriyyələrdən istifadə edirlər ki, bunlardan da ən əsasları aşağıdakılardır: Elliotun dalga nəzəriyyəsi; dou nəzəriyyəsi; məzənnənin dəyişməsi nəzəriyyəsi; natamam səhm nəzəriyyəsi; müvəqqəti satılmış səhm nəzəriyyəsi; təsadüfi hərəkət hipotezi; bazarın səmərəlilik nəzəriyyəsi.

Lakin hal-hazırda Azərbaycanın maliyyə bazarı inkişaf etməkdə olan (formalaşmaqda olan) bazar qrupuna aiddir. Qlobal maliyyə bazarının təsiri. Qısaca qlobal sığorta bazarının vəziyyəti ilə bağlı əsas xal müəyyən edir. Bu aspekti nəzərə alaraq, xarici şirkətlərə daxili bazarın "nüfuz" ilə bağlı maliyyə ənənələri və müxtəlif ölkələrin qlobal inteqrasiya meylləri gömrük, və ayrı-ayrı ölkələrin eyni siyasəti anlamaq lazımdır. Dünya maliyyə iqtisadiyyatı maliyyə xidmətlərinin istehsalı, bölüşdürülməsi, satışı və istifadəsi ilə bağlı maliyyə sahəsində bir sıra ictimai əlaqələrə malikdir. Dünya maliyyə bazarının qloballaşması milli maliyyə bazarları arasında qanunvericilik və iqtisadi fərqlərin silinməsi, qlobal maliyyə məkanının formalaşdırılması məqsədi daşıyır.Dünya maliyyə iqtisadiyyatı maliyyə xidmətlərinin istehsalı, bölüşdürülməsi, satışı və istifadəsi ilə bağlı maliyyə sahəsində bir sıra ictimai əlaqələrə malikdir. Dünya maliyyə bazarının qloballaşması milli maliyyə bazarları arasında qanunvericilik və iqtisadi fərqlərin silinməsi, qlobal maliyyə məkanının formalaşdırılması məqsədi daşıyır. Dünya maliyyə iqtisadiyyatı maliyyə xidmətlərinin istehsalı, bölüşdürülməsi, satışı və istifadəsi ilə bağlı maliyyə sahəsində bir sıra ictimai əlaqələrə malikdir. Dünya

maliyyə bazarının qloballaşması milli maliyyə bazarları arasında qanunvericilik və iqtisadi fərqlərin silinməsi, qlobal maliyyə məkanının formalaşdırılması məqsədi daşıyır. Texnoloji mühitdə öz növbəsində maliyyə bazarlarının dinamikasına təsir edən faktorlardandır. Maliyyə bazarlarının inkişafı üçün faktorların təsnifatı fərqli ola bilər, lakin əsasən aşağıdakı qruplar ayrılır: Maliyyə amilləri (faiz dərəcələri və inflyasiya) Bu, valyuta ticarətinə əhəmiyyətli dərəcədə təsir göstərən ən vacib kateqoriyalardan biridir. Faiz (endirim) dərəcəsi, ya da yenidən maliyyələşmə dərəcəsi və müəyyən bir dövlətdə inflyasiya səviyyəsi birbaşa əlaqəlidir. Hər bir ölkə üçün faiz dərəcəsi fərqlidir və yüksək maliyyə nəzarəti orqanı tərəfindən müəyyən edilir. Avropa İttifaqında Avropa Mərkəzi Bankı, Avropa Mərkəzi Bankı, ABŞ Federal Ehtiyat Sistemi, Yaponiya Yaponiya Bankı, Böyük Britaniya Bank of England, İsveçrə - İsveçrə Milli Bankı (İsveçrə Milli Bankı) və s. Bu hərəkət ölkədə müvafiq olaraq, mal və xidmətlərin daha istehlak kreditlərinə tələb və kreditlərin məbləği, dövriyyədə olan pul artım artırmaq olardı. Eyni zamanda, bir aşağı qiymətə vəsaitin təchizatı və digər valyutalarına nisbətdə milli valyutanın bir devalvasiya səbəb olacaq ki, ölkədə faiz dərəcəsi aşağı salınması milli valyuta mənfi təsir var (onun dəyərini azaldır).Bu da bankın investisiya şöbələri üçün böyük problemlər yaradır. Belə ki, iqtisadi konyuktıranm dəyişməsi nəticəsində likvidliyin səfərbər edilməsinə ehtiyac yaranır və qiymətli kağızları zərərlə satmaq lazım gəlir. Faiz dərəcələrinin artımı zamanı kreditə tələbat yaranır. Kredit verilməsi bank üçün prioritet hesab olunur, qiymətli kağızlar isə ssudalarnı verilməsi üçün nağd pulun alınması məqsədilə satılmır. Azərbaycan Respublikasının təcrübəsinin mövcud vəziyyətinin elmi-praktiki cəhətdən tədqiqi və araşdırılması gedişində əldə edilmiş nəticələr respublikanın Mərkəzi Bankı və maliyyə orqanları tərəfindən istifadə edilə bilər. Tədqiqat işində bir məsələ də əsaslandırılmış və onun əhəmiyyəti xüsusi qeyd edilmişdir ki, bank əməliyyatlarının aydınlığı və şəffaflığı bütün pillələrdən olan kredit orqanları tərəfindən, təmin edilməlidir. Eyni zamanda maliyyə bazarının formalaşmasında bunların hər birinin rolu nəzərə alınmalıdır. Görünən və görünməyən bir sıra obyektiv və subyektiv halların olması qaçılmazdır ki, bunların aşkar edilməsində onlardan çox şey asılıdır. Bu məsələ bazar iqtisadiyyatı subyektlərinin dövlətin pul-kredit siyasətinə inamını möhkəmləndirir. İndiki bazar iqtisadiyyatı şəraitində Azərbaycan Respublikasında pul-kredit sistemi qarşısında duran vəzifələr müəyyən dərəcədə əsaslandırılmış və şərh edilmişdir.

QARABAĞIN NƏQLİYYAT İNFRASTRUKTURU

Məmmədhəsənova F.V.
Azərbaycan Memarlıq və İnşaat Universiteti
E-mail: Mmva_fidan@mail.ru

Qarabağ Azərbaycanın ən qədim və gözəl,cənnət guşələrindən biri olmaqla yanaşı onun ayrılmaz bir hissəsi olmuşdur. Məlum olduğu kimi, XX əsrin 80 – ci illərinin sonu, 90 – cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları irəli sürmüş və ölkəyə qarşı hərbi təcavüzə başlamışdır. Həmin dövrdə torpaqların 20% - i ermənilər tərəfindən işğal edilmiş və onların həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd – yuvasından didərgin düşmüşdür. 2020 – ci il 8 noyabr tarixində ikinci Qarabağ müharibəsi bitdikdən sonra artıq abadlıq işləri görülməyə başlamışdır. Bu abadlıq işlərində yol nəqliyyat infrastrukturunun bərpası və inkişaf etdirilməsi mühüm məsələlərdən biridir.Məlum olduğu kimi, ölkəmizin dayanıqlı sosial – iqtisadi inkişafında nəqliyyata xüsusi yer ayrılır, çünki məhz nəqliyyat vasitəsilə iqtisadiyyatın yüksək funksionallığı təmin edilir. Buna görə də, nəqliyyatın inkişafının sistemli şəkildə təhlil etmək, onu daim inkişaf etdirmək lazımdır. İşğaldan azad edilmiş ərazilərin Azərbaycanın ümumi iqtisadi sisteminə sürətli inteqrasiyasını təmin etmək, eyni zamanda, bu ərazilərin qısa müddət ərzində bərpası və mərhələli şəkildə doğma yurdlarına qayıdan sakinlər üçün əlverişli həyat şəraitinin təmin edilməsi məqsədi ilə əvvəlcə nəqliyyat arxitekturasının qurulmasına start verildi.

Qeyd etmək lazımdır ki, nəqliyyatın inkişafı təkcə maşınların və sərnişinlərin hərəkətini özündə ehtiva etmir. Bu, həm də Qarabağda əhalinin sağlam şəkildə məskunlaşdırılmasında, ərazidə istehsal sahələrinin yaradılmasında, nəqliyyat qovşaqlarının, kənd, qəsəbə, şəhərlərin və limanların inkişafında, işğaldan azad edilən ərazilərdəki təbii sərvətlərin milli kapitala çevrilməsində, ərazidə milli-mədəni və sosial - iqtisadi, hərbi dayaqların təşəkkül tapmasında, həmçinin daxili turizm potensialının yaradılmasına mühüm və əsas amildir. Bu proses artıq bir-biri ilə əlaqəli şəkildə bağlanmış 3 kateqoriya formasında icra edilir: uzunluğu 700 kilometrdən çox olan avtomobil yollarının bərpası və yenilərinin tikintisi; mövcud dəmir yolu xətlərinin bərpası; üç hava limanının inşası.

Nəqliyyatın inkişaf layihələrindən danışarkən işğaldan azad edilmiş ərazilərdə reallaşdırılan üç hava limanının strateji əhəmiyyətini vurğulamamaq mümkün deyil. Füzuli, Zəngilan və Laçında aeroportların inşası iqtisadi, siyasi və hərbi baxımdan mühüm hadisədir. Məlum olduğu kimi, sərnişin və yük daşınması, o cümlədən hərbi yüklərin çatdırılması, şəxsi heyətin manevr imkanlarının artırılması, çevik yerdəyişməsi üçün aeroportların rolu əvəzsizdir.Füzuli və Zəngilan Beynəlxalq Hava Limanı artıq istifadəyə verilmişdir. Laçın hava limanlarının tikinti işləri isə hələ davam etməkdədir. Laçın hava limanı Azərbaycanın dəniz səviyyəsindən hündürdə yerləşən aeroportu olmaqla yanaşı, bütövlükdə çətin relyefdə inşa edilən hava limanı baxımından da fərqlənəcək. Bu hava limanı regionun ən faydalı hava limanı olacağını xüsusi qeyd etmək lazımdır. Kəlbəcər rayonunun dağlıq ərazidə yerləşməsi və qış aylarında naviqasiyanın çətinləşməsi nəzərə alınsa, o zaman Kəlbəcərin Bakı şəhəri və dünya ilə əlaqəsində Laçın hava limanı müstəsna potensiala malik olacaq. Ona görə də Laçın hava limanını sadəcə iqtisadi deyil, eyni zamanda, sosial layihə kimi qiymətləndirilə bilər. Bu hava limanı əhalinin qonşu rayonlara geri qayıdışını sürətləndirməklə yanaşı, həmçinin regionda yaxın zamanlarda bir sıra yay və qış turizm mərkəzləriinin yaradılmasına da imkan verəcəkdir.

Hava limanlarının sosial-iqtisadi mahiyyəti ilə yanaşı, hərbi strateji mahiyyəti də mövcuddur. Bu hava limanları Ermənistan- Azərbaycan dövlət sərhədinə ən yaxın məsafədə yerləşdiyindən ölkəmizin suverenliyinə və insanların dinc həyatına mane olacaq elementlərin dərhal neytrallaşdırılmasına imkan verəcək. Qeyd etmək lazımdır ki, Zəngəzur dəhlizinin açılması ilə bölgədəki bütün nəqliyyat və iqtisadi əlaqələr blokdan xilas olacaq, həmçinin Azərbaycan rayonları arasında əlaqə qurmaq üçün məsafə qısalacaqdır. 2020-ci il 10 noyabr bəyanatının iqtisadi və nəqliyyat əlaqələrinin bərpasını nəzərdə tutan 9-cu maddəsinin icrasının həyata keçirilməsi Qarabağın inkişafı prosesində əsas və həlledici mərhələdir. Bu bəyanatın imzalanmasından heç 100 gün keçməmişdir ki, Azərbaycan Prezidenti Horadiz-Ağbənd dəmir yolu xəttinin artıq təməlini qoydu. Bu nəqliyyat dəhlizinin 30 illik fasilədən sonra təkcə region ölkələri üçün deyil, daha geniş coğrafiyada iqtisadi aktivliyə səbəb olacağı gözlənilir. Bundan əlavə, Naxçıvana birbaşa dəmir yolu xətti çəkilməsi muxtar respublika iqtisadiyyatının bütöv Azərbaycan iqtisadiyyatına inteqrasiyasını möhkəmləndirəcək.

İşğaldan azad olunmuş ərazilərdə iqtsadi quruculuq üçün vacib olan məsələlərdən biri də bölgənin potensial müqayisəli üstünlük sahələrinin müəyyənləşdirilməsidir. Həm ölkədaxili, həm də beynəlxalq üstünlüklərin müəyyənləşdirilməsi zamanı işğaldan azad olunmuş ərazilərin iqtisadi resursları,bundan başqa, işğala qədərki ənənəvi məşğulluq, repatriantların vərdiş və peşəkarlıq səviyyəsi nəzərə alınmalıdır. Həmçinin, nəqliyyat – logistika infrastrukturununda inkişaf etdirilməsi də mühüm əhəmiyyət daşıyır. Bir sözlə, yuxarıda qeyd etdiyimiz kimi geniş və çoxfunksiyalı nəqliyyat sistemi qurmaq ölkənin bölgədəki geosiyasi və iqtisadi mövqelərini gücləndirməsinə, ticarət əlaqələrini genişləndirməsinə imkan verəcək, həmçinin Qarabağ və Şərqi Zəngəzurun potensialını tam şəkildə açmağa şərait yaradacaqdır.

PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

Məmmədli L.E.
Sumqayıt Dövlət Universiteti
E-mail: mammadlilala60@gmail.com

Pul vəsaitlərinin hərəkəti haqqında hesabat" (statement of cash flows) - hesabat dövrü ərzində pul vəsaitlərinin və onların ekvivalentlərinin daxilolması və (və ya) xaricolmasını özündə əks etdirir. Bu hesabatın hazırlanmasında əsas məqsəd – istifadəçiləri hesabat dövrü ərzində müəssisənin pul vəsaitlərinin hərəkəti barədə məlumatla təmin etməkdir.Təhlilçilər üçün bu hesabatın əsas önəmi ondan ibarətdir ki, bu hesabat müəssisənin qısa və uzun müddətli borclarını ödəmə qabiliyyətinin nə yerdə olduğundan xəbər verir. Yəni, müəssisənin borclarını qarşılaya bilməsi üçün əlində kifayət qədər nağd vəsaiti varmı.

Maliyyə hesabatlarının hazırlanması mərhələləri aşağıdakılardır: əməliyyatın ilkin sənədləşdirilməsi; əməliyyat jurnalına qeyd olunması; baş kitabda qeydiyyatın aparılması; sınaq balansının (dövriyyə cədvəlinin hazırlanması); mənfəət və zərərlər haqqında hesabatın hazırlanması; kapitalda dəyişikliklər haqqında hesabatın hazırlanması; maliyyə vəziyyəti haqqında hesabatın hazırlanması (balans hesabatının hazırlanması); pul vəsaitlərinin hərəkəti haqqında hesabatın hazırlanması; maliyyə hesabatlarının izahlı qeydlərinin hazırlanması.

Göründüyü kimi pul vəsaitlərinin hərəkəti haqqında hesabat bu sadaladığımız mərhələlərdən sonra hazırlanır. Pul vəsaitləri onların hərəkəti haqqında məlumatlar uçot prosesinin son mərhələsində əsaslandırılır və ayrıca hesabatda əks etdirilir. Bu hesabatın aparılmasının əhəmiyyəti onunla izah edilir ki, onun köməyilə auditorlar, investorlar, banklar müəssisənin hansı mənbədən maliyyələşməsini aydınlaşdıra bilirlər. Bu

hesabatın məlumatları əsasında kommersiya müəssisənin özünün xüsusi vəsaitləri hesabına yaxud borc vəsaitləri hesabına maliyyələşdiyini aydınlaşdırmaq mümkün olur.

U.S. GAAP üzrə təsnifləşdirmə

Mədaxil	*Məxaric*
Əməliyyat fəaliyyətləri	
Müştərilərdən daxilolmalar	İşçilərə və satıcılara edilən ödənişlər
Faiz və dividendlərdən gəlirlər	Digər xərclər üzrə ödənilmiş vəsait
Qiymətli kağızların satışından gələn gəlirlər	Qiymətli kağızların alınması
	Faizxərcləri
	Vergi
İnvestisiya fəaliyyətləri	
Uzun müddətli aktivlərin satışından gələn gəlirlər	Uzun müddətli aktivlərin əldə edilməsi
Verilmiş kreditlərin ana məbləği üzrə ödənişlər	Kredit verilməsi
Maliyyə fəaliyyətləri	
Alınmış borc vəsait	Verilmiş borc vəsait
Səhmlərin emissiyasından gələn vəsait	Səhmlərin yenidən əldə edilməsi üçün ödənən vəsait
	Səhmdarlara verilmiş dividentlər

Pul vəsaitləri və onların ekvivalentlərinin uçotu Hesablar Planının 22-ci maddəsində əks etdirilir. Və bu maddə mühasibat uçotu subyektinin malik olduğu pul vəsaitləri və onların ekvivalentləri barədə məlumatları ümumiləşdirmək üçün nəzərdə tutulmuşdur.

1. 221 nömrəli – Kassa
2. 222 nömrəli – Yolda olan pul köçürmələri
3. 223 nömrəli Bank hesablaşma hesabları
4. 224 nömrəli- Tələblərə əsasən açılan digər bank hesabları
5. 225 nömrəli- Pul vəsaitlərinin

İndi isə bu hesabları ayrı-ayrılıqda aydınlıq gətirək. Kassa əməliyyatlarının sənədləşdirilməsi və uçotu mövcud pul vəsaitinin saxlanılması və onun köməyilə hesablanmasının hər bir müəssisədə, təşkilatda yaxud idarədə kassa yaradılır. Kassa əməliyyatları xəzinədar tərəfindən həyata keçirilir. Bunun üçün isə işə götürülərkən onunla tam fərdi məsuliyyət haqqında müqavilə bağlanılır. Kassa əməliyyatları zamanı pulun kassadan mədaxili və məxarici baş verir. Ümumiyyətlə bu haqda çox ətraflı danışmaq olar çünki, geniş mövzudu.222 nömrəli hesab isə mühasibat uçotu subyektinin bank hesablarında milli və xarici valyutada olan pul vəsaitlərinin mövcudluğu və hərəkəti haqqında ümumiləşdirilmiş məlumatlar əksini tapır.

224 nömrəli hesabda mühasibat uçotu subyektinin fəaliyyəti ilə bağlı hesabına daxil olan eyni zamanda müəyyən şərtlər daxilində əldə olunması mümkün olan milli və xarici valyutada pul vəsaitlərinin mövcudluğu və hərəkəti haqqında ümumi məlumatlar göstərilir.

Pul vəsaitlərinin ekvivalentləri hesabında qısa ödəniş müddətinə malik olan, pul vəsaitlərinin əvvəlcədən məlum olan məbləğinə asan çevrilə bilən və dəyərin dəyişməsi kimi çox az miqdarda riskə məruz qalan yüksək likvidli qoyuluşların mövcudluğu və hərəkəti haqqında ümumiləşdirilmiş məlumatları əks etdirir.Beynəlxalq standartlara görə pul vəsaitlərinin hərəkəti haqqında hesabat 3 sahə üzrə nağd pul qalığını özündə cəmləşdirir: əməliyyat fəaliyyəti üzrə cashflow; investiya fəaliyyəti; maliyyə fəaliyyəti

Azərbaycanda bank qanunvericiliyinə uyğun olaraq müəssisələrin banklarda cari hesablarda xarici valyuta ilə depozit saxlamaq hüququ vardır. İnflyasiyanın təzyiqi altında depozit pullarının artıb- azalması halları mümkündür. Bəzi müəssisələr uçot dərəcələrinin dəyişməsini nəzərə alaraq sərbəst pulları dollarla depozitdə saxlanmasına üstünlük verirlər.

MÜASİR ŞƏRAİTDƏ AZƏRBAYCAN ŞİRKƏTLƏRİNİN BİZNES PROSESLƏRİNİN SƏMƏRƏLİ İDARƏ OLUNMASI SİSTEMLƏRİ

Məmmədli S.C.
Odlar Yurdu Universiteti
E-mail: saidamammadlism@gmail.com

Biznes prosesləri dedikdə, müəyyən bir təşkilati məqsəd üçün birləşmiş fəaliyyətlər və ya tapşırıqlar toplusu nəzərdə tutulur. Biznes prosesləri iki kateqoriyaya bölünə bilər: əməliyyat və dəstək prosesləri. Əməliyyat prosesləri birbaşa xidmət və ya məhsul istehsal edən proseslərdir, dəstək prosesləri dedikdə isə

mühasibatlıq, insan resursları və marketinq kimi köməkçi xidmətləri təmin edən proseslər nəzərdə tutulur. Biznes prosesləri adətən ayrı - ayrı addımları və onların yerinə yetirilmə qaydasını əks etdirən proses axını diaqramında baş verir. Sahibkarlıq və biznes fəaliyyəti anlayışları hər nə qədər bir biri ilə sıx əlaqədə olsa da, həmçinin bəzi xüsusiyyətlərinə görə bir-birindən kəskin fərqlənirlər. Müasir dövrdə şirkətlərin biznes proseslərinin idarə olunması sistemlərinin tətbiqi iş prosesini sürətləndirilməsi və əməliyyatların daha etibarlı və effektiv şəkildə qurulmasıdır. Biznes proseslərinin bir qismi kompaniyanın əməliyyatı, resurslarının optimal istifadə edilməsi, məlumatları və sənədləri daha effektiv şəkildə qorumaq üçün tələblər üzrə edilən prosesləri idarə etmək üçündür. İqtisadiyyatın bütün sahələrində və təkrar istehsalın bütün fazalarında biznes fəaliyyəti həyata keçirilir.Azərbaycan şirkətlərində müasir konsepsiyalar dedikdə, biznes proseslərinin idarə edilməsi üçün müxtəlif nümunələr göstərilə bilər. Bu biznes proseslərinə misal olaraq, proseslərin sadələşdirilməsi, əməkdaşlıq, məlumata əsaslanan qərarların qəbulu, innovasiya, strateji planlaşdırma və s. nümunələr göstərmək olar.Şirkətdaxilində müxtəlif departamentlər, direktorluqlar, şöbələr, rəhbərlər və digər şəxslər arasında əməkdaşlıq və ya daxili kommunikasiya biznesdə uğur qazanmaq üçün vacibdir. Şirkətlər daxildə əməkdaşlığın inkişafı üçün ünsiyyətə daha asan keçməyi təmin edən platformalara investisiya olunmalıdır.

Yeni texnologiyaların mənimsənilməsi idarəetmə strukturunun təkmilləşdirilməsində böyük dəstək göstərir. Biznes proseslərində ən yaxşı nəticələri əldə etmək üçün aşağıda göstərilən çox məşhur və müasir texnologiyalardan istifadə edilir. 1. ERP (Enterprise Resource Planning) - Müəssisə Resurslarının Planlaşdırılması; 2. CRM (Customer Relationship Management), BI (Business Intelligence) - Müştəri Münasibətlərinin İdarə edilməsi; 3. BPM (Business Process Management) – Biznes Proseslərinin idarə edilməsi

Ən geniş yayılmış sistemlərdən biri olan ERP - müəssisə resurslarının planlaşdırılması sistemidir. Mövcud şirkətlərdə istehsal, çatdırılma, satışa və alışa qədər olan bütün fəaliyyətləri idarə etmək üçün istifadə olunur. ERP sistemi dedikdə həmçinin şirkət strukturunun proseslərinin idarəsi üçün fərdi sistemlərlə əvəz edilməsində tətbiq olunur.CRM sistemi müştərilərin əməkdaşlıqlarını idarə etmək üçün və hər hansı bir müştəri ilə münasibətləri dəstəkləmək üçün istifadə olunur. BPMS sistemi isə səmərəlilik, biznes prosesləri tənzimləmək, xərcləri azaltmaqda potensialına görə Azərbaycanda getdikcə daha çox, populyarlaşır. BPMS müxtəlif sektorlarda, həmçinin maliyyə, səhiyyə istehsalatda və hökumətdə tətbiq edilir. Bu sistemlər, şirkətlərin idarə olunmasının fəaliyyətinin artmasına, vaxt qənaətliliyinə, məlumatların yaddaşda qalmasına və ya hər hansı məlumatın itirilməməsinə və müştəri məmnuniyyəti ilə bağlı məsuliyyətinin artırılmasına kömək edə bilər. Məsələn, son dövrlərdə Deloitte Azərbaycan tərəfindən təşkil olunmuş sorğu nəticəsində məlum oldu ki, şirkətlərin 80%-dən çoxu biznes proseslərinin idarəçiliyi zamanı bu sistemlərdən istifadə olunur.

Hazırda Azərbaycanda neft qaz sektoru, qeyri neft sektoru, turizm, tikinti, ticarət, ictimai iaşə, nəqliyyat, pərakəndəçilik şirkətləri, telekommunikasiya, informasiya və kommunikasiya texnologiyaları sektorları üzrə bir çox şirkətlərin uğuru danılmazdır. Həmçinin, Azərbaycanda bir çox şirkətlər qrupunun da inkişafı davam edir. Bu şirkətlər qrupuna misal olaraq, Paşa Holdinq, Azərsun Holdinq, Veysəloğlu Şirkətlər Qrupu, Azinko Holdinq, Gilan Holdinq, Gəmiqaya Holdinq və daha bir çox şirkətlər qrupununun adını çəkə bilərik.

Həmçinin Azərbaycanda kiçik və orta sahibkarlıq subyektlərinə və öz biznesini qurmaq istəyənlərə KOBİA (kiçik və orta biznesin inkişafı agentliyi) tərəfindən dəstək və xidmətlər göstərilir. Öz biznesini qurmaq və biznesi olan sahibkarlar öz biznesini genişləndirmək üçün KOBİA - ya müraciət edə bilər. KOBİA-nın tərkibində KOB inkişaf mərkəzləri olaraq, strukturlar bölmələri mövcuddur hansı ki, müxtəlif təlimçi-ekspertlər tərəfindən biznesyönümlü ödənişsiz təlimlər keçirilir.

İDARƏETMƏ SİSTEMİNDƏ PROQNOZLAŞDIRMANIN ƏSASLANDIRILMASI

Məmmədov Y.P.
Azərbaycan Dövlət Aqrar Universiteti
E-mail:y.memmedov321@gmail.com

Müasir idarəetmə sistemində uğurlu iqtisadi inkişafın təminatlarından biri kimi proqnozlaşdırmaya xüsusi diqqət yetirir. Sosial-iqtisadi inkişafla bağlı proqnozların hazırlanmasının iki əsas məqsədi var: iqtisadiyyatın gələcəkdə mümkün vəziyyətlərinin və onun alternativ inkişaf yollarının müəyyən edilməsi; sosial-iqtisadi inkişafın planlaşdırılmış göstəricilərinin korrektə edilməsi. İdarəetmə sistemində sosial-iqtisadi inkişafın proqnozlaşdırılması üçün nəzərdə tutulan göstəricilərə və sahələrə daxildir: demoqrafik vəziyyət, ümumi məhsul istehsalı, aqrar sahə, nəqliyyat və rabitə, tikinti, mal və xidmətlər bazarı, xarici iqtisadi

fəaliyyət, kiçik və orta biznes, investisiyalar, maliyyə, əhalinin həyat səviyyəsi, əmək və məşğulluq, sosial sahənin inkişafı, ətraf mühitin mühafizəsi və turizm.

Sosial-iqtisadi proqnozlaşdırma obyektlərinin tam və birmənalı təsnifatını aparmaq kifayət qədər çətindir. Qeyd edilən təsnifat yalnız təhlil və proqnozlaşdırma üsullarının seçilməsi üçün nəzərdə tutulmuşdur. Təsnifat əlamətləri kimi adətən aşağıdakılardan istifadə olunur: proqnozlaşdırma obyektinin xarakteri, miqyası, mürəkkəbliyi, zamanla inkişaf xarakteri, informasiya təminatı dərəcəsi. Eyni zamanda, proqnozlaşdırma iqtisadi inkişafın strateji planlaşdırılması üçün əsas hesab olunur, buna görə də proqnozlaşdırma strateji planlaşdırmanın aşağıdakı məqsədləri əsasında formalaşır:müəyyən vaxt intervalında aydın istiqamət; konkretlik və ölçülə bilənlik; digər missiya və resurslarla ardıcıllıq və uyğunluq; hədəf və nəzarət. Uzunmüddətli rəqabət üstünlükləri təmin edən ən mühüm məqsədlər aşağıdakılardır: iqtisadi qeyri-sabitlik şəraitində daxili çevikliyə və sabitliyə nail olmaq; innovativ potensialın yaradılması və inkişafı; regionun ehtiyatlarından və onun istehsal imkanlarından istifadənin səmərəliliyinin artırılması; iqtisadiyyatın həm cari, həm də uzunmüddətli maraqlarının reallaşdırılması istiqamətində, habelə idarəetmənin maraqlarını birləşdirən səmərəli motivasiya mexanizmlərinin formalaşdırılması.

Göstərilənlər əsasında idarəetmə sistemndə proqnozlaşdırma modelləri hazırlanır. Modellərin qurulması iqtisadi hadisələrin inkişaf qanunauyğunluqlarının təhlilinə əsaslanır. Modelin adekvatlığını qurduqdan və qiymətləndirdikdən sonra, hadisəni proqnoz dövrünə ekstrapolyasiya etmək üçün istifadə olunur. Proqnozun işlənib hazırlanmasından əvvəl planlaşdırmadan əvvəlki dövr üçün sosial-iqtisadi inkişafın təhlili aparılır, onun nəticələri əlaqələri və inkişafın qanunauyğunluqlarını kəmiyyətcə xarakterizə edən ekonometrik modelləri qurmaq üçün istifadə olunur. Statistik modelləşdirmə və proqnozlaşdırmanın nəticələri iqtisadi inkişaf üçün variantların tərtibi üçün əsas kimi nəzərdə tutulur.Başqa sözlə, proqnozlaşdırmada mövcud olan və inkişaf edən sistemli yanaşma artıq ənənəvi yanaşmaya əsaslana bilməz. Müasir sistem yanaşması aşağıdakı kimi ifadə edilə bilən prosedur çərçivəsini nəzərdə tutur: sistemin fərdiliyi, ətraf mühitin daxili vəhdəti ilə müəyyən edilən bütövlüyü; elementlərin iyerarxiyası və davamlılığı, çoxkomponentli, çoxqatlı və mürəkkəbliyi; dinamizm, mütəşəkkillik və zaman baxımından dəyişkənlik, qeyri-stasionarlıq, həyat dövrünün başlanğıc və sonunun mövcudluğu, dəyişkənlik; sistemin və ətraf mühitin qarşılıqlı asılılığı: sistem təsirin aparıcı aktiv komponenti olmaqla, ətraf mühitlə qarşılıqlı əlaqə prosesində öz xassələrini formalaşdırır və təzahür etdirir; hər bir elementin bütövlükdə yeri və funksiyasından spesifikliyi və ya asılılığı; davamlılıq: balans, çeviklik, sinerji, korporatizm və harmoniya. Beləliklə, qeyd edilənlər göstərir ki, bütün dinamik idarəetmə sistemləri informasiya, maddi və texnoloji proseslərin emalı, ötürülməsi, saxlanması və idarə edilməsi funksiyalarının həyata keçirilməsi ilə xarakterizə olunur və proqnozlara əsaslanır.

MÜASİR DÖVRDƏ AZƏRBAYCANDA SIĞORTA BAZARININ İNKİŞAFI

Məmmədova N.R.
Azərbaycan Memarlıq və İnşaat Universiteti
E-mail: Nurane.mva.2000@mail.ru

Bütövlükdə sığorta sektoruhəm maliyyə dayanıqlığının həm də iqtisadi təhlükəsizliklərin təmin edilməsi yollarından biridir.Sığorta sosial müdafiə zəncirinin vacib halqasını təşkil edir vəbelə desək ehtiyatlılıq tədbiridir. Keçmiş dövrlərdən etibarən sığorta mexanizmləri bu və ya digər formada istənilənölkədə tətbiq edilməkdədir. Gözlənilmədən bir hadisə baş verdiyi haldaən əsası da bu hadisənin nəticəsi müsbət olmadığı halda dəyən zərərin minimallaşdırılması sığortanın ən başlıca mahiyyətini təşkil edir. Respublikamızda sığorta sektoru günü-gündən inkişaf etməkdədir. Real formada 2018-2019-cu illərin inkişaf dinamikasını rəqəmlər ilə şərh etsək deyə bilərik ki, Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətlərinin 2019-cu ilin yanvar-oktyabr aylarına olan icmal göstəricilərinə görə, 2018-ci ilin analoji dövrü ilə müqayisədə könüllü sığororta bazarı 12%, icbari sığorta bazarı isə 5.3% artmışdır. Yığımlardakı dinamikaya nəzər yetirsək, 2020-ci ilin yanvar-oktyabr aylar arasında sığorta yığımları 628.3 miyon manat olub ki, bu da 2018-ci ilin eyni dövrü ilə müqayisədə 57.8 milyon manat və ya 10.1% çoxdur.Həmin ərəfədə COVID-19 pandemiyasına baxmayaraq baş verə biləcək mənfi vəziyyətlərə qarşıqabaqcadan atılmışuzaqgörən addımlar nəticəsində milli sığorta bazarı dünyəvi pandemiyadan neqativ cəhətdənbir qədər təsirlənsə də böyükmiqyaslı zərərlərdən yan keçə bildi.Respublikamızda sığorta bazarının inkişaf etdirilməsi üçün onun iqtisadi və sosial əhəmiyyəti barədəəhalini geniş formada məlumatlandırmaq lazımdır.Həmçinin fəaliyyət göstərənşirkətlərə etibarın artırılması məqsədi ilə sığorta edənlər (sığortaçılar) qarşısında öhdəliklərin yerinə yetirilməsini təmin etmək

lazımdır. Aşağıda əks olunan cədvəldə 2021-2022-ci illər ərzində fəaliyyət göstərən bəzi sığorta şirkətlərinin siyahısı, onların sığorta haqqları vəödənişlərinin statistik məlumatları qeyd olunub.

Cədvəl 1. Respublikada bəzi sığorta şirkətlərinin 2021-2022-ci illər üzrə sığorta haqqları və ödənişlərinin daxil olmaları (min manatla)

№	Fəaliyyət göstərən sığorta şirkətlərininadı	2021-ci ilfevral		2022-ci ilfevral	
		Sığorta haqqı	Sığorta ödənişi	Sığorta haqqı	Sığorta ödənişi
1	“A-Qroup Sığorta Şirkəti" Açıq Səhmdar Cəmiyyəti	2,156	1,594	2,465	1,577
2	"AtaSığorta" Açıq Səhmdar Cəmiyyəti	2,492	1,199	1,307	1,227
3	"Atəşgah" Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti	5,068	1,677	4,792	1,792
4	"Azərbaycan Sənaye Sığorta" Açıq Səhmdar Cəmiyyəti	3,003	471	3,266	631
5	"Bakı Sığorta" Açıq Səhmdar Cəmiyyəti	363	77	780	379
6	"Naxçıvan Sığorta" Açıq Səhmdar Cəmiyyəti	294	31	337	66
7	"Paşa Sığorta" Açıq Səhmdar Cəmiyyəti	65,814	13,047	72,559	11,600
8	"Xalq Sığorta" Açıq Səhmdar Cəmiyyəti	4,901	3,155	5,956	3,900
9	"İpək Yolu Sığorta" ASC	6,175	105	5,166	8

Təqdim olunan cədvəldən bir sıra nəticələrə gəlmək olar:“A-Qroup Sığorta Şirkəti" Açıq Səhmdar Cəmiyyəti - 2022-ci ildə bu şirkətin sığorta haqqları 2,465 min manat, sığorta ödənişləri 1,577 min manat təşkil etmişdir. 2021-ci il ilə müqayisədə sığorta haqqlarında 0,309 min manat,yaxud 14.33% artım müşayiət edildiyi halda, sığorta ödənişlərində bir qədər azalma müşayiət edilir. Yaxud "Atəşgah" Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyətinə nəzər yetirsək-2022-ci ildə bu şirkətin sığorta haqqları 4,792 min manat, sığorta ödənişləri 1,792 min manat təşkil etmişdir. 2021-ci il ilə müqayisədə sığorta haqqlarında 0,276 min manat, və ya 5.5 % azalma müşayiət edildiyi halda, sığorta ödənişlərində artma müşayiət edilir.

İllər	Sığorta haqqları	Sığorta ödənişləri
2018	727954,1	240333,5
2019	681176,8	301536,7
2020	728634,1	465153,1
2021	843897,3	458726,3
2022	970822,8	433202,5



Siniflər üzrə 2018-2022-ci illərdə hesablanmış sığorta haqqları və ödənişlərinə baxsaq,5 il ərzində sığorta ödənişlərinin ən aşağı səviyyəsinin 2018-ci ildə, ən yüksək səviyyəsinin isə 2020-ci ildə olduğunu müşayiət edirik. Həmçinin sığorta haqqlarının ən maximum səviyyəsinin 2022-ci ildə , aşağı səviyyəsinin isə 2019-cu ildə olduğunu görürük.Hazırda sığortanın qarşısındada dayanan çoxsaylı bir sıra vacib vəzifələr mövcuddur. İlk əvvəl onu qeyd edə bilərik ki, sığortanın inkişafı bir sıra amillərə bağlıdır - ölkəmizdə mövcud olan ümumi sosial və iqtisadi şərait, müştərilərinin ödəniş qabiliyyətliliyi, qanunvericiliklərin cari durumu, dövlət tərəfindən tənzimlənmələrinin kəsərliliyi və s.Bu sahəyə dövlət tərəfindən ayrılan önəm məsələlərin ciddi

olmağından xəbər verir. Bununla bağlı ölkə Prezidentinin çıxışlarında sığortanın ortamüddətli perspektivdə inkişafına dair tapşırıq və tövsiyyələri hər zaman böyük əhəmiyyət kəsb edir.

COVİD-19 PANDEMİYASININ TƏHSİL XİDMƏTİNİN TƏŞKİLİNƏ TƏSİRİ PROBLEMLƏRİ

Mürsəlov Q.V.
OdlarYurdu Universiteti
E-mail: qismet598@gmail.com

COVİD-19 pandemiyası dünya miqyasında insan kapitalı tutumlu iqtisadi fəaliyyət istiqamətlərinin ön plana çıxması trendlərini daha da möhkəmləndirərək, rəqəməllaşmanın təhsildəki rolunu xeyli dərəcədə artırmış oldu. Bununla belə, yeni texnoloji quruluşa investisiya yatırılması prosesində geriləyən ölkələr pandemiya şəraitində öz texnoloji geriliyini bir qədər də dərinləşdirdi, vaxtında investisiya-innovasiya siyasətini effektiv və adekvat şəkildə həyata keçirməyi bacaran ölkələr isə daha da dayanıqlı rəqabət üstünlükləri əldə etmiş oldu.

COVİD-19 pandemiyasının sərt karantin rejiminin yumşalmasına baxmayaraq, hələ uzun müddət ərzində dünyanın təhsil sistemi bu pandemiya dövründə məruz qaldığı transformasiyaların nəticə və fəsadlarını böyük ehtimalla hiss etməkdə olacaq və bu təhsilin inkişaf trendlərində özünü göstərəcək.

COVID-19 bizə təhsili nə vaxt, harada və necə verdiyimiz, kollec və universitetlərin rolu, ömür boyu öyrənməyin əhəmiyyəti və ənənəvi və qeyri-ənənəvi şagirdlər arasında fərq qoymağımız barədə köklü fikirlərə meydan oxumağımızı tələb edir. Pandemiya, insanlara həyatımızı davam etdirmək üçün aşağı ixtisaslı işçilərdən nə qədər asılı olduğumuzu da başa saldı. Qapanmalar, komendant saatı zamanı çatdırılma təmin etmək və təməl ehtiyaclarımızı ödəmək üçün çox növbədə işləyərək ön cəbhədə olan bu işçilərdir. Vaxt keçdikcə avtomatlaşdırma bu işləri istehlak etməyə davam edəcəkdir. Hər zaman aşağı ixtisaslı işçilər tərəfindən göstərilən xidmətlər mövcud olsa da, yeni iş yerlərinin çoxu daha yüksək bacarıq səviyyəsi tələb edəcəkdir. Sürətlə dəyişən bu dünyada yenidən hazırlıq keçmək və bacarıqları inkişaf etdirmək imkanı yalnız zərurət deyil, həm də iqtisadi şərtdir. COVID-19, təhsil sistemimizi bir ildırım kimi vurdu və kökündən sarsıtdı.

İlk Sənaye İnqilabı bugünkü təhsil sistemini qurduğu kimi, COVID-19-dan da fərqli bir təhsil modelinin ortaya çıxacağını gözləyə bilərik. Bu məqaləni yalnız məni həqiqətən narahat edən bir düşüncə ilə bitirmək istəyirəm və ümid edirəm ki, bu vəziyyət tamamilə dəyişəcək. Və kaş ki, bu daha tez baş versin. Bu çətin vaxtlarda çox çalışan və şagirdlərin öyrənmələrini davam etdirmələri üçün əllərindən gələni əsirgəməyən müəllimlərin rolunu onlayn dərslərdə iştirak edən valideynlər və uşaqların qiymətləndirmələrini istəyirəm. Valideynlər üçün çətin və ya uşaqlar üçün qarışıq olsa da, vəziyyət müəllimlərimiz üçün eyni dərəcədə çətin və əlverişsizdir. Dünyanın əksər kollec və universitetləri bir sıra onlayn təhsili öz kurslarına inteqrasiya etsə də, bütün proqramlarını onlayn gətirmək çətin ola bilər. Bəzi universitetlər onsuz da güclü onlayn sistemlərə sahib olsa da, kiçik universitetlər tələb səbəbiylə çətinlik çəkə bilər. Universitet kursu yaradıcıları, proqramlarının onlayn dəstəklənməsini təmin etmək üçün İT şöbələri ilə sıx əməkdaşlıq etməlidirlər. Tədqiqatlar onlayn öyrənmənin məlumat tutma səviyyəsini artırdığını və daha az vaxt aldığını göstərir, beləki, COVID-19-un səbəb olduğu dəyişikliklərin qalması davamlı ola bilər. COVID-19 bitdikdən sonra yeni bir modelin ortaya çıxacağını gözləyə bilərik. Pandemiya ilə əlaqədar olaraq bütün dünyada təlim və tədris prosesi onlayn sistemə keçmişdir. Ənənəvi təhsil formasından fərqli olaraq ―uzaqdan təhsil‖, ―elektron təhsil‖ və ya ―onlayn təhsil‖ kimi adlandırılan məsafədən təhsildə təlim zamanı müəllimlər və şagirdlərin fiziki cəhətdən ayrılmasını və tələbə-müəllim və tələbə-tələbə ünsiyyətini asanlaşdırmaq üçün müxtəlif texnologiyalardan istifadəni əhatə edən ünsiyyət təşkil edir (https://www.britannica.com/topic/distance-learning). Bu gün isə dünyanın ən məşhur təhsil müəssisələrində artıq onlayn tədris ənənəvi dərsləri üstələyib, desək, yanılmarıq. Türkiyədə distant təhsili elmi cəhətdən araşdıranlardan biri olan Aytəkin İşman vurğulamışdır ki, ―İnformasiya əsri adlandırdığımız 21-ci əsrdə ünsiyyət cəmiyyətin bütün səviyyələrində yaşayan fərdlər üçün qaçınılmaz bir ehtiyac halına gəldi. Uzaqdan təhsil təcrübələrinin inkişaf etdirildiyi qlobal rabitə şəbəkəsi konsepsiyası (cəmiyyətlər üçün beş-on il əvvəl utopiya sayılırdı) qaçılmaz bir fenomen halına gəldi . Öz araşdırmasında o, məhz distant təhsili nəzərdə tutaraq, onu gələcəyə yönəlik təhsil modeli adlandırmışdır. Bu təhsil forması ilk dəfə 1800-cü ildə ABŞ-da reallaşdırılmağa başlamışdır. Əsasən qeyriənənəvi tələbələr üçün, məsələn, bütöv ştat işləyənlər, hərbçilər və ya dərslərdə iştirak etmək iqtidarı olmayan uşaqlar üçün nəzərdə tutulurdu. Tarix boyu distant təhsil müxtəlif metodlardan istifadə etməklə bir neçə mərhələdən keçmişdir. Hal-hazırda isə bu mərhələnin sonu olaraq internetin geniş vüsət alması ilə tədris prosesi tamamilə onlayn sistemə

keçməkdədir. Distant təhsilin əsas prinsipləri birdən çox media vasitələrindən (çap və ya elektron) istifadə, müəllimlə şagirdin ayrı məkanlarda olması, bənzərsizlik, davamlılıq, öz-özünə öyrənmə və sairədir. Araşdırıclar hesab edirlər ki, ənənəvi təhsildən fərqli olaraq, distant təhsildə 5 qat daha artıq öyrənmə mümkündür. Bu zaman mövzunun yadda saxlanması 25-30% çoxdur. Distant təhsildə zaman, enerji, maddi vəsait və digər xərclərə daha çox qənaət etmək olur. Distant təhsildə öyrədənlə öyrənən arasında kifayət qədər yüksək səviyyədə individual əlaqə qurmaq mümkündür. Yəni dərs müddətindən əlavə istənilən saatlarda da öyrədənlə öyrənənlər kontakt yarada, bilik və bacarıqlarını ötürə bilirlər. Onlayn tədrisin digər müsbət tərəflərindən biri isə gələcək işəgötürənlər onlayn məzunun vaxt idarə etmə bacarıqlarına - tam işdə işləmək və onu distant təhsil ilə tarazlaşdırmaq baxımından hörmət edəcəklər. Bir çox perspektivli işəgötürənlər bunu müsbət və həm təhsil, həm də karyera üçün daha yaxşı bir yol kimi qəbul edə bilərlər (https://owlcation.com/academia/distance-educationcolleges_online-undergraduate-degree_pros-and-cons).
Eyni zamanda, tələbələr ənənəvi tədrisdə kollokvium, fərdi işləri çap variantında təqdim edirlər. Bunun üçün də vəsait tələb olunur. Hazırda isə distant təhsildə bunlar elektron formada həyata keçirilir. Digər müsbət amil distant təhsildə müəllimlə tələbə arasında kifayət qədər individual olaraq əlaqə qurmaq şansının olmasıdır. Ənənəvi təhsildə tələbə sualını hansısa müəllimə ünvanlamaq, məsləhətləşmək üçün onunla canlı ünsiyyət qurmaq üçün məkan və zaman seçməlidir, bu da zaman itkisinə səbə olur. Lakin onlayn təhsildə tələbənin müəllimə sualını ünvanlamaq üçün elektron olaraq məktub yazmağı kifayət edir. Bir sözlə, distant təhsildə öyrədənlə öyrənən arasında kifayət qədər yüksək səviyyədə individual əlaqə qurmaq mümkündür.

AVİASƏRNİŞİNLƏRİN SAYININ ZAMAN SIRA ÜSULLARI İLƏ PROQNOZLAŞDIRILMASI

Mürsəlov R.N.
Odlar Yurdu Universiteti
E-mail:raufnm@code.edu.az

Ölkədə bazar iqtisadiyyatı mülkiyyətin müxtəlif formalarının təşəkkül tapması, dövlət mülkiyyətində olan müəssisələrin özəlləşdirilməsi, iqtisadiyyatın inkişaf etdirilməsi, onun ixrac potensialının artırılması sahəsində müvafiq normativ-hüquqi bazanın yaradılması, biznesin təşkili və idarə edilməsi mexanizminin, onun bütün həlqələrinin, o cümlədən uçot və hesabatın yenidən qurulması və beynəlxalq standartlara uyğunlaşdırılması ilə xarakterizə olunur. Həmin işlərin başlıca məqsədi – müəssisələrin malik olduğu mövcud istehsal potensialından səmərəli istifadə etmək, məhsul və xidmət vahidinə düşən maddi, əmək və maliyyə ehtiyatlarının həcmini azaltmaq əsasında gəlirlərin artımına nail olmaq, bütövlükdə iqtisadiyyatın səmərəliliyini yüksəltməkdir. Bu vəzifələrin həyata keçirilməsində gəlirlərin və xərclərin uçotu mühüm rol oynayır. Uçotu lazımi səviyyədə təşkil etmədən və aparmadan xərclər üzərində nəzarəti həyata keçirmək, müxtəlif itkiləri azaltmaq, qeyri-məhsuldar xərclərin səviyyəsini mümkün qədər aşağı salmaq, onları tamamilə aradan qaldırmaq mümkün deyildir. Gəlirlərin artırılmasının, maliyyə nəticələrinin yaxşılaşdırılmasının ən başlıca və etibarlı yolu xərclərin məhsul, iş və xidmət vahidinə kəmiyyətini azaltmaqdır. Gəlirlərin və xərclərin uçotunun səmərəli təşkili xeyli dərəcədə onların mahiyyəti və məzmununun düzgün açıqlanmasından, obyektiv tanınma kriteriyalarının müəyyən edilməsindən, həmçinin gəlir və xərclərin elmi-praktiki cəhətdən əsaslandırılmasından, təsnifatından və qiymətləndirilməsindən, uçotda əks etdirilməsi metodikasının mükəmməlliyindən asılıdır. Qarşıda duran başlıca problemlərdən biri də gəlirlərin və xərclərin uçotunun təkmilləşdirilməsi, onun qabaqcıl beynəlxalq praktikaya uyğunlaşdırılmasıdır. Gəlirlərin və xərclərin uçotunun beynəlxalq praktikaya və standartlara uyğunlaşdırmadan müəssiənin fəaliyyətinin maliyə nəticələrinin mövcud səviyyəsini, onların dəyişilməsi meyllərini düzgün və obyektiv qiymətləndirmək, təhlil etmək qeyri-mümkündür.

«Nəqliyyat təşkilatlarında gəlirlərin və xərclərin uçotu metodikası, onun təkmilləşdirilməsi» mövzusunda aparılmış tədqiqat aşağıdakı nəticələrə gəlməyə və təklifləri irəli sürməyə imkan verir:

1. Fəaliyyət göstərən bütün kommersiya təşkilatlarının, o cümlədən də nəqliyyat təşkilatlarının başlıca məqsədi mövcud maddi, qeyri-maddi, əmək və maliyyə resurslarından səmərəli istifadə etmək, məhsul, iş və xidmət vahidinə xərcləri azaltmaq yolu ilə gəlirləri və mənfəəti artırmaqdan ibarətdir. Həmin əsas məqsədin həyata keçiriməsində gəlirlərin və xərclərin uçotu və hesabatının səmərəli, müasir biznesin tələblərinə və qabaqcıl beynəlxalq praktikaya uyğun təkili mühüm əhəmiyyətə malikdir. Səmərəli və etibarlı əkildə təşkil edilmiş uçot sistemi həm xərclərin, maya dəyərinin və gəlirlərin, həm də kommersiya təşkilatının fəaliyyətinin nəticələrini təhlil etmək və qiymətləndirmək üçün lazımi informasiya formalaşdırır.

2. İdarəetmə və maliyyə qərarlarının obyektiv və düzgün qəbul edilməsində xərclərin və gəlirlərin uçotu metodikasının dürüst qurulmasının böyük rolu vardır. Öz növbəsində uçotun metodikasının dürüst və səmərəli qurulması üçün bütün uçot obyektləri və elementlərinin, o cümlədən gəlirlərin və xərclərin iqtisadi mahiyyətini və məzmununu düzgün açıqamaq, onların elmi-praktiki tələblərə cavab verən tanınma kriteriyalarını müəyyən etmək, metodoloji prinsiplərini əsaslandırmaq, təsnifatını araşdırmaq və qiymətləndirmək lazımdır. Aparılan araşdırmalar deməyə əsas verir ki, həmin məsələlər müasir dövrdə öz həllini tam tapmamışdır, digər sahələrdə olduğu kimi, gəlirlərin və xərclərin uçotu metodikasında müəyyən çatışmazlıqlar qalmaqda davam edir.

3. Tədqiqat göstərir ki, istər ümumnəzəri xarakterli ədəbiyyatlarda, istərsə də uçot və hesabata dair ədəbiyyatlarda xərclərin və gəlirlərin mahiyyətinin açıqlanmasında, təsnifatının aparılmasında, onların uçotu və hesabatının hansı metodoloji prinsiplər əsasında qurula biləcəyi haqda yekdil fikir yoxdur. Bir çox mənbələrdə gəlirlər müəssisənin müəyyən dövr ərzində fəaliyyətinin nəticəsində 81 əldə olunan pul vəsaitlərinin məcmusu kimi, digər mənbələrdə isə fəaliyyətin nəticələrinin ümumi yekunu kimi qəbul edirlər. Eynilə xərclərin mahiyyəti də müxtəlif cür izah olunur.

EMAL SƏNAYESİ SAHƏLƏRİNİN DAYANIQLI İNKİŞAFI VƏ ONA TƏSİR EDƏN AMİLLƏR

Musayev İ.K.
Azərbaycan Memarlıq və İnşaat Universiteti
E-mail: Musayev.ilham2019@mail.ru

Emal sənayesinin hazırki vəziyyətinin təhlilini aparmış və onun dayanıqlı inkişafına təsir edən amilləri qeyd etmişəm. Ölkənin milli iqtisadiyyatının ən vacib aparıcı sahəsi, onun iqtisadi inkişafında, iqtisadi təhlükəsizliyin həyata keçirilməsində, həmçinin onun strateji məqsədlərinin təmin olunmasında xüsusi əhəmiyyətə malik olan və sənayenin əsas sahələrindən birini təşkil edən emal sənayesinin təkmilləşdirilməsi gələcək inkişaf baxımından çox vacib məsələlərdən biridir. Bütün bunlar müasir dövrdə, emal sənayesi müəssisələrində, innovasiya prosesinin və onun mükəmməlləşdirilməsinin təşkili və tənzimlənməsinə mane olan amillərin idarə edilməsini, o cümlədən onların dövlətin davamlı və dayanıqlı iqtisadi inkişaf strategiyasına uyğun olaraq yenidən idarə edilməsini zəruri edir.Respublikamızın emal sənayesinin dayanıqlı inkişaf etdirilməsinin qarşıya qoyulmuş ən mühüm məqsədi ölkədə beynalxalq standartlara cavab verən rəqabətə davam gətirən və ixrac yönümlü, elm ağırlıqlı və yüksək texnologiyalı emal sənayesi məhsullarının istehsalına çatmaqla ölkənin neft amilindən asıllı olmamasını təmin etməkdir. Bunun isə reallaşması qeyd olunduğu kimi emal sənayesi sahələrində yenilik qaynaqlarının və yatırım ehtiyatlarının təyin edilməsi və onların yüksəldilməsi, ölkənin təbii sərvətlərinin və əmək ehtiyatlarının hazır vəziyyətə gətirilməsi və dövlət tərəfindən tənzimlənmə sistemlərinin mükəmməlləşdirmək əsasında mümkün ola bilər.

Emal sənayesinin dayanıqlı iqtisadi inkişaf etdirilməsinin əsas qarşıya qoyulan məqsədlərindən biri də sənayenin rəqabət qabiliyyətinin artırılmasını əks etdirən bir çox tədbirlərin həyata keçirilməsini təmin etməkdir. Bu tədbirlərin həyata keçirilməsi məqsədilə sahəvi araşdırmalar aparmaqla müxtəlif sektorların xüsusiyyətlərinə uyğun əlavə tədbirlərlə dəstək olunmalıdır. Emal sənayesinin dayanıqlı iqtisadi inkişafının yüksəldilməsi məqsədi ilə enerji qiymətlərinin tənzimlənməsində aktivlik yüksəldilərək gömrük rejimi, əlverişli vergi və çevik məzənnə siyasəti ilə qorunmalıdır.Müasir keçiddə emal sənayesinin dayanıqlı inkişafının daha sürətləndirilməsi onun rəqabət qabiliyyətinin artırılmasından asılıdır. Buna görə də emal sənayesinin rəqabət qabiliyyətinin artırılması dövlətin iqtisadi strategiyasının, o cümlədən sənaye siyasətinin mərkəzi xəttini əhatə etməlidir. Dövlət ölkədə iqtisadi yüksəlişi sürətləndirmək və istehsalın yüksək artım ahənginə nail olmaq üçün məqsədyönlü bir şəkildə stimullaşdırıcı tədbirlərdən istifadə edir. Sənaye siyasəti də tədbirlərdən biridir. Sənaye siyasəti düşünüldükdə dövlətin iqtisadiyyatı dəyişdirilib tənzimlənə bilən yolu olub, məqsədi ölkədə iqtisadi yüksəlişi və əhalinin firavanlıq, bolluq və rahatlıq səviyyəsinin yüksəldilməsini təmin etməyi əks etdirən kompleks tədbirlər başa düşülür.Respublikamızın iqtisadiyyatının aparıcı sektorlarından biri olan emal sektoru sahələri öz sırasında ölkəmizin təsərrüfat sektorlarının da əsas aparıcı bölmələrindən biridir. Emal sənaye sahələri çoxlu miqdarda müxtəlif çeşidli məhsullar istehsal etməkdədir. Emal sənayesinin dayanıqlı inkişafı ictimai əmək məhsuldarlığının artılırmasına, kənd təsərrüfatı istehsalının yenidən qurulmasına, məhsuldar qüvvələrin daha da uyğun və səmərəli şəkildə yerləşdirilməsinə, təbii sərvətlərdən səmərəli şəkildə istifadəsinə, ölkənin müdafiə qüdrətinin möhkəmləndirilməsinə və sair bir çox tədbirlərin görülməsinə səbəb olur.

Bunlarla bərabər ölkədə aparılan sənayeləşmə siyasəti qeyri-neft sənayesinin, xüsusilədə, onun dinamik inkişafını qarşılıyır. Hansı ki, sənaye sahəsində istehsal olunan məhsulun 69,9% və yaxud 32857,5 mln manatı mədənçıxarma sənayesi sektorunda, 21,5% və ya 11793,8 mln manatı emal sənayesi sektorunda, 4,3% və ya 2011,6 mln manatı elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,7% və yaxud 336,3 mln manat su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal edilmişdir.

Emal sənayesi sektorlarında rəqabətə davamlı məhsullar istehsalını stimullaşdırmaq üçün istehsala yönəldilən investisiyaların həcmini yüksəltmək, gömrük siyasətinində iştirakı ilə ən uyğun rəqabət rejimini hazırlamaq, ixrac yönümlü istehsalı daha genişləndirmək və bunun üçün xüsusi ilə seçilmiş iqtisadi zonalar hazırlamaq, güzəştli və ən əlverişli kreditlərin verilməsinin idxal-ixrac prosesləri üçün inzibati qaydaların asan olmasını həyata keçirmək vacibdir. 2021-ci il və hal-hazırda fəaliyyətdə müəssisələrin sayı 2330, dövlət mülkiyyəti 1124, qeyri-dövlət mülkiyyəti 2206, sənaye fəaliyyəti ilə məşğul olan, fərdi sahibkarların sayı, 19842 nəfər, sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi 11794 mln manat, sənaye məhsulunun fiziki həcm indeksi ilə əvvəlki ilə nisbəti, 111.5%, ölkədə istehsal olunmuş sənaye məhsulunun ümumi həcmində sahənin payı, 25.1%, ölkə sənayesinin qeyri-dövlət sahəsində sahənin payı, 20.9%, işləyənlərin orta siyahının sayı, min nəfər 1106.1 əvvəlki ilə nisbətən, 100.9%, sənayedə məşğul olanların ümumi sayında sahə işçilərinin yeri, 50.4%, işçinin orta aylıq əmək haqqı, 554 manat, əsas kapitala investisiyalar, 2466.4 mln manat, sənayeyə tərəf yönəldilən investisiyaların ümumilikdə həcmində sahəyə yatırılan investisiyaların payı, 26.7%, əsas sənaye-istehsal fondlarının varlığı, ilin sonuna, 9073.2 mln manat qeyd edərək 2021-il üçün qeydə alınmış emal sənayesi müəssisələrinin işinin ən əsas göstəriciləri öz əksini tapmışdır.

TURİZMİN İNKİŞAFININ İQTİSADİ TƏSİRLƏRİ

Musayeva J.E.
Sumqayıt Dövlət Universiteti
E-mail:musayev_1986@bk.ru

Ölkələrin təbii, tarixi, mədəni və insani sərvətlərindən istifadə etmələrini təmin edən turizm sektoru sənaye fəaliyyətinin inkişaf etmədiyi bölgələrdə böyük boşluğu aradan qaldıraraq bu regionların inkişafında fəal rol oynayır. Turizm əmək tutumlu sahədir, ona görə ki, o, birbaşa insanlara xidmət göstərməyi əhatə edir. Bu baxımdan onun inkişafı işsizlik probleminin həlli ola bilər. Turizm inkişaf etməkdə olan ölkələrin ehtiyac duyduğu valyutanı təmin edən, məşğulluğu artıran və müasir həyat şəraiti gətirən bir fəaliyyət olaraq görülür. Ümumi iqtisadiyyatda turizmin investisiyaları stimullaşdıran, şəxsi gəlirləri artıran, yerli və mərkəzi dövlət gəlirlərini artıran, gəlir bölgüsündə qryri-bərabərliyi aradan qaldıran və regional inkişafı sürətləndirən təsirləri də var. Turizmin iqtisadi səmərələri və effektləri inkişaf etməmiş kənd təsərrüfatı ölkələrində inkişaf etmiş ölkələrlə müqayisədə (İspaniya, Portuqaliya, Yunanıstan kimi) daha yüksəkdir. Dünyada xidmət sektorunun ölkənin ÜDM-də payı 70-80 faiz civarındadır və turizm bunun təxminən 30 faizini təşkil edir. Xarici valyuta axını, məşğulluğun yaradılması və yeni gəlir kimi turizm faydalarına əlavə olaraq, inkişaf etməkdə olan ölkələrə aşağıdakı faydaları var: infrastrukturun inkişafı (hava limanlarının tikintisi, yol-su, elektrik enerjisi və digər əlaqədar fiziki turizm investisiyalarının həyata keçirilməsi və s.); turizmə xidmət və məhsul təqdim edən alt sektorların inkişafı (yerli nəqliyyat, qida və içki biznesi, kənd təsərrüfatı sektoru, tikinti sektoru və s.); texnologiya transferinin təmin edilməsi (adətən qonaqpərvərlik sektorunda müşahidə olunur. çoxmillətli turizm şirkətləri qrupları tərəfindən hazırlanmış kompüterləşdirilmiş rezervasiya sistemləri, elektron qlobal paylama şəbəkələri və s.); xarici kapital qoyuluşları üçün stimullar kimi müxtəlif üstünlüklərə də malikdir.

Turizmin müsbət iqtisadi təsirləri ümumi mənada araşdırıldığında onlar aşağıdakılardır:

Turizmin tədiyyə balansına təsiri: beynəlxalq turizm tədiyyə balansının cari hesabında yer alan xidmətlərin mühüm maddəsidir. Əgər ölkənin xarici valyutada turizm gəliri turizm məqsədi ilə xaricə gedən xarici valyutadan çox olarsa, turizm tədiyyə balansına müsbət təsir göstərir. Ödəniş balansında kəsiri olan inkişaf etməmiş və ya inkişaf etməkdə olan ölkələr bu kəsirin səbəb olacağı iqtisadi problemləri aradan qaldırmaq üçün ölkələrinə gələn turistlərin sayını və turizm gəlirlərini artırmağa çalışırlar. Digər tərəfdən, tədiyyə balansında profisiti olan bəzi inkişaf etmiş ölkələr bu profisitin iqtisadi problemlər yaratmaması üçün öz vətəndaşlarını xaricdə turizm fəaliyyətlərində iştirak etməyə və xərcləməyə təşviq edirlər. Turizm ölkə daxilində inkişaf etməmiş regionların iqtisadi inkişafında balanslaşdırıcı amil olduğu halda, digər iqtisadi fəaliyyətləri zəif olan ölkələr üçün ölkələr arasında iqtisadi disbalansın azaldılmasında xilaskar rolunu oynayır.

Turizmin gəlir yaradan təsiri: turistlərin getdikləri ölkədə və ya bölgədə etdikləri xərclər həm o bölgədəki insanların, bölgənin gəlirlərini artırır, həm də turizmin olduğu sektorlar üçün gəlir yaradır. Turizm ilə bağlı, çarpan mexanizminin köməyi ilə xarici valyuta mənbəyi kimi turizm sektoru digər sektorlara nisbətən bir çox üstünlüklərə malikdir. Məsələn, ixrac mallarının qiymətləri dünya bazarında formalaşdığı halda, turistik mal və xidmətlərin qiymətləri əsasən qəbul edən ölkə tərəfindən müəyyən edilir.Turizm və məşğulluq: iqtisadi inkişafın tələblərindən biri ölkə sərhədləri daxilində yaşayan bütün vətəndaşlar üçün gəlir gətirən biznes sahələri yaratmaqdır. Əmək tutumlu struktura malik turizm həm milli iqtisadiyyatlar üçün məşğulluq yaratmaq baxımından mühüm əhəmiyyət kəsb edir, həm də turizm üçün əlverişli kənd və ya inkişaf etməmiş bölgələr baxımından əsas məşğulluq mənbələrindən biridir. Turizm üç növ məşğulluq yaradan təsirə malikdir, bunlar aşağıdakılardır: otel və yerləşdirmə obyektləri kimi birbaşa təsir; turizmlə birbaşa əlaqəsi olmasa da, turizmə də xidmət edən sektorlara (nəqliyyat sektoru və s.) dolayı təsiri; turizmdən (tikinti sektoru və s.) birbaşa və ya dolayısı ilə bağlı olmasa da, gəlirin yaratdığı əlavə məşğulluq effekti.Turistik istehlak xərcləri birbaşa məşğulluq effekti yaradır və bu xərclərdən əldə edilən gəlirlər iqtisadiyyatda əks etdirilərək dolayı məşğulluğa töhfə verir. Bundan əlavə, turizm obyektlərindən əldə edilən gəlirlərin ev sahibi bölgənin əhalisi tərəfindən yenidən xərclənməsi əlavə məşğulluq effekti yaradır.

Turizmin digər iqtisadi sektorlara təsiri: daxili və xarici turizm hərəkətlərinin inkişafı ilə digər sektorlarda da bir hərəkət və canlanma meydana gəlir. Turizmin əsasən kənd təsərrüfatı, sənaye və xidmət sektoru və onların alt sahələri olan 40-a yaxın biznes sahəsi ilə əlaqəli olduğu və qidalandırdığı görünür.

Turizm sektorunun inkişafı ilə paralel olaraq aqrar sektorda istehsalın həcmi və keyfiyyəti artır və daha keyfiyyətli məhsullar istehsal olunmağa başlanır. Nəticə etibarı ilə turizm istehlakı kənd təsərrüfatı sektoru üçün görünməz ixracat yaratarkən, istehsal edənlərə birbaşa gəlir effekti verir və yeni məşğulluq sahələrinin yaranmasına töhfə verir. Hadisəyə sənaye sektoru baxımından baxsaq turizm sektoru ilə sənaye sektoru arasındakı əlaqə üç şəkildə ortaya çıxır: turizmin intensiv olduğu bölgələrdə qida və içki kimi istehlak malları istehsal edən sənaye sahələrinin istehsalını artırır; turizm aralıq mallar, xüsusilə də dəri, dəri məmulatları və keramika istehsal edən sənaye sahələrinə müsbət təsir göstərir; investisiya malları istehsal edən sənayelər baxımından turizm yalnız nəqliyyat vasitələri və tikinti materialları sənayesinə töhfə verir.

Turizm yer aldığı xidmətlər sektoruna da müsbət töhfələr verir və bu töhfələrə aşağıdakıları aid etmək olar: cari istehlakla bağlı xidmət göstərən müəssisələrə; infrastruktur və texniki xidmət istehsalçıları; banklar, sığorta, səhiyyə müəssisələri kimi xidmətlər göstərənlər; dəbdəbəli istehlakla bağlı təşkilatlara; səyahət və bayramla bağlı köməkçi xidmətlər göstərən obyektlər; inkişaf etdiyi bölgədə ictimai xidmətlər.Turizmin çox mühüm iqtisadi effektləri vardır. Xüsusilə, sənət və ticarət müəssisələri kimi müəssisələr turizm xərcləri nəticəsində optimal gücə çatır və getdikcə daha çox ixtisaslı kadrlar işə götürür.Turizmin investisiyalara təsiri: bir bölgədə turistik təbii cazibələrin olması bu bölgəyə turizm investisiyalarını cəlb edir və bölgənin ümumi infrastruktur sərmayələri digər bölgələrə nisbətən daha sürətlə artır. Bölgədə turizmin inkişafı üçün qoyulan infrastruktur sərmayələri də bölgəyə birbaşa yerli və xarici investisiyaları cəlb edir. Xarici investorlar sırasında olan transmilli şirkətlər məşğulluq yaratmaqla, ölkələrin valyuta gəlirlərini artırmaqla, özlərinin qabaqcıl texniki biliklərini, nou-haularını, müasir menecmenti, idarəçiliyini və s. idarəetmə üsullarına müsbət təsir edir.

Turizmin regional iqtisadi inkişafa təsiri: xarici aktiv turizm ölkəyə valyuta qazandırsa da, daxili turizm ölkə sərhədləri daxilində gəlirin yenidən bölüşdürülməsini təmin edir və regionlararası iqtisadi fərqlərin azaldılmasına töhfə verir. Turizmin inkişaf etdiyi bölgədə edilən turizm sərmayələri ilə birlikdə yeni iş sahələrinin açılması işçilərin gəlirlərini artırır, gəlir bölgüsünə müsbət təsir edir və işçi qüvvəsinin bölgə xaricinə doğru itkisini azaldır. Bunun nəticəsində artan gəlir bölgə daxilində ticarəti aktivləşdirir və infrastruktur xidmətlərinin də qatqısı ilə bölgəyə qapalı iqtisadiyyat xüsusiyyətindən əl çəkməyə imkan verir. Turizm digər sektorlarla müqayisədə ölkələrin nisbətən inkişaf etməmiş regionlarında iqtisadi inkişaf üçün daha çox imkanlar yaradır. Belə ərazilərdə əkinçilik və ya balıqçılıqla məşğul olan insanlar turizm sektoruna üz tutaraq gəlirlərini xeyli artıra bilərlər. Turizmin geniş yayıldığı bölgələrdə yerli əl işləri və suvenirlər kimi fəaliyyətlər də inkişaf edə bilər.Ölkələr üçün zəruri və vacib olan məsələ turistlərin tələb və gözləntilərinə uyğun xüsusi turizm infrastrukturuna malik olmaqdır. Fiziki infrastruktur turizmin inkişafı üçün zəruridir. Ölkənin tam inkişaf etmiş infrastrukturu olmasa belə, turizmin inkişafı nəzərdə tutulan regionlarda xüsusi turizm infrastrukturu, yollar, kommunikasiyalar, marinalar, hava limanları və digər sektorların inkişafını təmin edir. Bu, bölgənin ticarətinə müsbət töhfə verəcək və bölgənin inkişaf səviyyəsini yüksəldəcəkdir. Belə ki, sənayenin inkişafı üçün əlverişli olmayan, lakin turizmin inkişafı üçün əlverişli təbii potensiala malik ərazilərdə turizmin iqtisadi cəhətdən planlı və səmərəli inkişafı, ölkənin bir rayonunda əldə edilən sərvətin digər regionda xərclənməsi yolu ilə sərvətlərin bu bölgələrə ötürülməsinə və beləliklə, rifah səviyyəsinin

yüksəldilməsinə, beləliklə də regionlararası fərqlərin azaldılması və eyni zamanda, regional inkişafın sürətləndirilməsinə də töhfə verir.

TİKİNTİ MATERİALLARININ İSTEHSALINDA İNFRASTRUKTUR LAYİHƏLƏRİNİN TEXNİKİ-İQTİSADİ ƏSASLANDIRILMASI

Müslümova L.R.
Azərbayacan Memarlıq və İnşaat Univesiteti
E-Mail: leman.rasimqızı@gmail.com

Yeni tikinti materiallarının istehsalı üzrə layihələrin geniş miqyasda həyata keçirilməsi, mövcud istehsalın modernləşdirilməsi zəruridir. Bu, investisiya proseslərini təkmilləşdirmək və tikinti materialları sənayesinə kapital cəlb etmək üçün geniş mexanizm və alətlərdən istifadəni tələb edir. Onların effektivliyi iri regional investisiya layihələrinin olması və onların icrasının idarə edilməsinin keyfiyyəti ilə təmin edilir.

Regional hakimiyyət orqanları bu gün regionun ərazisində elmin ən son nailiyyətlərinə, qabaqcıl dünya təcrübəsinin ümumiləşdirilməsinə əsaslanan səmərəli regional investisiya layihələrinin hazırlanmasında və həyata keçirilməsində maraqlıdırlar. Bu prioritet innovativ sahələrdən biri də yeni tikinti materiallarının, konstruksiyalarının və texnologiyalarının işlənib hazırlanması və tətbiqi, tikinti sənayesinin istehsal bazasının inkişafıdır.Belə layihələrin həyata keçirilməsində qarşıya çıxan əsas problem maliyyə imkanlarının məhdudluğudur. Bu baxımdan, maliyyə vəsaitlərinin cəlb edilməsi üçün effektiv mexanizmlərin və vasitələrin tapılması vəzifəsi aktuallaşır. Bu gün tikinti dövlətimizin iqtisadiyyatının özünü inkişaf etdirən sahəsidir. İnfrastruktur obyektlərinin tikintisi əsasən podratçılar tərəfindən həyata keçirilir. Hər il şəhər və qəsəbələrdə infrastruktur obyektlərinin kütləvi tikintisi getdikcə artır və bu strategiyada ölkə hökuməti üstünlük təşkil edir.

İnfrastruktur layihələrinin tikinti sektoruna investisiya axını əsasən onun inkişafını müəyyən edir. İnvestisiya və mövcud kredit resurslarının olmaması inkişaf etməkdə olan və transformasiya olunan iqtisadiyyatlarda, o cümlədən infrastruktur tikintisi layihələrinin aşağı investisiya cəlbediciliyi məsələsinin kəskin olduğu ölkə iqtisadiyyatında sənayenin böyüməsinə maneə rolunu oynayır (vəsaitlərin yüksək amortizasiyası səbəbindən). Bu vəziyyət tikinti şirkətləri arasında investisiya resursları uğrunda rəqabətin artmasına və müvafiq olaraq potensial investorların layihələrlə bağlı irəli sürdüyü tələblərin səviyyəsinin və onların gözlənilən gəlirliliyinin artmasına səbəb olur.İnfrastruktur tikintisi layihəsinin investisiya cəlbediciliyi mürəkkəb çoxkomponentli kateqoriyadır və onun istifadəçilərin, investorların tələbatlarını, cəmiyyətin maraqlarını, maliyyə və maliyyə ehtiyaclarını ödəmək qabiliyyətini müəyyən edən daxili və xarici xassələrinin məcmusu əsasında formalaşır.

İnfrastruktur tikintisi layihələrinin investisiya cəlbediciliyi onun faydalı funksiyaları ilə müəyyən edilir, bunlara ilk növbədə:

- istehlakçı (işçilərin və ziyarətçilərin tələbatının ödənilməsi, yaşayış üçün şərait yaradılması, fiziki təhlükəsizliyin təmin edilməsi);
- sosial (cəmiyyətin ehtiyaclarını ödəmək), iqtisadi (obyektin gəlir əldə etmək qabiliyyəti);
- məlumat xarakterli (obyektin sahiblərinin və istifadəçilərinin sosial statusunun saxlanılması);
- stimullaşdırıcı (işgüzar fəaliyyətin intensivləşdirilməsi, əmək məhsuldarlığının artırılması), ekoloji (ətraf mühitin vəziyyətinin yaxşılaşdırılması, onun resurslarından istifadənin optimallaşdırılması).

İnfrastruktur tikintisi layihələrinin investisiya səmərəliliyinin qiymətləndirilməsinə ənənəvi yanaşma onların həyata keçirilməsi ilə bağlı xərclərin və əldə edilmiş və ya gözlənilən maliyyə nəticələrinin ölçülməsinə və müqayisəsinə əsaslanır. Eyni zamanda, əldə edilmiş maliyyə nəticəsinin xeyrinə bu iki dəyər arasındakı maksimum fərq layihənin yüksək investisiya cəlbediciliyinin əlaməti hesab olunur.

Bununla belə, tikinti kompleksinin və infrastrukturunun hazırkı inkişafı şəraitində bu yanaşmanın tətbiqi çox vaxt müəyyən bir layihənin maliyyələşdirilməsinin investor baxımından məqsədəuyğunluğu sualına dolğun cavab almağa imkan vermir. Bu təsirlərə ekoloji, sosial, etik və başqaları daxildir, investisiyaların qiymətləndirilməsi zamanı hər birinin ölçülməsi aktual elmi problemdir, çünki müəssisələrin rəqabət qabiliyyətinə olan tələblərin səviyyəsinin artması kontekstində tikinti sənayesində, yaradılmış infrastruktur obyektlərinin bazar və investisiya cəlbediciliyinin artırılmasının mümkün yollarının bütün kompleksi.

İnfrastruktur tikintisi layihələrinin maliyyələşdirilməsinə dair investisiya qərarlarını əsaslandırmaq üçün onun həyata keçirilməsi üçün proseduru, habelə qiymətləndirmə meyarlarının və alqoritmlərinin

əsaslandırılmasını müəyyən edən, texniki-iqtisadi əsaslandırmanın zəruriliyini nəzərdə tutan rəsmiləşdirilmiş, strukturlaşdırılmış plan tərtib etmək lazımdır.İlkin məlumat və materialları yerinə yetirərkən, texniki-iqtisadi əsaslandırmanın hazırlanması üçün tapşırıq hazırlayarkən, onların hazırlanması üçün ərizə (tender) ilə bağlı təşkilati məsələlər, müştəri üçüncü tərəf tərtibatçılarını cəlb edir, məsləhətlər verir, marketinqlə məşğul olur və ya tender komissiyasını təşkil edir. Obyektin tikintisinə dair planlaşdırılan qərarların və sahənin ilkin razılaşdırılması şərtlərinin razılaşdırılması bu məcəllədə müəyyən edilmiş qaydada alınmış məlumatlar nəzərə alınmaqla sifarişçi və ya onun adından layihəçi tərəfindən həyata keçirilir.

Sahələrin ilkin təsdiqi və ayrılması üçün sənədlərin təsdiqi, hazırlanması və ötürülməsi ilə bağlı xərclər yerli hakimiyyət orqanları tərəfindən müəyyən edilmiş qaydada və məbləğdə sifarişçi tərəfindən maliyyələşdirilir.Beləliklə, infrastruktur obyektlərinin tikintisi layihəsinin texniki-iqtisadi əsaslandırılması onun planlaşdırılması, həyata keçirilməsi və investisiya cəlbediciliyinin uğurlu olması üçün mərkəzi şərtdir.

MÜASİR İQTİSADİYYATDA MALİYYƏ BAZARLARININ TƏNZİMLƏNMƏSİ MEXANİZİMLƏRİ

Mustafayeva E.T.
Sumqayıt Dövlət Universiteti
E-mail: Elladamustafayeva75@gmail.com

Müasir zamanda iqtisadi inkişafa nail olduqca maliyyə sistemlərinin də inkişafına nail oluruq. Bu səbəbdən dolayı maliyyə bazarlarının tənzimlənməsi böyük diqqət cəlb etməkdədir. Maliyyə tənzimləyiciləri bazar subyektlərinin hərəkətlərini tənzimləyən və biznes layihələrinin həyata keçirilməsinə nəzarət edən orqanlar olub kifayət qədər hüquq və səlahiyyətə malikdirlər. Maliyyə bazarlarının tənzimləyicilərinin səlahiyyətinə aşağıdakılar aiddir: bazarda monopoliyanın yaranmasına imkan verməmək; işini layiqincə yerinə yetirə bilməyən iştirakçıları bazardan kənarlaşdırmaq,

Son zamanlarda ölkələrda baş verən iqtisadi-siyasi proseslər təkmilləşdirilmiş ictimai nəzarət sisteminin tətbiqi bank və sığorta sahələrinin ödəniş sisteminin fəaliyyətinin tezliyi və həmçinin bu sahələrdə tənzimləməyə böyük diqqət cəlb etmiş olur. Qeyd edə bilərik ki,maliyyə bazarının tənzimlənməməsi ölkə iqtisadiyyatına ən böyük zərər vura bilər. Buna misal ABŞ-da 2007- ci ilin II yarısında başlayan 2008- ci ildə baş vermiş maliyyə böhranını və Covid-19 pademiyasını qeyd edə bilərik. ABŞ da ilk böhran təbili 2008- ci ildə Lehman Brothersin iflasa uğraması ilə başladı. Son 1 əsrdə yer kürəsində meydana gələn və böyük təsirə malik olan başqa böhranlarla fərqlərini müqayisə etsək bunların heç biri 2008 -ci ildə baş vermiş maliyyə bohranı qədər iqtisadiyyata daha güclü zərər vuran digər bir böhran olmamışdır. 2008- ci ildə ki, maliyyə böhranına səbəb olan vəziyyət bank investisiya qabiliyyətinə görə düzgün qiymətləndirilməmişdir. Burada heç bir bank kreditlərin cəmiyyətə nə qədər yararlı olacağını və keyfiyyətinə önəm verilmirdir. Risklər də düzgün qiymətləndirilmirdi. Dahi Fişer və Minski kimi iqtisadçıların araşdırılmaları da göstərir ki, həm şirkətlərin həm də ölkələrin sürətli artım dövründə maliyyə böhranının meydana gəlməsi mütləqdir. Çünki, artım zamanı sirkətlər və ölkələr borc yığımına rast gəlirlər.2020 ci ildə Çində aşkar olunan Covid-19 pandemiyası ilk öncə Çini sonra dünya ölkələrini öz ağuşuna aldı. İqtisadçılar Covid-19 pandemiyasının iqtisadiyyat üçün 2008 -ci ildəki Maliyyə böhranından da daha təhlükəli olduğunu qeyd edirlər. Pandemiyadan dolayı dövlət xərçləri artdı və bununla da bir çox ölkələrdə büdcə kəsirləri yarandı. Pandemiyanın yaratdığı problemlər Azərbaycan Respublikasından da yan keçmədi. 2020- ci ildə ÜDM -in həcmi 2019- cu ilə nisbətən 4,3 % azalmışdır. Azərbaycan Respublikasının 2020- ci ilin dövlət büdcəsinin gəlir və xərcləri aşağıdakı cədvəldə göstərilib:

Dövlət büdcəsinin gəlirləri	24681734.6 min manat
Dövlət büdcəsinin xərcləri	26416297.5 min manat

Covid-19 pandemiyasından dolayı bəzi sahələrin gəlirlik səviyəsi aşağı düşmüşdür: Turistlərin yerləşdirilməsi və iaşə sahələri; Əhaliyə göstərilən ödəniş xidmətləri; Qeyri neft sektoru; Pərakəndə ticarət dövriyəsi.

Covid-19 pandemiyasından ən çox zərər çəkən sahə turizim sektoru olmuşdur. Pandemiya dövrü qapanmalar oldu quru yollar və hava yolları bağlandı.

Ölkələrə turistlərin gəlməsi məhdudlaşdı. Turizim sahəsindən gəlir əldə olunmaması, milli gəlirlərin səviyyəsi və əhalinin məşğulluq səviyyəsi aşağı düşdü. Maliyyə bazarlarının tənzimlənməsi üçün ilk öncə maliyyə bazarları haqqında assimetrik məlumat əldə edilməlidir. Bir tərəfdən məhsullar haqqında daha önəmli

məlumatlar digər bir tərəf üçün bilinməyən və yetərsiz məlumata sahib olmaqdır. Maliyyə bazarlarının tənzimlənməsi dövlət qarşısında duran ən böyük vəzifələrdən biridir. Vəzifələr də müxtəlif olduğu üçün dövlətin həyata keçirdiyi ən vacib iqtisadi funksiyalari müəyyən edir. Ən vacib funksiyalar isə aşağıdakılardır:

Fiskal və pul siyasəti: Sosial siyasət; Gəlirlərin tənzimlənməsi; Xarici iqtisadi siyasət

Bunlardan başqa dövlət tərəfindən yerinə yetirilən əsas funksiyalar bunlardır: İqtisadiyyatın hüquqi əsaslarının yaradılması və tənzimlənməsi; Əmlak münasibətləri subyekti kimi dövlətin fəaliyyəti; Antiinhisar tənzimləməsi; Makroiqtisadi sabitləşmənin həyata keçirilməsi.Maliyyə bazarlarının tənzimlənməsi mütləq şərtdir. Bu bazarlarda dövlət müdaxilələri olmalıdır. Dövlət ən çox iqtisadi taktika və iqtisadi strategiyadan istifadə etməlidir. Taktika maliyyə bazarında yaxın vaxt üçün məqsəd və vəzifələrin yerinə yetirilməsidir. Strategiya isə maliyyə bazarında uzun dövr üçün nəzərdə tutulmuş məqsəd və vəzifələrin yerinə yetirilməsidir. Maliyyə siyasəti həyata keçirilən zaman tənzimlənmədə indiki dövr və gələcək dövr nəzərə alınmalıdır və həmçinin maliyyə bazarlarında istər iqtisadi artım, istərsə də azalmaların indiki dövr və gələcək dövrə necə təsir göstərəcəyi analiz edilib düzgün qiymətləmdirilməlidir.

AZƏRBAYCAN RESPUBLİKASINDA MONETAR VƏ FİSKAL SİYASƏTİN MÜHÜM İSTİQAMƏTLƏRİ

Nabatəliyeva B.E.
OdlarYurdu Universiteti
E-mail: bilqeyissn@mail.ru

Maliyyə sabitliyi güclü və dayanıqlı bir maliyyə sisteminin əsasını təşkil edir. Maliyyə sistemi elə bir mühit və ya şərtlər daxilində sabitdir ki, maliyyə inistitutlarının əksər hissəsi likvidlik çatışmamazlığı ilə üzləşməsin və iflasa uğramasın həmçinin ən vacib maliyyə xidmətlərinin göstərilməsi ilə bağlı maneələr mövcud olmasın. Bundan əlavə maliyyə sabitliyi iqtisadiyyatda yığımların investisiyalara transformasiyasına şərait yaratmaqla ödəniş və bütövlükdə maliyyə sistemlərinin şoklara davam gətirməyə qadir olma vəziyyətidir. Digər bir yanaşmada isə maliyyə sabitliyini qiymətləndirirərkən, hüquqi, fiskal, monetar, tənzimləyici və mühasibat rejmlərinin təsir etdiyi maliyyə bazarları, maliyyə infrastrukturu arasında kəskin dəyişikliyin olmadığı bir vəziyyətdir. Azərbaycan Respublikasında da Mərkəzi Bankın maliyyə sabitliyi siyasəti, güclü və təsirli işləyən bir maliyyə sisteminin varlığı qiymət sabitliyinin təmin edilməsinə istiqamətli imtinaedilməz bir ünsür olaraq qiymətləndirilməlidir.

Hal-hazırda dünyada beynəlxalq əlaqələrin böyük əhəmiyyət daşıdığı bir zamanda iqtisadi əlaqələr, bu əlaqələrin mühüm hissəsini təşkil etməkdədir. Əgər bir ölkənin digər ölkələrlə iqtisadi, siyasi və başqa sahələrdə əlaqələrinin və əməkdaşlığının olmaması, nə qədər zəngin olub-olmamasına baxmayaraq inkişaf və fəaliyyət səviyyəsinə mənfi təsir göstərir. Nəzərə alsaq ki, torpaqlarımızın 20 faizi işğal altındadır, müharibə şəraitində yaşayırıq və bir milyondan çox qaçqın və məcburi köçkünlərin problemi həll olunmaqdadır. Belə bir şəraitdə Azərbaycan üçün sosial, siyasi, iqtisdi problemlərin həllində beynəlxalq əlaqələrin qurulması mühüm rol oynayır. Buna görə də Azərbaycanın müstəqillik qazandıqdan sonra diqqət göstərdiyi ən mühüm məsələlərdən biridə beynəlxalq iqtisadi əlaqələr və beynəlxalq təşkilatlarla əməkdaşlıq olmuşdur. Zəngin neft rezervlərinin çıxardılması və işlənməsi ölkədə siyasi sabitliyin əldə edilməsi ilə əlaqəli 1994-cü ildə "Əsrin Müqaviləsi"nin imzalanaraq qüvvəyə mindi. 1995-ci ildən etibarən ölkəyə xarici kapital axını artdı, 1990-cı ildən başlanan inflyasiyanın artmasına nail olundu. Bütün bunlara səbəb beynəlxalq maliyyə təşkillatları ilə əməkdaşlıq, bu təşkilatların Azərbaycana kredit verməyə başlaması, onların proqram və layihələrindən istifadə edərək iqtisadi islahatlara imza atilması oldu. Hazırda Azərbaycan bir çox beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlıq edir. Bu təşkillatlara Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı, dünya Bankı və s. daxildir. Azərbaycanın beynəlxalq təşkilatlara üzv olması, iqtisadi maliyyə sabitliyinin saxlanılmasında və iqtisadiyyatımızın inkişaf etməsində mühüm əhəmiyyət daşıyır

Azərbaycan Hökuməti və BVF ilə imzalanmış Maddələr Sazişinin IV Maddəsinə uyğun olaraq hökümətə iqtisadi proqramların hazırlanıb həyata keçirilməsinin dəstəklənməsinə verilmiş maliyyə yardımları, o cümlədən BVF Azərbaycanda bir sıra sahələrdə texniki yardımlar da göstərmişdir. Göstərilən texniki yardımlara dövlət xərclərinin idarə olunması, mərkəzi bankçılıq, bank nəzarəti, pul siyasəti, vergi gömrük siyasəti və idarə olunması, statistika sahəsində olmuşdur. BVF tərəfindən təmin edilmiş Azərbaycanda makro iqtisadi təhlillər və siyasət, fiksal siyasət və idarəçilik, maliyyə proqramalşdırılması, mərkəzi bank mühasibatlığı və bank nəzarəti sahələrində olan təlimlərdə xüsusi olaraq yararlanmışdır. Beynəlxalq

Yenidənqurma və İnkişaf Bankı (BYİB) bir sıra ölkələrin Bretton Vuds (ABŞ) sazişinə əsasən 1945-ci ildə BMT-nin xüsusi idarəsi kimi yaradılmışdır. Öz missiyasına 1946-cı ildən başlamışdır. Hazırda bu dövlətlər arası maliyyə təşkilatı Ümumdünya Bankı adlanır. Dünya Bankının üzvləri yalnız BVFnin üzv ölkələri ola bilər.Azərbaycanda onun səhmdarlarından biridir. Respublikamız üzvlüyünün 1992-ci ildən rəsmiləşdirmişdir, 1995-ci ildən başlayaraq isə Azərbaycan BVF ilə yanaşı Dünya Bankı ilə də sıx əməkdaşlıq edir. Dünya Bankının iqtisadi islahatlarının dəstəklənməsi məqsədi ilə təqdim etdiyi kreditlərin məbləği 400 milyon dollar təşkil edir. 2003-cü il fevral ayında Dünya Bankında 2003-2005-ci illər üzrə Azərbaycan üçün " Ölkəyə Yardım Strategiyası" təsdiq olunmuşdur. 65 milyon ABŞ dolları həcmində kredit sazişi imzalanmış və sözügedən Strategiya üzrə nəzərdə tutulan layihələr çərçivəsində təsdiq olunmuşdur. "Yoxsulluğun azaldılmasına" yardım krediti də bu strategiyada nəzərdə tutulan layihələrdən biridir. Bu layihə, struktur islahatları davam etdirmək, iqtisadi inkişaf üzrə dövlət proqramında nəzərdə tutulan tədbirləri müəyyənləşdirmək və yoxsululuğun azaldılması məqsədi ilə ayrılır.Maliyyə sisteminin sabitliyinə bağlı bu tədbirlərin inkişaf etdirilməsinə yönəlmiş yanaşma, narahatlıq mərkəzi, maliyyə sabitliyin mikro-bazar səviyyəsindən makro ehtiyyatlılıq ölçülərinə keçdiyi üçün bir neçə il ərzində dəyişikliklərə məruz qalmışdır. Erkən xəbərdarlıq göstəricilərinin təhlilindən bank sisteminin vəziyyətinə, kommersiya qurumlarının risklərinin izlənməsi üçün, maliyyə bazarlarına, təşkilatlarda infrastruktur risklərinin qiymətləndirilməsi üçün daha əhatəli bir sistem yanaşmasına ehtiyac yaranmışdır. Son zamanlarda analitik təhlil mərkəzlərinin məlumatları əsasında balanslaşdırılmamış davranışın dinamikasının öyrənilməsinə, şokların amplitudasına nəzarətin mexanizminə təcrübədə daha çox yer verilir. Maliyyə sabitliyinin qorunması istiqamətində atılan bütün bu addımlar maliyyə sisteminin inkişafına adekvat şəkildə təkmilləşdirilir ki, əks halda müxtəlif mənbələrdən təsirlənərək yaranan sistem boşluqlarını profilaktik qaydada aradan qaldırmaq mümkün olmazdı. Artıq maliyyə sisteminə nəzarətin bu sivil forması davamlı şəkildə təkmilləşdirilir və bir mexanizm olaraq daim təkmilləşdirilməkdədir.

AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ "AĞILLI" KƏND VƏ "AĞILLI" ŞƏHƏR İQTİSADİYYATI

Nəbiyeva K.F.
OdlarYurdu Universiteti
E-mail: konuller@gmail.com

2020-ci il ölkəmiz üçün dünyada baş verən pandemiya və iqtisadi böhran ucbatından nə qədər mürəkkəb il olsa belə, qeyd etmək lazımdır ki, həmin il ölkəmizin tarixinə ən şanlı, qızıl hərflərlə düşən Zəfər İli, milli qürur və milli fərəh ili kimi tarix boyu yaddaşlarda həkk olunmuşdur Məhz bu il Azərbaycan Respublikasının Prezidentı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycanın Zəfər Ordusu 30 illik işğala son qoymuş, düşmənin illərlə yaratdığı "məğlubedilməz ordu" mifini 44 gün ərzində bütün dünyanın gözü qarşısında "Dəmir yumruq" əməliyyatı ilə məhv etmiş, ölkəmizin ərazi bütövlüyünü bərpa etmiş və tarixi ədaləti bərqərar etməklə, Azərbaycan xalqı və Azərbaycan dövlətinin qüdrətini bütün dünyaya nümayiş etdirmişdir!

Bütün bu nailiyyətlərin əsas memarı olan Azərbaycan Prezidenti cənab İlham Əliyev ölkəyə rəhbərlik etdiyi bütün illər ərzində ölkənin hərbi, siyasi, iqtisadi qüdrətinin möhkəmləndirilməsinə və faktiki olaraq, Böyük Qələbənin əldə olunmasına dayanmadan çalışmış, ölkəmizin heç vaxt erməni işğalı ilə barışmayacağını beynəlxalq kürsülərdən dəfələrlə bildirmiş və böyük dövlət xadimi kimi öz üzərinə düşən missiyanı, ölkəsinin ərazi bütövlüyünün təmin edilməsini şərəflə yerinə yetirmişdir! İşğaldan azad olunmuş ərazilərin iqtisadi potensialının əsas parametrlərinin təhlili göstərir ki, Azərbaycan Respublikasının işğaldan azad edilmiş torpaqlarında, işğal tarixindən bu günədək, erməni barbarlarının talançılığı nəticəsində regionun infrastrukturu yox səviyyəsinə gətirilibdir. Bu səbəbdən, gələcək bərpa işləri ümumi infrastrukturun (yollar, qaz, su, elektrik enerjisi, rabitəvə b.k.) və ilkin yaşayış şəraitinin qurulması iqtisadi inkişaf layihələri ilə parallel olaraq həyata keçirillməlidir. Bu gün ölkəmizin alimləri, ziyalıları qarşısında duran ən mühüm missiyalardan biri, işğaldan azad edilən Azərbaycan ərazilərinin ölkə iqtisadiyyatına yenidən inteqrasiya edilməsi üçün aidiyyatı dövlət qurumlarına öz dəstəyinin verilməsi, ölkədə ictimai fikrin, alimlərin, ziyalıların bir araya gələrək həm işğaldan azad edilmiş əzəli Azərbaycan torpaqlarının, həm də bütövlükdə bölünməz Vətənimizin dünyada və bölgədə formalaşan yeni geosiyasi və iqtisadi reallıqlar çərçivəsində dayanıqlı sosial-iqtisadi, siyasi və humanitar inkişaf məkanına çevrilməsinə lazımi töhfənin verilməsindən ibarətdir.

Hazırda dünya iqtisadiyyatı koronavirus (COVID-19) pandemiyasının yaratdığı fəsadlar nəticəsində dərin tənəzzül dövrü keçirir və bunun nə vaxta qədər davam edəcəyi ilə bağlı fikir bildirmək çətindir. Bu böhran təkcə iqtisadiyyatı tənəzzülə uğratmamış, eyni zamanda, psixoloji gərginliyin artmasına, rifahın azalmasına təsir göstərməkdədir. Hazırda virus dünyanın 200-dən çox ölkəsinə yayılmaqla həmin ölkələrin iqtisadiyyatına və insanların sağlamlığına olduqca böyük təhdid yaratmaqdadır.

Koronavirus (COVID-19) pandemiyasının mənfi təsirləri bütün ölkələrdə olduğu kimi ölkəmizdən də, yan keçməyib.Belə ki, indiki mərhələdə pandemiyanın Azərbaycan iqtisadiyyatına vurduğu zərəri konkret rəqəmlərlə (operativ statistik məlumatın olmaması və pandemiyanın davam etməsi səbəbindən) ifadə etmək qəlizdir. Karantin rejiminin tətbiq olunması ilə iaşə, nəqliyyat, turizm və digər qarşılıqlı fəaliyyət sahələri ciddi mənfi təsirə məruz qalmışdır. Ən çox təsirə məruz qalan sahələrdən biri kiçik biznesdir.

Koronavirus infeksiyasının yayılmasının qarşısını almaq və insanların hərəkət intensivliyini minimallaşdırmaq məqsədilə biznes sektoruna tətbiq edilən məhdudiyyətlər makroiqtisadi göstəricilərə mənfi təsir göstərdi. Sərt karantin rejiminin tətbiq olunduğu aprel ayında məhsul və xidmətlər istehsalı kəskin şəkildə azaldı və cari ilin əvvəlki illər ilə müqayisədə Ümumi Daxili Məhsul (ÜDM) istehsalında geriləmə olduğu müşahidə olunmuşdur. Lakin 2020-ci il sadəcə koronavirus (COVID-19) pandemiyası və onun törətdiyi fəsadlar ilə deyil, eyni zamanda, Azərbaycan xalqının hafizəsində möhtəşəm və unudulmaz tarixlərdən biri kimi yadda qalmışdır. Ali baş komandan, Prezident İlham Əliyevin strateji rəhbərliyi ilə Azərbaycan ordusu 30 ilə yaxın müddət ərzində Ermənistan tərəfindən işğal altında olan Azərbaycanın cənubqərb torpaqlarını azad etmişdir. İşğalçı Ermənistan tərəfindən 2020 –ci sentyabrın 27-də başladılan 44 gün davam edən müharibə Azərbaycanın tam qələbəsi və Ermənistanın kapitulyasiyası ilə nəticələndi.

Müharibə ərzində 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə, çoxsaylı strateji yüksəkliklər azad olunmuşdur. Bu qələbə bütün dünyaya bir daha Azərbaycan Ordusu qüdrətini və əzmini, həmçini, Azərbaycan dövləti üçün tarixi-mədəni dəyərlərin və həqiqətlərin ali olduğunu sübut etdi. Ali baş komandan, Prezident İlham Əliyev çıxış edərək bildirdi ki , məcburi köçkünlərin öz dədə-baba torpaqlarına qayıtması üçün bundan sonra da əlimizdən gələni edəcəyik, işğaldan azad edilmiş bu torpaqları yenidən quracağıq. İşğaldan azad olunmuş torpaqların, nəinki, tarixi-mədəni dəyəri, eyni zamanda, olduqca zəngin iqtisadi potensialı da mövcuddur. İşğaldan azad olunmuş torpaqların iqtisadi potensialı dedikdə onun nədən ibarət olduğu sualı ortaya çıxır. Biz əgər regionun vacib olan faktorlarına nəzər yetirsək bu suala asanlıqla cavab tapa bilərik, belə ki, burada regionun sənaye, yeyinti sənayesi, təbii landşaftı və turizm, faydalı qazıntı/xammal, elektrik enerjisi resursu, su təchizatı imkanları ilə yetərincə zəngindir.Ağıllı iqtisadiyyat anlayışı elmi və müxtəlif strateji sənədlərdə daha populyardır. Bu konsepsiya geniş kontekstdə istifadə olunur: ağıllı şəhər dizaynı və inkişafı, iqtisadi inkişaf, strateji planlaşdırma, şəhərlərin reklamı və marka. Tədqiqatlar göstərir ki, indiyə qədər ağıllı iqtisadiyyatın ümumiyyətlə qəbul edilmiş bir tərifi yoxdur.

Ağıllı iqtisadiyyat iqtisadiyyatla Ağıllı Şəhərlər arasındakı kəsişmədir. Bu çox geniş bir tərifdir, ancaq təxminən üç fərqli hissəyə ayırlır: Ağıllı Şəhərlər texnologiyalarının şəhər ticarətini necə dəyişdirdiyini göstərən amil kimi, Ağıllı Şəhərin iqtisadi idarə edicisi kimi və Ağıllı Şəhərlərin arxasındakı iqtisadiyyat olaraq təsniflənir. Şəhər Ticarətinin Dəyişdirilməsi dedikdə, Ağıllı Şəhər platforması vasitəsi ilə müştəriləri tapmaq və onları cəlb etmək üçün yeni yollar yaradır. Buna Yaxın Məsafə Kommunikasiyasını misal olaraq göstərə bilərik. Yaxın Məsafə Kommunikasiyası dinamik qiymətlər və mikro ödəmələr üçün imkanlar açan ağıllı telefonlar vasitəsi ilə ödəməni təmin edəcək bir texnologiyadır. Əgər işğaldan azad olunmuş ərazilər Ağıllı Şəhər konsepsiyasına uğunlaşdırmaq istəyiriksək, bu zaman, biz yüksək səviyyəli texnoloji vasitələrdən istifadə etməliyik, çünki, Ağıllı şəhərin reallaşması geniş infrastruktur tələb edir. Bant genişliyini təmin etmək üçün bu infrastruktura fiber optik kabellər və mis kabellərin birləşməsi verilir.

MÜƏSSİSƏNİN İNKİŞAFINDA İNNOVASİYA STRATEGİYASININ ROLUNUN QİYMƏTLƏNDİRİLMƏSİ

Nəcəfov N.V.
Sumqayıt Dövlət Universiteti
E-mail: nicat.necefov.nn87@gmail.com

Müasir iqtisadiyyatın xarakterik xüsusiyyəti onun qloballaşması, müəssisələrin müxtəlif bazarlarda mübarizəsinin güclənməsi, istehlak strukturunun dəyişməsi, yüksək texnologiyalı məhsulların həcminin artmasıdır. Hazırda bilik tutumlu sənayenin artımı ənənəvi sənaye sahələrinin genişlənməsini üstələyir. Bu,

onlara yeni bazarları inkişaf etdirməyə imkan verən innovativ məhsullar istehsal etməyə şərait yaradır. Yuxarıda göstərilənlərlə əlaqədar olaraq, innovasiyaların idarə edilməsinin sistemli, strateji xarakteri müasir müəssisələr üçün xüsusilə aktuallaşır. Müəssisənin innovasiya fəaliyyətinin strateji idarə edilməsi onun innovativ idarəetməsinin ümumi sisteminin yuxarı mərhələsidir və üç əsas vəzifəni həll edir: 1) innovativ strategiyaların seçimini etmək; 2) seçilmiş innovasiya strategiyalarının reallaşdırılmasını təşkil etmək; 3) strategiyaların reallaşdırılmasının cari əlaqələndirilməsi.

Müəssisənin innovasiya strategiyası, qarşıya qoyulmuş məqsədlərə nail olunmasını təmin edən innovasiya sahəsində onun davranışının genişləndirilmiş planıdır. İnnovasiya strategiyası son illərdə ölkənin sənaye müəssisələrində baş verən və müxtəlif təşkilati və texnoloji transformasiyalarda özünü göstərən sistemli dəyişikliklərin əsasını təşkil edir. Onun formalaşması və səmərəli reallaşdırılması tələb və təklifin dinamik səviyyəsi, eləcə də artıq inkişaf etmiş bazar seqmentlərində möhkəmlənməyə və yenilərinə daxil olmağa imkan verən yüksək rəqabət səviyyəsi ilə xarakterizə olunan bazar mühitində xüsusi önəm daşıyır. İstehsal amillərindən səmərəli istifadə edilmədən, müvafiq istehsal-texniki baza, kifayət qədər innovasiya potensialı, kapital qoyuluşları və nəhayət, bütün bu prosesin səriştəli idarə olunması olmadan innovasiya strategiyasının uğurlu formalaşdırılması və reallaşdırılması mümkün deyil. İnnovativ strategiyaların formalaşması müəssisənin ümumi sosial-iqtisadi məqsədlərinə və innovativ vəzifələrinə əsaslanır. Mənfəət əldə etmək və onu maksimuma çatdırmaq bazar şəraitində müəssisənin əsas məqsədidir. Buna nail olmaq üçün müəssisə aşağı sifarişlərin konkret məqsədlərini müəyyənləşdirir. Müəssisənin innovativ strategiyasının formalaşmasında başlanğıc nöqtəsi onun missiyası, məqsədləri və strateji vəzifələridir. Bu halda əsas məqsədlərdən biri cari dövrdə gəlir əldə etmək və gələcəkdə onu maksimuma çatdırmaqdır. Digər məqsədlər (ikinci səviyyənin məqsədləri) arasında onlar həmçinin fərqləndirirlər: istehsalın miqyasının və bazar payının artırılması, bazarda mövqelərin möhkəmləndirilməsi və yeni bazarların ələ keçirilməsi, xarici mühit və hər şeydən əvvəl elmi və texnoloji sürət və perspektivlər tərəqqi, iqtisadi və siyasi vəziyyət, sənayedə işlərin mövcud vəziyyəti və onun gələcək inkişaf perspektivləri, sənayenin digər müəssisələrinin rəqabət qabiliyyətli mövqeləri və innovativ potensialı, innovasiyaya dövlət dəstəyinin dərəcəsi və digərləridir.

Ümumiyyətlə, müəssisənin innovativ fəaliyyətinin uğuru son nəticədə ölkədə mövcud olan obyektiv şəraitin və onun seçdiyi strategiyanın səmərəli birləşməsinin nəticəsidir. Bir çox uğurlu müəssisələrin innovasiya strategiyasının təhlili göstərir ki, bununla bağlı ümumi qəbul edilmiş standartlar yoxdur. Müvəffəqiyyətli firmaların istifadə etdiyi spesifik strategiyalar hər cəhətdən o qədər fərqlidir ki, vahid ümumi metodoloji müddəalardan danışmağa ehtiyac yoxdur. Firmaların strategiyasına müxtəlif amillər təsir edir. Bununla belə, bu strategiyaların mərkəzində bəzi ümumi cəhətlər var. Onların arasında aşağıdakıları ayırd edə bilərik.

1. Yeniləmə və təkmilləşdirmə. Uğurla fəaliyyət göstərən bütün müəssisələrin innovativ strategiyası elm və texnikanın ən son nailiyyətlərindən istifadə etməklə avadanlıq və istehsal texnologiyasının davamlı yenilənməsinə əsaslanır. İnnovasiyalar təkcə yeni texnologiyalar, avadanlıqlar deyil, həm də istehsalın təşkilinin yeni formalarını əhatə edir. Yeniliklərin tətbiqi məhsulun yeni dizaynında, yeni istehsal prosesində, marketinqə yeni yanaşmada və ya kadrların hazırlanmasında, onların işinin təşkilində yeni üsulla özünü göstərə bilər. İnnovasiyalar sərvət və ya xidmətlərin yaradılması prosesində demək olar ki, istənilən fəaliyyət növünü əhatə edə bilər.

2. Strategiyanın hərtərəfli xarakteri. Müəssisənin innovativ strategiyası öz təsiri ilə şirkətin bütün dəyər sistemini, fəaliyyətini, o cümlədən istehsalın özünü və məhsulun istehlakçı tərəfindən istifadəsini əhatə edir. Təchizatçılar və istehlakçılarla aktiv mübadilə innovasiya strategiyasının effektivliyinin və şirkətin rəqabət qabiliyyətinin qorunmasının ayrılmaz hissəsi və vacib şərtidir. Firmalar öz fəaliyyətlərini təchizatçılar və alıcılarla modernləşdirir və ya birləşdirir, vasitəçilərə münasibətdə strategiyalarını şaxələndirirlər.

3. Təkmilləşdirici amillər. İnnovativ strategiya texnologiyanın, istehsalın təşkilinin forma və üsullarının davamlı təkmilləşdirilməsinə, satışdan sonra müştərilərə xidmətə əsaslanır. Rəqiblərin kopyalaya bilməyəcəyi praktiki olaraq heç bir yenilik yoxdur. Müəssisə fəaliyyətinin bütün sahələrinin təkmilləşdirilməsinə lazımi diqqət yetirməyi dayandırarsa, rəqiblər çox tezliklə onu keçəcəklər. Düzdür, bəzi hallarda müəssisələr inkişafı dayandırdıqdan sonra da yalnız ilkin üstünlüklərə (müştərilərlə qurulmuş münasibətlər, texnologiyanı dəyişdirmədən miqyasda qənaət, şirkətə sadiq münasibətlər) arxalanaraq, illər boyu rəqabət üstünlüyünü qoruyub saxlaya bilirlər. Lakin gec-tez rəqiblər istehsalın təşkilinin daha səmərəli üsulları, daha müasir texnologiya və avadanlıqların tətbiqi ilə qabaqcıl şirkətin bu üstünlüklərini kompensasiya etmək üçün bir yol tapacaqlar. Müəssisə yalnız o zaman bazardakı mövqelərini uzun müddət saxlaya bilər ki, o, istehsalın təşkilinin daha səmərəli üsullarını daim inkişaf etdirib tətbiq etsin, texnologiyanı təkmilləşdirsin, marketinqi inkişaf etdirsin, bazar konyunkturasında və istehlakçı tələbatındakı dəyişikliklərə çevik reaksiya versin.

Beləliklə, diferensiasiya strategiyası əsasında rəqabət aparan firma davamlı olaraq artıq qəbul etdiyi differensasiyanı tamamlamaq üçün yeni yollar tapmalı və ya heç olmasa köhnə üsullarla bu prosesdə effektivliyini artırmalıdır. Bununla belə, təcrübə göstərir ki, daimi yenilənmə və təkmilləşdirmə ehtiyacı çox vaxt şirkətdə formalaşmış biznesin təşkili ənənələri və formaları ilə ziddiyyət təşkil edir.

4. Firmanın rəqabət üstünlüyü mənbələrinin təkmilləşdirilməsi. İstehsalda təşkilati və texniki yeniliklərdən istifadə etməklə bir dəfə rəqabət üstünlüyü əldə etmiş firma öz mənbələrini saxlamaq və təkmilləşdirmək üçün daim səy göstərməsə, onu asanlıqla itirə bilər. Rəqabət üstünlüyünün saxlanılması yeni ideyanın qəbul edilməsindən və onun əsasında yeni məhsulun hazırlanmasından tutmuş satışdan sonra müştərilərə xidmətin forma və üsullarının təkmilləşdirilməsinə qədər şirkətin istənilən fəaliyyət növünə əsaslana bilər. Rəqabət üstünlüyü mənbələrinin mühüm xarakteristikası onların müəyyən müddət ərzində öz təsirini saxlamaq qabiliyyətidir. Bu strategiyalar rəqiblər tərəfindən asanlıqla kopyalana bilər, çünki bunun üçün yalnız müasir avadanlıq almaq lazımdır. Müəssisənin əldə etdiyi innovasiya üstünlüyünü qoruyub saxlamaq üçün onun üstünlüklərini genişləndirmək və gücləndirmək istiqamətində daim addımlar atması mütləq zəruridir və bu hərəkətlərdə o, rəqiblərini qabaqlamalıdır.

5. İnsan amilinin rolunun gücləndirilməsi. Müəssisənin innovativ fəaliyyətini aktivləşdirmək üçün bazarda onun istehsal etdiyinə bənzər, lakin daha ucuz və ya eyni qiymətə - daha keyfiyyətli yeni məhsulun görünməsi ilə yarana bilən xarici təhlükə meydana çıxa bilər. Belə bir təhlükə olmasa, heyətin əsas vəzifəsi yeni ideyaların yaradılması deyil, köhnə ideya və metodlara arxalanacaqdır. Müəssisənin aktiv fəaliyyətə keçməsi əsasən rəhbərin təşəbbüsündən asılıdır.

Müəssisə rəhbəri elə bir mühit yaratmalıdır ki, yeniliklərin tətbiqi əsasında şirkətin fəaliyyətinin bütün sahələrinin təkmilləşdirilməsinə nail ola bilsin.

Menecer, bütün işçilərə təkmilləşdirmə ehtiyacını dərk etməyə və planlaşdırılan tədbirlərin reallaşdırılmasını qətiyyətlə davam etdirməyə kömək edən atmosfer yaratmalıdır. Rəqabətdə öz yerini dərk etmək müəssisəyə bazar mühitinə uyğunlaşmağa və innovasiyaları intensivləşdirmək imkanlarından istifadə etməyə, bu əsasda həmin mühitdə mövqeyini gücləndirməyə kömək edir. Liderin istedadı cəmiyyət üçün alimin, rəssamın, sənətkarın istedadı qədər dəyərlidir. Onun meydana çıxması və xüsusən də təcrübi işlərdə reallaşdırılması məqsədilə müəyyən şərtlər lazımdır.

Müxtəlif amillərdən asılı olaraq müəssisə innovasiya strategiyasının növlərindən birini seçir:

- aparıcı. Məlumdur ki, bu tip strategiyanı fəth etmək və saxlamaq üçün məhsulların daim yenilənməsi, onların fərqləndirilməsi və diversifikasiyası zəruridir;
- müdafiə. Bu tip strategiya o zaman müəssisə tərəfindən seçilir ki, onun öz tədqiqat şöbələrinin inkişafı yolu ilə məhsulları daim yeniləmək üçün kifayət qədər vəsait yoxdur və fəaliyyəti təkmilləşdirmə və diversifikasiya etməklə məhdudlaşır;
- hücum. Bu tipə adətən portfelində maraqlı yeniliklər olan yeni innovativ firmalar müraciət edirlər;
- uyğunlaşma (imitasiya). Uyğunlaşma strategiyasının mahiyyəti, müəssisədə artıq qurulmuş təşkilati strukturlar və fəaliyyət tendensiyaları çərçivəsində əvvəllər mənimsənilmiş məhsulları, texnoloji prosesləri və xidmətləri təkmilləşdirməyə imkan verən qismən əsas olmayan dəyişikliklərin reallaşdırılmasıdır.

Beləliklə, müəssisənin innovasiyaya həssaslığı əsasən onun fəaliyyət göstərdiyi mühitdən, sərəncamında olan məlumat mənbələrindən və innovasiyanı inkişaf etdirərkən qarşısına qoyduğu vəzifələrdən asılıdır. Müəssisədə innovasiya strategiyası xarici təzyiqin və strateji məqsədlərin düzgün seçilməsinin təsiri altında tətbiq edilir. Liderin rolu bu problemlərin həlli üçün mühit yaratmaq və innovasiyaları intensivləşdirmək və öz sənayesində uğurla rəqabət aparmaq üçün əlverişli şəraitdən yararlanmaqdır.

TURİZMİN ÖLKƏNİN DAVAMLI İNKİŞAFINDA ROLUNUN QİYMƏTLƏNDİRİLMƏSİ

Nəcəfzadə B.A.
Sumqayıt Dövlət Universiteti
E-mail: balahuseynnecefzade@gmail.com

Ötən əsrdən etibarən turizm qlobal bir fenomen kimi bir çox ölkələrin və regionların dünya düzəninə, mədəniyyətinə və iqtisadiyyatına böyük təsir göstərir. Turizm sahəsində reallaşdırılan siyasət və turizm kimi qlobal fenomenin ölkə və regionların müasir siyasətinə təsiri böyük önəm daşıyır. Turizm digər fəaliyyət sahələri ilə qarşılıqlı əlaqədədir və ölkələrin və regionların davamlı inkişafının təmin edilməsində önəmli rol oynayır. Əgər turizm sektoru müəyyən bir sistem kimi təqdim olunarsa, onda onun ayrı-ayrı komponentlərini

müəyyənləşdirmək və bu sistemin elementləri kimi qəbul etmək olar. Turizm sektorunun əsas elementləri turoperatorlar və turagentlər, nəqliyyat təşkilatları, tur agentlikləri, qonaqpərvərlik sənayesi və digərləridir. Fikrimizcə, bu sistemin normal tarazlı fəaliyyətini təmin etmək üçün ilk öncə "dayanıqlılıq" və "dayanıqlı inkişaf" anlayışlarının nə olduğunu müəyyənləşdirmək lazımdır. "Dayanıqlılıq" turizm infrastrukturu və ya sisteminin elementlərinin balanslaşdırılmış qarşılıqlı əlaqəsi, "davamlı inkişaf" isə həmin sektorun elementlərinin kəmiyyət və keyfiyyət göstəricilərinin və spesifik xüsusiyyətlərinin artım və inkişafının nisbəti kimi müəyyənləşdirilə bilər.

Sosial-iqtisadi sistemlərin davamlı inkişafının ümumi nəzəriyyəsinə uyğun olaraq, turizmin davamlı inkişafı aşağıdakı bölmələri ehtiva etməlidir:

- intensivləşdirməyə əsaslanan turizmin iqtisadi inkişafının davamlılığının təmin edilməsi, bu istiqamətə böyük turist axınının cəlb edilməsi;
- yerli əhalinin turizm fəaliyyətinə daha fəal cəlb edilməsi yolu ilə reallaşdırılan turizm fəaliyyətinin sosial dayanıqlığının təmin edilməsi. Bu, yeni iş yerlərinin yaradılmasına, turizm fəaliyyətinin intensivləşdirilməsinə, yerli infrastrukturun yaxşılaşdırılmasına faydalı təsir göstərəcək və yerli sakinlərin rahat yaşayışını artıracaq;
- turizm sektorunun inkişafının ekoloji dayanıqlığının təmin edilməsi.

Rəqabətqabiliyyətli turizm sənayesinin yaradılması üçün bu sahədə strateji məqsəd və vəzifələri, onların həlli mexanizmləri və vasitələrini, reallaşdırılması üçün ixtisaslı kadrların seçilməsini və s.-ni özündə ehtiva edən səmərəli dövlət idarəçiliyinin olması vacibdir.

Regionlar turizmin inkişafı üçün məsuliyyət daşımalı, ilk öncə öz turizm ehtiyatlarına, potensialına və imkanlarına diqqət yetirməlidirlər. Bütövlükdə regionlarda turizmin inkişafına mane olan amillər var ki, bunların ən əsaslarına aiddir: milli turizm məhsulunun dünya bazarlarında kifayət qədər təşviq edilməməsi; investisiya qoyuluşu üçün kifayət qədər əlverişli şəraitin olmaması; bəzi turizm müəssisələrində turist xidmətlərinin aşağı keyfiyyəti; mehmanxana xidmətlərinin baha olması və s.Mövcud problemləri həll etmək üçün dövlətin qarşısına aşağıdakı vəzifələr qoyulmalıdır: regionların qlobal və daxili turizm bazarlarında turizmin əlverişli ərazi kimi reklam və informasiya imicinin təbliği; regional turizm sənayesinin inkişafına dövlətin qanunvericilik, təşkilati və maliyyə dəstəyinin təmin edilməsi; turizm sahəsində investisiya siyasətinin təkmilləşdirilməsi; turizm sahəsində regionlararası əməkdaşlığın inkişafı; turizm sənayesində xidmətlərin keyfiyyətinin qiymətləndirilməsi üçün standartların hazırlanması; turizm sahəsində dövlət tərəfindən nəzarətin və uçotun təkmilləşdirilməsi; turoperatorların hüquqi məsuliyyətinin həcminin dəqiqləşdirilməsi, onların reyestrinin aparılması və turizm məhsulunun uçotunun aparılması üzrə tədbirlərin yenilənməsi; turizm sektoruna dəstək tədbirlərinin səmərəliliyinin artırılması üçün alətlərin təkmilləşdirilməsi; turistlərin şəxsi təhlükəsizliyi üçün şəraitin təmin edilməsi və s.

Dövlət özünün səmərəli mexanizmləri ilə turizm fəaliyyətinin inkişafında önəmli rol oynayır. Bu mexanizmlərdən biri də turizm sektorunun idarə olunması üzrə vahid dövlət siyasətinin hazırlanmasıdır. Əgər bütün səviyyələrdə dövlət orqanlarının, ticarət-sənaye palatalarının və ölkənin işgüzar dairələrinin səyləri birləşdirilərsə, onda turizm üçün layiqli şərait yaratmaq mümkün görünür. Bu şərtlərlə regionların inkişafı güclü təkan alacaq və nəticədə ölkə vətəndaşlarının həyat keyfiyyətinin və səviyyəsinin yaxşılaşdırılmasına nail olunacaq. Bundan əlavə, turizm inkişafı ölkədə əlverişli investisiya mühitinin yaradılmasına, bütün səviyyəli büdcələrə daxilolmaların artmasına, iqtisadiyyatın stimullaşdırılmasına, turizm sektorunda xidmət keyfiyyətinin yüksəldilməsinə şərait yaradacaqdır. Bunlar daxili turist axınını artıracaq və bütün ölkə əhalisi üçün turizmin əlçatan olmasına öz töhfəsini verəcək.Turizmin inkişafı problemlərinin həlli ilə onun davamlı inkişafda rolunun artırılmasına nail olmaq olar. Turizmin ölkənin davamlı inkişafında rolunun qiymətləndirmək üçün aşağıdakı şəkilə diqqət yetirək.

Şəkildən turizm sektoruna qoyulan investisiyaların qeyri-bərabər artdığını görmək olar. Ən çox 2014-cü ildə 2204,0 milyon ABŞ dolları olmaqla həmin sektora investisiya yönəldilib ki, bu göstərici 2021-ci ilə görə 9,1 dəfə, 2020-ci ilə görə 27,8 dəfə, 2019-cu ilə görə 16,5 dəfə, 2015-ci ilə görə isə 2,1 dəfə çoxdur. Ümumilikdə 2021-ci ildə ölkə iqtisadiyyatına 14890,4 milyon ABŞ dolları investisiya yönəlib ki, bunun 242,4 milyon ABŞ dolları və 1,6%-i turizmə yönəldilib. Bütün bu göstəricilər turizmin investisiya cəlbediciliyinin artırılması və bu yolla həmin sektorun ölkənin davamlı inkişafında rolunun artırılmasına çalışmaq lazımdır.



Şəkil. Turizm sektoruna qoyulan investisiyalar

Turizm sektorunun Azərbaycan iqtisadiyyatının prioritet sahələrindən birinə çevrilməsi üçün aşağıdakı kimi tədbirlərin görülməsi də zəruridir: 1. Ölkənin davamlı və balanslaşdırılmış regional iqtisadi inkişafının sürətləndirilməsi. 2. ÜDM-in həcminin daha da artırılması. 3. Əhalinin yaşayışının yaxşılaşdırılması. 4. Ölkənin tarixi və mədəni irsin qorunması, inkişafı və lazımi şəkildə təbliği. 5. Mədəni müxtəlifliyin və mədəniyyətlərarası dialoqun qorunması və inkişafı. 6. Təbii sərvətlərin qorunması, səmərəli istifadəsi, inkişafı, ekoloji problemlərinin həlli. 7. Ümumbəşəri dəyərlərin qorunması, inkişafı, təbliği, beynəlxalq həmrəyliyin və sülhün möhkəmləndirilməsi və bu proseslərdə Azərbaycanın rolunun daha da artırılması.

İNNOVASİYANIN İNKİŞAFDA ROLU

Nəcəfzadə K.V.
Sumqayıt Dövlət Universiteti
E-mail: kebiyye1999@gmail.com

İnnovasiyanın biznes səviyyəsində yeni məhsul və xidmətlərin yaradılmasına, texnologiyaların inkişafına istiqamətlənmiş təxəyyül və maliyyə cəhətdən faydalı fəaliyyətlərin son nəticəsi olduğunu bilirik. İnnovasiya dedikdə, yalnız yüksək texnologiya ilə yeni məhsulların istehsalı və ya istehsal prossesində yeni prosedurların sınaqdan keçirilməsi nəzərdə tutulmur. Beynəlxalq iqtisadi rəqabətin mövcud olduğu mühitdə iqtisadi baxımdan uğur qazanmış dövlətlərin təcrübəsinə diqqət yetirsək görərik ki, davamlı iqtisadi artım üçün yeni texnologiyaların və ya istehsal innovasiyalarının mənimsənilməsi zəruridir. Bu dövlətlər innovasiya potensialının inkişafda həlledici rol olduğunu bildikləri üçün onu fəaliyyətlərinin əvvəlində yaratmağa başlayıblar. Dövlətin şirkətlərin innovasiya potensialının artırılması, onların modernləşməsi üçün dəstək göstərməsi dövlətin öz maraqlarından (dünya bazarına çıxmaq, regional rəqabətdə üstünlük qazanmaq və s.) irəli gəlir. Belə ki, dövlətlər şirkətlərə hər zaman birbaşa yardım etmədikləri üçün təşkilati və maddi cəhətdən onlara yardım edərək dolayı yolla dəstək olurlar.İnnovasiyanın davamlı inkişafı üçün görülən işlər eyni zamanda aşağıda sadalananların inkişafını təmin edir: Təhsil və insan kapitalının inkişafı; İKT sahəsində təkmilləşmə; Əhalinin rifahı və iqtisadi artımın təmin edilməsi; Qloballaşmanın inkişafa təsiri; İnkişafın təşkili üçün təşkilati sistemlərin təkmilləşməsi; İnklüziv inkişaf.Məlumdur ki, inkişaf ilk növbədə təhsil səviyyəsindən asılıdır və bütün səviyyələrdəki təhsil sektorunun keyfiyyətindən təsirlənir. Yüksək ixtisaslı kadrların hazırlanması böyük maliyyə vəsaitlərinin xərclənməsini və uzun zaman tələb edir. Məhdud büdcələr və sektordakı potensialın aşağı olması "bacarıqların" özünü göstərməsinə maneçilik yaradır.

Digər tərəfdən insan kapitalına investisiya mövcud yüksək ixtisaslı kadrların məşğulluğunun təmin edilməsinə səbəb olacaq. Yüksək ixtisaslı insan kapitalının xaricə axınının qarşısının vaxtında alınmaması

inkişafı ləngiməsinəsəbəb olar və ölkə iqtisadiyyatı üçün risk yarada bilər. Kadrların xaricə axını əksər hallarda sonradan onların geri qayıtmaması ilənəticələnə bilir.

Yüksək innovativ texnologiyaya malik İEÖ-də bu sahə üzrə layihə rəhbərləri, menecerlər və tədqiqat institutlarınınmütəxəssisləri tələbələrlə yaxud şirkət nümayəndələri ilə birlikdə müxtəlif praktikalar, seminarlar və s. keçirirlər. Bütün bu fəaliyyətlərin məqsədi bu sahə üzrə yeni ixtisaslı kadrlar kəşf etmək və yüksək nailiyyətlər qazanmaqdır. İnformasiya və Kommunikasiya Texnologiyaları (İKT) məlumatların ötürülməsinin, yeniliklərin tətbiqinin, sınaqların həyata keçirilməsinin tez zamanda və az xərclə başa gəlməsini təmin edir. İKT-lərin ən mütəşəkkil formaları inkişaf etmiş ölkələrdə mövcuddur. Bu texnologiyalar dünyanın hər yerində məlumatları rahatlıqla əldə etməyə, öz müştəri kütlələrini artırmağa, şirkətin bazardakı yerini möhkəmləndirməyə kömək edir.İnkişaf etmiş ölkələrdə digər qrup ölkələrə nisbətdə innovasiyaların iqtisadiyyat üçün aktualığı daha yüksəkdir. İnnovasiyanın iqtisadiyyat üçün əhəmiyyətini düzgün dəyərləndirməyən ölkələr bu sahədə xərc çəkməkdən çəkinirlər. Bunun səbəbi kimi bu sahə üzrə təcrübələrinin, hazır kadrların olmaması göstərilir. Bu cür risk etməyən ölkələrin əhalisinin yoxsulluq, sağlamlıq və digər bu kimi sosial-iqtisadi problemləri tamamən həll edilə bilmir. İxrac məhsulları kənd təsərrüfatı üzrə ixtisaslaşan bu ölkələrin iqtisadiyyatında innovasiyaların tətbiqi yeni məhsuldar sortların, suvarma sistemlərinin, istehsal texnologiyalarının yaranmasına səbəb olub. Hətta bu sahə üzrə ixtisaslaşan ölkələrdə R&D (Axtarış&İnkişaf) əhalinin rifahının və yoxsulluğunun düzəlməsinə daha müsbət təsir göstərir. Son dövrlərdə beynəlxalq perspektivdə innovasiyaların iqtisadi deyil, ekoloji və sosial inkişafa təsirini maksimuma çatdırmaqdır.

Qloballaşmanın innovasiya müsbət təsirləri aşağıdakılardan ibarətdir: Sahə üzrə ixtisaslaşmaya səbəb olur; Yeni texnologiyalara çıxış yaranır; Bazar gücünü artırır, rəqabətdə üstünlük yaradır; Şirkətin innovasiya performansını yüksəldir.Eyni zamanda mövcud layihələrdə qloballaşmanın şirkətlər üçün yaratdığı risklər, ölkəiqtisadiyyatına təsiritədqiq edilir.İnnovativ fəaliyyətlə məşğul olan şirkətlər dövlətdən təşkilati dəstək alırlar. İnkişaf etmiş ölkələrlə müqayisədə inkişafda olan ölkələrdə dövlət lazımi dəstəyi şirkətlərə göstərməkdə çətinlik çəkir. Məsələn, qurumlar arasında düzgün koordinasiya sisteminin qurulmaması, ixtisaslı kadrların azlığı, informasiya qıtlığı, zəif elmi baza və s. bunlara misal ola bilər. Hazırda İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələr üçün onların inkişaf səviyyəsi və iqtisadiyyatının strukturunu təhlil edərək elə layihə hazırlayır ki, onlar arasında kommunikasiya problemi həll olunsun.

Ölkələrin inkişaf səviyyəsindən asılı olaraq, böyümə prossesi fərqli gedir və bəzən bütün ölkə iqtisadiyyatını əhatə edə bilmir. Bu özünü sənaye qrupları arasında, regionlar yaxud da sosial qruplar arasında göstərə bilər. Təbii ki, biz bu vəziyyətə ölkədaxili deyil, ümumi olaraq diqqət yetirsək, o zaman da inkişaf etmiş və inkişafda olan ölkələr arasındakı kəskin fərqləri görəcəyik. "İnklüziv innovasiya" məhz cəmiyyətdə müxtəlif qruplar arasındakı fərqlərin azaldılmasına yönəlir. "İnklüziv innnovasiyada" əhalinin ən aşağı təbəqəsinin həyat şəraitinin yaxşılaşdırılması üçün məhsul istehsalı nəzərdə tutulur. Bu çox istifadə olunan məhsulların sadə formada istehsalını nəzərdə tutur. Eyni zamanda bu cür innovasiyanın yerli sahibkarlığa faydası var. Belə ki, yaşayış standartını az da olsa yüksəldə bilən bu yeniliklər orta gəlirli qruplar tərəfindən tez mənimsənilir. İnklüzivliyin olmaması isə, ölkələr arasında gözəçarpan fərqlərin yaranmasına səbəb olur.

Sonda qeyd etməliyik ki, ölkəmizdə innovasiya potensialının artırılmasında dövlətin müsbət yöndə təsiri böyükdür. Bunun üçün dövlət tərəfindən innovasiya mərkəzləri yaradılır və onlar lazımi şəraitlə(laboratoriya və s.) təchiz olunur. İnnovasiya təhsilinin artırılmasının vacibliyi bu tipli mərkəzlərin ixtisaslı kadrlara olan tələbatı ilə izah edilə bilər. Lakin bu prossesdə fəaliyyətin motivləşməsinə, lazım gələrsə, vergilərdə güzəştlərin edilməsinə, aşağı faizli kreditlərin verilməsinə, elmi-tədqiqat mərkəzlərinin bir-birilə əlaqəli fəaliyyətinin təmin edilməsinə xüsusi diqqət edilməlidir.

GÖMRÜK SİYASƏTİNİN ÖLKƏNİN İQTİSADİ İNKİŞAFINDA ROLU

Nəsirova A.N.
Sumqayıt Dövlət Universiteti
E-mail: nsirliaysel@gmail.com

İqtisadi siyasət iqtisadiyyatın idarə edilməsi sahəsində dövlətin məqsədyönlü tədbirləri sistemidir; müəyyən dəyər və ehtiyaclar kontekstində formalaşan ictimai maraqların həyata keçirilməsi prosesidir. İdarəetmənin bazar mexanizmlərinə dövlətin müdaxiləsinin zəruriliyi iqtisadi siyasətin mahiyyətinin, məzmununun, cəmiyyətdəki rolunun və yerinin nəzəri cəhətdən əsaslandırılmasını zəruri edir.

İqtisadi siyasətin subyektləri iqtisadi və siyasi hakimiyyətə malik dövlət onun köməyi ilə müxtəlif qrupların iqtisadi maraqlarını uyğunlaşdırır, onların əmək fəaliyyətini müəyyən məqsədlərə çatmağa yönəldir, qanunvericiliyi müəyyən edir və təsdiq edir. Dövlətin iqtisadi siyasətinin formalaşdırılması milyonlarla insanın və müəssisələrin mənafeyinə toxunur, ölkənin inkişaf perspektivlərini müəyyənləşdirir. və onun qərarını yalnız məmurlara həvalə etmək üçün çox vacib məsələdir. Dövlətin iqtisadi siyasətinin inkişafına səthi münasibət onun həyata keçirilməsinə mənfi təsir göstərir.Dövlətin iqtisadi siyasətinin bir sıra istiqamətləri vardır ki, bunlardan biri gömrük siyasətidir. Gömrük siyasəti malların gömrük sərhədindən keçirilməsi zamanı dövlət maraqlarını həyata keçirmək məqsədi ilə səlahiyyətli dövlət orqanları tərəfindən sistemli və məqsədyönlü şəkildə həyata keçirilən tədbirlər məcmusudur. Gömrük siyasəti özlüyündə mürəkkəb anlayış olmaqla bir-biri ilə sıx bağlı olan hüquqi, iqtisadi, təşkilati və psixoloji komponentlərlə səciyyələnir.

Qeyd etmək lazımdır ki, gömrük işi gömrük siyasəti vasitəsilə həyata keçirilir.

Gömrük siyasəti - dövlət tərəfindən həyata keçirilən və gömrük münasibətlərinin hərtərəfli tənzimlənməsinə və ölkənin iqtisadi maraqlarının həyata keçirilməsinə yönəlmiş iqtisadi, hüquqi, təşkilati və digər tədbirlər sistemidir. Gömrük siyasəti milli maraqların təmin edilməsi üçün zəruri olan səmərəli gömrük sisteminin təşkili məqsədilə dövlət tərəfindən həyata keçirilən tədbirlər (iqtisadi, siyasi, təşkilati, hüquqi) sistemidir. Gömrük siyasəti dövlətin həm daxili, həm də xarici siyasətinin üzvi tərkib hissəsidir. O, bir tərəfdən dövlətin aktiv ticarət balansının saxlanmasına, onun iqtisadi və siyasi müstəqilliyinə, milli iqtisadiyyatın möhkəmlənməsinə və inkişafına yönəlmişdir. Gömrük rüsumları ölkənin daxili bazarında qiymətlərin səviyyəsinə təsir göstərdiyindən ölkədə təkrar istehsal proseslərinə, mənfəətin sürətinə və iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişaf sürətinə birbaşa təsir göstərir. Ümumiyyətlə, gömrük siyasəti dövlətin daxili və xarici siyasətinin tərkib hissəsi olmaqla gömrük işinin strategiyasını müəyyən etmiş, gömrük tənzimlənməsi mexanizmini formalaşdırmış və bu, müvafiq qanunvericilik və normativ-hüquqi aktlarda öz əksini tapmışdır. Gömrük işi öz qanunları əsasında inkişaf etmişdir. Bu obyektiv proses dövlətlər arasında və dövlətdaxili iqtisadi və ticarət əlaqələri sferasında özünü göstərmiş, xarici ticarətin və iqtisadiyyatın tənzimlənməsi, bütövlükdə maliyyə sisteminin sabitləşdirilməsi mexanizmlərindən birinə çevrilmişdir. Gömrük siyasəti gömrük işindən fərqli olaraq törəmə və əsasən subyektiv bir hadisədir. O, dövlət funksiyalarına istinad edir və gömrük-tarif qaydaları əsasında ticarət əlaqələri ilə bağlı ölkədaxili və beynəlxalq tədbirlər üçün strategiya formalaşdırır. Beləliklə, gömrük siyasəti geniş sahələri əhatə edir. Bu, təkcə dövlətin fəaliyyəti və xarici iqtisadi əlaqələrin həyata keçirilməsi deyil, həm də onun suverenliyinin təzahürünün tərkib hissəsi və qanunvericilik və icra hakimiyyəti orqanlarının xüsusi qayğısının predmetidir. Bu baxımdan, gömrük siyasətini, onun istiqamətini, xarici iqtisadi problemlərin həllinə və ölkənin müəyyən etdiyi planların həyata keçirilməsinə təsir imkanlarını xarakterizə edən bir sıra əlamətlər mövcuddur. Gömrük siyasəti, onun strategiyası və taktikası dövlətin iqtisadi və ticarət siyasətinin həyata keçirilməsini təmin edir. Gömrük siyasəti dövlət yaranandan məlumdur. Onun tarixini bilmək gömrük işçilərinə toplanmış tarixi təcrübəni nəzərə alaraq peşəkar düşünməyə, düzgün qərarlar qəbul etməyə kömək edir. Gömrük siyasəti elmi metodologiya, gömrük qanunlarını bilmək və onlardan iqtisadiyyat, maliyyə və beynəlxalq ticarət problemlərinin həllində istifadə etmək əsasında formalaşır.

Gömrük siyasəti iqtisadi təhlükəsizliyin təmin edilməsinə töhfə verməlidir ki, bu da ölkənin kifayət qədər sosial, siyasi və müdafiə mövcudluğunu və mütərəqqi inkişafını, iqtisadi maraqlarının mümkün xarici və xarici təsirlərə qarşı toxunulmazlığını və müstəqilliyini təmin edən iqtisadiyyatın vəziyyəti kimi başa düşülür. daxili təhdidlər və təsirlər. Eyni zamanda, dövlətin gömrük siyasəti ölkələr arasında ticarətin həcminə bilavasitə təsir edir, istehsalın milli və beynəlxalq şərtlərindəki fərqləri bərabərləşdirməyə kömək edir, dövlət iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasına töhfə verir. Gömrük siyasətinin maliyyə, iqtisadi, siyasi və hüquqi sistemlər üçün əhəmiyyətinə baxmayaraq, tənzimləyici səviyyədə bu anlayışın vahid tərifi yoxdur. Hazırda malların ölkənin gömrük sərhədindən keçirilməsi, onların gömrük nəzarəti altında vahid gömrük ərazisindən keçirilməsi, müvəqqəti saxlanması, gömrük bəyannaməsi, buraxılışı və gömrük prosedurlarına uyğun istifadəsi, gömrük nəzarəti ilə bağlı münasibətlərin hüquqi tənzimlənməsi, gömrük rüsumlarının ödənilməsi, habelə gömrük orqanları ilə bu mallara sahiblik, istifadə və sərəncam hüquqlarını həyata keçirən şəxslər arasında münasibətləri gömrük qanunvericiliyi ilə tənzimlənir.

Gömrük siyasəti xarici ticarətin tənzimlənməsi, ölkənin iqtisadi maraqlarının qorunması və fiskal problemlərin həlli üçün dövlətin iqtisadi və gömrük-hüquq tədbirlər sistemidir. Gömrük siyasəti gömrük işindən fərqli olaraq törəmə və əsasən subyektiv bir hadisədir. O, dövlət funksiyalarına istinad edir və gömrük tarif qaydalarına əsaslanaraq ticarət əlaqələri ilə bağlı ölkədaxili və beynəlxalq tədbirlər üçün strategiya formalaşdırır.

Yuxarıda deyilənlərdən belə nəticəyə gəlmək olar ki, gömrük siyasəti geniş sahələri əhatə edir. Bu, təkcə dövlətin xarici iqtisadi əlaqələrin həyata keçirilməsində fəaliyyəti deyil, həm də onun suverenliyinin təzahürünün tərkib hissəsi olmaqla qanunvericilik və icra hakimiyyəti orqanlarının xüsusi qayğısının predmetidir. Əsas odur ki, XİF-in tənzimlənməsinin gömrük mexanizminin formalaşmasına gömrük siyasətinin təsiridir. Gömrük siyasəti obyektiv gömrük qanunlarına əsaslandıqda, dövlətin işləyib hazırladığı gömrük tarifi belə obyektiv gömrük siyasətinin təmərküzləşdirilmiş ifadəsi olduqda müsbət effekt əldə edilir. Səmərəli gömrük siyasəti, onun strategiyası və taktikası dövlətin iqtisadi və ticarət siyasətinin həyata keçirilməsini təmin edir.

DÜNYADA BAŞ VERƏN MALIYYƏ BÖHRANLARI: TƏHLIL VƏ TƏCRÜBƏLƏR

Novruzbəkov M.R.
Azərbaycan Memarlıq və İnşaat Universiteti
E-mail: Novruzbekovmurad1@gmail.com

Dünya iqtisadiyyatı tarixi boyunca bir sıra maliyyə böhranları ilə üzləşmişdir. Bu böhranlar, qlobal maliyyə sistemini, ölkələrin iqtisadiyyatını, yerli və beynəlxalq təşkilatları, habelə cəmiyyəti dərin təsir altında qoyur. Bu məqalədə dünyada baş verən ən nüfuzlu maliyyə böhranları təhlil olunacaq, onların səbəbləri, nəticələri və əldə olunan təcrübələrə əsaslanaraq təhlil aparılacaq.Büyük İqtisadi Böhran-1929-cu ildə Amerika Birləşmiş Ştatlarında baş verən Büyük İqtisadi Böhran, 20-ci əsrin ən ağır maliyyə böhranlarından biri kimi tanınır. Bu böhranın səbəbləri arasında hissə sənədləri bazarında spekulyasiya, həddindən artıq infilyasiya və kredit sistemində həddən artıq genişlənmə sayıla bilər. Büyük İqtisadi Böhran dünya iqtisadiyyatına dərin bir zərbə vurdu və işsizlik, yoxsulluq və sosial qarışıqlığa gətirib çıxardı.

Neft Böhranı-1973-cü və 1979-cu illərdə baş verən neft böhranları, qlobal maliyyə sistemində böyük sarsıntılara səbəb oldu. OPEC ölkələri neft hasilatını azaldaraq və neftin qiymətini artıraraq enerji bazarında böyük bir təzyiq yaratdılar. Bu, dünya iqtisadiyyatında infilyasiyanı artırdı, ölkələrin büdcə dəngəsini pozdu və dünya iqtisadiyyatının durğunlaşmasına yol açdı.Asiya Maliyyə Böhranı-1997-ci ildən başlayaraq, Asiya ölkələri maliyyə böhranı ilə üzləşdilər. Krizin səbəbləri arasında həddən artıq kredit genişlənməsi, dövlət borclarının artması və spekulyasiya sayıla bilər. Böhranın nəticələri, ölkələrin valyuta dəyərlərinin düşməsi, iflas edən şirkətlərin sayının artması və işsizliyin yüksəlməsi kimi təzahür etdi. Asiya böhranı dünya iqtisadiyyatına geniş miqyaslı təsir göstərdi, xüsusilə də bəzi qərbi ölkələrin iqtisadiyyatında təsirli oldu. Bu böhrandan sonra, əksər Asiya ölkələri iqtisadiyyatlarını yenidən qurmaq üçün strukturlaşdırma tədbirləri qəbul etdilər.

Dotcom Böhranı-2000-ci illərin əvvəlində, internet şirkətləri bazarında həddən artıq qiymətləndirmə və spekulyasiya nəticəsində Dotcom böhranı baş verdi. Bu kriz, bir çox internet şirkətlərinin iflas etməsi, hissə sənədləri bazarında qiymətlərin düşməsi və investorların itkiyə məruz qalması ilə nəticələndi. Dotcom böhranından sonra, internet sektorunda daha səmərəli iş modelləri və təşkilat strukturları meydana gəldi.

Qlobal Maliyyə Böhranı-2008-ci ildə baş verən Qlobal Maliyyə Böhranı, dünya iqtisadiyyatına dərin bir təsir göstərdi. Bu böhranın səbəblərinə maliyyə sektorunda həddən artıq qaldıraclar, ipoteka kreditlərinin qüsursuzlaşdırılması və təhlükəsizliklərə yönəlmiş tələbatın zəif olması nümunə göstərilə bilər. Böhranın nəticələri bankların iflası, maliyyə sisteminin çöküşü, kütləvi işsizlik və kütləvi ev itkiləri kimi təzahür etdi. Böhrandan sonra, beynəlxalq təşkilatlar və ölkələr maliyyə nəzarətini gücləndirən qanunvericiliklər qəbul etdilər.Nəticə olaraq, dünyada baş verən maliyyə böhranlarının təhlilindən görünür ki, bu krizlər əsasən spekulyasiya, həddən artıq kredit genişlənməsi, maliyyə qaldıraclarının istifadəsi və nəzarət sistemlərinin zəifliyi kimi səbəblərdən irəli gəlir. Krizlərdən əldə olunan təcrübələr, ölkələrin maliyyə sistemini sabitləşdirmək və böhranlardan qorunmaq üçün nəzərə almalı olduğu tədbirlərə işarə edir. Bu tədbirlər arasında maliyyə nəzarətinin gücləndirilməsi, həddən artıq kredit genişlənməsinin qarşısının alınması, maliyyə qaldıraclarının tənzimlənməsi və şəffaf maliyyə təşkilatlarının yaradılması sayıla bilər.

Həmçinin, dünya iqtisadiyyatında baş verən maliyyə böhranları, beynəlxalq əməkdaşlığın önəmini vurğulayır. Ölkələr və beynəlxalq təşkilatlar, maliyyə krizlərinin təsirini azaltmaq və yeni böhranların qarşısını almaq üçün birgə çalışmalıdırlar. Bu əməkdaşlıq, maliyyə qanunvericiliyinin və nəzarət sistemlərinin əlverişli standartlara uyğunlaşdırılması, təcrübə və məlumat mübadiləsi, habelə böhran zamanı təcili yardım və dəstək təşkil etməklə həyata keçirilə bilər.

Son olaraq, dünyada baş verən maliyyə böhranları, iqtisadiyyatın mürəkkəbliyi və sabitliyinin qorunması üçün lazımi tədbirlərin tətbiq olunmasının vacibliyini ortaya qoyur. Bir sözlə, ölkələr öz maliyyə sistemlərini sabit və dayanıqlı hala gətirməkdə və beynəlxalq əməkdaşlıq yolu ilə bu krizlərin təkrarlanmasının qarşısını almaqda maraqlı olmalıdırlar.

İQTİSADİYYATIN İNKİŞAFINDA TURİZM SEKTORUNUN ƏHƏMİYYƏTİ

Oruclu N.S.
Naxçıvan Dövlət Universiteti
E-mail: nuranoruclu65@gmail.com

Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Turizm Təşkilatına görə turizmin tərifini bu şəkildə ifadə edə bilərik:

"Turizm, insanların şəxsi, işgüzar və peşəkar məqsədlər üçün həmişəki mühitdən kənar ölkələrə və ya yerlərə hərəkətinə imkan verən sosial-iqtisadi aspektlər məcmusudur."

Bu insanlar turist və ya ziyarətçi adlanır və turizm onların fəaliyyəti ilə bağlıdır. Bunu da qeyd etmək lazımdır ki, turistik səfərlərin və ziyarətlərin təşkilində əsas həlledici məqamlardan biri turizm xərcləridir".

Beynəlxalq turizm 2022-ci ilin ilk yeddi ayında pandemiyadan əvvəlki göstəricilərin 57%-nə çatmaqla 2022-ci ilin iyul ayına qədər güclü performans göstərməyə davam etdi.Qlobal səviyyədə səyahət edən turistlərin sayında 2022-ci ilin yanvar-iyul aylarında 2021-ci ilin eyni dövrü ilə müqayisədə təxminən üç dəfə (+172%) artım müşahidə edilmişdir.Davamlı bərpa, xüsusilə Şimal Yarımkürəsinin yay mövsümünün bir hissəsi olan iyun və iyul aylarında beynəlxalq səyahətlərdə ciddi ölçüdə azalma müşahidə edilmişdir. Digər ölkələrdə səyahət məhdudiyyətlərinin yumşaldılması və ya götürülməsi də nəticələrin artmasına təkan vermişdir.Ölçüsü nəzərə alınmaqla, turizm sektorunun iqtisadi artıma, diversifikasiyaya və iqtisadiyyatların struktur transformasiyasına əhəmiyyətli təsir göstərəcəyi gözlənilir.

2022-ci ilin iyun və iyul aylarında birlikdə təxminən 207 milyon beynəlxalq gəliş qeydə alınıb ki, bu da keçən ilin eyni iki ayında müşahidə olunan rəqəmlərdən iki dəfə çoxdur. Bunu da qeyd etmək lazımdır ki, bu göstəricilər 2022-ci ilin ilk yeddi ayında qeydə alınan ümumi gələnlərin 44%-ni təşkil edir.

Avropa və Yaxın Şərq 2022-ci ilin yanvar-iyul aylarında ən sürətli bərpa göstəricilərini göstərmiş, gələnlərin sayı 2019-cu il səviyyəsinin müvafiq olaraq 74% və 76%-nə çatmışdır.Avropa (+190%) 2021-ci ilin ilk yeddi ayı ilə müqayisədə demək olar ki, üç dəfə çox beynəlxalq turist qəbul edib, Yaxın Şərqdə isə (+287%) 2022-ci ilin yanvar-iyul aylarında gələnlərin sayı ildə təxminən dörd dəfə artmışdır.

Amerika (+103%) və Afrika (+171%) 2022-ci ilin yanvar-iyul aylarında 2021-ci illə müqayisədə 2019-cu il səviyyəsinin müvafiq olaraq 65% və 60%-ə çataraq güclü artım qeydə alıb. Asiya və Sakit Okean regionuna (+165%) 2022-ci ilin ilk yeddi ayında gələnlərin sayı iki dəfədən çox artdı, baxmayaraq ki, onlar 2019-cu ilin səviyyəsindən 86% aşağıda qaldılar.

Turizmin bir sektor olaraq formalaşması İkinci Dünya Müharibəsindən sonra inkişaf etmiş ölkələr arasında xeyli geniş vüsət almışdır. Turizm sektorunun yerli iqtisadiyyatlar üçün əhəmiyyəti iyirminci əsrin ortalarında qəbul edilsə də, böyümə və inkişafa yönəlmiş qlobal araşdırmalara 1950-ci illərə qədər lazımi diqqət ayrılmamışdır. Bu sahədəki artım və inkişafla bağlı aparılan tədqiqatlar, turizmi- ayrı-ayrı ölkələrin böyüməyönümlü iqtisadi siyasətlərinin tərkib hissəsi olaraq 1950-ci illərdən etibarən nəzərdən keçirilməyə başladı. Turizmin getdikcə artan əhəmiyyəti kontekstində bir çox ölkələrin turizm sektorunun inkişafı üçün xüsusi tədbirlər planı qəbul etmişdir. Turizm sektorunun vasitəçiliyi ilə iqtisadi artımın dəstəklənməsi məqsədilə yürüdülən siyasətlərinin və qəbul edilən qərarların nəticələri bunu deməyə əsas verir ki, bəzi ölkələr bu sahədə əhəmiyyətli dərəcədə inkişafa nail olsalar da, bir sıra ölkələr isə bu mənada məqsədlərinə çata bilmədi. Turizm, həm inkişaf etmiş ölkələr üçün, həm də inkişaf etməkdə olan ölkələr üçün mühüm iqtisadi fəaliyyət növü kimi qəbul edilir. Bütün dünyada turizmin inkişafına artan diqqət və onu müşayiət edən təşviq siyasəti turizm sektorunun inkişafını xeyli sürətləndirir. Bu sahədə aparılan tədqiqat işlərində turizmin inkişafında rol oynayan əsas amilləri aşağıdakı kimi qeyd edilir: Ev təsərrüfatlarının gəlirlərinin artması; Nəqliyyat imkanlarının artması; İnkişaf etmiş ölkələrdə ödənişli məzuniyyətlərin müddətinin uzadılması; Kommunikasiya texnologiyalarının təkmilləşdirilməsi; Yeni sosial quruluşların formalaşması; Sənayeləşmənin sürətlənməsi; Texnoloji yeniliklərin insanların inkişafı ilə qarşılıqlı əlaqəli inkişaf; Mədəni inteqrasiyanın inkişafı.

2022-ci ilin sentyabr ayı sorğusuna əsasən, UNWTO Turizm Ekspertləri Paneli 2022-ci ilin may-avqust aylarını 125 balla (0-dan 200-ə qədər şkala üzrə) qiymətləndirib. İlin qalan hissəsi üçün gözləntilər nisbətən mənfi istiqamətdədir və 111 xalla inam səviyyəsinin aşağı düşdüyünü göstərir.

Mütəxəssislərin fikrincə, Ukraynadakı müharibə nəticəsində ağırlaşan yüksək inflyasiya və neft qiymətlərindəki sıçrayış da daxil olmaqla çətin iqtisadi mühit turizmin canlanmasının qarşısını alan əsas amil olmaqda davam edir.Mütəxəssislərin təxminən 61%-i artıq 2024-cü ildə və ya daha sonra beynəlxalq gəlişlərin 2019-cu il səviyyəsinə potensial qayıdışını proqnozlaşdırır, halbuki 2023-cü ildə pandemiyadan əvvəlki səviyyələrə qayıdış göstəriciləri may ayı sorğusu ilə (48%) müqayisədə azalıb (27%).

Hal-hazırda turizm milyonlarla insanın sosial-mədəni və psixoloji ehtiyaclarını ödəmək üçün əylənmək, istirahət etmək, səmərəli vaxt keçirmək, görməli yerləri gəzmək və ya öyrənmək məqsədilə başqa ölkəyə müvəqqəti səyahət etmə təcrübəsi kimi müəyyən edilə bilər. Turizm sosial və mədəni ölçüləri ehtiva edən bir fenomen olsa da, əslində iqtisadi ölçüsünə görə diqqətə layiq olan sosial fəaliyyətdir.Turistlər, səyahət etdikləri ölkədə səyahət, yerləşdirmə, yemək, muzey ziyarəti, suvenir və sair kimi xidmətlər müqabilində xarici valyuta ilə ödəniş edirlər. Bu gəlir mənbəyi geniş şəkildə "bacasız sənaye" adlanır, çünki o, daxili iqtisadiyyatın inkişafı baxımından, müəyyən mənada məhsul və xidmətlərin ixracı kimi qəbul edilir.

ELEKTRON BİZNESİN TƏKAMÜL MODELLƏRİ VƏ AZƏRBAYCANDA TƏTBİQİ

Paşayev Ş.A.
Odlar Yurdu Universiteti
E-mail: pervizamanov111@gmail.com

E-dövlətin İnT-nin idarə edilməsi olduqca mürəkkəb məsələdir və çətin formallaşdırılan məsələlər sinfinə aiddir: idarəetmə obyekti hərbiri məqsədyönlü fəaliyyət göstərən avtonom komponentlərdən ibarət mürəkkəb sosio-texniki sistemdir və burada bir-birinə əhəmiyyətli dərəcədə qarşılıqı təsir göstərən bir çox proses (sosial, texnoloji, siyasi, hüquqi və s.) baş verir, onlar arasında olduqca mürəkkəb səbəb-nəticə əlaqələri mövcuddur. Proseslərin xarakteri zamana görə dəyişir və proseslərin dinamikası haqqında kifayət qədər kəmiyyət informasiyası yoxdur, qeyri-müəyyənliyin müxtəlif növləri iştirak edir və s.

Çətin formallaşdırılan belə mürəkkəb məsələlərin həllində ilkin mərhələ kimi konseptual (latınca *conceptus* – anlayış) modelin qurulması çox faydalıdır. Konseptual modellər sistemin dinamikası haqqında bilikləri inteqrasiya etməyə, əsas prosesləri identifikasiya etməyə, proseslərin vəziyyətləri və identifikatorları arasında əlaqələri göstərməyə, mürəkkəb qarşılıqlı əlaqələrdə koordinasiyanı sürətləndirməyə imkan verir.

Konseptual modellərin bu imkanlarından çıxış edərək, bu fəsildə e-dövlətin İnT-nin idarə edilməsinin konseptual modeli qurulur və qurulmuş konseptual modeldə müəyyən edilən idarəetmə funksiyaları əsas götürülməklə e-dövlətin İnT sahəsində elmi-tədqiqatların müasir vəziyyəti tədqiq və analiz edilir. Nəhayət, dissertasiya işində araşdırılacaq e-dövlətin İnT-nin idarə edilməsinin aktual elmi-praktiki problemləri müəyyən edilir.Bu bölmədə təqdim olunan e-dövlətin İnT-nin idarə edilməsinin konseptualmodelində e-dövlətin İnT-nin mahiyyəti, idarəetmənin məqsədləri, predmeti, obyektləri, subyektləri, prinsipləri, funksiyaları, e-dövlətin İnT-ni idarəetmə sisteminin tərkibini və strukturunu müəyyən edən əsas faktorlar. Qeyd etmək zəruridir ki, təklif edilən model İnT-nin hüquqi, siyasi, hərbi, sosial, iqtisadi və s. problemlərin bütün aspektlərini əhatə etməyə cəhd etmir. Onun əsas məqsədi – e- dövlətin fəaliyyətinin üsul və vasitələri çərçivəsində reallaşdırılan İnT sisteminin əsaselementlərini – altsistemlərini aşkarlamaqdır.

Analiz göstərir ki, hələlik elmi ədəbiyyatda "elektron dövlət" və "informasiya təhlükəsizliyi" anlayışlarının müəyyən edilməsində vahid yanaşma formalaşmayıb.

Qeyd edək ki, rusdilli elmi ədəbiyyatda ingilisdilli "electronic government" (e- government) anlayışının "elektron hökumət" kimi tərcüməsi geniş yayılıb. Lakin ingilis dilində "government" termini ilə yalnız icra hakimiyyəti orqanı kimi hökumət deyil, bütövlükdə dövlət (dövlət idarəçiliyi) nəzərdə tutulur. Məsələn, Avropa İttifaqının Komissiyası "electronic government" terminini «*xidmətlərin və demokratikproseslərin yaxşılaşdırılması və dövlət siyasəti üçün dəstəyin möhkəmləndirilməsi üçün İKT-nin dövlət idarəetməsində təşkilati dəyişikliklər və yeni vərdişlərlə əlaqələndirməklə istifadəsi*» kimi müəyyən edir.

"Elektron dövlət" texnologiyasının tətbiqi dünyada 1990-cı illərdə dövlət idarəçiliyin islahatlarından başlayır. E-dövlətin məqsədi İKT istifadə edilməklə dövlət sektoru təşkilatlarının işini yaxşılaşdırmaqdır. İslahatların siyasi motivasiyası dövlətə cəmiyyətə xidmət edən və cəmiyyətin özü üçün zəruri səlahiyyətləri icra etməyi tapşırdığı institut kimi baxan konsepsiyanın yaranmasına şərait yaradır. Beləliklə, "e-

government" anlayışı "elektron dövlət idarəçiliyi"ni bildirir və İKT-nin yalnız icra orqanlarında deyil, hakimiyyətin qanunvericilik və idarəetmə qollarında da tətbiqini əhatə edir.

Müxtəlif müəlliflər e-dövlət üçün: "şəbəkələrarası dövlət", "*biznes tranzaksiyalarını onlayn yerinə yetirməkdən ötrü vətəndaşlar, dövlət qulluqçuları və digər maraqlı tərəflər üçün xərclər baxımından effektiv modellərin reallaşdırılması*", "*strategiya, proses, təşkilat və texnologiyanı inteqrasiya edən konsepsiya*" və s. kimi fərqli təriflər təklif edirlər.

Palvia və Sharma e-dövlətin müxtəlif tərifləri analiz edərək onu m-dövlət(dövlət xidmətlərinin göstərilməsi üçün simsiz texnologiyalardan istifadə) və e- idarəçilikdən (idarəetmənin təkmilləşdirilməsi məqsədi ilə dövlət və özəl sektor tərəfindən İKT-nin istifadəsi) fərqləndirirlər.

BMT-yə görə "*e-dövlət insanlara informasiyanın və dövlət xidmətlərinin təqdim edilməsi üçün dövlət tərəfindən İKT-nin istifadəsi və tətbiqidir. Bu səbəbdən, e-dövlətin məqsədi vətəndaşlara informasiya xidmətlərinin effektiv dövlət idarəetməsi, vətəndaşlara daha yaxşı xidmətlər təqdim edilməsi, informasiyaya çıxış və dövlət siyasətinin qəbulunda iştirak yolu ilə insanlara səlahiyyət verilməsidir*".

Dünya Bankının tərifində "*e-dövlət dövlət agentlikləri tərəfindən vətəndaşlarla, özəl sektorla və dövlətin digər qolları ilə münasibətləri transformasiya etmək imkanı olan texnologiyaların istifadəsi*" kimi müəyyən edilir.Başqa tərifdə e-dövlət məhsuldarlığı və səmərəliliyi artırmaq üçün vətəndaşlar və kommersiya institutları arasında informasiya, xidmətlər və malların mübadiləsində informasiya texnologiyalarından istifadə edən dövlət modeli kimi müəyyən edilir. Daha geniş mənada e-dövlət daha yaxşı dövlət strukturunun yaradılmasına çalışır, bu o deməkdir ki, e-dövlət "e" üzərində yox, daha çox "dövlət"də fokuslanır. Oxşar şəkildə "e-dövlət" anlayışı ənənəvi dövlət modelindən daha inkişaf etmiş və daha güclü IT potensiala və əlaqələrə əsaslanan "daha yaxşı dövlət strukturunu" bildirir.Richard Heeks "e-idarəçilik" terminini təklif edir, bu bütün İKT-ni əhatə etməlidir, lakin əsas innovasiyalar intranetdən İnternet-ə kimi kompüter şəbəkələrinə, yeni rəqəmsal birləşmələr yaradan hissəsinə aiddir. Heeks fərz edir ki, e-idarəçiliyin fokusu e-idarəçilik hissələrindən e-vətəndaşlar, e-xidmətlər və e-cəmiyyətə doğru dəyişir.

NAXÇIVAN MUXTARRESPUBLİKASININ DİNİ TURİZM POTENSİALI

Qarayev B.X.
Naxçıvan Dövlət Universiteti
E-mail: behman99qarayev@gmail.com

Turizm iqtisadiyyatda sürətlə inkişaf edən, cəmiyyətin sosial-iqtisadi həyatına əhəmiyyətli təsir göstərən sahədir. İqtisadiyyatda, cəmiyyətdə, beynəlxalq münasibətlərdə tutduğu yerə görə maraqlı tədqiqat mövzusudur. Azərbaycanın tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası sosial-iqtisadi, siyasət, mədəniyyət kimi müxtəlif sahələrdə sürətli inkişaf yolu keçmişdir. Nəticə etibarı ilə bölgə turizm sahəsində tədqiqatlar üçün xüsusi maraq kəsb edir. Azərbaycanda həyata keçirilən geniş quruculuq, inkişaf və yenidənqurma layihələri Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı və onun siyasi kursunun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ilə sıx bağlıdır. Qədim Azərbaycan torpağı olan Naxçıvanın hərtərəfli inkişafı tarixin heç bir mərhələsində indiki səviyyədə olmayıb. Bu inkişaf həyatın bütün sahələrində, o cümlədən turizmdə özünü göstərir. Mədəniyyət və tarixi abidələr hər bir xalqın qədimliyinin sübutudur. Bu baxımdan Naxçıvan ərazisi xüsusi diqqəti cəlb edir. Bu qədim diyarda ilk insanların yaşadığı mağaralar, qədim yaşayış məskənləri, ilkin şəhər sivilizasiyasının qalıqları, möhtəşəm qala divarları, qayaüstü rəsmlər, daş heykəllər, türbələr və s. daha çox. Naxçıvanda, Əshabi-Kəhf və Kilit mağaralarında aparılan qazıntılar daş dövrü sivilizasiyasının qalıqlarını qoruyub saxlayır. Eramızdan əvvəl III minilliyin sonu - II minilliyin əvvəllərində Naxçıvan ərazisində Oğlanqala, Çalxanqala, Çovurqala kimi qala şəhərləri salınmışdır. Gəmiqayanın qayaüstü rəsmləri eramızdan əvvəl IV-I əsrlərdə xalqımızın bədii, fəlsəfi, dini-ideoloji baxışlarını əks etdirən qiymətli təsvirlər qalereyasıdır. Son illər Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafına, tarix-memarlıq abidələrinin bərpasına, rayonda turizmin bütün növlərinin inkişafına ciddi diqqət yetirilir. Ölkəmizdə turizmin inkişafı böyük ölçüdə hər bir regionun turizm potensialından səmərəli istifadə olunmasından asılıdır. Hər bir bölgənin turizm ehtiyatlarının kompleks şəkildə araşdırılması, inkişaf etdirilə biləcək turizm növlərinin müəyyən edilməsi, müvafiq turizm məhsullarının hazırlanması və istehlakçılara təqdim edilməsi həlledici əhəmiyyətə malikdir. Turizmin ən qədim növlərindən biri olan dini turizm insanların ziyarəti və dini inancları ilə bağlıdır və onları səyahətə sövq edir. Bu motivasiya müxtəlif dini mənsubiyyətə malik insanları müqəddəs yerləri ziyarət etməyə və dini

ehtiyaclarını ödəməyə sövq edir. Demək olar ki, bütün dünyəvi dinlərdə, o cümlədən İslamda insanların əsrlər boyu kütləvi ziyarətlər etdiyi müqəddəs ziyarətgahlar var. Həcc adlanan bu dini ənənə çoxlu sayda dindarları cəlb edir və bəşəriyyət tarixi boyu öz əhəmiyyətini davam etdirir. Dini turizm insanların həyatında mühüm yer tutur və onun inkişafı əsas prioritet olmalıdır. Belə nümunələrdən biri də Naxçıvandan təxminən 13 km aralıda yerləşən Əshabi-Kəhf təbii mağara ziyarətgahıdır. Qurani-Kərimdə adı çəkilən bu mədəni-tarixi abidənin 330 il yuxuya gedən, zülmə məruz qalan yeddi gəncin gizləndiyi yer olduğu güman edilir.

Azərbaycanın ümummilli lideri Heydər Əliyev Əshabi-Kəhfinin bərpası və abadlaşdırılması ilə bağlı göstəriş vermiş, zəvvarlar üçün rahat yol, məscid və kitabə tikilmişdir. Gəmiqaya çəmənlikləri naxçıvanlıların təsərrüfat həyatının mühüm hissəsini təşkil etmiş, Bibqatal piri kimi təbii məbədləri ilə müqəddəs sayılır. Dağın Gəmi adı Nuhun gəmisi əfsanəsi ilə bağlıdır. Ərazidə eramızdan əvvəl III-I minilliklərə aid qayaüstü rəsmlər və piktoqraflar var. Naxçıvanda bir sıra dini yerlər, o cümlədən İmamzadə məscidi və məqbərə kompleksi (XII-XIII əsrlər), Cümə məscidi (XIX əsr), Zaviyyə məscidi (XIX əsr), Pir-Qəmiş məscidi, Yusif Hüseyn oğlu türbəsi (1162), Möminə xatun türbəsi (1186), və s. Ordubaddakı Cümə məscidi diqqətəlayiq orta əsr memarlıq abidəsidir, Culfa rayonundakı Gülüstan məqbərəsi isə 13-cü əsrə aiddir və yaşıl vadidə yerləşir. Naxçıvan Muxtar Respublikasının Dar kəndi yaxınlığında üç kiçik məqbərə, o cümlədən XV əsrə aid, zədələnmiş, lakin bərpa oluna bilən mərkəzi qala məqbərəsi var. Digər abidələrə XII əsrə aid Gülüstan türbəsi və XIV əsrə aid Nəiminin məqbərəsi daxildir. Bu dini yerləri dini mərasimlər və bayramlar zamanı insanlar ziyarət edir və Azərbaycandan və digər müsəlman ölkələrindən çoxlu zəvvarlar ziyarət edirlər. Əshabi-Kəhf hər gün yüzlərlə zəvvarın qurban kəsmək üçün ziyarət etdiyi ziyarət mərkəzidir. Bu dini məkanları ziyarət edən turistlərin sayı sürətlə artır və dövlət tərəfindən onlara xüsusi diqqət yetirilir, turizm üçün imkanlar yaradılır. Son zamanlar aparılan tikinti və infrastruktur işləri bu imkanları daha da artırıb. Nuh peyğəmbərin qəbrinin tapılması və məqbərəsinin tikilməsi mühüm hadisədir. Bu, muxtar respublikada dini turizmin inkişafının perspektivli olduğunu göstərir.

Ümumiləşdirsək, Naxçıvan Muxtar Respublikasında mövcud dini obyektləri özündə əks etdirən xüsusi turizm marşrutunun yaradılması ərazidə dini turizmin təşviqi və inkişaf etdirilməsi baxımından çox faydalı olardı. Bu marşrut zəvvarlara bu yerlərlə daha yaxından tanış olmaq imkanı verəcək, həmçinin bölgəyə gələnlərin sayını artıracaq. Bundan əlavə, belə bir turizm marşrutunun fəaliyyət göstərməsi yeni məşğulluq imkanları yaradacaq və bununla da dövlətin regionlarda sosial-iqtisadi yüksəlişi sürətləndirmək məqsədinə töhfə verəcək.

ÖLKƏ İQTİSADİYYATININ FORMALAŞMASINDA MÜƏSSİSƏLƏRİN ROLU VƏ YERİ

Qasımov M.U.
Azərbaycan Memarlıq və İnşaat Universiteti
E-mail: Miresed10@gmail.com

Müəssisələr azad təsərrüfat əmsalı kimi fəaliyyət sürdürürlər, məhsul istehsalın və xidmət göstərilməsi həyata keçirirlər, istehsal – texnoloji prosesləri, təşkilati – inzibati və digər təsərrüfat məsələlərini, ümumilikdə biznes fəaliyyətini azad olaraq reallaşdırırlar.Bazar əlaqələri şəraitində müəssisə iqtisadi fəaliyyətin ən önəmli ünsürüdür. Burada qeyd edildiyi kimi,insanların ehtiyacı olan məhsullar istehsal edilir, xidmətlər verilir, dövlətlər arasında iqtisadi münasibətlər yaradılır. Müəssisələrdə istehsallar davam edir, yüksək efektivliyi olan avadanlıqlardan və texnologiyalardan istifadə olunur, hazırki və gələcək strateji işlər planlanır və hazırlanır. Səmərəli idarəetmə sistemlərindən istifadə olunur, yenilik və sərmayə fəaliyyəti həyata keçirilir. Əmtəə bazarlarında yarışın olması müəssisələri hər zaman inkişaf etməyə şövqləndirir və sonda isə nəticə olaraq ümumi iqtisadiyyatın dirçəlməyinə səbəb olur

Müəssisədə işləyən işçilərin də dərin iqtisadi biliyə malik olmaları tələb olunur. Bazar iqtisadiyyatında həmin müəssisələr uğurlu fəaliyyət sərgiləyə bilirlər ki, onlar bazarın və alıcıların tələblərini daha yaxşı öyrənə bilir və istəyə görə daha çox uyğun gələn məhsul istehsal edə bilirlər. Ölkəmizdə sahibkarlıq, əsasən də kiçik və orta sahibkarlıq, bazar iqtisadiyyatına keçid zamanı, 1990-cı illərin əvvəlindən bazar qanunları əsasında formalaşmağa və böyüməyə başlamışlar və bu hal bu gün də davam edir. Bu cür vəziyyətdə kiçik və orta müəssisələrin rəqabətə dayanıqlı olması ölkə iqtisadiyyatının formalaşması və böyüməsi üçün olduqca mühümdür.Nəzər yetilən period ərzində ölkə üzrə fəaliyyət göstərən xırda müəssisələrin sayında böyük azalma olmuşdur. Bundan fərqli olaraq sənaye üzrə xırda sahibkarlığın sayında xeyli artım baş vermişdir. Bu da son iyirmi ildə ölkə iqtisadiyyatında önəmli fərqlərin və inkişaf istiqamətlərinin yarandığını göstərir. Bu

cür pozitiv dəyişikliklər həmin müəssisələrin məhsul istehsalı prosesində də özünü ciddi şəkildə göstərir və bu gün də davam edir.İqtisadiyyatın formalaşması fərqli müəssisələrin əsasının qoyulması və fəaliyyət göstərməsi əsasında yaranan sahə iqtisadiyyatlarının məcmusu olaraq baş verir. Daimi olaraq təzə müəssisələr yaradılır, bəziləri ləğv edilərək fəaliyyətlərini durdururlar və bu proses dayanmadan davam edir. Artıq dünyada və fərqli ölkələrdə iqtisadiyyatın elə səviyyəsi əmələ gəlmişdir ki, müəssisələrin qurulması və ləğvi ilə bağlı sahə və ümumi ölkə iqtisadiyyatının səviyyəsində böyük fərqliliklər baş vermir. Təzə müəssisələrin yaradılması əsasən potensial tələbatın mövcud olduğu bazar sahələrində baş verir.Müasir iqtisadiyyatın əmələ gəldiyi və inkişaf etdiyi bazar əlaqələri zəminində müəssisə iqtisadi fəaliyyətin vacib nöqtəsi hesab olunur. Müəssisələr (onların birlikləri: - firmalar, kompaniyalar, zavodlar) iqtisadiyyatı əmələ gətirən və onun inkişafını təmin edən vacib təsərrüfat subyektlərinə çevrilirlər.2000-2014-cü illərdə Azərbaycanda xidmət göstərən kiçik müəssisələrin sayı 40.6% azalmış, 24254-dən 14398-ə enmişdir. Buna baxmayaraq onların məhsulunun həcmi 5.9 dəfə artmışdır. Həmin dövrdə sənayedə fəaliyyət göstərən kiçik müəssisələrin sayı 2,2 dəfə, onların istehsal etdikləri məhsulun həcmi isə 2.8 dəfə çoxalmışdır. Orta və iri müəssisələrin sayının 44.9% çoxalmasına baxmayaraq, onların istehsal etdikləri məhsulun həcmi 9.1 dəfə artmışdır. Bu da müəssisələrin fəaliyyətində struktur və keyfiyyət fərqliliklərin əmələ gəldiyini göstərir. Müəssisələrin məhsullarının keyfiyyətinin və rəqabətqabiliyyətliliyinin artması sayəsində onların nəinki daxili bazarda yeri möhkəmlənmiş, həm də xarici bazarlara çıxış şansları da artmışdır.Qeyd olunanlar müəssisə idarəçilərdən və çalışanlardan daha çox iqtisadi biliyə sahib olmalarını tələb edir. Bazar şərtləri əsasında və rəqabət şəraitində fəaliyyət göstərən müəssisələr sadəcə o halda bazarda qalmaq, efektiv biznes fəaliyyətini yerinə yetirmək, bazar payını qoruyub saxlamaq və daha da yüksəltməy şansı əldə edirlər ki, onlar bazarın istəyini, istehlakçıların alış motivlərini, davranış tərzini öyrənmək məqsədilə bazar araşdırmalarını yerinə yetirsinlər, onun nəticələrindən doğru istifadə edə bilsinlər. Müəssisə həm də rədabətqabiliyyətliliyini təmin etmək üçün effektiv marketinq strategiyalarından, yenilikçi yüksəkiş strategiyalarından istifadə etməli, daha effektiv istehsal – texnoloji proseslərə, istehlakçıların tələbinə uyğun gələn, keyfiyyətli məhsul istehsalına nail olmalı, biznesin təşkilinin ən səmərəli üsullarını tətbiq etməli, onu daima inkişaf elətdirməyə can atmalıdır.

SƏNAYE MÜƏSSİSƏLƏRİNİN İNNOVASİYA ƏSASLI DAVAMLI İNKİŞAF STRATEGİYASININ FORMALAŞMASI MEXANİZMİ

Qəribov S.S.
Sumqayıt Dövlət Universiteti
E-mail:qeribovsenan947@gmail.com

Sənaye müəssisənin davamlı inkişafı strategiyasının formalaşdırılması onun missiyasını, məqsədlərini, vəzifələrini, amillərini müəyyənləşdirmək və istənilən bir sahədə fəaliyyət göstərməsi üçün şəraitin hərtərəfli öyrənilməsinə əsaslanan sistemli prosesdir. Amillərin birləşməsi, onların dəyişməsi, prioritetliyi və əhəmiyyəti müəssisənin məqsədlərindən, təşkilati strukturundan, sənaye və kommersiya əlaqələrindən, habelə onun düşə biləcəyi konkret vəziyyətlərdən asılıdır. Yuxarıda deyilənləri və sənaye sektoru subyektlərinin fəaliyyətinin xüsusiyyətlərini nəzərə alaraq, müəssisələrin davamlı iqtisadi inkişafı strategiyasının formalaşdırılmasında situasiya yanaşmasından istifadə etmək məqsədəuyğundur. Müəssisələrin davamlı inkişafı strategiyasının formalaşdırılması aşağıdakı mərhələlərdə reallaşdırıl- malıdır:

1. Müəssisənin makro mühitinin təhlili.
2. Müəssisənin bütün tərəflərinin müəyyənləşdirilməsi.
3. Müəssisənin cari inkişaf strategiyasının qiymətləndirilməsi.
4. Müəssisənin missiyasının müəyyənləşdirilməsi.
5. Müəssisənin məqsədlərinin və həmin məqsədlərə çatma vəzifələrinin müəyyənləşdirilməsi.
6. Müəssisənin inkişafı üçün alternativ strategiyaların yaradılması.
7. Müəssisənin inkişafı üçün ən optimal strategiyanın seçilməsi.
8. Müəssisənin inkişafı strategiyasının hazırlanması.
9. Müəssisənin inkişaf strategiyasının reallaşdırılması.
10. Strategiyanın reallaşdırılmasının tam mərhələsində qiymətləndirilməsi.
11. Müəssisənin inkişaf strategiyasında düzəlişlərin edilməsi.

Son onilliklərdə davamlı inkişafda əsas amil innovasiyalardan geniş istifadə olunmasıdır. Əsas diqqətin xammal ehtiyatlarına deyil, intellektual resurslara yönəldilməsi iqtisadi inkişafın yüksək templərini təmin

etməyə, təbii ekosistemi qorumağa, zərərli və təhlükəli istehsalatların sayını azaltmağa, tarazlı inkişafı təmin edən ardıcıl məqsədlərə nail olmağa imkan verir. Müasir şəraitdə innovasiyalar sahəsində rəqabət üstünlüklərindən istifadə etmədən səmərəli idarəetməyə nail olunmaz. Uzunmüddətli perspektivdə innovasiya iqtisadi artım üçün strateji şərtdir. İnnovasiyaların tətbiqi müəssisə məhsullarının rəqabət qabiliyyətinin artırılması, eləcə də davamlı inkişaf tempinin saxlanması vasitəsidir. Məlumdur ki, müasir dövrdə innovativ prosesləri aktivləşdirmədən ölkənin milli iqtisadiyyatının dünya bazarında rəqabət qabiliyyətini artırmaq mümkün deyil. Bunun üçün səmərəli innovasiya strategiyasının hazırlanması və tətbiqi önəmlidir. İnnovasiya strategiyası innovasiyaların hazırlanması və reallaşdırması yolu ilə rəqabət üstünlükləri təmin edən müəssisədə innovativ fəaliyyətin tətbiqi üsulları və tədbirlərin məcmusudur. İnnovasiya strategiyası ölkə ilə bərabər müəssisələrin də inkişafının davamlılığına önəmli dərəcədə təsir edir. Hazırlanmış innovasiya strategiyası uğurlu olarsa, davamlı inkişaf strategiyası müsbət effekt verir.

Davamlı inkişaf strategiyası müəssisənin innovativ potensialının artırılması meyarlarının seçilməsi əsasında onun davamlı inkişafını təmin etmək məqsədilə zəruri olan tədbirlər modeli kimi təyin edilə bilər. Beləliklə, strategiyanın həyata keçirilməsi davamlı inkişafın cari və strateji məqsədlərinə uyğun olaraq müəssisənin innovativ potensialının artırılmasının idarə olunan prosesidir. Müəssisənin innovasiya potensialının formalaşmasının vacib şərtlərindən biri innovativ fəaliyyət üçün planlaşdırmanın mövcudluğu və adekvat məqsədlərin müəyyənləşdirilməsidir. Çox vaxt müəssisələrdə innovasiya fəaliyyəti kadrların dəyişməyə müqavimətini və əlavə səylərə ehtiyacı aradan qaldırmaq şəklində həyata keçirilən kifayət qədər gərgin və ziddiyyətli bir prosesdir. HərİstənilƏn hansı bir müəssisənin işçilərinin innovasiyaya sadiqliyi, onun əsas məqsədləri (strategiyaları) ilə tanış olduqda və onun reallaşdırılmasına öz töhfələrini təqdim etdikdə artır. İnnovasiya sahəsində vəziyyəti qiymətləndirərkən müəssisənin xarici mühitlə bərabər, onun daxili mühitinin də təhlili aparılır. Nəticədə müəssisənin təhlükə və imkanları, bütün tərəfləri müəyyənləşdirilir. Müəssisədə innovativ fəaliyyətin inkişafı onun fəaliyyət səviyyəsinin yüksəldilməsini təmin edən və rəqabət üstünlükləri əldə etməyə imkan verən innovativ fəaliyyət göstəricisi ilə ifadə olunur.Bu üstünlüklər əsas məqsədə nail olmaq və ümumi inkişaf strategiyasını reallaşdırmaq üçün lazımdır. Beləliklə, müəssisə üçün innovativ strategiya formalaşdırarkən bütün məhsulların həyat dövrünün müəyyən mərhələsində olması nəzərə alınmalıdırİnnovasiya strategiyası bir sıra mərhələləri əhatə edir ki, onları da aşağıdakı şəkil vasitəsilə göstərə bilərik.



Şəkil. Müəssisənin innovasiya strategiyasının hazırlanması prosesi

İnnovativ fəaliyyət müəssisənin dövriyyəsində yeni texnologiya və məhsulların tətbiqi üzrə fəaliyyətin reallaşdırılması intensivliyinin göstəricisidir. İnnovativ fəaliyyətin göstəricilərini artırmaq üçün müəssisə öz potensialından tam istifadə etməlidir. Müəssisənin innovativ potensialı ona öz inkişaf strategiyasını reallaşdırmaq məqsədilə lazım ola biləcək resursların (maliyyə, elmi, maddi, informasiya, qeyri-maddi, əmək, kadr, texniki, rəqəmsal, texnoloji və s.) məcmusudur. İnnovativ potensial müəssisənin miqyasından və xüsusiyyətlərindən asılıdır. Müəyyən bir zamanda müəssisədə vəziyyətin nə olduğunu başa düşmək üçün onun cari inkişaf strategiyasının təhlili lazımdır. Bu, strategiyanın necə həyata keçirildiyini qiymətləndirməyə, eləcə də onun təkmilləşdirilməsinin əsas istiqamətlərini işləyib hazırlamağa imkan verir. Ümumilikdə müəssisənin inkişafı üçün səmərəli işlənmiş innovasiya strategiyası mövcud innovativ potensialdan tam istifadəni nəzərdə tutur. Beləliklə, innovativ strategiyanın inkişafının təqdim olunan mərhələləri bir-biri ilə əlaqəli olmalıdır ki, bu da uzunmüddətli perspektivdə sənayenin davamlı inkişaf məqsədlərinə nail olmağa imkan versin.

POSTNEFT ERASI DÖVRÜNDƏ ÖLKƏMİZDƏ MONETAR SİYASƏTİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Quliyev A.R.
OdlarYurdu Universiteti
E-mail: guliyevazad2@gmail.com

Azərbaycanın dünya iqtisadi məkanına inteqrasiyasının sürətləndirilməsi, dünyanın bir çox ölkələri ilə ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi Azərbaycan dövlətinin qarşısında duran vacib vəzifələrdəndir. Dissertasiya işində sosial-iqtisadi inkişafın konseptual əsasları, Azərbaycan Respublikasının sosial-iqtisadi və xarici ticarət strategiyasının tənzimlənməsi xüsusiyyətlərinə baxılmışdır. Xarici ticarət ölkənin sosial-iqtisadi inkişafında mühüm rol oynayan amillərdən biridir. Bu baxımdan xarici ticarətin təkmilləşdirilməsi, onun düzgün strategiyasının qurulması və bu strategiyanın dəqiq həyata keçirilməsi vacibdir. Xarici ticarət strategiyasının təhlili, işlənilməsi bütün dövlətlərin diqqət mərkəzindədir. Milli iqtisadiyyatın perspektivi üzrə strateji yol xəritəsində xüsusi vurğulanır ki, Azərbaycanın yeni iqtisadi inkişaf modelinin ən xarakterik cəhətlərindən biri onun dayanıqlı fiskal və effektiv monetar siyasətə əsaslanmalıdır. Təhlil göstərir ki, yaxın gələcəkdə Azərbaycan tədricən üzən məzənnə sisteminə keçəcəkdir. Bu prosesin effektivliyini təmin etmək üçün yaxın gələcəkdə Azərbaycanda reallaşdırılan monetar siyasətin başlıca məqsədi ölkəmizdə manatın sabitliyinin təmin edilməsi ilə bağlıdır. Belə ki, ölkəmizdə qiymətin sabitliyinin təmin edilməsi hər şeydən əvvəl makroiqtisadi sabitliyin güclənməsində yaxın gələcəkdə ölkəmizin qarşısında duran əsas hədəflərin uğurla reallaşdırılmasında mühüm rol oynayacaqdır. Onu da qeyd etmək lazımdır ki, dünya bazarında xam neftin qiymətinin, kəskin tərəddüdlərinin pul-kredit siyasətinin xarakterinə güclü təsirini nəzərə alaraq Mərkəzi Bank tam üzən məzənnə sisteminə keçidi prioritet istiqamət kimi götürməklə yanaşı, daima onun əvvəlcədən müəyyənləşrilmiş valyuta dəhlizi çərçivəsində olması ilə bağlı ciddi təsirlər görür. Tam eyni zamanda Mərkəzi Bank perspektivdə tam üzən məzənnə rejiminə keçmək üçün güclü tənzimləmə siyasəti həyata keçirirlər. Bu məqsədlə ölkədə reallaşdırılan pul-kredit siyasətinin effektliyini təmin etmək üçün banklararası bazarın fəaliyyətinin tənzimlənməsinə effektiv uçot, kredit və diskont siyasətin formalaşdırılaraq reallaşdırılmasına xüsusi əhəmiyyət verilir.

Bütün dövlətlərdə, istənilən sahədə və əhalinin yaşayışının təminatında neft-qaz resurslarının emalı məhsullarından geniş istifadə olunur. Lakin bu təbii sərvətlər bütün dövlətlərdə olmadığından, onlarla təminat bəzi dövlətlər üçün daimi problem məsələ olmaqdadır. Xarici investisiyanın neft-qaz sahəsinə cəlb edilməsi investisiya layihələrinin reallaşması üzv dövlətlər üçün olduqca səmərəli olmaqla bərabər, həm də onlar arasında birgə əməkdaşlığa və dostluğa səbəb olur. Bu investisiya layihələrindən əldə olunan gəlirlər ölkənin neft-qaz sahələrinin inkişaf etdirilməsi ilə bərabər qeyri-neft sektorunun inkişafı ilə bərabər əhalinin sosial təminatı üçün olduqca zəruridir. Dövlətlər arasında enerji təhlükəsizliyinin aradan qaldırılması üçün neft və qazın ixracı boru marşrutlarının çəkilməsinə aid investisiya layihələri bütün dünyada xüsusən XX-XXI əsrin ən aktual və enerji təhlükəsizliyinin aradan qaldırılmasının problem məsələlərindəndir. Belə marşrut investisiya layihələrinin reallaşması idxalatçı ölkələrdə enerji təhlükəsini aradan qaldırmaqla bərabər, üzv dövlətləri arasında dostluq və birgə əməkdaşlığa əsas verir.

Azərbaycanda neft sənayesinin tarixi Abşeron yarımadasında 1848-ci ildə qazılmış dünyada ilk neft quyusundan başlayır. Bu quyu Xəzər dənizinin sahilində Bibiheybətdə mexiniki üsulla qazılmış neft quyusu idi. Neft sənayesi inkişafının başlanğıcı da bu dövrdən hesab olunur. Bu dövrdə neft quyuları əllə qazıldığından

və çıxarılan neftin azlıq təşkil etməsinə baxmayaraq, o dövr üçün neftə olan tələbatı müəyyən qədər ödəyirdi. Lakin zaman keçdikcə sənayenin inkişafı ilə neftə, yanacağa olan tələbat artdı.XIX əsrin 70-ci illərindən başlayaraq, neft istehsalında sənaye üsuluna keçilmiş və bir neçə ildə Bakı neft sənayesi özünün ən coşğun inkişaf mərhələsinə qədəm qoymuşdur. Bununla da yeni neft erasının başlanğıcı qoyulmuşdur. 1871-ci ildə buruq üsuluynan ilk neft quyusu qazıldı, beləliklə neftin quyudan jelonkalarla çıxarılmasına başladılar. Neft sənayesində əl əməyindən istifadənin buxar mühərrikləri ilə əvəz edilməsi bu sənaye sahəsinin manufaktura inkişaf mərhələsindən iri fabrik istehsalı səviyyəsinə keçməsi demək idi. Xarici kapitalın Azərbaycan neftinə qoyulması, onun istehalı və nəql edilməsində sənaye üsuluna keçilməsi əsrin sonlarında Bakını dünyanın əsas neft mərkəzlərindən birinə çevirmişdi. Yeni texnologiyanın tətbiqi və güclü kapital qoyuluşu neft sənayesində qısa bir vaxtda əsaslı texniki çevriliş etmişdir. Bunun isə əsas səbəbi 1872-ci ildə iltizam axınının başlanması üçün əlverişli şəraitin yaranması idi. İlk dövrdə əsas sərmayəçilər Rusiyanın Zaqafqaziya və bəzi daxili quberniyalarının nümayəndələrindən ibarət idi. 70-ci illərin ortalarından isə Qərbin işgüzar dairələri də Azərbaycan neft sənayesinə xüsusi maraq göstərməyə başlayırlar.Qərb sərmayeçilərindən Bakıya ilk gələnlər arasında İsveç təbəələri olan Nobel qardaşları 1875-ci ildə kiçik ağ neft zavodu əldə edərək, Azərbaycan neft sənayesində fəaliyyətə başladılar. 1879-cu ildə «Nobel qardaşları» şirkəti yaradılarkən təsisçilər arasında Nobel qardaşları ilə yanaşı, isveçli Şeqren və Nellis, Rusiya təbəələri P.Bilderlinq və Belyamin də var idi. O zaman kifayət qədər kapitala malik olmayan yerli sahibkarlar neftin çıxarılması məsələlərini günün tələbləri səviyyəsində səmərəli şəkildə həll edə bilmirdilər. 70-ci illərin sonunda A.Səlimxanovun neftli torpaqlarını icarəyə götürmüş avstriyalı Y.Doçar, 80-ci illərin ortalarında isə Bakıda fəaliyyətə başlamış olan kapitalistləri O.Lens, K.Vayzer, O.Kvel və başqaları Azərbaycan neft sənayesinə kapital qoymuş Qərb sahibkarlarının sırasını genişləndirdilər. XIX 80-ci illərinin ikinci yarısında «Xəzər-Qara dəniz cəmiyyəti»-nin nəzarət-səhm paketinin Paris bankiri Rotşild tərəfindən alınması neft sənayesində Qərb kapitalın nüfuzunun artması meylini daha da gücləndirdi. 70-ci illərin sonlarından başlayaraq, xarici kapital sahiblərinin, xüsusən, Nobel qardaşlarının və Rotşildin neft sənayesinə yönəltdiyi kapital qısa müddət ərzində böyük texniki irəliləyiş və istehsalın artmasına təkan verdi.Bu müddət ərzində Azərbaycan öz neftindən sərbəst istifadə etmək hüququ əldə etsə də, bununla yanaşı, ingilislər, ruslar və başqa dövlətlər də Azərbaycanın nefti uğrunda qızğın mübarizəyə girmişlər. Bu isə mürəkkəb struktura malik Azərbaycan xalq təsərrüfatının rus və xarici kapitaldan iqtisadi asılılığa təhkim etmişdi. Azərbaycan heç bir formada hazır sənaye məhsulu ixrac etmədiyi halda, demək olar ki, bütün əmək alətləri və istehsalat şeylərini üç qat baha qiymətə idxal edirdi. Bu, rus və xarici kapitalistlər tərəfindən Azərbaycana iqtisadi təzyiq və zəhmətkeşləri var-yoxdan çıxartmaq vasitəsi kimi, nəinki artıq məhsulları, hətta ölkənin sənaye müəssisələrində çalışan zəhmətkeşləri də bilavasitə rus və xarici kapitaldan asılı etmişdi. Lakin təskinlikverici hal onlan ibarətdir ki, bu müddətdə Azərbaycan müstəqil şəkildə öz təbii sərvətlərindən istifadə etmək hüququna sahib olaraq, xalqın həyat tərzinin yaxşılaşmasına çalışmışdır. Təəssüflər olsun ki, dövlətimiz bu məqsədini həyata keçirə bilməmiş və 1920-ci ildə onun varlığına Rusiya imperiyası tərəfindən son qoyulmuşdu.

Bakı ölkənin neft mərkəzi olaraq qalmışdı. Mövcud olmuş neft hasiletmə sənayesinin inkişafı zəngin neft və qaz yataqlarının olması ilə əsaslandırılmış, güclü yanacaq sənayesinin inkişafına ehtiyac yaranmış, tez bir zamanda bu inkişaf edərək və genişlənərək sənayenin başlıca inkişaf istiqamətlərini təşkil etmişdi. Azərbaycanda da sənayeləşmənin ilk illərində onun strukturu formalaşmışdı. Respublikada sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan İnqilab Komitəsi neft sənayesini milliləşdirmək barədə dekret qəbul etdi. Milliləşdirilmiş neft sənayesini idarə etmək üçün Azərbaycan neft komitəsi təşkil edildi və ölkədə neft sənayesində ilk quruculuq planları həyata keçirilməyə başlandı.

Post-neft dövründə iqtisadi siyasəti müəyyən edərkən müasir dövrün çağırışları nəzərə alınmalı, yerli istehsalın stimullaşdırılması istiqamətində tədbirlər görülməli, dövlət xərcləri restrukturizasiya edilməli, gəlirlərin yenidən bölgüsünün səmərəli mexanizminin yaradılması zənnimizcə 2016-cı ildə ölkəmizdə yaradılmış Maliyyə Sabitliyi Şurası makroiqtisadi sabitliyin təmin edilməsi ilə baglı həyata kecirdiyi sistemli tədbirlərin rolu nəzərdən qacırılmamalıdır.

İQTİSADİ TƏHLÜKƏSİZLİYİN ƏSAS AMİLLƏRİ VƏ ONUN İNSTİTUSİONAL ZİDDİYYƏTLƏRİ

Quliyev E.M.
Sumqayıt Dövlət Universiteti
E-mail: Elsad.quliyev.2018@bk.ru

İqtisadi təhlükəsizlik ölkənin təhlükəsizliyi ilə bilavasitə bağlıdır və iqtisadi təhlükəsizliyi təmin etmədən ölkənin təhlükəsizliyini təmin etmək mürəkkəb məsələdir. İqtisadi təhlükəsizlik milli təhlükəsizliyin mühüm tərkib hissəsidir və ölkədə iqtisadi təhlükəsizliyin təmin edilməsi ən aktual problemlərdən biridir.

İqtisadi təhlükəsizlik anlayışı qlobal iqtisadiyyatda daha çox üstünlük təşkil edir və ölkələr iqtisadi təhlükəsizliyə çox vacib məsələ kimi baxırlar. Çünki bu gün elmin bir çox sahələrdə inkişafı nəticəsində böyük nailiyyətlər əldə edilir, yeni ixtiralar edilir. Təbii ki, elmin tərəqqisi cəmiyyətə böyük fayda gətirir, insanların rifahı yüksəlir. Eyni zamanda, təbii ki, bu tendensiyanın mənfi cəhətləri və nəticələri var.

Elm inkişaf etdikcə insanlar sağlamlıq, qidalanma və insan həyatının digər sahələrində yeni problemlərlə üzləşirlər. Ümumiyyətlə, bu gün iqtisadi təhlükəsizliyi təmin etmədən ölkənin davamlı iqtisadi inkişafı və əhalinin rifah halının yüksəldilməsi çətin məsələ ola bilər. Ona görə də bu gün iqtisadi təhlükəsizlik beynəlxalq səviyyədə ən vacib məsələdir.Müasir şəraitdə iqtisadi islahatlar prosesi cəmiyyətin həyati mənafelərinin, iqtisadiyyatın tarazlığının, qabaqcıl sosial-iqtisadi inkişafın və iqtisadi təhlükəsizlik probleminin aktuallığının təmin edilməsi zərurətində və müvafiq olaraq onun həyata keçirilməsi üçün tədbirlərdə fəal şəkildə əks olunur.

Məqalədə iqtisadi təhlükəsizliyin əsas amilləri və onun institusional ziddiyyətləri, qeyri-sabitlik və iqtisadi vəziyyət şəraitində dövlətin iqtisadi təhlükəsizliyinin institusional xüsusiyyətlərini əks etdirən iqtisadiyyatın tsiklik xarakteri ilə bağlı yeni təhlükələrin yaranması müzakirə olunur. İqtisadi təhlükəsizlik iqtisadi kateqoriyadır. O, davamlı iqtisadi artım, sosial tələbatların optimal ödənilməsi, rasional idarəetmə, milli və beynəlxalq səviyyədə iqtisadi maraqların qorunması ilə iqtisadiyyatın vəziyyətini təmsil edir. İqtisadi təhlükəsizliyin meyar tədqiqi iqtisadiyyatın vəziyyətinin ümumiləşdirilmiş qiymətləndirilməsidir, yəni resurs potensialı və onun inkişafı imkanları, resursların səmərəliliyi, rəqabət qabiliyyəti və s.Rus alimi G. S. Veçkanov "İqtisadi təhlükəsizlik" kitabında iqtisadi təhlükəsizliyin səviyyələrini sadalayır. Onun fikrincə, iqtisadi təhlükəsizlik iki səviyyəyə bölünür: Beynəlxalq səviyyə; Milli səviyyə. Bu gün iqtisadi təhlükəsizlik həm milli, həm də beynəlxalq müstəvidə mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq səviyyə bütün ölkələr üçün vacib olduğu halda, milli səviyyə ölkənin öz maraqlarını qoruması deməkdir. Bütün ölkənin milli iqtisadi təhlükəsizliyinin təmin edilməsi beynəlxalq iqtisadi təhlükəsizliyin təmin olunmasına müsbət təsir göstərmişdir.Əhatənin daha da artırılması aşağıdakı iqtisadi təhlükəsizlik səviyyələrinə səbəb ola bilər: beynəlxalq (qlobal və regional); milli, yerli (ölkə daxilində regional və ya şəbəkə səviyyəsində); özəl (korporativ və fərdi).

Beynəlxalq iqtisadi təhlükəsizlik elə bir vəziyyətdir ki, hər bir dövlət, yəni dünya birliyinin üzvü öz sosial-iqtisadi inkişaf strategiyasını sərbəst seçmək və həyata keçirmək imkanına malikdir. Müəssisənin (firmanın) iqtisadi təhlükəsizliyi həyati əhəmiyyətli iqtisadi maraqların idarəetmə və işçi heyəti tərəfindən həyata keçirilən hüquqi, təşkilati, iqtisadi və texniki tədbirlər sistemi tərəfindən yaradılmış daxili və xarici risklərdən müdafiə vəziyyətidir.

Ölkənin iqtisadi təhlükəsizliyinin vəziyyəti meyarlar və göstəricilər sistemindən istifadə etməklə qiymətləndirilir. Makro və mikro səviyyədə iqtisadi təhlükəsizliyə təhdidlərin təhlili və proqnozlaşdırılması üçün iqtisadi təhlükəsizliyin mindən çox göstəricisindən istifadə olunur. Lakin bu göstəricilərdən 19-u məqsədəuyğun hesab edilir. Bu göstəricilər iqtisadiyyatın real və maliyyə sektorlarında və sosial sahədə iqtisadi təhlükəsizliyin mühüm aspektləridir. Milli iqtisadi təhlükəsizlik iqtisadiyyatın və dövlət qurumlarının milli maraqlarının təminatlı müdafiəsi, ölkənin inkişafının sosial yönümlü olması, kifayət qədər iqtisadi və müdafiə potensialının təmin edilməsi vəziyyətidir.İqtisadi təhlükəsizliyin obyektlərinə təbii ehtiyatlar, insan resursları, əmək qabiliyyətli əhali, istehsal fondları, daşınmaz əmlak, maliyyə resursları, iqtisadi sistemlər, regionlar, neft və insan amili daxildir. İqtisadi təhlükəsizliyin subyektləri funksional və sahəvi nazirliklər və idarələr, vergi xidmətləri, gömrük xidmətləri, banklar, birjalar, sığorta şirkətləri, qanunvericilik orqanının müvafiq komitələri və komissiyaları, habelə malların, işlərin və xidmətlərin istehsalçıları və satıcıları müəyyən edilə bilər. İqtisadi təhlükəsizliyin aşağıdakı növlərini ayırd etmək olar: Sənaye və texnoloji təhlükəsizlik; Sənaye təhlükəsizliyi; Qida təhlükəsizliyi; Demoqrafik təhlükəsizlik; Maliyyə təminatı; İnformasiya təhlükəsizliyi; Xarici iqtisadi fəaliyyət sahəsində təhlükəsizliyin təmin edilməsi və s.

İqtisadi risklərin meydana çıxması ilə iqtisadi təhlükəsizlik anlayışı daha geniş yayılmışdır. Son illər dünya iqtisadiyyatında bu anlayışdan geniş istifadə olunur. Çünki iqtisadiyyat böyüdükcə iqtisadi risklər də artır. Təbii ki, bu risklərdən qaçmaq çox vacibdir. Çünki iqtisadi təhlükəsizliyi birbaşa insan təhlükəsizliyi ilə müqayisə etmək olar. İqtisadi təhlükəsizlik milli təhlükəsizliyin mühüm tərkib hissəsi, onun maddi əsasıdır və dövlətçiliyin iqtisadi kateqoriya kimi formalaşdığı, cəmiyyətin onun mənafeyini dərk etdiyi bir dövrdə formalaşmağa başlamışdır. İqtisadi təhlükəsizlik dedikdə ölkənin milli maraqlarının təminatlı müdafiəsi, ölkənin iqtisadi inkişafının sosial yönümlü olması, daxili və xarici proseslərin inkişafı üçün ən əlverişsiz şəraitdə belə onun müdafiə qabiliyyətinin kifayət qədər olması başa düşülür. Odur ki, iqtisadi təhlükəsizliyin təmin edilməsi üçün tədbirlərin sayının artırılması və onun modelləşdirilməsi dünya ölkələri üçün aktual problem olaraq qalır.Ölkənin iqtisadi təhlükəsizliyinin vəziyyəti meyarlar və göstəricilər sistemindən istifadə etməklə qiymətləndirilir. Bu meyarlar və göstəricilər iqtisadi sistemin işləməsinin təhlükəli hədlərini müəyyən edir. Ölkədə iqtisadi təhlükəsizliyin zəifləməsinə müəyyən hədlər daxilində yol verilə bilər. İqtisadi təhlükəsizlik üçün göstəricilərin özü deyil, onların hədləri vacibdir. Bu məhdudiyyətlərə əməl edilməməsi çoxalmanın müxtəlif elementlərinin davamlı inkişafına mane olacaq. Dünya ölkələrində iqtisadi təhlükəsizliyi milli maraqlar nəzərə alınmaqla daha da gücləndirmək olar.

Beləliklə, iqtisadi təhlükəsizlik milli iqtisadiyyatın mütərəqqi və səmərəli artımını, onun cəmiyyətin, dövlətin, fərdin ehtiyaclarını ödəmək qabiliyyətini təmin edə bilən, xarici bazarlarda rəqabət qabiliyyətini təmin edə bilən, müxtəlif amillərdən qoruya bilən daxili və xarici şərtlərin məcmusudur. Bu baxımdan milli iqtisadi təhlükəsizliyin təmin edilməsi üçün qeyd etdiyimiz amillərin daha da stimullaşdırılması, əsas məsələlərdən biri kimi qəbul olunmalıdır.

TURİZM İNKİŞAF ETMƏSİNİN ÖLKƏ İQTİSADİYYATINA TƏSİRİ VƏ NƏTİCƏLƏRİ

Quliyev X.S.
Sumqayıt Dövlət Universiteti
E-mail:quliyevhuseyn97@gmail.com

Hal-hazırkı dövrdə turizm dünyanın əksər ölkələrinin və regionlarının iqtisadi, siyasi, sosial, mədəni fəaliyyətinin əsas sahələrindən birinə çevrilmişdir. Turizmin dünya iqtisadiyyatında tutduğu yer çox böyükdür. Qeyd etmək lazımdır ki, dünya əhalisinin müəyyən bir hissəsi hər il turist məqsədlər ilə xarici ölkələrə səfər edirlər. Turizm XXI əsrdə ən çox qazanc gətirən sahələrdən biri olmaqla l, həm iqtisadiyyatın inkişafının başlıca faktoruna çevrilmiş, həmdə turizm sənayesinin yaranmasına təsir göstərmişdir. Turizm yüksək gəlirli sahə hesab edilir. Bu səbəblə də bu sahəyə investisiya qoyuluşlarının səmərəliliyinə görə ölkələr üçün ən iri ixrac potensialı olan yerlərdən birinə malikdir. Statistikalara nəzər salsaq görərik ki, turizm son 20 ildi dünya iqtisadiyyatındakı 10%-lik payını qoruyub saxlayır. Müasir dövrümüzdə bir çox ölkələr turizm sənayesinin iqtisadi potensialının formalaşması istiqamətində əsaslı işlər aparır. Əsas gəlir yeri turizm olmasa da, bu sahədə uğur qazanan dövlətlər: Fransa, İspaniya, İtaliya, Amerika kimi inkişaf etmiş ölkələrdir. Məsələn Amerika 2019-cu ildə turizm sahəsindən 215 milyard dollar pul qazanmışdır. Təkcə bu qeyd etdiyimiz dövlətlər deyil, turizm sahəsində çox qazanc əldə edən İEOÖ-lər də mövcuddur. Misal olaraq Türkiyə, Yunanıstan, Meksika, Taylandı buraya aid edə bilərik. Təbii sərvətləri çox olan, sənayesi güclü olan İEÖ-lər turizmi əsas gəlir sahəsi kimi görməsə də, sənayesi zəif olan ölkələr bu sahənin inkişafına daha çox diqqət ayırırlar. Məsələn Taylandı və Meksikanı buraya aid edə bilərik. Belə dövlətlərdə Ümumi Daxili Məhsulun payında turizmdən gələn qazancın böyük payı vardır. Yazılanlardan belə bir sual ortaya çıxır. Bəs turizmin ölkə iqtisadiyyatına təsiri necə olur? Belə qeyd edə bilərik ki, hər il bir turistin ölkəyə daxil olması orada gəzintiyə, otelə, yeməyə, nəqliyyata xərclədiyi pulu hesabladıqda bu elə də çox bir pul kimi görsənməz. Amma hər il milyonlarla turistin gəlib bunu etməsi, xərclədiyi pulla ölkə iqtisadiyyatına gətirdiyi gəliri anlamaq elə də çətin olmaz. Turizmin ölkə iqtisadiyyatına təsiri özü ilə birlikdə bir neçə sahənin də inkişaf etməsinə səbəb olur. Turist ölkəyə daxil olarkən onun rahatlığının təmin olunması ən əsas məsələdir. Bunun üçün bir sıra xidmət sahələrinin inkişafı zəruri hesab olunur. Dünya bazarında görünməz əmtəə kimi təqdim edilən turist xidmətləri çox müxtəlifdir. Onlara aşağıdakıları aid edə bilərik: 1) Nəqliyyat xidmətləri. Ölkəyə gələn turistin rahatlıqla istədiyi yerə hərəkət edə bilməsi üçün nəqliyyat sistemi yüksək səviyyədə olmalıdır. 2) Turistlərin yerləşdirilməsi xidmətləri. Qeyd etdiyimiz kimi turist ölkəyə daxil olduqdan sonra nəqliyyatdan sonra ilk ehtiyac duyduğu şey gecələmək üçün bir yerdir.(otellər, mehmanxanalar). 3) Turistlərin qidalanması xidmətləri. Əgər burada öz milli mətbəximizdən istifadə edilərsə, bu həm də ölkəmizin dünya səviyyəsində tanınmasına kömək edir. Eyni

zamanda turistlərin ən ehtiyac duyduğu xidmət növüdür. Bunlardan əlavə turistlərin mədəni tələbatlarının, işgüzar maraqlarının ödənilməsi sahəsində aparılan xidmətlər də mövcuddur. Bütün bu xidmət növləri həm də qeyd etdiyimiz bu sahələrin və turizm sənayesinin inkişafına şərait yaradır. Turizmin ölkə iqtisadiyyatına əhəmiyyətli təsirini belə ümumiləşdirib yaza bilərik: 1) Turizm ölkəyə valyuta daxilolmalarının mənbəyi olmaqla məşğulluğun artırılmasın təmin edir. 2) Turizmdən əldə olunan gəlirlər geridə qalmış regionların inkişafını sürətləndirir. 3) Turizmin ölkədə inkişafı ÜDM-un gəlirlərinin artmasına səbəb olur. 4) Turizmin inkişafı xidmət sahələrinə olan tələb yaratmaqla iqtisadiyyatın diversifikasiyasına səbəb olur. Bu eyni zamanda ölkədə yeni iş yerlərinin də yaranmasına səbəb olur. 5) Turizmin inkişafı məşğulluğu artırmaqla, əhalinin gəlirlərinin artmasına səbəb olur və bu da həyat səviyyəsinin yüksəldilməsi deməkdir.

Təbii ki, turizmdən heç də hər zaman istənilən dövlət gəlir əldə edə bilmir. Turizmi inkişaf etdirmək istəyən ölkələr turistləri cəlb edə bilmək üçün müəyyən xarakteristikalara malik olmalıdır. Qeyd etdiyimiz faktorlara: gözəl təbiət, tarixi məkanlar, abidələr, təmiz və inkişaf etmiş şəhərlər aiddir. Azərbaycanda sadaladığımız bu üç faktorun olması bizim üçün müsbət bir haldır. Turizm qeyri-neft sektoru sahələri içərisində ən çox gəlir gətirənlərdən biridir. Öz ölkəmizdə neftdən əldə etdiyimiz qazanc ÜDM-un əsas hissəsinin təşkil etsə də, son zamanlar bu göstərici aşağı düşməyə başlamışdır.(təxminən 60%-ə) Neftin tükənən sərvət olduğunu da nəzərə alsaq, turizmin ölkəmizdə inkişaf etdirilməsinin nə qədər önəmli olduğunu görərik. Hazırda turizm Azərbaycan iqtisadiyyatının ayrıca bir sektoru kimi fəaliyyət göstərir. 2001-ci ilin sentyabr ayının 25-də Cənubi Koreya Respublikasının paytaxtı Seul şəhərində Ümumdünya Turizm Təşkilatının XIV Bas Assembleyasında Azərbaycan Respublikası bu beynəlxalq turist təşkilatına üzv olub. Bu da respublikamızda turizm sahəsində tövsiyələr və kömək edilməsinə kömək yaratdı. Ölkəmizə turizm sahəsinə həmişə diqqət ayrılmışdır. Ümumdünya Səyahət və Turizm Şurasının hesabatına əsasən Azərbaycan 2010-2016-cı illərdə turizmin sürətlə inkişaf etdiyi 10 ölkə siyahısında yer almışdır. Respublika Prezidentinin 27 avqust tarixi sərəncamı ilə Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair dövlət proqramı təsdiq olunmuşdur. Bu proqramın vəzifəsi əsasən ölkədə turizmi inkişaf etdirmək, turizm ehtiyatlarından səmərəli istifadə etmək, rəqabətə davamlı turizm bazarı yaratmaq, xarici investorları turizm sahəsinə cəlb etmək, turizmdən dövlət və yerli büdcələrə daxil olan vəsaitlərin həcmini artırmaq, turizm müəssisələrinin beynəlxalq turizm proqramında iştirakını təmin etmək, və rəqabətə davamlı turizm bazarı yaratmaqdır. Qeyd etdik ki, Azərbaycanının turzim profilli ölkəyə çevrilməsi üçün çoxlu imkanlar var. Bu səbəbdən turizm sənayesinin inkişaf etdirilməsi vacib məsələdir. Hazırda Azərbaycanda 100-ə yaxın turizm firması və 10-dan yuxarı turist marşurutu yaradılmışdır. Ölkəmizin ayrı-ayrı regionlarında turizmin müxtəlif növləri inkişaf etmişdir. Hazırda turizm potensialının inkişaf istiqamətləri işğaldan azad olunmuş bölgələrimizə yönəldilir. Qeyd etməliyik ki, Qarabağın turizm potensialı olduqca zəngindir. Burada turizmin bir çox növü xüsusilədə eko turizm, dağ turizmi ov turizmi, qış turizmi, sağlamlıq turizminin inkişafı üçün şərait vardır. Kəlbəcər rayonu qış turizmi üçün ideal bir məkandır. Şuşa şəhəri sahib olduğu təbii gözəllikləri və qədim tarixi ilə burada yeni turizm marşurutlarının yaradılmasına imkan verəcəkdir. Hazırda Qarabağımızda turizm potensialını yenidən canlandırmaq üçün gərgin yenidənqurma işləri davam edir. Burda tanıtım aparmaq da vacibdir.

Beləliklə, bu tanıdılma sayəsində turistlər həm Qarabağımızın erməni barbarları tərəfindən necə dağıdıldığını görəcək, həm də öz sahibləri tərəfindən necə abadlaşdırıldığına şahid olacaqlar. Turistlər Qarabağımıza gəlməklə həm dincələcək, həm də təbiətin gözəlliyindən, tarixi abidlələrimizdən, yaradılmış əlverişli mühitdən zövq alacaqlar. Sözsüz ki, Kəlbəcərin İstisuyu, Şuşanın, Laçının ecazkar təbiəti gələn turistləri özünə heyran edəcəkdir. Mütəxəssislərin hesablamalarına görə 2025- ci ilə qədər işğaldan azad olunmuş ərazilərimizə 1 milyona yaxın yerli və xarici turistin səfər edəcəyi gözlənilir. Təkcə Qarabağımızda deyil, digər regionlarımızda da turistləri cəlb edəcək gözəlliklər və şərait mövcuddur. Azərbaycanda hazırda 600- dən çox mehmanxana fəaliyyət göstərir. Bu mehmanxanalarda yerləşdirmə yerlərinin sayı 33 mini keçir. Təbii ki, yaradılan bu şərait ölkəyə turist axınını gücləndirir. Məsələn 2019- cu ildə Azərbaycana 3 milyon 170 min turist gəlmişdir. Bu 2018- ci illə müqayisədə 11,3%- lik artımın olduğunu göstərirdi. Burada Azərbaycana səyahət edən turistlərin ən çox Rusiya, Türkiyə, İran, Səudiyyə Ərəbistan, Birləşmiş Ərəb Əmirliklərindən gəldiyi görülür. Yalnız bütün dünyada baş vermiş pandemiya vəziyyəti ilə əlaqədar ölkələrdə turizmin inkişafı ləngidi. Sərhədlərin, yolların bağlanması turistlərin ölkəyə gəlişini məhdudlaşdırdı. Bu da turizmin inkişafında kəskin azalma yaratmışdır. Lakin ölkəmiz pandemiyanın təsirlərindən çıxır və yaxın zamanda turizmin yenidən əvvəlki çiçəklənmə dövrünə dönəcəyini görəcəyik. Elə 2022- ci ilin statistikasına baxsaq görərik ki, yanvar-noyabr ayında Azərbaycana 1,4 milyon xarici vətəndaş gəlib. Bu pandemiya ilə müqayisədə gözəl nəticə olsa da, əvvəlki illərlə müqayisədə çox aşağıdır. Məqsəd pandemiyadan əvvəlki ilə qayıdıb, ondan da irəli getməkdi. Bunun üçün yenidən turizm sahəsini canlandırmaq lazımdır. Ölkəmizin milli mətbəxin, tarixin,

insanların gözəl bir səkildə dünyaya tanitmalıyıq. Bu sahədə çalışan insanlar həm xarici ölkələrdə, həm də ölkəmizə gələn turistlərə dolğun və tam şəkildə düzgün məlumatlar verməlidir. Qeyd olunanlardan da anlaşıldığı kimi turizmin inkişafı elə iqtisadiyyatın inkişafı deməkdir.

AZƏRBAYCANIN VALYUTA SİSTEMİ, MƏZƏNNƏ SİYASƏTİ VƏ VALYUTA EHTİYATLARININ İDARƏ EDİLMƏSİ

Quluzadə N.R.
OdlarYurdu Universiteti
E-mail: quluzadanurlan13@gmail.com

Kapital ixracatı, məhsul və xidmətlərlə qlobal ticarət, elmi-texniki tərəfdaşlıq dünya təsərrüfatı münasibətlərinin subyektləri arası qarşılıqlı valyuta ehtiyaclarını və öhdəliklərinin meydana çıxmasına yol açır. XX əsrin ortalarından bəri beynəlxalq pul əlaqələri öz tərəqqisində yeni impuls qazanmışdır. Dünya iqtisadiyyatının qloballaşması və beynəlmiləlləşməsi ölkələr arası ticarəti iqtisadi mübadilənin tərəqqisinə, pul əlaqələrinin tərəqqi etməsinə gətirib çıxarmışdır. Pulların stabilliyi, onların bir-birlərinə və resurs pullarına nisbətən mütənasib olan tərəddüd hədləri dünya təsərrüfatının tərəqqisinin zəruri problemlərinə çevrilmişdir.Dünya təsərrüfat münasibətlərinin fasiləsiz gerçəkləşdirilməsi üzrə effektiv pul mexanizmininin ərsəyə gətirilməsi beynəlxalq maliyyə sisteminin əsas vəzifəsinə çevrilmişdir.

Beynəlxalq maliyyə sistemi beynəlxalq maliyyə əməliyyatlarını tənzimləyən qurumlar və qaydalar məcmusudur. Beynəlxalq maliyyə sistemi dünya iqtisadiyyatına gündən-günə daha çox təsir edir. Beynəlxalq kapital hərəkəti, rabitə texnologiyaları sahəsindəki inqilabi inkişaflar, kapitalın daxil olmasını asanlaşdıran və maliyyə açıqlığını artıran maliyyə liberallaşdırma islahatları sayəsində son illərdə dünyanın müxtəlif coğrafiyasındakı ölkələrin pul və maliyyə sistemlərinin taleyi birbiri ilə əlaqələndirilmişdir. Dünya valyuta bazarında bir günlük ümumi ticarət həcmi 1,5 trilyon dolları keçib. 1970-ci illərdə bu rəqəmin 20 milyard dollar civarında olduğunu nəzərə alsaq, beynəlxalq kapital hərəkətlərinin artım dərəcəsini daha yaxşı qiymətləndirmək olar. Texnoloji inkişafların köməyi ilə qlobal bir bazara çevrilə dünyada beynəlxalq kapital bazarlarının gündən-günə daha çox inteqrasiya olunması, bu bazarları idarə edə və tənzimləyə biləcək beynəlxalq qurumlara ehtiyac yaratmışdır. Lakin effektiv şəkildə idarə olunmayan digər törəmə məhsullar kimi yeni maliyyə alətlərinin yaratdığı risklər son dərəcə təhlükəli nəticələrə səbəb olmuşdur. Beynəlxalq Hesablaşmalar Bankının rəsmi məlumatlarına görə, törəmələr bazarı 2018-cİ ilin sonuna 915 trilyon dollara çatmışdır (Taylor, A. M., 2018). 2008-ci ildə ABŞ-da başlayan qlobal böhran beynəlxalq maliyyə sisteminin yenidən qurulmasına səbəb oldu. İqtisadi qloballaşmanın görünən ölçülərindən biri olan beynəlxalq maliyyə sisteminin daha çox inteqrasiya olunduğu və beynəlxalq sistemli böhranların qarşısını almaq üçün beynəlxalq əməkdaşlığın edilməli olduğu aydın oldu.

Beynəlxalq maliyyə sisteminin daha effektiv və səmərəli işləməsi üçün kapital bazarlarının, bankların və digər maliyyə qurumlarının daha yaxşı idarə edilməli, tənzimlənməli və nəzarət edilməli olduğu barədə ümumi bir fikir mövcuddur. Bildirilib ki, beynəlxalq maliyyə memarlığı böhranların qarşısını almaqdan uzaqdır; Dolların beynəlxalq ehtiyat valyutası olduğu idarə olunan dalğalanma sistemi, BVF və Dünya Bankının qərar qəbuletmə mexanizmləri tənqid edilir. Mütəxəsislər tərəfindən Bretton Vuds konfranslarından bəri dünyanın çox dəyişdiyi ifadə edilr, ancaq o dövrdə qurulan institusional strukturlar və təyin olunmuş vəzifə bölgələri üçün eyni şeyi söyləmək mümkün deyil. Görünür ən nüfuzlu beynəlxalq təşkilatlar arasında olan BVF və beynəlxalq tənzimləmə qurumları şəbəkəsinin böhranın öhdəsindən gəlmək üçün yetərli olmadığı iddia olunmaqdadır.Bu kontekstdə G-20 ölkələri qlobal disbalansın necə həll ediləcəyi ilə əlaqədar BVF-nin idarəetmə strukturu ilə bağlı ediləcək islahatlara imza atdılar. Bunun da vacib olduğu iddia edilir. Ümumilikdə maliyyənin qloballaşması, beynəlxalq kapital hərəkəti və xüsusilə qısamüddətli fərziyyə fəaliyyətidir və millət dövlətləri müstəqil iqtisadi siyasət aparmaq üçün bir fürsət buraxmır. İqtisadi siyasətin məqsədi əsasən üç iqtisadi siyasi alət ilə üç əsas iqtisadi siyasi məqsədinə nail olmaqdır: Bu hədəflər tam məşğulluğu təmin etmək, aşağı inflyasiya səviyyəsinə nail olmaq, tarazlaşdırılmış iqtisadi artıma töhfə verməklə ödənişləri balanslaşdırmaqdır. (Qısaca, iqtisadiyyatın daxili və xarici tarazlığını təmin etmək). İqtisadi siyasət alətləri dövlət xərcləri və vergilər (maliyyə siyasəti), pul kütləsi və faiz dərəcələri (pul siyasəti) və məzənnələrdir (məzənnə siyasəti). Beynəlxalq maliyyə sisteminə inteqrasiyanın mühüm nəticəsi ayrı-ayrı dövlətlərin öz iqtisadiyyatlarını idarə etmək imkanlarının zəifləməsidir. Makroiqtisadi səviyyədə maliyyə kapitalının hərəkətliliyi hökumətin faiz dərəcələri və məzənnə üzərində nəzarəti zəiflədir.

Maliyyə inteqrasiyası nəticəsində, inkişaf etməkdə olan ölkələrə artan kapital axını siyasət muxtariyyətinə gətirdiyi məhdudiyyətlər və mövcud risklər baxımından təsnif edildikdə, bu tendensiyalardan göründüyü kimi, iqtisadi siyasət muxtariyyətinin ən məhdudlaşdırıcısı portfel investisiyaları, ən az məhdudlaşdırıcı isə birbaşa xarici investisiyalardır. Potensial risk baxımından, yenidən riskli kapital axını qısamüddətli portfel investisiyalarıdır. Portfel yatırımlarının yüksək likvidlik xüsusiyyəti kapital axını asanlaşdırdığından, maliyyə böhranlarına səbəb ola bilər. Portfel yatırımlarının geri dönmə riski yüksəkdir. Xarici köməyə gəldikdə, onlar bazar qüvvələrindən asılı deyillər, gözlənilməz geri dönüş yoxdur. Birbaşa xarici investisiyaların da likvidliyi az olduğundan qəfil geri dönmə ehtimalı azdır. BMS bütün dövlətlərə siyasətlərini və qurumlarını müəyyən bir şəkildə dəyişdirmək üçün təzyiq göstərən bir vasitə kimi görülür. Ticarət siyasətinin liberallaşdırılması, kapitala nəzarətin ləğvi, xarici investorlara maliyyə bazarlarının açılması və dövlətin iqtisadiyyatdakı rolunun azaldılması dünya iqtisadiyyatına qoşulmağın ümumi əmrləridir. İnkişaf etmiş ölkələrdə rifah halının anlaşılmasından imtina və ya tərk edilmək, inkişaf etməkdə olan ölkələrdə iqtisadiyyatların liberallaşdırılması qloballaşmanın yaratdığı yeni vəziyyətlərdir. Ticarət siyasətinin liberallaşdırılması, kapitala nəzarətin ləğvi, xarici investorlara maliyyə bazarlarının açılması və dövlətin iqtisadiyyatdakı rolunun azaldılması dünya iqtisadiyyatına qoşulmağın ümumi əmrləridir. İnkişaf etmiş ölkələrdə rifah halının anlaşılmasından imtina və ya tərk edilmək, inkişaf etməkdə olan ölkələrdə iqtisadiyyatların liberallaşdırılması qloballaşmanın yaratdığı yeni vəziyyətlərdir.

AZƏRBAYCANDA BANK SEKTOUNUN MÜASİR İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Qurbanzadə F.Ə.
OdlarYurdu Universiteti
E-mail: fidangurbanzade@gmail.com

Beynəlxalq valyuta münasibətlərinin dəyişmə templəri,iqtisadi münasibətlərin uzunmüddətli sabitliyinin olmaması və regional fərqliliklər gələcəkdə dollar, avro və ya sterlin deyil, virtual(kripto valyuta) valyutaların pul münasibətlərinin aparıcı valyuta açarı olacağını söyləməyə əsas verir. Bir gün, xüsusilə də, uzaq bölgələrdə kağız vərəqələrinin alınmasından daha asan və təhlükəsiz ola bilər və virtual valyutalar daha sabit bazaya malik olur . Tarixi təcrübə göstərir ki,həqiqətən də əhali artımı iqtisadi artımla birlikdə azalmağa başlamışdır.Bunun xaricindəki üsullarla,yəni gəlir və təhsil potensialını təkmilləşdirmədən əhali artımını nəzarətdə saxlamaq cəhdləri uğursuz olmuşdur.Digər önəmli faktor isə Dünya Bankının inkişaf etməkdə olan ölkələrə xeyriyyə məqsədli verdiyi kredit və borcların yoxsulluqla mübarizədən çox,borc böhranlarını üstələyərək makroiqtisadi sabitliyi təmin etməyə yönəlmiş olmasıdır. 1970-ci illərdən bəri Dünya Bankı şəhər və şəhər ətrafı ərazilərin inteqrasiyası və inkişafı üçün layihələrə əhəmiyyət verərək, yoxsulluğun azaldılmasına yardım edir.Dünya Bankı 1980-ci ildən etibarən 10 il müddətində yoxsulluqla bağlı hesabat yayımlayır və yoxsulluğa yanaşma metodlarını daha da yaxşılaşdırdığını iddia edir. Xüsusilə, 2000-ci ildə hazırlanan hesabatda yoxsulluqla mübarizə üzrə daha geniş qaydalara yer verilmişdi. 2000-ci ildə hazırlanan hesabatda bildirilirdi ki, milli iqtisadi inkişaf kasıb ölkələr üçün vacibdir, lakin bu kifayət deyil və əlavə olaraq siyasi və sosial tərəqqi həyata keçirilməlidir.Qeyd olunduğu kimi bəzi mütəxəssislər Dünya Bankı və BVF kimi təşkilatları yoxsulluq və zənginlik arasındakı boşluğu aradan qaldırmaq və varlı ölkələrin resurslarını yoxsul ölkələrin inkişafına istiqamətləndirmək məqsədli qurumlar kimi müəyyən edərkən,əks fikirlərə sahib əksər şəxslər neoliberal ideologiyanın bütün dünyaya hakim olması üçün kapitalizmə gec keçid etmiş ölkələrin qlobal kapitalist sistemə inteqrasiya prossesini sürətləndirərək ABŞ-ın öz hegemonik gücünü davam elətdirməsinə yardım edən bir təşkilat olduğunu irəli sürür.Bu səbəbdən bankın o dövrdə müəyyən etdiyi yeni prioritetlərdən biri olan "yoxsulluğa qarşı mübarizə" bəzi sektorlar tərəfindən kəskin tənqid almışdı.

Dünya ölkələri xarici iqtisadi əlaqələrin genişlənməsi, xarici ticarət dövriyyəsinin artması ölkələrin dünya iqtisadiyyatına inteqrasiyası ilə nəticələnir. İnteqrasiya prosesi isə bir sahəni əhatə etmir. İqtisadiyyatın bütün həlqələrində öz təsirini göstərir. Son dövrlərdə iqtisadiyyatın beynəlxalq xarakter alması, beynəlmiləlləşməsi kredit sahəsində də özünü göstərməkdədir. Belə bir çox ölkələr artıq kredit sahəsində beynəlxalq əməkdaşlıq edirlər. Bunun da nəticəsində bir dövlətin digər dövlətdən az və ya çox dərəcədə borcu, asılılığı yaranmış olur. Bəzi dövlətlər debitor vəziyyətinə düşürlər, bəziləri isə bu mübarizədə kreditora çevrilmiş olur.Deməli onda beynəlxalq kreditin mahiyyətinə, onun yerinə yetirmiş olduğu funksiyalara tələbat da kəskin şəkildə artmışdır. Müasir iqtisadi şəraitdə beynəlxalq kreditin həyata keçirilməsi yalnız beynəlxalq kredit şirkətləri tərəfindən aparılmır, eyni zamanda da dünya ölkələri bir-birinə kredit verir, müəyyən güzəştli

şərtlər daxilində maliyyə ehtiyatlarının axınını təşkil edirlər. Bir çox hallarda isə beynəlxalq kreditin həyata keçirilməsi beynəlxalq banklar və bank olmayan digər kredit təşkilatları, beynəlxalq maliyyə institutları tərəfindən həyata keçirilir. Beynəlxalq kredit dedikdə, kreditin öz funksiyalarını bir qədər də genişləndirərək, ölkə hüdudlarını keçməsi, beynəlxalq müstəvidə öz fəaliyyətini davam etdirməsi prosesi başa düşülür. Başqa sözlə desək, beynəlxalq kredit ölkədaxili kredit deyildir. Beynəlxalq kredit ölkələrarası və yaxud da təşkilatlar arası kreditdir.

Beynəlxalq kreditin həyata keçirilməsində əsas məqsəd ölkələrin pul ehtiyatlarına, maliyyə resurslarına qarşı yüksək tələbatının olması ilə əlaqədardır. Beynəlxalq kredit maliyyə ehtiyatlarının zəngin olduğu ölkələrdən pul ehtiyatlarının nisbətən bu ehtiyatların az olduğu ölkələrə hərəkəti prosesidir. Başqa sözlə desək, beynəlxalq kredit maliyyə resurslarının elə hərəkətidir ki, bu zaman maliyyə ehtiyatlarının daha çox olduğu ölkələr öz ehtiyatlarının bir hissəsini maliyyə qıtlığı çəkən ölkələrə axınını təmin edirlər. Digər bir nüans isə onunla ölçülür ki, beynəlxalq kreditin həyata keçirilməsi zamanı maliyyə ehtiyatlarının zəngin olduqları ölkələr öz ehtiyatlarını bir qədər də artırmış olurlar.Çünki beynəlxalq kredit də kreditin bir növüdür və faiz müqabilində verilir. Əlavə faizlərin gəlməsi isə beynəlxalq kreditin maliyyə resurslarının artmasının əsas səbəblərindən biridir. Beynəlxalq kreditin həyata keçirilməsi zamanı bir neçə iqtisadi nəticə əldə olunur.

Belə ki, beynəlxalq kreditlərin əldə olunması nəticəsində maliyyə resurslarına tələbatın olduğu regionlarda həmin tələbatın təmin olunması prosesi həyata keçmiş olur, eyni zamanda da beynəlxalq kredit maliyyə axınlarının beynəlxalq səviyyədə hərəkətinə səbəb olur. Beynəlxalq kreditin dünya ölkələri tərəfindən əldə olunması nəticəsində iqtisadiyyatın ayrı-ayrı sahələrinə investisiya siyasəti həyata keçirilə bilir ki, bu da iqtisadi artımın təmin olunmasına, yeni iş yerlərinin açılmasına, son nəticədə isə əhalinin maddi rifah halının yüksəlməsinə şərait yaratmış olur. Beynəlxalq kredit beynəlxalq kredit bazarı vasitəsilə həyata keçirilir.

Dünya kredit bazarı- dünya borc kapitalı bazarının ayrıca bir ünsürüdür. O bazarda vaxt , geri qaytarma ilə faizlərin ödənməyi şərtilə dövlətlər arasında kapitalın hərəkəti Maliyyə ehtiyatlarının beynəlxalq hərəkəti baş verir. Maliyyə resurslarına tələbatın olduğu ölkələrdə mövcud tələbat bu və ya digər səviyyədə təmin olunur; Əldə olunmuş beynəlxalq kreditin ölkə iqtisadiyyatının müxtəlif sahələrinə investisiya edilməsi iqtisadi inkişafa öz töhvəsini verir gerçəkləşdirilir. Həmin bazar özünə məxsus xüsusiyyətlərə sahib olan iki alt seqmentdən təşkil olunmuşdur – dünya pul bazarı ilə dünya kapital bazarı. Qloballaşma ilə beynəlmiləlləşmə əməliyyatlarının dərinləşməsi və transmillli şirkətlərin çoxalmasıyla ABŞ-ın kredit bazarının hazırki vəziyyəti xarakterizə edilir .

MALİYYƏ HESABATLARINDA BEYNƏLXALQ STANDARTLAR VƏ ONLARIN TƏHLİLİ

Rəhimli Ç.İ.
Sumqayıt Dövlət Universiteti
E-mail: cicekabasova2021@gmail.com

Müəssisələrdə yerinə yetirilən maliyyə proseslərini strukturlaşdırılmış qanunauyğunluqlar şəklində formaya salmaqla, nəzarətini aparan maliyyə hesabatları bir elm sahəsi kimi həm də bir sıra riyazi əməliyyatlar əsasında idarə olunan sistem alətidir.

Üç mənbədən - maliyyənin vəziyyətindən; maliyyənin nəticələrindən və pul vəsaitlərinin hərəkətindən məlumatlar toplayan maliyyə hesabatları ümumilikdə müəssisənin maliyyə fəaliyyəti haqqında verilənlər bazası hazırlamaqla birgə həm də mürəkkəb hesabatlarda beynəlxalq hesabatlar əsasında intellektual idarəetmənin biliklər bazasını da təşkil edə bilər. Verilənlər bazasının əsas informasiya elementləri kimi beynəlxalq standartlara uyğun uçot sistemlərində aktivlərini, öhdəliklərini, pul vəsaitlərini, biliklər bazasının əsas elementləri kimi isə gəlirlərinin və xərclərinin beynəlxalq standartlara uyğun təyinini göstərmək olar. Həmçinin iqtisadiyyatın bütün sahələrində beynəlxalq standartların gözlənilməsi məqsədilə uçot və hesabatların eyniləşdirilməsi də verilənlər bazası və biliklər bazasının qarşılıqlı tamlığını tələb edir.Tamlıq yaradan verilənlər bazası və biliklər bazasının birgə fəaliyyəti ilə maliyyə uçot hesabatının avtomatlaşdırılmış alqoritmini də qurmaq olar ki, bu isə maliyyə hesabatlarında səmərəliliyi də artırır.

Aktivlər müəssisənin tabeçiliyində olan vəsaitlər əsasında iqtisadi səmərəni, öhdəliklər isə müəssisənin fəaliyyəti əsasında müəyyənləşən borcu ifadə edir. Məlumdur ki, aktivlər öhdəlikdən çox olduqda pul vəsaitləri artır ki, bu da xalis aktivlər kimi də xarakterizə olunur. Əks halda, yəni aktivlər öhdəlikləri aşmadıqda xərclərin yaranmasını ilə yekunlaşır.

Tədqiq edilən obyektin pul ifadəsinin mühasibat balansında yarana biləcək ziyan (zərər) və ya mənfəətin hesabatı qiymətləndirmə əsaslarında ifadə olunur ki, buna da ilkin, cari, ədalətli dəyərlərlə yanaşı, mümkün satış dəyəri və diskontlaşdırılmış dəyər də daxil edilir.

İlkin dəyər - aktivin əldə edilməsi və öhdəliyin hazırlanması müddətində ödəniləcək pul vəsaitlərinin və ya onların ekvivalentlərinin məbləğinin ədalətli dəyər formasında qiymətləndirilməsidir.

Cari dəyər – real zaman anında analoji aktivlərin əldə edilməsi və öhdəliyin yerinə yetirilməsi məqsədilə ödənilməli olan pul vəsaitlərinin və ya onların ekvivalentlərinin nominal (diskontlaşdırılmamış) məbləğ ilə qiymətləndirilməsini nəzərdə tutur.

Ədalətli dəyər - aktiv və öhdəliyin müstəqil, mükəmməl məlumatlandırılmış, aktivin mübadilə nəticəsində əldə edilə biləcək məbləq şəklində qiymətləndirilməsi, öhdəliyin isə yerinə yetirilməsi üçün tələb olunan məbləq ilə qiymətləndirilməsidir.

Mümkün satış dəyəri – müəssisənin adi iş şəraitində aktivin satılması nəticəsində əldə edilə biləcək, öhdəliyin isə yerinə yetirilməsi məqsədilə pul vəsaitlərinin və ya onların ekvivalentlərinin ödənilməli olan nominal (diskontlaşdırılmamış) məbləğ ilə qiymətləndirilməsini ifadə edir.

Diskontlaşdırılmış dəyər − müəssisənin adi iş şəraitində aktivinin istifadəsindən gözlənilən sonrakı xalis pul vəsaiti daxil olmalarının, öhdəliyin isə yerinə yetirilməsindən əldə edilə biləcək sonrakı xalis pul vəsaiti xaric-olmalarının hal-hazırkı məbləq formasında qiymətləndirilməsidir.

Maliyyə hesabatlarının hazırlanmasında münasiblik, anlaşıqlılıq, ardıcıllıq, dəqiqlik (düzgünlük), etibarlılıq, tamlıq kimi keyfiyyət xarakterli göstəricilər də öz əksini tapmalıdır. Belə ki, maliyyə hesabatları üzrə ötürülən informasiya mahiyyət etibarı ilə anlaşıqlı olmalıdır. Maliyyə hesabatlarında ifadə olunan informasiya xarakterli məlumatlar isə zaman baxımından semantik məna etibarı ilə oxunmalı (tanınmalı), təhlil edilməli (qiymətləndirilməli) və sonda istifadəçiyə ötürülməli kimi ardıcıllıqla icra olunmalıdır.

Təqdim olunan maliyyə informasiyası müqayisəlilik keyfiyyət göstəricisinə əsasən icra olunan maliyyə hesabatları arasında fərqliliyi müəyyənləşdirmək və qiymətləndirmək imkanını əldə edir. Həmçinin bir sıra dövlət müəssisələrinin və təşkilatlarının maliyyə fəaliyyətlərində yarana biləcək meylləri təyin etmək kimi imkan da yaranır.İlkin (əvvəlki), cari və sonrakı maliyyə hesabatlarını təhlil etməklə istifadəçilərin bir sıra iqtisadi qərarlar qəbul etmələrinə bilavasitə və ya dolayı təsir edən informasiya strukturlu məlumatları münasiblik xarakteri kimi qəbul etmək olar. İnformasiyada olan münasiblik keyfiyyət göstəricisi məlumatın mahiyyət və əhəmiyyətlilik keyfiyyət göstəricilərindən də asılıdır.Maliyyə hesabatlarını istifadəçilərə təqdim edənkən nəzərə alınmayan və ya təhrif formasında iqtisadi qərarların qəbul edilməsi üçün informasiya əhəmiyyətli hesab olunur. Əhəmiyyətlilik qiyməti müvafiq vəziyyətlərdə maliyyə hesabatlarında yarana biləcək diqqətsizliyə görə nəzərə alınmayan məlumatın və ya yaranan səhvin həcminin dəyərindən asılı olur. Əhəmiyyətlilik göstəricisi informasiyanın keyfiyyət xüsusiyyətləri kimi deyil, münasibliyini ifadə edən kəmiyyətlər şəklində ölçülür.Hesabat strukturlu maliyyə hesabatlarının tərkibində əhəmiyyətli yanlışlıqlar və ilkin səhvlər yoxdursa, onda informasiya etibarlılıq keyfiyyət göstəricisinə malik olur.

Təqdim olunan maliyyə hesabatlarında məlumatların dəqiqliyi (düzgünlüyü) onun maliyyə fəaliyyətində və vəziyyətlərində maliyyə yekunlarının modifikasiyasız, olduğu kimi və əhəmiyyətli faktları saxlamaqla, mahiyyətin formadan üstün olması konsepsiyasına görə obyektiv əks etdirməsini nəzərdə tutur.

İcra olunan maliyyə hesabatlarının qeyri-müəyyən mühitdə aparılması şəraitində aktiv və ya gəlirlərdə müsbət dinamikanın olmaması, həmçinin öhdəlik və xərclərin minimallaşdırılmamasının təmin olunması məqsədilə daha önəmli yanaşmanı - ehtiyat tədbirinin görülməsini zəruri edir. Ehtiyatlılıq prinsipinin tətbiqi yeni kapital ehtiyatlarının və həddən artıq həcmdə qiymətləndirilmiş öhdəliklərin yaradılmasına da əsas vermir. Qərəzsiz, yəni neytral informasiya da ehtiyatlılıq prinsipinə birbaşa təsir edən amillərdəndir.

Maliyyə hesabatlarının beynəlxalq standartlar əsasında yerinə yetirilməsi və müvafiq nəticələrin təhlilində mühasibat uçotunun budaqlanma şərti kimi maliyyə hesabatının avtomatlaşdırılmış formada icrası da müasir dövrün tələblərindəndir. Belə ki, hesablamalarında daha çox diqqət, məsuliyyət tələb edən maliyyə uçotlarının tərkib hissələrindən biri də qarşıya qoyulmuş qaydalar əsasında əmək haqqlarının elektron tərtibatlarının hazırlanmasıdır.İşçilərin əmək haqqlarının təyinində bir sıra standart tutulmalar - gəlir vergisi; dövlət sosial müdafiə fondu; işsizlikdən sığorta haqqı; icbari tibbi sığorta vardır ki, bu kimi hesabatların avtomatlaşdırılması da məqsədəuyğun qəbul olunur. Onu da qeyd edək ki, standart tutulmalarla yanaşı digər müvafiq tutulmalar və ya gəlir vergisində bəzi güzəştlərin olması, yaxud əlavə əmək haqqı, mükafatlar da ola bilər ki, bu da hesabatların dəqiq icrası üçün avtomatlaşdırılmasını bir daha önəmli edir.

Vergilərdə güzəştlər üzrə hesabatlarının avtomatlaşdırılmasını **switch-case** prinsipi əsasında icra etmək olar:

```
adi= 200;
```

```
switch(güzəşt)
{
case 'şəhidlik statusu':                güzəşt = 800   + adi ; break;
case 'qarabağ əlili statusu':           güzəşt = 400   + adi ; break;
case 'birinci və ya ikinci qrup əlil': güzəşt = 200   + adi ; break;
case 'qaçqın statusu':                  güzəşt = 100   + adi; break;
case 'himayə edən':                     güzəşt = 50    + adi ;  break;
```

Qurulan proqram təminatı nümunəsindən görünür ki, işçilərin əmək haqqını, müəssisənin gəlirini, xərclərini və bu kimi digər məsələlərin avtomatlaşdırılmasını fasiləsiz, operativ və dəqiq formada icrasını aparmaq olar.

AZƏRBAYCANIN TURİZM ŞİRKƏTLƏRİNDƏ İNSTİTUSİONAL İDARƏETMƏ PROBLEMLƏRİ VƏ HƏLLİ YOLLARI

Rəhimli T.İ.
OdlarYurdu Universiteti
E-mail: rahimov.idrak.67@mail.ru

Turizmin mahiyyəti onun sosial-iqtisadi mənasını açır. İqtisadi mənası sahə olaraq gəlir gətirmək qabiliyyətidir. Turizm sahəsi iş yerlərini təmin edir, özünün maddi ehtiyatlarını formalaşdırır, uyğun fondları təşkil edir.Fəaliyyəti nəticəsində gəlir-mənfəət əldə edir. Dünya təcrübəsi göstərir ki, turizm inkişaf etmiş regionlarda dövlət və əhali gəlirlərinin 30%-ə qədəri turizm fəaliyyəti ilə bağlıdır. Sosial mənası isə iş yerlərinin açılması, sahibkarlığın inkişafı və uyğun olaraq turizm regionlarında ev təsərrüfatının, əhalinin ehtiyaclarına uyğun xidmət sferası yaratmaqdır.Turizm sosial sahə olaraq inkişafı xidmət sferası ilə bağlıdır. Sosial infrastruktura sahələri isə nəqliyyat, ictimai iaşə, mənzil otel və məişət xidmətləri sahələri ilə bağlıdır.O cümlədən turizm inkişaf etmiş regionlarda sosial infrastruktura daha geniş yayılıb.

Turizmin infrastruktur sahələri şəhərsalma və regionlarda kompleks ərazi inkişafını təmin edir. Turizmin sosial mahiyyəti onun sosial predmeti olaraq öyrənmə və sosial proqnozlarının əsasını yaradır.Turizmin inkişafında sosial amillər- demoqrafik və təhsil səviyyəsi ilə ölçülür. Turizmin sahə quruluşu, onun regional yerləşmə sxemi, sosial infrastrukturun yerləşməsinin konseptual əsasıdırO cümlədən, turizmin infrastrukturu birbaşa sosial xarakterli infrastrukturadır. Təhsil, səhiyyə, əhali daşınması, pullu xidmətləri, mənzil-kommunal təsərrüfatlarının inkişafı, otelçilik, ev təsərrüfatına münasibət sosial vəzifələri ifadə edir. Turizmin sosial-iqtisadi inkişafı əhalinin həyat səviyyəsinin yüksəldilməsi, rifah halının yaxşılaşdırılmasına səbəb olur. Regionlarda biznesmenlər vasitəsi ilə yaxud dövlətin təşəbbüsü ilə turizm bazalarının yaradılması, ilkin olaraq bir sıra iş yerlərinin yaradılması, kənd təsərrüfatında istehsal edilən mallarının əsasn satılması, cəmiyyətin sosial-iqtisadi rifah hallarının yaxşılaşmasıdır. Turizm xidmət sektorunda əhəmiyyətli yer tutur, bu sahə 20-ci əsrin ikinci yarısından etibarən daha da inkişaf etmişdir ki , bu da əhalinin qlobal səyahətilə əlaqəlidir.Müstəqillik əldə edildikdən sonrakı müasir iqtisadi və ictimai inkişafın irəliləməsi üçün azad bazar iqtisadiyyatının inkişafı şəraitində Azərbaycanın qlobal sferaya inteqrasiyası prosesi çərçivəsindəki dövlətlərlə iqtisadi əlaqələrin genişləndirilməsi əsas rol kimi çıxış edir .Azərbaycanda belə münasibətlərin bir növü olan qlobal turizmin münasibətləri inkişaf zamanı istiqmətlərində zəruri fəaliyyətlər göstərilir.

Azərbaycanda turizm inkişafı üçün zəruri diqqət ulu öndər tərəfindən verirlir. Ümummilli liderimiz Heydər Əliyevin 1999-cu il üçün olan Fərmanına uyğun şəkildə qəbul olunmuş "Turizm haqqındakı qanun" və "2002-2005-ci illərdə Azərbaycanda turizmin inkişafı proqramı" dan sonra Azərbaycandakı turizm sahəsinin inkişafı sürətlə artmışdır.Azərbaycanda əlverişli coğrafi mövqe, 9 iqlim qurşağına, flora və fauna fərqliliyinə və zənginliyinə, dənizin sahilində yerləşməsi, mədəni-tarixi irsə, zəngin mətbəxə, yüksək qonaqpərvərlik ənənələrinə malik olmağı turizm inkişafının təşkili üçün böyük perspektivləri yaradır. Ölkəmiz çox nadir təbii, mədəni, milli, etnoqrafik kompleksə malik olur .

Azərbaycandakı turizm sektorunda olan geniş imkanların mövcudluğu ölkənin bəzi xarici müəssisələrlə turizm inkişafı istiqamətlərində əməkdaşlıq etməyə imkan verir. Belə dünyəvi təşkilatlar arasındakı Dünya Turizm Təşkilatını, İslam Konfransı Təşkilatını, GUAM-ı, Müstəqil Dövlətlər Birliyini və b. qurumların adını çəkə bilərik.Həmçinin , turizm sektorunda inkişf etmiş Türkiyə, Polşa, İtaliya, Gürcüstan, Ukrayna, Rumıniya, Belarus, Yunanıstan, Moldova, Qətər və başqa ölkələr ilə ölkəmiz dövlətlərarası müqavilələr bağlamışdır. Hazır ki, dövürdə müxtəlif ölkələrlə bucür müqavilələrin imzalanması ilə əlaqəli

müzakirələrdə gedir.Bakıda keçirilən Beynəlxalq Turizm Sərgisi (AİTF) 2002-ci ildən bəri bunun təşkili adət halına çevrilməsi ölkəmizin turizmin inkişafı üçün olduqca çox əhəmiyyətli olmasının sübutudur. Əlavə olaraq, bugünə kimi Azərbaycan öz turizm ehtiyatının zənginliyi baxımından bunun imkan genişliyi barəsindəki materialları dünyadakı bu sahədə öz sözünü deyən İstanbulda, Berlində, Moskvada, Londonda, Əl-Küveytdə, Kiyevdə, Tbilisidə, Daşkənddə və b. kimi şəhərlərdə keçirilən formlarda nümayişini etmişdir.Eyni zamanda, ölkədə turizm müxtəlifliyi baxımından bunun növlərini inkişaf etdirəndə, turizm sektorunda işləyən heyətin maarifləndirilməsi üçün yenidən təkan verən proqram "Azərbaycan Respublikasında 2007-2016-cı illər üçün turizmin inkişafına dair Dövlət Proqramı" dır.

Dövlət Proqramında ən vacib məqsədlərdən biri "Turizm haqqında" Qanundakı, yəni başqa uyğun norma və aktlarında nəzərdə tutulan müddəaların uyğunluğu turizm sektorunda dövlətin siyasəti yerinə yetiriləndə, ölkədəki sosial-iqtisadi inkişafın təmini vasitələrindən biri də turizmin sərmərəliyindən düzgün formada istifadəsi, turizmdə ölkənin iqtisadi əsaslı istiqamətləri kimi qəbul olunması və bu sektorunun zəruriliyin çoxalmasının təmindir.Önəmli məqsədlərin sırasındakı turizmin ehtiyatının əldə edilməsini və bunların genişləndirilməsini, turistlərin istirahətini, turistlərin tələbatının təmini üçün lazımlı xidmətin, ekskursiyanın və başqa mədəni tədbirin növünün genişləndirilməsini və yeni standartlara uyğun olmasını, sanatoriya-kurort sərvətlərin öyrənilməsini və daimi istismarın, otellərin və digər turizm obyektlərin tikintisindəki mərhələnin genişləndirilməsini, səyahət marşrutunun artırılmasını, turizmin növlərinin inkişafının təşkili, əsaslı turizmin forması olaraq mədəni turizmin, ekoloji turizmin, rekreasiya turizmin sahəsindəki ölkənin tənzimlənməsini gücləndiriməklə yanaşı, xalqımızın tarixi-mədəni irsinin, fərqli regionlardakı və şəhərlərdəki milli adət-ənənələrimin tarixinin əksi materialın dərc edilməsi və yayılması, milli sənətkarlıq və əks etdirir.Sosial-iqtisadi sahə kimi turizm əsasən XIX əsrin ortalarından inkişaf etməyə başlamışdır. Bu dövrə qədər isə turizm fərdi gəzinti və səyahət xarakteri daşımış, qeydiyyata düşmədən müxtəlif əraziləri, ölkələri gəzən adamlara «turist» demişlər.Azərbaycan elə bir coğrafi məkanda yerləşir ki, burada təbiətin demək olar ki, bütün gözəlliklərinə rast gəlinir. Azərbaycanın turistik bölgəyə çevrilməsi üçün burada çox geniş imkanlar var. Turizmin inkişafı iqtisadiyyatımızın güclənməsi, gəlirlərin xeyli artması və ən əsası, regionların sosial-iqtisadi inkişafının əsasını təşkil edə bilər.Müasir dövrümüzdə turizm bölgəsinə çevrilmək təkcə iqtisadi baxımdan deyil, həm də siyasi baxımdan ölkəmiz üçün çox vacibdir. Çünki bu gün dünyada gedən proseslər və təhlükəsizlik məsələləri baxımından turizmin inkişafı labüddür. Turizm həm də ölkələri, xalqları bir-birinə yaxınlaşdırır, beynəlxalq münasibətləri gücləndirir, iqtisadi və mədəni əlaqələrin inkişafına təkan verir. Turizmin həcmini artırmaqla, turistik bölgəyə çevrilməklə biz eyni zamanda regionların sosial-iqtisadi inkişafını çox sürətlə və effektiv şəkildə həyata keçirə bilərik.Turizmin inkişafı həm də regionların sosial iqtisadi baxımdan qısa bir müddətdə dirçəlməsi deməkdir.

MİLLİ İQTİSADİYYATIN RƏQABƏTQABİLİYYƏTLİLİYİ VƏ ONUN QLOBAL İQTİSADİYYATA İNTEQRASİYASI İSTİQAMƏTLƏRİ

Rəşidov V.Z.
Sumqayıt Dövlət Universiteti
E-mail: rasidov.95@mail.ru

İqtisadiyyatda "rəqabət qabiliyyəti" anlayışı çox mübahisəlidir. Bu, rəqabət qabiliyyətinin göstəricilərində və onun təriflərində əhəmiyyətli fərqlərə gətirib çıxarır. Bir sıra yerli və xarici tədqiqatçıların əsərlərini tədqiq edərək, onlarda rast gəlinən anlayışları sistemləşdirərək onun son əsərlərindən birində təqdim olunan aşağıdakı şərh bizə ən məntiqli və dolğun görünür: "Bir millətin rəqabət qabiliyyəti azad bazar iqtisadiyyatı çərçivəsində ölkənin beynəlxalq bazarların tələblərinə cavab verən, əhalinin real gəlirlərini uzun müddət saxlamaq və artırmaqla əmtəə və xidmətlər istehsal etmək imkanlarının səviyyəsi".

Bir qayda olaraq, təşkilatın rəqabət qabiliyyəti anlayışı onun rəqiblərə müqavimət göstərmək, istehlakçıları saxlamaq və artırmaq, səmərəli istehsal, eyni zamanda iqtisadi və kommersiya fəaliyyətini təmin etmək qabiliyyətinin qiymətləndirilməsi ilə əlaqələndirilir.Təqdim olunan şərhləri, xüsusən də malların rəqabət qabiliyyətini təhlil edərkən məlum olur ki, bu iqtisadi kateqoriya çox vaxt malların istehlakçıların gözləntilərini ödəmək, reallaşmaq qabiliyyəti kimi başa düşülür.Rəqabətqabiliyyətliliyə keyfiyyətlə yanaşı, malların istehlak qiymətini formalaşdıran marketinq, kommersiya və iqtisadi komponentlər də daxildir, bu, alış qiymətinə endirilməmiş, lakin əməliyyat zamanı əmtəədən qənaətlə istifadəni özündə ehtiva edir. Beləliklə, məhsulun

rəqabətqabiliyyətliliyi planlı və mürəkkəb problemdir, onun aradan qaldırılması dərəcəsini, mübaliğəsiz, bütövlükdə ölkə iqtisadiyyatının inkişaf səviyyəsinin ölçüsü hesab etmək olar.

Məhsulların rəqabət qabiliyyətinin səviyyəsinə ayrı-ayrı bazar seqmentlərinin əmək intensivliyinə tələbin ödənilmə dərəcəsi, rəqiblərin mövcudluğu, malların sosial-demoqrafik xüsusiyyətləri, təchizat və paylama şəbəkəsinin inkişafı, satış sonrakı xidmət kimi bazar amilləri əhəmiyyətli dərəcədə təsir göstərir.

Uğurlu qiymət siyasətini daha da təhlil etmək və inkişaf etdirmək üçün hər bir məhsul üçün onun rəqabətqabiliyyətlilik səviyyəsini qiymətləndirmək lazımdır. İstehlakçı davranışının tədqiqi göstərir ki, onların müqayisəsi və seçilməsi prosesində məhsul qalib gəlir ki, bu da digər oxşar məhsullarla müqayisədə mümkün qədər onun istehlakı və alınması xərclərinə münasibətdə faydalı təsir mövqeyinə malikdir.Məhsulların rəqabətqabiliyyətlilik səviyyəsinin artırılması çoxşaxəli və mürəkkəb vəzifədir, onun həlli yerli müəssisələr və bütövlükdə milli iqtisadiyyat üçün dominant strateji meyar kimi çıxış edir.Yuxarıdakıları ümumiləşdirərək qeyd etmək lazımdır ki, Azərbaycanın qlobal rəqabət məkanına daxil olmasının əsl yolu, fikrimizcə, aşağıdakı istiqamətləri həyata keçirməkdir: hasilat sənayesi sahəsində xammalın ilkin emalı prosesinin dərəcəsinin gücləndirilməsi; emal sənayesində investisiya vəsaitlərinin yenidən bölüşdürülməsi; əsas kapitala investisiya qoyuluşunun ən az kapital tutumlu üsullarından biri kimi istehsalın modernləşdirilməsi; müəssisələrin investisiya siyasətinin istiqamətlərinin işlənib hazırlanması, o cümlədən yeni texnologiyaların, elmi-texniki tədqiqatların, yeni xammal, material mənbələrinin inkişafına əsaslı vəsait qoyuluşu; beynəlxalq rəqabətliliyin milli siyasətinin işlənib hazırlanması; idxalın azaldılması və yerli istehsalçıların dəstəklənməsi; ölkənin rəqabət mühitinin keyfiyyətinin dünya bazarının analoqlarının keyfiyyətinə tədricən yaxınlaşması.

Yuxarıda deyilənlərə əsasən aydın olur ki, bu gün respublikanın inkişafının getdiyi və rəqabətqabiliyyətli milli iqtisadiyyatın yaradılması yolu ilə davamlı iqtisadi artıma nail olmaq məqsədi daşıyan istiqamətlər yerli müəssisələr qarşısında bir sıra tələblər irəli sürür.

AZƏRBAYCANDA SIĞORTA ŞİRKƏTLƏRİNİN MALİYYƏ RESURSLARININ FORMALAŞDIRILMASI VƏ ONLARIN İSTİFADƏSİNİN EFFEKTİVLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Sadıqov H.C.
OdlarYurdu Universiteti
E-mail: hesen.sadiqov4677898@gmail.com

Müasir dövrdə Respublikamız maliyyə sferasında iqtisadi islahatlarının yeni dövründədir. Ölkəmiz maliyyə sistemində stabilliyə və maliyyə sisteminin ən mühüm hissəsi olan sığortada da xeyli irəliləyişə nail olmuşdur. Azərbaycanda sığorta müasir dövrdə ictimai təhlükəsizlik meyarı olmaqla yanaşı iqtisadiyyatın vacib sektorudur. Ölkəmizdə milli sığorta sisteminin maliyyə dayanıqlılığının olmaması, sığorta haqlarının çox hissəsinin paytaxtdan yığılması, maliyyə resurlarından tam effektiv istifadə edilməməsi bu işin tədqiq edilməsinin önəmli xarakter daşıdığını göstərir. Maliyyə böhranından sonra əhalinin həyat, əmlak, nəqliyyat vasitələrinin sığortasına ehtiyacı əhəmiyyətli şəkildə artmışdır. Sığorta təşkilatlarının maliyyə sabitliyini təmin etmək müasir iqtisadiyyatın səmərəli fəaliyət göstərməsi üçün xüsusilə əhəmiyyət kəsb edir. Maliyyə sabitliyi, biznes fəaliyyətinin artımı, investisiya mühitinin yaxşılaşdırılması sığorta sisteminin inkişafının əsas amilidir. Biznes mühitində olan dəyişiklərə, çətin iqtisadi şəraitə uyğunlaşa bilməyən sığorta şirkətləri iflas riskini artırırlar. 2008-ci ildə makroiqtisadi vəziyyətin pisləşməsi sığorta xidmətlərinə olan tələbi azaltdı. Dəyən zərər artdıqca sığorta şirkətlərinin bir hissəsi maliyyə sabitliyini itirmiş və bazardan çıxmağa məcbur olmuşdurlar. Sığorta şirkətinin fəaliyyətinin məqsədlərinə uyğun olaraq nağd pul dövriyyəsi bazarın digər maliyyə qurumları ilə müqayisədə özünə məxsus xüsusiyyətlərə malikdir.

Sığorta fondu vəsaitlərin formalaşdırılması və istifadəsini özü müəyyənləşdirir. Sığorta şirkətinin pul vəsaitlərinin dövriyyəsinin müəyyən edilmiş elementlərinin hər biri sosial-iqtisadi məzmuna malikdir və bu səbəbdən hər mərhələdə pulların hərəkətinə müxtəlif iqtisadi və hüquqi amillər təsir göstərir. Sığorta fondunun formalaşması üçün zərərin yaranma ehtimalı olmalıdır və onun üçün sığortaçıya verilmiş sığorta haqqlarından fond formalaşdırılır. Sığorta şirkətinin maliyyə potensialı iqtisadi dövriyyədə olan və sığorta əməliyyatları aparmaq və investisiya fəaliyyətini icra etmək üçün olan maliyyə resurslarıdır.Sığorta bildiyimiz kimi etibarın, inamın üzərində qurulur.Amma sığorta şirkətlərinin bağlanması əhalidə olan inama xələl gətirir. 2015-ci ilde 2 dəfə ard-arda devalvasiya oldu ona görə bu sahənin nəticələri demək olar ki, çox aşağı düşdü. 21 fevral 2015-ci il tarixində milli valyutamız 30 faiz dəyərdən düşdü. Və nəticədə suni qiymət artımı baş verdi. Bu suni

qiymət artımı sığorta şirkətlərinin xərcini yüksəltdi. Növbəti devalvasiya isə 21 dekabr 2015-ci ildə dolların 47.6 faiz bahalaşması ilə nəticələndi. Bu devalvasiya nəticəsində avtomobil sığortasında xaricdən gətirilən avtomobil ehtiyat hissələrinin, tibbi sığortada isə xaricdən gətirilən dərman vasitələrinin qiymətinin bahalaşması sığorta bazarına zərbə vurdu. Bu devalvasiya ölkədə səyahət sığortası 46 bazarına da neqativ təsir göstərdi. Çünki, manatın dəyərdən düşməsi nəticəsində insanların əlindəki pullar dəyərdən düşdü və əvvəllər xaricə səyahət edərkən avropanı seçən insanlar Türkiyə, Gürcüstan, Rusiyanı seçməyə başladı.

İnsanlar bu kimi yaxın ölkələrə səyahət etməklə səyahət sığortası xərclərini azaltdılar. Bu o demək idi ki,yığılan sığorta haqqları da aşağı düşdü. 1-ci devalvasiyadan sonra bəzi şirkətlərin bu kimi tədbirlər görməsi nəticəsində 2-ci devalvasiyaya artıq hazırlıqlı idilər. Bəzi şirkətlər əvvəlcədən öz risklərini təkrarsığorta etdirərək müflis olmaqdan yayına bildilər. Beləki 5 milyon dollarlıq əmlak sığorta haqqısını hesablasaq 5 min dollar etdiyini görürük. Amma sığorta şirkəti öz riskini təkrarsığorta etdirəndə tutaq ki,riskin 50 faizini özü sığortalayır, 50 faizini isə təkrarsığorta elətdirir. Yəni 2500 dolları özü götürür, 2500 dollarını da təkrar sığorta şirkətinə verir. Xarici təkrar sığorta şirkətinə isə pulu verdikdə manatla deyil dollarla verməli olduğundan 2500 dolları almaqçün 21 fevral 2015-ci il tarixinə olan kursla (1 dollar=1.05 manat) hesablasaq 2625manat lazım idi. Amma hal-hazırda 2 fevral 2019-cu il tarixinə olan məzənnə ilə hesablasaq(1 dollar=1.70 manat) 2500 dollar almaq üçün sığorta şirkətlərinə 4250 manat lazımdır. Sığorta şirkətləri də aldıqları pulu dollara çevirib təkrarsığorta şirkətlərinə verdikləri üçün xərcləri artdı. Bu dövrdə əhalinin gəlirləri artmadığı, həm də pul dəyərdən düşdüyü üçün sığorta haqqları yığımında azalma müşahidə olundu. Fiziki şəxslər sığortalansı maşınların sayını azaltdılar, hüquqi şəxslər həm avtomobillərin sayını azaltdı, həm də tibbi sığortasını aldığı işçilərin sayını azaltdı. Amma əslində isə belə bir dövrdə sığorta çox vacibdir. Çünki, əmlaka zərər dəyəndə əvvəllər 2000 manata təmir etmək mümkün idisə, hazırda əmlakdakı eyni zərər 2500 manata təmir edilir, bu da 500 manat əlavə zərər deməkdir. Ona görə devalvasiya dövründə sığorta adi günlərdən daha vacibdir. Devalvasiya sığorta təşkilatlarının maliyyəsini zəiflətdi, lakin, bu dövrdə sığorta haqqlarında qiymət artımı qeyd olunmadı. Çünki, dövlət humanist addım ataraq qiymət artımına icazə vermədi. Bunun müsbət tərəfləri kimi mənfi tərəfləri də vardır. Mənfi cəhətinə sığorta şirkətlərinin maliyyəsinin yetməməsinə görə sığorta ödənişlərində kəsmələr etmələrini misal göstərə bilərik.

Azərbaycanda sığorta şirkətləri birbaşa banklardan asılıdır. Həyat sığortası isə az hissəni təşkil edir. Həm insanların maddi durumu yaxşı deyildir, həm də insanların arasında sığorta barəsində təbliğat işi aparılmalıdır. Şirkətlərin müxtəlif bahənələr gətirərək dəyən zərəri ödəməkdən qaçmağa çalışması insanların inamını qırır.

Sığortalar çalışmalıdırlar ki,yetəri qədər kapital toplasınlar. Yoxsa şirkətlərin linsenziyasının ləğv edilməsi davam edəcəkdir. Sığorta bazarının ən son və önəmli mərhələsi 2011-ci ildən sonrakı illəri əhatə edir. Son yeddi ildə sığorta şirkətlərinin fəaliyyət dinamikasına fikir versək görərik ki, sığorta haqqları yüksək templə artmaqda davam edir. Sığorta şirkətlərini tənzimləyən hazırda MBNP, Azərbaycan Sığortçılar Assosasiyası və İcbari sığorta bürosudur. Bu qurumlar Azərbaycanda sığorta bazarını inkişaf etdirmək, xarici ölkələrlə müqayisə edilə biləcək dərəcəyə çatdırmaqçün işlər görürlər. Məsələn bunlara müxtəlif tədbirlər, iclaslar, vahid yol xəritəsinin hazırlanması daxildir. Hətta Azərbaycan Sığortaçılar Assosasiyası "Sığorta bazarının inkişafına dair təhlil və təkliflər" sənədi hazırlamış və bu sənəddə Azərbaycanın sığorta bazarının inkişafı üçün bir çox təkliflər irəli sürmüş, sığorta bazarının artımı yaxud azalmasını rəqəmlərlə əks etdirmiş, sığortanın inkişafı üçün müştərilərə yüksək xidmət göstərilməsi lazım olduğu, qəza hadisəsi zamanı çevikliyi, şəfaflığı təmin etmək üçün elektron sistemin tətbiqin genişləndirilməsinin lazım olduğunu qeyd etmişlər. Amma vəsaitlərin çox yığılmasında ən çox maraqlı sığorta şirkətləridir. Çünki, sığorta şirkətləri sığorta haqqları yığmasa onların gəlirləri olmaz. Gəlirləri olmadığı zaman da hadisənin ödənişini həyata keçirə bilməzlər. Müəyyən kompaniyalar, maarifləndirmə tədbirləri görülür, amma bu tədbirlər bizim ölkəmiz üçün yetəri qədər deyildir.Bir müştəri bir məhsul alarkən gözlə görsə belə keyfiyyətinə şübhə edir.

Araşdırır sonra həmin əmtəəni alır. Amma sığorta gözlə görülə bilmir onun faydasını yalnız hadisə olduğunda görə bilirsiz. Ona görə də şirkətlər müştərini inandırmalıdır . Sığorta şirkətləri çalışdığı işçilərə də diqqət yetirməlidir. Çünki, bu işçilər, agentlər, brokerlər onların şirkətlərini yüksək səviyyədə təmsil etməlidirlər. Əgər bu işçilər sığorta şirkətini düzgün təmsil etməsələr, insanlarla kobud danışsalar, sığortanı insanları cərimdən qorxudaraq yazmaq istəsələr bu vətəndaşlarda həmin sığorta şirkətinə qarşı inamsızlıq, etibarsızlıq yaradacaqdır.

Müştəri həmin işçiyə görə bu sığorta şirkəti barəsində neqativ düşünəcəkdir. Ona görə həm mütəxəssis seçərkən düzgün qərar verirməli, həm də bu mütəxəssisi işə götürdükdən sonra işə götürən onu yetişdirməli, formalaşdırmalıdır.

TURİZM MÜƏSSİSƏLƏRİNİN XİDMƏTLƏRİNİN RƏQABƏT QABİLİYYƏTLİLİK AMİLLƏRİ

Sadıqova Ü.Z.
Sumqayıt Dövlət Universiteti
E-mail: ilgar.sadigov.87@mail.ru

Turizm bazarı xüsusilə yüksək rəqabətqabiliyyətlilik səviyyəsi ilə xarakterizə olunur. Turizm bazarının qloballaşdığı müasir şəraitdə turizm məhsulunun keyfiyyəti turizm müəssisələrinin rəqabət qabiliyyətinin artırılmasında əsas amilə çevrilmişdir. Müəssisənin rəqabət qabiliyyəti sənayenin, məhsulun və bazarın xüsusiyyətlərindən asılı olaraq müxtəlif formalarda ola bilən rəqabət üstünlükləri yaratmaq və inkişaf etdirmək yolu ilə dəyişən bazar vəziyyətinə uyğunlaşma qabiliyyətini göstərir. Tədqiqatçılar qeyd edirlər ki, turizm müəssisəsinin rəqabət qabiliyyətinə bir çox amillər təsir edir.

Turizm müəssisəsinin xidmətlərinin rəqabət qabiliyyətinə amillərin təsir dərəcəsinin seçimi, əsaslandırılması, qruplaşdırılması və sıralanması onun fəaliyyətinin xüsusiyyətləri nəzərə alınmaqla reallaşdırılmalıdır. Rəqabət qabiliyyətinə təsir edən bütün amilləri iki böyük qrupa bölmək olar: xarici və daxili (şəkil). Xarici amillər müəssisəyə təkcə qiymət deyil, habelə qeyri-qiymət xüsusiyyətlərinə görə daha cəlbedici məhsul istehsal etməyə imkan verən təşkilati və sosial-iqtisadi amillərdir. Daxili amillər müəssisənin öz rəqabət qabiliyyətini təmin etmək qabiliyyətini müəyyən edən amillərdir.

TURİZM MÜƏSSİSƏLƏRİNİN XİDMƏTLƏRİNİN RƏQABƏTQABİLİYYƏTLİLİK AMİLLƏRİ

Daxili amillər:
- turizm müəssisəsinin idarə edilməsi sistemi və metodları;
- müştəri xidmətinin səviyyəsi;
- innovativ texnologiyaların aktiv tətbiqi;
- maliyyə təminatının səviyyəsi;
- kadrların ixtisası;
- göstərilən xidmətlərin rəqabətqabiliyyətliliyi.

Xarici amillər:
- turizm regionunda siyasi vəziyyət və ekoloji təhlükəsizlik;
- turizm xidmətlərinə tələbatın ölçüsü və dinamikası;
- istehlakçıların tələbatının ödənilmə dərəcəsi;
- bazarda rəqabətin tənzimlənməsi üzrə dövlət siyasəti;
- ölkənin sosial-iqtisadi inkişaf səviyyəsi.

Şəkil. Turizm müəssisələrinin xidmətlərinin rəqabət qabiliyyətlilik amilləri

Xarici amillər təşkilatdan kənarda yaranır, onların təzahür intensivliyi, bir qayda olaraq, sahibkarlıq subyektinin fəaliyyətindən asılı deyil, dövlət tərəfindən müəyyənləşdirilir. Daxili amillər müəssisənin özünün fəaliyyət prosesində yaranır. Turistlərə keyfiyyətli xidmətin əsas problemi müəssisə tərəfindən turizm məhsulunu təşkil edən və turist axını yaradan xidmət təminatçılarının seçimidir.

Ümumiyyətlə, turizm müəssisələrinin xidmətlərinin rəqabət qabiliyyəti rəqabət üstünlüklərinin formalaşmasını və məqsədli bazarlarda rəqabətli mövqelərin genişləndirilməsini nəzərdə tutur. Eyni zamanda keyfiyyətli xidmətlər təklif etmək, turistlərin tələblərini ödəmək, onlara müasir xidmət formaları təqdim etməklə bazarın vəziyyətinə təsir etmək lazımdır. Rəqabət qabiliyyəti bir çox amillərlə müəyyən edilir ki, bunların arasında turizm xidmətlərinin keyfiyyət göstəriciləri xüsusi yer tutur. Turizm müəssisəsinin xidmətlərinin rəqabət qabiliyyətinə onların mövcud bazar şərtlərinə uyğunlaşma qabiliyyətini müəyyən edən amillər də təsir göstərir. Fikrimizcə, müəssisə xidmətlərinin rəqabət qabiliyyətinin formalaşmasında həlledici amil keyfiyyətli idarəetmə sisteminin mövcudluğudur. Odur ki, turizm sektorundakı müəssisələrdə keyfiyyət idarəetmə sistemləri ilə bağlı İSO 9000 standartlarının tətbiqi mexanizmini formalaşdırmaq lazımdır.

Turizm müəssisələrinin xidmətlərinin rəqabət qabiliyyətinin artırılması yolu kimi kadrların hazırlanması və bununla da onların peşəkar sərişta, bacarıq və biliklərinin artırılması yolu ilə xidmət keyfiyyətinin yüksəldilməsi də qeyd oluna bilər. Müştərilərə göstərilən xidmətin səviyyəsi birbaşa işçilərin peşəkar hazırlığın səviyyəsindən asılıdır. Peşəkar yenidən hazırlıq yolu ilə xidmət standartlarının yüksəldilməsi

göstərilən xidmətlərin keyfiyyətinin artmasına gətirib çıxarır və müvafiq olaraq müştəri məmnuniyyətinin dərəcəsini və iqtisadi kompleksin rəqabət qabiliyyətini artırır.

Beləliklə, turizm müəssisələrinin xidmətlərinin rəqabət qabiliyyətinin artırılmasının əsas amilləri göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, onların həm yerli turistlər, həm də turizm müəssisəsinin xidmətlərindən istifadə edən xarici vətəndaşlar üçün əlçatanlığının artırılmasıdır. Turizm sənayesi xidmətlərinin keyfiyyətinin yüksəldilməsi regionlarda turizm infrastrukturunun inkişafı, kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi, təhlükəsiz mühitin hərtərəfli təminatı və rahat biznes mühitinin yaradılması ilə mümkündür.Turizm müəssisələrinin xidmətlərinin rəqabətqabiliyyətliliyinin artırılmasının mühüm amili həmin müəssisələrin özlərinin idarə edilməsi proseslərinin təkmilləşdirilməsidir.

Turizm müəssisələrinin idarə edilməsinin təkmilləşdirilməsinin əsas istiqamətlərinə aşağıdakılar daxildir: 1. Milli turizm kompleksinin beynəlxalq bazarlara çıxışının təmin edilməsi, rəqabətqabiliyyətli turizm məhsulunun yaradılması, davamlı inkişafı təmin etmək məqsədilə təcili islahatların aparılması, xarici turistlərin cəlb edilməsi ilə respublikaya valyuta daxilolmalarının artırılması. 2. Turizm kompleksinin idarə olunması prosesində beynəlxalq standartlara uyğunlaşdırılmış normativ hüquqi bazanın hazırlanması və reallaşdırılması. 3. Respublikada turizm xidmətləri bazarında sağlam rəqabət mühitinin yaradılması, dövlətə məxsus infrastruktura əsaslanan yüksək keyfiyyətli ictimai turizm sektorunun formalaşdırılması. 4. Özəl turizm sektoruna geniş dövlət dəstəyinin göstərilməsi. 5. Milli turizm məhsulunun əsas beynəlxalq turizm bazarlarında təbliğini təmin edən geniş çeşiddə tanıtım və informasiya məhsulunun yaradılması.

QEYRİ-MADDİ AKTİVLƏR: QUDVİLİN MAHİYYƏTİ

Səfərov A.N.
Sumqayıt Dövlət Universiteti
E-mail:aqilsafarovv@gmail.com

Uzunmüddətli aktivlər bir il ərzində asanlıqla nağd pula çevrilməyən, bir müəssisəyə məxsus aktivlərdir. Uzunmüddətli aktivlər biznes tərəfindən uzunmüddətli istifadə üçündür və gəlir əldə etməyə kömək edəcəyi gözlənildiyi halda balansda tanınır. Uzunmüddətli aktivlər maddi və qeyri-maddi aktivlər olmaqla iki istiqamətdə ayrılmır. Maddi aktivlər dedikdə, fiziki formaya malik, keçmiş hadisələr nəticəsində yaranmış, şirkətin nəzarətində olan və şirkətə uzun müddətli fayda gətirən aktivlər nəzərdə tutulur. Qeyri-maddi aktivlər isə heç bir fiziki formaya malik deyil, şirkətin nəzarətində olaraq 1 ildən uzun müddətdə fayda gətirməsi nəzərdə tutulan aktivlərdir. Qeyri-maddi aktivlər müəssisə daxildə yaradılan və kənardan əldə edilən qeyri-maddi aktivlər olmaqla iki istiqamətdə ayrılır. Daxildə formalaşan qeyri-maddi aktivlər şirkətin balans hesabatında "Qeyri-maddi aktiv" adı altında tanına bilməz. Qeyri-maddi aktivlərə lisenziya, patent, proqram təminatı, nou-hau, qudvil və s. daxildir.Qudvilin dəyəri adətən şirkətin alınması zamanı yaranır. Alıcı şirkətin hədəfin ədalətli dəyərlə xalis aktivlərindən yuxarı olan hədəf şirkət üçün ödədiyi məbləğ adətən hədəfin qudvilinin dəyərini hesablayır.

Alıcı şirkət hədəfin balans dəyərindən az ödəyirsə, mənfi qudvil qazanır. Bu o deməkdir ki, o, şirkəti çətin satış şəraitində bazarlıq yolu ilə alıb.Qudvil alıcı şirkətin balansında uzunmüddətli aktivlər hesabı ilə qeyri-maddi aktiv kimi qeyd olunur. Qudvil qeyri-maddi (və ya uzunmüddətli) aktiv hesab olunur, çünki o, bina və ya avadanlıq kimi fiziki aktiv deyil.Ümumi qəbul edilmiş mühasibat uçotu prinsiplərinə (GAAP) və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) əsasən, şirkətlərdən ildə ən azı bir dəfə maliyyə hesabatlarında qudvilin dəyərini qiymətləndirməli və hər hansı dəyərdən düşmələri qeyd etmələri tələb olunur.

Qudvilin hesablanması prosesi prinsipcə kifayət qədər sadədir, lakin praktikada olduqca mürəkkəb ola bilər. Sadə bir düsturla qudvil müəyyən etmək üçün şirkətin alış qiymətini götürək və müəyyən edilə bilən aktiv və öhdəliklərin xalis ədalətli bazar dəyərini çıxaraq.

Qudvil=ödəniş-xalis aktiv+Nəzarət edilməyən iştirak payı

Burada: Ödəniş = Satın alınması nəzərdə tutulan şirkətə ödənilən investisiya; Xalis aktiv=Satın alınacaq şirkətin aktivləri-satın alınacaq şirkətin öhdəlikləri

Nəzarət edilməyən iştirak payı(NEİP)= Satın alınması nəzərdə tutlan şirkətin xalis aktivlərinin ədalətli dəyərinin bizə aid olmayan payı

Qudvilin hesablanmasında mühasiblər arasında rəqabətli yanaşmalar mövcuddur. Bunun bir səbəbi odur ki, qudvil gələcək pul vəsaitlərinin hərəkətinin təxminlərində faktorinqi və alış zamanı məlum olmayan digər

mülahizələri ehtiva edir.Normal halda bu, əhəmiyyətli bir problem olmasa da, mühasiblər müxtəlif şirkətlər (bəziləri əvvəllər başqa firmaları əldə etmiş, bəziləri isə almamış) arasında hesabatlı aktivləri və ya xalis gəlirləri müqayisə etmək yollarını axtardıqda problemə çevrilə bilər.

Mühasibat uçotunda qudvil bəzi hallarda qiymətdən düşə bilər. Aktivin qiymətdəndüşməsi aktivin bazar dəyərinin tarixi dəyərdən aşağı düşdüyü zaman baş verir. Bu, bir çox başqaları arasında pul vəsaitlərinin hərəkətinin azalması, artan rəqabət mühiti və ya iqtisadi depressiya kimi mənfi hadisə nəticəsində baş verə bilər.Əgər şirkət əldə edilmiş xalis aktivlərin balans dəyərindən aşağı düşdüyünü qiymətləndirirsə və ya qudvilin məbləği çox göstərilibsə, o zaman şirkət balansdakı aktivin dəyərini qiymətdən düşürməli və ya silinməlidir. Qiymətdəndüşmə xərcləri cari bazar dəyəri ilə qeyri-maddi aktivin alış qiyməti arasındakı fərq kimi hesablanır. Qiymətdəndüşmə balansda qudvil hesabının azalması ilə nəticələnir. Xərc, həmçinin mənfəət və ya zərər haqqında hesabatda il üzrə xalis gəliri birbaşa azaldan zərər kimi tanınır.

Qudvil digər qeyri-maddi aktivlərlə eyni deyil. Qudvil əməliyyat zamanı ədalətli dəyər üzərində ödənilmiş mükafatdır və müstəqil olaraq alına və ya satıla bilməz. Eyni zamanda, digər qeyri-maddi aktivlərə müstəqil olaraq alına və ya satıla bilən lisenziyalar və ya patentlər daxildir. Qudvilin qeyri-müəyyən xidmət müddəti, digər qeyri-maddi aktivlərin isə müəyyən faydalı istifadə müddəti var.Qudvilin qiymətləndirilməsi çətindir və mənfi qudvil alıcı müəssisəni ədalətli bazar dəyərindən aşağı qiymətə satın aldıqda baş verə bilər. Bu, adətən, hədəf şirkət onun alınması üçün ədalətli qiymət barədə danışıqlar apara bilmədiyi və ya etməyəcəyi zaman baş verir.

Mənfi qudvil adətən çətin satışlarda görünür və alıcının mənfəət və ya zərər hesabatında gəlir kimi qeyd olunur.Əvvəllər müvəffəqiyyət qazanmış bir şirkətin müflisləşmə riski də var. Bu baş verdikdə, investorlar qalıq kapitalın müəyyən edilməsindən qudvili çıxarırlar. Bunun səbəbi, müflisləşmə nöqtəsində şirkətin əvvəllər istifadə etdiyi qudvilin yenidən satış dəyərinin olmamasıdır.Görünən faydalı xidmət müddətinə malik digər aktivlərdən fərqli olaraq qudvil amortizasiya olunmur, əksinə qudvilin dəyərsizləşməsi üçün vaxtaşırı sınaqdan keçirilir. Qudvilin dəyərdən düşdüyü düşünülürsə, qudvilin dəyəri şirkətin mənfəətini azaltmaqla silinməlidir.Qudvilin qiymətləndirilməsi bir çox investorlar üçün çətin, lakin kritik bir bacarıqdır. Axı, bir şirkətin balans hesabatını oxuyarkən, tutduğunu iddia etdiyi qudvilin əslində haqlı olub olmadığını söyləmək çox çətin ola bilər. Məsələn, şirkət iddia edə bilər ki, onun qudvili əldə etdiyi şirkətin marka tanınmasına və müştəri loyallığına əsaslanır.Bir şirkətin balans hesabatını təhlil edərkən, investorlar bu qudvilin gələcəkdə silinməsinin lazım olub olmadığını müəyyən etmək üçün onun bəyan edilmiş qudvilinin arxasında nə olduğunu diqqətlə araşdıracaqlar. Bəzi hallarda bunun əksi də baş verə bilər, investorlar şirkətin qudvilinin həqiqi dəyərinin balans hesabatında göstəriləndən daha böyük olduğuna inanırlar.

SƏNAYE İQTİSADİYYATINDA İNSAN KAPİTALININ ROLU

Səfərova S.S.
Sumqayıt Dövlət Universiteti
E-mail: sabinasafar95@gmail.com

Dəyişiklik danılmaz həqiqətdir. Kainatdakı bütün elementlər dəyişməyə məcburdur. Dəyişmənin ən vacib xüsusiyyətlərindən biri də dəyişikliyin sürətidir və dəyişiklik bu xüsusiyyətin davamlılığı ilə xarakterizə olunur. Sürətlə gedən dəyişiklik şəraitində bütün sahələrdə olduğu kimi iqtisadiyyat sahəsində də baş verən dəyişikliklərə uyğunlaşmaq və qlobal miqyasda fərqlilik və yenilik yaradaraq yer tutmaq üçün innovativ üsullardan istifadə edilməlidir. İnnovasiya- istənilən sahədə əvvəllər edilməmiş və eyni zamanda yararlı və maraqlı olan yenilikçi dəyişiklikdir. İnnovasiya dünyada başverən qlobal dəyişmənin təməl faktoru olaraq xarakterizə edilə bilər. Qlobal informasiya praktikasına əsaslanan, qlobal əlaqələrə söykənən, mövcud elmi qəbul və bunu aşmağı hədəfləyən bir yenilik, dəyişiklik və fərqləndirmə mədəniyyətir. İqtisadiyyatın bütün sahələrində rəqabətə davamlılığın gücləndirilməsi zəruriliyi onun inkişafına stimul yaradır.

Müasir sənaye müəssisələrinin rəqabətqabiliyyətli olmaları, yeni texnologiyaları tətbiq etmələri, yeni məhsullar bazara təklif etmələri, əldə olunan informasiyalardan istifadə edərək iqtisadi nəticələrə nail olmaları üçün mövcud bilik və resurlardan yararlanmaları zəruridir. Sənaye müəssisələrinini gələcək və inkişaf vəd edən innovativ potensiallarından biri də insan kapitalıdır. Hansı ki, insanların hər bir öz bilik, təcrübə, bacarıq və şəxsi keyfiyyətlərindən istifadə edərək özlərinin mövcud olan resursları idarə etmək üsul və formasını yaradır.

Hazırki elmi-texniki tərəqqinin inkişaf tempi, informasiya texnologiyalarının geniş yayılması, ənənəvi texnologiyalar sahəsindəki innovasiyalar, yeni iqtisadi münasibətlər, ictimai və korporativ məşğulluq sahəsində sürətlə dəyişən tələblər və yeni siyasi proseslərin cərəyan etməsi müəssisələri insan kapitalının inkişafının əsaslarını yenidən düşünməyə vadar edir. İnsan kapitalı uğrunda aparılan rəqabət dərin artıq dərinləşib və insan ən zəngin kapital kimi dünya innovasiya inkişafının əsas fundamentini təşkil etməkdədir. Müasir kompaniyaların inkişafının əsas amili insan kapitalı hesab olunur ki, bu da heç də təsadüfi deyil. Belə ki, insan kapitalı həm iqtisadiyyat, həm də idarəetmə elmlərində ən vacib tədqiqat məsələlərindən birinə çevrilib. Ümumiyyətlə iqtisadi artım və inkişafı stimullaşdırıcı fəaliyyətlərdə istifadə edilən şəxslərin bilik, bacarıq və qabiliyyəti kimi qəbul edilən insan kapitalı yenilik prosesinin stimuludur.

İqtisadi ədəbiyyatlarda üç növ insan kapitalının mövcudluğu qeyd olunur: firmaya uyğun insan kapitalı; sənayeyə uyğun insan kapitalı; fərdi insan kapitalı.İlk iki növ insan kapitalı yalnız müəyyən bir firma və ya sənayedə dəyərli sayılan qabiliyyətlərə və biliklərə malik olub, bir bölgə və ya dövlət daxilində innovativ fəaliyyətə məhdud təsir göstərir. Bu iki fərddən fərqli olaraq, fərdi spesifik insan kapitalı daha geniş firma və sənaye sahələrinə tətbiq olunan bilikmvə bacarığı nəzərdə tutur. Bəşəriyyətin təcrübəsizliyini, inkişaf edə biləcək qabiliyyət və bacarıqları nəzərə alsaq, insan kapitalı təşkilatlara və hətta cəmiyyətlərə rəqabət üstünlüyü üçün vacib bir mənbə kimi görünür. Öz inkişafını və rəqabətqabiliyyətliliyini hədəfləyən müəssisə və təşkilatlar insan kapitalının çox vacib rol oynadığı dövrdə öz daxili innovativ potensialın inkişafı ilə məşğul olmalıdırlar. İnsan kapitalının düzgün istifadə edilməsi və idarə olunması müəssisənin rəqabət qabiliyyətinin artırılmasına və onun yenilikçi potensialının artırılmasına kömək edir. İnsan kapitalı fərdlərin bilik, bacarıq və imkanları kimi başa düşülür və müəssisələrin bəzi iqtisadi dəyərlərini özündə əks etdirir. İnsan kapitalı müəssisə və təşkilatların üst rəhbərliyi də daxil olmaqla bütün səviyyələrdəki işçilərdən ibarətdir. Bilik, bacarıq, təcrübə və istedad insan kapitalının tərkib hissəsidir. Bu xüsusiyyətlər insanların daxilində olan dəyərlərdir və onların xarakterini əks etdirir. İnsan kapitalı fərdi, sosial və iqtisadi üstünlük yaratmağa imkan verən, şəxsi keyfiyyətlərə malik olan fərdin bilik, bacarıq, qabiliyyət və digər üstün cəhətlərini xarakterizə edən iqtisadi kateqoriyadır.

İnsan kapitalının formalaşması və inkişafı mürəkkəb və çoxcəhətli bri prosesdir. Bu proses fərdin özünəməxsus keyfiyyətlərinin, bilik və bacarıqlarının, qabiliyyətlərinin inkişaf etdirilməsi, bu keyfiyyətlərin ümumi şəkildə kapitala çevrilməsi ilə bağlıdır. İnsan kapitalına investisiya qoyuluşu o deməkdir ki, işçinin ixtisas və qabiliyyətinin, eləcə də əmək məhsuldarılığının yüksəldilməsinə istiqamətlənmiş hər hansı bir fəaliyyət icra olunur. Bu fəaliyyət məqsədilə istifadə edilən vəsaitlər isə fərdin bilik və bacarıqlarının, təhsil səviyyəsinin yüksəldilməsi, sağlamlığının qorunması, həyat keyfiyyətinin yaxşılaşmasına xidmət etməlidir. İnsan kapitalına yönəldilən investisiyaların istiqamətləri onun strukturu baxımından fərqləndirilir, lakin iki əsas istiqamət ümumi olaraq qalır: təhsil; sağlamlığın qorunması və səhiyyənin inkişafına yönəldilən investisiyalar.İnsan kapitalı-təkcə fərdin özünün yox bütövlükdə cəmiyyətin inkişafını da xarakterizə etdiyi üçün bu prosesdə cəmiyyətin institutları, müxtəlif dövlət və qeyri-dövlət institutları da fəal iştirak etməlidir.

MÜƏSSİSƏNİN İDARƏETMƏ MEXANİZMİNDƏ MARKETİNQİN PLANLAŞDIRILMASI

Şəfizadə Ü.H.
OdlarYurdu Universiteti
E-mail:ushefiyev@mail.ru

Müasir bazar iqtisadiyyatında müəssisənin əsas bir məqsədi var - mənfəət əldə etmək.İxtisaslaşmasından asılı olaraq müəssisələr bu məqsədə müxtəlif yollarla nail olmağa çalışırlar. Lakin ümumi baxdıqda hər bir müəssisə mənfəət əldə etmək üçün satışdan istifadə edir, hansısa müəssisə istehsal etdiyi məhsulları satmaqla, hansısa müəssisə xidmətlərin satmaqla, hansısa müəssisə elmi-texniki bilikləri satmaqla və s. Ən sonunda satış bazar iqtisadiyyatının təməllərini özündə birləşdirən önəmli ünsürlərdən biridir. Buna görə də müasir iqtisadiyyatda hər bir müəssisə satışın artırılmasında və daha çox mənfəət əldə edilməsində həmişə maraqlıdırlar. Bunun bir sıra üsulları olduğu kimi ən çox yayılmış üsullarından biri marketinqdir. Marketinq ingilis dilindən tərcümədə "bazarda fəaliyyət" deməkdir. Bir elm və fəaliyyət sahəsi kimi XX yüzilliyin ilk illərində Amerikada yaranmışdır. Buna baxmayaraq bu sahənin təmelləri daha əvvəllərə dayanır. Bazar əlaqələri firmaların satış prosesinin keyfiyyətini birbaşa olaraq onun bazarla, istehlakçı arzularıyla, alış qaydalarına əməletmə səviyyəsindən asılıdır. Yəni, o müəssisələr uğurlu olurlar ki, istehlakçıları və onların tələbatlarını daha yaxşı öyrənsin. Bunun üçün isə yalnız marketinq konsepsiyasını inkişaf etdirməklə

müvəffəqiyyət qazanmaq mümkündür. Marketinq sferasının bu qədər geniş yayılmasına baxmayaraq vahid bir qaydası, tərifi yoxdur. Lakin marketinqə müxtəlif yanaşmalar var ki, bu yanaşmaları 3 ümumi qrupda birləşdirmək olar.

1. Birinci yanaşmaya görə marketinq, məhsulu istehsalçıdan istehlakçıya çatdırılması kimi görürlər. 1960-cı ildə Beynəlxalq Marketinq Assosiasiyası marketinqə - son məhsulun istehsal edəndən, isehlakçıya çatdırılmasını təmin edən iqtisadi fəaliyyətlərin cəmi kimi qəbul etmişdir. L.Rojer isə marketinqi müəssisənin gəlir qazanmaq və ya digər qısamüddtli və ya uzumüddətli planlara çatmaq üçün məhsulu istehsalçıdan istehlakçıya çatdırılması prosesi kimi görürdü. Lakin bu yanaşma marketinqi tam olaraq əhatə etmir. Çünki müasir marketinq həm satışa qədər bazarın öyrənilməsi, həm də satış sonrası müştəri məmnuniyyətlərinin öyrənilməsini və "feedback"-lərə nəzarəti də özündə birləşdirir.

2. İkinci qrup yanaşmaya görə marketinq istehlakçıların bazar tələbatlarının müəyyənləşdirilməsi və təmini məqsədilə müəssisənin həyata keçirdiyi sahibkarlıq fəaliyyətinin funksiyalarıdır. Marketinq Assosiasiyası 1985-ci ildə öz yanaşmasını dəyişərək marketinqi belə tanımlamışdır "marketinq fərqli-fərqli şəxs və şirkətlərin məqsədlərini müəyyənləşdirən, layihələrin, əmtəələrin və xidmətlərin qiyməti və yerdəyişməsinin proqnozlaşdırılması və realizasiyası prosesidir." Bu ideyanın müxtəlif tərəfdaşları var. Onlardan olan J.R.Evans və B.Berman marketinqi insanlara, xidmətlərə, məhsullara və s. olan tələbatların müəyyənləşdirilməsi və təmini kimi izah etmişdir. Digər bir marketoloq C. Lamben də marketinqi istehlakçıların tələbatlarının ödənilməsinə yönəldilən bir sosial fəaliyət kimi görürdü. Digər marketoloq Demçenko isə marketinqi bir bazar fəaliyyəti kimi görürdü. Göründüyü kimi bu yanaşma müasir marketinqə daha yaxındır. Çünki bu yanaşmada yalnız məhsulu satmaq deyil, eyni zamanda qeyri-kommersiya fəaliyyətini, fiziki yerdəyişməni, məhsullara tələbin yaradılmasını və qiymətqoymanı da əhatə edir. Lakin bu yanaşmanın da müəyyən çatışmazlıqları var. Bu yanaşma marketinqə yalnız istehlakçı nöqteyi nəzərən baxırdı və marketinqin istehsalçılar baxımından dəyişikliklərin nəzərə almırdı.

3. Üçüncü qrup yanaşmaya görə marketinq məhsul istehsalı və satışı fəaliyyətinin funksiyasıdır. Bu yanaşmanı dəstəkləyən F. Kotler marketinqi, ayrıayrı şəxslərin və ya qrupların əmtəə və xidmətlərin alış dəyərini formalaşdırmaqla və onların dəyişdirilməsi vasitəsilə öz tələbatlarının ödənilməsini əhatə edən sosial və idarəetmə prosesi kimi xarakterizə edir. İngiltərə Marketinq Asossiasiyası da marketinqə belə bir tərif vermişdir ki, marketinq qazanc qazanmaq və digər bir sıra məqsədlərə çatmaq üçün istehlakçıların davranışlarının öyrənilməsi, satışın həyata keçirilməsini özündə birləşdirən idarəetmə prosesidir. Göründüyü kimi bu yanaşma digərlərindən öz əhatəsinə görə fərqlənir, lakin heç bir yanaşma tam olaraq qəbul olunmamışdır. Yuxardakı yanaşmalardan belə bir ümumi nəticə çıxarmaq olar ki, marketinq, bazarın tələbatının öyrənilməsi, tələbatların ödənilməsi və satış sonrası xidmətləri əhatə edən sosial və idarəetmə prosesidir. Marketinqin mahiyyətini daha yaxşı anlamaq üçün "4P" qaydasına nəzər yetirmək lazımdır.

Azərbaycanda isə marketinq yeni inkişaf edən sahədir. İstehlakçıların marketinqdə verilən məlumatlara inanması olduqca önəmlidir.Azərbaycanda bu hələ inkişafetmə mərhələsindədir.Lakin bir sıra şirkətlər həm marketinq quruluşu, həm də strategiyası ilə digərlərindən fərqlənir. Bunlardan ən bariz nümunələr məhz banlardır. Belə ki, maliyyə bazarındakı yüksək rəqabət bu sahədə marketinqin inkişafına səbəb olmuşdur. Azərbaycanda marketinqin idarəetməsi də, yəni quruluşu da bir sıra şirkətlərdə oxşardır

Azərbaycanda reallıq göstərir ki, şirkətlər struktur qurarkən yuxardakı strukturların harmoniyasından istifadə edirlər. Bu zaman bir strukturun mənfi xüsusiyyətləri digər strukturla tarazlaşmış olur. Lakin bu harmoniya həmişə müsbət xüsusiyyətlərə malik olmur. Müsbət xüsusiyyətlərlə bərabər mənfi xüsusiyyətlər də harmoniyalanır. Bu zaman əsas məsələ mənfi xüsusiyyətlərin tapılması və ən optimal şəkildə aradan qaldırılmasıdır. Azərbaycanda marketinqin inkişaf etməsində vacib amillərdən biri də dövlət dəstəyidir. Dövlətin bu sahəyə bir sıra qanun və fərmanları var. Bu davamlı şəkildə olarsa Azərbaycanda marketinqin inkişfına güclü təkan verəcək. Azərbaycanda marketinqi araşdırarkən birbaşa olaraq inkişaf etmiş ölkələrlə müqayisə etmək düzgün deyil. İlk öncə müqayisəni ölkəmizlə oxşar özəlliklərə sahib ölkələrlə müqayisə etmək lazımdır. Bunlara da ən bariz nümunə postsovet ölkələridir. Belə ki, bu ölkələrlə müqayisə etdikdə ölkəmizin aşağı səviyyədə inkişaf etmədiyini, əksinə postsovet ölkələri arasında özünə önəmli yer tutduğunu görmək olar.

UZUNMÜDDƏTLİ VƏ QISAMÜDDƏTLİ AKTİVLƏRİN FƏRQLƏNMƏ XÜSUSİYYƏTLƏRİ

Seyfullayeva T.R.
Sumqayıt Dövlət Universiteti
E-mail: seyfullayeva888@gmail.com

Bildiyimiz kimi aktivlər uzunmüddətli və qısamüddətli olaraq iki hissəyə ayılır. Uzunmüddətli maddi aktivlər müəssisə tərəfindən əldə olunmuş, uzunmüddətli istifadə edilmək üçün nəzərdə tutulmuş fiziki formaya malik olan, yəni toxunulması mümkün olan aktivlərdir. Uzunmüddətli aktivlərə aiddir: 1.Qeyri-maddi aktivlər; 2. Torpaq,tikili və avadanlıqlar; 3.İnvestisiya mülkiyyəti; 4.Bioloji aktivlər; 5.Təbii sərvətlər; 6.İştirak payı metodu ilə uçota alınmış investisiyalar; 7.Təxirə salınmış vergi aktivləri; 8.Uzun müddətli debitor borclar; 9.Sair uzunmüddətli maliyyə aktivləri; 10.Sair uzunmüddətli aktivlər.Hər bir mühasib aktivləri cari və ya uzunmüddətli olaraq qruplaşdırarkən çox diqqətli olmalıdır. Həmçinin, mühasib uzunmüddətli aktivlərin yenidən qiymətləndirilmə prinsiplərini, silinməsi prinsiplərini və eyni zamanda məsrəflərin kapitallaşdırılması prinsiplərini bilməlidir. Bu aktivlərin təqdimatı və şərhi üzrə kiçik bir səhv belə maliyyə hesabatlarının etibarlılığına müəyyən dərəcədə təsir edir.

Qısamüddətli aktivlərə aiddir: 1.Ehtiyatlar; 2.Qısamüddətli debitor borclar; 3.Pul vəsaitləri və onun ekvivalentləri; 4.Sair qısamüddətli maliyyə aktivləri; 5.Sair qısamüddətli aktivlər

Uzunmüddətli aktivlərin tərifini aşağıdakı kimi də verirlər:

Cari aktiv olmayan, yəni cari aktivlərdən fərqli olan bütün aktivləri uzunmüddətli aktivlər kimi təsnifləşdirirlər. Bunun üçünsə əvvəlcə cari aktivlərin nə olduğunu bilmək lazımdır. Əgər aktivlər aşağıdakı şərtləri ödəyirsə, cari aktiv hesab olunur: Müəssissənin normal fəaliyyət dövründə istifadə üçün və ya satış üçün saxlanılarsa və normal fəaliyyət dövrü ərzində reallaşdırılması ehtimal olunarsa; Alqı-satqı məqsədi ilə saxlanılarsa; Hesabat tarixindən sonra 1 il ərzində reallaşdırılması ehtimal olunarsa; Pul vəsaitləri və ya onların ekvivalentləri formasında olarsa.

Normal fəaliyyət dövrü dedikdə nəzərdə tutulur? Məsələn, ST şirkəti telefon istehsalı ilə məşğul olan bir şirkətdir. İstehsal üçün xammalın alınması, təchizatçılara ödənişlərin edilməsi, telefonların istehsal edilməsi, istehsal olunmuş məhsulların satılması və bununla da pul vəsaitinin əldə olunmasını əhatə edən dövr ST şirkəti üçün normal fəaliyyət dövrüdür. Cari aktivlər satmaq məqsədilə əldə olunan aktivlərdir. Bu aktivlər uzunmüddətli aktivlər kimi uzunmüddətli istifadə üçün saxlanılmır. Məsələn, Həsən kompüter satışı ilə məşğul olan sahibkardır. Burada kompüter yenidən satış üçün əldə edildiyindən cari aktiv hesab edilir. Lakin müəsisədə istifadə məqsədli satın alınan kompüter cari yox uzunmüddətli aktivdir.

Əgər aktiv 12 ay ərzində satılmaq üçün nəzərdə tutularsa, belə aktivlər cari aktivlər hesab olunur. Əgər aktivlərin 12 ay müddətindən daha çox müddət ərzində saxlanılması nəzərdə tutularsa, bu zaman belə aktivlərə uzunmüddətli aktivlər deyilir.Pul vəsaitinin ekvivalentləri, asanlıqla pul vəsaitinə dəyişdirilməsi mümkün olduğu üçün və dəyərinin dəyişməsi riski də az olduğu üçün yüksək dərəcəli likvid resurslara aid edilir. Məsələn, Hüseynin ST bankında cari bank hesabı vardır. Bu hesabdakı qalıq 600.000 dollara bərabərdir. Onun əlindəki nağd pul vəsaiti isə 200.000 dollar məbləğindədir. O, həm də 50.000 dollarlıq dəyərdə olan və 3 aylıq müddəti olan dövlət istiqrazlarına malikdir. Burada onun bank hesabında olan 600.000 dollar dəyərində pul vəsaiti, əlində olan 200.000 dollar dəyərində pul vəsaiti, 50.000 dollar dəyərindəki dövlət istiqrazları onun cari aktivləri hesab olunur.Dövlət istiqrazları üç ay ərzində pul vəsaitinə çevrilə bildiyi üçün pul vəsaiti ekvivalenti hesab olunur və bu aktivlər cari aktivlər hesab olunur.Uzunmüddətli aktivlərdən fərqli olaraq cari aktivlər mənfəətə birbaşa olaraq təsir edir. Məsələn, cari aktiv hesab olunan mal-material ehtiyatları satışın maya dəyərinə daxil edildiyi üçün o şirkətin mənfəətinə birbaşa olaraq təsir göstərir. Bunu bir nümunə ilə izah etsək, ST şirkətinin dövrün sonuna olan mal-material ehtiyatları 50 avtomobildən ibarətdir. Əgər müəssisə son mədaxil ilk məxaric, yəni LİFO üsuluna əsasən avtomobillərin dəyərini ölçərsə, bu dəyər 500.000 dollar məbləğində olacaq. Əgər müəssisə orta dəyər, yəni AVCO üsuluna əsasən avtomobillərin dəyərini ölçərsə, bu zaman onların dəyəri 550.000 dollar dəyərində olacaqdır. Bu nümunəyə əsasən əgər ST şirkəti mal-materal ehtiyatlarının dəyərini ölçərkən orta dəyər üsulundan istifadə edərsə, bu zaman şirkətin mənfəəti 50.000 dolar daha çox olacaqdır. (550.000 -500.000)

Hər bir mühasib mal-material ehtiyatlarının uçotu və onların dəyərinin ölçülməsi ilə bağlı olan bütün aspektləri bilməlidir. Belə ki, mal-material ehtiyatlarının dəyərinin ölçülməsi zamanı istfadə edilən üsul müəssisənin mənfəəti üzərində yüksək təsirə malik olduğu üçün seçilməli olan üsulla əlaqədar qərarlar verildiyi zaman, mühasib müəssisə üçün ən uyğun üsulu asanlıqla seçə bilməlidir.

MÜASİR ŞƏRAİTDƏ BÜDCƏ XƏRCLƏRİNİN SƏMƏRƏLİLİYİNİN TƏMİİN EDİLMƏSİ VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ

Seyidov E.İ.
OdlarYurdu Universiteti
E-mail: seyidove28@gmail.com

Büdcə xərcləri dövlətin öz vəzifə və funksiyalarını yerinə yetirməsi ilə əlaqədar olaraq yaranan məsrəflərdir. Bu məsrəflər dövlətin mərkəzləşdirilmiş pulvəsaiti fondlarının müxtəlif istiqamətləri üzrə istifadəsi prosesində əmələ gələniqtisadi münasibətləri əhatə edir.Büdcə xərcləri iqtisadi funksiyası çoxlu növləri ilə xarakterikdir. Xərclərin hərbir növü kəmiyyət (miqdarı) və keyfiyyət xarakteristikasına malikdir. Keyfiyyətxarakteristikası hər bir xərc növünün iqtisadi təbiətini və ictimai təyinatını,kəmiyyət xarakteristikasını isə onun həcmini (miqdarını, ölçüsünü) müəyyənetməyə imkan verir.Büdcə xərclərinin növləri bir sıra amillərlə təyin edilir: dövlətin təbiəti vəfunksiyaları ilə, ölkənin sosial-iqtisadi inkişaf səviyyəsi ilə, büdcənin xalqtəsərrüfatı ilə əlaqəsinin genişliyi, dövlətin inzibati-ərazi quruculuğu, büdcəvəsaitlərinin verilmə forması vəs ilə müəyyən edilir. Bu amillər sosial-iqtisadiinkişafın müəyyən mərhələsində bu və digər dövlətin büdcə xərcləri sisteminiəmələ gəlir.

Cəmiyyətin iqtisadi həyatında büdcə xərclərinin rolu və əhəmiyyətiniaydınlaşdırmaq məqsədi ilə onları müəyyən əlamətlərinə görə təsnifləşdirilir.Büdcə təsnifatının əhəmiyyətin ondan ibarətdir ki, məlumatlardan(rəqəmlərdən) bacarıqla istifadəyə, büdcə elementləri üzrə xərclərinqruplaşdırılmasına, büdcə vəsaitlərinin real hərəkətinin vəziyyətini görməyə, sosialproseslərin və iqtisadiyyatın inkişafına aktiv təsir göstərməyə imkan yaradır.Hesabat və plan məlumatlarının tutuşdurulması, təhlil və müqayisə etməyə imkanverir. Büdcə fondlarından səmərəli istifadə etmək üçün əsaslı nəticə və təkliflərinəsaslandırılmağa, sosial-iqtisadi inkişafın istiqamətləri müəyyən etmək üçün əsaspul vəsaitlərinin istifadəsi əsas açarını cəmləşdirməyə imkan verir.Detallaşma, xərclərin qruplaşdırılması büdcəyə alınmış rəqəmlərinyoxlanmasına, eyni tabeçilikdə olan büdcə təşkilatlarının smetalarının vəbüdcələrin bir neçə ilə tutuşdurulmasına, xərc dinamikasının və onların çəkisininmüəyyən edilməsinə və həmçinin hər hansı bir tələbatın ödənilməsi dərəcəsininmüəyyən edilməsini asanlaşdırır.Təsnifat smeta və büdcələri ümumi icmal şəklində birləşdirməyə, iqtisaditəhlil aparmağa asanlaşdırır, büdcənin icrasına nəzarəti sadələşdirir, vəsaitlərdənməqsədli təyinatı üzrə istifadəsini, vaxtlı-vaxtında vəsaitlərin bir yerəcəmləşdirilməsinə şərait yaradır. Büdcənin icrasına dair hesabat üzrə xərclərintutuşdurmağa, maliyyə intizamına əməl olunmasına, vəsaitlərdən qənaətləxərclənməsinə və maliyyə planlarının yerinə yetirilməsində nəzarət imkanı yaradır.Büdcə sisteminin bütün səviyyələrində müstəqil olaraq vahid yanaşma metoduilə bütün büdcələrin tərtibi və icrasına,büdcə göstəricilərinin sahələr və əraziinzibati bölgü üzrə müqayisə üçün həmən təsnifat baş verir.Büdcə təsnifatı bütün idarə və təşkilatlar üçün məcburidir və AzərbaycanRespublikası büdcə qanunvericiliyi ilə müəyyən olunan tələblər əsasında qurulur.Büdcə təcrübəsində edilən dəyişikliklər əlaqədar dövlət quruculuğu vəidarəetmə sistemində edilən dəyişikliklər, bütün səviyyələrdə büdcələrinmüstəqilliyi, dövlət və yerli orqanlarda öz büdcələrinin tərtibi və icrası ilə bağlıhüquqların genişlənməsi, büdcə xərcləri hissəsində ayrı-ayrı xərc maddələrindəşifrlərin dəyişdməsi yeni büdcə təsnifatının tətbiqini tələb etdi.

Dövlətin iqtisadi siyasətinin əsas strateji məsələsi olan büdcə prosesininhəyata keçirilməsi maliyyə sisteminin idarə edilməsində xüsusi çəkiyə malikkomponentdir. Bu zaman nəzərə almaq lazımdır ki, dövlət və icmal büdcəsayihəsinin tərtibi və hazırlanması mərhələlərlə informasiya texnologiyalarının tətbiqi həll edilərkən, informasiyalarının işlənməsinin riyazi-proqram təminatı yaradılarkən məsələnin texnoki tərəfi ümumi sistem tərkəib hissəsi kimi vəhdətdə nəzərdən keçirilməlidir. Bu yanaşmanın məntiqi nəticəsi olaraq, qeyd olunan prinsip keyfiyyət və zaman baxımından nəzarətdə saxlanılmalıdır. Göstərilən faktorlar daxilində məsələnin halli üçün Maliyyə Nazirliyində ilk addımlar atılmış, büdcə prosesinə uyğun informasiya sisteminin idarə edilməsinin riyazi-proqramtəminatı yaradılmışdır. Bu da imkan verir ki, büdcə informasiya axınlarının tənzimlənməsi operativ həllini tapsın. «Büdcə sisemin haqqında» Qanunun tələblərinə, eyni zamanda yeni yaradılmış dövlət büdcəsi təsnifatının iearxik tələblərinə, həmçinin büdcənin tərtibi zamanı yaranan çoxsaylı sorğulara uyğunlaşdırılması və onun bütün göstəriciləri səviyyəsindən kəsişmə parametrlərinə uyğun həll alqoritmi proqram təminatında nəzərdə tutulur və yekün paketin formaları əvvəlcədən müəyyənləşdirilr. informasiya və kommunikasiya texnologiyalarının tətbiqinin üstünlüyü ondan ibarətdir ki, iqtisadi sistem kəsilməz olsa da, proqnozlaşdırılmanın mahiyyəti cari, gələcək vəziyyətin müqayəsə faktorlarının analitik təhlili üçün geniş imkanlar yaranır ki, bu isə maliyyənin idarə olunmasının – operativ, tənzimlənmə, nəzarət mərhələsində baş verə biləcək bütün böhranlı situasiyalarının və kataklizimlərin qarşısının alınmasını

asanlaşdırır. Mövcud praktika göstərir ki, informasiya texnologiyalarının tətbiqi ölkənin iqtisadi inkişafına müsbət təsir göstərir və sosial stabillik gətirir. Maliyyə Nazirliyində növbəti büdcə ili üçün dövlət büdcəsinin tərkib hissəsi olan gəlir və xərclərin layihələri hazırlanarkən təsnifatın funksional, iqtisadi və təşkilatı təsnifatlarının paraqrafları səviyyəsində informasiya axınlarının avtomatlaşdırılması nəticəsində cari ilin dövlət büdcəsinin gözlənilən icrasına dair məlumat, həmçinin növbəti büdcə ili üzrə gəlirlərin ötən ilin faktiki və cari ilin gözlənilən nəticələri, habelə xərclərin funksional, iqtisadi və təşkilati təsnifatlar üzrə müqayisəsi və digər informasiyaları əldə etmək mümkündür.

Dövlət və icmal büdcə layihəsinin hazırlanması kimi ölkə miqyaslı məsələnin həlli metodologiyasına İKT-nin tətbiqi maliyyəsinin idarə edilməsində proqnozlaşdırma və digər ehtimalların reallaşdırılmasının sınaq mərhələlərini şərtləndirməklə yanaşı, dövlətin sosial siyasət, əhalinin sosial müdafiə sisteminin möhkəmləndirilməsində mühüm rol oynayır. Maliyyə sisteminin digər mühüm sahəsi olan xəzinədarlığın idarə olunmasını İKT-siz təsəvvür etmək qeyri-mümkündür. Bu mənada qeyd etmək lazımdır ki, artıq xəzinədarlığın bütün mərhələsinin proqnozlaşdırılması prosesi başa çatdırılmış, respublikanın bir çox rayonlarında uğurla tətbiq olunur. Bununla bərabər Xəzinədarlığın İnformasiya İdarəçiliyi Sisteminin (XİİS) beynəlxalq standartlara cavab verən proqram təminatının yaradılmasının üzərində artıq işlər başlanmışdır. Belə ki, XİİS-in həyata keçirilməsinin maliyyə dəstəkliyini öz üzərinə götürən Amerika Birləşmiş Ştatlarının İnkişaf Agenitliyi (USA İD) və KARANA (CARANA) koorporasiyasının vasitəsilə hazırlanması məqsədilə tender elan olunub. Texniki təchizatı isə Dünya Bankı tərəfindən reallaşdırılacaqdır. Dünya Bankının təklif etdiyi proqram təminatının tətbiqi ilə Almaniya «SAP» şirkətinin Rusiyadakı səlahiyyətli nümayəndəliyi məşğul olacaqdır. Xəzinədarlıq sistemində axının avtomatlaşdırılması prosesi cari ilin axırınadək başa çatdırılmalır.

DÜNYA BANKININ AZƏRBAYCANIN MİLLİ İQTİSADİYYATININ KREDİTLƏŞMƏSİNDƏ ROLU

Süleymanov T.S.
OdlarYurdu Universiteti
E-mail: turalssuleymanov@gmail.comgmail.com

Dünya ölkələri arasında xarici-iqtisadi və ticarət əlaqələrinin genişlənməsi nəticəsində beynəlxalq ödəniş vasitələrinin müəyyən edilməsi zərurəti ortaya çıxmışdır. Bu zərurəti aradan qaldırılması üçün müxtəlif vasitələrdən istifadə olunmuşdur. Belə ki, ödəniş vasitəsi kimi ilk olaraq əmtəələr dövriyyəyə girmiş, barter üsullarından istifadə olunmuş, daha sonralar isə beynəlxalq ödənişi təmin etmək vasitəsilə puldan və ya pulun ekvivalenti olan vasitələrdən istifadə olunmuşdur. İlk vaxtlar metal pullar dövriyyəyə buraxılmış, daha sonra isə metal pulların daha tez xarab olması, paslanması və digər bu kimi səbəblərdən qızılın dövriyyəyə girməsi zərurəti yaranmışdır. Belə ki, məlum olduğu kimi qızıl uzun müddət istifadə oluna bilir və pulun ekvivalenti kimi maddi dəyər ifadə edə bilir. Beləliklə ödəniş vasitələri yaranmağa başladı. Beynəlxalq ödəniş vasitələrinin yaranıb formalaşması nəticəsində artıq beynəlxalq ticarətdə və eləcə də alqı-satqı proseslərində qızıldan, daha sonralar isə qızılı əvəz etmək iqtidarında olan kağız pullardan istifadə olunmağa başladı. Kağız pul olaraq elə valyuta seçilməli idi ki, həmin valyuta yüksək dönərliliyə malik olsun. Başqa sözlə desək, həmin valyuta digər ölkələrin milli valyutalarına asanlıqla çevrilə bilsin. Qəbul olundu ki, həmin dövr üçün yüksək dönərliliyə malik valyutalar ABŞ dolları və ingilis funt-sterlinqidir. Uzun müddət dünya ölkələri arasında xarici iqtisadi və ticarət əlaqələrində ödəniş vasitəsi kimi ABŞ dollarından və ingilis funt-sterlinqindən istifadə olundu. Lakin bir müddət sonra ingilis funt-sterlinqi də sıradan çıxdı və bundan sonra beynəlxalq ödənişləri təmin etmək üçün ABŞ dolları vahid hökmranlıq qazanmış oldu. Bütün bu proseslərin hər biri beynəlxalq valyuta sistemlərinin inkişaf və təkamül dövrlərinə təsadüf edir.

Beynəlxalq kreditin dünya ölkələri tərəfindən əldə olunması nəticəsində iqtisadiyyatın ayrı-ayrı sahələrinə investisiya siyasəti həyata keçirilə bilir ki, bu da iqtisadi artımın təmin olunmasına, yeni iş yerlərinin açılmasına, son nəticədə isə əhalinin maddi rifah halının yüksəlməsinə şərait yaratmış olur. Beynəlxalq kredit beynəlxalq kredit bazarı vasitəsilə həyata keçirilir. Dünya kredit bazarı- dünya borc kapitalı bazarının ayrıca bir ünsürüdür. O bazarda vaxt , geri qaytarma ilə faizlərin ödənməyi şərtilə dövlətlər arasında kapitalın hərəkəti gerçəkləşdirilir. Həmin bazar özünə məxsus xüsusiyyətlərə sahib olan iki alt seqmentdən təşkil olunmuşdur – dünya pul bazarı ilə dünya kapital bazarı. Kredit bazarında kreditin qiymətinin təyin olunması çox mühüm məsələlərdən biri sayılır. Banklar vəsaitləri minumum qiymətə alır və çox yüksək qiymətə sataraq mənfəət əldə edirlər. Kreditə qoyulmuş qiymət kredit fondunun faizi sayılır. Faizlər ayrı-ayrı amillərin təsiri ilə tələb

ilə təklifin səviyyəsinə uyğun müəyyən edilir.Müstəqil iqtisadiyyatın gerçək amillərindən biri sayılan bank sisteminin, səlis idarə edilən bank sahəsinə ehtiyacı vardır. Dəqiq idarə edilə bilən bank sistemi eyni zamanda real iqtisadiyyatın barometri sayılır. Elə buna görə inzibati amirlik idarəetmə üsullarından, təsərrüfatçılığın yeni iqtisadi üsullarının keçildiyi bütün dövlətlərdə bank sisteminin idarə edilməsi mexanizminin təkmiləşdirilməyinə ayrıca yer verilməlidir.İstehsal əlaqələrinin dinamikasının yüksək səviyyəsi, əmtəə-pul-bazar əlaqələrinin formalaşdırılmağına xüsusi diqqət, çağdaş pul-kredit siyasətinin, bank işinin idarə edilməsi üzrə konkret və doğru taktika ilə strategiyanın hazırlanmağını vacib sayır.

1944-cü ildə ABŞ-ın Hempşir ştatının Bretton-Vudz əyalətində keçirilmiş və beynəlxalq xarici-iqtisadi əlaqələrin inkişafının əsasında dayanan ödəniş-hesablaşma vasitələrinin müəyyən edilməsinə həsr olunmuş Beynəlxalq konfransda əsası qoyulmuş maliyyə institutlarından biri də Dünya Bankıdır. Dünya Bankının yaradılmasının da əsasında ölkələrin maliyyə vəziyyətinin qorunub saxlanılması və iqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələrə daha aşağı faizli kreditlərin verilməsi məsələsini aktuallaşdırmaq olmuşdur. Beynəlxalq Valyuta Fondundan Fərqli olaraq Dünya Bankı daha çox üzvün toplaşdığı maliyyə institutu hesab olunur və BMT-nin əsas prinsiplərini əlində rəhbər tutaraq fəaliyyət göstərir. Dünya Bankın yaradılmasının əsas məqsədi İkinci Dünya Müharibəsindən sonrakı dövrdə müharibənin ağır təsirinə məruz qalmış ölkələrin maliyyə və yenidənqurma məsələlərinin həllinə kömək etmək olmuşdur.

Dünya Bankı klassik mənada qəbul edilən banklardan bir çox əlamətləri ilə fərqlənir. Həmin əlamətlərə aşağıdakılar daxildir:

- Dünya Bankında heç kəs hesab aça bilməz və bank əməliyyatı həyata keçirə bilməz.
- Dünya Bankının müştəriləri fiziki və ya hüquqi şəxslər, təsərrüfat subyektləri ola bilməz. Müştəri qismində yalnız və yalnız ayrı-ayrı dövlətlər çıxış edə bilərlər.

Dünya Bankının fəaliyyətinin əsasında iqtisadi cəhətdən inkişaf etməmiş və ya inkişaf etməkdə olan ölkələrə maliyyə dəstəyi göstərməklə həmin ölkələrdə iqtisadi canlanmanın təmin olunması dayanır. Heç şübhəsiz ki, burada maliyyə yardımı dedikdə, aşağı faizli və qaytarılması zəruri olan maliyyə ehtiyatlarının istiqamətlənməsi prosesi başa düşülür.

Azərbaycan Respublikasının xarici iqtisadi və ticarət əlaqələrinin genişlənməsi və beynəlxalq maliyyə-kredit təşkilatları ilə qarşılıqlı əlaqəsi sahəsində aşağıdakı təkliflərin realizə olunması daha səmərəli görünə bilər:

1. Beynəlxalq maliyyə-kredit təşkilatları ilə qarşılıqlı əlaqələrin daha da genişləndirilməsi;
2. Beynəlxalq maliyyə-kredit təşkilatlarından götürülmüş maliyyə resurslarının düzgün istifadəsi məqsədilə tənzimlənmə mexanizminin yaradılması;
3. Beynəlxalq maliyyə-kredit təşkilatlarından götürülmüş maliyyə resurslarının qeyri-neft sahələrinin inkişafına yönəldilməsi;
4. Beynəlxalq maliyyə-kredit təşkilatları ilə qarşılıqlı əlaqədə olan və bu sahədə daha təcrübəli olan ölkələrin mövcud praktikasının öyrənilməsi.

Dünya valyuta sistemi indiki müasir vəziyyətinə birdən-birə qovuşmamışdır.

Hal-hazırda Dünya Bankı ən büyük və nüfuzlu maliyyə institutu olmaqla özündə 189 ölkənin üzvlüyünü birləşdirir. Azərbaycan Respublikası da Dünya Bankı ilə qarşılıqlı iqtisadi əməkdaşlığı fəal surətdə həyata keçirən ölkələrin sırasındadır.

Azərbaycan Respublikasının müstəqillik əldə olunduqdan sonra ilk üzv olduğu beynəlxalq maliyyə təşkilatı müsəlman ölkələrinin toplaşdığı İslam İnkişaf Bankıdır. Belə ki, 1991-ci ildən etibarən Azərbaycan Respublikası İslam İnkişaf Bankının üzvüdür. İslam İnkişaf Bankına üzv seçilməklə Azərbaycan Respublikası müsəlman ölkələri ilə xarici-iqtisadi və ticarət əlaqələrini xeyli genişləndirmiş oldu. İslam İnkişaf Bankı ilə Azərbaycan Respublikasının ən əsas ortaq cəhətlərindən biri də təşkilata üzv olan ölkələrin əksəriyyətinin neft ixracatçısı olması ilə izah olunur. Məlumdur ki, İslam İnkişaf Bankı regional təşkilatdır və İran hövzəsi ətrafı regionda daha qlobal fəaliyyətdədir.

Azərbaycan Respublikası Dünya Bankı Qrupuna daxil olan bütün maliyyə institutlarının üzvüdür. Belə ki, 1992-ci ildən etibarən Azərbaycan Respublikası Dünya Bankı və Beynəlxalq İnkişaf Assosiasiyasının üzvüdür. 1995-ci ildən etibarən isə Respublikamız Çoxtərəfli Sərmaye Qoyuluşunu Sığortalayan Agentliyin və Beynəlxalq Maliyyə Korporasiyasının üzvüdür.Dünya Bankının Azərbaycan Respublikası ilə əməkdaşlığının əsas qayəsini dövlət neft ehtiyatlarının düzgün idarə edilməsi, bazar iqtisadiyyatına keçid dövründə ölkənin sosial-iqtisadi inkişafının təmin edilməsi məqsədilə düzgün investisiya siyasətinin icrasının təmin edilməsi və digər bu səpkili məsələlər təşkil edir.

DİVERSİFİKASİYANIN KONSEPSİYASI VƏ ONUN MAHİYYƏT İSTİQAMƏTLƏRİ

Süleymanov V.K.
Azərbaycan Dövlət Aqrar Universiteti
E-mail: vuqar-suleymanov-86@mail.ru

Biznes praktikasında çoxlu sayda bazar şəraitində firmaların inkişafı və böyüməsi üçün strateji alternativlər mövcuddur. Belə alternativlərdən biri diversifikasiya adlanır. Apardığımız təhlillər göstərir ki, biznes sahəsində şaxələndirmə prosesi həm forma, həm də məzmun baxımından müxtəlifliyi, tədqiq olunan məsələnin mürəkkəbliyini və qeyri-müəyyənliyini özündə əks etdirir. Məlumdur ki, diversifikasiya konsepsiyası onun məqsədləri əsasında müəyyən edilməlidir. Hər şeydən sonar istehsalın şaxələndirilməsi öz-özlüyündə məqsəd hesab edilmir. Diversifikasiyanın tərifi olaraq, sinerji effekti əldə etmək məqsədinə əsaslanaraq aşağıdakı missal çəkə bilərik: Diversifikasiya sinergetik effekt əldə etməyin yeganə yolu hesab olunur; Əlaqəli və ya bir neçə növün eyni vaxtda inkişafı yolu ilə istehsal əlaqələri olmayan məhsul xətləri və çeşidlərin genişlənməsi istiqamətləri.Fikrimizcə, bu tərif mahiyyət olaraq ən tam şəkildə əks etdirilib. İlkin olaraq ətraflı anlayışlar verir və diversifikasiyanın təsirinə əhəmiyyətli diqqət yetirir.

Bildiyiniz kimi, hər hansı bir şirkətin fəaliyyətinin ideal variantı, mümkün uğursuzluqların və performans itkilərinin qarşısını almaqdır. Planlaşdırmayan daha az müvəffəqiyyətli şirkətlərin fəaliyyətində (və ya planlaşdıra bilmir) ilkin əlamət olaraq bu cür performans boşluqları tez-tez müşahidə olunur. Hər bir fərdi vəziyyətdə diversifikasiya üçün bir sıra səbəblər ola bilər. İ.Ansoff hesab edir ki, əsas səbəb müvafiq performans səviyyəsi ilə uyğunsuzluqdur. Disbalansları aradan qaldırmaq üçün bir vasitə kimi ehtiyatların təkrar istehsalı və yenidən bölüşdürülməsi, istehsalın diversifikasiyası, iqtisadiyyatın yenidən qurulması istiqamətlərində sahibkarlıq fəaliyyəti olaraq müxtəlif məqsədlər güdür.

İstehsalın şaxələndirilməsi prosesi diversifikasiya biznes strategiyasının işlənib hazırlanmasından, sonra isə onun qiymətləndirilməsi və təhlili ilə başlayır. Biznes strategiyası bir sıra yanaşmalardan ibarətdir və ən yaxşısına nail olmaq üçün rəhbərlik tərəfindən hazırlanmış istiqamətlər müəyyən bir fəaliyyət sahəsində performans göstəriciləridir.Diversifikasiyanın əsas məqsədi riskləri minimuma endirməkdir. Bir şirkət öz fəaliyyətində nə qədər müxtəlif alətlər və yanaşmalardan istifadə edərsə, nəticələri bir o qədər proqnozlaşdırıla bilər. Belə bir şirkət qiymətlərin dəyişməsi, məhsullara tələbatın azalması, inflyasiya, iqtisadiyyat və siyasətdəki dəyişikliklər və digər neqativ amillər səbəbindən gözlənilməz itkilərdən daha az əziyyət çəkir.

MÜASİR ŞƏRAİTDƏ AZƏRBAYCAN RESPUBLİKASINDA QİYMƏTLİ KAĞIZLAR BAZARININ PERSPEKTİV TƏHLİLİ

Sultanova N.A.
OdlarYurdu Universiteti
E-mail: assistant135@mail.ru

Beynəlxalq Azərbaycan Respublikasının qiymətli kağızlar bazarlarındakı qiymətlər üzərində aparılan analizlər nəticəsində həmin bazarlarda inkişafla yanaşı, böyük problemlərində mövcudluğu müəyyən edildi. Ölkəmizin maliyyə bazarlarının hər sahəsində olduğu kimi, qiymətli kağızlar bazarında da inkişaf mövcuddur. Lakin, digər dünya ölkələri ilə müqayisədə olduqca aşağıdır.

Qiymətli kağızlar bazarında aparılan tədqiqat nəticəsində müəyyən edilmiş problemlər aşağıdakılardan ibarət olmuşdur :

- Qiymətləndirmə işində sadə, primitiv və köhnə üsullardan istifadə : Dünya praktikasında bir səhm qiymətləndirmədən öncə bazarın vəziyyəti araşdırılır. Daha sonra isə, dünya standartlarına uyğun fərqli-fərqli düsturlardan istifadə edərək bir neçə qiymət müəyyənləşdirilir. Və nəhayət, sonda həmin qiymətlərdən ən əlverişli və rəqabətli bazar şəraitində ən uğurlu olacaq qiymət seçilir. Lakin, AR-ının qiymətli kağızlar bazarlarında qiymətlər çox halda ya tələb və təklif vasitəsilə, ya da sırf səhmini satışa çıxardan şirkətin maraqlarına uyğun müəyyənləşdirilir. Bu səbəbdən də, qiymətli kağızlarının qiymətləndirilməsi zamanı dünya praktikasından istifadə və buna Maliyyə bazarlarına nəzarət palatası tərəfindən nəzarətin gücləndirilməsi məqsədəuyğun olardı.

- Rəqabət çatışmamazlığı European Tobacco Baku ASC-nin səhmlərinin qiymətlərinin əks olunduğu qrafikdən də açıq-aşkar göründü ki, ölkəmizin qiymətli kağızlar bazarında satılan qiymətli kağızların satılan

səhmlərin qiymətləndirilməsində çatışmamazlıqlar böyükdür. Belə ki, yüksək, aşağı, açılış və son satış arasında fərqin az olması rəqabətliliyin aşağı olmasını göstərir. Şirkət həmin səhmləri nə qədər yüksək qiymətə satsa belə, bu tip səhmlərə tələbat var. Bu səhmlərdə başqa şirkətdə olmadığından investor həmin qiymətə almağa məcbur qalır. Buna görə də, ölkədə monopoliyalara son qoyularaq yeni-yeni müəssisələrin fəaliyyətə başlaması məqsədəuyğun olardı.

- Maarifləndirmə problemi : Qiymətli kağızlar bazarının düzgün, dəqiq və mütləq inkişafla fəaliyyətini davam etdirə bilməsi üçün, bazarda mövcud olan tələbin təklifə dəstək çıxması, maliyyə alətinin və bu maliyyə alətindən düzgün istifadə edən, onu dügün qiymətləndirən və ya ona ehtiyacı olan investorların mövcudluğu vacib bir şərtdir. Hal hazırki dövrdə respublikamızın maliyyə bazarlarında yetərincə az sərmayədar və ya yatırımçının mövcudluğu, ölkənin iqtisadi subyektlərinin bazar imkanlarından həddən az faydalanması həmin bazarlar, bu bazarlardakı maliyyə alətlərinin düzgün qiymətləndirilməsi haqqında məlumat bazasının çatışmamazlığının bir göstəricisidir. Buna görə də məktəblərdə, universitetlərdə, müəssisələrdə və digər peşə ocaqlarında maliyyə bazarları, onun fəaliyyəti, o cümlədən, burada qiymət əmələgəlməsi mövzunda maarifləndirici tədbirlərin həyata keçirilməsi qiymətli kağızlarının inkişafı üçün uğurlu bir addım olacaqdır.

- Bazarın qeyri-likvid olması Qiymətli kağızlar bazarının mühüm funksiyalarından biri bazarının likvidliyinin yüksək olmasıdır. Yəni, bir investorun əlində cəmləşdirdiyi aktivləri daha da sürətli bir formada digər növ aktivlərə və ya nağd pula çevirə bilməsidir. Lakin, respublikamızda dərin və likvid bazarın formalaşmaması, bununla da risklərin yüksəlməsi sərmayəçilərin qiymətli kağızlar bazarından aralanmasına və başqa bazarlara yönəlməsinə gətirib çıxarır.

- Dövlət əhəmiyyətli müqavilələrin qiymətli kağızlar bazarından çıxarılması İkinci fəsildə də, qeyd olunduğu kimi 2014-cü hesabat ilində bazarın böyük inkişafının ən mühüm səbəblərindən biri dövlət əhəmiyyətli əqdlərin həmin bazarlarda maliyyələşməsinin baş tutmasıdır. Lakin, 2016-cı ildən etibarən sözü gedən əməliyyatlar dayandırılmışdır. Bu da korporativ istiqrazlar bazarında həmin qiymətlərdə, həm də satışın həcmində azalmaya səbəb olmuşdur. Bununla bağlı olaraq, dövlət əhəmiyyətli müqavilələrin qiymətli kağızlar bazarında baş tutması işinin bərpası bu bazarların inkişafı üçün uğurlu addım olacaqdır.

Qiymətli kağızlar bazarının inkişafı prosesində daha çox dövlət qiymətli kağızlarının üstünlük təşkil etdiyi nəzərə çarpır. Xüsusən də, bu bazarın dövriyyəsində respublikanın Mərkəzi Bankının qiymətli kağızlarının həcminin yüksəklikliyi görsənir. Bununda səbəbi qeyri-neft sektorunda fəaliyyət göstərən müəssisələrin bu tip bazarlarda lazımı qədər fəal olmamalarıdır. Bunu nəinki ilkin bazara, həmçinin təkrara bazara bütünlükdə, xüsusilədə qiymət əmələgəlməsi məsələlərinə əhəmiyyətli dərəcədə təsir edir. Buna görə də təsnifləşdirilmiş qiymətli kağızlar bazarı formasına keçidin təmini ölkənin qiymətli kağızlar bazarının inkişafına daha böyük zəmin yaradacaqdır.Ölkəmizin iqtisadiyyatının bazar münasibətlərinə əsaslanaraq işləyən bütün sahələr kimi sığorta sektoru da son illər çərçivəsində inkişaf etmişdir. Lakin son illərdə baş verən iqtisadi dəyişiklər, devalivasiya bu inkişafın sürəti həddən artıq zəiflətmişdir. Bu səbəbdən sığorta bazarının inkişafını sürətləndirəcək tədbirlərin, qaydaların, hətta qanunların belə tətbiqi zəruri əhəmiyyətə malikdir. Ölkəmizdə sığorta bazarı sektorunun əsas istiqaməti gələcək dövrdə onun daha da çox inkişaf etdirilməsi, onun iqtisadiyyatın sabitliyi və maliyyə bazarları tərkibində həcminin yüksəldilməsinin mühüm faktoru iqtisadi hadisələrin sığorta təminatı, ölkənin ÜDM-sində sığortanın payının yüksəldiməsidir. Respublikamızda sığorta sahəsində aparılmış son dəyişiklikləri və islahatlara diqqət yetirdikdə həmin islahatların, sürətləndirilmiş iqtisadi yüksəlişin səviyyəsi ilə sığorta bazarının artım dinamikası arasında uyğunsuzluq mövcuddur. Azərbaycanda Sığorta sahəsinin böyüməsi üçün yaxşı potensial olmasına baxmayaraq, institusional-hüquqi yenidənqurma amilləri zəifdir. Bu seqmentin artımı məqsədilə ilk öncə qanunvericiliyin təkmilləşdirilməsi daha məqsədəuyğun olar.

AZƏRBAYCANDA QEYRİ-NEFT SEKTORUNUN MÜASİR VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Tahirli R.B.
OdlarYurdu Universiteti
E-mail: tahirli646@mail.ru

Azərbaycanın neft strategiyasının yeni mərhələdə inkişafı ölkəyə xarici investisiyaların cəlb olunmasında, milli inkişaf strayegiyasının reallaşmasında aparıcı rol oynayır. Son illər ərzində istehsal infrastrukturuna yatırılan investisiya, tanınmış beynəlxalq neft şirkətləri ilə səmərəli əməkdaşlıq, yeni neft-qaz

ixrac marşrutlarının yaradılması və yeni bazarlara çıxış əldə olunması nəticəsində ölkəmiz öz milli strateji inkişafında yeni mərhələyə qədəm qoymuş və artıq xaricdə investisiya layihələrinin reallaşdırılmasını müvəffəqiyyətlə idarə edir. Ölkənin artan enerji potensialının gerçəkləşdirilməsi istiqamətində diversifikasiya və çoxvariantlılıq prinsiplərə əsaslanaraq ölkəmiz yeni transregional layihələri həyata keçirir, ölkəyə yeni xarici investisiya axımına şərait yaradır.Milli iqtisadiyyatın inkişafı dedikdə ilk öncə beynəlxalq səviyyədə iqtisadiyyat ilə qarşılıqlı münasibətdə olan, ayrı-ayrılıqda ölkələrin inzibati qurluşuna görə, sosial-iqtisadi, coğrafi mühitdə, texnika və texnologiya üzrə fərqlənən təsərrüfat sistemi başa düşülür. Hər ölkənin milli iqtisadiyyatı onun ümumi iqtisadiyyatının bir hissəsini təşkil edir. Hər ölkə özünə uyğun olan sturuktur davranışını hazırlayıb, həyata keçririr. Çünki ölkələrin milli iqtisadiyyatları hazırki şəraitdə elə bir inkişaf səviyyəsinə malikdir ki, onların sturukturu özü-özlüyündə böyük bir iqtisadi subyektdir. Qloballaşan dünyada ayrıca götürülmüş hər hansı dövlətin iqtisadi inkişafının təmin edilməsində ən önəmli faktorlardan biri də xarici və daxili investisiyalardır. Xarici mənbələr hesabına yatırılan investisiyalara və onların həcminə ölkədəki biznes mühitinin əlverişliliyi, investorların hüquqlarının qanunvericilik əsasında nə dərəcədə qorunması,yatırılan investisiyaların mənfəət dərəcəsi, bilavasitə təsir göstərir.Azərbaycanda Respublikasında həyata keçirdiyi "Yeni neft strategiyası" və hazırda qeyri-neft sahələrinin inkişaf etdirilməsi istiqamətində dövlətin reallaşdırğı tədbirlər nəticəsində maliyyə imkanları ilbəil genişlənir. Bütün bunlar dövlətin ölkəmizdə həyata keçirilən uğurludaxili və xarici investisiya siyasətininhəyata keçirilməsinə imkan yaratmaqdadır. Azərbaycanın iri daxili və xarici investoru olan Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin (ARDNŞ) müasir çoxşaxəli investisiya fəaliyyəti və strategiyası bilavasitə quruda və dənizdə neft-qaz hasilatı, beynəlxalq neft-qaz müqavilələrində, ixrac boru kəmərlərinin tikilişində iştirakı və ölkədaxili çoxşaxəli fəaliyyəti nəticəsində əldə olunan gəlirləri ilə investisiya portfeli formalaşmışdır.Məlum həqiqətdir ki, neft sənayesi ölkə iqtisadiyyatımız üçün özəyini təşkil edir. Xüsusilə bu sənaye sahəsinin inkişafı ölkəmizin sosial-iqtisadi inkişafının təmin edilməsində mühüm rol oynayır. Azərbaycanın ixrac məhsullarının böyük bir hissəsinin neft sənayesi məhsulları olduğunu nəzərə alsaq ölkənin gəlirləri baxımından da bu inkişafın nə qədər vacib olduğunu görə bilərik. Təkcə sosial-iqtisadi inkişaf deyil, həm də respublikamızın enerji təhlükəsizliyi baxımından da bunu əsaslandıra bilərik.

Dövlətimizin bu mənada əsas vəzifəsi neft sənayesini inkişaf etdirirək, eyni zamanda qeyri-neft sektorunun inkişafına zəmin yaratmaqdır. Ölkəmizin bu mənada ən böyük üstünlüyü sənayenin bu sahəsində olan tarixi zəngin təcrübəsidir. Tarixən Azərbaycan istər texnoloji yeniliklər, istərsə də idarəetmədə olan zəngin təcrübəsi sayəsində bu sənaye sahəsinin inkişafında çox böyük yol qət edib. Azərbaycan özünün enerji resurslarını dünya bazarlarına çıxarmaq kimi mühüm və vacib vəzifənin öhdəsindən də uğurla gəlməyi bacarmışdır. Özü də ixracın tranzit marşrutlarının göstərilməsində dövlətimizin siyasi iradə nümayiş etdirməsi diqqəti xüsusilə özünə çəkir. Məhz buna görədir ki, dövlətimiz bu sahədə azad siyasət apararaq ölkəmizin karbohidrogen ehtiyatlarının dünyaya ötürülməsi üçün böyük istiqamətləndirilmiş.

Qeyri-neft sektorunu inkişaf etdirilməsi istiqamətlərində kapilat qoyuluş əsas rol oynayır. İinvestorlar üçün əlverişli investisya mühiti yaradılır. Onların cəlb edilməsi zamanı hər bir olkədə investisiyalaşmanın ümumiqtisadi şərtlərini və iqtisadi inkişafın sabitliyini, təsərrüfat qanunvericiliyini, sosial-iqtisadi vəziyyəti və s. xarakterizə edən gostəricilərdən istifadə olunur.

Xarici investisiya şirkətləri göstəricilər haqqında mövcud qanunvericiliyin mövcudluğuna təhlilinə investisiyadan əldə olunan mənfəətin köcürülməsinə, valyuta rejiminə, vergi sisteminə xüsusi diqqət yetirirlər. Kapitalı idxal edən olkələr xarici investisiyaların cəlb edilməsi proqramlarını işləyib hazırlayırlar. Xarici investisiyaların onu qəbul edən olkənin iqtisadiyyatına həm müsbət, həm də mənfi təsir etməsini nəzərə almaq lazımdır.Müsbət effektlər sırasına kapital qoyuluşunun həcminin artması, iqtisadi inkişafın sürətlənməsi, vəsaitlərin axını hesabına tədiyyə balansının vəziyyətinin yaxşılaşması, qabaqcıl texnologiyaların, təşkilati və idarəetmə təcrübəsinin və s. istifadə edilməsi aiddir. Mənfi effektlərə xarici investisiyalardan alınan mənfəətin öz ölkələrinə köçürülməsi və bununla da valyuta axını tədiyyə balansının vəziyyətinin pisləşməsi və s. aiddir. Kapital qoyuluşlarının maliyələşdirilməsində isə xüsusi vəsaitlərdən və uzunmüddətli kreditdən istifadə edilir. Müasir şəraitdə investisiya qoyuluşunun maliyyələşdirilməsində xarici kreditin rolu az deyildir. İstehsal təyinatlı obyektlərin tikilməsi zamanı müəssisələrin şəxsi vəsaitləri çatmırsa belə niyyət üçün yerli və xarici kreditdən istifadə edilir. Tikinti istehsalının inkişaf etdirilməsində və onun iqtisadi səmərəliliyinin yüksəldilməsində bank kreditinin əhəmiyyəti yüksəkdir. İndi bankların krediti tikintidə əsas fondların yenidən istehsalının önəmli yollarından biri olmuşdur.Müasir mərhələdə investisiyanın uzunmüddətli xarici kreditləşdirilməsi geniş tətbiq olunur. Bu onunla izah edilir ki, əsas vəsait qoyuluşu üçün xərclərin kredit üsulu ilə ödənilməsi tikinti təşkilatlarının əsas fondlarından və xüsusi vəsaitlərdən daha yaxşı istifadəyə, avadanlıqların modernləşdirilməsinə, yeni texnikanın tətbiqi və texniki müddətlərinin qısaldılmasına səbəb

olur. Xüsusi vəsaitlər çatışmadıqda fəaliyyətdə olan tikinti təşkilatlarının, yenidən qurulması və genişləndirilməsi xərcləri, yeni texnikanın tətbiqi və texnoloji proseslərin texniki təkmilləşdirilməsi xərcləri uzunmüddətli kreditlər hesabına aparılır. Azərbaycan Respublikasının iqtisadiyyatına yönəldilmiş investisiyaların tərkibində xarici investisiyalar 2008-ci ilin ortalarına qədər daxili investisiyadan çox idi. Bu da xarici investisiyadan asıllığı yaradırdı, lakin «qeyri- neft strategiyasının» reallaşması və bu istiqamətədə aparılan işlər ölkədə valyuta gəlirlərinin artmasına və bununlada sosial-iqtisadi inkişafa nail olunmasına səbəb olmuş və artıq iqtisadiyyata yönəldilən ümumi investisiyanın tərkibində daxili investisiyanın xaricini üstələmişdir.

VERGİ SİYASƏTİ, ONUN HƏYATA KEÇİRİLMƏSİ MEXANİZMLƏRİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

Tahirov E.M.
Naxçıvan Dövlət Universiteti
E-mail: emintahirov2000@gmail.com

Azərbaycanın bazara keçidi dövlətlə iqtisadiyyat arasında münasibətlər problemini aktuallaşdırdı. Keçid dövrünün sosial-iqtisadi problemləri Azərbaycan iqtisadiyyatında dövlətin rolunun gücləndirilməsini zəruri etdi. Bütün maliyyə alətlərindən iqtisadi proseslərin dövlət tənzimlənməsinin əsas rıçaqlarından biri vergi siyasətidir. Vergi siyasəti dövlətin və hər bir şəxsin, dövlətin və müəssisələrin, müxtəlif təşkilatların bir-biri ilə münasibətləri, dövlətlərarası münasibətləri ilə bilavasitə bağlı olan çoxşaxəli kateqoriyadır.

Əslində vergi siyasəti anlayışı vergilər sahəsində fəaliyyət dairəsindən kənara çıxır. Dövlət vergi siyasətini həyata keçirməklə bazarın "işinə" fəal şəkildə müdaxilə edir, istehsalın inkişafını tənzimləyir, iqtisadiyyatın bəzi sahələrinin digərləri ilə müqayisədə daha sürətli artımına kömək edir, investisiya siyasətinə və struktur uyğunlaşmasına təsir göstərir. İqtisadi qərarların müvəffəqiyyəti daha çox vergi siyasətinin uğurla həyata keçirilməsindən asılıdır. Yalnız yığımı və investisiyaları stimullaşdıran və iqtisadi artımı təşviq edən vergi siyasəti effektiv hesab edilə bilər. Vergi siyasətini həyata keçirərkən dövlət aşağıdakı məqsədləri həyata keçirməlidir.

- fiskal - regionlarda yaradılmış milli gəlirin bir hissəsinin sosial-iqtisadi inkişafın milli, regional və yerli proqramlarının maliyyələşdirilməsi üçün büdcə sisteminə və büdcədənkənar fondlara səfərbər edilməsi;
- sosial təkrar istehsalda struktur dəyişikliklərinin aparılması, milli gəlirin və ÜDM-in ərazi, sahə və sosial bölmələr üzrə yenidən bölüşdürülməsi, tələb və təklifin tənzimlənməsi, regionlarda sahibkarlıq və investisiya fəaliyyətinin stimullaşdırılması məqsədilə vergi mexanizmi vasitəsilə iqtisadiyyata iqtisadi - məqsədyönlü təsir;
- sosial - mütərəqqi vergitutma sistemi vasitəsilə əhalinin gəlir səviyyələrindəki qeyri-bərabərliyin qruplar üzrə və regionlar arasında nisbi aradan qaldırılması və ya yumşaldılması, vətəndaşların böyük və aztəminatlı təbəqələrinə, əlillərə və vətəndaşlara vergi güzəştlərinin və imtiyazlarının verilməsi;
- həm ayrı-ayrı müəssisələrə, həm də çirkləndiricilərin atmosferə atılmasına görə icazə verilən maksimum normaları aşmasına yol verilən və bu istiqamətdə təsirli tədbirlər görülməyən rayonlara ekoloji vergilərin və cərimələrin rolunu gücləndirməklə ətraf mühitin mühafizəsi və təbiətin rasional idarə edilməsi;
- sahəyə və kameraya görə nəzarət;
- müxtəlif səviyyəli büdcələrə vergi daxilolmalarının artırılmasına deyil, həm də vergi intizamına riayət olunduğuna dair yoxlamalar. Vergi orqanlarından alınan məlumatlar dövlət tərəfindən planlaşdırma sahəsində operativ və strateji qərarlar qəbul etmək üçün istifadə olunur.

Maksimum vergi siyasətinin birinci növü "mümkün olan hər şeyi götürmək" prinsipi ilə xarakterizə olunur. Eyni zamanda, vergi artımları gəlirlərin artması ilə müşayiət olunmayanda dövlət "vergi tələsinə" hazırlaşır. Ona görə də bu siyasət, bir qayda olaraq, iqtisadi böhran və ya hərbi əməliyyatların aparılması kimi fövqəladə hallarda dövlət tərəfindən həyata keçirilir. İkinci növ, sahibkarlığın inkişafına təkan verən, lakin sosial təminatların həcmini azaldan münasib vergilər siyasətidir. Üçüncü növ, kifayət qədər yüksək vergitutma səviyyəsini təmin edən, lakin əhalinin əhəmiyyətli sosial müdafiəsini təmin edən vergi siyasətidir. Vergi daxilolmaları sosial fondların artırılmasına yönəldilir. Belə siyasətin mənfi tərəfi inflyasiyaya səbəb olmasıdır.

Azərbaycan Prezidentinin 2000-ci il mayın 23-də Azərbaycan dövlət Məclisinin göndərdiyi xüsusi vergi mesajında yaxın gələcəkdə vergi islahatlarının əsas istiqamətləri göstərilmişdir. Xüsusilə təklif etdi.

- səmərəsiz olan və iqtisadi fəaliyyətə mənfi təsir göstərən vergilərin, ilk növbədə, malların (işlərin və xidmətlərin) satışından əldə edilən gəlirlərdən ödənilən vergilərin ləğv edilməsi yolu ilə vergi yükünün azaldılması, əmək haqqı fondunun vergiyə cəlb edilməsinin məhdudlaşdırılması (35-ə qədər). -36%), o cümlədən gəlir vergisi tutularkən vergitutma bazasının müəyyənləşdirilməsinə yanaşmanın dəyişdirilməsi;
- vergi şərtlərinin bərabərləşdirilməsi;
- bütün əsassız güzəştlərin ləğvi, vergitutma bazasının müəyyən edilməsi qaydalarında deformasiyaların aradan qaldırılması ilə təmin edilməlidir;
- Vergi sisteminin sadələşdirilməsi və vergilərin sayının azaldılması.

Vergi islahatının birinci mərhələsində (2000-2001) mənzil fondunun və sosial-mədəni obyektlərin saxlanmasına görə vergi, UST-nin həyata keçirilməsinə görə vergi, polisin saxlanması və abadlıq işlərinə görə təyinatlı haqqlar ləğv edildi. Vergitutmanın sosial ədalətini təmin etmək üçün fiziki şəxslərin gəlirləri üzrə vahid vergi dərəcəsi tətbiq edilib, vergi tutulmayan minimum gəlir əhəmiyyətli dərəcədə artırılıb. Əmək haqqı fondunu qanuniləşdirmək üçün UST üçün reqressiv vergitutma şkalası yaradılmışdır.

İkinci mərhələdə (2002-2003-cü illər) vergi neytrallığını təmin etmək məqsədilə korporativ mənfəət vergisinin dərəcəsi azaldılmış və eyni zamanda mövcud güzəştlər ləğv edilmiş, habelə bu vergi üzrə vergitutma bazasının formalaşdırılması metodologiyası dəyişdirilmişdir (Azərbaycannın Vergi Məcəlləsinin 25-ci fəsli). Təbii sərvətlərin vergitutma sistemində islahatlar aparıldı, xüsusən faydalı qazıntıların hasilatı üçün müntəzəm ödənişləri, təkrar istehsal üçün ayırmaları əvəz etmək üçün faydalı qazıntıların hasilatı vergisi (Azərbaycannın Vergi Məcəlləsinin 26-cı fəsli) tətbiq edildi.Azərbaycannın Vergi Məcəlləsinin xarakterik xüsusiyyəti xüsusi vergi rejimlərinin tətbiqi (Azərbaycannın Vergi Məcəlləsində nəzərdə tutulmuş vergilərin əksəriyyətini ödəməkdən azad etməklə). Beləliklə, kənd təsərrüfatı istehsalçıları üçün (Azərbaycannın Vergi Məcəlləsinin 26.1-ci fəsli), eləcə də kiçik müəssisələr üçün (Azərbaycannın Vergi Məcəlləsinin 26.2, 26.3-cü maddələri) xüsusi vergitutma rejimi nəzərdə tutulmuşdur. Fərdi vergilərin (ƏDV, aksizlər, UST) hesablanması və ödənilməsi metodologiyası nəinki sadələşdirilməyib, əksinə daha da mürəkkəbləşməkdə davam edir. Beləliklə, 2002-ci il yanvarın 1-dən qüvvəyə minmiş UST haqqında qanunvericiliyə edilən dəyişikliklər, ayrı-ayrı bölmələri olan təşkilatlarda çoxlu təşkilati və metodoloji problemlərə səbəb oldu ki, bu da yalnız addımların bütün nəticələrinin diqqətlə planlaşdırılması ilə həll edilə bilər.Təkcə dövlətin deyil, vergi ödəyicilərinin də maliyyə maraqları nəzərə alınmaqla balanslaşdırılmış vergi siyasəti aparılmalıdır. Bundan əlavə, vergi siyasəti ümumi qəbul edilmiş vergitutma prinsiplərinə tamamilə tabe olmalıdır. Dövrün müddətindən və həll ediləcək vəzifələrin xarakterindən asılı olaraq vergi siyasətini vergi strategiyası və vergi taktikasına bölmək olar. Vergi strategiyası dövlətin vergilər sahəsində uzunmüddətli kursunu müəyyən edir və irimiqyaslı vəzifələrin həllini nəzərdə tutur. Vergi taktikası vergi sisteminə operativ, vaxtında dəyişikliklər və əlavələr etməklə konkret inkişaf dövrünün problemlərinin həllini nəzərdə tutur.

AZƏRBAYCANDA MALİYYƏ BAZARININ FORMALAŞMASI PROBLEMLƏRİ

Talibzadə A.İ.
OdlarYurdu Universiteti
E-mail: Anar.Talibzade711@gmail.com

Beynəlxalq İqtisadiyyatın bazar münasibətlərinə keçməsinin başa çatdığı və dünya təsərrüfat sisteminə inteqrasiyasının gücləndiyi, həmçinin büdcəvergi sistemin intizamın gücləndirilməsinin dövlət siyasətində mühüm rol oynadığı bir dövrdə idarəetmənin əsas elementi olan maliyyə nəzarətinin rolu daha da artır. Təsadüfi deyil ki, hazırda maliyyə şəffaflığının artırılmasına, mövcud nəzarət mexanizminin təkmilləşdirilməsinə və bütövlükdə maliyyə intizamının möhkəmləndirilməsinə böyük önəm verilir, dünya təcrübəsilə uyğunlaşdırılaraq maliyyə nəzarətində şəffaflığın artırılması, maliyyə vəsaitlərinin qanunsuzşəkildə istifadəsi və korrupsiya ilə bağlı qərarlar Prezidentin imzaladığı sərəncam və fərmanlarda əks olunur və bu maliyyə vəsaitlərinin səmərəli şəkildə istifadəsi və maliyyə intizamının möhkəmləndirilməsi ölkənin əsas sosial-iqtisadi göstərici kimi təsbit olunur.

Maliyyə nəzarəti mexanizminin inkişaf etdirilməsi onunla əlaqədardır ki, ölkədə fəallıq artdıqca maliyyə vəsaitlərində olan qanunsuz halların da artımı müşahidə edilir və onların metod və miqyasları da avtomatik olaraq dəyişilir. Hazırda böyük uğurla enerji layihələrinin həyata keçirilməsi son dövrlərdə də Azərbaycana külli miqdar valyuta gətirəcək, ölkənin maliyyə potensialı əhəmiyyətli dərəcədə güclənəcəkdir. Bu isə ölkədə birinci növbədə, maliyyə nəzarətinin gücləndirilməsinin rolunu və əhəmiyyətini daha da artıracaqdır. Maliyyə nəzarətinin yenidən qurulması və audit sisteminin təkmilləşdirilməsi mövcud olan maliyyə sistemini beynəlxalq standartlarda olmasına imkan verəcək və həmçinin dövlət vəsaitlərində olan qanunsuz halların aradan qaldırılmasına kömək edəcəkdir. Ümumiyyətlə, iqtisadiyyatın dövlət sektorunun idarə olunmasında maliyyə nəzarətinin rolunun daha da möhkəmləndirilməsi böyük əhəmiyyət kəsb edir. Bu baxımdan, iqtisadiyyatın bütün sahələrində maliyyə əməliyyatlarının mövcud qanunvericiliyin tələblərinə uyğunluğunu, onların məqsədəuyğunluğunu və şəffaflığını təmin edən mexanizm kimi maliyyə nəzarətinin və auditin təkmilləşdirilməsi vacib vəzifələrdən birinə çevrilir.

Mövcud dövlət maliyyə nəzarəti orqanları əsasən müstəqildir və onların fəaliyyəti kifayət qədər effektivdir. Bundan əlavə, dövlət maliyyə nəzarəti sisteminin fəaliyyəti müsbət xarici təcrübəyə uyğunlaşmanı təmin etmək və nəzarət işinin səmərəliliyinin artırılması öz növbəsində imkan verir ki, dövlət və cəmiyyətin yaxşılaşdırılması üçün zəruri olan keyfiyyətli, etibarlı, vaxtında müstəqil informasiya effektivliyi formalaşdırılsın. Azərbaycanda dövlət maliyyə nəzarəti sistemini təkmilləşdirmək üçün biz, hər şeydən öncə, bazar iqtisadiyyatlı ölkələrin təcrübəsini öyrənməliyik. Həm də bu zaman hər hansı bir xarid modelin tənqidi təhlili olunmadan və Azərbaycan şəraitinin xüsusiyyətlərini nəzərə almadan götürüb istifadə etmək də məqsədəuyğun deyildir. Şübhəsiz ki, müxtəlif ölkələrdə dövlət maliyyə nəzarəti sisteminin təşkilində bir çox faydalı məqamlar vardır və onlardan Azərbaycanda da yaradıcı şəkildə istifadə etmək olardı. Lakin müxtəlif ölkələrdə dövlət nəzarəti sistemləri arasında çoxlu fərqlər vardır və bunlar hər şeydən öncə, dövlət hakimiyyətinin formalaşmasının tarixi şəraiti, onun strukturu, konstitusiya ənənələri, dövlət quruluşunun və idarəetmənin formaları, dövlət xidmətinin təşkilinin xüsusiyyətləri, iqtisadiyyatın inkişaf dərəcəsi, inzibati islahatların bitkinlik dərəcəsi və sairə ilə şərtlənir. Belə bir faktı da danmaq olmaz ki, dövlət maliyyə nəzarətinin ayn-ayn məsələlərinə münasibətdə konseptual baxışlar və təcrübi yanaşmalar mənasında milli sistemlər arasında prinsipial fərqlər mövcuddur.

İnkişaf etmiş bazar iqtisadiyyatına malik ölkələrin dövlət maliyyə nəzarəti təcrübəsini Azərbaycana köçürərkən milli mentaliteti - tarixi-milli ənənələri, sosial psixologiyam, mədəniyyəti, dəyərləri və üstünlük verilən cəhətləri də nəzərə almamaq olmaz. Ona görə də digər ölkələrin son dərəcə maraqlı və rəngarəng təcrübəsi bu günki Azərbaycan şəraitində yalnız ciddi təhlildən sonra tətbiq edilməlidir.

Hal-hazırda Azərbaycanda fəaliyyət göstərən, funksional baxımdan müstəqil olan dövlət maliyyə nəzarəti orqanları qanunverici, icra və məhkəmə hakimiyyətlərinin səlahiyyətlərinin balansını tənzimləyən zəruri element kimi, dövlətin hüquq sisteminə inkorporasiya etmişdir. Eyni zamanda, dövlət maliyyə nəzarətinin ayrı-ayrı orqanlarının (istər icra, istər qanunverici və istərsə də məhkəmə hakimiyyətlərinin orqanlarının) fəaliyyətini müsbət qiymətləndirə bilərik. Dövlət maliyyə nəzarəti sisteminin strukturunun formalaşması, prinsip etiban ilə, bir sıra analitik və təşkilati-texniki məsələlərin həll olunmasım tələb edən çox mürəkkəb bir prosesdir. Büdcə prosesinə yetərli nəzarəti təmin etmək üçün hökumət bütün maliyyə əməliyyatları üzrə tam hesabat təqdim etməlidir. İllik hesabat ən azı aşağıdakı İnformasiyaları əhatə etməlidir: maliyyə ili ərzində faktiki gəlir və xərc maddələrinin həmin maddələr üzrə təsdiq edilmiş göstəricilərlə müqayisəsi; maliyyə ilinin əvvəli və sonuna xəzinədarlıq hesabının vəziyyəti; ilin sonuna yerinə yetirilməmiş öhdəliklər barədə məlumatlar; ilin əvvəli və sonu üçün ödənilməmiş borcların məbləğləri. Bununla yanaşı, xidmətə dair ayn-ayn dövlət borclarının məbləğləri, onların ödənilmə şərtləri, ödəmə müddətləri və qaydası barədə ayrıca hesabat təqdim edilməlidir. Dünya təcrübəsi bu məlumatların ilk növbədə dövlət auditinin yoxlamasından keçirilməsinin, zəruri hallarda isə sərbəst auditorların iştirakının məqsədəuyğunluğunu göstərir və yoxlamanın nəticəsi olaraq hazırlanmış hesabatın (rəyin, aktın) ölkə prezidentinə, Nazirlər Kabinetinə, Milli Məclisə və ölkə əhalisinə çatdırılmasım tələb edir.

Dövlətin apardığı yoxlamalarda digər dövlət və qeyri dövlət maliyyə nəzarəti orqanlarının iştirakı, onlarla bağlanmış sazişlər əsasında həll edilə bilər. Bu sazişlər respublikanın maliyyə mənafeyi ilə bağlı, həm də yerli büdcələrlə bağlı sərbəst auditor yoxlamalarının da mexanizmini təkmilləşdirməlidir.

İQTİSADİYYATIN QLOBALLAŞMASI ŞƏRAİTİNDƏ TRANSMİLLİ ŞİRKƏTLƏRİN İNNOVASİYA STRATEQİYASININ XÜSUSİYYƏTLƏRİ

Vəliyev F.R.
Bakı Dövlət Üniversiteti
Fuad.valiyev01@gmail.com

İnnovasiya sahibkarlığın effektiv inkişafının əsası sayılır, artıq kommersiya məhsulu mərhələsinədək çatdırılmış yeni bilik və texnologiyaların biznesdə istifadəsini nəzərdə tutur. İnnovasiyaların bölüşdürülməsini təkcə ayrı-ayrı müəssisələr arasında deyil, həm də regionlar arasında qarşılıqlı əlaqəni inkişaf etdirmək vasitəsilə reallaşması zəruridir. İqtisadi ədəbiyyatda regional innovasiya əlaqələrinə fərdi müəssisələrdən ölkənin bütün iqtisadi sistemi üzrə yayılan innovasiyanın stimullaşdırıcısı kimi baxılır.

"İnnovasiya" anlayışını iqtisadi ədəbiyyata ilk dəfə Avstriya mənşəli amerika iqtisadçısı Y.Şumpeter gətirmişdir. O, innovasiyaya iqtisadi böhranın aradan qaldırılmasının mühüm vasitəsi kimi baxmışdır. İşgüzar aktivliyin uzun konyuktur dalğa nəzəriyyəsinin məhsulun qiymətinin artması ilə deyil, innovasiyanın yaradılması və tətbiqi hesabına təsərrüfat prosesində dəyişikliklərlə əlaqədar böhrandan istehsal sisteminin çıxarılmasının yeni imkanlarını aşkara çıxartmışdır. Y.Şumpeterə görə yeniliklərin köməyilə müəssisə rəqabətin əvvəlki qiymət formasından fərqli yeni rəqabət üsullarından ifadə edə bilir. Bu rəqabət üsulunu effektiv rəqabət, rəqabətin qeyri-qiymət forması sayəsində şirkətin yaranmış müstəsna vəziyyətini isə effektiv inhisar aadlandırmışdır.Mövcud durumda cərəyan edən fərqli milli iqtisadiyyatlar dairəsində iqtisadi öhdəliklərin təzədən bölgüsü prosesi iqtisadi asılılığından dərinləşməyə öz töhfəsini verir. Qlobal iqtisadiyyat, bu əsasda tamamilə azad ticarəti nəzərdə tutur, biznes sahəsində fəaliyyətin gerçəkləşdirən və milli iqtisadiyyatlar daxilində uğurla işləyən eyni şərtləri yaradır. Bu sahədə yaxınlaşma, yəqin ki, Avropa İttifaqında gedən inteqrasiya prosesləri ilə ən aydın şəkildə nümayiş etdirir .

K.İvanişka qloballaşmanı sosial, iqtisadi və siyasi və baxımdan, onun alətləri, təzahürləri və nəticələrindən fərqləndirir. Kenichi Ohmae səmtdən aydınlıq gətirilən qloballaşmanın aparıcı tərəfdarlarından bəziləri qlobal siyasi iqtisadiyyatın üç istiqamətidir. Birincisi, transmilli korporasiyaların təsir dairəsinin yüksəlməsi , ikincisi, milli dövlətin təsirinin azalması və üçüncüsü, iqtisadi fəaliyyətlərdən ötrü yeni məkan kimi regionların yaradılmasıdır .Fabuş isə belə iddia ilə çıxış edir ki, son onilliklərdə qloballaşma proseslərinin inkişafı informasiya və kommunikasiya texnologiyalarında davam edən inqilabla əhəmiyyətli dərəcədə artırılıb. Həmçinin, qloballaşmanın sürətli dəyişməsinə bütöv dünyada azad ticarətin təşviqi səylərinin intensivləşməsi, azad sahibkarlığın əhatə çevrəsinin genişləndirilməsi səylərilə müşayiət edilən əksər dövlətlərdə cərəyan edən siyasi dəyişiklik və yaxud ətraf aləmin qorunması hədəfilə səylərin birləşdirilməsi zərurəti və s. səbəb olmuşdur.Qloballaşmanın ən parlaq təzahürlərindən biri beynəlxalq biznes fenomenidir ki, bu məkanda qlobal mühitdə beynəlmiləlləşmə proseslərini dəstəkləyən və dərinləşdirən beynəlxalq iqtisadiyyatın subyektləri - transmilli şirkətlər önəmli yol oynamaqla diqqəti cəlb edir . Elmi və texnoloji inqilabın inkişafı yekununda TMK-lar müasir qlobal iqtisadi aələmin ən önəmli və dominant fenomenlərindən biri hesab edilir .

Tranmilli şirkətlərin nəzəriyyəsinin atası ideyaları S.Hymer tərəfindən işlənib hazırlanmış ingilis neoklassik sahili hesab olunur. Brakmanın fikrincə, transmilli korporasiyaların iki əsas aspektini vurğulamaq lazımdır: birincisi, TMK -ni iqtisadiyyatda dominant rola sahib olan və qərarların qəbul edildiyi yer olan böyük inzibati şəbəkə təqdim edən müasir sənaye şirkəti kimi vurğulayır. Beynəlxalq səviyyədə transmilli şirkətlər məsələsi konkret ölkədəki iri milli firmaların məsələsilə eynidir. İkinci aspektə gəldikdə ona dəlalət edir ki, bu şirkətlər beynəlxalq fəaliyyətləri inkişaf etdirsələr də, öz təbiətlərinə görə milli şirkətdirlər.

Dünyanın ən nüfuzlu transmilli holdinq şirkətlərindən biri «interneşil biz-nes məşinz», qısaca İBM-dir. Bu şirkət illik gəlirinə görə dünyada birinci yerə çıxmışdır. İBM-inəldə etdiyi yüksək müvəffəqiyyətlərin əsas səbəbi menecer-lərin əmək kollektivi və müştərilər ilə davranışındakı yüksək mədəniyyətdir. İBM-in davranış kodeksləri1 914-cü ildə onun yaradıcısı Ata Tomas Uotson tə-rəfindən hazırlanmışdır. Şirkətin iş prinsipləri bunlardır: hər bir insan hörmətə layiqdir; hər bir müştəri kontingenti ona mümkün olabilən yüksək xidmət hüququna malikdir; bütün sahələrdə təkmilləşdirməyə nail olmaq gərəkdir. İBM-in fəaliyyətinin idarə edilməsində bütünlükdəsatışa istiqamətlənmə və satış-dan sonra xidmətin təşkili vacib məsələ kimi qiymətləndirilir. Məhsul satışından sonra öz alıcıları ilə əlaqə saxlanılır və bu xidmətəkifayət qədər vəsait yönəldilir. «Soni» şirkəti maqnitafon və tranzistr radioqəbuledicisi istehsalı üzrə dünyada birinci yeri tutur. Hollandiyanın «Filips» firması ilə birlikdə lazer tex-nologiyası əsasında prinsipcə ən yeni səsyazma qurğusu işləyib hazırlamış və istehsala tətbiq etmişlər. Bütün bu müvəffəqiyyətləri güclü rəqabət şəraitində

qazanmışdır. Hazırda «Soni» şirkətinin dünyanın müxtəlif ölkələrində 30-dan çox filialları fəaliyyət göstərir və onlarda 43 min nəfərdən çox işçi kollektivi çalışır. «Soni» transmilli şirkətin internasional menecerlər tərəfindən səmərəli idarə olunur. Menecerlər işçilərdə sağlam, səmimi münasibtələrin formalaş-masına, əmək kollektivinin bir-birinə qarşılıqlı münasibətlərinin doğma ailə mü-nasibətləri səviyyəsinə çatdırılmasına ciddi diqqət yetirirlər. Hər bir işçinin qa-biliyyətinə hörmət edilir, fəaliyyətinin nəticəsindən asılı olaraq həvəsləndirilir, müvafiq qaydada mükafatlandırılır. İdarəetmənin təşkilində məhsulun keyfiy-yətinin yüksəldilməsinə, yeni texnplogiyaların və elmi-texniki yeniliklərin tətbi-qinə, rəqabətqabiliyyətinin artırılmasına vacib məsələlər kimi xüsusi yer ayrılır. Beləliklə, «Soni» transmilli şirkətinin əldə etdiyi böyük uğurların səbəbləri – onun yeniliyə və innovasiya xarakterli işlərə daima can atması, yüksək keyfiy-yətli, rəqabətqabiliyyətli məhsul istehsalını təşkil etməsi, bazar konyukturunun dəyişilməsinə uyğun olaraq öz fəaliyyətini çevik şəkildə təkmilləşdirməsi və s. ilə izah edilir.

Ümumiyyətlə, transmilli şirkətlər beynəlxalq istehsalın beynəlmiləlləşməsinin, beynəlxalq ticarətin liberallaşmasının və nəhayət, dünya iqtisadiyyatının qloballaşmasının hərəkətverici qüvvələrindən biri hesab edilir və həmçinin elmi-texniki inqilabın inkişafıla baglı şəklidə əlaqədar olaraq transmilli şırkətlərə uygun tərzdə cari dövrün ən vacib və ən dominant hadisələrindən birinə çevrilir. Transmilli şirkətlər tarixən qlobal müəssisələrin idarə edilməsində müasir mərhələdir, onlar yeni qlobal sistemin "əzələləri və beyni"dirlər ki, burada onların uğurları zəif işçi qüvvəsi və milli hökumətlərin alçaldıcı rolula əvəzləmə aparılır.

Qloballaşmanın qlobal bazarlarda fəaliyyət göstərən bütün qurumlara eyni dərəcədə təsir göstərmədiyininin şahidi ola bilərik. Strateji ittifaqların qiymətləndirilməsi baxımından (yəni əməkdaşlıq edən şirkətlər) qloballaşma bəzən yalnız bəlli sektorlar və ya ölkələrlə əlaqələndirilir. Digər sahələrdə o, yalnız inkişafın ilkin mərhələsində qalır. Öz strukturlarını və strategiyalarını inkişaf etdirərək, böyük korporasiyalar qloballaşmanın təsirinə məruz qalmamalı, əksinə daxili mühit tərəfindən formalaşmağa meyllidirlər. Şirkətlər uzunmüddətli formalaşan daxili institusional mühitə uyğunlaşır və qloballaşma faktorlarından birbaşa təsirlənmir. Korporativ idarəetmə şirkətlərin uzunmüddətli inkişafına təsir edən amillərdən biridir. Lakin qloballaşma strategiyaların dəyişdirilməsi üçün təkliflər də gətirir. Bu, avtomatik olaraq vahid bazar yaratmaq demək deyil, lakin o, milli bazarlarda olanlarla eyni mürəkkəb rəqabət alətlərini ifadə edən çox ölçülü varlıqdır.

Beləliklə, müəyyən seqmentlərdə sübut olunsa belə, qloballaşmanın dəyərlərin və ya sosial həyatın digər aspektlərinin universallığı olmadığını fikirləşmə qənaətinə gələ bilərik. Bu sahəni daha ətraflı təhlil etməyə başlayanda universallığın, hətta homogenləşmənin də olmaması faktı təsdiqlənir. Dünyanın müxtəlif yerlərində kapital bazarının tənzimlənməsi modelləri, korporativ təşkilat növləri, siyasi iqtisad daxilində iqtisadi ideologiyalar, iqtisadi islahatların gerçəkləşməsinə baxışlar və MMC-lərin strategiyaları bu faktı bir daha subuta yetirir . Dünyada cərəyan edən prosesləri həmçinin də regional əməkdaşlıq , inteqrasiya prosesi və o cümlədən subregional bölmələrin yüksələn təsir dairəsilə tamamlanır.

DAXİLİ AUDİTİN EFFEKTİVLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Verdiyeva Ş.F.
Azərbaycan Dövlət Aqrar Universiteti
E-mail: shovgiya.verdiyeva@gmail.com

Daxili audit təşkilatın risklərin idarə edilməsi, daxili nəzarət və idarəetmə proseslərinin effektivliyinə müstəqil və obyektiv təminat vermək məqsədi daşıyan istənilən təşkilatın mühüm funksiyasıdır. Bununla belə, daxili auditin effektivliyi yalnız təşkilatın məqsədlərinə cavab verib-vermədiyini müəyyən etmək üçün müntəzəm olaraq qiymətləndirildikdə reallaşa bilər. Daxili auditin effektivliyinin qiymətləndirilməsi daxili audit funksiyasının optimal səviyyədə işləməsini və təşkilatın bundan maksimum fayda əldə etməsini təmin etmək üçün vacibdir. Qiymətləndirmə prosesi daxili audit funksiyasının yaxşı fəaliyyət göstərdiyi sahələri və təkmilləşdirilməsi lazım olan sahələri müəyyən etməyə kömək edir. O, daxili audit resurslarının adekvatlığını, o cümlədən daxili audit qrupunun bacarıq və biliklərini, büdcəsini və daxili audit prosesində istifadə olunan texnologiyanı qiymətləndirməyə imkan verir.Daxili auditin effektivliyinin qiymətləndirilməsində əsas amillərdən biri daxili auditin müstəqil və obyektiv təminat vermək qabiliyyətidir. Daxili audit funksiyası təşkilatın rəhbərliyindən müstəqil olmalı, onun rəy və nəticələri rəhbərliyin təsirinə məruz qalmamalıdır. Bu müstəqillik daxili audit hesabatlarının təşkilatın daxili nəzarət sistemləri və risklərin idarə edilməsi proseslərinin qərəzsiz perspektivini təmin etmək üçün vacibdir. Bundan əlavə, daxili audit funksiyası öz vəzifələrini səmərəli formada yerinə yetirmək üçün lazımi bacarıqlara, biliklərə və təcrübəyə malik olmalıdır.

Yaxşı təchiz olunmuş daxili audit funksiyası təşkilatın risklərinin və daxili nəzarət sistemlərinin hərtərəfli qiymətləndirilməsini və təşkilatın fəaliyyətinin yaxşılaşdırılması üçün müvafiq tövsiyələrin verilməsini təmin edəcəkdir.Daxili auditin effektivliyinin qiymətləndirilməsində digər mühüm amil daxili auditin öz nəticələrini və tövsiyələrini təşkilat rəhbərliyinə effektiv şəkildə çatdırmaq bacarığıdır. Daxili audit funksiyası rəhbərliyə vaxtında və müvafiq məlumat təqdim etməli, onlara əsaslandırılmış qərarlar qəbul etməyə və zəruri hallarda düzəldici tədbirlər görməyə imkan verməlidir. Aydın və qısa ünsiyyət daxili audit hesabatlarının başa düşülməsini və tövsiyə olunan tədbirlərin həyata keçirilməsini təmin edir. Daxili auditin effektivliyinin qiymətləndirilməsi daxili auditin yaranan riskləri müəyyən etmək və təşkilat rəhbərliyinə erkən xəbərdarlıq siqnalları vermək qabiliyyətini də nəzərə almalıdır. Bu, potensial riskləri və təkmilləşdirmə imkanlarını müəyyən etmək üçün təşkilatın daxili nəzarət sistemlərinin və proseslərinin davamlı monitorinqini əhatə edir. Riskləri qabaqlamaqla daxili audit potensial riskləri azaltmaq və təşkilatın fəaliyyətini yaxşılaşdırmaq üçün proaktiv tövsiyələr verə bilər.

Daxili auditin effektivliyini qiymətləndirmək üçün təşkilatlar müxtəlif üsullardan, o cümlədən daxili auditin keyfiyyətinin qiymətləndirilməsi, kənar qiymətləndirmələr və sənaye standartları ilə müqayisə oluna bilər. Daxili auditin keyfiyyətinin qiymətləndirilməsi özünüqiymətləndirməni, kənar qiymətləndirmələr isə daxili audit funksiyasının müstəqil üçüncü tərəfin nəzərdən keçirməsini nəzərdə tutur. Sənaye standartları ilə müqayisə, təşkilatın daxili audit funksiyasını eyni sənayedəki digər təşkilatlarla müqayisə etməyi, ən yaxşı təcrübələrə diqqəti cəmləməyi və təkmilləşdirmə sahələrini müəyyən etməyi nəzərdə tutur.

Daxili auditin effektivliyinin qiymətləndirilməsində digər mühüm amil daxili auditin təşkilatın məqsəd və vəzifələri ilə uyğunlaşdırılması bacarığıdır. Daxili audit təşkilatın strateji məqsədlərə nail olunmasına təsir edə biləcək riskləri aydın şəkildə başa düşməlidir. Bu anlayış daxili auditə əlaqəli riskləri azaldaraq, təşkilatın strateji məqsədlərinə dəstək verən əlavə dəyər xidmətləri təqdim etməyə imkan verir. Bundan əlavə, daxili auditin effektivliyinin qiymətləndirilməsi daxili auditin müvafiq qaydalara və standartlara uyğunluğunu nəzərə almalıdır. Daxili audit müvafiq standart və qaydalara uyğun olmalıdır. Bu qaydalara əməl olunması daxili audit funksiyasının yüksək peşəkarlıq səviyyəsində fəaliyyət göstərməsini və qabaqcıl təcrübələrə riayət olunmasını təmin edir. Daxili auditin effektivliyinin qiymətləndirilməsi daxili auditin hesabat vermə prosesinin effektivliyini də nəzərə almalıdır. Daxili audit hesabatları vaxtında, dəqiq və təşkilatın rəhbərliyinə uyğun təqdim etməlidir. Hesabatlar aydın və qısa şəkildə çatdırılmalı, risklər və təkmilləşdirmə imkanları göstərilməlidir. Daxili auditin hesabat vermə prosesi rəhbərliyə verilən tövsiyələr əsasında əsaslandırılmış qərarlar qəbul etməyə imkan verməlidir. Daxili auditin effektivliyinin qiymətləndirilməsi daxili auditin təşkilatın mühitindəki dəyişikliklərə uyğunlaşma qabiliyyətini nəzərə almalıdır. Daxili audit çevik olmalı və təşkilatın strukturunda, proseslərində və texnologiyasında baş verən dəyişikliklərə uyğunlaşa bilməlidir. Bu çeviklik daxili auditin təşkilat rəhbərliyinə dəyərli fikirlərin təmin edilməsində aktual və effektiv qalmasına imkan verir.Yekun olaraq, daxili auditin effektivliyinin qiymətləndirilməsi müxtəlif amilləri, o cümlədən müstəqillik, bacarıq və təcrübə, ünsiyyət, yaranan risklərin müəyyənləşdirilməsi, təşkilatın məqsəd və vəzifələrinə uyğunluq, müvafiq qaydalara və standartlara uyğunluq, hesabat prosesinin effektivliyi və uyğunlaşma qabiliyyətini nəzərə alan kompleks yanaşma tələb edir. Təşkilatlar daxili auditin effektivliyini qiymətləndirmək üçün müxtəlif üsullardan, o cümlədən daxili auditin keyfiyyətinin qiymətləndirilməsi, kənar qiymətləndirmələr və sənaye standartları ilə müqayisəli üsullardan istifadə etməlidirlər. Daxili auditin effektivliyini davamlı olaraq qiymətləndirməklə, təşkilatlar daxili audit funksiyasının təşkilatın rəhbərliyinə dəyərli fikirlərin təmin edilməsində effektiv qalmasını təmin edə bilər.

MÜASİR DÖVRDƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİNİN ƏSAS ASPEKTLƏRİ

Xəlilov S.A.
Azərbaycan Memarlıq və İnşaat Universiteti
E-mail: Xelilovserxan8@gmail.com

Müasir dövrdə, ətraf mühitin mühafizəsi, insanların həyatının və dünya iqtisadiyyatının istiqamətləndirilməsi üçün mühüm bir prioritetdir. Ətraf mühitin mühafizəsinin əsas aspektləri, kimyəvi maddələrin təhlükəsiz idarə edilməsi, sürətli şəhər inkişafının ekoloji təsiri, enerji istehsalı və istifadəsi, bioloji müxtəlifliyin qorunması və iqlim dəyişikliyinə cavab vermək kimi məsələlərdən ibarətdir.

Kimyəvi maddələrin təhlükəsiz idarə edilməsi - Müasir dövrdə kimyəvi maddələrin təhlükəsiz idarə edilməsi, insan sağlamlığına və ətraf mühitə təsir edən risklərin azaldılması baxımından vacibdir. Bu məqsədlə,

qanunvericilər və nazirlər, xüsusilə təhlükəli maddələrin istehsalı, daşınması, saxlanması və zərərsizləşdirilməsi ilə bağlı qayda və standartları təsbit etməlidirlər. Həmçinin, şirkətlərə, tədqiqatçılara və fərdi istifadəçilərə təhlükəli maddələrin təhlükəsiz idarə edilməsi ilə bağlı təlimatlar vermək də vacibdir.

Sürətli şəhər inkişafının ekoloji təsiri - Müasir dünyada, sürətli şəhər inkişafı və əhalinin kənd təsərrüfatından şəhərlərə köçməsi, ətraf mühitin mühafizəsi üçün bir çox problemlər yaradır. Bu problemlərin həlli üçün şəhər inkişafının ekoloji təsiri nəzərə alınmalıdır. Bu, təbii resursların idarə olunması, atıqların zərərsizləşdirilməsi, enerji səmərəliliyinin artırılması və infrastrukturun ekoloji məqsədlərə uyğun olaraq inşa edilməsi ilə əlaqədar strategiyaların tətbiq edilməsini tələb edir. Həmçinin, yaşılan mühitdə ekoloji təhlükəsizliyin qorunması, səhiyyə və sosial problemlərin həllinə də kömək edir.

Enerji istehsalı və istifadəsi - Müasir dövrdə enerji istehsalı və istifadəsi, ətraf mühitin mühafizəsinin vacib bir aspektidir. Fossil enerji resurslarının istifadəsi, atmosferdə qlobal istilik effektinə səbəb olan istehlakçı qazların artmasına səbəb olur. Bu, iqlim dəyişikliyinin həlledilməsində önəmli bir rol oynayır. Alternativ enerji mənbələrinə keçid – külək, günəş, su və biomassa enerjisi kimi – ətraf mühitin mühafizəsinə kömək edir və qlobal istilik effektinin azalmasına töhfə verir.

Bioloji müxtəlifliyin qorunması - Bioloji müxtəlifliyin qorunması, müasir dövrdə ətraf mühitin mühafizəsinin başqa bir əsas aspektidir. Bioloji müxtəlifliyin mühafizəsi, təbii resursların dərəcəli istifadəsi, ekosistemlərin bərpası və qorunması, nəsli kəsilməkdə olan və nadir növlərin qorunması kimi məsələləri əhatə edir. Bu, təbii mühitin dərəcəli idarə olunması və tədqiqatlara, təcrübə və təşviqatlara əsaslanan strategiyaların tətbiq edilməsi ilə əlaqədar qanunvericilik çərçivəsində həyata keçirilməlidir.İqlim dəyişikliyinə cavab vermək - Müasir dövrdə, iqlim dəyişikliyinə cavab vermək, ətraf mühitin mühafizəsinin əsas aspektlərindən biridir. İqlim dəyişikliyinə cavab, qlobal istilik effektinin azaldılması, atmosferdə istehlakçı qazların kəsməsi və ekosistemlərin iqlim dəyişikliyinə uyğunlaşması ilə əlaqədar tədbirləri əhatə edir. Bu, enerji istehsalı və istifadəsinin optimallaşdırılması, atıqların zərərsizləşdirilməsi, təbii resursların idarə olunması və iqlim dəyişikliyinə uyğunlaşma strategiyalarının tətbiq edilməsi ilə əlaqədar qanunvericilik və siyasətlərin həyata keçirilməsini tələb edir. Həmçinin, beynəlxalq əməkdaşlıq və təcrübə mübadiləsi, iqlim dəyişikliyinə cavab verməkdə özünü göstərən effektiv yolların öyrənilməsi və tətbiq edilməsi üçün vacibdir.

Müasir dövrdə ətraf mühitin mühafizəsinin əsas aspektləri, kimyəvi maddələrin təhlükəsiz idarə edilməsi, sürətli şəhər inkişafının ekoloji təsiri, enerji istehsalı və istifadəsi, bioloji müxtəlifliyin qorunması və iqlim dəyişikliyinə cavab vermək kimi məsələlərdən ibarətdir. Bu məsələlərin həlli, qanunvericilik və siyasətlərin həyata keçirilməsi, tədqiqat və təcrübə mübadiləsi, beynəlxalq əməkdaşlıq və təşviqatlara əsaslanmalıdır.Ətraf mühitin mühafizəsinin əsas aspektləri, insan sağlamlığına və dünyanın ekoloji dengəsinə mühüm təsir edir. Bu məsələlərin idarə olunması və həll edilməsi üçün hər bir fərdin, qurumun və dövlətin məsuliyyətli və təşəbbüskar olması vacibdir. Yalnız bu şəkildə, ətraf mühitin mühafizəsi və dünyanın ekoloji dengəsinin qorunması mümkün olacaq.

KREDİT TƏŞKİLATLARININ MARKETİNQİ VƏ ONUN TƏRKİB HİSSƏLƏRİ

Zeynalova S.N.
OdlarYurdu Universiteti
E-mail: zeynalovasona27@gmail.com

Azərbaycan Respublikasının bank-kredit sistemi dedikdə isə, bank fəaliyyəti ilə məşğul olan, eləcə də kreditlərin verilməsini təmin edə bilən banklar və yaxud da bank olmayan kredit təşkilatları və maliyyə institutlarının məcmusu başa düşülür. Azərbaycan Respublikasının bank-kredit sisteminin əsas subyektləri aşağıdakılardır: Kommersiya bankları; Bank olmayan kredit təşkilatları;

Azərbaycan Respublikasının maliyyə sisteminin ayrı-ayrı həlqələri və bölmələri bir-birindən hər bir həlqənin fəaliyyət xüsusiyyətləri, maliyyə və saitlərinin bölüşdürülməsi mexanizmi və eləcə də maliyyə sistemindəki roluna müvafiq olaraq fərqləndirilir. Azərbaycan Respublikasının maliyyə sisteminin ayrı-ayrı həlqələrinin xarakteristikasına nəzər salsaq görərik ki, ən yüksək həlqə məhz Azərbaycan Respublikasının dövlət büdcəsidir. Azərbaycan Respublikasının dövlət büdcəsi dedikdə, dövlətin mərkəzləşdirilmiş qaydada maliyyə vəsaitlərinin yaradılması və eləcə də istifadəsini nəzərdə tutan əsas maliyyə planıdır. Dövlət büdcəsi eyni zamanda da dövlətin əsas xərclərinin müəyyənləşdirilərək maliyyələşdirilməsinin təmin edilməsi funksiyasını icra edir. Azərbaycan Respublikasının maliyyə sisteminin əsas həlqələrindən biri də büdcədənkənar dövlət fondlarıdır. Sözügedən bu fondlar Azərbaycan Respublikasına məxsus olsa da, büdcə

sisteminə daxil deyildir və müvafiq qanunvericilik aktlarına uyğun olaraq tənzimlənir. Azərbaycan Respublikasının maliyyə sistemində dövlət kreditləri xüsusi rola malikdirlər. Dövlət krediti dedikdə, dövlət tərəfindən əhaliyə, ayrı-ayrı təsərrüfat subyektlərinə öz xərclərinin ödənilməsini təmin etmək məqsədilə verilmiş kredit münasibətlərinin məcmusu başa düşülür. Burada ödənişlər, yəni tədiyyələr dövlət büdcəsinə ödənməklə həyata keçirilir. Azərbaycan Respublikasının maliyyə sisteminin əsas həlqələrindən biri də sığorta fondlarıdır. Sığorta fondlarının yaradılmasında əsas məqsəd bədbəxt hadisələrin və təbii fəlakətlərin baş verməsi səbəbindən yaranmış maliyyə itkilərinin təmin olunmasıdır. Məlumdur ki, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra inzibatiamirlik sistemindən bazar iqtisadi sisteminə keçid dövrünü yaşadı. beynəlxalq kreditin mahiyyətinə, onun yerinə yetirmiş olduğu funksiyalara tələbat da kəskin şəkildə artmışdır. Müasir iqtisadi şəraitdə beynəlxalq kreditin həyata keçirilməsi yalnız beynəlxalq kredit şirkətləri tərəfindən aparılmır, eyni zamanda da dünya ölkələri bir-birinə kredit verir, müəyyən güzəştli şərtlər daxilində maliyyə ehtiyatlarının axınını təşkil edirlər. Bir çox hallarda isə beynəlxalq kreditin həyata keçirilməsi beynəlxalq banklar və bank olmayan digər kredit təşkilatları, beynəlxalq maliyyə institutları tərəfindən həyata keçirilir.

Beynəlxalq kredit dedikdə, kreditin öz funksiyalarını bir qədər də genişləndirərək, ölkə hüdudlarını keçməsi, beynəlxalq müstəvidə öz fəaliyyətini davam etdirməsi prosesi başa düşülür. Başqa sözlə desək, beynəlxalq kredit ölkədaxili kredit deyildir. Beynəlxalq kredit ölkələrarası və yaxud da təşkilatlar arası kreditdir. Beynəlxalq kreditin həyata keçirilməsində əsas məqsəd ölkələrin pul ehtiyatlarına, maliyyə resurslarına qarşı yüksək tələbatının olması ilə əlaqədardır. Beynəlxalq kredit maliyyə ehtiyatlarının zəngin olduğu ölkələrdən pul ehtiyatlarının nisbətən bu ehtiyatların az olduğu ölkələrə hərəkəti prosesidir. Başqa sözlə desək, beynəlxalq kredit maliyyə resurslarının elə hərəkətidir ki, bu zaman maliyyə ehtiyatlarının daha çox olduğu ölkələr öz ehtiyatlarının bir hissəsini maliyyə qıtlığı çəkən ölkələrə axınını təmin edirlər. Digər bir nüans isə onunla ölçülür ki, beynəlxalq kreditin həyata keçirilməsi zamanı maliyyə ehtiyatlarının zəngin olduqları ölkələr öz ehtiyatlarını bir qədər də artırmış olurlar. Çünki beynəlxalq kredit də kreditin bir növüdür və faiz müqabilində verilir. Əlavə faizlərin gəlməsi isə beynəlxalq kreditin maliyyə resurslarının artmasının əsas səbəblərindən biridir. Beynəlxalq kreditin həyata keçirilməsi zamanı bir neçə iqtisadi nəticə əldə olunur.

Belə ki, beynəlxalq kreditlərin əldə olunması nəticəsində maliyyə resurslarına tələbatın olduğu regionlarda həmin tələbatın təmin olunması prosesi həyata keçmiş olur, eyni zamanda da beynəlxalq kredit maliyyə axınlarının beynəlxalq səviyyədə hərəkətinə səbəb olur. Beynəlxalq kreditin dünya ölkələri tərəfindən əldə olunması nəticəsində iqtisadiyyatın ayrı-ayrı sahələrinə investisiya siyasəti həyata keçirilə bilir ki, bu da iqtisadi artımın təmin olunmasına, yeni iş yerlərinin açılmasına, son nəticədə isə əhalinin maddi rifah halının yüksəlməsinə şərait yaratmış olur. Beynəlxalq kredit beynəlxalq kredit bazarı vasitəsilə həyata keçirilir.

Dünya kredit bazarı- dünya borc kapitalı bazarının ayrıca bir ünsürüdür. O bazarda vaxt, geri qaytarma ilə faizlərin ödənməyi şərtilə dövlətlər arasında kapitalın hərəkəti Maliyyə ehtiyatlarının beynəlxalq hərəkəti baş verir. Maliyyə resurslarına tələbatın olduğu ölkələrdə mövcud tələbat bu və ya digər səviyyədə təmin olunur; Əldə olunmuş beynəlxalq kreditin ölkə iqtisadiyyatının müxtəlif sahələrinə investisiya edilməsi iqtisadi inkişafa öz töhvəsini verir gerçəkləşdirilir. Azərbaycan Respublikasında kredit bazarını qurulması əvvəlcə iqtisadi durğunluq, inflyasiya, resursların məhdudluğu və inhisarlaşmış qiymətlər mühitində son dərəcə çətin bir şəraitdə reallaşdırılırdı. Lakin düzgün iqtisadi idarə etmə siyasəti nəticəsində qarşıya çıxan bütün problemləri asanlıqla aradan qaldırılmış, kredit bazarının inkisafı təmin olunmuş və artıq respublikada bu sahədə müəyən nəaliyətlər əldə edilmişdir. Ölkəmizin müasir kredit bazarının forması dörd amilin təsiriylə formalaşıbdır: Kredit idarələrinin funksyasının mövcudluğu əsas amildir.

Aydındır ki, bankların emissiya və kredit funsiyaları mövcuddur. Bankların ixtisaslaşmağı tarixən emissiya funksiyasının Mərkəzi Bankın, xalq təsərrüfatının, həmçinin də əhalinin kreditləşməyi isə işgüzar kommersiya banklarının əlində toplanmasına gətirib çıxarmışdır. Həmin bölgü bankların nəzəri cəhətdən ixtisaslaşmasında özünü doğrultmaqdadır.Kredit bazarında kreditin qiymətinin təyin olunması çox mühüm məsələlərdən biri sayılır. Banklar vəsaitləri minumum qiymətə alır və çox yüksək qiymətə sataraq mənfəət əldə edirlər. Kreditə qoyulmuş qiymət kredit fondunun faizi sayılır. Faizlər ayrı-ayrı amillərin təsiri ilə tələb ilə təklifin səviyyəsinə uyğun müəyyən edilir. Müstəqil iqtisadiyyatın gerçək amillərindən biri sayılan bank sisteminin, səlis idarə edilən bank sahəsinə ehtiyacı vardır. Dəqiq idarə edilə bilən bank sistemi eyni zamanda real iqtisadiyyatın barometri sayılır. Elə buna görə inzibati amirlik idarəetmə üsullarından, təsərrüfatçılığın yeni iqtisadi üsullarının keçildiyi bütün dövlətlərdə bank sisteminin idarə edilməsi mexanizminin təkmiləşdirilməyinə ayrıca yer verilməlidir. İstehsal əlaqələrinin dinamikasının yüksək səviyyəsi, əmtəə-pul-bazar əlaqələrinin formalaşdırılmağına xüsusi diqqət, çağdaş pul-kredit siyasətinin, bank işinin idarə edilməsi üzrə konkret və doğru taktika ilə strategiyanın hazırlanmağını vacib sayır.

XII BÖLMƏ

DİLÇİLİK

DİLÇİLİKDƏ KONSEPTUAL METAFOR NƏZƏRİYYƏSİ

Abbasova N.A.
Bakı Slavyan Universiteti
E-mail: abbasovanezaket521@gmail.com

Dil təkcə "işarələr imperiyası" deyil, həm də "metaforlar imperiyası"dır. Dilin dilinin metafor olduğunu "metafor" sözünün özünə baxaraq anlaya bilərik. "Metafor" sözü yunanca 'pherein-daşımaq sözündən düzələn meta və phora' birləşməsindən əmələ gəlmişdir və "bir yerdən başqa yerə aparmaq" mənasını verir. Metaforlar yaradıcıdır, çünki onlar zehnimizi mövcud və aşkar oxşarlıqlardan, münasibət və baxışlardan kənara çıxararaq özlərinin yaratdığı yeni oxşarlıqlara, münasibətlərə və baxışlara aparır.

Ənənəvi metafor təhlili, əsasən, bədii ədəbiyyatla məhdudlaşır və bir çox insan üçün metafor poetik vasitə və ritorik nümayişdir. Hətta tipik olaraq metafor sadəcə dilin bir xarakteristikası kimi, düşüncələrin və hərəkətlərin deyil, sözlərin bir xüsusiyyəti olaraq nəzərə alınır. Lakin XX yüzillikdəki metafor tədqiqləri və xüsusilə də, C.Lakoff və M.Consonun 1980-ci ildə nəşr olunan "Metaphors we live by" adlı əsərlə ortaya çıxardıqları və "müasir metafor nəzəriyyəsi" olaraq bilinən nəzəriyyə bu gün metafor anlayışını, fənlərarası təcrübələrlə idrak/ağıl(cognition) və ünsiyyət(communication) araşdırmalarının mərkəzinə yerləşdirir. Koqnitiv semantika(cognitive semantics) sahəsindəki müasir metafor nəzəriyyəsinə görə, metafor sadəcə dildə deyildir. Düşüncədə və hərəkətlərdə istifadə etdiyimiz konseptual sistemimizin təməlində metaforik bir mahiyyəti var. Başqa sözlə desək, müasir metafor tədqiqi metafora düşüncə materialı, insanın dərketmə forması kimi baxır və təkcə nitq deyil, həm də düşüncə şəklidir. Lakoff və Conson təbii dili başa düşmək üçün koqnitiv metaforların mərkəzi əhəmiyyətə malik olduğunu bildirmişlər. Bu gün müasir metafor nəzəriyyəsindən asılı olaraq aparılan təsnifata görə metaforların 3 növü vardır: 1) Struktur metaforlar; 2) Orientasion metaforlar; 3) Ontoloji metaforalar.

Struktur metaforlar. "Münaqişə savaşdır" metaforu bir anlayışın başqa bir anlayışa struktur qazandırması səbəbilə struktur metafor nümunəsidir. Əsas prinsip konseptual uyğunlaşmanın bir anlayışı daha yaxşı anlamağımız üçün şərti fikir verməsidir. Struktur metaforlar daxili sistematika ilə işləyir. Ancaq bu sistemlilik metaforun təbiətində olduğu kimi məhduddur. Qısaca, bütün konseptual metaforların bir-birlərinə sistemli bir şəkildə bağlandığı iddia edilmir. Bu sistemliliyə nümunə göstərməkçün müasir iqtisadi sistemin dilimizə və həyatımıza gətirdiyi "zaman puldur" metaforunu istifadə etmək uyğun olacaqdır.

Zaman puldur: Zamanımı hədər edirsən. Bu cihaz saatlarını qurtaracaq. Səninlə çənə yormağa vaxtım yoxdur. Zamanımı planlamağım lazımdır. Zamanını məhsuldar istifadə etmirsən. və s.

"Zaman puldur" metaforu öz içində bu konseptual metaforları da etiva edir: *zaman məhdud bir resursdur* və *zaman dəyərli bir metadır*. Bu konseptual metaforlar modern iqtisadi sistemin yaratdığı mədəniyyətdə pul məhdud və dəyərli bir şey olaraq görüldüyünə görə alt kateqoriyaya tabe olacaq şəkildə bir-birlərinə bağlanırlar. Ancaq hər biri bir konseptual metafor olaraq nəzərə alınır. Bunun səbəbi isə hər birinin tək-tək üst kateqoriya qabiliyyətinə malik olmasıdır. Yəni zaman ilə pul arasında konseptual metafor uyğunluğunun olmadığı, ancaq *zaman məhdud bir resursdur* konseptual metaforunun mövcud olduğu bir mədəniyyət təxəyyül edilə bilər.

Orientasion metaforlar bədən təcrübəsinə əsaslanır. Bu metaforların ən çox istifadə edilən nümunəsi *çox olan yuxarıdadır* nümunəsidir. Orientasiya metaforları bütöv bir konseptual sistemi başqa bir konsept sisteminə uyğun təşkil edən metaforlardır. Beləliklə, təcrübələrimizi ifadə edərkən və onlar haqqında düşünərkən istifadə etdiyimiz metaforlar geniş ölçüdə sistemləşdirilir.

Orientasiya metaforlarının mənbə sahəsi, adətən, məkan ifadə edən anlayışlardan ibarət olduğu üçün bu adı almışdır: yuxarı-aşağı, içəri-bayır, ön-arxa, dərin-dayaz, mərkəz-periferiya kimi. Bu cür metaforların bədən təcrübəsinə əsaslandığını qeyd etmişik. Bu o deməkdir ki, sahib olduğumuz bədən quruluşuna görə orientasiya anlayışlarımız var. Çünki bədənimiz bir istinad nöqtəsi vəzifəsini görür ya da hərəkət edərkən yaşadığı təcrübələrə görə içindəki məkanı bu anlayışlar çərçivəsində təcrübə edir.

Konseptual sistemlər arasındakı uyğunluq bundan ibarətdir. Yuxarı mənbə sahəsi yaxşı və fəzilətli hədəf sahələrini bir-birlərinə birləşdirir və iki sahə arasında sistematik əlaqə yaradır. Hətta yuxarı anlayışının hədəf sahə kimi istifadə olunduğu bütün konseptual metaforları birləşdirir. Ontoloji metaforlar çox zaman metafor olduqlarının fərqində olmadığımız metaforlardır. Amma bu metaforlar mülahizələrimizin əsasını təşkil edir. Ontoloji metaforlar mücərrəd obyektləri varlıqlara və substansiyalara çevirir ki, biz onlar üzərindən düşünə bilək. Qısacası, mədəni və həyatımızdan ayrılmaz olan mücərrəd anlayışlara, ilk növbədə haqqında fikir yürüdə biləcəyimiz obyektlər kimi yanaşmaq lazımdır. Ontoloji metaforlar Conson və Lakoff tərəfindən 3 əsas növdə qruplaşdırılır: varlıq, substansiya və daşıyıcı metaforlar. İnflyasiya haqqında düşünmək və danışmaq üçün əvvəlcə onu bir mövzu kimi tanımaq lazımdır. Dilimizin və dolayısı ilə düşüncəmizin qrammatik quruluşu bunu tələb edir. Yəni, "İnflyasiya bir canavardır" konseptual metaforuna düşüncəmizdə sahib ola bilmək və ya "inflyasiya sürətlə yüksəlir" ifadəsini təsbit etmək üçün ilk növbədə "inflyasiya bir varlıqdır" konseptual metaforuna sahib olmalıyıq.

Bir mədəniyyətdəki ən fundamental dəyərlər həmin mədəniyyətdəki ən fundamental konseptlərin metaforik quruluşu ilə uyğunlaşır. Nümunə olaraq, cəmiyyətimizdə *yuxarı-aşağı* məkanlaşdırma metaforlarımızla uzlaşan və əksi ola bilməyən bəzi mədəni dəyərləri nəzərdən keçirək.

"More is better"(çox olan daha yaxşıdır) *more is up*(çox olan yuxarıdadır) və *good is up*(yaxşı olan yuxarıdadır) ilə uyğundur. Lakin "less is better"(az daha yaxşıdır) onlarla uzlaşmır.

"The future will be better"(gələcək daha yaxşı olacaq) *the future is up*(gələcək yuxarıdadır) və *good is up*(yaxşı olan yuxarıdadır) ilə uyğundur. Lakin "the future will be worse"(gələcək daha pis olacaq) onlarla uzlaşmır.

LES EMPRUNTS LINGUISTIQUES

Alakbarova A.K.
Université d'État de Nakhitchevan
E-mail : aytacalekberova04@gmail.com

Parlant de dette linguistique, un locuteur et ou un mot tiré par une communauté de la langue d'une autre communauté linguistique sans traduction et soit on parle d'une expression, en l'adaptant aux règles phonétiques, morphologiques et syntaxiques de la langue cible. Ci-dessous la définition de 2010 du dictionnaire Le Robert : Une loi qui permet à une langue d'adopter un élément d'une autre langue ; élément (mot, retour) est saisi tel quel. (1826) Certes, le terme "emprunter" peut sembler suspect peut parce que deux langues jamais entre les deux un contrat à temps cela ne se produit pas, surtout lorsque les mots ne doivent pas être rendus une fois qu'ils ont été empruntés d'une manière ou d'une autre.

Pour expliquer ce type d'emprunt, de détournement de fonds, de vol et de ou nous pouvons utiliser des termes comme Talan, mais cela n'a aucun effet sur la langue principale. Ceux qui parlent cette langue en sont fiers. Emprunter encore dans les interactions inter linguistiques est un grand phénomène sociolinguistique, les échanges linguistiques entre pays proches sont inévitables. Le prestige d'un peuple et de sa langue, ou inversement, le mépris avec lequel on considère l'un et l'autre, est associé à une dette linguistique.

Les nations dirigeantes dans leurs propres langues les mots du juge aux peuples qu'ils sont transmet ; de plus, il est possible qu'une langue conquérante laisse derrière elle un grand nombre de mots et disparaisse au profit de la langue conquise. En raison des relations économiques, politiques et culturelles entre les pays, certains éléments d'une langue s'infiltrent dans une autre. Emprunter, grec - Antiquité latine y compris les Sumériens et les Babyloniens. Il a commencé à emprunter des mots à l'Italie. Latin de diverses langues, en particulier Grec, mais aussi italien d'a été pris. Peuples conquis (Osque, Ombrie, Vulcain, Ligure,) Gallo-Romains et Gouverné par les Francs.Des colons dans un autre pays lointain pour s'emparer de leurs richesses lorsqu'ils ont été installés de force, la colonie a en quelque sorte perdu de vue les distances s'il ne peut pas, les pays voisins ont généralement des guerres et ou à cause des relations commerciales il est naturel d'échanger des mots.Dans la colonisation française de l'Afrique du Nord et ou super La Grande-Bretagne a colonisé le sud du même continent en faisant jouer un rôle pas de proximité géographique, mais l'inverse guerre mais c'était un rapport de force. De plus, la guerre ou des facteurs locaux utilisé un grand nombre de mots empruntés pour déterminer. C'est une langue d'emprunt plutôt qu'une langue possessive. Aujourd'hui le français est peu influencé par l'anglais dans son développement, mais en même temps.

Pour finir, je voudrais mentionner que chaque langue de la même manière que dans la langue française, des mots empruntés à d'autres langues sont activement utilisés et, à mon avis, cette langue n'est pas gâtée, mais plus belle et inévitable. Ainsi tant que l'humanité existera, toute langue subira des changements et s'enrichira.

Nous sommes la science des relations linguistiques du français moderne avec les autres langues tout en menant l'analyse, nous arrivons à la conclusion que ces relations ne sont pas seulement économiques, politiques, culturel etc.… relations de la France avec les autres nations et langues.C'est une conséquence, c'est aussi une conséquence de l'affinité ethnique des Français avec les langues voisines et apparentées, car le bilinguisme occupe une place particulière dans les relations linguistiques avec les langues génétiquement apparentées. Le vocabulaire de la langue française est assez fort la diversité du vocabulaire des emprunts peut s'expliquer par un certain nombre d'approches et de raisons. En particulier, les mots d'emprunt ont non seulement enrichi la langue française de ses propres mots, mais aussi, à travers eux, la langue française a emprunté des mots à de nombreuses langues. Mots pris dans ce processus

le rôle d'intermédiaire est indéniable.

Le français sur les changements lexico-sémantiques dans les emprunts

ce que le linguiste A. Doan a dit serait vrai. Pris à son avis un mot est considéré comme pleinement assimilé lorsqu'il acquiert la citoyenneté dans la langue du destinataire, et de nouveaux mots sont formés par lexicalisation ou changement de sens crée.Dans divers aspects (phonétiques, graphiques et morphologiques) de l'acquisition du lexique acquis, la préférence est donnée à son aspect sémantique. Dans tous l'étude des spécificités du système lexical d'une langue n'est pas seulement la structure du mot, il touche aussi à son caractère sémantique.La place particulière des mots et termes d'emprunt dans l'enrichissement du vocabulaire de la langue littéraire turque moderne déterminée sur la base des faits qu'elle détient. Ainsi, la plupart des mots utilisés dans la langue turque sont issus de la langue arabe viennent ensuite les mots de la langue française, soit 6467 de l'arabe, 5253 du français, 1359 du persan, 485 mots ont été tirés de l'anglais, 98 de l'allemand et 44 du russe. Cette liste est également tirée d'autres langues nous pouvons augmenter le nombre de mots en montrant. Autrement dit, pendant l'État ottoman des Turcs et plus tard avait des relations à la fois historiques et politico-économiques avec les pays, et au cours de ces relations de nouveaux mots en turc la transition vers le dictionnaire de langue est devenue une réalité.

Cependant, la langue turque était plus influencée par la langue française. Surtout, à partir de la première moitié du XVIe siècle, sous le règne du sultan Soliman le Magnifique. Les relations politiques, commerciales et scientifiques-littéraires des Turcs avec les Français se sont encore développées après des siècles et la conversion du français au turc, qui a été acceptée comme la langue de l'art, de la littérature et de la science qui a influencé l'Europe. Son influence s'est également reflétée dans le processus de mise à jour du vocabulaire de la langue.

Le processus d'acquisition est un phénomène linguistique complexe et les observations montrent que la langue turque et ses terminologies non seulement en raison de ses propres capacités, mais aussi à partir de la base lexicale terminologique d'autres langues Il s'est formé en se développant et en s'enrichissant sur la base d'une exploitation à grande échelle. Cette l'une des sources d'enrichissement est le mot qui vient de la langue française et sont des termes. Mots d'origine française, en général, comme dans d'autres langues, en langue turque aussi a laissé une certaine marque sur ses couches et lexico-sémantique dans presque tous les styles fonctionnels de la langue créé un gâchis.Bien qu'il y ait eu quelques succès dans l'étude de ce problème, il y en a quelques-uns non résolus des problèmes subsistent à ce jour. Parmi eux, "l'examen du mécanisme d'acquisition des mots", "caractéristiques du changement sémantique des mots empruntés dans une nouvelle langue", "le processus d'acquisition des mots dynamique", "niveaux de langue auxquels les langues convergent le plus intensément les unes avec les autres et cette convergence caractéristiques" et ainsi de suite. ces questions doivent être étudiées plus en profondeur. À cet égard l'intérêt pour l'étude des mots empruntés dans l'une ou l'autre langue augmente.

La grande majorité des chercheurs en viennent progressivement à la conclusion que vous parlez des mots empruntés aide à s'améliorer et à se développer.

Attention des chercheurs traitant des relations linguistiques au problème des emprunts entre langues apparentées est donnée. Les emprunts de mots et le problème de trouver leurs équivalents, appliqués par rapport à l'histoire de la société.

ABOUT THE DISCOURSE ANALYSIS AS A BRANCH OF MODERN LINGUISTICS

Aliyeva G.I.
Nakhchivan State University
E-mail: agoycek56@gmail.com

EKVİVALENTİ OLMAYAN SÖZLƏRİN YARATDIĞI ÇƏTİNLİKLƏR

Həsənli S.N.
Bakı Slavyan Universiteti
E-mail: semrahesen@gmail.com

Tərcüməni digər dillərarası vasitələrdən fərqləndirən özəlliyi orijinalın tam dəyişdirilməsindədir. Lakin, bir çox hallarda orijinalla tərcümə arasında tam eynilik olmaya bilər. Amma bu müxtəliflik dillərarası ünsiyyətə maneəçilik yaratmır. Orijinalın məzmunu ilə tərcümə arasında eynilik olmadığına görə məzmunun ümumiliyini, orijinalın və tərcümənin semantik yaxınlığını bildirən "ekvivalentlik" termini tətbiq edilmişdir. Bu anlayışları elmi istifadəyə E.M. Verşaqin və V.Q. Kostomarov kimi dilçilər gətirmiş və onu belə bir xüsusiyyətlə müəyyən etmişlər: "başqa mədəniyyətdə və ya başqa dildə olmayan anlayışları ifadə etməyə xidmət edən və özəl mədəniyyət elementlərinə aid olan sözlər".

Mədəniyyətlərarası müxtəlifliyə görə dillər arasındakı fərqlər ən çox lüğət və frazeologiyada nəzərə çarpır, çünki dilin nominativ vasitələri ekstralinqvistik reallıqla birbaşa əlaqəlidir. İstənilən dildə elə söz yaxud ifadələr mövcuddur ki, başqa dillərdə tərcüməsi yoxdur. Sözlərin qeyri-ekvivalentliyi də məhz yerli mədəniyyətin spesifik xüsusiyyətini təyin edir.Tərcümə prosesi zamanı yaranan ən böyük çətinliklərdən biri başlıqların və adların transformasiyasıdır. Məsələn, İnqeborq Baxmanın "**Малина**" adlı əsərini necə tərcümə etmək olar ki, rus oxucusu onu "moruq" kimi başa düşməsin. "Малина" – çoxlu qadınlardan ibarət oğurluq məskənidir. *"Этот самый дом и есть знаменитый Малинник"* (Vsevolof Krestovskiy, "Петербургские трущобы") *"Вот малина! - начальник уехал, можно отдохнуть!"* Digər mənası isə hər şeyin gözəl olduğu məskəndir. *"Не жизнь, а малина!"*

Пошлость. V.Dalın lüğətində (1882, təkrar nəşr) bu söz vulqar kimi "*пошлина*" olaraq təqdim edilmişdir, qədim rus dilində isə *"старинный (köhnə, qədim), исконный (qədim), прежний (keçmiş), обычный (adi)"* mənasını verir. *"Пошлый: «давний, стародавний, что изстари ведется, старинный, древний ис(спо)койный". "А ездоки ездят не пошлою дорогою, не торною, а заезжают в поля".*

Sonralar bu söz tamam başqa mənada işlənməyə başlayır və onun transformasiyası Fasmerin etimoloji lüğətində də qeyd olunan almanca "gemein" ilə müqayisə etmək yerinə düşərdi. Dalın lüğətində "indiki mənası ilə" ilə qeyd olunmuş: "избитый, общеизвестный и надокучивший, вышедший из обычая, неприличный, почитаемый грубым, простым, низким, подлым, площадным; вульгарный, тривиальный". Məsələn, *"пошлые романы, пошлые шутки, пошлые речи, пошлый человек, пошлая девка".*

Qədim rus dilində "пошьлыи" sözü "пойти" feili sifətindən yaranmışdır. (Bu feilin müasir feili sifəti

isə "пошедший" sözündən yaranıb.) Qədim mənalarından biri də *"то, что пошлó (идет) издавна"(çoxdan keçmiş, getmiş)* deməkdir.Müasir rus dilinin izahlı lüğətində (1984) isə iki mənada verilmişdir: Пошлость. 1. низкий, ничтожный вдуховном, нравственном отношении (alçaq, mənəvi, əxlaqi baxımdan əhəmiyyətsiz). 2. неоригинальный,надоевший избитый, банальный (orijinal olmayan, yorğun döyülmüş, bayağı).

Пошлость ilə bərabər ***"мещанство, обывательство"*** sözlərinə də nəzərdən keçirək. Digərdillərdə bu sözlərin ekvivalentini tapmaq olduqca çətindir.

Bir neçə nümunəyə baxaq:

"Все, начиная с того, что он (чиновник) ходил в доме или в халате или без халата, и кончая тем, что жена его без спроса боялась куда-нибудь идти ***мещанством****. Все пахло мещанством."* (Reşetnikovun "Свой хлеб" adlı əsərindən)

"Meşşan" Azərbaycan dilinin lüğətinə daxil edilmiş sözdür. Birinci mənada "1917-ci il inqilabından qabaqkı Rusiyada xırda şəhər alverçilərindən, sənətkarlarından, aşağı vəzifəli qulluqçulardan və sairə ibarət silk, təbəqə"; ikinci mənada isə "ictimai görüş dairəsi dar, xırda mülkiyyətçi əhvali-ruhiyyədə olan adam" olaraq verilmişdir.

İNGİLİS DİLİNDƏ FEİLİ BAĞLAMALARIN İFADƏ VASİTƏLƏRİ

Həsrətova N.E.
Bakı Slavyan Universiteti
E-mail: nikakerim.nk@gmail.com

Azərbaycan dilində əsas feili zaman, tərz, şərt və səbəbə əsasən tamamlayan feili bağlamaların yaranmasında morfoloji xüsusiyyətlərdən isifadə olunur. Müasir Azərbaycan dilində müşahidə olunan və dilin ayrı-ayrı üslublarında fəal şəkildə işlədilən feili bağlama şəkilçiləri və onların ifadə etdiyi mənaların İngilis dilinə tərcümə yollarını araşdırarkən bu feil formalarının, ingilis dilində bir-birindən fərqli formalarının olduğuna şahid oluruq. Bunun izahı üçün, iki əsas feili zamana,tərzə, şərtə, səbəbə görə izahedib tamamlayan feili bağlamaların ingilis dilindəki qarşılıqlarının ayrı-ayrı nəzərdən keçirib , aşkarlamaq daha düzgündür.

Zaman anlayışı bildirən feili bağlamaların əmələ gəlməsində ,-ıb, -araq, -ar-maz, -arkən, -dıqca morfoloji əlamətləri mühüm rol oynayır. Bu şəkilçilər əsas feildə ifadə olunan hərəkəti zamana görə izah etdiyi kimi, bəzən əsas feildəki hərəkətin tərzini, şərtini və s. Mənaları da bildirə bilir. Azərbaycan dilində zaman anlayışı bildirən feili bağlamaların ifadə etdiyi mənalar, ingilis dilində feili sifət ,feili sifətin məlum və məchul növdə olan tərz formaları, bağlayıcı+feili sifət, zərflik budaq cümləsi, sözönü+cerund və onun məchul-məlum növdə olan tərz formaları, həmcins xəbərli sadə cümlə şəklində və digər formalarda öz əksini tapa bilər.Deməli, ingilis dilində zaman zərfliyi funksiyasında işlənən indiki zaman mənalı feili sifətin tərkibi semantik cəhətdən zaman budaq cümləsinə uyğun gəlir. Azərbaycan dilində əsas feili zamana görə izah edən feili bağlama və feili bağlama tərkibi ifadə etdiyi məna baxımından, zaman budaq cümləsinə bənzəyir, onu izah edir. Zaman zərfliyi funksiyasında işlənən feili bağlamalar ingilis dilində keçmiş və indiki zaman feili sifətləri ilə ifadə edərkən, semantik mənanı aydınlaşdırmaq üçün feili sifətlər bəzi bağlayıcılarla (while-arkən, until-qədər, when-nə vaxt, once-nə zaman, whenever-nə zaman olur,olsun) işlədilir.Feilin məlum və məchul növündə işlədilən indiki zaman feili sifəti və onun tərz formaları əsas feillə ifadə olunmuş hərəkətin zamanını, işin əsas feildəki iş ilə eyni zamanda və ya ondan öncə icra olunduğunu bildirir. Cümlədəki zaman zərfliyi funksiyasında feili bağlamanın İngilis dilində ifadə vasitələrindən olan indiki zaman feili sifəti- bağlayıcılarla və bağlayıcısız zaman zərfliyi funksiyasında işləyə bilər. Azərbaycan dilində feili bağlama tərkibi ,İngilis dilində indiki zaman mənalı feili sifət birləşməsi və ya tərkibi cümlədə zaman zərfliyi funksiyasında işlənərkən,zaman budaq cümləsini əvəz edə bilir.Məsələn:

Yolu keçəndə ehtiyalı olun.(Elə ki yolu keçirsiz, o zaman ehtiyatlı olun.)

WHEN/WHILE/AS-bağlaycılarının işlənmə hallarına diqqət yetirmək lazımdır.Azərbaycan dilində feili bağlamaların ifadə etdiyi hərəkətin zamanı ilə , əsas feildəki iş eyni zamanda baş verə bilər..Məsələn: Nərdivanla aşağı düşəndə,az qaala yıxılmışdım.(Nərdivanla aşağı düşürdüm ki,az qala yıxılmışdım.)Bu cümlədə iki hərəkət eyni zamanda,eyni şəxs tərəfindən icra edilmişdir.Bu tip cümlələri ingilis dilinə tərcümə edərkənhər üç bağlayıcı WHEN/WHILE/AS- indiki zaman feili sifəti ilə işlənir.Məsələn: I almost fell while/as/when coming down the staiirs/(I almost fell as/when/while Iwas coming down the stairs.)

Feili bağlama ilə ifadə olunmuş birinci hərəkət qurtarmamış ikincisi baş verirsə, ingilis dilində isə zaman budaq cümləsi ilə as və ya while bağlayıcılarından biri işlənə bilir.Bu zaman when bağlayıcısını işlətmək

olmur. Məsələn: Evi hələ tərk etməmişdim ki, açar yadıma düşdü.- While I was leaving the house I remembered the key. Günəş qalxdıqca, duman çəkilirdi.- As the sun rose the fog dispersed. The model had to sit still while we drew her.- Biz manikeni çəkərkən, o , sakit oturmalı oldu. Beyin oksigendən məhrum olanda, ölür.- Once deprived of oxygen , the brain dies. Bir-birinin ardınca baş verən iki hərəkətin birincisi indiki zaman feili sifət ilə ifadə etmək olur.İki hərəkət birbirinin ardınca baş verərkən , indiki zaman feili sifət when bağlayıcısı ilə işlənə bilər. Məsələn: Taking a note from her purse , he slammed it down on the counter. Bu cümlədə feili bağlama tərkibini (pul kisəsindən qeyd götürüb) xəbəri sadə keçmiş zaman formasında olan zaman budaq cümləsi ilə tərcümə etmək olar.: when he took a note from her purse , he slammed it down on the counter. Digər nümunəyə baxsaq, Məsələn: O, yeməyini yeyib evdən çıxdı. Bu cümlədə iki hərəkət eyni subyekt tərəfindən bir-birinin ardnca icra edilmiş və birinci hərəkət feili bağlama ilə ifadə olunub. : Eating his dinner he rushed out of the house. Having eaten his dinner , he rushed out of the house..Bu iki cümlədən aydın olur ki, səhv salmamaq üçün belə cümlələrdə bitmiş indiki zaman feili sifəti işlətmək doğru olar.

Azərbaycan dilində feili balamanın ifadə etdiyi hərəkətin zamanı, əsas fieldəki işin zamanından öncə icra olunduqda, feili bağlama ifadə etdiyi məna ingilis dilində indiki zaman feili sifətinin bitmişforması ilə verilir.

AZƏRBAYCAN DİLİNDƏ FEİLİ BAĞLAMALARIN İŞLƏNMƏSİ

Həsrətova N.E.
Bakı Slavyan Universiteti
E-mail: nikakerim.nk@gmail.com

Türk dillərində feili bağlama forması ümumi və fərqli xüsusiyyətləri ilə xarakterizə olunur.Feili bağlama müqayisəli-tarixi aspektdə öyrənilir.Demək olar ki, feili bağlama fonetik, morfoloji, sintaktik əlamətlərinin tarixi inkişafı açılır və formalaşmasında bəzi məsələlər təhlil olunur. Şəxsə və kəmiyyətə görə dəyişməyən , feilin təsriflənməyən formalarından biri Feili bağlamadır. Feili bağlamalar tarixi və müqayisəli şəkildə araşdırılır.Feil bağlamalar diaxronik və sinxronik aspektdə öyrənilir, Feili bağlamalar feillər kimi dinamik olur. Feillərin inkişaf xüsusiyyətləri meydana çıxarılır. Feillə qrammatik cəhətdən sıx bağlı olan feili bağlama hərəkətin əsas lüğəvi mənasını özündə əks etdirir və müstəqil feildən asılı olur, köməkçi vəzifə daşıyır.Feili bağlama ilə ifadə olunmuş feil iş, hal və hərəkətin inkişafını, tərzini bildirir. Feili bağlama yazılı abidələrdə, müasir ədəbi dilimizdə işlənmə dairəsinin genişliyinə görə , məhsuldarlığı ilə diqqəti cəlb edir. Feili bağlama formaları feil və zərfin xüsusiyyətlərini özündə əks etdirir. Müqayisəli dilçilikdə aparılan araşdırmalarda xüsusi feil forması kimi təhlil olunduğunu və hərəkətin müəyyən əlamətlərini bildirməklə yanaşı, əsas nitq hissəsi olan zərf kimi cümlədə əsas hərəkətlə bağlı olur.Zərf və feili bağlamalar arasında funksional baxımdan da oxşarlıq nəzərdən keçirilir. Feili bağlamalar cümlə tərkibində bəzi ümumi cəhətlərinə görə zərflərlə müqayisə oluna bilər.Yəni, feili bağlamalar və zərflər cümlədə zərflik olur . Feillərlə sintaktik əlaqədə olur.Feili bağlamaların feillərlə bağlılığı geniş və əhatəlidir. Feili bağlama formasında aqlünasiya mərhələsinin qalığı kimi, vurğu məsələsinə toxunulur. Hər bir feili bağlama şəkilçilərinin mühüm xüsusiyyətləri struktur-semantik və sintaktik,morfoloji səviyyələrdə araşdırılır.

Feili bağlama tərkibləri zaman, səbəb və tərzi-hərəkət zərfliyi funksiyasında çıxış edir. Bu sahədə Mirzə Kazım bəyin, Y.Seyidovun ,V.Vəliyevin tədqiqatları maraqlıdır. V.Əliyev feili bağlamanın tədqiqini iki dövrə bölmüşdür.Birinci dövrə feili bağlamanın mahiyyəti, morfoloji xüsusiyyətləri , ifadə etdiyi qrammatik mənalar öz əksini tapır. Feili bağlamanın tədqiqi ilə bağlı ikinci dövrə feili bağlamanın tədqiqat obyekti araşdırılıb.

Bu sahədə bir çox elmi məqalələr işıqlandırılmışdır.Azərbaycan dilində feilin təsriflənməyən formalarının tədqiqinə dair V.Əliyevin "Azərbaycan dilində feili bağlama" adlı dərs vəsaitini xüsusi olaraq qeyd etmək olar.Bu mənbədə Azərbaycan dilində feili bağlama formalarının spesifik xüsusiyyətləri müəyyənləşdirilib. A. Məşədiyevanın məqaləsinə nəzər salsaq, görünür ki, türk dillərində feili bağlama müqayisəyə cəlb olunub. Buna görə də, insan düşüncəsini dərinləşdirib. İngilis və Azərbaycan dillərinin materialı əsasında feilin təsriflənməyən formalarını araşdırarkən, müəyyən məsələlər qarşıya çıxır. Bu məsələləri nəzərdən keçirmədən, mahiyyətini araşdırmaq, müəyyənləşdirmək və fərqləndirmək lazımdır. Dil sistemində feilin təsriflənməyən formalarını tam tədqiq etmək mümkün deyil. Feil əsas nitq hissəsi kimi dilin leksik sistemində, dil sistemində mühüm yer tutur. Praktik və nəzəri seminarlarda, tərcümə nəzəriyyəsində, müqayisəli tipologiya, nəzəri və təcrübi qrammatika fənlərində, ingilis dilinin tədrisində, müxtəlif dərs vəsaitlərinin tərtibində mühüm material kimi istifadə olunur.

Feili birləşmələrdən də bu bölmədə bəhs edilir. Feili birləşmələrdə iki tərəf- asılı tərəf və əsas tərəf olur. Asılı tərəf –tabe söz, əsas tərəf- tabe edici söz adlanır. Feili birləşmələrdə əsas tərəf, feilin təsriflənməyən formaları ilə ifadə edilir. Asılı tərəf hərəkəti müxtəlif cəhətdən izah edir. Məsələn: dərs yazmaq, ucadan danışarkən, evə gedəndə və s. Feili bağlamalar cümlədəki feilin əsas xüsusiyyətlərini izah edir. Feili müxtəlif cəhətdən aydınlaşdırır. Eyni zamanda, zərfliyin müxtəlif növləri vəzifəsində işlənir və tərkib yaradaraq, zərfliyin bəzi məna növlərinin ifadə vasitəsinə çevrilir, tabeli mürəkkəb cümlələrin –budaq cümlələrin sintaktik sinonimi olur. Hal-hazırda Azərbaycan dilində feili bağlamalar on dörd müxtəlif şəkilçi vasitəsilə izah olunur. Feilin imkanları genişdir. Məsələn: O mənə yaxınlaşaraq, söhbət etməyə başladı. Mən dərslərimi oxuyarkən, maneələr ilə qarşılaşdım. Gözəl kitabdakı mövzuları nəzərdən keçirib, mövzu ilə tanış oldu.

Zaman mənası bildirən feili bağlama və feili bağlama tərkibini ingilis dilində cerundla ifadə etdikdə, cerund mütləq sözönü (after-sonra, since-bəri, before-əvvəl və s.) ilə işlənməlidir. Cerund isim kimi cümlədə yalnız sözönü ilə birgə zərflik funksiyasında işlənə bilər. On sözönü cerundla birgə işləndiyi zaman, "nədənsə dərhal sonra" mənasını ifadə edir. Məsələn: On returning to his home, he found a note in his room- Evə çatan kimi, (çatarkən) o öz ötağında qeyd götürdü.

TƏHSİLLƏ BAĞLI REKLAMLARIN SƏCİYYƏSİ

Hüseynli Ə.V.
Sumqayıt Dövlət Universiteti

Müasir cəmiyyətdə informasiya texnologiyalarının geniş tətbiqi, əmək bazarında rəqabətin güclənməsi və universitet məzunlarına qoyulan yeni tələblərlə əlaqədar olaraq, təhsilin rolu, eyni zamanda, təhsil xidmətlərinin reklamı ən mühüm informasiya mənbəyi kimi təhsil müəssisəsinin imicini formalaşdırmaq vasitəsi, əhəmiyyətli dərəcədə artır. Reklam fəaliyyətinin bu növünün öyrənilməsinin aktuallığı onunla əlaqədardır ki, son vaxtlar təhsil xidmətləri bazarı intensiv inkişaf edir və ali təhsil sahəsində bazarlaşma prosesinin güclənməsi nəticəsində onun imkanlarından istifadə edilir. Müxtəlif növ reklam təsirləri xüsusi praqmatik əhəmiyyət kəsb edir. Bundan əlavə, "imperativ diskurs növlərindən birini təşkil edən" reklam mətnlərinə onsuz da ənənəvi linqvistik marağı nəzərə almaq lazımdır. Kütləvi kommunikasiya tədqiqatçısı K.M. Degen, "reklam, cəmiyyətdə dəyişikliklərə səbəb ola biləcək kütləvi alıcının şüuruna təsir alətlərindən biridir".Təhsil sahəsində reklam təkcə marketinq funksiyasını deyil, həm də sosial funksiyanı yerinə yetirir, bunun sayəsində təhsil müəssisəsinin təhsil məkanı genişlənir, onun tərəfdaşlarla əlaqələri möhkəmlənir, təhsil və elm sahəsində əməkdaşlıq inkişaf edir. Aydındır ki, bu gün reklam anlayışı həm maddi istehsal sferasında, həm də digər sahələrdə üstünlük təşkil edir, çünki "marketinq təfəkkürü cəmiyyətin və dövlətin fəaliyyətinin demək olar ki, bütün sahələrinə - siyasətdən (ilk növbədə seçkili) tutmuş kütləvi mədəniyyətə qədər geniş yayılmışdır. indi isə təhsilə və tibbə".

Reklamın təşviq etdiyi xidmətlər arasında müəyyən bir universitetə daxil olmaq təklifi xüsusi yer tutur: bu qeyri-maddi xidməti satın alan şəxs bununla da gələcəkdə öz maliyyə vəziyyətini təmin edir və təkcə qazanmaq deyil, həm də özünü təsdiq etmək imkanı əldə edir. Bundan əlavə, təhsilin səviyyəsi və keyfiyyəti insanın müəyyən sosial qrupa mənsubluğunu müəyyənləşdirir, sosial tanınma və hörməti, eləcə də özünə hörmətini müəyyənləşdirir. "Bu məqsədlərə çatmaq üçün vasitə insanın peşə, şəxsi və vətəndaşlıq qabiliyyət və keyfiyyətlərini, onun iqtisadi və sosial dəyərini yüksəltməkdən ibarətdir ki, bu da təhsilin mahiyyətini təşkil edir". Başqa sözlə, hazırda təhsil bir növ "sığorta siyasəti" kimi qiymətləndirilir ki, bu da təhlükəsizliyin təminatlarını, fərdin müxtəlif iqtisadi və sosial sarsıntılardan qorunmasını təmin edir. Təsadüfi deyil ki, "Ali təhsil sənin gələcəyindir" ifadəsi bu sahədə ən populyar şüara çevrilib.Qeyd etmək lazımdır ki, təhsil sahəsində reklam digər istehlakçı reklamlarından dəyər xüsusiyyətlərinə görə fərqlənir. "Maarifləndirici reklamlar açıq-aşkar ideoloji rejimə malikdir və qiymətləndirmə baxımından kommersiya və sənaye reklamlarından fərqlənir. Bu sferanın işarə fəzasının əsas dəyər koordinatları, onun aksioloji dominantları təhsil nitqinin əsas anlayışları ilə müəyyən edilir". Qeyd edək ki, maarifləndirici reklamın hədəf auditoriyası reklamçılardan ciddi diqqət tələb edən yaş, intellektual, sosial-mədəni və digər xüsusiyyətlərə malikdir. "Təhsil xidmətlərinin spesifikliyi xidmətlərin spesifikliyi kimi, qismən də elmi, intellektual xidmətlərin spesifikliyi kimi özünü göstərir. Amma burada təhsil xidmətlərinin mahiyyətindən və hər şeydən əvvəl təhsil sektorunun müstəsna "mənbə materialı"ndan – əslində həlledici rol oynayan tələbə şəxsiyyətindən irəli gələn xüsusiyyətlər də var ki, təhsil xidmətlərinin bazar seçimində mühüm rol oynayır".

İstehlakçı reklamının digər növləri kimi, təhsil xidmətlərinin reklamı da müxtəlif təsir üsul və vasitələrindən fəal şəkildə istifadə edir və burada praqmatikanın da əsas rol oynadığını nəzərə alaraq, biz bu qeyri-maddi xidmətin təbliğatını ictimai-siyasi vəziyyət baxımından öyrənməyi qarşımıza məqsəd qoymuşuq. təsirinin xüsusiyyətləri. Fikrimizcə, reklam təhsili konsepsiyasının praqmatik aspektində inandırıcı arqumentlər mühüm rol oynayır, çünki bu xidməti hədəf auditoriya bazarında uğurla tanıtmaq üçün ilk növbədə əsaslandırılmış reklam məlumatı lazımdır, nəinki mücərrəd reklam şəkilləri. Buna görə də, bu problemi həll etmək üçün ilk növbədə, reklam edilən xidmətin alınmasını stimullaşdıran əsas arqumentləri nəzərdən keçirmək lazımdır. Reklam mətnində arqumentasiyanın tədqiqi həm də alıcının şüuruna təsir göstərən linqvistik vasitələrə, xüsusən də reklam diskursunda praqmatik potensiala malik olan leksik vahidlərə müraciəti əhatə edir.Tədqiqatımızın materialı ali təhsil müəssisələrinin internetdə, xüsusən də respublika universitetlərinin saytlarında milli-mədəni xüsusiyyətləri nümayiş etdirən reklamları idi. Ali təhsil sahəsində reklam mətnlərinin populyarlığına universitetlərin hədəf auditoriyası ilə qarşılıqlı əlaqəsi üçün yeni vasitələrin intensiv axtarışı kömək edir. Yuxarıda qeyd olunan reklam vasitəsinin seçilməsi qlobal internetdə kommunikasiyanın rolunun artması ilə bağlıdır.Beləliklə, təhsil xidmətləri bazarında irəliləyiş digər xidmətlərin reklamı ilə ümumi xüsusiyyətlərə malikdir. Bununla belə, burada, digər reklam növləri ilə müqayisədə, alıcıya reklam təklifini yüksək qiymətləndirməyə və ona müsbət cavab verməyə imkan verən rasional arqumentlər sistemi tərəfindən yaradılan intellektual təsir nəzərəçarpacaq dərəcədə üstünlük təşkil edir.

BƏDİİ ÜSLUBUN XÜSUSİYYƏTLƏRİNƏ DAİR

Huseynli G.
Naxçıvan Dövlət Universiteti
E-mail: gunelhuseyn682@gmail.com

Bədii ədəbiyyat, digər sənət növləri kimi, elmi nitqdə gerçəkliyin mücərrəd, məntiqi-konseptual, obyektiv əks olunmasından fərqli olaraq həyatın konkret obrazlı təsvirinə xasdır. Bir sənət əsəri hisslər vasitəsilə qavrayış və gerçəkliyin yenidən qurulması ilə xarakterizə olunur, müəllif ilk növbədə şəxsi təcrübəsini, müəyyən bir hadisəni başa düşməsini və dərk etməsini çatdırmağa çalışır. Bədii üslub aşağıdakı funksiyalara malikdir: obrazlı-koqnitiv, yəni mətnin emosional komponenti vasitəsilə dünya və cəmiyyət haqqında məlumatların təqdimatı; ideoloji-estetik, yəni, onun köməyi ilə yazıçı əsərin ideyasını oxucuya çatdırır və süjet ideyasına cavab gözləyir; kommunikativ funksiya-duyğu, qavrayış yolu ilə obyekti görməyi nəzərdə tutur; Bədii üslub yazıçıların özünüifadə üsulu kimi ədəbiyyatın üç növündə - lirikada (şeir, qəsidə, təmsil, sonet, elegiya), dramaturgiyada (dram, komediya, faciə) və epik növdə (nağıl, hekayə, roman, esse, novella, felyeton) təzahür edir. Bədii üslub sənət əsərində şifahi obrazları - bədii mətnin əsas kateqoriyalarını vurğulamağa imkan verir. Bədii nitq tərzi müəllifə düşüncələrini, fikirlərini, süjetini, qəhrəmanın xarakterini daha dəqiq, etibarlı, obrazlı şəkildə çatdırmağa kömək edir, oxucunu əsərin müəllifinin yaratdığı dünyaya qərq etməyə kömək edir ki, bu da onun kommunikativ funksiyasıdır.

Bədii mətn mənsub olduğu idrak mədəniyyətini təqdim etmək üsuludur, dilin xüsusiyyətlərini əks etdirir, eyni zamanda ətraf aləm haqqında bilikləri nizamlayır. Müəllif yalnız kodlaşdırılmış ədəbi dilin lüğətindən deyil, həm də danışıq nitqindən və danışıq dilindən, müxtəlif vizual vasitələrdən istifadə edir. Obrazlılıq bədii üslubun ən mühüm xüsusiyyətidir. Bədii nitq üslubunda müxtəlif məna çalarlarına tez-tez rast gəlinir: kontekstual mənalar, sözlərin emosional mənaları və sairə. İfadələrin emosional çalarlığı bədii üslubun obrazlarla sıx əlaqəli və hətta bir-birindən asılı olan ən ümumi aparıcı xüsusiyyətidir. Oxucuya emosional təsir göstərmək məqsədi ilə sinonimlərin seçilməsi, bədii ifadə vasitələrinin rəngarəngliyi və bolluğu, sintaksisin müxtəlif formaları bu üslubun əsas cəhətlərindən biridir. Bu vasitələr ideya-bədii mənada özünün ən dolğun və əsaslı ifadəsini alır. Sözsüz ki, nitqin emosional çalarlığının dərəcəsi bir sıra səbəblərdən asılıdır: bədii əsərin təbiətindən və janrından, nitqin məzmunundan, müəllifin fərdi yaradıcılıq üslubundan, ifadənin məqsədindən. nitqdən və s. Funksional üslubların ən aparıcısı olan bu üslubda sözün nitq polisemiyasından çox geniş istifadə olunur ki, bu da onda əlavə mənalar və semantik çalarlar, eləcə də bütün dil səviyyələrində sinonimlik yaradır. Bu, mənaların ən incə çalarlarını vurğulamağa imkan verir. Bu onunla izah olunur ki, müəllif dilin bütün zənginliyindən istifadə etməyə, özünəməxsus dil və üslub yaratmağa, parlaq, ifadəli, obrazlı mətn yaratmağa çalışır. Müəllif təkcə kodlaşdırılmış ədəbi dilin lüğətindən deyil, həm də danışıq nitqindən və xalq dilindən, müxtəlif obrazlı vasitələrdən istifadə edir.

Reallığı obrazlı şəkildə ifadə etməsi bədii mətni hər hansı digər mətndən fərqlərindən əsas cəhətdir. O, dünyanın obrazlı əks olunmasına əsaslanır və həm müxtəlif tipli - intellektual, emosional, estetik məlumatların kompleks şəkildə ötürülməsi ilə səciyyələnir, həm də oxucuya emosional təsir funksiyasına malikdir. Bədii mətnlərin bu xassəsi onların yaranma məqsədindəki fərqlərdən danışmağa imkan verir. Onlar ötürdükləri məlumatların təbiəti ilə də seçilir. Bunun üçün xüsusi ötürmə üsulları tələb etməsi tamamilə təbiidir. Bütün məlumatlar oxucuya rasional, emosional və estetik təsir göstərir.

Müəllif bədii mətnlərdə müxtəlif dil fiqurlarına müraciət edir: metafora, metonimiya, hiperbola, litota, antiteza, perifraz və sairə. Hiperbola müasir bədii ədəbiyyatda müxtəlif məqsədlər üçün istifadə olunur: Məsələn, "He heard nothing." He was so remote than the stars". Bu nümunədə hiperbolanın istifadəsi mərhum dostundan bəhs edən bir dastançının emosional vəziyyətini ifadə etmək üçün vasitə kimi xidmət edir. Hiperbola yumoristik effekt yaratmaq üçün də istifadə edilə bilər: "Well, that boy used to get ill about twice a week, so that Sandford and Merton. If there was any known disease going within ten miles of him, he had it, and had it badly. He would take high-fever at Christmas. After six weeks' of drought, he would be stricken down with rheumatic fever; and he would go out in a November fog and come home with sunstroke» (J. Jerome). Tərcüməsi: - Yaxşı, əvvəllər bu oğlan həftədə iki dəfə xəstələnirdi - Sandford Merton. Ondan on mil uzagda da bir xəstəlik olsa, o bu xəstəliyi də tutardı. Milad bayramında saman qızdırmasını tutacaq. Altı həftəlik quraqlıqdan sonra revmatik qızdırma ona yoluxacaq; noyabr dumanında çölə çıxdı və günəş zərbəsi ilə evə qayıtdı" (J. Jerome).Bədii üsluba xas olan poeziya dili müəllifin şəxsi təcrübələrinin, hisslərinin, əhval-ruhiyyəsinin əsas rol oynadığı bir ədəbiyyat növüdür. Sözlərdə emosional təcrübə mərkəzi yer tutur, oxucu və ya dinləyici müəllifin hisslərinin mərkəzinə çevrilir. Əsərin mənası üçün vacib olan bəzi düşüncələrin, fikirlərin, xüsusiyyətlərin müəllif tərəfindən vurğulaması səbəbindən bədii mətndə struktur normalarının pozulması da mümkündür. Bunlar fonetik, leksik, morfoloji və digər normaların pozulması ilə ifadə edilə bilər. Dil vasitələrinin müxtəlifliyi, zənginliyi və ifadəli imkanları baxımından bədii üslub digər üslublardan üstündür, ədəbi dilin ən tam ifadəsidir. Bədii nitq qeyri-bədii nitqlə yanaşı nominativ-vizual funksiyanı da yerinə yetirir. Beləliklə, üslublar funksional olaraq bir-birini tamamlayır, yəni, bədii nitq tərzi çox vaxt ədəbi dilin müxtəlif üslublarının sintezi kimi qəbul edilir. Bədii nəsr dilində bəzi elementlərin digərlərindən üstün olması ədəbi əsərin janrından, əsərin məzmunundan, müəllifin fərdi hekayə tərzindən və bir sıra digər səbəblərdən asılıdır. Beləliklə, dil vasitələrinin müxtəlifliyi, zənginliyi və ifadəliliyi baxımından bədii üslub digər üslublardan əhəmiyyətli dərəcədə fərqlənir, ədəbi dilin ən tam ifadə formasıdır. Üstəlik, bədii nitqdə yalnız ciddi ədəbi deyil, həm də qeyri-ədəbi dil vasitələrindən – vulgarizmlərdən, varvarizmlərdən, dialekt sözlərdən, jarqonlardan istifadə edilə bilər ki, bu da ifadəliliyi və emosionallığı artırmağa xidmət edir.

Yuxarıda göstərilənlərin hamısını ümumiləşdirərək, bədii nitq tərzinin ilk növbədə görüntü ilə xarakterizə olunduğu qənaətinə gəlmək olar. Elementlərinin hər biri estetik baxımdan əhəmiyyətlidir: yalnız sözlər deyil, səslər, ritm, dil melodiyası da vacibdir. Beləliklə, bədii nitq tərzi çox vaxt ədəbi dilin müxtəlif üslublarının sintezi kimi qəbul edilir. Digər üslubların elementləri tez-tez bədii nitq vasitəsilə ilə oxucuya çatdırılır.

DİLDƏ ŞƏRT ŞƏKLİNİN FUNKSİONAL-SEMANTİK XÜSUSİYYƏTLƏRİNİN PRAQMATİK TƏHLİLİ

İsgəndərli A.S.
Bakı Slavyan Universiteti
E-mail: isgandarlia@bk.ru

Bütün dillərdə təqdim olunan şərt kateqoriyası təkcə dilçilik deyil, həm də insanın dil və nitq fəaliyyətini müxtəlif mövqelərdən və müxtəlif məqsədlərlə öyrənən elmlər – psixologiya, məntiq və fəlsəfə tərəfindən daim və fəal şəkildə öyrənilən dil kateqoriyaları sırasındadır. Şərt şəklinə belə davamlı maraq ən azı ağlabatan fərziyyə ilə müəyyən edilir – o insanın nitqinin və zehni fəaliyyətinin bəzi sirlərini açmağa imkan verən bir növ açarı təmsil edir.Şərtin spesifikliyi ondan ibarətdir ki, o bilavasitə insanın adətən alternativ mühakimələr haqqında düşünmək, natamam məlumat əsasında nəticə çıxarmaq, situasiyalar arasında mümkün korrelyasiyaları təklif etmək və müəyyən korrelyasiyalar fərqli olsaydı, dünyanın dil mənzərəsinin necə dəyişəcəyini anlamaq xüsusiyyətini əks etdirir.Bir feilin şərti (subyektiv) xüsusiyyəti bir çox dillərə xas olan bir hadisədir və elmi ədəbiyyatın sübut etdiyi kimi, belə bir kateqoriyaya sahib olub-olmamasından asılı olaraq

dünya dillərinin tipologiyasını qurmaq mümkündür. Məsələn, Azərbaycan dilində, yuxarıda qeyd edildiyi kimi, müvəqqəti planı olmayan subyektiv əhval-ruhiyyəni ifadə etməyin yeganə yolu var, bu da şərt şəklidir.

Şərt şəkli daşıdığı semantik məna baxımından həmişə dilçilərin diqqət obyektində olmuşdur. Müasir dilçilik şərt kateqoriyasının təhlilində müəyyən təcrübə toplamışdır: həm ayrı-ayrı mürəkkəb cümlə növləri, həm də onların funksional-sintaktik sinonimik sıraları, şərti-ardıcıl semantikanın sadə və mürəkkəb cümlələr səviyyəsində ifadəsi, şərti strukturların müqayisəli təhlili məsələləri, şərt kateqoriyasının bəzi mühüm cəhətləri, o cümlədən bu kateqoriyanın semantik potensialının, onun dil vahidlərinin sistemli öyrənilməsi ilə bağlı problemləri tədqiqat obyekti olmuş, dilçilik baxımından təhlil olunmuşdur. Son on ildə aparılan tədqiqatlar arasında B.C.Xrakovskinin araşdırmaları dilçilərin diqqət mərkəzindədir. Belə ki, o həm rus dili əsasında, həm də digər dillərin, o cümlədən ekzotik dillərin fonunda şərti konstruksiyaların təhlilinə xüsusi diqqət yetirmişdir. Alim şərt cümlələrində şərti və müvəqqəti mənaların korrelyasiyasını araşdırmış, qırxdan çox model növünü müəyyən etmişdir ki, bu da müəllifə dünyanın müxtəlif dillərində bu cür konstruksiyaları təsvir etmək üçün bir növ anket hazırlamağa, əsas və periferik mənaları müəyyən etməyə imkan verir.

Şərt şəklinin semantik, xüsusilə də praqmatik və kommunikativ xüsusiyyətlərinə gəldikdə, onların dərin təhlilinə son onilliklərdə başlanılıb. Şərtin funksional-semantik kateqoriyası ilk növbədə praqmatik baxımdan mühümdür. Tələbələr nitq-təfəkkür fəaliyyətində və nitq ünsiyyəti praktikasında, o cümlədən qeyri-ana dildə çox vaxt müəyyən hadisələrə və reallıq faktlarına öz baxışlarını təhlil etmək və ya əsaslandırmaq üçün bu kateqoriya ilə işləməli olurlar. Bildiyiniz kimi, nəzərdən keçirilən kateqoriya ən mürəkkəb və şaxələnmiş kateqoriyalardan biridir. Linqvistik modallıq türkologiyada uzunmüddətli tədqiqat obyektidir (G.İ. Ramstedt, V. Kotvich, N.K. Dmitriev, N.A. Baskakov, A.N. Kononov, E.R.Tenishev, M.V.Zainullin və başqaları), buna baxmayaraq şərt şəklinin konkret türk dillərinin materialları üzərindəki təmsil formalarının semantikası daha da inkişaf etdirilməlidir. Çünki bu kateqoriya o qədər geniş mənaları əhatə edir ki, onun tipologiyasını daha ətraflı öyrənmək zərurəti yaranır. Belə hesab edilir ki, modallıq predikativliyin parametrlərindən biridir və zaman kateqoriyası ilə yanaşı cümlənin qrammatik mənasını da müəyyən edir. Bu yanaşma çərçivəsində bir çox nəzəriyyələr işlənib hazırlanmışdır, lakin bu günə qədər linqvistik modallıq kateqoriyasının statusu və sərhədləri məsələsi birmənalı həllini tapmamışdır. Xüsusilə, türk dillərində qeyri-real modallığın müxtəlif təzahürlərini xarakterizə etmək cəhdlərində çoxlu mübahisəli məsələlər müşahidə olunur. Hətta müasir elm baxımından Azərbaycan dilində qeyri-real modallığın sərhədləri kifayət qədər qeyri-müəyyən görünür. İndiyədək qeyri-real modal linqvistik mənaların formalaşmasında müəyyən linqvistik vasitələrin iştirakını tənzimləyən aydın meyarlar sistemi hazırlanmamışdır. Azərbaycan dilində şərt şəklinin ifadəsi ilə bağlı bir sıra linqvistik tədqiqatların olmasına baxmayaraq, onun ifadə və fəaliyyət formalarının sistemli təsviri hələ də yoxdur. Azərbaycan dili digər türk dilləri kimi şərti modallığın müxtəlif analitik formalarına malikdir. Şərti əhval-ruhiyyənin analitik konstruksiyalarına şifahi və nominal komponentli mürəkkəb tərkibdə də mövcud ola bilər. Bəzi türk dillərində şərt modallığının elə analitik ifadə formaları mövcuddur ki, bunlara Azərbaycan dilində rast gəlinmir. Bu səbəbdən də şərt kateqoriyasının funksional-semantik xüsusiyyətinin ilk növbədə praqmatik baxımdan təhlili əhəmiyyətlidir.

FERDİNAND DE SÖSSÜRÜN DİXOTOMİYASINDA DAXİLİ VƏ XARİCİ LİNQVİSTİKA

İslamlı A.Y.
Bakı Slavyan Universiteti
E-mail: aytac.islam08@gmail.com

Ferdinand de Sössürün dilçilik konsepsiyasını daha yaxşı başa düşmək üçün onun dixotomiyalarına nəzər salmaq mütləqdir. Onun dilçilik görüşlərində xarici linqvistika və daxili linqvistika mühüm yerlərdən birini tutur. Bilirik ki, müəllif dili işarələr sistemi olaraq müəyyənləşdirib. Buna görə də dilə yad olan nə varsa, hamısını "xarici linqvistika"ya daxil edir. Dil məlumdur ki, cəmiyyətə xidmət edir və cəmiyyətə xidmət edən dil digər ictimai hadisələrlə yaxın əlaqədə olur. Düzdür, bu hadisələr dildən xaricdə olur, lakin yenə də dilin inkişafına müəyyən dərəcədə təsir göstərə bilir. F. de Sössür məhz bu münasibətin xarici dilçilikdə öyrənilməsi fikrini irəli sürür. Xarici dilçilik bir çox dil məsələlərinin həllində başlıca rol oynayır. Bu baxımdan da onun xüsusi əhəmiyyəti vardır. Ancaq xarici linqvistikanın daxili dilçiliklə heç bir uyğunluğu yoxdur, çünki xarici dilçliyin öyrəndiyi faktlar, hadisələr dilin daxili özülünə toxunmur. Ümumiyyətlə, biz xarici linqvistikanın tədqiqat obyektini belə qruplaşdıra bilərik: dil və cəmiyyət, dil və mədəniyyət, dil və tarix, dilin dialektlərə parçalanması, dil və etnoqrafiya, dil və təfəkkür, dil və irq və s. Qeyd etmək lazımdır ki, dilin daxili inkişaf

qanunları ilə, dilin sistemi ilə məhz daxili dilçilik məşğul olur. Bu da xarici linqvistika ilə daxili linqvistikanın başlıca fərqidir.Görkəmli dilçi dilin tarixi ilə xalqın tarixinin qarşılıqlı əlaqəsini nəzərə alaraq göstərmişdir ki, bunlar dilə əhəmiyyətli təsir edən amillərdəndir. Müəllif qeyd edirdi ki, dilin tarixi ilə xalqın tarixi bir – biri ilə sıx əlaqədədir və biri digərinə təsir göstərir. Sössürün fikrincə, xalqın adət – ənənəsi, mədəniyyəti dildə öz əksini tapır. Dil isə millətin təşəkkülündə, formalaşmasında mühüm rol oynayır.

Tarix boyu çoxillik müharibələr, işğallar, müstəmləkələşdirmə siyasəti bir dilin başqa dildən söz almasına, eyni zamanda dillərin qarışmasına, dil çarpazlaşmalarına gətirib çıxarmışdır. Bəzi dövlətlərdə bir neçə dilin yayılmasına imkan varsa, bəzilərində başqa millətlərin dillərinin işlənməsinə icazə yoxdur. Buna misal olaraq İran dövlətini göstərə bilərik. Orada vahid dövlət dili fars dilidir, qeyd edək ki, əhalinin demək olar ki, yarısı azərbaycanlı olmasına baxmayaraq, Azərbaycan dilində məktəb yoxdur.

Həmçinin qeyd etmək yerinə düşərdi ki, dillərin dialektlərə bölünməsi, coğrafi yayılması da elə xarici dilçiliyə daxildir. Bilirik ki, coğrafi amil dilin mövcudluğu ilə sıx şəkildə əlaqəlidir, ancaq buna baxmayaraq coğrafi amil dilin daxili orqanizminə toxunmur. Əslində Sössürə qədərki dilçilikdə hesab olunurdu ki, bu məsələlərin hər birini dilin öyrənilməsindən ayırmaq olmaz. Dilçi alim dildənkənar hadisələrin araşdırılmasının vacibliyini qəbul edirdi, amma bütün bu amillərdən yan keçərək dilin daxili orqanizmini qavramaq olmaz fikrinin əleyhinə idi. Məsələn, aydındır ki, alınma sözləri çox vaxt onların mənşəyi ilə əlaqədə öyrənirlər. Lakin hər birimizə məlumdur ki, sözalma dildə daimi hadisə deyil. Bir çox dillər vardır ki, başqa dildən bir termin belə almayıb, ancaq normal şəkildə inkişaf edir. Sössürə görə, hər hansı bir dilin hansı şəraitdə inkişaf etdiyini bilməyə heç bir ehtiyac yoxdur. Dilçiliyin daxili və xarici linqvistikaya ayrılması olduqca mütləqdir. Xarici linqvistikadan fərqli olaraq daxili linqvistikanın öz xüsusi qaydaları vardır və ona tabedir. Bunu müəllif şahmat oyununu misal çəkərək izah etmişdir. Sössür göstərirdi ki, şahmat oyununun İrandan Avropaya keçməsi xarici qaydadır. Amma oyunun sistemi, qaydaları daxilidir. Buradan da aydın olur ki, daxili dilçilik dilin daxili quruluşunu, sistem və strukturunu tədqiq edib öyrənir.Sössürdən əvvəl də bir çox dilçilər, məsələn, V. fon Humboldt, X.Qabelents, İ.A.Boduen de Kurtene daxili və xarici dilçilik haqqında bir sıra fikirlər irəli sürmüşlər. Məsələn, V. fon Humboldt göstərirdi ki, daxili dilçilik milli özünəməxsusluğu, milli dünyagörüşünün xüsusiyyətlərini özündə əks etdirir. Humboldta görə, daxili linqvistika xalqın dildə öz fikirlərini, düşüncələrini, hisslərini necə ifadə etməsi baxımından fərdi üsuldur. Xarici dilçilik dedikdə isə dildəki səs tərkibi, morfoloji quruluş başa düşülür.

Ferdinand de Sössürün dilçiliyə verdiyi ən böyük töhfələrdən biri də məhz xarici və daxili linqvistika haqqında daha qəti fikirlər söyləməsidir. Buna baxmayaraq qeyd etmək lazımdır ki, Sössürün xarici və daxili dilçiliyi kəskin şəkildə fərqləndirməsi, bir – birinə qarşı qoyması, onların arasındakı bütün əlaqələri inkar etməsi yanlış idi. Söyləmək yerinə düşər ki, artıq dilçiliyin iki hissəyə – xarici və daxili dilçiliyə ayrılması praktik olaraq dilçiliyə daxil olmuşdur. Eyni zamanda Ferdinand de Sössürün "Ümumi dilçilik kursu" əsərində daxili və xarici linqvistikadan geniş şəkildə bəhs olunmuşdur.

TÜRK VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ FEİLİN QAYIDIŞ NÖVÜ

İsmayılzadə A.N.
Bakı Slavyan Universitetinin
E-mail: ismayilzade_ayten@list.ru

İş və hərəkətin subyektin öz üzərində icra olunduğunu bildirən feillər qayıdış növ feillər adlanır. Feilin qayıdış növü işi görənlə üzərində iş icra olunan əşyanın arasındakı münasibəti ifadə edir; burada subyekt eyni zamanda obyekti də əvəz edir. Başqa sözlə ifadə etsək, subyekt həm də obyekt hesab olunur, işin icrası onun üzərinə düşür. Bu cür feillərin obyektini subyektin özündən kənarda axtarmaq düzgün deyildir.

Türk dillərində feilin qayıdış növündə hərəkəti icra edən subyekt öz üzərində həyata keçirir. Feilin qayıdış növü təsirli fellərə *-ıl, -il, -ul, -ül, -ın, -in, -un, ün, -n* şəkilçiləri artırılmaqla əmələ gəlir. Bu vaxt feillər təsirsiz fellərə çevrilir. Məsələn: *yumaq —yuyunmaq, bəzəmək – bəzənmək, demək - deyinmək, söyləmək – söylənmək, daramaq – daranmaq, görmək – görünmək və s.* Dilimizdə iki feil istisnalıq təşkil edir, bunlar *geyinmək və soyunmaq* feilləridir. Bu qayıdış növ fellər təsirli fellərdən düzəlir və təsirli olaraq qalır. Qəzənfər Kazımov qeyd edir ki, geyinmək sözündə -in şəkilçisi lüzumsuz işlənmişdir. Çünki geyinmək feili əslində geymək şəklində olmalıdır. Soyunmaq feili isə Azərbaycan dilində "soyunmaq" şəklində sabitləşmişdir. Dilimizdə həmin sözü hissələrinə yaxud kök və şəkilçiyə ayırmaq olmur. Daha doğrusu soymaq və soyunmaq sözləri tamamilə fərqli mənbaları ifadə edir. Azərbaycan dilindən fərqli olaraq türk dilində həmin sözün

soymak formasına rast gəlinir. Bu zaman o Azərbaycan dilindəki soyundurmaq feilinə uyğun gəlir. Məsələn, Ceren`in pis kanının kiyafetlere bulaşmamasına dikkat ederek *soydum*. Bundan başqa, soymak sözünün türk dilindəki digər mənası oğurlamaq, talan etməkdir. Ümumiyyətlə, türk dili lüğətlərində də soymaq feilinin 3 mənası verilir: *1). Bir şeydən qabıq, dəri, pərdə kimi şeyləri soyub çıxarmaq, 2) Birinin paltarını çıxarmaq. 3) Üzərində, yanında və ya bir yerdə olan bir şeyi oğurlayıb götürmək.* Göründüyü kimi, göstərilən mənalardan biri soyundurmaq mənasına uyğun gəlir.Müasir türk dilində geyinmək feili həm geymək, həm də geyinmək formasında müşahidə olunur. Geyinmək formasında aşağıdalı mənaları ifadə edir: öz üzərinə geyinmək. Müəyyən bir yerdən paltar almaq və ya onu müəyyən bir yerdə tikdirmək. Ağır bir sözə və ya davranışa səsini çıxarmadan küsmək. Azərbaycan dilindən fərqli olaraq türk dilində giymek feili müşahidə olunur. Giymek "geyinmək" feilinin də bir neçə mənası var: örtünüb qorunmaq üçün bədəninə - üzərinə bir şey keçirmək və ağır sözlərə və ya təhqirlərə, aşağılayıcı davranışlara səs çıxarmadan qulaq asmaq mənalarını bildirir.

Qrammatik formasına görə qayıdış növ feillər də məchul növ feillər kimi *-ıl*[4], *-ın*[4] şəkilçiləri ilə əmələ gəldiyi üçün ona bənzəyir. Onları fərqləndirmək üçün qrammatik mənalarına diqqət yetirmək lazımdır. Qayıdış növ feillərdə iş görən məlum olur, məchul növdə isə iş görən şəxs məlum olmur. Məsələn: Oğlan döyüldü *(qayıdış növ).* Qapı döyüldü *(məchul növ); Qız bəzəndi (qayıdış növ). Otaq bəzəndi (məchul növ) və s.*

Q.Kazımov qeyd edir ki, əgər məchul növ feillərdə subyekt qeyri-fəal olursa, obyekt bildirən söz fəallaşaraq subyekti də əvəz edirsə, məchul növün əksinə olaraq, qayıdış növ feillərin subyekti fəal olur və obyekti də əvəz edir. Ona görə də qayıdış növdə əlavə obyektə ehtiyac olmur və iş subyektin öz üzərində icra olunur. *Məsələn, Azərbaycan dilində:* Qız da *yuyundu, yaxandı*, saçlarını yığdı, təzədən atdı gərdəninə, istədi başmaqlarını *geyinsin*, başmaqları yoxdu (M.Süleymanlı); Qız başmağını alıb *geyindi*, dönüb bir də oğlana baxdı, gördü ürəyincədi, dedi (M.Süleymanlı); O, ağacların altındakı kölgəlikdə palaz salıb oturmaq, saxsı qabdan su töküb, doyunca içmək arzusu ilə ürəyim döyündü (Mir Cəlal); - Səttarzadə belə rəsmi bir yerdə qızından danışmağa məcbur olmasına *sıxıldı*, hirsindən susdu. Birdən tapança kimi *açıldı:* - Təəccüb eləyirəm!.. (Mir Cəlal) və s. Türk dilində: "Radyoyu aslında maçı dinlemek için değil, seni etkilemek için alırdım yanıma," dedi ağabeyim. "İstanbul'a ilk transistorlu portatif radyoyu getirmiş olmakla *övünürüm*." (O.Pamuk); Biraz kalbim *kırılmıştı*, ama rendeye kavuştuğum için mutluydum (O.Pamuk); Güven, iki kadeh içkiden sonra 'Ben hayatında hiç gemiye binmemiş en büyük armatörüm," diye kulüplerde *övünürdü* (O.Pamuk): Düşüncesizlikle söylemiştim bunu, ama Zaim *alındı* (O.Pamuk) və s. Bəzi tədqiqatçılar qayıdış növ feilləri digər dillərlə müqayisə edərək, fərqli səciyyələndirir, xüsusi qayıdışlıq, ümumi qayıdışlıq, orta qayıdışlıq deyə məna qruplarına ayırırlar.

ÇOX BAŞ CÜMLƏLİ MÜRƏKKƏB CÜMLƏLƏR

İsmayılzadə S.S.
Bakı Slavyan Universiteti
E-mail:ismayilzadeeli1999@gmail.com

Mürəkkəb cümlənin tərkib hissələri şərti olaraq "cümlə" adlandırılır.Həqiqətən də mürəkkəb cümlənin hər bir tərkib hissəsi öz xüsusiyyətlərinə görə sadə cümləyə bənzəyir: sadə cümlələrdə olduğu kimi, mürəkkəb cümlələrin də hər bir tərkib hissəsi baş və ikinci dərəcəli üzvlərdən ibarət olur; mürəkkəb cümlənin də hər tərkib hissəsi müxtəsər və ya geniş cümlə şəklində formalaşır; mürəkkəb cümlənin də hər bir tərkib hissəsi cüttərkibli və təktərkibli "cümlə" şəklində formalaşır.Yazılı ədəbi dilimizdə,xüsusən də bədii və elmi əsərlərin dilində elə cümlələr işlənib və işlənir ki, onların tərkib hissələrindən biri və ya hər ikisi quruluşuna görə mürəkkəb olur.Bunlardan sadalanma üsulu ilə qurulan bəzi tabesiz mürəkkəb cümlələr istisna olmaqla, ədəbi dilimizdə işlətdiyimiz bütün mürəkkəb cümlələr neçə komponentdən ibarət olmağına baxmayaraq, həmin komponentlər iki qütbə bölünür. Cümlələrin bu formada qütblənməsi nitq prossesində fikrin bu və digər hissəsinin aktuallaşdırılması və yaxud yeni informasiyanın necə verilməsi ilə bağlı olur. Belə cümlələr iki qütbə elə bölünür ki, tabesiz və ya tabeli mürəkkəb cümlə şəklində əlaqələnən bu qütblərdən biri "məlum olan"ı, digəri isə "yeni"ni aydınlaşıdırır, cümlə bütövlükdə ya tabesiz, yaxud da tabeli mürəkkəb cümlə şəklində qurulur.Bildiyimiz kimi tabeli mürəkkəb cümlənin tərkibində bir baş cümləyə bir neçə budaq cümlə bağlı olduğu kimi, bir budaq cümlənin də bir, iki və daha çox baş cümləsi ola bilər. Dilimizdə şərt,zaman,dərəcə budaq cümlələrinin baş cümlələrində söylədiyimiz bu xüsusiyyətlərə daha çox rast gəlirik.

Ələvsət Abdullayevin həmmüəllifi olduğu "Müasir Azərbaycan dili.IV hissə.Sintaksis" kitabında "çox baş cümləli mürəkkəb cümlələr"in dilimizdə ən çox işlənən üç növü qeyd edilimişdir:a)baş cümlə qütbündə

iki komponent, budaq cümlə qütbündə isə bir komponent işlənən mürəkkəb cümlələr; b)üç baş və bir budaq cümləsi olan mürəkkəb cümlələr; c) qabaqca budaq cümlə qütbü, sonra isə iki baş cümlədən ibarət olan mürəkkəb cümlələr.

Yuxarıda qeyd etdiyimiz növlərə uyğun misallara diqqət edək:

a) Baş cümlə qütbündə iki komponent, budaq cümlə qütbündə isə bir komponent işlənən mürəkkəb cümlələr: məs.:

Gülüş, sənin canın üçün, Moskva o qədər qəşəngdir, insanları o qədər mehribandır ki, adam ayrılmaq istəmir.(Ə.Vəliyev);

Bu növ cümlələrin sxemi bu formada olur:



b) Üç baş və bir budaq cümlədən ibarət olan mürəkkəb cümlələr:

Gör biz öz inqilabi sayıqlığımızı nə dərəcədə itirmişik ki, nə dərəcədə bizim beynimiz kütləşib, biz iki gözdən kor, iki qulaqdan nə qədər kar olmuşuq ki, qoyun dərisinə girən Ələpəş oğlu kimi bir qurd, bizim hökümətin bu boyda polad kassasına hücum çəkibdir.(S.Rəhimov)

Bu növ cümlələrin sxemi bu formada olur:



c) Əvvəl budaq cümlə qütbü, sonra isə iki baş cümlədən ibarət olan mürəkkəb cümlələr:

Gecənin qaranlığı olmazsa, kim gündüzün işığına tələsər, kim bu işığın qədrini bilər?(S.Rəhimov)

Bu növ cümlələrin də sxemi bu formada olur:



Araşdırılmalara əsasən onu qeyd edə bilərik ki, dilimizidə çoxkomponentli cümlələr içərisində "çox baş cümləli mürəkkəb cümlələr"ə az rast gəlinir. Qarışıq tipli mürəkkəb cümlələrin ən çox işlənən tipi olaraq " çoxbudaqlı mürəkkəb cümlələr"i qeyd edə bilərik.

ON THE GENERAL CHARACTERISTICS OF EUPHEMISMS IN ENGLISH

Javarova A.
Nakhchivan State University
E-mail:aysunjafarova2000@gmail.com

Euphemism is a linguistic phenomenon that is heterogeneous in its structure and very significant in the lexical system of the language. Euphemism is not only a trope consisting in the implicit expression of a negative assessment, but also an element of the structure of language that plays an important role in its historical development, since euphemization is a continuous process of replacing some names with others, based on a constant assessment and reassessment by a person of forms of expression, proceeding from the desire for successful communication. The dynamism and multidimensional nature of euphemisms are the reason for the wide variety of their lexical and grammatical forms, emotional neutrality or stylistic coloring, and the variability of their euphemistic potential. These properties of euphemisms lead to the fact that the problem of defining a euphemism presents a certain difficulty for researchers.

Euphemisms are words or expressions that are employed in place of synonymous words or expressions that the speaker finds offensive, impolite, or tactless. They also replace taboo names, archaic ones. Euphemisms are also understood as occasional individual-contextual substitutions of some words with others

in order to distort or mask the true essence of the designated.A word or phrase that is used to replace an offensive word or expression with one that is generally more acceptable is known as a euphemism. Euphemisms are indirect substitutes for the names of the terrible, shameful or odious that contribute to the mitigation effect, brought to life by moral or religious motives. In recent decades, the study of language from the point of view of its "internal structure" has given way to the study of "language in action", i.e. in speech, in speaking. The problems of its functioning in society, the problems of language as an instrument of human communication have come to the fore. As the main means of communication, language subtly reacts to all changes in the life of a human collective, and is also created and shaped by society.

Euphemisms have been researched in linguistics since the 19th century. At the end of the nineteenth century, the German scientist G. Paul presented them as a well-known scheme of semantic changes. The works of A. Meyer attracted the attention of scientists to this phenomenon in the first half of the 20th century, but only in recent decades they have become the object of close attention of scientists. The research of foreign scientists is aimed at fixing and systematizing existing euphemisms, creating dictionaries of euphemisms. Research conducted in our country is characterized by theoretical orientation. Scientists consider the categorical status and scope of euphemisms, differentiate euphemisms, and systematize the methods of their formation.

Euphemisms are always evolving, just like everything else in the language. Many works have been written about this phenomenon. Regardless of this, it is difficult to find a single concept of euphemism in the scientific literature Galperin I.R. defined euphemism as "words and phrases appearing in the language to denote concepts that already have names, but are considered unpleasant, rude, indecent or low for some reason. Euphemisms are substitute, permitted words that are used instead of forbidden (taboo). In the Explanatory Translation Dictionary, euphemism is defined as "a word or expression that, under certain conditions, serves to replace such designations.The Dictionary of Linguistic Terms gives the following definition of this concept: euphemism is a softening designation of an object or phenomenon, a milder expression instead of a rough one.

Notably, the word ‘euphemism’ derives from the Greek words "eu" for "well" and "hime" for "speaking," which makes it apparent that the device's goal is to help users talk clearly. A euphemism is a word or phrase that is used to refer to something humiliating or unpleasant, often to make it appear more acceptable than it actually is. It is used to avoid using words that readers or listeners may find offensive, indecent, or otherwise distressing. Euphemisms are not allowed words that can be considered obscene, aggressive, or disturbing readers or listeners; indirect words or phrases that people use to refer to unpleasant words sometimes make them seem more decent than they actually are.A detailed interpretation of the term euphemism is also found in modern dictionaries created in English-speaking countries. For example, in the Cambridge International Dictionary of English, the term "euphemism" is defined as follows: "a word or phrase used to avoid paying another word or phrase that is more forceful and honest but also more unpleasant or offensive, education, i.e. to speak well (from eu = good, -pheme = to speak). The term is defined as "nice term, substitution, moderate alternative, indirect term, understatement, underplaying, softening, politeness, genteelism, coy term" in the "New Oxford Thesaurus of English."

Another feature of the syntax was the relatively free word order, which was possible due to the widely developed system of inflections in all significant parts of speech. Old English also had a developed system of complex sentences of various types. The most ancient were compound sentences. Subordination was also widespread, which historically represented a later stage in the development of a complex sentence. Submission could be union less, with the help of conjunctions, relative pronouns and relative particles. From relative subordination, other types of subordination developed over time.The second aspect in considering syntax is that the word occurs in various forms. Example: "This text is written in ink." In this case, initially we have the words: "given", "text", "write", "ink". These words "write", "ink" are presented in the form of grammatical forms: "written", "ink". You should also take into account the fact that in English it is customary to call animals in the middle gender, for example: My pet is Maxi. It is grey. It is gray - the neuter gender is replaced when translated in the form of the pronoun "she". The sentence is one of the basic units of language and the basic unit of syntax. It is with the help of a sentence that we express our thoughts and feelings, turn to each other with questions, advice, requests or orders.

A sentence is a grammatically and intonationally formed integral unit of speech according to the laws of a given language, which is the main means of forming, expressing and communicating thoughts about some reality and the speaker's attitude to it. A sentence has the property of sound separability (based on internal phonetic organization), it expresses predication and consists of one or more words that are its limiting components.A phrase is any kind of grammatical combination of full-meaning words. A phrase is not just a part of a sentence and sentences are not made up of separate phrases, like a building made of bricks, it can be easily identified by tracing that the same sentence member can simultaneously be included in a number of combinations. Example: She stood for a minute with her beloved hand on the railing of a house. (Galsworthy). In this example, the word 'hand' belongs to the phrases her hand, gloved hand, hand on the railing, where it acts as the dominant word, being at the same time a dependent word with the phrases.

Analysis of the syntactic features of the English language made it possible to formulate the following features of syntax;

1) in the study of English syntax, the study of sentences and phrases stands out. Sentences are divided into simple and complex according to the number of grammatical bases. The most appropriate within the framework of this work is the study of both sentences and phrases;

2) phrases can be studied according to three parameters. The study of the semantic connection between words makes it possible to single out such connections as colligation and collocation, the study of syntactic connection - to highlight the coordinating and subordinating connection with the division of the latter into unequal and equal (predicative);

3) simple sentences have a low-variation structure, the inversion in them is regulated by the purpose of the statement, therefore the actual articulation of the sentence is expressed only lexically. Modal meanings are conveyed by modal verbs and insertive sentences and constructions.

We can conclude that the tasks of syntax, as a department of grammar, include a comprehensive examination of the methods of expressing syntactic relations, as well as the analysis of structural units representing syntactic quantities. When studying syntactic units, it is necessary to take into account the morphology of words functioning in the language, which, according to their specifics, are combined into a paradigmatic series.If we can say that morphology is a systematized inventory of words, then it is precisely due to the functioning of these forms in speech that those changes occur that further affect the restructuring of morphological series. On the other hand, syntax, as an independent department of grammar, has its own object of study. Such is a sentence, the structure of which necessarily depends on historical connections with groups of words – phrases. The relationship between sentences and phrases in their historical specificity is significant because if a phrase stands out against the background of a sentence, then, nevertheless, it is the minimal environment in which all changes occur, affecting the sentence itself in the future.

ON THE CONCEPT OF "CASE CATEGORY" OF NOUNS

Nabili A.
Nakhchivan State University
E-mail: ayselnebili96@gmail.com

The problem of case of nouns in modern English is in many respects controversial and obscure. This question is rightfully considered one of the most confusing in English grammar. Disagreements exist both regarding the number and nomenclature of case forms of a noun in English, and regarding the semantics of these forms; moreover, the very existence of the category of case of nouns in English is questioned.

Considering the grammatical categories of a noun, it is worth noting that in English there is definitely a category of number for this part of speech. The purpose of this article is to study the position of a noun in modern, including literary English and the category of noun case in modern English and highlight the difficulties associated with the definition and study of this phenomenon. Interest in the study of the lexical and grammatical categories of nouns, both in general and its individual categories, arose in ancient times. So, in the third century BC, the Stoics distinguished between proper and common nouns, further subdividing the latter into numerous groups. This traditional division of nouns into lexico-grammatical categories continues to be the main one for all language systems of the world.

In English the noun is characterized by the presence of two grammatical categories: 1) the category of number, consisting of two numbers - singular and plural; 2) the category of determinativity (certainty - uncertainty), expressed by articles in the preposition. The term 'case' comes from Greek and Latin. There exist direct cases like nominative and sometimes also accusative and indirect cases as the other cases. This terminology is associated with the ancient idea of "declination" (declinatio) as "deviations", "falling away" from the correct, "direct" form of the word.

The term case' have been studied by many researchers, in particular, V.F. Humboldt, B. Delbrück, R.O. Jacobson, L. Elmslev, O. Yespersen, C. Fillmore, A.A. Potebnya, E. Kurilovich, S.D. Katsnelson, G.P. Melnikov and others. Despite the lack of consensus on many issues in this area, the definition of case as a whole most often does not cause controversy among adherents of the morphological interpretation of the problem.The case in most grammars is considered as a constant morphological category of a noun, expressed in the forms of declension and expressing the relationship of the referent-noun to other objects and phenomena. Thus, the case form of a noun, or, in short, its case, is defined as a morphological form of declension. The case is a grammatical category, which is the unity of the meaning of the relationship of the designated object to other objects, actions, signs and means of its material, linguistic expression. The case form serves as a real form of expression for this category. Also, the case form is a morpheme consisting of a certain scale, which, together with the root morpheme, gives certain content to the word. The declension is formed by a set of case forms that make up a certain system of changes. The very concept of case, along with the number, is one of the two main inflectional categories of nominal parts of speech - noun, adjective, pronoun, and numeral. The case system of a noun in modern English, according to the theory of the limited case, formulated in the works

of H.Suit and O.Yespersen, seems to be the most theoretically substantiated and widely used in practice, it is represented by two cases.

1) Common Case. The lesson begins at 9 o'clock

2) Possessive Case (in other terminology Genitive Case, which finds its expression in the opposition zero /'s (the common case does not have its positive sign and is opposed to the genitive by the absence of endings). For example, the student's bag, my mother-in-law's house.

The suffix of the genitive case goes back to the ending of the genitive case of the singular of the Old English stems.

As for the category of the Case, this issue in the English language is still debatable. Depending on our approach to this problem, the English language was bestowed on some cases. Thus, M.Deutschbein, who allowed the understanding of the case as a combination of a preposition with a noun in the initial form, believed that there are four cases in the English language: nominative, genitive, dative and accusative. However, such an interpretation of the case problem seems to be incorrect, since a case is understood as a word form in which there is a corresponding case morpheme, in the case of English 's'.

The point of view is considered almost generally accepted, according to which nouns contain a class of words that change in two cases - nominative and possessive, formed with the morpheme "'s". This is a class of animate nouns and nouns of the semantic field "time". Thus, from the point of view of the typological characteristics of the category of case in a noun, we can note that in English all nouns are divided into two classes: words denoting inanimate objects that do not have a case category, and words denoting living objects and time, having two case - general and possessive. The semantics of the possessive case are as follows: objectivity, animation, possessiveness, subjectivity and objectivity.

Almost all nouns in English can be used in the Nominative Case, in this form they are listed in dictionaries. According to some linguists English nouns change by case and have two cases - common and possessive. This applies to those nouns that denote living beings, as well as some objects. At the moment of the development of the language, the English noun has two cases - the common case, which all words of this part of speech have, the meanings of most Azerbaijani case forms are conveyed in English by the form of the common case with or without a preposition and possessive, which is characteristic of animate nouns. The possessive case usually has only animate nouns denoting a living being to which some object, quality or attribute belongs. The possessive case is formed by adding the ending -s (or a suffix, as linguists differ on this point) to a common noun with an apostrophe (') in front of it. If the noun is in the plural, therefore, already ends in -s, then in this case only an apostrophe (') is placed, but after this ending, and not before it, for example: boy's hand and boys' hands. A feature of the case category in English is that the possibility of forming the possessive case form is associated with the meaning of the word, namely, its animation. In addition to animate nouns, some inanimate nouns can be used in the possessive case (for example, geographical names, vehicles, measures of time and distance, or in stable combinations of words).

The possessive case can be used to express the meaning of belonging to a person or other object (my son's toy) or to express a descriptive meaning in which the noun is closer in meaning to an adjective (an hour's walk). In the possessive case, nouns are usually accompanied by an article or a pronoun. For the correct use of the article and the place occupied by the noun in the syntactic construction, these meanings expressed by the possessive case of the noun should be taken into account.

In the case of expressing the meaning of belonging, the article (or definition) is placed before the noun to which it refers (and not to the following main noun): the man's son. In the second case, when expressing descriptiveness for the main noun, the article, on the contrary, does not refer to the noun closest to it in the possessive case, but to the main word in the construction: a big children's shop = a big shop (for children).Why does a language need a case? If, for example, all case endings suddenly disappeared in Azerbaijanian, we would not be able to understand a single sentence. For example, in the sentence *Cananvar Azəri qorxutdu* (Wolf scared Azer), the noun *Azer* is in the accusative, and the noun *wolf* is in the nominative case. And now let's try in the same sentence to put the noun *Azer* in the nominative form, and the noun *wolf* in the accusative case: the resulting sentence *Azər cananvarı qorxutdu* (Azer scared the wolf) describes a different situation, in a certain sense opposite to the first. We can say that the case indicates the roles that *Azer* and the *wolf* play in the situation: if you change the cases, then the roles will change.

In the end we can say that any languages of the world depend on a structural feature that we might never have heard of: a grammatical case system. If we are learning such a language, we should learn it well, because even seemingly small mistakes can change the entire meaning of a sentence or cause it to be completely incomprehensible.

FRAZEOLOJİ VAHİDLƏRİN MƏNA QRUPLARI

Nəcəfova Ü.İ.
Bakı Slavyan Universiteti
E-mail: necefovabanu2000gmail.com

Məlum olduğu kimi, frazeologiya dilin lüğət tərkibində ayrıca bir lay təşkil edir. Frazeologiyadan bəhs edən elm frazeologiya adlanır.Qeyd etmək lazımdır ki, dilçilikdə bir termin kimi istifadə olunan frazeologiya frazeoloji vahidlərin məcmusu kimi işlədilir, eyni zamanda frazeologizmlər barədə bir elm şöbəsi kimi qəbul edilir. Elmi ədəbiyyatda frazeologiya bəhsi frazeologizmin tarixi və hazırdakı vəziyyətindən bəhs edir. Nitqimizə lakonik, obrazlı ifadələr, eyni zamanda canlılıq gətirən frazeoloji vahidlərdən dilimizdə istifadə olunması nitq mədəniyyətinin ayrılmaz bir hissəsi kimi qəbul olunmuşdur. Bildiyimiz kimi, frazeologiyanı təşkil edən, müxtəlif adlar altında qeyd edilmiş bölünməz, dildə olan hazır birləşmələr, bölünərsə tərəfləri müstəqil olmayan sözlərdən təşkil olunmuş, quruluşuna görə, sözlərin sırasına görə və s. kimi sabit olan birləşmələr haqqında frazeoloji vahidlər kimi bəhs olunur.

Dilimizdə mövcud frazeoloji vahidlərin məna qrupları mövcuddur: Omonim frazeoloji vahidlər; Sinonim frazeoloji vahidlər; Antonim frazeoloji vahidlər;

Adətən elmi ədəbiyyatda frazeoloji vahidlərin omonimlikdən məhrum olduğu barədə bəhs edirlər. Lakin frazeoloji vahidlər bir-biri ilə omonimlik təşkil edə bilər. Bu hansı yolla baş verəcəkdir? Bildiyimiz kimi, sabit söz birləşmələri səs tərkibi ilə tamamilə eyni olan sərbəst söz birləşmələri ilə omonim ola bilir. Məsələn: *yola düşmək, əl uzatmaq, ayağa qaldırmaq, bu ifadələr, əl çəkmək* və s. Onlar məcazi mənada sabit söz birləşməsidir, həqiqi mənada da sərbəst söz birləşməsi kimi işlənir. Bəzən frazeologizmlərin arasında da omonimlik müşahidə edilir. Məsələn: *əli gicişmək*. Frazeoloji vahid olaraq omonimdir. Bu frazeoloji vahid həm *vurmağa bəhanə axtarmaq, yaxud vurmaq istəmək* mənasında, həm də *əlinə pul gəlməsi ehtimalı* mənasında işlənə bilir. *Əli dinc oturmamaq* (1. daim əli işdə olmaq; 2. Nəyi isə qurdalamaq, məhv etmək), *əldən çıxarmaq* (əldən qaçırmaq, bir işi tamamlamaq, işi başa çatdırmaq) və s. Bildiyimiz kimi, sinonimlər eyni, yaxud yaxın mənalara malik olan söz qruplarıdır. Frazeoloji vahidlərdə eyni ilə belədir. Dilimizdə məhz təkrara yol verməmək üçün frazeoloji sinonimlərdən istifadə edilir. Müasir Azərbaycan dilində onların sayı kifayət qədərdir. Dildə frazeoloji vahidlərin çox olması dilin zənginliyinin göstəricisidir. Onların əksər hissəsi həm ədəbi dildə, həm də canlı danışıq dilində istifadə olunur. Məsələn: *fikrə getmək- fikrə dalmaq, əlindən qutarmaq-canını qutarmaq, ürəyi istəmək-könlündən keçmək, sözə getmək-küyə getmək, ələ düşmək -ələ keçmək- əldə etmək* və s. Ümumiyyətlə, dilimizdə sinonimika zəngindir, dilin bütün sahələrində özünü göstərir. Müasir Azərbaycan dilində bəzi frazeoloji sinonimlər leksik sinonimlərin yerində işlənə bilir.Bunlar elmi ədəbiyyatda leksik-frazeoloji sinonimlər kimi qeyd edilmişdir.

Geniş məfhum hesab olunan antonimlik anlayışı frazeoloji birləşmələrdə də özünü göstərir. Dildə sözlərin antonimliyi olduğu kimi, sabit söz birləşmələrində də antonimlik mövcuddur. Yəni dilimizdə mənaca bir-birinin əksini təşkil edən frazeoloji vahidlər də yer almışdır. Onlardan əsasən bədii ədəbiyyatda mənanı daha aydın çatdırmaq üçün istifadə olunur. Məsələn: *xoşu gəlmək-zəhləsi getmək, , dil-dil ötmək-ağzına su almaq, əlini belə tərpətməmək-dəridən-qabıqdan çıxmaq* və s. Frazeoloji vahidlərin antonimliyinin meydana çıxması da maraqlıdır. Bəzən frazeoloji vahidlərdə tərəflərdən biirini dəyişməklə və ya əvəz edilməklə rəngarəng antonim frazeoloji vahidlər işlədilir. Məsələn: *yada düşmək-yaddan çıxarmaq, göz qoymaq-göz(ünü) çəkmək, ürəyini almaq-ürəyini sıxmaq, canı boğazına yığılmaq-canı dincəlmək* və s.

Beləliklə, nəzərdən keçirdiyimiz fikirlər, nümunələr onu göstərir ki, dilin vacib üç funksiyasından birini, daha dəqiq, təsiretmə funksiyasını yerinə yetirən frazeologimlərin məna qruplarının dilimizin zənginləşməsində, inkişafında özünəməxsus rolu vardır.

AZƏRBAYCAN DİLÇİLİYİNDƏ SİNONİM SÖZLƏR VƏ ONLARIN TƏDQİQİ

Nəcəfquliyeva Ə.H.
Bakı Slavyan Universiteti
E-mail: necefquliyeva1999@gmail.com

Cəmiyyət formalaşdığı dövrdən etibarən şüurlu insan ilk növbədə obyektiv aləmi, konkret əşyaları ümumi şəkildə qavramışdır. Deməli, konkret əşya adları tarixi cəhətdən daha qədimdir. Mücərrəd anlayışlı

sözlər isə cəmiyyətin inkişafı, şüur dairəsinin genişlənməsi ilə əlaqədar olaraq konkret əşyaları dərk etdikdən sonra həmin əşyaların ətrafında yaranmış və yaranmaqdadır. Daha doğrusu, fonetik tərkibcə müxtəlif olub, lakin eyni bir əşyanı və ya eyni bir əşyanın ən incə xüsusiyyətlərini əks etdirən sinonim sözlər dildə sıçrayış yolu ilə deyil, dilin ümumi inkişafı prosesində, tədricən meydana çıxır.

Bütün dünya dillərində sinonimlər iki cür yaranır: 1. Dilin öz fonetik vahidləri və lüğət fondu əsasında yaranan sinonim sözlər; 2. Başqa dillərdən alınma və ya keçmə yolu ilə əmələ gələn sinonim sözlər.

Nitq-təfəkkür fəaliyyətinin məhsulu kimi çoxsəviyyəli sinonimlərin qarşılıqlı təsir mexanizminin öyrənilməsi vacib amillərdəndir.İnsan fəaliyyətinin bütün sahələrini əhatə edən informasiya inqilabı informasiyanın təşkili qanunları haqqında şüurlu və səriştəli biliklərin olmasını tələb edir. Bu aspektdə sinonimiyanın tədqiqi prioritet kimi görünür.Semantik sahədə informasiya seçimi prinsiplərinin müəyyən edilməsi dilçiliyin,xüsusən də Azərbaycan filologiyasının əsas problemlərindən biri hesab oluna bilər.Sinonimliyin öyrənilməsində yeni perspektivlər mətndə sinonim vahidlərin fəaliyyət göstərməsi ilə bağlıdır ki, bu da sinonimiya probleminin mətn səviyyəsində formalaşmasına və öyrənilməsinə səbəb olub. Bu gün dilçilik elmində sinonimlik probleminin hərtərəfli öyrənilməsi vacibdir. Sinonimiyanın əvvəlki tədqiqi təcrübəsi, leksik, morfoloji və sintaktik sinonimiya arasında fərq tendensiyası, sinonimiyanın dilin semantikasının geniş problemləri sırasına daxil edilməsi, sinonimik vahidlərin inteqrativ qarşılıqlı təsirinin təhlili üçün nəzəri modelin yaradılması bu gün də öz aktuallığını saxlamaqdadır. Dildə sinonimik münasibətlərin obyektiv və mürəkkəb mənzərəsini təqdim etmək üçün bu tədqiqatlara ehtiyac var.

Sinonimiyanın tədqiqi zamanı dilin ləhcə və şivələri xüsusi olaraq diqqəti cəlb edir. Belə ki, Azərbaycan dilinin dialektlərinə nəzər saldıqda rəngarəng sinonimik cərgələrə rast gəlmək olar. Bu baxımdan sinonimlərin tədqiqini dialektologiyadan ayrı təsəvvür etmək olmaz.Sinonim sözlərə məxsus olan xüsusiyyətlər bir daha sübut edir ki, sinonimlər tam mənada bir-birinin əvəzinə işlənə bilən sözlər deyildir. Əksinə, sinonim cərgəyə daxil olan hər bir sinonim sözün məna çaları və üslubi rənginə görə nitqdə istifadə məqamı vardır. Özü də heç bir sinonim məqsədsiz o biri sinonimin yerinə işlənmir: "Hər bir sinonim nitqin ifadəsinə bu və ya digər dərəcədə yeni məna çalarlığı gətirir". Sinonimik paradiqma ilk öncə yaxın və oxşar mənalı sözlərin toplusudur. Sinonimlərə xas olan semantik əlamət – mənanın adekvatlığıdır. Buna görə də sinonimliyin fonosemantika ilə bağlılığını tapmaq üçün yalnız leksik deyil, eyni zamanda, fonetik yaxın mənalılıq, oxşarlıq prinsipi əsas götürülür. Bütün sinonim cütlüklərinin tədqiqində sinonim sözün hər bir səs konnotasiyasının xüsusiyyətləri təsvir edildikdən sonra müsbət və mənfi keyfiyyətləri hesablanır, sinonim cərgəsindəki fərqliliklər təyin edilir. Fərqlilik dominantlıq təşkil edən sinonim cərgənin müqayisəsi ilə təyin olunur. Belə ki, dominant sinonim cərgə "hesab nöqtəsi" sayılır.Tədqiqat işimizdə qarşımızda duran əsas məqsəd Azərbaycan dilinin bir və çoxsəviyyəli sinonimlərinin inteqrativ qarşılıqlı təsirinin təhlili üçün nəzəri modeli müəyyən etmək və inkişaf etdirmək, müxtəlif sinonim vahidlərin yerini, onların struktur-semantik təşkilinin xüsusiyyətlərini müəyyənləşdirməkdən ibarətdir. Tədqiqat işimizin obyektini Azərbaycan ədəbi dilində və dialektlərdə işlənən sinonim sözlər təşkil edir. Tədqiqatın predmeti Azərbaycan dilində sinonimik vahidlərinin inteqrativ qarşılıqlı təsir mexanizmləridir. Tədqiqatda müasir Azərbaycan dilinin lüğətlərindən istifadə edilmişdir.

AZƏRBAYCAN ƏDƏBİ DİLİNDƏ FƏLSƏFƏ TERMİNLƏRİNİN LEKSİK-SEMANTİK PARADİQMALARININ AYDINLAŞDIRILMASI

Nəhmədli N.P.
Bakı Slavyan Universiteti
E-mail: nahmadly.nilufar@gmail.com

Azərbaycan ədəbi dilinin fəlsəfə terminlərinin leksik-semantik paradiqmalarını aydınlaşdırmaq öz aktuallığı ilə diqqəti cəlb edir. Hər bir termin öz məna xüsusiyyətlərinə görə digər bir terminlə birləşir. Bu qarşılıqlı bağlılıq terminin paradiqmatik və sintaqmatik planda işləndiyini əks etdirir. Terminlərin leksik-semantik paradiqmaları dərəcələr üzrə şərh olunur. Çoxmənalı, omonim, sinonim və antonim terminlər dərəcələrinə görə seçilir və leksik-semantik paradiqma təşkil edirlər. Çoxmənalılıq, omonimlik, sinonimlik, antonimlik kimi leksik-semantik hadisələr ümumxalq leksikasının sistemliliyini göstərən əsas faktorlardandır. Termin isə adi sözlər kimi (kontekstlə) deyil, müəyyən bir terminoloji sahə ilə əlaqədardır. Terminlərdən tələb olunan əsas cəhət təkmənalılıqdır, yəni termin aid olduğu sahədə yalnız bir mənada işlənməli, məna qarışıqlığı yaratmamalıdır. Lakin çoxmənalı termin eyni zamanda bir neçə anlayışa aid ola bilər. Bu zaman terminin məhz hansı anlayışı bildirməsini kontekst daxilində müəyyənləşdirmək mümkündür. Çoxmənalılıq və sinonimlik

leksik-semantik paradiqmanın xarakterik cəhətlərindəndir. Fəlsəfə terminlərində çoxmənalılığa geniş rast gəlinir. Məsələn, ölçü termini. Hegel ölçünü kəmiyyətlə keyfiyyətin vəhdəti hesab edirdi. Ölçü elə kəmiyyət sərhəddidir ki, verilən keyfiyyət onun daxilində mövcud ola bilər. Ölçünü müəyyənləşdirmək üçün gerçəkliyin riyazi üsullarla təsvirinə müraciət etmək tələb olunur; Ölçü – riyaziyyatda: Hər hansı bir şeyi ölçmək üçün qəbul edilmiş vahid, uzunluq ölçüsü, həcm ölçüsü.

Fəlsəfə terminlərində omonimlik də müşahidə olunur. Eyni bir termin dilin müxtəlif terminologiyalarına daxil ola bilir. Bu elmlərarası terminoloji omonimliyi ifadə edir. Məsələn "reduksiya" termini 1)fəlsəfədə, 2)hüquqda, 3)fonetikada işlənir.

Fəlsəfə terminlərinin leksik-semantik sistemində sinonimlik də başlıca yer tutur. Fəlsəfə terminlərinin müəyyən bir hissəsi ümumişlək sözlər əsasında yaranır, bunun nəticəsində ümumi ədəbi dilə məxsus olan sinonimlik bu sistemdə də müşahidə olunur. Məsələn, "güman" ümumişlək sözü əsasında hipoteza, əsas, ehtimal sinonim terminləri formalaşmışdır. "Hipoteza" (yun. "hypotheses" - əsas, ehtimal, güman) elə elmi ehtimaldır ki, həqiqiliyi hələ sübut tələb edir. Hipoteza müəyyən fakt və hadisələri doğuran səbəblər haqqında əsaslandırılmış, elmi cəhətdən nizamlanmış məlumatlara zidd olmayan fərziyyəyə deyilir. Fəlsəfədə ayrı-ayrı kateqoriyaları əhatə edən terminlərdə sinonimik cərgələr də mövcuddur. Elə sinonim cütlüklər var ki, onlar nəzərdə tutulmuş fəlsəfi anlayışları daha aydın və məntiqi əks etdirir. Məsələn, simvol-heroqraf, sinfi şüur-ideologiya, monoteizm - təkallahlılıq, politeizm - çoxallahlılıq, paradoks - mühakimə, qnoseologiya - idrak nəzəriyyəsi və s. Sözlər arasındakı antonimik münasibət əşya və hadisə məfhumlarının qarşılaşdırma yolu ilə dərk edilməsi nəticəsində yaranır. Fəlsəfədə kəmiyyət və keyfiyyət, zaman və məkan məzmunlu məfhumların bir-birinə zidd cəhətləri müxtəlif leksik-terminoloji vahidlərlə öz ifadəsini tapa bilir. Ən ümumi və universal səciyyəli predmet və hadisələr öz ziddiyyətli məqamları ilə seçilir, bizi əhatə edən reallıqları qarşı-qarşıya qoyur. Fəlsəfə terminologiyasında antonim terminlərin bir çoxu alınma termin-elementlərin əlavə edilməsi ilə əmələ gəlir. Məsələn, makrososiologiya-mikrososiologiya, tezis-antitezis, elm-antielm, kvazielm, anormal elm, "yabançı elm", makrostruktur-mikrostruktur, köhnə cəmiyyət-yeni cəmiyyət və s.

Beləliklə, fəlsəfə terminlərinin leksik-semantik məna qrupları (çoxmənalılıq, omonimlik, sinonimlik, antonimlik) insanın xarici aləmlə qarşılıqlı əlaqə və təsiri nəticəsində əmələ gəlir və inkişaf edir. Dərketmə anında xarici aləm faktları şüur faktına çevrilərək yeni mənaların yaranmasına səbəb olur.

AZƏRBAYCANDA VƏ HİNDİSTAN MƏDƏNİYYƏTİNDƏ GÜZGÜ ANLAYIŞI

Nursac Tatar
Bakı Slavyan Universiteti
E-mail : nursac.tatar.45@hotmail.com

Lüğətdə güzgü, üzərinə düşən işıqları və formaları əks etdirən parlaq cisim kimi təyin olunur. Bu söz farsca âyine sözündəndir. Ayen (dəmir) əvvəlcə cilalanmış dəmirdən hazırlanmışdır. Sözə görə güzgü adlanır. Ərəbcə mir'atdır, əks olunan surət deməkdir. Güzgü Azərbaycan dilində feqli formalarda işlənmişdir. Gəlinlərin toylarda güzgüyə baxaraq ətrafına xoşbəxtlik paylamaq anlayışı əsrlərdən bəri davam edən bir ənənədir. Eyni adət Hindistan mədəniyyətində də var. Hindistanın Tamil bölgəsində gəlinləri qonaqlar çiyinləri üzərində taxtda oturdururlar və əlinə güzgü verilərək özlərinə baxmaq istənilir. Beləcə gəlinin xoşbəxtliyi ətrafa yayılır.Güzgü haqqında miflərlə yanaşı, müxtəlif miflər də mövcuddur. Onlardan biri də İsgəndərin güzgüsüdür müvafiqdir. Dünyanı göstərən bu güzgü haqqında müxtəlif söz-söhbətlər var. Bir əfsanəyə görə, bu güzgü Hindistan hökmdarı Kayd tərəfindən İskəndərə verilmişdir. Başqa bir şayiəyə görə, İsgəndəriyyə şəhəri qurulanda.Bu yerin hakimləri Belinas, Hermis və Valines bu güzgünü düzəltdilər. Onlar uzaqdan gələn gəmiləri izləməlidirlər.Bunun üçün güzgünü hündür yerə qoyurlar. İskəndərin güzgüsünün hər iki tərəfini göstərirdi. Amma yalançılar geri qayıdırlar

Üzünə baxanda güzgü onu göstərmirdi. Beləliklə, İsgəndər kimin yalan danışdığını biləcəkdi. Daha çox mifik olan başqa bir rəvayətə görə, İskəndər bu güzgüdən zəhərli ilanı öldürmək üçün istifadə edib.Hündür yerə qoyun. Rəvayətə görə, bu ilanı görən hər kəs ölür. İskəndər ölkəsini xilas etmək üçün güzgüdən tələ kimi istifadə etdi. Bir gün ilan güzgüyə baxanda öz əksini görüb öldü. Budda Hindistan yarımadasında Hinduizmə cavab olaraq ortaya çıxan Buddizmdə mərkəzi mövqe tutur.Bu kontekstdə tarixi prosesdə Buddanın şəxsiyyəti ilə bağlı bəzi ikona və ya əşyalar meydana çıxmışdır.Onlardan biri güzgüdür. Bəzi Ortodoks Buddist məbədlərində və ya evlərində Buddanın yanına güzgü qoymaq belə bir ənənənin məhsuludur. Budda heykəllərinin yanında bürünc güzgülərin olması maarifləndirməyə vurğudur.

BƏDİİ TƏRCÜMƏ ZAMANI MÜƏLLİF ÜSLUBUNUN SAXLANILMASI PROBLEMİ

Paşayeva M.A.
Bakı Slavyan Universiteti
E-mail: mesume04@gmail.com

Tərcümə orijinal dildə ifadə olunan məzmun və formanın hədəf dilin üslubi və qrammatik imkanları çərçivəsində ifadə olunmasıdır. Bədii tərcümənin qiymətləndirilməsinin əsas meyarı təkcə orijinal əsərin semantik məzmununun qorunub saxlanılması deyil, həm də əsərin bədii üslubunun qorunub saxlanılmasıdır.

Bədii əsərin hər bir komponenti onun daxili aləminin bir parçasıdır və bu daxili aləm müəyyən obyektiv reallığı əks etdirir. Əks olunan reallığın təsviri müəllif tərəfindən məqsədyönlü xarakter daşıyır və müəllif üslubunu formalaşdırır. Hər bir yazıçı ona xas olan bir sıra linqvistik üsul və vasitələrdən istifadə edir və bunun sayəsində əsərlərində sonradan oxucular tərəfindən tanınan fərdi üslubu seçilir. Bu cəhətdən bədii tərcümə zamanı əsərin orijinallığının göstəricisi olan müəllif üslubu elementlərinə diqqət yetirmək və tərcümə mətnində onları adekvat şəkildə çatdırmaq yollarını araşdırmaq vacibdir.Yazıçı təkcə xarici dilin daşıyıcısı kimi deyil, həm də milli mədəniyyətin yaradıcısı kimi çıxış edir. O, müxtəlif vasitələri seçərək onları öz yaradıcı ideyaları ilə birləşdirir. Müəllif ədəbi əsər yaradarkən diqqətini müəyyən oxucu kütləsinin psixoloji vəziyyətinə, mədəni səviyyəsinə və tarixi-sosial amillərə yönəldir. Tərcümə prosesində isə mütərcim ilk olaraq bədii əsərin oxuyucular tərəfindən yeni sosial-mədəni şəraitdə necə qəbul olunacağını nəzərə alır. Bədii tərcümə zamanı mütərcim hər iki mədəniyyətin xüsusiyyətlərini dərindən bilməlidir. Belə ki, tərcüməçidən dil bacarıqlarından çox ekstralinqvistik biliklər tələb olunur.

Ədəbi əsərlərin tərcüməsində çətinlik yaradan bir neçə amilləri sadalamaq mümkündür:

1. Xarici amillər: dilin qrammatik konstruksiyalarının fərqliliyi, lüğət xüsusiyyətləri, müxtəlif semantik məna və çalarlara malik sözlərin mövcudluğu və s.

2. Daxili amillər: dildaxili mənaların, konnotasiyaların ötürülməsi və s.

3. Fərdi amillər: müəllifin fərdi xüsusiyyətləri, onun üslubu, təsvir etdiyi hadisələrə və personajlara şəxsi münasibəti və s.

Müəllif üslubunu Çarlz Dikkensin "Great expectations" ("Böyük ümidlər") əsərinin tərcüməsi fonunda ətraflı nəzərdən keçirək. Qeyd etdiyimiz kimi, yazıçı əsərində bir çox vahidləri müəyyənləşdirir və həmin vahidlər vahid bir sistem kimi müəllif üslubunu formalaşdırır. Bu vahidləri fonetik vasitələr, leksik vahidlər və sintaktik konstruksiya üzrə qruplaşdırmaq mümkündür.

1. Fonetik vasitələr. Müəllifin emosiya və duyğuları dilin fonetik səviyyəsində daha çox nəzərə çarpır. Fonetik vahidlər dedikdə daha çox şifahi nitq yada düşsə də, yazılı ədəbiyyatda da hiss və həyəcanı ifadə etmək üçün mümkün vasitələr vardır: nida, tire, üç nöqtə işarəsi, sözün böyük hərflərlə, hecalara ayrılaraq və ya kursivlə yazılması və s.

"Pip, I do assure *you* this is as-TON-ishing!" and so, by degrees, became conversational and able to walk away. (Charles Dickens "Great expectations")

— Pip, səni inandırım ki, belə şey görməmişəm, lap məəttəl qaldım! – sonra yavaş-yavaş dili açıldı, yerindən tərpənib gəzməyə başladı.

Kursivlə və hecalara ayrılaraq ifadə olunan fonetik ekspressiv vahidlər diqqətin hansısa şəxs, obyekt və ya əlamət üzərinə yönəldilməsi məqsədini daşıyır. Adətən bu tip fonoqrafik vahidlər tərcümə zamanı "itir", buna görə də mütərcim müxtəlif tərcümə üsullarından istifadə edərək tərcümə etməyə çalışır. Verilmiş nümunədə mütərcim əvəzetmə üsulundan istifadə etmişdir.

2. Leksik vahidlər. Müəllifin istifadə etdiyi müxtəlif dialektizmlər, arxaizmlər, vulqarizmlər, okkazionalizmlər, idiomlar, deyimlər, konnotativ çalara malik sözlər və s. buraya aiddir. Bu söz qrupları üçün sabit bir tərcümə üsulu mövcud deyildir. Mütərcim kontekstdən asılı olaraq müxtəlif leksik, leksik-qrammatik və qrammatik transformasiya üsullarından istifadə edir.

"And you know what wittles is?" (Charles Dickens "Great expectations")

— Bəs yemək necə, bilirsən nədir?

Orijinal mətndə işlədilmiş *"wittles" (azuqə)* linqvistik vahidi müəllif tərəfindən yaradılmış okkazionalizmdir. İngilis dilində bu söz *ərzaq və içki* mənasını ifadə edən "*victuals*" sözünün yumoristik tələffüz variantı olan "*vittles*" sözündən yaradılmışdır. Müəllif bu okkazionalizmi yaradaraq personajın kəmsavad olmasına və aşağı zümrəyə məxsus olmasına işarə etmişdir. Ümumiyyətlə, orijinal əsər boyunca müəllif tərəfindən sosial fərqə diqqət çəkmək üçün bəzi sözlərdə "*v*" əvəzinə "*w"* işlədilməsinə rast gələ

bilərik. Məsələn, *"very"* əvəzinə *"wery", "vain"* əvəzinə *"wain*" və s. Tərcümə mətnində mütərcim "*wittles"* vahidini ümumiləşdirərək *yemək* sözü ilə əvəz etmişdir.

3. Sintaktik konstruksiya. İngilis dilində sözlər arasındakı qrammatik əlaqə nəticəsində müəyyən edilmiş sabit söz sırası vardır. Bədii mətnlərdə müəllifin çatdırmaq istədiyi ideyaya uyğun olaraq söz sırası dəyişdirilə bilər. Cümlə üzvlərinin sabit ardıcıllığının pozulması ilə hansısa elementin vurğulanması və emosionallıq və ya ekspressivliyin xüsusi konnotasiyalar əldə etməsi inversiya adlanır.

I may truly say I've never had this apron of mine off since born you were. (Charles Dickens "Great expectations")

Sən doğulandan bəri bu önlüyü əynimdən çıxarmamışam.

Qeyd olunan mürəkkəb cümlənin budaq cümləsində inversiya vardır. Qardaşına hirslənmiş obraz onun doğulmasına kəskin münasibət bildirir və doğumu ilə birgə ailə həyatında baş verən dəyişikliyə işarə edir. Tərcümədə inversiya öz əksini tapmamışdır. Həmçinin orijinalda mürəkkəb konstruksiyaya malik cümlə tərcümə mətnində sadə cümlə ilə əvəzlənmişdir.Mətnin üslubunu əks etdirən zaman ən çətin məqam sözlərlə təsvir olunmayan ab-havanı ötürməyə nail olmaqdır. Bədii əsərin ab-havasını oxuyucuya çatdırmaq üçün bəzən sözdən bir qədər kənara çıxmaq lazım gəlir. Bu, bədii əsərin əsas dəyəridir və onu çatdırmaq tərcüməçinin ən ümdə vəzifəsidir.

Orijinal əsərə xas atmosferin düzgün dərki üçün mütərcim aşağıdakı məqamlara diqqət yetirə bilər:

- Əsas məqamları başa düşmək və əsəri hərtərəfli şəkildə qavramaq üçün mütərcim tərcüməyə başlamazdan əvvəl orijinal əsəri tam oxuya bilər.
- Mətnin müəyyən bir hissəsi mütərcim üçün anlaşılmazdırsa, söz və ifadələrin əlavə konnotativ mənalarına baxılması faydalı ola bilər.
- Tərcümə mətnini əsərin əsas ideyası ilə həmişə müqayisə etmək lazımdır ki, bu da yüksək keyfiyyətli tərcüməyə zəmanət verəcəkdir.

Beləliklə, müəllif orijinallığının öyrənilməsi bədii mətnlərin tərcüməsinin mühüm tərkib hissəsidir. Müəllifin istifadə etdiyi üslubi və ekspressiv vasitələr oxucuya emosional təsir göstərən obrazlar sistemi yaradır. Yadda saxlamaq lazımdır ki, hər bir yazıçının öz fərdi üslubu var, buna görə də həmin üslubun dərki və tərcüməsi fərdi yanaşma tələb edir. Yüksək keyfiyyətli tərcümə o zaman mümkündür ki, tərcüməçi özü yaradıcı insan olsun. Bu zaman tərcümə müəllifin mədəni dəyərlər sisteminə və bədii metodlarına dərindən nüfuz edir və mövcud tərcümə üsullarından istifadəyə əsaslanır.

MODALLIQ KATEQORİYASININ ÖYRƏNİLMƏSİNDƏ NƏZƏRİ FİKİRLƏRİN İNKİŞAFI

Qaraşova M.E.
Sumqayıt Dövlət Universiteti
E-mail: mayaqarashova@gmail.com

Modallıq kateqoriyası mürəkkəb hadisədir. Mənaların tərkibi və linqvistik mahiyyəti ən müxtəlif, bəzən bir-birinə zidd fikirlər doğurur. Bu da modallıq kateqoriyasını qeyri-müəyyən edir. Modallıq kateqoriyası problemi təkcə dilçilikdə deyil, həm də fəlsəfədə nəzərdən keçirilir, çünki modallıq təfəkkür və məntiqi quruluşla bilavasitə əlaqəli olan dil hadisələri sahəsidir."Modallıq" anlayışının özü dilçilik tərəfindən formal məntiqdən götürülüb. Məşhur dilçi alimlərin bir çox əsərləri modallıq kateqoriyasına həsr edilmişdir. Əvvəlcə modallıq məntiqi modallıqdan ikinci dərəcəli formalaşma kimi qəbul edilirdi. Öz əsərində modallıq kateqoriyasına ilk toxunanlardan biri olan isveçrəli dilçi Ş.Ballinin fikrincə, modallığın məntiqi funksiyası təfəkkür subyektinin onun təmsilinə reaksiyasını ifadə etməkdir. İfadə nəzəriyyəsinin inkişafı ilə məşğul olan dilçi iki əsas elementi - bu, "diktum" adlanan əsas məzmunu və "modus" termini adlanan bəyan edilmiş faktların fərdi qiymətləndirilməsini qeyd etmişdi. Balli modallığı danışan subyektin diktumda əks etdirdiyi təmsil üzərində yerinə yetirdiyi aktiv zehni əməliyyat kimi yerləşdirir.

Terminologiyanın oxşarlığını nəzərə alaraq, "modallıq" və "modus" anlayışlarını bir-birindən ayırmaq vacibdir. Beləliklə, modifikasiya deyimin semantikasının subyektiv-qiymətləndirici komponentidir. Modusa bir sıra kateqoriyalar daxildir: metakateqoriyalar, kvalifikasiya, aktuallaşdırma və sosial kateqoriyalar. Metakateqoriyalar birbaşa danışma aktı haqqında məlumat daşıyır. Aktuallaşma kateqoriyalarına predikativlik kateqoriyasının şəxs, zaman və modallıqda ifadə olunan hissələri daxildir. Səlahiyyət, qiymətləndirmə və inandırıcılıq ixtisas kateqoriyalarına aiddir. Onların funksiyası məlumatı qavrayış mənbəyi, etibarlılığı, natiq tərəfindən işin real vəziyyətinə münasibətinin ifadəsi baxımından qeyd etməkdir. Sosial kateqoriyalar

müəllifin ünvana münasibətdə statusunu xarakterizə edir. Subyektiv modallığa gəlincə, bu, vurğunun (gücləndirilməsinin), emosional ekspressiv qiymətləndirmənin, razılıq və ya fikir ayrılığının və s. mənalarının bütün spektrini ifadə edən müəllifin ünsiyyət qurduğu məlumatlara münasibəti kimi başa düşülür. Beləliklə, "modus" anlayışı" daha geniş kontekstdə sintaktik modal mənaları ehtiva edir. Ona görə də ifadədə subyektiv mənaları ifadə edən vasitələr kompleksi genişlənir. Balli yaradıcılığına qayıdaraq demək lazımdır ki, onun fikrincə, hər cümlənin modallığı var. O, modallığı müxtəlif mürəkkəblik səviyyəli konstruksiyalarla təmsil olunan sintaktik kateqoriya hesab edir. Balli modallığı "cümlənin ruhu" adlandırırdı. Məntiqi-semantik anlayışların tərəfdarları modallıq kateqoriyasını modus anlayışı ilə əlaqələndirirlər. F.Cahangirov subyektiv modallığı belə xarakterizə edir: "subyektiv modallıq intonasiya ilə, söz sırası ilə, sintaktik təkrarlarla, intensivlik və sürət bildirən xüsusi konstruksiyalarla, ədat, modal sözlər, ara sözlər və ara cümlələrlə ifadə oluna bilər. Lakin, subyektiv modallıq münasibətlərini doğuran əsas vasitə modal sözlər hesab olunur".

Tədqiqatçılar deyimin kommunikativ yönümünü və emosional planın mənasını modallıq sahəsinə aid edirlər. V.V.Vinoqradova görə, modallıq kateqoriyası cümlə və onun növlərinin müxtəlifliyi ilə sıx əlaqəyə malikdir. Cümlə reallığın tərcüməçisi və nitqin məzmunu ilə real vəziyyət arasındakı əlaqənin ifadəsidir. Modal məna - reallıqla əlaqənin göstəricisi - hər bir cümlənin mühüm xüsusiyyətidir. Reallıq faktlarını əks etdirmək üçün motivlərin, hisslərin, düşüncələrin hər hansı bir tam ifadəsi cümlənin bir növ intonasiya sxemi şəklində təcəssüm olunur. Bu da sintaktik mənalardan birini ifadə edir, müxtəlifliyi ümumilikdə kateqoriyanı təşkil edir.

Oxşar nöqteyi-nəzəri M.Qrepl də bölüşür. Onun fikrincə, məntiqi və linqvistik modallıq fərqləndirilməlidir. Dil modallığına gəlincə, onun mahiyyətini nitqin məzmununun reallığa münasibətinin müxtəlif cəhətlərinin qrammatik ifadə formal vahidləri təşkil edir. Dilçi məntiqi modallığı reallıq/irreallıq anlayışı ilə əlaqələndirir: məntiqi modallıq hadisənin reallığı və ya mümkünlüyü, onun zəruriliyi haqqında mühakimədə reallaşır. Linqvistik modallıqda reallıq və ya qeyri-reallıq anlayışı nisbətən nisbidir.

Cümlənin struktur sxeminin qrammatik xüsusiyyətləri indiki, keçmiş və ya gələcək zamanda faktiki olaraq baş verən və ya mümkün qədər arzuolunan kimi bildirilənləri vurğulamağa imkan verir. Bu da müvəqqəti müəyyənlik - qeyri-müəyyənlik baxımından müxalifəti aydın şəkildə əks etdirir. E.Trauqot modallığı mürəkkəb hadisə kimi, o cümlədən cümlə strukturunda görünən, bəzən bir-birini üst-üstə düşən müxtəlif modal xüsusiyyətlər kimi yerləşdirir. Modallıq dilçi tərəfindən "bəyanatın məzmununun reallıq, reallığa uyğunluğu və ya qeyri-uyğunluğu nöqteyi-nəzərindən reallığa subyektiv-obyektiv münasibət" kimi qəbul edilir. Beləliklə, E.Trauqot iki növ modallıq ayırır: real (birbaşa) və qeyri-real (irreal). Başqa nöqteyi-nəzər də var ki, onun məzmunu məntiqi-semantik yanaşmadır ki, burada məntiqi və linqvistik modallıqlar bilavasitə əlaqəlidir. Belə bir konsepsiyanın əksi P.A.Lekantın əsərlərində nəzərə çarpır. Əsas məqam hökm və onu müqayisə etməkdir. Onun fikrincə, modallıq dilçiliklə eyni dərəcədə məntiqin tədqiq predmetidir. Məntiqdə modallıq təfəkkür forması kimi mühakimənin mühüm xüsusiyyəti kimi öyrənilir. Dilçilikdə modallıq cümlənin dil vahidi kimi əsas xüsusiyyətlərindən biridir. P.A.Lekant ontoloji və inandırıcı, başqa sözlə, obyektiv və subyektiv modallıqları fərqləndirir. Birincisi, məlum olan bir vəziyyətdə mövcud olan obyektiv əlaqələri əks etdirir - bunlar mümkün, real və zəruri əlaqələrdir. Bu əlaqələrin nə dərəcədə məlum olması, başqa sözlə desək, bu vəziyyəti əks etdirən ifadənin etibarlılıq dərəcəsi haqqında danışanın qiymətləndirməsi subyektiv modallığın məzmununu təşkil edir. Bu, sadə, kateqoriyalı və problemli əminliyi ehtiva edir. Hökmün strukturunda dilçi iki səviyyəni ayırır. Birinci səviyyədə müddəa təklif funksiyası kimi müəyyən edilir və onun strukturu predikat və arqumentlər vasitəsilə formalaşır. İkinci səviyyədə mühakimə məntiqi subyekt və predikat (obyekt anlayışı və onun atributu) tərəfindən formalaşır. Bu da mühakiməni subyekt-predikat strukturu kimi müəyyən etməyə imkan verir. Dilçi birinci səviyyəni cümlənin sintaktik bölgüsü ilə, ikincisi isə faktiki bölgüyə aid edir.Modallıq kateqoriyası cümlənin ən mühüm əlaməti olan predikativliklə bağlıdır. Bu fikir P.A.Lekantın əsərlərində öz əksini tapmışdır. O, predikativliyi sintaktik vasitələrin: söz sırası və intonasiya, funksional sözlər, söz formalarının qarşılıqlı təsiri ilə ifadə olunan cümlənin semantik məzmununun reallıqla əlaqəsi kimi xarakterizə edir. Predikativlik öz ifadəsini aşağıdakı qrammatik kateqoriyalarda tapır: sintaktik zaman, sintaktik modallıq və sintaktik şəxs. Hər bir kateqoriya öz qaydasında danışan tərəfindən qurulan ifadə ilə reallıq arasındakı əlaqənin bəzi cəhətlərini ifadə edir. Predikativliyin bu xüsusiyyəti modallığı cümlənin ən mühüm komponenti, onun formalaşması adlandırmağa imkan verir. Xülasə edərək demək lazımdır ki, modallıq kateqoriyası ən mürəkkəb növlərdən biridir. Alimlərin bu kateqoriya ilə bağlı fikirlərində müəyyən fərqlər olsa da, təmas nöqtələri ondan ibarətdir ki, modallıq kateqoriyasının əsasını ifadənin məzmununun reallıq-irreallıq mövqeyindən reallığa münasibəti təşkil edir. Modallığın predikativliyin ifadə vasitəsi kimi qəbul edildiyi yanaşması xüsusi diqqətə layiqdir.

BƏDİİ ƏSƏRLƏRDƏ KONSEPTUAL METAFORA REALIĞIN ƏKSİ KİMİ

Quliyeva İ.Ə.
Bakı Slavyan Universiteti
E-mail: Ilaha.Aguliyeva@gmail.com

Metafora real emosiyaları, ekspressivliyi obrazlı şəkildə çatdırmaq üçün ən məhsuldar bədii təsvir vasitəsidir. O, həm də həqiqi dünyanın tanınması və konseptuallaşdırılması üçün universal üsuldur. Metafora insanın müşahidəsinin nəticəsinin çatdırılmasını xarakterizə edən dolğun məzmun və semantika ilə zəngin ən təsirli ifadə vasitəsidir. Metaforanın müxtəlif növləri var, biz bu tezisdə metaforanın müasir tədqiqatlarda əhəmiyyətli yer tutan növündən – koqnitiv metaforadan danışacağıq. Konseptual metafora (və ya koqnitiv metafora) bizi əhatə edən dünyanı qavramaq, izah etmək və müəyyən mənada strukturlaşdırmaq kimi vacib psixi proseslərin nəticəsidir; bir konseptual mühit haqqındakı biliklərin başqa bir konseptual mühitdə kəsişməsinin təzahürüdür. O, müəyyən bir mədəni mühitdə formalaşmış fraqmentləri ifadə edir.

20-ci əsrdə metafora dilçilik üçün ümumi ortaq hadisəyə çevrilir, onun tədqiqi koqnitiv elmin inkişafı üçün zəmin yaradır. Koqnitiv dilçilik çərçivəsində metaforanın düşüncə tərzi kimi daha ətraflı nəzərdən keçirilməsi Al Makkormakın "Metaforanın Koqnitiv Nəzəriyyəsi" əsərində öz əksini tapmışdır. Makkormak öz tədqiqatında metaforanı ətraf aləm haqqında yeni biliklər əldə etməyi özündə ehtiva edən idrak prosesinin növlərindən biri kimi xarakterizə edir. Alim öz əsərində metaforanı izah etmək üçün dilin əsasını təşkil edən insan şüurunun dərin idrak strukturlarının müəyyən iyerarxiyasının ideal konstruksiyasını yaratmağı təklif edir. Müəllif tərəfindən təklif olunan idrak strukturlarının iyerarxiyası bir-biri ilə əlaqəli iki səviyyəyə malikdir: semantik və koqnitiv. Onlar, şübhəsiz ki, bir-birinə bağlıdır, çünki müəllifin fikrincə, "semantik prosesin əsasını idrak prosesi təşkil edir".

Her voice was sharp...

Bu misalda kontekstə uyğun olaraq "sharp" sözü – "iti, kəskin, xoşagəlməz" kimi metoforik mənaya malikdi. Koqnitiv metafora dedikdə məhz bu şəkildə bir-birindən uzaq, lakin danışanın (və ya müəllifin) idrakına əsasən bu uzaq anlayışların ortaq nöqtəsini tapmaqla ifadə etdiyi metafora nəzərdə tutulur. Koqnitiv metaforanın əsas formulu "A is B" kimi qeyd olunur: "Argument is a war". Ümumiyyətlə koqnitiv metaforalar zehni konstruksiyalardı və nadir hallarda ekplisit şəkildə ifadə olunur. Koqnitiv nəzəriyyələr, ilk növbədə, təfəkkürün konseptual formalarının bir-biri ilə necə əlaqəli olduğunu, obyektiv reallığın müxtəlif fraqmentləri üçün sözlərin necə seçildiyini, sabitləndiyini və yayılmasını öyrənməklə bağlıdır.Metoforiklik fenomeninə C. Ceyms, D.Viko, F.Nitşe, A.Rişards, M.Beardsli, C.Orteqa və Qasset, E.Makkormak, P.Riker, E.Kassirer, M.Blek, M.Erikson və başqa tədqiqatçılar da diqqət ayırmışlar. C.Ceyns şüurun təkamülünü metaforalaşdırma qabiliyyəti ilə əlaqələndirir və hesab edirdi ki, metafora bizim dünya haqqında anlayışımızı dərinləşdirmək, insan şüurunu genişləndirmək üsuludur. C. Ceynsə görə anlamaq - uyğun metafora tapmaq, bilinməyən və anlaşılmayanı dərk etmək üçün yaxşı bilinən və duyğu hisslərimizlə əlaqəli olan obrazı götürmək deməkdir.Konseptual metafora üzrə müasir tədqiqatların fasiləsiz olaraq davam etməsi həm də C.Lakoff və M.Consonun nəzəriyyəsinə marağın artmasının göstəricisidi. Konseptual metaforaların insan təcrübəsinin bütün sferasını əhatə etdiyi və əhəmiyyətli idrak potensialına malik olduğu iddiasının nəticəsi olaraq hazırda konseptual metaforanın çoxsaylı tədqiqatları meydana çıxır. Konseptual metafora dil daşıyıcılarının mədəni paradiqmasının ayrılmaz hissəsi olmaqla insanların şüurunda elə bir iz salır ki, çox vaxt onu metafora kimi tanımaq olmur. Amerika tədqiqatçılarının tipologiyasında konseptual metaforalar üç əsas qrupa bölünür: struktur, ontoloji və oriyentasiya.

AZƏRBAYCAN DİLİNİN ORFOQRAFİYASINDA YENİ TENDENSİYALAR

Quliyeva S.M.
Bakı Slavyan Universiteti
E-mail: sebinequliyeva15@gmail.com

Azərbaycan dilinin orfoqrafiyasında yeni tendensiyaları öyrənmək, onları təhlil etmək müasir dilçiliyin ən vacib məsələlərindəndir. Gündəlik həyata tədricən nüfuz edən sözlərin yazılması üçün yeni qaydalar nəzərdən keçirilir. Tədqiqat obyekti yazı dilidir. Biz dilin müasir dünyada baş verən dəyişikliklərin göstəricisi olmasına, orfoqrafiyada yeni tendensiyaların, sözsüz ki, ünsiyyətin asanlaşdırılmasına töhfə verdiyinə diqqət

yetirik. Sözlərin yazılışının dəyişməsinə bir çox müxtəlif sosial amillər təsir edir. Yeni orfoqrafiya dərin fundamental tədqiqatdır. Dildə söz və ifadələrin dəyişdirilmiş qrafikanın köməyi ilə heterogen (müxtəlif formalarda) ötürülməsi prosesləri mövcuddur.Orfoqrafiya anlayışı müəyyən bir dildə ümumi qəbul edilmiş qaydalar sistemidir. İki kökdən ibarət olan bu söz yunan dilində "orthos" - düzgün, "qrafo" isə yazı sözündən formalaşıb. XI əsrə qədər sözlərin yazılışında ciddi qaydalar hökümran deyildi. Amma XI əsrdən etibarən orfoqrafiya rəsmi olmasa da, dilçiliyin bir sahəsi səviyyəsinə yüksəldi. Ərəb alimlərinin pedantlığı onu o qədər dəyişir ki, düzgün yazı dilin öyrənilməsi yolunda əngəl olur.

Uzun illərdir ki, elm adamları çoxdan köhnəlmiş qaydaları sadələşdirmək, sadələşdirmək üçün dəyişikliklərin edilməsi zərurəti haqqında danışırlar. Hələ fransız yazıçısı Volter, sözün eşidildiyi kimi yazmaq lazım olduğunu, lakin eyni zamanda verilmiş sözün etimologiyasını və dəqiq mənasını tapmağa, anlamağa imkan verən hərfləri və işarələri qorumaq lazım olduğunu söyləmişdi. Bəzi alimlər isə orfoqrafiya islahatlarının zəruri olduğuna inanırdılar. Digərləri isə hesab edirdilər ki, yazı qaydaları sistemindəki dəyişikliklər dili qədim köklərindən uzaqlaşdıracaq və beləliklə, nəsillər arasında yolverilməz olan uçurum yaranacaq.Bir dildə sözün fonetik forması adətən onun yazılışı ilə uyğun gəlmir. Məsələn, "ailə" sözünü götürsək, [ayilə] tələffüzü ilə orfoqrafiyadakı bu fərq aydın olur və bu, dilin tək özünə aid olan deyil, həm də alınma sözlərə aid olur. Azərbaycan dilində belə nümunələrin sayını daha da artırmaq olar. Məsələn; bir səs kimi tələffüz olunan qoşa saitlər; m, n, l, r samitlərinin özlərindən sonra gələn digər samitləri öz məxrəcinə salmaları və s. - bütün bunlar yazılı nitqi daha da ağırlaşdırır.Bu gün Azərbaycan orfoqrafiyası aşağıdakı prinsiplərə əsaslanır: fonetik prinsip; morfoloji prinsip; tarixi prinsip; etimoloji prinsip.Hər hansı siyasi və ya ictimai proseslər həmişə birbaşa dildə əks olunur. Müasir texnologiyalar, yeni terminologiya yaranır, cəmiyyətin inkişafı və Azərbaycanın dünyada geosiyasi təsirini artırılması, insanların mentalitetinin dəyişməsi dildə öz əksini tapır, onu yeni sözlərlə zənginləşdirir və təbii ki, Azərbaycan dilində sözlərin yazılışını qismən dəyişdirir.Bəzi alimlər qeyd edirlər ki, son illər dünyada insanların savad səviyyəsi aşağı düşür, şagirdlər ünsiyyətdə, xüsusən də yazıda daha çox səhvlərə yol verirlər. Bu fenomen Azərbaycan gənclərinə çox təsir etdi. Dilçi alimlər belə qənaətə gəliblər ki, Azərbaycan dilinin orfoqrafiya qaydalarına düzəlişlər və dəyişikliklər etmək lazımdır. Yeni Azərbaycan orfoqrafiya qaydaları əziyyətli və dərin bir araşdırmadır, çünki islahat təxminən iki min sözə təsir etdi. Buna görə də, bu mərhələdə hər iki orfoqrafiya - həm köhnə, tanış, həm də yeni tənzimlənən, müəyyən sözlərin yazılışında əhəmiyyətli dəyişikliklərə səbəb olan və hələ də insanlara az məlum olan – Azərbaycan dilində "mübarizə" gedir.Sözlərin orfoqrafiyasındakı islahatlar bütün canlı dillərə təsir edir, çünki bu proses insanların həyat tərzinin əksidir, yazı isə insan fəaliyyətinin məhsuludur. Digər tərəfdən canlı dillərin orfoqrafiyasındakı yeni meyllər cəmiyyətin yeni dünyagörüşünü, onun mentalitetini əks etdirən maraqlı sosial-mədəni hadisədir, eyni zamanda müasir dünyada baş verən dəyişikliklərin göstəricisidir; fikrin ifadəsini asanlaşdıran yığcamlıq, qısalıq istəyi ilə yazılı dildə yeni cərəyanlar yaranır; sözlərin orfoqrafiyasındakı dəyişiklik bir çox müxtəlif sosial amillərdən təsirlənir (dünyada ingilis dilinin geniş yayılmasının təsiri altında çoxlu sayda xarici sözlərin nüfuz etməsi və Yer kürəsində əhalinin miqrasiyasının daimi artması) . Bütün bu sadalanan amillər ünsiyyət vasitəsi kimi dildə öz əksini tapır.Bu gün Azərbaycan dilinin orfoqrafiyasında sürətli dəyişikliklər gedir. Buraya bir çox sadə alınma sözlərin yazılışı zamanı tələffüzə uyğunlaşdırılmasından başlamış (mənbə dildə tərkibində qq, ll, mm, pp, tt samitləri olan Avropa mənşəli aşağıdakı alınma sözlər bir samitlə yazılacaq: aqlütinativ, paralel, teleqram, aparat, vat və s., bəzi sözlərdəki qoşa "s" hərfinin biri ixtisara düşmüşdü: ekspres, konqres, kros, bras, stres. Lakin press (mətbuat) sözü istisnadır), mürəkkəb sözlərin yazılışındakı yeniliklərə qədər (bir vurğu ilə deyilən, müxtəlifmənalı sözlər: arabir, bugünkü, hərgecəki, köhnəfikirli, müxtəliftərəfli, ucdantutma, yenifikirli və s.) hər bir şey daxildir. Yeni orfoqrafiya qaydaları əsasında tərtib olunan lüğət 2021-ci ildə olundu. Hazırda məhz bu lüğət qüvvədədir. Zaman keçdikcə dil inkişaf edir, zənginləşir və yeni sözlər yaranır. Bu da yeni orfoqrafiya lüğətlərinin hər 5 ildən bir dəyişdirilməsini zəruri edir.

İNGİLİS DİLİNİN ÖYRƏDİLMƏSİ ZAMANI ANA DİLİNDƏN İSTİFADƏ

Rzayeva A.S.
Odlar Yurdu Universiteti
E-mail: arestes9599@gmail.com

İngilis dili "beynəlxalq ortaq dil" statusunu qazanmış ilk dildir, yəni başqa dillərdə danışan insanlar arasında ortaq ünsiyyət vasitəsidir. İngilis dili müasir dünyada ən çox danışılan dillərdən biridir.

İkinci/xarici dilin sinif otaqlarında öyrənilməsində ana dilinin istifadəsi haqqında uzun müddətdir ki, dil tədrisi sahəsində mübahisələr gedir. Müzakirələr göstərir ki,ideyalar və mövcud tədqiqatların nəticələri mübahisələrə son qoya bilməyib.Bununla belə, təbii ki, ana dilindən istifadə dinamikdir və özündə ehtiva edir.Müxtəlif amilləri nəzərə alaraq,müəllimlər ana dilinin istifadəsinə icazə vermək və ya qadağan etmək barədə ağıllı şəkildə qərar verə bilərlər.Ali təhsildə dil öyrənmək/tədris etmək çox vacibdir. Dil tədrisində iki əsas yanaşma mövcuddur, monolinqual və ikidilli. Dil üzrə aparılan tədqiqatlar tələbələrin İngilis dilini xüsusi məqsədlər üçün öyrənərkən ana dilindən istifadəyə münasibətini araşdırmış və onların ana dilindən ingilis dilinə və əksinə tərcümədə onun aparıcı rolunu və əhəmiyyətini sübut etmişdir. Bu tədqiqatlqr göstərdi ki, bütün öyrənənlər ingilis dili dərslərində ana dilinin dəstəyinə ehtiyac duyurlar. J.Harmerə görə, tələbələr linqvistik cəhətdən aktivləşə bilmirlərsə, sinifdə ana dilindən istifadə edirlər və ya seçilmiş tapşırıq üçün lüğətdən istifadə edirlər.A. Bonyadi dil öyrənənlərin öz ana dilindən resurs kimi istifadə etməsinin qaçılmaz olduğunu iddia edir və o qeyd edir ki,sagird və ya tələbələr hədəf dilin leksikası və strukturlarını öz ana dillərindəki ekvivalentləri ilə əlaqələndirməyi bacarmalıdırlar.Bundan əlavə, tərcümə şüurlu öyrənmə prosesi olduğundan şagirdlərin oxuyub anlama qabiliyyətini inkişaf etdirir. Schweers, ingilis dili dərslərində ana dilinin istifadəsi ilə bağlı tədqiqatının nəticələrinə dair hesabatında belə qənaətə gəlir ki, xarici dil və ana dili arasında oxşarlıqlar və fərqlər haqqında məlumatlılığı artırmaqla ikinci dili öyrənmək olar. Onun ana dilindən istifadə məsələsi ilə bağlı araşdırması göstərir ki, iştirakçıların 89%-i ingilis dili dərslərində ana dilindən istifadə edilməli olduğunu düşünür. S. Deller ana dilinin təkcə iki dil arasındakı fərqləri və oxşarlıqları qeyd etmək üçün bir mənbə olmadığını, həm də öyrənənlərə öz materiallarını, o cümlədən öz testlərini hazırlamağa , kortəbiiliyi və axıcılığı təşviq etməyə, qrup dinamikasına faydalı təsir göstərməyə və öyrənənlərdən davamlı və mənalı rəy almaga kömək edir. M. Xhemaili tərəfindən sinifdə və ya auditoriyada ana dilinin istifadəsi ilə bağlı araşdırmalara nəzər salsaq gorərik ki, 150 iştirakçıdan 43 nəfəri ana dilinin deyil yalnız ingilis dilinin sinif otaqlarında istifadə edilməli olduğuna inanır və onun naməlum sözlərin tərcüməsində istifadə oluna biləcəyini düşünürlər.

Dil tədrisində tərcümədən istifadəyə dair əsas etirazlar ümumiləşdirilmişdir .Belə ki,Kayenin fikrincə birincisi, tərcümə tələbələrin ünsiyyət bacarıqlarının inkişafına kömək etmir. İkincisi, onları xarici dil əvəzinə əvəzinə ana dilindəndən istifadə etməyə təşviq edir. Üçüncüsü, tərcümə fəaliyyəti analitik və ya verballinqvistik öyrənmə strategiyalarına üstünlük verən tələbələr üçün uyğun ola bilər. Nəhayət, tərcümə çətin bir bacarıqdır ki, bu da həmişə faydalı olmur. Digər tərəfdən, tərcümə fəaliyyətinin faydalarına bütün dil bacarıqlarının, yəni oxuma, yazma, danışma və dinləmə kimi təcrübələr daxildir. Kommunikativ səriştə baxımından tərcümə dəqiqliyi, aydınlığı və çevikliyi mənimsəməyə kömək edir. Məlumdur ki, tərcümə bir çox tələbələrin gündəlik olaraq rəsmi və ya qeyri-rəsmi şəkildə istifadə etdiyi real həyatda təbii fəaliyyətdir. Tərcümə, müəllimlər təşviq etməsə belə, bir çox öyrənənlər tərəfindən istifadə edilən adi strategiyadır.

Tərcümə çox vaxt dinləmə, danışma, oxuma və yazı kimi digər dörd əsas bacarıqla yanaşı beşinci dil bacarığı kimi də adlandırılır. Ana dilindən ingilis dilinə və ya əksinə ingili dilindən ana dilinə olunan tərcümələr ən mühüm sosial bacarıqlar kimi tanınır, çünki onlar yad insanlar arasında ünsiyyət və anlaşmaları təşviq edir. Tələbələr dillər arasındakı fərqlərdən xəbərdar olsalar, dil köçürmələri və öz dillərindən müdaxilələri azalacaq. Bəzi dilçilər bildirdilər ki, ingilis dili sinfində ana dilindən istifadə şagirdlərdə ingilis dilində söz və strukturların normalda mövcud olmayan dil uyğunluğunu düşünməyə vadar edə bilər. Buna görə də, tələbələrin dilin qeyri-paralel təbiəti haqqında şüurunun artırılması öyrənənlərə müqayisəli düşünməyə imkan verir. Təklif edilmişdir ki, tələbələrin əvvəlki təcrübəsi, onların səviyyəsi, kursun mərhələsi və fərdi dərsin mərhələsi kimi amillər də nəzərə alınmalıdır. Belə bir fikir var ana dilini ləğv etmək və ya məhdudlaşdırmaq daha yaxşı mənimsənilməsinə zəmanət vermir. Tərcümə tədris vasitəsi kimi qrammatika, sintaksis və dilin digər aspektlərini nəzərə almalıdır. Tələbələr orijinal materialları başa düşməkdə nə qədər yaxşı olsalar da, bəziləri zehni olaraq ingilis dilindən ana dilinə və əksinə tərcümə etməyə davam edirlər. Bu fakt ingilis dili müəllimlərini öyrənmə məqsədləri üçün tərcümənin vacibliyini nəzərə almağa vadar edir.B.Naymuşinə görə, "öyrənənlər tərcümə zamanı həmişə bilmədikləri söz və ifadələrlə rastlaşsalar da dərk edəcəklər ki, bu, uğurlu ünsiyyət üçün maneə ola bilməz.Buna görə də ana dilinə istisna etmək üçün nə elmi, nə də pedaqoji səbəblər var.Horwitz almanların əksəriyyətinin yalnız ingilis dilinin sinif otağında tədris edildiyini və bunun daha doğru olduğunu təsbit etdi.

Onların fikrincə ana dili dərsdə xüsusilə çətin izahatlarda istifadə edilməlidir. Onun apardığı müşahidələrə əsasən ispan tələbələri (70% və 75%) ingilis dilinin öyrənilməsi fikrini dəstəklədilər.Fransız tələbələri isə ingiliscə tərcümə etməkdən başqa bir şey deyil deyə ana silinə üstünlük verdilər.

Bundan əlavə, tərcümənin istifadəsini müqayisə edən Prince araşdırması xarici dilin öyrənilməsində söz ehtiyatı və məzmunun daha əhəmiyyətli rolu olduğunu ifadə etdi.Söz ehtiyatının zənginləşməsində istifadə edilən müxtəlif növlü lüğətlər də müəllimlər tərəfindən effektiv bir vasitə kimi geniş şəkildə qəbul edilmişdir.

Tələbələr tərcümə yolu ilə, yəni sözü əlaqələndirməklə öyrənməyə üstünlük vermişlər və xarici dili ana dilində qarşılığı olan sözlə öyrənmişlər. Onlar üçün tərcümə sözlərin öz ana dilinə daxil olması lüğət ehtiyatını zənginləşdirmək üçün daha təsirli olur. Schweers araşdırması bu fikri dəstəklədi. Onun araşdırması göstərir ki, əksəriyyəti (88,7%) tələbələr ingilis dilinin tədrisində ana dilindən istifadə edilməsi lazım olduğunu ifadə ediblər.Bəzi tədqiaqatçılar kimliklərinin təhlükə altında olduğunu hiss edəcəklərini də bildiriblər.Onların fikrincə xarici dil öyrənməklə ana dillərinin qarşısı alınar və doğma dil zəifləyər.Onlar yalnız ikinci dil öyrənərkən ana dillərinə məhəl qoymamaq olar.Tədris sahəsində cox vacib və daha əhəmiyyətli məsələ olan sinif otaqlarında ana dilindən istifadə

G. Mattioli tərəfindən təsnif edilmişdir.Onun araşdırmasında Çin sinif otaqlarında ana dilindən istifadə olunmasını israr edir.Çinlilərin nəzəriyyəsinə görə ana dili sosial-koqnitiv proseslər üçün dəyərli bir vasitədir.Bundan əlavə onlar fikrləşirdilər ki,sinifdə ana dilindən istifadə uşaqların tərbiyəsinə də təsir edir.

Çoxsaylı tədqiqatlar göstərdi ki, hər iki dil – ana dili və xarici dil arasında aktiv və müsbət transfer olmuşdur ki,bu da dillərarası inkişaf üçün mühüm əhəmiyyət kəsb edir.Tərcüməni isə tədris vasitəsi kimi nəzərə almaq lazımdır. Yuxarıdakı fikirlər üzərində aparılan müzakirələrə və araşdırma nəticələrinə əsasən soyləmək olar ki, ikinci/xarici dil öyrənilməsində ana dilinin dinamik rolu var. Çoxölçülü perspektivi nəzərə alaraq, müəllimlər ana dilindən istifadə edib-etməyəcəklərini ağıllı şəkildə müəyyən edə bilərlər.Ümumiyyətlə, tələbələrin mənimsəmə səviyyəsi zamanı ilk növbədə hədəf dil nəzərə alınmalıdır. Dərs zamanı müəllim tərəfindən ana dilindən istifadə tədricən azaldılmalıdır.Nəticədə tələbələrin hədəf dili daha yaxşı mənimsəməsinə nail olmaq olar. Artıq bir çox tədqiqatçılar tərəfindən sübut edilmişdir ki, ana dilinin linqvistik qabiliyyəti idrak qabiliyyətlərinin və öyrənmə qabiliyyətlərinin inkişafı ilə sıx əlaqədədir.

Nəticə etibarilə demək mümkündür ki, ingilis dilinin tədrisi zamanı ana dilindən istifadə məhdudlaşdırılmalı, dərsliklər və dərs vəsaitləri ana dilinə ehtiyac olmadan tam ingilis dilinin təkmilləşdirilməsinə və bu dildə qazanılan biliklərin möhkəmləndirilməsinə və tədris prosesinin yüksək səviyyədə həyata keçirilməsinə xidmət etməlidir.

FRAZEOLOGİYA VƏ GENDER DİLÇİLİYİ

Şaxməmmədova Z.A.
Bakı Slavyan Universiteti
E-mail: zshahmemmedli@gmail.com

Dildəki sabit söz birləşmələri, ifadə və ibarələrdən bəhs edən dilçilik şöbəsi frazeologiya adlanır. Frazeologiya termini iki yunan sözündən əmələ gəlmişdir. Yunan dilində phrasis "ifadə" deməkdir. Bütövlüklə frazeologiya termini dildə ifadə və ibarə haqqında təlim anlayışını bildirir.Dilin zənginləşməsində frazeoloji birləşmələrin əhəmiyyəti böyükdür. Onlar dilin lüğət tərkibinin ayrılmaz və zəngin xüsusiyyətli bir layıdır. Dilin frazeoloji sistemində xalqın həyat və məişətinin, tarixi keçmişinin, adət və ənənələrinin, müdrikliyinin, milli psixologiyasının çox aydın, parlaq əksini görürük. Frazeologizmlər özlərinin kommunikativ ifadə zənginliklərini saxlamaqla getdikcə saflaşır, obrazlılığı, ekspressivliyi, ifadəliliyi artırmaqla, nitqin səlisliyini, emosionallığını təmin edir.

Frazeologiyanın məqsədi frazeoloji vahidlərin (frazemlərin) dildə mövqeyini müəyyənləşdirmək, onların müvafiq prinsiplərə əsasən təsnifini vermək, üslubi xüsusiyyətlərini aydınlaşdırmaq, əmələgəlmə və inkişafetmə yollarını aşkar etməkdən ibarətdir.Frazeologiya dilçiliyin tam müstəqil şöbəsi kimi çox gəncdir. Lakin bu heç də o demək deyildir ki, frazeologiya məsələləri ilə əvvəllər məşğul olunmamışdır. Bu məsələ alimlərin diqqətini çoxdan cəlb etmiş və frazeologiya "gizli" inkişaf yolu keçmişdir.

Gender dilçiliyi - dildə və nitqdə cinslərarası mədəni və ictimai fərqlərin yaranması prosesinin necə təzahür etdiyini, həmçinin bu prosesin nəticəsini öyrənən elmi istiqamət.

Gender dilçiliyi bir neçə istiqamətdə inkişaf edir: sosio- və psixo-linqvistik, linqvokulturoloji tədqiqatlar; mədəniyyətlərarası əlaqənin öyrənilməsi (müxtəlif mədəniyyətlərin nümayəndələrinin ünsiyyəti), identik diaqnostika. Gender dilçiliyinin -nin yaranması və intensiv inkişafı 20 əsrin son onilliklərində postmodernist fəlsəfənin yayılması və daha əvvəl yalnız bioloji cəhətdən nəzərdən keçirilən etnik, yaş, cins kateqoriyalarının öyrənilməsinin elmi prinsiplərinin yenidən gözdən keçirilməsi ilə əlaqədar baş vermişdir

Tədqiqat nəticəsində əldə olunmuş məlumatlar müxtəlif dil və mədəniyyətlərdə androsentrizmin qeyri-bərabərliyi və gender sözünün ifadəliliyinin müxtəlif dərəcəsini əks etdirir. Genderin təsvirinin koqnitiv-praqmatik və stilistik modeli təklif olunmuş və dildə gender assimetrikliyinin növləri müəyyənləşdirilmişdir.

AZƏRBAYCAN DİLİNDƏ GENDER MÜNASİBƏTLƏRİNİ ƏKS ETDİRƏN FRAZEOLOJİ VAHİDLƏR

Şaxməmmədova Z.A.
Bakı Slavyan Universiteti
E-mail: zshahmemmedli@gmail.com

Məlumdur ki, Azərbaycanda gender münasibətlərinin inkişafı cəmiyyətdə qadın və kişilərin fərqli sosio-mədəni rolları ilə səciyyələnir.Onlar Azərbaycana mədəni təsiri və tarixi hadisələrin dinamikası ilə müəyyən edilir. Gender bərabərliyinin müxtəlif aspektlərdə araşdırılması, konkret olaraq müxtəlif sahələrdə ortaya çıxan gender problemlərinin mənşəyini, onların həlli yollarını müəyyənləşdirməyə şərait yaradır. Bu məsələlərin öyrənilməsi dövlətin strateji inkişafının müəyyənləşməsi baxımından əhəmiyyətlidir.

Müasir dilçilik elmində "dünyanın dil mənzərəsi" sayəsində aparılan araşdırmalar gender məsələlərinin dildə, konkret olaraq xalqa, topluma özəl olan "dünyanın dil mənzərəsi"ndə inikası məqamına xüsusilə diqqət ayırmağa başlamışlar. Məhz, bu maraqdandır ki, son dövr dilçilik araşdırmalarında nitqin gender özəllikləri probleminin tədqiqinə diqqət xüsusilə artmışdır.Azərbaycan dilinin frazeoloji sistemində gender münasibətlərini əks etdirən çox sayda ifadələr mövcuddur. Həmin ifadələrin xalqın təfəkkür tərzi, etnopsixologiyası, adət-ənənlərilə bilavasitə bağlılığı sistemli araşdırma tələb edən tədqiqat obyektinə çevirir. Gender münasibətlərini ifadə edən frazeoloji vahidlər təkcə AİLƏ, SEVGİ, NİKAH konseptləri aidlik baxımından deyil, fərqli həyati situasiyaların metaforik səciyyələndirməsi baxımından da maraq kəsb edir. Məsələn, Evdə xoruz, çöldə fərə ifadəsində xoruz-fərə ornitonimləri eyni quş növünün fərqli cinsə işarə edən heteronimik adlarıdır.Gender frazeologizmləri yüksək lakunarlıq əmsalına malik olub, konkret tarixi situasiyalar (sorarat, avunkulat ailə-nkah sistemi), bədii əsərlərlə şərtlənmə əsasında "şaquli kontekstə" malikdirlər.

Gender münasibətlərinin tarixən labüd mərhələsi kimi ailə institutu nəzərdən keçirildiyindən, Azərbaycan dilindəki gender frazeologizmlərinin böyük qismində məhz ailə münasibətlərini əks etdirən (ər – arvad) qohumluq terminlərinin üstünlük təşkil etməsi labüddür.

FRAZEOLOGİZMLƏR DÜNYANIN DİL MƏNZƏRƏSİNİN BİR PARÇASI KİMİ

Səbzəliyeva G.Ş.
Sumqayıt Dövlət Universiteti

Dünyanın dil xəritəsində «yüksək abstraksiyanın nəticəsi olan» deyimlərin də (frazeoloji birləşmələrin) özünəməxsus yeri vardır. Bu, dünyanın frazeoloji (deyim) xəritəsi adlandırıla bilər. Bu «dil xəritəsi»nə yanaşma, baxış dilçilik elminin yarandığı dövrdən müxtəlif yönlərdə olmuşdur. Bu və ya digər xalqa aid dünyanın dil mənzərəsi, onun (xalqın) koqnitiv dünya modeli əsrlər uzunu davam edən emprik mü- şahidələr əsasında formalaşan və həmin etnosa özəl olan bilik sisteminə istinad edir. "Xalqın ruhu – onun dilidir, xalqın dili – onun ruhudur. Bundan gözəl eyniyyət təsəvvür etmək olmaz!" - fikrinin müəllifi V.F.Humboldt yazırdı: "Hər bir dil xalqın ətrafında dairə çızır. İnsan da həmin dairəyə aid olur". Başqa sözlə desək, hər bir fərd aid olduğu cəmiyyətin stereotipləri, dəyərləri, linqvokulturologiyası, etnopsixologiyası ilə şərtlənən gözəgörünməz "dairədədir". Həmin dairənin verbal həlli isə bilavasitə "dünyanın dil mənzərəsi" modelində əks olunur. Həmin biliklər sistemi mütləq şəkildə sosiallaşmaya məruz qalır. Müasir dilçilik elmində "dünyanın dil mənzərəsi" sayəsində aparılan araşdırmalar[2]gender məsələlərinin dildə, konkret olaraq xalqa, topluma özəl olan "dünyanın dil mənzərəsi"ndə inikasız məqamına xüsusilə diqqət ayırmağa başlamışlar.

Bu baxımdan frazeologiya dünyanın dil mənzərəsinin bir parçası kimi xalqın maddi və mənəvi mədəniyyətini ifadə edir. "Dilin frazeoloji tərkibi linqvokultoroloji ümumiliyi, milli özünəməxsusluğu daha aydın göstərən bir güzgüdür". Frazeologizmlər semantik cəhətdən ən mürəkkəb dil vahidləri qrupuna aiddir.

Frazeoloji vahidlərin xarakterik xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, bu obrazlı ifadələrin ümumi mənası onların tərkib hissələrinin mənalarının sadə cəminə əsaslanaraq başa düşülə bilməz.

Tədqiqatçılar konkret xalqın dünyasının linqvistik mənzərəsində frazeoloji vahidlərin milli unikallığını, onlarda milli mentalitet elementlərinin əksini dəfələrlə qeyd etmişlər. Müxtəlif xalqların frazeoloji vahidləri arasındakı fərqi müəyyən bir xalqın dini və tarixi, adət-ənənələri, təbii şəraiti və dəyər sistemləri müəyyən edir. Məşhur rus dilçisi Larin yazırdı: "Frazeologizmlər həmişə xalqın düşüncələrini, ictimai quruluşu, öz dövrünün ideologiyasınıdolayısı ilə əks etdirir."

Konkret etnomədəni birliyin dünyagörüşünün milli özünəməxsusluğu xalqın həyat tərzi və psixologiyasından qaynaqlanır, dildə semantik quruluşu ilə əks olunur.Frazeoloji vahidlər adət-ənənələr sistemi, qanunlar və cəmiyyətdə formalaşan dünya haqqında gündəlik təsəvvürlər haqqında bilikləri saxlayır və nəsildən-nəslə ötürür. Bütün bunlar elm adamlarına frazeoloji vahidlər psixi formasiyalar, müxtəlif konfiqurasiyalarda mədəni əhəmiyyətli mənaları kodlayan ümumiləşdirilmiş – bütün psixi vahidlər. haqqında müəyyən anlayışların şifahi ifadə vasitəsi kimi danışmağa imkan verir. Frazeoloji vahidlər digər insanlar üçün anlaşılmazdır və buna görə də hərfi mənada qəbul edilir. Çox vaxt frazeoloji vahidlərin hərfi qavranılması danışanın/dinləyicinin fon, kontekst biliklərinin olmaması ilə əlaqələndirilir. Belə biliklər həmişə müəyyən mühitdə mövcudluğun, ona mənsub olmağın nəticəsidir, bu, yalnız müəyyən bir millət və ya millət üçün xarakterik olan, onların nümayəndələrinin kütləsi tərəfindən mənimsənilən və bu xalqın dilində əks olunan sosial-mədəni informasiyadır. Məhz buna görə də frazeoloji vahidlər milli mədəniyyətin əksi olmaqla onları başqa dilə tərcümə edərkən müəyyən çətinlik yaradır. Fərqli dillərdəki frazeoloji vahidlər mənaca oxşar olsalar belə, onlar müxtəlif ifadəli və üslubi rənglərə, fərqli obrazlı əsaslara malik ola və müxtəlif qiymətləndirmə funksiyalarını yerinə yetirə bilərlər.Müasir nitqdə (şifahi və yazılı) frazeoloji vahidlər bütövlükdə son dərəcə artır, mədəni və milli dünyagörüşünün stereotiplərini əks etdirən frazeoloji vahidlər Azərbaycan dilində adekvat ünsiyyət üçün zəruri olan mədəni minimumun məcburi hissəsinə çevrilir. Frazeoloji vahidlərdən istifadə ünsiyyəti canlandırır, nitqi daha canlı, emosional, rəngarəng və ifadəli edir, ona inandırıcılıq, rəngarənglik, metafora və obrazlılıq bəxş edir.

AZƏRBAYCAN DİLÇİLİYİNDƏ B.ÇOBANZADƏNİN ROLU

Şıxəliyeva P.R.
Bakı Slavyan Universiteti
E-mail: pervanesixeliyeva57@gmail.com

Azərbaycan dilçilik elminin bariz numunələrindən biri tanınmış dilçi Bəkir Çobanzadədir, demək olar ki, dilçiliyimizin yaranması dilçinin adı ilə bağlıdır. Bəkir Çobanzadə dilçiliklə bağlı bir çox məsələlərə toxunmuşdur. Çobanzadənin önəm verdiyi məsələlərinin içərisində söz yaradıcılığı prosesi də var. Buna görə də müəllif tədqiqatlarında Azərbaycan dilinin lüğət tərkibinin zənginləşməsində leksik şəkilçilərə çox önəm vermişdir. Azərbaycan dilində Bəkir Çobanzadə söz yaradıcılığının üç yolunu göstərmişdir:

1) leksik şəkilçilər vasitəsilə
2) iki sözün birləşməsi ilə
3) əcnəbi sözləri nümunə olaraq götürərək onlara uyğun söz yaratmaq yolu ilə.

Buradan məlum olur ki, B.Çobanzadə Kalka üsulunu nəzərdə tutmuşdur. Morfoloji yolla söz yaradıcılığı prosesinə keçməzdən əvvəl, müəllif kök və şəkilçi məsələləri haqqında tədqiqat aparıb,aydınlıq gətirir,onların fərqli xüsusiyyətlərinin izahını verir, dilin dərin qatlarına da baş vurmuşdur. Bu araşdırmalar yalnız Azərbaycan dilində deyil, türk dilləri kontekstində aparılmışdır. Müəllif türk dilində sözləri bu gün olduğu kimi quruluşuna görə üç yerə ayırır: 1) bəsit damar, 2) yapma damar, 3) qoşma damar. B.Çobanzadə izahına sadə sözdən, yəni kök (damar) anlayışından başlamışdır. "Damar sözün əslidir, sözün əsas mənasını daşıyan damardır". B.Çobanzadə başqa izahlarında isə artıq kök morfeminin xüsusiyyətini xarakterizə etmişdir. Belə bir fikir irəli sürür ki: "Bir sözün damar sayılması üçün dildə olan bütün şəkilçiləri ala bilməsi lazımdır".

Görkəmli türkoloq şəkilçi morfemini daha geniş izahnı verir, onun qrammatik əlamətlərini – sözyaratma və əlaqələndirmə vəzifələrini açıqlayır: Şəkilçilər hər hansısa sözə əlavə olunaraq onların mənaca və forma olaraq dəyişmələrinə səbəb olmuşdur. Bu səbəbdən də onlara "şəkilçi" başqa sözlə,"sözün şəklini dəyişdirən" deyirik.

B.Çobanzadə belə qeyd edir ki, dili şəkilçisiz təsəvvür etmək olmaz, əsas da leksik şəkilçilər həm yeni sözlərin yaranmasında, həm də alınma sözlərin dilə kütləvi axınının qarşısını almasında aparıcı mövqedə dayanır.

MƏTNİN MƏNA BAĞLILIĞININ TƏDQİQİ MƏSƏLƏLƏRİ

Süleymanova G.V.
Bakı Slavyan Universiteti
E-mail: gulnar.suleymanova.2000@list.ru

Dilçilik elmi mətnin strukturunu öyrənmək sahəsində öz inkişafının keyfiyyət dəyişmələri dövrünü başa vurmaqdadır. İndi mətn sintaksisi problemlərinə baxışların istiqaməti dəyişir, yeni məzmunda araşdırmalar meydana çıxır və yaxud mövcud araşdırmalar müasir yanaşmalarla davam etdirilir. Hal-hazırda son onilliklərin elmi nailiyyətlərindən biri olan mətn dilçiliyinin yeni perspektiv sahələri formalaşmaqdadır.Belə məsələlərdən biri mətnin məntiqi-semantik bütövlüyü məsələsidir. Mətn geniş mənada daha çox bütövlüyü ilə xarakterizə olunan, dar mənada isə maksimal konstruktiv dil vahididir. Mətn fiksasiya olunan və nitq yaradıcılığı kimi çıxış edən mürəkkəb, çoxcəhətli anlayışdır. Rus və bir sıra başqa dillərdə "mətn" sözünün qarşılığı kimi işlənən *"tekst"*(textus**)** sözü latın termini olub bağlılıq, əlaqə deməkdir. Mətnin struktur, semantik, funksional-kommunikativ, həmçinin də məntiqi-semantik xüsusiyyətlərinin öyrənilməsinin dilin sintaktik sistemində çox mühüm rolu vardır. Q.Kazımov göstərir ki, hər hansı bir bədii əsərin struktur və məntiqi-semantik keyfiyyətlərini yoxlamaq, sənətkarın ustalığını üzə çıxarmaq üçün sintaktik bütövlər, onların məna və quruluş xüsusiyyətlərinin öyrənilməsi son dərəcə geniş imkanlar yaradır. Bu imkanların meydana çıxarılmasında məntiqi-semantik əlaqə, rabitə üsullarının öyrənilməsinin çox böyük rolu vardır.

M.Musayev yazır: "Mətn müxtəlif dil hərəkətlərinin düzxətt boyunca ardıcıl düzülüşüdür. Mətndə kommunikativ bitkinlik əsas şərtdir. Onun qurulması təkcə qrammatik qaydalara deyil, həmçinin də məntiqi-semantik qayda və prinsiplərə əsaslanır. Ona görə də çox düzgün qeyd edirlər ki, mətn yetərli ölçüdə daxili enerji ehtiva edən, həmin enerji əsasında təşəkkül tapan, öz-özünə inkişaf edən və etdirilən və sözün tam mənasında mədəniyyətlə qidalanan bir prosesdir".Mətn dildə sosial hərəkət üçün legitim forma hesab edilir. Yəni mətn sosial və intellektual özünüifadənin göstəricisidir. O, bir tərəfdən davranış və hərəkətləri əks etdirir, digər tərəfdən isə məlumatvermə və təsirgöstərmə niyyətlərinin ünsiyyətdə gerçəkləşməsi formasıdır. Məna və tematik struktur, eləcə də məqama bağlılıq və niyyəti ifadəetmə mətnin məzmun planına daxildir. Bu baxımdan mətnin müxtəlif növləri yaranmışdır. "Aid olduğu sahədən, üslubdan, mövzu və məzmundan asılı olaraq, mətnin müxtəlif növləri meydana gəlmişdir. Məsələn, elmi mətn, bədii mətn, publisistik mətn, epistolyar mətn və s. Hər mətnin özünün özünə aid xüsusiyyətləri, özəllikləri var".Mətnin məntiqi-semantik bütövlüyünü dil yaruslarında meydana çıxarmaq üçün 3 əsas funksiyanı (məlumatın ötürülməsi, yeni fikrin formalaşması, yaddaş mədəniyyəti) dərk edərək, araşdırmanı bu nöqtələr üzərində aparmağı qərara aldıq. Bizə elə gəlir ki, bütövlük həm mətnin quruluş, həm də konstruktiv-semantik əlaməti kimi çıxış edir.Məntiqi-semantik bütövlük mətnin "kommunikativ dövrə"sində yaranır. Yəni sözügedən bütövlük mətnlə ünsiyyətin qovuşuğunda əmələ gəlir. V.Buxbinder mətnin məntiqi-semantik bütövlüyünü onun qeyd edilən "dövrə"silə əlaqələndirməkdə haqlıdır.

İ.Qalperin bu haqda yazır: "Mətn − müəyyən başlığa və məqsədyönlüyə, praqmatik məqama malik olan qrammatik, leksik, məntiqi, üslubi əlaqələr və bir neçə xüsusi vahidlər (frazafövqi birliklər) vasitəsilə birləşmiş və ədəbi dildəki nitqi təşkil edən dil işarələrinin qaydalı və yazılı birliyidir".

Demək, mətndaxili əlaqəlilik mətnin məntiqi-semantik bütövlüyünü müəyyən sintaktik çərçivədə şərtləndirir.İ.R.Qalperinin fikrincə, mətnin bütövlüyü məsələsi aşağıdakıları əhatə edir: məna bütövlüyü; kommunikativ bütövlük; struktur bütövlük .M.Zəkiyevin fikrincə, "Mətnin məntiqi-semantik bütövlüyünü iyerarxik münasibətlərə, onları birləşdirən linqvistik vasitələrə əsasən öyrənmək gərəkdir. Mürəkkəb sintaktik bütövlərin sərhədləri əlaqəli nitqin müstəqil, bərabərhüquqlu cümlələri arasındakı bütövlüyü, bağlılığı öyrənmək üçün lazım olan tələblərlə müəyyən edilir". Mətnin qurulması çoxplanlı bir məsələdir. Bu çoxplanlılığa mətn dilçiliyində ən mühüm məsələlərdən biri olan mətnin bütövlüyü məsələsi də daxildir. Mətn linqvistik hadisə kimi formal-struktur, funksional-kommunikativ və məntiqi-semantik bütövlüyə malikdir. Bu məsələdən bəhs edərkən A.Məmmədov yazır: "Mətn müəyyən konkret uyğun məlumatın maksimal dərəcədə ötürülməsi prosesini əldə etmək üçün müəyyən sintaktik çərçivədə yaradılır ki, bu da onun bütövlüyünü hərtərəfli şəkildə şərtləndirir. Mətnə daxili təşkilatlanma da xasdır. Bu onu sintaqmatik səviyyədə bir struktur tama çevirir. Lakin bütöv olmaq üçün mətn həm də daxilən əlaqəli olmalıdır".Bir mətndə qeyd olunan bütövlüyün hər birini ayırd etmək mümkündür. Məs.: ***Gələnlər*** *dəyələrə yaxınlaşdılar. Arvad qışqırtısı uşaq ağlamasına qarışdı. Kimi isə söydülər. Kimi isə itələdilər. Dəyələrə basqın etmişdilər. Ancaq çapqınçılar mal-qara aparmağa gəlmişdilər.* ***Gələnlər*** *dəyələri axtarırdılar.*

Basqınçılar *Cahandar ağagilin dəyələrinə yaxınlaşdılar. Nökərlər çomaq götürüb yolu kəsdilər. Əlbə-*

yaxa vuruş başladı. Ağac şaqqıldadı, xəncər cingildədi. Zərnigar xanım da, Salatın da başa düşdü ki, ***gələnlərin*** *qabağını saxlamaq mümkün deyil.* ***Basqınçılar****, nəhayət, Şamxalın dəyəsinə yaxınlaşdılar ...****Basqınçılar*** *Zərnigar xanımı da, Güləsəri də qolundan tutub bayıra atdılar...****Basqınçılar*** *xeyli gəzdilər...****Basqınçılar*** *bir xeyli qayaların ətrafında fırlandılar...****Onlar*** *bir azdan atları dördnala çaparaq dərədə gözdən itdilər* [22,83].

Bu mətnin quruluş bütövlüyü orada cümlə tiplərinin və onların daşıdığı məna yükünün, əsasən, eyni olması ilə bağlıdır. Həmin mətnin semantik səviyyəsi buradakı cümlələrin təsadüfi toplu olmaması, onların bir məna ətrafında əlaqəli olması ilə şərtlənir. Mətnin məna yükü cümlələr arasında bölüşdürülmüşdür. “Siqnal cümlələr” “gələnlər”, “çapqıncılar”, “basqıncılar”, “onlar” kimi sinonim anlayışları ifadə edir. Eyni zamanda, mətnin əvvəlində onların təkrarı mətndəki semantik yükün ağırlığını öz üzərinə götürmüşdür. Keçid və əlaqələndirici cümlələr isə mənanın açılmasına xidmət edir. Mətnin əvvəlinci və sonuncu cümləsi cüttərkiblidir. Mətnin kommunikativ bütövlüyü onların komponentləri arasında obyektiv məntiqi əlaqənin olması ilə yaranmışdır. Mətndə məntiqi əlaqə pozulmamışdır. Mənanın açılmasında kontekst mühüm rol oynamış və sinonim vahidlər mətnin üslubi bütövlüyünü təşkil etmişdir.

ABOUT THE USE OF MODAL VERBS IN ENGLISH

Zamanova U.
Nakhchivan State University
E-mail: ulviyezamanzade000@icloud.com

Modality is nothing more than an expression of the speaker's attitude towards his own message. Accordingly, modal verbs are a special strictly limited lexical group that helps to express not an action (as other verbs do), but an attitude towards the described action.Modality is a category that expresses the attitude of the speaker to the content of the statement. Modality can have the meaning of statements, orders, wishes, etc. Modality is expressed by special forms of moods, intonation, modal words (for example, "may", "can", "should"); in logic, such words are called modal operators; they indicate the way in which judgments are understood. The first definition of modality is found in the linguistic dictionary which considers modality as a conceptual category with the meaning of the speaker's relationship to the content of the statement and the relationship of the content of the statement to reality (the relationship of the reported to its actual implementation), expressed by various lexical and grammatical means, such as form and mood, modal verbs, etc. Modality can have the meaning of statements, orders, wishes, assumptions, reliability, unreality, etc. The dictionary of linguistic terms also gives a division of modality by type: hypothetical modality (hypothetical or suppositional modality), which involves the presentation of the content of the statement as hypothetical; - verbal modality. The modality expressed by the verb; modality unreal (unreal modality) presentation of the content of the statement as impossible, unrealizable; negative modality - presentation of the content of the statement as inconsistent with reality.Modality is expressed by multi-level means of the language, secondly, it is indicated that the category of objective modality correlates with the category of predicativity, thirdly, a circle of phenomena related to the phenomena of modality is outlined: the meaning of reality - irreality: reality is denoted by a syntactic indicative (present, past, future tense); unreality - unreal moods (subjunctive, conditional, desirable, incentive); subjective-modal meaning - the attitude of the speaker to the reported; the sphere of modality includes words (verbs, short adjectives), which, by their lexical meanings, express the possibility, desire, duty.

The category of modality is differentiated into two types: objective and subjective. Objective modality is a mandatory feature of any statement, one of the categories that form the predicative unit - the sentence. This type of modality expresses the relation of what is reported to reality in terms of reality (feasibility).In English, modal verbs are part of the core English vocabulary, they have all the features, including vernacular ones. Modal verbs express vital grammatical and lexical meanings. In recent years, the problem of modal means of expression in different languages has attracted the attention of linguists. Modal verbs express vital grammatical and lexical meanings. In English linguistics, the problem of modality is studied in a completely different way. For example, the linguists tried to show the connections and relationships in the form of formulas that clearly interpret the features of development and the meaning of modal verbs. However, all this did not fill the gap in the study of modal verbs in English linguistics. Unlike many words in the main dictionary, modal verbs (may, might) must be close in meaning to the types of verbs and have many lexical meanings, such as conditional, news, imperative forms of verbs. All these meanings together serve to express a special category

— the category of modality: He couldn't say that. We must come too. A new household appliance can really be practical. This letter may come from my uncle. Translation: O, bunu deyə bilməzdi. Biz də gəlməliyik. Yeni bir məişət cihazı həqiqətən praktik ola bilər. Bu məktub həyat yoldaşımdan gələ bilər. The means of expressing modality in English appear as a whole complex. In this case, the means of expression used in the sentence do not lose their specificity to the end. This is more specific than morphological means of expression. Since verb forms are general and abstract, they can express various shades of modality. By their role in the sentence, modal verbs are auxiliary. They denote the possibility, ability, the need to perform an action expressed by a semantic verb. Since they express only a modal relation, and not an action, they are never used as a separate member of a sentence. Modal verbs are always combined only with the infinitive, forming combinations with it, which in the sentence are a complex modal predicate. The modal verbs must, should-ought, will-would, can-could, may-might, need can express various shades of suggestion.Every writer's language obeys only those laws that the author himself creates. Many linguists note that in recent decades the literary language has been gradually removing restrictions - it is becoming open to dialects, jargon, colloquial vocabulary. The artistic style of speech presupposes, first of all, freedom in the choice of words, which, however, must be associated with the greatest responsibility, expressed in a sense of proportionality and conformity. Modal verbs convey a variety of shades of modality, from the assumption bordering on confidence to the assumption that the speaker is unsure. Lexical means are such modal words as perhaps, may be, probably, possibly. Many linguists speak of modal words as an independent part of speech. Their syntactic function is the function of the introductory member of the sentence. Some foreign linguists believe that these words are adverbs drawn into the field of modal words, without ceasing to be adverbs. Other linguists firmly believe that such words as perhaps, may be, probably, possibly should be attributed to the modal group.Scientists suggest that modal verbs express objective reality, while introductory words express subjective reality. It can be assumed that the verbs ‘can’ and ‘may’ specialize in the transfer of possible, intended actions, and the verbs ‘must’, ‘should’, ‘might’, in addition to the meaning of obligation, also convey the intended, probable actions, thus closely related to the meaning of introductory words, such as perhaps, possibly, probably, certainly. When modal words and introductory words are used simultaneously, in such cases we are dealing with synonymous constructions. Modality in translation can be conveyed by the same means as it is expressed in the original or by other means, or it may not find a formal expression at all. But this does not mean that it is not expressed in any way. It can be passed without a special modal "pointer". In other words, in this sentence, the modality is not explicit (openly expressed), but implicit (implied).

The least of all difficulties are cases when modality is conveyed by the same means: inclinations, modal verbs. But even here there are difficulties. For example: Don't must be satisfied. It must be satisfied - an ambiguous formulation that allows two meanings:

1) it must be satisfied;

2) he must be satisfied.

The verb ‘must’,’ can’ have different functions, and only the context and setting allow them to be distinguished. For example: She must dye her hair. She must be dyeing her hair. She has to dye her hair. The first translation is correct.

The main difficulty lies in the multi-functionality of modal verbs. ‘Must’ and ‘can’ express both assumption. For example: 1) I must have been mistaken. I can have been wrong.

From the point of view of modern linguistics, the category of modality is one of the most complex functional and semantic categories, which reflects the connection between the internal mental processes of a person and the phenomena of the external world. As is known, any speech utterance is based on the mental reaction of the individual to external stimuli, that is, the attitude of the speaker to reality is contained.

ТУРЕЦКИЕ ГЕОГРАФИЧЕСКИЕ НАЗВАНИЯ В РУССКОМ ЯЗЫКЕ

Карадаг Неслихан
Бакинский славянский университет
E-mail: neslihan0616@gmail.com

Проблема адаптации иноязычных имён собственных, в том числе и географических названий, является актуальной для любого языка, в том числе и русского. До сих пор ещё не выработаны единые нормы передачи турецких географических названий в русском языке. Это связано с тем, что оба языка

различаются не только своими фонетико-фонологическими системами, но и графикой. Поэтому достаточно сложно сделать адекватный выбор между существующими способами письменной передачи турецких географических названий в русском языке.При отсутствии единых правил при письменной передаче турецких географических названий в русском языке, делается попытка найти наиболее приемлемый способ, диктуемый, во-первых, фонетическим сходством обозначаемого русскими буквами турецких географического названия, во-вторых – благозвучием, и, в-третьих – статистическими данными.

Для этого, во-первых, проводится анализ турецких географических названий, употребляющихся в русском языке.

Во-вторых, определяются способы письменной передачи этих названий и выявляется наиболее адекватный из них.

В-третьих, делается попытка создания определённых стандартов транслитерации с чёткими, непротиворечивыми правилами передачи турецких географических названий средствами кириллицы.

Их можно изменять в соответствии с фонологической и графологической структурой целевого языка. Их можно объяснить с помощью словаря, чтобы восполнить недостаток знаний читателя на целевом языке по предмету. В редких случаях, например, если собственное имя в исходном тексте содержит культурный подтекст, который целевой читатель может не понять, эти имена могут быть добавлены к целевому языку таким образом, чтобы целевой читатель мог его понять.

В результате необходимо обеспечить соблюдение существующих методик относительно письменного перевода турецких географических названий на русский язык, где вытекающие отличия заключаются в том, что перевод фактически имеет уникальную систему и целостность, и поэтому не могут быть выбраны полностью идентичные буквы и слова.

СМЫСЛОВАЯ (ЗНАКОВАЯ) СПЕЦИФИКА ТЕРМИНОВ

Озел Эбру
Бакинский славянский университет
E-mail: ebreelaozel@gmail.com

Термины обладают своей спецификой в силу отнесения их к определенной терминологии. Наиболее подробно и убедительно основная специфика термина представлена в книге А.В.Суперанской и др. Так, специфические особенности терминов проявляются в том, что:

1) термин-понятие — это определенное научное представление (концепт), а термин-слово — поскольку это название (имя) понятия, его словесное обозначение;

2) термин-понятие непременно соотнесен со своим терминологическим полем;

3) термин-понятие — обязательно член определенной терминологии, дающей ему системную характеристику, поскольку значение термина определяется его местом в системе понятий данной дисциплины;

4) термин-слово является членом лексической системы, обслуживающей определенное терминологическое поле. Внутри своего микрополя термин-слово входит в соответствующий терминологический ряд, формирующийся по принципу однотипности основ или словообразовательных элементов, и в этом его языковая системность.

К перечисленному выше можно добавить мнение А.А.Реформатского о том, что специфика термина заключается «в точно отграниченной сфере его применения, в точном соотношении вещи и слова. Конечно, всякий термин есть слово. Но не всякое слово — термин.В целом к специальной лексике относятся все лексические средства, связанные с профессиональной деятельностью человека. К специальной лексике относится еще ряд понятий, которые нужно отличать от собственно терминов: прототермины, терминоиды, предтермины, квазитермины, псевдотермины и гипотетические термины.

С.В.Гринев-Гриневич предлагает следующие определения понятий, образующих специальную лексику:

Прототермины — это специальные лексемы, появившиеся и применяющиеся в донаучный период развития специальных знаний, и поэтому они называют не понятия (они возникают с появлением науки), а специальные представления;

Терминоиды — специальные лексемы, используемые для наименования так называемых натуральных понятий, т.е. недостаточно устоявшихся (формирующихся) и неоднозначно понимаемых понятий, не имеющих четких границ, а значит, и дефиниций;

Предтермины — специальные лексемы, используемые в качестве терминов для называния новых сформировавшихся понятий, но не отвечающие основным требованиям, предъявляемым к термину (чаще всего требованию краткости); в ряде случаев замена предтермина лексической единицей, более соответствующей терминологическим требованиям, затягивается, и предтермин закрепляется в специальной лексике, приобретая устойчивый характер и становясь квазитермином;

Псевдотермины — специальные лексические единицы, используемые для обозначения ложных понятий;

Гипотетические термины — обозначающие понятия, достаточно хорошо определенные, но не имеющие денотатов.

Таким образом, термин не может обладать двумя или более смыслами, поскольку является выражением научного понятия. «Термин, будь то слово (простое или сложное) или словосочетание (весьма разные по степени разложимости составляющих компонентов), представляет собой один знак, которому соответствует одно понятие. Обладая сложной внутренней семантической структурой, термин является единой, отдельной, самостоятельной единицей наименования». (В. П. Даниленко)

XIII BÖLÜM

ƏDƏBİYYATŞÜNASLIQ

İTKİN DÜŞMÜŞ ÖVLADIN TAPILMASI MOTİVİ

Babayeva N.G.
Bakı Slavyan Universiteti
E-mail: babayevanuray@icloud.com

Xalq ənənələrindən, mifologiyadan tez-tez qaynaqlanan C.Cabbarlı "Ədirnə fəthi" pyesində də bu ənənəni yaşadır. Burada uşaqlıqdan itkin düşmüş oğulun sonradan tanınıb tapılması Sofoklun qədim yunan mifi əsasında ərsəyə gətirdiyi "Tiran Edip" faciəsi ilə bəzi paralelliklər daşıyır. İtkin övladın tapılması "Kitabi-Dədə Qorqud" dastanlarında Basatla bağlı süjetdə də özünü göstərsə də, itkinin günaha meyilliliyi daha çox Ediplə bağlı xətdə müşahidə edilir.Sofoklun "Tiran Edip" faciəsində Edipin tale qarşısında acizliyi səbəbi ilə bilmədən doğma atası Layı öldürməsi və anası İokasta ilə ailə qurması motivindən çıxış edən Z.Freyd nəzəriyyəsində insan şüuraltında üç əsas instiktdən biri hesab etdiyi "nəsli artırma instikti"ni "Edip kompleksi" adlandırmışdır. Freydin paradoksal nəzəriyyələrindən biri kimi elmdə öz yerini tutmuş nəzəriyyəsi kiçik yaşlardan başlayaraq oğlan uşaqlarında analarına meyil və bunun onların şüuraltında qoyduğu zədə və komplekslərin məcmusunu ehtiva edir. Əgər Sofokl bunu "Tiran Edip" faciəsində Ediplə anasının ailə qurması səhnəsini vermişdirsə, Cəfər Cabbarlı da "Ədirnə fəthi"ndə Xalid uşaqlıqdan ayrı düşdüyü bacısı Zöhrəyə duyduğu məhəbbəti təsvir edir. Lakin, onların sonu doğma bacı-qardaş olduqlarını öyrənməklə nəticələnir. Artıq məlum olur ki, Xalidin bacısı Zöhrəyə olan məhəbbəti özü də bilmədən daha çox qan bağı olan insanın duyduğu sevgi idi. Ona düşmən olan Kamalın kənardan təhriki ilə bu qanın korlanma təhlükəsi olsa da C.Cabbarlı buna imkan vermir. Hər iki obraz—Edip və Xalid körpə yaşlarından ailəsindən uzağa düşmüşlər. Sofoklun bu faciəsində həmin dövr dünya ədəbiyyatında taleyə meydan oxumağa cəhdləri və ona müdaxilənin mümkünsüzlüyü düşüncəsi ənənə halını almışdı. Edipi anası ilə evliliyə tale məhkum edibsə, Xalidi bacısı Zöhrə ilə evliliyə Kamal təhrik edir. Edip ona yazılan taleyi yaşamağa məhkum olduğundan anası ilə ailə qurur. Lakin, C.Cabbarlı türk qanının belə çirklənməsini, ailə münasibətlərinin məhv olmasını qəbul edə bilməzdi.

Pyesdə Z.Freydin nəzəriyyəsinin daha bir müşahidəsini aparmaq mümükündür. Z.Freydin "istəkli oğul" adlandırdığı nəzəriyyəsində göstərir ki, dünyada uğur qazanan kişi cinsi nümayəndələrinin böyük bir qismi anasından daha böyük sevgi və qayğı görən şəxslərdir. Həmçinin, elə uşaqlar da var ki, onlar bu məhəbbəti tam hiss etmədiklərindən bu, onlarda ruhi sarsıntıya səbəb olur, həm də onlar müxtəlif qəbuledilməz komplekslər daşıyırlar.Məsələyə Freydin bu nəzəriyyəsi ilə yanaşsaq, Xalid də ana qayğısından məhrum olduğundan və məlum olduğu kimi kənar təsir səbəbi ilə səhvlərə yol verir. Eyni ilə Edipin ögey anası olsa da özü də bilmədən doğma ana qayğısından məhrum olduğundan baş verənlər qarşısında aciz qalır.

Freydin nəzəriyyəsində "sublimasiya" adı verdiyi prosesin insan şüuraltında doğurduğu qarışıqlıqlar insan əməlində hansı formada təzahür etməsini araşdırmaqla belə nəticəyə gəlmişdir ki, bu proses insanda incəsənətə,dinə, hətta elmə meyil etmə formasında təzahür etdiyi kimi, həm də cinayətə müharibə və qırğınlara da meyil formasında özünü göstərir. Xalid də Zöhrə uğrunda qan tökməyə hətta canını da verməyə hazırdır. Edip isə özü bilmədən atasının qatili olur.

CƏLİL MƏMMƏDQULUZADƏNİN "MOLLA NƏSRƏDDİN" JURNALINDA ƏKS ETDİRDİYİ PROBLEMATİK MƏSƏLƏLƏR

Cəlilzadə S.H.
Bakı Slavyan Universiteti
E-mail:sitara.celilzade@gmail.com

Azərbaycan publisistikası, ictimai fikir tarixində C. Məmmədquluzadə xüsusi bir mərhələ təşkil edir. Onun yaradıcılığı, xüsusən publisistikasında xalqa həqiqəti göstərmək, dünyanı açıq nəzərlərlə dərk etmək

mühim yer tutur. Mirzə Cəlil bir çox mətbu orqanlarda müxtəlif mövzulu əsərlərlə çıxış etsə də, heç şübhəsiz, onun yaradıcılıq zirvəsi, məhz "Molla Nəsrəddin" dir. O və məsləkdaşları uzun illər bu orqan ətrafına toplanmış, xalqın mənafeyi uğruna çalışmışlar. Bu jurnalda yazdığı publisistik əsərlərdə Mirzə satiraya müraciət etmiş və bu vasitə ilə reallığı göstərməyə çalışmışdır. Bəs niyə satira? Böyük publisist xalqı tənqid etmək yolu ilə əslində onun islahına çalışır, millətini doğru yola gətirməyə səy göstərirdi. O, yaxşı bilirdi ki, bu heç də asan olmayacaq. Çünki uzun illər boyunca xalqın gözündə olan cəhalət pərdəsini endirmək yolu çox çətin və keşməkeşlidir. Elə ona görə də, Mirzə Cəlilin nəşr etdirdiyi "Molla Nəsrəddin" digər mətbu orqanlarının işindən daha fərqli yol tutdu. İlk sayından karikaturalardan ibarət olan bu jurnal xalqın diqqətini çəkdi. Jurnalın ilk sayının rəssamı Oskar Şmerlinq idi. Sonrakı illərdə İosif Rotter, Əzim Əzimzadə, Xəlil Musayev, Təbriz nömrələrində isə Seyid Əli Behzad bu işi öz öhdəsinə götürmüşdü. Bu karikaturaları rəssamlar yaratsa da, onlara ideyaları, hətta obrazların üz quruluşlarına, mimikalarına kimi C. Məmmədquluzadə ilə Ömər Faiq Nemanzadə göstərirdi. Savadsız kütlə oxumaq bilməsə də, nəzərlərini müxtəlif rəngli şəkillərdən ibarət bu jurnal çəkdi. Təsadüfi deyildir ki, ilk dəfə iki min tirajla buraxılan jurnal bir saat içində satıldı. Bu cür tələbat naşiri növbəti buraxılışda beş min tirajla çıxarmağa sövq etdi. Təbii ki, jurnalın bu cür maraqla qarşılanması və bu qədər xalq kütləsinə çatması C. Məmmədquluzadənin ağlı, bacarığı, həmçinin xalqını dərindən tanımasından qaynaqlanırdı. Bunun əsas səbəbi publisistin də, özünün bu mühitdən çıxması, əsərlərini ünvanladığı kütləni yaxından tanıması ilə bağlı idi. O, bəzən konkret adlar çəkməsə də, əslində gördüyü konkret şəxslərin ümumiləşmiş və xalq səviyyəsində əks olunan problemlərini göstərirdi.

Yuxarıda qeyd etdiyimiz kimi jurnal satira yolu tutmuşdu, hətta bu jurnalda ilk satirik şeir Mirzə Cəlil qələminin məhsuludur. Bu yol ilə o, şairlərdə jurnala qarşı həvəs yaratmağa çalışırdı. Mirzənin öz dili ilə desək, o, "Sabirləri axtarırdı". Bütün bu zəhmətlər boşuna deyildi. Xalqını böyük xalqlar sırasında görmək istəyən sənətkar, sözün gücünü bilir, onun sehrini duyurdu. Elə bu səbəbdən də, bu yolda yorulmadan çalışırdı. O, otuz illik publisistik fəaliyyətində xalqını doğru yola gətirməyə çalışmış və onlara sanki, el ağsaqqalı, yaxud böyük qardaş kimi nəsihət etmişdir. Maarifpərvər publisist çoxillik yaradıcılığında ətrafına özü kimi ziyalı şəxslər toplamış və xalqın inkişafı üçün çalışmışdır. Onunla birlikdə külüng döyən Ömər Faiq, Sabir, Əliqulu Qəmküsar, Ə. Haqverdiyev, Əli Nəzmi kimi məsləkdaşları olmuşdur. Bu jurnal dövrünün fenomenine çevrildi və bir jurnalın boynuna düşən vəzifəni artıqlaması ilə yerinə yetirməyə çalışdı. Jurnal Azərbaycan həqiqətlərini mərkəzə gətirdi. Milli problemlərin həllinə yönələn bu jurnal xalqın şüurunda, ictimai fikrində əhəmiyyətli yer tutdu. Heç şübhəsiz, bütün bunlar böyük publisistin uzun və zəhmətli yaradıcılığının bəhrəsi idi.

C. Məmmədquluzadə yaradıcılığı boyunca millətin dərdinə yanmış, onun inkişafına çalışmışdır. Mirzə Cəlil əsl vətənpərvər idi. C. Məmmədquluzadə sadə, eyni zamanda səmimi Azərbaycan dilində əsərlərini qələmə alırdısa, Əli bəy Osmanlı türkcəsindən istifadə edirdi, lakin onların hər ikisinin qayəsi, amalı eyni idi. C. Məmmədquluzadə ona görə, sadə və anlaşıqlı dildə yazırdı ki, onun əsərlərinin istiqaməti adi təhsilsiz insanlar idi. Bununla belə, Mirzə Cəlil əslini unutmur, türk oğlu olduğunu yaddan çıxarmırdı. Elə bu səbəbdən istər bədii, istərsə də, publisistik əsərlərində milli kök, dil məsələlərinə toxunan müəllifin bu mövzuda kifayət qədər dəyərli əsərləri mövcuddur. Publisistin türkçülük ideyalarında 1926-cı ildə keçirilmiş I Türkoloji Qurultay dönüş nöqtəsi oldu. Mirzənin türkçülük, millət, dil, vətənpərvərlik mövzusunda yazdığı mətbu əsərlərini dərindən tədqiq etsək, deyə bilərik ki, qurultayın baş tutması C. Məmmədquluzadənin də yaradıcılığına təsirsiz ötüşməmişdir. O, yaradıcılıq nümunələrində "obrazovanni" ları da, tənqid etmiş, onları əsillərini danmaqda ittiham edərək satira hədəfinə çevirmişdir. Xalqa heç bir xeyiri dəyməyən bu şəxslər, hətta onları dünyaya gətirən analarını belə ələ salaraq bu qadınları savadsız kimi görmüşdür. Mirzə Cəlil xalqın yaralı yerini göstərir, kütlənin elm, təsildən uzaq olduğunu, elm alanların isə millətin üz qarası olduğunu ürəkyanğısı ilə təsvir edirdi. C. Məmmədquluzadə otuz illik publisistik fəaliyyəti illərində qələmini yalnız xalqına xidmət üçün istifadə etmiş, onların həyatlarındakı problematik məsələləri əsərlərinin mərkəzinə gətirmişdir.

"KƏMALÜDDÖVLƏ MƏKTUBLARI" ƏSƏRİNDƏ TƏNQİD HƏDƏFLƏRİ

Eldarova N.C.
AMEA-nın N.Gəncəvi adına Ədəbiyyat İnsitutu
E-mail: nazenin.eldarova@gmail.com

Azərbaycan ədəbiyyatının ən önəmli simalarından biri Mirzə Fətəli Axunzadədir. Maarifçi realizm cərəyanının nümayəndəsi olan Mirzə Fətəli Axunzadə öz əsərlərində cəhaləti, din adamlarını, despotizmi və

s. tənqid etmişdir. Elə buna görə də, bu fikri söyləmək heç də yalnış olmaz ki, maarifçi realist əsərlərdə tənqid tənqidi realist əsərlərdən daha kəskindir. Müəllif tənqidi realist əsərdə hadisələri göstərir, lakin yaxşı və ya pis, hərəkətlərin səhv və ya doğru olması haqqında bir fikir bildirmir, qərarı oxucuya buraxır. Lakin maarifçi realist müəllif hadisələrə öz tənqidi münasibətini açıq şəkildə göstərir və insanları cahələt yuxusundan oyanmağa çağırır. Bunu Mirzə Fətəli Axunzadənin dramlarında, o cümlədən "Kəmalüddövlə məktubları" əsərində də görmək mümkündür. 1865-ci ildə yazılmış bədii-fəlsəfi traktat Mirzə Fətəli Axunzadənin yazdığı ən mühüm tənqid tipli pubkisistik işi sayılır. Hind şahzadəsi Kəmalüddövlə ilə fars şahzadəsi Cəlalüddövləyə yazılması süjetin əsasını təşkil edir.

Mirzə Fətəli Axunzadənin "Kəmalüddövlə məktubları" əsərində despotizmi tənqid edir. Birinci məktubunda yazır ki, despotluq rejimi və ruhanilərin dini fanatizmi İranı zəiflədib. Lakin bu o demək deyil ki, Axundzadə hansısa məzhəbi islamdan üstün tutur. O, elə bir dini üstün tutur ki, onun vasitəsilə insan bu dünyada xoşbəxtliyə çatsın.Mirzə Fətəli Axunzadə bu əsərində yunan millətinin tarixini islam ölkələrində yazılmış tarixdən üstün tutur. Bunun səbəbini isə İran şahlarının kitablarının günümüzə qədər gəlib çatmamasında görürdü. O, İrana müraciət ilə öz etirazını bildirirdi ki, "Sənin oğulların nəsihət olsun de yə, sənin keçmiş əzəmətinin yazılı abidələrini belə mühafizə etməmişlər; sənin keçmiş şöhrətini biz başqalarından, sənin əzəmətinin indiyə qədər yeganə şahidi olan qədim yunan tarixlərindən öyrənirik; çünki Yunanıstan sənin möhtərəm, qocaman tarixini qədim dünyanın başqa xalqla rına nisbətən daha yaxşı öyrənmişdir".Müəllif əsərdə maarifin necə aşağı səviyyədə olmasından danışır, söz açır ki, uşaqlar molla yanında çubuq və fələqqə ilə tərbiyə edilir və belə uşaqdan gələcəkdə əxlaq, mərifət gözləmək olmaz.Mirzə Fətəli Axunzadə "Kəmalüddövlə məktubları" əsərində əhlinin yalançılığını tənqid edir. O deyir ki, ərəb tayfasının yalan quraşdırmaqda və İranlıların yalana inanmaqda misli-bərabəri yoxdur.

YENİ QƏHRƏMAN TİPİ
(ƏLİBALA HACIZADƏNİN "TƏYYARƏ KÖLGƏSİ" ƏSƏRİ ƏSASINDA)

Əliyeva Ə.M.
Bakı Slavyan Universiteti
E-mail: efsane.ava98@mail.ru

Yeni qəhrəman tipindən danışarkən bunu vurğulamalıyıq ki, onu fərqləndirən cəhət son dərəcə real olması idi. Keçmiş dövr ədəbiyyatına nəzər salsaq, görərik ki, qəhrəmanlar həyatın özünə az oxşayırlar.Ona görə də bu qəhrəmanlar oxucuya inandırıcı deyil, qeyri-real gəlirdi. Obrazların həyatdakı gerçək insanlarla bağlılığı az idi. Yaşadığımız mühitin gerçək problemlərinə, mürəkkəbliyinə yox, əlamət və xassələrə əslanan bu obrazlar daha çox inandırıcı olmayan, bəsit süjetlərin içərisində heç də real təsir bağışlamırdılar.

Bütün bunlar ədəbiyyata yeni obrazın gəlməsinə bir növ təkan verdi. Beləliklə yeni qəhrəman tipi həyatın içindən çıxan, real hisslər yaşayan və real konfliktlər içində yer alan obrazdır. Yeni qəhrəman oxucuya daha yaxındır. Yəni müasir qəhrəmanın hiss və duyğuları, daxili aləmi, düşüncələri oxucuya aydın olduğu üçün hər bir oxucu əsərdə ona tanış gələn hiss və düşüncələrlə qarşılaşır.Təbii ki, bu qəhrəmanı yaratmaq müəllifdən bədiilik və yüksək yaradıcılıq qabiliyyəti tələb edirdi. Sovet dövrü nəsrinə baxsaq görərik ki, yazıçılar qəhrəmanları bir qayda olaraq "müsbət" və "mənfi" olaraq ikiyə ayırır. 60-cı illərdən bu yana qəhrəmanlar bütün səhvləri və mürəkkəbliyi ilə təqdim olunur.Bildiyimiz kimi yaradıcılığının ilk illərində yazıçılar təcrübəsizlik səbəbilə uğursuzluq yaşayır. Tanınmış yazıçı Əlibala Hacızadə üçün də bu məqam yan keçmədi. Yaradıcılığının ilk illərində yaşadığı Əlibala Hacızadənin nəsrimizə gətirdiyi yeniliklərdə biri elmi mühitin təsviridir. Yazıçı "Təyyarə kölgəsində" əsəri ilə tanınsa da, yaradıcılığının "zirvəsi" kimi "İtkin gəlin" romanını göstərir. Buna səbəb olaraq qeyd edir ki, əsəri Əfqanıstanda olarkən yazdığına görə duyğu və düşüncələrini azad şəkildə qələmə alıb. Elə buna görədir ki, bu əsər ona daha çox doğma gəlir. "Təyyarə kölgəsi", "Mənim vəfalı dostum" əsərlərində yazıçı mənəvi, əxlaqi keyfiyyətlərdən söz açır. Bu keyfiyyətlərlə yanaşı Əlibala Hacızadə nəsrdə sevgi səhnələrini ən yaxşı təsvir edən yazıçılardandır. Təyyarə kölgəsində əsəri ilə elm sahəsinə mənsub insanların qapalı həyat tərzini oxucuya çatdırır. Ustalıqla yaradılmış bu əsər insanlar arasında olan ünsiyyətin psixoloji məqamlarına toxunur. Yazıçının qaldırıdığı problemlər müasir dövrümüzdə hələ də aktualdır.

Əsərdə baş verən hadisələr sadəcə bir məkanda baş vermir, onun sərhədlərindən kənara çıxır. Burada baş verən elmi mübahisələr özünü mənəvi konfliktlə əvəz edirdi. Əlibala Hacızadənin Azərbaycan ədəbiyyatında gətirdiyi yeniliklərdən biri və ən əsası məişət psixologizmi idi. Oxucu bu əsərləri oxuyarkən

təəccüblənmir və burada baş verən hadisələr, qəhrəmanların bu hadisələrə verdiyi reaksiyalar təəccüb hissi doğurmur. Bu yazıçının əsərlərində yaratdığı təbiilik nümunəsidir. Bunu əldə etmək yazıçıdan məharət tələb edir. Öz xalqını yaxından tanıyan, adət-ənənələrə dərindən hakim olan biri bu qədər inandırıcı və təbii əsərlər ortaya çıxara bilərdi.

"Təyyarə kölgəsi" əsərində kama yetməyən bir sevgi tarixçəsindən danışılır. Bu əsərdə göstərilən dolğun sevgi xəttləri böyük həyəcan hissi oyadır. Yarım qalmış sevgilər, zərif hisslər yazıçının yaradıcılığının əsas özəyini təşkil edirdi.Bundan başqa onun "Ölüm yoxdur", "Yandırılmış adam", "Xoş gəlmisən, Nərgizim", "Möcüzə " romanları da var. Əlibala Hacızadənin Azərbaycan nəsrinə qatqısı əvəz olunmazdır. Belə ki, yazıçı on romanın müəllifidir. Bu romanlardan "Təyyarə kölgəsi", "Vəfalım mənim" romanları dilogiyadır. "Möcüzə" romanı yazıldığı dövrü əhatə edən, ictimai prosesləri özündə birləşdirən əsər idi. Əlibala Hacızadə dövrünün geniş oxucu kütləsinə sahib idi. Yuxarıda sadaladığım əsərlər ən yüksək tirajla çap olunurdu. Bu qədər sevilməyinin səbəbi təbii olaraq yaradıcılığında oxucunun qəlbinə yol tapacaq məqamlara toxunmaq idi.

CON FAULZUN ƏSƏRLƏRİNDƏ EKZİSTENSİAL MOTİVLƏR

Fərzəliyeva L.İ.
Bakı Slavyan Universiteti
E-mail: leylafarzaliyeva1998@gmail.com

Ekzistensializm (latın dilindən existentia – varlıq) XX əsr fəlsəfəsində insanın mütləq unikallığını ön plana çıxaran ədəbi-fəlsəfi cərəyandır. Əsasında insan varlığı, irrasionallıq, subyektivlik və azadlıq kimi anlayışlar dayanır. Ekzistensializm fəlsəfəsinə görə, insanı orjinal, tərkarolunmaz edən onun azad şəkildə etdiyi seçimlər, qəbul etdiyi qərarlardır. Hər bir qərar üçün fərd məsuliyyət daşıyır. Qərarların azad şəkildə qəbul edilməsi insan üçün önəmlidir, çünki atılan hər bir addım onun sonrakı həyatını formalaşdırır. İnsan əsl mahiyyətini isə "sərhəd situasiyalarda", ölümlə üzləşdikdə, həyatın absurdluğunu gördükdə dərk etməyə başlayır. Bu zaman o, öz istəklərini anlayır, öz "Mən"inin axtarışına çıxır.

XX əsrin görkəmli ingilis yazıçısı Con Faulzun əsərləri də ekzistensial nəzərəyyəyə əsaslanırdı. O ekzistensializmə rəğbətlə yanaşaraq bu konsepsiyanı "XX əsrin ən böyük fərdi fəlsəfəsi" adlandırır, cəmiyyətin təzyiqinə qarşı mübarizədə universal vasitə hesab edirdi. Onun romanlarındaki personajlar daima öz azadlıqları uğrunda mübarizə aparan, çıxılmaz vəziyyətdə öz mahiyyətlərini dərk etmə şansına nail olan şəxslərdir. Yazıçının ilk əsəri, "Kolleksiyaçı" romanı, incəsənət tələbəsi olan Miranda Qreyin Ferdinand Kleq tərəfindən qaçırılmasından bəhs edir.Qəhramanların ziddiyyətli davranış və düşüncələri bizə onların şəxsiyyətlərini dərindən təhlil etmək üçün böyük imkan yaradır. Miranda zirzəmidə həbs olduğu müddət ərzində özünü dərk etməyə başladığını hiss edir. Keçmişi ilə üzləşir, etdiyi səhvlərin fərqinə varır. Kleqi öldürmək üçün əlində fürsəti olsa da o, bundan imtina edir. Onun səviyyəsinə düşməməli olduğunu daim özünə xatırladır. Zaman keçdikcə Kleqə olan nifrəti yox olmağa başlayır, hətta onu anlayır və hesab edir ki, onun bu aqressivliyinin səbəbində dayaz düşüncə, sənətdən bixəbər olma, antisosiallıq və uşaqlıqda yaşadığı travmalar dayanır. Kleq isə ondan fərqli olaraq heç bir qərarı üçün sonradan peşman olmur, səhvi özündə görmür, insanların mahiyyətinə yox, xarici görüşünə qiymət verir və öz bədbəxtçiliyində daima cəmiyyəti günahlandırırdı. Müəllifin ikinci məşhur əsəri "Fransız leytinantının qadını" romanı olmuşdur. Bu roman viktorian dövrünün qəhrəmanlarının həyatlarını əks etidirir. Əsərin əsas personajı Çarlz sevgi və vəzifə borcu arasında seçim etmək məcburiyyətində qalır. Müəllif burada oxucuya 3 fərqli sonluq təqdim edir. Birinci sonluq viktori dövrünə uygun olaraq centilmenlik borcunu yerinə yetirən Çarlz Ernestina ilə ailə həyatı qurur. İkinci sonluq bellatristik olduğu üçün Çarlz sevdiyi qadını, yəni cəmiyyət tərəfindən təcrid olunmuş, "əxlaqsız" adlandılıan Saranı seçir və onunla xoşbəxt həyat sürür. Üçüncü sonluq isə ekzistensial adlanır. Çarlz Sara tərəfindən tərk edilsə də həmin o, böhran anında, çıxılmaz vəziyyətdə öz mahiyyətini dərk edir, istəklərini sorğulayır. Real şəxsiyyətinin axtarışına çıxaraq yaşadığı şəhəri tərk etmək qərarına gəlir.

Faulzun "Sehrbaz" romanınında da aparıcı mövzu ekzistensial tənhalıqdır. İnsanlarla ortaq nöqtə tapmayan qəhrəman daim öz "mən"indən kənara çıxmağa, özündən kənarda həqiqəti axtarmağa, onu bağlayan tənhalığın sərhədlərini qırmağa çalışır. Ancaq başqalarının laqeyid yanaşması ona bu yolda uğur qazanmağa imkan vermir.Beləliklə, Faulzun əsərlərinə nəzər saldıqda onun qəhrəmanlarının konformist cəmiyyətin nonkonformist şəxsləri olduğunu görə bilərik. Onlar həmişə bir axtarış içərisində olur, normalara qarşı gəlməyi seçir, standart çərçivədən çıxmağa can atırlar. Bu da onların bir şəxsiyyət kimi formalaşmağına,fərdin özünədərkinə, mənəvi yüksəlişinə kömək edir.

İNCƏSƏNƏT VƏ OYUN

Hacıyeva L.S.
Bakı Slavyan Universiteti
E-mail: lalhaciyeva957@gmail.com

Bir mənzərəni bir çox insan müşahidə edə bilər, lakin hər insanın bu mənzərəyə baxış bucağı eyni ola bilməz. Özəlliklə də, əgər o insan bir sənətkardırsa.Həqiqi sənətkar isə təkcə mənzərənin özünə yox, onun hər bir xırda detalına, tipik xüsusiyyətlərinə diqqət yetirir. Nəzərə alsaq ki, adətən, sevən şəxs sevdiyinə fərqli nəzərlərlə, yüksək ali hisslərlə baxır, deyə bilərik ki, yalnız öz sənətini sevənlər yaratdığı sənət əsərinə həmin hisslərlə yanaşa bilərlər. Bu da bizə bir növ "Leyliyə Məcnun gözü ilə baxmaq" deyimini xatırladır. Çünki bəzi mənbələrdə Leylinin çirkin olması ilə bağlı məlumatlar var. Amma Füzuli qələminda Leyli elə təsvir edilib ki, oxucuya sanki "Yer üzündə ondan gözəl qız yoxdur" təsiri bağışlayır. Həqiqətən də, fiziki aləmə nəzər salsaq, görərik ki, onlar kamil gözəlliyin deyilən şərtlərini ödəmir. Həmin gözəlliyi kamillik səviyyəsinə çatdıran isə sənətkar yaradıcılığıdır.Bəzi əsərlərdə biz "düşüncənin azad oyunu" (Derrida) ilə rastlaşırıq. Ümumiyyətlə, düşüncələrimiz çox vaxt bizimlə oyun oynayır. Biz gah uşaqlığımıza enirik, gah gələcək xəyalları qururuq. Amma bütün bunları bircə anın içində edirik. Təsadüf deyil ki, Kamal Abdulla "Sehrbazlar dərəsi" əsərində hər şeyi "bircə an" adlandırır. Şeyx Mənuçöhr ibn Sadiqin müridləri Seyid Sarı və Ağ dərvişlə söhbətində biz bunun müzakirəsini görürük.Seyid Sarı "o an"ın olmadığını söylədiyi halda, Ağ dərviş bunu inkar edir: "Mən onu ürəyimin içində görürəm", - söyləyir. Sonda isə Şeyx Mənuçöhr ibn Sadiq gülümsəyərək "o an"ın mövcud olduğunu təsdiqləyir, hətta adının "dolğun an" olduğunu vurğulayır. Deməli, həmin "dolğun an"ı duymaq hər kəsə nəsib olmur. Necə ki, Ağ dərvişə "bu an"ı ürəyinin dərinliklərində duymaq nəsib olduğu halda Seyid Sarı bundan məhrumdur. Bunu biz "yazıçılıq dühası"na da şamil edə bilərik. Belə ki, düşüncələrimizin bizimlə oynadığı oyunu sözlərlə oynamaq hər yazıçıya qismət olmur. Kamal Abdullanın həmin əsərinin Karvanbaşı obrazının dilindən deyilən "Sözlər də cümlədə karvanda dəvə kimidirlər" fikri mətndə sözün mahiyyətinə bariz nümunədir. Çünki sözlər cümlədə, cümlələr mətndə karvandakı dəvələr kimi bir-birinin arxasınca səf-səf də gedə bilər, əgər səf qırılarsa, hansısa dəvə qabağa düşə və ya geridə də qala bilər.

Əlbəttə, klassik ədəbiyyat nümunələrimizdə də ədəbiyyat eyni vəzifəni icra edərək maraqlı, tərbiyəvi mövzularla gündəmdə olmuşdur. Müasir dövr əsərlərinin onlardan fərqi haqqında deyə bilərik ki, bu əsərlərdə dünyanın hissi, dərki dəyişmişdir. Çünki dövr, tarixi şərait, cəmiyyətdə baş verənlər əvvəlki zamanlarla müqayisədə çox fərqlidir. Bütün bu fərqlərin ədəbiyyatda- həyatı əks edirən söz sənətində yansıması qaçılmaz idi.İncəsənət və onun bir qolu olan ədəbiyyat, həmçinin ədəbiyyatın bir hissəsi olan və bəzi tədqiqatçıların müasir ruhlu əsərlər hesab etdiyi postmodernist üslublu yazılar bütün insanlar üçün nəzərdə tutulmayıb. Hər bir sənətin, əsərin, öz oxucusu, pərəstişkarı, auditoriyası var. Yazıçı əsər yazarkən onun oxucularını əvvəlcədən müəyyənləşdirir. Çünki oxucular müxtəlifdirlər. Onların bir qismi əsəri oxuyarkən kədərlənmək, təəccüblənmək istədiyi halda, bir qismi sevinmək, əylənmək istəyir. Yazıçı da yazarkən bütün bunları nəzərə almalıdır. Hər yazçının əsəri bütün oxucuları qane edə bilmədiyi kimi, bütün oxucular da bir yazçının pərəstişarı ola bilməz. Necə ki, yer üzündə hər kəs ədəbiyyatı sevmir, çünki insanlar və onların maraq dairələri müxtəlifdir. Amma əminliklə demək olar ki, posmodernist ruhlu əsərləri sevən oxucular başqalarına bənzəmirlər. Çünki hər hansı bir əsərdən estetik həzz almaq "dolğun an"ı (Kamal Abdulla "Sehrbazlar dərəsi") yaşamaqdır.Xose Orteqa-İ-Qasset "İncəsənətin humanistsizləşməsi" ("Dehumanizasiya) məqaləsində bədii incəsənət haqqında belə bir fikir qeyd edir: "Nəsnəni görmək üçün biz görmə aparatımızı müəyyən şəkildə uyğunlaşdırmalıyıq. Əgər görmənin köklənməsi nəsnəyə adekvat deyilsə, biz onu görmürük, yaxud yayğın şəkildə görürük"(Quliyev Q., Rəhimova Ü. "XX əsrin görkəmli ədəbiyyatşünas alimləri"). Biz bu fikirləri həm yazarlara, həm də oxuculara aid edə bilərik. Bu sitat yazımızın əvvəlində qeyd etdiyimiz fikirləri təsdiq edir. Hər insan nəsnəni görmək üçün görmə aparatını müəyyən şəkildə uyğunlaşdıra bilmir. Bu xüsus, əsasən, yazıçılara, şairlərə, rəssamlara, heykəltəraşlara, musiqiçilərə və b. incəsənət nümayəndələrinə şamil olunur. Eləcə də hər oxucu əsərə adekvat köklənə bilmir. Yazıçının çatdırmaq istədiyi fikri görmür və ya "yayğın şəkildə görür". Xose Orteqa-İ-Qasset fikirlərinə bunu da əlavə edir ki, "Qoy oxucu belə təsəvvür etsin ki, biz hal-hazırda bağa pəncərə şüşəsindən baxırıq"(Quliyev Q., Rəhimova Ü. "XX əsrin görkəmli ədəbiyyatşünas alimləri"). Deməli, məsələ o şüşənin kirli və ya təmiz olması deyil. Məsələ baxış bucağıdır. İncəsənətə baxış bucağı.Fikirlərimizin yekunu olaraq qeyd edə bilərik ki, müasir ruhlu əsərlərdə çağdaş insanın xaotik düşüncələri oyun şəklində mətnlərə sirayət edir. Çünki yeni dövrün problemləri daim insan düşüncələrini məşğul edir. Bəzən ona "xəstə düşüncələr" də deyilir. Təbii ki, problemli situasiyalar bütün zamanlarda var.

Əgər müasir düşüncə oyunu qarışıq hal alırsa, "karvanda düzülən dəvə səfləri"(Kamal Abdulla "Sehrbazlar dərəsi") tez-tez pozulursa, bəlkə də bu, zamanın deyil, düşüncələrin və onların daşıyıcılarının problemidir. Həmin problem çağdaş incəsənət nümunələrimizdə oyun şəklində təzahür edir.

XX ƏSRİN 60-CI İLLƏRİNDƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN, ƏXLAQİ-TƏRBİYƏVİ MÖVZULARLA BİRLİKDƏ İSİ MƏLİKZADƏ YARADICILIĞINDA TƏZAHÜRÜ

Həsənova A.Ə.
Bakı Slavyan Universiteti
E-mail: Hsnovaaytac111@gmail.com

Keçən əsrin bir sıra spesifik xüsusiyyətlərlə səciyyələnən 60-cı illəri – cəmiyyətində siyasi kəskinliyin xeyli yumşaldığı, mənəvi aləmdə, ictiami-mədəni həyatda müəyyən dəyişiklik və yeniliklərin baş verdiyi müxtəlif baxımından mürəkkəb tarixi dövr olmuşdur. Bu dövrdə İttifaq miqyasında olduğu kimi, Azərbaycan ədəbi-bədii prosesində də yenilikçi bir inkişaf mərhələsi başlayır, ədəbiyyatımıza, xüsusilə nəsrimizə təzə ab-hava gəlir, insan taleyinə və mənəviyyatına diqqət artır, bədii ifadə-təsvir vasitələri, dil-üslub xüsusiyyətləri, poetika-sənətkarlıq imkanları xeyli zənginləşir, əsasən səmərəli və orijinal istiqamətə yönəldilən yaradıcılıq axtarışları davam etdirilirdi. Azərbaycan ədəbiyyatına eləcə də, bədii nəsrimizə sadə, sıravi, "kiçik" adamları maraqlı obrazları gətirilirdi. Bu, əslində təzə məsələ deyildi. Ən başlıcası isə əsrin əvvəllərində, ilk onilliklərdə S.Hüseyn, T.Şahbazi (Simurğ), S.S.Aaxundov, A.Şaiq, Ə.Haqverdiyev kimi bir sıra görkəmli yazıçılarımız bu sahədə xeyli səmərəli və böyük işlər görmüşdülər. Problemin ədəbi-estetik status qazanmasında çox böyük sənətkar C.Məmmədquluzadənin əvəzsiz və təkrarsız xidmətləri danılmazdır. Sovet dövrü ədəbiyyatında bu məsələyə diqqət xeyli zəifləsə də tamam aradan qalxmadı. Ə.Əbdülhəsən, S. Rəhimov, Mir Cəlal və bu kimi başqa nasirlər bu problemdən yan keçməmişdilər. Onlar yeniliyə, yenilik axtarışlara, yeni həyatın təqdiminə nə qədər can atsalar da, sözü gedən mətləbə, mövcud təcrübə və ənənələrə biganə qalmadılar və qala da bilməzdilər. Ona görə ki, bütövlükdə bu, bizim milli sərvətimiz, dəyərli sənət və bədii mədəniyyət nailiyyətimizdir. Analogiya yolu ilə yaranmış və geniş yayılmış bir fikri burada yada salmaq lap yerinə düşərdi. F.M.Dostoyevski öz müasirlərindən olan rus yazıçıları Qoqol haqqında " Biz hamımız Qoqolun "Şinel"indən çıxmışıq" dediyi kimi, Mir Cəlal da Azərbaycan ziyalılarını, yazıçılarını, xüsusən nasirlərini nəzərdə tutub, "Biz Mirzə Cəlilik "Poçt qutusu"ndan çıxmışıq" demişdir. Bu sözdə böyük həqiqət vardır. Doğrudan da, yeni bir ədəbi-ictimai prosesin, inkişafın önündə gedən, "Molla Nəsrəddin" kimi böyük və böyüklüyündən də məşhur jurnalın naşiri və reaktoru olan C.Məmmədquluzadə elə qüdrətli şəxsiyyətlərdəndir ki, ədibi nasirlər onun zəngin irsindən çox şey öyrənmişdir.

"Altmışıncılar"ın da əsas xidmətlərindən biri məhz bundan ibarət oldu ki, onlar bir növ arxa plana keçən, habelə az qala unudulan vacib bir mətləbi yenidən "diriltdilər", yenilənmiş həyat materiallarının əsasında, həssas duyğu və ayıq təfəkkür işığında yenidən canlandırıb yaşatmağa başladılar.

Hər bir uğurlu, təravətli və perspektivli yenilik ayrılıqda nə qədər diqqəti çəksə də, bir çox fərdiləşmiş formada təzahür tapsa da münbit kökdən, milli folklordan, klassik ədəbi irsdən kənar prosesin məhsulu deyil və ola da bilməz. Ümumiyyətlə, həyatda, cəmiyyətdə, təbiət və sənətdə baş verən, təbii yolla reallaşan, qəbul və təsdiq edilən yeniliyin əsasında, mayasında, məğzində gələcəyi olan, dəyərini qəti şəkildə vaxt itirməyən ənənə dayanır. Buna görə də, istedadın gücündən və seviyyəsindən asılı olmayaraq ənənəsiz novatorluq qeyri-mümkündür. Məhz mütərəqqi ənənəyə dayaqlanan, bundan qida alan, onu yeni həyat materialları, yeni əlamət və keyfiyyətlərlə zənginləşdirən novatorluq yaşamağa və yaşatmağa qadirdir. Bu mühüm cəhət 60-cı illərdə (əvvəl və ya sonra) saf duyğu-arzularla ədəbiyyata gələn və inamla çalışan yeni gənc istedadların yaradıcılıqlarında açıq-aşkar müşahidə edilirdi. Ədəbi tənqiddə daha çox istedadlı cavanların adları və fəaliyyətləri ilə bağlanan yenilik növbədə və əsas etibarilə İ.Hüseynovun, Ə.Əylislinin, S.Əhmədovun, İ.Məlikzadənin, Maqsud və Rüstəm İbrahimbəyovların, M.Süleymanlının, Anarın, Elçinin, habelə bir çox digər qabiliyyətli cavan nasirlərimizin, savadlı kadrlarımızın əsərlərində axtarılır, təsdiq və təqdim olunurdu. Amma bu, həqiqətin hələ tam və bütöv mənzərəsi deyildi. Axı, gənclərlə yanaşı yaradıcı yaşlı və orta nəslin bir çox nümayəndələri də, xüsusilə də onun M.Hüseyn, M.İbrahimov, İ.Əfəndiyev, Ə.Məmmədxanlı, İ.Şıxlı kimi simaları da təzə material, təzə fikir, təzə metod axtarışında xüsusi seçilir, milli ədəbi prosesin inkişafına zəngin yaradıcılıq təcrübələri və bədii nailiyyətləti ilə səmərəli təsir göstərirdilər. Onlar sağlam ruhlu, yeni biçimli nümunələri ilə ədəbiyyatımızda yeni mərhələnin yaranıb formalaşmasında yaxından iştirak edir, ciddi faydalı və eyni zamanda zəruri bir rol oynayırdılar.

Neçə illərdir ki, ədəbi tənqid və ədəbiyyatşünaslıqda tez-tez işlədilən və geniş, irimiqyaslı yayılan bir məfhum vardır: "Yeni nəsr". Bu, həm də müəyyən fikir mübadiləsi doğuran bir yenilikçi anlayış kimi qarşılanırdı. Bu ifadəyə ən yaxın A.Hüseynovun, Y.Qarayevin, G.Əlibəyovanın, Anarın , Elçinin, N.Cabbarovun, V.Yusiflinin və başqalarının mülahizələrində rast gəlmək mümkündür. "Yeni nəsr" deyəndə onlar əsasən, 60-70-ci illərin əks-səda doğuran uğurlu bədii nümunələrini nəzərdə tuturdular. "Nəsr və zaman"(1980) kitabında A.Hüseynov, "Nəsrin fəzası"(1984) adlı jurnal məqaləsində Anar, daha sonralar " Azərbaycan yeni nesri"(1999) tədqiqatında Azərbaycan ədəbiyyatı tənqidində öz sözünü demiş, Tehran Əlişanoğlu və başqaları, həmin məfhum adı altında məhz o dövrün fərqliliklərini yeni məzmun, forma, üslub baxımından təzə görünən, həyatın və gerçəkliyin tələbləri ilə səsləşən bir çox publisistik-bədii nümunələr kimi qiymətləndirirdilər.Şəxsiyyətə pərəstişin zəifləməsi, hətta aradan qaldırılmasına cəhdlərin get-gedə artması, xalqda özünə inam duyğusunun dərinləşməsi, ədəbiyyata yeni tipli real həyati qəhrəmanların, sadə, sıravi insan obrazlarının gətirilməsi nəsri səciyyələndirən mühüm və vacib əlamətlərə çevrilirmişdi. Dəyərli keyfiyyətlər cərgəsində onu da xatırladar ki, nəsrdə yalançı pafosdan, yorucu təsvirçilik-hadisəçilik xəstəliyindən , süjeti süni şəkildə genişləndirmə meyllərindən, lüzumsuz şaxəlilik və xarici monumentallıq hallarından qaçır, ifadə tərzində bədii reallığa, yığcamlığa, konkretlik və aydınlığa böyük üstünlük verirərək, yığcam apardığı səmərəli axtarışlar prosesində müəyyən nailiyyətlər qazanırdı.

Yığcamlıq və lakoniklik sənətkarlığın elə ayrılmaz bir tərkib hissəsidir ki, janrından, həcmindən, böyük-kiçikliyindən, obraz psixologiyasının qəlizliyindən asılı olmayaraq hər bir əsərdə gözlənilməzdir. Bu ümidə keyfiyyət reallaşdırılanda, yazıçı qələmi ilə konkret şəkildə əyaniləşdiriləndə janrın spesifikası və özünəməxsusluqları, məzmun və quruluş-struktur xüsusiyyətləri mütləq nəzərə alınmalıdır. Hər hansı ideya və sənətkarlıq tələbinin müəyyən ölçü daxilində, zəruri miqyas və aspektdə ödənilməsi isə yazıçı cəsarəti, cürəti, qabiliyyəti və məharəti ilə qırılmaz bağlı məsələdir.Ədəbi tənqid və ədəbiyyatşünaslıqda tez-tez işlənərək getdikcə məşhur ifadəyə-terminə çevrilən "altmışıncılar" cərgəsində adı çəkilənlərdən və qələmi ilə öz adını həmin dövrün ədəbiyyat sütunlarına yazdıranlardan biri də İsi Məlikzadə idi. Onun yeniliyi bundan ibarətdir ki, yazıçı ədəbiyyyatımıza reallıq, həyatilik və təbiilik keyfiyyətlərinə malik hekayə, povestlərlə gəldi və sonralar qələmini digər janr və formalarda da sınaqdan keçirərək böyük uğur qazandı.

NİZAMİ GƏNCƏVİ İNGİLİS ŞƏRQŞÜNASLIĞINDA

Hümmətli Ş.R.
Sumqayıt Dövlət Universiteti
E-mail: sehane.xelilova@gmail.com

Nizami Gəncəvi yaradıcılığı Azərbaycan ədəbiyyatında müxtəlif tədqiqatçılar tərəfindən dəfələrlə araşdırılmışdır. Tədqiqatçılar Nizaminin əsərlərinin süjetlərinə istinad edərək Şərq ədəbi nümunələrini təhlil ediblər. Qürur hissi ilə deyə bilərik ki, Avropa ədəbiyyatında da Nizami yaradıcılığı tədqiq edilmiş və şairin "Xəmsə"sinin təsiri ilə xeyli sayda əsərlər yazılmışdır.Azərbaycan ədəbiyyatının ən qiymətli xəzinəsi olan Nizami Gəncəvi yaradıcılığı yalnız Şərq ictimai-bədii fikrinə deyil, eləcə də, müxtəlif vasitələrlə Qərq ədəbiyyatına da müəyyən təsir göstərmişdir. Nizami Gəncəvinin ədəbi irsi hər zaman Avropa ədəbiyyatının tədqiqatlarında yer almış, əsərləri dəfələrlə müxtəlif dillərə tərcümə olunmuş və poemaları geniş şərhlərlə yenidən nəşr olunmuşdur. Şairin adını dünya ədibləri ilə bir sırada saxlayan, əsərlərinin tədqiqinə və tərcüməsinə səbəb olan ən başlıca xüsusiyyətlərdən biri dahi sənətkarın əsərlərində əsas yerə malik olan humanizm, tolerantlıq və ədalətə çağırış ideyalarıdır. Bu səbəbdən misilsiz yaradıcılığa və əvəzsiz istedada malik şairin əsərləri ingilis ədəbiyyatşünasları və şərqşünaslarının da diqqət mərkəzində olmuş, ədəbi irsi ingilis dilinə tərcümə edilərək tədqiqata cəlb edilmişdir.Vaqif Arzumanlının və Şahin Xəlillinin tədqiqatlarına istinadən deyə bilərik ki, ingilis ədəbiyyatşünaslığında dahi mütəfəkkirin əsərlərinin tərcümə tarixi XVII-XVIII əsrlərə təsadüf edir. Avropa ədəbiyyatında xüsusən də ingilis ədəbiyyatşünaslığında Nizami Gəncəvinin mövqeyini araşdıran görkəmli elm xadimlərimizdən biri olan Vaqif Arzumanlı "Nizamı Gəncəvinin dünya şöhrəti" adlı tədqiqat əsərində qeyd edir ki, ingilislərin Nizami yaradıcılığına marağı son iki əsrdə daha da geniş vüsət almış, onun yaradıcılığna dair bir çox təqdiqat işləri yazılmışdır. *"Bütünlükdə ingilis şərqşünaslığı, orta əsrlər Azərbaycan farsdilli poeziya məktəbinin, xüsusən Nizaminin Şərq ölkələri ədəbiyyatının inkişafında mühüm rol oynadığını dəfələrlə etiraf etmişdir."*

Nizaminin yaradıcılığı ingilis dilinə ilk dəfə 1786-ci ildə Kəlküttədə çıxan "Asiya almanaxı"nda "Nizaminin nağılları və ibrətli hekayələri" başlığı altında çap olunmuşdur. Bu başlıq altında olunan tərcümələr

və onlara yazılmış ön sözlər "ingilis şərqşünaslığının atası" sayılan Vilyams Consa aiddir. Şərqşünas uzun müddət Kəlküttədə yaşamış və eyni zamanda şərqşünaslıq problemləri ilə bağlı araşdırmalar aparmışdır. Vilyams Cons Nizaminin həyat və yaradıcılığını böyük həvəs və məhəbbətlə öyrənmiş, dahi şairimizin ilk dəfə "Sirlər xəzinəsi" poemasını ingilis dilinə nəsrlə tərcüməsini hazırlamışdır.

Lakin V.Cons sağlığında bu tərcüməni çap etdirə bilməmişdir. Onun vəsiyyətinə əsasən tərcüməsinin əlyazması Asiya Kral Cəmiyyətinə verilmişdir. Ölümündən bir qədər sonra, 1804-cü ildə həmin tərcümə Londonda nəşr olunmuşdur. Görkəmli ədibimizin "Sirlər xəzinəsi" poeması sonrakı illərdə professor C.Hidon və London universitetinin fars dili kafedrasının professoru Q.Hüseyn Darab tərəfindən yenidən tərcümə edilmişdir.

"Bütün bunlarla yanaşı Avropada N.Gəncəvinin «Sirlər xəzinəsi»ni tam şəkildə və izahatlarla nəşr etdirən ingilis alimi H.Bländ olmuşdur (London, 1844)."

Ingilis şəqşünasları şairin əsərlərindən əlavə onun həyatına, yaşadığı dövrə, ictimai-siyasi vəziyyətə da maraq göstərmişlər. "Farsdilli şairlərinin tərcümeyi-halına dair qeydlər" kitabının müəllifi olan şərqşünas alim Qor Ouzli də 1846-ci ildə Londonda çap etdirdiyi bu kitabında Nizami Gəncəvinin həyat və yaradıcılığına xüsusi diqqət ayırmışdır. Həmçinin Vilyam Ouzli də şairin ədəbi iris ilə maraqlanmış, onun "İskəndərnamə" poeması haqqında tədqiqat işi yazmışdır.Məşhur ingilis mətnşünası Çarlz Rio 1879-1888-ci illərdə tərtib etdiyi və nəşr etdirdiyi dörd cildlik "Britaniya muzeyinin fars əlyazmaları kataloqu"nda Nizami haqqında oçerk və şairin ayrı-ayrı əsərlərinin biblioqrafiyasını vermişdir. Bu tipli kataloqlar İngiltərədə sonralar da hazırlanmış və onlarda Nizami yaradıcılığına geniş yer verilmişdir. Məşhur ingilis şərqşünasları S. Russo, A.Şprenker, S.Robinson, E.Braun, A.Arberi, Ç.Malkolm və başqaları da Nizami irsinə maraq göstərmiş və ona əsərlər həsr etmişlər.

Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasını ingilis dilinə ilk dəfə şərqşünas və tərcüməçi Ceyms Atikson tərcümə etmiş və 1836-cı ildə çap etdirmişdir. Sonralar isə bu poema 1894 və 1915-ci illərdə yenidən nəşr olunmuşdur.Ədibin ən gözəl məhəbbət poeması hesab olunan "Leyli və Məcnun" 1966-cı ildə ikinci dəfə doktor Rudolf Qulpke tərəfindən tərcümə edilərək Londonda dərc edilmişdir. C.Atiksondan fərqli olaraq R.Qelpke bu poemanı ingilis dilinə nəsrlə tərcümə etmişdir. Bu da şairin bədii obrazlarının, poetikasının təravətinin nəzmlə adekvat tərcüməsinin çətinliyi ilə bağlı olmuşdur.

Dahi şairimizin sonuncu poeması olan "İskəndərnamə"nin birinci hissəsi- "Şərəfnamə" ni ingilis şərqşünası V.Klaru nəsrlə ingilis dilinə çevirmiş və əsəri 1881-ci ildə Londonda çap etdirmişdir.Dahi Azərbaycan mütəfəkkirinin 1194-cü ildə yazmış olduğu "Yeddi gözəl" poeması da ingilis ədəbiyyatın diqqət mərkəzində olmuşdur. Bu poemanı ingilis dilinə K.Uilson çevirmişdir. Tərcümə edilən bu poema 1924-cü ildə London şəhərində nəşr edilmişdir."Yeddi gözəl" in ingilis dilində müxtəlif tərcümələrini yaradan Q.Ausli, Ç.E.Uilson, P.Çelkovski, Esli və C.Hill tərcümələrində poemanın süjeti, obrazların mənəvi, əxlaqi keyfiyyətləri ilə yanaşı, Şərq, o cümlədən Azərbaycan adət-ənənələri, keçmiş tariximizin çalarları bədii əksini tapmışdır. Bu baxımdan S.Robinsonun "Yeddi gözəl" tərcüməsi orijinala bağlılığı ilə digər tərcümələrdən fərqlənir.2013-cü ildə akademik Nərgiz Paşayevanın təşəbbüsü ilə İngiltərənin Oksford Universitetində "Nizami Gəncəvi Elmi Mərkəzi" yaradılmışdır. Bu mərkəz sayəsində görkəmli ədibimiz N.Gəncəvinin külliyyatı yenidən ingilis dilinə tərcümə edilir və əsərləri yenidən nəşr olunur.

AZƏRBAYCANIN İLK BOHEMİSTİ

İbadova N.İ.
Bakı Slavyan Universiteti
E-mail: Narminibadova90@gmail.com

Azərbaycan bohemistikasının tarixi bilavasitə filologiya elmləri doktoru, prof.E.E.Mehrəliyevin (Mehrinin) adı ilə bağlıdır. E.Mehrəliyev 1975 – ci ildə Ulu öndər Heydər Əliyevin göndərişi ilə Sankt – Peterburq Universitetinin Slavyan şöbəsinə daxil olur. Orada serb, çex, polyak və bolqar dilləri seçim sırasında idi. Çex dili rus dilinə yaxın dil olduğuna görə müəllif çex dilində təhsil almağa başlayır.

E.E.Mehrəliyevin diplom işi isə çex futbol terminologiyasında əcnəbi sözlərin tədqiqinə həsr olunur. Peterburq Universitetini bitirdikdən sonra o, çex dili və ədəbiyyatı müəllimi, slavyanşünas, tərcüməçi ixtisasına yiyələnir. O, tanınmış bohemist Valeri Mokienkonun təklifi ilə rus dilinin vasitəçiliyi olmadan birbaşa çex dilindən Azərbaycan dilinə tərcümə etməyə başlayır.

Beləliklə Qarabağ qəzetlərinin birində çex orijinalından birbaşa Azərbaycan dilinə ilk tərcümə işıq üzü görür. Bu, müasir dövrün çex yazıçısı olan İvan Viskoçilin "Yaqubun tələsi" hekayəsi idi. 1980 – ci ildə Sankt – Peterburq Universitetini müvəffəqiyyətlə bitirdikdən sonra Elçin Mehrəliyev təyinatla Azərbaycan Dövlət Universitetinə göndərilir. Daha sonra o, Sankt – Peterburq Universitetində çex – Azərbaycan ədəbi əlaqlərini tədqiq etməyə başlayır. 1988 – ci ildə elə həmin universitetdə namizədlik dissertasiyasını müdafiə edir. Həmin il Bakıya qayıdaraq Bakı Dövlət Universitetində Dünya ədəbiyyatını tədris etməyə başlayır. Dünya ədəbiyyatından tədris edərkən mühazirələrdə çex ədəbiyyatının korifeylərinin, o cümlədən Yaroslav Haşekin, Karel Çapekin, Yan Nerudanın, Milan Kunderanın həyat və yaradıcılığına da yer verilir.

Çex dilinin tədbiq edilməyinə icazə verilmədiyi dövrdə, o, çex yazıçılarının yaradıcılığından tərcümələr etməyə başlayır. 1986 – cı ildə "Dünya" almanaxında çex ədəbiyyatından 2 hekayə dərc olunur. 1989 – cu ildə E.Mehrəliyev tərəfindən Y. Haşekin hekayələr toplusu Azərbaycan dilində çapdan çıxır.

Daha sonra o, müasir çex yazıçılarından olan Lenka Haşkovanın, Yozef Strnadelin, Yaromira Kolarovanın hekayələrinin ana dilimizə tərcümə edir. Müəyyən bir təcrübə qazandıqdan sonra, E.Mehri Y.Haşekin "Qoçaq əsgər Şveykin sərgüzəştləri" romanını Azərbaycan dilinə tərcümə etməyi qərara alır. Bu onunla bağlı idi ki, əsər dünyanın əksər dillərinə, o cümlədən, erməni və tatar dillərinə də tərcümə olunmuşdu, bizim dildə isə hələ də işıq üzü görməmişdi. Beləcə o, 4 cildlik əsərin I cildini hissə - hissə tərcümə edərək "Mütərcim" jurnalında dərc etdirir. Əsərin üzərində tərcümə işi bu gün də davam edir.1996 – cı ildə ölkə prezidentinin fərmanı ilə "Azərbaycan slavyanşünaslığın şəbəkəsinin genişləndirilməsi" haqqında fərmandan sonra Rus dili və Ədəbiyyatı İnstitutunda çex dili və ədəbiyyatı fənlərini respublikada ilk dəfə olaraq E.Mehrəliyev tədris etməyə başladı. İlk çex qrupu 10 nəfərdən ibarət idi.

Azərbaycanın ilk bohemisti E.Mehri 2000- ci ildə Çexiya Respublikasının Təhsil Nazirliyinin Karl Universitetində keçirilən bohemistlərin seminarında 50 ölkənin 130 nəfər nümayəndəsi arasında Çexiya Təhsil Nazirliyinin ən yüksək nəticəyə görə təsis etdiyi yeganə təqaüdə layiq görülür və Karl Universitetinin yüksək dərəcəli Şəhadətnaməsi ilə təltif olunur. Elə həmin ildə ölkə prezidentinin fərmanı ilə Bakı Slavyan Universiteti təsis edilir və yenicə yaranmış Slavyan filologiyası kafedrasına E.E.Mehrəliyev müdir təyin edilir. 22 il ərzində bu vəzifəni daşıyır. Nəinki Azərbaycan, eləcə də Qafqazda və Yaxın Şərqdə analoqu olmayan Slavyan filologiyası kafedrası Azərbaycan slavyanşünaslığının əsas elmi mərkəzlərindən birinə çevrilir. Belə ki, məhz həmin kafedrada 2000 – ci ildən, yəni təşəkkül tapdığı dövrdən Çexiya, Polşa, Bolqarıstan, Ukrayna ölkələrinin dil və ədəbiyyatı təsis edilməyə başlanılır.E.Mehrəliyev həmçinin çex dili və ədəbiyyatı üzrə hazırlanmış proqramların, çex dilindən Azərbaycan dilinə ilk bədii tərcümələrin, həmçinin "Müasir çex ədəbiyyatı və Azərbaycan", "Çex ədəbiyyatında Şərq motivləri" monoqrafiyalarının, eləcə də 60 – a qədər elmi məqalələrin müəllifidir. Azərbaycan bohemistikasına verdiyi ən mühüm töhfələr sırasında xüsusilə "Çex – Azərbaycan lüğəti"ni və "Çex dili azərbaycanlılar üçün" dərsliyini göstərmək olar. Elçin Mehrəliyev bu gün də Azərbaycan bohemistikasının inkişafına öz töhfəsini verməkdədir.

NATİQ RƏSULZADƏNİN " QOLFSTRİM" ROMANININ DİL-ÜSLUB XÜSUSİYYƏTLƏRİ

İmanova C.E.
Bakı Slavyan Universiteti
E-mail: imanov_elnur@icloud.com

Azərbaycan həm özünün təbii sərvətləri, həm də daha qiymətli olan böyük insan resursları ─ elm, mədəniyyət və incəsənət sahəsində istedadları ilə zəngindir. Belə istedadlı insanlardan biri sağlığında oxucuların sevgisini qazanmış, həm vətənində, həm də onun hüdudlarından kənarda tanınmış yazıçı, roman, povest, hekayə və bir çox filmlərin ssenari müəllifi Natiq Rəsulzadədir.Hər bir bədii əsər bütöv, mürəkkəb poetik sistemidir. Bu sistemin mərkəzində, onun bütün fikri-bədii komponentlərini birləşdirən qüvvə sənətkarın şəxsiyyəti dayanır. Əsər sənətkar qəlbindən qidalanır, bədii təfəkkürün gücü ilə hərəkətə gəlir. Bədii əsər bədii yaradıcılıq prosesinin məhsuludur. Ona görə də konkret bədii əsəri təhlil edib dəyərləndirərkən ilk növbədə məzmun və forma vəhdətini açmaq lazımdır.

Natiq Rəsulzadənin rus dilində qələmə aldığı "Qolfstrim" (2015) əsəri bədii- sənədli nəsr olduğu üçün, avtobioqrafik əsərlər sırasına aid edilə bilər." Yazıçının öz həyat hekayəsindən bəhs edən bu əsərdə Onun xatirələri ilə birgə, bədii yaradıcılığı, süjet xətti, obrazlar aləmi, yaradıcılığı haqqında düşüncələri əks olunmuş və yaşadığı psixoloji, emosional halları əsas mövzuya çevrilmişdir.Bədii ədəbiyyat insanın dil vasitəsi ilə özünə ucaltdığı ədəbiyyat abidəsidir.

"Dil xalqın böyük sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir" [Heydər Əliyev].Bədii dilin ifadə vasitələri bütöv bir sistemdir, əsas vəzifəsi mənanı dəqiq və dolğun əks etdirməyə, bədii əsərin arxitektonikasının mükəmməlliyinə, üslubun, küllən bədii formanın gözəlliyinə xidmət edir. Üslub yazıçının gerçəkliyi təcəssüm etdirmək üçün seçdiyi bədii vasitələrin məntiqi sistemidir. Üslub əsərdə bədiiliyi ehtiva edən, onu təşkil edən, qoruyub saxlayan birləşdirici psixoloji sistemdir.

Ədəbiyyatşünaslıqda rəsmi üslub, ədəbi üslub, publistik üslub, üslubi təmayül və s. kimi anlayışlar da işlədilir. Bütün bunların mahiyyəti haqqında təsəvvür əldə etmək üçün əvvəlcə üslubun ozünü düzgün izah etmək lazımdır.Natiq Rəsulzadə "Qolfstrim" roman-kardioqramında dili bədiiləşdirən vasitələrdən təşbeh, metaforalardan bacarıqla istifadə etmişdır. Bunlarla yanaşı romanında maraqlı mübaliğə nümunələrinə rast gəlirik.Göründüyü kimi Natiq Rəsulzadənin " Qolfstrim" roman-kardioqramında öz düşüncə və hislərini vermək üçün bədii ifadə və təsvir vasitələrindən məharətlə istifadə etmişdir.

AZƏRBAYCAN MÜHACiRƏT ƏDƏBİYYATINDA QƏHRƏMANLIQ DASTANLARI

İsmayılov Ə.R.
Bakı Slavyan Universiteti
E-mail: ali-bsu@mail.ru

Azərbaycan mühacirət ədəbiyyatşünaslığının bir sıra görkəmli nümayəndələri ədəbi-mədəni irsimizin tədqiq və təbliğində böyük və əvəzsiz xidmətlər göstərmişlər. Mühacirətdə yaşamaq məcburiyyətində qalan ziyalılar folklorun müxtəlif janrları ilə bağlı tədqiqatlar aparmışlar. Ümumilikdə, mühacirətdə folklor materialları əsasən ədəbi-nəzəri və ictimai-siyasi aspektdə araşdırılmışdır.Azərbaycan mühacirət ədəbiyyatşünaslığına aid olan tədqiqatları iki qismə ayırmaq olar: 1) Mövzu və araşdırma baxımından bilavasitə Azərbaycan mühacirət folklorşünaslığına həsr olunmuş əsərlər; 2) Azərbaycan mühacirət ədəbiyyatına həsr olunmuş əsərlərdə mühacirət foklorşünaslığına dair fikir, mülahizələr.

Azərbaycan mühacirət ədəbiyyatına nəzər saldıqda dastançılıqla bağlı vacib tədqiqatların aparıldığının şahidi oluruq. Araşdırmalar sübut edir ki, mühacirət folklorşünaslığında Azərbaycan və bütövlükdə türk şifahi söz sənətinin bütün janrları tədqiqata cəlb edilmişdir. Lakin mühacir folklorçular daha çox epos sənətinə diqqət yetirmiş, "Kitabi-Dədə Qorqud", "Koroğlu", "Qaçaq Nəbi", "Qaçaq Kərəm", "Dəli Alı" kimi qəhrəmanlıq dastanlarının öyrənilməsinə, təbliğinə çalışmışlar. Bu da bir tərəfdən epos sənətinin bədii-estetik tutumu və kamilliyi ilə bağlıdırsa, digər tərəfdən bu janrın, millətin soykökü, tarixi yaddaşı, qəhrəmanlıq əzmi ilə bağlı məqamları daha canlı şəkildə yaşatması ilə əlaqədardır.

Azərbaycan mühacirət folklorşünaslığının ən çox diqqət yetirdiyi dastanlardan biri, bəlkə də, birincisi "Kitabi-Dədə Qorqud" dastanıdır. Təkcə Azərbaycan türklərinin deyil, ümumən Oğuz türklərinin mədəniyyətinin qədim və ilkin yazılı abidələrindən olan bu dastan haqqında bir sıra maraqlı tədqiqatların aparılması, mühacirət folklorşünaslarının əksəriyyətinin ona müraciət etməsi bir sıra amillərlə bağlıdır. Hər şeydən əvvəl, mühacirət folklorşünaslığında "Kitabi-Dədə Qorqud" dastanı Oğuz türklərinin ən qədim yazılı sənət örnəklərindən biri olaraq diqqət və maraq doğurmuşdur. Məhəmməd Əmin Rəsulzadə, Mirzə Bala Məmmədzadə, İren xanım (Məlikova) Melikoff kimi görkəmli ziyalılar mühacirət ədəbiyyatında "Kitabi-Dədə Qorqud" dastanına müraciət edərək örnək nümunələr yaratmışlar. M.Ə.Rəsulzadənin "Dədə Qorqud dastanları", "Dədə Qorqud oğuznamələri", M.B.Məmmədzadənin 1952-ci ildə Münhendə dərc olunan "Qafqasya" dərgisində nəşr etdirdiyi "Dədə Qorqud", İren xanım Melikoffun "Gürcülər, türkmənlər və Trabzon:"Kitabi-Dədə Qorqud" üzərinə" məqalələrində dastanla bağlı maraqlı məlumatlara təsadüf olunmaqdadır. "Azərbaycan yurd bilgisi" jurnalının ətrafında toplanan və yüksək elmi hazırlığı ilə seçilən ədəbiyyatşünaslardan Əhməd Cəfəroğlu və professor Məhmət Fuat Köprülüzadə "Kitabi-Dədə Qorqud" dastanını tədqiq etmiş, dastanın dil və tarix baxımından Oğuz türkləri, ilk növbədə isə azərbaycanlılarla bağlı olduğu qənaətinə gəlmişdilər.Behruz Həqqi, Səlim Rəfiq, Yunus Lənkəranlı, Nəbi Turablı, Hüseyn Baykara, Əhməd Cəfəroğlu və.s tədqiqatçılar tərəfindən qəhrəmanlıq dastanlarının diqqət mərkəzində olan "Koroğlu", "Qaçaq Nəbi" dastanları müxtəlif illərdə araşdırılmışdır.Gülağa Hüseynovun "Əhməd Cəfəroğlunun folklorşünaslıq irsi" tədqiqatını, Almaz Hüseynovanın "Azərbaycan mühacirət folklorşünaslığında dastançılıq məsələləri" monoqrafiyasını,Vaqif Sultanlının, Abid Tahirlinin, Nikpur Cabbarlının, Şəlalə Həsənovanın, Mirzə Ənsərlinin, Elşən Əbdülhəsənovun və başqalarının kitab və monoqrafiyalarındakı mühacirət folklorşünaslığı ilə bağlı konseptual fikir və mülahizələri nümunə göstərmək olar. A.Hüseynova Azərbaycan mühacirət folklorşünaslığında eposla bağlı tədqiqatları ilk dəfə müstəqil tədqiqat obyektinə çevirmişdir. O,

dissertasiya işində (iki fəsildə - "Qəhrəmanlıq dastanları və mühacirət folklorşünaslığı", "Məhəbbət dastanları barədə elmi-nəzəri mülahizələr") Azərbaycan mühacirət folklorşünaslığının eposla bağlı araşdırılmalarını sistemli şəkildə təhlil etmiş, mühacirlərimizin bu istiqamətdə fikir və mülahizələrini sistemləşdirmişdir.

RAFİQ YUSİFOĞLUNUN "XİFFƏT" ROMANINDA TARİXİLİK VƏ MÜASİRLİK

İsmayılova N.İ.
Sumqayıt Dövlət Universiteti
E-mail: narminaliy97@gmail.com

Qüdrətli Azərbaycanımızın tarix səhifələrində 30 illik bir zaman arakəsməsi vardır. Bu bir elin, yurdun, millətin sonu zəfərlə bitən şücaəti, aldığı yaraları, çəkdiyi xiffətidir. "Qarabağ mövzusu" hər zaman ədəbiyyatımızda aktual mövzu olmuşdur. 30-il öncə əsərlərimizin əsas mövzusu torpaq itkisi, Xocalı soyqırımı mövzusu idi. Artıq 44 günlük vətən müharibəsindən sonra tez bir zamanda zəfər sevinclərimizi əks etdirən əsərlərimiz mətbuatlarımızda yer aldı. Sabir Rüstəmxanlının, Vahid Əzizin, Rafiq Yusifoğlunun, Abuzər Turanın, Nizami Muradoğlunun, Şahnaz Şahinin, Elnur Uğur Abdıyevin, Zeynal Vəfanın, Əlirza Həsrətin və onlarca şairlərimizin yaradıcılığında bu günkü qalibiyyətimiz əks edildi.Rafiq Yusifoğlu lirik yaradıcılığında vətən mövzusunu aktual saxlamış, ürək dağlayan, ucsuz-bucaqsız qəmə bizi məhkum edən vətən həsrətli şeirləri ilə birlikdə, damarda qan coşduran, riqqətə gətirən yüksək ab-havalı el-yurd şeirlərinində memarı olmuşdur. Bu gün biz Rafiq Yusifoğlu yaradıcılığında yeni bir dönüşün, başlanğıcın təməli olan ilk romanı "Xiffət"lə tanış olacağıq. Bu roman 30 illik bir həyat gerçəkliyinin başlanğıcından-Qarabağın işğalından, müzəffər ordumuz tərəfindən azad olunmasına qədər olan hadisələri göz önündə canlandırır. "Xiffət" romanı Qarabağın tarixi gerçəkliyinin və real həyatının obyektiv şəkildə təsviridir. Bu təsvir elə poetik yanaşmayla qələmə alınmışdır ki, oxucu sanki hadisələrin qıraqdan iştirakçısı yox, elə şahididir.

Əsərdə erməni faşistlərinin törətdiyi qanlı hadisələr, fitnəkarlıq əməlləri, insanların kütləvi qırğını, təcavüzkarlıq, zorakılıq tarixi faktlarla qələmə alınmışdır. Bu faktlar öz əksini publisistikada,ədəbiyyatda, tarixdə və s. sahələrdə tapmışdır. Yazıçı topladığı bu faktları yalnız azərbaycanlıların, türklərin dilindən deyil elə ermenilərin öz dilindən özünüifşayla bəyan etmişdir. Ermənilər dəfələrlə "Xocalı faciəsi"ndə törətdikləri vəhşilikləri qürurla fakta çevirmiş və özlərinin nə qədər rəzil millət olduqlarını sübut etmişlər. Bu faktlar isə "Xiffət"də mükəmməl sferadır."Xiffət" Ümid, Şəlalə, İntiqam, Elşən kimi qəhrəmanların taleyinin güzgüsüdür. Bu obrazlardan Ümid öz gücü ilə əsl Azərbaycan qəhrəmanıdır. Bu güc mənəvi gücdür, vətən sevgisindən, intiqam hissindən doğan gücdür. Ümid başına gələn bütün müsibətlərə, keşməkeşlərə məğlub olmadan ayağa qalxır, gələcəyə ümidlə baxıb nə vaxtsa tökülən qanların, çəkilən qüssələrin yerdə qalmayacağına vətən bağının yenidən al-əlvan olacağına inanır. O, bir gün Qarabağın dağlarının, qayalarının zar-zar iniltisinin muğamla, qəzəllə, musiqiylə əvəz olunacağına əmindir. Elə bəlkə də, Ümid Azərbaycan xalqının özüdür...İntiqam obrazı isə Azərbaycan xalqının yetirdiyi oğulların timsalıdır. Yazıçının qələmində İntiqam "İkinci Qarabağ müharibəsi"nin iştirakçısı olmuş, oradan olan xatirələri faktlara söykənmişdir. Bu məğrur, qorxusuz, qüvvətli oğulun tək arzusu intiqam almaq, vətən torpaqlarını hər qarışına qədər geri qaytarmaq idi. İntiqamda, Ümiddə öz arzusuna çatdı. Cənab Ali baş komandanmızın başçılığı ilə müzəffər Azərbaycan ordusu qələbə çaldı. Torpaqlarımız qürurla geri qaytarıldı.

Əsərdə canlı döyüş səhnələridə xüsusi peşəkarlıqla qələmə alınmışdır. Şuşanın azad olunmasında "Şuşa döyüşləri" faktlara əsəslanaraq ordumuzun şücaətini göz önündə canlandırmışdır. Əsgərlərimizin silahsız, yalın əllə savaşdığı bu döyüş əsl qəhrəmanlıq mücəssəməsidir. Romanda Azərbaycan əsgərinin hər zaman döyüş əmri gözləməsi də diqqəti çəkir.Əsərdə belə bir cümlə var; "Düşmən hardan biləydi ki, əsgərlərimizə bu gücü, qüvvəni verən sonsuz Vətən sevgisi, Xocalı soyqırımını unutmayan qəhrəman oğullarımızın ürəyindəki intiqam alovudur". Bu cümləylə hər şey aydın olur, xalqımızın, ordumuzun canındakı, qanındakı sevgi... Vətən sevgisi...Əsərdə mübarizə təkcə canlı döyüşdə deyil həm də informasiya mübarizəsi idi. Bu müharibə Azərbaycanın hüdudları ilə məhdudlaşmır ümummilli səciyyə daşıyırdı. Dünyanın dörd bir yanından Qarabağ Azərbaycanın şüarına çevrilmişdi. Bütün dünya texnika vasitələriylə müzəffər ordumuzun döyüş taktikalarına heyrətlə baxır bu xalqın qəhrəmanılığına qibtə edirdilər.

Rafiq Yusifoğlunun "Xiffət" romanı tarixilik və müasirliyin vəhdətidir.Tarixdən üzü bəri yaşadığımız faciələr,müstəqilliyimiz yolunda axıtdığımız şəhid qanları bir-bir unudulmadan xatırlanır. "Xiffət" oxucunu keçmişə qaytararaq bu müstəqilliyimizin,azadlığımızın nələrin bahasına baş tutduğunu unutmamağa çağırır.Həqiqətlər olduğu kimi riyasız-boyasız oxucuya çatdırılır. Əsərdədə deyildiyi kimi 30 il əvvəlin

əsgəriylə bugünkü əsgərin fərqi peşəkarlıqda idi. Ordumuz, xalqımız bu illərdə yerində durmamış dişiylə, dırnağıyla çarpışmış "Ümid" kimi kişilər, "Şəlalə" kimi analar, "İntiqam" kimi oğullar böyütmüşdür.İ ntiqamlar isə nisgilimizə son qoymuş Ali Baş Komandanımızın başçılığıyla torpaqlarımızı geri qaytarmışdır. Bu hadisələrin ən gözəl bədii güzgülərindən biri olan nümunəsi "Xiffət" romanıdır. Bu roman Azərbaycan xalqının timsalında Ümidin xiffətiylə başlamış və sonda Ümidin xiffəti ilə sonlanmışdır. Qarabağın ahı-naləsi sonda musiqiylə əvəzlənmişdir. "Xiffət" romanı geniş mənada parçalanmış ruhumuzun bütövləşməsi hadisəsi səviyyəsində poetikləşdirilmişdir. Bu roman həm ərazi baxımından,həm də milli-mənəvi cəhətdən doğma Vətənin,bir elin bütövlüyünə qovuşmasının romanıdır.

Şairin də dediyi kimi:

Xiffət xatirələr xəzinəsidir,
Açarı bizdədir,özü uzaqda...

ƏDƏBİYYATDA YARADICI İNSAN TƏSVİRİ VƏ ŞƏXSİ HƏYAT AMİLLƏRİ

Kamilova L.A.
Bakı Slavyan Universiteti
E-mail: lala.kamilova10@gmail.com

Yaradıcı şəxs obrazının təsviri ədəbiyyatda bir çox yazıçıların müraciət etdiyi mövzudur.Bu zaman həmin şəxsin sənəti ilə yanaşı onun daxili aləmi,insani keyfiyyətləri , coşub-daşan xəyal dünyası nümayiş olunur.Dünya ədəbiyyatına nəzər salsaq bir çox yazıçıların avtobioqrafiya-yəni əsərdə öz obrazlarını yaratdığının şahidi olarıq. Yazıçılar bu əsərlərdə özlərinin daha kamil versiyasını yaradır,daha uğurlu bir şəxs kimi tərənnüm edirlər. Bəzən isə ədiblər real həyatdan götürdükləri şəxslərin obrazlarını öz yaradıcı dünyalarına improvizə edirlər.Bəzən yazıçının istəyindən asılı olaraq hadisələr,adlar,zaman-məkan anlayışları dəyişə bilir. Yaradıcı şəxslərin prototiplərinin təzahürü özünü bir çox yazıçıların əsərlərində büruzə verir.Somerset Moemin yaradıcılığı bu cəhətdən səciyyəvi nümunə hesab oluna bilər. İxtisasca həkim olan bu ingilis yazıçısı ədəbiyyata olan marağı ilə tanınır.Valideynlərini erkən yaşda itirən yazıçıya əmisi qəyyumluq edir. Məhz bunun sayəsində o kənar təsirlərə qapılaraq maraq duymadığı bir sahəni seçir. Lakin ədəbiyyat ilə yolları kəsişdikdən sonra öz həyat fəlsəfəsini formalaşdırır. Tibb təhsilini almaq üçün uzun vaxt sərf edən yazıçı " Lambetli Liza" kitabını yazaraq öz həyatında və ingilis ədəbiyyatında dönüş edir.Onun əsərlərində daha çox xəyallarının ardınca qaçan,tez-tez qurbanlar verməli olan,zəngin mənəvi dünyaya malik insanların təsvirlərinə rast gəlirik. Yazıçı bəzən xəyali obrazlar yaradır,bəzən isə real şəxslərin həyatından təsirlənərək əsər yaradırdı.Onun "Ay və qara qəpik" əsərində Çarlz Striklendin obrazı parlaq incəsənət adamını-Pol Qogeni tərənnüm edir. Striklend sakit qaradinməz biri kimi göstərilərək incəsənət adamlarının bir çoxunun xüsusiyyətlərini daşıyır. Onun ay kimi parlaq sənəti ilə cəmiyyət arasında qara quruşa bənzəyən xarakterinə mənəviyyat yoxsulu insanlar yuxarıdan aşağı baxır.Cəmiyyət arasında incəsənət adamlarının bir çoxunun sakit təbiətli , üzüyola olması ilə bağlı fikirlər mövcuddur. Lakin belə şəxslərin daxili aləmi coşğun dəniz kimi təlatümlü olur, onlar zəngin mənəvi dünyaya malik olurlar. Çarlz Striklendi bir çox sənət yoldaşları uğursuz adlandırır.Onun adi bir birja dəllalı olduğu hətta ən yaxınları tərəfindən də təsdiqlənir.Buna baxmayaraq o cəmiyyətdə incəsənət dünyası ilə öz imzasını qoya bilib.Onun tək dərdi uşaq ikən içində saxladığı rəssam təbiətini ortaya çıxarmaq idi. Atasının ona qoyduğu qadağa ilə basdırılmış olan duyğuları onu hətta qırx yaşında evli bir adam ikən də rahat qoymur və məhz buna görə də evi tərk edərək xəyallarının arxasınca yollanır.Adətən incəsənət insanlarının sənətdə uğurlu olmaqlarının əksinə şəxsi həyatda uğursuzluğa düçar olduğunu görürük.Bizə nümunə olan insanların həyatına yaxından baxdıqda əslində heç də xoşbəxt həyatlarının olmadığını anlayarıq. Bunun səbəbi isə onların daima qurban vermələridir. Çarlz Striklend də məhz ona yad olan dəbdəbəli yığıncaqları,dostundan çox düşməni olan cəmiyyəti tərk edərək arzularını reallaşdırmaq üçün Parisə gedir.Evdən gedişini sadəcə bir məktubla xəbər verərək ailəsinə onlarla yaşaya bilməyəcəyini bildirir. İnsan yalnız özü kimilərin yanında xoşbəxt olur. Striklendin arvadı nə qədər yazıçılara hörmət etsə də,bir o qədər də öz ərinin yaradıcı dünyası ona yaddır. Digər insanlar kimi o da Çarlzı sadə bir birja dəllalı olaraq görür,onun daxili aləminə önəm vermir.Real həyatda Pol Qogenin Van Qoqla bir sıra rəssamlıq bacarıqlarına yiyələndiyi doqquz həftənin bənzərini biz əsərdə Çarlz Striklend ilə Dirk Stryovun bir araya gəlməsi hadisəsi ilə görürük.Rəssam Stryov Striklendi dahi adlandırır,onun əsərlərini isə zəngin bir xəzinəyə bənzədir.

Nəhayət onu anlayan birini tapan Striklend keçmişi haqqında düşünmür,bugününü düşünərək sənətində yeniliklər etməyə nail olur.Bu yolla öz daxili dünyasını kətana həkk etmək imkanı əldə edən rəssam Striklend bu minvalla öz "mən"ini, yaşam səbəbini tapmış olur.Striklend öz incəsənət dünyasının vurğunudur.O,hətta yemək yeməyi belə sadəcə həyatda qalmaq üçün bir vasitə kimi görür,sadəcə bugünü üçün yaşayıb yaradır.Gecə gündüz tərkidünyalıqla zamanını ibadətlə keçirən Striklend bir ruhani kimi dünya işlərindən uzaqlaşır,zəngin mənəvi dünyasını inkişaf etdirir. Bir çox insanlar cəmiyyətdə daima irəli getmək,inkişaf etmək istəyirlər.Somerset Moemin qəhrəmanı da cəmiyyətdə tutduğu mövqe ilə razılaşmır.Lakin yazıçı öz əsərlərində yaradıcı şəxsləri cəmiyyətdən ayırmır,onun bir parçası kimi göstərir.

RAFİQ YUSİFOĞLUNUN "XİFFƏT" ROMANINDA PUBLİSİSTİK ÜSLUB

Kamilova N.M.
Sumqayıt Dövlət Universiteti
E-mail: nrminkamilova@gmail.com

"Xiffət" romanı türkün qanlı tarixini özündə cəmləyən, düşmənin murdar iç üzünü açıb-gösətərən, bu gündən keçmişə həsrətlə baxan, həm də qələbə qoxan bir romandır. Yazıçı əsərinə roman, yəni bədii üslubun bir nümunəsi desə də müxtəlif mənada əsərdə publisistik səciyyənin də şahidi oluruq. Tarixi faktlardan, görkəmli yazıçıların və siyasətçilərin müxtəlif fikirlərindən lazım gəldikcə istifadə olunması bizə bunu deməyə əsas verir. Əslində elə bununla da hadisələrin mahiyyətini dərindən anlayır, tarixi kökünü, yəni qaynaqlandığı yeri dəqiq bilirik.Əsər müxtəlif başlıqlı fəsillərdən ibarətdir."Dəhşətli faktlar, əzablı düşüncələr"adlı IX fəslində isə əsərin qəhrəmanları olan Ümid kişi və oğlu İntiqamın söhbətləri əsnasında müxtəlif publisistik mətnlərə baş vurduqlarının şahidi oluruq. Əslində İntiqam atasının danışdığı acı dolu xatirələrə sığan "nağıl"lara qulaq asaraq böyümüşdü. O, Qarabağ camaatının başına gətirilən müsibətlərdən xəbərdar idi. Həmçinin illər keçdikcə mətbuatı izləyir, o dözülməz günləri əks etdirən yazıları da oxuyurdu. Yazılar oğlanın içini göynədir, qəlbindəki intiqam hissini sönməyə qoymurdu. Müəllif kitabda sual edir: *" İndi döz görüm necə dözürsən bu ağrılara? İndi xoşbəxt ol görüm necə olursan bu qədər ağrılar, əzablar, iztirablar ola-ola?!"*

Belə suallara kitabın bir neçə hissəsində rast gəlmək mümkündür. Bununla qarşılaşan insan istər-istəməz oxuduğu faktlara bir də nəzər yetirir. Beləliklə, əsərdəki publisistik mətnlərin sirri açılır, öz mahiyyətlərini biruzə verirlər.Əsərdə Qarabağ həqiqətləri ilə yanaşı, mənfur düşmənin iç üzünü açıb göstərən yazılara da rast gəlirik. Bu isə həm ata və oğulun, həm də İntiqamın Qubada, Qudyalçay sahilində erməni vəhşiliyini əks etdirən abidə kompleksini ziyarət edərkən qarşılaşdığı şairlə olan söhbətində ortaya çıxır. Bizə görə buradakı şair yazıçının prototipidir. Əslən Qubadlıdan olan şairin söyədiyi tərcümə parçalarda böyük rus yazıçıları Aleksandr Puşkin və Vladimir Mayakovskinin həmçinin digər xarici filosofların erməni xisləti, nadanlığı, xəyanətkar və ikiüzlülükləri haqqında fikirlərini görmək mümkündür. Bu roman axı həm də qələbə qoxuludur. X fəsildən başlayaraq bu qoxu bizi tək qoymur. Bəzən obrazların xəyalında keçmiş ağrılı xatirələrə qayıtsaq da Günel Hüseynovanın da dediyi kimi ,*"Keçmiş, indi və gələcəyin vəhdəti haqqında düşüncələr hadisələrin mahiyyətini daha dərindən anlamağa yardımçı olur."*

"Aprel döyüşləri", "Qisas müharibəsi, "Şuşa döyüşləri"indən bəhs olunan fəsilərdə də hər bir tarixi fakt olduğu kimi qələmə alınıb. Belə faktları mətbuatda da tez-tez oxumuş, televiziyada da dinləmişik. Qəhrəmanların da müharibənin gedişindən müxtəlif saytlardan, televiziyalardan xəbər alıqlarını görürük. Bu həm əsərin yaşadığımız həyatla bağlılığının, həm də publisistikamızın həmin dönəmdə vətəndaşlara dolğun informasiya çatdırdığının sübütudur. Sonuncu XIV fəsil "Zəfər yolu" adlanır. Sanki 44 günlük müharibənin, həm də qələbə dolu günlərin hər çağı bu hissədə yenidən canlanıb. Ümid kişi televizordan döyüşün gedişatından xəbər alır, qazilərin xatirələrini dinləyir, Ali baş Komadanın zəfər dolu tvitlərini gözləyir. İşğal altında olan rayonlarımızın, kəndlərimizin alınması xəbəri ilə intiqam alovuna bir az da olsa su sərpilir. Noyabrın 10-da imzalanan sənədlə müharibə qələbə ilə sonlanır. Ancaq bəzi söz-söhbətlər bitmir. Məsələn, sülhməramlı kimi əraziyə yerləşənlərin, müharibə boyu sülhməramlı hərəkət etmədiklərinin və bu gün də prosesin elə eyni xislətdə davam etdiyinin şahidi oluruq . Bu ab-havanı biz əsərdə də izləyirik. Həmçinin Ümid kişi televizorda işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi, yenidən qurulması, oranın ürək açan təbiəti və sərvətləri haqqında proqramlara da baxırdı. Burada gördükləri Ümid kişinin danışdıqları ilə üst-üstə düşürdü. Biz də televiziyadan aldığımız məlumatlarda bunun şahidi olmuşuq.

HƏNƏFİ ZEYNALLININ ƏDƏBİ-TƏNQİDİ İRSİNDƏ FOLKLOR MƏSƏLƏLƏRİ

Məhəmmədova S.T.
Bakı Slavyan Universiteti
Email: mahammadovasabina1986@gmail.com

Elmin fədaisi, Azərbaycanın ədəbiyyat və mədəniyyət tarixində xüsusi yer tutan Hənəfi Zeynallı folklorşünaslığımıza dəyərli töhvələr vermişdir. Onun "Həyat və sənət" (1923), "Ağız ədəbiyyatı", "Azərbaycanda el edəbiyyatı" (1926) məqalələrində xalq yaradıcılığı ilə bağlı fikirləri açıqlanır, folklorun nəşri və tədqiqi problemləri vurğulanırdı. 1935-ci ildə isə Hənəfi Zeynallı görkəmli rus folklorşünası, professor M. Y. Sokolovun redaktəsi ilə edir Azərbaycan nağıllarını rus dilində nəşr etdirir. Hənəfi Zeynallı folklorun nəzəri məsələləri ilə bərəbər folklor nümunələrinin toplanması ilə də ciddi məşğul olurdu. 1925-1929-cu illərdə o, "Bayatılar", "Azərbaycan atalar sözü və məsələlər", "Azərbaycanın atalar sözləri və məsəllər", "Azərbaycan tapmacaları" və "Dastanlar və nağıllar" kitablarını nəşr etmişdir. 1926-cı ildə işıq üzü görən "Atalar sözü və məsəllər" kitabı Hənəfi Zeynallının yaradıcılığında xüsusi yer tutur. Kitab çox böyük müqəddimə ilə başlayır. Folklorşünas, professor Paşa Əfəndiyevin fikrincə, bu müqəddimə H.Zeynallının xalq ədəbiyyatının bir çox nəzəri məsələlərini dərindən bildiyini sübut edir. O, xalq ədəbiyyatında mənzum və mənsur qisimlər olduğunu oxucunun nəzərinə çatdırır və onları təhlil edir.

Beləliklə, Hənəfi Zeynallının Azərbaycan folklorunun zənginləşməsində, onu başqa xalqlra da tanıtmasında xüsusi xidmətləri olmuşdur. II Aparıcı: - H.Zeynallı xalq ədəbiyyatını mənzum və mənsur qisimlərə bölür. Bayatı, mahnı, ağı, bağlama, beşik başı, meyxana, tərifnamə mənzum qismə; nağıllar, atalar sözləri isə mənsur qismə aid edilir. H. Zeynallı göstərir ki, bu bölgünü apararkən o, rus şifahi xalq ədəbiyyatı tədqiqatının təcrübəsindən istifadə etmişdir. Alim müqəddimədə atalar sözü, məsəl, onların fərqli və oxşar cəhətləri, forma xususiyyətləri barədə geniş danışır. I aparıcı: - H. Zeynallı bir sıra nəzəri məqalələrin də müəllifidir: "Ağız ədəbiyyatı", "Azərbaycan ədəbiyyatı", "Oktyabr ədəbiyyatı", "Oktyabr inqilabı və Azərbaycan folkloru" və s. məqalələr xüsusi diqqətə layiq əsərlərdir. Müəllif göstərir ki, tapmacalarda iki tərəf olur; özü, bir də onun cavabı. Beləliklə, tapmacalar iki və daha artıq şəxs arasında mükalimə şəklində meydana gəlmişdir. Buna görə də H. Zeynallı göstərir ki, tapmaca atalar sözünə, bayatıya nisbətən daha çox kollektivlik xüsusiyyətinə malikdir. Yəni tapmacalar məclislərdə, şənliklərdə, tapmaca gecələrində kollektiv tərəfindən yaradılmışdır. II aparıcı: - H. Zeynallı 1935-ci ildə Azərbaycan nağıllarını tərtib edərək rus dilində nəşr etdirir. Kitabı görkəmli rus folklorşünası, professor M. Y. Sokolov redaktə edir. Alimin rus oxucuları üçün tərtib etdiyi bu nağıllar kitabının müqəddiməsində Azərbaycan nağıllarında ölüm-dirim mübarizəsi aparan xeyir və şər qüvvələr haqqında verilən məlumatlar olduqca maraqlıdır.

MİLLİ KİMLİK NƏDİR VƏ NECƏ FORMALAŞIR?

Məmmədova S.Ə.
Bakı Slavyan Universiteti
E-mail: sevinj_azizova@yahoo.com

Milli kimlik insanın bir və ya bir neçə dövlətə və ya bir və ya bir neçə millətə mənsubluğu və ya mənsubiyyət hissidir. Bu, "fərqli adət-ənənələri, mədəniyyəti və dili ilə təmsil olunan vahid bütövlükdə bir millət" hissidir. Milli kimlik qanuni vətəndaşlıq statusundan asılı olmayaraq bir qrup insanla bir millət haqqında paylaşdığı subyektiv hisslərə aid ola bilər. Milli kimlik psixoloji baxımdan "fərqliliyin dərk edilməsi", "biz" və "onlar"ın hissi və qəbul olunması" kimi başa düşülür. Milli kimlik eyni zamanda bir neçə fərqli etnik qruplardan ibarət olmaqla, bir millətin ümumi eynilik hissinə malik olan çoxmillətli dövlətlərin və cəmiyyətlərin ümumi əhalisini və diasporuna da aid edilir.Kollektiv fenomen kimi milli kimlik "ortaq nöqtələr"də kəsişən ünsürlərin gündəlik həyatda milli rəmzlərin, dilin, millətin tarixi, milli şüurun, mədəni əsərlərdə bilavasitə mövcud olması nəticəsində yarana bilər.Beynəlxalq hüquqa əsasən dövlətlərə münasibətdə milli kimlik termini dövlətin şəxsiyyəti və ya dövlətin suveren kimliyi termini kimi ifadə oluna bilər. Dövlətin konstitusiya adı ilə əlaqədar tərifinə görə dövlətin şəxsiyyəti beynəlxalq münasibətlərdə hüquqi identifikasiya kimi istifadə olunur və dövlətin beynəlxalq hüquqi şəxsiyyətinin vacib hissəsidir. Millətin suveren identikliyi həm də milli mədəniyyətin və ya mədəni kimliyin identifikasiyası üçün ümumi məxrəci təmsil edir və Beynəlxalq Hüquqa əsasən mədəni kimliyə və ya mədəni inanclara və ənənələrə hər hansı kənar müdaxilənin

yolverilməz olduğu görünür. Mədəni milli kimliyin hər hansı məhrumiyyəti və ya xarici modifikasiyası əsas kollektiv insan hüquqlarını pozur.Öz milli kimliyinin müsbət mənada ifadəsi milli qürur və vətənə məhəbbətin müsbət emosiyaları ilə səciyyələnən vətənpərvərlikdir. Milli kimliyin ifrat ifadəsi ölkənin üstünlüyünə möhkəm inam və öz ölkəsinə hədsiz sədaqət ifadə edən şovinizmdir.

Milli identiklik anadangəlmə xüsusiyyət deyil və o, mahiyyətcə sosial olaraq qurulur. İnsanın milli kimliyi bilavasitə insanların gündəlik həyatında "ortaq nöqtələr"dən ünsürlərin olması ilə nəticələnir: milli rəmzlər, dillər, rənglər, millətin tarixi, qan bağları, mədəniyyəti, musiqisi, mətbəxi, radiosu, televiziyası və s. Müxtəlif sosial təsirlər altında insanlar öz milli kimliyinə uyğun gələn inancları, dəyərləri, fərziyyələri və gözləntiləri qəbul edərək milli kimliyi şəxsi kimliklərinə daxil edirlər. Öz millətini tanıyan insanlar milli inanc və dəyərlərə şəxsən mənalı baxır və bu inanc və dəyərləri gündəlik təcrübəyə çevirirlər.

MƏDƏNİ İRS NƏ DEMƏKDİR?

Məmmədova S.Ə.
Bakı Slavyan Universiteti
E-mail: sevinj_azizova@yahoo.com

Hər bir xalqın mədəni kimliyi onun əvvəlki nəsillərdən miras olaraq yeni nəslə ötürülmüş maddi və mənəvi irsi ilə müəyyün edilir. Heç də bütün miraslar irs hesab edilə bilməz, irs cəmiyyət tərəfindən seçilmiş məhsuldur. Mədəni irsə binalar, abidələr, təsvirlər, kitablar, incəsənət nümunələri və sair kimi maddi, folklor, adət ənənə, dil və bilik kimi mənəvi, və təbii mədəni irs olaraq üç qrupa bölmək olar. Bu termin adətən yerli əqli mülkiyyətin qorunması ilə əlaqədar məsələlərlə yanaşı işlənir.Mədəni irsin gələcək üçün qorunub saxlanması mədəni və tarixi etnik muzeylər və mədəniyyət mərkəzləri tərəfindən həyata keçirilir. Qorunan irs qlobal turizm sənayesi, yerli icmalara böyük töhfə verən iqtisadi dəyərə çevrilmişdir.

Mədəni sərvətlərin hüquqi mühafizəsi bir sıra beynəlxalq müqavilələr və milli qanunlarla tənzimlənir. Birləşmiş Millətlər Təşkilatı, YUNESKO və Beynəlxalq Mavi Qalxan mədəni irsin qorunması ilə məşğul olur. Bu, Birləşmiş Millətlər Təşkilatının sülhməramlı qüvvələrinin inteqrasiyasına da aiddir.Qədim tarixə malik xalqımız çox zəngin mədəni irsə malikdir. Bura qədim zamanlardan inşa edilmiş qalalarımız, əsrlərin süzgəcindən keçmiş adət ənələrimiz, şifahi xalq ədəbiyyatı nümunələrimiz, müxtəlif dövrlərdə ana dilimizdə və dövrün tələbinə uyğun olaraq ərəb və fars dilində yazılmış müxtəlif forma və məzmunda yazılmış ədəbi nümunələr daxildir.

ABDULLA SUR YARADICILIĞINDA MƏHƏMMƏD FÜZULİ SEVGİSİ

Novruzova C.N.
Bakı Slavyan Universiteti
E-mail: Novruzovacemile0@gmail.com

Abdulla Surun digər romantiklərdən, yəni M.Hadidən, A.Səhhətdən, H.Cavid və digərlərindən fərqli olaraq ədəbi tənqidə və elmə xüsusi fikir verməsi, bu istiqamətdə fəaliyyəti alimləri daha çox maraqlandırdığından onun elmi yazılarının təhlilinə üstünlük vermişlər. O cümlədən XIX əsrin sonu, XX əsrin əvvəllərində klassik ədəbiyyatın tədqiqinə maraq da güclənmişdi. Abdulla Surun belə maraqlı əsərlərindən biri "Füzuliyə bir nəzər"dir. Bu, həm Füzulişünaslığın inkişafına, həm də Füzuli irsinin öyrənilməsinə təkan verdi. Tədqiqatçılar bu məqaləyə müraciət etsələr də, onun əhəmiyyət və səviyyəsini tədqiqata cəlb edən olmamışdır. Bu barədə akademik H.Araslının mülahizəsi maraqlıdır. Alim yazır: "A.Sur Füzuli əcdadının Azərbaycandan köçməsi, bu mühacirətin səbəbləri haqqında izahat verib, nəticədə "hər halda Füzulidə bir azərbaycanlılıq vardır" – deyir" (H.Araslı. Böyük Azərbaycan şairi Füzuli. Bakı: 1958.). Görkəmli alim ilk dəfə A.Surun Füzulinin tədqiqatçısı olduğunu, eyni zamanda onun bu tədqiqatından digər alimlərin də faydalandığını qeyd edir: "A.Sur Füzuli haqqında ilk dəfə orijinal fikir söyləyən tədqiqatçı olaraq, bu məqaləsi ilə diqqətini şairin yaradıcılığına cəlb edir ki, A.Şaiq "Gülzar" əsərində, F.A.Ağazadə isə "Ədəbiyyat" məcmuəsində bu məqalədən istifadə etmişlər" (H.Araslı. Böyük Azərbaycan şairi Füzuli).

A.Sur ilk tədqiqatçı idi ki, Füzulinin əcdadlarının azərbaycanlı olduğunu, onların sonradan Bağdada köçdüklərini elmi mülahizə kimi irəli sürmüşdür. O həm də bu böyük şairin Azərbaycan, eləcə də ümumtürk

ədəbiyyatında mövqeyini də müəyyənləşdirmişdir. "Türk ədəbiyyatının nəsrcə müəssisi Sinan paşa olduğu kimi, nəzmcə müəssisi dəxi Məhəmməd Füzulidir" (A.Sur. Füzuliyə bir nəzər).

A.Sur Füzulinin ayrı-ayrı əsərlərindən, onların əhəmiyyətindən də söz açmış, Füzulinin nəsr əsəri olduğunu da qeyd etmişdir. O yazır: "Füzuli yalnız nəzmən yazmadı, asari-mənsurəsi də vardır. "Şikayətnamə"silə "Hədiqətüs-Şüəda"sı o cümlədəndir" (A.Sur. Füzuliyə bir nəzər).Maraqlıdır ki, mərsiyə janrı da qədim tarixə malikdir. Onun ərəb və fars dillərində xeyli nümunələri yayılmışdır. Azərbaycan dilində ilk mərsiyələrin müəllifi Füzuli olduğunu da Abdulla Sur müəyyən etmişdir. "Türk dili üzrə ilk dəfə mərsiyə yazan Füzulidir" (A.Sur. Füzuliyə bir nəzər). Abdulla Sur həm də Füzuliyə alim kimi baxırdı. O yazır: "Həm alim, həm şair oldu. Çünki o "elmsiz şeir əsası yox, divar olur, əsassız divar bietibar olur" qanununu kəndinə düstur məşrib edən şairlərdən olmaq istəyirdi" (Yenə orada). Bu yanaşma görkəmli alim Mir Cəlalda da eynilədir. Alim yazır: "Füzuli dövrünün ən böyük şairi olduğu kimi, həm də ən böyük alimi idi" (Mir Cəlal. Füzuli sənətkarlığı. Bakı: ADU nəşriyyatı, 1958,).

Alim Füzulinin yaradıcılığında eşq və aşiq məsələlərinə xüsusi diqqət yetirdiyindən yazmışdır: "O, həqiqi şair, səmimi bir aşiq idi" (A.Sur. Yenə orada). Tənqidçinin düşüncəsinə görə "bir dəfə Füzuli demək – bir qəzəl deməkdir, bir qəzəl söyləmək – bir dəfə Füzuli deməkdir. O, qəzəlləri aşiqlərdən ötrü mənzərəli yer, bulaq başı, gözəl bir yerdə ruhu oxşayan nəğmələrə bənzədir: "Bunun qəzəlləri bütün "təzakar" məhcur yar aşiqlər üçün izsiz bir orman, sakit bir irmaq, solğun bir çiçək, rəngin bir qurub, mavi məhtab qədər təsəllibəxş, ruhpərvər birər nəğməyə rəxtavərdir" (Yenə orada).

Alim-şair göstərir ki, Füzuli "Şikayətnamə", "Bəngü Badə", "Səhhət və Mərəz" əsərlərinə görə Hafizdən də yüksəkdə dayanan bir sənətkardır. Tənqidçi böyük şairin epik əsərlərinin təhlilinə də xeyli yer ayırmışdır. O, "Bəngü Badə" əsərinin Şah İsmayıla həsr olunduğu da göstərir. Müəllif həm də Füzulinin həcv yazmadığını da təqdir edir. O bu barədə belə yazır: "Hələ həcvə heç-heç yaxın durmadı, demək ki, ədəbsiz ədibin dəfinə üzərində yatağana (əfi) bənzədiyini biliyormuş da hissi-əxlaq şairlər kimi bu münasibətsizlikdən qaçmıyormuş" (Yenə orada).Müəllif Füzulinin dilinin sadə, anlaşıqlı olduğunu, onun Azərbaycan türklərindən olduğunu da təxmin edir: "Füzuli Şərq və Qərb türklərinin şivələrinə məxsus incəlikləri, məcazları dilində qarışdırmadığı üçün hər nə qədər rum bülağasından – tatar füsahasından etiraz diləyir isə, lisani yalnız İraqi Ərəb ilə Azərbaycana məxsus olmayıb, bir tərəfdə anlaşıla biləcək bir tərzdədir. Füzulinin lisanında mefül bəhrlər ilə bəzi siğeyi-felliyələrdən Azərbaycanlılıq hiss olunması əcdadının Azərbaycanlı olması haqqında bir zənn veriyor".

Müəllif böyük şairin yaradıcılığında rastlanan bəzi sözlərin hələ Azərbaycanda işləndiyini də xüsusi qeyd edir: ... Bu gün ədəbi Qərb türkcəsində metruk, Azərbaycanda isə hələ mövcud bəzi sözləri Füzuli istemal etmişdir. Tapşırmaq (təslim, fifuz, tenbih və tövsiyyə edilmək), tapmaq (bulmaq), budaq (dal), bitmək (qurtarmaq, tükənmək), güzgü (ayine), ata (baba), oğurlamaq (çalmaq), it (köpək), naşı (ecemi), çizginmək (dolaşmaq), dur olmaq) və s. kimi sözlər bu cümlədəndir".Abdulla Sur Füzulinin həqiqi bir şair olduğunu, həcvə qəti meyil etmədiyini də xatırladır: "Hələ həcvə heç yaxın durmadı. Çünki o həqiqi bir şair, səmimi bir aşiq idi, daha yenə ikən hiss etdi, düşündü, elə yazdı. Füzuli sandığı kimi söyləməyənlər ilə yazmayanların fərq olmadığını, hər iki sifətin də vicdana müqayir hərəkatda bulunduğunu bildirmiş olmalıdır ki, ehsanatını sənətkaranə təsvirdən başqa bir şey yapmadı".Müəllif Füzuliyə şair kimi böyük dəyər verir: "Mübaliğədən uzaq qaçdığı kimi riya irtikabından da uzaqdır. Hər beytində sünbüli bir səmimiyyət qoxusu hiss olunmaqdadır".A.Sur göstərir ki, Füzuli adı çəkilən kimi adamın ağlına qəzəl gəlir. O yazır: "Füzuli qəzəlqırvaz şairlərimizin ən böyüyü olduğu üçün namı yad olunurmu, xatirə dərhal qəzəl gəlir".

MÜƏLLİF, TƏNQİDÇİ VƏ OXUCU ANLAYIŞINA SOSİAL MEDİANIN TƏSİRİ

Piriyev N.Z.
Bakı Slavyan Universiteti
E-mail: nihatpir95@gmail.com

Yaxşı mətnin yaranması, birinci növbədə, ədəbiyyata xidmətdir. Yaxışı oxucunun və yaxşı tənqidçinin olması isə sözügedən prosesə dəstək verən ən vacib amildir.Müasir zamanımızda qəzet, jurnal və saytların bolluğu yazıçı-tənqidçi-oxucu üçlüyü üçün geniş meydan açılmasına səbəb olub. Yaranmış yeni mətn adları çəkilən media "alət"ləri vasitəsilə oxucunun ixtiyarına verilir. Müəllif yazmış olduğu mətnə gələn reaksiyaları dərhal görə, bunlardan nəticə çıxara bilər. Bu üstünlüyü müəllifə qazandıran isə məhz sosial media anlayışıdır.

Tənqidçi də, öz növbəsində, həmin media "alət"ləri vasitəsilə sözegdən mətnə münasibət sərgiləyə, münasibətinin mətn formasında həllini dərc etdirə bilər. Belə olan halda, yazıçı-tənqidşi-oxucu üçlüyü arasındakı bağ tamamlanmış olar. Çünki oxucu tanış olduğu mətn barədə həm də peşəkar tənqidi (təhlili) çox asanlıqla əldə etmiş olur. Və özlüyündə çıxardığı nəticəni götür-qoy etməyə, özündə haqlı tərəfləri ayırd etməyə imkan tapa bilər. Bu proses, eyni zamanda, müəllifə də şamil olunur.Nəticə etibarilə, bu gün sosial media anlayışı yazıçı-tənqidçi-oxucu üçlüyü üçün ən yaxşı vasitə və ən yaxşı platformadır. Əvvəlki dönəmlərlə müqayisədə bu gün üçün mətn anlayışı, mətni dərc etdirmə anlayışı, mətnlə tanış olma anlayışı, həmçinin mətnə münasibət anlayışı olduqca asandır. Aydın məsələdir ki, mətnə münasibət həm də mətni dərk eləməkdən asılıdır. Mətni dərk eləmək isə mütaliə və bir az da yazı qabiliyyətindən asılıdır. Yəni bir oxucu və bir tənqidçi müəllifin mətninə münasibət sərgiləmək üçün mütaliə bazasına və yazıçılıq qabiliyyətinə söykənməlidir. Fikir olaraq, bu ifadə bir az naşı səslənə bilər, amma bu reallıqdır ki, mətnə münasibət üçün o mətni yaza bilmək bacarığı da əsas amillərdən biridir.

Tənqidçinin həm də yaxşı oxucu olması məsələsi məlumdur. Müasir Azərbaycan ədəbi mühitinə baxdıqda tənqidimizin durumu o qədər də pis görünmür. Yaranmış müasir mətnlərə sosial mediada müasir tənqidçilərimiz tərəfindən dərhal reaksiyalar görürük. Bu, ədəbi mühit və onun inkişaf perspektivi üçün kifayət qədər ciddi məna ifadə edir. Yaxşı, sual olunur, Azərbaycan ədəbi mühitində üzdə olan ədəbi tənqidçilər yaxşı oxucudurmu? Bu suala cavab sözügedən tənqidilərin müəyyən mətnlər barədə şərhində gizlənib. Bu şərhlərlə tanış olmuş biri kimi verdiyim suala cavabım "Bəli"dir. Müasir Azərbaycan ədəbiyyatında Əsəd Cahangir, Cavanşir Yusifli, Vaqif Yusifli, Elnarə Akimova, Maral Yaqubova, Tehran Alışanoğlu, Mehman Qaraxanoğlu kimi özünü və imzasını təsdiq etmiş ədəbi tənqidçilərimiz var ki, bu gün üçün müasir ədəbi mühit həmin adlara çox şey borcludur. Əslində, ədəbi mühiti formalaşdıran da yuxarıda qeyd etdiyimiz yazıçı-tənqidçi-oxucu üçlyüdür. Bu üçlük arasında gedən mətn və fikir mübadiləsi bütövlükdə ədəbiyyata, ədəbi mühitə, onların yaranmasına və inkişafına xidmət edir.Sosial medianın ədəbi mühitə təsiri məsələsi də məlumdur. Əvvəlki dönəmlər üçün aktual olan ədəbi məclis anlayışı bu gün sosial media və sosial şəbəkələr üzərindən aparılır. Sosial şəbəkələr artıq müasir dövrün ədəbi məclislərini əvəz eləmək qabiliyyətindədirlər. Belə ki ədəbi məclislərdə aparılan mətn müzakirələri, fikir alqı-satqısı asanlıqla sosial şəbəkələr üzərindən aparıla bilir. Hətta sosial şəbəkələr ədəbi məclislərdən daha əhatəli və daha sərhədsiz meydana malikdir. Sosial şəbəkələrdə aparılan müzakirələr mətnin müəllidi üçün həm də stimullaşdırıcı faktor rolunu oynayır. Üstəlik, bu həm də yeni oxucu kütləsinin formalaşmasına, insanlarda ədəbiyyata, kitaba, mətnə maraq oyanmasına ciddi dəlalət edən məqamdır. Azərbaycanda bu gün ədəbi mühitin ən çox müzakirə meydanı olan sosial şəbəkə "Facebook"dur. "Facebook", eyni zamanda, bir çox ədəbi qrup və səhifələrin, biliklərin, həmçinin bır sıra ədəbiyyat portallarının cəm olduğu ortamdır. Media strukturu olaraq isə, qəzet və jurnallardan "Ədəbiyyat qəzeti", "525-ci qəzet", "Kaspi", "Türküstan", "Ulduz", "Azərbaycan", "Qobustan"ın, saytlardan isə "Kulis.az", "525.az", "manera.az", "senet.az", "yeniyaz.az", "edebiyyat.az", artkaspi.az" kimi saytların adını çəkə bilərik.

Son dövrlərdə televizuya və radiolarda da ədəbiyyata dair veriliş və layihələrin çoxluğunu müşahidə edirik. Daha çox "İctimai Televiziya", "Azərbaycan Dövlət Televiziyası", "Mədəniyyət Televiziyası" bu cür layihələri təqdim edir. İstənilən halda, bu və bunun kimi layihələr məhz sosial media üzərindən tamaşaçanı anlayışını oxucu anlayışına çevirməyə xidmət edir.

İSTİQLAL ŞAİRİ – ƏMİN ABİD GÜLTƏKİN

Qarayeva L.F.
Bakı Slavyan Universiteti
E-mail:garayevalala88@gmail.com

Cümhuriyyət poeziyasının gənc simalarından olan Əmin Abid XX əsrin 20-ci illərindən nəzəriyyəçi, ədəbiyyat tarixçisi, qorqudşünas və axundovşünas alim kimi tanınıb. Onun yuxarıda adları qeyd edilən sahələrlə əlaqədar fundamental araşdırmaları mövcuddur. Amma bizim tədqiq edəcəyimiz və işimizdə yer verəcəyimiz məsələ Əmin Abidin istiqlalçı, vətənpərvər ruhlu şeirləri, bu xüsusda daima dövlətin və dövlət nümayəndələrinin yanında olmasıdır. Əmin Abid yaradıcılığa keçən əsrin 10-cu illərində başlayıb, "Dirilik", "Ovqati-nəfisə" və "Məktəb" adlı jurnallarda çıxış edib, böyük qardaşı Əliabbas Müznibin redaktorluğu ilə dərc olunan "Babayi-əmir" jurnalında yazıb. Yaradıcılığının ilk illərində də şair öz vətənpərvər parçaları ilə mətbuat köşələrini bəzəyirdi. "Azərbaycan" qəzetinin 1918-ci ilə aid nüsxələrini təhlil edərkən biz burada

şairin iki şeirinə rast gəlirik – "Vətənin dərdi" və " Abdulhaqq Hamid". Birinci qeyd edilən şeirdən şahid oluruq ki, uzaqgörən şair sanki istiqlalın təhlükədə olduğunu hiss edir, qara buludların gələcəyinə təəssüflənir. Azərbaycan gənclərinə həsr etdiyi bu şeirdə şair gəncləri ayıq olmağa, aydın olmağa səsləyir. Çünki şair gələcəkdən, vətənin istiqbalından narahatdır:

Mazi sevinc ilə daim gülümsər,
Fəqət pək hüzünlü, pək qəmlidir hal.
Müdhiş bir uçurum iştə istiqbal
Hər bir düşüncəyə zəhərlər sərpər.

Şairin narahatlığı ilə yanaşı, gələcəyə ümidli baxışları da var. Belə ki, gənc vətənpərvər şairin bir arzusu var idi – xaricdə təhsil alaraq, vətənə yeni biliklərlə dönmək. Onun bu arzusu Cümhuriyyətin bərqərar olduğu ikinci ildə - 1919-cu ildə gerçəkləşir. Şair İstanbul darülmüəlliminində və İstanbul Universitetində təhsil alır. Onun tələbəlik illərində qələmə aldığı "Azərbaycan türklərinin ədəbiyyat tarixi" monoqrafik əsəri əhatəliliyi baxımından müfəssəl və əhəmiyyətli mənbədir. Şair Türkiyədə təhsil almaq, elmi işlərlə məşğul olmaqla yanaşı, güclü poetik qüvvəyə malik, vətənpərvər şeirlər də yazmışdır. Filologiya elmləri doktoru, professor Bədirxan Əhmədov qeyd edir ki, şairin Türkiyə şeirləri onun poetik yaradıcılığında keyfiyyətcə dəyişən ikinci mərhələsidir. Bəli, məhz onun Türkiyədə yazdığı şeirlər vətənpərvər ruhu, istiqlal sevdası ilə seçilir, böyük cəsarətlə işğalçı rejimin sonu ilə bağlı poetik qənaətlərini bildirir. Şair Cümhuriyyətin işğalından sonra Türkiyədə əməkdaşlıq etdiyi mətbuat orqanları ("Yeni Qafqaz", "Azəri-türk", "Odlu yurd") vasitəsilə mübarizəni daha da gücləndirir və mühacirət ədəbiyyatına güclü təkan verir. Bu baxımdan onun "İstiqlal uğrunda" məcmuəsindəki dərc olunan şeirləri son dərəcə qiymətlidir. Fikirlərimizi Bədirxan Əhmədovun bu cümləsi ilə əsaslandıraq: "Təkcə "İstiqlal uğrunda" məcmuəsindəki şeirləri onun mühacirət poeziyasının aparıcı qüvvəsi olduğunu aydın göstərir. Gültəkin özü siyasi mühacir olmasa da, onun şeirləri klassik mühacirətin ən yaxşı nümunələridir". Bütün bu misallar onu göstərir ki, Əmin Abid dövlətin işğalından sonra barışmaz mövqe nümayiş etdirir, işğalçı rejimə qarşı sanki qələmi ilə döyüşür, Cümhuriyyət qurucuları ilə güclü əlaqələr qurur və yenidən əldə ediləcək müstəqilliyə ürəkdən inanır. Bu baxımdan Əmin Abidin işğala qarşı, qızıl orduya hiddət və nifrətlə dolu olan "Qorxu", "Çeka", "Canavar", "Qızıl rus şairinə", "Azəri kommunistinə", "Kommunizm dəhasına", "Bolşevik" şeirlərini xüsusilə qeyd etməliyik. Şair qeyd edilən şeirlərin hər birində işğala qarşı qəti və barışmaz mövqe sərgiləyir, istiqalın yenidən bərqərar olacağına ümid bəsləyir. Şairin "Bayrağım və istiqlalım", Annəmə", "Qürbətdə bayram", "Azərbaycan istiqlalı", "Sevgili Bakıya" şeirlərində isə əldən getmiş azadlıq ürək yanğısı ilə anılır. Burada vətənə sonsuz məhəbbət və həsrət, işğalçıya qəzəb və nifrət ifadə olunur. "Annəmə" şeirinin təqdim edəcəyimiz bir bəndi bütün bu deyilənlərin təsdiqidir:

"Get onun bağrına yüzünə sürt də
Rusun çeynədiyi torpağını öp.
Azəri oğlunun böyük ümidlə,
Gömdüyü üçrəngli bayrağını öp.
Bəlkə də ölürüm qürbətdə annə!
Ruhumsa qalmasın həsrətdə annə!

Əmin Abid irsinin araşdırmaçıları Əli Şamil və Bədirxan Əhmədovun tədqiqatlarına əsasən qeyd edək ki, şair Türkiyədə "Gültəkin" imzası ilə çıxış etmişdir. Amma uzun müddət ədəbiyyatda Əmin Abid və Gültəkin adları ayrı çəkilmiş, onların eyni adam olması gerçəyi ortaya çıxmamışdır. Yalnız istintaq materialları vasitəsilə Əmin Abidin qeyd edilən imza ilə yazdığı həqiqəti üzə çıxmışdır. Eyni zamanda, bir sıra mənbələrdə Əmin Abidin özünün də represiya istintaqı zamanı bunu etiraf etdiyi və rejimə qarşı şeirlər yazaraq, dərc etdirdiyi qeyd edilir. Əmin Abid bu adla fəaliyyət göstərərək bir müddət rejimin qanlı caynağından kənar gəzə bilir. Bədirxan Əhmədov bu barədə belə yazır: "Həyat sübut etdi ki, Ə.Abid Gültəkin adı ilə şeirlər çap etdirməklə Sovet Azərbaycanında keçən həyatını nisbətən sığorta edə bilmişdir. Hətta o dərəcədə sığorta etmişdir ki, heç bir rəsmi sənədlərdə Gültəkinin Ə.Abid olduğu birbaşa göstərilməmişdir". Amma bütün bunlar Əmin Abidi və böyük qardaşı Əliabbas Müznibi şairin təbiri ilə desək "buzlu cəhənnəm"dən qurtara bilməmiş, istedadlı qardaşlar sovet rejiminin represiya maşınının qurbanı olmuşdur. Bütün bu keşməkeşli proseslərə baxmayaraq, müstəqillikdən öncə də, sonra da şairin irsi qorunmuş, onun şeirləri, yaradıcılıq nümunələri günümüzə qədər gəlib çıxa bilmişdir. Bu xüsusda müxtəlif dövrlərdə M.Ə.Rəsulzadənin, Mirzə Balanın, Əli Şamilin və Bədirxan Əhmədovun xüsusi səyləri olmuşdur. İlk öncə şairin mühacirətdə yazdığı şeirlər toplanaraq 1948-ci ildə Mirzə Balanın təşəbbüsü ilə "Buzlu cəhənnəm" adlı topluda çap edilmişdir. Kitabda

şairin 21 şeiri yer almışdır. Həmin kitab neçə illər mühacirətdən sonra vətənə gəlmiş və qədirbilən əllərdə bir daha həyat bulmuşdur. Belə ki, şair irsinin dəyərli tədqiqatçılarından Əli Şamil "Buzlu cəhənnəm" şeirlər kitabını yenidən tərtib edərək çap etdirmiş və buraya şairin Bakıda yazılan şeirlərini də əlavə edərək zənginləşdirmişdir. Həmçinin Əli Şamil və Bədirxan Əhmədovun ön söz və tərtibçiliyi ilə "Azərbaycan türklərinin ədəbiyyatı tarixi" kitabı əski əlifbadan transliterasiya edilərək çap olunmuşdur. Daha sonra Bədirxan Əhmədov şair haqqında "Bir istiqlal yolçusu" adlı monoqrafiyasını yazmışdır. Həmçinin tədqiqatçının tərtibi ilə şairin "Seçilmiş əsərləri" dərc etdirilmişdir.

S.MOEMİN "TEATR" ƏSƏRİNDƏ İNCƏSƏNƏT MÖVZUSU

Qaybaliyeva A.Ə.
Bakı Slavyan Universiteti
E-mail: ayselqaybaliyeva111@gmail.com

Öz dövrünün şöhrətli yazarlarından biri olan S.Moemin dünyaya miras qoyub getdiyi sənət inciləri bu gün də oxucu kütləsi tərəfindən sevilərək oxunur, geniş təbliğata cəlb olunur. Bu incilər sırasında bir çox dəyərli romanları, keyfiyyətli qısa hekayələrini sadalaya bilərik. Moemin irsi, "Sehrbaz" (1908), "Ay və qara quruş" (1919), "Dar künc" (1932), "Villanın yuxarısı" (1941), "Ülgücün kənarı" (1944), "Katalina" (1948) və başqa adlarını sadalaya biləcəyimiz əsərləri ədəbi dünya üçün xəzinədir.Məhz özünə məxsus dili ilə seçilən ədibin ustalıqla fərqli ideyalarını dilə gətirdiyi əsərlərindən biri də "Teatr" romanıdır. İncə ruhlu bir insan olan Moem məhz bu əsərini incəsənət xadimlərinə ithaf etmişdir. İncəsənətin dərin və cazib qollarından biri olan teatr sənəti ədib tərəfindən bu əsərdə ətraflı şəkildə işlənilmişdir. Burada istər teatrın qocaman səhnəsi, istərsə də bu səhnənin ayrılmaz parçaları olan aktrisa və aktyorların cəfalı həyatları, bütün bunlarla bərabər incəsənət xadimlərinin şəxsi həyatlarının teatra çevrildiyi bir mövzu qabardırılır. Romanı oxuduqca məlum olur ki, Moem qadın təbiətini dərindən başa düşür, onu adətən bir varlıq kimi mənimsəyir. Hətta onun "Teatr" əsərinə əsasən deyə bilərik ki, qadın dünyada böyük bir qüvvə olaraq dəyərləndirilir. Burada qadın ruhu tam şəkildə Culiya obrazındadır. Lakin Culiya real həyatda yaşamır, o teatr aktrisası kimi həyatına davam edirdi. Özü də bu düşüncəni həyatının hər nöqtəsində canlandırırdı. Ruh verdiyi obrazları reallığa daşıyaraq həyatında olan bütün insanlarla onlar kimi davranırdı.

Romanda S.Moemin usta təsvirləri, bədii özünəməxsus stili və gözə görünməyən daxili irəliləyişi sənətkarı oxucunun gözündə bu cəhətdən ucaldır. Biz bu əsəri oxuduqca buna əmin oluruq ki, ədib həm həyatı, həm insanları, həm də onların mənsubu olduğu cəmiyyəti yaxşı dərk edir. Sözügedən cəmiyyət isə bir o qədər sadə başa düşülmür. Moemin fərzincə desək elə bu cəmiyyət özü teatrdır. Biz isə bu cəmiyyətin vətəndaşları, yəni səhnə insanlarıyıq. Elə bu səbəbdən incəsənət mövzusu Moemi özünə hər zaman cəzb edirdi. Çünki insan həyatını incəsənətə çevirmək, onu estetizə etmək özü məşəqqət tələb edirdi. Bu yolda atılan addımlar insanları öz yolundan çevirə də bilər, ayaqları üzərində qalmağa dayaq da ola bilər. Buradan da aydın olur ki, teatr yalnız ön səhnədən ibarət deyil, kulis, yəni insan həyatının əsasən əks olunduğu, rəqabətlərin özünü göstərdiyi, reallıqların peyda olunduğu məkan da mövcuddur. Kulis insanların şəxsi həyatıdır, yəni bizim cəmiyyətə göstərdiyimiz mədəni dünyadan bir qədər uzaq, qarışıq bir məkandır. Məhz burada Culiya öz həyatının kulisini itirmiş, o, ancaq səhnə haqqında düşünürdü. Əslində bir aktrisa kimi o ancaq teatrda olmalı idi, amma biz bütün sujet xətti boyunca görürük ki, bu belə deyil. Onun şəxsi həyatı özü müxtəlif oyunlardan, səhnələrdən ibarətdir. Culiya isə onun baş aktrisasıdır.Əsərdə Culiyanın oğlu Rocerlə dialoqunda bu məsələyə xüsusi aydınlıq gətirilir. Rocerin fikirlərinə görə anasının sənətkar olması onun yaşadığı dünyaya inamını qırır, çünki anasını səhnədə incəsənət sərgiləyən bir aktrisa kimi görən bu uşaq onun əsl üzünü unudur. Culiya çox istedadlı bir qadın idi, o, ustalıqla hisslərini bildirə, bəzəyə və yaxud da gizlədə bilirdi. Özü də teatra elə bağlanmışdı ki, hətta çəkinmədən o bu məharətini bütün sevdiklərinə qarşı da göstərə bilirdi, çünki elə bu onun həyatının fəlsəfəsi idi. Elə buna görə də Culiya məhz bu cəmiyyətdə ustalıqla yaşayıb özünü gizlədərək insanların həyatına sızan və yeri gəldikdə hətta bunu onların əleyhinə işlədən insanları da qabardır. Ədib baş qəhramanın fonunda həyatın bu qorxunc üzünü təsvir edir ki, həyat sadəcə gördüyümüz bir laydan ibarət deyil. Onun teatr kimi müxtəlif səhnələri var. Məhz S.Moemin "Teatr" əsərində toxunmaq istədiyi incəsənət mövzusu da budur. Baş obrazın həyatını sanki bir teatr səhnəsi kimi yaşaması, roldan-rola girməsi və özünü doğrudan da buna adaptasiya etməsi maraq doğurur. Ədib insanlara çatdırmaq istəyirdi ki, bizlər özümüzü unutmuşuq, elə həyatımız özü bir teatrdır və biz də onun lazım gələn rollarına bürünən aciz insanlarıq. Culiya isə bu fikri doğurdan da reallığa çevirmişdi, qəribəsi isə orda idi ki, bu onun ürəyindən idi.

Əsərdə incəsənət mövzusuna başqa bir aspektdən toxunsaq burada Culiyanın həm səhnədə, həm də həyatda özünü eyni aparması demək olar ki, bütün əsər boyu rola girməsi aydın görünür. Onun səhnəciklərin qəhramanlarına da heyranlığı danılmazdır. Özünü xəyali qəhramanlara bürümək onun ruhunu oxşayırdı və həyatını rahatlaşdırırdı. Bir qadın olaraq o özünü yaxşı obrazlara salırdı: sədaqətli yoldaş, qayğıkeş ana, mənəviyyatlı qadın, lakin bütün bunlardan onun həyatında əsər-əlamət yox idi. Öz həyatını istədiyi kimi yaşayıb, həyata isə teatr kimi münasibət bəsləyən Culiya hər zaman özünü teatrda kimi hiss edirdi. Buna görə də o, azad ruhlu bir qadın idi. Beləliklə biz Culiya obrazını həyatda yaşayan real bir qadın olaraq təbii hisslərini sadəcə əsərin finalında görürük. Digər epizodlarda isə o, müxtəlif insanların cildində olur, adətən obraz canlandırırmış kimi özünü biruzə verir. Əsərdə Moemin ustalıqla bütün dərin qatlara endiyini görürük, istər bir incəsənət sahəsi kimi teatrı ucaltdığını, istərsə də incəsənət xadimlərini əsərin obrazları olaraq önə çıxartdığının şahidi oluruq. Ümumiyyətlə Moem dərin düşüncələri, mənsub olduğu elita, nüfuzlu ətraf-mühiti ilə zəngin bir insan idi. Hətta incəsənəti doğurdan da sözün əsl mənasınsda incə-incə işlədiyinə görə pyesləri ən çox teatr üçün seçilən yazar olaraq zirvədə idi. Bu da ona incəsənət sahəsində ayrı bir şöhrət qazandırmışdı. Həmçinin xüsusilə vurğulamaq lazımdır ki, Moemin dilinin zəngin olması, yəni ki, əsərdə geniş bədii təsvir və ifadə vasitələrindən istifadə olunması daha çox rəngarəngliyə gətirib çıxarır. Xüsusilə də metaforalar ustalıqla işlənilmişdir.

"Teatr" əsərində də Moem yalnız yazıçı deyil, həm də müşahidəçidir. Əslində bu xüsusiyyət sadəcə sözügedən romanda deyil, bütün əsərlərində var idi, çünki bir ədib kimi bu onun yaradıcılıq xüsusiyyəti idi. Buna görə də o, hər detalı, nüansı incə işləyib. Demək olar ki, onun işlətdiyi heç bir ifadə boşa getməyib. Romanın insanı incəliklə özünə çəkməsinə əsaslardan biri əlbəttə ki, teatr məsələsinin fonunda həyatımızın ən gözəl meyvəsi olan eşq macərasına toxunulmasıdır. Əsəri oxuduqca baş obraz Culiyanın fonunda hisslərin bərqərar olması və onun sevgi hekayələri insana ilk baxışdan əsrarəngiz gələ bilər, lakin biraz dərinliyə enərək biz orada özümüzü tapa bilərik. Həmçinin Moem də incə ruhlu bir insan kimi bu əsərində öz sevgisini tapıb. Bizə sirr deyil ki, həyatında saysız-hesabsız sevgi, eşq macəraları olmasına baxmayaraq onun ən böyük eşqi Syu Con olmuşdur. Ona dərin məhəbbətlə bağlanmasına, canından çox sevməsinə baxmayaraq onunla həyatını birləşdirə bilməmişdir. Bu uzunmüddətli eşq təəssüf ki, nikahla nəticələnməmişdir, amma S.Moemin ürəyində ömürlük nişanə olaraq qalmışdır. Syu Con onun keçilməz sərhədi idi, lakin ondan sonra ədib saysız-hesabsız qadın tanımış, müxtəlif insanlarla münasibətdə olmuşdur. Beləliklə "Teatr" əsərinin əsasını həyatın özü təşkil edir. Bu həyat isə elə özü teatrdır. Bir tərəfdən də ədib teatrı eşq ilə işıqlandırır. Bu eşq isə sadəcə qarşı cinsə duyulan hiss yox, həyata, azadlığa, mənliyə və mövcudluğa olan sevgidir.

MÜHACİRƏT ƏDƏBİYYATINA ƏMİN ABİD GÜLTƏKİN YARADICILIĞI MÜSTƏVİSİNDƏN BİR NƏZƏR

Quliyeva D.Q.
Bakı Slavyan Universiteti
E-mail: Dunyag99@gmail.com

1898-ci ildə Bakıda anadan olan Əmin Abid Gültəkin mühacirət ədəbiyyatının görkəmli nümayəndələrindən biri olmuşdur. Məmməd Əmin Rəsulzadə onun haqqında müsbət fikirlər söyləyərək bildirmişdi ki,o, vətənin parlaq gələcəyini böyük həyəcanla arzulayan bir qəhrəmandır. Zeynəlabidin Müttəliboğlu Əhmədov 1898-ci il noyabrın 2-də Bakda anadan olub, ilk təhsilini anasından almışdır. Yaradıcılığa erkən yaşlarda başlayan Zeynəlabidin "Abid,"Abid Daha sonralar adının qarşısına "Əmin" təxəllüsünün qoyulması ilə bağlı bir sıra mülahizələr var ki, onlardan həqiqətə ən uyğun olanı bu təxəllüsün Məmməd Əmin Rəsulzadənin şərəfinə seçməsi olmuşdur.Əmin Abid yaradıcılığında klassik ədəbiyyata ciddi maraq göstərmişdir. O, Füzuli yaradıcılığını bir daha da işıqlandırmış, o zaman üçün məşhur olan Türk Yurdu ve Maarif ve Medeniyet dərgisində "Füzulinin tədqiq edilməmiş bir əsəri" adlı məqalə yayımlayıb. Və ilk dəfə olaraq "Söhbətül-əsmar" əsəri ilə bağlı faktları ortaya çıxarıb. Lakin bu əsərin Füzuliyə aid olmaması ilə bağlı bir qədər müzakirələr yaranıb. Nəhayət, 1926-cı ildə Köprülünün dəstəyi ilə məqaləsini çap etdirə bilmişdir."Dövrün ənənəsinə uyğun olaraq" milli birlik ideyaları yayan ziyalılar təqib olunurdu. Bu təqiblər Əmin Abiddən də yan keçmədi. O, işdən uzaqlaşdırılmış, Azərbaycanın digər bölgələrinə köçməyə məcbur edilmişdir

Apardığı araşdırmalara görə Əmin Abidə elmi dərəcə verilməsi ilə bağlı qərar qəbul edilsə də, hökumət üçün təhlükəli elan edilib və vəzifəsindən uzaqlaşdırılıb. Əmin Abid 1938-ci ildə İsmayıllı rayonunun

Yenikənd kəndinə həbs edilib. Arvad Nafiyə xanım Türkiyəyə qayıtmağa cəhd göstərsə də , lakin baş tutmamışdır. Qısamüddətli həbsdən sonra azadlığa buraxılan Əmin Abid vətənə xəyanətdə günahlandırılaraq 1938-ci il güllələnib.

Məmməd Əmin Rəsulzadənin başçılığı ilə dərc olunan Yeni Qafqaziya dərgisi mühacirət ədəbiyyatının ilk dərgilərindəndir. 1923-1927-ci illərdə fəaliyyət göstərən bu dərgidə Əmin Abid bir sıra məqalələrlə burada çıxış etmişdir. Bu dərgidə 3 məqalə və 21 şeir dərc etdirmişdir. Şeirlərinin çoxu xalqının acınacaqlı taleyi ilə barışmayan üsyançı misralardan ibarətdir. "Vətənim və sevgim", "Turan səyyahı deyir", "Bayrağım və müstəqilliyim", "Əziz Bakı", "Buzlu cəhənnəm", "Azərbaycan müstəqilliyi" və s. kimi başlıqlı şeirləri ilə Azərbaycanın haqq bağıran səsi olmağa çalışmışdır. Müəllifə uğur gətirən imzalardan biri də "Gültəkin" olmuşdur və şair bu təxəllüslə " istiqlal şairi" kimi də tanınmışdır. Şeirlərindən kədər süzülsə də, o da məsləkdaşı Almas İldırım kimi bir gün ölkəsinin bu zülmlərdən qurtulacağına ümidlidir. "Tar səsləri-bolşevik" şeirində ölkəsində baş verən amansızlıqlardan danışır,lakin bunun ömrü çox uzun olmayacağına inanır, tezliklə bu zülmün sona çatacağına inanır.Əmin Abid 1925-ci ilin fevralında yazdığı "Qırmızı rus şairinə" adlı şeiri Sovet Rusiyasına və Maksim Qorkiyə bir tənqidli münasibətlə yazılmış bir şeirdir. "Maksim Qorkiyə ithaf" başlıqlı hissədə müxtəlif bölgələrdə yaşayan xalqların acınacaqlı taleyindən bəhs edərək Qorkiyə qəzəbini bildirmişdir.Yeni Qafqaziya 1927-ci ildə fəaliyyətini dayandırır. Bundan sonra isə Əmin Abid öz əsərlərini 1928-ci ildə "İstiqlal uğrunda" şeirlər məcmuəsində çap etdirib.

"Yeni Qafqaziya" jurnalının öndə gedən yazarlarından biri olan Əmin Abid qələmi və sözü ilə xalqa xidmət etdi, əsl vətəndaşlıq nümunəsi kimi göstərdi.O, qələmi ilə Azərbaycanı, bayrağını, müstəqilliyini qorudu. Vətəni sevdi və sevməyi öyrətdi. Xalqını düşünən qəlbi cismən dayandırsalar da, o ölümsüzlüyə vətən, xalq sevgisi ilə qovuşdu.

TRANSFORMASİYA ANLAYIŞI VƏ ONUN ƏDƏBİYYATDA TƏZAHÜRÜ

Quliyeva D.Q.
Bakı Slavyan Universiteti
E-mail: Dunyag99@gmail.com

Transformasiya" transformation" sözündən götürülüb, mənası bir şeyin öz şəklini dəyişməsi, başqa şəklə düşməsi, bir haldan başqa hala keçməsi,dəyişməsi və dəyişilməsini ifadə edir .

Bu araşdırma ədəbiyyatda, xüsusilə də, Azərbaycan ədəbiyyatında ədəbi çevrilmənin əsaslandırma, ölçü və əks etdirmə formalarını nəzəri müstəvidə izah Etmək məqsədi daşıyır.

Ümumiyyətlə, ədəbiyyatda-bədii əsərlərdə müəyyən motivlərin, simvolların transformasiyasına tez-tez rast gəlinir. İctimai-sosial mühitin dəyişilməsi hər bir xalqın mədəniyyətində və incəsənətinin ayrı-ayrı sahələrində təzahür edir. Müəyyən bir dövrdə hər hansısa məna ifadə edən bir söz və ya rəmz , sonrakı mərhələdə tamamilə, fərqli şəkildə təfsir oluna bilər.Bədii mətnlərə tarixi və nəzəri müstəvidə iki fərqli prizmadan yanaşılır. Bunlardan birincisi Hər bir bədii mətni oxuyarkən əməl edilməli olan ən mühüm prinsip bu mətnlərin aid olduğu şəraitin qiymətləndirilməsi və ondan sonra təhlilə cəlb olunmasıdır. Tamamilə uzaq bir dövrdə, fərqli bir mədəni ölçüdə,məqsədi, düşüncələri, istək və zövqləri, məramı ayrı bir cəmiyyətin normativləri bu gün yaşadığımız toplum üçün fərqli görünə və tamamilə yeni prizmadan dərk oluna bilər. Bu da ədəbiyyatda transformasiyaların yaranmasını zəruri edir. Məsələn, dini təsəvvürlərdə, klassik divan ədəbiyyatında şərab ilahi zövqü simvolizə edirdisə, müasir dövrdə o tamamilə əks müvqedə, öz həqiqi məzmunu ilə spirtli içkini təmsil edir. Azərbaycan dili ilə inteqrasiya etsək, məsələn, qədim çağda işlənən "dəli" sözü igid mənasını ifadə edirdi. Məhz Koroğlunun yeddi min yeddi yüz yetmiş yeddi dəlisi ifadəsi də bu mənanın ifadəsini verir. Lakin baş verən proqress nəticəsində sözün özü struktur baxımdan eyni qalsa da, məna baxımdan dəyişilmiş, hal-hazırda " ruhi xəstə" anlayışını ifadə etməkdədir. Klassik ədəbiyyatda eşq mövzulu əsərlər çoxdur və o əski ədəbiyyatda insanın kamilliyi və ucalığı üçün əvəzedilməz məktəb sayılırdı. Xüsusilə, bu anlayış bir cinsin əks cinsə olan marağı ilə məhdudlaşmırdı, həm də həyat fəlsəfəsi olaraq, həyatın hər sahəsini əhatə edəcək ali qüvvə kimi qiymətləndirilirdi. Osmanlı poeziyasını təsvir etmək üçün yalnız bir söz demək, ən çox xərclənən sözdür Allaha sevgi ilə çatmaq olar, insan əsl varlıqdır və onun mahiyyətini ancaq sevgi ilə dərk edə bilərdi. Bu baxımdan aşiq olmaq kamil insan olmaq anlamını ifadə edirdi. Canını canana fəda etmək aşiq üçün bir zövqdür. Bu eşq daha çox mücərrəd xarakter daşımış , əsasən , insan və onu yaradan arasındakı bir bağ kimi qiymətləndirilib. Lakin ədəbiyyatda təsəvvüfün mövqeyi yeni dövr Azərbaycan

ədəbiyyatında bir qədər zəifləmiş və ilahi təsəvvüfdən sosial təsəvvüfə keçid mərhələsində aşıqın sevgisi ilahi eşqdən sosial məhəbbətə - Vətən sevgisinə transformasiya olmuşdur.

Ədəbiyyatda transformasiya haqqında faktları ümumiləşdirərək demək olar ki, dəyişilməyə məruz qalan hər bir anlayış və ya motiv öz keçmiş yaddaşını qoruyub saxlamağı bacarmışdır. Anlayış simvolik məzmunu baxımından dəyişilsə də, amma öz ilkin mənasını saxlamaqla yeni konteksdə yeni simvolik məzmun qazanır.

ƏBDÜRRƏHMAN CAMİNİN "YUSİF VƏ ZÜLEYXA" ƏSƏRİNİN TƏRCÜMƏ VƏ ŞƏRHLƏRİ

Rzalı B.S.
Mədəniyyət Nazirliyinin Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
E-mail: rzhayeva.brilyanth@gmail.com

Fars-tacik ədəbiyyatının dahi nümayəndəsi, böyük şair, alim və mütəfəkkir Əbdürrəhman Cami (1414-1492) çoxcəhətli yaradıcılığı ilə Yaxın və Orta Şərq xalqları ədəbiyyatına, o cümlədən, Azərbaycan ədəbiyyatına təsir etmiş sənətkarlardandır. Cami öz yaradıcılığı boyu həmişə saflığı, ülvi məhəbbəti, ədaləti təbliğ etmişdir. Onun ən məhşur əsərləri "Həft övrəng", "Nəfəhatül-üns" və "Baharıstan"dır. Cami "Həft övrəng" toplusuna 7 məsnəvi daxil etmişdir. Bu topludakı ən məhşur əsəri isə, onu bütün dünya ədəbiyyatına tanıdan "Yusif və Züleyxa" məsnəvisidir. Əsərin mövzusu "Quran", "İncil" və "Tövrat" kimi dini kitablarda yer alan rəvayətlərdən alınmışdır. Demək ki, səbəb sadəcə mövzunun özü deyil, eyni zamanda müəllifdir. Cami əsərinin qəhrəmanlarını əfsanəvi dastanlardan götürsə də, onların qayğılarını, həyat fəaliyyətlərini, arzu və əməllərini real aləmlə, ictimai mühitlə əlaqələndirir. Bu mövzu türk dünyasında və digər Şərq xalqlar ədəbiyyatında onlarla bir-birinə bu və ya digər epizodları ilə bənzəyən, bir-birini qismən təkrarlayan əsərlərin ilham qaynağı olmuşdur. Bu əsərlərə diqqətlə nəzər saldığımızda bəzən bütöv beytlərin təkrarı və ya hadisələrin gedişatındakı ardıcıllıq diqqəti çəkir. Şəyyad Həmzənin "Dasitani-Yusuf əleyhissəlam" məsnəvisi ilə Qul Əlinin "Qisseyi-Yusif" əsəri, Həmdinin "Yusif və Züleyxa" məsnəvisi ilə Caminin əsəri arasındakı oxşarlıqlar buna sadəcə iki nümunədir.

Qeyd edək ki, ərəb ədəbiyyatında Həzrəti Yusifin başından keçənlər haqqında yazılan ilk ayrıca əsər Qəzaliyə, fars ədəbiyyatında Əbül Müəyyəd Bəlxi və Bəxtiyari Əhvəziyə, türk ədəbiyyatında Qul Əli və Şəyyad Həmzəyə məxsusdur. Buna baxmayarq Caminin eyni adlı əsəri fars dilində yazılmış ən güclü "Yusif və Züleyxa" hesab edilir. İran alimi Qulamhüseyn Biqdeliyə görə Cami "Xosrov və Şirin" dastanının köhnəldiyini və daha yeni bir eşq dastanına ehtiyac olduğunu düşündüyü üçün "Yusif və Züleyxa"nı yaratma ehtiyacı duymuşdur.Caminin məsnəvisi eyni zamanda, müəllifin əsərləri arasında ən çox tərcümə edilmiş, şərh və nəzirələr (təkcə türkdilli xalqların ədəbiyyatında təxminən 30-a yaxın) yazılmış əsəridir. Qeyd edək ki, ədəbiyyatımızda mühüm yer tutan mətn şərhinin məqsədi anlaşılması çətin olan ədəbi əsərləri müxtəlif aspektlərdən izah etməklə daha yaxşı başa düşülən etməkdir. "Yusif və Züleyxa"nın sanskrit dilinə tərcüməsi kəşmirli Srivaraya məxsusdur. O, öz tərcüməsini 15 nəğmədən ibarət bir əsərə çevirərək adını "Katxakautuka" qoymuşdur .

Məsnəvi Türkiyə türkcəsinə Karamanlı Kami Mehmed və Mehmed İzzet Paşa tərəfindən nəzmlə çevrilmişdir. Əsərin Xəlil Hacı Salihzadəyə məxsus olan və müəllifi bəlli olmayan iki qədim şərhi də Türkiyədə qorunmaqdadır. Bunlardan birincisi Süleymaniyyə Kitabxanasında, digəri isə İstanbul Universitetinin Kitabxanasındadır. Əsərin rus dilinə olan tərcümələrinin müəllifləri isə Vladimir Derjavin və Semyon Lipkindir. Həmid İsmaylov və Andrey Vasilyev də məsnəvinin ayrı-ayrı beytlərini rus dilinə çevirmişlər."Yusif və Züleyxa" ingilis dilində Ralf Griffithin tərcümələri ilə yayılsa da David Pendleburi tərcüməsi də rəğbət görmüşdür.

Azərbaycan dilinə olan tərcümə və şərhlərin müəllifi isə şərqşünas alimimiz Mübariz Əlizadədir.

Əbdürrəhman Cami klassik İran şeirinin son təmsilçisi hesab edilir. O, farsca yazılmasına baxmayaraq bütün Orta Şərq ədəbiyyatını öz təsiri altına almışdır. Elə bu səbəbdəndir ki, onlarla "Yusif və Züleyxa" yazılmasına baxmayaraq məhz Caminin əsəri dünyada daha çox yayılmışdır. Görkəmli Azərbaycan alimi Mübariz Əlizadənin də qeyd etdiyi kimi, "Yusif və Züleyxa" əsərinin həm Camiyə qədər, həm də Camidən sonra bədii ədəbiyyatda dönə-dönə işlənməsinə, nəzm və nəsrlə təkrarən yazılmasına baxmayaraq, "Yusif və Züleyxa" dedikdə Cami və Cami dedikdə "Yusif və Züleyxa" fikrimizdə canlanır".

ROZAMUNDA PİLÇERİN YARADICILIĞINDA SEVGİ VƏ AZADLIQ PROBLEMİ

Sadıqova A.F.
Bakı Slavyan Universiteti
E-mail: ayselsadigova17@icloud.com

İngilis roman yazıçısı və qısa hekayə yazıçısı Rozamunda Pilçer İngiltərənin Kornuoll əyalətinin Lelant şəhərində anadan olub. Kral Hərbi Dəniz Qüvvələri komandirinin qızı, o, həm İngiltərədə, həm də Uelsdə dövlət məktəblərində təhsil alıb və 1942-1946-cı illərdə Qadın Kral Dəniz Xidmətində xidmət edib. Dəniz Xidmətindən ayrıldıqdan sonra 1946-cı ilin dekabrında Qrem Houp Pilçerlə evləndi. Erkən yaşlarından yazmağa maraq göstərmiş və valideynləri tərəfindən bu marağı davam etdirməyə təşviq edilmişdir. Daha sonra o, Jane Fraser təxəllüsü ilə "bir növ kiçik məhəbbət hekayələri" kimi təsvir etdiyi uğurlu karyeraya başladı. Onun ilk romanı olan "Ayın yarısı" bu adla nəşr olundu və bir neçə il o, özünün olduğu kimi bu adla da yazmağa davam etdi. 20-dən çox romanın müəllifi, o, həmçinin çoxlu qısa hekayələr yazmışdır, onların bir çoxu Good Housekeeping jurnalında dərc edilmişdir. Pilçerin ən uzun və ən mürəkkəb romanlarından biri, eləcə də ən populyar əsərlərindən biri "Ailə mirası"romanıdır. Avtobioqrafik olmasa da, roman bir çox cəhətdən Pilçerin öz həyatı ilə paraleldir. Digər əsərlərə "Yatmış pələng" , "Yayın sonu" , "Vəhşi dağ kəklikotu" , "Yayda səslər" daxildir. Həmçinin o "Ailə işi" əsərini də Jane Fraser təxəllüsü ilə yazmışdır. Onun digər böyük romanlarına Sentyabr (1990), Evə Gəlmək (1995) və Qış Gündönümü (2000) daxildir.

94 yaşında vəfat edən Pilçer,"romantik fantastika" adlanan şeyi tamamilə daha yüksək, daha hazırcavab səviyyəyə qaldıraraq, tamamilə cəlbedici formada yazdı. Onun romanlarında və qısa hekayələrində bir yerin quruluşu və insanların ona münasibəti üçün parlaq hisslər var. Onlar ailə, məhəbbət və itki, və həyatın sarsıntıları mövzularını araşdırırlar.Rozamunda Pilçerin romanlarinda əsas üstünlük sevgi və ailə problemlerinə verilmisdir. Bir çox romanlarını da məhz bu mövzularda yazmışdır. Pilçer yaradıcılığında azadlıq probleminidə ön plana çəkmişdir. Pilçerin bir çox əsərlərindən bir çoxunu qeyd etmək olar bunlardan biridə "Ailə mirası" əsəridir. Burada əsasən əsər bir ailə münasibət romanıdır: bir ailənin və üç nəsil boyunca onları bir yerdə saxlayan ehtiraslar və ürək ağrısından ibarətdir.Bu əsər daha çox mahiyyətcə ana və onun uşaqları arasındakı münasibətləri hər iki nöqteyi-nəzərdən araşdırır. Əsərdə əsasən ailə haqqında çox şey: valideyn-övlad, qardaş-bacı münasibətlərinin nə qədər fərqli və çətin olduğu daha qabarıq göstərilmişdir.Rozamunda Pilçer bu əsərində real dəyərlərdən ilhamlanan real insanlarla - analar və qızlar, ər və sevgililərlə doludur. Süjetdəki gərginliklər bir az uydurma görünsə də uşaqlıq evinə dinclik tapmaq üçün çox gec qayıdan cazibədar qadının sirləri, Şimali İrlandiyada baş verən qanlı hadisənin şəraiti, psixi pozğun, bədxassəli qadının müdaxiləsi roman oxucularını dərindən maraqlandırır.Bu əsərdə Penelope Keeling haqqında dünyada həmişə xatırlayacağınız, heç vaxt unuda bilməyəcəyiniz bir qadın haqqındadır. Rozamunda Pilçerin ailə dastanları, real həyata çox yaxindirlar, çünki bir insan üçün ən sadə və başa düşülən, lakin ən vacib və bəzən ağrılı, yaxınlar, usaqlar və valideynlər, qardaş və bacilar, həyat yoldaslari arasindaki münasibətdən bəhs edirlər. Bu əsər sevgi, itki, ailə, xoşbəxtlik axtarışı və xatirələrdən bəhs edən gözəl bir romandır. Penelopa gözəl personajdır və müəllif Rosamunde Pilcher oxucunu mübarizə və sevgi həyatına aparır.Rozamunda Pilçer öz əsərlərində sevgi, ailə, xoşbəxtlik axtarışı və xatirələrdən bəhs edir. Rozamunda Pilçer savadlı kommersiya fantastikasının ən yaxşı cari təcrübəçilərindən biridir. Burada o, yenə də gözəl şəraitdə yaşayan sivil rəftarlı cazibədar personajları canlandırır o, zövqlə təchiz olunmuş otaqları, möhtəşəm bağları və zərif paltarları məhəbbətli təfərrüatlarla təsvir edir. Rozamunda Pilçerin əsərlərində xarakteristikalar dayazdır, süjetlər ağlasığmazdır və cins şəhvətdən daha gülüncdür, çünki kasıb, çıxılmaz müəllif oxucusunu heyrətləndirmək üçün yeni mövqelər yaratmağa çalışırdı.

Əsasən belə bir anlayış ortaya çıxır ki, Rozamunda Pilçer daha çox romantikaya üstünlük versə də, ancaq onun çox vaxt romantikdən daha çox nəsirçi olduğunu da qeyd edə bilərik. Rozamunda Pilçer öz yaradıcılığında romantizm janrını daha yüksək səviyyəyə qaldıran ilk yazıçılardan biri olmuşdur. Yazıçının əsərləri əsasında həmçinin filmlərdə çəkilmişdir. Buna misal olaraq Pilçerin ən böyük və ən məhşur romanı olan "Ailə mirası" əsərini göstərə bilərik. Yazıçının əsərləri əsasında həmçinin filmlərdə çəkilmişdir. Buna misal olaraq Pilçerin ən böyük və ən məhşur romanı olan"Ailə mirası" romanı əsasında "Qabığı Axtaranlar" adı ilə çəkilən filmi göstərə bilərik. Həm əsər, həm də film kimi məhşurlaşan bir roman olmuşdur. Həmçinin digər əsərləri əsadında da bir çox filmlər çəkilmiş və yayımlanmışdır.

ОСОБЕННОСТИ ЛИРИКИ М.Ю.ЛЕРМОНТОВА

Гусейнова Э.О.
Бакинский славянский университет
E-mail: huseynova_moscow@mail.ru

Тема «человек и природа» очень многогранна в творчестве М.Ю. Лермонтова. В всех своих произведениях поэт не просто мастерски описывает природу, но и отражает в них состояние человека. Каждое его такое стихотворение – это ещё и затрагивание вечных тем бытия. Зачастую стихотворения поэта вызывают лёгкую грусть, они лишены оптимизма, что вызывает интерес. Ведь Лермонтов писал их в достаточно юном возрасте, когда человек ещё должен быть наполнен жаждою жизни. Возможно, поэт предчувствовал свой ранний уход. А возможно, в этом и заключалась его гениальность.

Даже в таком стихотворении, как «Весна», где от самого названия веет радостью, возрождением, Лермонтов изображает грусть. Это достаточно раннее его произведение, написанное в 1830-м году. По утверждению Сушковой Е.А., возлюбленной поэта, оно было посвящено ей. Эксперты утверждают, что оно могло быть подарено поэтом, так как было написано до их встречи. Тем не менее, оно было напечатано из альбома Сушковой Е.А. в 1844-м году, уже после смерти поэта.

Как было указано ранее, несмотря на воодушевляющее название и являясь «романтическим подарком», а также будучи результатом творчества молодого поэта, тем не менее стихотворение «Весна» - это результат горестных раздумий. Стихотворение носит элегический характер. В нём отображается не какой-то отдельный пейзаж, а описаны самые яркие и характерные приметы различных проявлений наступления весны.Идёт лёд на реке, садится утренний туман, тает снег, обнажая чёрную землю. Через эти образы автор передаёт состояние героя. Весеннее преображение природы перекликается с переживаниями поэта, испытывающего сильные чувства. Ощущения влюбленного человека передаются автором не через прямое описание его чувств, а через отождествление с окружающей природой.

Лермонтов изобразил весеннее возрождение природы после холодной зимы. Но человек так не может возродиться, омолодиться. Это и угнетает лирического героя.

...Мечтанье злое грусть лелеет
В душе неопытной моей.
Гляжу, природа молодеет,
Но молодеть лишь только ей;...

Наряду с огорчением по поводу того, что молодые годы уходят безвозвратно, автора терзает грусть из-за увядания женской красоты с течением времени:

...Ланит спокойных пламень алый
С собою время уведет,...

Лирический герой грустит, что со временем куда-то уходит и молодость, и любовь, а время быстротечно.Рассмотрим ещё одно стихотворение М.Ю. Лермонтова на данную тему – «Осень». Оно также наполнено безысходностью. Если для А.С. Пушкина осень – яркая пора, то для Лермонтова – это время увядания природы, время перехода к зиме. Природа не наполнена красками в его творчестве, она лишь отображает внутренний мир лирического героя. Всё тускнеет, только ель осталась такой же зелёной, хранит «зелень мрачную».

Пахарь начинает отвыкать от обилия работы в поле и привыкает к тому, что придется теперь бездельничать, и зима уйдет на то, чтобы потратить все, что было наработано за лето.

Под нависшею скалою
Уж не любит меж цветов
Пахарь отдыхать порою
От полуденных трудов.

Не наблюдается особого позитива и активности и в мире животных — большинство их с приходом зимы впадет в зимнюю спячку. И даже месяц тускл в этот период.

Ещё одно стихотворении М.Ю. Лермонтова о природе и человеческой сущности – это стихотворение «Метель шумит, и снег валит», где описывается зима. И здесь мы обнаруживаем мрачные мысли о человеческой жизни и смерти. Сквозь ветер и метель слышен звон похорон, который предвещает «конец земных недолгих мук». И даже цветок поблекший, могильный. Звуки зимы, по мнению автора, пугают сердце.

Пугает сердце этот звук,
И возвещает он для нас
Конец земных недолгих мук,
Но чаще новых первый час...

Стихи М.Ю. Лермонтова часто вызывают грусть, но в то же время они понятны читателю своей актуальностью и на сегодняшний день, потому что автором затрагиваются вечные человеческие темы, а воссозданные в них картины природы уникальны в своих красках и вызывают чувства восторга, если это жизнеутверждающее произведение и чувства ужаса, если в произведении звучат ноты грусти. Одно точно, лирика Лермонтова не может никого оставить равнодушным, ведь она мистична и своеобразна, как и сам поэт со своей необычной судьбой и достаточно неоднозначным характером.

Целью будущей диссертационной работы является полное раскрытие темы человека и природы в творчестве М.Ю. Лермонтова. Задача – рассмотреть и проанализировать все лирические произведения на заданную тему. Осмыслить, как картины природы не только украшают его творчество, но и раскрывают внутренний мир поэта.

XIV BÖLÜM

PEDAQOGİKA

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ KREDİT SİSTEMİ ANLAYIŞININ MAHİYYƏTİ

Abdullayeva A.N.
Naxçıvan Dövlət Universiteti

İctimai həyatın müasir dövrdə bütün sahələrini əhatə edən dərin inteqrasiya prosesi təhsil sahəsində də dünyanın müxtəlif yerlərində ayrı-ayrı ölkələrin təhsil sistemlərinin yaxınlasmasında və vahid ümumtəhsil məkanlarının formalasmasında özünü büruzə verir.

Boloniya prosesi Avropada gedən ali təhsil sahəsini əhatə edir. Azərbaycan Respublikasında da, həmçinin digər ölkələrdə də kredit sisteminin mahiyyətinin tam aydınlasdırılması, onun bu vaxta qədər mövcud olan qiymətləndirmə və ölçmə sistemindən fərqinin askar edilməsi, onun tətbiqi zamanı yerli xüsusiyyətlərin və mövcud ənənələrin nəzərə alınması, ona keçid zamanı real vəziyyətin nəzərə alınması vacibdir. Düsünülmüs, dəqiq planlasdırılmıs və hazırlanmış fəaliyyət proqramının və həyata keçirilməsinin genis maarifləndirmə tədbirləri ilə müsayiət edilməsi həm də bu zaman bu isin uğurunun vacib sərtlərindən biridir.Kredit sistemi özünəməxsus funksiyaları yerinə yetirməklə Ali təhsildə onun ən vacib məsələlərindən birini təskil edir. Ümumiyyətlə, əm bir-birindən fərqli ölkələrdə, həm də fərqli ictimai-iqtisadi məkanlarda və müxtəlif səraitdə mövcud olan ali təhsil sistemlərinin hamısında alınan təhsilin həcminin ölçülməsi, keyfiyyətin təmin edilməsi, alınan biliyin kifayətlilik həddinin müəyyənləsdirilməsi üçün müəyyən vahidlərdən istifadə etmislər.Kredit sistemi ilə tədrisin təşkili müvafiq qurumlartərəfindən tədris hissəsi, qeydiyyat, qiymətləndirmə və monitorinq bölmələri tərəfindən ali təhsil müəssisələrində tənzimlənir. Ali təhsilin əyani və qiyabi təhsil alma formalarına yuxarıda deyilən Qaydalar şamil edilir. Göstərilən Qaydaların icrası ilə bağlı tələb olunan xərclərin maliyyələşdirilməsi dövlət sifarişi ilə təhsil alan tələbələrə görə ali təhsil müəssisələrinə dövlət büdcəsindən ayrılan vəsaitlər ödənişli təhsildən əldə olunan vəsaitlər hesabına təmin edilir. Habelə həmin müəssisələr tərəfindən ödənişli təhsildən, sahibkarlıq fəaliyyətindən və qanunvericiliyə uyğun olaraq həm də həyata keçirilən digər fəaliyyətlərdən əldə olunan vəsaitlər hesabına təmin edilir.

Tələbələrin təhsili ixtisas, ixtisaslaşma üzrə təhsil proqramı əsasında Ali təhsil müəssisələrində həyata keçirilir. Təhsil Nazirliyi tərəfindən qanunla kredit sistemində müəyyən olunmuş formalar üzrə ixtisasın, ixtisaslaşmanın tədris planı, ixtisasın, ixtisaslaşmanın tədris qrafiki, ixtisas, ixtisaslaşma üzrə illik işçi tədris planı, tələbənin fərdi tədris planı və müəllimin illik işçi tədris planından istifadə edilir. Tədris ili iki semestrdən - payız və yaz semestlərindən ibarətdir. Bundan əlavə, həm də yay tətili ərzində 6 (altı) həftədən çox olmayaraq yay semestri də təşkil oluna bilər. Ali təhsilin hər iki səviyyəsində bütün ali məktəblərdə əyani təhsil alma forması üzrə tədris ili 40 həftədir. Hər semestr 20 həftədən, o cümlədən, 5 həftə imtahan sessiyasından ibarətdir. Bir semestrə payız və yay semstrləri üçün 30 kredit müəyyənləşdirilir.

Auditoriya və auditoriyadan kənar bir kredit tələbənin 30 saatlıq işinə bərabərdir. Auditoriya və auditoriyadan kənar tələbənin 5 günlük iş rejimində həftəlik ümumi yükünün həcmi 45 saatdır, lakin xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla. Tələbənin həftəlik işinin həcmi 1,5 kreditdir. Tələbələr üçün ali təhsil müəssisələrində buraxılış işinin, magistrlik dissertasiyasının hazırlanmasına və müdafiəsinə, eləcə də buraxılış dövlət və semestr imtahanlarına hazırlığa, imtahanın verilməsinə və təcrübələrin keçirilməsinə ayrılmış hər bir həftə 1,5 kreditə bərabərdir. Təhsil almanın qiyabi forması üzrə tədris ili 32 həftədir. Hər semestr 16 həftədən ibarətdir və hər semestrə 24 kredit müəyyənləşdirilir. O cümlədən, 16 həftənin 1 həftəsi imtahan sessiyası üçün müəyyənləşdirilib. Tələbələrə bakalavriatda ixtisasın və ixtisaslaşmanın təhsil müddətindən asılı olaraq, 240-300 kredit, tibb təhsilində 300-360 kredit müəyyənləşdirilir. Magistraturada isə təhsilin normativ müddəti 1,5 ildir. Bu halda 90, 2 (iki) il olduğu halda isə 120 kredit müəyyənləşdirilir. Müəyyən olunmuş kreditin tələbə tərəfindən yığılması məcburidir. 30 kreditə qədər fənlərin tədrisi hər bir tələbə üçün hər semestrdə müəyyənləşdirilir. Təhsil aldığı illərdə müvəffəqiyyətlə təhsil alan və bütün təhsil müddətində ayrı-ayrı fənlərdən göstəricisi 81-100 bal arasında olan tələbələrə əlavə ödəniş etmədən, akademik borcu olanlar üçün isə ödənişli əsaslarla hər semestrdə cəmi 8 kreditdən çox olmamaq şərtilə fənn və fənlər də seçməyə icazə verilir. Təhsil proqramında tədrisi nəzərdə tutulan fənlərin və onlara ayrılan kreditlərin ən azı

70 faizi eyni olduğu halda Bakalavriat səviyyəsində gələcək peşə fəaliyyətində istifadə etməsi və ya oxşar ixtisas üzrə əlavə təhsil alması məqsədi ilə tələbəyə ödənişli əsaslarla müvafiq ixtisasların fənnini və ya fənlərini seçmək hüququ da verilir. Əlavə təhsil alanlara bu şərtlərlə həmin ixtisas üzrə bakalavr dərəcəsi və müvafiq diplom verilir.

Nümunə olaraq deyə bilərik ki, hər bir kursda təhsil alan tələbə ortaq olaraq 60 (30+30) kredit toplamalıdır. Bu dceyilənə görə kreditin kurs üçün minimum həddi müəyyənləsdirilir, göstərilən həddi toplamayan tələbə növbəti kursa keçə bilmir və növbəti kursun tələbəsi hesab edilə bilmir.İlk növbədə kredit sisteminin tətbiq edilməsi Ümumavropa ali təhsil məkanında vahid standartların işləməsi ehtiyacından irəli gəlməklə Boloniya prosesinin bir sıra cəhətlərinitəmin edir: tələbələrin mobilliyini asanlasdırır; asan basa düsülən və müqayisə oluna bilən dərəcələr sisteminin formalasmasına kömək edir; keçilən fənlərin və proqramların unifikasiyasını təmin edir; alınan ixtisasların müqayisə edilməsini asanlasdırır; diplomların tanınması üçün real zəmin yaradır.Təhsil alan tələbənin topladığı kreditlərin təsdiq edilməsi tələbənin hər bir fənn üzrə 100 ballıq qiymətləndirmə sistemi əsasında aldığı qiymət vasitəsilə edilir və 61 baldan yuxarı bal kreditin məqbulluğunu təsdiq etmis olur. Qeyd etmək lazımdır ki, Avropanın özündə də 100 balın toplanma qaydası və onun məqbulluq hədlərinin vahid bölgüsü hələ tam dəqiqləsdirilməmisdir. Azərbaycanın müxtəlif ali təhsil məktəblərində də deyilən bu məsələdə ümumi standart qəti olaraq formalasmamısdır. Azərbaycan ali məktəblərindən biri olan Azərbaycan Turizm institutunda tətbiq edilən bölgüyə görə 100 balın 30 balını aralıq imtahanı, 10 balı gündəlik fəaliyyətə görə dərs deyən müəllim tərəfindən verilir, 60 bal yekun imtahanının nəticələri əsasında formalaşır. 100 balın bir qədər fərqli bölgüsü Azərbaycanın digər ali məktəblərində tətbiq edilir. Qeyd etmək lazımdır ki, deyilən bu bölgü mütləq deyildir, yəni bu bölgü dəyisə də bilər. Zənnimizcə, bütün hallarda, başlıca hədəf vacib, lazım olan keyfiyyətin təmin olunması və ümumi qəbul olunmus məqbul həddinin gözlənilməsidir.Kredit sisteminin tətbiqi məqsəd deyildir. Qlobal səkildə qoyulmus məqsədə aparan vasitələrdən biri də kreditdir. “Diploma Avropa əlavəsi” adlanan sənədin verilməsi zamanı AKTS-in tətbiqinin əhəmiyyəti əyani səkildə görünür. Vahid təhsil məkanının formalasmasının məntiqindən doğan amillərdən biri də Diploma Avropa əlavəsidir. Ümumiləsməkdə və bütövləsməkdə olan Avropa ali təhsilinin yekunu kimi qeyd edilən bu sənəd ortaya sıxır. Tədris prosesinin gedişi zamanı tədris proqramlarının, qiymətləndirmə sisteminin, təhsil müddətinin və onun dövrlərinin, həmçinin keyfiyyət səviyyəsinin hamı tərəfindən məqbul hesab edilən forma və məzmuna gətirilməsindən söhbət gedir. Yuxarıda deyilənləri Diploma Avropa əlavəsi bütün bu keyfiyyətlərin ümumi nəticəsini özündə əks etdirən vahid sənəd kimi çıxış edir.Kredit sisteminin tətbiqi məqsəd deyildir. Qlobal səkildə qoyulmus məqsədə aparan vasitələrdən biri də kreditdir.

MÜƏLLİM PEŞƏKARLIĞININ TƏHSİL PROSESİNDƏ ROLU

Ağayeva S.Z.
Naxçıvan Dövlət Universiteti

Son illər müəllimlərin peşəkarlığı və səriştəliliyi tez-tez gündəmə gətirilir. Peşəkarlıqla səriştəliliyin müəllimdə cəmləşməsi onun pedaqoji ustalığının və müəllim novatorluğunun əsas əlamətləri kimi qeyd olunur. Təsadüfi deyil ki, 2013-cü ildə qəbul edilən, 2020-ci ilədək uzun bir dövrü nəzərdə tutan Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında da bu məsələ dönə-dönə vurğulanır və buna böyük əhəmiyyət verilir.Strategiyada deyilir: “Təhsilalanın savadlı və səriştəli şəxs kimi formalaşmasına müəllimin təsiri müəllimin akademik bacarıqlarından, tədris təcrübəsindən və peşəkarlıq səviyyəsindən xeyli asılıdır. Müəllimin bu keyfiyyətləri ilə təhsilalanların nailiyyətləri arasında sıx korrelyasiya mövcuddur”.

Peşəkarlıq və səriştəlilik müəllimin fəaliyyət strukturunun əsasını təşkil edir. Respublikamızın təhsil siyasətində əsas yerlərdən birini tutan bu problem müəllim hazırlığında və müəllimin peşəkar fəaliyyətində diqqət yetirilən məsələlərdən biridir. Bu keyfiyyətlərin tərbiyə olunması pedaqoji fəaliyyətin səmərəliliyini, şəxsiyyətyönümlülüyünü və nəticəyönümlülüyünü təmin edən amillərdən biri və birincisi kimi aktuallıq kəsb edir. Müəllimin peşəkar olması, səriştəliliyi müəllim peşəsini daha nüfuzlu, müəllim əməyini daha maraqlı, daha məzmunlu və daha səmərəli edir. Heç kimə sirr deyildir ki, müəllim peşəsinin, müəllim nüfuzunun aşağı düşməsində bir sıra müəllimlərin peşəkarlığının az, səriştəliliyinin isə aşağı səviyyədə olması heç də az rol oynamır. Müəllimin peşəkarlığı, peşəsində səriştəli olması təhsilalanların daha yaxşı oxumalarına, təhsil prosesində daha dərin və hərtərəfli bilik, bacarıq və vərdişlər qazanmalarına, mənəvi-əxlaqi dəyərlərə daha mükəmməl yiyələnmələrinə, rəqabətqabiliyyətli mütəxəssislər kimi formalaşmalarına, hər bir vətəndaşın cəmiyyətin layiqli üzvü kimi tərbiyə olunmalarına, milli və ümumbəşəri dəyərləri mənimsəmələrinə əlverişli

zəmin yaradır. Son illər respublikamızda təhsilin inkişafı, onun maddi- texniki bazasının möhkəmləndirilməsi, yeni informasiya-kommunikasiya və təlim texnologiyalarının tətbiqi, müəllimlərin ixtisas və peşəkarlıq səviyyələrinin artırılması sahəsində bir sıra uğurlu işlər görülmüş və görülməkdədir. Bunlarla yanaşı,"sürətlə modernləşən Azərbaycan Respublikasında təhsil sisteminin insan kapitalının inkişafı çağırışlarına cavab verməsi istiqamətində yeni addımların atılmasına və ümumi təhsilin keyfiyyət göstəricilərinin Avropa standartlarına uyğunlaşdırılmasına ehtiyac vardır". Azərbaycan təhsilində səriştəli və peşəkar müəllimlərə, yeni texnologiyaları dərindən mənimsəyən, onlardan tədrisdə müvəffəqiyyətlə istifadə edən, innovasiyaları, yenilikləri özünün fəaliyyətinə tətbiq edən, məktəbə, öz peşəsinə bağlı olan müəllimlərə tələbat çoxdur.

Respublikamızda aparılan təhsil islahatları pedaqoji innovasiyalara geniş yol açmaqla yanaşı, Avropa təhsil standartlarına uyğun gələn yeniliklər aparmağı, innovasiyaları tətbiq etməyi zəruri edir. Müəllimlərin peşəkarlıq və səriştəlilik səviyyəsinin artırılması bu zəruriyyətdən irəli gələrək günümüzün prioritet vəzifələrindən birinə çevrilir. Dünyada baş verən pedaqoji yenilikləri mənimsəmək, onlardan istifadə etmək və yeniliklər yaratmaqla pedaqoji fəaliyyətin məzmununu dərinləşdirmək aktual problem olaraq təhsilimizin qarşısında durur. Dünya təhsil sistemlərində mövcud olan pedaqoji yeniliklərin öyrənilməsi və tətbiq edilməsi, həmçinin, yaradıcı pedaqoqlar, müəllimlər tərəfindən yeniliklər yaratmaqla onların tətbiq edilməsi müəllimlərdən yaradıcı pedaqoji təfəkkür, təşəbbüskarlıq tələb etdiyindən onların peşəkarlıq və səriştəlilik səviyyələrinin artırılması, innovasiyaları öz fəaliyyətlərinə gətirmələri mühüm əhəmiyyətə malikdir.

Müəllimlərin peşə və ixtisas hazırlığının təkmilləşdirilməsi, onların özlərinin yeniliyə maraq göstərməsi, daim öz peşə və ixtisas bilik, bacarıq və vərdişlərini artırması, özünütəhsil, özünütərbiyə və pedaqoji yaradıcılıqla məşğul olması onun peşəkar və səriştəli pedaqoq kimi formalaşmasının əsasında durur. Müəllim ali məktəbdə aldığı biliklərlə, yiyələndiyi metodika ilə kifayətlənməyərək və daim öz üzərində işləməklə peşəkar müəllim kimi formalaşa bilər. Müəllimin peşəkarlıq və səriştəlilik səviyyəsinin artması onun pedaqoji fəaliyyəti ilə birbaşa bağlı olan bir prosesdir. Bu isə hər şeydən əvvəl pedqoji fəaliyyətin özünün daim yeniliklərə tələbatının olması ilə bağlıdır.

ANTİK DÜNYADA TƏHSİLİN VƏ ELMİN MİSTİKADAN AYRILMASI

Babazadə Ə.S.
Bakı Slavyan Universiteti
E-mail: babazade9923@mail.ru

Qədim sivilizasiyalarda təhsilin ilkin inkişaf xüsusiyyətlərinə baxsaq, burada Şərq və Qərb sivilizasiyaları arasında konseptual fərqlər yox idi. Bir-birindən uzaq coğrafiyalarda mövcud olsalar da, hər ikisində məktəb təliminin əsas xüsusiyyəti onun mistika ilə sıx bağlılığında idi. İlkin dövr Antik Yunan filosoflarının formalaşdırdığı məktəblər bu kateqoriyadan idi. Bunlara misal olaraq Platonun, Pifaqorun, Heraklitin məktəblərini misal göstərmək olar. Burada məktəb anlayışı bu filosofların yaratdığı cərəyanlar ətrafında formalaşan tərbiyə ocaqları kimi nəzərdə tutulurdu. Məsələn, Homerin yaratdığı mistik ideallar uzun müddət tərbiyə zamanı təsir vasitəsi olmuşdur. Sonradan isə Yunanıstanda elmin mistikadan və metafizikadan ayrılması prossesi baş verdi. Bu prossesin başlanğıcını Aristotelin adı ilə bağlamaq olar. Yəni, insanın tərbiyə edilməsində rasional konsepsiyalar ortaya çıxdı. Tərbiyə və təlim öz ruhani çərçivəsindən çıxdı və metafizikidan uzaqlaşdı.

Tərbiyə prossesinin yekununda həm fiziki, əxlaqi, həm də əqli cəhətdən inkişaf etmiş, gözəl zövqə malik insanlar olmalı idilər. Bu cür adamların hakim təbəqədən seçilməsi və tərbiyə olunması nəzərdə tutulurdu. Ardıcıl təlim-tərbiyə təcrübəsinin əsasını yarış prinsipi (aqonistika) təşkil edirdi. Uşaqlar, yeniyetmələr və gənclər həmişə gimnastikada, rəqsdə, musiqidə yarışır, öz bilik, bacarıq və vərdişlərini kütlə qarşısında nümayiş etdirirdilər.Təhsillə bağlı antik təsəvvürlərin və yanaşmaların yeni dalğası məhz bu dövrdən sonra formalaşmışdı, həm də riyaziyyat və digət təbiət və dəqiq elmlərin tədrisi kifayət qədər vacib idi. Çünki platonçuların ağlına gəlmişdi ki, riyaziyyatı təkcə pul saymaq, ya da öz torpaq sahəni düzgün ölçmək, yaxud hansısa əməli tapşırıqların həlli üçün öyrənmək lazım deyil. Həm də ona görə öyrənmək lazımdır ki, riyaziyyat ağlın yaxşı işləməsi üçün yaxşı məşq rolunu oynayır. Buna görə də fiziklər liriklərlə mübahisə edəndə anlamadılar ki, əslində fiziklər də, liriklər də ilk dəfə Antik dövrlərdə təsbit edilmiş bir sıra təməl yanaşmaları bölüşürlər. Hətta müxtəlif cərəyanların nümayəndəəri arasında fikir toqquşmaları da var idi. Məsələn, İsokrat məşhur afinalı ritorik idi, onun məktəbindən çoxlu tanınmış xadimlər çıxmışdı. O, sofistlərdən dərs alsa da, özünü sofist hesab etmirdi və onlardan uzaq dayanmağa çalışırdı (İsokratın "Sofistlərə

qarşı" adlı mətni günümüzə qədər qorunub). Buna baxmayaraq, o öz təhsil modellərində, məhz, sofist prinsiplərinə riayət edirdi. Təqribən, eyni dövrdə, yəni b.e.ə. 380-ci ilə yaxın Afinada, Akademiya adlanan məkanda filosof Platon və onun şagirdləri fəlsəfə, riyaziyyat, təbiətşünaslıq, astronomiya və digər elmlərlə məşğul olurdular. Belə ki, təbiət-riyaziyyat elmləri üzrə hazırlıq keçmək istəyən insan, onları məhz fəlsəfə kursları çərçivəsində mənimsəməliydi. Sözügedən elmlər üzrə hazırlıq prosesini fəlsəfə məktəbləri öz üzərinə götürdüyünə görə həmin məktəblərin nəzdində "propaideia" – yəni "ilkin təhsil" anlayışı meydana çıxır. Onlar deyirdi ki, "Biz hansısa fəlsəfi ehkamlara, fəlsəfənin zirvəsinə bir anda çatmırıq, əvvəlcə uzun müddət başqa elmlərlə məşq edirik". Məhz dünyəvi elmlərin inkişafı ilə " mükəmməl filosof – hərtərəfli inkişaf etmiş insandır" ideyası geniş yayıldı. Məhz bu ideya Antik dövrlərdən orta əsrlər universitetlərinə də keçmişdi. Öz növbəsində onlar da müasir təhsil ocaqlarının əcdadları oldular. Beləcə, təhsilin insanı müxtəlif ixtisaslara hazırlayan predmetlər sistemi olması ilə bağlı antik ideya günümüzə qədər gəlib çatdı.

QƏDİM ŞƏRQİN İNSANİ TƏRBİYƏSİNDƏ RUHANİ ASPEKT

Babazadə Ə.S.
Bakı Slavyan Universiteti
E-mail: babazade9923@mail.ru

Yaxın və Uzaq Şərq dövlətlərində məktəb və pedaqoji fikir iqtisadi, sosial, mədəni, etnik, coğrafi amillərin təsirilə inkişaf edirdi. Mütəşəkkil təlim-tərbiyə müəssisəsi olan məktəb icma-qəbilə quruluşundan sosial təbəqələrə ayrılmış yeni cəmiyyətin yaranmasının obyektiv nəticəsi idi. Təxminən b.e.ə. III minillikdən başlayaraq informasiyanın ötürülməsinin əsas üsulları kimi nitq və piktoqrafik (piktos – şəkil, qrafo – yazı deməkdir) yazı qismən mixi və heroqlif yazıları ilə əvəz olundu. Yazının yaranması və inkişafı məktəbin genezisinin ən mühüm amili oldu. Yazı sistemi Şumer mixi yazıları, Misir və Cin heroqliflərinin simasında daha da mürəkkəbləşdiyindən xüsusi təlim tələb edirdi. Əqli əməyin fiziki əməkdən ayrılması prosesində yeni peşə – müəllimlik meydana gəldi.Şərqin ilk müəllimləri isə şübhəsiz ki, din xadimləri sayılırdı. Din xadimləri həm cəmiyyətin və dövlətin idarə edilməsində söz sahibi idi, həm də onların səma ilə bağlılığı ideyası geniş yayılmışdı. Din təlim-tərbiyə, xeyirxah fikir, xeyirxah danışıq və xeyirxah əməl ideyasının daşıyıcısı idi. Qədim Şərq sivilizasiyasında təlim və tərbiyənin əsas mərkəzi ailə və ibadət yerləri idi. Ailə cəmiyyəti kifayət qədər oxumağı və yazmağı bacaran adamlarla təmin edə bilmədiyindən din xadimləri məktəbləri yaratdılar. Tərbiyə tədricən mütəşəkkil xarakter daşımağa başladı. Şərqdə tərbiyə prossesinin spesifik xüsusiyyəti ondan ibarət idi, bu prosses iki istiqamətdə aparılırdı. Birinci istiqamət fərdin istehsal prossesinə yararlılığı ilə, ikinci istiqamət onun şəxsiyyət olaraq icma və cəmiyyətin ictimai həyatına yararlılığını təmin edirdi. Yəni, birinci istiqamət üzrə ona elmi-texniki bacarıqlar öyrədilirdi, ikinci istiqamət üzrə isə onun mənəvi dünyası zənginləşdirilirdi.

Buna nümunə olaraq Çindəki, Hindistandakı, Misirdəki və İkiçayarasındakı tərbiyə sistemlərinin adlarını çəkmək olar. Diqqətlə baxsaq, görərik ki, müxtəlif coğrafiyalarda formalaşıb inkişaf etsələr də bunlar arasında konseptual fərqlər çox deyil. Məsələn, Çində əsrlər boyu bilikli, nəzakətli, özünü dərk edən, qəlbində sülh və harmoniya yaratmağı bacaran insan təbiyəsini nəzərdə tutan pedaqoji ideal formalaşmışdır. Təvazökarlıq, böyüyə hörmət, müəllimə itaət yüksək mənəvi dəyərlər kimi təbliğ edilirdi. Həmin məktəblərdə böyük yazıçıların və şairlərin əsərləri, əxlaq və fəlsəfə, bəzən də nücum elmi öyrədilirdi. Hindistanda tərbiyənin və məktəb təhsilinin inkişafında buddizmin mühüm rolu olmuşdur. Buddizm təliminin əsasını 4 "nəcib həqiqət" təşkil edirdi. 1) Həyat özü şərdir, çünki əzab-əziyyətlə doludur; 2) əzab-əziyyət səbəbsiz deyil, bu kef çəkmək, hakimiyyətə, ağalığa və var-dövlətə sahib olmaq arzusundan doğur; 3) Əzab-əziyyətə son qoymaq üçün arzu və nəfsdən imtina etmək lazımdır; 4) Əzab-əziyyətə son qoymaq üçün insan özünü mənəvi cəhətdən təkmilləşdir- 21 məli, pis hərəkətlərdən çəkinməli, arzularını boğmaq üçün daxili müvazinətini itirməməli, düz danışmalı, yalan və böhtandan imtina etməli, pak əməl sahibi olmalıdır. Eyni zamanda Misirdə və İkiçayarasında da oxşar xüsusiyyətləri görmək mümkündür. Hər iki qədim sivilizasiya mərkəzində təhsilin ən yüksək mərhələsi ruhani aliliyə çatmaq hesab olunurdu. Belə nəticəyə gələ bilərik ki, Şərqdə insan tərbiyəsinin yekun məqsədi onu mənəvi zənginliyin zirvəsinə çatmış şəxsiyyətə çevirmək idi. O, ruhani əxlaqa sahib olmalı və mənəvi rahatlığı ilahi mərtəbədə axtarmalı idi. Bu tip tərbiyə sistemləri Şərqin sonrakı inkişaf tarixinə də siraət etdi və indinin özündə də Şərq insanının mənəvi dünyasını formalaşdıran ideallar kimi öz təsir gücünü saxlamaqdadır

SOSİALLAŞMA VƏ TƏHSİL SİSTEMİNİN ƏHƏMİYYƏTİNİN DƏYƏRLƏNDİRİLMƏSİ

Cəfərsoylu A.S.
Naxçıvan Dövlət Universiteti
E-mail: cefersoylu17@gmail.com

Sosiallaşma cəmiyyətlə insanlar arasında baş verən prosesləri təsvir etmək üçün istifadə edilən ümumi bir termindir. Lakin daha konkret desək, bu, təhsil sosiologiyasının əsas konsepsiyasıdır. Sosiallaşma sosiologiya, sosial psixologiya və təhsil nəzəriyyələrinin istifadə etdiyi bir termindir. Bu termin mədəniyyətin və cəmiyyətin normalarını, adət-ənənələrini və ideologiyalarını miras alma, öyrənmə və mənimsəmə prosesini ifadə edir. Sosiallaşma fərdin bu dəyərləri öyrənməsinə və miras almasına kömək edir. Bundan əlavə, bu, ona öz cəmiyyətlərində iştirak etmək üçün lazım olan bacarıq və vərdişləri qazanmağa kömək edir. Başqa sözlə, sosiallaşma müəyyən dəyərləri inkişaf etdirməklə insanı cəmiyyətdə qəbul edilmiş fərd edir. Sosiallaşmanın cəmiyyətin və mədəniyyətin mövcudluğunu davam etdirdiyi bir proses olduğunu deyə bilərik.

Elmi araşdırmalar insanların həm sosial təsirlər, həm də bioloji quruluşu ilə formalaşdığına dair güclü sübutlar təqdim edir. Genetik tədqiqatlar göstərir ki, insanın ətraf mühiti davranış nəticələrinə təsir etmək üçün onun genotipi ilə qarşılıqlı əlaqədə olur.

Sosiallaşmaya cəmiyyətdə nəzarət sistemi kimi baxmaq olar. Fərdlər sosial və mədəni dəyərləri və təcrübələri mənimsəməyi və onlara tabe olmağı öyrənirlər. İnsan körpələri heç bir mədəniyyət olmadan doğulur. Onları dəyişdirmək işi valideynlərinin, müəllimlərinin və başqalarının üzərinə düşür. Sosiallaşmanın əsas funksiyaları bunlardır:

a) Sosiallaşma bizə doğulduğumuz mədəniyyətin dilini və həyatda oynayacağımız rolları öyrədir.

b) Sosiallaşma bizə həyatımızda etməli olduğumuz peşə rollarını öyrədir.

c) Biz də sosiallaşma prosesi vasitəsilə mədəniyyətimizin normalarını öyrənir və adətən qəbul edirik.

Cəmiyyətin əksər üzvləri tərəfindən qəbul edilən uyğun/gözlənilən davranış anlayışları normalar kimi tanınır. Mədəniyyət norması bir qrupun düşüncə və davranış baxımından gözlədiklərinin müəyyən edilmiş standartıdır. Bu gözləntilər və arzu olunan davranışlar çox vaxt bir mədəniyyətdən digərinə dəyişir. Onlar da dəyərlər, xalq yolları və əxlaq kimi müxtəlif formalardadır. Şəxsiyyətin formalaşması sosiallaşmadan asılıdır. İnsan şəxsiyyətinin çox hissəsi genlərimizin nəticəsidir. Lakin sosiallaşma prosesi xüsusi inancları və münasibətləri təşviq etməklə onu xüsusi üsullarla formalaşdırmağa kömək edir. Bu, mədəniyyətin düzgün işləməsinə kömək edir. Cəmiyyət daxilində vahidlik uğurlu sosiallaşma yolu ilə əldə edilir. Bütün uşaqlar eyni sosiallaşmanı alsalar, eyni inancları və gözləntiləri paylaşacaqlar. Bu, milli hökumətlərin təhsili standartlaşdırmağa və onu bütün uşaqlar üçün məcburi hala gətirməyə çalışmasının səbəblərindən biridir. Onlar nəyin öyrədiləcəyini və necə öyrədiləcəyini seçirlər. Bu, insanları idarə etmək üçün güclü siyasi alət kimi qiymətləndirilə bilər. Bu, insanları qanunlara tabe olan vətəndaşlara da formalaşdırmaq üçün çox güclü bir vasitədir. Sosiallaşma yolu ilə hökumətlər insanları qanunları pozmaqdan və ya radikal sosial dəyişikliklər istəməkdən çəkindirir. Ancaq cəmiyyətlərdə mədəni olaraq müəyyən edilmiş standartlara uyğun gəlməyən fərdlər var. Sosioloqlar iddia edirlər ki, bu cür istisnalar cəmiyyətin normalarını mənimsəmədikləri üçün baş verir.

Sosiallaşma prosesinə bir çox amillər təsir edir. Kütləvi təsirə görə onların təsnifatını professor A. V. Mudrik işləyib hazırlamışdır:

1) makro amillər - bütövlükdə bəşəriyyətə və ya böyük qruplara təsir edən amillər, məsələn, müəyyən iqlim qurşağında, qitədə, ölkədə yaşayan;

2) mezofaktorlar - kütləvi informasiya vasitələri, cəmiyyətin milli xüsusiyyətləri, siyasi, mədəni və regional xüsusiyyətləri;

3) mikrofaktorlar - ailə, Təhsil Müəssisələri, təhsil və təlim komandaları, dostlar və yaxın tanışlar.

Bütün bu amillər fərdin sosiallaşmasına təsir göstərir. Sosiallaşma tempinin həmişə üst-üstə düşməyən cəmiyyətin inkişaf tempinə uyğun olması vacibdir. Belə olan halda həm bütövlükdə cəmiyyətin, həm də onu yeniləyən insanların inkişafında ləngimə müşahidə olunur. Qabiliyyət və istəklərini tam reallaşdırmağa hazır olmayan insanı mühüm məqsədlərin həyata keçirilməsi, müasir cəmiyyətin mexanizmlərinin mövcud şəraitində potensialı, sosial tələb və normalara uyğunlaşması narahat edir.

İnkişaf etmiş şəxsiyyətin formalaşması müasir cəmiyyətin əsas vəzifələrindən birini təşkil edir. Təhsil məqsədyönlü inkişaf deməkdir. Belə bir sosial təcrübənin qurulması, uşaq körpəlikdə olanda və ya hələ ki, mümkün olduqda, hər bir böyüyən insanın özünəməxsus insan fərdiliyi kimi böyüməyə və mənəvi və yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməyə imkan verən reallığa çevrilir.

Sosiallaşmanın prosesləri və nəticələri daxili ziddiyyətlidir, çünki ideal şəkildə sosiallaşmış insan sosial ehtiyacları ödəməli və eyni zamanda cəmiyyətin inkişafındakı mənfi tendensiyalara, fərdiliyinin inkişafına mane olan həyat şəraitinə müqavimət göstərməlidir. Buna görə də, çox vaxt cəmiyyətdə həqiqətən ayrılmış, sosiallaşan insanlar var, çünki onlar hazır deyillər və həyat prinsiplərinin təsdiqində şəxsən iştirak etmək iqtidarında deyillər.Təhsil insanın ətraf mühitlə kortəbii qarşılıqlı əlaqəsi şəraitində baş verən sosiallaşmadan fərqli olaraq məqsədyönlü və şüurlu şəkildə idarə olunan sosiallaşma prosesi (ailə, dini, məktəb təhsili) hesab olunur. Hər iki sosiallaşma növünün bir sıra fərqləri var. Bütün dövrlərdə baş verən ən mühüm fərqlərdən biri də şəxsiyyətin yaş inkişafı, təhsilin sosiallaşma proseslərini idarə etmək üçün bir növ mexanizm kimi çıxış etməsidir. Buna görə də təhsilin iki əsas funksiyası var: şəxsiyyətə təsirin bütün spektrini (fiziki, sosial, psixoloji) tənzimləmək və şəxsiyyətin inkişafı üçün sosiallaşma proseslərini sürətləndirmək üçün şərait yaratmaq. Bu funksiyalara uyğun olaraq təhsil sosiallaşmanın mənfi nəticələrini aradan qaldırmağa və ya zəiflətməyə, ona humanist istiqamət verməyə, pedaqoji strategiya və taktikaları qabaqcadan görmək və qurmaq üçün elmi potensial tələb etməyə imkan verir.

İnsan daim cəmiyyətlə qarşılıqlı əlaqədə olduğu üçün sosiallaşma davamlı bir prosesdir. Təhsil fasiləsiz bir prosesdir, sistemli, yəni məkan və zaman baxımından məhdud olduğu üçün müəyyən təşkilatlarda həyata keçirilir. Təhsil pedaqogikanın əsas kateqoriyalarından biridir, lakin ümumi qəbul edilmiş tərifi yoxdur. Təhsilin qeyri-müəyyənliyi sosial hadisə, fəaliyyət, proses, dəyər, sistem, təsir, qarşılıqlı təsir kimi düşünülə bilər. Bu mənaların hər biri etibarlıdır, lakin heç biri təhsili bütövlükdə xarakterizə etməyə imkan vermir.

Təhsil insanın cəmiyyətə uyğunlaşmasına az-çox ardıcıl olaraq töhfə verən və həyata keçirildiyi qrupların və təşkilatların konkret məqsədlərinə uyğun olaraq təcrid olunmasına şərait yaradan, nisbətən mənalı və məqsədyönlü tərbiyədir.İctimailəşmə prosesində fərd əxlaq və hüquq normalarına əməl edir. Fərdin inkişafı insanlar arasında insani münasibətlərin olması səbəbindən baş verir. Şəxsiyyətin inkişafına ən böyük töhfə özünü mənəvi yüksəliş yolunda daha da irəli çəkməklə verilir. Əgər məktəbdə şagird müəyyən biliklər toplusunu mənimsəyirsə, universitetdə insan biliyə, o cümlədən müstəqil şəkildə mənimsəməyi öyrənir. Buraxılış işi - bu sübutdur ki, insan özü kitabxanaya gedib, kitab tapıb, oxuyub başa düşüb, az da olsa, yeni nəticələr çıxara bilər. Ali təhsilli şəxs ən azı bilik sahəsinə, hətta tamamilə əks sahəyə yiyələnmək qabiliyyətinə malikdir. Amma burada məlumatın qiymətləndirilməsi və müvafiq sənədin verilməsi ilə bağlı sual yaranır. Bu proses sertifikatlaşdırma və lisenziyalaşdırma adlanır və ali təhsil müəssisəsi ilə çox uzaq əlaqələrə malik olur. Təhsil iki insanın münasibətinə əsaslanır: müəllim və uşaq, sosiallaşma isə insan və cəmiyyət münasibətidir.

Sosiallaşma geniş bir anlayışdır və özündə aşağıdakıları əhatə edir: müxtəlif aspektlər, təhsil də daxil olmaqla. Sosiallaşma müəllimin uzunmüddətli məqsədidir, insanın həyatı boyu həyata keçirilir və insanlar arasında normal uyğunlaşma və yaşamaq üçün zəruridir. Tərbiyə isə yalnız uşaqlıq dövründə həyata keçirilən, cəmiyyətdə qəbul edilmiş davranış norma və qaydalarını körpəyə aşılamaq üçün zəruri olan bir prosesdir.

PEDAQOGİKADA ŞƏXSİYYƏTİN FORMALASMASI İDEYASI: TARİXİ QAYNAQLAR VƏ MÜASİRLİK MÜSTƏVİSİNDƏ

Cəlilova T.M.
Naxçıvan Dövlət Universiteti

İnsan mövzusu bütün zamanlarda təfəkkür sahiblərini düşündürmüş,təbii olaraq bu barədə müəyyən baxışlar meydana gəlmişdir.İstər cəmiyyətin inkişafında mühüm rol oynayan dini təlimlərdə,istərsə də gerçək dünyanı-təbiət və cəmiyyəti-ali süurlu varlıq olan İnsanı elmi dəlillərlə izah edən zəka təlimlərində şəxsiyyətin formalaşmasına problem kimi yanaşılmış, bununla əlaqədar müxtəlif fikirlər, ideyalar irəli sürülmüşdür.

Azərbaycan ictimai-pedaqoji fikrinin baş mövzusu olan İnsanın şəxsiyyət kimi formalaşması, burada bioloji, sosial və mənəvi təsir amillərinin oynadığı rol,elecə də digər məsələlər xalq pedaqogikasında,dini dəyərlərdə,mənəvi mədəniyyət nümunələrində, fəlsəfi, pedaqoji, psixoloji, sosioloji, ədəbi-bədii əsərlərdə az və ya çox dərəcədə öz əksini tapmışdır. Məlum olduğu kimi,şəxsiyyət problemi İnsan konsepsiyasına daxildir. Bu konsepsiya insan haqqında düşüncələri, insanın daxili aləmi, əməlləri, idrakı, psixi xüsusiyyətləri, qabiliyyətləri, əməyi, quruculuq və idarəetmə işləri, təlimi vətərbiyəsi, təkmilləşməsi, cəmiyyətdə mövqeyi və digər xüsusiyyətləri əhatə edir.Şəxsiyyət problemi üzrə araşdırmalarda ona tarixi inkişaf,cəmiyyətin ictimai inkişafı mövqeyindən yanaşılır,yəni insan öz zamanının övladı olaraq şəxsiyyət kimi götürülür. Şəxsiyyətə dair ideyaların çox qədim tarixə malik olmasına baxmayaq,elmi ədəbiyyatda hələ də "insanın inkişafi", "şəxsiyyət və onun strukturu,formalaşması" kimi anlayışlara yanaşma yekdil deyildir. Şəxsiyyətin izahının ən

konkret, məzmunlu, bizim fikrimizcə, düzgün izahı "Pedaqoqiçeskiy slovar" da verilmişdir. Orada qeyd edilir : şəxsiyyət-müəyyən ictimai münasibətlər sistemində formalaşan ictimai varlıq. Hər bir tarixi dövr sosial - iqtisadi şəraiti, tərbiyə sistemi ilə şəxsiyyətin həmin dövrə aid xüsusiyyətlərini doğurur.

"Şəxsiyyət" termini sözün geniş mənasında "sima", insanın bu və ya digər əməllər, hərəkətlər, qərarlar, davranışlar vasitəsi ilə təzahürü deməkdir. Şəxsiyyət -çoxsaylı amillərin mürəkkəb təsirinin və qarşılıqlı əlaqəsinin nəticəsi kimi meydana çıxır. Şəxsiyyətin formalaşması - obyektiv və subyektiv, təbii və ictimai, daxili və xarici, insanların iradə və süurundan asılı olan və olmayan amillərin birlikdə təsirinin nəticədir. Şəxsiyyətin formalaşması dedikdə, şəksiz,oraya insanın yaşadığı ətraf mühitin onun şəxsiyyətləşməsinə təsiri, insanın bioloji, genetik və psixoloji keyfiyyətlərinin təsiri, elmi-texniki və sosial tərəqqi amillərinin təsiri daxildir.Bir sözlə, şəxsiyyətin formalaşması anlayışı,onun qərarlaşması və inkişaf prosesini bütövlükdə əks etdirir. Tədqiqatçı Ş.Qasımlının bu izahlı qənaəti ilə biz də razıyıq. Deməli, şəxsiyyətin öyrənilməsinə imkan verən müəyyən normalar, parametrlər vardır ki, bunlar müəyyən elmi fikirləri söyləməyə imkan verir.İctimai fikir tarixində bir cox ideya və baxışlar cuzi dəyişiklərə uğraya-uğraya, təkmilləşərək, inkişaf edərək illər boyu mövcud olmuşdur.Bütün bunlar müxtəlif mənbələrdə qorunub saxlanmış, nəsildən-nəsilə ötürülərək elmi baxışların nəzəri və praktik inkişafına təkan vermişdir. İctimai-peqaqoji fikrin, o cümlədən onun baş problemlərindən olan şəxsiyyətin inkişafı ideyası haqqında təsəvvürlər yaranması və onun mənzərəsinin formalaşmasının ilkin mənbəyi xalqın yaratdığı pedaqoji fikir, xalq pedaqogikasıdır. Pedaqogikanı "şəxsiyyətin formalaşması haqqında elm" adlandıran alman pedaqoqu Frans Xofmanın fikrincə, şübhə yoxdur ki, gənc nəslə tərbiyəedici təsir artıq antropogenezin ilk mərhələlərində şüurlu və şəraitə uyğun, məqsədli olmuşdur. Qədim insanın istək və arzularından xəbər verən qayaüstü rəsmlər ən qədim insanın təfəkkür, idrak dairəsində düşündüyünü və məqsədyönlü hərəkətlərini sübut edir.

Xalq pedaqogikası-təlim-tərbiyənin məzmunu, məqsədi, vasitələri, metodları təşkili və s.məsələləri haqqında zəhmətkeş kütlələrin tarix boyu müşahidələrinin nəticəsi kimi əldə etdikləri,əmək və yaşayış şəraitinin təsiri altında topladıqları pedaqoji bilik, təcrübə, baxış, qayda-qanun və adət-ənənələrin məcmusudur. Müasir elmi pedaqogikada sistemə salınıb dərinləşdirilən və inkişaf etdirilən pedaqoji əsasların, demək olar ki, hamısı başlanğıc halında əvvəlcə xalq pedaqogikası materiallarında mövcud olmuşdur. Buna görə də,təbiidir ki, xalq pedaqogikası elmi pedaqoji fikrin və planlı təlimin yaranıb inkişaf etməsində mühüm rol oynamışdır. Sözün geniş mənasında tərbiyənin mahiyyəti,vəzifəsi, metod və vasitələri üzrə təcrübə,fikir və idealar,bəsit şəkildə olsa da,ən əvvəl xalqın əməli fəaliyyətində,real pedaqogikasında işlənib hazırlanmışdır.O cümlədən xalq insan, şəxsiyyət və onun inkişafı,formalaşması haqqında da əsrlərin sınağından çıxmış qiymətli fikirlər söyləmişdir.Məhz bu xalq hikmətindən öyrənmiş,xalq tərbiyəsi görmüş adamlar şəxsiyyət səviyyəsinə yüksəlmişlər.K.D.Uşinski çox gözəl demişdir ki, şəxsiyyət "nə qədər inkişaf etmiş olsa, fitrətən nə qədər zəngin istedada malik olsa da, böyük xalq orqanizmi qarşısında hədsiz dərəcədə aşağıda durur ". K.D.Uşinskinin fikrincə, xalq öz tərbiyəvi təcrübə və ənənələri əsasında, öz kökü üzərində tərbiyə işini qurmalıdır. Elmi, biliyi başqa xalqdan öyrənmək olar, lakin tərbiyəni başqa xalqdan almaq olmaz.

Göründüyü kimi, xalqın pedaqoji fikri elmi pedaqogika üçün mənbə olduğu kimi,xalqın şifahi yaradıcılıq nümunələri praktik tərbiyə işinin mühüm vasitələri olmuşlar. Filosoflar A.Şükürov və G.Abdullazadə qeyd edirlər ki, ibtidai cəmiyyətin adamları gerçəklikdə baş verən hadisələrlə üz-üzə gəldiyi zaman istər-istəməz onu duymaq, başa düşmək arzusunda olmuşlar. Təsadüfü deyildir ki, alimlərin əksəriyyətinin fikrincə, ilk insanın dünyanı dərk etməsində, anlamasında mifologiyanın rolu əvəzsizdir. Mifologiya uzun əsrlər böyük dünyanın yaranması,cəmiyyətin və insanların meydana gəlməsi, məişət problemləri, evlənmə və qohumluq qaydaları, dövlət, bayram, yasaqlar, ilin fəsilləri, günlər, aylar, soyuq, şaxta, isti və başqa suallara cavab verməyə çalışmışdır. Şəxsiyyət və onun formalaşması haqqında Azərbaycan xalq pedaqogikasinda olan ideyalardan filosof və pedaqoqlar öz əsərlərində, ədiblər bədii yaradıcılıqlarında geniş istfadə etmişlər. Xalq pedaqogikası haqlı olaraq bu sahədə ilkin mənbə hesab edilmişdir.

Səxsiyyətin formalaşması haqqında araşdırmalar göstərir ki, şəxsiyyət fərdi psixoloji xassələri olan təbii və ictimai vəzifələri (ailə qurmaq, övlad böyütmək, gerçəkliyə, adamlara maddi və mənəvi sərvətlərə, cəmiyyətə, əməyə münasibət, ictimai fəaliyyət və s.) yerinə yetirən, müəyyən ictimai-tarixi dövrdə yaşayan konkret insandır. Fərd kimi dünyaya gələn insan inkişafa və formalaşmağa möhtacdır. Bioloji, sosial, psixi və mənəvi inkişaf yolunda müəyyən xassə və keyfiyyətləri özü ilə gətirən insan görünən xassə və keyfiyyətlərə müvafiq mühitdə ona verilən təlim və tərbiyə ilə, özünüdərk, özünütəhsil, özünütərbiyə ilə formalaşır və kamillik qazanır.

İBTİDAİ SİNİFLƏRDƏ MƏNƏVİ TƏRBİYƏ İŞİNDƏ NÜMUNƏ METODU

Əliyeva B.R.
Naxçıvan Dövlət Universiteti
E-mail: aliyevabesti14@gmail.com

Daima inkişaf etməkdə olan dövrümüzdə məktəbəqədər təhsil müəssisələrində, orta və ümumtəhsil məktəblərində, ümumiyyətlə bütün təhsil müəssisələrində təlim və təhsillə yanaşı, tərbiyənin verilməsi də zəruri məsələlərdəndir. Bu zaman şagirdin ilk əvvəl mənəvi tərbiyəsi inkişaf etdirilməlidir. Bu isə müəllimin rəhbərliyi ilə mümkündür. Kiçik məktəblidə dostluq, yoldaşlıq, vətənə sevgi, təbiətə qayğı, böyüklərə hörmət, məsuliyyətlilik, əməyə hörmət, əməksevərlik və s. müsbət mənəvi keyfiyyətlər formalaşdırılmalıdır. Bunun üçün dərslikdəki mətnləri, şeirləri, tapşırıqları düzgün dərk etmələrinə, anlamalarına kömək etmək lazımdır.

Mənəvi tərbiyə probleminin düzgün həll edilməsi üçün kiçik məktəbliyə mənəvi keyfiyyətlər düzgün formada aşılanmalıdır. Kiçik məktəbli tərbiyənin yalnız obyekti deyil, həm də subyektidir. İradə və xarakterin formalaşması üçün özünütərbiyə mühüm əhəmiyyətə malikdir. Şagirdin müəllimin verdiyi tapşırığı, müəllim və valideyn təkidi olmadan, yerinə yetirməsi, həll etmək üçün səy göstərməsi, marağının olması üçün məqsədi olmalıdır. Hər gün oyanıb, dərsə nə üçün getdiyini dərk etməlidir. Kiçik yaşlı şagirdlər adətən tez ruhdan düşür, tez yorulur və daha çox oyun oynamağa meyilli olurlar. Dərsə olan marağını, oxumağın əhəmiyyəti, kollektivin tələbləri, valideyn tərəfindən uşağın anlayacağı şəkildə izah olunarsa, şagirddə məsuliyyət hissi formalaşar. Onun kiçik hədəfləri olmalıdır, hərdən edəcəklərinin nəticəsi onun öhdəsinə tapşırılmalıdır, bu zaman kiçik məktəbli səhvlik etməmək üçün əlindən gələni edər.

Kiçik məktəblilər adətən özlərindən böyükləri örnək alırlar. Özlərini onlara bənzətməyə çalışırlar. Pedaqogikada tərbiyənin üsulu kimi nümunə üsulu var. Bu üsul mənəvi keyfiyyətin tərbiyə edilənlər tərəfindən qavranmasına xidmət göstərir. Nümunəvi xüsusiyyətləri görən şəxs daxilində düşünür ki, bu cür nümunəvi hərəkət etməlidir. Nümunənin növlərinə misal olaraq göstərmək olar: valideyn nümunəsi, müəllim nümunəsi, tarixi şəxslərin nümunəsi, milli qəhrəmanlarımızın nümunəsi, dostluq nümunəsi və s. Şagirdin ilk nümunəsi valideyn sonra isə müəllimdir. Valideyn nümunəsinin kiçik uşaqlara təsiri daha böyük olur və heç vaxt unudulmayan olur. Valideyn çalışmalıdır ki, övladına çox yaxşı nümunə olsun. Uşağa güclü təzyiq etmək olmaz. Balaca uşağın inamını qazanmaq lazımdır, uşağı üçün valideyn ən vacib biri olmalıdır, onun balaca qəlbinə yol tapmalıdır. Balaca uşaq, məktəbli valideyninə etibar etməlidir. Əgər valideyn və uşaq arasında inam, etibar olarsa, o çətin və ya onun üçün sevincli anında valideyni ilə söhbət edə bilər. Əks halda uşaq valideynindən hər şeyi gizlədər. Valideyn çalışmalıdır ki, uşağı ilə yoldaş olmağı da bacarsın. Ona doğru yol göstərmək üçün təzyiq göstərməməlidir, hər şeyin açıq-aydın şəkildə səbəbi açıqlanmalıdır. Təbii ki, bunu da uşağın yaşını, psixologiyasını nəzərə alaraq etməlidir. Valideynin uyğun görmədiyi bir şey uşağa qadağan olunarsa, o daha çox həmin şeyə meyilli olar, lakin nə üçün qadağan olunduğu onun anlayacağı şəkildə izah olunarsa, uşaq həmin məsləhəti dinləyər. Valideyn isə bunu müşahidə edərək görə bilər, lakin bəzi məsələlər var ki, onlar sözlə izah oluna bilməz. Hərəkət olan yerdə sözə gərək qalmaz. Valideyn əlbəttə övladını daim pis olan hər şeydən qorumalıdır, lakin bəzən pis olanı uşağın özünün iştirakı ilə anlatmaq lazımdır. Valideyn nəyin pis, nəyin yaxşı olduğunu bəzən şərh etməli, bəzən də göstərməlidir. Valideyn öz əməlində və sözündə tərbiyəvi cəhətləri göstərməlidir. Belə olarsa, uşaq nümunə götürər və çox vaxt tərbiyə haqqında sözə ehtiyac qalmaz. Belə bir müşahidəni burda qeyd etmək lazımdır. Uşaq səhər yuxudan oyanarkən, valideyni evdə başqaları yatdığı üçün səssiz hərəkət edərsə, uşaqla alçaq səs tonu ilə danışarsa, həmin vaxt uşaq səssiz olmağın vacibliyini anlayar. Artıq kiminsə uşağa "səssiz ol" deməyinə gərək qalmaz. Uşağın yaş dövrü elədir ki, ona gözəl vərdişlər aşılanmalıdır. Bunu bu cür izah edə bilərik ki, yemək yeyərkən vitaminlər bizim bədənimizə yayılır, bizim üçün sonra bu qidalar ət olur, qan olur, bədənimizə yayılır. Aşılanan gözəl vərdişlər də xasiyyətimizə, keyfiyyətlərimizə, ruhumuza yayılır. Valideyn bu vərdişlərin aşılanmasına xüsusi diqqət yetirməlidir. Valideyn uşağına ayırdığı vaxtın dəyərli olduğunu anlamalıdır.

Müəllimini özünə şəxsi nümunə kimi götürən şagirdin dərsə həvəsi artar, öyrənməyə can atar və beləliklə müvəffəqiyyətli təhsil sistemi qurulmuş olar. Həmçinin müvəffəqiyyətli təhsil sisteminin qurulması üçün tərbiyəçi tərbiyə və təlimin prinsiplərini bilməli və tətbiq etməlidir.Azərbaycan Respublikasında gənc nəslin yetişdirilməsində, kadrların hazırlanmasında müəllimin çox böyük rolu var. Müəllim özündə bir çox müsbət keyfiyyətləri birləşdirmiş şəxsiyyətdir. Müəllim elə bir şəxsiyyətdir ki, o zəngin dünyagörüşünə, təşkilatçılıq qabiliyyətinə, səlis, aydın nitqə və s. xüsusiyyətlərə malik olmalıdır. Müəllim o şəxsdir ki, şagirdlərinə yaxud, tələbələrinə həyatda xüsusi bir mövqe tutmalarına yol göstərsin. Müəllim beyində, gözlərdə işığın, ideyanın yaranmasına səbəb olur. Müəllimin ən başlıca vəzifəsi öyrənməyi öyrətməkdir. Elə

bir metoddan, üsullardan, vasitələrdən isdifadə etməlidir ki, şagird həm öyrənməyi sevməli, həm də özü tapşırığı həll etməyi bacarmalıdır.Bunun üçün müəllim müasir şəraitdəki tələblərdən, vasitələrdən istifadə etməyin yollarını düzgün bacarmalıdır. Müəllim şəxsiyyət, cəmiyyət, vətəndaş yetişdirir. Bunun məsuliyyəti çox böyükdür. Müəllim öz ixtisasını sevərək, düzgün icra edərək, əxlaqi və mənəvi keyfiyyətlərə malik olaraq, özünün aynadakı əksini yaradır. Müəllimin sinifdəki şagirdlərə qarşı səhv hərəkəti uşağın daxili aləmini korlaya bilər. Bunun üçün də müəllim hər bir uşağa qarşı diqqətlə yanaşmalıdır. Müəllim şagirdlərin müvəffəqiyyətini öz müvəffəqiyyəti bilərsə, şagirdlərə övladı kimi yanaşarsa, onların müvəffəqiyyəti yüksək dərəcədə olar. Müəllim uşaqlarım hər birinə fərdi yanaşmağı bacarmalıdır. Tərbiyənin yaş, fərdi və cinsi xüsusiyyətlərin nəzərə alması prinsipi tətbiq edilməlidir. Tərbiyə səviyyəsinin yüksək olmağı üçün bu prinsip nəzərə alınmalıdır.Hər bir uşaq fərqlidir. Onları eyniləşdirmək olmaz. Hər birinin özünəməxsus xüsusiyyətləri var. Buna görə də obrazlı şəkildə desək, uşaqları dəyərli kitablara oxşadıram. Bütün kitablar ümimilikdə kitab adlanır, amma bütün kitabların içindəkilər eyni deyil. Uşaqların bu fərqliliyi onların yaşadığı mühitdə, xasiyyətində, hafizəsində, qavrayışında, temperamentinda, duyğusunu ifadə etmə tərzində, və s. xüsusiyyətlərdə görmək olar. Aktiv bir müəllim isə bunların hamısı nəzərə alıb, uşağın mənəvi aləminə, mənəvi dünyasına yol tapmağı yaxşı bilməlidir. Şagirdin həvəsini qırmaq, onu incitmək kim hallara yol verilməməlidir. Bu zaman isə tərbiyənin digər prinsipinə müraciət edirik. Bu prinsip tərbiyədə nikbinlik prinsipidir. Bu prinsipin qanunauyğunluğuna görə tərbiyə oluna bilməyən şagird yoxdur.

Şagirdin digər nümunəsi isə adətən dərslikdə və dərslikdə olmayan digər qəhrəmanlar olur. Vətəni sevməyi, vətənpərvərlik hissini aşılamaq üçün dastanlarımızdakı qəhrəmanlarımız, milli qəhrəmanlarımız və vətən uğrunda canından keçən şəhidlərimiz, hamısı haqqında dəyərli fikirlər şagirdlərə çatdırılmalıdır. Vətən sözünün mahiyyəti şagirdlərdə aydın təsəvvür yaratmalıdır. Vətənlə bağlı atalar sözləri, şeirlər uşaqların sadəcə dilində əzbər olmalı, həm də dərk etməlidirlər. Hər millətin, ölkənin özünəməxsus milli-mənəvi dəyərləri vardır. Bu dəyərləri qorumaq, gələcək nəsillərə çatdırmaq isə böyüməkdə olan gənc nəslin öhdəsinə düşür. Ona görə də bu gün bu dəyərlər, adət-ənənələr ibtidai sinifdən başlanaraq düzgün aşılanmalıdır. Bilirik ki, tariximizi səhifələsək, təsadüfi deyil ki, vətənimiz ən çətin günlərdən müstəqil günlərə gələ bilmişdir. Bu isə elə də asan olmamışdır. Tarixi şəxslərin, elm sahəsində fəaliyyət göstərənlərin, xalqın maariflənməsinə səbəb olan dəyərli yazıçılarımızın və s. ümummilli liderimiz Heydər Əliyevin siyasəti, əməyi isə xüsusi ilə qeyd olunur.

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN İNKİŞAFINA BİOLOJİ AMİLİN TƏSİRİ

Əliyeva T.M.
Bakı Slavyan Universiteti
E-mail: turanaliyeva6@gmail.com

Hər kəsə məlumdur ki, məktəbəqədər yaş dövrü insan həyatının xüsusi və bənzərsiz dövrüdür. Uşaqlıq dövründə təkcə sağlamlığın əsası qoyulmur, həm də insanın şəxsiyyəti formalaşır. Uşağın məktəbəqədər yaş dövrünün hansı şəkildə keçməsi onun gələcək həyatına və uğuruna birbaşa təsir göstərir. İnsan doğularkən şəxsiyyət olmur, zaman keçdikcə onun qazandığı təcrübə, həyat fəaliyyəti və təsir göstərən amillər şəxsiyyət olmağa əsas verir. Məhz məktəbəqədər yaş dövründə uşaqların inkişafına təsir edən bir sıra sosial və bioloji amillər vardır. Bioloji amil, yəni irsiyyət bəşəriyyətin hər bir nümayəndəsi üçün fərdi xarakter daşıyır. İrsiyyət valideynlərdən uşaqlara ötürülən, genlərdə gələn bir amildir. Valideynlər öz övladlarına gen ilə müəyyən şəxsiyyət xüsusiyyətlərini və keyfiyyətlərini ötürürlər. İrsi keyfiyyətlərin ötürülməsi genetik bir proqram təşkil edir. İnsan irs ilə keçən müəyyən təbii imkanlar ilə doğulur və zaman keçdikcə öz səyi ilə bu imkanlar inkişaf edir. Bununla bərabər, müəyyən təbii imkanların düzgün inkişafı üçün əlverişli bir atmosfer yaratmaq lazımdır. Müasir dünyada uşağın düzgün inkişafına təkcə irsiyyət deyil, ətraf mühitin özü də əsaslı təsir göstərir.

Məktəbəqədər yaşlı uşaqların inkişaf xüsusiyyətlərinə nəzər saldıqda görmək olar ki, onlar tək valideynlərinin deyil, həm də uzaq əcdadlarının gen kompleksini daşıyır, bunun vasitəsi ilə fərdi keyfiyyətləri yaranır və inkişaf edir. Təbii ki, irsiyyət şəxsiyyətin xarakterik xüsusiyyətlərini tamamilə yarada bilməz çünki nə mədəniyyət, nə də sosial təcrübə insana genlərlə ötürülmür. Birbaşa olaraq embrionun inkişaf xüsusiyyətlərində nəzərəçarpan hər hansısa kənara çıxmalar uşağın inkişaf xüsusiyyətinə təsir edə bilər. Yəni ananın duyğuları uşağın psixikasına müsbət və ya mənfi təsir göstərərək ona ötürülür. Bu, ananın həddindən artıq emosional reaksiyaları uşaqda doğuşdan sonrakı ağırlaşmalara səbəb ola bilər. Belə ki, embrionun sağlam inkişaf yolu qət etməsi, onun emosional sahəsinə də təsir etmiş olur. Məktəbəqədər yaş dövründə uşaq artıq

yeni obyektlərlə tanış olur, rəsm çəkməyi, ifa etməyi bacarırlar. Məhz elə bu irsiyyət ilə insana keçən təbii imkankardır. Bu imakanların inkişafına təkan verib dəstək olmaq gələcəkdə neçə uğurlu şəxsiyyətin var olmasına səbəb olmaq deməkdir. İrsiyyət insanın əsas bioloji xüsusiyyətlərinin insana ötürülməsində özünü göstərir. Bunlar bizim görmə, eşitmə, danışmaq qabiliyyətlərimizdir. İrsiyyətin köməyi ilə insana valideynlərdən anatomofizioloji quruluş, maddələr mübadiləsinin təbiəti, bir sıra reflekslər, daha yüksək sinir fəaliyyətinin növü ötürülür. Məktəbəqədər yaş dövründə olan uşaqlar artıq yeni obyektləri, insanları təcrübədən keçirməyə başlayırlar. İlk dəfə gördükləri hər bir şey onlara maraqlı gəlir. Ola bilər ki, hər hansısa musiqi alətini, rəsm çəkmək üçün istifadə edilən rəngli boya və fırçanı uşaq sınaqdan keçirtmək istəsin. Çalışmaq lazımdır ki, onların bu həvəsinə dəstək olub onlara şərait yaradaq. Çünki insana gen ilə ötürülən fitri istedadın üzə çıxma mərhələsi bu yaş dövründə baş verir. Məktəbəqədər yaş dövrü elə bir perioddur ki, uşaq öz daxili fantaziyasının al-əlvan nümunələrini nümayiş etdirib böyüklərin diqqətinə və nəvazişinə ehtiyac duyur. Məhz bu diqqət uşağın hər hansı bir yöndə olan istdadının inkişafına təkan verməkdir. Bu isə öz növbəsində neçə-neçə bacarıqlı rəssam, bəstəkar, fizik, həkim, riyaziyyatçının, gələcəyin şəxsiyyətlərinin var olması, cəmiyyətimizin çiçəklənməsi deməkdir. Odur ki, bioloji amilin insan həyatında olan rolunu danmamalı, xüsusən də məktəbəqədər yaş dövründə olan uşaqların inkişaf sahələrininin xüsusiyyətlərinə nəzər yetirmək lazımdır.

DİSTANT TƏHSİLİN MAHİYYƏTİ

Əlizadə F.D.
Bakı Slavyan Universiteti
E-mail: fidanelizade65@gmail.com

"İnternet əsrində tədris o deməkdir ki, sabahın bacarıqlarını bu gün öyrətməliyik."
Cennifer Fleminq

XXI əsr informasiya texnologiyaları əsridir. Müasir informasiyalaşdırma prosesləri insan həyatının müxtəlif sahələrinə fəal şəkildə daxil olur. Bəşəriyyət tarixində əhəmiyyətinə görə İKT texnologiyalarını kitab çapının yaranması ilə müqayisə etmək olar. Bu baxımdan uşaqların təhsili ilə bağlı mövcud yanaşmalara yenidən baxmaq lazımdır. Bugünkü təhsilin mövcud olanlardan fərqlənən bilik və fəaliyyət sistemində ehtiyacı var. Elmi-texniki tərəqqinin inkişafı prosesində insan tərəfindən həyata keçirilən əməliyyatların əksəriyyəti bütün növ informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə tamamlanır.

Qlobal informasiyalaşdırmanın tətbiqi innovativ texnologiyaların yaradılması proseslərinin birbaşa təhsil xidmətlərinin keyfiyyətindən asılı olduğu inkişaf etməkdə olan ölkələrdə daha aydın görünür. Bu gün dərsləri interaktiv lövhəsiz, internet resurslarına çıxış olmadan təsəvvür etmək çətindir. Distant tədris və öyrənmə müasir dünyada çox məşhur təhsil üsuluna çevrilib. Təəccüblü deyil ki, elektron təhsil sənayesi ildə 15% sürətlə genişlənir. Texnologiya və internet bağlantısı hər keçən gün insanların daha böyük təbəqələri üçün əlçatan olduğundan, o, gələcəkdə təhsilin verilməsinin əsas üsulu kimi inkişaf edir.Müasir sosial inkişaf şəraitində zamanın reallıqlarına cavab verən təhsilin bu forması olduğundan distant təhsilə maraq ildən-ilə artır. Distant təhsil ideyası yeni deyil. Distant təhsildən ideya kimi ilk dəfə Yan Amos Komenskinin 1633-1638-ci illərdə qələmə aldığı "Böyük didaktika" əsərində bəhs olunmuşdur.Onlayn təhsilin əsasını tədris prosesinin elektron, telekommunikasiya, proqram-texniki vasitələr əsasında idarə olunması təşkil edir. Bu təhsil forması öyrədən və öyrənən arasında əlaqəni telekommunikasiya və kompüter şəbəkələri vasitəsilə uzaq məsafədən keçirir. Təhsilin bu formasının xarakterik xüsusiyyətləri özünü iqtisadi səmərəlilikdə, mobillikdə, çeviklikdə, təhsilin keyfiyyətinə xüsusi nəzarətin olmasında, təlimin xüsusiləşdirilmiş vasitə və texnologiyalarından istifadəsində göstərir. Distant təhsil haqqında məlumat "Təhsil haqqında" Azərbaycan Respublikasının 2009-cu il 19 iyun tarixli 833- III Q saylı yeni Qanununun 1.0.9, 10.5 və 13.13 bəndlərində öz əksini tapmışdır. Qanunun 13-cü maddəsinə əsasən, əyani və qiyabi təhsil formaları ilə yanaşı, Azərbaycanda təhsil almanın dörd - əyani, qiyabi, distant (məsafədən) və sərbəst (eksternat) təhsil formaları vardır. Məsafəli təhsil (distant) proqramı, təhsil müəssisələrinin, öyrənənlərin təkbaşına təhsili reallaşdırmasıdır. Mütəxəssislərin fikrinə görə, bu sistemdən istifadə etmək istəyən tələbələr faks, poçt və ya e-poçt kimi üsullarla, şagirdlərə isə, ixtisaslı bir müəllim tərəfindən hazırlanan dərslə əlaqədar tapşırıq mövzuları verilir. Daha sonra tapşırıqlar və sınaqlarla bağlı qiymətləndirmələr edilir.

Distant təhsil ən yaxşı ənənəvi və innovativ təhsil metodlarını, vasitələri və formalarını özündə birləşdirən distant və əyani təhsil kimi informasiya və telekommunikasiya texnologiyalarına əsaslanan təhsil formasıdır. Uzun illər keçən dövr ərzində texnoloji yanaşmalar və tələblər dəyişmişdir. Distant iş yeni növ ünsiyyət modeli kimi bütün fəaliyyət sahələrini əhatə etməyə təminat verir.

Distant təhsil forması, ilk növbədə, informasiya texnologiyalarının və elmi-texniki tərəqqinin inkişaf səviyyəsinə aiddir. Bu öyrənmə sisteminin katalizatoru kimi, Ümumdünya Şəbəkəsini - İnterneti nəzərdən keçirmək adətdir.Məhz bu məlumat mübadiləsi sistemi müxtəlif informasiya xidmətlərini əldə etməyə imkan verir. Ən çox yayılmış xidmətlər informasiya axtarışı və yayım, həmçinin istifadəçilər arasında interaktiv ünsiyyətdir.Müasir qlobal informasiya dünyasında ənənəvi və distant təhsil arasındakı xəttin aradan qalxması tendensiyası müşahidə olunur, çünki insanların əksəriyyəti tədris prosesində internetdən istifadə edir. İndiki vaxtda İnternetdə tamamilə hər hansı bir maraq mövzusu tapıla bilər, bu fenomen məlumat axtarışını asanlaşdırır və vaxtı azaldır.Distant texnologiyaların tətbiqi ilə tədris zamanı yaranan problemləri aradan qaldırmaq üçün virtual məkanda tələbənin motivasiyası və marağının mühüm rol oynadığını nəzərə almaq lazımdır. Hətta ən yaxşı və ən qabaqcıl texnologiyalar, məsələn, informasiya və psixoloji-pedaqoji texnologiyalar tədris prosesini optimallaşdırmada əks effekt verə bilər, ona görə də yüksək keyfiyyətli təhsil üçün təkcə distant təhsil sisteminin tətbiqi kifayət deyil. Tədris prosesində biznesə yaradıcı yanaşma, müəllim və tələbələrin təhsil fəaliyyətinin təşkili üçün müəyyən edilmiş sistemin yaradılması lazımdır. Axı, distant təhsil texnologiyalarından istifadə etməklə təlim ənənəvi təhsil prosesinin əsaslarının dəyişdirilməsini və pedaqoji fəaliyyətdə prinsip və metodların yenidən nəzərdən keçirilməsini tələb edən yalnız təlimin təşkilinin spesifik formasıdır.

PEDAQOJİ ƏDƏBİYYATDA VƏ TƏDQİQAT ƏSƏRLƏRİNDƏ VƏTƏNDAŞLIQ TƏRBİYƏSİ PROBLEMİNƏ BAXIŞ

Əmirova Z.B.
Naxçıvan Dövlət Universiteti
Zerifeemirova@gmail.com

Məlum olduğu kimi, ailədə yeniyetmələrin vətəndaşlıq tərbiyəsi məsələsi ailə tərbiyəsi probleminin, ailə tərbiyəsi şəxsiyyət tərbiyəsi probleminin, o da əsl vətəndaş tərbiyəsi probleminin tərkib hissəsi olduğundan bu sahə həm pedaqoq-psixoloqların və həm də sosioloq və filosofların tədqiqat obyekti olmuşdur.Azərbaycanda bu problemlə pedaqoji elmlər doktoru, professor Əjdər Ağayev ardıcıl məşğul olmuş və indi də məşğul olaraq bu sahədə aparılan işlərə rəhbərlik etməklə alim - koordinator vəzifəsini həyata keçirməkdədir. Ə.Ağayevin sırf vətəndaşlıq tərbiyəsi ilə əlaqədar bir neçə kitab, kitabça və məqaləsinin nəşr edilməsi respublika tədqiqatçılarının bu işə səfərbər olunmasında mühüm rol oynamışdır.

Professor Yusif Talıbov hələ 1968-ci ildə «Bakı» qəzetində «Vətəndaş-valideyn» adlı publisist məqalə ilə çıxış etmiş və oxucuları geniş müzakirəyə cəlb edə bilmişdir. O burada ailə tərbiyəsinin əsaslarına toxunmuşdur.Tədqiqatçılardan pedaqoq R. Hüseynov texniki - peşə məktəbi şagirdlərinin vətəndaşlıq qüruru tərbiyəsi üzrə iş sistemini araşdırmışdır.Problemin tədqiqinin davam etdirilməsi vətəndaşlıq tərbiyəsinin məktəb və ailə ilə bağlı çox komponentli sistemini nəzəri cəhətdən əsaslı, təcrübi cəhətdən isə əhəmiyyətli olduğuna görə meydana yeni-yeni tədqiqatçılar çıxmışdır ki, onlardan A. Əliyev və Ş. Məmmədovu göstərmək olar.Bu tədqiqatçılar da orta ümumtəhsil məktəbinin yuxarı sinif şagirdlərində vətəndaşlıq ləyaqəti tərbiyəsi problemini tədqiq etmişlər.Həmin tədqiqatlardan sonra Hamlet İlyasovun «Ailədə uşaqlarla aparılan vətəndaşlıq tərbiyəsi işinin sistemi (kiçik məktəb yaş dövrü)» adlı monoqrafiyası nəşr edilmişdir.

Adlarını qeyd etdiyimiz tədqiqatçıların toxunduğu məsələlər ailə tərbiyəsinin bir sıra komponentlərini əhatə edir, vətəndaş tərbiyəsinin də məna tutumunu dərk etməyə kömək göstərir. Hətta bu əsərlərin yazılmasında güdülən məqsəd tərbiyə problemində ümumiləşsə belə, onların heç birini 3 sahəyə görə ünvanlandığını demək olmaz. Bu sahələrdən birincisi – ailədə tərbiyə; ikincisi – ailədə vətəndaşlıq tərbiyəsi; üçüncüsü – ailədə yeniyetmələrlə aparılan vətəndaşlıq tərbiyəsini xüsusi hal kimi tədqiqat predmetinə çevirməyi tələb etmişdir. Deməli, tədqiqatın istiqaməti yeni istiqamətdir. Digər cəhətdən, vətəndaş tərbiyə-sində o yenə ümumi istiqamətlərlə də məzmunca uzlaşmış olur.Qeyd etməliyik ki, bütün bunlar bu şəkildə dərk etməyimiz problemin mahiyyətinə dərindən bələd olmağımızda təbii ki, çox böyük rol oynamışdır. Lakin göstərilən problemlə əlaqədar seçdiyimiz mövzunun məntiqindən irəli gələn məqsəd və vəzifələr yuxarıda adlarını çəkdiyimiz alimlərin tədqiqatları ilə tamamilə üst-üstə düşmür. Bizim anlamımızda ailədə vətəndaşlıq

tərbiyəsi prosesi tamam başqa bir pedaqoji obyektdir. Onu məktəbdə və ailədə aparılan digər tərbiyəvi işlərlə pedaqoji proseslərlə qarışıq salmaq olmaz. Ona görə ki:

1. Məktəbdə aparılan vətəndaşlıq tərbiyəsi təhsilin məzmunu ilə yəni proqramla bilavasitə əlaqədardır; ona təlimin tərbiyə ediciliyi sistemində aparılan iş də deyirlər. Ailə tərbiyəsinin vahid, stabil proqramları yoxdur; çünki ailə tərbiyəsi cəmiyyətin mövcud qanunlarının təsiri ilə tənzimlənən bir sistemə daxildir; onun məzmununu müəyyən edən cəmiyyətin qanunlarıdır.

2. Bugünkü vətəndaşlıq tərbiyəsinin aktuallığı Azərbaycanın yeniyetmə və gənclərinin ümumiyyətlə vətəndaşlıq tərbiyəsində deyil, konkret olaraq, vətəndaş – cavabdeh, vətənpərvər – patriot, vətəndaş qüruru, ləyaqəti, milli-mənəvi keyfiyyətləri ehtiva edən məsələləri əhatə etməsindədir.

3. Yeniyetmələrin hər cürə yoldaşlıq, dostluq, əmək sevərlik, təlim əməyinə bağlılıq, ölkəyə, dövlətə mənsubluq və s. i. a. kimi sifətlərindən çox yazılıb, bu gün söhbət məhz hərbi vətənpərvərlik hissi güclü olan, vətənin müdafiəsi barədə düşünməyi öz şərəf və ləyaqəti hesab edən azərbaycanlı-vətəndaşdan gedir.

Lakin onu da qeyd etməliyik ki, vətəndaşlıq tərbiyəsinin həyata keçirilməsinin elmi əsaslarını hələ keçən əsrdən üzü bəri çalışan pedaqoqlar hazırlamışlar.Pedaqoq və psixoloqlardan M.Muradxanov, Ə.Həşimov, Ə.Bayramov, Ə.Əlizadə, H.Əlizadə, N.Yusifova və b. vətəndaş tərbiyəsinin tarixi-ənənəvi və nəzəri məsələlərinə toxunmuşlar.

Aspektli yanaşmanın nümunəsi kimi qeyd etdiyimiz bu elmi mənbələr apardığımız tədqiqatın da mən-tiqini, onun obyektini və dəqiq predmetinə (mövzusunu) müəyyənləşdirməkdə bizə çox qiymətli görünmüş və biz onları nüfuzlu mənbələrimiz sayır, fikrimizə istinadgah bilmişik. Biz bu fikri işlədərkən onu da qeyd etməyə borcluyuq ki, tərbiyə problemlərindən yazan bütün alimlərin əsərlərinə nüfuzlu, ciddi mənbə kimi yanaşmışıq və onların da hər birini nəzərdən keçirmişik. Rusiya tədqiqatçılarından N.İ.Şevçenko, İ. N. Russu, M. P. Çumakova, İ. A. Makina, V. İ. Kocakov, L. K. Fomiçeva və başqaları vətəndaşlıq tərbiyəsi problemini bu və ya digər aspektdən – psixoloji, hüquqi yönümdən tədqiq etmişlər. Onların tədqiqatları Sovet dönəmində aparıldığı üçün həmin quruluşun sosial-siyasi və hüquqi-mənəvi tələbləri mövqeyindən yazılmışdır.

Həmin əsərlərdə vətəndaşlıq tərbiyəsi adı altında konkret olaraq bunlar nəzərdə tutulur: cəmiyyətin müvafiq mərhələsində məqsəd və vəzifələrin nələrdən ibarət olması və onların məktəb və ailələrin real imkanlarına cavab verib -verməməsi kimi suallara tədqiqatçılar cavab verməyə çalışmış, lakin heç birisi real həqiqətlərdən çıxış edərək mövcud problemlərdən bəhs etməmişlər.

Ümumiyyətlə həyatda özünü necə aparmaq, harada daha çox lazımsansa, orada olmaq mənəvi borcun əsas tələblərindəndir. Birtəhər baş girləmək, cəmiyyətə az xeyir verib, ondan çox qoparmağa çalışmaq, qüvvə və bacarığını lazımı fəaliyyət sahəsində tətbiq etməmək, şərəf və ləyaqət hisslərini unudub yalnız pula, var – dövlətə pərəstiş etmək, şəxsi rahatlığa can atmaq mənəvi eybəcərlik əlamətidir. Küçələrdə yoldan ötənlərə əl açan, minik maşınlarının şüşələrini zorla silən, bazar-dükanlarda adi işlərə cəlb olunan, hətta avaralıq edən, faydalı işdən yayınmalı olan yeniyetmələr vardır. Bunlar, heç şübhəsiz, öz mənəvi-vətəndaşlıq borcunu lazımınca dərk etməyənlərdir.Burada cəmiyyətin və onun bir üzvü kimi valideynlərin də üzərinə böyük məsuliyyət düşür. Tədqiqatçı S. Bağırova haqlı olaraq bu cəhətlərə diqqət yetirir. Axı yanlış ruhda böyüyüb halal çörəyin, namuslu əməyin qədrini bilməyən ümuminin mənafeyi naminə məhrumiyyətlərə dözənləri istehza ilə qarşılayan yeniyetmələr nəinki öz ata-analarını, ailələrini cəmiyyət qarşısında şərəfləndirir, özləri cəmiyyət üçün yabançı ünsürə çevrilirlər. Əlbəttə, söhbət obyektiv səbəblər baxımından uşaqların tərbiyəsi ilə lazımınca məşğul ola bilməyən valideynlərdən getmir. Dediklərimiz övladları üçün şüurlu olaraq pis nümunəyə çevrilən ata-analara aiddir. Əgər hər hansı bir yeniyetmə mənsub olduğu ailənin dəbdəbəli həyat sürməsi ilə valideynlərinin aldığı əmək haqqı arasında böyük fərq olduğunu başa düşürsə, ona halal qazancla yaşamağın faydalarından danışmaq əbəsdir. Həmçinin valideyn öz uşağının təhsilini zəhmətsiz, təmənna ilə alınan yüksək qiymətlərdə görürsə, belə yeniyetmənin, gəncin öz mənəvi borcuna əməl edəcəyinə inanmaq çətindir.

Əksinə, bu cür nümunələr əsasında tərbiyə almış yeniyetmələrin və gənclərin öz valideynlərinin qeyri-qanuni yolunu davam etdirəcəklərinə inanmaya bilmirsən.Təbii ki, bütövlükdə yeniyetmələrin vətəndaşlıq, borc kimi mənəvi keyfiyyətlərini səciyyələndirən heç də bunlar deyildir. Ailələrimizin də əksəriyyəti antipod əhval-ruhiyyəli cəmiyyət üzvlərindən ibarət insanlar deyil. Belə ki, özünün mənəvi borcunu dərindən başa düşən, xalqdan aldığını artıqlaması ilə xalqa qaytarmağa çalışan, Vətənin çağırışına hamıdan qabaq cavab verməyə çalışanlar da çoxdur. Xalqımızın mütəfəkkir oğlu M.F.Axundzadə əsl vətənpərvər vətəndaşın hansı keyfiyyətlərə malik olması haqqında belə yazırdı: «Patriot (vətənpərvər) ibarətdir o kimsədən ki, vətən təəssübü üçün və millətin məhəbbəti üçün can və malına müzayiqə etməyə və öz vətəninin və millətinin mənfəəti və azadiyyəti üçün cəfakeş ola. Bu halət və xasiyyət həmişə qeyrətmənd şəxslərdə büruz edər. O cümlədən peyğəmbərdir ki, öz vətəni Ərəbistanı və bilxüsus Məkkənin ki, öz əşirəsi Qureyş onda sakin idi,

səadəti üçün ümuri-əziməyə və şaqqiyə iqdam etdi».

Bir çox tədqiqatlarda vətəndaş tərbiyəsinin sözdə deyil, əməldə aparılması vacib bilinir. Biz də bu fikirlə tamamilə şərikik. Çünki vətəndaşlıq borcu, ləyaqəti bir əxlaqi-mənəvi və hüquqi mədəniyyət keyfiyyəti olaraq hərəkətdə, davranışda, münasibətdə – bir sözlə praktik işdə meydana çıxır.Bəzi tədqiqatlarda (prof.Ə.Ağayev, R.Mustafayeva, Z.Qaralov) ailədə yeniyetmələrin vətəndaşlıq keyfiyyətlərindən biri olaraq milli vətənpərvərlik hissinə yüksək səviyyədə yiyələndirilmələri zəruri sayılır. Göstərilir ki, ölkəmizin işğal edilmiş torpaqlarının azad olunması, ərazi bütövlüyünün təmin edilməsi dövlətin ən əsas məqsədlərindən biri olduğuna görə, milli vətənpərvərlik hissi gərək körpəlikdən başlayaraq hər bir vətəndaşın həyat prinsipi, həyat qanunu, nizamnaməsi olsun. Milli vətənpərvərlik hissi güclü olmayan insandan ailədən və cəmiyyətdən vətəndaşlıq fədakarlığı gözləmək çətindir.Vətənpərvərlik hissinin həsrətdən, etirafdan əmələ gəldiyini və bu gün də münsir olduğunu nəzərə almalıyıq. Azərbaycan xalqının böyük maarifpərvər oğlu F.Köçərli əsərlərində vətənpərvərliyi yüksək qiymətləndirir və deyirdi ki, vətən şirindir, lakin vətən bir anadan olduğumuz ev, məhəllə, şəhər və ya kənd deyildir. Vətən geniş və vüsətli bir diyardır. Bir ölkə və məmləkətdir ki, onun hər bir nöqtəsi övladı üçün əziz və müqəddəsdir. Çox təəssüf ki, əlimizdə olan gözəl yaylaqların, təmiz havalı və şirin çeşməli yurdların və məkanların qədir və qiymətini bilmirik, onlar bir-bir əlimizdən çıxır.

EKOLOJİ TƏRBİYƏ HAQQINDA MƏLUMAT

Əsgərova S.A.
Bakı Slavyan Universiteti
E-mail: Sabina.asgerova004@gmail.com

Ekoloji tərbiyə dedikdə ümumi ekoloji mədəniyyətin və məsuliyyətin formalaşmasına yönəlmiş davamlı təhsil, tərbiyə və inkişaf prosesi başa düşülür. Ekoloji tərbiyə təkcə məzmun baxımından deyil, həm də pedaqoji və didaktik baxımdan çox mürəkkəbdir. Məzmun baxımından elmin ən müxtəlif sahələrinə - biologiya, kimya, coğrafiya, sosiologiya və s., pedaqoji nöqteyi-nəzərdən bu vəzifələri əhatə edir: intellektual, əxlaqi, estetik, əmək.Başqa bir konsepsiyaya görə ekoloji tərbiyə aşağıdakılardır: ətraf mühitin ekoloji xüsusiyyətlərinə və qanunlarına qarşı müasir bilik, bacarıq, vərdiş və münasibətlərə yiyələnmək; insanın ətraf mühitə müxtəlif forma və miqyasda təsiri ilə tanışlıq; ətraf mühitin hərtərəfli mühafizəsi və yaxşılaşdırılması üçün elm və texnikanın, sosial elmlərin və incəsənətin müasir istəkləri və imkanları haqqında anlayışın formalaşdırılması; şəxsi gigiyena qaydalarına riayət etmək vərdişini inkişaf etdirmək və məktəb mühitini estetik cəhətdən təchiz etmək; təbiətə, əməyin yaratdığı təbii dəyərlərə, xüsusən də məcmu münasibətlərə düzgün münasibət tərbiyəsi.Bu tərif kifayət qədər təsviri və genişdir, çünki ekologiyanın etdiyi hər şeyi əhatə edir, lakin bu mümkün deyil. N.İ.Polyakova ekoloji böhran problemlərinin həllində ekoloji tərbiyənin rolundan danışaraq bu termini müəyyənləşdirmişdir. O, hesab edirdi ki, ekoloji tərbiyə və təhsil ekoloji biliklərin, anlayışların və bacarıqların davamlı şəkildə mənimsənilməsi prosesi kimi başa düşülməlidir. Eyni zamanda ekoloji şüur, mədəniyyət və ekoloji davranış formalarını qorumaq üçün iş və yaşayış mühitində ekoloji davranış formalarını inkişaf etdirir.

Ekoloji tərbiyənin mahiyyətinə ekoloji şüurun və davranışın inkişaf etdirilməsi daxildir. Ekoloji tərbiyənin əsas vəzifəsi və məqsədi dəyərlər miqyasında həyatın və ətraf mühitin mühafizəsini birinci yerə qoyan şəxsiyyətin formalaşdırılmasıdır. Belə olan halda ümid etmək olar ki, təbiəti mühafizə ilə bağlı qəbul olunmuş qanunlar həyata keçəcək, nə qədər qazanc gətirsə də, ekoloji cəhətdən zərərli layihələr rədd ediləcək.

T.S.İvanova hesab edir ki, ekoloji tərbiyənin əsas vəzifəsi məktəblilər tərəfindən təbiət, onun xüsusiyyətləri, ondakı insan fəaliyyəti, ekoloji problemlər və istehsalatda, məişətdə və istirahət prosesində onların həlli yolları haqqında biliklərin nəzəri inkişafıdır. Təbiəti mühafizə problemi etik problemə çevrilir. Uşaqların ekoloji tərbiyəsinin məqsədi insanın təbiətə diqqətli münasibətini, təbiətin insanların həyatında estetik, idraki, sağlamlaşdırıcı, praktik əhəmiyyətinin açılmasını əhatə etməlidir.Ekoloji tərbiyə müəllimlərin fəaliyyətlərindən biri deyil, uşağın təbiət, cəmiyyət və daxili dünyası ilə münasibətləri sistemində inkişafının bütün aspektlərini əhatə edən vahid prosesdir. Uşaqlarda təbiətə məsuliyyətli münasibətin formalaşması mürəkkəb və uzun prosesdir. Son nəticə yalnız müəyyən biliklərin əldə edilməsi deyil, emosional həssaslığın inkişafı, təbiəti aktiv şəkildə qorumaq və həqiqətən mədəni bir insan olmaq bacarığı və istəyi olmalıdır.Ekoloji tərbiyə iqtisadi və hüquqi təhsillə yanaşı, bəşəriyyətin yaşaması, yeni həyat tərzinin formalaşması, ekoloji dünyagörüşünün bünövrəsinə çevrilir. Aşağıdakı problemlər ekoloji tərbiyənin əsasını təşkil edir: cansız təbiətin və torpağın çirklənmədən, məhv olmaqdan və tükənməkdən qorunması; orqanizmlərin növlərinin

müxtəlifliyinin və onların icmalarının bütövlüyünün qorunması; insan sağlamlığının qorunmasının zəruri şərti kimi təbiətin mühafizəsi; təbiətə utilitar, istehlakçı yanaşmanın aradan qaldırılması.

Müasir ekoloji tərbiyə cəmiyyətin yaşaması, ətraf mühitin mühafizəsi problemlərinin həllində ehtiyaclarını həyata keçirir. Həmçinin, sivilizasiyanın əsas mənəvi və digər dəyərlərinin yaradılmasına diqqət yetirir. Yetişməkdə olan nəslin ekoloji tərbiyəsi məqsədi ilə ümumi təhsil sisteminin aşağı səviyyədə olmasının səbəblərindən biri də müəllimlərin ekoloji tərbiyənin müasir metod və texnologiyalarını bilməməsidir. Ekoloji maarifləndirmənin aşağı göstəricilərinin digər səbəbi məktəbdə tədrisin metodikası ilə bağlıdır. Təbiət haqqında analitik biliklərə əsaslanan bu gün mövcud olan ekoloji tərbiyə və təhsil şagirdlərdə formalaşan ideyaların praqmatik və istehlakçı xarakterini özündə saxladığından əhalinin dünyagörüşündə təbiəti dağıdıcı motivləri geri qaytara bilmir. Ekologiya dərsliklərində cəmiyyətlə təbiətin uyğunluq qanunları, onların bir-biri ilə qarşılıqlı əlaqəsi haqqında biliklər demək olar ki, yoxdur. Ekoloji dünyagörüşünün əsasında duran belə biliklər bütün bəşər mədəniyyətinin - elmin, dinin, fəlsəfənin, incəsənətin nailiyyətidir. Onların şagirdlər tərəfindən mənimsənilməsinə yalnız didaktik üsullarla, elmi postulatların mənimsənilməsi yolu ilə nail olmaq olmaz.Nəticə etibarilə, hazırda tərbiyənin rolu qaçılmaz olaraq artır. Onun məzmunu sosial-mədəni oriyentasiyanın meta subyektlərinə yönləndirilir. Ekoloji tərbiyə bir sıra funksiyaları yerinə yetirir:

• maarifləndirici funksiya - təbiət, insan və cəmiyyət haqqında təsəvvürlərin formalaşması, təbiətşünaslıqda oriyentasiya, sosial elm tarixi konsepsiyaları;

• inkişaf edən funksiya - təbii və sosial aləmdə fərdi əlaqələrin dərk edilməsi, şagirdin əqli şəxsi inkişafı;

• tərbiyəvi funksiya - uşağın sosiallaşması, dünyaya emosional müsbət baxışın, təbiətə və insanların əməyinin nəticələrinə düzgün münasibətin tərbiyəsi.

B.T.Lixaçev ekoloji tərbiyənin üsul və formalarını şərti olaraq bir neçə qrupa ayırır. Bunlar şüurun formalaşdırılması və təfəkkürün inkişafı, praktiki yönümlü fəaliyyətin bacarıq və vərdişlərinin öyrədilməsi, mənəvi və hüquqi məsuliyyətin, reallığa estetik münasibətin, mənəvi özünü təkmilləşdirmənin məktəbdənkənar üsullarıdır. Tədris prosesinin təşkili formalarının hər biri şagirdlərin idrak fəaliyyətinin müxtəlif növlərini stimullaşdırır: müxtəlif məlumat mənbələri ilə müstəqil iş faktiki material toplamağa, problemin mahiyyətini açmağa imkan verir; oyun müvafiq qərarlar qəbul etmək təcrübəsini, yaradıcılığı formalaşdırır; yerli ekosistemlərin öyrənilməsinə və mühafizəsinə, qiymətli ideyaların təbliğinə real töhfə verməyə imkan verir.Bundan əlavə, müasir cəmiyyətdə ekoloji tərbiyədə ailənin rolunu qeyd etməmək mümkün deyil. Qeyd etmək lazımdır ki, ekoloji maarifləndirmə məqsədinə yalnız siyasi tənzimləmə çərçivəsində nail olmaq mümkün deyil. Çünki dövlətin ekoloji siyasətində müəyyən edilmiş norma və qaydalara əməl etmək üçün zəruri olan ekoloji hüquqi maarif ekoloji mühitin qorunması prosesində formalaşır. Bu, cəmiyyətlə təbiətin qarşılıqlı əlaqəsinin sosial-tənzimləyiciləri sistemində ailə institutunu ön plana çıxarır.

Məhz ailədə uşaq ilk növbədə təbiətlə necə münasibət qurmaq, təbiətlə insan arasında hansı əlaqənin olması barədə təsəvvür əldə edir. Ailədə uşaq ilk dəfə olaraq təbiətə münasibətinin birbaşa təzahürünü valideynlərinin, qohumlarının simasında görə bilir, bu və ya digər davranış modelini mənimsəyə bilir. İbtidai sosiallaşma dövründə ailənin ekoloji tərbiyənin agenti kimi rolu, uşağın dünyası ailənin, onun qohumlarının və dostlarının dünyası ilə məhdudlaşdıqda, insanın sonrakı həyatında isə xüsusilə vacibdir. Ailə uşaqların dünyagörüşünün və davranış münasibətlərinin formalaşmasında mühüm amil olmaqda davam edir.

Ekoloji tərbiyənin nəticəsi aşağıdakı kimi olacaqdır: güclü ekoloji bilik və onu təkmilləşdirmək istəyi; təbiətə qənaətcil münasibət, öz hərəkətlərinə görə məsuliyyət; ekoloji problemlər barədə məlumatlılıq və onları həll etməyə hazır olmaq.Belə ki, yuxarıda qeyd olunan üsul və formalardan tərbiyə prosesində şagirdlərin psixoloji hazırlığı və təbii şərait nəzərə alınmaqla istifadə olunarsa, o zaman müəllim ekoloji savadlı və mədəni şəxsiyyət formalaşdıra bilər.

MÜASİR AİLƏDƏ MƏNƏVİ TƏRBİYƏ MƏSƏLƏLƏRİ

Həsənova A.
Naxçıvan Dövlət Universiteti

Qloballaşma əsrində müasir ailənin mənəvi tərbiyəsi və uşaqların milli-mənəvi dəyərlər əsasında düzgün tərbiyə olunması, sağlam əxlaqi mühitdə yetişməsi, kamil dünyagörüşünün formalaşması müasir cəmiyyətin aktual məsələlərindən biridir. Müasir dünyanı təhdid edən qlobal cinayətlər sırasında uşaqların sağlamlığına, mənəviyyatına yönəlmiş cinayətlər də az deyil. Bu cinayətlər uşaq problemlərinə, gender problemlərinə yeni dünya nizamının acı reallıqları kontekstindən yanaşılmasını, hər addımda köməyə ehtiyac duyan körpələrin

hüquqlarının bütün səviyyələrdə qorunmasını obyektiv zərurətə çevirir. Demokratik inkişaf yolunu seçmiş respublikamızda körpələrin sağlam gələcəyi naminə yüksək sosial-mənəvi mühitdə böyüməsinə böyük diqqət yetirilir. Azərbaycan xalqının zəngin milli-mənəvi dəyərlərini, adət-ənənələrini, tarixini, mədəniyyətini əks etdirən materialları dolğun şəkildə öz ədəbiyyat fondlarında cəmləşdirən kitabxanalar sabahın gəncliyinin bugündən sağlam ruhda tərbiyə edilməsi prosesinin fəal iştirakçısı olmalıdır. XX əsrin sonlarından etibarən idrakda yeni istiqamətlərin yaranması müşahidə edilir. Bu istiqamətlər ayrı-ayrı fənlərin çərçivəsinə yerləşmir, istər təbiət, istərsə də humanitar xarakterli elmlərin geniş sahələrinin ümumiləşməsini iddia edir. Təbii ki, bu da paralel olaraq metodoloji dünyagörüşü və ümumi fəlsəfi problemlərə də toxunur. Eyni zamanda, onlar bizim yaşadığımız dünya, bəşəriyyətin yaratdığı sivilizasiya və müəyyən sistemə salınmış idrak üsulları haqqında qərarlanmış təsəvvürlərimizə də öz dəyişmələrini gətirir.

Azərbaycan xalqının azadlıq və demokratiya ənənələrinə bağlı olan, xalqının milli, əxlaqi, humanist, mənəvi və mədəni dəyərlərinə dərindən yiyələnmək, onu qoruyan və daim inkişaf etdirən, ailəsini, vətənini, millətini sevən və daim ucaltmağa çalışan, ümumbəşəri dəyərlərə insan hüquqları və azadlıqlarına hörmət edən, müstəqil və yaradıcı düşünən, biliyinə, yüksək əxlaqi və mənəvi keyfiyyətlərinə, demoktarikliyinə görə dünyanın ən qabaqcıl ölkələrinin vətəndaşları səviyyəsində dura bilən sağlam şəxsiyyətlər yetişdirmək və bununla yüksək sivlizasiyanı cəmiyyət qurmağa, Azərbaycanı dünyanın ən inkişaf etmiş demokratik dövlətlərindən birinə çevirməyə qadir olan vətəndaşlar tərbiyə etməkdir.Belə şəxsiyyətlər yetişdirməkdən ötrü gənc nəsildə elmi dünyagörüş formalaşdırmalı, ona əqli, əxlaqi, mənəvi tərbiyə verilməli, əməyi sevdirməli, fiziki sağlamlıq qayğısına qalınmalı, ekoloji, iqtisadi, estetik, fiziki tərbiyə üzrə maarifləndirici işlər aparılmalıdır. Bütün bunlar isə tərbiyənin məzmununu, əsas tərkib hissələrini təşkil edir. Həmin hissələrdən hər birinin ümumi məqsədi, məzmunu və vəzifəsi ilə yanaşı, konkret məqsədi, məzmunu və vəzifələri də vardır. Məqsədin aydın, dərk edilməsi pedaqoji nəzəriyyənin yaranmasında həlledici rol oynayır. Necə insan formalaşdırılması niyyətinin aydın və dəqiq surətdə təsəvvür edilməsi bütün tərbiyə prosesinin mahiyyətinin düzgün müəyyənləşdirilməsinə şərait yaradır, müəllimin, tərbiyəçinin praktik fəaliyyətini istiqamətləndirir. Beləliklə, tərbiyə tərbiyə olunan və tərbiyəçi arasında yaradıcılıq əməkdaşlığı şəraitində həyata keçirilən elə ikitərəfli qarşılıqlı fəaliyyət prosesidir ki, həmin prosesdə bir tərəfdən uşaq tarix boyu qazanılmış təcrübə və bilik sərvətləri ilə silahlanır, inkişaf edir, tərbiyəçinin bilavasitə və ya bilvasitə göstərdiyi pedaqoji rəhbərliklə, pedaqoji təsirlə özünün fəallığı zəminində həyata düzgün münasibət bəsləyir, öz həyat yolunu təyin etmək mədəniyyətinə, zehni, əxlaqı, iqtisadi, siyasi, hüquqi, ekoloji, estetik və fiziki mədəniyyətə faydalı adətlərə və davranış qaydalarına yiyələnir.

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ PEDAQOJİ TEXNOLOGİYALARDAN İSTİFADƏ

Həşimbəyli S.E.
Sumqayıt Dövlət Universiteti
E-mail: Kerimova.sara@mail.ru

Müasir dövr elm və texnologiya əsridir və çox dinamikdir. İbtidai dövrdə insanların həyatı müasir dövrümüzdən tamamilə fərqli idi. İnsanların həyat tərzində elm və texnologiyanın inkişafı ilə bağlı böyük dəyişikliklər baş verdi və elmi biliklərimizin sərhədlərini müxtəlif mövqelərdən genişləndirdi.Pedaqoji texnologiyalar anlayışının mənasını anlamadan öncə texnologiyanın mənasını bilmək vacibdir. “Texnologiya” sözü yunan sözündən götürülüb, incəsənət, elm və təlim mənasını verir, bacarıq və çeviklik ilə bağlıdır. Biz “Texnologiya” termini dedikdə elmin sənətə tətbiqini nəzərdə tuturuq. Pedaqoji texnologiyalar insanın öyrənmə prosesini təkmilləşdirmək üçün sistem, texnika və vasitələrin inkişafı, tətbiqi və qiymətləndirilməsi ilə məşğul olur. Ümumilikdə, "Texnologiya" termini elmi biliklərin praktikada sistemli şəkildə tətbiqini ifadə edir. Pedaqoji texnologiya dedikdə, həm də qarşıya qoyulmuş məqsədə bağlı bilik, bacarıq, vərdiş və münasibətləri formalaşdırmaq və onlara nəzarət üçün həyata keçirilən əməliyyatlar kompleksi başa düşülür. Pedaqoji texnologiyada müəllimin fəaliyyətini funksional komponentlərə belə ayırmaq olar: Layihələşdirici;Qnostik(idraki) ; Konstruktiv; Təşkilatçılıq; Kommunikativ Layihələşdirici komponent - məqsədləri, əməliyyatları, vasitələri özündə birləşdirir və layihələşdirmə cinsi müxtəlifliklərı nəzərə almaqla həyata kecirilməlidir. Qnostik komponentə daxildir: təlimin məqsədləri, tədris olunan fənnin məzmunu haqqında biliklər, kursantları öyrənmək, təlim prinsiplərini və texnologiyalarını öyrənmək, öyrədici məşğələlər kecirmək və s.

Konstruktiv komponent dedikdə planlaşdırılan məşğələni hazırlamaq üçün əməliyyatlar kompleksi nəzərdə tutulur. Təşkilatcılıq komponentində təlim prosesini hazırlamaq və kecirmək üçün əməliyyatlar kompleksi nəzərdə tutulur. Kommunikativ komponent isə şagirdlər ilə qarşılıqlı ünsiyyət prosesi zamanı fəaliyyət üçün əməliyyatlar kompleksini özündə cəmləşdirir. Son iki komponent (kommunikativ və təşkilatcılıq komponentləri) qarşılıqlı əlaqədədir. Pedaqoji texnologiyalar təlim, tərbiyə, inkişaf, diaqnostika daxil olmaqla dörd kateqoriyaya bölünür. Təlim texnologiyası dedikdə, bilik, bacarıq və vərdişlərin inkişafı üçün əməliyyatlar kompleksi nəzərdə tutulur. Tərbiyə texnologiyasında nisbi, sabit və müntəzəm olaraq münasibətlərin məqsədli formalaşdırılmasına yönəlmiş əməliyyatlar kompleksi başa düşülür. İnkişaf texnologiyası dedikdə, əqli bacarıqların formalaşdırılması, insan psixikasında hər hansı əməliyyatların çıxarılması və ya çoxalması nəzərdə tutulur. Diaqnostika texnologiyası isə pedaqoqların və ya psixoloqların şagirdin məktəbə hazırlığının diaqnostlaşdırmasıdır.Cəmiyyətin inkişafı ilə bütün sahələrdə olduğu kimi pedaqoji sahədə də müasir tələblər irəli sürülür. Beləliklə pedaqoji prosesin inkişafı, yeni məzmun, forma və metodlar tətbiq etməyi zəruri edir.Pedaqoji sistemin təkmilləşməsi iki üsulla həyata kecirilir: İntensiv və Ekstensiv. İntensiv yol vasitəsi ilə pedaqoji sistemin daxili ehtiyatları hesabına inkişafı təmin olunur. Ekstensiv yol dedikdə pedaqoji prosesə xarici faktorların, əlavə vaxt və vəsaitin cəlb olunması nəzərdə tutulur. Ölkəmizdə hazırda təhsil sahəsində mühüm islahatlar aparılır. Təhsilin maddi bazası, təhsil və tərbiyə işinin məzmununda, metodikasında, müəllim-şagird münasibətlərində, idarə etmədə geniş miqyaslı dəyişikliklər baş verir. Ölkəmizdə elmin təkamülü ilə pedaqoji nəzəriyyə və praktikada əvvəllər mövcud olmuş stereotiplərin köhnəldiyi dərk edildi. Pedaqogikanın metodoloji problem və məsələlərinə dair yeni ideya və yanaşmalar formalaşdı. Nəticə olaraq qeyd etmək lazımdır ki, ilk dəfə inkişaf etmiş ölkələrdə yaranmış yeni pedaqoji texnologiyaların tətbiqinə ölkəmizdə nisbətən son dövrlərdə başlanılmışdır. Tədricən yeni pedaqoji texnologiyalarla əlaqədar proqramlar hazırlanmış və tətbiqinə dair tövsiyələr irəli sürülmüşdür. Pedaqoji texnologiyalardan istifadəyə misal olaraq- problemli təlim, işgüzar oyunlar, modul təlim, Valdorar pedaqogikası, Şatalov pedaqoji sistemi, kompüter təlimi və s. kimi müxtəlif təlim texnologiyalarının formalarının tətbiqi sahəsində məqsədyönlü işlər aparılır.

ŞAGİRDLƏRİN SOSİALLAŞMASINDA HUMANİTAR FƏNLƏRİN ROLU

Həşimli D.B.
Naxçıvan Dövlət Universiteti

Şəxsiyyət fəaliyyətdə və başqa insanlarla münasibətlərdə mövcuddur, o, özünü bu arenada göstərir və formalaşır. İnsanın ən mühüm xüsusiyyəti onun ətrafdakı insanların həyatı, cəmiyyətlə bağlı bütün təzahürləri ilə sosial görünüşüdür. Humanitar fənlər fərdin əxlaqi mədəniyyətinin inkişafına, şagirdlərin qazandığı mənəvi dəyərlərin strukturuna və ehtiyaclarına təsir göstərə bilir.Humanitar bilik və əxlaqi hisslər həm yaradıcılarının, həm də istehlakçılarının etik standartlarını ehtiva edir. Onlar həmişə gözəllik qanunlarına, dövrün estetik qanunlarına uyğun qurulur. Humanitar elmlərin öyrənilməsi şagirdləri mənəvi mədəniyyət dünyası ilə tanış edir, onları çaşqınlıq içində olmamağa və zamanın burulğanında itməməyə, özünü həyatda daha inamlı hiss etmək imkanı verir ki, bu da daim mədəni mövqe seçimi, mövcud olanı qiymətləndirmək bacarığı tələb edir. İctimai həyatın hadisələri içərisində itməmək, ixtiyari instinktlərin idarə etdiyi kütlənin bir hissəsinə çevrilməmək sosiallaşmanın başlıca tələbidir. Mənəvi dəyərlər insan həyatında mühüm rol oynayır, onlara sosial həyatda şüurlu şəkildə əməl etmək vacibdir. Bu cəhət həyat şəraiti əsasında formalaşan insan həyatının ləyaqətini müəyyən edir. Lakin eyni zamanda, şübhəsiz ki, humanitar biliklərdə əldə olunanların mənimsənilməsi səviyyəsi ilə bağlı mənəvi inkişaf dərəcəsi həlledici rol oynayır. İstər cəmiyyətdə, istərsə də insan həyatında tarixi, hüquqi, psixoloji, sosioloji, pedaqoji və təbii ki, fəlsəfi biliklər və s. vacibdir. Xarici dilləri bilmək müxtəlif millətlərdən olan insanların bir-birini anlamasına töhfə verməklə vacibdir. Tədqiqatlar sübut edir ki, mənəviyyatca zəngin, bütöv şəxsiyyətin forma-laşması və eyni zamanda xalqın mədəniyyətinin təkrar istehsalı (insan, onun dəyər-lər sistemi və həyat mənaları vasitəsilə) üçün unikal imkanlar var. Bu humanitar təhsildir. Humanitar təhsil cəmiyyətin mənəvi təhlükəsizliyinin ən mühüm ilkin şərti hesab oluna bilər. Müasir mərhələdə bəşər sivilizasiyası həyatın beynəlmiləlləşməsinin səciyyəvi intensivləşməsi, informasiya, mədəni, iqtisadi mübadilə və əməkdaşlığın artması ilə keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub. Çoxmillətli mühit müxtəlif xalqların və millətlərin insanlarının yaşayış, fəaliyyət və ünsiyyət tərzi olmaqla, şəxsiyyətin mühitini özündə ehtiva edir, müəyyən konkret tarixi-coğrafi şəraitdə insanın və xalqların mahiyyətinin və mövcudluğunun vəhdətini ifadə edir. Çoxmillətli mühit insanı etnik özünüdərk və

mədəniyyət subyekti kimi formalaşdırır, onun vasitəsilə ümumbəşəri mədəniyyətin mənimsənilməsi baş verir. Tolerantlıq həm ətrafdakı dünyaya, həm də digər insanlara ümumi münasibəti ifadə etməli, həm də insanın tolerantlığının və dözümsüzlüyünün təzahür etdiyi qarşılıqlı fəaliyyətin müxtəlif sahələrində sosial münasibətləri əks etdirməlidir. Etnik tolerantlığa da (fərqli irq və etnik qrupdan olan insanlara, öz etnik qrupuna münasibət, mədəni məsafənin qiymətləndirilməsi) xüsusi diqqət yetirmək lazımdır. Tarix və sosial elmlərin öyrənilməsinin əsas məqsədi təhsilləndirməkdir. Bu fənləri öyrənən şagirdlər yüksək ideoloji və əxlaqi keyfiyyətlərə malik ictimai fəal şəxsiyyət, milli-mədəni mənlik şüurunu açıq şəkildə ifadə edə bilmiş, humanist idealları, ümumbəşəri dəyərləri mənimsəmiş vətəndaşdır, şəxsiyyətdir. Humanitar elmlər sistemində tarix və sosial elmlərin öyrənilməsinin xüsusi yeri vardır. Bu fənlər məktəbliləri şəxsiyyət kimi formalaşdırır. Bu fənlərin əsas xüsusiyyəti elmi xarakter daşıyan bilik və bacarıqlar, fundamental və praktiki oriyentasiya (o cümlədən tədqiqat bacarıqları) və onların arasında vətənpərvərlik, humanizm, insan hüquqlarına hörmət, tolerantlıq kimi dəyərlər durur. Tarix və sosial elmlərin öyrənilməsi məktəbliləri insanların bir çox nəsilləri tərəfindən toplanmış iqtisadi, sosial, mədəni təcrübə sosiallaşma imkanlarıdır. Təh-sil sahəsində tarixə daha çox diqqət yetirmək məsləhətdir və akademik fənlər kimi sosial elmlər birbaşa sosiallaşma amilləridir. İctimai düşüncə hansı istiqamətdə inkişaf edirsə, həmişə ümumimilli mövzuları, onun məzmunu və xarakterini ehtiva edir. Təhsil müəssisəsində tarix və sosial elmlər daha çox pedaqoji baxımdan öyrənilir. Yəni məktəb şagirdlərə özlərini, köklərini anlamağa kömək etmək, sivil, multikultural və xalqın mədəniyyətini, dilini başa düşməyi öyrədir. Ümumi təhsilin konseptual əsası humanist xarakterlidir. Bu da təkcə təhsil iştirakçıları tərəfindən deyil, həm də cəmiyyət tərəfindən humanist ideyanın tanınmasına dəlalət edir. Tarix akademik bir fənn kimi əsas və tam orta məktəbdə humanitar, sosial elmlər kurslarının önündə durur.Humanitar təhsilin əsas struktur elementləri arasında: fəlsəfi, siyasi və sosioloji, tarixi, mədəni, filoloji, etik və estetik komponentlər; ekoloji-təbii və iqtisadi hazırlıq, hüquq təhsil, psixoloji və pedaqoji hazırlıq; sağlam həyat tərzini təmin edən bilik və bacarıqlar sistemi. Təhsilin humanistləşdirilməsi və humanitarlaşdırılması mədəniyyət və təhsi-lin vəhdətini dirçəltməyə yönəlmşdir. Şəxsiyyətin intellektual və yaradıcı poten-sialı daha çox təhsilin humanistləşdirilməsindən asılıdır. Humanitar təlim fərdin fəal və iradəli, öyrənmədə müstəqil səy göstərə bilən subyekt kimi tərbiyəsinə yönəldilməlidir. Humanitar elmlərin müasir tədris üsulları isə əksinə, mənasını açmaqdan daha çox gizlədir. Bu, onlara öyrədilən hər şeyi çatdırmağı bacaran, lakin əldə etdikləri bilikləri yeni şəraitdə istifadə edə bilməyən, onların biliklərinin dərketmə dərinliyindən daha çox əhatə dairəsinin genişliyi ilə müəyyənləşən şagirdlərin timsalında hiss olunur. Müasir humanitar təhsil məktəbliləri insan cəmiyyəti haqqında toplanmış dünya mədəni bilikləri ilə, həmçinin mədəniyyətin insan dünyası kimi mahiyyəti ilə tanış etmək, gənc mütəxəssisdə sivil cəmiyyətin yüksək humanist keyfiyyət-lərini formalaşdırmaq məqsədi daşıyır. Humanitar elmlərin yeri və rolu onların sosiallaşma prosesinə təsiri ilə xarakterizə olunur ki, onlar: şagirdin özünü dərk etməsinə kömək etmək; davranışın psixoloji mexanizmlərini öyrənmək, insanın cəmiyyətdəki yerini və rolunu müəyyənləşdirmək; dünya və Azərbaycan mədəniy-yətinin nailiyyətlərinə yiyələnmək; ətraf mühitlə sivil ünsiyyəti öyrənmək; düşün-məyi, dünyanın bütövlüyünü və çoxölçülülüyünü, insan varlığının mənasını dərk etməyi öyrənməkdən ibarətdir. Beləliklə, humanitar təhsil sosiallaşmanın mahiyyəti və mexanizmləri haq-qında elmi baxışı formalaşdırmalı, eyni zamanda insanın özünüdərk imkanlarını adekvat qiymətləndirməyə kömək etməlidir. Bundan əlavə, humanitar elmlər təhsil islahatının nəzəri əsası, onun humanistləşdirilməsinin elmi təminatı rolunu oyna-malıdır. Humanitar elmlər pedaqoqları elmi baxış metodologiyası ilə təchiz etmə-lidir. Belə bir kontekstdə təbiət və humanitar fənlər arasında əlaqə təhsilin obyek-tinə real baxışa, sosial həyatın konkret şəraitinin təsirini adekvat başa düşməyə kömək edəcəkdir.

UĞURSUZ AİLƏLƏRLƏ SOSİAL-PEDAQOJİ İŞİN TƏŞKİLİ

Hümbətova R.Ə.
Bakı Slavyan Universiteti
E-mail: Reyhan.humbet@gmail.com

Ailə reproduktiv, tərbiyəvi, sosiallaşma və digər funksiyaları yerinə yetirən ən mühüm sosial institutdur. Uşaq və yeniyetmələrin sosiallaşması üçün əsas mühitdir, ona görə də ailədə bunun üçün lazım olan iqlimin, gələcək nəslin inkişafı və tərbiyəsi üçün rahat və firavan mühitin olması vacibdir. Məhz ailədə uşağın sonrakı həyatı üçün zəruri olan əsas bacarıqları formalaşır, dünya haqqında təsəvvürlər, baxışlar formalaşır. Ailədə uşaq əxlaq normaları və adət-ənənələri haqqında biliklərə yiyələnir.

Psixoloqların qeyd etdiyi kimi, uşaq üçün valideynlər davranış, vərdişlərin formalaşması və başqaları ilə ünsiyyət tərzi üçün bir modeldir. Çox vaxt uşaq dünyaya elə münasibət bəsləyir ki, o, valideynlərində müşahidə edir. Ona görə də ailə və onun içindəki mühit önəmlidir, çünki ailədə cəmiyyətimiz üçün vacib olan yeni nəsil formalaşır. Getdikcə əsas funksiyalarını unudan, onları minimum səviyyədə yerinə yetirən və ya onlara tamamilə məhəl qoymayan ailələr var. Elmi ədəbiyyatda belə ailələr disfunksional olaraq təyin olunur.

Disfunksional ailə sosial təhlükəli vəziyyətə düşmüş ailədir. Belə ailələr uşaqların tərbiyəsində valideyinlərin minimum səviyyədə iştirakı, habelə onların saxlanması, ailə üzvləri arasında münasibətlərin zəif olması, yaşayış şəraitinin aşağı olması ilə xarakterizə olunur. Çox vaxt belə ailələrdə valideynlər deviant həyat tərzi keçirir, spirtli içki qəbul edir, işləmir, uşaqlara qarşı aqressiv davranırlar. Bütün bunlar uşağın tərbiyəsinə, sosiallaşmasına mənfi təsir göstərir, onun davranışına, xarakterinə təsir edir, həm də psixoloji problemlərin formalaşmasına və inkişafına kömək edə bilər. Əlverişsiz ailə mühiti sosial yetimliyə, gənclər arasında ekstremizmin artmasına, həmçinin uşaq və yeniyetmələr arasında baxımsızlıq və hüquq pozuntularının artmasına səbəb ola bilər. Buna görə də, ailə problemlərinin səbəblərini müəyyən etməyə, onların qarşısının alınmasına, nəticələrini düzəlməyə və ailənin sosial qrup kimi reabilitasiyasına yönəlmiş sosial pedaqoqun köməyi lazımdır.Azərbaycanda yetkinlik yaşına çatmayanların baxımsızlığının və cinayətlərinin qarşısının alınmasına, habelə mənfi nəticələrin düzəlməsinə xüsusi əhəmiyyət verilir. Sosial pedaqoqun işi dəqiq olaraq bu hadisələrin qarşısının alınmasına və reabilitasiyasına yönəldilməlidir, eyni zamanda uşaq və ailə arasındakı münasibətləri düzəltməli, ailə tərbiyəsindəki çatışmazlıqları və uşağın davranışını düzəltməlidir. Sosial fəaliyyət elə qurulmalıdır ki, o, ilk növbədə disfunksional ailədə uşağı qorumaq və onun üçün əlverişli mühit yaratmaq məqsədi daşısın.Ölkəmizdə qeyri-funksional ailələrlə sosial-pedaqoji sahədə mütəxəssislərin işi çoxdan həyata keçirilir. Ölkə ərazisində imkansız ailələrdən olan valideyn və uşaqlarla işləyən, onlarla iş proqramını müstəqil şəkildə hazırlayan bir çox mərkəz var. Bəzi dövlət orqanlarının və yerli özünüidarəetmə orqanlarının xidmətlərinin və təhsil müəssisələrinin funksiyalarına imkansız ailələrdən olan uşaqlarla bağlı profilaktik və islahedici tədbirlərin həyata keçirilməsi də daxildir.

AİLƏNİ UĞURSUZ EDƏN SƏBƏBLƏR

Hümbətova R.Ə.
Bakı Slavyan Universiteti
E-mail: Reyhan.humbet@gmail.com

Münasibətləri baxımından ailə nə qədər ideal olsa da, bu yolda hələ də çətinliklər və anlaşılmazlıq olacaq.Ailədə böhranın yaranmasının səbəbləri müxtəlifdir.Hər şeydən öncə, evliliklərin çoxu xəyallar üzərində qurulur.Çox vaxt nağıllar aləmində baş verən kimi qəbul edilir və belə olması arzulanır.Lakin nağıllardakı evliliklər real həyatdakı kimi deyil,evlilikdə nağıl deyildir.Və bu cür evliliklərdə zaman-zaman qüsurlar yaranmağa başlayır və çox zaman boşanma ilə nəticələnir.Hər şeydən öncə qurulan ailənin nə üçün müəyyən müddətdən sonra dağılmasını,evlilikləri uğursuz edən səbəbləri araşdırmaq lazımdır.

Ailə mürəkkəb quruluş olduğundan və hər bir evliliyin özünə xas dinamikası olduğuna görə bu səbəblər müxtəlif ola bilər.Ən geniş yayılmış səbəblərdən biri ailə təzyiqidir.Bəzən evliliklər valideynlərin istəklərini yerinə yetirmək üçün qurulur.Bəzən valideynlər qızları və ya oğulları üçün öz düşüncə və hisslərinə uyğun gələn şəxsləri namizəd kimi görürlər və bu baxımdan birbaşa və ya dolayısı ilə ailə qurmağa məcbur edirlər.Belə evliliklərin ömrü daha qısa olur.Digər bir səbəb isə düzgün ünsiyyətin olmamasıdır.

Düzgün ünsiyyət qurulmayan yerdə hər zaman anlaşılmazlıq,zehni oxunuşlar,yalnış mühakimələr olacaq.Birlikdə kifayət qədər vaxt keçirə bilməmək,əvvəlki kimi görüşə bilməmək,axşam evə gec gəlmək və ya ünsiyyətin,söhbətin tamamilə yox olması və ya lazım olmadıqca heçnə paylaşmamaq və.s. kimi səbəblər ailə quruluşunu sarsıdır.Əslində evliliklər anlaşılmazlıqlar və adekvat qiymətləndirilə və müzakirə oluna bilməyən bir çox mövzuya görə boşanma ilə nəticələnir.Bir çox insanlar evliliyi ictimai zərurət kimi qəbul edirlər.Məsələn,ev və maşın qaydasındadır,indi isə qadın/kişi ilə evlənmək,daha sonra uşaq sahibi olmağı düşünmək.Ailənin mahiyyətini dərk etmədən bütün bunları tələblərə cavab vermək üçün edirlər.Evlilik düşüncə ilə yanaşı emosionallığı özündə birləşdirən bir quruluş olmalıdır.Evlilik təkcə fiziki harmoniya deyil.Yəni evlilik mərhələsində cütlərin sadəcə xarici görünüşünə görə uyğun olması kifayət etmir.

Zehni və emosional harmoniya da bir-birini bəyənmək qədər vacibdir.Əsil evlilik buna əsaslanır.İnsanlar bir-birini ilk olaraq fiziki görünüşə görə bəyənirlər.Bunun əhəmiyyəti isə tədricən azalmağa başlayır.Ən gözəl rəsmə uzun müddət baxsaq,onun gözəlliyi bizə ilk dəfə baxdığımız kimi görünməz,

gözümüzdə adi bir rəsmə çevrilər. Buna görə də cütlər arasında emosional bağın olması və zehni uyğunluq vacibdir.Evlilik yeni bir dil yaratmaqdır.Bu dil hər iki tərəf tərəfindən qurulub mənimsənilməsə,danışa bilmədiyin bir insanla eyni mühitdə ola bilmərsən.Bu səbəbdəndir ki,boşanma həddində olan cütlərdən tez-tez"heç nə paylaşa bilmirik","bir-birimizi anlamırıq" və.s kimi ifadələr eşidirik.

Evlilik tələsik verilməməsi lazım olan bir qərardır,ayrılıq isə edilə biləcək bir müdaxilə olmadığına inanılırsa veriləcək qərardır.Asanlıqla təslim olub münaqişə yaşamaqdansa, münaqişənin yaradacağı narahatlığa dözə bilməyəcəyini inanan insanlar yaxşı-pis dərhal qərar vermək istəyirlər.Bu cür qərar vermə prosesləri həll yollarından daha çox ciddi problemlərə və çıxılmaz vəziyyətlərə gətirib çıxarır.

MÜASİR TƏLİM TEXNOLOGİYALARI TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ VASİTƏSİ KİMİ

Hüseynov A.N.
Bakı Slavyan Universiteti
E-mail: helloiamazer@gmail.com

Müasir dövrümüzdə təlimin, cəmiyyətin həyatında rolu əhəmiyyətli dərəcədə dəyişir və öyrənməyə yanaşmalar dəyişir. Tədris prosesində artıq müəllimin rolu əsas yer tutmur, müasir zaman, şagirdin şəxsiyyəti, onun maraq və tələbatını irəli sürür. Buna uyğun olaraq, təlimin məzmunu və metodlarının, tədrisdə istifadə olunan texnologiyaların, tələbələrin fəaliyyətinin qiymətləndirilməsi metodlarının yenilənməsi zəruridir. Müasir təhsil texnologiyalarının əsas məqsədi insanı daim inkişafda olan həyat tərzinə hazırlamaqdır. Təhsil müasir fəaliyyət mexanizmlərini inkişaf etdirməli, həyati problemlərin həlli üçün yaradıcı yollar tapmalı, yaradıcılığın insan mövcudluğunun norma və formasına çevrilməsinə töhfə verməlidir.

Müasir fəaliyyət bir-biri ilə əlaqəli iş növləri sistemini əhatə edir, onların məcmusu real innovasiyaların meydana gəlməsini təmin edir. Məhz:

- Bir şey haqqında yeni biliklər əldə etməyə yönəlmiş tədqiqat fəaliyyəti;
- Elmi biliklər əsasında verilmiş şəraitdə nəyin ola biləcəyini və ya olması lazım olanı əldə etmək üçün necə hərəkət etmək lazım olduğuna dair xüsusi, instrumental və texnoloji biliklərin inkişafına yönəlmiş layihə fəaliyyəti ("innovativ layihə");
- Müəyyən bir təcrübə subyektlərinin peşəkar inkişafına, nəyi və necə etməli olduqlarına dair hər bir şəxsi biliyin (təcrübənin) formalaşmasına yönəlmiş təhsil fəaliyyəti, beləliklə, innovativ layihə praktikada təcəssüm etdirilsin ("həyata keçirmə").

Təhsildə müasir texnologiyalar keyfiyyətcə fərqli prinsiplər, vasitələr, metodlar və texnologiyalar əsasında qurulmuş və aşağıdakılarla xarakterizə olunan təhsil effektlərinə nail olmağa imkan verən tədris prosesinin təşkilidir: Biliyin maksimum həcminə yiyələnmək; Maksimum yaradıcılıq fəaliyyəti; Geniş praktiki bacarıq və bacarıqlar.Ölkə təhsilinin müasirləşdirilməsi şəraitində təhsil müəssisələrinin və müəllimlərin qarşısında duran məqsəd və vəzifələr dəyişir. Əsas səlahiyyətlərin formalaşması sisteminə kommunikativ səriştə və sosial səriştələrin formalaşması modeli daxildir. Təcrübədə bu, ünsiyyət bacarıq və bacarıqlarının formalaşmasında, sosial situasiyalarda hərəkət etmək bacarığında, məsuliyyət daşımaqda, birgə fəaliyyət bacarıqlarının inkişafında, aşağıdakı bacarıqların formalaşmasında öz ifadəsini tapır: Şəxsi inkişaf; Şəxsi məqsəd qoyma; Özünü həyata keçirmə; Özündə tolerantlığın inkişafına kömək edir; Başqa mədəniyyətlərin, dillərin, dinlərin nümayəndələri ilə yaşamaq bacarığı.

Beləliklə, tədrisdə humanist yanaşmaya yenidən istiqamətlənmə baş verir. Tələbələrin fərdi xüsusiyyətlərinin inkişafını nəzərə alan müasir texnologiyalar tətbiq edilir. Müasir təlim texnologiyaları, təhsilin keyfiyyətinin yüksəldilməsi, şagirdlərin dərs yükünün azaldılması, dərs vaxtından daha səmərəli istifadə edilməsinin əsas şərti sayıla bilər. Aşağıdakı ən xarakterik müasir texnologiyaları ayırd etmək olar.

1. Fənn təhsilində informasiya-kommunikasiya texnologiyaları (İKT). İnformasiya-kommunikasiya texnologiyaları (İKT) təhsil sisteminin bütün səviyyələrində mühüm əhəmiyyət kəsb edir. İdrak fəaliyyətinin hər bir mərhələsində elmi tədqiqatlar və biliyin bütün sahələrində praktik tətbiqlər, informasiya-kommunikasiya texnologiyaları eyni zamanda bilik alətləri və obyektləri funksiyalarını yerinə yetirir. İnformasiya-kommunikasiya texnologiyalarının xüsusiyyəti onların çoxşaxəliliyidir, onlar biliklərin bütün sahələrində istifadə olunan bir vasitədir. Nəticə etibarı ilə, İKT-nin inkişafının innovativ xarakteri gənc mütəxəssisin dünya görüşünü formalaşdıran, biliyin didaktik və metodik təqdimatını təkmilləşdirən, biliyin

qavramaq və yaratmaq qabiliyyətini artıran, bununla da, biliklərə innovativ element daxil edən digər bilik sahələrinə birbaşa təsir göstərir. İnformasiya-kommunikasiya texnologiyalarından istifadə informasiyanın axtarışı və ötürülməsi prosesini əhəmiyyətli dərəcədə sürətləndirməyə, zehni fəaliyyətin xarakterini dəyişdirməyə, insan əməyini avtomatlaşdırmağa imkan verir.

2. Fənnin tədrisində şəxsiyyətyönümlü texnologiyalar. Tələbə mərkəzli texnologiyalar tələbənin şəxsiyyətini bütün təhsil sisteminin mərkəzinə qoyur, onun inkişafı, təbii potensialının reallaşdırılması üçün rahat, münaqişəsiz və təhlükəsiz şərait yaradır. Bu texnologiyada şagirdin şəxsiyyəti onların imkan və ehtiyaclarına uyğun olaraq təhsil proqramlarının hazırlanmasında özünü göstərir.

3. Tədris prosesinin informasiya-analitik təminatı və tələbə təhsilinin keyfiyyətinin idarə edilməsi. Belə innovativ texnologiyanın istifadəsi hər bir tələbənin fərdi və ya qrup halında zamanla inkişafını obyektiv, qərəzsiz izləməyə imkan verir. Müəyyən modifikasiya ilə ümumiləşdirici nəzarətin hazırlanmasında, kurikulumun hər hansı fənninin tədrisinin vəziyyətinin öyrənilməsində, vahid müəllimin iş sisteminin öyrənilməsində əvəzsiz vasitəyə çevrilə bilər.

4. İntellektual inkişafın monitorinqi. Hər bir tələbənin təhsil keyfiyyətinin təhlili və diaqnostikası.

Beləliklə, müasir fəaliyyətin məqsədi ənənəvi sistemlə müqayisədə tələbə şəxsiyyətinin keyfiyyətcə dəyişməsidir. Bu, praktikada bilinməyən didaktik və təhsil proqramlarının peşəkar fəaliyyətə daxil edilməsi sayəsində mümkün olur. Hərəkətləri həvəsləndirmək, alınan məlumatları müstəqil şəkildə idarə etmək bacarığının inkişafı, yaradıcı qeyri-ənənəvi təfəkkürün formalaşdırılması, elmin və praktikanın ən son nailiyyətlərindən istifadə edərək, tələbələrin təbii qabiliyyətlərini maksimum şəkildə üzə çıxarmaqla inkişafı innovasiyanın əsas məqsədləridir.

ZƏİF EŞİDƏN UŞAQLARIN İNKLÜZİV MƏKTƏB ŞƏRAİTİNDƏ KOMMUNİKATİV VƏRDİŞ VƏ BACARIQLARININ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

İmanova S.C.
Azərbaycan Dövlət Pedaqoji Universiteti
E-mail: sevil.manova@mail.ru

Zəif eşidən uşaqların inklüziv məktəbdə təlim-tərbiyəsi onların nitq inkişafında müsbət rol oynayır. Onlar məktəb və sinif daxilində müəllim, normal inkişaflı həmyaşıdları ilə ünsiyyətə girməklə sosial təcrübə qazanır, həm də nitqləri keyfiyyət və kəmiyyətcə xeyli yaxşılaşır. Belə ki, təlim prosesində zəif eşidən uşaqda nitqin bütün komponentləri: tələffüz, leksik-qrammatik-semantik və prosodik tərəfləri sürətlə inkişaf edir. Zəif eşidən uşaqların inklüziv şəraitdə kommunikativ vərdiş və bacarıqlarının uğurlu inkişafı eyni zamanda onların həm məktəb kollektivinə, həm də bütövlükdə sosial reabilitasiya və adaptasiyasına,cəmiyyətə inteqrasiyasına kömək edir.

Qeyd etmək lazımdır ki, inklüziv məktəb şəraitinə daxil olmanın başlanğıcında zəif eşidən uşaqlar müəyyən qədər kommunikativ vərdiş və bacarıqlara malik olsalar da, onların bu bacarıqları normal həmyaşıdları ilə müqayisədə kifayət etməyib çox-çox geri qalır. Çünki onların əvvəllər formalaşmış nitq bacarıqları həmyaşıdları ilə tanış olmayan bir mövzuda dialoq və monoloqa girməyə imkan vermir. Zəif eşidən uşağın kommunikativ vərdiş və bacarıqları məhz inklüziv məktəb şəraitində təkmilləşir, şifahi nitqin monoloji və dialoji növlərindən məqsədyönlü şəkildə istifadə etməyi, nitqində ki mövcud çatışmazlıqları aradan qaldırmağı öyrənir.

İnklüziv mühit normal inkişaf edən şagirdlər üçün də mühüm əhəmiyyət kəsb edir, onlarda eşitmə problemi olan uşağa qarşı mərhəmət,qayğı, humanist hiss və münasibətlərinin aşılanmasına kömək edir. Eyni zamanda, uşağın zəif eşitməsi onun eşidən yaşıdları ilə ünsiyyətində və şəxsiyyətlərarası münasibətlərinin qurulmasında heç bir maneə yaratmır, əksinə sinifdə eşidən sinif yoldaşları ilə zəif eşidən uşağın müsbət qarşılıqlı əlaqə, müşahidə və fəaliyyəti, maraqlarının ümumiliyi, ətraf aləm haqqında fikirlərinin oxşarlığı nitqli mülahizələrin bitkinliyinə və məzmunluluğunun artmasına təkan verir. Beləliklə də, zəif eşidən uşağın kommunikativ vərdiş və bacarıqlarının sürətlə inkişafı inklüziv prosesə daxil edilməsindən, inklüziv mühit və şəraitdən asılıdır.

TƏDRİS PROSESİNDƏ YENİYETMƏLƏRİN İDRAKİ FƏALİYYƏTİNİN FORMALAŞDIRILMASI XÜSUSİYYƏTLƏRİ

Kazımlı Z.S.
Bakı Slavyan Universiteti
E-mail: kzamira308@gmail.com

Yeniyetməlik uşaqlıqla böyüklük arasındakı ruhi inkişaf və həyata hazırlıq dövrüdür. Yeniyetmə dövrü həm də keçid dövrüdür. Çünki yeniyetmə nə uşaq, nə də böyükdür.Yeniyetməlik dövründə idraki fəallıq diqqətdən başlayır. Belə ki, diqqətin inkişafında da özünəməxsus xüsusiyyətlər müşahidə olunur.

Uşağın təlim fəaliyyətindəki əsaslı dəyişikliklər tələbat və maraq dairəsinin dəyişməsi, şagirdin ayrı-ayrı fənlərə, müəllimlərə münasibəti, keçirdiyi psixi hallar, yeni və rəngarəng təəssürat bolluğu, cinsi yetişmənin başlanması ilə əlaqədar güclü təəssüratlar, yaşlılıq hissi ilə bağlı problemlər və s. diqqətin təzahür və inkişafına, burada mənfi halların özünü gmöstərməsinə səbəb ola bilir. Yeniyetməlik dövründə təxəyyülün inkişafında xeyli irəliləyiş baş verir. Bərpaedici təxəyyül yüksək inkişaf səviyyəsinə çatır. Romantik, fantastik surətlərin yaradılmasına meyil yüksək olur. Yaş artdıqca yeniyetmələrin təxəyyülü dəyişir. 14-15 yaşlarda təxəyyül surətləri daha real və daha tənqidi xarakter daşımağa başlayır. Bununla yanaşı olaraq, həmin dövrdə də yeniyetmələr romantik surətlərdən tam yaxa qurtara bilmirlər.Yeniyetmələrdə idraki aktivliyi formalaşdırmaq üçün aşağıdakı addımları izləmək gərəkdir : onları müxtəlif mövzular, problemlər və cari hadisələr haqqında müzakirələrə daxil edilməli, uşağın fikir və düşüncələrini bölüşməyə təşviq etməli, yeniyetməni müstəqil düşünməyə və öz fikirlərini inkişaf etdirməyə təşviq etməli, uşağın qarşıya məqsəd qoymağına kömək etməli, onları gələcək üçün imkanlar haqqında düşünməyə çağırmalı, yeniyetməni yaxşı düşünülmüş qərarlara görə tərifləməli, onlara pis qəbul edilmiş qərarları yenidən qiymətləndirməyə kömək etməli.

Yeniyetmələr müəllimin rəhbərliyi altında idraki bacarıqların inkişaf etdirilməsi yolları ilə tanış olurlar. Bu da öz növbəsində şagirdlərdə müəyyən maraqların yaranmasına gətirib çıxarır. İdraki maraqların fəal şəkildə inkişafı nəticəsində yeniyetmə məktəblilərdə koqnititiv maraqlar yaranır. Hər bir müəllim təlim zamanı yeniyetmələrin inkişafı üçün müxtəlif metodlardan istifadə edir.

Başqa sözlə ifadə etsək, müəllim qarşıya qoyulan məqsədə çatmaq üçün dərsin strukturunu və yaxud öz fəaliyyətini buna uyğun şəkildə təşkil edir. Həmin təşkil olunan metodların köməyi ilə yeniyetmələrdə müvafiq idraki maraqların xüsusiyyətləri ortaya çıxır. Təbii ki, əldə olunacaq nəticənin gücü tətbiq olunan metodlardan və müəllimin fəaliyyətindən asılıdır. Müəllim idrak prosesini inkişaf etdirmək üçün rahat mühit, şərait yarada biləcək yeni metodlardan, üsul və vasitələrdən istifadə etməlidir. Təlim fəaliyyətində əyani vasitələrdən daha çox istifadə yeniyetmələrdə təhsil fəaliyyətinə qarşı fəal iştiraka kömək edir. Müxtəlif təqdimatların hazırlanması, dərslərin interaktiv təşkili, ekskursiyalar, laboratoriya işləri və s. buna nümunədir. Məsələn, coğrafiya dərsini götürək. Dərsdə "Materiklər və okeanlar" mövzusu tədris olunur. Bu mövzu barəsində müəllim geniş bir mühazirə oxuyur, bir qisim yeniyetmə müəllimin diqtə etdiklərini yazmasına baxmayaraq, digərləri üçün dərs cansıxıcı olur. Müəllim materiklər və okeanlara aid olan canlı əyani vəsaitlərdən istifadə edərsə, şagirdlər dərhal fəallaşacaqlar. Çünki onlarda idrak prosesləri fəallaşmağa başlayır. Bu nümunə onu göstərir ki, şagirdlərdə idrak fəallığını aktivləşdirmək onlarda marağın oyadılmasına gətirib çıxaracaq tədqiqat metodlarından asılıdır.Aparılan təcrübələr onu göstərir ki, dərsdə yalnız mühazirənin nəql olunması yeniyetmələrdə maraq oyatmır. Yeniyetmələrdə idrak fəaliyyətini inkişaf etdirmək üçün müxtəlif metodlardan istifadə etmək çox vacib bir nüansdır. Yeniyetmələrdə idrak fəaliyyətini inkişaf etdirmək üçün aşağıdakı metodlardan istifadə etmək məqsədəuyğundur: qruplarla iş, müzakirə və qrupların, diskussiyaların yaradılması; problemli situasiyanın yaranması; yeni pedaqoji texnologiyalardan istifadə edilməsi; interaktiv təlim metodlarından istifadə edilməsi

İdrakın ən mühüm proseslərindən biri - anlamadır. Ə.S.Bayramova görə, anlama - ətraf aləmin cisim və hadisələri arasındakı əlaqə və münasibətlərin inikasından ibarətdir. Anlama cisim və hadisələrin düzgün qavranılmasından, təhrifə yol verilməməsindən asılıdır. Lakin onu qavrayış prosesi ilə eyniləşdirmək olmaz. Anlama, məlum olduğu kimi, həqiqətin öyrənilməsinə və dərk olunmasına yönəlmiş psixoloji aktdır. Bu baxımdan biliyin öyrənilməsinə yönəlmiş hər hansı fəaliyyət anlama ilə nəticələnmir.

Şagirdlər anlaşılması tələb edilən cisim və ya hadisəni özlərinə yaxşı məlum olan cisim və hadisələr kateqoriyasına aid etməyi bacardıqlari vaxt anlamanın daha yüksək mərhələsinə nail olurlar. Belə olduqda onlar qavradıqları cisim və hadisənin xüsusiyyətlərini, hətta müfəssəl surətdə anlamasalar belə, onun ümumi

xassələrini yaxşı dərk edə bilirlər . Yeniyetmələrin fəallığı özünü bir neçə sahədə göstərir: dərketmə, idraki, sosial, əmək fəallığı və s. Deməli, idrak fəallığı – yeniyetmənin ümumi fəallıq fenomeninin bir sahəsidir. İdrak fəallığı prosesində yeniyetmə ağlının ən vacib xassələri iştirak edir.

İdrakın fəallaşması dedikdə - yeniyetmənin ətraf aləm reallıqlarına yalnız bioloji və sosial istiqamətlənməsi deyil, həm də bu reallıqların mahiyyətini dərk etmək üçün daxili və xarici imkanların birləşdirilməsi və iradi səy göstərilməsi başa düşülür.

SOSİAL PEDAQOQ PEŞƏSİNİN CƏMİYYƏT ÜÇÜN SOSİAL ƏHƏMİYYƏTİ

Kərimova A.Ə.
Naxçıvan Dövlət Universiteti
E-mail: kerimovaaynur970@gmil.com

Texnologiyanın sürətli inkişafı və sənaye istehsalının genişlənməsi ilə əlaqədar ölkəmizdə baş verən sosial – mədəni proseslər peşəkar sosial işin yaranmasının əsas səbəblərindən biri kimi qiymətləndirilir. Urbanizasiya prosesinin, əhalinin miqrasiyasının, aşağı gəlir səviyyəsinə malik əhalinin artması cinayətkarlığın səviyəsinin artmasına, əxlaqsız davranışlara və xoşagəlməz nəticələrə gətirib çıxarır ki, bütün bu proseslər isə insanlara sosial yardım göstərməyi bacaran peşəkar mütəxəssislərin fəaliyyətini zəruri tələbata çevirir. Sosial – siyasi və iqtisadi problemlərin həll edilməsi üçün yüksək ixtisaslı mütəxəssislər tələb olunduğu müasir dövrdə sosial – pedaqoji sahədə kadrların hazırlanması problemi xüsusi əhəmiyyət kəsb edir. Cəmiyyətə yalnız problemləri görən deyil, həm də onları həll etmək iqtidarında olan kadrlar tələb olunur. Problemin aktuallığı müasir Azərbaycan cəmiyyətində baş verən dəyişikliklər, müasir insanın bu dəyişikliyə uyğunlaşa bilməməsi, cəmiyyətin sosial – pedaqoji fəaliyyətin geniş şəbəkəsinin inkişafına olan tələbi və mütəxəssislərin buna hazır olmaması, pedaqoqların hazırlığının kütləvi – reproduktiv xarakteri və sosial – pedaqoji fəaliyyətin yaradıcı xarakteri, cəmiyyətin təhsil sahəsində mütəxəssislərin keyfiyyətinin və problemin işlənmə dərəcəsinin yüksəldilməsinə yüksək tələb arasında ziddiyyətlərin olması ilə müəyyən edilir. Ziddiyyətlərin həlli yollarının tapılması cəhdi, Azərbaycanda mövcud sosial – iqtisadi vəziyyət sosial - pedaqoji fəaliyyət sahəsində yüksək ixtisaslı mütəxəssislərin hazırlanması tələbatını aktuallaşdırır.

Həmçinin bu gün cəmiyyətdə baş verən və sosial münasibətlərə əhəmiyyətli dərəcədə təsir göstərən köklü siyasi və iqtisadi dəyişikliklər də mövzunun aktuallığından xəbər verir. Birinci növbədə bazar iqtisadiyyatına keçid şəraitində rifah halı dövlətdən asılı olan əhali qrupları arasinda bu münasibətlərin stereotipi dəyişilir. Bu cür şəraitdə əlillərin, təqaüdçülərin və çoxuşaqlı ailələrin maddi vəziyyəti xüsusilə pisləşir, bu kateqoriyadan olan əhalinin sosial müdafiəsi vacib xarakter daşıyır və bununla əlaqədar olaraq, bu insanların rifah halının asılı olduğu bütün sosial institutların rolu getdikcə artır. Mövcud əhali təbəqələri ilə davamlı çalışa bilən, sosial yönümlü iş sistemi yaramaq üçün sosial pedaqoqların və sosial işçilərin təlim prosesinin nəzəriyyə və metodologiyasının əhəmiyyətli dərəcədə yenidən nəzərdən keçirilməsi, aydınlaşdırılması və əlavələr edilməsi tələb olunur. Yeni sosial – iqtisadi şəraitdə sosial pedaqoqların və sosial işçilərin hazırlanması prosesinin məzmununun, forma və üsullarının aydınlaşdırılmasına ehtiyac duyulur. Bu zaman ümümtəhsil məktəblərində və ali məktəblərdə ilk növbədə, sosial pedaqoqların və sosial işçilərin peşə əhəmiyyətli keyfiyyətlərinin formalaşdırılmasına diqqət yetirilməlidir.

Hal – hazırda, gələcək sosial pedaqoqların peşə əhəmiyyətli keyfiyyətlərinin formalaşdırılmasında müəyyən problemlər var, buna görə də, bu prosesdə konseptual aspektlərin zəruriliyini müəyyən edən səbəbləri nəzərə almaq lazımdır:

Müasir dövrdə məktəblərdə iştirakçılara sosial –psixoloji dəstəyin inkişaf etdirilməsinə ciddi ehtiyac duyulur. Yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığın artması, yeniyetmələr arasında narkomaniya, kompüter asılılığı, uşaqlarda "virtual" aqressiya, gənc nəsil arasında ümumbəşəri dəyərlər sisteminin olmaması və s. bu kimi problemlər məktəbin və ümumiyyətlə, cəmiyyətin üzləşdiyi problemlərdir. Onların həlli isə ixtisaslaşmış mütəxəssislərin- sosial pedaqoqların peşəkar işi olmadan mümkün deyil.Sosial pedaqoqun əsas vəzifəsi sosial yardıma ehtiyacı olan uşaqları, öz gücləri ilə materialı mənimsəyə bilməyən, kollektivdə və ailədə stress yaşayan, xəstə və ya hər hansı bir qüsuru olan, narkotik və ya spirtli içkilərə meylli uşaqları müəyyən edib onlarla lazımi iş aparmaqdan ibarətdir. Sosial pedaqoq şəxsiyyətin ümumi mədəniyyətinin formalaşmasına, şəxsiyyətin cəmiyyət həyatına adaptasiyasına, ətraf aləmə hörmətlə yanaşmasına yönəlmiş tərbiyəedici işi təşkil edir. Şəxsiyyətin psixoloji - pedaqoji xüsusiyyətlərini və onun mikrosferasını, həyat tərzini öyrənir, tələbat və maraqlarını, çətinlik və problemlərini, münaqişəli vəziyyətləri, davranışdakı

qüsurları üzə çıxarır, tələbə və şagirdlərə vaxtında sosial yardım və dəstək göstərərək şəxsiyyətlə təhsil müəssisəsi, ailə, ətraf mühit, səlahiyyətli orqanlar arasında vasitəçi rolunu oynayır. Sosial pedaqoq həm də məktəblilərin asudə vaxtının təşkilatçısı rolunda çıxış edir. Bütün bu sadalanan vəzifələrin öhdəsindən gələ bilmək üçün sosial pedaqoq müəyyən peşə keyfiyyətlərinə malik olmalı və işini dövrün tələbləri səviyyəsində qurmağı bacarmalıdır.

Sosial – pedaqoji fəaliyyət bizim cəmiyyət üçün yeni bir təcrübi peşə sahəsidir. Sosial pedaqoq bu gün pedaqogika, psixologiya, sosialogiya, fəlsəfə, tibb, hüquq və digər elm sahələrində biliyə malik olmalı, sosial – pedaqoji dəstəyə və müdafiəyə ehtiyacı olan müxtlif sosial, etnik, dini, gender və yaş qrupları ilə işləməyi bacarmalıdır.

Sosial pedaqoqun peşəkarlığı əsasən bu fəaliyyət növünü seçmiş şəxsin şəxsi keyfiyyətlərindən asılıdır. Sosial pedaqoqlar uşaqları sevməlidirlər. Həmçinin bu peşə üçün zəruri olan bir sıra keyfiyyətlər var: təbiilik – başqaları ilə qarşılıqlı əlaqə prosesində özü kimi olmaq bacarığı; xeyirxahlıq – başqalarını mehriban, xoşxasiyyət qavrama qabiliyyəti, istənilən zaman ehtiyacı olan başqa bir insana kömək etməyə hazır olmaq; incəlik - başqa insanlarla münasibətdə nəzakətlilik və ədəblilik; konkretlik – qoyulan suala aydın cavab vermək, öz fikirlərini və mühakimələrini aydın və anlaşıqlı ifadə etmək bacarığı.

Sosial pedaqoqun şəxsiyyətini və peşə keyfiyyətlərini xarakterizə edərkən uşaqları sevmək, onlara qayğılı münasibət, pedaqoji mərifət, işə yaradıcı münasibət kimi bəzi xüsusiyyətlər diqqəti cəlb edir .

"Peşəkar mütəxəssis kimi sosial pedaqoq obyektiv olmalıdır. Elə peşə etikası da məhz bunu tələb edir. Bu məsələyə, görünür, daha geniş konteksdə yanaşmaq lazımdır. Sosial pedaqoqun əlaqələri çoxcəhətlidir. Onun bir tərəfdən, şagirdlərlə, digər tərəfdən öz həmkaları - müəllimlər, məktəb rəhbərləri, məktəbin praktik psixoloqu və nəhayət, valideynlərlə qarşılıqlı əlaqələri peşə etikasının prinsiplərinə əsaslanır. Peşə etikasının tələbləri sosial pedaqoqun xarici instansiyalarla əlaqəsi üçün də böyük əhəmiyyətə malikdir".

Əmək bazarında sosial işçi ixtisası müstəqil sahə kimi öncədən müəyyən edilsə də, sosial pedaqoq ixtisası yenicə formalamağa başlamışdır. Elmi nailiyyətlərə əsaslanan ixtisaslaşmış sosial xidmətlər dövlətin ictimai proqramlarının həyata keçirilməsi tədbirlər planının mühüm tərkib hissəsidir. Sosial – pedaqoji fəaliyyətin digər bir istiqaməti sosial uğursuzluq fenomeninin inkişafı ilə bağlıdır. Onun iqtisadi, siaysi, demoqrafik, ekoloji və s. təzahür formaları var. Sosial uğursuzluğun inkişafı şəraitində ən həssas kateqoriyanı uşaqlar təşkil edir. Onun ifrat formasıni uşaq baxımsızlığı və nəzarətsizliyinin nəticəsi olaraq asosial proseslərin inkişafı təşkil edir. Sosial –pedaqoji iş risk qupuna daxil olan uşaq və yeniyetmələrin sosiallaşması ilə bağlı yeni istiqamət alır və sosial – pedaqoji dəstəyi, kənarlaşmanın qarşının alınmasını, sosial reablitasiyanı, resosializasiyanı əhatə edir. Bu kontekstdə sosiallaşma fərdin cəmiyyətlə qarşılıqlı əlaqədə özbaşınalığının məhdudlaşdırılması, məhsuldar qarşılıqlı əlaqə mexanizmlərinin inkişafıdır.

Hazırda günün mövzusu terrorizm və ekstremizmdir. Şəxsiyyət üçün təhdidlər həm real dünyadan, həm də virtual dünyadan gəlir ki, bu da vəziyyəti idarə etmək və ona nəzarət etmək problemini daha da çətinləşdirir. Sosial təhlükəsizlik sosial – pedaqoji sahədəki işlərin yeni kursudur. O, şəxsiyyətin sosial zorakılığın müxtəlif formalarından qorunması, təhlükəsiz yaşaması üçün şəraitin yaradılması ilə bağlıdır. Bu formalar kontekstində sosiallaşma ətraf mühitin təhlükələri haqqında bilik, ən təhlükəsiz fəaliyyət istiqamətini seçmək bacarığı ilə bağlıdır. Sosial – pedaqoji sahənin uzun tarixi, geniş fəaliyyət sahəsi və formaları vardır. Sosial pedaqoq vəzifəsi Rusiyada 1990 –cı ildən tətbiq edilmişdir. Bu hüquqi akt ictimai – pedaqji fəaliyyətin bir əsrdən artıq mövcudluğu faktını qeyd etdi. Beləliklə, Rusiyada hüquqi və praktik olaraq prinsipcə yeni bir peşənin əsasları qoyuldu. Onun yaranması Təhsil Nazirliyinin təşəbbüsü və nəzarəti ilə həyata keçirilib. Təhsil proqramlarında sosial – pedaqoji iş sözün geniş mənasında fərdin sosiallaşmasına yönəlmiş, fərdin sosial norma və dəyərlər sisteminin mənimsənilməsi prosesi ilə əlaqəli, şəxsiyyətə cəmiyyətin tamhüquqlu üzvü kimi fəaliyyət göstərməyə imkan verən proses kimi nəzərdən keçirilirdi. Azərbaycanda da sosial təhsil sahəsi geniş şəkildə təmsil olunur: əlavə təhsil müəssisələri, yay düşərgələri, gənclər siyasəti institutları, mədəniyyət müəssisələri, ibtidai və imumi təhsil təşkilatları. Bu sahələr sosial pedaqoqalr, pedaqoqlar, tərbiyəçilər, gənclər siyasəti sahəsində mütəxəssis kimi magistratura məzunlarının müraciət edə biləcəyi xüsusi vəzifələrlə dəstəklənir.

Klassik universitetlərin təhsil və inkişaf mühitinin imkanlarını nəzərə alaraq, magistratura proqramına praktik yönümlü, metodik və mədəni inkişaf etdirici komponentlər əhatəli şəkildə əlavə olunur. Klassik universitetin imkanları təkcə "fəaliyyət müdrikliyinə" malik praktik mütəxəssislər deyil, həm də sosial – pedaqoji işin ziddiyyətlərini görməyi və onların həlli yollarını tapmağı bacaran tədqiqatçılar yetişdirməyə imkan verir.

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN İNNOVASİYALI İDARƏOLUNMASI

Kərimova F.F.
Bakı Slavyan Universiteti
E-mail: fatima.karimli@icloud.com

İctimai həyatın bütün sahələrində baş verən köklü dəyişikliklər, elm və mədəniyyətdəki tərəqqi, pedaqoji fəaliyyət sahəsində yeni tələblər təhsil sisteminin müasirləşdirilməsi zərurətinə səbəb olmuşdur. Bu sahəni daha da inkişaf etdirməyin mümkün yollarından biri innovasiyadır, yəni. pedaqoji innovasiyaların yaradılması, qavranılması, qiymətləndirilməsi, inkişafı və tətbiqinin idarə olunan prosesləri. Bu, təhsilin məzmununa, təhsil və tərbiyənin metod və formalarına, təhsil müəssisələrinin işinin təşkilinə və idarə edilməsinə və s. aiddir. "İnnovasiya" nədir? "İnnovasiya" termini ingiliscə innovation sözündən olub, "yeniliklərin tətbiqi" (yeniliklər) mənasını verir. 50-ci illərin sonlarında Almaniyada, ABŞ-da və başqa ölkələrdə pedaqoji innovasiyaların öyrənilməsi və ümumiləşdirilməsi mərkəzləri yaradılmağa başlandı, təhsil sahəsində innovasiyalara həsr olunmuş xüsusi nəşrlər oldu. Bizdə də eyni proseslər gedirdi, amma başqa cür adlandırılırdı. Söhbət seçmə tətbiqdən, pedaqoji təcrübənin yayılmasından, onu təcrübəçilər tərəfindən mənimsəməyə hazırlığından və bacarığından, təklif olunan yeniliklərin qiymətləndirilməsi yollarından gedirdi. Bir qayda olaraq, yeniliklər ənənəvi problemi yeni üsulla həll etmək cəhdləri nəticəsində, faktların toplanması və dərk edilməsi prosesi nəticəsində, innovativ məna daşıyan yeni keyfiyyət doğulduğu zaman yaranır.

İnnovativ təhsil proseslərinin əsasında pedaqogikanın iki əsas problemi dayanır: pedaqoji təcrübənin öyrənilməsi; psixoloji və pedaqoji elmin nailiyyətlərinin təcrübəyə gətirilməsi problemi.

Təhsildə innovativ proseslərin nəticəsi həm nəzəri, həm təcrübi, həm də nəzəriyyə ilə təcrübənin kəsişməsində formalaşan innovasiyalardan istifadə edilməsidir. Bundan başqa, təhsil sistemində innovasiya təhsilin yeni məqsədinin tətbiqini nəzərdə tutur; təhsil və tərbiyənin yeni məzmununun, yeni metod və formalarının işlənib hazırlanması, mövcud pedaqoji sistemlərin tətbiqi və yayılması, yeni məktəb idarəetmə texnologiyalarının inkişafı, eksperimental platforma kimi məktəb; məktəbin prinsipial olaraq yeni təhsil yönümlü olduğu və sistemli xarakter daşıması və s. Qeyd etmək lazımdır ki, məktəbin idarə olunmasında ən azı ümumi və spesifik şərt vardırÜmumi şərtlərə sosial, iqtisadi, mədəni, milli, coğrafi şərtlər aiddir. Spesifik şərtlərə isə şagirdlərin sosial-demoqrafik tərkibinin xüsusiyyətləri, məktəbin yerləşdiyi yer (şəhər, kənd), məktəbin maddi-texniki bazası imkanları və ətraf mühitin tərbiyəvi imkanları aiddir.

Pedaqoji və şagird kollektivlərində əxlaqi-psixoloji mühitin xarakteri, şagirdlərin valideynlərinin mədəni səviyyəsi pedaqoji prosesin səmərəliliyinin mühüm göstəricilərindən biridir. Pedaqoji sistemin struktur komponentləri vardır. Əsas komponentlərdən biri pedaqoji kollektivin və onun rəhbərlərinin fəaliyyətidir.

Məktəbi idarəetmə sisteminin strukturunda dörd səviyyəli idarəetmə vardır:

Birinci səviyyə dövlət orqanı və ya kollektiv tərəfindən seçilmiş məktəb direktoru, məktəb şurasının, şagird komitəsinin, ictimai təşkilatların rəhbərləri. Bu səviyyə məktəbin inkişafının strateji istiqamətlərini müəyyən edir.İkinci səviyyə məktəb direktorunun müavinləri, məktəbin psixoloqu, sosial pedaqoqu, ictimai faydalı əməyin təşkili üçün məsul şəxs, inzibati-təsərrüfat işləri üzrə direktorun köməkçisi, həmçinin özünüidarədə iştirak edən orqanlar və birliklər.Üçüncü səviyyə müəllimlər, tərbiyəçilər, sinif rəhbərləri (onlar şagirdlərə və valideynlərə, uşaq birliklərinə və dərnəklərə münasibətdə idarəetmə funksiyasını yerinə yetirirlər).Dördüncü səviyyə şagirdlər, sinif və ümummək tab şagird özünüidarəsi. Qarşılıqlı təsir obyekti olan şagird burada eyni zamanda öz inkişafının subyekti kimi çıxış edir.

Yuxarıda göstərilən iyerarxik sxemdən görünür ki, idarəetmənin hər aşağı səviyyəli subyekti yuxarı səviyyəli idarəetmə üçün idarəetmənin obyektidir.XXI əsrin əvvəllərində insan, intellektual təkmilləşmə prosesində, yeniliklər yaradaraq, özünü inkişaf etdirmənin vacib qabiliyyətindən fəal istifadə etməyə başladı. Fasiləsiz intellektual idrakı öz fəaliyyətinin məqsədi və forması seçmiş insan özünü və ətraf aləmi dərk etmək, idrak sahəsinin daha da genişləndirilməsində intellekt gücünü tətbiq etmək üçün unikal qabiliyyət əldə edir. Qeyd etmək lazımdır ki, innovativ proseslər fəaliyyət növlərini deyil, onların texnoloji qabiliyyətini birbaşa məhsuldar qüvvə kimi insanı digər bioloji varlıqlardan fərqləndirən istifadə etmək qabiliyyətini - yeni biliklər yaratmaq qabiliyyətini dəyişdirir.

Yuxarıda göstərilənlərə əsaslanaraq, innovasiyanın məzmunu sosial-mədəni sistemlərin inkişafı zamanı dəyişən insan ehtiyaclarını ödəmək üçün innovasiyaların yaradılması, yayılması və istifadəsinin mürəkkəb prosesi kimi təqdim edilə bilər.İnnovativ proseslər pedaqoji idarə etmədən də yan keçməmişdir. Pedaqoji prosesdə baş verən yenilikləri inkişaf yolu tutmuş təhsil müəssisəsinin dəyişdirilməsinin xüsusi halı kimi də qiymətləndirmək olar. Eyni zamanda, yadda saxlamaq lazımdır ki, təhsil müəssisələri özləri dəyişikliklər

məqsədi ilə deyil, daha geniş inkişaf prosesinin bir hissəsi olduqları üçün dəyişir və ətrafdakı cəmiyyətə, onun tələb və imkanlarına cavab verməlidirlər. Onlar fəaliyyət göstərdikləri xarici mühitə daim uyğunlaşmaq məcburiyyətində qalır, eyni zamanda özündə dəyişikliklər yaradır.Müəllimlər müasir elmin innovativ nailiyyətlərindən istifadə etdikdə məktəb təhsilinin keyfiyyətinin təmin edilməsində əsas məqamları nəzərdən keçirdik. Təhsildə yeniliklər təhsilin məzmununda, təhsil müəssisələrinin strukturunda, tədris proseslərinin texnologiyasında, təlim və tərbiyə üsul və vasitələrində dəyişikliklərlə bağlıdır. Yeniliklər mütləq təhsilin idarə edilməsi mexanizminə aiddir. Müasir şəraitdə innovasiya təhsilin keyfiyyətinin və rəqabət qabiliyyətinin yüksəldilməsi üçün ən mühüm vasitədir.İnnovativ təhsil təhsilin elmlə fəal qarşılıqlı əlaqəsi nəticəsində yeni biliklərin yaradılması prosesində öyrənməyi nəzərdə tutur. Ölkəmiz təhsilinin innovativ inkişaf yoluna keçidi fundamental elmin, təhsil prosesinin özünün və istehsalın inteqrasiyası yolu ilə əldə edilə bilər. İntellektual resurslar təhsil praktikasına getdikcə daha çox cəlb olunur. Elmi tədqiqat və inkişaf innovativ təhsilin əsası və şərtidir. Deməli, elm və təhsilin inkişafı innovasiyaların mənimsənilməsinə və yayılmasına yönəlmiş vəhdətdir. İnnovativlik müasir təhsilin ən mühüm paradiqmasıdır ki, mədəniyyətin qlobal transformasiyası prosesi kontekstində təhsil sisteminin, ilk növbədə peşəkarlığın innovativ inkişaf yoluna yenidən istiqamətləndirilməsini tələb edir. Bu, təhsilalanların yaradıcılıq fəaliyyətinin stimullaşdırılması, onların elmi-tədqiqat işlərinin həyata keçirilməsində real iştirakı, elm, peşə təhsili və iqtisadiyyat arasında əlaqənin yeni formalarına keçid istiqamətində təlim proqramlarına yenidən baxılması və yeniləşdirilməsində ifadə edilməlidir.

Təhsildə innovasiya mürəkkəb prosesdir, ona təsir edən çoxsaylı amillər arasında əsas amillərdən birini - müəllimi qeyd etmək olar. Onun yeniliyə münasibətindən, onların inkişafında iştirakı, yaradıcı fəaliyyətindən tutmuş yeniliklərin uğurundan asılıdır.A.M. Matyushkin iddia edir ki, innovasiya fəaliyyəti əsasən ona mövcud psixoloji hazırlıq hesabına həyata keçirilir. İnnovativ fəaliyyətə hazır olmaq şərti ilə biz müəllimin bütün məktəb kollektivinin öz pedaqoji fəaliyyətinin inkişafına yönəlməsini, habelə şagirdlərin təhsilində aktual problemləri müəyyən etmək və onların həlli üçün təsirli yollar tapıb tətbiq etmək bacarığını müəyyən edən keyfiyyətlərin məcmusunu da başa düşəcəyik. Müəllimin innovativ fəaliyyətə hazırlığının birinci komponenti bu fəaliyyətə daxil olma motividir. Motiv insan üçün fəaliyyətə məna verir.

Yuxarıda deyilənlərə əsaslanaraq belə bir nəticəyə gəlmək olar ki, ölkəmizdə pedaqoji innovasiyalardan nə qədər çox istifadə edilərsə, şagirdlər bir o qədər inkişaf edər, rəhbər və müəllimlər innovasiyaların tətbiqi proseslərindən xəbərdar olarlar.

MƏKTƏBDAXİLİ NƏZARƏTİN MƏQSƏDİ VƏ NÖVLƏRİ

Məhərrəmova R.Ə.
Naxçıvan Dövlət Universiteti

Ümumtəhsil məktəblərində təhsilin idarəedilməsinin başlıca göstəricilərindən biri də məktəbdə güclü nəzarət sisteminin tətbiq edilməsidir. Belə ki, məktəbin idarə edilməsi və ona rəhbərlik işində məktəbdaxili nəzarət mühüm yer tutur: o, idarəetmə fəaliyyətinin tənzimləyici və korrektəedici amili, təlim-tərbiyə prosesində düzünə və əks əlaqə yaratmaq vasitəsi kimi böyük rol oynayır. Nəzarət olmadan idarəetmə də yoxdur. Nəzarətin köməyi ilə məktəb rəhbərləri müəllim və şagirdlərin işi haqqında, təlim-tərbiyə prosesinin vəziyyəti və nəticələri haqqında, qəbul edilmiş qərarların icrası haqqında zəruri informasiyalar alır; bu informasiyalara əsaslanaraq məktəb işinin yaxşılaşdırılması, onun fəaliyyətinin məzmunu və təşkili ilə bağlı lazımi dəyişikliklər aparır. Məktəbdaxili nəzarətin məqsədi məktəbə rəhbərliyi müasir tələblər baxımından səmərəli həyata keçirməyi təmin etməkdən ibarətdir. Nəzarət müəyyən vəzifələri yerinə yetirir: məktəb həyatının bütün sahələri üzrə vaxtında informasiyalar əldə etmək; çətinlikləri, nöqsanları və onların səbəblərini aşkara çıxarmaq; məktəb rəhbərlərinin, müəllimlərin iş metodlarının səmərəliliyini və təlim-tərbiyə işlərinin keyfiyyətini aşkara çıxarmaq . Nəzarət müəyyən funksiyaları yerinə yetirir: diaqnostik, öyrədici, tərbiyə və stimullaşdırma funksiyaları. Diaqnostikfunksiya hər hansı bir sahədə (təlim, tərbiyə, maddi baza və s.) işin vəziyyətini, çətinlik və nöqsanları, habelə onların səbəblərini aşkara çıxarıb qiymətləndirməkdə ifadə olunur. Öyrədici funksiya yeni məlumatlar əldə etməkdə, mövcud bilikləri genişləndirib dərinləşdirməkdə özünü göstərir. Tərbiyə funksiyası nəzarət prosesinin insanda işə münasibətin dəyişməsinə - borc və məsuliyyət hissinin, fəallığının inkişafına təsirində ifadə olunur. Stimullaşdırmafunksiyası - insanı müəyyən neqativ baxış və hərəkətlərdən çəkindirməkdə və müsbət istiqamətə yönəltməkdə ifadə olunur.

Nəzarət prosesində bu funksiyalar qarşılıqlı əlaqədə özünü göstərir. Məktəbdaxili nəzarətin məzmunu çoxcəhətli və mürəkkəbdir. Nəzarət obyekti kimi məktəb həyatının ən mühüm sahələri götürülə bilər: tədris planı, proqramları və dövlət təhsil standartlarının yerinə yetirilməsi vəziyyəti; şagirdlərin bilik və tərbiyə səviyyəsi; sinifdənxaric tərbiyə işləri; normativ sənədlərin və qəbul edilmiş qərarların icrası vəziyyəti; məktəbdə metodik iş; müəllimlərin ixtisas artırması; məktəbdə tibbi və iaşə xidmətinin vəziyyəti; məktəb və ailənin əlbir işinin səmərəliliyi; məktəbin maliyyə-təsərrüfat, tədrismaddi bazası və s. Nəzarətin məzmunu informativ xarakter daşıyır: müəyyən məsələ üzrə daha çox və əsaslı informasiya almağa xidmət edir.

Məktəbdaxili nəzarətin müxtəlif növləri vardır: 1) Aparılma vaxtına görə: cari, dövri və illik nəzarət fərqləndirilir. Cari nəzarət gündəlik nəzarətdir; o, əks əlaqə yaratmaq və lazımi informasiyalar almaq yolu ilə təlimtərbiyə prosesini gündəlik olaraq düzgün idarə etmək vəzifəsinə xidmət göstərir. Təlimdə cari nəzarət sorğu, yoxlama yazı işləri və s. formalarda keçirilir. Dövri nəzarət dərs ilinin müəyyən dövrlərində vaxtaşırı olaraq keçirilir. O, həmin dövrdə görülən işlərin vəziyyəti və nəticələrini aşkara çıxarmağa və müvafiq tədbirləri həyata keçirməyə xidmət edir. Məsələn, təlimdə hər hansı iri mövzu, bəhs keçiləndən sonra ayın, yaxud yarımilin sonunda dövri nəzarət həyata keçirilir. Yekun nəzarət müəyyən proses, fənn başa çatanda aparılan nəzarətdir. O, görülmüş işlərə yekun vurmağa və alınan nəticələri qiymətləndirməyə imkan verir. Məsələn, təlimdə müəyyən fənnin tədrisi başa çatdıqda, yaxud ilin sonunda keçirilən imtahan və yoxlamalar, illik işlərin yekunu, hesabatlar belə nəzarətə aiddir. 2) Aparılma qaydasına görə nəzarətin iki növü vardır: xəbərdarlıqlı nəzarət (əvvəlcədən xəbər verməklə) və qəfil nəzarət (xəbər vermədən aparılır). Gənc müəllimlər üçün, adətən, xəbərdarlıqlı nəzarətdən istifadə olunur. 3) Xarakter və məzmununa görə nəzarətin iki növü müəyyən edilir: tematik vəfrontal nəzarət. Tematik nəzarət müəyyən bir mövzu, problem üzrə aparılan nəzarətdir (məsələn, dərslərin müasir tələblərə uyğun təşkili, sinifdənxaric işlərə şagirdlərin davamiyyəti, qabaqcıl pedaqoji təcrübənin tətbiqi vəziyyəti və s.). Frontal (kompleks) nəzarət müəyyən bir sahənin hərtərəfli, kompleks şəkildə öyrənilməsi məqsədi güdən nəzarətdir. Müəllimin, metodbirləşmələrin, yaxud pedaqoji kollektivin fəaliyyətinin bütün aspektlərinin öyrənilməsi belə nəzarətə aiddir. Məsələn, müəllimin tədris, tərbiyə, ictimai-pedaqoji, idarəetmə fəaliyyəti frontal nəzarət yolu ilə kompleks şəkildə öyrənilir. Yaxud, hər hansı fənn (fənlər) üzrə şagirdlərin bilik, bacarıq və vərdişlərinin keyfiyyəti, habelə tərbiyə səviyyəsi frontal nəzarətlə aşkara çıxarılır. Bunlardan başqa pedaqoji ədəbiyyatda nəzarətin digər növləri də göstərilir: müqayisəli, ümnmiləşdirici, spesifik (hər sahənin özünəməxsusluğunu nəzərə almaqla keçirilən) nəzarət. Göstərilən nəzarət növlərinin tətbiqi nəzarətin məqsəd və obyektinin vəziyyəti ilə şərtlənir. Bütün nəzarət növlərindən yerinə görə istifadə etmək lazımdır.

DƏYƏRLƏR ƏSASLI TƏHSİLİN İDARƏOLUNMASINDA MÜƏLLİMİN ROLU

Məmmədli A.H.
Bakı Slavyan Universiteti
E-mail: Aysumemmedli444@gmail.com

Təhsil müəssisələrində pedaqoji prosesin dəyəryönümlü olmasında idarəedənlərin və müəllimlərin üzərinə böyük vəzifələr düşür, çünki bir çox tədqiqatçı idarəedənlərin və müəllimlərin dəyəryönümlü təhsilindəki funksiyanı xüsusilə vurğulamışlar. Müəllim sinifdə yalnız dərsi idarə edən deyil, eyni zamanda şagirdlərin qarşısında xarakteri, mənliyi ilə nümunə olan insandır. Bu səbəbdən müəllim peşəsinə həm savadını, həm də ürəyini qoymalıdır. Bütün müəllimlərin üzərinə şagirdlərinin davranışlarına nəzarət və kontrol etmək məsuliyyəti düşürvə sinifdə yaxşı ilə pisin fərqini nümunələr çəkərək şagirdlərə göstərmək müəllimin vəzifəsidir. Həmçinin bu vəziyyəti dəstəkləyən bir çox araşdırma mövcuddur.

Müəllimlərin necə sosial və mədəniyyətli olması bu məsələdə vacib olan məqamlardan biridir. Buna görə də bütün təhsil müəssisələrinin dəyər və mədəniyyət mərkəzi olduğu danılmazdır, məktəblərin təbliğ edəcəyi dəyərlərin müəyyənləşdirilməsində müəllimlərin rolu əvəzedilməzdir. Müəllimlər uşaqların davranışlarını liderlik yolu ilə formalaşdırır. Müəllim şagirdlərin hər birinin fərdi bacarıqlarını və xüsusiyyətlərini nəzərə alaraq, onların maksimum səviyyədə öyrənmələri və inkişaf etmələri üçün mübarizə aparmalıdır. Beləliklə, şagirdlərinə hansı dəyərləri və davranışları öyrətmək istəyirsə, onları öz davranışları ilə göstərməlidir. Uşaqlar təhlükəsiz, sevgi dolu, qərarlı və üzərlərində diqqət və qayğı olan çevrədə dinclik və xoşbəxtliyə sahib olurlar və belə bir şəraitin təmin olunmasını müəllim təşkil edir. Bütün uşaqların ortaq nöqtəsi nəsihətlərə qulaq asmamaları, ancaq nümunələri dinləmələridir. Müəllim yaxşı bir nümunə olduğu zaman

məktəbdə, sinifdə tədris prosesində , cəmiyyətdə istiqamətverici və idarəedən ola bilər. Məktəblilər müəllimlərinin heyran olduqları xüsusiyyətlərindən təsirlənirlər.

Müəllimlər həm məktəb daxilində, həm də məktəb xaricində şagirdlərə yaxşı bir örnəkdirlər. Müəllimlərin hansı dəyərlərə sahib olduğunun əhəmiyyəti böyükdür. Ona görə ki, məktəbdəki təlim-tərbiyə prosesində şagirdlərə bilik və bacarıqlar öyrədilir və dəyərlər ötürülür. Məktəblilərə *təhlil etmə, ünsiyyət qurma bacarığı* öyrədilərkən, dəyərlərin müəyyən təməl olduğunu göstərmək lazımdır ki, dəyərləri seçə bilsinlər. Dəyərlər, təhsilin iki xüsusi vəziyyətinin vəhdətidir: şagirdlərə öz dəyərlərini inkişaf etdirmək bacarıqlarının öyrədilməsi, müəllimlərin sosial-mədəni davranışlarını müəyyən edən öz dəyərlərini əks etdirməsi. Sinifdə dəyəryönümlü təlimin təşkili üçün müəllimlər aşağıdakı prinsiplərə əsaslanmalıdırlar: nümunə və istehsalçı olmağı qəbul etməli; sinifdə əxlaqi birlik yaratmalı; məsuliyyətli olmalı, nizam-intizama diqqət etməli; fənn proqramları vasitəsilə dəyəryönümlü tədris qurmalı; əməkdaşlıq metoduna müraciət etməli; sinifdənxaric və məktəbdənkənarda da inkişaf etmək üçün müsbət modellərdən istifadə edilməli; məktəbə mədəniyyət gətirməli; valideynlərlə əməkdaşlıq münasibəti yaratmalıdır.

Müəllim dəyərləri aşılayarkən şagirdləri motivasiya etməli, cəsarətləndirməli , bu istiqamətdə onların istəklərini də nəzərə almalıdır. Müəllim dəyərləri tətbiq edib vərdiş halına gətirməli, bunları şagirdlərlə və valideynlərlə ünsiyyətdə nümayiş etdirməlidir. Bir sözlə, müəllim məktəbdə şagirdlərinə diqqət yetirməli, peşəsini daim inkişaf etdirməlidir.

VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ AŞILANMASININ MÖVCUD VƏZİYYƏTİ

Məmmədova A.Q.
Bakı Slavyan Universiteti
E-mail: Ayisequli14@gmail.com

Vətənpərvərlik hissinin yaranması qədim tarixə malik olmaqla yanaşı, onun əsası qədim dövrlərdən mağara insanları tərəfindən qoyulduğu məlumdur. Dövlətlərin yaranması və baş verən ictimai-siyasi dəyişikliklər nəticəsində mahiyyət dəyişiklikləri baş versə də, vəzifə dəyişməmiş, insanlar yaşadıqları komalarını, evini, mülkünü qorumağı özlərinə bir borc, vəzifə kimi qəbul etmişlər.

Təlim-tərbiyə işlərində vətənpərvərliyin araşdırılması xüsusi əhəmiyyət kəsb edir. Çünki gənc nəslin yetişdirilməsində vətənpərvərlik ruhunun xüsusi rolu vardır. Vətənpərvərlik tərbiyəsi hər zaman aktual bir məsələ olmuşdur. Ancaq hazırkı dövrümüzdə daha çox aktuallıq ehtiva edir. Müasir həyatımızda vətənpərvərlik tərbiyəsinin araşdırılması üçün çoxlu faktiki mövzu və hadisələr var. Bu tərbiyənin verilməsində indiyə qədər baş verən və hal-hazırdada cərəyan edən Qarabağ hadisələri önəmli bir yer tutur. Hansı ki, vətənpərvərlik hisslərinin ən yüksək həddə çatdığı zaman çərçivəsində uşaqlı böyüklü, qadınlı, kişili hər kəsin ürəyi Qarabağda döyünür. Artıq Qarabağ hadisələri ölkəmizin ölüm-qalım məsələsidir. Gündəlik hadisələrin xronologiyası tez-tez dəyişə, bu dəyişmə fonunda ölkəmizdən də təsirsiz ötüşməyən beynəlxalq hadisələr, super güclərin təzyiqləri, bu təzyiqlərin yaratdığı sıxıntılara tab gətirmək üçün lazım olan ümummilli birliyimizin qorunması bizə həmişəkindən daha çox lazımdır. Torpaqlarımızın azad olunmasını başa çatdırmaq, daha sonra isə bu torpaqları əldə saxlayaraq onun quruculuq və inkişafı ilə məşğul olmaq üçün bizə birlik lazımdır. Bu birliyi isə yalnız vətənpərvərlik tərbiyəsi ilə əldə etmək olar.

Vətənpərvərlik tərbiyəsinin özülü ailədə qoyulsada, onun cücərib inkişaf etməsi, qəliblənib formalaşdırılması sırf təhsil sisteminin vəzifəsidir. Təməli ailədə qoyulan bu ali hissin yaşam amalımıza çevrilməsi üçün müəllim kollektivinin üzərinə böyük yük düşür. Dərs zamanı şagirdlərə, Azərbaycanın qədim tarixi, ərazi bütövlüyünün necə parçalandığı barədə tarixi faktlarla izahat vermək, keçmişdə baş verən hadisələri mənimsədiklərinə əmin olmaq lazımdır.Bu gün bizim gündəmimizin əsas məsələsi, iki il bundan öncə baş verən 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu tarixi ədaləti bərpa edərək, 30 ilə yaxın olan vətən həsrətinə son qoymağı, kimliyindən, vəzifəsindən, daşıdığı statusundan asılı olmayaraq hər kəsin bir yumruq kimi vətənpərvərlik amalı ətrafında birləşməsidir. Hansı ki, baş verən hadisələri izlərkən, Azərbaycan Ordusunun, könüllü vətəndaşlarımızın göstərdiyi şücaətləri gördükcə vətənpərvərlik tərbiyəsi bir başa ruhumuza aşılanır.Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması müəllimlərin qarşısında duran ən mühüm vəzifələrdən biridir. Müəllimlərin məqsədi uşaqlara təhsil, elm verməklə yanaşı, vətənpərvərlik tərbiyəsini aşılamaq, həm də onları yetkin bir vətəndaş kimi yetişdirmək, onlarda vətənə, torpağa sədaqət, lazım gələrsə, Vətən yolunda şəhidliyə hazır olmaq ruhunu aşılamaqdır.

Orta məktəblərin təhsil sistemi çağırış yaşı hələ çatmamış gənclərə ibtidai hərbi hazırlıq keçilməsini, onların fiziki cəhətdən möhkəmliyini təmin etməyi, onları orduda xidmətə hazırlamağı tələb edir. Bu cəhətdən də indiki şəraitdə çağırışa qədərki məktəbli gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi böyük əhəmiyyət kəsb edir. Bu məqsədə nail olmaq üçün məktəb və ailə uşaqlarda vətənə, xalqa, məhəbbət tərbiyə etməli, onlarda vətən qarşısında şərəf və borc hissini qüvvətləndirməlidir. Son dövrlər qabaqcıl məktəblərimizdə şagirdlərin vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsinə diqqət xeyli artırılıb.

SAĞLAMLIQ İMKANLARI MƏHDUD UŞAQLARIN İNKİŞAFINDA KOLLEKTİVİN ROLU

Məmmədova J.N.
Bakı Slavyan Universiteti
E-mail:Jalem00@mail.ru

İnsan birliyi olan kollektiv, şəxsiyyətin əsaslı inkişafına, onun hərtərəfli formalaşmasına şərait yaradır. Məktəbəqədər yaşlı uşaqların kiçik yaşlardan kollektivə alışdırılması, sosial münasibətləri mənimsəməsi böyük əhəmiyyət daşıyır. Xüsusilə də sağlamlıq imkanları məhdud olan məktəbəqədər yaşlı uşaqların kollektivə cəlb olunması sosiallaşaraq özlərini cəmiyyətin bir parçası kimi hiss etmələrinə səbəb olur. Bu cür uşaqların cəmiyyətdə öz rolunu yerinə yetirmə bacarığına malik olmasında kollektivin böyük rolu var. Sağlamlıq imkanları məhdud uşaqların kollektivə inteqrasiyası tərbiyəçidən böyük hazırlıq tələb edir. Tərbiyəçinin sağlamlıq imkanları məhdud uşaqlara münasibəti kollektivin rolunun effektivliyini təmin edən ən mühüm şərtlərdəndir. Kollektivin tərkibindəki bütün uşaqlar ayri-seçkiliyi hiss etmədən müəllimdən müsbət münasibəti görməlidirlər.Kiçik yaşlılar özlərindən fərqlənən uşaqlarla ünsiyyətdə olduqda, müəyyən problemlər yarana bilər. Belə problemlər uşaqların azyaşlı olmasından qaynaqlana bilər. Tərbiyəçi onların fərqliliklərini nəzərə almalı və bu davranışı ilə kiçik yaşlı uşaqlara örnək olmalıdır. Kollektivə cəlb olunmuş sağlamlıq imkanı məhdud olan uşaq, yoldaşlarının davranışlarını diqqətlə izləyir, davranışını da ona uyğun şəkildə tənzimləmək qabiliiyyətinə yiyələnir. Ətrafda baş verən hadisələrə öz mövqeyini, münasibətini bildirir və sosial mühitdə, yoldaşlarının əhatəsində olmasına görə sevinir.

Sağlamlıq imkanı məhdud olan uşaqlar, bayram şənlikləri, əyləncələr, tədbirlər zamanı yoldaşları ilə birlikdə fəaliyyətə cəlb olunur, üzərinə düşən vəzifəni icra edir. Bayram şənliklərində otağın bəzədilməsi zamanı onların əməyindən istifadə edilməsi öz gücünə inamı artırır, müsbət əhval-ruhiyyə yaradır. Kollektivlə iş zamanı (oyunda yaxud təlimdə) onlar əməkdaşlıq, yoldaşlıq kimi hisslərə yiyələnirlər. Cəmiyyət içərində olmaq onlara müsbət təsir etməklə yanaşı yoldaşlarına qarşı aqressiv davranışlarını getdikcə təzimləməyə başlayırlar. Kollektiv oyunlar, sağlamlıq qabiliyyəti məhdud uşaqların bacarıq və istedadlarını kəşf edilməsinə, yeni bacarıqların qazanılmasına və gələcək həyata hazırlanmasına vəsilə olur. Həmçinin mövcud qabiliyyətlərinin, istedadlarının ən yararlı şəkildə istifadə edilməsinin təmin olunmasına şərait yaradır. Kollektivin tərkibində yaşıdları ilə daim ünsiyyət mübadiləsində olur və nəticədə nitqi inkişaf edir, lüğət tərkibi zənginləşir. Həmçinin kollektiv, sağlam uşaqların sağlamlıq imkanları məhdud uşaqlarla yardımlaşmasına, onların fərqliliklərini sevməsinə, xor görməməsinə səbəb olur.

Kollektivçilik hissi insanları fərqlilikləri ilə şərtsiz qəbul etməyə, daha yaxşı bir insan olmağa təhrik edir. Sağlamlıq imkanları məhdud uşaqlarda özünəxidmət vərdişlərinin aşılanmasında kollektivin tərkibində olan digər uşaqların onlara yardım etməsi, xüsusi qayğı göstərmələri əvəzolunmaz rola malikdir.

PEDAQOJİ PROSESDƏ BAŞ VERƏN KONFLİKTLƏR HAQQINDA MƏLUMAT

Mənsimova İ.E.
Bakı Slavyan Universiteti
E-mail: ilaha.mva9946@gmail.com

Pedaqoji konfliktlərin nəzərdən keçirilməsinə keçmək üçün, ilk növbədə, konfliktin mahiyyətini və konsepsiyasını, onun ümumi anlayışını müəyyən etmək lazımdır. Konflikt (latınca confliktus - toqquşma) - həlledilməz ziddiyyətlərin ortaya çıxması, rəqabət əsasında ziddiyyətli maraqların toqquşması, kəskin emosional təcrübələrlə bağlı müxtəlif məsələlərdə olmaması deməkdir. Münaqişələrin cəmiyyət həyatında böyük əhəmiyyəti əksliklərin yaradılmasının və onların öz aralarında mübarizəsinin bütün canlıların

"mühərriki" olduğuna əmin olan qədim dövrlərin mütəfəkkirləri tərəfindən artıq qeyd edilmişdir. Konflikt ilk dəfə sosial hadisə kimi Georg Hegel, Adam Smit, Karl Marks və Aleksis de Tokvilin əsərlərində nəzərdən keçirilmişdir. Elmi termin kimi konflikt anlayışı ilk dəfə Herbert Spenser tərəfindən "Sosiologiyanın əsasları" əsərində istifadə edilmişdir. Konflikt, münaqişə subyektlərinə qarşı mübarizədən ibarət olan və adətən mənfi emosiyalarla müşayiət olunan qarşılıqlı fəaliyyət prosesində yaranan əhəmiyyətli ziddiyyətləri həll etməyin ən kəskin yoludur.

"Konfliktologiya" anlayışı "konfliktoloq" (münaqişələri idarə edən) anlayışı ilə əlaqələndirilir - bu, münaqişə vəziyyətində işin vasitəçiliyi bacarığına malik olan konflikt vəziyyətinin konstruktiv idarə edilməsi ustasıdır. Mənfi nəticələrin qarşısını almaq və münaqişədən konstruktiv məqsədlər üçün istifadə etmək üçün onun əsl daxili və xarici səbəblərini müəyyən etmək, onun gələcək inkişafının gedişatını anlamaq və proqnozlaşdırmaq lazımdır. Münaqişənin əsasını konflikt vəziyyəti təşkil edir: münaqişənin predmeti (tərəflərin həll etməyə çalışdığı ziddiyyət və ya problem); münaqişənin obyekti (onu idarə etmək və idarə etmək istəyən rəqiblərin kəsişən maraqlarına əsaslanan problemli vəziyyət); münaqişənin subyekti (münaqişə şəxsiyyəti və ya münaqişəyə səbəb ola biləcək problemlər).Münaqişənin baş verməsi üçün icra olunan hərəkətlərə insident deyilir. İnsident şəraitin birləşməsi nəticəsində yaranmış və münaqişəyə səbəb olmuş münaqişə vəziyyətinin situasiya təxribatıdır. Hadisə həm rəqiblərin təşəbbüsü ilə, həm də onların iradə və istəyindən asılı olmayaraq obyektiv şərait və ya təsadüf nəticəsində yarana bilər. Münaqişənin predmeti (tərəflər arasında ziddiyyətlər kimi), münaqişənin obyekti (birbaşa toqquşmadan çox əvvəl mövcud ola bilən problemli vəziyyət), qəfil münaqişə vəziyyəti kimi yaranır. Dağıdıcı manipulyasiya - başqa bir ziddiyyətli şəxsiyyətin zərərinə öz məqsədlərinə çatmağa yönəldilir. Münaqişə subyektinin aqressivliyini artırır və konflikt yenidən dağıdıcı şəkildə dinamik inkişaf edərək, pis dairəyə keçir. Münaqişəni həll etmək üçün bu dairəni qırmaq və ümumi maraqları və ünsiyyət motivlərini başa düşmək mütləqdir. Buna konstruktiv manipulyasiya və nəzarət yolu ilə nail olmaq olar. Konstruktiv manipulyasiya, digər insanların maraqlarına xələl gətirmədən ümumi məqsədlərə çatmağa yönəlmiş kommunikativ (şifahi və ya qeyri-şifahi) təsirlər və qarşılıqlı təsirlər sistemidir. Konfliktogenlər münaqişəyə səbəb ola bilən sözlər, hərəkətlər(və ya hərəkətlərin olmamasıdır.

Pedaqoji konflikt bir növ sosial münaqişə kimi ekoloji aspektdə təhlil edilir, yəni onun əhatə dairəsi təhsil mühiti, təhsil prosesidir. Pedaqoji konflikt, təhsil prosesi iştirakçılarının peşəkar və şəxsiyyətlərarası qarşılıqlı əlaqəsi nəticəsində yaranan, ünsiyyətin mənfi emosional fonunu yaradan, tərəflərin toqquşmasının tərcüməsini əhatə edən kəskinləşmiş subyekt-subyekt ziddiyyətlərinin təzahür formasıdır. Münaqişənin səbəblərinin aradan qaldırılmasında maraqlıdır. Hər hansı bir münaqişənin səbəbləri insanın cəmiyyətdə qarşılıqlı əlaqədə olduğu zaman qarşılaşdığı ziddiyyətlərdir. Təhsil məkanında belə ziddiyyətlər ola bilər:

Müəllim baxımından: seçdiyi peşədən narazılıq; təhsilin keyfiyyətinə görə artan məsuliyyət; şagirdlərin həyatı və sağlamlığı üçün məsuliyyət; həm şagirdlər, həm də rəhbərlik, pedaqoji kollektiv, valideynlər tərəfindən tanınma ehtiyacından, müəllimə hörmətdən narazılıq; pedaqoji fəaliyyətin monotonluğu, bu pedaqoji sistem çərçivəsində sərt planlaşdırma və ona ciddi riayət edilməsi; ənənəvi təhsil və qiymətləndirmə formalarından istifadə.Şagirdin mövqeyindən: davranış dəyişikliyinə, baş verənlərə reaksiyalara səbəb olan yaşa həssas dövrlərin olması; şagirdin şəxsiyyətinin psixoloji, fərdi xüsusiyyətləri; materialın təqdimat formalarından narazılıq; müəllimin hərəkətlərini səhv başa düşmək (şəxslərarası qarşılıqlı əlaqədə gender yönümlü yanaşmanın olmaması nəticəsində).

Valideynlər tərəfindən: təhsil və tərbiyənin sosial institutu kimi məktəbə artan tələblər; sosial və status ziddiyyətləri.Təhsil sferasında münaqişələr təbii deyil, çünki bu, son dərəcə dinamik, dəyişkən və müxtəlif sistemdir. Bu gün təhsil prosesinin iştirakçıları arasında qarşılıqlı əlaqə problemlərinə getdikcə daha çox diqqət yetirilir, yəni təkcə müəllimlər arasında deyil, həm də təhsil prosesinin digər iştirakçıları arasında konfliktoloji səriştələrin formalaşması və inkişafına meyil var. Pedaqoji konfliktlər probleminə marağın artmasının səbəblərinə aşağıdakılar daxildir: şagirdlərin öyrənməyə marağının azalması; təhsildə əxlaqi tərbiyənin rolunun aşağı salınması; pedaqoji ünsiyyətin avtoritar üslubunun üstünlük təşkil etməsi; müəllim peşəsinin nüfuzunun aşağı düşməsi; cəmiyyətin sosial sferasında rəqabətin yüksək səviyyəsi.

Pedaqoji konflikt, bir qayda olaraq, obyektiv şərait əsasında yaranır, təhsil müəssisəsində konfliktlərin yaranmasında isə subyektiv amil prioritet rol oynayır. Pedaqoji fəaliyyətdə ən çox rast gəlinən münaqişələr şəxsiyyətlərarası münasibətlərin konfliktləridir: "şagird-şagird", "müəllim-şagird", "müəllim-müəllim", "müəllim-idarə", "müəllim-valideynlər". Bu konfliktlər dəyərlər sistemlərinin, dünyagörüşün mövqelərinin, baxışlarının, mülahizələrinin, münasibətlərinin ziddiyyətləri üzərində qurulur. Liderlik konfliktləri çox vaxt şagirdlər arasında baş verir ki, bu da iki və ya üç liderin və onların qruplarının sinifdə, məktəbdə birincilik uğrunda mübarizəsini əks etdirir. Orta məktəbdə şagirdlər arasında formalaşmamış kommunikativ səriştədən

ötrü oğlan və qızlar arasında münaqişələr, habelə şəxsiyyətlərarası, qruplararası münaqişələr, fərd və qrup arasında münaqişələr baş verir.Pedaqoji konfliktin konstruktiv funksiyası ondan ibarətdir ki, münaqişə şəxsiyyətin inkişafı, onun özünü təkmilləşdirməsi mənbəyi kimi xidmət edir. Fərdin yeni şəraitə uyğunlaşmasına kömək edir. Fikir ayrılıqlarının, ziddiyyətlərin mənbəyini obyektivləşdirir, bu da onların aradan qaldırılması yollarını tapmağa imkan verir. Psixoloji gərginliyi aradan qaldırır, münaqişə subyektlərini məyusluqdan azad edir, qrup birliyini təşviq edir. Komandada qeyri-rəsmi münasibətləri gücləndirir, qrupda ictimai rəyi, sosial münasibətləri, humanist dəyərləri üzə çıxarır. Pedaqoji konfliktin dağıdıcı funksiyasının təzahürü rəsmi və qeyri-rəsmi münasibətlərin, ünsiyyətdə və birgə fəaliyyətdə psixoloji diskomfortun məhv edilməsidir. Belə hallar, təbii ki, subyekt-subyekt münasibətlərində mövcud olan ziddiyyətlərin aradan qaldırılmasına kömək etmir. Təhsil müəssisəsindən danışanda münaqişənin konstruktiv mərhələsi çərçivəsində qalmaq xüsusilə vacibdir.Pedaqoji konflikt tədris prosesinin iştirakçıları arasında peşəkar və şəxsiyyətlərarası qarşılıqlı əlaqə nəticəsində yaranan, ünsiyyətin mənfi emosional fonunu yaradan, tərəflərin toqquşmasının tərcüməsini əhatə edən ağırlaşdırılmış subyekt-subyekt ziddiyyətlərinin təzahür formasıdır. Göründüyü kimi, münaqişələrdə davranış mədəniyyəti və onun həlli müasir cəmiyyətdə aşılanmır və təhsil sahəsi də istisna deyil. Müəllim, pedaqoji münaqişələrin həllinə cavabdeh olan əsas şəxs kimi, ixtisaslı dəstək olmadan problemlə tək qalır. Buna görə də, o, qəbul edilmiş əsaslara və ənənələrə əsaslanaraq intuisiya və zənn səviyyəsində hərəkət etməyə məcbur olur. Məlumdur ki, həyata keçirilən üsullar səmərəsizdir, bu o deməkdir ki, münaqişənin həlli ya ləngiyir, ya da xeyirdən çox zərər verir. Pedaqoji fəaliyyətdə hadisənin qarşısının alınması və aradan qaldırılması, eləcə də münaqişə vəziyyətinin təhlili xüsusi əhəmiyyət kəsb edir. Hadisənin özü könüllü və ya inzibati üsullarla ("təzyiq", "təzyiq") aradan qaldırıla bilər. Münaqişəli vəziyyət isə davam edəcək, uzunmüddətli forma alacaq və müəllim heyətinin güzəranına mənfi təsir göstərəcəkdir. Beləliklə, müəllimlərin və pedaqoji kollektiv üzvlərinin vəzifəsi təhsil prosesi çərçivəsində münaqişələrin qarşısını almaqdan ibarətdir. Bunun üçün onların baş vermə səbəbləri və şərtlərindən xəbərdar olmaq, habelə öz davranışlarını təhlil etmək və bütövlükdə münaqişə vəziyyətini idarə etmək mütləqdir.

MONİTORİNQİN TƏLİM KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ ROLU

Mikayılova N.S.
Bakı Slavyan Universiteti
E-mail: nigarmikayilova1998@gmail.com

Təhsil sistemi mürəkkəb çoxsəviyyəli sistemdir və bütün sistemin fəaliyyətini izləmək kifayət qədər çətindir. Ona görə də monitorinqin əsas istiqamətlərini vurğulamaq çox vacibdir. Bu istiqamətlərə təhsilin və təlimin keyfiyyəti, təhsil nailiyyətlərinin səviyyəsi, şagirdlərin sağlamlıq vəziyyəti, müəllimlərin peşəkarlığı, təhsil sisteminin səmərəliliyi, təhsil müəssisəsində psixoloji mühit və s. aiddir. Monitorinq prosesi zamanı toplanmış məlumat adekvat tədris və ya idarəetmə modelini seçmək üçün müəllimə və ya rəhbərə lazımi və kifayət qədər məlumat verməlidir.Düzgün təşkil olunmuş monitorinqin nəticələri dinamikada tədris prosesinin nəticələri haqqında kifayət qədər dolğun və obyektiv məlumat əldə etməyə, şagirdlərin bilik və bacarıqlarında çatışmazlıqları, müəllimlərin güclü və zəif tərəflərini və s. görməyə kömək edir.

Monitorinqin təşkilində aşağıdakı mərhələlərdən keçilir: monitorinq sisteminin yaradılması üçün məqsədlərin seçimi, istifadəçilərin dairəsi və monitorinq növü; iş proqramının və onların icrası planının hazırlanması; monitorinq modelinin müəyyən edilməsi; göstəricilər toplusunun formalaşdırılması, onların operativləşdirilməsi, kəmiyyət və keyfiyyət səviyyələri üzrə bölüşdürülməsi; informasiya təhlilinin kəmiyyət və keyfiyyət səviyyələrinin birləşməsini təmin edən məlumatların toplanması üsullarının seçilməsi; məlumatların toplanması üçün vasitələrin hazırlanması (testlər, anketlər və s.); monitorinq tədqiqatlarında iştirak etmək üçün tələbələrin reprezentativ nümunə dəstlərinin formalaşdırılması; alətlərin keyfiyyətinin pilot tədqiqatlarının aparılması, alətlərin korreksiyası, onun standartlaşdırılması; monitorinq məlumatlarının miqyasının və inteqrasiyasının üsullarının seçilməsi; monitorinq məlumatlarının emalı üçün proqram təminatının hazırlanması; verilənlərin daxil edilməsi üçün proqram və vasitələrin hazırlanması; monitorinq məlumat bazalarının strukturunun və onların saxlanması üçün vasitələrin işlənib hazırlanması; məlumatların etibarlılığını təmin etmək üçün toplanmasına nəzarət prosedurlarının təşkili; məlumatın məxfiliyinə riayət edilməsi prosedurlarının təşkili; xam məlumatların təhlili və təmizlənməsi, monitorinq məlumatlarının emalı; verilənlərin etibarlılığının və əsaslılığının qiymətləndirilməsi, ümumiləşdirilmə qabiliyyətinin təhlili; müqayisə qrupları üzrə müqayisəliliyi təmin etmək üçün məlumatların düzəldilməsi və uyğunlaşdırılması;

təhlilin nəticələrinin şərhi; həyata keçirilməsi məqsədlərinə uyğun olaraq monitorinq nəticələrinin istifadəsi üzrə yekun hesabatın hazırlanması.Hər bir səviyyədə monitorinq nəticələrindən istifadə edərkən bu məlumatın nəzərdə tutulduğu istifadəçi qrupunun qavrayış imkanları ilə təqdim olunan məlumatların formatını və siyahısını əlaqələndirmək lazımdır. Koordinasiya monitorinq məlumatlarının təqdim edilməsi formatının, onların həcminin, təqdimat dilinin və şərh üçün zəruri izahedici materialların seçimi kimi başa düşülür. Bütün məlumatları təhlil etdikdən sonra qəbul edildikdə, dinamikada təhsil prosesinin inkişafının vahid mənzərəsini görə bilərik.Bu nəticələr əsasında təhsil prosesi korrektə edilir, idarəetmə qərarları qəbul edilir, təhsil müəssisəsinin inkişafı üçün uzunmüddətli plan hazırlanır. Bütün bunlar təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.Monitorinq cəmiyyəti və təhsil sistemini etibarlı, kifayət qədər dolğun və istifadə səviyyəsinə görə fərqləndirilmiş informasiya ilə təmin etmək üçün təhsilin keyfiyyətinin ən mühüm xüsusiyyətlərinə dair məlumatların davamlı toplanması, onların işlənməsi, təhlili və şərhi sistemi kimi başa düşülməlidir.

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN İNKİŞAFINDA MÜASİR TƏLİM TEXNOLOGİYALAR

Namazlı Q.İ.
Bakı Slavyan Universiteti
E-mail: goncanamazli02@gmail.com

Bu gün ölkəmizdə məktəbəqədər təhsil sahəsində uğurlu təlimlərin həyata keçirilməsi uşaq şəxsiyyətinin inkişafına kömək edir. Bu müasir təlim texnologiyalarından istifadənin vacibliyini qarşıya qoyur. Bu baxımdan Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramının (kurikulum) (3-6 yaş) müasir zamanın tələblərinə uyğun olaraq yeni mazmun va formada işlənməsi bu sahədə müasir təlim texnologiyalarının tətbiqinə xidmət edir. Təhsil sisteminin inkişaf tendensiyası və pedaqoji innovasiyalar sahəsində müəllif məktəblərinin, novator müəllimlərin iş üsullarına dair toplanmış faydalı təcrübələr, Pedogoji-psixoloji tədqiqatların nəticələri daima sistemləşdirmani. Ümumiləşdirməni və təlim-tərbiyə prosesinin məzmununun yeniləşdirilməsini talab edir. Bu problemlərin həlli təhsil sahəsinə, pedaqoji prosesa "texnologiya" anlayışının elmi əsaslarla gətirilməsini vacib bir problem kimi qarşıya qoyur və bütövlükdə təhsildə texnoloji yanaşmaların tətbiqini aktuallaşdırır edir.Müasir təlim texnologiyaları ilə iş zamanı uşaqların fərdi xüsusiyyətləri nəzərə alınır və bu xüsusiyyətləri inkişaf etdirmək üçün hər bir uşağa onun təlim fəaliyyətini təmin edən şərait yaradılır. Müasir təlim texnologiyalarından istifadə proseslərində uşaqların intellektual (əqli) qabiliyyətlərinin, onların bir şəxsiyyət kimi daxili özünəməxsus inkişaf mexanizmlərinin hərəkətə gəlməsinə kömək edən təlim metodları və üsulları diqqət mərkəzində saxlanır, daha çox və daha fəal şəkildə tətbiq olunur.

Müasir cəmiyyətin inkişafı məktəbəqədər sahənin, xüsusilə məktəbə hazırlıq təhsilinin qarşısına yeni tələblər qoyur. Qeyd edək ki, uşağın məktəbə hazırlanması təhsil sisteminin əsas pedaqoji tələblərindəndir. Bu iş dövlət siyasətinin əsas sahələrindən biridir. Uşaqların məktəb təhsilində uğur qazanması üçün hər bir uşağın bu mərhələni lazımi səviyyədə keçməsi lazımdır.Məktəbəqədər təhsildə müasir pedaqoji texnologiyaları daha ətraflı, kompleks şəkildə öyrənmək və mənimsəmək bu sahənin təhsil nümayəndələri üçün zəruridir. Təhsil sistemində məktəbəqədər pillədə həyata keçirilən islahatlar bu zəruriliyi yaradır.Pedaqoji prosesdə texnologiya nəzərdə tutulmuş məqsədlərin yerinə yetirilməsini təmin etməyə imkan verən, elmi əsaslar üzərində qurulmuş, məkan və zaman səviyyəsində proqramlaşdırılmış pedaqoji prosesin bütün komponentlərinin birgə fəaliyyət sistemidir. Həmçinin texnologiya pedaqoji prosesin paradiqmalarını müəyyən edən elə ardıcıllıq sistemidir ki, onun tətbiqi kamil insanda tələb olunan keyfiyyətləri formalaşdırmağa xidmət edir.Müasir pedaqoji texnologiyalar – pedaqoji prosesin tərkib hissəsi olub, təhsilin bütün sahələrində, eləcə də məktəbəqədər təhsilin səmərəli qurulması baxımından mühüm əhəmiyyətə malikdir.

ETNOPEDAQOJİ MATERİALLARIN TƏRBİYƏVİ MAHİYYƏTİ

Nəcəfova A.A.
Naxçıvan Dövlət Universiteti

Hər bir xalqın öz kimliyini, milli mənliyini, buna bağlı olaraq mənəvi dəyərlərini qoruması təbii ki, bu mənəvi dəyərləri tanıması, onlara sahib çıxması, mənimsəməsi ilə mümkündür. Eyni zamanda bir millətin

yaşama varlığını sürdürmə, davam etdirmə haqqını itirməməsi o milləti təşkil edəcək insanların sağlam mənəviyyata, sağlam xarakterə sahib olmasını təmin etmək yolu ilə mümkündür.

Cəmiyyətin ilk struktur birliyi şəxsiyyətin əsasını qoyan ailə hesab olunur. Şəxsiyyətin hərtərəfli və harmonik inkişafını, fiziki, mənəvi və psixoloji sağlamlığını qorumağı və möhkəmləndirməyi təmin edən tərbiyə sistemini yaratmaq və təşkil etmək məhz ailənin üzərinə düşür . Təbii ki, şəxsiyyətin formalaşdığı ilk müəssisə olan ailədə uşaqların əxlaq cəhətdən saf bir şəxsiyyət kimi yetişdirilməsində əsrlərin süzgəcindən süzülüb gələn və tarixin sınaqlarından çıxaraq xalqımızın əxlaqi fikir, düşüncə və təcrübələrini özündə əks etdirən maddi mədəniyyət abidələrimizdən, etnopedaqoji materiallardan istifadə etməklə həyata keçirmək zəruridir.Etnopedaqoji materialların böyük tərbiyəvi potensiala sahib olması, xalqın özünəməxsus xüsusiyyətlərini əks etdirməsi, gələcək nəsillərin bu milli xüsusiyyətin daşıyıcıları olması üçün xalqın bu tərbiyə sisteminin dərindən öyrənilməsi, üsul və vasitələrin müasir tələblər baxımından tətbiq edilərək gənc nəslin tərbiyəsi sahəsində istifadə edilməsi gərəklidir.

Burada əsas məqsəd etnopedaqoji materialların tərbiyəvi mahiyyətini, ailə tərbiyəsi baxımından imkanlarını müəyyən etmək, müasir ailə tərbiyəsində həmin materiallardan istifadə yollarını aşkara çıxarmaqdan ibarətdir. Əsas məqsəddən irəli gələn konkret vəzifələr isə aşağıdakı kimin sıralaya bilərik: 1. Ölkənin və cəmiyyətin həyatında baş verən siyasi, sosial və iqtisadi dəyişikliklərin ailə tərbiyəsi sahəsində yaratdığı problemləri dərindən təhlil etmək. 2. Eyni zamanda bu problemlərin yaranma səbəblərini öyrənməli və həlli yolları tapılmalı və bütün bunları geniş pedaqoji ictimaiyyətə çatdırmalı. 3. Etnopedaqoji materialların ailə tərbiyəsi baxımından imkanları araşdırılmalı. 4. Ailədə uşaqların əxlaqi şüurunun formalaşmasında etnopedaqoji materiallardan istifadənin imkan və yolları tədqiq edilməli. 5. Ailə tərbiyəsində adət və ənənələrdən istifadənin yolları müəyyənləşdirilməli .

Lakin təəssüflə qeyd etməliyik ki, etnopedaqoji materialların ailə tərbiyəsi baxımından araşdırılması ilə bağlı tədqiqatların azlığı, həmçinin hər bir ailəyə, tərbiyə ilə məşğul olan şəxslərə elmi-metodik köməklik göstərə biləcək vəsaitlərin çatışmazlığı praktik fəaliyyətdə özünü büruzə verdiyi üçün məhz ailə tərbiyəsində etnopedaqoji materiallardan istifadə imkanlarının və yollarının öyrənilməsi məsələnin praktik əhəmiyyətinin nə dərəcədə vacib olduğunu bir daha sübutudir. Etnopedaqoji materiallar çox nadir hallarda dəyişən, müəyyən proseslərə davam gətirmə gücünə sahib tərbiyə vasitəsidir. Lakin nə qədər də olsa, toplumda gedən bəzi proseslər, eyni zamanda cəmiyyətin müəyyən istiqamətdə dəyişməsi etnopedaqoji materiallara da müəyyən mənada təsir göstərir, onda da bir sıra dəyişikliklərə səbəb olur. Son zamanlarda öz müstəqilliyinə qovuşmuş ölkəmizin sosial-iqtisadi həyatında baş verən yüksəliş, oyanma və dəyişmə prosesləri ilə yanaşı kənar təsirlərə qarşı daha açıq bir hala gəlməsi sosial həyatın bütün sahələri kimi bu sahəyədə əsaslı dərəcədə təsir göstərir.

Son olaraq, etnopedaqoji materialların tərbiyəvi mahiyyəti tədqiq edilərkən xalqın uzun əsrlər boyu ailə tərbiyəsi sahəsində toplanmış, bilavasitə həyati təcrübədə özünü doğrultmuş zəngin pedaqoji irsi öyrənilməli və çağdaş tərbiyə işində istifadə olunmalıdır. Həmin irsin etnopedaqoji materiallarda, xalq pedaqogikası materiallarında qorunub saxlanmasının daim aktuallıq kəsb etdiyi tərbiyə prosesində ön planda saxlanılmalıdır.

MÜASİR DÖVRDƏ TƏHSİLİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

Qəhrəmanova S.
Naxçıvan Dövlət Universiteti
E-mail: sevilgahramanova99@gmail.com

Təhsil sistemi və onun məzmunu ölkənin gələcəyinə xidmət edir. Bu fikrin xüsusi dəlillərlə sübuta ehtiyacı yoxdur, çünki insan cəmiyyətinin çoxəsrlik tarixi bunu sübut edir. Hələ Aristotel yazırdı ki, "Qanun verənlər gənclərin tərbiyəsinə xüsusi diqqətlə yanaşmalıdırlar, çünki hansı dövlətlərdə bu problemlər diqqət mərkəzində deyil, həmin ölkədə dövlət quruluşu ziyanlarla üzləşir. Aydındır ki, dövlət quruluşu formasından asılı olmayaraq, tərbiyənin forma və məzmununa möhtacdır". Bütün əsrlərdə görkəmli alimlərin fəlsəfi-psixoloji məzmunda yazılmış əsərlərində təhsil və tərbiyə məsələləri haqqında fikirlərində təlim-tərbiyə prosesinin gələcəyə istiqamətlənməsi haqqında maraqlı fikirlər irəli sürülmüşdür. Müasir dövrdə təhsil sistemi əsaslı şəkildə cəmiyyətin sosial-iqtisadi inkişafına təsir göstərir. Təsadüfi deyil ki, müxtəlif ölkələrin alimləri XXI əsrdə insanlıq qarşısında duran vəzifələrdən danışarkən, hər şeydən əvvəl, çalışırlar ki, təhsilin inkişaf istiqamətlərini müəyyənləşdirsinlər.

XXI əsrin təhsil prosesi qarşısında qoyduğu mühüm yeniliklərdən biri də təhsil prosesinin subyekt – obyekt münasibətlərinin subyektlər münasibətinə çevrilməsidir. Təsadüfi deyil ki, hələ 1999-cu ildə "Təhsil sahəsində İslahat Proqramında "təhsil alanın şəxsiyyət kimi formalaşdırılmasını, onun təlim-tərbiyə prosesinin əsas subyektinə çevrilməsini başlıca vəzifə hesab edən yeni təhsil sisteminin yaradılması"qeyd edilirdi . Bu çağırış – şagirdlərin prosesin subyektlərinə çevrilməsi – təhsil prosesinin idarə olunmasına yeni münasibət formalaşdırır. Təhsil müəssisəsi rəhbərləri ardıcıl olaraq bu tələbin həyata keçirilməsinə diqqəti artırmalıdırlar, çünki şagirdin subyekt funksiyası təhsildə keyfiyyətin əldə edilməsi ilə əlaqədardır. Bu həqiqəti təhsil müəssisəsi rəhbərlərinə, ümumiyyətlə, oxucularımıza izah etmək üçün şagirdin subyektlik funksiyasının təhsilin keyfiyyəti ilə bağlı olmasının elmi əsaslarının ardıcıllıqla açıqlanması yerinə düşər.

Bu gün təhsil işçilərinin bu problemə münasibətləri – şagird şəxsiyyətinə, onun əxlaqına və fəaliyyətinə münasibət kimi məktəbin mövqeyindən açıqlanır. Müxtəlif səviyyələrdə təhsili idarə edənlər yeni konsepsiyalar, standartlar, kurikulumla dərslik və proqramlar, təlim vasitələri və s. yaratmağa çalışırlar. Təhsili idarə edənlər, müəllimlər və valideynlər uşaqların əvəzinə onların gələcək həyatlarının istiqamətlərini layihələşdirməyə çalışırlar. Demək olar ki, təhsilin istiqamət perspektivləri hamını – ölkə miqyasında idarəetmə qərarlarını qəbul edən insanlardan tutmuş, təhsil müəssisəsi rəhbərlərini, elmi işçiləri, dərslik müəlliflərini, metodistləri, praktik müəllimləri, bir sözlə, müxtəlif səviyyələrdə təlim-tərbiyə prosesini təşkil edənləri və nəhayət, valideynləri, bütün ictimaiyyəti narahat edir, düşündürür, çıxış yolları axtarmağa məcbur edir. Bu çıxış yollarından biri və ən mühümü müasir şəraitdə təhsilin keyfiyyəti, onun idarə edilməsidir. Hamı razılaşar ki, ölkəmizdə bir çox təhsil müəssisələri məktəbi qurtaranlara dövlət təhsil standartlarına uyğun məcburi minimum bilikləri qazandıqları haqqında zəmanət verə bilmirlər.

Qeyd etmək yerinə düşərdi ki, son zamanlar bu haqda çox danışırılır, müzakirələr keçirilir, qərarlar qəbul edilir. Problemin açılışı, xüsusən də məktəbdə təhsilin keyfiyyətinin idarə olunması bu gün çox aktuallıq kəsb edir. Təhsildə keyfiyyət həmişə diqqət mərkəzində olmuşdur. Məhz buna görə müasir dövrdə pedaqogika, psixologiya elmlərinin müasir inkişaf səviyyəsindən istifadə edərək qərara gəlinmişdir ki, təhsilin keyfiyyətinin idarə olunması vasitələrini araşdırsın. Çünki müxtəlif səviyyəli müəllimlər, pedaqoqlar qiymətləndirməyə öz başa düşdükləri kimi yanaşırlar. Bu da problemi çətinləşdirməklə bərabər, həm də aktuallaşdırır. Qeyd etmək lazımdır ki, şagirdlərin bilik, bacarıq və vərdişlərini, vətəndaşlıq səviyyəsini qiymətləndirmək pedaqoji elm sahəsinə aid olmasına baxmayaraq, bu problem həm də valideynlərə aiddir. Oxucular razılaşarlar ki, məktəb elmi əsaslarla idarə olunmursa, təhsilin keyfiyyəti vaxtlı-vaxtında təhlil edilmirsə, monitorinqlər keçirilmirsə, belə müəssisədə keyfiyyətdən danışmaq olmaz. Məhz bunu nəzərə alaraq, didaktlar, psixoloqlar, tərbiyə sahəsində çalışan mütəxəssislər idarəetmə terminindən çox müvəffəqiyyətlə istifadə edirlər və öz fəaliyyətlərində biliklərin mənimsənilməsi prosesinin idarə olunmasını, şagirdlərin tərbiyə prosesinin təşkilati tədbirlər vasitəsilə həyata keçirilməsini qeyd edirlər.

MONİTORİNQ, QİYMƏTLƏNDİRMƏ VƏ TƏHSİLİN KEYFİYYƏTİNİN TƏLİM-TƏRBİYƏ PROSESİNDƏ YERİ

Quliyev İ.N.
Naxçıvan Dövlət Universiteti

XX əsrdə ətraf mühitin bir və ya bir neçə elementinin məkan və zamanda təkrar məqsədyönlü müşahidələrinə istinad etmək üçün elmdə monitorinq termini yarandı. Bu anlayışın dəqiq, birmənalı şərhi yoxdur, çünki elmi və praktiki fəaliyyətin müxtəlif sahələrində istifadə olunur. "Monitorinq" həm tədqiqat forması, həm də idarəetmə sektorunu vaxtında və keyfiyyətli məlumatlarla təmin etmək üsuludur.

Təhsildə monitorinq təhsil sistemi və ya onun ayrı-ayrı elementləri haqqında məlumatların seçilməsi, emalı, saxlanması və yayılması, idarəetmənin informasiya təminatına yönəldilməsi, istənilən vaxt obyektin vəziyyətini mühakimə etməyə imkan verən və onun proqnozunu verə bilən sistemdir. Monitorinqin məqsədi təhsil müəssisəsinin fəaliyyəti sahəsində baş verən bütün dəyişiklikləri operativ və vaxtında müəyyən etməkdir. Əldə edilmiş obyektiv məlumatlar idarəetmə qərarlarının qəbulu üçün əsasdır.Monitorinq funksiyalarını müəyyən etmək onun təhsil prosesində rolunu və əhəmiyyətini müəyyən etmək deməkdir. Həll edilməli olan daimi problem funksiyadır. Monitorinqin üsul və texnologiyaları aşağıdakı qruplara bölünür:

- Dəyişikliklərin müşahidəsi: pedaqoji müşahidənin effektivliyi müəllimin psixoloji səriştəsindən, təcrübəsindən asılıdır; şagirdlərə münasibət, peşə mövqeyi, belə bir araşdırma subyektivdir, bu da monitorinqin keyfiyyətinə təsir göstərir;

- Test situasiyalarının metodu: fəaliyyətin hər bir komponentinin ən aydın şəkildə təzahür etdiyi xüsusi şərait yaratmaq üçün müəllim şagirdlərin öyrənmə fəaliyyətini dayandırmaq, aydınlaşdırıcı suallar vermək, idrak hərəkətlərini stimullaşdırmaq, yardımın dozası və s.;
- İzahat (təhsil fəaliyyətinin məzmununun yerləşdirilməsi) şagirdin inkişafında baş verən dəyişikliklərin diaqnostikasını aparmağa və tədris prosesində operativ şəkildə düzəlişlər etməyə imkan verir.

Aşağıdakı monitorinq üsulları müəyyən edilmişdir:

- sorğu metodları - xüsusi seçilmiş standart suallara yazılı və ya şifahi cavabların təhlili əsasında tədris prosesinin subyektlərinin inkişafı haqqında məlumat əldə etməyə imkan verir;
- tədris fəaliyyətinin nəticələrinin təhlili, şagirdlərin yazılı mətnləri, yaradıcılıq işləri, qrafik materialları əvvəlcədən müəyyən edilmiş sxem üzrə öyrənilir;
- test - pedaqoji proseslərin inkişaf səviyyəsi və təhsil subyektlərinin zehni inkişafının şiddət dərəcəsi haqqında məlumatların toplanmasının obyektiv üsullarından biridir. Testin normaya yönəldilməsi testdən istifadə edərək alınan balları müqayisə etməyə, müqayisə etməyə imkan verir.

Qarşıya qoyulan məqsədlə əldə edilən nəticənin nisbəti təhsilin keyfiyyəti üçün meyar ola bilər. Əgər təhsilin keyfiyyətini qiymətləndirərkən təhsilin effektivliyini yoxlamaq üçün müəyyən texnologiya və metodların yaradılmasından çıxış ediriksə, o zaman təhsilin keyfiyyətinin nəticələr əsasında idarə olunması məsələsi göz qabağındadır. Keyfiyyətin iki tərəfi var: standarta uyğunluq və istehlakçıların ehtiyaclarına uyğunluq. Standart fənlər üzrə materialdan istifadənin istiqamətini və sərhədlərini müəyyən edən vasitə kimi, eyni zamanda, təhsilin nəticəsinə yönəldilə bilən məqsədlərdən biri sayıla bilər. Monitorinqin əsas istiqamətləri təhsil prosesində şagirdin şəxsiyyətinin inkişaf dinamikasını izləmək üçün zəruri olan məlumatların əldə edilməsi məqsədilə uzunmüddətli və sistemli müayinədən ibarətdir. Məktəbdaxili pedaqoji monitorinqin təşkili, yəni pedaqoji sistemin fəaliyyəti haqqında məlumatların toplanması, saxlanması, yayılmasının işlənməsinin təşkili sistemi yeni informasiya texnologiyalarından istifadə etməklə həyata keçirilir.

Təhsilin keyfiyyətini qiymətləndirərkən bunları öyrənmək lazımdır: şərait, təhsil prosesi və onun nəticələri. Şərtləri öyrənərkən aşağıdakılara diqqət yetirilməlidir: məktəbin növü; müəllim heyətinin bacarıq səviyyəsi; məktəbin tədris-metodiki təminatı; məktəbin maddi-texniki bazası; məktəbin hüquqi bazası; məktəbin maliyyə dəstəyi; şagird kütləsi və s.Təhsilin keyfiyyətinin qiymətləndirilməsi problemi hazırda Azərbaycan Respublikasının bütün təhsil sistemi üçün ən aktual problemlərdən biridir. Həm dövlət, həm də regional səviyyədə təhsil sistemindəki dəyişikliklərin ümumi xüsusiyyəti təhsilin keyfiyyətinin təmin edilməsinə, keyfiyyətin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsinə və müasir cəmiyyətin tələblərinə uyğunluğuna diqqət yetirməkdir. Təhsilin keyfiyyətinin qiymətləndirilməsi təkcə normanın yerinə yetirilməsinin ifadəsi deyil, həm də təhsil sisteminin inkişafına təsir göstərən incə avasitə, mənalı idarəetmə qərarlarının qəbulu üçün əsasdır. Bu gün məktəbin, müəllimin və şagirdlərin işinin göstəricilərinin seçilməsi üçün yeni meyarlara ehtiyac var.

Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası ölkədə təhsildə qiymətləndirmə məsələləri ilə bağlı tədbirləri istiqamətləndirmək üçün nəzərdə tutulmuşdur. Sənədin əsas məzmunu qiymətləndirmə fəaliyyətinin qanuniliyini təmin edən prinsiplərin müəyyənləşdirilməsinə, bu fəaliyyətin aparıcı istiqamətlərinin müəyyənləşdirilməsinə, qiymətləndirmə fəaliyyətini həyata keçirən qurumların sosial statusunun gücləndirilməsinə, kadr hazırlığı və qiymətləndirmə ehtiyaclarının ödənilməsi üçün qiymətləndirmədən istifadə edilməsinə yönəlib. Hazırda Azərbaycan Respublikasında bir çox sahələrdə olduğu kimi, təhsil sahəsində də əsaslı islahatlar aparılır. Bu islahatların əsas məqsədi cəmiyyətin tələbat və tələbləri nəzərə alınmaqla təhsilin keyfiyyətinin yüksəldilməsi və inkişafının təmin edilməsidir. Bu baxımdan təhsilin keyfiyyətini şərtləndirən amillərə, ilk növbədə təhsilin məzmununa, müəllim hazırlığı və qiymətləndirmə sisteminə yenidən baxılmasına ehtiyac var. Tədris prosesinin təkmilləşdirilməsi, bütün ölkə üzrə şagirdlərin nailiyyətləri haqqında obyektiv məlumatların əldə edilməsi, habelə dövlət təhsil standartlarının monitorinqinin müasir qiymətləndirmə mexanizmlərinin yaradılması mühüm vəzifə kimi təklif olunur. Təhsilin keyfiyyətinin müəyyən edilməsində əsas göstərici şagirdin təlim nəticələri olduğundan, bu nəticələrin obyektiv qiymətləndirilməsi keyfiyyəti üzə çıxaran ən etibarlı mənbə hesab olunur.

Təhsilin keyfiyyətinin qiymətləndirilməsi üzrə milli sistemlə bağlı suallara baxılır. Amma praktikada təhsilin keyfiyyəti anlayışının özü hələ kollektivlərin, müəllimlərin və pedaqoqların şəxsi mənasına çevrilməyib. Eyni zamanda, göz qabağındadır ki, bu gün təhsil sistemində aparılan islahatlar onun keyfiyyətinin proqnozlaşdırılmasına və monitorinqinə əsaslanmalıdır. Qeyd olunduğu kimi, ölkəmizdə təhsil standartının əsas predmeti məktəblilərin bilik, bacarıq və təhsil fəaliyyətinə tələblər şəklində orada müəyyən edilmiş təlim nəticələridir. İkinci nəsil ümumi təhsilin Dövlət Təhsil Standartı konsepsiyasında standart

aşağıda göstərilən üç tələbin sistemi kimi təqdim olunur: əsas təhsil proqramlarının mənimsənilməsinin nəticələri; əsas təhsil proqramlarının strukturunu; əsas təhsil proqramlarının həyata keçirilməsi üçün şərait.

Dövlət səviyyəsində təhsil xidmətlərinin keyfiyyətinin qiymətləndirilməsini Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərədindən təhsil müəssisələrinin fəaliyyətinin monitorinqini həyata keçirir. Bu da aşağıdakı əsas parametrlərin qiymətləndirilməsini əhatə edir: təhsil, elmi-tədqiqat, beynəlxalq, maliyyə və təsərrüfat fəaliyyəti; təhsil xidmətlərinin göstərilməsi ilə məşğul olan infrastruktur; müəllim heyətinin xüsusiyyətləri.Beləliklə, keyfiyyətin təminatı və ya təhsilin keyfiyyətinin idarə edilməsi təhsil prosesinin mərhələli monitorinqini nəzərdə tutur. Bununla belə, keyfiyyətin qiymətləndirilməsi üsulları tam sistemləşdirilməmişdir. Bunu nəzərə alaraq, təhsil xidmətlərinin keyfiyyətinə təsir və tənzimləmə üçün uyğun olan yeni konsepsiya və müşahidələrin alt strukturuna ehtiyac var. Təhsilin keyfiyyətinin qiymətləndirilməsi üzrə ümumi nəzəri model mütərəqqi əmək bazarının şərtlərinə cavab verən və təhsil müəssisələrinin məzunlarına olan tələbatı və sonrakı mütəxəssislərin rəqabət qabiliyyətini təmin edən təcrübə yönümlü modellə əvəz edilməlidir.

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN İNKİŞAFI, TƏRBİYƏSİ VƏ TƏHSİLİNİN MAHİYYƏTİ

Sadiqova P.P.
Naxçıvan Dövlət Universiteti
E mail: pinarsadiqova1gmail.com

Məktəbəqədər yaşlı uşaqların inkişafı, tərbiyəsi və təhsili sahəsindəki vəzifələr, ümumiyyətlə həmin problemin müstəqil dövlətçiliyimiz baxımından əsas konsepsual prinsip və müddəaları Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin müxtəlif çıxış, məruzə və nitqlərində milli-ideoloji, elmi-nəzəri cəhətdən bütün incəlikləri ilə işıqlandırılmışdır. Milli tərbiyənin mühüm komponenti olan tərbiyədən danışarkən Heydər Əliyev demişdir: "Tərbiyə geniş məna daşıyır. Tərbiyə təkcə o deyil ki, gedib Vətəni silahla müdafiə edəsən. Insan gərək həyatının hər dövründə, fəaliyyətinin bütün sahələrində öz Vətəninin, ölkəsinin qayğısı ilə yaşasın, onun həm iqtisadiyyatının, həm siyasətinin, həm də mədəniyyətinin qayğısı ilə yaşasın. Bunlar hamısı tərbiyədən doğan şeydir. Insan öz mədəniyyətinin də, iqtisadiyyatının da, öz dilinin də, təhsilinin də inkişaf etməsini istəyir". Müstəqil Azərbaycan Respublikasının islahat proqramında maarif işçiləri qarşısında bir sıra məsələlər qoyulmuşdur ki, bura yüksək keyfiyyətli, dərin və hərtərəfli biliyə, mədəniyyətə, mütərəqqi dünyagörüşə malik, Azərbaycan xalqının azadlıq və demokratik ənənələrinə bağlı olan, Vətəni, millətini və dilini sevən, insan hüquqları və azadlığına hörmət edən, müstəqil və yaradıcı düşünən, yüksək əxlaq və mənəvi keyfiyyətləri özündə cəmləşdirən, sivilizasiyalı cəmiyyət qurmağa qadir olan, idrak səviyyəsi yüksək, sağlam və humanist keyfiyyətli, dostuna dost, düşməninə düşmən kimi yanaşan, hərtərəfli vətəndaş yetişdirməkdir. Kiçik yaşlı uşaqlar ailə səadəti, xeyir, şər haqqında, yoldaşlıq, dostluq, qayğıkeşlik, ədalət, ədalətsizlik, sülh, əmin-amanlıq, müharibə, dağıntı, ekoloji çətinliklər, hüquq qanunları, iqtisadi biliklər, qənaət, sadəlik, təvazökarlıq, düzlük və doğruçuluq və s. haqqında, təsəvvür və anlayışlara məhz həmin məktəbəqədər müəssisələrdə və məktəblərdə yiyələnirlər.

İnkişaf etməkdə olan cəmiyyətimizdə şəxsiyyətin inkişafı və onun mənəvi keyfiyyətlərinə dair vəzifələr yetişməkdə olan nəslin qarşısında məsuliyyət hissini müntəzəm surətdə artırır. Gənc nəslin formalaşması şəraiti isə nəinki yaxşılaşır, həm də xeyli mürəkkəbləşir. Bu mürəkkəbləşmənin əsas səbəblərindən biri elm və texnikanın surətlə inkişaf etdiyi atom, elektron və kosmos əsrində uşaqların mənəvi düşüncələrini zənginləşdirən amillərin sayının getdikcə artmasıdır. Bütün bunlar o deməkdir ki, gənc nəsildə lazımi mənəvi və fiziki keyfiyyətlər yetişdirmək üçün cəmiyyətin şüurlu, məqsədyönlü fəaliyyəti kimi tərbiyənin rolu da ildən-ilə artır. Cəmiyyətin hazırki mərhələsində gənc nəslin inkişafı üçün ölkəmizin tarixində ən əlverişli obyektiv şərait yaradılmışdır. Belə ki, indi ölkəmizdə iqtisadi, sosial-siyasi, ideoloji vəzifələr müvəffəqiyyətlə həyata keçirilir, xalqın mədəni səviyyəsi, maddi rifah halı yüksəlir, uşaq və gənclərin inkişafına təsir göstərən ailənin imkan və şəraiti genişlənirMəlumdur ki, bu yüksəkliklə yanaşı, cəmiyyətdə şəxsiyyət, onun mənəvi keyfiyyətləri, təhsili, mədəniyyəti qarşısında duran tələblər müntəzəm surətdə artır. Bu prosesdə gənc nəslin formalaşması şəraiti isə nəinki təkcə yaxşılaşır, həm də xeyli mürəkkəbləşir.

Deməli, inkişaf prosesinin özü də müəyyən ziddiyyət yaradır. Bu ziddiyyətin başlıca səbəbi tərbiyə prosesinin obyektiv əsası kimi adamların sosial həyatının, özünün mürəkkəbləşməsidir. Məktəbəqədər yaşlı uşaqların yoldaşlıq, dostluq və qayğıkeşlik kimi əxlaqi keyfiyyətlərinin formalaşmasına təsir göstərən mühüm şərtlərdən biri uşağı əhatə edən müvafiq mənəvi mikromühitin yaradılmasıdır. Bunun əsasını isə uşağın

şəxsiyyətinə hörmət və qayğı, ağıllı tələbkarlıq təsir edir. Əlbəttə, uşaq mikromühitində baş verən hadisələrin heç də hamısı sosial həyat tərzinin normalarına uyğun gəlmir. Uşaq şəxsiyyətinin formalaşdığı bu mikromühitin obyekti təsiri ilə inkişaf etməkdə olan cəmiyyətimizin təlqin etdiyi əxlaq normalarının toqquşması heç də həmişə cəmiyyətin xeyrinə olan nəticəyə gətirib çıxarmır. Bütün bunlar uşaq və gənclərin tərbiyəsində yalnış davranışın təşəkkül etməsinə gətirib çıxarır, nəticədə uşaqlarda ikiüzlülük, riyakarlıq, tənbəllik və s. formalaşır. Deyilənlərdən aydın olur ki, uşaqlarda dövrün tələbinə uyğun əxlaqi keyfiyyətlərin inkişafı üçün cəmiyyətin şüurlu, məqsədyönlü fəaliyyəti getdikcə güclənir. Müsbət əxlaqi keyfiyyətlərin mahiyyəti, məqsədi, məzmunu və əhəmiyyətini düzgün dərk etmək üçün əxlaqın necə yarandığını bilmək zəruridir. Fəlsəfi, pedaqoji ədəbiyyatda əxlaqın mənşəyi haqqında müxtəlif fikirlər mövcuddur. Bəzi alimlər iddia edirlər ki, insan ictimai varlıqdır, onun fəaliyyəti də ictimai mühitlə, ictimai qaydalarla təyin edilir. Ictimai varlıq olan insanın əxlaqı öz başlanğıcını həyatdan alır. Buna görə də əxlaq ictimaidir. Digər qrup alimlərə görə insan hər şeydən əvvəl canlı varlıqdır, canlı orqanizmdir, onun yaşayış tərzi canlı təbiət qanunları əsasında baş verir. Insan da başqa canlılar kimi doğulur, mübarizə aparır və ölür. Ictimai mühit yalnız insan nəslinin yaşaması, artıb-törəməsi üçün şərait olmaqla kifayətlənmir, bioloji prosesin baş verməsinə heç cürə mane olmur, əksinə, özü insanın bioloji prosesində fəaliyyət göstərməsini təsdiq edir.

TƏLƏBƏLƏRİN TƏLİM FƏALİYYƏTİ MOTİVASİYASINDA MÜƏLLİMİN SƏRİŞTƏLİYİ VƏ USTALIĞI

Səfərəliyeva P.F.
Bakı Slavyan Universiteti
E-mail: safaraliyevap89@gmail.com

Məsələnin aktual və önəmliliyinə istinadən son illər müəllimlərin peşəkarlığı və səriştəliliyi tez-tez gündəmə gətirilir. Peşəkarlıqla səriştəliliyin müəllimdə cəmləşməsi onun pedaqoji ustalığının və müəllim novatorluğunun əsas əlamətləri kimi qeyd olunur. Peşəkarlıq və səriştəlilik müəllim üçün vacib olan ən mühüm keyfiyyətlər sırasında ilk yerlərdən birini tutur. Bu iki keyfiyyət pedaqoji fəaliyyətin elə mühüm tərəflərini özündə birləşdirir ki, bunlar pedaqoji prosesin tamlığını, şəxsiyyətyönümlülüyünü, nəticəyönümlülüyünü təmin etməklə təhsilalanların təfəkkürünün və şəxsiyyətinin inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir və gənc nəslin zəngin biliyə, mütərəqqi dünyagörüşə malik bir şəxsiyyət kimi formalaşmasına səbəb olur. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında birinci strateji istiqamət olan "Səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması"nın əsas hədəflərindən biri kimi təhsilverənlərin peşəkarlıq səviyyəsinin daim yüksəlməsini təmin edən yeni sistemin yaradılması bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Müəllimin peşəkarlığı və səriştəliliyi müəllimin əslində bir müstəvidə – pedaqoji prosesdə öz fəaliyyətini peşəkarcasına yerinə yetirə bilməsi və bu prosesə səriştəli yanaşmasıdır. Başqa sözlə, yiyələndiyi peşənin bütün incəliklərini dərindən bilməsi, müəllimlik fəaliyyətini ustalıqla yerinə yetirməsi, həll edəcəyi problemi elmi şəkildə, optimal metodlarla reallaşdıra bilməsidir. Peşəkarlıqla səriştəlilik bir – biri ilə elə sıx əlaqəlidir ki, bunların birinə malik olub, digərinə yiyələnməmək mümkün deyildir.

Peşəkarlıq – müəllimin lazımi biliyə, bacarıqlara, tələbələrlə yaradıcı şəkildə işləyə bilmək texnologiyalarına sahib olması, pedaqoji prosesin incəliklərinə dərindən yiyələnməsidir."

Səriştəlilik – müəllimin pedaqoji prosesi məharətlə, daha əlverişli metodlarla reallaşdıra bilməsidir. "Əldə olunmuş bilik və bacarıqları praktiki fəaliyyətdə effektiv və səmərəli tətbiq etmək qabiliyyətidir. O, şəxsin qazandığı bilik və bacarıqların konkret fəaliyyətin nəticəsinə çevrilməsini təmin edir. Səriştəyə əsaslanan təhsil sosial-iqtisadi inkişafa daha effektli xidmət göstərir"

Pedaqoji prosesə səriştəli yanaşma müəllimdən dərin bilik və bacarıq tələb edir. Buna görə də peşəkarlıqla səriştəlilik birbiri ilə qarşılıqlı surətdə əlaqədardır. Müəllimin pedaqoji dəyərlərə yiyələnməsi, bu dəyərləri qoruması, pedaqoji prosesdə novator pedaqoq kimi fəaliyyət göstərməsi peşəkarlıqla səriştəliliyin əlaqəsi və pedaqoji ustalığın meyarları kimi özünü göstərir .Peşəkarlıq və səriştəlilik müəllimin peşə fəaliyyətinin əsasıdır. Onun formalaşmasının əsası müəllim hazırlığı prosesində qoyulur. Buna görə də müəllimin pedaqoji peşəkarlığının və səriştəliliyinin formalaşmasına pedaqoji təhsil illərindən, yəni peşə biliklərinin aşılanması prosesindən başlanılmalıdır.

Pedaqoji ədəbiyyatlarda müəlliminin səriştəlilik modelinin strukturunun fəaliyyət növlərinin aşağıdakılardan ibarət olduğu göstərilir:

- *Texnoloji* (tədris təlim və tərbiyə prosesində pedaqoji texnologiyaların mənimsənilməsi və səmərəli istifadəsi);
- *Layihə-konstruktiv* (tədris (işçi) proqramlarının layihələndirilməsi, təhsilmüəssisəsinin əsas təhsil proqramlarının işlənməsində iştirak, universal tədris fəaliyyətinin və əsas səriştəliliklərin formalaşdırılmasını təmin edən tapşırıqların konstruksiya edilməsi);
- *Analitik* (tədris-metodik komplekslərin dövlət standartlarına uyğunluğunun təhlili; əsas səriştəliliklərin və universal tədris fəaliyyətinin formalaşmasını təmin edən tapşırıqların seçilməsi);
- *Proqnostik* (təklif olunan tədris-metodik komplekslərin təhlili əsasında əsas təhsil proqramlarının mənimsənilmə nəticələrinin proqnozlaşdırılması);
- *Qiymətləndirmə* (əsas təhsil proqramlarının mənimsənilmə nəticələrinin qiymətləndirilməsi üçün yeni sistemin tətbiqi: bal-reytinq sistemi, təlim nəticələrinin portfelivə s.);
- *Monitorinq*(tədris təlim prosesinin və dərs vermənin keyfiyyətinin müəyyən edilməsi üçün texnoloji monitorinqin mənimsənilməsi və istifadə olunması)

Təhsilalanların savadlı və səriştəli şəxs kimi formalaşmasına müəllimin təsiri müəllimin akademik bacarıqlarından, tədris təcrübəsindən və peşəkarlıq səviyyəsindən xeyli asılıdır. Peşəkarlıq və səriştəlilik müəllimin fəaliyyət strukturunun əsasını təşkil edir. Müəllimin peşəkar olması, səriştəliliyi müəllim peşəsini daha nüfuzlu, müəllim əməyini daha maraqlı, daha məzmunlu və daha səmərəli edir.

Müəllimin peşəkarlığı, peşəsində səriştəli olması təhsilalanların daha yaxşı oxumalarına, təhsil prosesində daha dərin və hərtərəfli bilik, bacarıq və vərdişlər qazanmalarına, mənəvi-əxlaqi dəyərlərə daha mükəmməl yiyələnmələrinə, rəqabət qabiliyyətli mütəxəssislər kimi formalaşmalarına, hər bir vətəndaşın cəmiyyətin layiqli üzvü kimi tərbiyə olunmalarına, milli və ümumbəşəri dəyərləri mənimsəmələrinə əlverişli zəmin yaradır. Təlim prosesində motivasiyanı təhsilalanlarda yaradılması və inkişafı üçün müəlliminin pedaqoji ustalığı aşağıdakı amillərdə əks olunmuşdur.

1. Ünsiyyət mədəniyyətinə malik olan müəllim bacarmalıdır; tələbələrin daxili aləminə nüfuz etməsi; ehtiyaca uyğun (tələbata uyğun) konstruktiv tənqiddən istifadə etmək; tələbələrin şəxsiyyətlərinə hörmət bəsləmək və onların fikirlərinə hörmətlə yanaşmaq;
2. Müəllim və tələbə arasında inam və etimada söykənən psixoloji mühit yaradılmalıdır; tələbələrdə təlimə qarşı olan daxili motivasiyanın aşkarlanması; tələbələrin emosional xüsusiyyətlərinin müəllim tərəfindən üzə çıxarılması və eyni zamanda öz hisslərinin ifadəsində də müəllimin səmimi mövqe tutması.
3. Əməkdaşlıq münasibətlərinə söykənilməlidir; təlimin məqsəd və vəzifələrinin qoyuluşunda müəllimin hər bir tələbəyə ayrı-ayrılıqda istiqamət verməsi; müəllimin təlim fəaliyyətində tələbələrə etibar etməsi və bu münasibəti onlara hiss etdirməsi; tələbəyə öz nüfuzunu qoruyub saxlamağa imkan yaratmaq;
4. Təlimin motivasiya resursları aktuallaşdırılmalıdır: tələbəyə öz nailiyyətlərini tanıtdırmaq (çatdırmaq); tələbələrin nailiyyətlərini obyektiv qiymətləndirmək; tələbələrin yaxşı olacağına yüksək inam bəsləmək və xüsusi diqqət göstərmək və s.

Təcrübə göstərir ki, müəllimin peşəkarlığı, peşəsində səriştəli olması, pedaqoji dəstəyin müəllimin etibarı zəminində təşkili təhsilalanlarda fəallığın yaranmasına, özünütəhrikə, motivlərə yol açır, təhsilalanların daha yaxşı oxumalarına, təhsil prosesində daha dərin və hərtərəfli bilik, bacarıq və vərdişlər qazanmalarına, mənəvi-əxlaqi dəyərlərə daha mükəmməl yiyələnmələrinə, rəqabətqabiliyyətli mütəxəssislər kimi formalaşmalarına, hər bir vətəndaşın cəmiyyətin layiqli üzvü kimi tərbiyə olunmalarına, milli və ümumbəşəri dəyərləri mənimsəmələrinə əlverişli zəmin yaradır.

H.ZƏRDABİNİN MÖVHÜMAT VƏ VƏHALƏTƏ QARŞI MÜBARİZƏSİ

Səfərova S.M.
Naxçıvan Dövlət Universiteti
E-mail: seriyye075@icloud.com

Həsən bəy Zərdabi xalqın şüurunda mövhumat və cəhalətin dərin kök salmasının səbəblərini mücərrəd anlamamış, bunları həmçinin xalqın iqitisadi inkişaf səviyyəsilə, onun tərzi ilə bağlamışdır.Həsən bəy qəzet çıxarmaq uğrunda israrla, amma çox ehtiyatlaikinci, üçüncü cəhdini etdikcə, onun bu qəzeti gah rus dilində çıxarmağı, gah da baş məqaləsiz və ya iyirmi gün öncə Qafqaz canişinliyində senzordan keçəndən sonra çap olunmasını tövsiyə edirdilər. Həsən bəy bütün ümidlərini Staroselskiyə bağlayaraq ondan cavab gözləyirdi. Onun şəxsi münasibətlərinin əsasında məsələnin müsbət həll olunması gözlənilirdi. Nəhayət, qubernator

Staroselski Qafqaz senzura idarəsinə yazdığı məktubun məzmunuilə Həsən bəyi tanış etdi. "Əkinçi" qəzetinin senzuradan keçirilməsiBakı qubernatorunun sərəncamı ilə onun bilavasitə nəzarəti və məsuliyyəti altında tam etibarlı və inanılmış şəxsə tapşırılsın". Həsən bəyin sevincinin həddi-hüdudu yox idi.

İqtisadi və mədəni geriliyin hökm sürdüyü, mövhumat və cəhalətin güclü olduğu bir dövrdə Zərdabinin maarif uğrunda mübarizəsi, obrazlı desək, cavan toxumları granit qaya üzərinə əkməyə bənzəyirdi. Lakin Zərdabi ruhdan düşməyərək, vasitələt və yollar axtarırdı ki, bu granit qaya tədricən yumşalsın, gübrələnsin və elm toxumlarının cücərib inkişaf etməsi üçün yararlı bir hala düşsün.Belə bir mürəkkəb işə Zərdabi Azərbaycanda ana dilində ilk qəzet olan "Əkinçi" qəzetinin nəşrilə başladı. Qəzet Həsən bəyin nəzərincə xalqın mövhumat və cəhalət yuxusundan oyanıb həqiqi iqtisadi və mədəni inkişaf yoluna düşməsinin ən mühüm açarl olmalı idi. Zərdabinin göstərdiyi kimi qəzetin ən ümdə vəzifəsi xalqın gözünü açmaq, dostun və düşmənin kim olduğunu ona tanıtmaq idi. O qəti əmin idi ki, qəzetin vasitəsilə zəhmətkeş kütlələrin əqlinə təsir edib onları elm təhsil etmək yoluna dəvət edə biləcəkdir. "Əkinçi"nin ən böyük xidmətlərindən biri bu idi ki, o, Azərbaycan xalqının qabaqcıl ziyalılarını bir cəbhədə birləşdirdi və onların bütün səylərini xalqın iqtisadi və mənəvi inkişafı uğrunda mübarizəyə yönəltdi. Qəzet mövhumat, cəhalət, köhnə adətlər və s. qarşı yazılmış ciddi məqalələr dərc etməyə başladı.

Zərdabi mövhumatla mübarizəyə ehtiyatla yanaşırdı, çünki fanatizm və cəhalətin uzun müddət hökm sürdüyü bir şəraitdə mövhumat və cəhalətə qarşı elm uğrunda mübarizə aparmaq o qədər də asan deyildi. Zərdabinin qeyd etdiyi kimi, müsəlmanlar elmdən çuma xəstəliyindən qaçan kimi qaçırdılar. Yəni üsulla məktəb açılması və orada müxtəlif elmlərin tədris edilməsi onlar tərəfindən olduqca nifrətlə qarşılanırdı, elm təhsil edənlər kafir adlandırılırdılar, küçələrdə daşa basılıb nalayiq sözlərlə söyülürdülər. Bəzən elə olurdu ki, elm təhsil etmək arzusuna görə gənclər köhnə fikirli, cəhalət və mövhumat əsiri olan ata-anaları tərəfindən evdən qovulurdularş Zərdabi "Bakıda müsəlman teatrının binası" adlı məqaləsində vaxtı ilə Bakı realnı gimnaziyasında oxuyan azərbaycanlı şagirdlərin müsəlmanlar tərəfindən məzhəbdən xaric elan edildiyindən, hətta onların gimnaziya paltarının nifrətlə qarşılandığından bəhs edərək yazırdı: "Bu biçarə uşaqların hamısının iki cür paltarı var idi. Birisi gimnaziya formunda, birisi müsəlman paltarı. Gimnaziya forması heç evə gəlməzdi, həmişə dalanda qalardı. Uşaq oxumağa gedən zaman dalanda müsəlman paltarını soyunub formanı geyinib gimnaziyaya gedib, qayıdanda yenə dalanda çıxarıb müsəlman paltarını geyib evə gələrdi."

Daim doğma xalqının maariflənməsi uğrunda çalışan, cəhalət və mövhumata qarşı mübarizə aparan, xalqın tərəqqisi və inkişafı üçün əlindən gələni əsirgəməyən Həsən bəy istər müəllim, istər publisist və istərsə də Bakı Şəhər Dumasında təmsil olunduğu vaxtlarda yalnız bu amal uğrunda mübarizə aparmış, xalqının azadlığı və firavanlığı üçün yollar aramışdır.Zərdabi qəzeti elə bir tribuna hesab edirdi ki, onun vasitəsilə xalqla danışmaq, onun problemləri barədə söhbət etmək mümkün idi. Bu barədə H.Zərdabi "Rusiyada əvvəlinci türk qəzetəsi" adlı məqaləsində yazırdı: "Bizim sabiq cəmiyyəti -xeyriyyə bina tutmadığından, teatr oynanan otaq boş qaldığından aşkar oldu ki, müsəlman qardaşlarımızı bir yerə cəlb edib, zəmanəyə müvafiq məktəbxanələr açdırıb, küçə və bazarlarda qalan uşaqları oxutmaq olmayacaq. Elmsiz də bu zəmanədə dolanmaq mümkün deyil... Belədə nə qayırmalı? Hər kəsi çağırıram gəlməyir, deyirəm qanmayır. Axırda gördüm ki, onları haraylayıb çağırmaqdan, onlara deməkdən başqa bir qeyri əlac yoxdur. Olmaz ki, mənim sözümü eşidənlərdən heç bir qanan olmasın...Belədə qəzet çıxarmaqdan savay qeyri bir əlac yoxdur ki, kağızın üstə yazılmış doğru sözlər qapı-pəncərələrdən o iman mənzillərinə çata bilsin. Heç olmaz ki, doğru söz yerdə qalsın.

Müxtəlif dövrlərdə çar idarələrində işləməsinə baxmayaraq, Zərdabi hər zaman çarizmin mənfur, qeyri-insani təbiətini ifşa etmiş və onun öz vaxtını keçirdiyini göstərmişdir. Həsənbəy hələ "Əkinçi" qəzetinin ilk nömrəsində çarizmin, feodal istehsal üsulunun artıq yaramaz olduğuna işarə edərək yazırdı: "Bəs olmaz ki, dünyada həmişə bir qayda ilə rəfdar olsun və səlah deyil ki, xalqı keçmiş zamanın qaidəsi ilə yaşamağa məcbur edəsən".Zərdabinin fikrincə, Yerin əmələ gəlməsi bütün kainatın inkişafının bir anıdır. Həsən bəy bitkilər, heyvanlar və insanın meydana gəlməsində ümumi bir mənşəyin olduğu fikrini söyləsə də, o, insanı heyvanlarla eyniləşdirmirdi. H. Zərdabiyə görə insan mənşə etibarilə heyvanlar aləminə daxil olsa da, öz şüuru və əmək alətlərindən istifadə etmək qabiliyyətinə görə bütün canlılar aləminin padşahıdır.

Həsən bəy Zərdabinin yaratdığı "Əkinçi" qəzetinin dəstixətti əsasən bir ideya üzərində qurulmuşdur. Zərdabi və onunla birlikdə bu qəzetdə çalışan bir sıra maarifpərvər, demokratik naşirlər Şərqin geriliyini, ətalət və süstlüyünü həqiqi azadlığın olmamasında görürdülər. Onlar öz sözlərini dolayı yolla olsa belə, bu qəzet vasitəsi ilə xalqa çatdıra bilirdilər. O dövrdə xalqın başa düşəcəyi sadə dildə yazılan bu qəzetdə belə fikirlərin səslənməsi Azərbaycanı əsarət altında saxlayan imperiya məmurlarını ciddi narahat edirdi. İlk mətbu orqan kimi "Əkinçi" öz əsas ideyasına uyğun olaraq incəsənət və ədəbiyyata da aid yeni demokratik tələblər irəli sürürdü. Azərbaycanın böyük dramaturqu Nəcəf bəy Vəzirov köhnə şeirlərlə yanaşı, şairləri müasir həyatdan

yazmağa, xalqı cəhalət və qəflət yuxusundan ayıltmağa, müasir ruhda tərbiyə etməyə çağırırdı. Bununla Zərdabinin səsinə Azərbaycanın bir çox görkəmli, maarifpərvər insanları səs verirdi.

AİLƏDƏ VALİDEYN NÜMUNƏSİ

Şirinli R.B.
Sumrayıt Dövlət Universiteti
E- mayl: rshirinli22@gmail.com

Ailə - millətin canı, qəlbi cəmiyyətin təməlidir. Cəmiyyət ailələrdən meydana gəlir. Cəmiyyətin inkişafı ailədən, ailədə aparılan tərbiyə işindən çox asılıdır. Vaxtilə böyük yunan filosofu Platob deyirdi ki, dövlətin gücü insanların tərbiyəsindən asılıdır. Tərbiyə işi daim dövlətin nəzarəti altında olmalıdır. Buna görə də özü ilk dəfə olaraq Afinada Likey məbədində akademiya adlanan dövlət tərbiyə məktəbi yaratmış və özü də burada ilk tərbiyəçilik etmişdir. O bununla dövlət tərbiyə müəssisəsinin əsasını qoymuşdur. Bəli, ailə tərbiyəsi mühüm və mürəkkəb məsələdir. Dövlətin gücü, millətin gələcəyi bir çox cəhətdən ailə tə\rbiyəsindən asılıdır. Böyük pedaqoq A.S. Makarenko "Valideynlər üçün kitab" əsərində yazırdı ki, ailədə düzgün aparılan tərbiyə bizim gələcək xoşbəxtliyimizdir. Ailədə aparılan pis tərbiyə bizim gələcək bədbəxtliyimzi və göz yaşlarımızdır.

Hər bir ailənin öz qayda qanunları, adət-ənənələri, həyat tərzi vardır. Uşaqlar üçün həmişə canlı tərbiyəedici nümunə valideyin nümunəsidir. Valideyn nümunəsi ən yaxşı tərbiyə vasitəsidir. Qədim Roma filosofu M.F. Kvintilian deyirdi ki, öyüd və nəsihətlərin yolu uzaq, nümunənin yolu isə qısadır.

Ailədə olan pedaqoji, psixoloji mühit, valideynlərin bir birinə qarşılıqlı hörməti, xoş ünsiyyət və münasibəti böyük tərbiyəvi təsir qüvvəsinə malikdir. Onların bir-birinə bəslədiyi məhəbbət, hörmət, qayğı evdə böyüyən uşaqlar üçün əsil əxlaq nümunəsi olur. Ailədə uşaqlar dünyaya gələrкən valideynlərin üzərinə böüyk məsuliyyət və cavabdehlik düşür. Onlar çalışmalıdırlar кi, кörpələrin qayğısına qalıb, sağlam böyüdüb, yaxşı tərbiyə edib cəmiyyət üçün layiqli vətəndaşlar yetişdirsinlər.

Böyük astronom, filosof, pedaqoq Məhəmməd Nəsirəddin Tusi "Əxlaqi Nasiri" əsərində yazırdı ki, uşağın tərbiyəsi ona verilən gözəl addan başlayır, ona ilk növbədə yaxşı bir ad qoymaq lazımdır. Namünasib addan uşaq bütün ömrü boyu xəcalət çəкər və utanar.Daha sonra ona düzgün tərbiyə verilməldir. Əks halda onun əzabını ömür boyu valideyn çəкəcəкdir. Tusi həmçinin tərbiyə işində nümunənin rolunu yüksək qiymətləndirərək qeyd edirdi ki, uşaqları pis yoldaşlardan, pis nümunələrdən qorumaq lazımdır.

Valideyn uşağına pis əməllərdən uzaq olmağı tövsiyə edirsə, özü də buna əməl etməlidir. Yaxşı işi nümunə göstərməlidir. Valideyn öz övladını necə görmək istəyirsə onun gözələri qarşısında da elə hərəкət etməlidir. Obrazlı desək, valideyn bir güzgüdür ki, uşaq o güzgüyə baxaraq özünü düzəldir və tərbiyələndirir.

Ulu Öndər Heydər Əliyevin 100 illiyini qeyd etdiyimiz bir dövrdə qeyd edək ki, dahi rəhbərin həm özünün böyüdüyü ailə və həm də özünün böyütdüyü övladlar, öz ailəsinin tərbiyə mühiti nəsillərə nümunədir. Ulu Öndər Heydər Əliyevin həyat və faəliyyəti yetişən gənc nəslimiz üçün mənəviyyat və əxlaq məktəbi, ən gözəl nümunə məktəbidir. O, ailə tərbiyəsi haqqında deyirdi ki, *ailə tərbiyəsi öz təbiətinə görə nadir və xüsusi bir halıdr. Bu tərbiyə ata- ananın övlada məhəbbəti və uşaqların da ata- anaya belə hisslər bəsləməsidir... Ailə xüsusi, mürəkkəb insani münasibətlıər üzərində qurulur.*

Göründüyü kimi ailə xüsusi quruluşa və məzmuna malik olaraq tərbiyə işində və uşaqların sosial həyata hazırlanmasında mühüm rol olynayır. Ailə - deyə bilərik ki, bütün dövrlərdə tərəqqinin bütün sivilizasiyanın beşiyi və hərəкətverici qüvvəsi olmuşdur. Yaxşı ailə , yaxşı iş, fəaliyyət, münasibət deməкdir, yaxşı təhsil və yaxşı tərbiyə deməкdir. Ailə iki tərəfin - ər və arvadın bir birinə inamı, etibarı, məhəbbəti, hörməti üzərində qurulur. Elə ailə sözü də Prof. Rüfət Hüseynzadənin "Ailə pedaqogikası" dərsliyində qeyd edildiyi kimi "*ailə" sözünün mənası ərəbcə "Avl" кökündən əmələ gələrək "Etibar etmək", "İnam", "Dayanmaq", Söyкənmək" mənalarını verir.*

Beləliklə deyə bilərik кİ, valideyinlər öz övladlarına daim gözəl nümunə olmalı, öz fəaliyətlərinə, ünsiyyət və münsibətlərinə daim diqqət yetirməli və öz övladlarına həmişə nümunə olmalıdırlar.

YENİYETMƏLƏRİN BİR ŞƏXSİYYƏT KİMİ FORMALAŞMASINA TƏSİR EDƏN AMİLLƏR

Süleymanova V.L.
Bakı Slavyan Universiteti
E-mail: suleymanovavusale199@gmail.com

Yeniyetməlik təlatümlü bir keçid dövrüdür. Yeniyetməlik insan inkişafının ən çətin dövrlərindən biridir, lakin o insanın gələcək həyatını demək olar ki, müəyyən edir. Keçid dövrü hisslər və düşüncələr, ideallar, istəklər, lakin bəzən qeyri-adi hərəkətlərdə özünü göstərir. Uşağın bədənində həm daxili, həm də əhəmiyyətli dəyişikliklər başlayır. Fransız pedaqoqu Jan Jak Russo yeniyetməliyi "ikinci doğuş" adlandırır. Çünki bu dövrdə uşaqda suallar və ziddiyyətlər meydana gəlir. Yeniyetmə şəxsiyyəti cəmiyyətlə sıx surətdə bağlıdır. Onun maddi həyatı cəmiyyətin məhsuldar qüvvələrinin inkişafında əldə edilən səviyyədən asılıdır. Yeniyetmə şəxsiyyətinin formalaşması onun cəmiyyətdəki təşəkkülü prosesidir. O da özünüqiymətləndirmə, özünənəzarət kimi xüsusiyyətlərə malik olur. Bu xüsusiyyətlər də ona irsən keçmir, sosial mədəni inkişaf nəticəsində meydana gəlir.

Yeniyetmələrin bir şəxsiyyət kimi formalaşmasında onun dünyagörüşü böyük əhəmiyyətə malikdir. Əgər onun dünyagörüşü olmazsa, o ətraf aləmin gerçəkliyindən baş açа bilməz. Həyatda özünə yer tapa bilməz. Bunun nəticəsində də onun heç bir aydın məqsədi olmayacaq.

Bir yeniyetmənin şəxsiyyətində əsas dəyişiklik identifikasiyadır. Yəni o, öz "mən" ini dərk etməyə başlayır. Yeniyetmənin fərdiliyi iki münasibətlər sistemində ifadə olunur: böyüklər və həmyaşıdları ilə olan münasibətlərində. Yeniyetmələrin münasibətlərində ən çox həmyaşıdları ilə qarşılıqlı əlaqə öz əksini tapır. Onlar ünsiyyət qurarkən bərabər hüquqlara üstünlük verirlər.

Yeniyetmələrdə bir sıra xüsusiyyətlər özünü göstərir. Bunlar aşağıdakılardır:dəyişkən psixo-emosional vəziyyət; davranış və hərəkətlərdə özünənəzarətin olmaması; real imkanların istək və ehtiyaclarla müqayisə edilməməsi; yetkinlik prinsipi kimi özünü təsdiq etmək, özünün fərqində olmaq.

Yeniyetmələrin öhdəsinə düşən əsas psixososial vəzifələr aşağıdakılardır:

Fərqlənmək – şəxsiyyəti inkişaf etdirmək və muxtariyyətə can atmaq;

Uyğunlaşmaq – rahat əlaqələr qurmaq və həmyaşıdları tərəfindən qəbul edilmək;

Ölçmək – səriştələri inkişaf etdirmək və nail olmaq yollarını tapmaq;

Tutmaq – müəyyən məqsədlərə, fəaliyyətlərə və inanclara dair öhdəliklər götürmək.

Yeniyetmə şəxsiyyətinin fəaliyyətinin həyata keçdiyi şərait onun sosial davranışını şərtləndirir. Həmin şərait yeniyetmənin tələbləri və mənafeləri nöqteyi-nəzərindən qiymətləndirilərək onda razılıq və ya narazılıq hissləri yaradır. Narazılıq hisslərinin obyektiv və subyektiv səbəbləri vardır. Obyektiv səbəb ictimai inkişafın məqsədlərinin, maraq və mənafelərinin məcmusudur. Subyektiv səbəb isə onun özünə, həyat tərzinə münasibətini əks etdirir.

Yeniyetmənin bir şəxsiyyət kimi formalaşmasında kütləvi informasiya vasitələrinin təsir imkanları böyükdür. Kütləvi informasiya vasitələri dedikdə, radio, televiziya, mətbuat və s.başa düşülür. KİV-nin əyləncəli rolu istirahət və əyləncə ilə bağlıdır. Yeniyetmələr evdə tək olarkən həmişə maqnitofon, televiziyanı yandırır ki, onlarda tənhalıq hissi olmasın. Bu vasitə ilə də onlar darıxdırıcı söhbətlərdən, sıxıcı mühitdən yaxa qurtarmış olurlar.

Yeniyetmələrin kortəbii şəkildə formalaşmasına, sosiallaşmasına kompüter şəbəkəsi təsir göstərir. Müsbət cəhət ondadır ki, onların sosial əlaqələri genişlənir, xarici dil öyrənmə prosesi tez baş verir. Kompüter özünü təsdiq üçün hədsiz imkanlar yaradır. Bu da yeniyetmələrdə özünüdəyişmələrə gətirib çıxarır. Digər tərəfdən isə onlarda kompüterdən asılılıq meydana gəlir. Bu şəraitdə onlar öz maraqlarından uzaqlaşır, kompüter oyunları içərisində itib-batırlar.

Yeniyetmələrin formalaşmasında mühüm amil kimi küçə mühitini də göstərmək olar. Onlar küçədə ətraf mühiti dərk edirlər. Yeniyetmələr məhz küçədə öz statuslarını qazanırlar. Onlar çox vaxt böyüklərin öyüd-nəsihətlərindən qaçırlar. Bu barədə heç nə eşitmək istəmirlər. Bu mühitdə onların ünsiyyət dairəsi genişlənir, özlərini təsdiq edə bilirlər.

Müasir dövrdə yeniyetmənin mütəşəkkil olmasının, onun şəxsi təşəbbüsünün, müxtəlif vərdişlərə malik olmasının əhəmiyyəti getdikcə artır. Eyni zamanda onun qarşısında elmi-texniki, sosial-iqtisadi tərəqqinin irəli sürdüyü və yeni texnologiyanın tətbiqi ilə bağlı olan problemlər meydana çıxır. Belə bir şəraitdə yeniyetmə həyatın yeni tələbləri haqqında biliyə malik olmalıdır.

MƏKTƏBİ İDARƏETMƏNİN TƏŞKİLİ PROSESİNDƏ DEMOKRATİK DƏYƏRLƏRİN ÖYRƏNİLMƏSİ ÜSULLARI

Tağıyeva G.V.
Naxçıvan Dövlət Universiteti

Məktəbi idarəetmə prosesi, bir məktəbin məqsədlərini və təlim proqramlarını qoruyan, təlim almanın səviyyəsini və keyfiyyətini təmin edən bir prosesdir. Bu proses həm idarəçilərin, həm də tələbə və müəllimlərin birgə əməkdaşlığı ilə həyata keçirilir. Demokratik dəyərlər, bir məktəbin idarəetmə təşkilatında, bir sıra əsas prinsiplərə əsaslanır. Bu tezisdə, məktəbi idarə etmə prosesində demokratik dəyərlərin öyrənilməsi üsullarına diqqət yetiriləcək.

- Müzakirə və Danışıqlar: Məktəbi idarəetmə prosesində, müzakirə və danışıqlar, tələbə və müəllimlərin fikirlərinin və təkliflərinin qarşılıqlı şəkildə nəzərə alınmasına imkan verir. İdarəetmə prosesində, idarəçilər tələbələrin və müəllimlərin fikirlərini dinləməli və onları prosesdə qarışdırmağa çalışmalıdırlar. Bunu etmək, demokratik qərarların alınması və hər kəsin fikrinin nəzərə alınması deməkdir.

- Məlumat Paylaşımı: Demokratik idarəetmənin əsas prinsipi məlumat paylaşımıdır. İdarəçilər, müəllimlər və tələbələr arasında məlumat mübadiləsi və bir-biriləri ilə fikir mübadiləsi qurulmalıdır. Bu, qurumun bütövlüyü üçün vacibdir. Məlumat paylaşımı, prosesin effektivliyini artırır və prosesdə hər kəsin şəxsən inkişaf etməsinə imkan verir.

- Hökumətlə Əməkdaşlıq: Demokratik idarəetmə prosesi, idarəetmə təşkilatı ilə hökumət arasında əməkdaşlıqı da nəzərə alır. Hökumət və idarəçilər, tələbə və müəllimlər arasında birbaşa əlaqələr quraraq, idarəetmə təşkilatında daha məsuliyyətli və ətraflı qərarların alınmasına imkan verir. Hökumət tərəfindən təmin edilən maliyyə və resurslar, məktəbin məqsədlərinə çatmaq üçün istifadə olunmalıdır. İdarəetmə təşkilatı ilə hökumət arasında bərabərliyə əsaslanan bir əməkdaşlıq, məktəbin səviyyəli təhsilin təmin edilməsinə kömək edir.

- Tələbə və Müəllimlərin İştirakı: Demokratik idarəetmə, tələbə və müəllimlərin iştirakını da tələb edir. Məktəbin təlim proqramlarının hazırlanması, tələbə və müəllimlərin birgə çalışması ilə mümkündür. Tələbələr və müəllimlər, dərs proqramlarının hazırlanmasında və qiymətləndirilməsinə də daxil olmalıdırlar. Bu, təlimin keyfiyyətinin artırılmasına və tələbələrin motivasiyasının yüksəlməsinə kömək edir.

- Hərəkət Planlarının Hazırlanması: Demokratik idarəetmə, hərəkət planlarının hazırlanmasını da tələb edir. Bu planlar, məktəbin uzunmüddətli məqsədlərinə uyğun şəkildə hazırlanmalıdır. Planların hazırlanmasında idarəçilər, müəllimlər və tələbələrin fikirləri nəzərə alınmalıdır. Buna əsasən, birbaşa əlaqələr və danışıqlar üzərində hərəkət planları hazırlanmalıdır/

- Demokratik idarəetmə prosesi, məktəbin idarəetmə təşkilatında demokratik dəyərlərin öyrənilməsi üsullarının əsasını təşkil edir. Bu proses, müzakirələr və danışıqlar, məlumat paylaşımı, hökumətlə əməkdaşlıq, tələbə və müəllimlərin iştirakı və hərəkət planlarının hazırlanması ilə mümkündür.

Demokratik idarəetmə prosesi, məktəbin idarəetmə təşkilatında demokratik dəyərlərin öyrənilməsi üsullarının əsasını təşkil edir. Bu proses, müzakirələr və danışıqlar, məlumat paylaşımı, hökumətlə əməkdaşlıq, tələbə və müəllimlərin iştirakı və hərəkət planlarının hazırlanması ilə mümkündür. Bu üsulların istifadəsi, məktəbin təlim keyfiyyətinin artırılmasına, tələbələrin motivasiyasının yüksəlməsinə, idarəetmə təşkilatının effektivliyinin artırılmasına və məktəbin uzunmüddətli məqsədlərinə uyğun planların hazırlanmasına imkan verir.Məktəbin idarəetmə təşkilatı, demokratik dəyərləri nəzərə alaraq, tələbələrin və müəllimlərin fikirlərini dinləyərək, bir qurumun bütövlüyünə yönəlib. İdarəçilər, tələbələr və müəllimlər birgə çalışaraq, təlimin keyfiyyətini artırmaq üçün bir biriləri ilə fikir mübadiləsi edirlər. Hökumətlə əməkdaşlıq, məktəbin maliyyə və resursların təmin edilməsinə kömək edir. Tələbə və müəllimlərin iştirakı, təlim proqramlarının hazırlanmasında və qiymətləndirilməsində də nəzərə alınır. Hərəkət planlarının hazırlanması, məktəbin uzunmüddətli məqsədlərinə uyğun şəkildə hazırlanmalıdır.Bütün bu üsulların istifadəsi, məktəbin idarəetmə təşkilatının effektivliyinin artırılmasına və təlimin keyfiyyətinin yüksəlməsinə kömək edir. Bu üsulların tətbiqi, məktəbin məqsədlərinə çatmaq üçün vacibdir və demokratik dəyərlərə sadiq qalmaq üçün vacibdir.

Demokratik idarəetmə, idarəetmə təşkilatında hər kəsin fikrinin nəzərə alınmasını və qərarların birgə alınmasını təmin edir. Bu, bir məktəbin uzunmüddətli məqsədlərinə uyğun şəkildə həyata keçirilməsinə imkan verir. Məktəbin idarəetmə təşkilatı, demokratik dəyərlərə sadiq qalaraq, tələbələr və müəllimlər arasında bir

əlaqə quraraq, birlikdə təlimin keyfiyyətini artırmağa çalışır. Bu, tələbələrin səviyyəli təhsil almaq üçün vacibdir və bir təhsil müəssisəsinin effektivliyini artırmaq üçün ən mühüm prinsiplərdən biridir.

Həmçinin, demokratik idarəetmə prosesi, hökumətlə əməkdaşlıq və maliyyə təmin edilməsi ilə mümkündür. Bu, məktəbin resursların daha yaxşı istifadə edilməsini və daha effektiv olmağı təmin edir. Tələbə və müəllimlərin iştirakı, təlim proqramlarının hazırlanmasında və qiymətləndirilməsində də nəzərə alınır. Buna əsasən, tələbələr və müəllimlər tələbələrin təhsil prosesinə ciddi qatılımları ilə, tələbələrin motivasiyasının artırılmasına və təhsil keyfiyyətinin yüksəlməsinə kömək edir.Demokratik idarəetmə prosesi məktəbin idarəetmə təşkilatında müzakirə və danışıqlar, məlumat paylaşımı, hökumətlə əməkdaşlıq, tələbə və müəllimlərin iştirakı və hərəkət planlarının hazırlanması ilə həyata keçirilir. Bu proses, məktəbin təlim keyfiyyətinin artırılmasına, idarəetmə təşkilatının effektivliyinin artırılmasına, tələbələrin motivasiyasının yüksəlməsinə və məktəbin uzunmüddətli məqsədlərinə uyğun planların hazırlanmasına imkan verir.

Məktəbin idarəetmə təşkilatı, demokratik dəyərlərə sadiq qalaraq, tələbələrin və müəllimlərin fikirlərini dinləyərək, bir qurumun bütövlüyünə yönəlib. İdarəçilər, tələbələr və müəllimlər birgə çalışaraq, təlimin keyfiyyətini artırmaq üçün bir biriləri ilə fikir mübadiləsi edirlər. Hökumətlə əməkdaşlıq, məktəbin maliyyə və resursların təmin edilməsinə kömək edir. Tələbə və müəllimlərin iştirakı, təlim proqramlarının hazırlanmasında və qiymətləndirilməsində də nəzərə alınır. Hərəkət planlarının hazırlanması, məktəbin uzunmüddətli məqsədlərinə uyğun şəkildə hazırlanmalıdır.Bütün bu üsulların istifadəsi, məktəbin idarəetmə təşkilatının effektivliyinin artırılmasına və təlimin keyfiyyətinin yüksəlməsinə kömək edir. Bu üsulların tətbiqi, məktəbin məqsədlərinə çatmaq üçün vacibdir və demokratik dəyərlərə sadiq qalmaq üçün vacibdir.Yekun olaraq, məktəbi idarəetmə prosesi, bir məktəbin səviyyəli təhsil təmin etməsi üçün vacibdir. Bu proses, demokratik dəyərlərə sadiq qalınaraq, müzakirələr və danışıqlar, məlumat paylaşımı, hökumətlə əməkdaşlıq, tələbə və müəllimlərin iştirakı və hərəkət planlarının hazırlanması ilə həyata keçirilir. Bu üsulların istifadəsi, məktəbin təlim keyfiyyətinin artırılmasına, idarəetmə təşkilatının effektivliyinin artırılmasına, tələbələrin motivasiyasının yüksəlməsinə və məktəbin uzunmüddətli məqsədlərinə uyğun planların hazırlanmasına imkan verir. Demokratik idarəetmə prosesi, bir təhsil müəssisəsi üçün vacibdir. Bu proses, məktəbin uzunmüddətli məqsədlərinin təyin edilməsində, təlimin keyfiyyətinin artırılmasında və effektivliyin yüksəldilməsində kəskin fərq yaradır. Tələbə və müəllimlərin iştirakı, təlim proqramlarının hazırlanması və qiymətləndirilməsində də vacibdir. Məktəbin idarəetmə təşkilatı, demokratik dəyərlərə sadiq qalaraq, birlikdə təlimin keyfiyyətini artırmağa çalışır və təhsil müəssisəsinin uzunmüddətli məqsədlərinə çatmaq üçün effektiv bir yol təqdim edir.

ALİ MƏKTƏB TƏLƏBƏLƏRİNİN TƏRBİYƏSİNİN SOSİAL-PEDAQOJİ ƏSASLARI

Tarverdiyeva Z.
Naxçıvan Dövlət Universiteti
E mail: zulfiyyetarverdiyeva8@gmail.com

Ali məktəblərdə tələbə şəxsiyyətinin inkişaf prosesində özünütəhsilin, özünütərbiyənin, özünü təkmilləşdirmə cəhdinin rolu çox böyükdür. Təlim və tərbiyə tələbəni özünütəhsilə və özünütərbiyəyə cəlb etmirsə, deməli, məqsədəmüvafiq deyil. Doğrudan da, ən məzmunlu, ən maraqlı mühazirə tələbənin şəxsi idrak fəaliyyəti ilə möhkəmləndirilməzsə, öz-özlüyündə mütəxəssis hazırlığını təmin edə bilməz. Qanunauyğun olan budur ki, xarici təsirlər tələbənin daxili aləmi ilə şərtlənir. Xarici aləmin tələbəyə göstərdiyi hər bir təsir onun keçmiş yaşantıları ilə bağlıdır. Deməli, pedaqoji təsirlər artıq kök salmış olan müsbət keyfiyyətlərə əsaslandığı halda daha effektli olur. Tələbənin psixikası, davranış və fəaliyyət motivləri, fərdi keyfiyyətləri onun bir şəxsiyyət kimi inkişafının daxili amilləridir. Qanunauyğun haldır ki, psixi inkişaf düz xattlə getmir. Bu eynilə tələbənin də psixi inkişafına aiddir. Bu, onda öz ifadəsini tapır ki, psixi proseslər və fərdi keyfiyyətlər müxtəlif zaman və məkan kəsiyində, həm də ayrı-ayrı tələbələrdə özünəməxsus formada inkişaf edir. Bu isə o deməkdir ki, ali məktəbdə təlim və tərbiyənin nəticələri tələbələrin malik olduqları şəxsi keyfiyyətlərdən, ixtisasa və təlim əməyinə münasibətlərindən, kollektivə və özünə yanaşma tərzindən asılıdır. Deməli, mütəxəssis tərbiyəsi təkcə optimal daxili və xarici amillərdən deyil, həm də tələbənin daxili psixi inkişaf qanunauyğunluqlarından asılıdır. Pedaqoji təsir o zaman effektli olur ki, onun məzmun və formaları həm təlim-tərbiyənin məqsədinə, həm də tələbənin yaş, fərdi və sosial xüsusiyyətlərinə uyğun olsun. Ali məktəbdə təlim və tərbiyənin vəhdətini müəllim yalnız o zaman təmin edə bilər ki, təlim-tərbiyə məqsədlərini real surətdə kursdan-kursa keçdikcə, tələbənin inkişaf dinamikasına uyğun tərzdə müəyyənləşdirsin, müvafiq mütəxəssisin professioqramını yaxşı

bilsin. Ali məktəbdə hər bir fənnin məzmunu müəyyənləşdirilərkən tədris fənninin qarşısında duran təhsil vəzifələri ilə yanaşı, tərbiyə məqsədləri də konkretləşdirilməlidir. Ona görə də hər bir müəllim tədris etdiyi fənnin məzmunu vasitəsilə tələbəyə hansı əxlaqi keyfiyyətləri aşılamaq mümkün olduğunu bilməli, gələcək mütəxəssis üçün zəruri olan idraki, əxlaqi, estetik, fiziki keyfiyyətləri, fəaliyyət və davranış normalarını aydın təsəvvür etməlidir. Respublikamızda iqtisadi, siyasi, mənəvi inkişafın gələcək üfüqləri onun hər bir vətəndaşının şüurkıluğıından. intizamından, idraki və yaradıcı fəaliyyətindən asılıdır. Deməli, qarşıda duran quruculuq vəzifələrini həyata keçirmək üçün vətəndaşların tərbiyəsi daha yüksək səviyyəyə qaldırılmalı, bu məqsədlərin yerinə yetirilməsi təmin edilməlidir. Tərbiyə prosesinin dialektikası insanın fərdi xüsusiyyətlərinin nəzərə alınması ilə başlayır. Tələbələri yaxşı öyrənmədən tərbiyə prosesinin səmərəliliyini və intensivliyini təmin elmək mümkün deyil. Tələbəni düzgün tərbiyə etmək üçün onun hərəkətlərini və davranışını adekvat surətdə qiymətləndirmək, onun müsbət və mənfi cəhətlərini düzgün məy- yənləşdirmək lazımdır. İctimai rəyin, tərbiyəvi ənənələrin, müsbət nümunənin və təcrübənin də təsirini qeyd etmək lazımdır. Hər bir pedaqoq tərbiyə etmək sənətinə bələd olmalı, öz təcrübəsində yeni tərbiyə metodlarını öyrənməli, ümumiləşdirməli və yaradıcılıqla istifadə etməlidir. Təcrübə göstərir ki, tərbiyə sisteminin ayn-ayrı elementləri. prinsipləri, metodları ilə şəxsiyyətin inkişaf qanunauyğunluqları arasında müəyyən uyğunsuzluq var. Ən geniş yayılmış uyğunsuzluq ali məktəbdə tərbiyə işinin orta məktəbdəkinə nisbətən zəif təşkili, digər tərəfdən isə, məhz ali məktəbdə şəxsiyyətin hərtərəfli inkişaf etdirilməsi ideyasının pozulmasıdır. Hərtərəfli inkişaf ideyasını mənimsəmək və onu gündəlik işdə reallaşdırmaq, məhz bu gün cəmiyyətimizdə ən çətin və ən vacib problemlərdəndir. Ali məktəbin tərbiyəvi iş sistemində formalizm və subyektivizm, hər şeydən əvvəl, tərbiyə işinə birtərəfli və qeyri-elmi yanaşmanın nəticəsidir. Müasir tərbiyə nəzəriyyəsi və praktikasında kök salmış belə bir səhv mövqe mövcuddur ki, guya insanın inkişafının əsas amili yalnız və yalnız onun şüurluluq səviyyəsidir. Bununla da süni olaraq, şüur davranışdan ayrılır və biri-birinə qarşı qoyulur. Söz yox ki, şüurluluq bizim tərbiyə işində əsaslandığımız əsas amildir, lakin yeganə deyil. Şüurluluğun insanın inkişafında yeganə amil kimi qəbul edilməsi tərbiyə işini çox ağır bir işə çevirir, tərbiyə prosesinin effektivliyini azaldır. Halbuki, etik normalar şüurdan ümumi təcrübəyə, ənənələrə, adətlərə keçdiyi təqdirdə, daha nüfuzedici xarakter daşıyır, daha qüvvətli və tez təsir etmək imkanı qazanır, ictimai rəy tərəfindən «dəstəklənir». Tərbiyə işində insanın sinir-psixi sferasının, yəni onun iradəsinin, xarakterinin, təxəyyülünün, hisslərinin, temperamentinin özünəməxsus xüsusiyyətlərini nəzərə almaq və ona • zəruri adətləri aşılamaq gərəkdir. Ancaq bu halda insanın hərəkətləri, davranışı onun şüuruna daha çox uyğun gələcək. Ümumiyyətlə, adət və vərdişlər tərbiyə etməklə tərbiyə işi üçün möhkəm Özül yaradılmış olur. Ali məktəbdə qabaqcıl pedaqoji təcrübə göstərir ki, müasir şəraitdə təlim və tərbiyə işini ancaq ənənəvi yollar və formalarla qurmaq olmaz. Müasir şəraitdə ali məktəbdə istər təlim, istərsə də tərbiyə işi daha çox məlumatverici xarakter daşıyır. Təlim və tərbiyənin bu iş forması zamanı müəllimin əsas diqqəti təlim və tərbiyə proqramının məzmununa yönəlir, tələbə arxa plana keçir, onun fərdi imkanları unuduİLir. Belə bir mövqeyi əsas götürən müəllimin, bir qayda olaraq, tələbə ilə ayrıca məşğul olmağa nə vaxtı qalır, nə də həvəsi. Tələbənin rastlaşdığı çətinliklər, onun motivləri, tələbatı, iş qaydaları müəllimi maraqlandırmır . Son dövrdə ali məktəbdə təlim prosesi ənənəvi formaları saxlamaqla yanaşı, cəmiyyətin və elmi-texniki tərəqqinin təsiri altında tədricən təkmilləşməkdədir. Bir çox ixtisaslar üzrə tədris planlarına və proqramlara yenidən baxılır, kurrikumlar hazırlanır. Daha keyfiyyətli dərsliklər və tədris vəsaitləri, metodik tövsiyələr hazırlanır. Etiraf etmək lazımdır ki, yuxanda adı çəkilən tədbirlər ali məktəbin təlim-tərbiyə fəaliyyətində müəyyən irəliləyişlərə səbəb olmuşdur. Lakin bütün bu ideyalar tələbə şəxsiyətinə fəal təsir amillərini müəyyənləşdirmədən və pedaqoji praktikaya tətbiq etmədən təlim-tərbiyə nəzəriyyəsinə və praktikasına özlüyündə bir şey verə bilməz. Ali məktəbin müasir vəziyyəti bu problemləri həll etməyi tələb edir. Bu isə təlim-tərbiyə nəzəriyyəsini zənginləşdirmədən qeyri- mümkündür. Çünki təlim-tərbiyənin hər bir yeni proqramı, nəticə etibarilə, təlim-təriyə nəzəriyyəsinin praktik olaraq reallaşdırılmasıdır. Bu, o deməkdir ki, təlim işini daha intensiv qurmaq, tələbələrin potensial qüvvə və imkanlarından maksimum düşünülmüş şəkildə və «qənaətlə» istifadə etmək, zəruri ləlim materialını məqsədəuyğun surətdə seçmək, tələbələrə pedaqoji cəhətdən əsaslandırılmış ən tipik, ən zəruri, ən effektiv tapşırıqlar vermək, vaxta maksimum surətdə qənaət etmək, tələbələrin müstəqil işlərinin daha rasional metod və priyomlarından istifadə etmək, elmə olan marağı daha da inkişaf etdirmək, ixtisasla bağlı biliklərin mənimsənilməsi cəhdini artırmaq lazımdır. Ali məktəbdə təlim və tərbiyə prosesi müəyyən ümum-pedaqoji qanunauyğunluqlara və qaydalara tabedir. Bununla belə, həm təlim, həm də tərbiyə prosesinin məzmunu, vəzifələri, yolları və təşkili formaları özünəməxsus spesifik xüsusiyyətlərə malikdir. Beləliklə, ali məktəbdə təlim-tərbiyə işini təkmilləşdirməyin daha bir neçə istiqamətini qeyd edə bilərik, ali məktəbdə təlim prosesinin təşkilinin yeni formalarını müəyyənləşdirmək, tədris metodikasının ümumi məsələlərini işləmək, xüsusi metodikaları təkmilləşdirmək, ali məktəbdə pedaqoji psixologiyaya diqqəti artırmaq lazımdır.

MƏKTƏBLƏRDƏ SAĞLAM TƏRBİYƏVİ MÜHİTİN FORMALAŞDIRILMASININ PEDAQOJİ ŞƏRTLƏRİ

Xudaverdiyeva S.İ.
Naxçıvan Dövlət Universiteti
E-mail: i.sidiqe@gmail.com

Məktəb yaşı insan sağlamlığı üçün kifayət qədər əhəmiyyətli bir dövrdür. Birincisi, bu dövrdə uşaqların inkişafı sürətlə artır. İkincisi, həyatın ən yeni məktəb şəraitinə uyğunlaşma aparılır. Üçüncüsü, öyrənmə beyin qabığının artması ilə bir-birinə bağlı olan intensiv intellektual fəaliyyətə çevrilir. Məktəbdə təhsil üçün hansı tələblərin və şərtlərin formalaşmasından, ilk növbədə, inkişaf edən bir insanın sağlamlıq vəziyyəti və sağlam həyat tərzinin inkişafı asılıdır. Sonuncu, ibtidai məktəb yaşlı bir uşaq üçün xüsusilə vacibdir, çünki bu dövrdə bir insanın öz müqəddəratını təyin etməsi həyatın müxtəlif sahələrində dünyagörüşünün qurulmasını nəzərdə tutur. Xüsusilə, ibtidai məktəb çağında sağlam həyat tərzinə ehtiyacın formalaşdırılması vacibdir.Sağlam həyat tərzi insanların sağlamlığını dəstəkləməyə və gücləndirməyə yönəlmiş dinamizmidir. İnsanın və ailənin həyat tərzi şəraitlə bağlı təkcə özü üçün formalaşmır, həyat boyu məqsədyönlü və müntəzəm olaraq yaradılır.Sağlam həyat tərzi, insanın özünə, ictimai sferaya, ətraf mühitə münasibətini əks etdirən müxtəlif iş sahələrində (təlim, elektrik, sosial, kommunikativ) fərdi təzahürlərinin (mənəvi, daxili, maddi) verilmiş bir anlayışıdır. sağlamlığın mənasına baxış və bədənin müvafiq yaş sabitliyinin saxlanmasına töhfə verən, gündəlik həyatda və işdə fərdin ən böyük təşəbbüsü. Sağlam həyat tərzinin formalaşdırılması uşağa sağlamlığı ən yüksək dəyər kimi başa düşmək, onun üçün münasibətlərə cavabdeh olan inkişaf və uşaqları şəxsi qabiliyyət və imkanlarına uyğun olaraq sağlamlıq yaradılması ilə tanış etmək üçün bu məqsədyönlü prosedurdur.

Pedaqoqlar üç fundamental prinsipə əsaslanan sağlam həyat tərzi qurmağı təklif edir:

1. Orqanizmin homeostaz və uyğunlaşma qabiliyyətlərinə əsaslanan sağlamlığın qorunması prinsipi.

2.Sağlamlığın artırılması (gücləndirilməsi) prinsipi. O, fiziki və psixi sağlamlığın nəticələrinin artırılmasının imkanlarını və yollarını, sosial təminat mexanizmlərini nəzərdən keçirir.

3. Sağlamlığın formalaşması prinsipi. Bu prinsipə əməl olunması uşaqların sağlamlığının fiziki, əqli və əxlaqi komponentlərinin formalaşmasının qorunması ilə yanaşı, təmin edilməlidir.

Beləliklə, "sağlam həyat tərzi" termini bu gün təhsil, əmək, sosial və bioloji funksiyaların tam həyata keçirilməsinə töhfə verən fəal insan həyatının forma və üsullarının məcmusu kimi başa düşülür; fiziki və əqli sağlamlığın qorunmasına və möhkəmlənməsinə, əmək qabiliyyətinin bərpasına səbəb olan könüllü səylər, hərəkətlər və davranışların başa düşülməsini tələb edən insan vəziyyəti.Kiçik bir şagirddə sağlam həyat tərzi haqqında fikirlər xüsusi xüsusiyyətlər, o cümlədən sağlamlığın qorunması və təşviqi tədbirləri, sağlamlığın qorunmasına yönəlmiş fəaliyyətlərin təşkili, habelə təhsil, sağlamlıq və sağlamlıq kompleksindən istifadə nəzərə alınmaqla formalaşmalıdır. terapevtik və profilaktik tədbirlər.Müasir məktəbdə təlim prosesi bu gün humanitarlaşdırma, differensiallaşma və psixoloqlaşma kimi prosesləri əhatə edir ki, bu da xüsusi sağlamlıq qənaət edən mühitin formalaşmasına kömək edə bilər. Bu proseslər müəyyən struktura malikdir. Tədris prosesinin humanitarlaşdırılması yalnız sistemli iş, müəllim, şagird, valideyn və məktəb rəhbərliyinin daimi əməkdaşlığı ilə mümkündür və nəticədə bu proses kiçik yaşlı şagirdlərdə sağlam həyat tərzinin formalaşmasına müsbət təsir göstərəcəkdir.

TƏLİM-TƏRBİYƏ PROSESİNİN KEYFİYYƏT TƏMİNATİNDA MONİTORİNQ VƏ QİMƏTLƏNDİRMƏNİN YERİ

Xuduyeva V.S.
Naxçıvan Dövlət Universiteti

Təhsil sahəsində islahat proqramı Azərbaycan Respublikasının təhsil sisteminin yeniləşdirilməsini və müasirləşdirilməsini əsas məqsəd kimi qarşıya qoymuşdur. Təhsilin keyfiyyət göstəricilərinin yüksəldilməsi, təhsil alanların hamısının tələbinə müvafiq əlverişli şəraitin yaradılması bu məqsədlərin əsasını təşkil edir. Bu dəyişikliyin həyata keçirilməsində məqsədəmüvafiqlik meyarı kimi prosesin səmərəliliyi həlledici rol oynayır. Məlumdur ki, təlimin keyfiyyətinin monitorinqi – təhsil sisteminin inkişaf tendensiyasını müəyyən etməyə, eyni zamanda bu sahədə müvafiq qərarların qəbul olunmasına şərait yaradan, nəzarət və təlimin keyfiyyətinin inkişafını izləməyə imkan verən mexanizmdir. Belə bir sistem respublika, ayrı-ayrı regionlar və təhsil

müəssisələri səviyyəsində təlimin keyfiyyətini qiymətləndirməyə, alınmış nəticələri dünyanın inkişaf etmiş ölkələrinin təhsil sistemlərinin müvafiq göstəriciləri ilə müqayisə etməyə imkan verir. Ona görə də monitorinq təhsil sahəsində Dövlət proqramının əsasını təşkil edir. Təhsildə keyfiyyətin əldə olunması, birinci növbədə aşağıdakıların həyata keçirilməsini tələb edir:

-təhsilin bütün pillələrində keyfiyyətin təmin olunmasına zəmanət verən demokratik təhsil sisteminin yaradılması;

-şəxsiyyətin maraq və qabiliyyətlərini nəzərə alan, müxtəlif təyinatlı təhsil müəssisələrindən və təhsil proqramlarından istifadə etməklə təhsil prosesinin fərdiləşdirilməsini;

-təhsil proqramlarının məzmunun və təhsil xidmətlərinin keyfiyyətinə görə rəqabətə davamlı təhsil səviyyəsinin formalaşdırılmasını;

Orta ümumtəhsil məktəblərində müasir tələblərə cavab verən keyfiyyətin təmin olunması üçün şəxsiyətin inkişafına istiqamətləndirilmiş diferensiasiya və fərdiləşmə prinsiplərinə əsasən müxtəlif variantlı təhsil proqramlarının hazırlanmasını və yuxarı siniflərdə təhsil sahələri üzrə təlimin düzgün təşkilin tələb edir.

Bu şəraitdə elə yeni pedaqoji texnologiyaların tətbiqinə ehtiyac duyulur ki, onlar şagirdlərin inkişafını, şəxsiyyət kimi formalaşmasını təmin etmək məqsədinə adekvat olsun, qarşıya qoyulmuş məqsədin həyata keçirilməsini zəmanət versin.Təhsildə keyfiyyətin idarəolunması üçün monitorinqin təşkilində - təhsildə keyfiyyətin idarə olunmasının məqsədi; idarə olunan prosesin başlanğıc vəziyyəti; təlim prosesinin əsas keçid səviyyələri; əks-əlaqə sistemi kimi struktur komponentlər nəzərə alınmalıdır.Son illərdə müstəqi Azərbaycan Respublikasının təhsil sisteminin inkişafı və yenidən qurulması bir tərəfdən, təhsil müəssisələrinin və müəllimlərin öz fəaliyyətinə daha məsuliyyətlə yanaşmaları ilə müşayiət olunur. Bu inkişaf meylləri təlim-tərbiyə prosesinin və bütövlükdə təhsil sisteminin keyfiyyətli idarə olunmasının effektivliyini artırmaq üçün təhsil prosesinin informasiya təminatının təkmilləşdirilməsini tələb edir. Eyni zamanda, müasir şəraitdə təlim-tərbiyə prosesi və təhsil sistemi şagirdlərin pedaqoji prosesn bütün iştirakçılarının, təhsil müəssisələrini inkişafına istiqamətləndirildiyindən humanistləşmə, humanitarlaşma prinsiplərinin geniş tətbiqi böyük əhəmiyyət kəsb edir. Bu gün elmlik, fasiləsizlik, inteqrasiya olunma və s. prinsiplərlə bərabər, təhsil prosesinin informasiya təminatı təhsilin vaxtında inkişafa istiqamətlənmiş monitorinqinin keçirilməsində, qiymətləndirilməsində, bunun əsasında keyfiyyət göstəricilərinin yüksəldilməsi üçün vaxtında müvafiq tədbirlərin görülməsində əvəzedilməz rol oynayır.Təhsil müəssisəsində təhsil fəaliyyətinin keyfiyyətinin monitorinqinin keçirilməsi üçün məktəbin fəaliyyətini aşağıdakı üç istiqamətdə təhlil etmək lazımdır: təhsildə dövlət siyasətini həyata keçirilmə vəziyyəti; təhsil alanların inkişafı və şəxsiyyət kimi formalaşması üçün əlverişi şərait yaradılma səviyyəsi; müəllimlərin, pedaqoji prosesin digər iştirakçılarının inkişafı və özünüinkişafı üçün əlverişli şəraitin təşkili səviyyəsi.Keyfiyyətin yüksəldilməsində monitorinq və qiymətləndirmənin rolunun araşdırılması göstərir ki, təhsilin idarəolunması ilə əlaqədar aparılan diskussiyalarda təhsil müəssisəsində keyfiyyətin qiymətləndirilməsi məsələləri daha aktiv şəkildə özünü göstərir. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramında da keyfiyyətin müasir qiymətləndirilməsi üzrə sistemin yaradılması vacib sayılan prioritet sahə kimi öz əksini tapmışdır. Bəzən həm xarici ədəbiyyatlarda, həm də bu sahənin aparıcı mütəxəssislərinin leksikonunda "qiymətləndirmə" sözü əvəzinə "keyfiyyətə nəzarət", yaxud "keyfiyyətin idarə olunması" sözlərindən istifadə edilir. Bu müxtəlif ifadələrin arxasında eyni məqsəd durur – cəmiyyət (yaxud dövlət) təhsil sistemində keyfiyyətin yaxşılaşdırılmasına təsir göstərmək istəyir və bunda onun birbaşa marağı var. Həmin məqsədlə keyfiyyətin qiymətləndirilməsi üçün, tədris müəssisəsinin fəaliyyətinin və təhsil alanların, eləcə də öyrədənlərin təhsil nailiyyətlərinin təhlil edilməsindən, onların müəyyən edilmiş standartlara uyğunluğunun qiymətləndirilməsi metodlarından istifadə olunur. Bu məsələ üzrə aparılan müzakirələrin intensivliyi, problemin aktuallığı baxımından, ilk növbədə terminologiyalarda müəyyən islahatlar aparmaqla, ümumilikdə təhsil müəssisələrində keyfiyyətin qiymətləndirilməsi üzrə bir sıra konkret yanaşmalar açıqlanmalı, onlar prinsip etibarı ilə dəqiqləşdirilməli, nəticədə konkret mexanizm verilməlidir.Təhsil müəssisələrində keyfiyyətin qiymətləndirilməsi üzrə yanaşma variantlarını şərh etməklə, müasir qiymətləndirmə sisteminin əsas prinsiplərini, mərhələlərini vermək mümkündür.

Keyfiyyətin qiymətləndirilməsində üç metodoloji yanaşmaya diqqət yetirilməlidir:

- Əvvala qeyd olunmalıdır ki, keyfiyyətin qiymətləndirilməsi kriteriyalarının məzmunu bu yanaşmada hələlik araşdırılmır. Eləcə də hələlik, əldə edilən nəticələr deyil, məhz təhsil sistemində həyata keçirilən proseslərin ümumi nəticələri üzrə keyfiyyətin qiymətləndirilməsi istiqamətində aparılan proseduralar və ayrı-ayrı yanaşmalar şərh edilir. Bu baxımdan, müəyyən bilik, bacarıq və vərdişlərin əldə edilməsindən, yaxud təhsilin məqsədi, vərdişlərin, qabiliyyətlərin formalaşdırılması barədə fikirlərdən müvəqqəti olaraq uzaqlaşmaq zəruridir. Bu cür yanaşma əsasən son vaxtlar keyfiyyətin qiymətləndirilməsi kriteriyalarının

müzakirəsinə yönəldilmiş diskussiyalardan xeyli fərqlənir. Yalnız forma və proseduralar yönəldilən diqqət keyfiyyət kriteriyalarına biganəliklə izah edilməməlidir. Çünki, keyfiyyətin qiymətləndirilməsi üzrə araşdırılan proseduralar və yanaşmalar islahatın institusional konteksinə çox zəruri təkan verir, yekunda isə bu, qiymənləndiriləcək nəticələrin formalaşdırılmasına böyük təsir göstərir.

- Bu halda, keyfiyyətin qiymətləndirilməsi (keyfiyyətin idarə edilməsi) üzrə mümkün olan sistem müəyyən edilir. Bu baxımdan, müxtəlif test xidmətləri keyfiyyətin qiymətləndirilməsi xidmətləri ilə eyniləşdirilməməlidir. Əlbəttə, onların nəticələri keyfiyyətin qiymətləndirilməsində istifadə olunmalıdır, lakin standartlaşdırılan proseduralarla ölçülmüş fərdi təhsil nəticələrini bütövlükdə təhsil sisteminin iş keyfiyyəti ilə eyniləşdirmək düzgün deyil.

- Təhsil keyfiyyətinin qiymətləndirilməsi prosesinə əksmərkəzləşdirilmiş variativ təhsil sisteminə uyğun olaraq baxmaq lazımdır. Yekcins formada mərkəzləşdirilmiş sistemdə isə keyfiyyət qiymətləndirilməsi məsələsi tamailə başqa cür qoyulur. Çünki burada nəticə deyil, məhz proses ciddi tənzim edilir, güclü nəzarət sistemi tətbiq olunur.Nəticə olaraq qeyd etmək lazimdır ki, əgər orta ümumtəhsil məktəblərində monitorinq və qimətləndirmə işi düzgün aparılarsa təlim-tərbiyə prosesinin keyfiyyətini artırmaq olar.

AİLƏ MÜNASİBƏTLƏRİNİN DÜZGÜN TƏŞKİLİ TƏRBİYƏNİN SƏMƏRƏLİLİK ŞƏRTİ KİMİ

Yusifova Z.H.
Bakı Slavyan Universiteti
E-mail: Zulfiyeyusufova80@gmail.com

Bu gün müstəqil respublikamızın inkişafı, ilk növbədə, böyüyən nəslin təlim-tərbiyə işinin düzgün təşkilindən, vətəndaşlıq hazırlığından asılıdır. Uşaqların bir vətəndaş kimi böyüməsində ailənin, cəmiyyətin, ümumilikdə mühitin rolu böyükdür. Uşaqlar bir insan kimi, vətəndaş kimi ilk tərbiyəni ailədə alırlar. Burada onlar əxlaqi-mənəvi keyfiyyətləri, fiziki möhkəmliyi, əmək vərdişlərini, davranış qaydalarını, bədii-estetik duyumu və s. kimi keyfiyyətləri qazanırlar. İnsan cəmiyyətinin çoxəsrlik tarixində yetişən nəslin tərbiyəsi kimi mühüm və olduqca mürəkkəb bir funksiyanın yerinə yetirilməsi işi birmənalı olaraq ailə və cəmiyyətin üzərinə düşür. Uzun əsrlər boyu gənc nəslin həyata hazırlanmasında ailə tərbiyəsinə, yoxsa ictimai tərbiyəyə üstünlük verilməsi mübahisə mövzusu olmuşdur. Bütün hallarda ailənin uşaqların tərbiyəsində xüsusi əhəmiyyət daşıyan yeri və rolunu diqqətdə saxlamaq, bu sahənin daha da inkişaf etdirilməsi qayğısına qalmaq vacibdir.

"Ailə xüsusi, mürəkkəb insani münasibətlər aləmidir", – deyən ulu öndər Heydər Əliyev göstərirdi ki, burada bir böyük nəzakət, həssaslıq, şəxsiyyətin ləyaqətinə, ailənin mənafeyinə hörmət və ehtiram lazımdır.

Ümumi sosial-mənəvi dəyərlərə, normalara malik olan ailə pedaqogika elminin də öyrəndiyi problemdir.Çünki uşaq şəxsiyyətinin tərbiyəsi və sosiallaşması ilkin olaraq məhz ailədə başlayır. Bəli, ailənin hər bir övladı tərbiyəyə möhtacdır ki, bu da ailənin pedaqoji mahiyyətini parlaq bir şəkildə əks etdirir. Tədqiqatlarda ailədə tərbiyə işinin bir sıra funksiyalarını müəyyənləşdirirlər. Bu funksiyaları ümumiləşdirmiş olsaq, onların aşağıdakı üç aspektini göstərmək olar: 1.Uşaq şəxsiyyətinin formalaşdırılması, onların maraq və qabiliyyətlərinin inkişafı, toplanmış ümumsosial təcrübənin ailənin yaşlı üzvləri tərəfindən uşaqlara ötürülməsi, onların elmi dünyagörüşünün təkmilləşdirilməsi, əməyə düzgün münasibət tərbiyəsi, onların intellektinin zənginləşdirilməsi, estetik zövqlərinin yaranması və inkişafı, onların fiziki cəhətdən təkmilləşməsi üçün tərbiyəvi təsirlərin göstərilməsi, sağlamlıqlarının möhkəmləndirilməsi və sanitar - gigiyenik mədəniyyət üzrə vərdişlərin aşılanması. 2.Ailə kollektivinin hər bir üzvünə bütün həyatı boyu sistemli tərbiyəvi təsirlərin göstərilməsi. 3.Valideynlərin mütəmadi, daimi tərbiyəvi təsirləri ilə yanaşı, uşaqların fəal özünütərbiyə işinə qoşulmasının təmin edilməsi. Ailə tərbiyəsində əxlaq tərbiyəsi xüsusi yer tutur. Ailənin mənəvi təmizliyi, yaxşı davranış normaları və qaydalarına yiyələnməsi ailə tərbiyəsinin gözəlliyini, ülviliyini əks etdirir.

Uşağın əqli tərbiyəsi də ailədən başlanır. Əqli inkişaf mütəmadi olaraq oyunlar zamanı, ünsiyyət və münasibətlərdə, ev-təsərrüfat işlərinin yerinə yetrilməsi prosesində, təşkil olunmuş asudə vaxtlarda, gəzinti və səyahətlər zamanı yaranır. Ailə daxilində valideynlər uşağın əmək tərbiyəsinə birinci dərəcəli vəzifə kimi baxmalıdırlar. Onlar uşağın əməyə alışdırılması, əməyin insan həyatında necə böyük rola malik olması haqqında onlarda yaxşı fikir, düşüncə formalaşması qayğısına qalmalıdırlar. Bildiyimiz kimi, Azərbaycan ailəsi üçün səciyyəvi olan böyüklərə hörmət və ehtiram, ailənin müqəddəs bir ocaq kimi qorunması, valideynlik borcunun uca tutulması, ailəyə rəhbərlikdə səmiyyətlilik, məsuliyyətlilik və s. kimi xüsusiyyətlər hər zaman dəyərləndirilir.

Ulu öndər Heydər Əliyev insanın kamilləşməsi, boya– başa çatmasında ailənin rolunu məxsusi qeyd etmişdir. Dahi öndərin ailə həyatı sadəlik, təvazökarlıq, sədaqət, etibarlıq, səmimilik baxımından hər bir azərbaycanlı üçün örnəkdir. Ailədə doğruluq, dürüstlük, səmimilik bütün ailə üzvlərinin xoşbəxtliyinin rəhnidir. Xoşbəxt ailə o deməkdir ki, burada qarşılıqlı hörmət, qarşılıqlı anlaşma, sevgi, etibar və etimad, səbirlilik, vəzifə hissi, bir-birinin qarşısında məsuliyyət və s. keyfiyyətlər uca tutulur. Ailələlərimizdə əməksevərlik, digər insanlara xeyirxah münasibət ta qədim dövrlərdən zəmanəmizə qədər gəlib çıxan ailə ənənələrimizdir. Ailə dəyərlərimizin çox mühüm xarakter cəhətlərindən biri Azərbaycan ailəsində övlad məhəbbəti psixologiyasıdır. Tədqiqatların nəticələri göstərir ki, Azərbaycan ailəsinin uzunömürlülüyünün əsas səbəblərindən biri də məhz elə bu cəhətdir. Azərbaycan ailə dəyərlərində yaşlı nəslə– ağsaqqal babalara, ağbirçək nənələrə hörmət və qayğı xüsusi qeyd olunmalıdır. Azərbaycan ailəsində atanın sözü hökm bilindiyi kimi, ananın sözünə də qeyd-şərtsiz əməl olunmuşdur. Ailə tərbiyəsində ailə münasibətlərinin tənzimlənməsi xüsusi əhəmiyyət daşıyır. Ailə münasibətləri dedikdə ər-arvad, ata-ana, valideyn-övlad münasibətləri nəzərdə tutulur. Bu münasibətlər qarşılıqlı təsirdə, sıx vəhdətdədir. Azərbaycanlılar öz ev– eşiyi, doğma ocağı olmasına ciddi səy və əmək sərf edən insanlardır. Valideynlər öz övladlarının gələcək xoşbəxtliyinin və maraqlarının qayğısına qalmaqla bərabər, həm də öz ailə ocaqlarını mümkün qədər sahmana salmağı, cəlbedici bir yerə çevirməyi xoşlayırlar.

РОЛЬ ПЕДАГОГИЧЕСКОГО КОЛЛЕКТИВА В СОЦИАЛЬНОМ СТАНОВЛЕНИИ ЛИЧНОСТИ СТАРШЕКЛАССНИКА

Фатуллаев Р.К.
Бакинский славянский университет
E-mail: r1v8r1v8@gmail.com

Педагогический коллектив играет важную роль в социальном становлении личности старшеклассника. В этот период жизни подростки формируют свою социальную идентичность и ориентируются на окружающий мир. Педагогический коллектив является тем пространством, где старшеклассник может получить поддержку и наставления в социальном становлении. В нем действуют разные педагоги, которые имеют разный опыт, знания и способности. Каждый из них может оказать влияние на старшеклассника, способствуя его социальному развитию. Сотрудники педагогического коллектива могут помочь старшекласснику выявить и развить свои социальные навыки, повысить уровень социальной компетентности, научиться общаться с разными людьми, уметь работать в команде, принимать решения и т.д. Кроме того, они могут помочь старшекласснику осознать свои интересы и желания, найти свое место в жизни и определить свои ценности. Педагогический коллектив также может играть важную роль в создании атмосферы в классе и в школе в целом, которая способствует развитию старшеклассника. Он может помочь создать толерантную, дружелюбную и уважительную обстановку, где старшеклассник чувствует себя комфортно и защищенным. Педагогический коллектив имеет большое значение в социальном становлении личности старшеклассника. Он может помочь старшекласснику стать уверенным, самостоятельным, социально активным и успешным в жизни. Для того чтобы педагогический коллектив мог максимально эффективно влиять на социальное становление личности старшеклассника, необходимо соблюдать ряд условий:Коллективность. Педагоги должны работать вместе и координировать свои действия для достижения общей цели. Они должны быть единой командой, которая помогает старшекласснику.

Индивидуализация. Каждый старшеклассник уникален и нуждается в индивидуальном подходе. Педагоги должны учитывать особенности личности каждого ученика и настраиваться на его потребности.Системность. Для того чтобы социальное становление старшеклассника происходило гармонично, необходимо учитывать все аспекты его жизни: учебный процесс, взаимоотношения в коллективе, внешкольная деятельность и т.д. Педагогический коллектив должен обеспечить интеграцию всех этих аспектов в одну общую систему.Профессионализм. Педагогический коллектив должен иметь высокий профессиональный уровень и быть в курсе последних тенденций в области педагогики и социальной работы с подростками. Это позволит им эффективнее работать с старшеклассниками.Открытость. Педагогический коллектив должен быть открытым для обратной связи от старшеклассников и их родителей. Они должны быть готовы слушать мнения и пожелания старшеклассников и вносить изменения в свою работу на основе этой обратной связи.

Педагогический коллектив должен работать вместе и учитывать индивидуальные особенности каждого ученика, обеспечивать системный и профессиональный подход, а также быть открытым для обратной связи. Все это позволит им создать благоприятную обстановку для социального становления личности старшеклассника и помочь ему успешно адаптироваться к жизни в обществе. Как уже упоминалось, социальное становление личности старшеклассника связано с процессом формирования его идентичности и социальной компетентности. Педагогический коллектив может внести существенный вклад в этот процесс:

Формирование идентичности. Идентичность - это представление о самом себе, о своих уникальных качествах и способностях, о своем месте в жизни и обществе. Педагогический коллектив может помочь старшекласснику сформировать положительную идентичность, обеспечивая ему поддержку, позитивную обратную связь, создавая условия для самоопределения и самореализации. Они могут помочь старшекласснику понять, что он уникален и ценен, и что у него есть что внести в общество.Развитие социальной компетентности. Социальная компетентность - это набор навыков, позволяющих человеку эффективно взаимодействовать с другими людьми в социальных ситуациях. Педагогический коллектив может помочь старшекласснику развить социальную компетентность, обучая его навыкам коммуникации, управления конфликтами, принятия решений и т.д. Они также могут помочь старшекласснику развивать эмпатию и уважительное отношение к другим людям, что является важным аспектом социальной компетентности.Воспитание гражданственности. Гражданственность - это понимание своих прав и обязанностей в обществе, уважение закона, готовность к участию в общественной жизни и к соблюдению социальных норм и ценностей. Педагогический коллектив может помочь старшекласснику стать гражданином, воспитывая у него понимание и уважение законов и социальных норм, развивая его интерес к участию в общественной жизни и к общественной деятельности.Развитие творческих способностей. Творческие способности - это способность находить нетривиальные решения и развивать инновационные идеи. Педагогический коллектив может помочь старшекласснику развивать творческие способности, предоставляя ему возможность для самовыражения и экспериментирования в различных областях, таких как искусство, музыка, танцы, театр, литература и т.д. Педагоги могут также организовывать творческие проекты и конкурсы, которые будут стимулировать старшеклассников на развитие творческих способностей.

Поддержка при выборе профессии. Один из важных аспектов социального становления личности старшеклассника - это выбор профессии. Педагогический коллектив может помочь старшекласснику определить свои интересы, способности и цели, а также предоставить информацию о различных профессиях и карьерных путях. Они также могут помочь старшекласснику подготовиться к поступлению в высшее учебное заведение или на рабочую специальность.Формирование здорового образа жизни. Здоровый образ жизни - это важный аспект социального становления личности старшеклассника. Педагогический коллектив может помочь старшекласснику развивать здоровый образ жизни, в том числе путем проведения занятий физической культурой, здоровьесберегающих мероприятий, информирования о здоровом питании и т.д.В общем и целом, педагогический коллектив играет важную роль в социальном становлении личности старшеклассника. Он может помочь старшекласснику сформировать положительную идентичность, развить социальную компетентность, воспитать гражданственность, развить творческие способности, поддержать при выборе профессии и сформировать здоровый образ жизни.

СОЦИАЛЬНЫЙ ПОТЕНЦИАЛ СОВРЕМЕННОЙ МОЛОДЁЖИ

Фоменко С.С.
Бакинский славянский университет
E-mail: seva.fomenko.94@mail.ru

Возможность развития общества является одним из главных и важных факторов современности. Актуальность решения этой задачи детерминирована не только необходимостью выявления структуры и характеристики социального развития и проявления в будущем, но и надобностью социального ведения в сведения о средствах и методах достижения, задуманного в соответствии с нормативными целями положения социальной системы. В рамках процесса социального проектирования и планирования способности управляемых систем и объектов учитываются редко, в чём и заключается

основная сложность данного процесса.Переход всех процессов социального развития общества к фундаментально новому положению, а точнее превосходство благоприятных перемен во всех его подсистемах, является его показателем. Социальный коллектив молодёжи в ходе функционирования реализует инновационную, трансляционную и воспроизводственную функции, в следствии чего совершается развитие как самой молодёжи, так и общества в целом.Социальный потенциал молодёжи рассматривается относительно недавно. Основной тенденцией исследования обозначается диагностирование потенциала какой-либо социально-демографической группы или региона. Диагностирование проблемы направлено в основном на выявление и оценку положительных функций и способностей по улучшению обстоятельств в той или иной сфере.Одной из главных свойств социального потенциала значится то, что его раскрытие и осуществление обладают вероятностным, ситуативным характером. Это значит, что его осуществление, с одной стороны, может быть предопределена индивидуальностью и направлением деятельности субъекта, а с другой-не зависеть от него. Согласно с этим субъектом социального потенциала необходимо понимать такого участника социальной жизни, итогом работы которого является образцовое перевоплощение социальной системы, а также возможность таких перевоплощений. Вопреки повышающемуся интересу исследователей к проблеме социального потенциала, неразрешёнными остаются вопросы, зависимые с его показателями различных социальных групп, общностей, институтов. Это обосновывается в первую очередь тем, что у каждого социального объекта имеется своя индивидуальность. В то же время, чтобы повысить надёжность исследований в данной сфере, имеющиеся способы и методы к изучению социального потенциала обязательно нужно рассматривать не как противоречивые, а как взаимодополняющие. Исследование социального потенциала современной молодёжи беспристрастно приобретает исключительное значение. Такая важность опосредуется специальным социальным статусом и ролью представителей молодого поколения. Изменение общества, его переход к новому состоянию связан с инновациями во всех сферах социальной жизни. Их высокая активность значительно влияет на развитие молодого поколения. При этом преображаются роль и значение молодого поколения как наиболее активной возрастной группы. Исследование социального потенциала молодого поколения должно определять не только его оценку, но и выявление факторов его формирования. Безусловно, именно социальная среда во многом обусловливает социализацию молодёжи. В частности, в переходных обществах процесс социального воспроизводства претерпевает существенные изменения.Таким образом, изучение социального потенциала молодёжи, его структуры, видов и уровней представляет собой сложную познавательную задачу, решение который имеет неоспоримое теоретическое и прикладное значение. Определение стратегических направлений качественных изменений общества и его элементов невозможно без социального развития молодого поколения.

СОЧЕТАНИЕ СЕМЕЙНОГО, ШКОЛЬНОГО И ОБЩЕСТВЕННОГО ВОСПИТАНИЯ КАК ВАЖНЕЙШАЯ ПРЕДПОСЫЛКА ПОВЫШЕНИЯ ЕГО ЭФФЕКТИВНОСТИ

Ягибекова Ф.В.
Бакинский славянский университет
E-mail: yagibekovafaina@gmail.com

Эффективность воспитания совершенного человека сильно зависит от того, насколько тесно взаимодействует семья, школа и общественность. Каждый родитель хочет видеть своих детей достойными гражданами нашего общества. Без совместной работы семьи, школы и общественности процесс воспитания не даст эффективного результата. Их сотрудничество в воспитании подрастающего поколения рассматривается как важнейший принцип народного образования. Успешному осуществлению этого принципа содействует единство системы народного образования и преемственность всех типов учебных заведений. Сущность совместной работы заключается в достижении единства воспитательных требований и действий взрослых, обеспечивающего наиболее полное и успешное развитие личности. Сочетание семейного, школьного и общественного воспитания предусматривает, прежде всего, установление правильных взаимоотношений и полного понимания задач воспитания. А это, в свою очередь, создаёт необходимую деловую атмосферу и творческий настрой в работе с детьми. Воспитательная деятельность взрослых предполагает создание

воспитывающей обстановки в школе, семье, общественных местах. Воспитывающая обстановка ставит ребенка перед необходимостью вести себя в соответствии с общими требованиями и нормами поведения. К ним можно отнести: создание жизненных ситуаций, активизирующих их положительные поступки, единые требования разных воспитателей к поведению детей, рациональное использование разнообразных методов и приемов воспитания, не противоречащих друг другу и не приводящих к раздвоенности поведении ребят. Следует отметить, что единство воспитательной деятельности родителей, учителей и общественников создает наиболее благоприятные условия для дальнейшего всестороннего развития личности, его успешного формирования. При этом, формирование чувств,взглядов,убеждений и соответствующих им поступков, составляющих основу единства сознания и поведения личности, осуществляется более планомерно, без срывов и конфликтных ситуаций. Благодаря единым требованиям взрослых укрепляется и воля детей. Дети становятся настойчивее в достижении поставленных целей, решительнее в преодолении трудностей, заметно активнее в тех или иных ситуациях.Соблюдение согласованности в действиях семьи, школы и общественности-это важная, но недостаточная сторона взаимосвязи между участниками воспитательного и образовательного процесса. Для того, чтобы обеспечить принцип целостности педагогического процесса, важно создать единое воспитательное и образовательное пространство. Процесс взаимосвязи семейного и общественного воспитания рассматривается не как простая сумма волевых действий семьи, школы и общественности, а как социальное партнерство, необходимое для создания единой воспитывающей среды и образовательного пространства, где протекает целостное формирование личности. Современные трансформационные процессы, происходящие в обществе, предъявляют иные требования, чем те, которые господствовали в далеком прошлом. Интересы интенсивно развивающейся экономики, культуры, техники требуют определенные изменения и координации действий всех субъектов воспитательного процесса, а также поиска новых, более эффективных подходов к обучению и социальному партнерству в деле воспитания подрастающего поколения. Важную роль в осуществлении этого принципа играет взаимосвязь семьи, школы и общественности, которая предполагает органическое единство и усиление взаимной ответственности субъектов воспитания. Воспитательный союз семьи, школы и общественности-явление не новое для нашей страны. Он был присущ природе социалистической системы и является принципиально важным, закономерным и сегодня. Союз семьи, школы и общественности предполагает единство целей и задач семьи и общественности подрастающего поколения к жизни. Анализ научно-теоретических источников свидетельствует о том, что проблема взаимосвязи общественного и семейного воспитания представляла собой одну из самых дискуссионных проблем в истории педагогики. Она привлекала внимание философов, педагогов, психологов с глубокой древности. Проблема взаимосвязи и взаимоотношений семьи и других социальных институтов была представлена в трудах Аристотеля,Демокрита,Платона,Я.А.Коменского,Дж.Локка,И.Г.Песталоцци,К.Д.Ушинского,А.С.Мак аренко и т.д. Каждый из них трактовал проблему взаимосвязи по-своему.И,несмотря на имеющиеся разногласия по поводу о соотношении общественного,школьного и семейного воспитания, их тесное сотрудничество и взаимодействие рассматривается как одно из главных условий формирования личности подрастающего человека. От единства образовательных организаций, в частности-школы, семьи и общественности, во многом зависит успех воспитания и обучения детей. Развитие социального партнерства должно стать стратегическим направлением модернизации нашего образования. Это вызвано жизненной необходимостью, т.к. образовательной организации сегодня нужно учитывать социальный заказ, уделять должное внимание инновационному развитию. Чтобы взаимодействие школы, семьи и общественности стало реальной, родители и педагоги должны строить свои отношения исходя из психологических закономерностей развития личности.

XV BÖLÜM

PSİXOLOGİYA

HİSSLƏR VƏ ONLARIN PSİXOLOJİ XARAKTERİSTİKASI

Hüseynli S.B.
Sumqayıt Dövlət Universiteti
E-mail: tagiyevasemane@gmail.com

Hiss sözünün çox funksional istifadəsi "hiss etmək", əvvəlcədən duymaq, "həssaslıq" sözləri ilə ifadə olunur. Hiss sözünü bir çox hallarda duyğularla səhv salırlar. Bəzi hallarda onu insanın vəziyyəti (emosional halı), intellektual proseslərlə əlaqələndirirlər. Məsələn, K.D.Uşinskinin "İnsan tərbiyəvi predmet kimi" əsərində uyğunluq və fərqləndirmə hissi, əqli gərginlik hissi, gözləmə hissi, yalan və şübhə hissi, həm də əminlik və müvəffəqiyyət hissi kimi intellektual, yəni əqli hisslər nəzərdən keçirilir.

Hazırda hisslərin ətraflı təsnifatı mövcud deyil. Lakin elmi ədəbiyyatlarda onların üç növünü təsnif edirlər: mənəvi hisslər, intellektual hisslər və estetik hisslər.

- Mənəvi hisslər – subyektin ilk öncə insanlara, daha sonra bütün cəmiyyətə qarşı keçirdiyi hisləridir. Buraya sevgi, şəfqət, fədakarlıq, dürüstlük, alturizm, vətənpərvərlik kimi hisslər daxildir. Mənəvi hisslərdən başqa qeyri-mənəvi hisslər də mövcuddur. Onlara isə paxıllıq, eqoizm, qəddarlıq, xəyanət, təkəbbür kimi hisslər aiddir.

- İntellektual hisslər – insanın idrak proseslərinə olan münasibətini müəyyən edir. Buraya yenilikləri öyrənməyə maraq, yeninin kəşf olunması, dərketmə sevinci, məqsədə çatmaq üçün dözüm və çalışqanlıq kimi hisslər aiddir. İntellektual hisslərin əksi özünü adları çəkilən növlərin biruzə verməməsində, intellektual passivlikdə göstərir.

- Estetik hisslər – özlərini həyatın gözəl və ya çirkin, gülünc və ya tragedik, ali və ya vulqar, incə və ya kobud kriteriyalarında göstərirlər. Onlar bədii yönümlülüyü müəyyənləşdirir və estetik həzzalma, heyran və yaxud nifrət kimi yaşanırlar.

Predmet təşkilinin ümumiləşmə dərəcəsinə görə adətən hissləri üç yerə bölürlər: konkret, ümumi, abstrakt.

- Konkret hisslər verilmiş obyekt və ya hadisəyə yönəlmişdir (məsələn, hər hansısa uşağa, yazıçının hansısa əsərinə və s.).

- Ümumi hisslər nisbətən üst kateqoriyaları əhatə edir. Buna misal olaraq incəsənətə qarşı olan hissləri qeyd edə bilərik.

- Abstrakt hisslər dedikdə mücərrəd mənalı hisslər nəzərdə tutulur (məsələn, ədalətlilik hissi, tragediya hissi və s.).

Hisslərdən danışarkən onun funksiyalarını da qeyd etmək lazımdır. Hisslər əsasən üç mühüm funksiyanı yerinə yetirir: siqnal, tənzimetmə və kammunikativ.

- Siqnal funksiyasının köməyilə biz ətraf aləmdə baş verən hadisələrin hansının həyatımız üçün faydalı və ya təhlükəli olduğunu dərk edirik. Bundan sonra davranış və rəftarımızda həmin cəhətləri nəzərə alaraq fəaliyyətimizdə müəyyən dəyişikliklər edirik.

- Hisslər insanın hərəkət və fəaliyyətinə motiv xarakterli təsir edərək onları müəyyən istiqamətlərə yönəldə bilirlər. Bu hisslərin tənzimetmə funksiyası adlanır. Məsələn, hər hansı dilə olan maraq, onu öyrənmək istəyi insanı müvafiq ali məktəbdə oxumağa sövq edir.

- Hisslərin kommunikativ funksiyası zamanı insanın keçirdiyi hisslər onun mimikasında, səsində, tənəffüs ahəngində və s. təzahür edir. Həmin kammunikativ funksiya şəxsiyyətlərarası qarşılıqlı münasibətlərin tənzimlənməsinə xidmət edir.

Amerikan psixoloqu K.İzard qeyd olunan funksiyalarla yanaşı hisslərin motivasiya və sosializasiya funksiyalarının olduğunu da qeyd etmişdir.Vundt qeyd edir ki, hisslər sistemini üç kriteriya üzrə bölmək olar: həzz – qeyri-həzz, oyanıqlıq (həyəcan) – sakitlik, gərginlik – rahatlıq. Vundt eyni zamanda qeyd edir ki, indiki anda şüurumuzda olan müxtəlif hissi elementlər birləşərək tam olurlar. Sadə hisslər birləşərək hissəvi hisslərə (yəni hələ tam olmayan hisslərə), onlar da öz növbəsində birləşərək tam bir hissə çevrilirlər. Vundt bunu

"emosional durumun tamlığı" prinsipi adlandırır.A.N.Leontyevə görə hiss və emosiyalar bir – birinə uyğun gəlmirlər, hətta bir – birinə zidd olurlar (həddən çox mehriban insan müəyyən bir şəraitdə müvəqqəti xoşagəlməz emosiyalar, hətta qəzəb doğurur). Bir çox müəlliflər qeyd edirlər ki, "Emosiya informasiyanın ötürülməsinə işarədir, belə ki, bu obyektin subyekt üçün nə dərəcədə önəmli olmasıdır, hiss isə onu açıqlayır ki, subyekt üçün xoşdur, vacibdir, təhlükəlidir, laqeyiddir, pisdir və s."K.K.Platonov hesab edir ki, hiss emosiyalarla psixi əks olunmanın anlayış formasının uyğunluğundan yaranmış əks olunma formasıdır. Belə ki, insanda vətənə sevgi hissinin yaranması üçün "Vətən" anlayışı olmalıdır. R.S.Nemov qeyd edir ki, emosiyalar hər zaman dərk olunan olmur, hiss isə əksinə xaricdən görünür. Bəzi alimlər isə qeyd edirlər ki, bu əksinədir. İnsan tez-tez özündə əmələ gələn müəyyən hissləri qəbul etmək istəmir. Eyni zamanda emosiya bir yaşantı kimi də dərk olunmaya bilməz. Nemov hiss və emosiyaları şəxsiyyətin təlimi adlandırır, hansı ki, emosiyaların bioloji təbiətini inkar edərək insanı sosial-psixoloji cəhətdən xarakterizə edir.Hisslərin insan həyatında rolu çox böyükdür. Hisslər insanın əhvalına, orqanizminə, rəftar və davranışına bilavasitə təsir göstərə bilir. Hisslərin göstərdiyi təsirlər iki formada ola bilir: müsbət və mənfi. Müsbət təsir edən hisslərə stenik hisslər deyilir. Stenik hisslər orqanizmin həyat fəaliyyətini artırır və fəaliyyətə təhrik edir. Məsələn, sevinc hissi zamanı qan damarları genişlənir, beyin qanla daha yaxşı təmin olunur, insan yorğunluq hiss etmir və s. Mənfi təsir göstərən hisslərə astenik hisslər deyilir. Astenik hisslər orqanizmin həyat fəaliyyətini zəiflədir, enerjisini azaldır. Məsələn, kədər hissi zamanı qan damarları büzülür, sifət ağarır, beyinə qan az gedir, bədənin hərəkəti aşağı düşür, hərəktəri ağır və sönük olur, insan özünü əzgin hiss edir. Nəzərə alsaq ki, hisslər bizim orqanizmimizə birbaşa təsir göstərir, ona görə də çalışıb hər zaman bizə müsbət təsir göstərən insanları ətrafımızda saxlamalıyıq.

GƏNCLƏRİN ÖZÜNÜREALLAŞDIRMASININ PEŞƏSEÇİMİNƏ TƏSİRİNİN PSİXOLOJİ MƏSƏLƏLƏRİ

Hüseynova S.V.
Sumqayıt Dövlət Universiteti

Yeniyetmələr peşə seçərkən qərarlarına təsir edəcək bir çox amillərlə qarşılaşırlar. Bunlara onun doğulduğu ailə, yaşadığı cəmiyyət, fərdi xarakterik xüsusiyyətləri, maraq və meylləri, qabiliyyətləri aiddir. Ancaq peşəseçiminə təsir edən əsas faktor ailədir. Biz özümüzə hər hansı bir ixtisas seçməklə gələcək həyatımıza aparıcı yönü vermiş oluruq. Ailələr bu cür məqamlarda övladlarına iki formada təsir edə bilirlər: ailənin birbaşa təsiri; ailənin dolayı təsiri.Birinci tipdə valideynlər övladlarına bilərəkdən təsir edir. Valideyn övladının hər hansı bir sahədə qabiliyyətini görür və onu həmin sahə üzrə istiqamətləndirir. Valideynin qərarı nəticəsində yeniyetmənin peşə seçimi problemi həll olunur. Ancaq bu həmişə müsbət nəticələnmir. Bir çox valideynlər övladlarını elə öz çalışdığı sahələrdə görmək istəyirlər.

Yeniyetmələrin peşə seçimində ailələrin dolayı yolla təsirinə daha çox rast gəlinir. Gənc ailədə valideynlərinin iş prosesi ilə tanış olur, onun çalışdığı sahə haqqında məlumat əldə edir. Əgər bu ona gələcək üçün kifayət edirsə, seçəcəyi peşə də valideynin peşəsi ilə eyni olacaqdır. Təbii ki, yeniyetmə fikrini dəyişə, valideynlərinin peşəsindən tam fərqli bir sahədə özünü sınamağa qərar verə bilər.

Valideynlər yeniyetmələrə kiçik yaşlardan hansı peşələr daha perspektivlidir kimi sözlər deyərək öz istədiyi peşəni uşaqların şüuraltına yeritməməlidir. İnsan həyatının ən önəmli seçimlərindən biri peşə seçimi olduğu unudulmamalıdır. Ancaq ana atanın etməsi lazım olan, onu qabiliyyət və istedadını inkişaf etdirmək üçün lazımı imkanları təqdim etmək olmalıdır.Empirik sübutlar göstərir ki, peşə seçimində problemi olan yeniyetmələrdə çox vaxt yüksək səviyyədə psixoloji problemlər olur. Məsələn, Feldman müəyyən etmişdir ki, peşə seçimi qərarı verən universitet tələbələri qərarsız olan tələbələrlə müqayisədə daha az depressiyaya düşüblər. Kunnen müəyyən etdi ki, karyera seçimində problemlər üçün yardım axtaran fərdlərin orta səviyyədən yuxarı psixoloji problemləri və daha az effektiv mübarizə strategiyaları var. Skorikov təklif edir ki, karyera seçimi problemləri ilə psixoloji problemlər arasındakı əlaqəyə görə və peşə seçimi yeniyetmələrin böyük qrupları üçün çox vacib olduğundan, peşə seçimi ilə bağlı məsləhətlər yeniyetmələr üçün ümumi profilaktik proqramların standart komponenti olmalıdır. Ədəbiyyat göstərir ki, peşə seçimi problemi olan tələbələr orta hesabla müxtəlif psixoloji problemlərin daha yüksək səviyyələrinə malikdirlər.

Peşə seçimi problemləri ilə psixoloji problemlər arasındakı əlaqəyə dair əksər tədqiqatlar korrelyasiya xarakterlidir. Buna görə də müdaxilənin ilk növbədə psixoloji problemlərə, yoxsa peşə seçimi problemlərini həll etməli olduğu sualına cavab verməyə kömək etmir. Psixoloji problemlər peşə seçimi prosesinə mane

olarsa, bu psixoloji problemlərə müdaxilə edilməlidir. Amma peşə seçimi problemləri psixoloji problemlərlə nəticələnirsə, peşə seçiminə müdaxilə psixoloji problemlərin də azalması ilə nəticələnə bilər. Bu səbəb-nəticə əlaqəsi ilə bağlı araşdırmalar az və nəticəsizdir. Başqa bir araşdırmada belə nəticəyə gəliblər ki, özünə hörmət vasitəçidir, lakin karyera ilə bağlı dəyişənlərə birbaşa təsir etmir. Skorikov karyera hazırlığının özünə hörmət, sosial uyğunlaşma və emosional sabitlik kimi tənzimləmə faktorlarına əhəmiyyətli təsirini tapdı, lakin Skorikov karyera hazırlığının depressiya və narahatlıq üzərində heç bir təsirini tapmadı.Narahatlıq və depressiya kimi psixoloji problemlərin peşə seçimi problemlərindən qaynaqlanacağını gözləyə bilərik. Xüsusilə yeniyetməlik və yeni yaranan yetkinlik dövründə insanlar həm fərdi dəyişikliklərlə, həm də onları gələcək peşə həyatları ilə bağlı qərarlar verməyə məcbur edən yeni ətraf mühit tələbləri ilə qarşılaşırlar. Qənaətbəxş peşə seçimləri edə bilməmək həm fərdin, həm də xarici dünyanın gözündə uğursuzluq kimi qəbul edilə bilər. Mühüm inkişaf tapşırığını yerinə yetirə bilməmək, valideynlərin və başqalarının gözləntilərini qarşılaya bilməmək, aşağı özgüvən və psixoloji problemlərlə nəticələnə bilər.Nəzəriyyə və araşdırmalar göstərir ki, yeniyetmələrdə peşə seçimi problemləri (ümumilikdə şəxsiyyətin inkişafında və xüsusi olaraq peşə sahəsində problemlər kimi konseptuallaşdırılır) psixoloji rifaha mənfi təsir göstərə bilər və peşə şəxsiyyətinin inkişafına təkan verən müdaxilə həm də psixoloji problemləri azaldır.

PSİXOLOJİ ƏDƏBİYYATDA AİLƏ ÜSLUBLARININ TƏHLİLİ

İbrahimova K.R.
Bakı Slavyan Universiteti
E-mail: konul16ibrahimova@gmail.com

Şəxsiyyətin formalaşmasının əsas institutu ailədir. Ailə cəmiyyətin ən vacib institutudur, insanın böyüdüyü həm fiziki, həm də mənəvi mikroqrupdu. Ailədə uşaq ilk həyat təcrübəsini alır, ilk müşahidələri edir və müxtəlif vəziyyətlərdə necə davranmağı öyrənir. Uşağa öyrətdiklərimizin konkret nümunələrlə dəstəklənməsi çox vacibdir ki, böyüklərdə nəzəriyyənin praktikaya zidd olmadığını görsün.

Uşağın tərbiyəsində ailənin əhəmiyyəti çox böyükdür, çünki ailə hər bir şəxsiyyətin əsasını, təməlini qoyur, onun sosiallaşmasına kömək edir. Ailə daxilində münasibətlərin müxtəlif meyarlarına əsaslanan ailə tərbiyəsi üslublarının bir çox təsnifatı var. J.J. Boldui təsnifatında iki tərbiyə üslubunu müəyyənləşdirmişdi: demokratik və nəzarət üslubu. Bu bölgüı uşağa olan tələblərin təbiəti, nəzarət dərəcəsi, emosional dəstək və qiymətləndirmə kimi meyarlara əsaslanırdı. E. G. Eydemillerin təklif olunan ailə tərbiyəsi üslubları müəllimlər və psixoloqlar arasında böyük maraq doğurdu. Bu təsnifatın müəllifi uşağın şəxsiyyətinin inkişafına mənfi təsir göstərən ailə tərbiyəsi üslublarını müəyyənləşdirir. Tərbiyə üslubları böyüklərin uşaqların həyatında iştirak səviyyəsi, nəzarət dərəcəsi və valideynlərin uşağın fərdi xüsusiyyətlərinə diqqəti ilə fərqlənir. Hipoqəyyumluq uşağa kifayət qədər qayğı göstərməməsidir. Belə bir vəziyyətdə olan uşaqlar özbaşına buraxılır, ailə daxilindəki təmaslar minimal və səthi olur. Hipoproteksiyanın həddindən artıq dərəcəsi laqeydlik və pedaqoji laqeydlikdir. Dominant hiperqəyyumluq, tam davranış nəzarəti ilə birlikdə uşağa həddindən artıq qayğıdır. Belə ailələrdə çoxlu sayda qadağalar var.Nəticədə uşaqlar müstəqil və təşəbbüskarsız böyüyə bilərlər. Həvəsləndirici hiperqəyyumluq, uşağın istək və uğurlarının ön plana çıxdığı ailə tərbiyəsi tərzidir. Valideynlər uşaqlarının bütün şıltaqlıqlarını yerinə yetirirlər. Çox vaxt bu cür şəraitdə böyüyən uşaqlar yetkinlik dövründə çətinlik çəkirlər. Emosional imtina tərbiyə tərzi ilə böyüklər uşaqların həyatında iştirak etmək istəmirlər, tez-tez cəzalara müraciət edirlər. Bu cür "soyuq" valideynlər yalnız uşağın maddi dəstəyini borc hesab edə bilər və onların emosional rifahına əhəmiyyət vermirlər. Həddindən artıq tələblər. Bəzən valideynlər uşağa çox məsuliyyət qoyur və ondan hələ edə bilmədiyi şeyləri tələb edirlər. Kiçik bir yetkin kimi bir uşağa belə bir münasibət tez-tez artan narahatlıq və depressiyaya səbəb olur.

Uyğunsuzluq - valideynlərin vahid mövqeyinin olmaması və ya uşağa sevgisiz görünmək qorxusu səbəbindən yarana biləcək xaotik bir ailə tərbiyəsi tərzi. İcazə və uyğunsuzluq uşaqda impulsivlik, qeyri-müəyyənlik, özünüqiymətləndirmənin qeyri-sabitliyini inkişaf etdirir .

Bu problemlə bağlı təqdim olunan ədəbiyyatı təhlil etdikdən sonra, uşağın valideynləri ilə münasibətlərinin xüsusiyyətlərini və fərdi inkişafını təyin edən ailə tərbiyəsinin ən çox yayılmış üslublarını ayırdıq.



Şəkil 1. Ailə tərbiyəsi üslubları

Beləliklə, qeyd etmək lazımdır ki, ailə tərbiyəsi üslublarının bir çox təsnifatına baxmayaraq, valideynlər çox vacib bir vəzifə ilə üzləşirlər: gənc nəslin psixi sağlamlığına qayğı göstərmək.

SOSİAL MEDİANIN ŞAGİRD ŞƏXSİYYİTİNİN İNKİŞAFINA TƏSİRİ

Məmmədov Ş.M.
Bakı Slavyan Universiteti
E-mail: semxalmemmedov@gmail.com

Sosial media son illərdə internetin geniş yayılması ilə birlikdə özünə bir məkan qazanıb və hər kəsin həyatında mühüm bir rol oynayır. Dövrün aktual məsələlərindən biri olan sosial media bütün dünyada insanlar arasında əlaqə formasını dəyişdirib. Sosial media, məktəb şagirdləri də daxil olmaqla insanların əksəriyyətinin maraqlarının, fikirlərinin, inanclarının dəyişməsində böyük rol oynayır. Sosial medianın məktəb şagirdlərinin şəxsiyyət inkişafına təsiri haqqında danışarkən, bu sahədəki təsirlərə baxışımızı iki istiqamətə ayırmaq məqsədəuyğundur: birincisi – *sosial medianın şagird şəxsiyyətinin inkişafına pozitiv təsiri*, ikincisi – *sosial medianın şagird şəxsiyyətinin inkişafına neqativ* ***təsiri***. Əgər düzgün istifadə edilsə, sosial medianın şagird şəxsiyyətinin inkişafı üçün bir çox müsbət tərəfi vardır. Şagirdlərin müxtəlif məsələlər barədə informasiya toplamaq üçün sosial media böyük bir mənbə kimi köməklik edə bilər. Həmçinin, sosial media platformaları insanların bir-biriləri ilə əlaqə yaratmağa və bəzi mövzular barədə fikirləri paylaşmağa imkan verir. Bu şəkildə, şagirdlər dünyanın fərqli düşüncəyə sahib insanlarla tanış ola, onların fikirlərini və həyat təcrübələrini öyrənə bilərlər. Bu nüans, dünyanı daha geniş bir perspektivdə görərək, şagirdlərdə müxtəlif düşüncə və fikirlərin formalaşdırmasına səbəb olur.Digər vacib məsələ, bir çox universitetlər və təhsil müəssisələri öz sosial media hesablarında təhsil proqramları, məzuniyyət tələbləri, təqaüd proqramları və s. haqqında informasiya təqdim edir. Məktəb şagirdləri üçün sosial media, təhsil və bacarıqlarına uyğun informasiya və məlumatlar əldə etmək üçün bir mənbə kimi istifadə edilə bilər. Lakin sosial medianın məktəb şagirdlərinin şəxsiyyət inkişafına təsiri barədə bir sıra elmi araşdırmalar aparılmışdır və bu araşdırmaların nəticələri, sosial medianın neqativ təsirlərinin daha çox olduğunu göstərir.

Sosial mediada şagirdlər arasında yayılan negativ məlumatlar, video, şəkillər v.s. bir çox ailəvi və fərdi problemlərə, aqressiv davranışlara, intim məsələlərində erkən məlumatlanmalarına səbəb ola bilir, həmçinin özgüvənlərini də zəiflədir. Bu, həm onların öz təsəvvürlərini, həm də başqalarına baxış tərzinə təsir edir. Şagirdlər sosial media təsiri vasitəsi ilə qruplaşmalara çox asanlıqla qoşula bilərlər. Sosial mediada doğru olmayan məlumatlarla şagirdlərin fikirlərinə, davranışlarına asanlıqla təsir etmək mümkündür. Sosial medianın bir başqa mənfi təsiri də, şagirdlərin sosial media platformalarında hər hansı bir məzmunu paylaşmaqla, özlərini təhlükəyə atmaq ehtimalıdır. Buna misal olaraq, şəxsi məlumatların paylaşılması, şəxsi fotoların yayılması v.s. misal göstərmək olar. Şagirdlərin dərs prosesində sosial mediadan aktiv istifadə edilməsi, onların özünü daha yaxşı hazırlamaq və öyrənmə mədəniyyətinin inkişafına təkan verə bilər. Bu məqsədlə, müəllimlər və tərbiyəçilər, sosial medianın təhsil prosesinə nəzərə alınması və istifadə edilməsi ilə bağlı bir neçə məsələni nəzərə almalıdırlar. Sosial medianın istifadəsi, şagirdlərin özünü daha rahat ifadə etməyə imkan

verir. Bu platformalar, şagirdlərin sualları, fikirləri və fikirləri ilə başa çıxmaq üçün ideal bir əlaqə vasitəsi olaraq istifadə edilə bilər. Buna əlavə olaraq, sosial media, tələbələrin ətraflı məlumat axtarışı və araşdırmasına da imkan verir.Şagirdlərin sosial mediadan istifadəsi mövzusunda valideynlərin nəzarəti və məlumatlandırması bir digər vacib məsələdir. Valideynlər sosial media istifadəsinə nəzarət etmək üçün bir sıra addımlar atmalıdırlar. Onlar özləri də həmin sosial media platformalarını nəzərdən keçirib, uşaqlarının istifadə etdiyi sosial media platformalarının istifadə qaydalarını və məzmununu izləməlidirlər. Nəzərə alınmalıdır ki, valideynlər sosial mediadan istifadəni tamamilə qadağan etməməlidirlər. Çünki sosial media günümüzün aktuallığıdır.Sonda bildirmək istəyirəm ki, sosial media sonu olmayan məlumat mənbəyidir. Burada həm müsbət, həmdə mənfi məlumatlar mövcuddur. Sosial medianın həyatımızın bir hissəsinə çevrildiyi üçün şagirdləri sosial mediadan uzaq tutmaq əvəzinə, valideynlərin və müəllimlərin nəzarəti altında istifadəsi daha məqsədə uyğundur.

AZƏRBAYCAN PSİXOLOQLARININ ELMİ ƏSƏRLƏRİNDƏ TƏLƏBƏ ŞƏXSİYYƏTİNİN EMOSİONAL SAHƏSİNİN ÖYRƏNİLMƏSİ PROBLEMİ

Məmmədova S.R.
Bakı Slavyan Universiteti
E-mail: mmmdovasara20@gmail.com

Şəxsiyyətin emosional sahəsi müxtəlifdir, mürəkkəbdir və insan həyatında mühüm rol oynayır, müxtəlif fəaliyyət səviyyələrində özünü göstərir. Emosiyaların öyrənilməsi tarixi həm emosiyaların özlərinə, həm də onların emosional komponentlərinə marağı izləməyə imkan verir. Bir sıra əsərlər emosionallığı şəxsiyyətin xüsusiyyətləri kimi öyrənməyə yönəlmişdir. Alimlərin xüsusi diqqəti empatiyanın təzahürü meyarlarına, empatiyanın roluna, tələbələrin təhsil fəaliyyətindəki emosional təəssüratlarına və s. yönəlmişdir.

Azərbaycan psixoloqları da emosiyaların xüsusiyyətlərinə aid və onun insan həyatındakı rolu barədə fikirlər irəli sürmüşlər. Bu mövzuda Azərbaycan psixoloqları tərəfindən tədris vəsaitləri hazırlanmış, monoqrafik tədqiqatlar aparılmış, dissertasiyalar yazılmışdır. Tələbələrdə stressin təzahür xüsusiyyətləri, onların idrak fəaliyyətinin psixofizioloji xüsusiyyətlərindən asılılığı kimi problemlər tədqiq edilmişdir. Professor Ramiz Əliyevin fikirincə, emosiya dedikdə, bir tərəfdən insanın ətraf aləmin cisim və hadisələrinə subyektiv münasibətinin, bilavasitə, razılıq və ya narazılığının təzahürü formasıdır. Digər tərəfdən isə emosiya insan və heyvanların xarici və daxili qıcıqlandırıcılara bioloji tələbatın ödənilməsi ilə bağlı razılıq və ya narazılığını ifadə edən cavab reaksiyasıır. İnsan siqnallar sistemi kimi emosiya vasitəsilə baş verənlərin əhəmiyyətini dəyərləndirir..Ş.Haciyevanın dissertasiyasında psixo-emosional halların tələbə şəxsiyyətinin formalaşmasına təsiri, müsbət özünə münasibət fərdin emosional sahəsinin inkişaf səviyyəsini ilə əlaqəsi və qarşılıqlı asılılığı aşkar edilmişdir, tələbə şəxsiyyətinin emosional dayanıqlığının artırılması üçün pedaqoji modeli, tələbələrin psixo-emosional vəziyyətinin tənzimlənməsi üçün təlim proqramı hazırlanmış və həyata keçirilmişdir, təhsil prosesində xüsusi hazırlanmış korreksiya proqramından istifadə edildiyi üçün tələbə şəxsiyyətinin "Mən" konsepsiyasının və emosional sahəsinin inkişafının müsbət dinamikası eksperimental olaraq əsaslandırılmışdır.

Emosional stress şəraitində tələbələrə psixoloji dəstək, stressin qarşısının alınması və s. L.V. Mürsəlbəyovanın, R.R. Qaragözovun, R. H. Qədirovanın tədqiqat obyekti olmuşdur.

Bundan əlavə B. H. Əliyevin «Emosional halların tədqiqi məsələləri», E. Şəfiyevanın «Normal və patalogiya şəraitində emosional stress», G.Q. Hüseynova, Y.Ə. Vəliyevanın «Emosiyaların psixologiyası» kimi tədqiqat işləri problemin öyrənilməsində böyük əhəmiyyətə malikdir.

L.Ş. Əmrahlının elmi işlərində bizi maraqlandıran problemə kifayət qədər yer ayırıb və vurğulayıb ki, təlim-tərbiyə işini düzgün yerinə yetirmək üçün emosiya və hisslərin inkişafını bilmək olduqca önəmlidir. Emosiya və hisslər insanın dərk etdiklərinə, fikirləşdiklərinə, xatırladıqlarına, yaratmaq istədiklərinə və s. tərəf olan münasibətləridir.

Tələbənin emosional sahəsinin formalaşması prosesi müəyyən mərhələlərdə həyata keçirilən uzun bir prosesdir. Yerli psixoloqlar tərəfindən aparılan elmi tədqiqatların təhlili qeyd etməyə imkan verdi ki, aşağıdakı aspektlərə –emosional sahənin özünü inkişaf etdirməsi; emosional sahənin peşəkar əhəmiyyətli komponentlərinin formalaşması; emosional zəkanın inkişafı məsələlərinə xüsusi diqqət yetirmək zəruridir.

PSİXOLOGİYADA EMOSİONAL ZƏKANIN ƏHƏMİYYƏTİNİN ÖYRƏNİLMƏSİ

Muradova L.Q.
Bakı Slavyan Universiteti
E-mail- lalamuradlilala@gmail.com

Emosional zəka nədir və niyə vacibdir? Emosional zəka öz və digər insanların duyğularını, niyyətlərini, motivasiyalarını, istəklərini dərk və idarə etmək qabiliyyətidir. Bu bacarıq praktik problemləri həll etməyə və həyatda, işdə hədəflərə çatmağa kömək edir. İnkişaf etmiş emosional zəkaya sahib insanlar digər insanlarla danışıqlar aparmağı, qərar qəbul etməyi və mənfi vəziyyətlərə düzgün cavab verməyi bilirlər.

Müasir təhsil sistemində baş verən dəyişikliklər həm idrak proseslərində, həm də tələbə şəxsiyyətinin emosional sferasında əks olunur. Təhsil mühitində uyğunlaşma səviyyəsini artırmaq, tələbələrin kommunikativ fəaliyyətinin formalaşması, məlumatların qavranılması səviyyəsi həm müəllimlərin, həm də tələbələrin qarşısında müəyyən tələblər qoyur. Bu prosesdə emosional zəka mühüm rol oynayır.

Aristotel qeyd edirdi ki, "Hər kəs əsəbiləşə və özündən çıxa bilər. Bunu etmək çox asandır. Ancaq doğru insana, doğru ölçüdə, doğru zamanda, doğru səbəbdən dolayı və doğru şəkildə əsəbiləşmək heç də asan deyil".

Emosional zəka konsepsiyası psixologiya elmi kimi sosial elmlərin də tədqiqat obyektlərindən biridir. Emosional zəka nəzəriyyəsinin çiçəklənməsi 1980-1990-cı illərdə baş verdi. 1983-cü ildə Hovard Qardner zəkanı şəxsiyyətdaxili və şəxsiyyətlərarası zəkaya böldüyü məşhur zəka modelini nəşr etdi. Emosional zəka anlayışı 1995-ci ildə jurnalist Daniel Qoulmanın eyni adlı kitabının nəşrindən sonra məşhurlaşdı. Onun tədqiqatına görə, inkişaf etmiş emosional zəkaya sahib insanlar daha yaxşı zehni sağlamlığa, iş səmərəliliyinə və liderlik bacarıqlarına sahibdirlər.Zəka psixologiya elmində hər zaman geniş tədqiqat sahələrini əhatə edən bir mövzu olmuşdur və sosial qavrayışla sıx əlaqədədir. Emosional zəka emosiya və zehni fəaliyyətin birgə ifadəsi olduğundan insan İQ-nə də birbaşa təsir göstərir. İntellektual insanın sosial bacarıqları da inkişaf səviyyəsinə görə üstün xüsusiyyətlərlə fərqləndiyindən emosional zəkanın sosial qavrayışla birgə tədqiqi xüsusi maraq kəsb edir. Qeyd edilən məsələ ilə əlaqədar bir sıra tədqiqatlar aparılmış və müxtəlif fərziyyələr irəli sürülmüşdür. Məsələn, 2014-cü ildə "Forbes" jurnalında dərc olunan "Emotional Intelligence 2.0" başlıqlı məqalənin müəllifi Travis Bradberri qeyd edirdi: "Çalışdığımız bütün insanlar içərisində ən yaxşı göstəricisi olanların 90%-nin emosional zəkada da yüksək olduğunu gördük".

XXI əsrin əvvəllərində emosional zəka konsepsiyasının inkişafı davam etdi, bu mövzuda bir çox yeni nəşr edildi: Peter Salovey, Con Mayer, Hovard Qardner, Konstantin Vasili Petridis. Emosional zəkanın formal tərifini təklif etdilər. Onların təqdimatında, emosional zəka öz və başqalarının emosiyalarını dəqiq qiymətləndirmək, ifadə etmək, emosiyalardan istifadə etmək və öz və başqalarının emosiyalarını effektiv şəkildə tənzimləməklə əlaqəli bir bacarıq dəstidir. Buna görə, emosional zəkanın üç adaptiv qabiliyyətindən ibarət olduğu irəli sürülmüşdür: emosiyaların qiymətləndirilməsi və ifadəsi, emosiyaların tənzimlənməsi, düşüncə və fəaliyyətdə emosiyaların istifadəsi.

Rus psixoloqları tərəfindən emosional zəka mövzusu fəal şəkildə inkişaf etdirilir. 2000-ci illərdə artıq S.L.Rubinşteyn, L. S.Vıqotskiy, A. N. Leontyevin əsərlərində, emosional intellekt konsepsiyasının inkişafında əsas halına gələn bir sıra fikirlər yer almışdır. Beləliklə, S. L. Rubinşteyn qeyd etdi ki, "idrak aspekti" ən yüksək təzahürlərində emosiyaların mürəkkəb münasibətlərdə son həlqədir.

L. A. Bezborodova və M. A. Bezborodova şəxsiyyətlərarası münasibətlərdə mühüm amil kimi emosional zəkaya diqqət yetirirlər. Onlar tələbənin akademik fəaliyyətinə, onun ali təhsil sisteminə uyğunlaşmasına təsir edən müəllim və tələbələr arasında ünsiyyətə xüsusi önəm verirlər. Bu məsələdə əsas amil emosional zəkanın formalaşması və inkişafıdır.

Beləliklə, elmi ədəbiyyatın təhlili bunu iddia etməyə imkan verdiki, emosional zəka fərdin həm özünün, həm də başqalarının emosiyalarını izləmək, onları müqayisə etmək və məlumatı düşüncə və davranışlarına yönləndirmək üçün istifadə edə bilmək bacarığını ehtiva edən bir sosial zəka növüdür. Bundan başqa emosional zəka, insanın öz duyğuları ilə bərabər zəkasını də idarə etməsini təmin edən mexanizmdir. Emosional zəkanın sosial qavrayış və qarşılıqlı təsirlə başlıca əlaqəsi bir-birilə dinamik şəkildə səsləşən insanı keyfiyyətlərin informasiya mübadiləsi zamanı ötürülməsi və məntiqi təəssüratların yaradılması ilə şərtlənir

HEYDƏR ƏLİYEV ŞƏXSİYYƏTİNİN YENİYETMƏLƏRDƏ VƏTƏNPƏRVƏRLİK HİSSİNİN FORMALAŞMASINA TƏSİRİ

Mustafayeva A.E.
Bakı Slavyan Universiteti
E-mail: aysemustafayeva99@gmail.com

Şəxsiyyətin iradi keyfiyyətləri, insanın həyat və fəaliyyəti dövründə müxtəlif amillərin təsiri ilə formalaşır və inkişaf edir. İradi keyfiyyətlər- mürəkkəb psixi xüsusiyyətlərdir və onların köməyilə insan özünü cəmiyyətdə müstəqil bir şəxsiyyət kimi ifadə edə bilər.

İradi keyfiyyətlərin formalaşmasına təsir edən amilləri müxtəlif qruplarda təsnif etmək mümkündür: sosial mühit və ailənin təsiri, təlim-tərbiyə şəraiti, bioloji-genetik amillər və s. Kiçik yaş dövrlərində uşaqların hərəkətləri təqlid xarakteri daşıyır və bunu nəzərə alaraq, valideynlərin övladlarına ideal nümunə olması ən əsas amillərdən hesab edilir.Müstəqil dövlətimizin böyüyən nəsillərində vətənpərvərlik hisslərinin aşılanması, formalaşdırılması məktəbəqədər təhsil, ümumtəhsil və ali təhsil müəssisələrinin də tərbiyə işinin təşkilində ən aktual məsələlərdəndir.Cəmiyyətimizin aktual problemlərindən biri də yeniyetməlik dövrü və onun böhranları hesab olunur. İnsan şəxsiyyətinin formalaşmasında əhəmiyyətli dövr hesab edilən yeniyetməlik bir çoxlarında çətinliklər yaradır. Uşaqlıqdan yetkinliyə addımlayan yeniyetmədə həm fizioloji, həm də sosial-psixoloji dəyişikliklər bariz şəkildə özünü göstərir. Bu dövrdə düzgün yanaşma və tərbiyə üsulu, həmçinin iradi keyfiyyətlərin aşılanması şəxsiyyətin inkişafı üçün təsirlidir. Bu yaş dövründə iradi keyfiyyətlərin formalaşmasına cəmiyyətin sevgi və hörmətini qazanmış şəxsiyyətlərdən misal göstərmək təsirli amillərdən biridir.

Yeniyetmələrin həyat fəaliyyəti və təcrübələri millətimizə, xalqımıza, vətənimizə xeyir verən şəxsiyyətləri, torpaqlarımızın azadlığı uğrunda canını qurban edən igidləri tanısınlar, onların həyatı, bu insanları əhatə edən mühit barədə, siyasi quruluşu haqqında ətraflı biliklərə yiyələnsinlər. Belə biliklər şagirdlərinin dünyagörüşünü zənginləşdirir, onlarda vətənpərvərlik, mərdlik hislərini qüvvətləndirir, dünyaya açıq gözlə baxmağı, kimin irsindən öyrənməyi, hansı ideya ruhunda tərbiyə almağı öyrədir. Bu baxımdan, hazırkı dövrdə şagirdlərin vətənpərvərlik hislərinin formalaşmasında ümummilli lider Heydər Əliyevin irsindən istifadə olunması çox böyük uğurlar əldə etməyə imkan verər.

Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevin yeniyetmə və gənclərə aid etdiyi fikir və ifadələri, onları təhsilə, elmə çağırışı, vətənpərvərlik, cəsarətlilik, mərdlik kimi iradi keyfiyyətlərin şagirdlərə aşılanmasında əvəzsiz rolu olmuşdur. Heydər Əliyev, dövlətin idarəsində bir peşəkar kimi, daima inandığı bir işi təşkil etmək üçün həvəskarlıq göstərmişdir. O, Azərbaycanın müstəqilliyi, demokratik idarəetmə və vətəndaşların firavan həyatda yaşaması üçün mübarizə aparırdı və bütün bunlar da yetişməkdə olan gənc nəslə gözəl bir nümunə hesab edilir."Həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm". Ulu öndər Heydər Əliyev bu andını 1993-cü ildə müstəqil Azərbaycanın Prezidenti seçildiyi gün xalqına, bütün dünyaya bəyan etdi. Ulu öndərin həyat və fəaliyyətinin elə bir məqamı, elə bir mərhələsi yoxdur ki, onun bu anda sədaqətinin şahidi olmayasan. Və düşünürsən ki, bu şərəfli ömrü yaşamış insan Vətəninə, canı qədər sevdiyi Azərbaycanına, xalqına sədaqət andını öz pak vicdanı qarşısında içib.

Heydər Əliyevin ədalət insanı olması, qətiyyət və təşəbbüskarlığı, başladığı işin uğurla başa çatması üçün nəhayətsiz əzm və iradə nümayiş etdirməsi, səbirliliyi və siyasətdə mahir olması, sülh, barış, əmin-amanlıq yolçusu olması şagirdlərin, gənclərin ümumən, hər bir ölkə vətəndaşının qürur mənbəyidir.Ulu öndərin fikrincə, Vətən yalnız insanların birliyi olan, sadəcə, coğrafi ərazi deyil, Vətən hər bir azərbaycanlının harada yaşamasından asılı olmayaraq şan-şöhrəti, namusu, qeyrəti, əyilməz vüqarı, qürur mənbəyi, bütün varlığı, qisməti, gücü-qüdrəti, ədəbi səcdəgahıdır. Çoxşaxəli fəaliyyəti, uzaqgörən siyasəti ilə xalqımızın ruhuna vətənpərvərlik toxumları səpən Ümumilli lider Heydər Əliyev vətənpərvərlik şüuru, milli dövlətçilik, dil, mədəniyyət, vicdan azadlığı, konsepsiyaları müasirliyimizin və inkişafımızın təməlini təşkil edir. Vətənpərvərlik, cəsurluq, mərdlik, qətiyyətlilik, soyuqqanlılıq, müstəqillik və s. kimi xüsusiyyətlər iradi keyfiyyətlərin ən mühüm komponentlərindəndir və yeniyetməlik dövrü bu xüsusiyyətlərin inkişafı üçün çox mühüm dövr hesab olunur. Vətənpərvərlik, doğma vətəni və mədəniyyətinə hörmət və sevgi hisləri ilə əlaqədar iradi keyfiyyətdir. Yeniyetmələrin bu hisləri qazanması, öz vətəninlərinin tarixi mədəniyəti və dəyərləri haqqında məlumatlanması, dahi şəxsiyyətlərdən nümunə götürməsi ilə mümkündür. Bütün bunlar şagirdlərin milli mənsubiyyət hissini və milli kimliyini gücləndirir və onların vətənpərvərlik duyğusunu artırır.

Mərdlik, mürəkkəb iradi keyfiyyətdir və şəxsi mənafeyini dövlət mənafeyinə tabe etdirməkdə ifadə olunur. Mərdliyin yüksək təzahürü qəhrəmanlıqdır. Cəsurluq anlayışı isə, yeniyetmələrin üzvü olduqları cəmiyyətdə, sosial təşkilatlarda və ya gündəlik həyatlarında mübarizə apararkən tələb olunan bir xüsusiyyətdir. Cəsurluq, yeniyetmələrin öz-özləri və başqaları ilə daha da doğru olaraq bağlılıq qurmağa və həyata keçirilməsi çətin hərəkətlərə qarşı qoymağa kömək edir.Yeniyetmə və gənclərin milli vətənpərvərlik ruhunda yetişdirilməsi xalqın böyük sərvətidir. Onların milli ruhda tərbiyəsi vicdan azadlılığının təsdiqidir. Heydər Əliyevin bu mövzudakı tövsiyyələri yeniyetmələrdə cəsarət, mərdlik kimi iradi keyfiyyətlərin, vətəndaşlıq ləyaqətinin formalaşmasına öz əhəmiyyətli təsirini göstərmişdir.

HİPERAKTİV UŞAQLARIN PSİXİKASINA AİLƏDAXİLİ MÜNASİBƏTLƏRİN TƏSİRİ

Rəşidova A.N.
Bakı Slavyan Universiteti
E-mail: aytacrashidova94@gmail.com

Hiperaktivlik problemi günümüzdə yüksək yayılması və sosial əhəmiyyətinə görə çox aktualdır. Hiperaktivliyi olan uşaqlar ailə daxili münasibətlərdə bir çox çətinliklərlə üzləşirlər. Hiperaktiv pozuntusu olan uşaqların ailələrində ailə funksiyalarının müxtəlif sahələrində pozğunluqların olduğunu göstərən araşdırmalar mövcuddur. Bu pozulmalara ilk olaraq ünsiyyəti qeyd etmək lazımdır. Valideyn-uşaq ünsiyyəti ümumiyyətlə ailə üzvləri (ər-arvad, övlad-valideyn) arasında ünsiyyət problemləri bütövlükdə ailədə ünsiyyət sferasında daha ciddi pozuntularla təzahür oluna bilər. Hiperaktiv uşaqlarda anaları ilə fiziki və emosional təmasda böyük çatışmazlıqlar olur. Artan aktivliklərinə görə uşaqlar özünə qapanır, anaları ilə ünsiyyət qurmaqdan və təmaslardan uzaqlaşırlar, lakin əslində onlara çox ehtiyac duyurlar. Bu vacib təmasların olmaması səbəbindən emosional sahədə pozğunluqlar ən çox baş verir: narahatlıq, qeyrimüəyyənlik, həyəcanlılıq, neqativizm. Və onlar, öz növbəsində, uşağın özünü idarə etmək, özünü saxlamaq, diqqətli olmaq, başqa bir şeyə keçmək qabiliyyətində əks olunur. Ünsiyyət problemi nəticəsində bir sıra yanaşı çətinliklər müşahidə olunur. Ən çox müşahidə olunan ümumi çətinliklərə itaətsizlik ilə xarakterizə olunan münasibətlər, valideynlərin uşaqlara qarşı həddindən artıq psixoloji şiddəti, qardaşlar və bacılar arasında münaqişələri nümunə göstərmək olar. Ana və atalarda şəxsiyyətlərarası münaqişə, emosional labillik, aqressivlik inkişaf edir. Onlarda bu hallar özünü fiziki və psixoloji cəhətdən yorğunluq ilə göstərir. Bu tip ailələrdə uşaq mənfi halların daimi təzyiqi altında yaşayır və eyni zamanda davranışlarına görə müxtəlif cəzalara məruz qalır.Ailə üzvləri arasında yaşanan münaqişələr uşaqdakı problemin mürəkkəbləşməsinə, sosial mühitə inteqrasiyasının uğursuzluğa düçar olmasına gətirib çıxarır. Eyni zamanda valideynlərlə bağlı ciddi narahatlıq və problemlər müşahidə oluna bilər: analarda depressiya, sosial problemlər və ataların deviant davranışı (məsələn, alkoqoldan istifadə və narkotik aludəçilik, işsizlik, məişət zorakılığı). Valideynlərin bu tipli davranışları hiperaktiv uşağın psixoloji vəziyyətini ağırlaşdıra bilir. Belə tip uşaqların əksəriyyəti kommunikativ sahədə çətinliklər yaşayırlar. Ona görə də ailə mühitinin yaxşılaşdırılması, ər və arvad arasında münasibətlərin optimallaşdırılması, valideynlər və digər uşaqlar arasında müsbət rəy formalaşdırılması vacibdir. İlk növbədə, valideynlər arasında effektiv ünsiyyət modeli formalaşdırmaq lazımdır. Təqlid vasitəsi ilə uşaqlar ətrafdakıların rəftarlarını müşahidə edir və onları təqlid edirlər. Bundan əlavə qeyd etmək lazımdır ki, ilk zamanlar uşaqlarda valideynlərinə qarşı sonsuz bir güvən mövcud olur. Ona görə də valideynlər uşağa hərtərəfli təsir gücünə sahib olurlar. Valideynin təsir dairəsi müəyyən dərəcədə valideynin övladları ilə sosial əlaqələrinin intensivliyindən və dominantlıq səviyyəsindən asılıdır. Hiperaktiv uşağın psixi inkişafında, insanlarla ünsiyyət və qarşılıqlı münasibətlərində valideynlərinin təsiri danılmazdır. Məhz valideynlərlə qarşılıqlı münasibətlərin nəticəsi psixikanın yüksək inkişafını müşahidə edə bilərik. Valideyn münasibətlərini öyrənərkən onları bir neçə kateqoriyada birləşdirmək olar: valideyn-uşaq arasındakı münasibətlərin emosianal xüsusiyyətləri; valideynlə qarşılıqlı münasibətlərin uşağın psixikasına təsiri; valideyn-övlad münasibətlərinin uşağın psixikasına təsiri.

Aparılan araşdırmalar göstərir ki, hiperaktiv uşaqları olan ailələr digər ailələrə nisbətən daha stresli, qeyri-ardıcıl və düşmən münasibətə, valideynin övladına qarşı soyuq münasibətinə və daha həssas valideyn narahatlığı və depressiyasına malikdir. Əksər valideynlər öz uşaqlarının rəftar formalarını şərh edərkən onun məzmununda nə varsa anlamağa çalışır, övladlarını sevir, onlara diqqət yetirirlər. Kifayət dərəcədə onlara vaxt ayırdıqda, onlarla təmasda olduqlarında hiperaktiv uşaqlarda bu diqqət və sevgi öz müsbət təsirini göstərir. Psixoloji tədqiqatlar sübut edir ki, uşaqlarda ən mühüm ehtiyaclardan biri onlara etimad və təhlükəsizlik hissinin valideynlər tərəfindən aşılanmasıdır və bunu valideyn öz sevgi və rəftarı ilə onlara hiss etdirir.

Valideyn öz rəftar tərzi, sözləri, əməlləri vasitəsi ilə uşaqlarda elə bir hiss yaratmalıdır ki, övladı ona müsbət mənada tabe olsun və komandalarına əməl etsin. Bundan əlavə valideynin uşaqların istək və arzularına qarşı həssas və cavabdeh olması böyük əhəmiyyətə malikdir. Psixoloqun əsas vəzifələrindən biri valideynlər arasında psixoloji maarifləndirmə işinin aparılmasıdır.

XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLARIN MƏKTƏBƏ ADAPTASİYASI

Rzayeva T.V.
Bakı Slavyan Universiteti
E-mail: Turanarza18@gmail.com

Son dönəmlərdə xüsusi psixofiziki inkişafı olan uşaqların sayı olduqca artmaqdadır. Bu tip uşaqlar həyatlarının demək olar ki, bütün mərhələlərində həm fiziki, həm psixoloji köməyə ehtiyac duyurlar.

Azərbaycan Respublikasının "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili haqqında Qanunun"un 4-cü maddəsinin 4.0.1-ci bəndinə əsasən xüsusi qayğıya ehtiyacı olan şəxslər dövlət hesabına təhsil ala bilərlər. Eyni zamanda, sağlamlıq imkanları məhdud uşaqlar ümumi təhsil müəssisəsində xüsusi şərait yaradılmaqla inklüziv təhsilə cəlb edilməlidir.Xüsusi qayğıya ehtiyacı olan uşaqların məktəbə adaptasiya mərhələsi uzun və çox çətin ola bilər. Bu səbəbdən də müəllimlər mütləq belə uşaqların baxış bucağının digərlərindən fərqli olduğunu və demək olar hər addımlarında böyüklərdən dəstək aldıqlarını unutmamalıdırlar.

Qeyd etmək lazımdır ki, xüsusi təhsilin əsasını valideyin və müəllim arasında olan əlaqə təşkil edir. Bunun təməli isə dövlətin təhsilin bu istiqamətinə olan düzgün yanaşması qoyulur. İlk öncə bu kateqoriyadan olan uşaqlarla işləyəcək müəllimlər dövlət tərəfindən xüsusi diqqətlə, sahə üzrə təcrübələri və ən əsası emosional sağlamlıq səviyyələri nəzərə alınaraq təyin edilməlidirlər. Çünki inklüziv təhsilə başlayan uşaq üçün məktəb daxili potensialının üzə çıxarılacağı bir məkandır. Məhz məktəbdə müəllimlər uşağı mütləq formada müşahidə edərək, mütəmadi formada valideylərlə ünsiyyətdə olmalı, fərdi tədris proqramının hazırlanması zamanı və uşaqların gələcəkləri ilə bağlı hər hansı bir qərar qəbul edilərkən valideynlərlə məsləhətləşməlidirlər.

Sinifində xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil alacağı müəllimlər əsasən üç istiqamətdə özlərini inkişaf etdirməlidirlər. İlk olaraq şəxsi-semantik istiqamət - yəni, müəllim bu işi məcburiyyətdən deyil sevərək etməlidir. Əks halda tezliklə tükənmişlik sindromu ilə qarşılaşa bilər. İkincisi koqnitiv istiqamət - burada ən əsas müəllimin xüsusi uşaqla rəftarının düzgün seçilməsi çox önəmlidir. Əks halda uşaq müəllimi qəbul etməyəcək. Üçüncü isə müəllim hansı metodlardan və nə zaman istifadə etməli olduğunu bilməsini tələb edən - texnoloji istiqamətdi.Məktəb psixoloqunun bu mərhələdə işi həm psixoloji, həm də pedaqoji kompleks işin aparılmasından ibarətdir. O, xüsusi qayğıya ehtiyacı olan uşaqla iş aparmaqla paralel, sinifdə olan digər uşaqlarla da çalışmalı, onları diqqətdən kənarda qoymamalıdır. Bildiyimiz kimi hər uşaq fərqli ailədən gəldiyi üçün siniflərində olan xüsusi və özləri kimi olmayan uşağa münasibətləri fərqli ola bilər. Bu səbəbdən də məktəb psixoloqu tipik uşaqlara onlarla eyni sinifdə təhsil alacaq, sosial imkanları məhdud, xüsusi qayğıya ehtiyacı olan uşaq haqqında öncədən məlumat verməli və adaptasiya dönəmində onların yanında olmalıdır.

Xüsusi uşaqların məktəbə adaptasiyasında ən önəmli məqam emosional kontaktın yaranması və bu uşağın öz müəlliminə, məktəb psixoloquna etibar etməsidir. Buna görə də təlim prosesinə yenicə qoşulmuş xüsusi qayğıya ehtiyacı olan uşaq, digər sinif yoldaşları ilə bərabər məktəb kollektivi ilə müxtəlif tədbirlərə qatılmalıdır. Bu zaman məktəb psixoloqu onun davranışlarını, emosiyalarını mütləq izləməli və ona dəstək olmalıdır. Məktəb psixoloqu təkcə uşağın özünə deyil, eyni zamanda onun valideyinlərinə də öz dəstəyini göstərməli, emosional vəziyyətlərini yüksəltmələri və onlarda öz uşaqlarının daxili potensialına olan inamı artırmaları üçün yardım etməlidir.Psixoloq V.N Drujin hər zaman və hər bir mədəniyyətdə ailənin başlıca vəzifəsinin sosiallıq olduğunu, digər funksiyaların isə onun ardınca gəldiyini bildirib. "Sirr deyil ki, uşaq şəxsiyyətinin formalaşmasında ailə ən önəmli rola sahibdir. Ailənin uşağa təsiri erkən yaşlarda o qədər qüvvətlidir ki, hətta sonrakı mərhələlərdə gələn dostların, bağçanın, məktəbin təsiri bir o qədər güclü olmur. Xüsusi övladı eyni məktəbdə təhsil alan valideyinlərin mütəmadi olaraq bir yerə toplanması, uşaqları haqqında müzakirələrin aparılması, təcrübələrinin bölüşülməsi həmçinin, onların maarifləndirilməsi məqsədilə seminar və təlimlərin təşkil edilməsi onların düzgün yanaşma metodlarını seçmələrinə köməklik edə bilər. Xüsusi qayğıya ehtiyacı olan uşaqların valideyinləri təkcə məktəblərin təşkil etdikləri qruplarda toplanmamalı, eyni zamanda özləri də ehtiyac yarandıqca fərdi psixoloqlardan dəstək almalıdırlar. Bu onların mental, emosional sağlamlıqları üçün olduqca lazımlıdır.

AİLƏDƏ UŞAQLARIN PSİXİ İNKİŞAFINI ŞƏRTLƏNDİRƏN AMİLLƏR

Şekiliyev Ü.K.
Bakı Slavyan Universiteti
E-mail: ummansekiliyev@gmail.com

Ailə cəmiyyətin formalaşması və inkişafı üçün vacib olan əsas sosial institutlardan biridir. O, tərbiyə, sosiallaşma, reproduktiv və sair başqa funksiyaları yerinə yetirir. İnsan fərd olaraq ilk dəfə ailədə dünyaya göz açır, ailədə adət-ənənələrə yiyələnir, özündə əxlaq normalarını formalaşdırır. Ailədaxili münasibətlər uşağın psixoloji inkişafına birmənalı şəkildə təsir göstərir. Əgər uşağın daxil olduğu ailə sağlam psixologiyaya malikdirsə, həmin uşaq cəmiyyət üçün yararlı bir fərd olaraq yetişəcəkdir. Əgər ailədə problemlər mövcuddursa bu halda uşağın psixoloji inkişafında olduqca böyük problemlər yaranacaqdır. Bu cəhətləri nəzərə alaraq, ailədə şəxsiyyətlər arası münasibətlərin sağlam təməllər üzərində qurulması son dərəcə vacib məsələ hesab olunur.Disfunksional ailə forması sosial cəhətdən təhlükəli vəziyyət almış bir ailə formasıdır. Bu ailə formasında deyə bilərik ki, valideynlər demək olar ki, uşağın tərbiyəsi ilə məşğul olmurlar. Bunun səbəbi isə valideynlər arasındakı münasibətlərin zəif səviyyədə olması, maddi ehtiyacların düzgün şəkildə qarşılana bilinməməsi və.s.dir. Çox vaxt belə ailə formalarında valideynlər düzgün həyat tərzi keçirmir, spirtli içkilər qəbul edir və işləmirlər. Belə valideynlərin uşaqları ilə olan münasibəti kobud olur, uşaqlara qarşı aqressiv olurlar. Bunların hər biri uşaqların cəmiyyətdə formalaşmasına, onların tərbiyəsinə birmənalı şəkildə təsir edir. Bu halların qarşısını almaq, ailədaxili münasibətləri normallaşdırmaq üçün psixoloqun yardımına ehtiyac vardır.Psixoloqların da dediyi kimi, uşaqlarda müəyyən norma və vərdişlərin formalaşması üçün ailə vacib bir modeldir. Uşaq ailədə öyrəndiklərini cəmiyyətə tətbiq edir. Uşaqların sağlam psixologiyaya sahib olması üçün ilk növbədə valideynlər sağlam psixologiyaya sahib olmalıdırlar. Uşaqlara fərdi yanaşmanı təmin etməli, hər birinin temperament tipinə uyğun olaraq müvafiq tərbiyə tipi seçilməlidir. Belə olan halda uşağın psixi inkişafı onun təbiətinə zidd olmayacaq qanunauyğun şəkildə inkişaf edəcəkdir.

Ölkəmizdə problemli ailələrlə mütəxəssislər daim maraqlanır, ailədəki problemi həll etmək üçün çalışırlar. Əgər uşaqda psixoloji problemlər mövcuddursa ilk növbədə uşağın daxil olduğu sosial mühit, yəni ailə araşdırılmalıdır. Çünki problemin kökünü həll etmədən nəticəyə gəlmək olmaz. Hər bir kəz çalışmalıdır ki, cəmiyyət üçün yararlı bir gənc, şəxs formalaşdırsın. Ümummilli Lider Heydər Əliyevin dediyi kimi, "uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır".

AUTİZMLİ ŞAGİRDLƏR ÜÇÜN DÜZGÜN ÖYRƏNMƏ MÜHİTİ TƏŞKİL ETMƏNİN MÜƏLLİM ÜÇÜN ÇƏTİNLİKLƏRİ

Tuğba Yıldız
Bakı Slavyan Universiteti
E-mail: yaktiyol.tugba@gmail.com

Autizm spektr pozuntusu ilk dəfə 1943 cü ildə psixiatr olaraq çalışan Leo Kanner tərəfindən müəyyənləşdirilmişdir. Kanner 1931-1943 illər arasında izlədiyi uşaqların ortaq özəlliklərini incələmiş, öz dünyasında yaşayan uşaqların bu əlamətlərini ifadə edən "öz" kəliməsinin yunan dilindəki "autos" kəliməsinə əsaslanaraq, bu klinik təsviri " uşaqlıq autizmi" olaraq adlandırmışdı. Autizmli şagirdlərin öyrənmə ortamlarına uyğun şəkildə hazırlanması, müəllimlər üçün böyük bir çətinlik ola bilər. Bu şagirdlərin təlim ehtiyacları fərqlidir və təlim mühitləri də buna görə uyğunlaşdırılmalıdır. Müəllimlərin bu şagirdlərə uyğun bir təlim mühiti hazırlamaları üçün bəzi çətinliklərlə qarşı-qarşıya qalmaları bilinməkdədir.

Autizmli şagirdlərin öyrənmə ehtiyacları, digər şagirdlərdən fərqli ola bilər. Bəziləri digər şagirdlərdən daha çox vizual öyrənməyə, təkrarlamaya və ya düzənli olmağa ehtiyac duya bilər. Müəllimlərin bu şagirdlərin öyrənmə formalarına və ehtiyaclarına uyğun bir öyrənmə mühiti təşkil etmələri lazımdır. Autizmli tələbələrin fərqli öyrənmə mühitlərinə ehtiyacı ola bilər. Bəziləri,səs-küylü sinif otağında narahat ola bilər, digərləri isə sakit mühitdə konsentrasiyada çətinlik çəkə bilirlər. Müəllimlər bu tələbələrin öyrənmə mühitlərini uyğun şəkildə tənzimləməlidirlər. Müəllimlərin bu şagirdlərin sosial qarşılıqlı əlaqə bacarıqlarını inkişaf etdirməyə kömək etmək üçün öyrənmə mühiti təşkil etmələri lazımdır. Tələbələr arasında qarşılıqlı əlaqəni artırmaq üçün əməkdaşlıq, tərəfdaş işi və ya qrup işi kimi öyrənmə üsulları tətbiq oluna bilər. Autizmli şagirdlərdə davranış

problemləri tez-tez müşahidə olunan bir haldır. Müəllimlərin, bu şagirdlərin davranış problemlərinə istiqamətlənmiş müdaxilələr edərək öyrənmə mühitlərini rahatlatmaları gərəkdir. Bu müdaxilələr şagirdlərin öyrənmə ehtiyaclarına uyğun olaraq təşkil olunmalıdır. Autizmli tələbələrin davranış problemləri tez-tez müşahidə olunan bir haldır. Müəllimlər buna öyrənmə mühitlərinə müvafiq müdaxilələr etməklə başqa istiqamətə yönəldərək nail ola bilərlər. Fridrix Skinner öyrənmə nəzəriyyəsi bizə autizmli uşaqların öyrənmə prosesini anlamağa kömək edir. Belə ki öyrənmədə mükafatların tətbiqi, premack anlayışı, mərhələli yaxınlaşma, zəncirləmə, uyğun olmayan davranışların söndürülməsi üçün cəzaya alternativ metodları Autism Spektr Pozuntusundan əziyyət çəkən uşaqların öyrənmə prosesinə əlavə edərək onların təlimində müsbət nəticələr əldə edə bilərik.Nəticə olaraq qeyd edə bilərik ki, autizmli şagirdlər üçün uyğun bir öyrənmə mühiti hazırlamaq, müəllimlər üçün çətin olsa da, ASP-li şagirdlərə uyğun öyrənmə mühiti hazırlanması, müəllimlərin diqqətli və dəqiq çalışmalarıyla həyata keçirilə bilər.

ВЛИЯНИЕ ЧУВСТВА ОДИНОЧЕСТВА НА ФОРМИРОВАНИЕ АГРЕССИВНОСТИ У ПОДРОСТКОВ

Алиева Н.Р.
Бакинский славянский университет
E-mail: narmina.2000@mail.ru

Социальные кризисы, происходящие в современном обществе, негативно влияют на психологию людей, вызывая беспокойство, напряжение, страдания, жестокость и насилие. Учитывая значение подросткового возраста для общего развития личности и его решающее значение для процесса социализации, данная тема заслуживает особого научного и практического внимания в современных условиях. Динамика современного мира отражается в том, как индивиды воспринимают мир, и в субъективном поведении каждого индивида в нем. Чтобы сформировать социально стабильную, социально независимую, ответственную и энергичную личность, подростки сегодня должны пройти полную социализацию; ни в коем случае нельзя останавливаться и замыкаться в себе; нужно пройти через этот процесс.Поток информации, адаптированный к современности, постоянное, а иногда и вынужденное общение в городской среде, в семье, в школе и во множестве других форм социального существования, в которых отсутствуют рациональные границы и человеческие коннотации, приводит к чувству изоляции. Это не только уменьшает чувство изоляции, но на самом деле усугубляет его. Непрерывное производство психосоциальных стереотипов привычек, обычаев, вкусов, суждений, поведения и восприятий подрывает особые характеристики индивидов и, по сути, разделяет их через кажущуюся однородной социальную среду.Происходящая в подростковом возрасте переориентация общения с родителей и значимых взрослых на ровесников делает проблему взаимоотношений со сверстниками весьма животрепещущей, а иногда и очень болезненной для подростков, так как именно в этом возрасте особенно резко ощущается нехватка опыта и навыков общения. Так же на формирование чувства одиночества оказывают влияние личностные особенности подростка: застенчивость, заниженная самооценка, завышенные требования к себе или другим, нереалистичные ожидания и представления о любви, дружбе и общении и т.п.Подростков особенно волнуют проблемы, связанные с личной общительностью включая знакомства, представления другим людям, соучастие в разных делах, рискованность и открытость в общении. Они нередко видят в самих себе причину своего одиночества, приписывая его недостаткам характера, отсутствию способностей, личной непривлекательности в большей степени, чем факторам, подвластным сознательному волевому контролю: недостаток собственных усилий, прилагаемых для налаживания контактов, неэффективность применяемых для этого средств.Предпочитаемый способ реагирования человека на одиночество – депрессия или агрессия – зависит от того, как человек объясняет свое собственное одиночество. При преобладании внутренних факторов чаще возникает депрессия, а при внешних – агрессия. Агрессивное поведение в ряде случаев может выступать как проявление работы защитных механизмов и служить сигналом интенсификации психологической защиты. Вид и форма агрессии, проявляемой в ответ на испытываемое подростком чувство одиночества, зависит, прежде всего, от причины, вызывавшей негативное психологическое состояние.

Следует также отметить, что влияние одиночества на подростка зависит и от длительности переживания. Наиболее тяжкие последствия для подростков имеет хроническое одиночество, именно

оно может привести к агрессивным эмоциональным и поведенческим отклонениям. На развитие одиночества также влияют черты личности подростка, т.е. стеснительность, неуверенность в себе, высокие требования в отношении себя и других, а также нереалистичные ожидания и представления о любви, дружбе и общении.Люди склонны приписывать причины одиночества недостаткам личного характера, смущению и отсутствию привлекательности, а не вещам, которые они могут сознательно контролировать, таким как отсутствие усилий для построения межличностных отношений или неэффективные способы общения.Агрессивное поведение иногда может служить сигналом к активации защитных механизмов и усилению механизмов психологической защиты. Вид и форма агрессии, проявляемой подростками в ответ на одиночество, во многом зависят от причины негативного психологического состояния. Важно отметить, что влияние одиночества на подростков также зависит от того, как долго они его испытывают.

ПРИЧИНЫ ПРОЯВЛЕНИЯ АГРЕССИИ И АГРЕССИВНОГО ПОВЕДЕНИЯ В СТУДЕНЧЕСКОЙ СРЕДЕ

Джабраилова С.Х.
Бакинский славянский университет
E-mail: semavil@bk.ru

В рамках концепций агрессии, агрессивного поведения нами будут рассмотрены источники образования агрессивного поведения в студенческой среде, а именно юношей и девушек.

Множество факторов, таких как стресс, недостаток коммуникации, низкая самооценка и конкуренция внутри группы, могут быть причинами проявления агрессии и агрессивного поведения в студенческой среде. Перемена образа жизни юношей и девушек, их социального статуса, социальной группы, процесс социализации в новом коллективе и новые жизненные стечения приводят к возрастному кризису, который в свою очередь может быть одной из первопричин состояния стресса, фрустрации. Изучение проблемы агрессии с позиций теории фрустрации имеет важное значение для исследования основных факторов и механизмов человеческой агрессии в современном социуме. Исследователями Н. В. Тарабариной и К. Д. Шафранской, было установлено, что лица студенческого возраста больше чем в половине случаев показывают экстрапунитивные реакции, и примерно вдвое реже интрапунитивные и импунитивные. Экстрапунитивная форма фрустрации (агрессия) более свойственна студентам с сильной нервной системой, а интрапунитивная - со слабой. В. Е. Василенко и С. В. Михейкина также делают вывод о том, что экстрапунитивные формы восприимчивости с ростом интеллекта становятся более редкими, а интро и импунитивные – учащаются. Таким образом, причины проявления агрессии и агрессивного поведения в студенческой среде мы связываем как с биологическими факторами, так и с интеллектом студентов. Агрессивное поведение в студенческой среде может быть вызвано рядом причин. Одной из главных факторов, приводящих к проявлению агрессии, является стресс. Например, учебная нагрузка, недостаток времени, несправедливые оценки, сложности в личных отношениях и др.Также агрессия может быть результатом конфликтов между студентами, которые могут возникать из-за непонимания, различных взглядов, конкуренции за ресурсы и т.д. Некоторые студенты могут проявлять агрессию в результате своей низкой самооценки, стремления к подчинению и злоупотребления властью, проблем в личной жизни и т.д.Также важно учитывать, что агрессия может быть вызвана экологическими факторами среды обучения, например, шумом, переполненностью аудиторий, неудобными местами, низкими условиями проживания в общежитии.Для уменьшения проявлений агрессии в студенческой среде следует принимать меры к созданию комфортных условий обучения, учитывая индивидуальные потребности студентов, налаживать связь со студентской администрацией и т.д. Также следует обучать студентов навыкам эмоционального контроля, разрешению конфликтов и т.д.Ряд авторов связывает студенческую агрессию с эмоциями. Роль эмоций в психическом развитии индивида, реализующемся в его поведении, установили в своих работах П. К. Анохина, В. В. Бойко, В. К. Вилюнас. Н. Я. Грот, Р. С. Немов, С. Л. Рубинштейн и др. Согласно некоторым теоретическим направлениям (теория мотивации Холта, теория Плутчика и др.), особенности эмоциональных реакций в студенческом возрасте зависят от гормональных и физиологических процессов, и это подтверждается исследованиями Ш. Бюллера, Г. Пирьова, Э. Шпрагнера. Стоит обратить исключительное внимание на то, что, по результатам работ

Е. П. Ильина, М. С. Пономаревой, склонность к претворению основополагающей эмоции страха в студенческом возрасте значительно выше, чем в подростковом, а гнева так же, как в раннем подростковом возрасте. То есть, студенты предрасположены к нередкому переживанию страха и гнева, что воспроизводит взаимодействие на их агрессивные реакции.Изучая вышеуказанный период с точки зрения биологических теорий агрессии, можно обозначить, что агрессия студентов в меньшей степени детерминирована биологическими причинами, чем агрессия подростка или ребенка. Процесс полового взросления подходит к концу, нормализуется гормональный фон. Если у студента существует биологически предначертанная агрессия, то она, вероятнее всего, уже проявлялась на предыдущих возрастных периодах и к студенческому возрасту компенсируется определёнными социальными навыками, при помощи которых в той или другой степени распоряжается. Впрочем Э. Шпрангер, изучая психофизиологические неповторимости индивида, подчёркивал три типа юности: первый сопровождается бурными переустройствами, внутренними и внешними конфликтами; второй характеризуется плавными переустройствами и отсутствием острых конфликтов, и третий сплачивает уникальности первого и второго. Таким образом, можно сделать вывод о том, что если студенческий возраст характеризуется поздним окончанием подросткового кризиса, то агрессия студентов отчасти может быть разъяснена биологическими причинами. Опираясь на теорию психоанализа, можно акцентировать работы А. Фрейд, которая подтверждала, что в юности прилив энергии инстинктов противостоит способности разумно рассуждать и силам самосознания, что и является базисной причиной агрессивного поведения студентов.Впрочем, биологические причины агрессии, по нашему мнению, имеют значительно меньше значения в студенческом возрасте, нежели причины социальные. Именно от того, на сколько успешно студент апробирован в социуме, в большинстве случаев, будет зависеть интенсивность и структура агрессивного поведения в студенческом возрасте. Н. С. Кон расценивает, что эмоциональная натянутость, которая подчёркивается в студенческие годы и может стать причиной агрессивного поведения, связана с психологическими трудностями взросления и порождена многозначностью показателя притязаний и образа собственного «Я». По результатам исследований А. Бандуры, ведущую роль в зарождении агрессивного поведения в юности играет моделирование.Весьма часто агрессивное поведение выказывают те студенты, родители которых ранее одобряли агрессивное поведение своих детей по отношению к другим. К тому же стоит обратить внимание на тот факт, что поведения студентов, не предрасположенных к агрессивным действиям, находятся под контролем внутреннего чувства вины и желания избежать конфликта, в то время как у агрессивных студентов регулирующим фактором является страх наказания, либо внутренний контроль над агрессией вовсе отсутствует. С. В. Михейкина, опираясь на работы таких ученых, как К. Бютнер, Л. В. Куликов, В. С. Мухина, Г. Парренс, Е. Ф. Рыбалко и др., делает вывод о том, что «формирование личности юности тесно связано с процессом подготовки к будущей профессиональной деятельности и при этом оно не ощущает на себе влияние семьи и социального окружения». Д. Б. Эльконин подчёркивает, что поведение личности в студенческом возрасте в основном определяется ведущей деятельностью, присущей этому возрасту, а именно учебно-профессиональной деятельностью, связанной с формированием интеллектуально познавательной области. Результаты исследования, проведенные нами, могут быть использованы социальными психологами, аспирантами, магистрантами, студентами, обучающимися по специальности «социально-психологическая служба в образовании».

ПРЕДИКТОРЫ УСПЕШНОЙ ПСИХОЛОГИЧЕСКОЙ АДАПТАЦИИ У СТУДЕНТОВ В ВУЗЕ

Исрафилова С.В.
Бакинский славянский университет
E-mail: salima.a@live.com

Адаптация к университетской жизни может быть трудной для студентов, особенно для тех, кто только начал свой путь в ВУЗе. Успешная психологическая адаптация является важным фактором для достижения учебных целей и общей благополучности студента в университете. Однако, не все студенты одинаково легко адаптируются к новым условиям учебного процесса. В связи с этим, нами будет рассмотрена тема предикторов успешной психологической адаптации студентов в ВУЗе. Мы рассмотрим основные факторы, которые способствуют успешной психологической адаптации

студентов, а также методы и стратегии, которые могут помочь студентам улучшить свою адаптацию в университетской среде. Исходя из этого, становится ясно, что изучение этой темы может быть полезным для студентов, которые хотят успешно адаптироваться к учебной среде ВУЗа и достичь своих целей. Успешная психологическая адаптация студентов – является очень важным аспектом их академической и личностной успеха. Важность ее заключается в том, что это позволяет студентам более успешно освоить учебный материал, улучшить свои психологические и социальные навыки, расширить свой кругозор и улучшить свои перспективы на будущее. Неспособность адаптироваться к новой среде может привести к многим негативным последствиям, таким как: низкие результаты учебы (студенты, которые не могут адаптироваться к университетской среде, могут столкнуться с трудностями в учебе и получать низкие оценки), психологические проблемы (студенты, не способные адаптироваться к новой среде, могут испытывать стресс, тревогу, депрессию, эмоциональное выгорание и т.д.), социальная изоляция (студенты, которые не могут адаптироваться к университетской среде, могут чувствовать себя изолированными и отвергнутыми своими сверстниками, что может привести к социальной изоляции и снижению самооценки), отсутствие мотивации (студенты, которые не могут адаптироваться к учебной среде, могут потерять мотивацию к учебе и дальнейшему развитию). Существует множество предикторов успешной психологической адаптации у студентов в вузе, вот некоторые из них:

- Социальная поддержка: наличие поддержки со стороны семьи, друзей, учителей и других людей может помочь студенту лучше адаптироваться к новой среде.
- Эмоциональная устойчивость: студенты, которые обладают высокой эмоциональной устойчивостью, более способны справляться со стрессом и адаптироваться к новой среде.
- Академическая мотивация: студенты, которые имеют ясные цели и мотивацию для получения образования, склонны лучше адаптироваться к учебной среде.
- Самоэффективность: студенты, которые имеют высокую самоэффективность, более уверены в своих способностях и склонны лучше справляться со сложными ситуациями.
- Адаптивность: способность адаптироваться к изменяющимся условиям может помочь студентам более успешно приспосабливаться к новой учебной среде.
- Культурные различия: студенты, которые имеют опыт пересечения культурных границ, могут лучше адаптироваться к университетской среде, которая может быть различной в зависимости от культурных и социальных факторов.
- Способность к коммуникации: студенты, которые имеют хорошие навыки коммуникации, могут лучше адаптироваться к учебной среде и устанавливать хорошие отношения со своими однокурсниками и преподавателями.
- Уровень здоровья*:* студенты, которые заботятся о своем здоровье и физической форме, могут лучше справляться с учебными нагрузками и адаптироваться к новой среде.

В целом, предикторы успешной психологической адаптации у студентов в вузе могут быть различными в зависимости от личных и социальных факторов студента и условий учебной среды. Однако, вышеперечисленные факторы могут служить хорошими указателями для тех, кто хочет помочь студентам успешно адаптироваться в университетской среде.

Проанализировав имеющиеся факторы, мы можем выделить следующие рекомендации студентам для достижения их успешной психологической адаптации:

- Осуществлять поиск социальной поддержки и общения с людьми, которые смогут помочь в кризисных ситуациях;
- Активно участвовать в университетской жизни и организациях, чтобы почувствовать себя частью студенческого сообщества;
- Развить навыки управления своего уровня стресса, не забывать про регулярные паузы и методы релаксации во время учебы для избегания выгорания.
- Стоит также задуматься о разработке программы тренингов для повышения психологической готовности к изменениям и для развития гибкости в мышлении, которые могут помочь студентам адаптироваться к новым условиям и изменениям в учебном процессе.

В заключение хотелось бы отметить, что психологическая адаптация является важным фактором для успешной учебы и благополучия студентов в ВУЗе. Различные факторы могут повлиять на психологическую адаптацию студентов, такие как поддержка со стороны близких, привычки и убеждения, а также способности к управлению стрессом и т.д. Мы рассмотрели основные предикторы

успешной психологической адаптации студентов в ВУЗе, включая социальную поддержку, участие в университетской жизни, управление стрессом и гибкость в мышлении. Расширение знаний в этой области может помочь студентам лучше понять свои потребности и развить стратегии для успешной психологической адаптации в университете.

ОСНОВНЫЕ КОММУНИКАТИВНЫЕ ЗАКОНЫ ОБЩЕНИЯ СТУДЕНТОВ

Румянцев В.В.
Бакинский славянский университет
E-mail: vadikrum1212@yandex.ru

Основные коммуникативные законы позволяют эффективно организовать речевое взаимодействие между говорящим и слушающим, быстро установить контакт с аудиторией, достичь кооперативного диалога. Эти законы универсальны и действуют в официальных и неофициальных ситуациях общения. Даже если человек не подозревает об их существовании, они проявляются в процессе коммуникации. Общение и законы коммуникации изучали такие российские учёные, как И. А. Стернин, М. С. Вершинин, В. А. Павлов, Н. Р. Барабанова, А. К. Бондарев, Т. Ю. Волошинова, Е. В. Ганапольская, Е. М. Гашкова и др.Основные коммуникативные законы позволяют эффективно организовать речевое взаимодействие между говорящим и слушающим, быстро установить контакт с аудиторией, достичь кооперативного диалога. Эти законы универсальны и действуют в официальных и неофициальных ситуациях общения. Даже если человек не подозревает об их существовании, они проявляются в процессе коммуникации.В учебнике «Теория коммуникации» под редакцией М. А. Василика авторы выделяют пять законов коммуникации. Однако И. А. Стернин предлагает использовать для эффективного общения двадцать законов. Все они «носят объективный характер, выражают всеобщий характер информационного обмена и действуют в совокупности с другими социальными и природными законами.Конфликты в группе случаются редко и достаточно быстро разрешаются. Общение студентов происходит преимущественно в стенах учебного заведения в рамках учебных занятий и в неофициальных условиях. Также они общаются в социальных сетях на темы, касающиеся учебы, литературы, музыки и др. Неформальное общение всей группы за пределами университета и социальных сетей осуществляется достаточно редко. Первый закон коммуникации, к которому мы обратились — это «закон обратной связи» .Любая коммуникация основана на принципе обратной связи. Также для коммуникации необходимо как минимум два коммуникатора. Чтобы данный закон работал, вторая сторона коммуникации должна раскодировать информацию, ответить вербально / невербально или выполнить какое-либо действие.Еще один из законов, выделенных И. А. Стерниным — «закон прогрессирующего нетерпения слушателей». «Чем дольше говорит человек, тем большее невнимание и нетерпение проявляют его слушатели» — поясняется в книге «Введение в речевое воздействие». Аудирование — сложный вид речевой деятельности. Студенты не могут долго эффективно воспринимать устную речь оратора, особенно если это научно-учебный текст, требующий повышенного внимания и сосредоточенности на предмете.Следующий закон — «закон доверия к простым словам». Его также выделил И. А. Стернин. Автор поясняет закон следующим образом: «чем проще твои мысли и слова, тем лучше тебя понимают и больше верят». Простое содержание и форма в общении — залог успешной коммуникации. Чтобы вызвать доверие у аудитории, быть услышанным и воспринятым, нужно использовать в своей речи простые понятные слова, короткие фразы, ясные формулировки и выражения.Среди других законов И. А. Стернин выделял «закон детального обсуждения мелочей». В учебнике этот закон сформулирован так: «люди охотнее сосредоточиваются на обсуждении незначительных вопросов и готовы уделять этому больше времени, чем обсуждению важных проблем». В группе студентов, как и в любой другой группе людей, обсуждение мелочей бывает оживленным и затянутым, а решение важных серьезных вопросов происходит в короткий срок. Так происходит, потому что в мелочах разбирается каждый, а в отношении глобальных проблем не все имеют свою точку зрения. Например, если преподаватель предложил оценить экономическую обстановку страны, выскажутся по этому вопросу несколько человек и ограничатся они двумя-тремя предложениями. А если зайдет разговор, например, о музыке, которую нужно выбрать для определенного мероприятия, в дискуссии примут участие все, и обсуждение затянется.

XVI BÖLÜM

METODİKA

DƏRSLİKLƏRİN ƏSAS MƏQSƏDLƏRİ

Abbasova R.E.
Bakı Slavyan Universiteti
E-mail: royaleabbasova024@gmail.com

Dərsliklər dəqiq bir fənn üzrə tədris planı və proqramı əsasında hazırlanılmış nəzəri və praktik biliklərin sistemli və anlaşıqlı şəkildə istifadə edildiyi əsas vasitədir. Dünyadakı bütün növ təhsil müəssisələrində - dövlət məktəblərində, kolleclərdə və dil məktəblərində dərsliklərdən geniş şəkildə istifadə olunur. Bəzi kontekstlərdə, müəllimlər öz dərsliklərini seçməkdə sərbəstdirlər. Lakin müəllimlərin böyük əksəriyyəti tədris prosesi zamanı onlara təklif və təyin edilən dərsliklərdən istifadə etməyi daha üstün tuturlar. Dərsliklər dilin tədrisi və öyrənilməsi sahəsində çox mühüm rol oynayır və xarici dil tədris edilən siniflərdə müəllimdən sonra növbəti mühüm amil hesab olunur.Dərsliklər əksər dil proqramlarında əsas komponentdir və hər bir şagirdin yaş və bilik səviyyəsinə uyğun dərsliklər mövcuddur. Onlar dərslərin məzmunu, öyrədilmiş bacarıqların balansı və öyrənənlərin dil təcrübəsi üçün əsas amildir. Şagirdlər üçün dərsliklər müəllimin verdiyi məlumatdan əlavə onların dil ilə əsas əlaqə mənbəyini təmin edə bilər. Dərsliklər həm də bəzi təcrübəsiz müəllimlər üçün çox faydalıdır. Onlar dərslərin necə planlaşdırılması və öyrədilməsi, eləcə də müəllimlərin istifadə edə biləcəyi formatlar haqqında fikirlər təqdim edir.Dərsliklərin məqsədi şagirdləri müasir standartlara uyğun biliklərlə məlumatlandırmaqdır. Dərsliklərin məqsədlərindən digəri isə şagirdlərin maraq və tələbatlarına uyğun olmaq, şagirdləri istənilən növ mövzularla təmin etməkdir. Həmçinin, dərsliklər şagirdləri düşünməyə sövq etməli və onlarda məntiqi təfəkkürü inkişaf etdirməli və şagirdlərin dil qabiliyyətinin inkişafına yönəlməlidir.

İBTIDAİ SINİFLƏRDƏ VAXT HESABLAMALARINA AİD MƏSƏLƏLƏRİN HƏLLİ METODİKASI

Abbaszadə Y.E.
Lənkəran Dövlət Universiteti
E-mail: yusif.abbaszade.00@bk.ru

Vaxt hesablamalarına aid məsələləri aşağıdakı üç növə ayırmaq olar: 1.Hadisənin davam etmə müddətini tapmağa aid məsələlər; 2.Hadisənin başlanma vaxtını tapmağa aid məsələlər; 3.Hadisənin bitmə vaxtını tapmağa aid məsələlər.Vaxt hesablamalarına aid məsələlərin mətnində həm miqdar ,həm də sıra göstərən ədədlər iştirak edir. Məsələnin mətninə daxil olan bu iki növ ədəddən ancaq miqdar göstərən ədədlər üzərində əməl aparmaq olar.Sıra göstərən ədədləri isə(təqvim tarixini) hesablamalara bilavasitə yox, bil vasitə daxil etmək olar. Odur ki, vaxt hesablamalarına aid məsələlərin həlli zamanı bu cəhəti nəzərə almaq lazımdır.

Vaxt hesablamalarına aid məsələlər bir gün ərzində, bir il ərzində, bir və ya bir neçə əsr ərzində olan müddətlərə aid ola bilər. Məsələn:

1.Nazim səhər saat 8də evdən çıxdı və saat 9da işlədiyi ünvana çatdı.Nazim evdən işlədiyi ünvana qədər yolu neçə saata getdi?

2.Pedaqoji təcrübə 10 fevralda başlandı və 14 martda qurtardı. Pedaqoji təcrübə neçə gün davam etdi?

Birinci məsələdə bir gün, ikinci məsələdə isə bir il ərzində baş verən hadisədən danışılır.

Hesablamalarda hansı anı başlanğıc olaraq götürməyimizdən asılı olaraq vaxt hesablamalarına aid məsələlərin həlli üsulu ikidir.Vaxt hesablamalarına aid məsələlərdə hadisə bir və ya bir neçə əsr ərzində olmuşsa, hadisənin başlanğıcı olaraq eranın başlanğıcını; hadisə bir il ərzində olmuşsa, ilin başlanğıcını; gün ərzində olmuşsa günün başlanğıcını götürmək olar. Lakin ayrı başlanğıc da götürmək olar, belə ki, vaxt hesablamalarına aid məsələlərdə hadisələrin biri başlanğıc hesab edilə bilər. Belə ki, bir gün bir ay və ya bir

neçə il ərzində baş verən hadisələr haqqında vaxt hesablamalarına aid məsələlər həlli zamanı məsələdəki anları bir başlanğıca aid etməyib, məsələdə verilən hadisəni başlanğıc hesab etmək olar. Lakin bir və ya bir neçə əsr ərzində baş verən hadisələrə aid vaxt məsələləri həllində əsas həll üsulu vaxtın ümumi bir başlanğıcından, bizim eranın başlanğıcından hesab edilməsidir.Bu halda təqvim vaxtını (sıra göstərən ədədi) miqdar göstərən, tərsinə miqdar göstərən ədədi təqvim vaxtına çevirmək bacarığı tələb olunur.İbtidai sinif şagirdləri vaxt hesablamaları ilə bağlı məsələlərdə bu ardıcıllıqla:İlk öncə hadisənin davam etmə müddətinin,sonra hadisənin bitmə vaxtının,və hadisənin başlama vaxtının tapılmasına aid məsələlərlə tanış edilirlər.

MİLLİ DƏYƏRLƏRİN QORUNMASINDA MƏKTƏB VƏ AİLƏNİN VƏHDƏTİ

Abdullayeva O.C.
Bakı Slavyan Universiteti
E-mail:abdullayevaofelya94@gmail.com

Milli dəyərlər dedikdə hər bir millətin, hər bir cəmiyyətin həyat, yaşamaq barədə düşüncələrini əks etdirən ənənələr toplusu nəzərdə tutulur. Hər hansı millətin inkişaf tarixinin, psixologiyasının öyrənilməsində həmin millətin milli dəyərlərinin, adətlərinin tədqiq olunması əhəmiyyətli rola malikdir.

Milli dəyərlərin əsasını ailə dəyərləri təşkil edir. Gücü, birliyi, iradəni təmsil edən ailə Azərbaycan düşüncəsində müqəddəsdir. Ata, hər şeydən öncə, ailəni idarə edən, ailədaxili qanunları tənzimləyən,öz ailəsini həyatın müxtəlif çətinliklərinə qarşı müdafiə edə bilən şəxsdir. Ata öz ədalətli xarakteri, iradəsi ilə hörmət olunan, ailədə böyüməkdə olan övladlara, xüsusən də, oğul övladlara nümunə olan, onların gələcək həyatlarında mayak rolunu oynayan Azərbaycan kişisidir. Ailədəki ana faktoru isə namuslu qadın, sadiq və ləyaqətli həyat yoldaşı, qayğıkeş və cəfakeş ana, ailəcanlı və ismətli olmaqla yanaşı, yeri gəldikdə cəsur, mərd döyüşkən olmağı bacaran Azərbaycan xanımıdır. Övladlar isə ailə dəyərlərini qoruyan, valideynlərinin haqqını uca tutan ailə üzvləridir. Vətənə sevgi, böyüklərə hörmət, böyüklük göstərməyi bacarmaq kimi yüksək keyfiyyətlərin təbliği milli dəyərlərimizin əsas prinsipləridir.

Milli dəyərlərin qorunması, ölkəmizin möhkəm, mədəni və siyasi inkişafına bağlıdır. Bu dəyərlərin qorunması isə ictimai təşkilatların, xüsusilə də məktəb və ailənin vəhdəti ilə mümkündür. Məktəb və ailə arasında əlaqələrin qurulması və birləşməsi milli dəyərlərin qorunmasında və inkişafında ən vacib məsələlərdən biridir. Onlar birlikdə çalışdıqları zaman, milli dəyərlərə hörmət və onların qorunması üçün qabaqcıl fəaliyyətlər həyata keçirilir. Məktəbin və ailənin birgə çalışması milli dəyərlərin təhsilində də vacibdir. Məktəbin milli dəyərləri təhsil etməsi və bu dəyərləri tələb etməsi ilə ailənin də milli dəyərlərin öyrənilməsində rol oynamağı göz ardı etmək mümkün deyil.

Ümumtəhsil məktəbinin müəllimləri şagirdlərin ailələri ilə bir araya gələrək, milli dəyərlərin qorunması və inkişafı üçün strateji planlar hazırlayaraq, bu məqsədə çatmaq üçün fəaliyyət göstərməlidirlər. Məktəbin tələb etdiyi milli dəyərlər ailədə də qorunmalıdır. Ailələr də milli dəyərlərə hörmət və onların öyrənilməsi üçün fəaliyyət göstərməlidirlər.

Ailələrin milli dəyərlərə qabaqcıl şəkildə hörmət etmələri və öyrətmələri övladlarının milli mənəviyyatını inkişaf etdirəcək və milli dəyərlərə hörmət etməyi öyrədəcəkdir. Bu dəyərlər ölkəmiz üçün ən vacib mövzulardan biridir və onların qorunması və inkişafı bütün ictimai təşkilatların və insanların ən böyük məsələsidir. Bu səbəbdən, bu dəyərlərin qorunması və inkişafı üçün məktəb və ailənin vəhdəti ən vacib faktorlardan biridir. Məktəb və ailə birlikdə çalışdıqları zaman, milli dəyərlərə hörmət və onların qorunması üçün qabaqcıl fəaliyyətlər görülür.

Məktəb və ailə bir arada milli dəyərlərə hörmət edərək təhsilalanların, ailələrin və toplumun bu dəyərlərə uyğun şəkildə davranmasını təmin edir. Məktəbin və ailənin birgə çalışması milli dəyərlərin təhsilində də vacibdir.

Məktəb milli dəyərləri təhsil etməlidir və bu dəyərləri tələb etməlidir. Məktəb şagirdləri milli dəyərlər haqqında məlumatlandırmalı və onların nə qədər önəmli olduğunu açıqlamalıdır. Bu, milli dəyərlərin qorunması və inkişafı üçün ən əhəmiyyətli məsələlərdən biridir.

GƏNC NƏSLİN DÜNYAGÖRÜŞÜNÜN FORMALAŞMASINDA ANA DİLİ DƏRSLİKLƏRİNİN ROLU

Abdullayeva O.C.
Bakı Slavyan Universiteti
E-mail:abdullayevaofelya94@gmail.com

Azərbaycan dili dərslikləri şagirdlərə ana dilinin, ədəbiyyatının və mədəniyyətinin öyrədilməsi vasitəsi ilə milli kimliyin inkişafına da təsir edir. Bu, milli mədəniyyətin və dildən uzaqlaşma meyillərini aradan qaldırmaq və milli özünəgüvənin inkişafına töhfə vermək baxımından əhəmiyyətlidir.

Eyni zamanda Azərbaycan dili dərslikləri gənc nəslə sosial və mədəni problemlərin öhdəsindən gəlməyi öyrətməklə, düşüncə, ünsiyyət və əməkdaşlıq bacarıqlarını inkişaf etdirməklə və öyrənməni həyat boyu davam etdirərək, onların inkişafına dəstək olur.Azərbaycan dili dərslikləri, milli və beynəlxalq məsələlər barədə doğru, obyektiv, məsuliyyətli, tolerant və inkişaf edən bir düşüncə tərzi formalaşdırmağa kömək edir. Bu, gənc nəslin beynəlxalq əlaqələrində, dünya mədəniyyəti ilə əlaqələrində və dövlət quruculuğunda müsbət təsir göstərir. Buna görə də, Azərbaycan dili dərsliklərinin formalaşması və tərtibinin yaxşı olması, gənc nəslin dünyagörüşünün inkişafında əhəmiyyətli bir rola malikdir. Gənc nəslin dünyagörüşü, onların yaşadığı toplumun mədəniyyəti, tarixi, coğrafiyası, iqtisadiyyatı ve sosial həyatı kimi bir çox faktorların təsiri altında şəkillənir. Azərbaycan dili dərsliklərinin isə bu dünyagörüşünün formalaşmasında önemli rolu vardır.

Azərbaycan dili dərslikləri, təhsilalanlara milli kimliyi, mədəniyyəti, tarixi, dil bilgisini, yazılı və şifahi dil mənalarını, ədəbiyyatı və dilin digər incəliklərini öyrətməklə, onların dünyagörüşünün inkişafına töhfə verməklə yanaşı, onların milli və qlobal dünyagörüşlərinin formalaşmasında da əhəmiyyətli bir rol oynayır.Dərsliklərin tərtibi zamanı, öyrənilən mətnlər, ədəbiyyat nümunələri, dil bilgisi qaydaları və mətnlərin tərcümələri, öz milli mənsubiyyətinə və beynəlxalq dünyada nəzərə alınan standartlara uyğun şəkildə hazırlanmalıdır. Bu məqsədlə, dərslik müəllifləri milli və beynəlxalq müəssisələrin təcrübələrindən istifadə edərək, müasir dil öyrətmə metodlarından istifadə edir və yeni təlim texnologiyalarından faydalanır. Bu baxımdan dərslik günümüzün məktəb təhsilində ən vacib komponentlərdən biri hesab olunur. Dərslik, ilk növbədə şagirdlərdə qarşıya qoyulmuş kompetensiyaları formalaşdırmaq üçün vacib olan minimum təlim materiallarını əhatə edir, onlara bilik,bacarıq və vərdişlərə nail olmaq üçün haradan başlamaq, harada dayanmalı olduqları barədə kömək edir. Bundan başqa, dərsliklər praktik fəaliyyət üçün istiqamətverici rol oynayır. Xüsusən Azərbaycan dili dərsliklərində təqdim olunan oxu mətnləri ilə əlaqəli çalışmalar sistemi hazırlanaraq müvafiq paraqraflarda şagirdlərə təqdim olunur . Şagirdlər mətn üzrə iş aparmaqla bərabər, çalışmalar üzərində də fəaliyyət göstərirlər.Bu yolla, Azərbaycan dili dərslikləri gənc nəslin dünyagörüşünün formalaşmasında əhəmiyyətli bir rol oynayır və milli və beynəlxalq məsələlər barədə doğru, obyektiv, məsuliyyətli, tolerant və inkişaf edən bir düşüncə tərzi formalaşdırmağa kömək edir.

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA ƏXLAQİ TƏRBİYƏ

Abdulxalıqova İ.A.
Bakı Slavyan Universiteti
E-mail: ilahabdulxaliqova@gmail.com

Məktəqədər yaşlı uşaqlarda təqlidçi xüsusiyyətlərin inkişaf etdiyini bilirik. Uşağın böyüklərlə ünsiyyət prosesində iştirak etməsi, yüksək dərəcəli təqlidçiliyi onun mənəvi və əxlaqi normaları mənimsəməsinə kömək edir. Buna görə də böyüklər uşaqlar üçün nümunə olduqlarını nəzərə alaraq, buna uyğun hərəkət etməlidirlər.

Uşağın sonradan ona qadağan olunan müəyyən hərəkətləri etməsinə qəti şəkildə icazə verilməməlidir. Onun əxlaqi davranışı diqqətini yönəltdiyi obyektə qarşı olan müsbət emosional münasibəti ilə sıx şəkildə bağlıdır. Məktəqədər yaşlı uşaq oyuncağını və ya yeməyini böyüyün onu yönəltdiyi digər bir yaşıdı ilə daha tez bir zamanda bölüşəcəkdir. Məhz buna görə də, əxlaqi tərbiyənin formalaşması üçün müsbət emosional mühit yaradılmalıdır.Əxlaqi tərbiyənin əsası elə məhz məktəqədər yaş dövründə qoyulur. Çünki bu dövrdə uşağın nitqi inkişaf etməyə başladığı üçün artıq valideynləri ilə, ətrafdakılarla qarşılıqlı ünsiyyət prosesində iştirak edir. Eyni zamanda öz yaşıdları ilə oyun prosesində və ya məşğələ zamanı humanist, xeyirxahlıqla yanaşdığı təqdirdə artıq onda əxlaqi hisslər formalaşır.

Məktəqədər yaş dövrünün aparıcı fəaliyyət sahəsi süjetli-rollu oyunlardır. Oyun prosesində uşaqları həmin rolları oynamaqla, cəmiyyət tərəfindən qəbul olunmuş əxlaq normalarına uyğun şəkildə hərəkət etməyi də öyrənirlər. Bu dövrdə uşağın əxlaqi inkişafına üç sahə aid olunur: mülahizələr, əxlaqi biliklər, təsəvvürlər sahəsi. Qeyd etdiyimiz bu üç sahə bir-biri ilə sıx və ayrılmaz şəkildə bağlıdır. Eyni zamanda uşaqların əxlaqi və mənəvi tərbiyəsinin formalaşmasına bədii ədəbiyyat da təsir göstərir. Belə ki, uşağın dinlədiyi nağıllar, eşitdiyi hekayələr onun "yaxşı" və "pis" anlayışlarını fərqləndirməsinə kömək edir. Bu yaş dövründə olan uşağın əxlaqi təsəvvürləri onun gündəlik həyatına da öz təsirini göstərir. Əxlaq normalarını mənimsəmiş bir uşaq ətrafındakı insanlara qarşı müsbət emosional davranış nümayiş etdirir və əlindən gəldiyi qədər yaxşı işlər görməyə, münaqişə baş verərsə onu həll etməyə cəhd edir.

Eyni zamanda uşaq oyun prosesi zamanı qoyulan qaydalara əməl etməyi, kollektiv şəkildə necə hərəkət etməli olduğunu mənimsəyir. O, öz yaşıdlarını qiymətləndirir, özü ilə müqayisə aparır. Bunun nəticəsində onda düzgün özünüqiymətlənirmə bacarıqları formalaşır. Oyun prosesində uşaq çətinliklərin öhdəsindən gəlməyin yollarını, ətrafında baş verən hadisələri dərk edib, təhlil etməyi öyrənir. Bu cür oyunlar qarşısına çıxan maneələri aşaraq, öz məqsədinə doğru irəliləyən uşaqlar yetişdirir. Həmçinin oyunda liderliyi ələ alaraq, işləri idarə edən təşkilatçı xüsusiyyəti formalaşdırır. Beləliklə bu yaş dövründə oyunlar uşaqlarda əxlaqi və mənəvi tərbiyənin inkişaf etməsi üçün önəmli faktordur. Uşaq kollektivi, öz daxilində həm estetik, həm əxlaqi cəhətdən uşaqlar arasında münasibətin formalaşmasına kömək edən uşaqlar qrupudur. Bu qrup şəxsiyyətin formalaşmasına, qrupun digər üzvlərinin də inkişafını təmin edir. Belə müştərək şəkildə təşkil olunmuş şəraitdə uşaqlarda humanistlik, kollektivçilik, qarşılıqlı hörmət, bir-birinə köməyə hazırlıq kimi müsbət xüsusiyyətlər formalaşır. Öz yaşıdları ilə bu cür rəngarəng, pozitiv münasibətdə olan məktəqədər yaşlı uşaq həm özünün həm yoldaşlarının bacarıqlarını daha dəqiq şəkildə qiymətləndirməyi bacarır. Nəticə olaraq isə onun yaradıcı qabiliyyəti formalaşır, sosial bacarıqları inkişaf edir və sosial həyatda özünü daha sərbəst şəkildə apara bilir. Artıq onun yaradıcı sərbəstliyi artır və özünü daha yaxşı formada inkişaf etdirir. Eyni zamanda uşaqların əməkdaşlıq etmək bacarığı mütəşəkkil səciyyə daşıyır.Ümumilikdə uşaqda əxlaqi və mənəvi normalar zamanla, addım-addım formalaşır və vərdiş halına keçərək uşağın hərəkətlərinə təsir göstərir. Həmçinin uşaqda şüurun inkişaf etməsi, yaxşılıq və pislik haqqında müəyyən təsəvvürlərin yaranması əxlaqi tərbiyənin formalaşmasına təsir göstərir. Eyni zamanda biz uşaq bir səhv etdiyi zaman, ona anlayışla yanaşsaq, səhvini bağışlasaq uşaqa müsbət emosional hal yaratmış oluruq. Elə əxlaqi tərbiyənin formalaşması üçün ən başlıca amil də pozitiv ünsiyyət və mühit yaratmaqdan ibarətdir.

MİLLİ MƏNƏVİ XƏZİNƏMİZ

Adıgözəlzadə N.F.
Bakı Slavyan Universiteti
E-mail: nezrinzade8@gmail.com

Dil hər bir xalqın varlığının təzahürü, onun milli sərvətidir. İnsanın təkamülündə ana dilinin rolu misilsizdir. Dünyanın müxtəlif yerlərində yaşayan xalqlar üçün dil faktoru millətin tarixi mədəniyyətinin və digər özünəməxsus xüsusiyyətlərinin vahid bir kompleks halında birləşdiyi unikal hadisə kimi səciyyələndirilir. Dilin universal xarakterə malik olduğunu təsdiqləyən əsas əlamətlərdən biri də odur ki, o istənilən xalq və ya etnos üçün ən ümdə fərqlənmə etalonu kimi qəbul edilir.

Qeyd etdiyimiz kimi, Azərbaycan dili qədimdir. Belə ki, ümumxalq dili eramızın V əsrində formalaşmışdır və dilimiz türk dili qrupunun oğuz yarım-qrupuna daxildir. Və buna görədə bu qrupda olan digər dillərlə bir-birlərinə bənzəyirlər. Bu da onu göstərir ki, onlar eyni bir kökdən törəyiblər. Eyni zamanda dilimiz iltisaqi (aqlütinativ) dillər qrupuna daxildir. Azərbaycan dilinə, ədəbi dilimizə dair şifahi və yazılı nümunələr təbii ki mövcuddur. Belə ki, Kitabi Dədə Qorqud dastanını ədəbi dilimizin şifahi növünə daxil edə bilirəm. Yazılı ədəbi dilimizin tarixinə gədikdə isə ,əldə olunan materiallara dayanaraq XIII əsrdən başladığını qeyd etmək olar. Azərbaycan dili Azərbaycan Respublikasının dövlət dili və burada yaşayan əhalinin əsas ünsiyyət vasitəsidir. Dilimiz eyni zamanda İran İslam Respublikasında yaşayan 30 milyon azərbaycanlının da ana dilidir və onlar bu dildən çəkimədən istifadə edir,ünsiyyət saxlıyırlar. Vaxtilə İraqa köçmüş 200 minə yaxın insan da ana dilimizdən istifadə edir. Özlərini kərkük və ya türkman adlandırır və əksəriyyəti də Kərkük vilayətində yaşayır. Təkcə İran,İraq deyil eyni zamanda hazırda ABŞ, Türkiyə,Rusiya ümumiyyətlə götürdükdə dünyanın hər bir yanında səlis ,axıcılığı və musiqiliyi ilə seçilən ana dilimizdən istifadə edilir.Bu da dilimizin özünəməxsus xüsusi gözəlliyinin olması və dilimizə nə qədər hörmət edilməsi ilə də bağlıdır.

Dil xalqın varlığının əsasını təşkil edir və hər bir xalqın milli mənəvi dəyərləridir. Dünyada olan bütün xalqların özünəməxsus danışdığı, ünsiyyət saxladığı dil var. Hər bir ölkə çalışır ki, xalq öz dilində danışsın, ünsiyyət saxlasın, təhsil alsın və hörmət etsin. Dil fikirləri,hissləri, əhval-ruhiyyəni ifadə etmək və insanlar arasında ünsiyyət saxlamağa xidmət edən bir vasitədir.Ana dili hər bir xalqın varlığını təsdiq edən başlıca amildir. Hər bir xalqın öz Ana dili onun milli sərvəti, varlığının təsdiqi, həmçinin milli kimliyidir. Millətin dili, əlifbası onun millət olaraq formalaşmasında vacib şərtlərdən biri kimi qəbul edilir. Xalqın keçdiyi tarixi yol, onun mədəni səviyyəsi, birinci növbədə onun Ana dilində öz əksini tapır. Ana dili həm də çətin tarixi-siyasi dövrlərdə millətin varlığının yaşadılması üçün əsas vasitələrdən də hesab olunur. Dilini itirən xalq məhvə məhkumdur. Doğma Ana dilimiz olan Azərbaycan dili xalqımızın milli sərvətidir. Tarix yaşadıqca xalqımız bu sərvətin qayğısına qalmalı və dilimiz gələcək nəsillərə ötürülməlidir. Azərbaycan dilinin bugünkü inkişaf səviyyəsi xalqımızın dünyanın ən qədim xalqlarından biri olduğunu təsdiqləyir. Ümummilli lider Heydər Əliyev deyirdi ki, xalqımız əsrlər boyu böyük sınaqlardan, çətinliklərdən keçmiş, ancaq öz mənliyini, milliliyini, öz dilini itirməmişdir. 1995-ci ildə ilk milli Konstitusiyamıza Azərbaycan dili dövlət dili kimi qəbul edildi. 2001-ci ilin iyulunda Ulu Öndərin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərmanı imzalandı. Eyni zamanda, həmin vaxtlarda Dil Şurası da yaradıldı. Çox keçmədi ki, 1 Avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü təsis olundu. Ümumiyyətlə, bu bir tarixi faktdır ki, dünyanın böyük liderləri içərisində, o cümlədən Türk dünyasında ümummilli lider Heydər Əliyev qədər dil məsələsini dövlət siyasəti səviyyəsinə qaldıran lider olmayıb. Ana dili amilinin çox böyük əhəmiyyəti var idi. Çünki bu amil millətin özünüdərki üçün çox mühüm məsələ idi. Ona görə də o böyük tarixi şəxsiyyət Ana dilini milli dəyər səviyyəsinə qaldırmağı bacardı.Ana dilimiz azərbaycan dilidir və bu dili vətənini , xalqını sevən hər bi azərbaycanlı bilməlidir. Bununla paralel olaraq həm xaricə inteqrasiya etmək, həm də ölkə daxilindəki işlərimiz üçün müxtəlif xarici dilləri öyrənirik. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı ardıcıl və uğurlu dövlət quruculuğu siyasətində ana dilinin qorunması və zənginləşdirilməsi məsələləri həmişə önəmli yer tutmuşdur. Bunu ölkə Prezidentinin Azərbaycan dili ilə bağlı silsilə sərəncam və fərmanları, eləcə də müxtəlif tədbirlərdəki çıxışları zamanı səsləndirdiyi qiymətli fikirlər sübut edir. Ölkə rəhbəri çıxışlarında dilimizin saflığının pozulması ilə bağlı narahatlığını da gizlətmir, o, bu vacib məsələni diqqətə çatdıraraq Mədəniyyət Nazirliyinə bir vəzifə olaraq, digər aidiyyəti qurumlarla birlikdə Azərbaycan dilinin qorunması istiqamətində çox ciddi işlər aparılmasını tapşırıb. Prezident xüsusilə mətbuat orqanlarında, teleradio məkanında bəzi hallarda dilimizin saflığının pozulduğu-nu diqqətə çatdıraraq bildirmişdir ki, bu cür halların qarşısı alınmalıdır. Eyni zamanda dövlət başçısı dünyada 50 milyondan çox insanın ana dilinin Azərbaycan dili olduğunu vurğulayır və bu işin ciddiyətinə işarə edir.Biz bir azərbaycanlı olaraq istər Azərbaycanda yaşayaq, istərsə də ölkə xaricində, hər birimiz öz ana dilimizi bilməliyik. Xarici dillərdə təhsil alsaq da, ətrafımızda digər dillərdə ünsiyyət qurulsa da biz ana dilimizi unutmamalıyıq. Bununla paralel olaraq digər dilləri də bilmək bizə, dövlətimizə, cəmiyyətimizə yalnız fayda verə bilər.Dilimizi qoruyaq və sevək! Bu, hər birimizin vətəndaşlıq borcudur!

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN DİLİMİZƏ OLAN BÖYÜK SEVGİSİ

Adıgözəlzadə N.F.
Bakı Slavyan Universiteti
E-mail: nezrinzade8@gmail.com

Dil xalqın varlığının əsasını təşkil edir və hər bir xalqın milli mənəvi dəyərləridir. Dünyada olan bütün xalqların özünəməxsus danışdığı, ünsiyyət saxladığı dil var. Hər bir ölkə çalışır ki, xalq öz dilində danışsın, ünsiyyət saxlasın, təhsil alsın və hörmət etsin. Dil fikirləri,hissləri, əhval-ruhiyyəni ifadə etmək və insanlar arasında ünsiyyət saxlamağa xidmət edən bir vasitədir. 1917, 1918 və 1920 ci illəri əhatə edən bir dövrlərə nəzər salsaq görərik ki, bu mərhələlərdə də bir sıra məsələlər həll edilmişdir. Bura 1917-ci ildə Bakıda Qafqaz müsəlmanlarının qurultayının keçirilməsi və bu qurultayda Azərbaycanın bir sıra dahi şəxsiyyətləri iştirak etməsini qeyd edə bilərik. Bu prosesdə iştirak edən şəxslərə -M.Ə.Rəsulzadə, Nəsib bəy Yusifzadə, Ə.Topçubaşovu daxil idi. Qurultay çərçivəsində maarif və mədəniyyət məsələləri geniş səkildə müzakirə edilmiş və qərarlar qəbul edilmişdir. Nəticədə məktəblərdə təhsil hər bir xalqın öz ana dilində, ali təhsil müəssisələrində təhsilin türk-tatar dilində, orta təhsil müəssisələrində tədrisin türk dilində həyata keçirilməsi qəbul edildi. Eyni zamanda ibtidai təhsil almaq üçün tədrisin pulsuz olması, təhsil alanların ibtidai məktəbdən

orta məktəblərə keçidinin imtahansız olması və s məsələlər təsdiqləndi. Beləliklə bu dövrdə rus dilinin tədrisi ikinci bir dil olaraq müəyyən olundu.

Fəxrlə deyə bilərik ki, biz bir xalq, bir toplum kimi zamanın cürbəcür sınaqlarından keçərək dilimizi, milliliyimizi, mənəvi dəyərlərimizi qoruyub bu günümüzə qədər gətirib çıxarmışıq. Dərin tarixi kökləri olan öz dilimiz, öz mədəniyyətimiz, öz tariximiz var. 50 milyondan çox həmvətənimizin danışdığı bu dil dünyaya səs salan şairlər, ədəbiyyatçılar, alimlər, siyasətçilər, dahilər yetişdirib. Bu dil ilə tanıtmışıq ədəbiyyatımızı, kimliyimizi, bu dil ilə elan etmişik dünyaya müstəqilliyimizin əbədiliyini. Bu dil müqəddəsdir, doğmadır anamız kimi, Vətənimiz kimi. Qururumuz, fəxrimizdir dilimiz. Nəsimilər, Füzulilər, Xətailər, Zərdabilər, Vaqiflər, Vidadilər, Sabirlər, Müşfiqlərin dilidir Azərbaycan dili.Bütün sahələrdə olduğu kimi, ana dilimizin inkişafında, onun dövlət dili olaraq yüksək mərtəbəyə qaldırılmasında ulu öndər Heydər Əliyevin misilsiz xidmətləri olub. Heydər Əliyev ana dili ilə bağlı dövlət siyasətinin təməlini ölkəmizin müstəqilliyinin ilk günlərindən qoyub. Azərbaycan dilinin inkişafı ilə əlaqədar müntəzəm olaraq fərman və sərəncamlar imzalayıb. Məhz ümummilli liderimizin apardığı məqsədyönlü və düşünülmüş siyasətin nəticəsidir ki, 1995-ci ildə ilk milli Konstitusiyamıza Azərbaycan dili dövlət dili kimi daxil edilib. 2001-ci ilin iyul ayında ulu öndər Heydər Əliyev "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman imzalayıb, daha sonra isə 2001-ci ildə imzaladığı fərmana əsasən, avqustun 1-i respublikamızda Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi təsis olunub. Azərbaycan dilinin beynəlxalq aləmdə nüfuz qazanması dilimizi ən mükəmməl formada təqdim etməyi bacaran Heydər Əliyevin adı ilə bağlıdır. Millətini, milliliyini, zamanın keşməkeşlərindən, sınaqlarından üzüağ çıxan qədimliyini və tarixini yüksək dəyərləndirən Heydər Əliyev ana dilimizlə bağlı bu fikirləri səsləndirib: "Mən fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər zəngindir, bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə ifadə edə bilərik". Ulu öndərin bu fikirləri dilimizə verilən yüksək qiymətin təzahürüdür.

Müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də qəbul olunmuş Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi qəbul edilmişdir. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi" haqqında Azərbaycan Respublikası prezidentinin 2001-ci il 18 iyun tarixli fərmanı və Nazirlər Kabinetinin 25 iyun 2001-ci il tarixli 113 saylı sərəncamı ölkənin təhsil sistemində dövlət dilinin - Azərbaycan dilinin tədrisi və latın qrafikasının tətbiqi sahəsində icra üçün direktiv hüquqlu normativ sənəd kimi qəbul edilmişdir. Ulu öndər Heydər Əliyevin qətiyyətli və prinsipial mövqeyi, ciddi səyi nəticəsində keçmiş SSRİ-nin 1978-ci ildə qəbul edilmiş yeni Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit olunmuşdu. O zamankı reallıqla belə bir qərarın qəbulu xalqımız üçün kifayət qədər ciddi bir hadisə idi.Xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev 70-ci illərin əvvəllərindən dil sahəsində başladığı islahatları uğurla davam etdirdi. Ümummilli Lider gənc nəslin ana dilini düzgün, hərtərəfli və elmi əsaslar zəminində mənimsəməsini tövsiyə etmişdi: "Öz dilini sevməyən adam öz tarixini bilə bilməz. Ana dilini bilməyən gənc Nizamini oxuya bilməz. Füzulini oxuya bilməz. Cəlil Məmmədquluzadəni oxuya bilməz. Əgər onları oxuya bilməsə, o, tariximizi bilməyəcək, bizim mədəniyyətimizi bilməyəcək. Onları bilməsə, o, vətənpərvər olmayacaq, onda vətənpərvərlik duyğuları, hissiyyatı olmayacaq." Dilin zaman-zaman hərtərəfli inkişaf etməsi və zənginləşib dolğunlaşması, tarixi şəxsiyyətlərin, qüdrətli dövlət başçılarının adı ilə də sıx bağlıdır. Ümummili lider Heydər Əliyev belə tarixi şəxsiyyət idi.

İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN FƏALLIĞININ ARTIRILMASINDA MORFOLOJİ ANLAYIŞLARDAN İSTİFADƏ

Adıgüzel D.B.
Bakı Slavyan Universiteti

Müasir dünyanın təhsil sistemində ən önəmli olan şəxsiyyətin inkişaf etdirilməsidir. İnkişaf etmiş bütün ö bu məsələ çox mühüm bir şərt kimi qarşıya qoyularaq həll edilir. İlk növbədə, şəxsiyyətin maraq və ehtiyaclarını qoruyan, onun ən etibarlı təminatçısına çevrilən demokratik və humanist təhsil sistemini yaratmaqla reallaşdırılır.Bu zaman şəxsiyyətin idrak bacarıqları diqqət mərkəzində saxlanılır. Bütün fənlərin məqsədi şəxsiyyətin ümumi dəyərlərinin formalaşdırılmasına istiqamətləndirilir. Azərbaycan dili bu fənlərin içərisində xüsusi əhəmiyyət daşıyır. Ana dilinin vasitəsilə fikri əməliyyatların əsasında mənalı konstuksiyalar, nitq hissələri. Cümlələr dayanır. İnsan bu morfoloji anlayışlardan və cümlələrdən istifadə edərək təfəkkür prosesini reallaşdırırlar.

Azərbaycan dilinin morfologiyasında əsas və köməkçi nitq hissələri öyrənilir. Burada birinci əsas, sonra isə köməkçi nitq hissələri öyrədlir və onların hər biri haqqında geniş məlumat verilir. Bu isə Azərbaycan dilini praktik istiqamətdə öyrətməklə bağlı geniş imkanlara malik olduğunu göstərir.İkinci, morfoloji anlayışların öyrədilməsi nitqin düzgün ifadə olunmasını təmin edir. Dilin praktik cəhətdən mənimsədilməsinə bilavasitə imkan yaradır. Üçüncü, morfologiyaya dair elementlərin mənimsədilməsi təfəkkür tərzini formaladırır. Bu isə fəallığın və təfəkkür tərzinin nəticəsinə çevrilir. Bütün bunlar onu göstərir ki, morfoloji anlayışların formalaşdırılması Azərbaycan dilinin praktik olaraq reallaşdırılması baxımından çox zəruridir. Bu isə təbii olaraq nitq hissələrinin birinci sinifdən etibarən məktəb kursuna daxil edilməsinin və onun öyrənilməsinin vacibliyini meydana çıxarır.

İbtidai təhsil sahəsində böyük tədqiqatşılıq ənənəsi yaratmış Y.Kərimov yazırdı ki, "Qrammatik biliklər şagirdlərin nitqinin inkişafı üçün elmi bünövrə rolunu oynayır. Eyni zamanda onu fəallığı inkişaf etdirən vasitə kimi dəyərləndirir.Göründüyü kimi morfoloji vahidlərin mənimsənilməsi prosesində məlumatlılıq ən etibarlı üsul kimi istifadə oluna bilər.

ƏDƏBİYYAT NƏZƏRİYYƏSİ VƏ ONUN TƏLİM METODLARI

Ağaverdiyev Ə.M.
Bakı Slavyan Universiteti
E-mail: eliagayev018@gmail.com

Ədəbiyyat nəzəriyyəsi ədəbiyyatın təbiətini, xüsusiyyətlərini, funksiyalarını, tarixini və mədəni təsirini öyrənən bir elmdir. Bu nəzəriyyələr ədəbiyyatın nə olduğunu, necə işlədiyini və nə üçün vacib olduğunu izah etməyə çalışır. Ədəbiyyat nəzəriyyəsi ədəbiyyata müxtəlif yanaşmalarla müraciət edir və müxtəlif nəzəri konstruksiyaların geniş spektrini təklif edir.Ədəbiyyat nəzəriyyəsi anlayışı 20-ci əsrin əvvəllərində yaranmışdır. Bu dövrdə ədəbiyyatın sosial, mədəni və siyasi mənalarını araşdırmaq üçün müxtəlif elm sahələrinin texnikalarından istifadə olunmağa başlandı. Ədəbiyyat nəzəriyyəsi bu fənlərin texnikalarını birləşdirərək ədəbiyyatın müxtəlif istiqamətlərini araşdırmağa başlamışdır.

Ədəbiyyat nəzəriyyəsi ədəbiyyata müxtəlif yanaşmalara əsaslanır. Bu yanaşmalar ədəbiyyatın müxtəlif cəhətlərini və xüsusiyyətlərini vurğulayır. Bəzi yanaşmalar bunlardır: Formalist yanaşma: Ədəbiyyatın dil, forma və struktur xüsusiyyətlərini vurğulayır. Psixoloji yanaşma: Ədəbiyyatın insan şüuruna və davranışına necə təsir etdiyini vurğulayır. Feminist yanaşma: Ədəbiyyatın gender, cinsiyyət və sosial quruluşa təsirini vurğulayır. Postmodernist yanaşma: Ədəbiyyatın reallığın qavranılmasını necə sorğuladığını vurğulayır.

Ədəbiyyatın tədrisi metodları tələbələrə ədəbi əsərləri anlamağa və şərh etməyə kömək edən strategiyalardır. Ədəbiyyatın tədrisi metodları tələbələrə ədəbiyyatın müxtəlif aspektlərini araşdırmaq və təhlil etmək imkanı verir. Ədəbiyyatın bəzi tədris üsulları aşağıdakılardır:

Gündəliklərin oxunması: Bu, tələbələrin oxuduqları ədəbi əsərlər haqqında düşüncə və hisslərini qeyd etməyə imkan verən bir jurnal üsuludur.Müzakirə qrupları: Bu, tələbələrə ədəbi əsərlər haqqında müzakirələr aparmağa və müxtəlif şərhləri nəzərdən keçirməyə imkan verən bir üsuldur.Müqayisəli təhlil: Şagirdlərə müxtəlif ədəbi əsərləri müqayisə edərək onların oxşar və fərqli cəhətlərini təhlil etməyə imkan verən üsuldur. Film və vizual mediadan istifadə: Bu, tələbələrə vizual media vasitəsilə ədəbi əsərləri kəşf etməyə və təhlil etməyə imkan verən bir üsuldur. Dram və tamaşa sənətləri: Bu, tələbələrə ədəbi əsərləri canlandıraraq, personajları araşdıraraq və hekayəni yaşayaraq anlamağa imkan verən bir üsuldur.Ədəbiyyat nəzəriyyəsi ilə tədris metodları arasında güclü qarşılıqlı əlaqə mövcuddur. Ədəbiyyat nəzəriyyələri müəllimlərə ədəbi əsərləri daha yaxşı başa düşməyə və şagirdlərə daha yaxşı öyrətməyə kömək edir. Müəllimlər şagirdlərin oxu təcrübələrini genişləndirmək və onlara daha dərindən təhlil etmək imkanı vermək üçün ədəbi nəzəriyyələrdən istifadə edə bilərlər. Bundan əlavə, ədəbiyyatın tədrisi metodlarından ədəbiyyat nəzəriyyələrinin tətbiqi vasitəsi kimi istifadə oluna bilər.

Ədəbiyyat nəzəriyyəsi və tədrisi metodları ədəbiyyatın öyrənilməsi və tədrisinə əsas anlayış və yanaşmaları təmin edən bir fəndir. Ədəbiyyat nəzəriyyələri ədəbiyyatın müxtəlif aspektlərini vurğulayan müxtəlif yanaşmalara əsaslanır. Ədəbiyyatın tədrisi metodları tələbələrə ədəbi əsərləri anlamağa və şərh etməyə kömək edən strategiyalardır. Ədəbiyyat nəzəriyyəsi ilə tədris metodları arasında güclü qarşılıqlı əlaqə və əlaqə mövcuddur və bu fənlər bir-birini tamamlayır. Ədəbiyyatın öyrənilməsi və tədrisi ədəbiyyat nəzəriyyəsi və tədris metodları vasitəsilə daha mənalı və məhsuldar edilə bilər.

İNGİLİS DİLİNİN ÖYRƏNİLMƏSİNDƏ MƏDƏNİYYƏTLƏRARASI ASPEKTİN MAHİYYƏTİ

Ağayeva Ü.F.
Bakı Slavyan Universiteti
E-mail: aqayeva.ulviyye.05@gmail.com

İnkişafda olan ölkələr və inkişaf etmiş ölkələrdə xarici dillərin tədrisi və mənimsənilməsinə çox mühüm aspektlərdən biri kimi baxılır. Hər zaman mühüm sahə sayılan xarici dilin öyrənilməsinə xüsusi bir diqqətlə yanaşılır. Bu həm bir vətəndaşın ölkəsi üçün əhəmiyyətli bir qərarıdır və ölkənin inkişafı baxımından vacibdir desək yanılmarıq.Xarici dil həmişə özü ilə yad bir mədəniyyət gətirir. Öyrənənlər xarici dili daha yaxşı başa düşmək üçün dilini öyrəndikləri ölkənin mədəni xüsusiyyətlərini öyrənmələri çox vacibdir.Dərs zamanı audio və vizual vasitələrdən xarici dili öyrənənlər səmərəli şəkildə istifadə edə bilirlər. İngilis dilin bacarıqlarının inkişafında son dərəcə faydalı olduğu bir həqiqətdir. Film audiovizual sənət kimi milli ruhu əks etdirən düşüncə və hisslərlə cəmiyyətin mədəni və estetik obrazlarını real şəkildə təmsil etmək və zəngin sosial, mədəni elementlərlə və cəmiyyəti bir çox cəhətdən əks etdirən üsulların toplusudur deyə bilərik. İngilis dilinin tədrisində mədəniyyət vasitəsi olaraq filmlərdən bəhrələnmə mövzusu da müxtəlif aspektlərdə müzakirə olunub. İkinci dil olaraq ingilis dilinin öyrədilməsində, dil ölkəsinin mədəniyyətinin ötürülməsində istifadə edilə bilən filmlərlə bağlı fəaliyyət nümunələri təqdim edilmişdir.İngilis dili və həmin dilin mədəniyyətlərarası münasibətlərinin qarşılıqlı əlaqəsi problemi dəfələrlə dünya miqyasında tədqiqatçılar tərəfindən geniş müzakirə edilmiş və hələdə edilməkdədir. Bu tezisdə mədəniyyət və dil arasındakı əlaqələrin öyrənilməsi, ingilis dilinin dünyada dominantlığının səbəblərini araşdırması, onun qlobal yayılmasının cari vəziyyətini müəyyənləşdirir və mədəniyyətlərarası ünsiyyətdə qlobal dil kimi gələcək perspektivləri işıqlandırır. Əlaqəli mövzular üzrə müasir tədqiqatların təhlili və ümumiləşdirilməsinə əsaslanır və ən son statistik məlumatları müqayisə edilir. Nəticələrdən məlum olur ki, ingilis dili dünyada ana dilində danışanların sayına görə birinci yerdə olmasa da, həm linqvistik, həm də ekstralinqvistik amillərə görə dünyada ən çox öyrənilən xarici dildir. Belə nəticəyə gəlirik ki, mədəniyyətlərarası ünsiyyət ingilis dilinin daha yaxşı öyrənilməsinə kömək edir. Beynəlxalq dil anlayışının mahiyyətinin mədəniyyətə münasibətdə inkişafına, müəyyən bir dilin qlobal status qazanması üçün amillərin formalaşdırılmasına, lingua franca anlayışının inkişafına və mədəniyyətlərarası ünsiyyətin təşviqinə töhfə verir.

ŞAGİRDLƏRDƏ XARİCİ DİL BACARIQLARININ İNKİŞAF ETDİRİLMƏSİ

Ağazadə L.A.
Bakı Slavyan Universiteti
E-mail: Leylaghazada18@gmail.com

Bugünkü şagird sabahın uğurlu vətəndaşıdır.Şagirdlərin yaşadığı cəmiyyətə uyğunlaşmaq və gələcəklərini tənzimləmək üçün üçün bir sıra sahələrdə bilik bacarıq və vərdişlərə yiyələnmələri zəruri məsələlərdəndir.Tədris zamanı bu kimi məsələlərin tənzimlənməsi,onların bilik,bacarıq, və vərdişlərə yiyələnmələri üçün qarşılarına bir sıra tələblər qoyulur.Məktəblərdə tədris olunan hər bir fənnin özünəməxsus xüsusiyyətləri,məqsədləri vardır. Xarici dilə yiyələnən şəxs bu dili öyrənmə prosesində həmin dildə öz fikirlərini,hisslərini ifadə edə,bu dildə ünsiyyət qurma bacarığı əldə edə bilir. Hal -hazırda bir sıra dünya dillərindən müxtəlif məqsədlər üçün istifadə edilir.Lakin ən geniş istifadə edilən və məktəblərdə tədrisinə daha geniş yer verilən xarici dil kimi ingilis dili bir sıra elm və tədris ,texnologiya,beynəlxalq,iqtisadi münasibələr və.s bu kimi müxtəlif sahələrdə hökmranlıq edir.Şagird bir sıra xüsusiyyətlərə sahib olan fərdi şəkildə, fəal inkişaf edən subyektdir. Bu səbəbdən dolayı onlarla öz psixologiyalarına uyğun münasibət qurmaq vacib məsələlərdəndir.Şagirdlərə dərs prosesində xüsusilə xarici dilin tədrisi zamanı onların yaşı,maraqları, mövzunun izahı,ev tapşırıqlanın qeyd edilməsinə, keçirilən dərsin çətinlik və ya asanlıq səviyyələrindən asılı olmayaraq dərs izahı prosesində müəllim bir sıra məqamlara diqqət yetirməlidir. Mövzu şagirdlərə onların başa düşə biləcəyi və asan qavrayacağı bir şəkildə izah olunmalıdır.

Xarici dilə yiyələnmələri şagirdlərin bir sıra bacarıqlarını artırır, millətlər arasında ünsiyyət prosesində xüsusi rolu ilə fərqlənir,həmçinin mədəni əlaqələrin genişlənməsində də rol oynayır. Sinifdə uğur qazanmaları üçün hər bir şagirdə fərdi yanaşılmalsı və onların hansı öyrənmə tipinə malik olduğu anlaşılması və dərs prosesini buna uyğun təşkil edilməsi daha məqsədəuyğun və effektiv nəticə verəcəkdir.Hal-hazırda

məktəblərdə xarici dilin tədrisinə təsir edən, şagirdlərin inkişafında mühüm rol oynayan müxtəlif strategiyalardan bəhs etmək mümkündür.İlk növbədə xarici dilin yüksək səviyyədə inkişaf etdirilməsi üçün dildə mövcud bacarıqlar eyni anda inkişaf etdirilməlidir.Nəzərə alsaq ki, ingilis dilini öyrənmək və dildən səlis istifadə edilə bilməsi üçün fərdin bu dildə mövcud olan 4 bacarığa yiyələnməsi əsas məsələdir.İngilis dilini öyrənən şagird bu dildə mövcud olan danışıq, dinləmə, oxu və yazı bacarıqlarını eyni anda inkişaf etdirməyə və dilin tələblərinə cavab verə biləcək şəkildə dilə yiyələməyə çalışmalıdır.Həmçinin müəllimlər bu müddətdə onların bacarıqların ikişaf etdirəcək tapşırıqlarla,üsullarla çıxış edərək şagirdlərin inkişafına təkan verə bilərlər.Xarici dildə sürətli və axıcı nitqə sahib olan şagird eyni zamanda bu dilin qrammatik qaydalarına və bununla yanaşı yazı, dinləmə,oxu xüsusiyyətlərinə yiyələnməlidir.Nəzərə alsaq ki,orta,sinif otağında dərsə cəlbedici atmosferin yaradılması müəllimin öhdəliyində yer alan əsas amildir, hər birinə ayrıca bir fərd kimi yanaşılması bu kimi bacarıq və biliklərin onlara aşılanmasında müxtəlif üsullar və materiallar,oyunlar, və texnikaların istifadəsi ilə ilə şagirdlərin inkişafı prosesini daha nəzərəçarpan və maraqlı etmək, onları dərs prosesinə cəlb etmək mümkündür.

V SİNİF AZƏRBAYCAN DİLİ DƏRSLİYİ ƏSASINDA ELMİ ÜSLUBUN ÖYRƏNİLMƏSİ

Alıyeva S.İ.
Sumqayıt Dövlət Universiteti
E-mail: alizdesanam501@gmail.com

Üslubiyyat dildə mövcud olan üslubları və üslublar sistemini öyrənir. Dildə mövcud olan üslubların yaranmasında dilin ən kiçik vahidindən tutmuş ən böyük vahidinə qədər hər birinin iştirakı mütləqdir. Əks halda üslubların formalaşması üçün lazım olan sistem pozular. Yəni belə demək mümkündürsə, dilin özünü təşkil edən vasitələrin məqsədəuyğun şəkildə istifadəsi dilin üslublarının mövcudluğuna dəlalət edir.

Azərbaycan ədəbi dilinin özünəməxsus üslubları sistemi var. Ədəbi dil üslubları dedikdə milli ictimai təfəkkürün fərqli sahələrini əhatə edən funksional üslublar nəzərdə tutulur. Funksional üslubları içərisində elmi üslub müxtəlif xüsusiyyətləri ilə digər üslublardan fərqlənir.Elm sahələrinin hamısını əhatə edən elmi üslub elmi təfəkkürün əsasında formalaşır. Elm sahələrinin dili olan elmi üslub özündə dəqiqlik, konkretlik, məntiqilik və ardıcıllıq kimi xüsysiyyətləri birləşdirir. Elmin, texnikanın inkişafı nəticəsində yeni-yeni sözlər və anlayışlar yaranır. Bu sözlər elmin müxtəlif sahələrində özünü göstərən terminlərdir. Hər bir üslub üçün xarakterik olan leksika mövcuddur. Elmi üslubun leksikası dedikdə terminlər nəzərdə tutulur. Terminlərin ən dəqiq ifadəsi müntəzəm və məcburi şəkildə işldilməsi elmi üsluba aid xüsusiyyətlərdir. Elmi üslubu terminsiz təsəvvür etmək mümkün deyil, çünkü termin elmi üslubun başlıca xüsususiyyətidir.

"Elmi üslub terminaloji səciyyə daşıyır. Sözün elmi üslubdakı əsas işinə, vəzifəsinə onun terminoloji funksiyası deyilir. Mətndə bilavasitə terminoloji funksiya daşıyan söz, yaxud ifadə termindir".Bütün elmi biliklərin, eləcə də elmi üslubun sistemli şəkildə hərtərəfli öyrədilməsi prosesi ilk olaraq məktəbdən başlayır. Məktəbdə başlayan bu prosesin əsas hərəkətverici qüvvəsi dərsliklərdir. Buna görə də dərsliklərin tərtibi və hazırlanması üçün qoyulan tələblərə əməl edilməsi vacib şərtdir. Dərsliklər tərtib edilərkən şagirdlərin yaş və anlaq səviyyələri nəzərə alınmalı, milli düşüncəni, vətənpərvərlik ruhunu aşılayan və digər mövzuları əhatə edən mətnlər seçilməlidir.Bu mərhələdə məktəblərdə tədris edilən Azərbaycan dili fənninin əhəmiyyəti olduqca vacibdir. Çünki biliklərin özülü bu tədris fənni ilə başlayır. Ənənəvi dərsliklərdə qaydalara üstünlük verilir və dərslik demək olar ki, qaydalarla əhatələnirdi. Fəal təlimə əsaslanan müasir dərsliklərdə isə qaydaların öyrənilməsi mətnlər üzərində həyata keçirilir. Mətnlər üzərində qaydaların verilməsi Azərbaycan dili fənninin digər fənlərlə əlaqəli şəkildə öyrənilməsini təmin etmiş olur ki, bu da fəal təlimin inteqrasiya tələbini ödəyir. Bununla şagird yalnız bir fənni deyil, digər fənlər haqqında da biliklərə yiyələnmiş olur.

V sinif Azərbaycan dili dərsliyində verilmiş mətnlərə diqqət yetirdikdə həmin mətinlərdə elmi üsluba aid xüsusiyyətlərə və leksikaya rast gələ bilərik. Belə ki, elmi üslubun leksikasının əsasını təşkil edən terminlərin öyrədilməsinə dair qaydaları özündə əks etdirən "Sərhədsiz internet" mətni verilmişdir. Mətnin daxilində xeyli sayda terminlərdən istifadə edilir. Bu terminlər informatika fənninə aid olub həmin elm haqqında məlumatları özündə birləşdirir. Mətndə bəzi sözlərin altından xətt çəkilmiş və həmin sözlərin etimoloji-izahlı lüğətinin tərtib edilməsi tapşırılmışdır. "Beləliklə, indi hamıya yaxşı tanış olan e-mail (elektron poçt) yarandı. Bu gün "Login" sözü termin kimi istfadə edilir və istifadəçinin e-mail ünvanının 1-ci hissəsini bildirir; məsələn, zeynalov@yahoo.com ünvanında "zeynalov" logindir. Burada @ işarəsi "ət" (ing.at) kimi oxunur və ingilis dilindən tərcümdə "-da, -də" yerlik hal şəkilçisini bildirir. Ünvanın ikinci hissəsi isə

(yahoo.com, hotmail.com, rambler.ru və s.) internetdəki əlaqə-axtarış sisteminin - portalın adını bildirir". Mətnin bu hissəsində "parol" sözünün altından xətt çəkilmişdir. Bu tapşırığı yerinə yetirmək üçün ilk növbədə etimoloji-izahlı lüğətdən istifadə edərək sözün etimologiyasına baxmaq, daha sonra isə internet üzərindən axtarışlar apararaq sözün digər mənalarını araşdırmaqla tapşırığa yekun vurmaq lazımdır. "PORTAL [lat. porta – giriş, darvaza] Böyük binanın memarlıq cəhətdən işlənmiş və ya ümumui fonda ayrılmış baş girəcəyi. Sütunlu portallar". "PORTAL — web-saytlarda məhdud yönümlü tematik axtarış sistemlərinin yaradılması, paylanmış şəbəkədə tematik sorğunun yerinə yetirildiyi başlanğıc nöqtəsidir. Portal müraciət edilmə göstəricisi kifayət qədər yüksək trafiki və istinadların sayı çox olan hər hansı sayt da ola bilər." Mətnə uyğun tapşırıqların verilməsi məlumatın şagirdlərin yaddaşında daha uzun müddət qalmasını təmin etmək üçündür. Bununla yanaşı şagirdlər tapşırığı həll etmək üçün axtarışlar edərək başqa informasiyalara yiyələnə bilirlər. Bu tapşırıqla şagirdlər yalnız terminləri deyil, eyni zamanda sözlərin mənalarını, mənşəyini, etimologiyasını və ən əsas da lüğətlə işləmə bacarığına malik olurlar.

ŞAGİRD NAİLİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Aslanova Z.R.
Bakı Slavyan Universiteti
Email:aslanovazumrud171@gamil.com

Qiymətləndirmə təlim prosesinin əsas tərkib, ayrılmaz hissəsidir. Şagirdin dərs zamanı göstərdiyi təlim fəaliyyətinin təlim məqsədlərinə nə dərəcədə müvafiqlik səviyyəsini müəyyənləşdirir. Həmçinin şagirdə səmərəli təlim mühiti qurmaqla təlim-tərbiyə prosesini təkmilləşdirir, təhsilalanların mənimsələrinin keyfiyyətini müəyyənləşdirməyə şərait yaradır. Qiymətləndirmə o şəkildə qurulmalıdır ki, obyektiv, ədalətli və düzgün olsun. Bu cür qiymətləndirmə şagirddə daim uğur qazanmağa həvəs yaradır. Müəllim mütləq şəkildə yazdığı qiyməti əsaslandırmalı, şagird nəyə görə, hansı qiymət aldığını bilməlidir. Bəzən müəllim şişirtmə qiymət yazaraq şagirdin dərsə marağını artırmağa çalışdığını söyləyir. O bu zaman nəyinki özünü aldadır, həmçinin şagirdin də yanlış istiqamət almasına səbəb olur. Bəzi müəllimlər isə şagirdiin davranışlarına görə qiymətini kəsir, bir növ cəzalandırırlar. Qeyd etmək lazımdır ki, təhsil tərbiyəvi əhəmiyyətə malik olmaqla yanaşı, cəzadan da uzaq bir sistemdir. Düzgün qiymətləndirmə, doğru təhsil parlaq gələcəyə sahib gənclərin xəbərçisidir.Müasir dövrdə qiymətləndirmə keyfiyyəti idarə edən əsas amildir, həm təlim, həm də tərbiyəvi əhəmiyyət daşıyır. O təlim baxımından bilik, bacarıq, vərdişlərin qiymətləndirilməsi şəklində özünü göstərdiyi halda, tərbiyəvi cəhətdən şagirdlərin fəallığına, intizamlı olmasına təsir göstərir.

ALMAN DİLİNİN ÖYRƏNİLMƏSİNDƏ PAREMİOLOGİYA VƏ ONUN ƏHƏMİYYƏTİ

Atayeva R.R.
Bakı Slavyan Universiteti
E-mail: renaatakisiyeva7@gmail.com

Dilçilik elminin müasir sahələrindən biri də paremiologiyadır. Paremiologiya tapmacaların, atalar sözlərinin, aforizmlərin, zərbi-məsəllərin və s. tədqiqi ilə məşğul olan elm sahəsinə deyilir. Paremiologiya müasir dövrdə müxtəlif aspektlər istiqamətində ətraflı şəkildə araşdırılmağa davam edir.

Paremioloji vahidlər hesab olunan atalar sözləri, zərbi-məsəllər, eləcə də qanadlı sözlər və s. əvvəllər folklorluq nümunələri kimi istər yazılı, istərsə də şifahi ədəbiyyatda daha çox istifadə olunurdu. Amma XX əsrin ortalarından etibarən paremioloji vahidlərin dilçilik baxımından tədqiqi və aspektlərinin müəyyən olunması, dünya dillərində olan paremioloji fondun sistemləşdirilməsi germanistikada və rusistikada paremiologiyanın xüsusi bir dilçilik sahəsi kimi formalaşmağı ilə nəticələnmiş oldu.Paremioloji vahidlər bir qayda olaraq aşağıdakı aspektlərdə tədqiq olunur: a) folklorşünaslıq aspektində bu vahidlər ədəbi janr kimi səciyyələndirilməklə ideya-kompozisiya və həcmi-ritmika (poetika) baxımından sistemləşdirilir; b) məhz dilçilik araşdırmaları paremioloji vahidlərin sintaktik quruluşu, semantik strukturunu və konseptual-məna radiusunu müəyyənləşdirir; c) axır vaxtlar (XX əsrin 60-cı illərindən bəri) paremioloji vahidlərin etnokulturoloji və etnopsixoloji aspektinin öyrənilməsi yönümündə də geniş tədqiqlər aparılır; ç) tarixən bu vahidlərin öyrənilməsində hüquqi-elmi araşdırmalar da mövcud olmuşdur - atalar sözləri və zərbi-məsəllər

xalqın, cəmiyyətin hüquqi (qanunvericilik) bazasının rəsmi şəkildə formalaşmasındakı rolu danılmaz bir fakt kimi göstərilmişdir; d) atalar sözlərinin fəlsəfi konseptlər kimi öyrənilməsi də onların ümumi aspektologiyasında mühüm yer tutur.Z.Əlizadənin paremioloji vahidlərin etimoloji aspektdən tədqiqinə dair aşağıdakı fikri bu məsələnin aktuallığını lazımi dərəcədə işıqlandırır: «Paremiyaların yaranması prosesi mürəkkəb və çoxcəhətlidir. Ta qədim zamanlardan bəşər bədii fikrinin inkişafı, onun dini, əxlaqi, hüquqi anlayışları, məişət tərzi və başqa xüsusiyyətləri xalqın mənəviyyatının formalaşmasını səciyyələndirən amillərdir».

TƏLİM-TƏRBİYƏ PROSESİNDƏ DƏRSLİKLƏRİN ROLU

Babayeva R.S.
Bakı Slavyan Universteti
E-mail: rugayya.babayeva99@mail.ru

Dərslik təlim-tərbiyə prosesində mühüm tədris vasitələrindən biridir və həm tələbələrin, həm də müəllimlərin istifadəsi üçün nəzərdə tutulmuşdur. Müəllimlər dərslikləri tədris prosesində əsas vasitə hesab edirlər. Dərsliklər tələbələr üçün öyrənmə fəaliyyətini təmin edən tədris və ya öyrənmə vasitəsi kimi fəaliyyət göstərir. Bundan əlavə, o, həm məlumatlandırıcı, həm də zehni formalaşdıran bir vasitə kimi xidmət edir, çünki o, həm bilik verir, həm də səriştə, bacarıq və dəyərlərin inkişafına imkan yaradır. Tədris prosesində dərslik həm didaktik, həm də tədris səviyyəsində fəaliyyət göstərir.

Bundan əlavə, müstəqil öyrənmə və öyrənilən məzmunun möhkəmləndirilməsi üçün dərsliklər bir vasitə kimi çox vacibdir.Dərslik rəsmi olaraq məqsədəuyğun və obyektiv bilik mənbəyini təmsil etdiyi üçün sosial nəzarət mexanizmlərinə tabedir. Dərsliklərin açıq bazarı və dərslik ləvazimatlarının geniş çeşidi məktəb məkanının demokratikləşməsini tələb edir və dərsliklərin keyfiyyətinin müəyyən edilməsi üçün peşəkar meyarların işlənib hazırlanmasının vacibliyini vurğulayır. Onu da qeyd etmək lazımdır ki, müxtəlif dərsliklərdən istifadə edən müəllimlər müxtəlif didaktik strategiyalar həyata keçirirlər. Bundan əlavə, dərsliklər tədris materialının seçiminə təsir göstərir. Dərsliklərə daxil edilməyən mövzular sinifdə nadir hallarda müzakirə olunur, çünki müəllimlər daha çox onlardan bələdçi təlimat vasitəsi kimi istifadə edirlər.

Dərslikdən öyrənmək yalnız o zaman səmərəli ola bilər ki, o, tələbələr üçün uyğunlaşdırılsın, çünki bu, şagirdlərin effektiv öyrənmə strategiyalarından necə istifadə etməyi öyrənmələrinin yeganə yoludur. Müəlliflər həm tələbənin inkişaf mərhələsini, həm də qavrama səviyyəsini nəzərə alaraq dərslikləri tələbə ehtiyaclarına uyğunlaşdıra bilərlər. Dərsliklər qısa məzmunlu cümlələrlə, lazımsız əcnəbi sözlərdən uzaq, sadə və səliqəli dildə yazılmalıdır. Müxtəlif tapşırıqlar, suallar, xülasələr və yeni anlayışların lüğəti daxil olmaqla, dərslik şagirdlərin oxuduğunu başa düşməsini və daha böyük idrak qabiliyyətlərini təkmilləşdirir. Beləliklə, dərsliyin seçimi təkcə onun keyfiyyətindən deyil, həm də bir sıra digər amillərdən asılıdır, ən vacib amillərdən biri müəllimlərin öz iş üslubunu dərsliyin təklif etdiyi və ya tələb etdiyi tədris üslubuna uyğunlaşdırmaq istəyidir. Digər mühüm amil tələbənin dərsliyin keyfiyyətini tanımaq bacarığıdır.Keyfiyyətli didaktik dərslik hazırlamaq üçün müəlliflər müasir didaktika ilə yaxşı tanış olmalıdırlar. Onlar tədris-təlim prosesinin strukturu və onun prinsipləri ilə tanış olmalıdırlar. Onlar tədris-təlim fəaliyyəti prinsipinə əməl etməli və dərsliyi müxtəlif fəaliyyətlərlə təchiz etməlidirlər. Bu, tələbələrə öz fəaliyyətləri ilə biliyi qurmağa və öyrənmə üsullarını öyrənməyə imkan verir. Bundan əlavə, müəlliflər dərsliyin üz qabığının dizaynını, dilini, yazı tərzini, bədii və qrafik dizaynını nəzərə almalıdırlar. Dərsliklər elə yazılmalıdır ki, tələbələrə təhsilin məzmununu öyrənməyə kömək etsin və eyni zamanda digər təhsil mənbələrini tamamlayıb genişləndirsin. Dərslik düzgün didaktik tərtibata əsaslanarsa, müəllimlər dərslikdən təlim prosesinin bütün mərhələlərində səmərəli istifadə edə biləcəklər.Yeni təhsil məzmunu sinifdə müzakirə olunduqda dərsliyin əhəmiyyəti daha da artır. Təhsil məzmununun öyrənilməsinin məqsədi bilik əldə etməkdir. Buna görə də bu mərhələ diqqətlə və didaktik şəkildə tərtib edilməlidir. Məzmun tələbələri öyrənməyə həvəsləndirən, müəllimlərin göstərişlərini tamamlayan və genişləndirən şəkildə tərtib edilməlidir. Buna görə də dərslik müəllifləri arzu olunan bilik çərçivəsinə əməl etməli və onu məntiqi şəkildə tərtib etməlidirlər. Onlar əsas məqamları vurğulamalı və onları alt başlıqlar şəklində məntiqi ardıcıllıqla təqdim etməlidirlər ki, tələbələr bir baxışda əsas aktual məzmun strukturunu başa düşə bilsinlər.Tapşırıqlar və təhsil məzmununun nəzərdən keçirilməsi tədris-təlim prosesinin əlavə komponentlərindəndir. Dərsliyə əlavə iş və tapşırıqlar daxil edilməlidir ki, bu da şagirdlərə mənimsəməli olduqları tapşırıqları yerinə yetirməyə kömək edir. Biliklərin davamlılığını təmin etmək üçün dərsliklər tələbələrə öz biliklərini yenidən nəzərdən keçirməyə imkan verəcək şəkildə tərtib edilməlidir. Müəlliflər

müxtəlif şrift və çap növlərindən istifadə etməklə mətnin müəyyən hissələrinin əhəmiyyətini göstərə bilərlər. Bundan əlavə, ümumiləşdirmələr, xülasələr və qrafiklər formalaşdırmaqla nəzərdən keçirmək göstərilə bilər.

MƏTN ÜZRƏ İŞ: SİNTAKTİK-ÜSLUBİ PROBLEMLƏR

Bağırova N.Ə.
Bakı Slavyan Universiteti
E-mail: bagirovanurane0210@gmail.com

Qloballaşma, inteqrasiya, informasiya axını və innovativ meyllərin güclənməsi şəraitində Azərbaycan dili təliminin də problemləri artmaqda, bir çox məsələlər aktuallıq kəsb etməkdədir. "Yaddaş" məktəbindən "təfəkkür" məktəbinə keçid dövründə təlimin məzmun, strategiya və qiymətləndirmə meyarları ilə bağlı olan dəyişikliklər bütövlükdə təlim prosesinə yeni yanaşmalar tələb edir. Müasir dərs mətn üzərində qurulur və dinləyib-anlama, danışma, oxu, yazı məzmun xətləri üzrə aparılan işlərdə əldə olunan bacarıqlar şagirdlərin ümumi nitq mədəniyyətini formalaşdırır. Dil qaydaları isə bu formalaşmada vasitə rolunda çıxış edir. Dilçilik ədəbiyyatında, metodiki vəsaitlərdə şagirdlərin nitq inkişafına müsbət təsir edə biləcək dil faktlarına və praktik materiallara geniş yer verilir. Nəticə olaraq tərif və qaydaların necə mənimsənilməsi deyil, mənimsənilən qaydanın ümumi nitq inkişafına necə təsir göstərməsi əsas götürülür.

Müasir dərsliklərin məzmun və strukturu, mətnlərdən dil qaydalarına keçid bunu deməyə əsas verir ki, artıq qrammatik və üslubi normalar, qrammatik məzmun və formanı aydınlaşdıran nəzəri biliklər şagirdlərə ünsiyyəti formalaşdırmaq, mədəni nitqi inkişaf etdirmək üçün öyrədilir. Bu gün qaydanı bilmə yox, mətnqurmada həmin qaydalardan yararlanma bacarığı əsas götürülür və nəzəri biliklər də onu əsaslandıran nitq materialı tələb etməklə yanaşı, elə onun əsasında da mənimsənilir.

Ədəbi dilin normalarını mənimsətmək, şagird nitqini lüğət və qrammatik quruluş etibarı ilə zənginləşdirmək, onlarda fikirlərini şifahi və yazılı formada rabitəli təqdim edə bilmək səriştəsi formalaşdırmaq müasir Azərbaycan dili təliminin prioritetlərindəndir. Ədəbi dil özü qrammatik və üslubi normaları mənimsəməyə əsaslanan, nitq kompetensiyalarının formalaşmasını nəzərdə tutan ikitərəfli bir prosesdir. Bu proses birbaşa nitq inkişafının formalaşmasına təsir edir. "Nitq inkişafı üzrə aparılan işlərin əsas istiqamətlərindən biri də üslubiyyat üzrə aparılan işlərdir. Əslində üslubiyyat üzrə işlər təcrid olunmuş şəkildə deyil, lüğət üzrə, ədəbi tələffüz, cümlə qurmaq və rabitəli nitq vərdişlərinin inkişafı üzrə aparılan işlərlə bağlı şəkildə gedir və getməlidir". Bu gün dilin qrammatik vasitələrinin tam mənimsənilməsinin və mükəmməl nitq inkişafının hansı yaşda baş verdiyini, mənimsəmədə hansı qanunauyğunluq və meyillərə əsaslanıldığını, bütövlükdə Azərbaycan dili kursu tədrisinin nitq inkişafına təsirini, bunun üçün xüsusi təlimi şəraitin zəruri olub-olmadığını bilmək elə də asan məsələ deyildir. Bunları dəqiqləşdirmək üçün mətn üzrə işlərdə sintaktik-üslubi tapşırıqlara geniş yer vermək, funksional üslublardan ibarət kompozisiyalar hazırlanması işini gücləndirmək, dərsliklərdəki müştərək üslublu mətnlər (elmi-publisistik, bədii-publisistik və s.) üzərində ciddi metodiki iş aparamaq lazımdır. Biz bilirik ki, ümumtəhsil məktəblərində ifadəli nitq mətnin semantik (məna) təşkili və dil tərtibatı (dil qaydaları) ilə fərqləndirilir. Şagird, ilk olaraq, lüğəvi mənasınlı anladığı sözlərdən və qavradığı qrammatik məzmun və formalardan istifadə etməklə mətnlər qurur. Lüğət ehtiyatı, qrammatik məzmun və formaya aid nəzəri biliklər zənginləşdikcə mətn yaratma bacarıqları da artır, təkmilləşir. Şagird sintaksisi, üslubların nitq sistemindəki yerini dərindən dərk etdikdən sonra daha mükəmməl mətnlər qurmağı bacarır. Bu da dil vahidlərinin öz funksional və üslubi imkanlarını sintaktik səviyyədə daha dolğun göstərməsi ilə əlaqəlidir.

Bununla belə, sintaktik-üslubi aspektdə mətn (hekayə, esse, inşa, məktub, rəy və s.) hazırlanması metodikası, onunla bağlı nitq inkişafı məsələləri həm nəzəri, həm də praktik cəhətdən kifayət qədər inkişaf etdirilməmişdir. Bu gün də şagirdlər müəyyən üslubi-sintaktik kompozisiyaya malik mətnlər qurmağın linqvistik şərtlərini, mətnqurmanın prinsip və metodlarını, müxtəlif üslublu mətnlərin xüsusiyyətlərini, üslubiyyatın sintaksislə inteqrasiyası yollarını dəqiq müəyyənləşdirə bilmirlər. Bədii, elmi, publisistik mətnlər üzrə işlərdə şagirdlərin rastlaşdığı çətinliklər, şagird yazılarındakı üslubi səhvlərin növləri dəqiqləşdirilməmişdir.Dərsliklərdə üslubi sintaksisi və funksional üslubların xüsusiyyətlərinimöhkəmləndirməyə xidmət edən çalışmalar azlıq təşkil edir.Şagirdlərdə mətnqurma bacarığının formalaşdırılması mövcud mətnlər üzrə işləri də metodiki cəhətdən düzgün təşkil etməyə imkan yaradır və perspektivdə nitq inkişafının təkmilləşməsinə də kömək edir. Bu əhəmiyyətli məsələ bir növ rabitəli və ifadəli nitq inkişafı ilə bağlı nəzəri problemlərin də bazasını təşkil edir. Bu məsələnin bir aktuallığı da

ondadır ki, prosesin gedişində uşaqların nitq xüsusiyyətləri, müxtəlif üslublu mətnlər qurma bacarıqları müəyyənləşir və formalaşma prosesinin özü tədqiqat predmetinə çevirilir.

Müasir Azərbaycan dili təliminin əsas məqsədlərdən biri şagirdlərin rabitəli nitqini inkişaf etdirməkdir və bu problemi həll etmək üçün, ilk növbədə, ifadəli nitqin leksik, sintaktik-üslubi xarakteri müəyyənləşməli, onun elmi-metodiki əsasları yaradılmalıdır. Bizə belə gəlir ki, bunun üçün aşağıdakı məsələlər diqqət mərkəzində saxlanılmalı və elmi-metodiki işlər də bu istiqamətdə aparılmalıdır:

- İbtidai sinif səviyyəsindən başlayaraq nitqin üslubi imkanları ilə bağlı ilkin məlumatlar verilməli, şagird heç olmasa elmi, bədii, funksional-işgüzar mətnləri fərqləndirməyi bacarmalıdır;
- İbtidai təlimin sonunda şagird məzmun xətləri üzrə təlim nəticəsi olaraq üslubi tələblər baxımından özünün və başqasının yazısını təşkmilləşdirməli, qrammatik-semantik xüsusiyyətləri gözləməklə sözlərdən üslubi imkanlarına görə istifadə etməli, bütövlükdə mətnin tərtibatına və üslubuna uyğun düzgün yazı bacarıqları nümayiş etdirməlidir.
- Tam orta təhsil səviyyəsi üzrə şagird mətnləri üslubi-struktur xüsusiyyətlərinə görə təhlil edib qiymətləndirməli, müxtəlif üslubi mətnlər qurmalı və məruzə, təqdimat, senarilər hazırlamağı bacarmalıdır.
- Sintaktik konstruksiya, üslubi sintaksis və nitqin funksional üslubları ilə bağlı üslubi səhvlər dəqiqləşdirilməlidir.
- Şagirdlərin müxtəlif nitq üslubunda mətn yaratma bacarıqlarını müəyyən edə bilən üslubi konsepsiyalar sistemi yaradılmalı və nitq inkişafı ilə bağlı dərslərdə istifadə edilməlidir.
- Şagirdlərin yazılı nitqinin sintaktik quruluşunun formalaşması proseslərinin təsviri və izahı verilməlidir;
- Şagird nitqinin sintaktik quruluş və üslubi məzmunca zənginləşməsinə kömək edən tapşırıqlar tərtib olunmalıdır;
- X-XI sinif üslubiyyat məşğələləri VIII-IX sinif sintaksis təlimi ilə inteqrasiyada aparılmalıdır.

Elmi-metodiki işlərin bu istiqamətdə qurulması sintaktik vahidlərin üslubi xüsusiyyətlərini aydınlaşdırmağa imkan verməklə bərabər, şagirdlərin nitqinin sintatik strukturunu da xeyli zənginləşdirər və onlar çətinlik çəkmədən nitq üslublarına aid müxtəlif kompozisiyalar qurarkən sintaktik konstruksiyalardan səmərəli istifadə edər, esse, inşa, referat, rəy yazmaqda, senarilər qurmaqda çətinlik çəkməzlər.

MÜXTƏLİF YAŞLI UŞAQLARDA ZAMAN TƏSƏVVÜRLƏRİNİN FORMALAŞDIRILMASININ ELMİ-NƏZƏRİ ƏSASLARI

Bağışova X.S.
Bakı Slavyan Universiteti
E-mail: xbagishova@gmail.com

Müasir cəmiyyətdə hər şey zamanın dəqiq hesablanması üzərində qurulur. Artıq təxminən 4 yaşında uşaqlar zamanın xüsusiyyətlərini öyrənirlər. Lakin zaman anlayışı zehni inkişaf və təcrübədən asılı olduğu üçün həyatın ilk 6 ilində formalaşır. Bu dövrdə uşaqlar fiziki, zehni, emosional və sosial baxımdan sürətlə irəliləyirlər.Uşaq böyüdükcə ətrafda gördüyü hər şeyi zehnində qeyd edir, aydınlaşdırmağa və təsnif etməyə başlayır. Anlamaq bacarığını formalaşdırmaq üçün konkret (görünən) anlayışlardan başlayır. Onlar üçün abstrakt anlayışları öyrənmək daha çətindir. Mücərrəd məlumatları konkretləşdirərək öyrənməyə çalışırlar.

Zamanın xüsusiyyətləri aşağıdakılardır: axıcılıq (dayandırıla bilməz); geri dönməzlik (geri qaytarıla bilməz); davamlılıq (ayrı-ayrı elementlərə bölünə bilməz); görmə qabiliyyətinin olmaması (uşaqlarda əsas çətinliklərə səbəb olur).Keçmişi öyrənmək uşaqlar üçün daha asandır. Kiçik yaşlı uşaqlar bu gün və sabah zaman anlayışını öyrənməkdə çətinlik çəkirlər. “Müəyyən vaxtdan sonra” sözlərinin mənası uşaq üçün məna kəsb etmir, çünki onun zehni yetkin deyil. Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Məktəbəqədər təhsil proqramında (kurikulum)" qeyd olunan zamanla bağlı anlayışlar belədir: Əvvəl, indi, sonra - Gecə, gündüz - Səhər, günorta, axşam - Dünən, bu gün, sabah.Zamanı ölçmək üçün mütəmadi olaraq təkrarlanan hadisələr əsas götürülür: gecə və gündüzün dəyişməsi, Ayın fazalarının dəyişməsi, fəsillərin dəyişməsi, Yer kürəsinin öz oxu ətrafında gündəlik fırlanması, Ayın Yer ətrafında hərəkəti və Yerin Günəş ətrafında hərəkəti və s.

Uşaqlara zaman anlayışı öyrədərkən onların yaşına uyğun planlar hazırlanmalıdır. Daimi yuxu və qidalanma vərdişləri həyatın ilk illərindən qazanılmalıdır. Bunlar hər gün ardıcıl olaraq edilməli olan şeylərdir. Yeməkdən əvvəl və sonra, yuxudan əvvəl və sonra tərifləri ilə uşağa nə etməli olduğu öyrədilməyə çalışılır.

Gecə və gündüz bir-birindən fərqlənən anlayışlardır. Onlar dərs zamanı istinad kimi götürülür. Dünən, bu gün və sabah anlayışları uşağın öz təcrübələri ilə öyrədilə bilər. Dünən oynadığımız oyun, bu gün gedəcəyimiz səfər, sabah evə gələcək qonaq zaman göstərən məfhumlar həyata keçirilərək idarə olunur. Zamanın necə keçdiyini ifadə etmək üçün klassik saatların saat və dəqiqə əqrəbləri qısa və uzun (böyük, kiçik) tərifi ilə öyrədilir.Müxtəlif oyun fəaliyyətlərində də uşaqlara zaman anlayışını uşaqların anlaq səviyyələrinə uyğun öyrədilməyə çalışılır. Belə ki, saat üzərində qurulumuş oyunlarda böyük və kiçik əqrəbin hansı rəqəm üzərində dayandığını göstərməklə uşaqlarda sadə riyazi təsəvvürləri inkişaf etdirmək və onlarda zaman anlayaşını formalaşdırmaq mümkündür. Kiçik uşaqlarla saat anlayışını planlaşdırarkən, 10 dəqiqə sonra və ya bir saniyə əvvəl kimi vaxt şərtləri onlar üçün çaşqınlıq yaradır. Uşağın konkret şəkildə görə bildiyi saatı göstərməklə verilən tərifler zamanın necə keçdiyini anlamasını asanlaşdıracaq. Uşaqların vaxtdan istifadə vərdişlərini mənimsəməsi 10-12 il çəkir. Bu yaşda uşaqlar zamanla bağlı planlaşdırma səviyyəsinə çatırlar. Beləliklə, vaxt uşaq tərəfindən dolayı yolla, həyat və fəaliyyətin daim təkrarlanan hadisələrində zaman vahidlərinin və münasibətlərinin konkretləşdirilməsi yolu ilə dərk edilir. Buna görə də, uşaqları elə vaxt intervalları ilə tanış etmək lazımdır ki, onların hərəkətlərinin, müxtəlif fəaliyyətlərin müddətini, ardıcıllığını, ritmini ölçmək və müəyyən etmək üçün istifadə edilməsi mümkün olsun.

İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ KOMMUNİKATİV KOMPETENSIYASININ İSTİFADƏSİ

Bəbişova E.M.
Bakı Slavyan Universiteti
E-mail: bebisovae@gmail.com

Kommunikativ kompetensiyanı necə öyrətmək və ya öyrətməmək məsələsi ilə məşğul olanda ilk növbədə kommunikativ kompetensiyanın nə olduğunu müəyyənləşdirməliyik. Təəssüf ki, ümumilikdə kompetensiya anlayışı ilə bağlı müzakirələrdə olduğu kimi, vahid tərif yoxdur. Kommunikativ kompetensiya sosial məqsədə uyğun şəkildə kommunikativ məqsədlərə nail olmaq bacarığıdır. O, mütəşəkkil və məqsədyönlüdür, yəni müvafiq kontekstdə uyğun və effektiv olan bacarıqları seçmək və tətbiq etmək bacarığını ehtiva edir. Buraya şifahi və şifahi olmayan davranışlar daxildir. Kommunikativ kompetensiyanın tətbiqi ardıcıl xarakter daşıyır, yəni müxtəlif proseslər və fəaliyyətlər tipik ardıcıllıqla əlaqələndirilir və müvafiq vaxt və xüsusi davranışa nəzarət tələb olunur. Bu, digər şəxsin davranışından və kontekstdən təsirlənir və hamının xeyrinə digər şəxslə ünsiyyətə hazır olmağı və istəyi tələb edir. Kommunikativ kompetensiya əldə edilə bilər, yəni lazımi bacarıqlar təkrar, əks olunan təcrübə və təcrübədən sitat gətirməklə addım-addım formalaşır. Xarici dil kimi ingilis dilində kommunikativ kompetensiyanın inkişaf etdirilməsi öyrənənlərin nail olmaq üçün mübarizə apardıqları məqsəddir. Belə bir məqsədə nail olmaq müəllimlərdən, tədris planlarından, tədris şəraitindən, mühitdən və öyrənənlərin özləri ilə bağlı bir çox amillərdən asılıdır. Bir çox öyrənmə strategiyaları və ya fəaliyyətlər var ki, onlar adətən dil öyrənməni gücləndirmək üçün seçilir. Dil öyrənməni gücləndirən bu fəaliyyətlər adətən ünsiyyətə əsaslanan fəaliyyətlər və tapşırıq əsaslı fəaliyyətlərdir. Bu fəaliyyətlər adətən kommunikativ kompetensiyanın inkişafında və bu dilin istifadəsindən daha çox dil və onun strukturlarına aid olan təqlid, yadda saxlama və təkrarlama strategiyaları ilə müqayisədə ünsiyyət bacarıqlarının təmin edilməsində böyük rol oynayır. Müəllimlər başa düşməlidirlər ki, sinif otağı İngilis dili öyrənənlər üçün ingilis dilini məşq etmək və onunla tanış olmaq üçün yeganə yerdir. Uşaqlar adətən öz ana dilində ünsiyyət bacarıqlarını onları əhatə edən ana dili ilə tanışlıq yolu ilə inkişaf etdirdiklərinə görə, xarici dil öyrənəndə sinif saatları istisna olmaqla, xarici dil kontekstində hədəf dillə tanış olmaq üçün belə imkanlar yoxdur. Buna görə də müəllimlər şagirdləri cütlük və qruplar şəklində söhbət etməyə təşviq etməlidirlər. Bu fəaliyyətlər tələbələrin kommunikativ kompetensiyasının yetişdirilməsində yüksək dəyərə malik olduğunu sübut etdi, çünki onlar tələbələrə daha çox məruz qalma imkanları verir və onların dillərinə inamlarını artırmağa və dil narahatlığını aradan qaldırmağa kömək edir. Özünə inam yaratmaq və dil narahatlığını aradan qaldırmaq dilin mənimsənilməsini asanlaşdıracaq, çünki bu iki amil dil mənimsənilməsinin əsas maneələri hesab olunur.

QRAMMATİK QOŞMALARA DAİR BƏZİ MÜLAHİZƏLƏR

Bədəlova G.A.
Bakı Slavyan Universiteti
E-mail: bdlovagultac@gmail.com

Köməkçi nitq hissələrindən olan qoşma sözlər arasında əlaqə yaratmaqla yanaşı,qoşulduğu sözə məna çaları aşılayır. Qoşmanı digər köməkçi nitq hissələrindən fərqləndirən əsas cəhətlərdən biri onun qoşulduğu sözlə birlikdə cümlə üzvü olmasıdır və şəkilçi qəbul etməsidir. Qoşmaların hamısının ümumi qrammatik mənası var. Ancaq bu mənaların reallaşmasında qoşmaların aid olduğu sözlərin mənası da əsas rola malikdir. Məsələn, kimi qoşması aid olduğu nitq hissəsindən asılı olaraq müqayisə, zaman, məkan, tərz mənaları bildirir. Qoşmaların bəziləri bir-birinin sinonimi kimi işlənir.

1.Kimi və qədər qoşmaları:
1.O, məktəbə kimi getdi
2.O, məktəbə qədər getdi
2.Sarı və doğru qoşmaları:
1.O, parka sarı gedirdi
2.O, parka doğru gedirdi
Bu da göstərir ki, qoşmaların qrammatik məna qrupları arasında fərq qoymaq olmaz.
1.Qoşmaların məkan münasibəti bildirməsi:
Qədər,-dək,-cən[2],sarı
2.Qoşmaların zaman münasibəti bildirməsi:
-dək,cən,qədər,sonra,əvvəl.
3.Qoşmaların müqayisə bildirməsi:
Kimi,tək
4.Qoşmaların səbəb və məqsəd bildirməsi:
Üçün,ötrü,görə

DRAM ƏSƏRLƏRİNİN ORTA MƏKTƏBLƏRDƏ TƏDRİSİ

Bədəlova K.F.
Bakı Slavyan Universiteti
E-mail: konulbadalova099@gmail.com

Orta məktəbdə janr etibarı ilə müxtəlif əsərlər öyrədilir. Burada çox qədim tarixə malik olan müxtəlif folklor nümunələri ilə yanaşı, yazılı ədəbiyyatdan epik, lirik və drammatik əsərlər də tədris edilir.

Dram əsərlərinin tədrisi metodikası lirik və epik əsərlərin öyrənilməsi və təhlili üsullarından müəyyən dərəcədə fərqlənir. Məlumdur ki, bütün dram əsərlərini eyni üsulla tədris etmək mümkün deyil. Bunun əsas səbəbi dram əsərlərinin tamamilə səhnə sənəti ilə bağlı olmasıdır. Dram eposla lirikanın birləşməsindən əmələ gəlsə də, nə epik, nə də lirik əsərdir, müstəqil bir ədəbi növdür. Ancaq "ədəbi cəhəti ilə söz sənətinə, o biri cəhəti ilə səhnə sənətinə mənsubdur". Buradan dramın özünəməxsus cəhətləri meydana çıxır.Dram əsərlərinin şagirdlərə mənimsənilməsi üçün müxtəlif metod və üsulları düzgün seçmək və tətbiq etmək lazımdır. Bununla da şagirdlər axtarışa sövq edilməlidir. Bu cür dərsləri üç mərhələdə qurmaq məqsədəuyğundur: 1. Məlumatın fərdi olaraq araşdırılması; 2. Əldə edilmiş məlumatın çatdırılması; 3. Əldə edilmiş məlumatın tətbiqi. Öncəliklə şagirdlər keçiləcək yeni mövzu haqqında əvvəlcədən müəllim tərəfindən məlumatlandırılır. İKT-nin imknlarından istifadə etməyi bacaran şagirdlər axtarışa cəlb edilir. Sonrakı mərhələdə şagirdlər əldə etdikləri məlumatlarla sinifdə müzakirələr aparırlar. Daha sonra şagirdlər əsəri müzakirə edir, düşündürücü suallar verir, mövzunu daha geniş dairədə mənimsəyirlər. Bu mərhələlərin yerinə yetirilməsi şagirdlərdə yaradıcı təfəkkürün inkişafına şərait yaradır. Müəllim dram əsərini tədris edərkən əvvəlcə müəllifin həyat və yaradıcılığı haqqında məlumatı maraqlı qurmalıdır ki, şagirdlərdə keçilən mövzuya maraq daha da artsın. Bir dərsdə bir neçə fənnə inteqrasiya şagirdlərin həyati əhəmiyyətli bilik qazanmalarına, şəxsiyyətinin formalaşmasına imkan yaradır. Rollu oyunlar əsərin daha mükəmməl dərk edilməsinə yol açır. Müəllim dram əsərlərində şagirdlər obrazların xarakterlərini canlandırarkən, obrazların xarakterini, danışıq tərzini, səsini,

mimikasını, bədii portretini diqqət mərkəzinə çəkməlidir. Rollu oyunlar əsərin daha mükəmməl dərk edilməsinə yol açır.

CƏLİL MƏMMƏDQULUZADƏNİN QORİ MÜƏLLİMLƏR SEMİNARIYASINDA TƏHSİLİ

Bədəlova N.P.
Bakı Slavyan Universiteti
E-mail: nezrinbedelova.2000@gmail.com

Dahi sənətkar Cəlil Məmmədquluzadənin dünyagörüşünün formalaşmasında Qori müəllimlər seminariyasında oxuduğu illərin çox böyük əhəmiyyəti var. Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin müfəttişi A.O.Çernyayevski seminariyaya tələbə toplamaq üçün Azərbaycanın bir çox rayonlarını gəzir və orada oxumaq istəyənləri siyahıya alırdı. A.O.Çernyayevski bu məqsədlə 1882-ci ildə Naxçıvana gəlir və seminariyada təhsil alması üçün Cəlil Məmmədquluzadənin adını da siyahıya qeyd edir. Əslində onu bu məktəbdə oxumağa yönləndirən müəllimi Əliməmməd Xəlilov olmuşdur. Cəlil bütün qəbul imtahanlarını uğurla verir və 1882-ci ilin avqust ayında aşağı hazırlıq sinfində dərslərə başlayır. Ədibin həm aşağı, həm də yuxarı hazırlıq siniflərində nəticələri yaxşı olmuşdur. Bununla bağlı olaraq Professor Əziz Şərif onun hazırlıq siniflərindəki müsbət nəticələrindən danışmış və beləliklə, 30 oktyabrda seminariyanın birinci əsas sinfinə keçdiyini qeyd etmişdir. Lakin, həmin dövrdəki sərt rejim, habelə seminariyada təhsil alanların ana dilində danışmaqdan, ətraf mühitlə əlaqə saxlamaqdan məhrum qoyan qaydaların olması əsas sinifdə təhsil alan Cəlilin qiymətlərinin aşağı düşməsinə səbəb olur.Ədibin bədii zövqünün, yaradıcılıq bacarıqlarının formalaşmasında 5 il müddətində təhsil aldığı, Müəllimlər Seminariyasındakı fəalliyyəti mühüm mərhələ təşkil etmişdir. O, burada Azərbaycan və Şərq ədəbiyyatından fərqli olaraq, həmçinin rus, Avropa xalqlarının mədəniyyəti, elmi, pedaqoji təlim üsulları ilə tanış olmuşdur. Seminaristləri dünya ədəbiyyatı nümunələri ilə tanış etmək və onlarda tərcümə vərdişlərini formalaşdırmaq üçün seminariyada başqa fənlərlə yanaşı, tərcümə dərslərinə də müəyyən qədər yer verilirdi. Seminariyada təhsil aldığı müddət ərzində gənc Cəlil orada təşkil olunmuş tədbirlərdə fəallıq göstərmiş, həvəskar aktyor kimi teatr tamaşalarında səhnədə çıxış etmişdir. Bununla bərabər, sınaq dərslər üçün icmallar hazırlamış, ədəbi gecələr üçün ssenarilər yazmışdır. Gimnaziyanın ikinci sinfində oxuyarkən S.Vəlibəyovun rəhbərliyi ilə ibtidai sinifdə müəllimlik təcrübəsi keçir.Bütün bunlar ədibin dünyaya baxışında əsaslı dönüş yaratmışdı. Və nəhayət, Qori Seminariyasının sərt, ciddi ab-havasında o, gələcək fəaliyyətində ona böyük kömək və dəstək olan dostlar, həmfikirlər tapdı. Qori Müəllimlər Seminariyasında oxuduğu illər gənc Cəlil Məmmədquluzadəni yetkinliyə hazırlayıb.

CƏLİL MƏMMƏDQULUZADƏNİN DİNƏ MÜNASİBƏTİ

Bədəlova N.P.
Bakı Slavyan Universiteti
E-mail: nezrinbedelova.2000@gmail.com

Dövrünün tanınmış ziyalısı M.F.Axundov kimi böyük demokrat Cəlil Məmmədquluzadə də İslam dininin və onun təbliğatçılarının, vasitəçilərinin, ona inanan sadə insanların məruz qaldığı rəzalətlər barədə öz fikir və mülahizələrini bildirməkdən çəkinməmişdir. O, Naxçıvanın dini mühitində, dindar ailəsində böyüməsinə baxmayaraq, o, İslam dininə, daha doğrusu, Allaha münasibətdə çox kəskin mövqe tutub, sərt çıxışlar edib. Çoxlarının deməyə cəsarət etmədiklərini o, çəkinmədən, qorxmadan söyləyirdi. C.Məmmədquluzadə göstərir ki, İslam ehkamının Allaha aid etdiyi sifətlər Allahın müsbət mahiyyətini deyil, mənfi mahiyyətini müəyyən edir, çünki bu sifətlərin heç biri müsbət dəlillərin köməyi ilə isbat edilə bilməz.

C.Məmmədquluzadənin bədii nəsrində, xüsusən, dramaturgiyasında və publisistikasında o dövrdə Şərqin geridə qalmış ölkəsi olan İranın həyatının təsviri böyük yer tutur. Ədib İranın həyat və məişətini, dövlət idarəçiliyini, dini ayin və mərasimlərini, azərbaycanlıların adət-ənənələrini dərindən və hərtərəfli bilirdi. Janrından asılı olmayaraq onun bu mövzuda yazdığı əsərlər realizmi, canlılığı, güclü şərq ləzzəti ilə seçilirdi. Yazıçının yaradıcılığında İran-Azərbaycanın gündəlik həyatını, despotizmi, dini xurafatların doğurduğu geriliyi, ətalət və fanatizmi əks etdirən mütləqiyyət rejiminin tənqidi geniş yer tutur.

Molla Nəsrəddin" jurnalı və Mirzə Cəlilin başda olmaqla onun yaradıcı kollektivi xalqın azadlıq mübarizəsini rəğbət və məhəbbətlə müşahidə və tərənnüm edir, çarizmi, despotizmi, geriliyi alovlu satirik gülüşlərlə tənqid edirdi. Rəvayətə görə İran müctəhidi tərəfindən Mirzə Cəlilə qarşı kafirlik fətvası verilmişdir. Həmin fətva nüsxə edilərək Qafqaza göndərilmiş,lakin mollanın tərəfdarlarından biri bu fətvaları tamojnada saxlamış, yayılmasına icazə verməmişdir. "Molla Nəsrəddin" jurnalı 25 il ərzində xurafat, mövhumat əleyhinə təbliğat aparmışdır."Danabaş kəndinin əhvalatları", "Dəli yığıncağı", "Ölülər" kimi əsərləri vasitəsilə Cəlil Məmməd- quluzadə xalqda ateist şüuru oyadır, ruhaniniliyə qarşı nifrət yaradırdı. Dahi ədib mövhumatın ictimai tərəqiyyə buxov olduğunu söyləyərək insanları sağlam ağıl əsasında düşünməyə çağırırdı. Bununla da o, sağlam düşüncəni mövhumata qarşı qoyur, bilik öyrənməyin insanın fəaliyyəti üçün faydalarından bəhs edirdi. Cəlili, fiktincə, elm insanları tərəqqiyə aparır, din isə onları başqalarından aslı vəziyyətə salır.

Mirzə Cəlilin yaradıcılığında namaz qılmaq, oruc tutmaq, moizəyə qulaq asmaq, müqəddəs yerləri ziyarət etmək, qurban kəsmək, məhərrəmdə baş yarmaq, şaxsey-vaxsey etmək kimi müxtəlif dini mərasimlərin icra edilməsinin tənqidini də əks etdiridi. Ədib bu mərasimlərin insanların vaxtını aldığını və onların daha faydalı fəaliyyətlərdən geri qalmasına səbəb olduğunu qeyd edirdi.Cəlil Məmmədquluzadənin dinə olan bu münasibəti XX əsrin əvvəllərində ictimai fikrimizdə din əleyhinə mübarizə ənənələrini zənginləşdirdi. Bununla da cəmiyyətin dini ideologiyadan azad edilməsində maarif və mədəniyyətin əhəmiyyəti ön planda göstərilmişdir.

HƏSƏN BƏY ZƏRDABİ MİLLƏT FƏDAİSI KİMİ

Bəşirli M.E.
Bakı Slavyan Universiti
E-mail: mujgan.beshirli@mail.ru

Həsən bəy Zərdabi 19-cu əsrin sonu və 20-ci əsrin əvvəllərində yaşamış azərbaycanlı jurnalist və naşirdir. O, mütərəqqi ideyaları təbliğ etmək, ölkədə ictimai-siyasi dəyişiklikləri həyata keçirmək məqsədi daşıyan Azərbaycan maarifçilik hərəkatının əsas simalarından biri olmuşdur.Zərdabi ənənəvi və mühafizəkar ailədə böyümüş, lakin təhsili və səyahətləri ilə eyni zamanda mütərəqqi və islahatçı ideyalarla tanınmışdır. O, jurnalistikaya, elmi və mədəni biliklərin təbliğinə güclü maraq göstərmiş və Azərbaycanda siyasi və sosial dəyişikliklərin tərəfdarı olmuşdur.O, özünün "Əkinçi" qəzetindən mütərəqqi ideyaları təbliğ etmək, təhsil, səhiyyə və sosial ədalətdə islahatlara çağırmaq üçün istifadə edirdi. O, həmçinin qadınların hüquqlarını təbliğ etmək və mühüm sosial və siyasi məsələlər haqqında maarifləndirmə işində də çalışmışdır. O, Azərbaycanda ümumbəşəri təhsilin təşviqi və təhsilin keyfiyyətinin yüksəldilməsi, xüsusən də qadınlar və kənd əhalisinin savadlanması üçün əlindən gələni etmişdir.Zaman keçdikcə Zərdabinin baxışları təkamülləşərək daha da radikallaşıb. O, sosialist ideyalarının, fəhlə və kəndlilərin hüquqlarının müdafiəçisi oldu. O, həm də dini mühafizəkarlığın və ənənəvi sosial normaların güclü tənqidçisinə çevrildi və Azərbaycan cəmiyyətində daha çox tolerantlığın və dünyəviliyin təbliğinə çalışdı.Zərdabi irsi bu gün də Azərbaycanda hiss olunmaqda davam edir. O, mütərəqqi ideyaların müdafiəçisi və Azərbaycan jurnalistikasının qabaqcıllarından biri kimi yadda qalıb. O, yaradıcılığı ilə Azərbaycanın ictimai-siyasi və fəlsəfi mənzərəsinin formalaşmasına, ölkənin daha açıq, mütərəqqi və demokratik gələcəyinin əsasının qoyulmasına kömək etmişdir. Zərdabi Azərbaycan jurnalistikasının qabaqcıllarından biri hesab olunur.

Həsən bəy Zərdabi 1875-ci ildə "Əkinçi" qəzetini yaradıb və ondan mütərəqqi ideyaların təbliği, mühüm ictimai-siyasi məsələlər barədə maarifləndirmə platforması kimi istifadə etmişdir. O, öz fəaliyyəti ilə Azərbaycan mətbuatının formalaşmasına, jurnalistikanın ölkədə dəyişiklik üçün güclü qüvvə kimi formalaşmasına kömək etdi.Həsən bəy Zərdabi öz dövrünün digər ziyalıları və mütərəqqi mütəfəkkirləri ilə sıx əməkdaşlıq etmiş, Azərbaycan cəmiyyətində dəyişikliklərin və islahatların təşviqinə həsr olunmuş həmfikir şəxsiyyətlər şəbəkəsinin qurulmasına kömək etmişdir. O, Azərbaycan Elmi Cəmiyyətinin təsisçi üzvü olub, Azərbaycanda təhsilin və elmi tədqiqatların təbliğində mühüm rol oynayıb. Zərdabinin ideya və yazıları Azərbaycan mədəniyyətinə və cəmiyyətinə böyük təsir göstərmişdir. Zərdabi həm də məhsuldar yazıçı olub və onun ədəbi əsərləri Azərbaycan ədəbiyyatına verdiyi töhfələrə görə geniş şəkildə tanınır. Onun əsərləri tarix, siyasət, təhsil və mədəniyyət kimi geniş mövzuları əhatə edir və o, öz ideya və baxışlarını təbliğ etmək üçün yazılarından bir platforma kimi istifadə edirdi. Onun bir çox ədəbi əsərləri bu gün də çox oxunur və Azərbaycan yazıçılarının və ziyalılarının yeni nəsilləri üçün mühüm ilham mənbəyi olmaqda davam edir.

O, özünün "Əkinçi" qəzetindən təhsili təbliğ etmək, azərbaycanlıları bilik və öyrənməyə həvəsləndirmək üçün bir platforma kimi istifadə edirdi.O,qəzetdə bir çox məsələlərə toxunmuşdur.Bu məsələlərdən biri də,əlifba məsələsidir.Qəzetin 2 fevral 1877-ci il buraxılışında ərəb əlifbasının çətinliyini qeyd edir.Çünki,burada bir çox hərflər oxşardır.Bu da çətinliklər yaradır.İnsan biliyi təkcə məktəbdə öyrənməz.Məktəbdən əlavə də biliyi artırmaq üçün qəzet və jurnallar olmalıdır.Məktəb işin ibtidasidir. Onun təhsilin təşviqində göstərdiyi səylər Azərbaycan məktəblərinin və universitetlərinin inkişafı üçün əsasların qoyulmasına kömək etdi və o, Azərbaycan təhsil tarixində mühüm şəxsiyyət olaraq qalır.Zərdabi həm də qadın hüquqlarının güclü müdafiəçisi idi və qadınların kişilərlə bərabər hüquq və imkanlara malik olmasına inanırdı. Zərdabi irsi Azərbaycanda geniş şəkildə qeyd olunur, onun Azərbaycan cəmiyyətinə və mədəniyyətinə verdiyi töhfələr geniş şəkildə tanınır. Zərdabinin irsi beynəlxalq səviyyədə tanınıb, onun Azərbaycan cəmiyyətinə və mədəniyyətinə verdiyi töhfələr bütün dünyada alimlər, jurnalistlər və hüquq müdafiəçiləri tərəfindən qeyd olunub. Onun irsi Azərbaycan tarixinin və mədəniyyətinin mühüm bir hissəsi olmaqda davam edir və azərbaycanlıların və bütün dünyada insanların yeni nəsillərini ruhlandırmaqda davam edir.

AZƏRBAYCAN MİLLİ MƏTBUATININ İLK QƏZETİ "ƏKİNÇİ"

Bəşirli M.E.
Bakı Slavyan Universiti
E-mail: mujgan.beshirli@mail.ru

"Əkinçi" Azərbaycan ədəbi dilinin və milli publisistikasının inkişafında mühüm rol oynayan Azərbaycan dilində qəzet idi. Qəzet ilk dəfə 1875-ci ildə işıq üzü görüb, Azərbaycan ziyalılarının, yazıçılarının dövrün müxtəlif ictimai-siyasi problemlərinə münasibət bildirmələri üçün mühüm platforma olub.Qəzetin ilk buraxılışında "Daxiliyyə" adlanan hissədə qəzetin buraxılma səbəbləri və hansı fəsillər olacağı qeyd edilir.Birinci fəsil "daxiliyyə"adlanır ,yəni qəzetin "münşisinin"tərəfindən yazılan məlumatlar nəzərdə tutulur.İkinci fəsildə əkin və ziraət xəbərlərinə yer verilmişdir.Burada əkinlərdən ,əkin işi zamanı lazım olan avadanlıqlardan,əkin yerini qüvvətli etmək istifadə olunan metodlardan bəhs olunur.Üçüncü fəsildə elm xəbərlərinə yer ayrılmışdır bəhs olunur.Dördüncü fəsildə isə,təzə xəbərlərə yer verilmişdir. Həsən bəy Zərdabi o qədər millət fədaisi,millətini sevən bir kəs olmuşdur ki,hətda kəndlilərin daha çox məhsul götürməsi,daha az əziyyət çəkmələri üçün "Əkinçi" qəzeti vasitəsilə məsləhətlər də vermişdir.Məsələn,süddən yaxşı qaymaq yığmaqdan ötrü nə edilməlidir,qatığın yaxşı alınması üçün hansı qabda saxlanılmalıdır və s.

"Əkinçi" öz məqalələri ilə müasir ədəbi dilin yaranmasına, Azərbaycan milli jurnalistikasının inkişafına köməklik göstərmişdir. Qəzet həm də 19-cu əsrin sonlarında Azərbaycan millətçiliyinin oyanışına töhfə verərək, Azərbaycan milli kimliyinin və mədəniyyətinin təbliğində rol oynayıb.Həsən bəy Zərdabi qəzetin bir nömrəsində qeyd etmişdir ki,qəzetlər hər bir xalqın aynasıdır.Ona görə də xalqın bütün nümayəndələrinə öz dərdini onlara bildirməyə çağırırdı. Onun şikayət olduğu mövzulardan biri də "Əkinçi" qəzetində danışılan mövzulardan bəzi ziyalıların xəbəri olsa da,səslərini çıxarmamaqları,mübahisəyə çıxmamaqlarıdır.Zərdabi bildirmişdir ki,onlar burada qaldırılan mövzularla bağlı mübahisəyə qalxsalar bu daha yaxşı nəticə verər.Zərdabi təkcə "Əkinçi"nin nəşr olunması,dəstək olunmasını istəmirdi,başqa qəzetlərin çap olunmasına da çağırışlar edirdi.Təki,xalq cahillikdən yaxa qurtarsın.Müsəlman əhli 500 ildən artıqdır ki,zülmətə qərq olub,elmdən və dünyadan bixəbərdir. O məhz bu mənfilikləri aradan qaldırmaq üçün canla-başla səy göstərirdi.Bütün bunlara baxmayaraq Zərdabi bu qəzetin yaratdığı səs-küyü böyük sevinclə qeyd etmişdir. "Əkinçi" ictimai fikrin formalaşmasında təsirli olmuş, azərbaycanlılarda milli şüurun formalaşmasında əsas amil olmuşdur. Azərbaycan cəmiyyətində mütərəqqi ideyaların yayılmasına, sosial-siyasi islahatların təşviqinə kömək etdi. Qəzet Azərbaycan ədəbiyyatının inkişafında da rol oynamış, yeni ədəbi janrların, formaların təqdim olunmasına kömək etmişdir.Bütövlükdə, "Əkinçi" Azərbaycan tarixində mühüm nəşr olub, Azərbaycan ədəbi dilinin və milli jurnalistikasının inkişafına davamlı təsir göstərib. "Əkinçi" Azərbaycan ədəbi dilinin və milli publisistikasının inkişafındakı rolu ilə yanaşı, həm də Azərbaycan mədəniyyətinin və dilinin beynəlxalq aləmdə nüfuzunun yüksəlməsinə xidmət edib. Qəzet geniş oxunur və hörmət edilirdi, onun məqalələri və redaktor məqalələri bütün regionda ziyalılar və siyasi liderlər tərəfindən geniş sitat gətirilir və müzakirə edilirdi."Əkinçi" yüksək keyfiyyətli yazısı və jurnalist dürüstlüyünə sadiqliyi ilə tanınırdı.Həsən bəy Zərdabinin 14 aprel 1876-ci ildəki nömrəsində qeyd etdiyi kimi qəzetin əsas məqsədi xalqın gözünü açmaqdır.Buna görə də,qəzet dərviş kimi nağıl danışa bilməz.Qəzetin borcu budur ki,nə var yaxşılığı və yamanlığı ilə xalqa ayna kimi göstərsin,xalq öz aqibətindən xəbərdar olub əlacını qılsın.Ancaq xalqına

baxanda Zərdabi bu cəhətləri onda görmürdü.Yalnız öz talelərinə boyun əymiş bir xalq görürdü və bunu da ürək ağrısıyla qeyd edirdi. Qəzetdə çoxlu istedadlı yazıçı və jurnalist çalışırdı, onlar nəşrdən mühüm ictimai və siyasi məsələlərin həlli, mədəni və intellektual mübadilənin təşviqi üçün platforma kimi istifadə edirdilər.Senzuranın və siyasi repressiyaların yaratdığı çətinliklərə baxmayaraq, "Əkinçi" 1877-ci ildəki son nömrəsinə qədər çapını davam etdirdi. Bununla belə, onun irsi yaşadı, bağlandıqdan sonra uzun illər Azərbaycan mədəniyyətinin və cəmiyyətinin inkişafına təsiri hiss olundu.Bu gün "Əkinçi" Azərbaycan tarixində mühüm nəşr, ifadə azadlığı və mədəni müstəqillik uğrunda mübarizənin simvolu kimi yadda qalıb.

MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ İNKLUZİV TƏHSİL

Cəlilova Z.F.
Sumqayıt Dövlət Üniversiteti
E-mail: zarifa.calil@gmail.com

Təhsil bütün cəmiyyətlərin ən zəruri komponentlərindəndir. Təhsil bir tərəfdən qabaqcıl texnologiyaların mənimsənilməsinə kömək edir, digər tərəfdən isə dəyərlər sistemini formalaşdırır. Müasir dövrümüzdə təhsil sferasında bu dəyərlər inkluziv təhsilin timsalında təzahür edir. Inkluziv təhsil təhsilin hər kəs üçün əlçatan olmasını nəzərdə tutan, bütün uşaqların müxtəlif ehtiyaclarına uyğunlaşdırılmasına əsaslanan inkişaf prosesidir. Bu proses xüsusi qayğıya ehtiyacı olan uşaqların da təhsilə cəlb olunmasını təmin edir. Azərbaycan BMT-nin " Əlilliyi olan şəxslərin hüquqları haqqında " Konvensiyasına qoşulmuş, həmin şəxslərin İnkluziv təhsilini təmin etmək barədə üzərinə öhdəliklər götürmüşdür. İnkluziv təhsil uşaqyönümlü metodologiyanı inkişaf etdirməyi hədəf götürür, bütün uşaqların təhsil prosesində müxtəlif ehtiyaclarının olduğunu qəbul edərək bu ehtiyacların təmin edilməsi üçün daha səmərəli yanaşmalar hazırlamağı tələb edir. Hər bir müəllim istər məktəbəqədər müəssisə, istər məktəblərdə çox fərqli təməl bilikləri ,bacarıqları, maraqları və öyrənmə ehtiyacları olan uşaqlarla çalışır. Inkluziv təhsilin həyata keçirilməsində uşaqyönümlü pedoqogika vacibdir. Əlilliyi olan uşaqların tədrisinə dair xüsusi pedoqogikanın özü də uşaqyönümlü pedoqogikaya əsaslanır.İnkluziv təhsil təhsilin bütün pillə və səviyyələrini əhatə etməklə hər kəsin bərabər təhsil almaq hüquqlarını təmin edir. Statistikaya əsasən, Azərbaycanda təxminən 65 minə yaxın sağlamlıq imkanları məhdud olan uşaq var. Onlardan yalnız 12 mini təhsilə cəlb olunub. 1105-i xüsusi məktəblərdə, 2664-ü xüsusi internat məktəblərində, 7750-si ev təhsili, 268-i inkluziv təhsil alır. Gördüyümüz kimi, təhsilə cəlb olunanların əksəriyyəti xüsusi internat məktəblərində təhsil alırlar. Belə təlim – tərbiyə uşağın diqqətini onun çətinlikləri üzərində cəmləyir. Onlar digər uşaqlarla ünsiyyətdə çətinlik çəkir. Özlərini cəmiyyətdən təcrid olunmuş hiss edirlər. Digər uşaqlar da sağlamlıq imkanları məhdud uşaqları gördükdə təəccüblənir və fərqli reaksiya verirlər. Bunun əsas səbəbi onlar arasında ünsiyyətin və əməkdaşlığın olmamasıdır. Bu cür problemlərin aradan qaldırılması üçün müasir dövrdə beynəlxalq əməkdaşlıq və elmi yanaşma nəticəsində inkluziv təhsilin effektiv istiqamətləri hazırlanıb. Hazırda bir çox ölkələrdə SİMU digər yaşıdları ilə birlikdə məktəbəqədər müəssisələrə və məktəblərə gedirlər. Bu prosesdə məsuliyyətin böyük bir hissəsi müəllim, tərbiyəçi və psixoloqların üzərinə düşür. Məktəbəhazırlıq prosesindən başlayaraq pedaqoq uşağı fiziki və mənəvi cəhətdən cəmiyyət tərəfindən müəyyən edilmiş vəzifələrə uyğun şüurlu fəaliyyətə hazırlamalıdır.

Xüsusi Təhsil Qanununa əsasən, məktəb və müəssisələrdə xüsusi ehtiyacı olan uşaqların təhsilində müvafiq üsul və metodlardan istifadə edilməlidir. İnklüziv təhsilə "Xüsusi təhsilə ehtiyacı olan şəxslərin təhsili fərdi təhsil planlarına uyğun olaraq bütün növ və səviyyələrdə olan məktəb və müəssisələrdə onların həmyaşıdları ilə birlikdə müvafiq metod və üsullara uyğun olaraq həyata keçirilir" kimi tərif verilir. Xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil mühitində öz həmyaşıdları ilə eyni hüquqlara malik olduqlarını nəzərə alaraq qeyd etməliyik ki, bu uşaqların uğur qazanması üçün effektiv sinif idarəçiliyinə, uşaqlara uyğun təhsil proqramına və effektiv tədris metodlarına ehtiyac var. Müəllimlər xüsusi qayğıya ehtiyacı olan uşaqlara cəmiyyətə hazırlıq bacarıqlarını öyrətməlidirlər. Məktəbəqədər təhsil müəssisələrinin müəllimləri xüsusi qayğıya ehtiyacı olan uşaqların ehtiyacları, müvafiq tədris üsulları və kurikulum strategiyaları haqqında biliyə malik olarsa inklüziv təhsil prosesi daha uğurlu olacaqdır. Ouane inklüziv təhsili cəmiyyətin qabiliyyətlərinə, xüsusiyyətlərinə və öyrənmə gözləntilərinə cavab verən, hər cür ayrı-seçkiliyi aradan qaldıran, müxtəlifliyə və fərqli gözləntilərə hörmət edən hər kəs üçün ixtisaslı təhsilin təmin edilməsi məqsədi daşıyan davamlı proses kimi təsvir edir. Onun fikrincə, müəllimlərdə effektiv sinif idarəçiliyi bacarığı formalaşdırmaq lazımdır. Effektiv sinif idarəçiliyi sinifdəki bütün uşaqların fəallığının təmin olunması deməkdir. Buna görə də müəllimlər müxtəlif sinif idarəetmə üsullarını və tədris strategiyalarını bilməlidirlər. İnklüziv təhsil

təcrübələrində müəllimlər kurrikulum sistemini nəzərə almalı və xüsusi ehtiyacı olan uşaqlar üçün nəzərdə tutulan mövzuları müxtəlif üsullarla öyrətmək yollarını tapmalıdırlar. Bu, bütün qrupun təhsil fəaliyyətlərində iştirakının yeganə yoludur.İnklüziv təhsilin əsas üstünlüklərindən biri müəssisələrdə uşaqlar arasında müxtəlifliyin aradan qaldırılması və tərbiyə olunmasıdır. Bu, müxtəlif uşaqları eyni mühitdə bir araya gətirmək, hər kəsə böyümək və öyrənmək üçün eyni şans vermək məqsədi daşıyır. Nəticədə, uşaqlar sosial mühitdə əlaqələrini inkişaf etdirə, əməkdaşlıq bacarıqlarını gücləndirə bilərlər. İnklüziv təhsildə Xüsusi təhsilə ehtiyacı olan şəxslərin təhsili fərdi təhsil planlarına uyğun olaraq bütün növ və səviyyələrdə olan məktəb və müəssisələrdə onların həmyaşıdları ilə birlikdə müvafiq metod və üsullara uyğun olaraq həyata keçirilməlidir. Xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil mühitində öz həmyaşıdları ilə eyni hüquqlara malik olduqlarını nəzərə alaraq qeyd etməliyəm ki, bu uşaqların həyatda uğur qazanması üçün effektiv sinif idarəçiliyinə, müvafiq təhsil proqramına və effektiv tədris metodlarına ehtiyac var.

DİLİN ZƏNGİNLƏŞMƏSİNDƏ LEKSIK ALINMALARIN ROLU

Əbilova A.A.
Bakı Slavyan Universiteti
E-mail: aytacbilova5@gmail.com

Leksik alınmalar ilə bağlı yaranan başlıca problemləri tədqiq edən tədqiqat üsullarından biri bu və ya digər dildən alınmaların bərabər araşdırılmasıdır. Azərbaycan dilçiliyində belə tədqiqat işləri yetəri qədərdir. Dilimizin zənginləşməsində leksik alınmaların rolunu öyrənərkən həmçinin onların mənşəyinidə araşdırıb qruplaşdırmaq vacib mələlələrdən biridir. Qeyd etdiyimiz məsələ genealoji tədqiqatını əhatə edir. Dilimizə alınma sözlərin keçməsinin əsas səbəbləri dil əlaqələri fonunda müəyyənləşdirildi. Buna da qeyd etməliyik ki, bu məsələ açıqlanarkən başqa dilin ünsürlərinin obyekt dilə keçməsi yollarına nəzər salındı. Bu məsələ isə öyrəndiyimiz problemin əsasını təşkil edir.Leksik alınmaların yaranma yolları az yayılmışdır və buna aid nümunələrə yalnız müvafiq yerlərdə rast gəlmək mümkündür. Buradan da görülür ki, bu məsələ nominasiya probleminə aiddir.Kalka üsuli ilə " Təsvirin təsviri" üsulu eynidir. Təsvirin təsviri üsulundan fərqli olaraq kalka termininə çox vaxt terminologiyaya aid tədqiqatlarda rast gəlmək mümkündür. Bəzi tədqiqatçılar kalka üsulunu leksik alınmaların bir növü kimi göstərirlər. Halbuki bu yalnız fikirdir, çünki "kalka" nominasiya üsuludur. Dilimizdə olmayan anlayışın adlandırılması üçün dilin sözləri tərcümə edilir. Biz bilirik ki, tərcüməşünaslıqda sərbəst, əsli, hərfi tərcümələri eyniləşdirmək olmaz. Onlar bir birindən fərqli anlayışlardır. Hərfi tərcümə daha çox sözbəsöz tərcüməyə yaxındır. Burada sözlərin obyekt dildə tərcüməsi ilə yanaşı məzmunun hərfi tərcüməsidə əsas götürülür. Bəzi məqamlarda isə sözlər hərfi tərcümə edilmir. Kontesktin məzmunu isə hərfi tərcümə edilir. Buradan da aydın olur ki, biz hərfi təcümənin müxtəlif varinatları ilə rastlaşdıq. Nəzərə alınan xüsusiyyətlər göstərir ki, kalka anlayışına münasibətdə öz təsirini göstərir. Bütün bunlara baxmayaraq kalka termini leksik alınmalarda düşündüyümüzdən də az işlənir.

İNGİLİS BƏDİİ MƏTNLƏRİNİN LİNQVİSTİK TƏHLİLİ YOLLARI

Əhmədova F.R.
Bakı Slavyan Universiteti
E-mail: tagiyeva158@gmail.com

İngilis dilinin tədrisi zamanı ingilis dili bədii mətnlərinin "ümumi linqvistik təhlil" müstəvisində aparıldıqda bədii mətn fonetik, leksik, semantik, frazeoloji və qrammatik baxımdan öyrənilir, onlar arasındakı münasibət, kəmiyyət və keyfiyyət kateqoriyaları aşkar olunur. Bu kimi təhlil tələbələrin nəzəri linqvistik görüşlərinin, praktik bacarıqlarının daha da təkmilləşdirilməsinə zəmin yaratmış olar.

Linqvistika elmində bədii mətnlərin təhlilinə bir neçə yanaşmanın olduğunu görmək mümkündür:

1. Bədii mətnin formal strukturu, üslubu və dilini araşdıran "mətnə yönəlmiş" yanaşma;
2. Bədii əsərin müəllifinin tərcümeyi-halı ilə onun əsəri arasında əlaqə qurmağa çalışan "müəllifə yönəlmiş" yanaşma;
3. Bədii mətnin oxucuya verdiyi təəsürat və bədii mətnin yaratdığı ovqatın öyrənilməsində tətbiq olunan "oxucuya yönəlmiş" yanaşma;

4. Tarixi, sosial və dövrünün sosial-siyasi hadisələri fonunda bədii mətnin ideya-mövzu xüsusiyyətlərinin öyrənilməsində tətbiq olunan kontekstə yönəlmiş yanaşma;

5. Bədii tənqid və dəyərləndirmə.

Bədii mətnlərin linqvistik təhlilinin yuxarıda qeyd olunan yanaşmalar əsasında təhlilinin əhəmiyyəti ali məktəb tələbələrinin dil dərslərində dilin nəzəri məsələlərini mühazirə və dərsliklərdən öyrənməklə yanaşı, müəyyən dil hadisəsinin əmələgəlmə qanunauyğunluğunu nəzəri cəhətdən şərh etməyi bacarıqların formalaşmasındadır. Bütün sadalanan yanaşmaların hər birinin ingilis dilinin bədii mətnlərinin tətbiqində tələbələrin bədii təfəkkürünün formalaşmasına, səbəb və nəticə arasında bağlılığın tapılmasına, sətraltı mənaların və mətninin ruhunun duyulmasına, mətnlə bağlı əlavə araşdırmaların aparılmasına, eləcə də bədii mətnin aid olduğu toplumun tarixi, ictimai və sosial-mədəni həyatı haqqında əlavə araşdırmaların aparılmasına zəmin yaratmış olur. Bədii mətnlərin linqvistik təhlili əlavə olaraq tələbələrin ingilis dilinin bədii dilinin üslubi, sintaktik, morfoloji və leksik quruluşunun digər janrlarda olan mətnlərdən fərqlərini də öyrənir.

Bu zaman tələbələr ingilis dili bədii mətninin ədəbi dilin morfoloji və sintaktik normalarında necə və nə dərəcədə fərqləndiyini, çətin anlaşılan söz və ifadələrin semantik baxımından izahını, bədii mətnlərdə istifadə olunmuş leksik vahidlərin estetik çalarlarını öyrənmiş olurlar.

Bədii mətnlərin linqvistik təhlili zamanı dilin bütün sisteminin əhatə olunması üçün linqvistik təhlilin iki cür aparılması ilə bağlı nəzəri mülahizələri rast gəlmək olur: xüsusi linqvistik təhlil və ümumi linqvistik təhlil. Bu yanaşmaya söykənərək ingilis dilinin bədii mətnlərinin tədrisi zamanı hər hansı bir bədii mətndə dil hadisəsi, müəyyən konkret sistemlərin araşdırılması, onların müxtəlif variantlarının öyrənilməsi, etimologiyası və s. aşkar oluna bilər. Bu kimi xüsusi linqvistik təhlil zamanı fonetik hadisələr, ayrı-ayrı nitq hissələri, affikslər, qrammatik kateqoriyalar, leksik vahidlərin quruluşu, sintaktik vahidlər, sadə və mürəkkəb cümlələrin öyrənilməsi əhəmiyyətli sayıla bilər. Bu cür xüsusi linqvistik təhlil prosesində ayrı-ayrı dil hadisələri təhlilə cəlb olunmuş mətn daxilində bir-biri ilə vəhdətdə öyrənilir və müqayisəli şərhi verilir.

Bədii mətnlərin təhlili zamanı bir sıra prinsiplərin gözlənilməsi elmi ədəbiyyatda tövsiyə olunur. Buraya ilk olaraq "tarixilik prinsipi"ni aid etmək olar. Məlum olduğu kimi ingilis dili də müəyyən təkamül prosesindən keçərək günümüzə qədər gəlib çıxmışdır. İngilis dli öz təkamülü prosesində bütün komponentləri üzrə dəyişikliklərə uğramış və həmin dəyişikliklərin izləri bu və ya digər bədii mətnlərdə də qalır. Bu cür fərqli xüsusiyyətlər yalnız tarixi prizmadan doğru və düzgün təhlil oluna bilər. Elmi-nəzəri fikirdə bədii mətnlərin təhlili zamanı irəli sürülən prinsip isə "ardıcıllıq prinsipi"dir. Bu prinsip dil hadisələrinin sistemli şəkildə izlənilməsini tələb edir. Əsas irəli sürülən başlıca prinsiplərdən biri də bədii mətnlərin ideya və məzmun ilə onun dilinin vəhdətdə öyrənilməsidir. Məsələn, ingilis dilində hər hansı bir mətnin təhlilində müsbət nəticə əldə etmək üçün onun ideya və məzmunun nəzərə alınması da vacib şərtlərdən biri hesab olunur.

TOPONİMLƏRİN TƏDRİS ETMƏK TARİXİ YAŞATMAQDIR

Əhmədzadə Y.S.
Sumqayıt Dövlət Universiteti

Vətən sevgisi kiçik anlayışlardan – ailəyə, evə, məktəbə sevgidən başlayır. Tədricən genişlənərək, doğma vətənə olan bu məhəbbət öz ölkəsinə - onun tarixinə, keçmişinə və bu gününə, sonra isə bütün bəşəriyyətə, bəşər mədəniyyətinə məhəbbətə çevrilir.İnsan əsrlər boyu inkişaf etmiş müəyyən mədəni mühitdə tərbiyə olunur, nəinki indiki vaxtını, həm də əcdadlarının keçmişini hiss olunmadan mənimsəyir. Tarix onun üçün dünyaya bir pəncərə açır və təkcə pəncərə deyil, həm də qapılar açılır. Şəhərlər, küçələr, meydanlar, kanallar, evlər, parklar keçmişi xatırladır. Və hər şeydən əvvəl, adları ilə xatırladırlar. Bu və ya digər şəhərin, kəndin, çayın niyə belə adlandırılması həmişə maraqlıdır. Coğrafi adların mənalarını öyrəndikcə onların tarixinə, doğma yurdumuza yaxınlaşırıq. Doğma yurdumuzun keçmişi ilə tanış oluruq. Biz əcdadlara hörməti, nəslinə borc hissini öyrənirik. Sonra da keçmişlə gələcək insan üçün ayrılmaz hala gəlir, çünki hər nəsil, sanki, zamanla əlaqədir. Vətənini sevən insan gələcəyin, mənəvi ehtiyacları çoxalacaq, böyüyəcək insanlar qarşısında mənəvi məsuliyyət duymaya bilməz.Əgər insan heç olmasa hərdən valideynlərinin köhnə fotoşəkillərinə baxmağı sevmirsə, onların becərdikləri bağda, onlara məxsus əşyalarda qalan xatirəsinin qədrini bilmirsə, deməli, onları sevmir. İnsan köhnə küçələri, gəncliyinin "iştirakçısı", tarixi hadisələrin şahidi olan köhnə evləri sevmirsə, onu əhatə edən coğrafi obyektlərin yaranma tarixi ilə maraqlanmırsa, deməli, onun öz şəhərinə sevgisi yoxdur, vətənə sevgi yoxdur. İnsan öz ölkəsinin tarixi abidələrinə biganədirsə, o, bir qayda olaraq öz ölkəsinə də biganədir.

Amma görünən odur ki, öz doğma torpağına, doğma yurduna biganə qalanlar azdır və biz toponimik materialı təlim prosesinə (Azərbaycan dilinə) daxil etməklə, biz şagirdlərdə doğma torpağa, doğma ölkəyə öz xalqına məhəbbət aşılayırıq. Toponimik məzmunlu mətnlərdən istifadə söz ehtiyatını genişləndirə, səviyyəni yüksəldə bilər orfoepik normalara riayət etməklə müəllim coğrafi adların yazılışı və tələffüzü qaydalarına şagirdlərin diqqətini cəlb edərsə, orfoqrafiya və nitq bacarıqlarını da.Respublikanın toponimik stratiqrafiyasında Azərbaycan (türk) toponimləri kəmiyyət baxımından birinci yeri tutur. Lakin onların mənşəyi və formalaşma mərhələləri hələ dəqiqləşdirilməmişdir.Orta məktəb Azərbaycan dili kursunda toponimikanın öyrənilməsi demək olar ki, bütün dərslərdə mümkündür. İstənilən dildə toponimikanın əsas keyfiyyəti və məqsədi fəzanın mahiyyətini, onun xüsusiyyətlərini ayrı-ayrı təsvirə ayırmaq və əzbərləmək, sonrakı ünsiyyət məqsədi ilə müəyyən etməkdir.Yer adları tarixdir. Onlar xalqın məişətini, mənəvi mədəniyyətini əks etdirir. Buna görə də dil müəllimi məktəblilərdə Azərbaycan özünüdərkinin formalaşmasına, onların milli Azərbaycan mədəniyyəti ilə tanış olmasına öz töhfəsini verməlidir. Bu problemin həlli yollarından biri də Azərbaycan dili və ədəbiyyatı dərslərində mütəmadi olaraq aparılan leksik iş, o cümlədən yaşayış yerinin toponimləri ilə işdir.

MİCROSOFT EXCELLİN MÜHÜM ÜSTÜNLÜKLƏRİ

Əliyarova S.H.
Bakı Slavyan Universiteti
E-mail: sabinaliyarova@gmail.com

Microsoft Excel (MS Excel) Microsoft tərəfindən hazırlanmış çoxsaylı proqramlardan biridir. Microsoft Excel Microsoft əməliyyatı tərəfindən hazırlanmış inteqrasiya olunmuş elektron cədvəl proqramıdır. MS Excel 1985-ci ildə işlənib hazırlanmış və yeganə məqsədi müəssisələrə bütün maliyyə məlumatlarını, illik kredit və illik debet hesabatlarını tərtib etməkdə kömək etməkdir. 31 ildən sonra gələcəyə sürətlə irəlilədikdə, indi qrafiklər və yekun cədvəllər yaratmaq üçün ən çox istifadə edilən proqramdır. Gündəlik həyatda Microsoft Excel-in Makrakis (2011) istifadəsi məlumat və faktların hesablanması, təhlili və vizuallaşdırılmasını nümayiş etdirmək üçündür. Mövcud kompüter proqramları arasında Microsoft Excel bir çox sektorlarda oynadığı əsas rola görə ən vacib proqramlardan biridir. Bu, bir çox biznes fəaliyyətlərində, sinif işlərində və hətta fərdi məlumatların təşkilində ən çox istifadə olunan cədvəl proqramıdır. Bir çox müəssisələr, şəxsi və institusional müəssisələr Excel-dən istifadəni faydalılığına və müxtəlif tətbiqlər üçün vizual əsas kimi xidmət etmə qabiliyyətinə görə geniş şəkildə qəbul etmişlər. Excel gündəlik həyatda tələbələr, müəllimlər, iş axtaranlar, menecerlər, sahibkarlar, şirkətlər, pərakəndə satıcılar, distribyutorlar, frilanserlər, bloggerlər və evdar qadınlar tərəfindən istifadə edilir. MS Excel-in əhəmiyyəti onun istifadə olunduğu müxtəlif şöbə vahidlərində aşağıdakı kimi görünə bilər:

1.Qrafikləşdirmə. Bu paket qrafik tərtibatda çox mühüm rol oynayır, çünki o, müxtəlif şöbələr tərəfindən statistik məlumatları daha əyani şəkildə təqdim etmək üçün istifadə oluna bilən müxtəlif diaqramlar yaratmaq qabiliyyətinə malikdir. Düsturlar və prosedurlar paketə daxil edildiyi üçün qrafikləri yaratmaq həmişə asan və vaxta qənaət etmişdir. Digər qrafik proqramlarından fərqli olaraq, Excel bir çox fərqli rol oynadığından və çox fərqli şeylər üçün istifadə oluna biləcəyi üçün daha sərfəli olur.

2.Məlumatların təşkili. Data sistemli və mütəşəkkil şəkildə saxlanmalı olan xam, işlənməmiş məlumatdır. Buna nail olmaq üçün ativan 2.5 mq-ı effektiv şəkildə almaq üçün Microsoft Excel-dən istifadə etmək lazımdır. Excel istifadəçilərə öz məlumatlarını təşkil edə və yeniləmə açarlarını da təqdim edə biləcək cədvəllər qurmaq imkanı verir. Excel-dən istifadə edərək məlumatların təşkilinin faydaları həmişə idarəçilər tərəfindən hiss olunur. Excel cədvəlləri idarəçilərə hesabat tendensiyaları və məhsul mürəkkəbliyi kimi tək və birləşdirilmiş statistikanın gedişatını müşahidə etməyə kömək edəcəkdir.

3. Proqramlaşdırma. Proqramlaşdırmaya gəldikdə, MS Excel-in makroların yaradılmasında istifadə olunan demək olar ki, bütün proqramlaşdırma dili proqramlarını dəstəklədiyini öyrənirsiniz. Bu, mürəkkəb funksiyaların həllini asanlaşdırır və bununla da proqramlaşdırmada səmərəliliyi artırır.

Microsoft Excelin gündəlik həyatda vacib məsələləri həll etdiyi kimi təhsil sistemində də rolu böyükdür. Şagirdlər Excel-dən verilənlərin vizuallaşdırılması, daha sürətli hesablamalar, təşkilatlanma və yenidənqurma, filtrləmə, planlaşdırma və sair kimi bir çox vacib şeyi öyrənə bilərlər. Bu cür tətbiqlər şagirdin beyin inkişafını sürətləndirir desək, yanılmarıq. Beləliklə, Exceldən düzgün və uğurlu istifadə onların gələcək karyerasında məlumatların və məlumatların böyük həcmini asanlıqla idarə etməyə kömək edəcəkdir. Formbi,

Daun, and Ellinqtona (2017) görə, tələbələr Excel-də təkcə bacarıqlara malik olmamalı, həm də qabaqcıl bacarıqlara sahib olmalıdırlar. Qeyqer (2015) isə orta bacarıqlı işlərin 78%-nin Excel kimi rəqəmsal bacarıqları tələb etdiyini müəyyən edən bir araşdırma haqqında məlumat vermişdir. Excel-in tələbə şüurunda yaradıcılığı artırdığı sübut edilmişdir. Deyə bilərik ki, Excel tələbələrə biznes və müntəzəm maliyyə hesablamalarını idarə edərək və böyütməklə analitik bacarıqlarını inkişaf etdirməyə kömək edir. Tələbələr xüsusi olaraq Excel-də qısa yol alətləri vasitəsilə vaxtın idarə edilməsini təkmilləşdirməyi öyrənirlər. Bu,isə vaxta qənaət edən dəyərli bir vasitədir. Excel tələbələrə (istifadəçilərə) verilənlərin çeşidlənməsindən tutmuş əsas əməliyyatların yerinə yetirilməsinə və daha yüksək səviyyəli əməliyyatların yerinə yetirilməsinə qədər bir çox imkanlar təklif edir. Microsoft Excel başqa yollarla da onlara faydalı ola bilər. Bundan sonra tələbələr etmək və ya öyrənmək istədikləri şeylər haqqında qeydlər etmək və ya ev tapşırıqlarını və imtahanlarını qeyd etmək üçün təqvim yaratmaq üçün istifadə edə bilərlər. Microsoft Excel, müasir dünyada demək olar ki, bütün iş sahələrində istifadə olunan inanılmaz dərəcədə faydalı bir vasitədir. Xülasə etmək lazımdır ki, tələbələr Excel proqramını öyrəndikdə daha sürətli və daha dəqiq qərar qəbul etmə, daha sürətli hesablamalar, məlumatların qüsursuz vizuallaşdırılması və s. bacarıqlara yiyələnirlər.

İBTİDAİ SİNİFLƏRDƏ CÜMLƏ ANLAYIŞININ FORMALAŞDIRILMASI ÜZRƏ İŞİN MƏZMUNU

Əliyeva A.M.
Lənkəran Dövlət Universiteti
E-mail: eliyevaayan46@gmail.com

Sintaksisin əsas vahidlərindən biri də cümlədir. Aydındır ki, cümlə dilimiz üçün əsas fikir mübadiləsi və nitq üçün ünsiyyət vahididir. Cümlə predikativliyə, modallığa, bitkinlik intonasiyasına malik olan bir səslə, sözlə və ya söz birləşməsi ilə yaranır. Cümlə dilin fonetik sistemi, lüğət tərkibi və qrammatik quruluşunun bütün daşıyıcılarını özündə birləşdirir. Cümlələrin birliyi sintaktik bütövlərin yaranmasına şərait yaradır.

Cümlədə olan sözlər bir-biri ilə məna və qrammatik cəhətdən qarşılıqlı olur. Təsadüfi şəkildə söz yığını cümlə yarada bilməz. Belə məsələlər müəllimdən böyük məsuliyyət və metodiki hazırlıq tələb edir. Cümlə sintaksisin mərkəzi hissəsi olduğu üçün onu həm aşağı, həm də yuxarı pillələrdə öyrənmək mümkündür. Onun özünəməxsus struktur xüsusiyyətləri, semantik əlamətləri vardır. Cümlə ilə praktik tanışlıq zamanı vacib amillərdən biri də şagirdlərə cümlədə kimin və nəyin haqqında danışıldığını, nə deyildiyini müəyyən etməyi öyrətməkdir. Belə olduqda şagird hər cümlənin nə məqsədlə işləndiyini, cümlədə hansı fikrin ifadə olunduğunu başa düşür, həmçinin cümlənin qrammatik mahiyyətini daha yaxşı mənimsəyir. Araşdırmalar göstərir ki, I sinif şagirdləri dərs ilinin əvvəllərində sözləri düzgün sıralaya bilmir və ya cümlə qurmaqda çətinlik çəkir. Şübhəsiz ki, bu sahədə lazımi səviyyədə bacarıq və vərdişlərin olmamasından irəli gəlir. İbtidai sinif şagirdlərinə cümlə anlayışını daha yaxşı mənimsətmək üçün əlifba təlimi başa çatdıqdan sonra müxtəlif üsullu çalışmalar verilə bilər. Onlara ilk öncə sadə şəkillərdən ibarət, sual və göstəriş vermədən iki sözlü cümlə qurmaq tapşırıla bilər. Məsələn, *Arzu gəlir. Pişik qaçdı.* Müəllim cümlələrin quruluşu üçün sadəlik, həcmi üçün lakonikliyin əsas şərt olduğunu da şagirdlərə izah etməlidir. Şagirdlərin cümlə haqqında aydın təsəvvürə malik olmaları üçün dərsliklərdə "şəkilcə bağlılıq", "mənaca bağlılıq" anlayışlarının məzmunu ilə əlaqədar müvafiq izahat zəruri hesab edilir Bu zaman müəllim sözlər arasındakı əlaqə haqqında keçilmiş mövzulara müraciət edib şagirdlərə xatırlatmalıdır. Məlum məsələdir ki, şagird cümlə tərkibi haqqında proqram səviyyəsində bilik əldə edərsə, o zaman cümlə anlayışını da rahat mənimsəyə bilər. Buna əsasən biz fənn kurikulumunda nəticəyönümlü təlimə görə ibtidai sinif şagirdlərinin dil qaydaları üzrə təyin edilmiş standartları sadalaya bilərik: Cümləni tanıyır və əsas əlamətlərini sadalayır; Məqsəd və intonasiyaya görə cümlələri fərqləndirir; Cümləni digər nitq vahidlərindən fərqləndirir; Tələb olunan məqsəd və intonasiyaya görə cümlə qurur və müvafiq işarələrlə tamamlayır; Cümlənin formalaşmasında baş və ikinci dərəcəli üzvlərin rolunu sadə şəkildə izah edir; Məqsəd və intonasiyanı dəyişməklə verilmiş cümləni müxtəlif məqamlarda işlədir; Cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini dəqiq müəyyən edir; Cümlə və onun növləri ilə əlaqədar kiçik təqdimatlar edir.

Tədricən cümləyə dair I sinifdə şifahi, II-IV siniflərdə həm şifahi, həm də yazılı çalışmalar şagirdlərə təqdim edilməlidir. Nəticədə bu cür işlərin aparılması şagirdlərin şüurlu fəaliyyətini təmin etmiş olur. Bəzən çalışmaların xarakteri şagirdlərin marağına uyğun dəyişdirilə bilər. Onlar tədricən dərk edirlər ki, cümlədə sözləri necə gəldi sıralamaq və ya qurmaq olmaz. Çünki, cümləni əmələ gətirən sözlər arasında məna və

qrammatik əlaqə olmalıdır. Bu prosesi möhkəmləndirmək üçün müəllim lövhədə şəkilçisiz sözlər yaza bilər. Məsələn, *çəhrayı, Humay, çiçək, dər, bağ*. Şagirdlər fikrən həm şəkilçilər əlavə edə, həm də sözlərin ardıcıllığını düzəldə bilər. *Humay bağdan çəhrayı çiçək dərdi.* Növbəti mərhələlərdə sərbəst şəkildə cümlə qurmağa aid tapşırıqlar verilə bilər. Bura oyun və əyləncələrə aid, qarşılaşdıqları maraqlı hadisələrə aid, bayram və əlamətdar günlərə aid edə bilərik. Müxtəsər cümlələri heç bir sual və söz birləşməsi olmadan genişləndirmək işi şagirdlərin biliyinə daha çox fəallıq və rəngarənglik qatır. Bundan sonra məktəblilərdə söz birləşmələri sintaksisi haqqında ilkin təsəvvürlər yaratmaq və sadə cümlələri genişləndirmək vərdişi yaranır. Bu sahədəki çalışmalara II-IV siniflərdə daha yaradıcı xarakter verilir. Cümlədə artıq sözlərin ixtisarı işinə III sinifdən etibarən başlamaq məsləhətdir. Müəllim şagirdlərə hər bir cümlədəki artıq sözləri atmaqla köçürməyi tapşıra bilər. Beləliklə ibtidai siniflərdə sadə cümlələrin tədrisi üçün beş istiqamət üzrə iş aparılır: 1. Cümlənin qurulması; 2. Cümlənin genişləndirilməsi; 3. Məqsəd və intonasiyaya görə cümlələrin tərtibi; 4. Eyni fikrin müxtəlif cümlələr ilə verilməsi; 5. Cümlələrdə artıq sözlərin ixtisarı.

ŞAGİRDLƏRİN NİTQ DƏRSİNDƏ İŞTİRAK ETMƏK MOTİVASİYASI

Əliyeva L.E.
Baki Slavyan Universiteti
E-mail: leylaeliyeva463@gmail.com

Tələbələr xarici dil öyrənəndə çox vaxt çoxlu biliklər (qrammatik qaydalar, lüğət elementlərinin siyahıları) toplayırlar, lakin sonra onlar bu dildən istədikləri zaman ünsiyyət qurmaq üçün əslində istifadə edə bilməyəcəklərini öyrənirlər. Scrivener (2005, 147) iddia edir ki, dilin passiv bilikdən aktiv istifadəyə keçməsində müəyyən çətinliklər var. Dildən istifadə təcrübəsi olmadan, öyrənənlər bir şey söyləməyə çalışmaqdan əsəbi ola bilərlər. Qismən onlar başqalarının qarşısında axmaq görünməkdən qorxa bilərlər, səhv etməkdən narahat ola bilərlər, müəllimin şərhlərindən və ya düzəlişlərindən qaçmaq istəyə bilərlər və s. Bəzi tələbələrin özlərini ifadə etmələri kifayət qədər uzun vaxt tələb edir ki, bu da öyrənənlər həqiqətən demək istədiklərini necə deyəcəklərini öyrənməyə çalışarkən uzun utanc verici fasilələrə səbəb olur.

Şagirdlərə biliklərini aktivləşdirməyə kömək etməyin ən yaxşı yollarından biri onları sinifdə ilhamlandıqları və xarici dildə danışmağa həvəsləndirdikləri "təhlükəsiz" vəziyyətə salmaqdır. Müəllimlər elə fəaliyyətlər yaratmağa çalışmalıdırlar ki, şagirdlər danışıqdan daha az narahat olsunlar və daha az təzyiq altında olsunlar. Bununla belə, şagirdlərin nitqdə uğur qazanması tək müəllim deyil. Tələbədən tələbəyə fərqlənən, onun danışıq dilində irəliləyişinə təsir edən motivasiya amilləri də var. Harmer (1991, 4-6) xarici və daxili motivasiyanı fərqləndirir. O iddia edir ki, tələbələrin bu dildə danışmağa münasibətinə kənardan müxtəlif amillər, məsələn, yaxın ətrafdakı insanlar, xarici dildə əvvəlki danışıq təcrübəsi və ya xarici dil ünsiyyətini mənimsədikdən sonra təklif olunan iş imkanları təsir edə bilər. Bütün bunlar xarici motivasiyanı təmsil edir. Xarici motivasiya bu gün əksər tələbələr üçün hərəkətverici qüvvə olsa da, daxili motivasiya olmadan nitq bacarıqlarının təkmilləşdirilməsində heç bir məqsədə nail olmaq mümkün deyil. Müvəffəqiyyət həm də tələbələrin xarici dildə danışmağı öyrənmək istəyinə əsaslanır ki, bu da müəllimin ünsiyyəti öyrətməkdə istifadə etdiyi metodlardan və hər şeydən əvvəl onun şəxsiyyətindən təsirlənə bilər. Bunları nəzərə alaraq müəllimlər şagirdlərin xarici dildə danışmağa həvəsləndirilməsində onların nə qədər mühüm rol oynadığını dərk etməlidirlər. Şagirdlərin şəxsiyyətləri də onların nitq tapşırığını nə qədər tez və düzgün idarə edəcəklərini müəyyən etməkdə mühüm rol oynayır. Riskli, səhv etməkdən qorxmayan tələbələr, ümumiyyətlə, daha çox danışıq aparırlar, lakin adətən çoxlu səhvlər edirlər. Utancaq olanlar əminliklə danışmaq üçün uzun müddət çəkə bilər, lakin nəhayət bunu idarə etdikdə ingilis dilində daha az səhv olur. Hər iki tip şagirdin məqsədi eynidir, həqiqətən də dildən düzgün və səlis istifadə etməkdir. Bu məqsədə çatmaq üçün müəllimlər bacardıqları qədər çalışmalıdırlar ki, sinifdəki sükutu pozsunlar və nə qədər səhv buraxsalar da, cümlə qurmaları nə qədər vaxt aparsa da, şagirdləri danışdırsınlar. Bütün sinif qarşısında danışarkən utancaqlığı azaltmaq üçün tələbələrə qruplar və ya cütlər şəklində işləmək imkanı təklif oluna bilər ki, bu da aktiv dil istifadəsini artırmaq üçün uyğun bir yanaşmadır.

Harmer (1991, 7-9) tələbələrin yaşından və səviyyəsindən asılı olaraq müxtəlif motivasiya amillərini qeyd edir. Uşaqların və yeniyetmələrin xarici dildə danışmaq motivasiyası dissertasiya işimin məqsədi üçün əhəmiyyət kəsb etmir, çünki yuxarıda qeyd edildiyi kimi, mən böyüklər ingilis dilini öyrənənlərlə məşğul oluram və onların xarici dildə ünsiyyət üçün motivasiya ehtiyacları digərlərindən əhəmiyyətli dərəcədə fərqlənir. Dərslərimdə əksəriyyəti təmsil edən orta səviyyəli tələbələrə diqqət yetirirəm. Onların ingilis dili

bu mərhələdə yaxşıdır, lakin onların əsas məqsədi dilin daha qabaqcıl səviyyəsinə nail olmaqdır. Onlar artıq çox şey bilirlər və gündəlik məsələlər haqqında danışa bilirlər, lakin bəzən bəzi problemlər yarana bilər. Onlardan biri tez-tez dilin yeni mürəkkəbliyi ilə su altında qaldıqlarını və bunun öhdəsindən gələ bilmədiklərini hiss etməkdir. Müəllimlər bunu aşkar etdikdən sonra diqqətini tələbələrin artıq əldə etdikləri bilikləri artırmağa yönəltməli və onları başa düşmək və başa düşmək üçün dildə kifayət qədər yaxşı danışa biləcəklərini təmin etməlidirlər.

AŞIQ ƏLƏSGƏR ƏDƏBİ ŞƏXSİYYƏTİNİN TƏDRİSİ

Əliyeva N.T.
Lənkəran Dövlət Universiteti
E-mail: aliyevanaile98@gmail.com

Aşıq Ələsgər 1821-ci ildə Novruz bayramı günü Göyçə mahalının Ağkilsə kəndində dünyaya gəlib. Ələsgərin atası Alməmməd kişi işgüzar, halal zəhmət ilə ailəsini dolandıran biri idi. Demək olar ki, Ələsgərin şöhrət qazanmağının, "Aşıq Ələsgər" olmağının ibtidasını atası qoymuşdur.

Aşıq Ələsgər Azərbaycanın milli aşıq poeziyası irsində şərəfli yer tutan sənətkarlardan biridir. 80 ildən artıq xalqına şərəflə xidmət edən Aşıq Ələsgər irsinə hörmət və qayğının əsası Ümumilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Buna nümunə olaraq Heydər Əliyevin Aşıq Ələsgərin 150 illik yubileyinin daha sonra 1997-ci ildə verdiyi sərəncamla 175 illik yubileyinin dövlət səviyyəsində qeyd edildiyini göstərə bilərik. Bu, Heydər Əliyev tərəfindən Aşıq Ələsgər yaradıcılığı ilə birlikdə qədim el sənətinə göstərilən xüsusi diqqət və yüksək dəyərdir.Aşıq Ələsgər Alməmməd kişinin ailəsində göz açan ilk uşaqdır. Hələ 14-15 yaşı olanda həyatın bir sıra çətinliklərinə öyrəşməyə başlayır. 18-19 yaşında məhəbbətin oduna düşən aşıq, ilk sevgisinə qovuşa bilməyir. Nökərlik həyatından qəm karvanı ilə qayıdan Ələsgər ömrü boyu ilk məhəbbətinin acı təsirindən çıxa bilməmişdi. Oğlunun bu halını görən pərişan ata onun istedadından xəbərdar idi. Elə buna görə də onu Göyçənin məşhur aşığı Qızılvəngli Aşıq Alıya şəyird verir. 5 il Aşıq Alıya şəyirdlik edən Aşıq Ələsgər bir müddət sonra Göyçənin adlı-sanlı aşıqlarından biri olur. Xalq arasında böyük hörmət qazanan aşığın xislətini şöhrət hissi dəyişdirə bilməmişdi. Yazıb-oxuma bilməyən sənətkar güclü yaddaşı və hər zaman öyrənməyə cəhd göstərməsi sayəsində zəngin biliklər əldə etmişdir. Deyilənlərə görə, Aşıq Ələsgər dövrünün alimləri, ziyalıları və din xadimləri ilə ünsiyyətdə olub, onlara müxtəlif elmlərlə, dinlə bağlı kitablar oxutdurub qulaq asarmış. Aşıq Ələsgərin bədahətən şeir söyləməsi, qarşı-qarşıya söhbət etdiyi insanların fikrindən keçənləri oxuması, hətta haqqında söylənilən rəvayət və dastanlardan bizə çatan məlumatlara əsasən onun gələcəkdə baş verəcək hadisələri yuxusunda görməyi, alğışının və qarğışının güclü olmağı onu digərlərindən fərqləndirən üstün cəhətləri idi. Haqqın tərəfini saxlayan, hər zaman insanlara doğru yolu göstərən aşıq "Haqq aşığı" adlandırılmışdır. Aşıq Ələsgər müstəqil aşıqlıq fəaliyyətinə başlayandan sonra bu sənətə həvəs göstərən insanların bir qismi onun sayəsində "aşıq" adına yiyələnmişdir. Lakin bu sənətin müqəddəs sirlərinə tam yiyələnməyincə onlara aşıqlı etməyə icazə verməzmiş. Şagirdlərinin qabiliyyətindən və istedadından asılı olaraq, onların bəziləri 4-5 ilə bəziləri isə ya daha çox, ya da daha az müddətə bu sənəti öyrənə bilmişlər. Sənətkarın şəyirdi olmuş Aşıq Əsəd özü etiraf edib ki, 10 il Aşıq Ələsgərə şəyirdlik edib. Aşıq sənətinin inkişafında əvəzsiz xidmətlərinin olduğunu Aşıq Ələsgərin XIX əsrin sonlarında söylədiyi bir qoşmasında da görə bilərik:

Adım Ələsgərdi, mərdü mərdana,
On iki şəyirdim işlər hər yana.

Aşıq Ələsgər nə qədər zəngin biliyə sahib olsa da, bir o qədər də təvazökar insan idi. "Şəyirdlikdə can çürütdüm, hərgiz adam olmadım" , yaxud da "Yazıq Ələsgərəm, azdı kamalım vacibdi ki, bir ustaddan dərs alım" ifadələri biri ilə qarşılaşanda, deyişmə meydanında rəcəz oxuyan, özünün hansı qüdrətə sahib olduğunu söyləyən birinin əslində nə dərəcədə təvazökar olduğunu təsdiq etmirmi ?!

Hər kəs sərdən keçib, mərdü mərdana
Baş qoysun bu yolda, meydana gəlsin.
Dərya dilim dalğa vurdu, bulandı,
Qərq olmaq istəyən ümmana gəlsin !

Aşıq Ələsgər dövrünün "alimi" idi. Bunu hələ o sağ ikən ziyalılar, ustad aşıqlar dönə-dönə etiraf etmişdilər. Hətta aşığın dostu Mirzə Bəylər də dostunun yaradıcılığını qiymətləndirmiş, onu Şərqin böyük şairi Hafiz Şiraziyə bərabər tutmuşdur.

İlahi gözəllik aşiqi olan Aşıq Ələsgər, gəzdiyi yerlərdə, olduğu məclislərdə nə qədər gözəllər görüb onları vəsf etsə də, ilk məhəbbətini unuda bilməmiş, bu səbəblə də 40 yaşına kimi ailə qurmamışdır. Ailə qurduqdan sonra isə böyük bir ailənin qayğısını çəkmişdir. Aşıq Ələsgər atası kimi zəhməti çox sevirmiş. Onun da əlindən dülgərlik etmək gəlirmiş. 1926-ci il martın 7-də dünyaya əbədi gözlərini yuman aşıq, XX əsrdə xalqımızın tarixində baş verən faciələrdən də öz payını almışdı. 1905, 1908, 1915, 1916, 1917, 1918-ci illərdə baş verən hadisələr aşığın həyatına bir başa təsir etmişdi. 1915-ci ildə qardaşı oğlu və ən sevimli şagirdi Aşıq Qurbanın ölümündən sarsılan Aşıq Ələsgər aşıqlıq sənətindən əl çəkmiş, bir daha əlinə saz almamışdı. Aşıq Ələsgərin mənəvi əziyyət çəkdiyi zamanlardan biri də ailəsinin üç il köçkün həyatı yaşadığı vaxt di. Ermənistanda şura hakimiyyəti yarandıqdan sonra Aşıq Ələsgərin ailəsi də digər göyçəlilər kimi öz yurdlarına qayıtmışdır. Vətənini, xalqını sevən və Azərbaycanda baş verən ictimai-siyasi hadisələrdən narahat olan hər bir vətəndaş kimi Ələsgəri də bu hadisələr narahat edirdi. Xalqın ağır güzəranı aşığın zəmanədən şikayətinə gətirib çıxardırdı. "Çıxıbdı" rədifli qoşması bu məsələləri özündə əks etdirməklə diqqəti cəlb edir:

Pristav, naçalnik gələndə kəndə,
Obanı, oymağı vururlar bəndə.
Xərc üstə çoxları düşüb kəməndə,
Qamçıda belinin qatı çıxıbdı.

Aşıq Ələsgər şəxsiyyətinin tədrisinə nəzər saldıqda görürük ki, sənətkar təkcə yaşadığı dövr üçün yox, həmçinin bu gün üçün də aktual olan, diqqət çəkən mövzulara toxunmuşdur. Bu məsələlərdən biri eşqlə bağlıdırsa, digəri dostluqla bağlıdır. Aşıq dostluqdan danışarkən yalnız səmimi, təmənnasız dostluqları nəzərdə tutur ve deyir:

Ya dost olma, ya zəhmətdən incimə,
Dost yolunda boran, qar olacaqdır.

"Haqq aşığı" olan sənətkar düzlük axtaran, yalanı pisləyən, "yalan deyib, qeybət etmə, rəhmin gəlsin canına" deyən və yalançıları, şər atanları gözləyən əziyyətli günləri əvvəlcədən xəbərdar edir. Dinə, Allaha bağlı olan aşıq səxavət göstərməklə qazanılan savabı daha üstün sayır:

İbadət eyləyən mömin sayılı
Səxavətin ondan çoxdur savabı.

Aşıq Ələsgərin, qüdrətli sənətkarımızın ölməz şeirləri təkcə müasirlərinin yox, bundan sonrakı nəsillərin və bizlərin dəyərli sərvətidir.

ORTA MƏKTƏBLƏRDƏ XARİCİ DİL (ALMAN DİLİ) TƏDRİSİNİN MÜASİR METODLARI

Əliyeva T.İ.
Bakı Slavyan Universiteti
E-mail: Tunzalealiyeva96@mail.ru

Xarici dillərin tədrisi didaktikası müəllim hazırlığına və əlavə təhsilə xidmət edən ümumiləşdirilmiş pedaqoji tədris və tədqiqat fənni kimi müəyyən edilir.Onların vəzifəsi xarici dillərin səmərəli tədrisi və öyrənilməsi üçün prinsiplər, metodlar və prosedurlar şəklində bilikləri inkişaf etdirmədən və müəllimi vəsaitlərlə təmin etməkdən ibarətdir. O, tədris prosesini, onun məzmununu və məqsədlərini müəyyən edir. Metodologiya planlı, düşünülmüş tədris kimi qəbul edilir. Deməli, metod planlı, məntiqi prosedur, hərəkət deməkdir.Didaktika və metodologiyanın köməyi ilə bir dilin mənimsənilməsi mümkün olur və bununla da ona bir çox ımüxtəlif amillər təsir edir. Tədris metodlarının inkişafı həm xarici dil müəllimləri, həm də xarici dili öyrənənlər üçün mühüm rol oynayır. Müəllimlər maraqlı və eyni zamanda effektiv tədrisə can atırdılar ki, xüsusən də yalnız ənənəvi metodların tanındığı və istifadə olunduğu bir dövrdə buna nail olmaq çətin idi. Beləliklə öyrənməyi asanlaşdırmaq üçün müxtəlif üsullar hazırlanmış və bunun sayəsində müəllimlər dərslərini daha asan təşkil edə və planlaşdıra bilirlər.Bugünkü müasir cəmiyyət dərsdə yeni tədris metod və vasitələrindən istifadəni tələb edir. Artıq məktəblərin əksəriyyətində bu alətlər yəni kompüterlər, interaktiv lövhələr, təbaşir əvəzinə flomasterlə yazıla bilən lövhələr və s. vardır. Cəmiyyət təhsildə innovasiyaları dəstəkləyir və bu gün təhsil sahəsində işləmək istəyiriksə, ən azı komputerlə işləməyin əsaslarını öyrənməliyik.

Mövcud metodların köməyi ilə müəllimlər nəyə diqqət etməli olduqlarını, hansı məqsədləri güddüklərini və tədris materialını necə hazır edib təqdim etməli olduqlarını bilirlər. Bundan əlavə, onların bacarıqları və öyrənmə tələbləri, eləcə də effektiv öyrənmə yolları mühüm əhəmiyyət kəsb edir. Qeyd olunan amillər alman dilinin xarici dil kimi tədrisi üçün didaktika və metodika şəbəkəsinin "qovşaqlarını" təşkil edir.

Onlar bir-biri ilə çox spesifik şəkildə bağlıdırlar və bir-birinə təsir edir.Fərdi amillər əhəmiyyətli dərəcədə dəyişirsə, deməli didaktik-metodik amillərə yenidən toxunmalı və yeni üsullar ortaya çıxarılmalıdır. 1970-ci illərdə kommunikativ metod praqmalinqvistikanın inteqrasiyası (praqmatik-funksional konsepsiyanı təmsil edən) hesabına tədricən inkişaf etmişdir. Müəyyən edilmiş bir üsuldan daha çox, dilin öyrənilməsi bir yanaşma halına gəlmişdi. Kommunikativ yanaşma üçün xarakterik olan xüsusiyyət odur ki, xarici dilin tədrisində müstəqil "metod" yoxdur və əksinə, dərslər fərqli olmalıdır.

Kommunikativ metod Almaniyada xüsusilə Hans-Eberhard Piepho (1981) tərəfindən təbliğ edilmişdir. O, Almaniya və Avstriyada həm xarici dil didaktikasının statusunu, həm də xarici dil müəllimi hazırlığını formalaşdırmışdır. Kommunikativ didaktika xarici dil biliklərinə diqqəti cəlb edərək xüsusi təlim qruplarının çərçivə şərtlərini özündə əks etdirdi (məsələn, öyrənmə tələbləri, öyrənmə ənənələri, məqsədləri və s.). Əsas məqsəd artıq ölkə haqqında qrammatik biliklərə yiyələnmək deyil, dil bilikləri,danışma, dinləmə, oxuma və yazma ilə müəyyən edilirdi. Bu isə eynilə kurikulum və tapşırıqların,dərsliklərin tərtibatında təlim məqsədlərinin yenidən qurulmalısına gətirib çıxartdı. Kommunikativ metodun kommunikativ səriştələrə yiyələnmək, dildən autentik istifadə,regionşünaslıq və mədəniyyət bilikləri əsasında ünsiyyət qurmaq bacarığı,bütün dörd bacarığın inkişafı - dinləmə, danışma, oxuma və yazma,fənnlə bağlı məqsədlərin pedaqoji prinsiplərlə əlaqəsi,yazıdan əvvəl dilin şifahi istifadəsi kimi məqsədləri vardır.Xarici dillərin tədrisi tarixinə nəzər saldıqda tez bir zamanda belə bir nəticəyə gəlmək olar ki, mövcud metod anlayışları üzərində "təkmilləşdirmə" kimi daim yeni metod və yanaşmalar işlənib hazırlanırdı. Müasir xarici dil isə bugünkü mənada təkcə elmi mübadilədə deyil, hər şeydən əvvəl biznes, ticarət, turizm və istirahət fəaliyyətlərində istifadə olunan praktik ünsiyyət vasitəsidir. Beləliklə xarici dilləri davranış proqramlaşdırması kimi deyil, şüurlu və yaradıcı bir proses kimi qavramaq lazımdır.

ƏDƏBİYYAT DƏRLƏRİNDƏ MİLLİLİ DÜŞÜNCƏ VƏ FƏAL TƏLİM METODLARI

Əliyeva Z.L.
Bakı Slavyan Universiteti
E-mail: Ezeyneb248@gmail.com

Ədəbiyyat dərsinin əsasını təşkil edən interaktiv metodun tətbiq edilməsi təhsil islahatının mühüm məsələlərindəndir.Azərbaycan Respublikasında bu metod artıq uzun müddətdir ki,istifadə edilir.Ədəbiyyat dərslərində işlədilən təlim texnolgiyaların isə artıq uzun müddətdir tətbiq olunur..Bu dərslərin düzgün qurulması və milli ideyaların aşılanması böyük bir hissəsi müəllimin üzərinə düşür. Ədəbiyyat dərslərində bunu həyata keçirmək üçün bir sıra vasitələr vardır.

Bildiyimiz kim,yeni təlim metodunda şəxsiyyətyönümlülük əsas götürülür. Bu prinsipə əsasən,şagirdin bir şəxsiyyət kimi formalaşmasını əsas cəhətlərindən biri onu milli düşüncəni aşılamaqdır.Bunun üçün fəal təlim metodlarında kifayət qədər üsul vardır .İstər şifahi ədəbiyyatda,istərsə də yazılı ədəbiyyatda vətənpərvərlik və milli düşüncə anlayışları aktual mövzu olmuşdur. Klassik ədəbiyyatımız milli tariximizin əsasını təşkil edir və şagirdlərimizi daxilən daha çox bu mövzuda daha da səriştəli edir.Belə ki ,şagird keçmişini soy kökünü bilməsi onun vətənpərvərlik ruhunda inkişafı üçün vacib amillərdən biridir.Bu məqsədlə,şifahi xalq ədəbiyyatı nümunələrimizə, Nizami,Fizuli,Nəsimi,Vaqif, Mirzə Ələkbər Sabir kimi irsinə müraciət etmək hərbir müəllimin əsas vəzifələrindən biri olmalıdır.

Ədəbiyyat dərslərində bu mövzuların keçirilməsinə böyük yer verilmişdir. Burada Nizami Gəncəvinin "Xəmsə" sinə , Fizulinin "Leyli və Məcnun " əsərinə toxunulmuş və orada olan adət -ənənələrə və milli dəyərlərə xüsusi diqqət yetirilmişdir. Burada olan fikirlərə şagirdlərə düzgün şəkildə çatdırılması xüsusilə vacib bir məsələdir.

Yuxarıda da dediyimiz kimi,dərsliklərimizdə və digər vəsaitlərə milli dəyərlərimizlə bağlı məlumat verilmişdir.Bundan əlavə , bir çox mədəni-kütləvi tədbirlərdə də bu mövzularda tədbirlər keçirilir.Bunlara şagirdlərə aşılımaq çətin proses olsa da ,çox önəmli məsələlərdən biridir.Bu dərslərin tədris edilməsində yeni təlim texnologiyalarından istifadə etməklə və təhsil işçilərinin səyləri ilə gələcəyə vətənpərvər ruhda böyüyən və müsair bir Azərbaycan gənci yetişdirmək mümkündür.

FİZİKİ TƏRBİYƏ PROSESİNDƏ İDMAN FƏALİYYƏTİNİN ƏHƏMİYYƏTİ VƏ SOSİAL HƏYATA TƏSİRİ

Əsgərov N.D.
Naxçıvan Dövlət Universiteti
E-mail: Esgerov.Nail08@gmail.com

Tarixi dövrdən başlanan Heydər Əliyev idarəetmə fəlsəfəsinin ideya istiqaməti xalqın birliyinin, özünü ifadəsinin forma və vasitələrinin geniş inkişaf etməsi milli mentalitetimizin güclənməsi və milli təfəkkürün yüksəlişinə imkan yaradan sürətli inkişafın həyata keçirilməsi ilə səciyyələnmişdir. Məhz buna görə də "Bədən tərbiyə nəzəriyyəsi və metodikası" fənnin bütün cəhət, əlaqə və vasitələrini öyrənmək və onlardan həyati təcrübədə də istifadə etmək zərurətini ortaya qoymuşdur. Bu da öz növbəsində elmi məlumatların bütün imkanlarının yerinə yetirilməsini özündə ehtiva edir. Ümumiyyətlə fiziki tərbiyə fiziki və mənəvi qüvvələrin ahəngdar inkişaf etdirən möhkəm bədənli gənclik yetişdirilməsini təmin etməyi ən mühüm vəzifələrdən biri sayır. Fiziki tərbiyə bədən tərbiyəsinin bütün növlərinin hər yerdə ümumtəhsil müəssisələrində hər vasitə ilə genişləndirilməsini, cəmiyyətin daha geniş təbəqələrinin xüsusilə gənc və yeniyetmələrin bədən tərbiyəsi istiqamətinə cəlb olunmasını təmin edir. Bundan əlavə idmançı şəxsiyyətinin hərtərəfli və ahəngdar inkişaf etdirilməsi əxlaq saflığı və fiziki kamilliyi yüksək səviyyədə özündə birləşdirən yeni insan tərbiyə etmək imkanını artırır.

Nəzərə çatdırılmalıdır ki, idman ancaq idman naminə təkcə fiziki hərəkətlər məcmusundan ibarət olmamalıdır. Bu halda idmançı bədən tərbiyəsi və idmanın qarşıya qoyduğu vəzifələri yerinə yetirə bilməz. Bunun üçün idmanın hər bir şagirdin gündəlik həyatına daxil edilməsində müəssisə rəhbərinin və bədən tərbiyəsi müəlliminin rolu böyükdür. Bu məsələlər qəbul olunmuş təhsil qanunlarında öz əksini tapmışdır. Fiziki tərbiyə şagirdlər üçün bədən tərbiyəsi və idman tədbirləri müxtəlif formalarla həyata keçirilir. Fiziki tərbiyəyə aid dərsləri müəllim yüksək səviyyədə keçirməli, dərsdənkənar məşğələləri təşkil etməli, ayrı-ayrı idman növləri üzrə yarışlara hazırlamalı, məktəbdaxili yarışlara yer verilməlidir. Fiziki tərbiyənin ümumi məcmusunda tibbi-sanitariya hissələrin müalicə və istehsalat gimnastikasına təbii amillərdən istifadə edərək orqanizmi möhkəmləndirməyə, istirahətin səmərəli təşkilinə xüsusi fikir verilməsi göstərilir.Fiziki hərəkətlərin və idman gigiyenasının rolunun istiqamətləndirilməsi priorite vəzifələrdəndir. Burada bədən tərbiyəsi və idmanla məşğul olan şəxslərin xarici mühitlə olan bağlılığını və qarşılıqlı münasibətini öyrənməli, gigiyena normativlərini tərtib etməlidir. Bunlardan əlavə gigiyena idmançıların idman-texniki ustalıqlarının artırılmasına xüsusi diqqət yetirilməlidir. İdmanla mütəmadi məşğul olanların sağlamlığını qorumaq və daha da inkişaf etdirmək məşqçi müəllimlərin əsas iş prinsipi sayılmalıdır. Fiziki tərbiyə üzrə müəllimlərimiz hərtərəfli fiziki hazırlıqlı, dözümlü, cəsarətli və möhkəm iradəli şəxslər tərbiyə etməlidirlər. Aydındır ki, fiziki və mənəvi cəhətdən möhkəm idmançılar yetişdirmək bədən tərbiyəsi müəllimi insana olan təsirini bilməli və müvafiq şərait yaratmalıdır. Fiziki hərəkətlərin müstəqil olaraq məşğul olmağın birinci addımı ev tapşırıqları ilə məşğul olmaqdır. Fiziki tərbiyə məşğələləri fiziki təkmilləşmə tələbatına çevrilir. Fiziki tərbiyə dərsləri əsasən öyrədilmiş hərəkətləri təkmilləşdirmək və fiziki keyfiyyətlərin tərbiyəsi üçün istifadə edilir. Burada əsasən şagirdlərin fəaliyyətə qrup metodu ilə təşkil olunur. Bu fəaliyyətin dərk edilməsi, keçirilən dərslərin keyfiyyətini artırır, müəllimin pedaqoji ustalığını yüksəldir. Məlumdur ki, bədən tərbiyəsi və idmanın inkişafı və kütləviliyi üçün əsas amil maddi-idman bazalarının olmasıdır. Burada yarışlar yoldaşlıq görüşləri tələbələrin idman ustalığının artırılmasına xidmət edir. Əlavə etmək lazımdır ki, istirahətlərin səmərəli təşkili, idman düşərgələrində idmana aid müxtəlif rəngli formalardan istifadə etmək imkanı da vardır.

İdman tədbirlərindən təbiətin mənzərəli yerlərində şagirdləri doğma diyarın əvəz olunmaz gözəlliyi ilə tanış etmək, onlarda şəxsi keyfiyyətlərin formalaşdırmağa maraq oyatmaq lazımdır. Tədqiqatlar göstərir ki, ümumtəhsil məktəblərində bədən tərbiyəsi və idman işlərinə düzgün elmi təhlil verilirsə, orada daha yüksək nailiyyət əldə olunur.Qeyd olunduğu kimi ali məktəblərdə hər bir tələbənin gəldiyi peşə və ixtisas üzrə biliklər verməklə bərabər həm də onların fiziki və mənəvi kamilliyini inkişaf etdirir. Ümumiyyətlə yeniyetmə gənclər boş vaxtlarını səmərəli keçirmək üçün idman klublarında bütün yarışlarda iştirak etmək hüququ qazana bilir.Bu təhsil müəssisələrində işləyənlər ümumtəhsil məktəblərində dərs tədris edənlər alimlər tələbələr arasında ictimai hadisələr haqqında fikirlərini deməlidirlər.

Son illər bədən tərbiyə və idman təşkilatlarının fəaliyyəti daha da gücləndirilmişdir. Belə ki, Muxtar Respublikada idmanın kütləviləşməsi Naxçıvanda Respublika və beynəlxalq miqyaslı terminlərin təşkili, gənc nəslin bədən tərbiyəsinə marağını artması, idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun son illərdə həyata keçirdiyi ardıcıl və məqsədyönlü

fəaliyyət strategiyasına əsaslanır.Əsas cəhətlərdən biri də bədən tərbiyəsi və idman üzrə dövlət proqramına uyğun olaraq idman növlərinin inkişaf etdirilməsi, Respublika və beynəlxalq yarışların və tədbirlərin keçirilməsini təşkil edir. Müasir mərhələdə fiziki tərbiyənin formalaşmasında ictimai təşkilatların idman klubların və digər bu kimi qurumların yaradılması idman hərəkatında ictimai təşkilatların rolunu nə dərəcədə yüksək olmasını bir daha təsdiqləyir.

Bədən tərbiyəsi və idmanı əhalinin məişətinə daxil etməyin müxtəlif üsul və forması mövcuddur. Tələbə və gənclərin sağlamlığını möhkəmləndirmək yüksək səviyyəli fiziki inkişafa nail olmaq, idman ustalığını artırmaq, idman yarışlarının keçirilməsi daxildir.İdman təşkilatları hər il Novruz bayramı ilə əlaqədar uşaqları cəlb etməklə müxtəlif yarışlar keçirilir, eyni zamanda uşaqları tədbirlərə cəlb edir. Onların fiziki inkişafına təmin edirlər.Fiziki tərbiyə üzrə məşğələlərin keçirilməsi qaydaları aşağıdakılardan ibarətdir: Məqsəd və vəzifələri. İştirakçılarda vətənpərvərlik, dostluq, hörmət hissələrinin tərbiyə edilməsi; Sağlam həyat tərzinin aşılanması zəruri vərdişlərdən uzaq olmaq; Bədən tərbiyəsi və idmanın təbliğinə xidmət etmək; İdman növünün inkişafına köməklik göstərmək; İdman normativlərinin yerinə yetirilməsinə nail olmaq; İdmançıların ustalıq səviyyəsini artırmaq.Ümumilli liderimiz Heydər Əliyev Azərbaycanda idmanın tərəqqisinə və ölkənin Olimpiya hərəkatında iştirakına həmişə xüsusi əhəmiyyət vermişdir. Onun böyük diqqət və qayğısı tövsiyyə göstərişləri sayəsində Azərbaycan Beynəlxalq Olimpiya Hərəkatına fəal qoşulmuş ölkədə idman yüksək səviyyədə inkişaf etmişdir. Yeni müasir idman qurğularının tikilib istifadəyə verilməsi, eləcə də həyata keçirilmiş irimiqyaslı işlər nəticəsində Azərbaycan dünyanın idman mərkəzlərindən birinə çevrilmişdir. Ölkəmizdə idmanın maddi-texniki bazasının yaradılması sahəsində ənənəvi idman növləri ilə yanaşı, idmanın başqa növləri də inkişaf etməyə başlamış bədən tərbiyəsi və idmanla müntəzəm məşğul olanların sayı xeyli artmışdır.

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA TOLERANT DÜNYAGÖRÜŞÜ

Əsgərova T.Ə.
Bakı Slavyan Universiteti
E-mail: turane.esgerova.00@gmail.com

Tolerantlığın mühüm şəxsiyyət xüsusiyyətlərindən biri kimi tərbiyəsi son vaxtlar qlobal səviyyədə aktual problemə çevrilmişdir.“Tolerantlıq” termini (latınca “tolerantia” - səbir) bədənin müəyyən bir ekoloji amilin mənfi təsirlərinə dözmək qabiliyyəti və digər insanların fikirlərinə, inanclarına, davranışlarına dözümlülük kimi şərh olunur. Tolerantlıq tərbiyəsinin əsas üstünlüyü təkcə uşağın öz xalqının mədəniyyətini və ana dilini mənimsəməsi və tanış olması üçün şəraitin yaradılması deyil, həm də başqa mədəniyyətə və onun daşıyıcılarına hörmət kimi mənəvi dəyərlərin formalaşdırılması hesab edilməlidir. Məktəbəqədər yaşlı uşaqlar arasında tolerant münasibətlərin formalaşdırılması ehtiyacı uşaqların yaş və fərdi xüsusiyyətləri ilə bağlıdır. Müasir dövrdə həm işdə, həm də ünsiyyətdə səbir lazımdır. Səbir şüurlu şəkildə qəbul edilmiş məqsəd naminə bir şeydən çəkinmək və ona çatmaq üçün bütün qüvvələri səfərbər etmək bacarığını ehtiva edir.

Tolerantlıq olmadan insanların, deməli, ölkələrin və dövlətlərin münaqişəsiz qarşılıqlı əlaqəsi mümkün deyil, yer üzündə sülhün bərqərar olması, bütün bəşəriyyətin həyat şəraitinin yaxşılaşdırılması mümkün deyil. Uşaqlarda səbrin öyrədilməsi onların iradə və xarakterinin formalaşması üçün əvəzsiz şərtdir. Cəmiyyətdə müxtəlif millətlərin nümayəndələrinin olması milli kimliyin, tolerant münasibətlərin formalaşması məsələsinə xüsusi diqqət yetirməyi tələb edir. Tolerantlıq cəmiyyətdə həyat tərzi kimi hər bir insanın mövqeyindən, onun başqa insanların fikirlərinə, inanclarına, davranışlarına, başqa bir insanın qəbuluna, fərqliliklərinə və xüsusiyyətlərinə bütövün məqamı kimi münasibətindən asılıdır.

Şəxsiyyətin dəyər yönümlərindən biri də təhsil müəssisəsində, o cümlədən uşaq bağçasında təhsil və tərbiyə prosesində yaranan uşaq mühitində tolerant münasibətlərin formalaşmasıdır. Müasir pedaqoq məktəbəqədər uşaqların onlardan fərqli olan uşaqlarla ünsiyyətdə olduqda yaranan münasibətlərini necə tənzimləməyi bilməlidir. İndiki çətin dövrdə başqa insanlara qarşı tolerantlıq nümayiş etdirmək ehtiyacı getdikcə daha çox aktuallaşır. Fəlsəfədə “tolerantlıq” anlayışına bir neçə yanaşma mövcuddur. Bizə ən yaxın olan, tolerantlığın başqasının mövqeyinə hörmət kimi başa düşülməsi, tənqidi dialoq nəticəsində mövqelərin qarşılıqlı dəyişməsinə münasibətdir. Sosial mənada tolerantlıq dünya mədəniyyətlərimizin zəngin müxtəlifliyinə, özünüifadə formalarımıza və insan fərdiliyini ifadə etmə yollarına hörmət, qəbul və düzgün başa düşmək deməkdir.

Tolerantlığın əsası fərqli olmaq hüququnun tanınmasıdır. Tolerantlığın formalaşması çox uzun bir prosesdir və buna mümkün qədər tez başlamaq lazımdır. Artıq məktəbəqədər yaşda tolerantlığın formalaşması üzərində işə başlaya bilmək üçün bütün lazımi şərait yaranır. Bir yetkin bir model kimi seçilir, buna görə də tolerantlığın formalaşmasında ona böyük bir məsuliyyət qoyulur. Böyüklərin özləri şəxsi nümunə ilə tolerant münasibət göstərməli və davranışlarında göstərməlidirlər. Məktəbəqədər yaşlı uşaqlarda tolerantlığın inkişafı prosesinə pedaqoqların və valideynlərin məqsədyönlü cəlb edilməsi onlara öz pedaqoji mövqelərini aktivləşdirməyə imkan verir.Bu gün tolerantlıq tərbiyəsi ən mühüm problemlərdən biridir. Tolerantlıq öz-özünə formalaşmır, başqa xalqlara hörmət uşaqlıqdan, məktəbəqədər yaşdan tərbiyə edilməlidir. Bu gün məktəbəqədər təhsil müəssisəsinin işi şəraitində, müəyyən edilmiş proqram və metodların olmaması şəraitində böyük məktəbəqədər yaşlı uşaqlarda tolerantlığın formalaşması müəllim heyətindən böyük emosional xərclər tələb edən mürəkkəb bir prosesdir.

MÜRƏKKƏB MƏSƏLƏLƏRİN HƏLLİNDƏ ŞAGİRDLƏRİN RAST GƏLDİYİ ÇƏTİNLİKLƏR VƏ ONLARIN ARADAN QALDIRILMASI YOLLARI

Əşrəfova A.H.
Lənkəran Dövlət Universiteti
E-mail:aytacashrafova1999@gmail.com

Aydındır ki, iki və daha çox əməli yerinə yetirməklə həll olunan məsələlər mürəkkəb məsələlər adlanır. “Mürəkkəb” sözü dilimizdə “çətin” mənasında başa düşülür. İbtidai siniflərdə məsələ həlli texnologiyasının öyrədilməsi şagirdlərə sadə məsələlərdən başlanır. Lakin hər bir mürəkkəb məsələ iki və daha artıq tam olmayan sadə məsələlərdən ibarət olduğu üçün mürəkkəb məsələlərin həlli həmin sadə məsələlərin həllinə uyğunlaşdırılır. Mürəkkəb məsələlərə kəmiyyətlərin verilən qiymətləri, məchul qiymətləri və verilənlərlə məchullar arasında müəyyən riyazi şərtlər təqdim edilir. Bu tip məsələlər öz strukturuna və kəmiyyətlər arasındakı asılılığa görə fərqlənir.Sadə məsələlərin birləşməsindən alınmış toplama və çıxmaya aid mürəkkəb məsələlərin həllinə I sinifdən başlanır. Bu növ məsələlər isə tədris materiallarına tədricən II tədris ilində daxil edilir. III-IV siniflərdə onların mürəkkəbliyi tədricən artır. Şagirdlər tərəfindən yerinə yetirilən mürəkkəb məsələlərin əksəriyyəti hesab əməllərinin xassələri ilə əlaqədardır. Çünki bu xassələr mürəkkəb məsələləri müxtəlif üsullarla həll etməyə imkan verir. Deməli, ibtidai siniflərin riyaziyyat təlimində sadə məsələlərin geniş həll edilməsi və həlli yollarının mənimsədilməsi mürəkkəb məsələlərin həlli işini asanlaşdırır.

Mürəkkəb məsələlərin tərtibi qaydalarına aşağıdakılar aid edilir: 1. Sonradan birləşdirilərək bir mürəkkəb məsələ əmələ gətirən iki sadə məsələyə baxmaq; 2Verilmiş sadə məsələnin şərtini və ya sualını dəyişdirmək yolu ilə mürəkkəb məsələnin tərtibi.

İbtidai siniflərdə şagirdlər mürəkkəb məsələləri həll edərkən aşağıdakı çətinliklərlə qarşılaşırlar:

1. Şagirdlərin kifayət qədər təcrübə və həyati müşahidəsi olmadığı üçün onlar məsələlərin məzmununu anlamır, proses və situasiyanı təsəvvür edə bilmirlər.

2. Baş verən hadisələrə dair məsələlərin həlli yollarını şagirdlər bilmədiyindən bəzi zəruri anlayışlarla qarşılaşır və nəticədə məsələni həll edə bilmir.

3. Şagird hesab əməli nəticəsi və komponentləri arasındakı asılılığı, həmçinin kəmiyyətlər arasındakı asılılığı başa düşmür. Nəticədə məsələdə verilənlərlə axtarılanlar arasındakı əlaqəni aşkar etmək üçün məsələnin şərtindən istifadə edə bilmir.

4. Müəllimin öz tədris işinə kifayət qədər diqqətli və məsuliyyətli yanaşmaması şagirdlərin lazımı səviyyədə mövzunu mənimsəməsinə mane olur.

5. Məsələləri həll edə bilməyən şagirdlərdə bir sıra mənfi təsirlər yaranır. Bu zaman qorxu və nifrət hissi ortaya çıxır. Şagirdlər bu fikirlə özlərini riyaziyyat fənnindən təcrid etməyə çalışır.

6. Şagirdlər mətnli məsələlərlə tanış olarkən sxem, cədvəl çəkməkdə çətinlik çəkirlər. Bunun üçün lazımı olan başlanğıc vəziyyətini axtarıb tapa bilmirlər.

7. İbtidailərin əksəriyyəti məsələnin məzmununu dərindən mənimsəmədən məsələnin şərtindəki “...azdır”, “...çoxdur” ifadələrinə baxır. Onlar hansı hesab əməlinə bağlı olduğuna əhəmiyyət vermir və təsəvvürünə gələn əməli tətbiq etməyə can atır.

Sadalanan bu faktların aradan qaldırılması üçün aşağıdakı xüsusiyyətləri qeyd edə bilərik:

- Hesab əməlləri və xassələri, əməlin nəticəsi və komponentləri arasındakı aslı cəhətləri davamlı olaraq təkrar etmək məsələhət görülür.

- Şagirdlərə məsələnin məzmunu həm şifahi, həm də əyani şəkildə öyrədilməli, buradakı situasiyanı öz sözləri ilə təkrar etməlidirlər.

- Mürəkkəb məsələlərin həlli zamanı hazırlıq məqsədilə sadə məsələlər üzərində davamlı işlər aparılmalıdır. Çünki, hər bir mürəkkəb məsələ bir neçə sadə mürəkkəbin birləşməsindən ibarətdir.

Didaktikanın məşhur "sadədən mürəkkəbə" prinsipinə nəzər yetirək. Verilmiş mürəkkəb məsələnin tələbinə cavab vermək üçün onu elə sadə məsələlərə ayırmaq lazımdır ki, sonuncu sadə məsələnin həlli verilmiş məsələnin baş sualına cavabı olsun. Çünki sadə məsələlərin həlli ardıcıllığı verilmiş məsələnin həlli alqoritmini əhatə edir. Məsələləri həll edərkən onun təhliletmə yolları da mühüm əhəmiyyət kəsb edir. Hər veriləcək suala aid əməl aşkar edilməlidir. Bu cür məsələlər şagirdlərin yaradıcı fəallıq dərəcəsinə görə seçilir. Müxtəlif üsullarla məsələlərin həlli həm də şagirdlərin fikri fəaliyyətini aktivləşdirir. Hesablamalar zamanı olacaq səhvlərin qarşısını almaq üçün şifahi və cəld hesablamalara xüsusi yer ayrılmalı, müşahidə, müqayisə və nəticəçıxarma kimi təfəkkür əməlliyyatlar aparılmalıdır. İbtidai sinif müəllimi məsələ həllinə xüsusi hazırlaşmalı, nəzərdə tutulmuş qayda və tələblərə əməl etməlidir. Mürəkkəb məsələlərin həllində də sadə məsələlərdə olduğu kimi müxtəlif metodik priyomlardan istifadə olunur. Bura müsahibə, sadə məsələnin mürəkkəb məsələyə və tərsinə çevrilməsi, müqayisə, şagirdlərin özlərinin məsələ tərtib etməsini müxtəlif yolları və s. aid edə bilərik.

AZƏRBAYCAN DİLİ FƏNN KURİKULUMUNDA ZƏRFİN TƏDRİSİNDƏ YENİ PEDAQOJİ TEXNOLOGİYALARIN KOMPLEKS ŞƏKİLDƏ TƏTBİQİ İMKANLARI

Eyniyeva A. M.
Sumqayıt Dövlət Universiteti
E-mail: shirinayten555@gmail.com

Təlim texnologiyaları (və ya pedaqoji texnologiyalar) termini müəllimin iş metodlarının (əməyinin elmi təşkili metodlarının) məcmusuna istinad etmək üçün istifadə olunur, onların köməyi ilə dərsdə qarşıya qoyulan təlim məqsədlərinə ən yüksək səmərəliliklə nail olunur. Aydındır ki, müxtəlif bilik sahələrində (təbii, dəqiq, humanitar elmlər) multimedia nailiyyətlərindən istifadənin özünəməxsus xüsusiyyətləri vardır ki, bu da yalnız fənn sahəsinin peşəkarı tərəfindən qiymətləndirilə bilər. Məktəbdə ana dili tədrisində informasiya və kompüter texnologiyalarından istifadə tendensiyalarını izləməyə çalışaq. Dərslərdə müxtəlif təqdimatlardan, slayd şoulardan istifadə etməklə başladı. Müəllim dərs üçün materialı əvvəlcədən hazırlayıb, təbii ki, burada söhbət oflayn rejimdən gedir. Tədris prosesinə kompüterlərin tətbiqi ilə imkanlar genişləndi. Müxtəlif multimedia proqramları görünməyə başladı ki, bu da müəllim üçün yaxşı kömək oldu. Məktəblərdə internet mövcud oldu və bu da öz növbəsində müxtəlif elektron resurslardan, o cümlədən elektron kitabxanalardan istifadə imkanlarını açdı. Eyni zamanda, bütövlükdə məktəblərdə təhsil sisteminin informasiyalaşdırılması, elektron jurnalların və gündəliklərin tətbiqi prosesi gedirdi.

Azərbaycan dili fənn kurikulumunda zərfin tədrisində yeni pedaqoji texnologiyaların ən mühüm xüsusiyyətləri aşağıdakılardır:

- Effektivlik (hər bir tələbə tərəfindən qarşıya qoyulmuş təhsil məqsədinə yüksək səviyyədə nail olmaq);
- İqtisadi səmərəlilik (vahid vaxtda çox miqdarda material materialın mənimsənilməsinə sərf olunan ən az səylə mənimsənilir),
- Erqonomika (təlim əməkdaşlıq mühitində, müsbət emosional mikroiqlimdə, həddən artıq yüklənmə və həddindən artıq iş olmadıqda baş verir),
- Dərslərə marağın artmasına kömək edən və tələbənin ən yaxşı şəxsi keyfiyyətlərini təkmilləşdirməyə, onun ehtiyat imkanlarını üzə çıxarmağa imkan verən fənnin öyrənilməsində yüksək motivasiya.

Əsas təlim strategiyası şagirdin şəxsiyyətini, onun qabiliyyət və qabiliyyətlərini, meyl və ehtiyaclarını təhsil prosesinin mərkəzinə qoyan şagird mərkəzli bir yanaşmaya çevrilir. Bütün bunlar yeni təhsil texnologiyaları əsasında həyata keçirilə bilər. Hazırda bu anlayış pedaqoji leksikologiya möhkəm daxil olmuşdur. Texnologiya hər hansı bir işdə, bacarıqda, sənətdə istifadə olunan texnikalar toplusudur. Pedaqoji texnologiya - təlimin səmərəliliyini artıran, istifadəsi aydın şəkildə müəyyən edilmiş nəticəyə malik olan təlim və təlim fəaliyyətinin təşkili üsulları, üsulları və formalarının məcmusu istifadəsinə əsaslanan təhsil prosesinin dizaynıdır.Azərbaycan dili fənn kurikulumunda zərfin tədrisi metodologiyasında yeni təlim texnologiyalarına istinad etmək adətdir: əməkdaşlıqda öyrənmə, layihələr metodu (layihə texnologiyaları), oyun metodu, distant təhsil, dil portfelindən istifadə, keys metodu və intensiv tədris metodları, tənqidi təfəkkür metodu, texniki

vasitələrdən istifadə (ilk növbədə kompüter və audiovizual texnologiyalarda).Şübhəsiz ki, zərfin tədrisində bütün yeni pedaqoji texnologiyaların böyük üstünlüyü dərsi şaxələndirmək, şagirdlərin zərf nitq hissəsini öyrənmək üçün motivasiyasını artırmaq, tənqidi təfəkküründən istifadə etmək, biliklərini oynaq formada yoxlamaq imkanıdır. İstənilən yeni texnologiyanın mənimsənilməsi ilə müəllimin yeni pedaqoji təfəkkürü məktəb uğursuzluğunu aradan qaldırmaq yolu kimi başlayır.Müəllim şagirdin maraqlarını stimullaşdırır, onun Azərbaycan dili praktiki istifadə etmək, eləcə də öyrənmək istəyini inkişaf etdirir və bununla da fənni mənimsəməkdə uğur qazanır. Dərsdə yeni pedaqoji texnologiyalardan istifadə edilən dərsləri təhlil etdikdən sonra əmin olduq ki, zərfin tədrisi prosesinə yeni baxış bucağından baxmaq və şəxsiyyətin formalaşmasının psixoloji mexanizmlərini mənimsəmək, daha yaxşı nəticələr əldə etmək olar.Yeni həyat şəraiti gənclərin təhsili üçün öz tələblərini irəli sürür: onlar təkcə peşəkar savadlı deyil, həm də düşünən, təşəbbüskar, müstəqil olmalıdırlar. Pedaqoji təcrübədə müasir təhsil texnologiyalarından istifadə şagirdlərin intellektual və yaradıcı inkişafı üçün zəruri şərtdir.

Bütün pedaqoji pedaqoji texnologiyaların müxtəlifliyində yuxarıda göstərilən bütün xüsusiyyətlərə malik olan zərf nitq hissəsinin tədrisində ən populyar olanları ayırırıq. Beləliklə, zərf nitq hissəsi dərslərində istifadə etdiyimiz ilk üsul "problemli öyrənmə"dir (case study). Tədris fəaliyyətində real situasiyaların yenidən yaradılması şagirdlərin problemin həllində motivasiyasını artırır. Bu texnologiyanın tətbiqinin nəticəsi tələbələrin fərdi işi, peşəkar biliklərə, praktiki bacarıq və bacarıqlara yiyələnmələri, həmçinin yaradıcı komponentin inkişafıdır. Təcrübə göstərir ki, problem əsaslı təlim tələbələri cəlb edir və onların tənqidi təfəkkürünü inkişaf etdirir. Bununla belə, dezavantaj, materialın assimilyasiya dərəcəsinə təsir göstərə bilən hazırlıq üçün daha uzun müddətdir. Müəllimlər qeyd edirlər ki, dövlət və milli standartlar var ki, onlara əməl olunmalıdır, fənnin mənimsənilməsi üçün saatlar ayrılır.

Hal-hazırda, Coursera (dünyanın aparıcı universitetlərinin təlim kursları yerləşdirdiyi platforma), Ted Talks (dünyanın ən yaxşı natiqlərinin mühazirələri) kimi YouTube konfransları kimi bir çox təhsil platformaları mövcuddur. Müəllim konfranslara baxdıqdan sonra sinif debatlarının köməyi ilə tələbələrin nitq və dinləmə bacarıqlarını təkmilləşdirə bilər, Coursera kurslarından istifadə edərək qrammatik, leksik bacarıqları inkişaf etdirir. Çevirilmiş sinif modelində sinifdə görülənlər, eləcə də ev tapşırıqları dəyişdirilir və ya "çevrilir". Müasir sinifin əsas prinsipi ondan ibarətdir ki, yeni materialla əvvəlcədən iş ev tapşırığını yerinə yetirməzdən əvvəl aparılır. Müasir sinif formatı aşağıdakı üstünlüklərə malikdir: 1. Tələbələr materialı öz sürəti ilə öyrənirlər; 2. Dərs zamanı "ev tapşırığı"nın aparılması şagirdlərin çətinliklərini və onların öyrənmə üslublarını anlamağa kömək edir; 3. Müəllim mövcud kurrikuluma uyğunlaşa və 24/7 tələbələrə təqdim edə bilər; 4. Dərsdə vaxtdan daha səmərəli istifadə olunur; 5. Mövzuya maraq kontekstli cəlb olunmaqla artır; 6. Texnologiyadan istifadə çevikdir və "21-ci əsrdə öyrənmə" anlayışını təmin edir; 7. Dərsdən kənarda qalan tələbələr materialı təhsil müəssisəsindən kənarda işləyə bilərlər; 8. Metod "sinf daxilində və sinifdən kənarda düşünməyi təşviq edir".Beləliklə, müasir cəmiyyətin inkişafı informasiya texnologiyalarının insan fəaliyyətinin bir çox sahələrində, o cümlədən təhsildə istifadəsi ilə xarakterizə olunan informasiyalaşdırma dövründə baş verir. Ənənəvi təhsil vasitələrinin müasir informasiya və kompüter texnologiyaları ilə rasional birləşməsi təhsilin modernləşdirilməsi probleminin həllinin mümkün yollarından biridir.

TEXNOLOGİYA DƏRSLƏRİNDƏ İKT-NİN TƏTBİQİ

Fətullayeva F.Q.
Naxçıvan Dövlət Universiteti
E-mail:fetullayevaferide7@gmail.com

Tədris prosesində İKT vasitələrindən istifadə məlumatın zənginləşməsinə, şagirdin məntiqi təfəkkürünün inkişafına, dərsdə öyrənməyə marağın armasına, yaradıcılıq qabiliyyətinin inkişafına xidmət edir.Bugün bütün fənlər kimi texnologiya fənninin tədrisini də İKT-siz təsəvvür etmək olmur. Xüsusilə indiki dövrdə dərsi kurikulum ilə keçən siniflər də İKT vasitələrindən istifadəyə xüsusi yer verilir.

Məktəblərdə bütün fənlərin, həmçinin texnologiya fənninin tədrisində müasir İKT vasitələrindən xüsusi hallarda istifadə edilir: xüsusi proqram vasitələrindən istifadə edərək dərsin təşkili, şagirdlərin biliyinin yoxlanılması üçün, aparılan prosesləri aydınlaşdırmaq üçün, laboratoriya işlərini tətbiq etmək üçün, tədrisin təşkili üçün, dərs prosesində motivasiya yaratmaq üçün, bəzi məsələlərin həlli yollarını tapmaq üçün, yeni vəsaitlərin hazırlanması üçün, resursların işlənib hazırlanması üçün, sualların və tapşırıqların hazırlanması üçün, şagirdin biliyini qiymətləndirmə üçün və s.

Tədrisdə texnologiya dərslərində İKT vasitələrindən istifadə şagirdin diqqətini inkişaf etdirməklə yanaşı, biliyi dərindən mənimsəməyə, şəkil, audio, video məlumatlarda istifadəni də təkmilləşdirir.

Texnologiya müəlliminin gündəlik iş rejimində İKT vasitələrindən istifadə bacarığı: Texnologiya dərsində mövzunun İKT ilə öyrədilməsi üçün proqramlardan istifadə etmək, Multimedia texnologiyalarından istifadə olunması, Texnologiya dərsində müxtəlif izahatlar üçün İKT-dən istifadə olunması, İnternetdə mövzu ilə əlaqədar olan informasiyanın düzgün araşdırılması, Elektron testlərdən, tapşırıqlardan istifadə olunması, Texnologiya dərs prosesinə uyğun əlavə materialların çap olunması, Dərsdə ağıllı lövhədən istifadə olunması, Texnologiya dərsində şagirdin öyrəndiyi biliyi tətbiq etməsi üçün xüsusi proqramlardan istifadə olunması və s . Texnologiya dərslərində İKT-nin istifadəsi buna imkan verirki: Nəzəri materialı, texnoloji prosesi və digər məlumatları kompüterin ekranında göstərməklə əyani vasitələrin şəkilləri ilə şagirdlərin tanış olması, Məzunların yeni həyata hazırlığı, Məlumatı öyrənmə və öyrətmə proseslərinin audio ilə video yaxud şəkil formasında məlumat ilə yerinə yetirilməsi, Təhsilin idarəsi və materialın dərindən mənimsənilməsi yerinə yetirmək, Fənlərarası ilə fəndaxili əlaqə yəni inteqrasiya yaratmaq.



Dərsin mərhələlərinin yerinə yetirilməsi İKT avadanlıqları vasitələri ilə mümkündür . İlkin mərhələ olan motivasiyanın texnologiya fənnində rolu çox böyükdür. Motivasiya – fəaliyyəti işə salan qüvvə olub dərsin vacib hissəsidir. Motivasiya da sual ilə təklif qoyulub tapşırıq verilir, tədqiqat sualı ortaya çıxarılır. Texnologiya fənninin tədrisində motivasiyanı artırmaq və qorumaq üçün:

- Tələbələrin praktiki fəaliyyətinə görə çox zaman istifadə edilir.
- Yuxarı sinif şagirdlərinə kompüter dərslərində öyrədilən təqdimatdan istifadə qaydalarının tətbiq olunması ilə mövzunu şəkil, audio ilə video ilə keçmək.
- Təkcə mövzunu oxumaq ilə kifayətlənməyib, şagirdlər ilə qarşılıqlı müzakirə etmə, mövzu ilə bağlı suallar verib o cümlədən, əvvəlki mövzularlarla əlaqə yaratma, bu haqda fikirlər söyləyib, yeni öyrənilən məlumatları təhlil etmə, müqayisə də etmə, ümumi yekun nəticəyə gəlmək.Şagirdlərin düşüncəsinin inkişaf etməsi, idraki fəaliyyətinin aktiv olması, yaddaş ilə nitqinin inkişafı, biliyin dərndən öyrənilməsi üçün yaxşı üsuldur.Texnologiya fənnində motivasiya qısa şəkildə verilə bilər. Keçirilən fəal dərsdə motivasiya sadəcə tədqiqat sualından da ibarət ola bilər. Texnologiya dərsində tədqiqatın aparılması mərhələsini İKT ilə yerinə yetirmək məqsədə uyğundur. İKT vasitəsi ilə lövhədə tədqiqat sualı görünür. Tədqiqat sualının şəkillərlə lövhədə qoyulması biliyin müstəqil kəşfinə, fikirlərin irəli sürülməsinə imkan verir.

Texnologiya dərsin də mövzu üzrə məlumat mübadiləsi mərhələsidə İKT vasitələrilə həyata keçirilir. Şagirdlər mövzu üzrə kitabda olmayan şəkillərlə, məlumatlarla tanış olur, biliyini möhkəmləndirirlər. Texnologiya dərsində mövzu ilə əlaqədar olan biliyi şagirdlər mənimsəyib bir birlərinə ötürürlər. Mərhələnin İKT ilə keçirilməsində: şagirdlərin fikri ekranda göstərilən təqdimatda olur, mövzu üzrə yeni biliklər toplanır, kitabda olmayan şəkil ilə video təqdimat şagirddə maraq oyadır, daha çox şagird fikir mübadiləsi apara bilir, fəal dinləməyi bacarığı yaranır və s. nəticələr əldə olunur.İş vərəqlərinin komputerdə hazırlanıb ekran da görülməsi ilə qrup işini yerinə yetirmək mümkündür.Məlumat müzakirəsi mərhələsinin İKT vasitəsi ilə həyata keçirilməsində şagird texnologiya dərsində əldə etdiyi yeni informasiyanı qruplaşdırır, tədqiqat sualının dəqiq cavabı bu mərhələdə tapılır. Lakin burda şagirdin zehni vərdişi formalaşır.

Texnologiya dərsində 5-ci mərhələsi olan nəticələrin çıxarılmasında ümumiləşdirmə aparılır. Yaranan ideya yaradıcı tətbiqetmə mərhələsində özünü göstərir. Texnologiya dərsi bitdikdən sonra da bu mərhələ ev tapşırığı kimi verilə bilər. İKT ilə keçirilən texnologiya dərsinin son mərhələsi qiymətləndirmə olub İKT ilə yerinə yetirilir. Müəllim kompüterdə hazırladığı cədvəli lövhədə göstərir və şagirdin biliyinə uyğun qiymətləndirmə aparır.

NEW TRAİNİNG METHODS, CONTENT OF THE TRAİNİNG, ESSENCE OF TRAİNİNG, İNTERACTİVE TRAİNİNG METHODS

Hashimova Z. Sh.
Odlar Yurdu University
E-mail: vusal.hashimov@bk.ru

The standards can serve as a guide for schools and classroom instruction and give teachers and trainers a frame of reference for their work. The development of educational standards involves: (a) decisions as to social and pedagogical goals, (b) scientific work, especially in the fields of subject didactics and psychology, to determine the structure of competencies and (c) test development concepts and methods. Educational standards translate the schools' educational mission into concrete terms for key areas of learning and thus gear teaching and learning towards shared goals. Students benefit of this, because standards also help to improve the professional expertise of teachers and trainers and quality development on the institutional level. Translated into assessment programmes, standards are used for educational monitoring and the evaluation of schools. These serve to ascertain and assess learning outcomes.

The following example shows ten characteristics of good teaching that was compiled for the purposes of teacher education and training :

a). Clear teaching structure: objectives, contents and processes of teaching must be clear, as well as the roles of teachers and students. The rules by which work and interaction take place, are laid down.

b). High Amount Of Time On-Task: The available classroom time is best used for learning. This is achieved by good time management, punctuality and clear rhythms of the day's program. Organisational issues are largely outsourced, so that little or no teaching time is spent on them.

c). Content Clarity: This criterion overlaps with the first, the clear structuring. In content clarity, the emphasis is laid on the fact that assignments are given in an understandable manner, the learning process is observed and taken into account and that the presentation of the content is understandable.

d)Good Climate for Learning: Some of the prerequisites for a good climate for learning are mutual respect, the reliable observance of rules and the assumption of responsibility. Justice and care are other requirements for a good climate for learning.).

e). Meaningful Communication: Meaningful communication is promoted through the participation of students in the planning and management of the conversation culture.

f). Variety of Instructional Methods: The diversity of methods helps to ensure that students with different prerequisites and learning styles can be reached and that teaching can be adjusted. It is important to note, however that goals, content and methods cannot be defined independently from one another. The „variety of instructional methods" has no value of its own."

g). Individual Support: Individual support needs time and a free hand. One must differentiate and also give adjusted explanations and tasks. The teacher must have a clear view of the learning stage of the individual student and pay particular attention to certain students.

h). Clear Description of Goals to be achieved: The students should be clear on what is expected of them. Feedback on the performance should be reasonable and fair and they should be done promptly.

i). Intelligent Exercises: Students should become aware of the learning strategies they use and those which they can also use in addition. The exercises should be varied and be application-related.

j). Well-Prepared Learning Environment: The learning environment, the classroom, but also the organisation of the school should offer the students a solid framework for their learning. The rooms should be spacious and aesthetic.

Interaction level. Interaction level refers to the relative amount of interaction between trainer and trainee and among trainees. Learning is widely believed to be a socio-cul-tural experience necessitating social interaction to achieve effective. The level of interaction refers to the relative amount of interaction between the trainer and trainee and between trainees. Learning is believed to be a sociocultural experience that requires social interaction to achieve effective [professional] learning . We used a basic scale to describe the degree of interaction expected in each training method: interactive, somewhat interactive, and not interactive. It should be noted that the situation we evaluate as a variable is related to the method of study. The degree of interaction with the experiential learning method is somewhat interactive, while the subjects are required to independently read and retain information from a particular case study. However, when trainees are asked to participate in a group discussion and develop a group solution to a case study, the level of interaction is decidedly interactive.

Interactive lessons encourage student participation and active knowledge testing to ensure understanding of key concepts.The tools listed below have a "presenter" feature that allows you to share code with your students so they can participate as a group. The lesson will be projected at the front of the classroom, and when the video is paused, students will be prompted to answer questions on their personal devices. This allows class discussions to begin based on student responses. Student results are also tracked, which is useful during formative assessment.Training environment. The training environment refers to the setting in which the training takes place. A natural environment refers to the real work environment. A contrived environment refers to a training environment that is created specifically for the training and does not resemble the work environment, whereas a simulated environment is contrived but aims to simulate the natural work environment. Therefore, for the training environment criterion we have three possibilities: natural, contrived, and simulated. All on-the-job training takes place in a natural environment whereas off-the-job training can be either contrived or simulated.

XARİCİ DİLDƏ DİNLƏMƏDƏ YENİ YANAŞMALAR

Həmzəyeva A.E.
Bakı Slavyan Universiteti
E-mail: ayten.hemzeyeva28@gmail.com

Xarici dildə dörd əsas bacarıqdan biri də dinləmədir.Müəllimlər bəzən bu bacarığa o qədər də əhəmiyyət vermirlər və diqqətsiz şəkildə öyrədirlər. Dilin öyrədilməsi və öyrənilməsi sahəsində səriştəliliyə sözügedən dildə danışmaq və yazmaq bacarığı kimi baxılır. Dinləmə və oxu bacarıqları ikinci yerdədir. Bu vəziyyətin bir səbəbi dinləmə bacarığının tələbkar xüsusiyyəti ola bilər. İT texnologiyasına əsaslanan məlumatların cəmiyyətdə yayılmasından sonra dinləmə lingafon siniflərində yeni əhəmiyyət kəsb edib. Qeyd etmək lazımdır ki, tələbələrin dərs vaxtının çox hissəsi dinləməyə ayrılır. Buna baxmayaraq, biz çox vaxt dinləməyə əhəmiyyət veririk və bu, digər bacarıqlar arasında ən çox diqqətdən kənarda qalan bacarıqdır. İstənilən dili öyrənmək üçün təbii qaydada dinləmə birinci yerdədir. Heç bir qəbul olmadan heç bir şey istehsal edilə bilməz. Baxmayaraq ki, müəllim səlis və məhsuldar tələbələrə sahib olmaq istəyirsə, dinləmə bacarığının öyrədilməsinə çox və lazımi diqqət yetirməlidir. Digər dörd bacarıq arasında ikinci dil siniflərində ən çox unudulan və diqqətdən kənarda qalan dinləmə bacarığıdır.Bəzi müəllimlər hesab edir ki, nitqdən fəal şəkildə çəkinmək lazımdır. Dinləməyi vurğulamaq və danışmağı gecikdirməyin səbəblərindən biri də rəyə əsaslanır. Danışmağa önəm verənlər dilə məhsul kimi baxır və dilin davranış olduğunu düşünür və danışmağı da bu öyrənmənin və ya baş verənlərin təzahürü hesab edir.Əksinə, Nation, Newton dinləməyə daha çox əhəmiyyət verən yanaşmaları var. Dil öyrənmənin bu yanaşmasında dinləmə mərkəzdədir. Dildən istifadə etmək və biliklərin qurulması üçün lazım olan bütün məlumatlar qəbuledici bacarıqlardan gəlir: dinləmək və oxumaq. Bu mövzuda dil biliyi qurulduqda, öyrənən yaza və danışa bilir. Başqa sözlə, hər hansı bir giriş olmadan, nəticə və ya çıxış heç bir şey olmamalıdır.Grey danışmağı gecikdirməyin və diqqəti dinləməyə cəmləşdirməyin faydalarını təsvir etmişdir. Bu üstünlüklərə aşağıdakılar daxildir:

1.Şagird eyni zamanda iki və ya daha çox bacarıqlara diqqət yetirmək məcburiyyətində qalaraq həddən artıq yüklənmir - koqnitiv fayda.

2.Əhatə sürəti - reseptiv bilik məhsuldar bilikdən daha sürətli böyüyür.

3.Həqiqi kommunikativ dinləmə fəaliyyətlərinə çox tez keçmək asandır.

4.Tələbələr dil dərsləri ilə bağlı utancaq və ya narahat olmayacaqlar. Xarici dildə danışmaq məcburiyyətində olmaq, xüsusən də çox az bildiyiniz zaman, qorxulu bir təcrübə ola bilər.

Aydın görünür ki, dinləməyi öyrətmə üsulu dəyişdirilməli və dəyişdirilməlidir. Şagirdləri mövzuya cəlb etmək və onları təlim prosesində fəallaşdırmaq üçün dinləmənin öyrədilməsi modelləri ilə bağlı bəzi ənənəvi problemlərdən qaçınmaq lazımdır. Tələbələrə imkan vermək daha yaxşıdır: nə dinlədiklərini seçin; öz dinləmə mətnini yaradın; onların avadanlıqlarına nəzarət etmək göstərişlər verin.

Dinləmənin öyrədilməsi metodologiyası dəyişdirilməlidir. Dinləmə bacarıqlarının bütün aspektləri əhatə olunmalı və kommunikativ səriştə çərçivəsində dinləmədə əsl səriştəyə səbəb olmalıdır. Təklif dinləmənin daha çox tapşırıq əsasında diqqət mərkəzində olması və dinləmə materiallarının həqiqiliyinin diqqət mərkəzində olmasıdır. Şagirdlər və dinləyicilər dinləmə qabiliyyətini inkişaf etdirmək üçün daha çox məsuliyyət daşımağa təşviq edilməlidir.

MƏKTƏBƏQƏDƏR YAŞ DÖVRÜNDƏ GENDER ANLAYIŞI

Həşimova Ş.Z.
Bakı Slavyan Universiteti
E-mail: serqiyehesimova@gmail.com

Gender – insan şəxsiyyətinin tərbiyəsi prosesində formalaşan və fərdlər arasında psixoloji, sosial və mədəni fərqləri özündə əks etdirən sosial cinsdir. Gender təhsilini təşkil edərkən başa düşmək lazımdır ki, anatomik və bioloji xüsusiyyətlər oğlan və qızlar arasında psixi fərqlərin yalnız ilkin şərtləri, potensial imkanlarıdır. Bu psixi fərqliliklər sosial amillərin - sosial mühitin və tərbiyənin təsiri altında formalaşır. Nəticə etibarı ilə, qız və oğlanların tərbiyəsi məsələlərinə anadangəlmə deyil, təbii meyllərin və müvafiq sosiallaşmanın kompleks qarşılıqlı təsiri nəticəsində, eləcə də sosiallaşmanın inkişafı nəticəsində yaranan bir fenomen kimi baxmaq lazımdır.Məktəbəqədər yaş dövrü 3-6 yaşları əhatə edir. Bu yaş dövrü insanın inkişafı üçün çox vacib, əhəmiyyətli dövrdür. Çünki şəxsiyyətin bütün ən vacib xüsusiyyətləri, meylləri və qabiliyyətləri məhz bu yaşda formalaşır. Üç yaşında uşağın cinsi identifikasiyası baş verir. Yəni bu yaşda uşaq artıq öz cinsini mənimsəyir. Onlara "sən qızsan ya oğlan?" sualını verəndə inamla "mən qız və ya oğlanam" cavabını verirlər. Uşaqlar 4 yaşından başlayaraq insanların gender fərqlərinin zahiri görünüşünə görə ayırırlar. Məsələn, qızlar don geyinir, oğlanların saçı qısa olur və s. Dört yaşından sonra uşaqların cinsi özünüdərk etməsi başa çatır. Lakin onlarda az da olsa cinsin daimi olmaması, dəyişəcəyi kimi fikirlər qalır.Böyük məktəbəqədər yaş dövrü uşaqların cinsi-rol aspektində inkişafında və gender identekliyinin yaranmasında əhəmiyyətli dövr sayıla bilər. 5-6 yaşlı uşaq artıq öz cinsinin dəyişməzliyini, daimiliyini dərk edir. Uşaq altı yaşın sonunda artıq öz cinsi rolunu mənimsəyir və cinsi identiklik sistemi formalaşır. R.Q.Xristova öz tədqiqatlarında belə nəticəyə gəlmişdir ki, böyük məktəbəqədər yaş dövründə olan uşaq öz cinsi mənsubiyyətlərinə müsbət yanaşırlar. Məsələn, beş yaşlı qızlar gözəl geyinməyi, gözəl saç düzümünə malik olmağı sevirlər. Beş yaşlı oğlanlar isə idman məşğələlərini daha vacib hesab edirlər.Altı yaşlı qızlar yalnızca geyimlərinə, görünüşlərinə deyil, eyni zamanda şəxsi keyfiyyətlərinə də fikir verməyə başlayırlar. Onlar da qadınlar kimi ağıllı, xeyirxah olmağa çalışırlar. Oğlanlar isə özlərinin kişi cinsinə mənsub olduqlarının təzahürü kimi tipik kişi xüsusiyyətlərinə – güclü, cəsarətli olmağa, özlərindən zəif olanları müdafiə etməklə öz cinsi identikliklərini təsdiq etməyə çalışırlar.Böyük məktəbəqədər yaş dövründə uşaqlarda cinslərarası rəğbət, əks cinsə seçici münasibət özünü göstərir. Böyük məktəbəqədər yaş dövründə artıq qadınlıq, kişilik xüsusiyyətləri haqqında ciddi gender təsəvvürlərinin rüşeymi qoyulur. Uşaqlar tərəfindən hər iki cinsin tipik fəaliyyət sahəsi dərk edilir. Məktəbəqədər yaşlı uşaqlar öz cinslərinə mənsub yaşlılara oxşamaq, onlar kimi olmaq istəyirlər. Buna görə də onlar yaşlıları təqlid edirlər. Onların bu istəyi onların həm geyimlərində, həm də davranışlarında hiss olunur. Məktəbəqədər yaş dövründə uşaqlarda artıq gender identikliyi formalaşmağa başlayır. Gender identikliyinin formalaşmasına müxtəlif amillər təsir edir. Buraya həm sosial, həm də bioloji amillər aiddir. Gender identikliyinin inkişafında qeyri-münbit şərait inkişafa mənfi təsir göstərir. Psixoloqların fikrincə, 5-6 yaşlı uşağın cinsi identifikasiyasındakı çatışmazlıqları müəyyən etmək olar.Məktəbəqədər yaş dövrü uşaqlarda gender identikliyinin yaranması və inkişafı üçün əhəmiyyətli dövrdür. Ona görə də bu yaş dövründə olan uşaqların inkişafına, tərbiyəsinə ciddi diqqət yetirmək lazımdır. Onların tərbiyəsindəki hər hansı çatışmazlıq, səhv yanlış tərbiyəyə gətirib çıxara bilər. Düzgün olmayan gender tərbiyə nəticəsində uşağın cinsiyyətə aid hisləri sönükləşir ki, bu da gələcəkdə uyğun olmayan davranış formalarının yaranmasına səbəb ola bilər. Buna görə də uşaqların tərbiyəsinə, xüsusilə də məktəbəqədər yaşlı uşaqların gender tərbiyəsinə ciddi diqqət yetirmək lazımdır.

YENİ TƏHSİL SİSTEMİNİN ÜSTÜNLÜKLƏRİ NƏDİR?

Heydərli G.M.
Bakı Slavyan Universiteti
E-mail: heyderligulare@gamil.com

Ənənəvi dərslə fəal dərslərin quruluşunun müqayisəli araşdırılmasında bəzi məsələlər diqqəti cəlb edir. Ənənəvi dərslərdə şagird təfəkkürünün fəal inkişafetdiriciliyi hiss olunmur. Fəal dərsdə isə müəllim təfəkkürünün ənənəvi dərslərdə açıqlanmayan vahidləri tətbiqi dərs konsepsiyasında innovasiyadır. Biliklərin mənimsənilməsinin başlıca meyarı onun yaradıcı surətdə tətbiqidir. Yaradıcı tətbiqetmə biliyi möhkəmləndirir,

onun praktik əhəmiyyətini öyrənənlərə açıb göstərir. Buna görə müəllim imkan daxilində şagirdlərə təklif edə bilər ki, onlar müəyyən məsələlərin həlli, yaxud yeni suallara cavab tapmaq üçün qazanılmış bilikləri tətbiq etməyə çalışsınlar. Son nəticədə yaxşı olar ki, öyrənənlərə, onların kəşf etdikləri biliklərin yaradıcı surətdə tətbiqinə dair çalışmalar verilsin ki, bu halda həmin biliklər həmişəlik onların şüurunda həkk olunur, yadda qalar.

1. Ənənəvi dərsdə müəllim fəal, tələbə passiv olurdu. İnteraktiv təlimdə isə hər iki tərəf (öyrədən və öyrənən) eyni vaxtda iştirak edir.

2. Dərsdə iştirak edən hər iki tərəfin - müəllimin və tələbənin bütün dərsboyu fəallığı saxlanılır.

3. Müəllim dərsin əvvəlində problem - situasiyanı yaradır. Burada o, induktiv (yəni misallardan ümumi qaydaya, onlardan yenə, misallara) metodla problem haqda biliklər verir, maraq yaradır. Müəllimlə birgə problemin həllinə başlanılır.

4. Dərsdə hər bir mövzu elmi araşdırma kimi verilir, şərh edilir. Mülahizələr dinlənilir. Bu məqsədlə müəllim hamını ümumi dialoqa cəlb edir.

Hələ 100 il əvvəl dahi bəstəkarımız, böyük maarif xadimi Üzeyir Hacıbəyov "Tərəqqi" qəzetində bu problemi dərsin əsası kimi qoymuşdur. O, deyirdi ki: "Pedaqogika və didaktika tələb edir ki, dərs əsnasında hər kəs ciddi surətdə iştirak etsin. Yəni təhsil alanın həm əqli işləsin, həm də hissiyyatı, uşaqla iqtidar əmələ gəlsin, dərs onu həvəsə gətirsin, onun üçün şirin olsun... kəşf etsin ki, əqli, xəyalı, dərrakəsi, tərbiyə etsin. Dərsə qalib gəldiyini duysun...".Fəal təlimin üstünlüyü odur ki, şagirdlərdə biliyə yiyələnmə həvəsi yaradır, şagird öz istəyinə və fəaliyyətinə əsasən yeni bilik kəşf edən zaman onda dərsə maraq yaranır, əldə etdiyi bilik uzun müddət yaddaşından silinmir. Sonrakı bakalavr pilləsində keyfiyyətli təlimin, onun bacarıqlarının, tədqiqatçılığın bünövrəsini qoyur. Əqli ehtiyatların səfərbərliyini təmin edir, idrak prosesini fəallaşdırır, diqqəti uzun müddət cəmləməyə imkan yaradır. Biliklər "hazır" şəkildə deyil, onların müstəqil surətdə kəşfi prosesində mənimsənilir, yəni mənimsəmə prosesi passiv deyil, faal xarakter daşıyır. Təlim prosesində təfəkkürün fəallaşdırılması nəticəsində: Biliklər daha müstəqil, sərbəst qavranılır və mənimsənilir; Məntiqi, tənqidi və yaradıcı təfəkkür, habelə problemlərin həlli və qərar qəbul edilməsi üzrə vərdişlər formalaşdırılır; Elmi-tədqiqat vərdişləri formalaşdırılır; Qarşılıqlı hörmət hissi və əməkdaşlıq vərdişləri aşılanır; Təlimin səmərəliliyi (daha qısa müddətdə daha çox informasiyanı mənimsətmək imkanı) xeyli artır. Əgər şagird öz istəyinə və öz fəaliyyətinə əsasən yeni bilikləri kəşf edirsə, onda o dərsə yaradıcı və maraqlı yanaşır, əldə etdiyi bilikləri uzunmüddətə möhkəm mənimsəyir. Təlimin məqsədindən, məzmunundan, şagirdlərin hazırlığından asılı olaraq müəllim öz seçimini etməlidir. Yəni lazımi məqamlarda həm də ənənəvi metodlardan, izahedici illüstrativ metodlardan istifadə edə bilər. Bu daha çox səmərə verə bilər. Əldə edilmiş bu bilik və bacarıqlar təhsilin sonraki pillələrində tətbiq edilir, yüksək ixtisaslı kadırların yetişməsini reallaşdırır. Cəmiyyət məhz hazırlıqlı elimli kadırlar tələb edir. Çünki müasir inkişafın əldə olunması üçün savadlı, yüksək ixtisaslı kadırlara ehtiyac vardır.

TƏLİMƏ MARAĞIN ARTIRILMASINDA MÜƏLLİM AMİLİNİN ROLU

Heydərli G.M.
Bakı Slavyan Universiteti
E-mail: heyderligulare@gamil.com

Yüksək səriştəyə və peşəkarlığa malik olan müəllimlər şagirdlərə (təhsilalanlara) proqram mövzusunu mənimsətməklə kifayətlənməyərək, onlara öyrənməyin yollarını öyrətməyə, müəyyən situasiyaları həll etmək üçün onları axtarışa, yollar tapmağa, problemi həll etmək səriştəsinə yiyələnməyə istiqamətləndirməlidirlər. Lakin bunlar heç də plansız, sistemsiz şəkildə deyil, müəllimin əvvəlcədən müəyyənləşdirdiyi texnoloji proseslərin hesabına baş verir ki, bunlar həm keçmiş biliklərlə əlaqələndirilir, həm də yeni biliklərə yol açа bilir. Burada sadədən-mürəkkəbə, asandan çətinə prinsipinə riayət etməklə öyrənənlərin şagirdlərin biliyi müstəqil mənimsəmələrinə şərait yaradır, bu da onların arasında qarşılıqlı əlaqə, əməkdaşlıq, müəyyən məsələni birgə həll etmək təşəbbüskarlığını gücləndirir. Nəticədə isə bunlar şagirdlərin elmi fəaliyyətinin fəallaşmasına mühüm təsir göstərir. Nəticədə dərs modeli yaranır.Dərs bir sıra elementlərdən birləşərək formalaşır və üzə çıxır. Hər bir dərs özünün məzmunu, məqsədi və xarakteri ilə şagird şəxsiyyətinin formalaşmasında müəyyən yer tutur. Dərs öyrədir, tərbiyə edir, inkişaf etdirir. Müasir, yeni dövrün tələblərinə cavab verən dərs müstəqil və məsuliyyətli bir iş kimi müəllimin pedaqoji təfəkkür, yeniliyə meyletmə, təlim prosesinə novator yanaşma tərzi tələb edir. Burada əsas yeri dövlət standartına müvafiq proqramının

müəyyənləşdirdiyi dərs materialı tutur. Adətən təcrübəli müəllimlər tədris proqramının Əsas isiqamətlərini, vəzifə və strukturunu yaxşı bilir və onu təhlil etməyi bacarırlar. Lakin usta müəllimlər həmişə keçəcəkləri dərsin yaxşı, maraqlı dərs olması üzərində daha çox düşünür və ona çalışırlar.Müəllim dərsə hazırlaşarkən proqramı nəzərdən keçirməli, öyrədiləcək materialın məzmununu təhlil etməli, dərsin didaktik məqsədini və vəzifəsini müəyyənləşdirməli və onu planlaşdırmalıdır. Bunlar aşağıdakı problemlərin həllinə istiqamətləndirildikdə alınan nəticələr daha səmərəli olur:

-Dövlət tərəfindən müəyyənləşdirilən təhsil standartlarının proqram və dərs materialının dərk edilməsi;
-Bu materialların müasirliklə və uşaqların inkişafı ilə qarşılıqlı əlaqəsi;
-Keçmişdə öyrənilən materiallarla hazırda öyrənilməsi zəruri olan materialların qarşılıqlı əlaqəsi;
-Hazırkı materialın konkret siniflə və konkret şagirdlərin psixoloji xüsusiyyətləri ilə qarşılıqlı əlaqəsi;
-Şagirdlərin müstəqil yaradıcı fəaliyyətlərinin təşkili və yaradıcı düşüncələrinin inkişafı;
-Dərsin məqsədinin reallaşdırılması və ona nail olunması və s.

Müasir müəllim araşdırmalar aparmalı, müasir təhsil, tərbiyə, inkişaf texnologiyalarından baş çıxarmalı, düzgün diaqnozlaşdırma, proqnozlaşdırma, layihələşdirmə, informasiya vermə, təşkiletmə, qiymətləndirmə, nəzarətetmə və korreksiya funksiyalarını bilməli, tədqiqatçılıq bacarığı olmayan müəllim bu keyfiyyəti öz şagirdlərinə aşılaya bilməz... Müasir müəllim yaradıcı olmalıdır. Yaradıcı fəaliyyət göstərən müəllim öz pedaqoji yaradıcılığını müntəzəm olaraq pedaqogika, psixologiya və metodikanın vacib müddəaları ilə əlaqələndirməli, yeniliklərlə zənginləşdirməlidir. Təlim prosesinin qurulması texnologiyasının məntiqi yekunu pedaqoji fəaliyyətin layihəsinin plan, plan-konspekt (icmal), yaxud konspekt formasında yazılmalıdır. Bu baxımdan müəllim keçəcəyi hər bir dərsin mövzusuna ciddi surətdə hazırlaşmalıdır. Fənninə yaradıcı yanaşmağı bacarmalı, dərsin daha da maraqlı, canlı keçməsi üçün lazımi tədris resurslarından, vəsaitlərindən, yeni təlim metodlarından, metodiki ustalığından istifadə etməyi bacarmalıdır.Müasir tədris prosesinin təşkilinin yeni, daha səmərəli formalarının tətbiqi yüksək intellektual hazırlığa malik olan, qazandığı biliklərdən istifadə etməyi bacaran hərtərəfli dünyagörüşə malik, milli mənəvi və ümumbəşəri keyfiyyətlərə yiyələnmiş şəxsiyyətin, əsl vətəndaşın yetişdirilməsinə xidmət edir. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında» deyilir: «Müəllim amili təhsilalanın öyrənməsi və inkişafı, nailiyyətlərin monitorinqi prosesində həlledici rol oynayır".

MİLLİ MƏNƏVİ DƏYƏRLƏRİN QORUNMASINDA MƏQSƏDYÖNLÜ FƏALİYYƏT

Heydərova K.R.
Bakı Slavyan Universiteti
E-mail: kubraheyderova1@gmail.com

Bildiyimiz kimi hər bir xalqın mövcudluğunun əsas göstəricisi onun adət-ənənələri, milli-mənəvi dəyərləridir. Bizim tariximiz, ədəbiyyatımız, incəsənətimiz, dilimiz, adət-ənənəmizdir milli-mənəvi dəyərlər. Bu milli dəyərlərimizin qorunması və yaşaması ailədən, məktəbdən başlanır. Dünyaya göz açdığımız ilk gündən anamızın laylası, faydalı məsləhətləri, nəsihətləri ilə əlimizdə çanta məktəbə qədəm qoyduğumuz ilk gündən isə müəllimlərimizdən, ədəbiyyatımızdan yurd sevgisi, vətən məhəbbəti, anaya qayğı, adət-ənənəmizi qorumaq, yaşatmaq, milli dəyərlərimizi, milli ənənələrimizi, tariximizi, dilimizi, dinimizi, keçmişimizi yaxşı bilməli olduğumuzu, keçmişi unutmamağı öyrəndik.Azərbaycan xalqı qədim və köklü milli-mənəvi dəyərlər sisteminə malik olan bir ölkədir. Xalqımız bu dəyərləri sədaqətlə qorumuş, əsrlərlə yaşatmış və inkişaf etdirmişdir. Milli-mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün də öz əhəmiyyəti ilə diqqət çəkir. Milli-mənəvi dəyərlər xalqımızın formalaşmasına təsir etmiş, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rol oynamışdır. Milli-mənəvi, o cümlədən dini dəyərlərimizin, adət-ənənələrimizin dərindən öyrənilməsi və araşdırılması müasir cəmiyyətimizin prioritet istiqamətlərindən biridir. Tarixi təcrübə göstərir ki, öz soykökündən, tarixindən, milli-mənəvi dəyərlərindən uzaq düşən millətlər və dövlətlər müəyyən zaman kəsiyində yox olmaq, tarix səhnəsindən birdəfəlik silinmək təhlükəsi ilə üz-üzə qalmışlar.Bəs milli-mənəvi dəyərlər deyəndə nə başa düşülür? Milli ideologiya, mənəvi yaddaş, milli tarix, milli dil, ənənəvi dini dəyərlər, milli mədəniyyət və incəsənət, milli ədəbiyyat, milli özünüdərk, ailə sistemi, dahi şəxsiyyətlərimiz, milli musiqimiz və s. Bir sözlə, milli və mənəvi olan bütün nailiyyət və keyfiyyətlərimiz milli-mənəvi dəyərlər sisteminə aiddir.Azərbaycan xalqı hər zaman milli dəyərlərə sadiqliyini göstərmiş, bu dəyərləri əsrlərlə yaşadaraq inkişaf etdirmişdir. Tarixin hər bir dövründə ölkəmizdə milli dəyərlərimizin qorunması və onun gələcək nəsillərə çatdırılması aktual olub. Elə günümüzdə də bu müsbət tendensiya özünü

qoruyub saxlayır. Çünki milli dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu var.Günümüzdə, Azərbaycan müasirləşən, Avropa və dünya birliyinə sürətli inteqrasiya yolunu tutan bir ölkədir. Düzdür, müstəqillik qazandıqdan sonra da dövlətimiz və cəmiyyətimizdə qloballaşma tendensiyası müşahidə etmək olardı. Lakin, son dövrlər qloballaşmanın milli kimliyə təsiri cəmiyyətə daha çox yad dəyərləri qəbul etdirmək cəhdi kimi qiymətləndirilir. Heç şübhəsiz ki, müasir dünyada sürətlə davam edən qloballaşma prosesləri bizim də ölkədən yan keçməyib. Müsbət hal isə ondan ibarətdir ki, artıq cəmiyyətin özündə ona qarşı əks reaksiya başlayıb. Bütün halda millət, xalq olaraq qloballaşma adı altında öz milli dəyərlərimizi unutmamalı və bu dəyərlərə sadiq olmalıyıq. Hər bir ölkə və xalq üçün onun milli dəyərləri hər şeydən üstün tutulmalı və digər xalqların dəyərləri ilə ziddiyət təşkil etməməlidir. Bu baxımdan biz qloballaşma deyəndə Azərbaycanda beynəlxalq əməkdaşlığı, xoş münasibətləri, səmimi dostluğu nəzərdə tuturuq. Biz hər zaman qloballaşma adı altında digər xalqların adət-ənənələrinə zidd olan, milli mentalitetə xas olmayan dəyərlərə qarşı mübarizə aparmalıyıq. Təbii ki, bu mübarizədə milli mənliyimizi qorumaq ən vacib şərtlərdəndir. Deməli, milli mənəvi dəyərlərimiz yaşadıqca milli kimliyimiz də mövcud olacaq. Bu dəyərlər dəyişdikdə isə artıq qarşımızda fərqli milli kimliyi görəcəyik. Ona görə də gənclər arasında milli-mənəvi dəyərlərin qorunması istiqamətində işlər görülməli, onlarda vətənpərvərlik və vətəndaşlıq hissləri gücləndirilməlidir. Xüsusən bu istiqamətdə təhsil prosesinin keyfiyyətini artırmalı, elmi-nəzəri və metodiki tövsiyələr işləyib hazırlanmalı, normativ-hüquqi bazanın yaradılmasına nail olunmalıdır. Müsbət dəyərləndirilməli məqam ondan ibarətdir ki, bu gün dövlət səviyyəsində milli kimliyin əsasını təşkil edən milli və mənəvi dəyərlərin qorunması və yaşadılması istiqamətində daha məqsədyönlü fəaliyyəti görə bilirik.

MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN, İRSİMİZİN ÖYRƏNİLMƏSİ VƏ TƏBLİĞİNDƏ ƏDƏBİYYAT DƏRSLƏRİNİN ƏSAS ROLU

Heydərova K.R.
Bakı Slavyan Universiteti
E-mail: kubraheyderova1@gmail.com

Hər bir xalqın, millətin mövcudluğu onun ana dilinə, adət-ənənələrinə, öz mədəniyyətinə, ədəbiyyatına, tarixinə bağlılığından asılıdır. Azərbaycan xalqı məhz milli-mənəvi dəyərlərinə sadiqliyi sayəsində özünün mövcudluğunu, milli özünəməxsusluğunu bugünədək qoruyub saxlaya bilmişdir. Xalqımızın ən böyük sərvətlərindən biri onun zəngin milli, mənəvi, mədəni, maddi, ədəbi, dövlətçilik irsinə sahib olmasıdır. Bu zəngin mənəvi irs xalqımız tərəfindən əsrlər boyunca yaradılmış və onun böyük hissəsi bugünədək qorunub saxlanılmışdır.Azərbaycanın Nizami, Xaqani, Nəsimi, Füzuli, Vaqif, Aşıq Ələsgər, M.F.Axundov, Q.Zakir, Seyid Əzim, Sabir kimi söz ustalarının xalq dühasına, onun zəngin yaradıcılıq xəzinəsinə, mədəni sərvətlərinə arxalanıb yaratdıqları klassik ədəbi irs tarixin keşməkeşlərindən keçərək, insanlara humanizm ideyaları, azadlığa, xalqa, əməyə dərin məhəbbət, dostluq, ədalət, mərdlik kimi gözəl mənəvi keyfiyyətlər aşılayır. Klassik əsərlərdə insanı haqqa, düzlüyə, tərəqqiyə səsləyən çağırışlar, xalqlar dostluğu, qardaşlıq, mənəvi-əxlaqi təmizlik haqqında nəsihətamiz fikirlər, riyakarlığa, ikiüzlülüyə, acgözlüyə, tamahkarlığa qarşı mübarizə, zülmə, ədalətsizliyə, qəsbkarlığa şiddətli etiraz motivləri tapırıq.Biz bütün milli-mənəvi dəyərləri incəliyinədək kökü qədim olan Azərbaycan ədəbiyyatından öyrənirik. Hansı əsəri əlinə alsan, hamısında - ədəbiyyat xəzinəsində, qəhrəmanlıq, məhəbbət dastanlarında, mərdliyi, hünər və cəsarəti təbliğ edən nağıllarda, həyatın, insanın, təbiətin gözəlliklərini tərənnüm edən bayatılarda, aşıq şeirlərində, zəngin həyat təcrübəsindən doğan, insanın qaranlıq yollarını məşəl kimi işıqlandıran bütün əsərlərdə xalqın kamalı, mənəvi qüdrəti, quruculuq, yaradıcılıq qabiliyyəti, insanpərvərliyi, həyat və azadlıq sevgisi öz parlaq ifadəsini tapmışdır.Qədim dövrlərdə "Dədə Qorqud", "Manas", "Alpamış", "Koroğlu" dastanları, xalqımıza mənsub olan dahi şairlərimiz, yazıçılarımız - Nizami, Yunus Əmrə, Əlişir Nəvai, Füzuli, Nəsimi, Məhtimqulu, Abay və digərləri tariximizi, mənəvi dəyərlərimizi əks etdirən, bizi dünyada tanıdan ölməz əsərlər yaratmışlar və bunlar nəsillərdən-nəsillərə xalqlarımızı özünəməxsus milli-mənəvi dəyərlər o cümlədən, ümumbəşəri dəyərlər əsasında tərbiyə etmiş, hazırlamış, vətənpərvərlik, Vətənə sədaqət hisslərini daim gücləndirmişdir.

Bu zəngin irsdə xalqın soykökünə bağlı olan adət-ənənələr yaşayaraq əsrimizə, yeni yüzilliyə qədər gəlib çatmışdır. Xalqın toy-büsat mərasimi, bayram adət-ənənələri, Novruz mərasimləri, yas mərasimləri, İslam dininin təmizlik, düzlük, insanlıq, kimi bəşəri, ali hissləri tərbiyə edən dəyərləri onun milli-mənəvi dəyərlərini özündə yaşadır. Bütün bunların kontekstində Azərbaycan vətəndaşının varlığı göstərilir. Uzun

illərin yolu və əsrlərin, qərinələrin sorağı bu ənənələrə bizi bağlamış, dövrümüzə körpü salmışdır. Müasir insanın formalaşması və özünü təsdiqi, məhz milli-mənəvi dəyərlərin aşılanması prosesi ilə bağlıdır. Azərbaycanın qədim, rəngarəng mənəvi dəyərləri, mədəni irsi hazırda xalqın fəxr mənbəyi və dünya mədəniyyətinə töhfəsi qismində çıxış edir. Bu sahəyə dövlət qayğısının günü-gündən artması və beynəlxalq təcrübənin tətbiqi istiqamətində görülən işlər qeyri-maddi mədəni irsin gələcəyinə nikbin baxmağa ümidləri artırır. Azərbaycan xalqı azad və suveren dövlət quraraq mədəni iqtisadi islahatlar aparmaqla öz milli-əxlaqi dəyərlərinə, tarixinə qayıdır, demokratik ölkələrin təcrübələrindən istifadə edir.Xalqımızın mədəni irsi bəşər mədəniyyətinin ayrılmaz tərkib hissəsi olduğundan çoxəsrlik tarixi keçmişindən yadigar qalmış tarix və mədəniyyət abidələrinə doğma münasibət öncə 19 vətənə məhəbbətin təcəssümüdür. Məhz buna görə də vətənimizin keçmişinin şahidi olan tarixi abidələrə hörmət bəsləmək, xalqımızın tarixində milli qürur hissi yaradan, mərdlik simvoluna çevrilən tarixi qalaların əhəmiyyətini dərk etmək, tarixi qəhrəmanların döyüş yolunu öyrənmək, onların vətən haqqında ibrətamiz kəlamlarını qavrayıb dərk etmək insanda vətənpərvərlik hissinin dərin iz buraxmasında müstəsna rol oynayır.Müzakirə üçün əsərlər müəyyənləşdirilərkən ona problemin məzmunu baxımından yanaşılması məqsədəuyğun sayılmışdır: Əsərin tərbiyəvi gücü duyulmalıdır; Seçilmiş əsər elmi-pedaqoji mahiyyət daşımalıdır; Qaldırılan problemin aktuallığı ilə seçilməlidir; Bədii əsərlər seçilərkən milli-mənəvi dəyələri daha çox özündə əks etdirən materiallara üstünlük verilməlidir; − Müzakirə üçün bilavasitə öyrənilən bölgə ilə bağlı əsərlər seçilməlidir; Seçilən əsərlər sinfin təlim materialı ilə uzlaşdırılmalıdır; Bədii əsərlərin müzakirəsi il ərzində müntəzəm keçirilməli, yeniyetməlik yaşına uyğun olmalıdır; Müzakirə üçün əsərlər şagirdlərin özləri tərəfindən seçilməsinə üstünlük verilməlidir; Müzakirə tam müstəqillik şəraitində keçirilməli, şagirdlərin rəy və mülahizələri dəyərləndirilməlidir; Müzakirənin nəticəsi düzgün qiymətləndirilməlidir. Bu tələblər baxımından aparılan anket sorğuları, inşa yazıları və eksperimentlər, qabaqcıl müəllimlərin iş təcrübəsi tədqiqatın gedişində müəyyənləşdirilən bu fikri müəyyən mənada təsdiq edir.Ədəbiyyatımızın hər bir incisi hikmət mənbəyidir. Nəyi oxuyuruqsa, ondan yeni bir şey öyrənirik, nəyi isə əxz edirik. S.Rüstəmin «Duz-çörək» şeirində insanın şərəfi onun geyimi, libası ilə yox, şəxsiyyəti, mənliyi, bacarıq və qabiliyyəti ilə ölçüldüyü, insanın yaxşıların yaxşısı olmağa çalışması, dostuna, tanışına heç vaxt ziyan vurmaması, yersiz hərəkət və sözlərdən uzaq olması, Ə.Məmmədxanlının «Buz heykəl» əsərində bütün anaların öz övladına məhəbbəti, ana hissinin ülviliyi, müqəddəsliyi, Ə.Haqverdiyevin «Mirzə Səfər» hekayəsində yaltaqlıq və rüşvətxorluğa nifrət, elmə, maarifə rəğbət, paklıq, təmizlik və əsl dostluq, S.Vurğunun «Aygün» poemasında ailənin müqəddəsliyi, namus, qeyrət və sədaqət, R.Rzanın «Qızılgül olmayaydı» əsərində R.Rza və M.Müşfiq münasibətlərində vəfa, etibar, repressiya qurbanı olmuş minlərlə günahsız Azərbaycan ziyalısının itkisinə təəssüf, günahsız qan tökənlərə isə nifrət hissi, İ.Əfəndiyevin «Xurşidbanu Natəvan» və S.Vurğunun «Vaqif» pyeslərində insanın öz elinə, xalqına bağlılığı, zəhmətkeş xalqa dərin məhəbbət hissi öz təbii, real, gözəl əksini tapmışdır.

NİZAMİ GƏNCƏVİNİN "SİRLƏR XƏZİNƏSİ"NDƏ ƏXLAQ VƏ TƏRBİYƏ MƏSƏLƏLƏRİ

Huseynova A.S.
Lənkaran Dövlət Univeristeti
E-mail:aysen.huseyinova.list@gmail.com

Azərbaycanın qədim diyarlarından biri olan Gəncə şəhərində dunyaya göz açmış dahi şəxsiyət Nizami Gəncəvi nəinki, Azərbaycanda bütün dünyada şöhrət qazanmışdır.Şairin əsərləri bu gün də dünya ədəbiyatının ən qiymətli əsərləri kimi hələdə oxunmaqdadır.Nizami Gəncəvi fəlsəfi şair kimi yaddaşlara həkk olunmuşdur.Şairin əsərlərini oxuduqda elə bil ki,bütün məsələlərdən agah olmuş kimi olursan.Nizami Gəncəvinin "Sirlər Xəzinəsi"ndə dərin mənalı hekayətlər,hikmətli sözlər,əxlaqi məsələlər insan qəlbinə yol açır.Nizaminin əsərlərində olan dərin mənali fikirlər,düşüncələr insana yol açır və gələcəyimizə işıq salır.Həqiqətən də şairin əsərlərini oxuduqca sanki,insan tərbiyə olunur və ətrafinda olan insanlara da tərbiyəvi fikirlər aşılayır.Nizaminin "Xəmsə"adı altında birləşdirdiyi beş poema Epik əsərlərin ən gözəl nümunəsi hesab edilir.Buraya daxil olan poemalar "Sirlər xəzinəsi","Xosrov və Şirin","Leyli və Məcnun","Yeddi Gözəl" və "İsgəndərnamə" adlanır.İlk Poeması "Sirlər xəzinəsi" olmuşdur.1174 –cü ildə yazılmış bu poemada bütün tərbiyə növləri,yəni,Əxlaq,Əmək,Əqli,Estetik tərbiyə və s bir-birilə sintez təşkil edir,biri digərini tamamlayır.

Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poeması iyirmi məqalət və iyirmi hekayətdən ibarətdir.Bu məqalətlərə daxildir:"Adəmin yaradılmasına dair","Ədalətli və insaflı olmağa dair","Dünya hədislərinə dair","Rəiyyətin haqqını padişahın qoruması","Qocalığın sifətləri","Varlığın etibarı haqqında","insanlıq

mərtəbəsinin bütün xilqətlərdən üstünlüyü”,”Yaradılışın hüsnünə dair”,”Dünya qayğılarından qurtulma bəhsi” və s.Şairin Hekayətləri sırasına daxil olan “Ümidsiz padişahın bağışlanması dastanı”,”Adil Nuşirəvan ilə vəzirin hekayəti”,”Süleyman Peyğəmbərlə qoca əkinçinin hekəyəti”,”Qarı ilə Sultan Səncərin hekayəti”, ”Kərpickəsən qocanın hekəyəti”, ”Ovçu ilə itin və tülkünün hekayəti” ,”Firudin şahın ceyran ovu hekayəti”, ”Meyvəsatanla tülkünün və cibkəsənin hekayəti”,”Tövbəsini pozan zahidin hekayəti” və shekayətlərdə əxlaqi və tərbiyəvi məsələlər ön plana çəkilmişdir. Xİ məqalətdə, Nizami öz zəmanəsini “Divlər məkanı”na bənzətmişdir.Və onun suyunun ciyər qanı olmasını göstərir.Nizami lovğalanan insanları,sözündə mənəm-mənəm deyənləri kəskin şəkildə tənqid edir və həmin insanlara səslənir.”Ey torpaqdan saxta şəkildə düzəldilmiş,nə qədər qürurlanırsan? Ey iki-üç batmanlıq sümük,nə qədər mənəm-mənəm deyəcəksən?Nizami Gəncəvi “Sirlər xəzinəsi”əsərində bütün məsələləri insanların diqqət mərkəzinə çəkmişdir. O,poemada həm əxlaqi məsələlərin şərhinə xüsusi diqqət yetimiş,həm də bütün hekayət vəməqalətlərində bu bütün müsbət əxlaqi kefiyyətlər öz əksini tapmışdır.

ARXAİZMLƏRİN TƏDRİSİNDƏ PRAKTİK İŞİN TƏŞKİLİ MƏSƏLƏLƏRİ

İbişov A.Y.
Lənkəran Dövlət Universiteti
E-mail: aslanibisov0@gmail.com

Ümumişlək keyfiyyətini itirən sözlərə köhnəlmiş sözlər deyilir. Köhnəlmiş sözlərin yaranmasının başlıca amillərindən biri elmin, texnikanın, məişətin inkişafı nəticəsində bir sıra sözlər köhnələrək lüğət tərkibindən çıxır. Yeni sözlərlə dilimizin lüğət tərkibi artırsa, köhnəlmiş sözlər vasitəsi ilə də lüğət tərkibimiz azalır. Buna görə də köhnəlmiş sözlər iki yerə bölünür: Arxaizmlər; Tarixizmlər.Bu gün dilimizdə nitqimizdə istifadə olunmayan və öz tarixi səciyyəsini daşımayan sözlər arxaizmlər adlanır. Arxaizm deyəndə bu gün dildə işlənməyən, lakin əvəzində onların mənasını verən sözlər nəzərdə tutulur. Yəni məna qalır, onu ifadə edən söz dəyişir. Məsələn: qayıtmaq (demək), əsən (sağ, salamat), uçmaq (cənnət), ayaq (qədəh), nəsnə (əşya), us (ağıl) və s. Köhnəlmiş sözlərin bəziləri bu gün dialektlərdə də işlənir. Belə sözlər vaxtilə ədəbi dildə işlənib, sonra dildən çıxdığına görə həm köhnəlmiş sözlər, indi ədəbi dildə yox, ayrı-ayrı dialektlərdə yaşadığına görə həm də dialekt sözlər adlanır. Məsələn: hancarı (necə), duş (yuxu), əsrük (sərxoş), anarı (o tərəf), becid (tez-tələsik) və s. “Becid” sözü bu gün Bakı dialektində, qalan sözlər isə Qazax-Borçalı bölgəsində fəal işlənir. Bu sözlərin əvəzinə həmin mənanı ifadə edən yeni sözlər yaranmışdır.Azərbaycan dilində arxaizmlərə ən çox şifahi xalq ədəbiyyatımızda , klassik janr ədəbiyyatımızda, tarixlə bağlı olan əsərlərdə bu sözlərə rast gəlmək olardır. Məsələn, tanıq (şahid), uçmaq (cənnət), damu (cəhənnəm), sayru (xəstə), arı (təmiz), duş (yuxu), nəsnə (şey) və s.“Arxaizmlər lüğətin passiv fonduna daxildir. Zaman keçdikcə dildə arxaizmlərə dublet, qismən də sinonim olan, onları sıxışdırıb aradan çıxaran və lüğət tərkibinin aktiv qismini təşkil edən yeni leksik vahidlər yaranır: Məsələn, yazı əvəzinə çöl, aul əvəzinə kənd, ozan əvəzinə aşıq və s”.Dilimizin lüğət tərkibində, tarixi inkişaf prosesində əşya və hadislər dilin lüğət fondundan çıxır. Dövlət quruluşunun dəyişməsi, əmək prosesinin təkmilləşməsi ilə əlaqədar yaranan sözlər isə tarixizmlər adlanır. Tarixizmlərdə anlayışla yanaşı, onu ifadə edən söz də köhnəlir. Məsələn: xan, töycü, sovet, mülkədar, qlava, hampa, bolşevik, katta, menşevik, darğa, dinar və s. Bu sözlər qısaca tarixizmlər adlanır. Tarixizimlər əvvəlki dövrdə işləndiyi adları pul adları, ölçü adları, geyim adları və s. Bunlar birlikdə hamısı tarixizmlər idi. Fəal istifadəmizdə qalsada bədii əsərlərimizin dilində istifadə olunmuş tarixizmin həminki dövrü canlandırmaq üçün istifadə olunur: Məsələn, təhnə (ağac kötüyündən hazırlanmış iri qab), xurcun (torba), mülkədar (torpaq sahibi olan zadəgan), xan (hakimlərin titulu) və s.“Aradan çıxmış hər hansı bir əşya və ya hadisədən söhbət gedəndə, onu adlandırmaq lazım gələndə biz istər-istəməz biz tarixizmlərə müraciət etməli oluruq”. Buradan bu qənaətə gəlmək olur ki, onlar bizim müasir dilimizdə işlənmirlər.Köhnəlmiş sözlər atalar sözləri və məsələlərdə qorunub saxlanılmaqdadır: Məsələn,

Aydan arı, sudan durudur.
Abbasını bəyənməyən beş şahı çıxardar.
Qarı düşmən dost olmaz.

Yuxardakı nümunələrdə istifadə olunmuş arı, abbası, şahı, qarı sözləri köhnəlmiş sözlərdir. Bu sözlər indiki dövrdə eyni mənanı ifadə edən sözlərlə əvəz olunmuşdur.Arxaizmləri şagirdlərə tədris edərkən dərsin motivasiya hissəsində şagirdlərə müəllim “Birgünlük Xəlifə” mətnindən istifadə edərək mətnin daxilində istifadə olunmuş bir-iki sözü qeyd edir və şagirdlərdən bu sözün nə olduğunu soruşur.

Xəlifə --- darğa

Şagirdlərə beyin həmləsindən istifadə edirlər və fərziyələr dinlənilir, mövzuya uyğun cavablar lövhədə qeyd olunur. Şagirdləri istiqamətləndirmə baxımından onlara sual vermək olar. Buna görə də anlayışın çıxarılmasında effektli sayıla bilərdi. Bu fərziyyələrə görə də müəllim köhnəlmiş sözlərin xüsusiyyətini burada qeyd edir. Arxaizmlərlə bağlı nəzəri material mənimsədildikdən sonra şagirdlərə dərslikdə olan tapşırıqlar işlədilir. Araşdırma olaraq şagirdlərə tapşırılır ki, Şifahi xalq ədəbiyyatında rast gəldiyiniz arxaizmləri seçib dəftərinizə yazın. İzahlı lüğətin köməyi ilə onların mənalarını araşdırın.

ORTA MƏKTƏB DƏRSLİKLƏRİNDƏ İSTİFADƏ EDİLMİŞ ƏDƏBİ ƏSƏRLƏRİN ŞAGİRDLƏRƏ ÖYRƏDİMƏSİ YOLLARI

İbrahimova N.C.
Bakı Slavyan Universiteti
E-mail: nezaketibrahimova5@gmail.com

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin kurikulum proqramı əsasında hazırladığı ədəbiyyat dərsliklərində verilmiş ədəbi əsərlər şagirdlərin yaş və anlaq səviyyəsi və təfəkkürü nəzərdə tutularaq hazırlanmışdır. Belə ki ədəbi əsərlər şagirdlərə öyrədilən zaman müəllim müxtəlif üsul və vasitələrdən istifadə etməyi bacarmalıdır. Orta məktəb dərsliklərində istifadə edilmiş ədəbi əsərlər müxtəlif mövzuları əhatə edir. Bu mövzular vətənpərvərlik, məişət, təbiət, birinci Qarabağ müharibəsi dövrünü əks etdirən yazılmış əsərlərdir. Sovet dövründə yazılmış əsərlər müəyyən məqsədlə dərsliklərə salınmışdır. Və bu başlıqlar altındakı ədəbi materialların da müəyyən bir vəzifə daşıdığının da şahidi oluruq. Məlum olduğu kimi, XXI əsrin başlıca tələblərindən biri ədəbiyyat fənnindən keçilən bütün dərslərin hər biri Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən eilmiş standartlara əsasən şagirdlərə öyrədilməlidir. Ədəbiyyat fənni üzrə aşağıdakı üç standart müəyyənləşdirilmişdir: Ədəbiyyat və həyat həqiqətləri; Şifahi nitq; Yazılı nitq.Bu məzmun xətləri ədəbiyyat dərsliklərinə verilmiş materialların şagirdlərə ardıcıllıqla öyrədilməsinə xidmət göstərir. Ədəbiyyat fənninin qarşısında duran əsas məqsəd və vəzifələr məzmun xətlərinin, eyni zamanda alt standartların dərslərdə düzgün tətbiq edilməsidir. Ədəbiyyatın tədrisinin tərbiyəvi vəzifələri ilk növbədə dərsdə və dərs sistemində həyata keçirilir. Ona görə də ədəbiyyat dərsi o zaman qiymətli hesab edilir ki, materialın qavranılması elmi fikrin nailiyyətləri səviyyəsində aparılsın, işin əsas mövqeləri üzrə dəyərləndirilsin.Tədris materialının təşkilində əsas şagirdlərin idrak qabiliyyətininin inkişafına, təhsil problemlərinin həllində müstəqilliyə dair fikirlərin formalaşmasıdır. Müəllim materialları şagirdlərə öyrədən zaman həmin əsərin məzmunu ilə bağlı problemləri, təəssüratları, konsepsiyaları məntiqi və üslubi və eyni zamanda da əvvəlki və sonrakı dərslərin materialı ilə əlaqələndirməyi bacarmalı və şagirdlərə öyrətməlidir. Şagirdlər tərəfindən biliyin mənimsənilməsinin düzgünlüyünü və möhkəmliyinin müəyyən edlməsinə bilik, bacarıq və vərdişlərinin yoxlanılması ilə nail olunur. Bununla belə, yoxlama təkcə unutmağın qarşısını almaq deyil, həm də öyrənilən materialın davamlı mənimsənilməsi vasitəsidir. Ümumiyyətlə, deyə bilərik ki, ədəbi əsərin və yaxud da bədii əsərin məzmununu öyrənən zaman onun təhlil edilməsi, problemin aşkara çıxarılması və müəllimin rəhbərliyi ilə şagirdlərə öyrədilməsi dərsliyin xüsusi proqramı əsasında həyata keçirilir.

KİÇİK YAŞLI MƏKTƏBLİLƏRLƏ APARILAN MÜMARİSƏLƏRİN PSİXO-PEDAQOJİ MAHİYYƏTİ

İmanlı R.İ.
Bakı Slavyan Universiteti
E-mail: roya.imanli@inbox.ru

İbtidai siniflərdə təlim prosesində mümarisələrdən düzgün istifadə edildikdə kiçik yaşlı məktəblinin psixikasının qanunauyğunluqları nəzərə alındıqda həm təlim materialları asanlıqla mənimsənilir, öyrənilənlər mexaniki hafizəyə deyil, məntiqi təfəkkürə xidmət edir və həm də şagirdlərin idrak fəallığı yüksəlir. İbtidai təhsildə təlim mümarisələrindən istifadə edərək praktik bacarıqlara yiyələnmək imkanları genişdir. Kiçik məktəb yaşı dövründə mümarisələrdən düzgün istifadə edildikdə nəinki təlimin keyfiyyəti yüksəlir, həm də əqli inkişaf üçün münbit şərait yaranır. Bunun üçün müəllim hər bir təlim situasiyasında şagirdə münasib

mümarisə növü təklif etməklə təlim prosesini sadələşdirir. Nəticədə şagirdin yaradıcı imkanları, təşəbbüskarlığı, şəxsi imkanları genişlənir. Kiçik məktəblilərdə təlim materiallarının mənimsənilməsi üçün istifadə olunan mümarisələr öz məzmununa görə fəaliyyətdə yeni motivlər yaratmaqla nəticələndikdə şagirdlərdə mümarisələrdən istifadəyə maraq yaranır. Bu zaman mümarisələr: təlim prosesində şagirdə vaxtdan səmərəli istifadə etmək imkanı verir; təlim ikişafetdirici istiqamətə yönələrək təfəkkürün ümumiləşdirmə, müqayisə, əqli nəticə kimi mürəkkəb mərhələləri əlverişli qaydada tənzimlənir; mümarisə təlim situasiyasına, dərsin təşkili şəraitinə və məqsədinə uyğun olaraq bu proseslərdə situasiyanın vacib komponenti rolunu oynamış olur; təlim mümarisələri kiçik məktəblilərin təlim materiallarını mənimsəməsində öyrətmə funksiyasını yeinə yetirməklə yanaşı onlarda möhkəmləndirmə, əlaqələndirmə kimi prosesləri nizamlayir. Mümarisə tədris prosesinin optimallaşdırılmasına imkan verən təlim texnologiyalarının tərkib hissəsidir. Mümarisələrin təşkili təlimin vəzifələrinə xidmət etməklə öz qarşısına sadəcə olaraq şagirdi inkişaf etdirmək deyil, onların yaradıcı potensialına və qabiliyyətlərinə adekvat olaraq inkişaf etdirmək vəzifəsini qoyur. Kiçik məktəblilərin təlim materiallarını mənimsəmələrində mümarisələr stimullaşdırıcı və öyrədici funksiyanı yerinə yetirir. Mümarisələrdən istifadə zamanı aşağıdakı mühüm şərtlər gözlənilir: sinifdəki uşaqların yaş səviyyəsi; onların fərdi-psixoloji xüsusiyyətləri; dərsin mövzusu, vəzifələri və məqsədi; təlim situasiyası və təlim hərəkətinin xarakteri; seçilmiş mümarisələrin inteqrasiya imkanları və s.

Hər hansı mümarisə növünün tətbiqi zamanı şagirdlərə seçim imkanının yaradılması mənimsəmənin məhsuldarlığını artırır. Müəyyənləşdirilmişdir ki, I və II siniflərdə obyekt və hadisələr arasında qanunauyğun əlaqələrin yaradılmasına, III və IV siniflərdə bu əlaqələrin qurulmasına yönəldilmiş mümarisələrə üstünlük verilməlidir. Təlim prosesində sistemlilik, ardıcılıq gözlənildikdə, sinif müəllimi ilə müsbət pedaqoji ünsiyyət şəraiti yaradıldıqda kiçik məktəb yaşının sonunda şagirdlərdə təlim materiallarının məhsuldar qaydada mənimsənilməsi üçün əlverişli mümarisələri müstəqil seçmək bacarığı formalaşır. İbtidai sinif şagirdlərinin yeni vərdiş və bacarıqları əsasən müəllimin hərəkətlərini imitasiya yolu ilə yaranır. Burada uşağın müşahidəçilik qabiliyyəti, perspektiv təcrübə mühüm rol oynayır. Müəllim kiçikyaşlı məktəblilərin bu xüsusiyyətlərini nə zərə almaqla: a) şagirdlərlə müsbət pedaqoji ünsiyyət şəraitində münasib mümarisələr seçmə bacarığı və onlardan istifadə qaydalarını inkişaf etdirə bilər; b) mümarisələrdən istifadə təcrübəsini formalaşdırar; c) şagirdlərin təlim motivasiyasına müsbət təsir göstərmiş olar. Refleksiyanın normal inkişafı ibtidai siniflərdə mənimsəmənin yaxşılaşdırılmasının mühüm amilidir. Refleksiyanın özü yeni hərəkətlərdə daha intensiv inkişaf edir, yeni hərəkətlər mümarisələr yolu ilə daha asan mənimsənilir.

Məktəb təcrübəsinin öyrənilməsi göstərdi ki, mümarisələr kiçikyaşlı məktəblilərdə refleksiyanın inkişafı üçün səmərəli təlim vasitəsi rolunda çıxış edir. Bu baxımdan, istifadə edilən mümarisələr şagirdin fiziki və psixi inkişafının dinamikasına uyğunlaşdırılmalıdır.

XARİCİ DİLDƏ ÜNSİYYƏT ZAMANI DİQQƏT ETMƏLİ OLDUĞUMUZ MƏQAMLAR

İmanova N.A.
Bakı Slavyan Universiteti
E-mail: nubarimanova2@gmail.com

Bəzən dil və mədəniyyət fərqliliyi ünsiyyət zamanı çaşqınlıq, məyusluq hətta təhqirə səbəb ola bilər. Ünsiyyətin hansı kontekstdə baş verdiyindən asılı olmayaraq, ünsiyyətin daha rəvan və effektiv keçməsi üçün bəzi strategiyalara bilməkdə fayda var.

Ünsiyyətdəki məqsədinizi dəqiq müzakirə edin - Restoranda yemək sifarişi kontekstində ünsiyyətinizin məqsədlərinə kifayət qədər əmin ola bilərsiniz – siz nəsə sifariş vermək istəyirsiniz, gözləyən heyət sifarişinizi düzgün yerinə yetirmək istəyir. Ancaq bu həmişə belə olmur. Əgər siz qeyri-rəsmi şəraitdə - məsələn, yeni dostunuz və ya təhsil tərəfdaşınızla söhbət edirsinizsə, məqsədlərinizin fərqli olduğunu görə bilərsiniz. Bu, xüsusilə biriniz ortaq danışdığınız dildə digərinə nisbətən daha çox səlis danışanda aydın olur. Bəzən elə olur ki, kimsə mətləbə mümkün qədər tez çatmaq istəyir və bu zaman əgər metaforanı qarışdırırsa və ya sözdə vurğudan düzgün istifadə etmirsə, bu yanlış anlaşılmaya səbəb ola bilir. Bu zaman əgər səhv edirlərsə, bu səhvi mehribanca düzəltmək faydalıdır

Şəxsi (fiziki) sərhədlərinizə diqqət edin - Bu, təkcə bir-birinizə nə qədər yaxın oturduğunuz və ya dayandığınızla bağlı deyil, həm də söhbət zamanı digər şəxsə toxunmağın nə dərəcədə uyğun olması ilə bağlıdır. İnsanların geniş şəxsi sərhədə sahib olmağının və toxunmağın tabu olduğu Səudiyyə Ərəbistanı, Çin, Cənubi Koreya və s. kimi ölkələr var. Bütün bunlar, iki insanın şəxsi sərhəddən əhəmiyyətli dərəcədə fərqli

mədəni gözləntilərə sahib olması ilə əlaqədardır. Bu, bir insanın özünü narahat, təhdid və ya təzyiq altında hiss etməsi, digərinin isə çox rahat olmağına səbəb ola bilir. Bu problemdən yayınmaq üçün dialoqda olduğumuz şəxsdə bu nəzakətli şəkildə söhbətin əvvəlində yanlış anlaşılmamaq üçün soruşmaq yaxud bədən dilindən bunu oxumağı bacarmaq lazımdır. Əgər şəxslə əvvəlcədən görüşəcəyinizi bilirsinizsə, nüməyəndəsi olduğu ölkənin şəxsi sərhədi ilə internetdən tanış olmaq tövsiyyə olunur.

Bədən diliniz haqqında düşünün - Fərqli mədəniyyətlər təkcə şəxsi sərhəddən deyil bədən dilindən də fərqli şəkildə istifadə edir. Çin və Britaniyanın şəxsi sərhədə münasibəti çox da fərqli deyil (Çinlilər yad insanlarla bir az daha çox məsafə saxlayırlar), lakin onların bədən dilinin digər aspektləri olduqca fərqlidir. Bu kimi standart Qərb gülüşünü düşünün ☺ – gözlər üçün nöqtələr var və diqqət böyük, geniş, gülümsəyən ağızdadır. Bundan əlavə ifadəli olmaq üçün də istifadə edə bilərsiniz 😀 – ağız daha böyük olduğu halda gözlər eyni qalır. İndi Şərq ekvivalentinə baxaq ^_^ - diqqət üzün qalan hissəsində deyil, bütün gözlərdədir. Bu, Qərb və Şərq arasında bədən dilində əsas fərqi əks etdirir; Qərblilər ağızları ilə, şərqlilər isə gözləri ilə gülümsəyir. Nəticə odur ki, qərblilər Şərq təbəssümünü heç görməyə bilər, Qərb təbəssümü isə Asiyadan olan bir insan üçün rictus (mənasız yaxud yersiz) təbəssümü kimi görünə bilər.

İfadəli olun – Yalnız ifadələriniz deyil, həm də səs tonunuz başa düşülməyinizə kömək edə bilər. Təsəvvür edin ki, kimsə sizin avtomobilinizin böyük bir yük maşınında olduğunu gördü. İfadəli olmaq onlara xoşbəxt olduğunuzu (bəlkə də bu, yeni avtomobilin çatdırılmasıdır və ya avtomobiliniz təmir olunub), əsəbi olduğunuzu (avtomobiliniz çəkilib) və ya kədərləndiyinizi (köhnə avtomobiliniz təmir oluna bilməyəcək qədər xarab olduğunu) anlamağa kömək edə bilər. Qarşı tərəf kontekst haqqında təsəvvür əldə etdikdən sonra sizi anlamaq üçün başqa ipuçları axtara bilər. Üz ifadənizin köməyi olmadan, dediyinizi başa düşmək onlar üçün daha çətin olacaq.

İdiomlardan çəkinin - İdiomlar biz fərqinə varmadan hər zaman nitqimizə gizlicə girir, lakin fərqli ana dildə və ya fərqli mədəniyyətdən olan insanlarla danışarkən onlardan çəkinmək daha yaxşıdır. İdiomlar hətta eyni ana dildə, oxşar mədəniyyətə malik bir ölkədən insanlarla danışarkən problem yarada bilər.

Yumorunuza diqqət yetirin – Düzdür yumor söhbətlərin daha asan axmasına səbəb ola bilər, lakin o, həm də onsuz da çətin olan söhbətlərə heç ehtiyac olmayan əlavə qarışıqlıq gətirə bilər. məsələn, ABŞ-da kimsə gülməli bir şəxsi hekayəsindən danışarsa bu söhbət atmosferini yaxşılaşdırmaq, yumşaltmaq kimi anlaşılar. Əksinə, Böyük Britaniyada eyni konteksdə məzəli lətifələrin istifadəsi öz-özünü alçaltması kimi anlaşılır. Sarkazm hər mədəniyyətdə eyni anlayış olaraq mövcud deyil, ikinci bir dil vasitəsi ilə asan başa düşülməsi bir yana bəzən istifadə edən şəxs üçün məcazi olaraq mina sahəsidir.

Yüksək səslə deyil, aydın tonla danışın - İngilis və amerikalıların İngilis dilini səlis bilməyən insanlarla danışmağa çalışarkən onların eyni şeyi davamlı olaraq daha yüksək və qəzəbli səs tonu ilə dəfələrlə təkrarlaması kimi bir hal vardır. Bu, nəinki son dərəcə kobuddur, həm də təsirli olma ehtimalı çox azdır; çünki insanların xarici dilləri anlaması yüksək və qəzəbli səs tonu ilə artmır. Bunun əvəzinə eyni səs tonunu saxlamaq, lakin daha aydın danışmağa çalışmaq daha effektlidir. Ümumiyyətlə, əgər kimsə sizdən nəyisə təkrarlamağı xahiş edərsə, edə biləcəyiniz ən faydalı şey dediyinizi olduğu kimi təkrarlamaqdır; Yalnız başa düşmədikləri bir və ya iki söz olsa onları sinonimlər vasitəsilə parafraz da etmək olar.

Haqlı olmağa deyil, başa düşülməyə diqqət edin - Təsəvvür edin ki, xəyalınızdakı evi necə bəzəyəcəyiniz barədə söhbət edirsiniz və hamamınızda çay plitələrinin olacağını izah edirsiniz. Yalnız istifadə etdiyiniz dildə mavi üçün dəqiq tərcümə yoxdur və dostunuz çaşqındır, ona görə də telefonunuzdakı rəng nümunəsindən siz mavi rəngi işarə edirsiniz. Dostunuzun çaşqınlığı aradan qalxır. "Oh," deyir, "sən firuzəyi nəzərdə tutursan!" Xəyalınızdakı vanna otağında çay ağacı və firuzəyi arasındakı fərq sizin üçün çox vacib görünə bilər, ancaq dostunuz həqiqətən təmir edən şəxs olmayacaqsa, burada haqlı yaxud haqsız olmaq elə önəmli deyildir. Dil və mədəniyyət maneələri üzərindən insanlarla ünsiyyət qurarkən başa düşülməyə yaxınlaşacağınız bir çox hallar var, lakin onların anlayışı dəqiq olmayacaq. Belə olduqda, çox vaxt ən yaxşı seçim "kifayət qədər yaxın" olmaqdır nəinki tam dəqiq anlaşılmaq.

Vacib məqamların başa düşüldüyünü iki dəfə yoxlayın - "Kifayət qədər yaxın" ilə kifayətlənməməyiniz lazım olan yeganə hal, dəqiq bir anlayışın lazım olduğu zamandır. Əgər kiminsə King's Cross-da üçüncü platformada sizinlə görüşməsini istəyirsinizsə, bunun əvəzinə 9 ¾ platformasında növbə gözləsələr, hər ikiniz üçün əsəbi bir hal olacaq. Bu problemin öhdəsindən gəlmək üçün digər şəxsin bütün əsas məqamları başa düşdüyünü iki dəfə yoxladığınızdan əmin olun – məsələn, sizə dediklərinizi təkrarlamağa məcbur etməklə (nəzakətli şəkildə), vacib olan detalları yoxlayın. Bunu diqqətlə etmək lazımdır, çünki bu, kobudluq kimi anlaşıla bilər, lakin bu, məsələn, görüşdüyünüz şəxs bütün vaxt boyunca stansiyanın o biri tərəfində olduğu halda platformada saatlarla gözləməkdən daha yaxşıdır.

Bir-birinizi bağışlayın - Hər şeydən əvvəl, bir-birinizə qarşı mehriban və bağışlayan olun çünki, ünsiyyət zamanı dil və mədəniyyət müxtəlifliklər olduqca bütün yuxarıdakı halların baş verməsi mümkündür və normaldır. Bəzən toxunaraq kiminsə mədəni tabularını unudacaq və kürəyinə vurmaqla onları narahat hiss etdirəcəksiniz; bəzən kinayədən istifadə edib onları incidəcəksiniz; bəzən özünüzü başa düşülmədiyiniz üçün məyus hiss edəcəksiniz. Bəzən yuxarıda göstərilənlərin hamısını törədən deyil də, qəbul edən tərəfdə olacaqsınız. Bununla başa çıxmağın yeganə yolu mehriban, nəzakətli olmaq və bacardığınız qədər səhvləri bağışlamaqdır.

AZƏRBAYCANIN MİLLİ MAARİFÇİLİK TARİXİNDƏ FƏRHAD AĞAZADƏNİN XİDMƏTLƏRİ

İsmayilov A.T.
Bakı Slavyan Universiteti
E-mail: anarismayilov0707@gmail.com

Azərbaycanda marifçilik bir cəryan kimi XX əsrin əvvələrindən təşəkül tapamağa başlamişdir Zərdabi, Kazimbəy, məhşur müəllim M.T.Sidqi Azərbaycan pedaqoji fikrinin özülünü qoymuşlar. M.F.Axundov, F.Köçərli, İ.Əfəndiyev, N.Nərimanov, N.Vəzirov, S.M.Qənizadə, M.Mahmudbəyov maarifçiliyin inkişafında misilsiz işlər görmüşlər. XX əsrin ilk illərindən A.Şaiq, F.Ağazadə, Ü.Hacıbəyov və bir çox maarifçilərimiz Azərbaycan dilinin inkişafı və tədrisi metodikası sahəsində elmi metodiki fikirlər yazıb yaratmışlar. Azərbaycan dili və onun tədrisində daim yaranan problemlər maarifçi F.Ağazadənin elmi-pedaqoji fəaliyyətində xüsusi yer tutur. Maarifçilər xalq maarifi uğrunda mübarizəni xalqı maarifləndirməyin ən güclü silahı olan milli dil uğrunda mübarizə ilə əlaqələndirmişlər. H.Zərdabi, F.Köçərli, N.Nərimanov, F.Ağazadə öz elmi-pedaqoji faliyyətlərində göstərmişlər ki, milli dil millətin və milli mədəniyyətin inkişafında mühüm vasitədir xalqın gələcəyidir. Onlar məktəblərdə birinci olaraq təlim-tərbiyə işini ana dilində qurmağı tələb edirdilər. F.Ağazadə və digər maarif xadimlərimiz ana dili təliminə xüsusi fikir verməklə yanaşı həm də tədris üçün vəsaitlər nəşr etdirmişlər.

1922-ci ildə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Yeni Əlifba Komitəsi təşkil edildi. Komitəyə S.Ağamalıoğlu, M.Aslanov, F.Ağazadə, Tağızadə kimi maarifçilər seçildilər. Yeni Əlifba Komitəsi əlifba tərtib etməli, yeni əlifba ilə dərsliklər, jurnal və qazet nəşrinə başlamalı, bu əlifbanı xalq arasında geniş yaymalı idi. 1926-cı ilin əvvəlində F.Ağazadənin Yeni Əlifba Komitəsinin 1922-ci ildən 1925-ci ilədək fəaliyyətini əks etdirən "ASSR-də yeni türk əlifbasının yaranma tarixi və onun ideyalarının həyata keçməsi" adlı əlifbada dərslik tərtibindən, yeni əlifbanın yaranması üçün görülən tədbirlərdən danışır, yeni əlifbanın tədrisi məsələsinə toxunur.

1927-1928-ci illərin əvvəllərindən bir çox respublikalarda artıq Yeni qrafikalı Əlifbaya keçməyə başladılar. Yeni qrafikalı Əlifba Şərqdə böyük mədəni inqilab oldu. F.Ağazadənin ilk dərslik yazmaq təşəbbüsü onun "Əlifba" dərsliyi layihəsi ilə əlaqədardır. Təlimin məzmunundan danışarkən tələb edilmiş proqrama böyük əhəmiyyət verirdi. Onun fikrincə, ana dilini bilmək sadəcə danışmağı bacarmaq, onu dinləyəni o dildə bacarmaq demək deyildir, ana dilini bilmək onu elmi əsaslarını bilmək deməkdir.

ÜMUMTƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ DİSTANT TƏHSİL FORMASINDA İNGİLİS DİLİNİN TƏDRİSİ MƏSƏLƏLƏRİ

İsmayılova G.R.
Bakı Slavyan Universiteti
E-mail: raschad06@rambler.ru

Distant təhsil forması ilk dəfə 1990-cı illərdə Amerika Birləşmiş Ştatlarında meydana gəlsə də COVİD-19 pandemiyasının meydana gəlməsi distant təhsil formasının aktuallığını artırmış oldu. Doğrudur pandemiyaya qədər distant təhsil formasının bəzi işartıları təhsil sistemlərində hiss olunsa da onun kütləvi tətbiqi və əhəmiyyəti dünyanın üzləşdiyi kütləvi qapanmadan sonra baş vermişdir. Distant təhsilin formasının təhsil formaları arasında vətəndaşlıq hüququ qazandıqdan sonra onun müsbət və çatışmayan cəhətləri barədə kifayət qədər polemikalara rast gəlinməkdədir. Lakin distant təhsil təhsilin ən ali prinsiplərindən biri olan "onun hamı üçün əlçatanlığı"nın təmin olunmasında alternativi olmayan təhsil forması kimi əhəmiyyətini

qoruyub saxlamaqdadır.İngilis dilinin ənənəvi tədris formaları ilə tədrisi zamanı özüneməxsus metod və üsulları mövcud olmuşdur. Bu metod və üsullar zaman-zaman dəyişmiş təkmilləşmiş və formalaşmışdır. Lakin ingilis dilinin distant təhsil formasında təhsili ənənəvi metod və üsulların tətbiqinin effektivliyini sual altına almış olur və yeni yanaşma və metodların elmi-nəzəri ədəbiyyata təqdim olunmasını aktuallaşdırmış olur. Distant təhsil forması meydana gəldikdən sonra onun özünün də bir neçə altformaları meydana gəlmiş oldu. Məsələn buraya real vaxt rejimində distant təhsil və real vaxt rejimində olmayan alt formalarını nümunə göstərmək olar. Real vaxt rejimi zamanı təhsil verən və təhsil alanlar müyəən vaxt ərzində internet üzərindən dərsə qoşularaq, dərsdə iştirak edirlər. Lakin bu zaman eyni zamanda təhsil alanların iştirakında bəzi problemlər yarana bilər. Məsələn, bir platforma üzərindən müxtəlif ölkələrdə yaşayan dil öyrənənlər qoşulacağı halda, vaxt fərqliliyi səbəbindən bəzən bu mümkünsuz və uğursuz olurdu. Bu səbəbdən də real vaxt rejimində olmayan distant təhsil forması meydana gəlmiş oldu. İştirakçılar özlərinə münasib zamanda platformaya qoşula, təqdimatları izləyə, tapşırıqları edə, eləcə də sual və şərhlərini müəllimə yaza bilirlər.

Distant təhsil üsulları elmi-nəzəri ədəbiyyatda fəal və qeyri-fəal olaraq 2 yerə bölünür. Fəal üsullara aiddir: audio-konfranslar; video-konfranslar; iş masasında videokonfranslar; onlayn xidmətlər vasitəsilə; səsli kommunikasiya; ikitərəfli peyk və mikrodalğalı rabitə; virtual reallıq. Qeyri-fəal üsullara aid olununr: çap materialları; audio və video materiallar; birtərəfli peyk və mikrodalğalı rabitə; televiziya və radio verilişləri;

Distant təhsil formasında da ənənəvi təhsil formasında olduğu kimi ingilis dili dərslərində interaktiv diskusiyalar, təqdimatlar, rollu oyunlar, problem həlli, beyin fırtınası, situasiyaların yaradılması və s. üsulların tətbiqi mümkündür.Elmi dairələrdə ən çox mübahisə yaradan məsələlər distant təhsil formasında motivasiyanın zəif olması, sosiallaşmanın minimuma enməsi, təhsil verən və alanların məsuliyyət hissinin azalması, informasiya-kommunikasiya texnologiyalarından asılılığın ifrat dərəcədə olmasıdır.

Yuxarıda qeyd olunan problemlərin aradan qaldırılması məqsədilə son zamanlar hibrid tədris forması və ya blended (qarışıq) tədris forması təlim-tədris prosesinə təklif olunmaqdadır. Bu tədris formasının əsas məqsədi ənənəvi təhsil formaları ilə distant təhsil formasının müsbət xüsusiyyətlərinin bir araya gətirilməsi və tədris prosesinin effektivliyinin artırılmasıdır.

AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ NİTQ İNKİŞAFI ÜZRƏ GÖRÜLƏCƏK İŞLƏR

Kərimli A.R.
Bakı Slavyan Universiteti
E-mail: arzukrimli@gmail.com

İlk öncə belə bir suala cavab tapmalıyıq: Nitqin inkişafı nədir və onu necə inkişaf etdirmək mümkündür? Bu haqda ədəbiyyətlarda, xüsusən, metodik ədəbiyyatlarda bir-birindən fərqli fikirlər mövcuddur. Metodistlərdən bəziləri nitqi inkişaf etdirməyi dilin qayda-qanunlarını öyrətməkdə, bəziləri isə, əsasən, orfoepik və orfoqrafik qaydaların öyrədilməsində görmüşlər. Təbii ki, göstərilmiş arqumentlərin doğruluq payını dana bilmərik, lakin nitqi inkişaf etdirmək üçün yalnız ədəbi dilimizin qayda-qanunlarını öyrənmək və ya orfoepik və orfoqrafik qaydaların öyrədilməsinə üstünlük vermək fikri də nitq inkişafı anlayışına düzgün yanaşmamaq kimi anlaşılır. Məlumdur ki, nitq də hər bir varlıq kimi forma və məzmuna malikdir. Forma və məzmunun vəhdətində nitqi görmək mümkündür. Tədris prosesi zamanı müəllim şagirdin nitqini inkişaf etdirmək məqsədilə əvvəlcə ona bilik verməli, sonar isə həmin bilik üzərində iş aparmalıdır ki, nəticə əldə edə bilsin. Bütün bunlardan başa düşürük ki, nitqi inkişaf etdirmək üçün yalnız dilin qayda-qanunlarını, yaxud orfepik və orfoqrafik qaydalarını öyrətməklə yox, biliyin məzmunu ön plana çəkməklə buna nail ola bilərik.

Orta məktəblərdə şagird nitqini inkişaf etdirmək üçün müəllim yazıda və tələffüzdə sözlərin düzgün formalarını göstərməlidir, şagirdlərin etdiyi yazılış və tələffüz səhvlərini onlara bildirmək və düzgün variantlarını onlara təkrar etdirmək və ya qeyd etdirmək lazımdır, məktəbdə dil müəllimləri ilə yanaşı digər fənn müəllimləri də ədəbi danışıq normalarını gözləməlidir və bu zaman nitqin düzgün və dəqiq olması üçün bütün məktəb kollektivi – müəllim və şagirdlər bu qaydalara əməl edərək birgə işləməlidirlər.

Nitq inkişafından danışarkən bu məsələyə təkcə dil və ədəbiyyat müəllimlərinin vəzifəsi kimi yox, bütün fənn müəllimlərinin vəzifəsi kimi yanaşmaq daha düzgün olar. Bildiyimiz kimi, nitq hər bir fənnin daxilində öz əksini tapmışdır. Buna görə də nitq inkişafı hər bir sahənin ilk növbədə həll edilməli olan başlıca vəzifəsi kimi görülməlidir.

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA MİLLİ QÜRUR HİSSİNİN FORMALAŞDIRILMASI

Kərimova Q.M.
Bakı Slavyan Universiteti
E-mail: qkerimova662@gmail.com

Vətənin hər qarış torpağının zəngin tarixə, mədəni irsə malik olması, milli-mənəvi dəyərlərinin, adət-ənənələrinin yaşadılması xüsusi əhəmiyyət daşıyan məsələlərdəndir. Gənc nəslin vətənpərvər ruhda yetişməsi üçün uşaqları erkən yaşlardan milli, vətənə sədaqət ruhda tərbiyə etmək , onlara milli qürur, iftixar, ləyaqət hissini aşılamaq, dövlətinə, vətəninə, elinə, obasına, ana dilinə, xalqına, millətinə, məhəbbət, hörmət, rəğbət hissi formalaşdırmaq mühüm əhəmiyyət kəsb edir.Ümummilli liderimiz Heydər Əliyev demişdir: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir". Həm ailədə, həm də məktəbəqədər təhsil müəssisələrində uşaqların təlim-tərbiyə prosesi milli ideologiyamız adlanan azərbaycançılıq ideologiyasına əsaslanan şəkildə qurulmalıdır. Məktəbəqədər yaşlı uşaqlara vətənpərvərlik tərbiyəsini düzgün formada aşılamaq üçün uşaqda əvvəlcə vətənpərvərlik tərbiyəsinin başlıca tərəfi olan milli qürur hissini formalaşdırmaq lazımdır. Uşaqlarda erkən yaşlardan milli qürur hissini doğru istiqamətdə formalaşdırmaq üçün hər şeydən öncə milli qürur hissi anlayışının mahiyyəti düzgün başa düşülməlidir. Milli qürur, milli iftixar, milli ləyaqət, məğrurluq hissinin uşaqlarda aşılanması əvvəlcə ailədə formalaşdırılmalı, daha sonra isə məktəbəqədər təhsil müəssisələrində inkişaf etdirilməlidir.

Uşaqlara milli qürur, iftixar hissini aşılayarkən valideynlər səbirli və təmkinli davranmalıdır. Eyni zamanda valideynlər hər bir hərəkətlərində öz övladlarına şəxsi nümunə və örnək mənbəyi olduqları nöqteyi-nəzərindən yanaşmalıdır. Məktəbəqədər yaşlı uşaqlarda milli mənlik şüuru formalaşdırarkən, onlarda milli qürur, iftixar hissini tərbiyə edərkən uşaqlara milli qəhrəmanlarımızı, vətənimizin maddi və mənəvi sərvətlərini tanıtmaq, onlarda ana dilinə, dövlət bayrağına, gerbinə, himninə, Azərbaycan Respublikasının Konstitusiyasına hörmət, ehtiram, sevgi, məhəbbət hisslərinin aşılanması zəruridir. Eyni zamanda Şəhidlər xiyabanına ziyarətin təşkili, Hərbi Qənimətlər Parkına gəzintilər zamanı, milli qəhrəmanlarımız haqqında söhbətlər təşkil etməklə uşaqların ruhunu sadə məlumatlarla qidalandırmaq lazımdır.

Bu bir həqiqətdir ki, istər ailədə, istərsə də məktəbəqədər təhsil ocaqlarında uşaqların Azərbaycan dövlətçiliyi naminə vətənpərvər ruhda tərbiyə edilməsi və eyni zamanda bununla qürur hissi keçirilməsi yönündə bu gün məqsədli şəkildə və sistematik işin aparılması təxirəsalınmaz bir işdir.

AZƏRBAYACAN DİLİNİN XARİCİ TƏLƏBƏLƏRƏ ÖYRƏDİLMƏSİNDƏ İKT-NIN ROLU

Mahmudova H.R.
S*umqayıt Dövlət Universiteti*
E-mail:mahmudovahemide21@gmail.com

Azərbaycan dili öz mahiyyətinə görə indi dünyanın ən zəngin milli dillərindən biri sayılır. Özunəməxsus gözəlliyi və ahəngi var. Ən böyük dil qruplarından biridir. Azərbaycan dili türk dilləri qrupunun oğuz dilləri yarimqrupuna daxildir. Azərbaycan dilinin tədrisinin başlıca funksiyası onun insana necə qulluq etməsi ilə əlaqədardır. Dil fikirləri başqalarına çatdırmaqla, hissləri, əhval- ruhiyyəni, emosianal vəziyyəti ifadə etməklə insanlar arasında ən mühüm ünsiyyət vasitəsidir. Hər bir xalqın ana dili onun milli varlığı, milli kimliyidir. Təsadüfi deyil ki, XVIII əsrdə Qafqaza gələn A.Düma öz qeydlərində yazırdı ki, Avropada fransız dili necə əhəmiyyətə malikdirsə, Qafqazda da Azərbaycan dili o cür əhəmiyyətə malikdir. Özünün zəngin mədəniyyəti, adət və ənənələri ilə daim xarici ölkə vətəndaşlarının diqqətini cəlb edib. Bunun nəticəsi kimi, hər il xarici ölkələrdən Azərbaycanda təhsil almaq üçün müraciət edənlərin sayı artır. Azərbaycan dilinin əcnəbi tələbələrə öyrədilməsində əsas məqsəd dilimizin zəngiliyini və sadəliyini öyrətməkdir.

Təhsil sisteminin informasiyalaşdırılmasının əsas məqsədi müasir informasiya mədəniyyətinə malik şəxsiyyətlər yetişdirmək, ölkədə vahid təhsil və informasiya mühitini formalaşdırmaqdır. Bu mühit yeni informasiya texnologiyalarından istifadə etməklə aşağıdakıları təmin edəcəkdir: Təhsilin keyfiyyətinin artırılması; Yeni informasiya mədəniyyətinin formalaşdırılması; Vətəndaşların həmçinin xarici tələbələrin bütün pillələrdə təhsil alma imkanlarının bərabərləşdirməsi; Təhsil sistemimizin dünyanın informasiya, mədəniyyət və təhsil məkanına inteqrasiyasının təmin edilməsi.

Əcnəbi tələbələrin Azəraycan dilini müasir tələblərə uyğun şəkildə öyrənməsi məqsədilə hazırlanan dərslərdə nəzəri və praktik məsələlər qarşılıqlı şəkildə sistemləşdirilmiş, yeni vəsaitlərdən geniş şəkildə istifadə olunmuşdur. "Qrammatika", "Çalışma", "Danışıq", "Yazma", "Nələr öyrəndik?" Kimi dərs daxili hissələrdə də göstərilən ardıcıllıq üzrə dilimizin öyrədilməsində əsas prinsiplərdir. Yeni Təlim texnologiyalarının üstün cəhətlərini prof. Ə.Ə.Ağayev belə göstərir: "Dərs tam fəallıq şəraitində keçir, təkcə müəllim deyil, şagirdlər də yaradıcılıq axtarışında olurlar, müstəqil düşüncə tərzi formalaşır, təşəbbüskarlıq, yenilliyə meyllilik güclənir" Dil-ədəbiyyat müəllimləri Azərbaycan dili kursunun hər bölməsinin nəzəri materialların tədrisində, onların praktik tətbiqində İKT-nin bütün imkanlarına istinad etməli dərs icmallarının hazırlanmasında, məzmun xətlərinin, əsas və alt standartların reallaşmasında nəzərə almalı, nəticəyönümlü təlimə nail olmalıdırlar. Bütün bunlar tədris prosesinin müasir tələblərə uyğun qurulmasında vacib şərtlərdir. Bu gün komputer texnologiyalarından, onun imkanlarından istifadə bacarığına yiyələnmə təlim proseslərdə ona istinad etmə müəllimin intellektual səviyyəsinin əsas göstəricisi kimi çıxış edir.

İKT-nın yaratdığı əyanilik, informasiyanin kompleks formada təsvir və təqdim olunması, videolar animasiyalar informasiya resurslarına sürətlə daxil edilməsi əcnəbi tələblərin dilimizin daha yaxşı mənimsənilməsini təmin edir. Həmçinin ikt vasitəsilə əcnəbi tələblərə vətənimizlə adət- ənənlərimizin dərk edilmesində müsbət təsir göstərir.

Ulu öndər Heydər Əliyevin öz ana dilinə sevgisi, onun qorunması və zənginləşməsi ilə bağlı gördüyü işlər tariximizdə ciddi bir istisnalıq təşkil edir və hər bir soydaşımız üçün əbədi bir örnəkdir.

ALMAN DİLİ DƏRSLƏRİNDƏ AUTENTİK MƏTNLƏR VASİTƏSİLƏ QRAMMATİKANIN MƏNİMSƏMƏSİ YOLLARI

Mahmudova S.V.
Bakı Slavyan Universiteti
E-mail: semamhmdva5@gmail.com

Bədii mətn və qrammatika bir-birinə yaxından sıx bağlıdır və qrammatikanın məqsədi sadəcə qaydaları əzbərləmək deyil, eyni zamanda müasir kommunikativ xarici dil dərslərində qrammatikanın məqsədi linqvistik metodlarının tanınması və saxlanmasına əsaslanır. Tələbələrə bu formaları və strukturları daha yaxşı başa düşməyə və bu kontekslərdən istifadə etməyə kömək etmək məqsədi daşıyır. Qrammatika bilikləri ayrı-ayrılıqda deyil, kommunikativ tapşırıqlarla birləşdirilərək həyata keçirilməlidir. Əgər qrammatik hadisələrin tətbiq olunduğu mətn reallığa uyğundursa və autentikdirsə, tələbələr qrammatik bilikləri hədəf dil ölkəsində düzgün istifadə edə bilər.Qrammatikanı erkən yaşda qavramaq tələbələr üçün vacibdir. Çünki buraxılmış hər hansısa tanış olmayan söz, ifadə, hərif və s. kimi istifadəsi həm tələbələr, həm də müəllimlər üçün bir çox çaşqınlıq və bəzən problem yarada bilər. Dərslərdə qrammatik bacarıqların inkişaf etdirilməsi ilə tələbələr öz fikirlərini göstərə, yazılı layihələr və şifahi təqdimatlarda əvvəlcədən planlaşdırmaqlarına kömək edir. Qrammatikanı yaxşı bilmək tələbələrin xarici dili daha yaxşı qavramaları, ünsiyyəti təkmilləşdirmələri, daha məntiqli düşünməyə və savadlı olduğunu göstərir. Hər bir tələbə üçün xarici dil dərsində qrammatika vacibdir. Ünsiyyəti daha effektiv qurmaqla məntiqli düşünməyə də kömək edir. Tələbələr düşüncələrini başa düşə və yaxud ifadə edə bilmirlərsə, fikirlərini necə başqalarına çatdıracaqlar? Qrammatikanın əsas anlayışlarını anlamaqla tələbələr daha aydın, təsirli və s. cümlələr yazmağa kömək edir.

Yeni bir dil öyrənmənin təməli, düzgün qrammatika olmadan çətin ola bilər. Qrammatika və dilçilik çoxu zaman bir-birinə bağlıdır və hər ikisi xarici dili öyrənmək və inkişaf etdirmək üçün vacibdir. Qrammatika tərifli izahına görə, sözlərdən, ifadələrdən və bəndlərdən ibarət struktur məcmusudur. Sözlərin, ifadələrin və sintaksisin necə işləndiyini başa düşmək yeni dil qaydalarını öyrənməyi asanlaşdıracaq. Qrammatika və dilçilik haqqında əsas anlayışları bildikdən sonra alman dilini öyrənmək daha asanlaşar. Zəif qrammatika nəticəsində sadə və qarşısı alına bilən səhvlərə səbəb ola bilər. Qrammatika eyni zamanda məlumatın saxlanılmasına və oxunulan mətnləri başa düşməyə kömək edir. Güclü qrammatikanın nəticəsində isə tələbə istiqamətləri və ya bədii mətnləri tez və asanlıqla oxuya və yaxud verilən tapşırıqları yerinə yetirilməsini həyata keçirilə bilər. Lakin bu bacarıqlara malik olmayan tələbələr bəzən onlara verilən tapşırıqları yerinə yetirmələrində və yaxud nə tələb olunduğunu anlamaqda çətinlik çəkirlər. Bu isə tələbələrdə xarici dili öyrənmələrində, dəqiqliyə və yekun qiymətə xələl gətirir.

Xarici dil müəllimləri dərslərdə daha "canlı" olmaları və həvəsləndirici olmaları üçün qrammatik qaydalarını tələbələrə necə daha yaxşı formada öyrətməli olduqlarını soruşurlar. "Qrammatik bilik və bacarıqlar tələbələrə öz fikirlərini ifadə etmə və anlama bacarıqlarını təkmilləşdirməyə kömək etməlidir".

Orijinal mətnlərdən istifadə ünsiyyət tərbiyəsində mühüm rol oynayır. Qrammatika, xüsusilə orijinal mətnlərlə aktiv formada qarşılıqlı əlaqədə olan qrammatika və xüsusən öz mətnlərini yaratmaqda tələbələrə sevinc bəxş edə bilər. Qrammatika dərslərində orijinal mətnlərdən istifadə imkanları sonsuzdur. Bu, özlüyündə quru cümlələr demək deyil, mətn o qədər canlıdır ki, "göstərilən qrammatikanı" belə hiss etmirsiniz və tələbələr məzmun haqqında danışarkən, nitq məqsədlərini başa düşmək üçün avtomatik olaraq yeni qrammatik materiallardan istifadə edirlər. Məzmun və forma birlikdə olur. Bu səbəbdən alman dili dərslərində mətn işi xüsusi yer tutur. Pragmatik yönümlü mətn araşdırmaları vasitəsilə anlama bacarıqlarını, yəni dinləmə, oxuyub anlama, danışma və yazma kimi məhsuldar bacarıqlar tətbiq edilir. Ünsiyyət dərslərində mətnləri oxumaq gündəlik mətnləri başa düşməkdən ibarətdir. Qrammatik tərcümə metodunda olduğu kimi, ənənəvi "anlamaq" sözü artıq yeni fikirlərə uyğun gəlmir. "Xarici dildə kommunikasiya funksiyalarında gündəlik həyatın orijinal mətnlərini başa düşmək üçün onları bütün dil təfərrüatlarında "deşifrə etmək" lazım deyil.

ŞƏXSİYYƏTİN TƏRBİYƏSİNDƏ VƏ İNKİŞAFINDA KİTABIN ROLU

Mahmudova S.V.
Bakı Slavyan Universiteti
E-mail: semamhmdva5@gmail.com

"Şəxsiyyət" anlayışının məzmununu aşkara çıxartmaq üçün ilk öncəliklə, insanın mahiyyətini ictimai varlıq olaraq müəyyən etmək lazımdır, çünki şəxsiyyətlər yalnız insan cəmiyyətində mövcud olmuşdur. Cəmiyyət və kollektivdən ayrılmış insan şəxsiyyət kimi formalaşa bilməz çünki şəxsiyyət ictimai mahiyyətə malikdir. Bununla demək olar ki, insanların sosial keyfiyyətləri (düşüncəsi, zehni, əxlaqı, təlim-tərbiyəsi, dünyagörüşü və s.) yalnız cəmiyyətdə, kollektivdə formalaşıb inkişaf etmişdir.

Şəxsiyyət necə formalaşır ? Şəxsiyyətin formalaşmasında hansı amillərin rolu daha üstündür ? Bu suallara cavab vermək üçün ilk öncəliklə şəxsiyyət psixologiyası ilə yanaşı pedoqoji psixologiyaya müraciət etmək lazımdır. Şəxsiyyət dedikdə, sosial münasibətlərdə iştirak edən, şüurlu fəaliyyət göstərən, öz humanist düşüncələrini söyləyən, fərdi cəmiyyətin və sosial qrupun üzvü kimi fəaliyyət göstərən insan nəzərdə tutulur.

Şəxsiyyətin inkişafının probleminin öyrənilməsi antik dövrlərdən başlamışdır. Antik dövrlərdə Platon, Aristotel, Sokrat və s. kimi dahilər şəxsiyyətin inkişafının formalaşması haqqında öz fikirlərini söyləmişlər. Şəxsiyyətin inkişafı, tərbiyəsi hətta Şərq fəlsəfəsinin, psixoloji və pedaqoji ədəbiyyatının əsas obyektinə çevrilmiş, Nəsirəddin Tusi, İmam Qəzzalinin, Cəlaləddin Rumi, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli kimi dahi mütəfəkkirlər bu istiqamətdə öz qiymətli fikirlərini söyləmiş və eyni zamanda şəxsiyyətin inkişafına dair əsərlər yazmışlar.Hər bir tələbənin şəxsiyyətinin tərbiyəsində və inkişafında, mənəvi-estetik dəyərlərin formalaşmasında, bədii zövqünün tərbiyə edilməsində söz sənətinin-ədəbiyyatın rolu və əhəmiyyəti misilsizdir. Başqa sözlə desək, ədəbiyyat insanın cəmiyyətdə mənəvi zənginlik, emosional həssaslıq, əmək fəallığı, əxlaqi yetkinlik kimi keyfiyyətləri əldə etməsinə kömək edir.

İnsan şəxsiyyətinin hərtərəfli formalaşması ən qədim dövrlərdən başlayaraq müasir dövrümüzə qədər bütün bəşəriyyəti narahat etmişdir. Qədim zamanlardan bəri görkəmli mütəfəkkirlər ilə yanaşı Azərbaycan ədəbiyyatının klassikləri də insan şəxsiyyəti haqqında keyfiyyətli mülahizələr və fikirlərini söyləmiş və hər bir insanın formalaşmasında təsir göstərən amillərdən söz açmışlar. Azərbaycan ədəbiyyatının klassikləri qeyd etmişdir ki, kitab oxumağın, mütaliə etməyin və eyni zamanda kitabxananın rolu barədə bütün yaradıcılıqları boyu söz açmışlar. Əlbəttə, insan şəxsiyyətini formalaşdırılması asan iş deyildir. Hər şeydən əvvəl, hüquq, psixologiya, fəlsəfə, estetika, etika, kitabşünaslıq, ədəbiyyatşünaslıq, tibb və s. kimi elmlərin tədqiqat obyektinə daxil olan "şəxsiyyət" anlayışı mahiyyət baxımından bir-birinə yaxın olan tərifərə şərh olunub.

Bədii ədəbiyyat insan şəxsiyyətinin bədii-estetik tərbiyəsinin mühüm amilidir. Oxucuların bədii qavrayışının inkişafı, bədii-estetik biliklərinin formalaşması, bədii zövqünün tərbiyəsi kitabxanalarda milli və bəşəri mədəni irsin məqsədyönlü təbliği ilə sıx bağlıdır.Şəxsiyyətin tərbiyəsində və inkişafında fəaliyyətin müxtəlif növlərinin böyük rolu vardır və bu fəaliyyətin dərslərdə təşkil olunması əsas rol oynayır:

1. Mütaliə etmək insanın düşüncəsi, diqqəti, yaddaşı və semantik qavrayışının inkişafına səbəb olur. Eyni zamanda, şəxsiyyətin inkişafında və formalaşmasında, insanın biliklərinin zənginləşməsində, mənəvi tərbiyəsində mühüm rol oynayır. Buna görə də, valideynlərin, müəllimlərin və psixoloqların narahat olmaları

heç də əsassız deyil. Az mütaliə edən tələbələr öz sosial və intellektual inkişaflarına görə ünsiyyət qurmağa çalışdıqlarında çətinlik çəkir, həmyaşıdlarından geri qalırlar. Hər bir uşaq şəxsiyyətinin inkişafı zamanı oxuya maraq göstərən, oxuduğu mətn və uşaq ədəbiyyatı ilə müstəqil işləməyi bacararığına malik olan, səlist oxu bacarıqlarına malik olan və vətəndaş mövqeyinə malik olan düşüncəli oxucu kimi formalaşmalıdır. Tələbələrdə belə bir oxuculuğu formalaşdırmaq üçün, mən bəzi məslələrdə daha diqqətli olaram: Kitablara və mütaliəyə qarşı marağı inkişaf etdirərəm; Mütaliə zamanı tələbələrin fəal olmalarına yol göstərərəm; Kitablar ilə maraqla işləməyi öyrədərəm.Məhşur filosof Sokratın düşüncələrinə görə isə mütaliə etmək cəmiyyətin gündəlik vərdişinə çevrilərsə, cəmiyyət xoşbəxt olar. Buna görə də mütaliəni sadəcə sevməməli, eyni zamanda onu vərdiş halına da çevirməyi bacarmalıyıq.

2. İnsan həyatında kitablar əvəzsiz və ayrılmaz rol oynayır. Əgər kitablar olmasaydı, dramatizm, gözəl sözlər və ya romantika da olmazdı. Həyatdan yalnız məyusluq və tənhalıq olardı. Kitablar isə bütün bunlardan bizi qoruyur. Kitablar bəzən bizə heç kimin verə bilmədiyini verərlər. Məsələn; sakitliyi, bəzi zamanlarda rahatlığı, təxəyyül və fantaziyanı, cəmiyyət hadisələrində çevik olmağımıza, obrazlı və məntiqi təfəkkürün və idraki bacarıqlarının inkişafına, bir çox hallarda isə həyatda bəzi məsələlərin müəyyənləşməsində müstəsna rol oynayır.

ABDULLA ŞAİQİN UŞAQLAR ÜCÜN YAZDIĞI PYESLƏRDƏ TƏRBİYƏVİ MƏQAMLAR

Mahmudzadə A.C.
Lənkəran Dövlət Universiteti
E-mail: aytacfeyzizadeh@gmail.com

Abdulla Şaiq XX əsr Azərbaycan romantik ədəbiyyatının görkəmli nümayəndələrindən olmuş, müxtəlif janrlarda yazaraq zəngin bir yaradıcılıq yolu keçmişdir.Tərcüməçi kimi də fəaliyyət göstərmiş müxtəlif böyük və kiçik həcmli əsərləri dilimizə çevirmişdir.Müəllim, dərslik müəllifi, yazıçı və şair kimi çoxsaylı oxucuların rəğbətini qazanmış Abdulla Şaiqin bədii yaradıcılığı, zəngin bədii irsi istər böyüklər, istərsə də uşaqların sevə-sevə oxuduğu əsərlərdir. Kapitalist münasibətləri, sosialist ideologiyası, sovet quruluşunun alqışladığı dövrün mütərəqqi fikirli şəxsiyyəti kimi hələ o dövrün mətbuatında öz əksini tapmışdı. Abdulla Şaiqin pyesləri üç mənbədən qidalamışdır:klassik yazıçıların ədəbi-bədii irsi və hayatından,xalq nağıllarının süjet və personajlarından. “Gözəl bahar”, ‘‘Danışan kukla”, “İntiqamçı xoruz’’,“El oğlu’’, ‘‘Vətən’’, ‘‘Bir saatlıq xəlifə’’ pyesləri nağıl və rəvayətlərin süjet və kompozisiyasından istifadə yolu ilə yaranmışdır.1910-cu ildə yazdığı ‘‘Gözəl bahar” pyesi ilə milli uşaq teatrının əsasını qoyur. ‘‘Gözəl bahar”nağıl-pyesi Azərbaycan dramaturgiyası tarixində uşaqlara aid olan ilk alleqorik səhnə əsəridir. Abdulla Şaiqin ‘‘Xasay”, ‘‘El oğlu”, ‘‘Vətən”, ‘‘Fitnə”, ‘‘Qaraca qız” kimi pyesləri vardır. Şairin “Fitnə” və ‘‘Nüşabə” əsərləri Nizami süjetləri əsasında yaranan maraqlı sənət örnəkləridir. Xüsusən “Vətən” və “El oğlu”, dramlarında folklordan gəlmə mifoloji motivlərin təsiri ilə xalq qəhrəmanlarının yenilməzliyi, qara qüvvələr, düşmənlər üzərindəki parlaq qələbəsini təsviri verilmişdir pyeslərində.Azərbaycan xalqının işğal qorxusunun məngənəsindən xilas etməyə qələbəyə, vətənin azadlıq uğrunda mübarizə göstərməyə səfərbər edirdi. Şair, 1909-1910-cu illərdə dərsliyə daxil etmək üçün uşaq şeirləri, mənzum və mənsur hekayələr, uşaq pyesləri yazır və onları “Uşaq çeşməyi”, “İkinci il” dərsliklərinə daxil edir. “Uşaq gözlüyü” dərsliyinə yazıçı “Xoruz”, “Keçi”, “Uşaq və dovşan”, “Yetim cücə”, “Yeni köməkçi”, “Səhər”, “Təpəl kəlim”, “Dovşan”, “Çoban mahnısı”, “Payız gecəsi”, “Payızın son ayı” kimi uşaq əsərlərini daxil etmiş, “İkinci il” dərsliyində “Bir quş”, “Quzu”, “Məktəbdə”, “Payız”, “Uşaqlar”, “Yetim”, “Qonaqlıq”, “Aslan, qurd və tülkü”, “Tülkü və aslan”, “Tülkü və qurd”, “Türk dili” dərsliyində isə “Cütçü” şeirlərini tədris materialı kimi vermişdir.Abdulla Şaiqin digər pyeslərində-bir tərəfdən xeyirxah, digər tərəfdən bədxah insan taleyi ilə oynayan naqis tiplər bir-birinə qarşı dayanmışdır.Dramaturq qüvvələr arasındakı münaqişəni inkişaf etdirərək,mürəkkəbləşdirir və sonda xeyrin qələbəsi ilə başa çatır.

Pyeslərdə insanın azadlıq eşqi və qüdrəti, ağıl və müdrüklüyü ilə yanaşı, vətən sevgisi və düşmənə, nifrət əks olunmuşdur.Yuxarıda qeyd etdiyimiz kimi, A.Şaiqin pyesləri Azərbaycanda yeni yaradıcılıq istiqamətini formalaşıb inkişaf etməsinə səbəb oldu.Gənc nəslin tərbiyəsinə xidmət edə biləcək ölməz əsərlər yaratmış,uşaq ədəbiyyatı kimi çətin sahədə uzun müddət fəaliyyət göstərmişdir.

NİTQ BACARIQLARININ ÜNSİYYƏT PROSESİNDƏKİ ƏHƏMİYYƏTİ

Məlikova A.Ə.
Bakı Slavyan Universiteti
E-mail: aysel_taqizade@mail.ru

İnsanlar həmişə bir-biri ilə ünsiyyət qurmağa ehtiyac duymuşlar və bu səbəbdəndir ki, ünsiyyət insanların birgə fəaliyyəti tələbatının nəticəsində yaranmış və insan həyatının əsas tərkib hissəsinə çevrilmişdir. Ünsiyyət qarşılıqlı əlaqənin stimul və motivi əsasında yarandığına görə, qarşılıqlı əlaqə şəraitində ünsiyyətin baş verməsi üçün məlumat və şəxsi maraqların olması vacibdir.

Müasir dövrdə şifahi və yazılı nitq arasındakı sərhəd tədricən aradan qaldırıldığı üçün onları bir-birə əks hesab etmək düzgün sayılmazdı. Məsələn, konsept üzrə çıxış edən televiziya aparıcısının və ya auditoriyada mühazirə oxuyan professorun nitqi həm şifahi, həm də yazılı nitq hesab edilir.Nitq fəaliyyətləri olan danışıq, dinləmə, oxu və yazı bir-biri ilə sıx əlaqəli olub hər biri müxtəlif məhsuldarlığa malikdir. Belə ki, dinləmə məlumatların qavramasına kömək etdiyi halda, oxu və yazı linqvistik quruluşlarına görə fərqli xüsusiyyəti ifadə edirlər. Buna nəzərən, tədris zamanı nitq fəaliyyət növlərinin xarakterinə qarşılıqlı əlaqə əsasında diqqət edilməlidir.Nitq fəaliyyəti nəticəsində yaranan ünsiyyət bacarıqlarından danışıq və yazı məlumatların ötürülməsi kimi xarakterizə olunduğu halda, dinləmə və oxu isə, əksinə, məlumatların qəbul edilməsi ilə əlaqəlidir. Tərəflərin bir-biri ilə qarşılıqlı əlaqəsi zamanı yaranan real ünsiyyətdə nitq fəaliyyətinin heç bir növü bir-birindən təcrid olunmuş halda mövcud deyildir və hər bir şagird ünsiyyətə qoşulmaq üçün danışıq, yazı, oxu və dinləmə bacarıqlarına yiyələnməlidir.Hər hansısa bir nitq fəaliyyəti bacarıqlarına yiyələnməyən şagird tədris zamanı dinlədiyi nitqi anlamadığı və ya əksinə, anladığı halda öz fikrini ifadə edə bilmədiyi üçün ünsiyyətdə iştirak edə bilmir. Məhz bu səbəbdən, danışıq, yazı, oxu və dinləmə bacarıqları bir-birindən təcrid olunmuş halda öyrədilməməlidir.

Qeyd olunduğu kimi, real ünsiyyətdə nitq fəaliyyəti bacarıqları bir-biri ilə sıx əlaqəlidir və tədris prosesində də bu bacarıqlar arasındakı inteqrativlik gözlənilməldir.Dinləyicinin aktiv olması effektiv ünsiyyətin yaranmasına səbəb olur, ona görə də, təsirli danışmaq və dinləmək ünsiyyət prosesində mühüm əhəmiyyət kəsb edir. Bunu nəzərə alaraq, dərs zamanı müəllim əgər, şagirdin nitqinə diqqətlə dinləməni təmin edərsə, bu, ünsiyyətin həm maraqlı, həm də uğurlu olması ilə nəticələnə bilər.

XARİCİ DİL VƏ XARİCI DİL MƏDƏNİYYƏTİNİN QARŞILIQLI ƏLAQƏSİ

Məmmədova A.R.
Bakı Slavyan Universiteti
E-mail: aytacmm28@gmail.com

Xarici dil öyrənməkdə məqsəd həmin dil vasitəsilə ünsiyyət qurmaqdır. Amma demək olmaz ki, ünsiyyət qurmaq üçün qrammatik cəhəttən əla öyrənilmiş bir dil danışan şəxs üçün kifayət edir. İnsanların böyüdükləri mədəniyyətlər bir-birindən fərqli olduğu üçün, bir-birlərinin mədəniyyətləri haqqında təsəvvürə sahib olmaq ünsiyyəti asanlaşdıracaq və yarana biləcək anlaşılmazlıqlar və problemlərin qarşısını alacaq. Odur ki, xarici dil tədris edilərkən həmin dilin mədəni elementlərinin öyrədilməsi ön planda saxlanılmalıdır. Bir sözlə, hədəf dildə mədəni şüurun yaradılması, xarici dilin tədrisi zamanı böyük əhəmiyyət kəsb edir.

Məlumdur ki, xarici dil tədrisinə mədəniyyətin daxil edilməsi şagirdlərə dünyagörüşü də qazandırır. Bu yolla tələbələr xarici mədəniyyətin həyat tərzi haqqında məlumat əldə edirlər. Məsələn, onlar cins, sosial sinif və sosial mövqe və s. insanların danışıq və davranışlarında necə əks olunduğunu anlamaq, xarici mədəniyyətdə və öz mədəniyyətlərində oxşar vəziyyətlərdə necə davranacaqları kimi mövzularda müqayisə aparmaq bacarığı qazanırlar. Bu, onlara xarici dildə istifadə olunan dil və mədəniyyət elementləri arasındakı əlaqələri anlamağa kömək edir. Bundan əlavə, dil və mədəniyyət öyrətmə prosesində xarici mədəniyyətə maraq oyatmaq, bu marağı təmin etmək və empatiya qurmağa imkan vermək kimi davranışlar qazanıla bilər. Bütün bu prosesdə, ilk növbədə, mədəniyyətin dinamik aspektinə diqqəti cəlb etmək lazımdır. Şagirdlər xarici dillə bağlı mədəni biliklərini mütləq inkişaf etdirməlidirlər. Xarici mədəniyyətin tələb etdiyi davranış və mədəni ünsiyyət bacarıqlarının inkişaf etdirilməsi də vacib hesab edilməlidir. Onların öz mədəniyyətləri ilə yanaşı xarici mədəniyyətin dinamik strukturunu anlaya biləcək bir şüur inkişaf etdirmələri də diqqətdən kənarda

qalmamalıdır. Mədəniyyətə xarici dil tədrisindən ayrı bir element kimi baxılmamalı və o, xarici dil tədrisinin bir hissəsi olmalıdır. Sinif mühitində şagirdlərə çatdırmalıyıq ki, dil bir vasitə, mədəniyyət isə bir mesajdır.

Nəticə etibarı ilə, xarici dilin tədrisində həmin dilin mədəniyyəti öyrədilərkən müəllimin məqsədi, şagirdlərin xarici dil mədəniyyəti ilə empatiya qurmasına köməklik etməsidir. Bu məsələdə vasitəçi olmaq üçün müəllimin hər iki mədəniyyət üzrə kifayət qədər məlumatı olmalıdır. Əks təqdirdə, xarici dil mədəniyyəti üzrə kifayət qədər məlumatın olmaması anlaşılmazlığa və ya söhbət zamanı uğursuzluğa səbəb olacaqdır. Bunun yeganə yolu cəmiyyəti yaxşı tanımaqdır. Şübhəsiz ki, xarici dil müəllimləri həm xarici mədəniyyəti öyrədən, həm də xarici mədəniyyəti təhlil edə bilən fərdlər olmalıdır. Buna görə də onların üzərinə böyük məsuliyyət düşür.

M.F. AXUNDOV DRAM ƏSƏRLƏRİNİN TƏDRİSİ

Məmmədova G.A.
Bakı Slavyan Universiteti
E-mail: gulnarmemmedova05@gmail.com

M.F.Axundovun Azərbaycan ədəbiyyatında, dramaturgiyasında irəli sürdüyü ən əsas və və ən böyük yeniliklərdən biri milli dramaturgiyanın əsasını qoymuşdur. “Hekayəti -müsyö Jordan həkiminəbatat və dərviş Məstəli şah caduküni-məşhur” komediyasında ideya-məzmun əlamətlərinə görə “Hekayəti-Molla İbrahimxəlil kimyagər”əsəri ilə yaxından səsləşir.Hökm sürən mənəvi geriliyin savadsızlığın tənqidi bu komediyada əsas yer tutur.Əsərdə yazıçı fırıldaqçı,yalançı kimyagərlərin mim bir fırıldaqla insanları, avam xalqı aldatdıqlarını təbii və inandırıcı səhnələrlə təsvir etmişdir.Hatəmxan ağa, Şərəfnisə xanım, Şahbaz bəy, Xanpəri, Məstəli şah və digər obrazların simasında M.F.Axundov əsas və başlıca ideyasını açmaq üçün o dövrün və mühitin sosial mənzərəsini yaratmağa müvəffəq olmuşdur.

M.F.Axundov dram əsərlərində cahil olmağın, nadanlığın, geriliyin əleyhinə çıxır və insanları maariflənməyə,bilik sahibi olmağa,dünyəvi elmlərə,Avropa mədəniyyətinə yiyələnməyə çağırır və komediyada iştirak edən qadınlar vasitəsilə cahillik satirik dillə oxuculara, şagirdlərə çatdırılmışdır. ««Hacı Qara» Axundov dramaturgiyasının ən yüksək zirvəsi hesab olunur bununla yanaşı realist komediyanın klassik nümunəsidir. Həsən bəy Zərdabinin dediyinə görə, Axundov özü “Hacı Qara»nı komediyalarının ən yaxşısı hesab edirdi” yazan Cəfər Cəfərov isə müəllifin öz münasibətini açıqlayan fərziyyəni xatırladır. Əsərin ilk epizodunda Heydər bəyin dilindən səslənən: «Pərvərdigara bu necə əsrdir? Bu necə zəmanədir?» sualları dövrdən, zəmanədən şikayətlənən müəllifin də mövqeyini səciyyələndirir. İlk kəlmələrindən: «Allah kəssin belə bazarı! Belə alış-verişi!» deyən Hacı Qaranın da bazarının kasadlığında zəmanəni günahlandırması ümumən həmin dövrün mənzərəsini müəllif yaradır. Beləliklə, personajların daxili aləminə nüfuz edib və bununla yanaşı, ziddiyyətlərin bədii şəkildə cilalanmasını yüksək səviyyədə həyata keçirən M.F.Axundov yaşadığı mühitin əsas problemini, ziddiyətini önə çəkir. Bu gün bədii əsərlərdən uzaq düşən şagirdlər müstəqil, azad danışmaq, öz müstəqil fikrini bildirməyi və yazmaq bacarıqlarını da itirirlər.

AZƏRBAYCANDA STEM MODELİNİN ROLU

Məmmədova G.E.
Azərbaycan Dillər Universiteti
E-mail: mammg018@gmail.com

Müasir dünya təhsil sistemində tətbiqi əhəmiyyət daşıyan əsas istiqamətlərdən biri STEM əsaslı təlimin geniş yayılmasıdır. Yeni yanaşmanın mahiyyəti, hədəfləri, təhsil sistemində STEM anlayışının şagirdlərin akademik uğuruna necə təsir etməsi ilə bağlıdır. Çünki yeni yanaşmanın tətbiqi təhsil sisteminin yenilənməsi baxımından nə qədər aktualdırsa, yeni innovativ texnologiyanın təhsilalanların həyatında rolunu qiymətləndirmək də bir o qədər vacibdir. STEM yanaşma öyrənmə və təhsilə olan baxışımızı dəyişir. Praktiki bacarıqlara diqqət yetirərək, məktəblilər öz iradələrini, yaradıcılıq potensialını, çevikliyini inkişaf etdirir və başqaları ilə əməkdaşlıq etməyi öyrənirlər. Bu bilik və bacarıqlar tədrisin əsas hədəfini, yəni bütün sisteminin məqsədini təşkil edir.

Şagirdlərin hərtərəfli, sərbəst və yaradıcı inkişafı şəxsiyyətyönümlü təlimdə əsas məqsəd kimi qarşıya qoyulmuşdur. Müəllim şagirdlərə müəyyən biliklər verməsi ilə bərabər həm də onlara öyrənməyi öyrətmək, əldə etdiyi informasiyalardan istifadə etmək bacarığını aşılamalıdır. Müəllim və şagird təlim prosesində bərabərhüquqlu üzvlərdir və müəllim bələdçi rolu ilə şagirdlərdən fərqlənir. Sinifdə hər bir şagird özünü bərabərhüquqlu şəxsiyyət kimi dərk edir, yoldaşlarını şəxsiyyət kimi görür və özünə, onlara hörmət etməyə başlayır. Bu cür təlimdə şagirdlər qarşılıqlı hörmət, əməkdaşlıq mühitində fəaliyyət göstərirlər.

Təlim və təhsil şəxsiyyətin inkişafı deməkdir. Təhsil müəssisələrində şagirdlərə bilik verməklə bərabər bacarıq və əvrdişlər də aşılanır. Biliyin işərisində qanunlar, faktlar, rəqəmlər, məlumatlar mövcuddur. Bilik tətbiq olunarkən vərdiş və bacarıqlar da formalaşır. Şagird öyrəndiyi biliyi tam şəkildə mənimsəməyi bacarmaq üçün mübarizə aparır, hətta təkrar edə- edə vərdişə yiyələnir. STEM yanaşma ilə təhsil daha yaradıcı və əyləncəlidir. Bu yanaşma ilə yetişən uşaqlar vaxt keçdikcə daha yaxşı təmin olunacaq və gələcəkdə də yeniliklər tətbiq edə biləcəklər.

STEM-in dörd xətti: Elm, Texnologiya, Mühəndislik və Riyaziyyat bütün şagirdlərin akademik karyeralarının əsas formaları olmuşdur. (xüsusilə elm və riyaziyyat) Onlar aşağıdakı kimi müəyyən edilir:

1. Elm: müşahidə, təcrübə və ölçmə əsasında maddi və fiziki kainatın təbiətini və davranışını sistematik tədqiqi və bu faktları ümumi şəkildə təsvir etmək üçün qanunların tərtib edilməsidir

2. Texnologiya: sənaye sənəti, mühəndislik, tətbiqi elm və s. mövzulara əsaslanaraq, texniki vasitələrin yaradılması və istifadəsi və onların həyat, cəmiyyət və ətraf mühitlə qarşılıqlı əlaqəsi ilə məşğul olan bilik sahəsidir

3. Mühəndislik: mühərriklərin, körpülərin, binaların, mədənlərin, gəmilərin, kimya zavodlarının və s. tikintisində texniki biliklərinin praktiki tətbiqidir

4. Riyaziyyat: cəbr, həndəsə və hesablama daxil olmaqla, xüsusi qeydlərdən istifadə etməklə ədədin, kəmiyyətin, formanın, fəzanın və onların qarşılıqlı əlaqələrinin öyrənilməsi ilə məşğul olan əlaqəli elmlər qrupudur

STEM sahəsində xüsusi təcrübələr keçmiş müəllim və işçi heyyətinə də ehtiyac duyulur. Bəs STEM tərbiyəçisi nədir? STEM fərqli insanlar üçün fərqli məna kəsb edə bilər. Müəllim təhsili istisna olmaqla, STEM ilə əlaqəli proqrama daxil olan şagird artıq müstəqil STEM sahəsindədir. Məsələn, bir tələbə molekulyar biologiya və ya ali riyaziyyat ixtisasına yiyələnirsə, onlar artıq STEM proqramının işçi qüvvəsinə bir alim kimi daxil olacaqlar. Beləliklə, onlar xüsusi olaraq öz sahələrinə aid olan texnologiya, mühəndislik, riyaziyyata və elm sahələrini bilməklə yanaşı, tətbiq etmək bacarığına damalik olacaqlar. Buna görə də, STEM bu baxımından inteqrasiya və inkişaf üçün əvəzolunmaz bir təhsil metodudur. Müəllim təhsilində isə belə deyil. Sadəcə elm öyrədən, lakin tədris planlarına texnologiya, mühəndislik və ya riyaziyyatı inteqrasiya etməyən və ya digər STEM fakültələri ilə əməkdaşlıq etməyən orta məktəb müəllimini nəzərdən keçirək. Bu müəllim STEM sahəsində olsa da, inteqrasiya etmələri və ya əməkdaşlıq etmələri onları STEM müəllimi deyil, sadəcə elm müəllimi edir. Bu modelin məktəblərdə tətbiq edərkən müxtəlif prinsiplərə uyğun olaraq tədris olunmasına çox önəm verilir. Bunlardan ən əsasıda STEM-in layihəsində bir işin əvvəlki mərhələsinə qayıtmaq, müəyyən elementləri təkmilləşdirmək və sınaq prosesinə qayıtmaq qabiliyyətidir. Bunun əsas məqsədi, nəticədə əldə edilən son məhsulun ondan tələb olunan bütün meyarlara cavab verməsidir.

İNGİLİS DİLİNİN KOMMUNİKATİV TƏDRİSİ

Məmmədova V.Ş.
Bakı Slavyan Universiteti
E-mail: memmedovav262@gmail.com

Müasir dövrdə xarici dillərin tədrisi, xüsusilə də ingilis dili təliminin ən səmərəli yollarının müəyyən edilməsini təmin edən, təlimin bütün mərhələləri üçün məqbul hesab edilən, mövcud təlim metod və üsulların müsbət təcrübəsini nəzərə alan, onlardan yaradıcı şəkildə faydalanan, daha geniş imkanlara malik olan kommunikativ təlimdir.Xarici dili, o cümlədən ingilis dilini tədris edən müəllimin əsas vəzifəsi dilin mənimsənilməsi üçün səmərəli olan müsbət təlim şəraitinin yaradılması, təlim prosesinin tələbələrin yaş, intellektual səviyyələrini nəzərə almaqla təşkil edilməsi, müxtəlif təlim strategiyalarından istifadə etməklə tələbələrin müxtəlif mövzular ətrafında qurulmuş ünsiyyət prosesinə aktiv və təşəbbüskar iştirakçılar qismində təmin edilməsindən ibarətdir.Kommunikativ yönümlü həlledici amil kimi qəbul edən kommunikativ təlim fonetik,

leksik, və qrammatik materialların mənimsənilməsi səviyyəsini onların ünsiyyət üçün nə dərəcədə əhəmiyyətli olduğu baxımından qiymətləndirir.

İngilis dilinin qrammatikasının kommunikativ üsulla onun qaydalarının mexaniki surətdə əzbərlətmək deyil, şüurlu şəkildə dərk edilərək öyrənilməsi məqsədi daşıyır. ingilis dilinin kommunikativ tədrisi tələbələri öyrəndikləri qaydaları ünsiyyət zamanı savadlı şəkildə tətbiq etməyə yönəltmək üçün ən fəal təlim üsulu sayılır. Qeyd etmək lazımdır ki, son illər ərzində ingilis dilinin kommunikativ tədrisi ilə bağlı bir neçə ədəbiyyat nəşr edilmişdir. bu ədəbiyyatlardan dünyamin yunusovun "a guide to english grammar", dünyamin yunusov və mələk məmmədovanın birgə yazdıqları "ingilis dilinin qrammatikası", l.cəfərova, a.hüseynov, m.mirzəyeva, s.mustafayevanın birgə yazdıqları "english grambridge" dərsliklərini göstərmək olar. dərsliklərdə göstərilən tapşırıq və çalışmalar kommunikativ yanaşmanın tələblərini əks etdirdiyindən ingilis dilinin qaydalarının funksional yönümlü tədrisinə geniş imkan yaradır. Kommunikativ yanaşma yolu ilə qrammatikanın tədrisi tələbələrə qrammatik qaydaların yaradıcı şəkildə, cütlüklər və qrup şəklində təşkil edilmiş işlərdə öz fikirlərini sərbəst ifadə etməyə imkan yaradır.

İngilis dilinin kommunikativ tədrisi ünsiyyətin əsas məqsədi kommunikativ bacarıqların yerinə yetirilməsi, qrammatikadan daha geniş məfhuma-mənaya diqqətin yönəldilməsindən ibarətdir. kommunikasiya bacarıqlarına məlum məsələdir ki, ünsiyyət vasitəsilə, məna yaratmaqla və bu mənanı qrammatika vasitəsilə qaydaya salmaqla nail olmaq olar. Kommunikativ yanaşma dövrün tələblərinə cavab verən və qoyulan məqsədə nail olmaq üçün imkanlar yaradan yeganə bir üsuldur.

Amerikalı alim bağlı d.brinton, j.holten kommunikativ yolla xarici dilin tədrisi üçün müəllim və tələbələrə 10 bölmədən ibarət cədvəl təqdim edir:

Müəllim üçün: daha az qadağalar etmək; risk etməyə həvəsləndirmək; özünə qarşı inam yaratmaq; əsaslandırmağı bacarmaq və inkişaf etdirmək; birgə öyrənməyə cəlb etmək; sağlam beyin həmləsindən istifadə etmək; intuisiyanı təcrübəyə tətbiq etmək; qavrama və dərk etməni asanlaşdıran yolları aramaq; səhvlərin düzəldilməsinə əks əlaqə prinsipini aid etmək; məqsəd qoymaq.

Tələbə üçün**:** qorxuya yox; özünə inam; mövzuya varmaq; biliklərə yiyələnmək; komanda şəklində işləmək; təxəyyülü geniş şəkildə canalandırmağı bacarmaq; səhvlər üzərində iş; məqsədlərə nail olmaq; xaosla bacarmaq; mintuisiyanı izləmək.

ŞƏHİDLİK MOTİVİ. MƏHƏMMƏD HADİNİN "TÜRKÜN NƏĞMƏSİ " VƏ MƏHMƏT AKİF ƏRSOYUN "İSTİQLAL MARŞI " ŞEİRLƏRİNİN TƏDRİSİ

Məmmədova X.M.
Lənkəran Dövlət Universiteti
E-mail: senan.imanov1999@gmail.com

Orta məktəblərdə şagirdlərə tədris olunan mövzular "yaddaş" məktəbindən "düşüncə" məktəbinə keçidə əsaslanan təhsil proqramına uyğunlaşdırılmalıdır. Şagirdlər "passiv" rolundan çıxmalı, təlim prosesinin mərkəzində olmalıdır. Müəllimlər isə bilikləri hazır şəkildə deyil, şagirdlərə müəyyən istiqamət verməklə onların müstəqil işləmək bacarıqlarına bir növ təkan verməlidir. "Deməli, dərs prosesində müəllim şagirdlərin bilikləri əldə etməsi işində bələdçi mövqeyini tutur, şagirdlər isə bilikləri kəşf edən şəxs kimi çıxış edir".(2,123). Şəhidlik motivi ilə bağlı olaraq şagirdlərə ilk öncə bir sıra suallar - "Şəhidlik dedikdə nə başa düşürsünüz?, Şəhidlik zirvəsinə yüksəlmiş hansı şəhidlərimizi tanıyırsınız?, "Sizcə, şəhidlərimiz qarşısında hansı vəzifələrimiz var?" verməklə onlarda mövzuya aid təsəvvür yaratmaq mümkündür. Şəxsiyyətyönümlü biliyə əsaslanan, şagirdlərə humanizm, vətənpərvərlik kimi duyğuları aşılayan bu formalı əsərlər şagirdlərdə doğma yurd sevgisini daha da artırmağa yönəlmişdir. Bu duyğulardan birini də bütün yüksəkliklərdən uca olan bir zirvə - şəhidlik zirvəsi təşkil edir. Bu şərəfli zirvəyə qalxmaq, əlbəttə ki, hər kəsə nəsib olmur. Bu uca şərəfli zirvəyə yalnız və yalnız qorxunun nə olduğunu bilməyən, vətəni yolunda canını fəda etməkdən bir an olsun belə çəkinməyən mübariz insanlar yüksələ bilər. Şagirdlər daha ilk təhsil almağa başladığı andan dərk edirlər ki, qürur mənbəyimiz olan şəhidlər saysız-hesabsız qəhrəmanlıqları ilə bir şəhidlik məktəbi yaratmışlar. Bu elə bir məktəbdir ki, indinin şagirdləri, gələcəyin isə qəhrəman əsgərləri - Çingizləri, Mübarizləri, Ülviləri yetişir. Bu şagirdlərin vətənpərvərlik hisslərinin güclənməsində qəhrəmanlıq duyğularını, insanları mübarizliyə səsləyən əsərlərlə yanaşı, qələbə sevincini bizə yaşadan şəhidlərimizin əziz xatirəsinə həsr olunan əsərlərin rolu böyükdür. Bu əsərlərdən biri də VIII sinifdə tədris edilən M.Hadinin "Türkün nəğməsi" şeiridir. XX əsr romantizm cərəyanının ən böyük nümayəndələrindən olan M.Hadi qəlbinin dərinliklərindən gələn sözləri

qələmə alan, həyatı boyu həqiqət carçısı olan, xalqını azad, xoşbəxt, vətənini isə sivil dövlətlər arasında görmək eşqilə daim mübarizə aparan görkəmli şəxsiyyət olmuşdur. "Keçmiş imperiya ərazisində ilk böyük rus inqilabının dalğasında çıxan sosial azadlıq hərəkatı və milli İntibah dalğası öz qoşa qanadlı və qoşa zirvəli təzahürünün realist-bədii qanadını Sabirin şeirində tapırsa, romantik qanadını Hadidə tapır". (1,7). Şagirdlər bilməlidir ki, Şərq, türk, Avropa ədəbiyyatlarını, fəlsəfəsini dərinliyinə kimi mənimsəyən M.Hadinin "Türkün nəğməsi" şeiri milli-azadlıq mövzusunda qələmə alınmışdır. Tərtib olunmuş fənn kurikulumunun qoyduğu tələbə görə təlim prosesinin mərkəzində duran şagird oxuduğu ədəbi nümunəni bədii-emosional cəhətdən obrazlı mənimsədiyini nümayiş etdirməli, onlar üzərində müxtəlif araşdırmalar aparmalı, əsərin məzmun və ideya baxımından yarandığı dövrün ictimai-siyasi vəziyyətinə uyğun qiymət verməyi bacarmalıdr. 1918-ci ildə əruz vəzninin həzəc bəhrində yazılan bu şeirdə I Dünya müharibəsinin qəhrəman türk xalqlarına gətirdiyi müsibət və fəlakətlər öz əksini tapmışdır. Bununla belə, şeirdə lirik qəhrəmanın ağır, acınacaqlı itkilərdən doğan hissləri deyil, azadlıq uğrunda mübarizəsi əks olunmuşdur:

Türkün tökülən qanları bihudə gedərmi?
Diqqətlə düşün, yoxsa bu qan həpsi hədərmi?
Dörd ildə verilmiş bu qədər can hədər olmaz,
Məfkurə yolunda tökülən qan hədər olmaz.

Şeiri oxuyan şagirdə aydın olur ki, şair türkün mübarizə aparmasının boşuna, gərəksiz olmadığını qeyd edir. Şeirdə dörd il müddətində davam edən I Dünya müharibəsi zamanı şəhidlik zirvəsinə yüksələn igid qəhrəmanlarımızın məfkurə yolunda tökülən qanlarının hədər olmadığı poetikcəsinə öz əksini tapmışdır.

Çətin anlaşılan sözlərin izah xüsusiyyətləri mühüm əhəmiyyət kəsb etdiyindən əsərin təhlili üzrə iş zamanı məzmunun daha dərindən öyrədilməsi məqsədilə onların tədrisi zamanı lüğətlərdən müntəzəm istifadə olunmalıdır. Şagirdlər "Türkün nəğməsi" şeirində şagirdlər müstəqil şəkildə internet resursları, yaxud lüğətlər vasitəsilə "bihudə" sözünün "boşuna, gərəksiz", "məfkurə" sözünün "məqsəd", "xuni-şəhidan" sözünün "şəhidlərin qanı", ""növseyi-nisvan" sözünün "qadınların şivəni, harayı", ""himməti türkan" sözünün "türklərin səyi, bacarığı", "əfğani-yetimani" sözünün "yetimlərin fəryadı", "atəşi-dəhhaşe-düvəldən" sözünün "dövlətlərin dəhşətli hücumları", "xof eyləməmək" ifadəsinin "qorxmamaq", "dəsti-əcəl" sözünün "əcəlin, ölümün yaxınlaşması", "müslih-əməl" sözünün "əmin-amanlığı bərpa etmək arzusu", "miləl" sözünün "millətlər" mənasında işləndiyini bilməlidirlər.Şəhidlik motivi azərbaycanımızın şair və yazıçıları ilə yanaşı, türk şairlərinin də yaradıcılığında müraciət olunan ən ümdə məsələlərdən biridir. Bu xüsusda XX əsrin ən böyük türk şairlərindən olan Məhmət Akif Ərsoyun xidmətləri müstəsnalıq təşkil edir. Ədibimiz Bəxtiyar Vahabzadə Azərbaycanın milli marşını yazmaq üçün dünyada olan bütün marşları oxuyaraq təhlil etdiyini, lakin M.A.Ərsoyun milli marşına rəqib olacaq ikinci bir əsərlə qarşılaşmadığını qeyd etmişdir. M.A.Ərsoyun VIII sinifdə tədris olunan sənət dəyəri yüksək olan "İstiqlal marşı" şeirində türk millətinin vətən, azadlıq sevgisi ilə yanaşı, İstiqlal müharibəsi zamanı istilaçılara qarşı mübarizədə ordunun vəziyyəti barədə də danışılmışdır. Belə bir qarışıq şəraitdə M.A.Ərsoy milli duyğuları gücləndirmək, türk insanının öz qüvvəsini anlamasına və özünə inamın yüksək olması məqsədilə "İstiqlal marşı" şeirini yazmışdır. Əsərin məzmununun mənimsədilməsi zamanı şagirdlərə başa düşmədikləri və onları heyrətləndirən tarixi məsələlər haqqında da izahat verilməlidir. Məsələn, "İstiqlal marşı" şeirinin maraqlı tarixçəsi haqqında məlumat verməklə əsərin təhlilini daha səmərəli etmək mümkündür: Dövlət himni üçün şeir yazılması ilə bağlı xalqa səslənən İsmət İnönü qalib gələcək şəxsə mükafat veriləcəyini vəd etmişdir. M.A.Ərsoy mükafat naminə milli marş yazmaq istəməmişdir. Təqdim edilən şeirlər qəbul edilməmiş, bu hadisədən sonra böyük təkidlərlə M.A.Ərsoy şeiri müsabiqəyə təqdim etmiş, "Bizim Qəhrəman Ordumuz" şeiri parlamentdə millət vəkilləri qarşısında oxunduqdan sonra böyük coşqu ilə bəyənilmiş, ayaq üstə alqışlanmış və 1921-ci il martın 12-də Türkiyənin milli himni olaraq qəbul olunmuşdur. Bu şeirə görə təqdim olunan mükafatı qəbul etməyən M.A.Ərsoy cəbhədəki əsgərlərə hərbi geyim tikən xeyriyyə cəmiyyətinə bağışlamışdır.

Ədəbiyyat fənn kurikulumlarında ən vacib məsələlərdən biri də bədii əsərin məzmununun mənimsədilməsi üzrə təşkil olunan işin ifadəli oxu ilə vəhdətidir:

Mən əzəldən bəridir hür yaşadım, hür yaşaram,
Hansı çılğın mənə zəncir vuracaqmış? Şaşaram!
Kükrəmiş sel kimiyəm, bəndimi çeynər, aşaram,
Yırtaram dağları, ənginlərə sığmam, daşaram.

Qorxubilməz, igid türk milləti tarixin hər dönəmində azad, müstəqil, heç kimdən asılılığı olmayan bir millət kimi yaşamış, hər zaman da sərbəst yaşayacaqdır. Ona görə ki, bu hədsiz hərəkətindən savayı başına gələcəkləri düşünməyəcək qədər dərin fikirləşə bilməyən biri yaxud birilərdir. "Əzəldən bəridir hür yaşadım" deyən şair bu misralara 2500 illik türk tarixini sığışdırır. Türk millətinin qüdrətinə, qüvvətinə, gücünə, milli

birliyinə maneə olan, sədd çəkən hər şeyi əzərək məhv edəcək bir sel kimidir əzəli türklər. Bu bənd bəzi xüsusiyyətlərinə görə mənası "qurtuluş" demək olan "Ərgənəqon" dastanını xatırladır. Mənbələrə əsasən, bu dastan türklərin əcdadı olan Göytürklərin dirilişi ilə əlaqədardır. Türklər mifoloji varlıq olan Bozqurdun müdafiəsi nəticəsində soyunun tükənmə təhlükəsindən xilas olur, dağlarla əhatə olunmuş Ərgənəqon vadisində yaşayırlar. Türklərin atalarının yurdunu axtarmaq üçün dağı dələrək Ərgənəqondan çıxdıqları gün 21 marta təsadüf edir. Bu tarix indiyə kimi azadlıq, qurtuluş və bahar bayramı kimi qeyd olunur.

Basdığın yerləri "torpaq" deyərək keçmə, tanı;
Düşün altında yatan minlərcə kəfənsiz yatanı.
Sən şəhid oğlusan, incitmə, yazıqdır atanı;
Vermə, dünyaları alsan da, bu cənnət vatanı.

Bu müqaddəs torpağın altında min illərdir bu ərazini vətənə çevirmək və vətənini qorumaqüçün vuruşmuş, onun yolunda şəhid olmuş saysız-hesabsız igidlərimiz yatır. Türk millətinin ataları, babaları olan şəhidlər dini, namusu, ideologiyası uğrunda savaşan və canını tapşıran qəhrəmanlardır. Dünyada türk milləti qədər müqəddəs vətəni yolunda şəhid verən ikinci bir millət yoxdur və bu torpaqları ata-babalarımız kimi qorumaq bizim ən əzəli borcumuzdur.

TƏHSİL ANLAYIŞI VƏ MƏZMUNU

Mikayılova S.Ş.
Bakı Slavyan Universiteti
E-mail: Mikayılovasbin048@gmail.com

Təhsil anlayışı çox mürəkkəb və çoxşaxəlidir. Tədris prosesində şagirdlər sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərə yiyələnir, zehni proseslər və hissləri inkişaf edir, dünyagörüşü və idrak prosesləri formalaşır. Müxtəlif faktların və hadisələrin nəzərdən keçirilməsinə ümumi yanaşmanı müəyyən edən ümumi ideyalara, prinsiplərə və metodlara sahib olan, yüksək inkişaf etmiş qabiliyyətlərə, öyrənilənləri yüksək səviyyədə tətbiq etmək qabiliyyətinə malik olan təhsilli insan adlandırıla bilər. İnsanın yüksək səviyyəli tərbiyə alması üçün üç keyfiyyət - geniş bilik, düşüncə vərdişi və hisslərin nəcibliyi lazımdır. Vurğulamaq çox vacibdir ki, müasir təhsil anlayışına uyğun olaraq, bura həm də yaxşı yetişdirmə ("hisslərin nəcibliyi") daxildir. Bütün bunlarla yanaşı hisslərin nəcibliyi, yəni əxlaqi tərbiyədə çox vacibdir.Nəticə etibarı ilə, təhsil anlayışı təkcə öyrənmə nəticəsində əldə olunan bilik, bacarıq və vərdişləri deyil, həm də ətrafda baş verən hər şeyə tənqidi yanaşmaq, yaratmaq, qiymətləndirmək bacarığını da özündə ehtiva edir. Bu, insanı ən vacib fəaliyyətlərə sövq etməklə əldə edilir.Məktəb təhsilinin məzmununun formalaşmasının əsas nəzəriyyələri 18-ci əsrin sonu - 19-cu əsrin əvvəllərində inkişaf etmişdir. Pedaqogika tarixində onlar maddi və formal təhsil nəzəriyyələri kimi tanınırlar.Didaktik formalizm nəzəriyyəsi (18-ci əsrin sonlarında E.Şmidtin "Empirik psixologiya" və A.A.Nemeyerin "Təhsil və təlim prinsipləri" kitablarında yaranmışdır), məzmunun formalaşmasının formal nəzəriyyəsi kimi formalaşmışdır. Antik dövrdə Herakil və Siseronun ifadə etdiyi "çox bilik ağıl öyrətmir" fikri digər pedaqoqların düşüncələrində (İ.Kant və İ.G. Pestaloszi) fərqli idi . Sonuncular hesab edirdilər ki, təhsilin əsas məqsədi "şagirdlərin düzgün inkişafi təfəkkürünün və ya formal təhsilin gücləndirilməsi" olmalıdır, əsasən şagirdlərin qabiliyyətlərini, onların idrak maraqlarını, psixi proseslərini (yaddaş, fikir, təfəkkür və s.) inkişaf etdirməyə yönəldilməlidir. Müvafiq olaraq, təhsilin məzmununa faktiki materialı (dillər, riyaziyyat) deyil, ilk növbədə instrumental materialları əks etdirən akademik fənlər daxil edilməlidir. Mahiyyət etibarilə bu konsepsiya fənlərin, məsələn, təbii fənlərin tədrisinə ehtiyacı inkar edir; məzmun və forma, faktlar və onların şərtləndirdiyi intellektual əməliyyatlar arasında əlaqənin öyrənilməsi prosesində şəxsiyyətin formalaşmasında real güc nəzərə alınmır.

İnsanın ictimai inkişafının məqsədi, mütləq dəyər deyil. Konsepsiyasının lehinə olan hətta müvəqqəti güzəşt belə, istər-istəməz humanizmdən uzaqlaşır. Avtoritarizmin təhsilin məzmununun müəyyən edilməsində göstərdiyi yollar müxtəlifdir. Təhsilin məzmununun üç ən ümumi konsepsiyasını onların demokratik cəmiyyətdə yaradıcı, müstəqil düşünən şəxsiyyətin formalaşdırılması vəzifəsinə uyğunluğu baxımından nəzərdən keçirək.Təhsilin məzmunu anlayışından biri onu məktəbdə öyrənilən elmlərin pedaqoji cəhətdən uyğunlaşdırılmış əsaslar kimi şərh edir. Digərləri isə şəxsiyyətin xüsusiyyətlərinə aid olan yaradıcılıq qabiliyyətini, seçim azadlığını həyata keçirmək bacarığını, insanlara ədalətli münasibəti və s. ola bilər. Bu, təhsilin məzmununun mahiyyətinin müəyyən edilməsində bilik yönümlü yanaşma adlanır. Bu yanaşma məktəbliləri demokratik cəmiyyətdə tam hüquqlu vətəndaş kimi, elm və istehsalatla tanış etmək məqsədi

daşıyır.Eyni yanaşmaya əsaslanan başqa bir konsepsiyada təhsilin məzmunu şagirdlərin mənimsəməli olduqları bilik, bacarıq və vərdişlərin məcmusu kimi qəbul edilir. "Təhsilin məzmunu dedikdə şagirdlərin təlim prosesində mənimsəməli olduqları elmi biliklər, praktiki bacarıqlar, eləcə də fəlsəfi-əxlaqi-estetik ideyalar sistemi başa düşülməlidir". Bu tərif, bilik və bacarıqların mahiyyətini üzə çıxarmadığından və insan mədəniyyətinin bütün tərkibinin təhlilinə əsaslanmadığından, konformist münasibətlərə tamamilə uyğundur. Güman edilir ki, bilik və bacarıqlara yiyələnmək (əsasən eyni əsas elmlərə aid olan) insana mövcud sosial struktur çərçivəsində adekvat fəaliyyət göstərməyə imkan verəcək. İnsandan bilməyi və bacarmağı tələb etmək kifayətdir ifadəsi artıq yeterli deyil. Əvvəllər ana dili, riyaziyyat, fizika və digər tədris fənləri üzrə bilik və bacarıqların gənc nəslə ötürülməsi zəruri və kifayət hesab edilirdi. Ancaq artıq cəmiyyətin təşəkkülü, inkşafı daha çox öyrənməni, daha çox bilməyi tələb edir.

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA RİYAZİ BİLİKLƏRİN FORMALAŞMASINDA İNKİŞAFETDİRİCİ ÇALIŞMALAR VƏ OYUNLARIN TƏTBİQİ

Miraliyeva G.B.
Bakı Slavyan Universiteti
E-mail: gulnarmirliyeva@gmail.com

Riyaziyyat dərslərində müəllimlər müxtəlif üsullar (şifahi, vizual, oyun) və texnikalar (hekayə, söhbət, təsvir, göstəriş və izahat, uşaqlar üçün suallar, uşaqların cavabları, nümunə, nümayiş,real obyektlər, şəkillər, didaktik oyunlar və məşqlər, mobil oyunlar) və s.istifadə edirlər.Təlimi təşkil edərkən,riyaziyyatı öyrədərkən hər bir məktəbəqədər yaşlı uşağa fərdi şəkildə yanaşmaq,onların fərdi xüsusiyyətlərini öyrənmək lazımdır.Bu əsas amillərdən biridir.Elementar riyazi təsvirlərin formalaşması prosesi məktəbəqədər uşaqlar üzərində istifadə edildikdə daha təsirli olacaq oyun üsullarından və texnikası dərslərindən istifadə olunur.Məktəbəqədər yaşlı uşaqlara riyaziyyatı əyləncəli oyunlardan, tapşırıqlardan, əyləncələrdən istifadə etmədən öyrətmək mümkün deyildir.Oyun forması uşaqlar üçün başa düşüləndir və maraqlıdır.Hər dərslə uşaqlar öyrənmə prosesinə getdikcə daha çox cəlb olunur, eyni zamanda, dərslər cazibədarlığını saxlayaraq oyun olaraq qalırlar.

Həmçinin məktəbəqədər yaşlı uşaqların oyun personajlarına olan marağı göstərilir.Bu məqsədlə uşaqlara cizgi filmi oyunundan tanış olan personajları dərslərə daxil etmək olar,çünki onlar uşaqların subkulturasının bir elementidir.Oyun personajlarının olması uşaqları riyazi fəaliyyətə həvəsləndirir, intellektual çətinlikləri aradan qaldırmağa kömək edir.Eyni zamanda, rol sadə,əyləncəli və yaş nəzərə alınmaqla müəyyən edilir.Didaktik oyunların və məşqlərin istifadəsi riyazi təsvirlərin formalaşmasına şərait yaradır.Məktəbəqədər yaşlı uşaqların riyazi biliklərinin formalaşması üçün forma və məzmunca əyləncəli tamaşalardan,müxtəlif təhsil oyunlarından geniş istifadə olunur.Onlar adi məşğələdən fərqlənirlər,problemin qeyri-adi qoyuluşu ilə tapşırıqlar və məşqlər maraqlı cəlbedici şəkildə keçirilir. Bütün növ didaktik oyunlar (əşyavi, stolüstü çap, şifahi və s.) riyaziyyatın formalaşdırılmasının təsirli vasitəsi və üsuludur.Riyaziyyatdan sinifdə obyekt və söz oyunları keçirilir və onların xaricində, masaüstü-çap, bir qayda olaraq,boş vaxtlarında.Onların hamısı təhsilin əsas funksiyalarını - təhsil və tərbiyəni inkişaf etdirir. Həmçinin, məktəbəqədər yaşlı uşaqlarda elementar fikirləri formalaşdırarkən istifadə edilə bilər: təyyarə modelləşdirmə oyunları, puzzle oyunları,zarafat tapşırıqları, krossvordlar, tapmacalar, öyrədici oyunlar.Uşaq bağçalarında didaktik oyunlar uşaqların nömrələrin ardıcıllığı, münasibətlər haqqında fikirlərini möhkəmləndirmək,onların arasında, hər bir nömrənin tərkibi haqqında və s. aydınlaşdırmaq üçün istifadə olunur.

Riyaziyyatın başlanğıcında müəllimlər uşaqların oynadığı oyunlardan geniş istifadə edirlər nəticədə yeni riyazi bilik və bacarıqlar formalaşır (məsələn,"lotto", "domino" və s. kimi oyunlar). Məktəbəqədər yaşlı uşaqlar kütləvi hərəkətlər nümayiş etdirirlər, onları müxtəlif şəraitdə, müxtəlif obyektlərdə, mövzularda həyata keçirməyi öyrənirlər, bununla da biliklərin mənimsənilməsinin gücünü və şüurunu artırırlar.

Uşaqlara əşyalar üzərində oyunlar və məşqlər xüsusilə maraqlıdır,tanış həndəsi fiqurlardan mürəkkəb formalı obyektlərin yaradılması: həcmli və düz.Məsələn, "Rəngli mozaikadan rəqəmlər" oyunu.Bu cür oyunlarının dəyəri ondan ibarətdir ki, uşaqlar daxili planı formalaşdırırlar və fəaliyyətləri, təqdimat planını müəyyən edirlər.

Bütün əldə edilmiş bilik və bacarıqlar uşaqları inkişafın növbəti mərhələsində daha mürəkkəb riyazi məsələlərin mənimsənilməsinə hazırlayır.Bu isə o deməkdir ki, uşaq bağçasında ibtidai riyazi təsvirləri formalaşdırmaqla biz uşağı məktəbdə riyaziyyatı öyrənməyə hazırlayırıq.

NÜMUNƏ-MÜSBƏT ƏXLAQİ KEYFİYYƏTLƏRİN TƏRBİYƏSİNDƏ MÜHÜM VASİTƏDİR

Mirxanlı A.C.
Lənkəran Dövlət Universiteti
E-mail: mirkhanliay@gmail.com

Əxlaqi keyfiyyətlərin tərbiyəsində əxlaqi nümunə müsbət rol oynayır. Əxlaqi keyfiyyətlərin formalaşması nəzəriyyədən çox praktikaya,əyaniliyə,nümunəyə istinad edir. Belə bir əxlaqi nümunəni ilk növbədə vətənin bütövlüyü,xalqın səadəti ugrunda öz həyatlarını qurban vermiş qəhrəmanların,böyük şəxsiyyətlərin həyatı verə bilər. Onların həyat tərzini, şəxsi və ictimai münasibətləri haqqında xatirələri dərindən öyrənmək gənclərimizə yüksək əxlaqi keyfiyyətlər, əxlaqi sərvətlər bəxş edir. Tarixi faktlar dəfələrlə sübut etmişdir ki,əxlaqi nüfuz uzun zamanlar cəmiyyətdə əxlaqi həyatı tənzim etmişdir. Nüfuz ictimai münasibət formalarından biri olub,uzun sürən tarixi inkişafın gedişində yaranmış,dəyişmiş və yeni məzmun kəsb etmişdir. Əxlaqi nüfuzun tərbiyəvi aspektindən danışarkən ilk növbədə tərbiyəçilərin, valideynlərin,müəllimlərin,kollektiv rəhbərlərinin nüfuzu nəzərdə tutulur. Rəhbər işçi, tərbiyəçi, müəllim yüksək təşkilatçılıq bacarığı,geniş təcrübə ilə yanaşı müsbət əxlaqi keyfiyyətlərə malik olmalıdır. Müsbət əxlaqi keyfiyyətlər dedikdə vətənpərvərlik, dostluq, qarşılıqlı yardım, beynəlmiləlçilik, intizam, məsuliyyət, düzlük, sadəlik, insanlara humanist münasibət və.s nəzərdə tutulur. Rəhbər işçinin nüfuzu tələbkarlıqlada bağlıdır. Tələbkarlıq geniş mənada psixoloji və sosioloji anlayış olub cəmiyyətin öz üzvlərinə verdiyi əxlaqi və ictimai tələbləri,habelə şəxsiyyətin bu tələbləri yerinə yetirməkdə cəmiyyət qarşısında məsuliyyətini ifadə edir.

UŞAQLARDA PEŞƏLƏR HAQQINDA İLKİN TƏSƏVVÜRLƏRİN FORMALAŞMASINDA OYUNLARIN ROLU

Miriyeva L.P.
Lənkəran Dövlət Universiteti
E-mail: nurlanmiriyev025@gmail.com

Cəmiyyətin iqtisadi,sosial və mədəni yüksəlişinin müasir dövründə müxtəlif vacib və həyəcanverici peşələr yaranır. Təhsil sistemində bir çox məktəblər yaradılır,onların vəzifəsi gənc nəslin peşəyönümüdür.

Məktəbəqədər təhsil müəssisələrinin təcrübəsində uşaqlarda böyüklərin peşələri haqqında fikirlərin yaranmasına kömək edən müəyyən üsullar toplusu toplanmışdır. Buraya ekskursiya, söhbət, uşaq bədii əsərlərini oxumaq, müxtəlif peşə sahiblərinin fəaliyyəti ilə tanış olmaq və əlbəttə ki, oyun daxildir. Oyun məktəbəqədər uşağın aparıcı fəaliyyətidir. Uşaqlar vaxtlarının çoxunu oyuna sərf edirlər. Beləliklə, oyun böyük məktəbəqədər yaşlı uşaqlarda böyüklərin peşələri haqqında təsəvvürlərin formalaşmasının əsas vasitəsidir. Uşaqların böyüklərin peşələri ilə bilavasitə tanış olduğu əsas oyun növü rollu oyundur. Məktəbəqədər təhsil müəssisəsinin böyük qrupunda əyləncəli, müxtəlif və maraqlı rollu oyunlar açılır. Rollu oyunda uşaqlar böyüklərin hərəkətlərini təkrarlayırlar. Burada onlar xəyali situasiya yaradır, ətrafındakı böyüklərin obrazlarında öz rollarını götürərək onu canlandırır və bunu yaratdıqları oyun mühitində həyata keçirirlər. Uşaqların yaradıcılıq qabiliyyətləri artıq onların plan yaratmaqda və oyunun süjetini açmaqda özünü göstərir. Bu oyun növündə yaradıcılıq həm də onunla ifadə olunur ki, uşaqlar böyüklərin peşələrini öz nöqteyi-nəzərindən, yəni gördükləri kimi təsvir edirlər, lakin eyni zamanda oyun qaydaları ilə məhdudlaşır. Məsələn, müəllim roluna girərək, ona məxsus olan xüsusiyyətləri təsvir edirlər. Onu da qeyd etmək lazımdır ki, rollu oyun prosesində uşaqlar müxtəlif peşə sahibləri haqqında biliklərini genişləndirməklə yanaşı, digər sahələrdə də biliklərini zənginləşdirirlər. Rollu oyununun təşkilində tərbiyəçi də mühüm rol oynayır. Uşaqlara motivasiya verir: oyuna yeni alətlər,obrazlar və süjetlər əlavə edir. Bütün bunlar bilavasitə uşaqlarda böyüklərin peşələri haqqında təsəvvürlərinin formalaşmasına kömək edir. Rollu oyununun belə bir xüsusiyyəti var ki, bu, öncədən hazırlıq tələb edir. Bu oyun növü uşaqları böyüklərin peşələri ilə tanış etmək üçün yuxarıda göstərilən üsullarla qarşılıqlı əlaqədədir. Dünyamızda bir çox peşələr var ki,həmin peşələrlə bağlı uşaqlarda təəssürat yaradılmalıdır.Məsələn,uşaq həkimin kim olduğunu bilmirsə, o, öz rolunu necə oynaya bilər?!

Beləliklə, rollu oyun növü ətrafdakı reallığın praktik təcrübəsinə töhfə verdiyi üçün uşaqlar bilik və təəssüratlarını genişləndirir, yeni bir şey öyrənirlər. Rollu oyun, uşağın yetkinləşdiyini, bir peşə sahibi

olduğunu və hətta oyun çərçivəsində istənilən peşəkar hərəkətləri yerinə yetirməyə çalışdığını sevinclə dərk edir.

HERMAN HESSENİN "MUNCUQ OYUNU" ƏSƏRİNİN TƏHLİLİ

Musayeva A.N.
Bakı Slavyan Universiteti
E-mail: aytakin.musayeva@gmail.com

"Muncuq Oyunu" 1946-cı ildə Ədəbiyyat üzrə Nobel Mükafatını qazanmış ədəbi dahi Herman Hessenin yaratdığı fəlsəfi traktat və tərbiyə romanı arasında şıltaq bir əlaqədir. Romanda dünya mədəniyyət və elm xadimlərinin cəmləşdiyi uzaq və gözəl Kastaliya ölkəsindən bəhs edilir. Hadisələr 25-ci əsrdə baş verir. Kitabın baş qəhrəmanı böyük Oyun Ustası Cozef Knextdir, onun tərcümeyi-halı əsərin süjet konturunun əsasına çevrilmişdir. Roman keçmişin təsviri ilə açılır - mədəniyyət və elmi ləkələyən dəhşətli felyetonizm dövrünü əks etdirir. Bu dövrdə insanlar ikinci dərəcəli yazıları ehtirasla yeyir, kontekstdə batmadan mədəniyyətin əlamətlərini səthi şəkildə mənimsəyirdilər: "Bu cür bəstələrin sevimli məzmunu məşhur kişi və qadınların həyatından lətifələr və onların yazışmaları idi, onlar, məsələn, ... "Bəstəkar Rossininin sevimli yeməkləri" və ya "Bəstəkar Rossini'nin sevimli yeməkləri" və ya "Dünyada qucaq itinin rolu" adlanırdı. Bu elə bir dünya idi ki, "möhtərəm kimyaçılar və ya piano virtuozları, sevimli aktyorlar, rəqqaslar, gimnastlar, pilotlar və hətta şairlər haqqında tək həyatın üstünlükləri və mənfi cəhətləri haqqında danışmağa məcbur edildilər" və həqiqi bilik dayaz düşüncələr ilə əvəz olundu. Humanist Hessenin fikrincə, felyeton dövrü başa çatmalı, mədəni böhrandan çıxmaq lazımdır. Yazıçı gələcək üçün böyük Kastaliya modelini – cahillikdən kənarda, yüksək əxlaqlı, savadlı, həqiqi biliyə aşiq insanların yaşadığı bir dövlətin modelini yaradır. Demək olar ki, hamısı alimdir, hamı ordendəndir. Bu ruh cəngavərləri Kastaliyanı tərk etməyəcəklərinə və onun divarları arasında həqiqət üçün çalışacaqlarına and içmiş rahiblərdir. Kastaliyalıların bir əsas məşğuliyyəti var: xüsusi elit məktəblərdə ordenin gələcək üzvlərinin təhsili və hamı üçün vahid metadildən istifadə edərək müxtəlif bilik sahələrini birləşdirmək üçün hazırlanmış muncuq oyunu: "Oyunun qaydaları, işarə dili və qrammatikası ən müxtəlif elmlərin və incəsənətin, lakin hər şeydən əvvəl riyaziyyat və musiqinin iştirak etdiyi bir növ yüksək inkişaf etmiş gizli dildir." Muncuq Oyunu simvollarla işləyir və "düymələri və pedalları bütün mənəvi kosmosu əhatə edən orqana" bənzəyir. Kastaliyalılar onu oynamaqla "dünyanın bütün mənəvi məzmununu təkrar edə" bilərdilər. Hər bir oyun partiyası "bir çox zehni və estetik aləmlərdən cəmlənmiş fikirlərin ardıcıl birləşməsi, qruplaşdırılması və qarşı-qarşıya gəlməsi" idi. Belə qeyri-müəyyən bir tərifə ən yaxın olan şey birləşmə oyunu ola bilər: "siz söhbətə Yuli Sezarın dünya tarixindəki rolu ilə başlayır və bəşəriyyətin göyə baxaraq ölü ulduzları görməsi ilə bitirirsiniz, çünki ulduzların işığı Yerə çox uzun müddət səyahət edir, göy cisminin özü isə artıq mövcud olmaya bilər". Romanın əsas problemi mədəniyyətin cəmiyyətdəki yeridir. Hermann Hesse "yüksək" mədəniyyəti təcrid edir və onu yalnız elita üçün əlçatan edir: bu ideya, yeri gəlmişkən, xarici dünya tərəfindən maliyyələşdirilən və yalnız bu pulla mövcud olan Kastaliyada təcəssüm olunur. Mədəniyyəti bu mövqeyə qoyan Hesse dərhal sual verir ki, dünyanın elmi və mədəni irsi onun xidmət etməli olduğu insanlardan kənarda mövcud ola bilərmi? Bu sualın cavabı böyük Cozef Knextin tərcümeyi-halında gizlidir. Muncuq oyununun banisi (mümkün olan ən yüksək vəzifələrdən biri) olan Knecht uzun illər xidmətdən sonra özbaşına Kastaliyanı tərk edir, bununla da ordenə qoşularkən verdiyi andı, eləcə də ölkəsinin bütün adət-ənənələrini pozur. O, gedişini belə izah edir: "...Kastaliyadakı həyat, hətta belə yüksək vəzifədə də bəzən insanı qane edə bilmir, onun üçün bu həyat əsarət deməkdir". Ancaq ipucu daha dərindədir və biz bunu Cozef Knextin tələbə olarkən bəstələdiyi şeirdə tapa bilərik. Sakinlərinə düşmən və yad görünən nəhəng, təbii dünyanın içərisində məhdud kiçik bir dünya deyilsə, o zaman Kastaliya nədir? Elm və mədəniyyət zəncirlərə bağlanıb və müdriklər ölkəsinin hüdudlarından çıxmasa, dünyaya faydalı təsir göstərə bilərmi?. Əsərdə qeyd edilən suallara müəllif cavab tapmağa çalışır.

HERMAN HESSENİN "YALQUZAQ" ƏSƏRİNDƏ ŞƏXSİYYƏT PROBLEMİ

Musayeva A.N.
Bakı Slavyan Universiteti
E-mail: aytakin.musayeva@gmail.com

XX alman ədəbiyyatının məşhur nümayəndələrindən olan, Nobel mükafatı laureatı Herman Hesse (1877-1962) Qərbin dünyaya bəxş etdiyi ən dahi şəxsiyyətlərdən biridir. 1946-cı ildə əldə etdiyi Nobel mükafatı başda olmaqla elm və sənət sahəsində bir çox önəmli mükafatların sahibidir. Kiçik yaşlardan etibarən mənəvi buxovla razılaşmayan, ailəsində baş verən, insanın daxili aləmini sıxan amansız etnik qaydalara qarşı çıxan üsyankar təbiətli Hesse öz daxili aləmini əsərlərində ortaya qoymuşdur. Onun zəngin yaradıcılığına misal olaraq Knulp Povestini, Demian, Yalquzaq, Muncuq oyunu romanlarını göstərmək olar. "Yalquzaq" romanının əsas qəhrəmanı Harri Heller yurdsuz-yuvasız, kimsəsizdir. O, insanlardan uzaq düşüb. Onunla cəmiyyət arasında ziddiyət son dərəcə kəskinləşib, antoqonist hal almışdır. Harri baş verən heç nəyə səthi yanaşa və ayaq uydura bilmir. Bu yazıçının daxili böhranının ictimai böhranla toqquşmasından yaranır. "Yalquzaq" qısa zamanda yazıçıya dünya şöhrəti qazandırmış, illər keçdikcə əsərin qapalı nüansları açılmış, öncələri oxucunun diqqətindən yayınmış bir sıra məziyyətlər ortaya çıxmış, aktuallığı və problematikası ilə özünün muasirlik statusunu təstiq etmişdir. Romanın fəlsəfi-sosial baxımdan son dərəcə dolğun olması onun təhlilini xeyli qəlizləşdirir.

"Yalquzaq" müxtəlif dünyagörüşlərindən bəhs edilir və yazıçının əsl fikri bu həqiqətlərin toqquşması prosesində meydana çıxır. Əsərin daha yaxşı dərk edilməsi üçün oxucudan geniş məlumat və intellekt tələb olunur. "Yalquzaq" əsəri özündə həm şərq həm qərb fəlsəfəsini birləşdirir.Yazıçı qayəsinin ortaya çıxmasında əsərin kompozisiyası da mühüm rol oynayır.Bu roman sonata formasında tərtib olunmuşdur və aşağıdakı hissələrdən ibarətdir.''Naşirin qeydləri", "Harri Hallerin qeydləri", "Yalquzaq haqqında traktat", "Sehirli Teatr". Sonata konstruksiyası təsadüfən seçilməyib: qəhrəmanın psixologiyasını, get-gedə daha dərin qatlara enən xaotik fikirlərini hardasa müəyyən nizama salır. Yazıçı əsərdə göstərilmiş fərqli dünya göruşlərinin heç birini əsas götürmür, hər birində həqiqət payı olduğunu çatdırmağa çalışır. Əsərdə dünya çox ziddiyətli formada təsvir edilir. Psixoloji xaos yaşan Harri Haller zaman-zaman saysız- hesabsız şəxsiyyətlərə bölünür amma buna baxmayaraq öz bütövlüyünü qoruyub saxlaya bilir. Harri Hallerin daxili aləmi, psixoloji durumu həmin dövrün tarixi şəraitinin əksidir. Eyni zamanda bəşəriyyətin bütün dövrlərinin psixoloji təsviri Hesse humanizminin bariz göstəricisidir. Əsindlə əsərdəki hər bir obraz hər bir qəhrəman Hessenin daxili aləminin bir parçasıdır, onun dünyasının fərqli tərəflərini göstərirlər. Hessenin daxilindəki ziddiyətli düşüncələr, həyəcanlar, düşüncələr bu qəhrəmanlar sayəsində həyat tapır. Yazıçı Harrinin keçirdiyi daxili böhranin əsl səbəbini dövrün tarixi şəraitində görürdü. Nəticə olaraq Herman Hessenin bu əsərlə bağlı tövsiyyəsini unutmaq olmaz, yazıçı bildirir ki: o, qətiyyən oxucunu əsəri onun istədiyi kimi anlamağa məcbur etmir amma Yalquzağın hekayəsi bədbinlikdən, böhrandan ibarət olsada o insanları xaosa yox dirçəlişə çağırır.

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN NITQINDƏKI SƏHVLƏRIN ARADAN QALDIRILMASI

Musayeva L.E.
Bakı Slavyan Universiteti
E-mail: lyamanmsyva@gmail.com

Məktəbəqədər yaşlı uşaqların nitqindəki səhvləri aradan qaldırmaq üçün ilk növbədə düzgün olan nitqi bilmək vacib şərtdir. Bildiyimiz kimi, müasir dövr tərbiyəsi ilə keçmiş dövr tərbiyəsi fərqlidir. Buna görə də, uşaqlar dövrünə uyğun tərbiyə olunmalıdır. Nitqdəki səhvlərin aradan qaldırılmasında ilk addım səhvin yaranma səbəbini tapmaqdır. Bundan sonrakı iş yaradan səbəbi aradan qaldıraraq, korreksiya işinə başlamaqdır. Məktəbəqədər yaşlı uşaqların nitqindəki səhvlərin yaranma səbəbləri arasında texnologiya vasitələrindən istifadə və ikidilliliyin olmasıdır. Bəzən valideynlər texnologiya vasitələrindən istifadəsinə məhdudiyyət qoyaraq düzgün tərbiyə etdiyini və nitq qüsurunun aradan qalxacağını düşünürlər. Bu düzgün tərbiyə üsulu deyildir.

Nəzərə alsaq ki, müasir dövrdə texnologiya vasitələrini istifadəsi geniş hal alıb və valideyn uşağa qadağa qoyduğu halda, həmin uşaq başqalarında texnoloji vəsait gördükdə əlindən almağa çalışacaq. Bu zaman uşaqda

aqresiv davranışlar müşahidə olunur.Uşaqların tərbiyəsi ilk özünütərbiyədən başlayır. Valideynlər və böyüklərin danışarkən istifadə etdikləri digər dil qruplarına aid olan sözlər uşaqların nitqinə təsir edir. Əgər uşağa texnologiya vasitələrinə müddətli məhdudiyyət qoyulursa, bu zaman valideyn və böyüklər də buna əməl etməli və uşağın yanında bu vəsaitlərdən istifadə etməməlidir. Bundan belə nəticəyə gələk olar ki, əgər uşaqların nitqinin düzgün inkişafı üçün valideynlər müəyyən addımlar atırsa, buna ilk növbədə özləri əməl etməlidir ki, tərbiyə öz töfvəsini versin.

ƏQLİ İNKİŞAF ANLAYIŞI

Musazadə F.İ.
Lənkəran Dövlət Universiteti
E-mail: musazadefidan19@gmail.com

Doğuş zamanı körpə çarəsiz vəziyyətdədir. Onun əqli qabiliyyəti tam inkişaf etməmişdir. Yaşın böyüməsi və inkişafı ilə yanaşı, uşaqların əqli qabiliyyətlərində də artım müşahidə olunur. Buna həm irsiyyətin, həm də mühitin böyük təsiri var.Uşaqlarda körpəlik dövründə baş verən dəyişikliklər böyümə və inkişafdan asılı olmalıdır. Bu dəyişikliklər çox sürətli və ani olur.Məsələn, asqırmaq, hıçqırıq, əmmək, əl-ayağı tərpətmək, ağlamaq və xəbərdar etmək.

Yalnız əqli inkişaf yolu ilə bədən hissələrini düzgün istifadə etməyə başlayırlar. Birinci ildə psixoloqların fikrincə, uşağı meditasiya etmək, bədən üzvlərinə dəyişiklik gətirmək, müxtəlif səslər çıxarmaq, əşyaları tutmaq, bəyəndiyi və bəyənmədiyi şeyləri ifadə etmək, təqlid edərək öyrənmə kimi fəaliyyətlərdən istifadə etməyə başlayır. İlin sonunda birinci il və ikinci ilin əvvəlində körpə iki və ya dörd söz danışmağa başlayır. İkinci ilin sonunda 100-200 söz danışmağa başlayır. Üçüncü və dördüncü illərdə körpə danışmağı və yazmağı öyrənir. Bu zaman o, əllərini idarə etməyə başlayır. Uşaqlarda əqli inkişaf çox sürətlə baş verir. Bu zaman uşağın instinktləri və əsas instinktləri onun öyrənməsinə kömək edir. Bu da onun marağına səbəb olur. Maraq, düşünmə, yaddaş, mühakimə və problem həll etmə kimi keyfiyyətlərin avtomatik inkişafına zəmin yaradır. Uşağın təxminən 6 yaşı olanda onun zehni gücləri və qabiliyyətləri tam inkişaf edir. Uşaqlığın ilk illərində uşaq ana dilinin sait və samitləri və sayma üzərində səlahiyyət nümayiş etdirir. O, bədəninin hissələrini təsvir etməyə və cisimləri ayırd etməyə başlayır. Kiçik hadisələri təsvir edir, mürəkkəb cümlələr işlədir. Uşaqlığın orta illərində uşağın əzbərləmə və qəbuledici gücündə kəskin artım müşahidə olunur. Uşaq qısa sətirləri təkrarlamağı, hekayə danışmağı v öyrənir.Gündəlik davranışları etməyi öyrənir. Gün, tarix, il haqqında tam məlumatı bilir. Uşaq müşahidə olunan hadisəni aydın şəkildə təsvir etməyə başlayır. Uşaqlığının son illərində kiçik hekayələr danışa bilir. O, sosiallığın fərqinə varır. Bu zaman uşaq özünü müşahidə və sınaqdan keçirməyə inanır. Maraq, müşahidə və düşünmə güclərindən istifadə edərək əqli şüurunu ortaya qoyur. O, baxdığı filmin və ya hekayənin 3/4-ə qədərini nəql edə bilir.Yeniyetməlik zehni inkişafın kulminasiya nöqtəsinə çatdığı dövrdür. Müşahidə, qavrayış, diqqət, yaddaş, təfəkkür və təfəkkür, zəka kimi müxtəlif əqli inkişaf fəaliyyətləri yetkinləşir. Yeniyetməlik dövründə uşağın psixi inkişafının əsas mərhələsini aşağıdakı məqamlar vasitəsilə başa düşmək olar.

1. İntellektdə sabitlik - yeniyetməlik dövründə zəkanın inkişafı tamamlanır. Ona görə də bu mərhələni zəkaya sabitlik gətirən mərhələ də adlandırırlar. Terman, Cons, Conai və Spearman kimi alimlər 14-16 yaş arasında zəkanın tam inkişafını nəzərdən keçirmişlər. Psixoloqların fikrincə, intellektin inkişafı yalnız zəkada mümkündür. Çünki zəka anadangəlmədir.
2. Zehni güclər - bu mərhələdə oğlan və qızların hiss, qavrayış, diqqət, yaddaş, unutqanlıq, təxəyyül, təfəkkür, düşünmə və problem həll etmə kimi əqli qabiliyyətləri tam inkişaf edir. Onlardan müxtəlif vəziyyətlərdə asanlıqla istifadə edirlər.
3. Düşüncədə reallıq - bu yaşda düşüncədə yenilik və təbiilik gəlməyə başlayır. Yeniyetmələr sosial stereotiplərə, adət-ənənələrə, qarşı çıxır və yeni standartlardan istifadə edir. Beləliklə, onun düşüncəsi yeni istiqamət alır.
4. Təsəvvür gücündə itilik - yeniyetməlik dövründə xəyal gücü bol olur. Yeniyetmələr arzularını həyata keçirmək üçün xəyal qururlar. Tədqiqatlardan aydın olur ki, təxəyyül gücü oğlanlardan daha çox qızlarda olur.
5. Maraq fərqləri - yeniyetməlik dövründə maraqlar sürətlə inkişaf edir. Kişilər və qadınlar öz maraqlarını müxtəlif yollarla seçirlər. Qızlarda qadın maraqları, oğlan uşaqlarında isə kişi maraqları inkişaf edir. Ona görə də müxtəlif maraqların olması təbiidir.Əqli inkişaf müxtəlif əqli qabiliyyətləri özündə cəmləşdirən inkişafın mühüm aspektidir.

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN TƏRBİYƏSİNİN VACİBLİYİ

Müzəffər-zadə B.İ.
Bakı Slavyan Universiteti
E-mail: xanim.muzefferzade@gmail.com

Tərbiyə ilk öncə ailədən başlayır. Hər ölkənin tərbiyə sistemi fərqli olduğu kimi, hər ailənin də uşağına verdiyi tərbiyə fərqlidir. Çox təəssüf, günümüzdə uşaqlarının tərbiyəsinə ciddi yanaşmayan ailələr də vardır. Bu cür ailələrdə böyüyən uşaqların gələcəyi risk altındadır. Təsəvvür edin, bir binanın özülü düzgün qoyulmayıbsa o nə vaxtsa dağıla bilər. Deməli, ailə uşaqların tərbiyəsində özül rolunu oynayır. Bu səbəbdən uşaqların tərbiyəsi ilə erkən yaşlardan məşğul olmaq lazımdır.

Ölkəmizdə tərbiyə daha çox milli-mənəvi dəyərlər üzərində qurulur. Böyüyə hörmət, adət-ənənələrin qorunub saxlanılması və növbəti nəsillərə ötürülməsi, cəmiyyət içində davranış qaydalarına riayət olunması və s. bütün bunlar böyüməkdə olan uşaqlarla aparılan tərbiyəvi işlərin təşkilinə verilən tələblərdir. Bütün bu tələblərlə yanaşı uşaqların mənəvi tərbiyəsinə də çox diqqət yetirmək lazımdır. Uşaqlarda özünəinamı, özünəhörməti, məsuliyyət hissini aşılamaq da vacib amillərdəndir. Bir uşaq nə qədər mental dəyərlərə malik olsa da onda özünəinam tam formalaşmayıbsa o cəmiyyətdə özünə layiqli yer tutmaqda çətinlik çəkə bilər. Bu cür uşaqlar öz fikirlərini deməkdən çəkinir, hansısa fəaliyyətə başlamaqda qərarsız qalırlar. Nəticədə yüksək potensiala malik olmalarına baxmayaq fikir və arzuları nəzərə alınmırsa, onlarda öz güclərinə inam yaradılmırsa bu cür uşaqlar sonrakı yaş mərhələlərində uğursuzluqlarla qarşılaşa bilər. Belə halların baş verməməsi üçün erkən yaşlardan, eyni zamanda, məktəbəqədər yaşlardan uşaqların tərbiyəsinə xüsusi diqqət yetirilməlidir.Uşağı sevmək və ona hörmət etmək onun böyüməsi dövründə dağıdıcı davranışlarına təəccüblənmək və etdiyi hər davranışı bəyənmək demək deyil.“Uşaqla dost olmaq” sözü “uşaqla özünü eyniləşdirmək” kimi başa düşülməməlidir. Bunun mənası uşağı anlamaq, fərdi xüsusiyyətlərini bilib o istiqamətdə addım atmaq kimi dəyərləndirilməlidir. Valideynlər dünyaya gətirdikləri hər bir uşağın əsas qayğı ehtiyaclarını ödəmək, eləcə də onlara dini tərbiyə verməklə məsuliyyət daşıyırlar. Bu, erkən yaşda “təhdid və ya qorxu ilə deyil, sevgi ilə” aşılanmalıdır. Bacarığına uyğun olaraq başa düşə biləcəyi bir dildə izah etmək, əsas məlumatları öyrənməyin ən təsirli yoludur.Bir çox valideynlər övladlarını “qorumağı” “onların hər işinə məhəl qoymamaq”la səhv salırlar. Yaxşı valideyn olmaq, uşağın etdiyi hər şeyə məhəl qoymamaq demək deyil. Ya da ağlamağa imkan verməməyi qorumaq olduğunu düşünür. Ancaq bəzən ömrünün sonuna qədər ağlamaması və impulslarını idarə etməyi öyrənməsi üçün onun ağlamasına qısa müddətə dözə bilmək lazımdır.

Uşağı təhqir etməyən şirin qaydalar uşağın mənfi davranışlarını dayandırmaqla yanaşı, həm də onun valideynlərinə daha çox güvənməsinə səbəb olur. Çünki, irəliləyən yaşlarda uşaq görür ki, ona qoyulan qaydalar onun davranışını yaxşılaşdırır, özünə hörmətini artırır.

İNGİLİS DİLİNİN İKİNCİ DİL KİMİ TƏDRİSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Niftaliyeva A.A.
Bakı Slavyan Universiteti
E-mail: niftaii.28a@gmail.com

İki və ya daha çox xarici dilin öyrədilməsi müasir cəmiyyətin təcili tələbinə çevrilmişdir, çünki dünya əhalisinin əksəriyyətinin yüksək hərəkətliliyini və ünsiyyətcilliyini nəzərə alsaq, bir xarici dil həmişə kifayət etmir. Başqa ölkələr tərəfindən ingilis dilinə verilən xüsusi status ingilis dilinin ikinci dil (ESL) və ingilis dilinin xarici dil (EFL) kimi istifadəsi şəklində ola bilər.İngilis dili hökumət, hüquq , media və təhsil sistemi kimi müxtəlif kontekstlərdə ünsiyyət vasitəsi kimi istifadə olunur.İngilis dilinin heç bir milli dəyərlər sistemini daşımayan və iqtisadi, siyasi, mədəni baxışlar tətbiq etməyən etnik-mədəni komponentindən təcrid olunmuş şəkildə nəzərdən keçirilməsi təklif edilir. Ancaq xarici dildə danışan insan istər-istəməz dünyanın bu dilə xas olan linqvistik mənzərəsinə məruz qalır, dünya qavrayışının fərqli məntiqini, dəyərlər sistemini dərk edir. Bütün bu xüsusiyyətləri qəbul etmək və ya rədd etmək olar, lakin yad dilin və yad mədəniyyətin həm bir şəxsə, həm də böyük insan qruplarına təsirini inkar etmək olmaz.Son onilliklər ərzində ingilis dili dünya dilinin yerini tutmuşdur, bu dilsiz insan həyatının bir çox sahələrini, o cümlədən qlobal şəbəkəni - İnterneti təsəvvür etmək mümkün deyil. Ona görə də bütün təhsil müəssisələrində istər orta ümumtəhsil məktəblərində, istərsə də ali təhsil müəssisələrində iki və ya daha çox xarici dil kurikulumlara uyğun tədris olunur. Kifayət qədər zəhmətli

bir proses olmaqla, iki və ya daha çox dilin öyrədilməsi xarici dil müəllimindən təlim prosesinə fərqli münasibət və yanaşma tələb edir.

Paralel olaraq öyrənilən dillərin fonetik, leksik və qrammatik sistemlərindəki oxşarlıqlar və fərqliliklər tələbələrə öyrənilən dil hadisə və proseslərini daha yaxşı başa düşməyə və mənimsəməyə kömək etməklə yanaşı, həm də onların dünyagörüşünün genişlənməsinə kömək edir. İki xarici dilin müqayisəli öyrənilməsi həm də tələbələrin ingilis və ana dillərində baş verən linqvistik hadisələrin və proseslərin daha dərindən başa düşülməsi üçün faydalıdır.Müqayisəli təhlilin linqvodidaktik məqsədlər üçün istifadəsi, ilk növbədə, müqayisə edilən dillər arasında metodoloji cəhətdən müvafiq oxşarlıq və fərqləri müəyyən etməyi tələb edir. Daha sonra dillərarası müdaxilənin növünü, dillərarası fərqlər nəticəsində hansı çətinliklərin yarana biləcəyini müəyyən etmək lazımdır. Son mərhələdə qeyri-ana dilin öyrədilməsi metodu kimi dillərarası müqayisəyə əsaslanan təlimlər sisteminin yaradılması zəruri olur.Xarici dilin tələbələr tərəfindən mənimsənilməsi öz-özünə baş vermir lakin, ana dilinin mənimsənilməsi kimi üç mərhələdə - məktəbəqədər təhsil (uşaq bağçası), məktəb təhsili (az, orta və yuxarı ümumtəhsil məktəbləri) və universitetdə həyata keçirilir.Ana dilindən fərqli olaraq, xarici dil tələbələr üçün müəyyən sosial, mədəni və koqnitiv reallığı təmsil edir, tələbələrin onunla daim əlaqə saxlamaq imkanı yoxdur. Dərsdə müxtəlif üsullarla xarici dil ünsiyyəti üçün təbii situasiyaların yaradılması həmişə metodikanın əsas tələblərindən biri olmuşdur. Lakin hazırda multimedia və texniki tədris vasitələrindən geniş istifadə etməklə müəllim xarici dil dərsində autentik dil mühiti yaratmaq imkanı əldə edir.

MƏMMƏD ARAZ ƏSƏRLƏRİNİN TƏDRİSİNİN ŞAGİRD PSİXOLOGİYASINA TƏSİRİ

Niftiyeva K.R.
Bakı Slavyan Universiteti
Email: niftiyevakubra69@gmail.com

Azərbaycan xalqının ictimai fikrinin formalaşmasında böyük xidmətləri olan düşüncə insanlarının yeri ədəbiyyatımızda hər zaman əsaslı yer tutmuşdur. Vətən, millət, azadlıq və bəşəri hisslərin tərənnümünün təsviri ilə millətimizin mənəvi dünyasına təsir göstərən şairlərimizdən biri də Məmməd Arazdır. Onun əsərlərində vətən sevgisi, millətin azadlığa olan bağlılığı, həmçinin insanın həyat eşqi, onun dünyaya qarşı münasibəti fəlsəfi şəkildə təsvir olunmuşdur.Ümumiyyətlə, bədii ədəbiyyat insanların həyatında, onların dünyagörüşünün formalaşmasında, ünsiyyət bacarıqlarının inkişaf etdirilməsi eləcə də, mənəvi aləmlərinin zənginləşməsində yüksək təsir gücünə malik olması ilə bilinir. Şagirdlərin vətənə-millətə bağlı bir şəxs kimi yetişməsi, bir sözlə müsbət keyfiyyətlərə malik olması üçün oxuduqları şeirlər, əsərlər, kitablar önəm daşıyır. Bu səbəbdən orta məktəb dərsliklərində verilən ədəbi əsərlərin hər biri müəyyən qanunauyğunluq əsasında seçilir.Milli özünəqayıdış dövründə (1960-1990) R.Rza, İ.Şıxlı, İ.Hüseynov, Ə.Kürçaylı, Ə.Kərim, Anar, Elçin, Sabir Rüstəmxanlı və digər yazıçı, şairlərimiz kimi M.Araz da millətin ruhunu əks etdirən əsərləri ilə ədəbiyyatda özünəməxsus iz qoymuşdur. Şairin "Üç oğul anası", "Paslı qılınc", "Atamın kitabı", "Mən də insan oldum", "Əsgər qəbri haqqında ballada", "Qayalara yazılan səs" və digər poemaları insan mənəviyyatının mürəkkəbliyi, milli tale və tarixi yaddaşın bərpası məsələlərinə həsr olunmuşdur. Hər bir oxucuda dosta məhəbbət, düşmənə nifrət hisslərini aşılayan poemalarında insan iztirablarının təsviri verilsə də, bütövlükdə xeyirin şər qüvvələr üzərində qələbəsini çatdırmışdır. Bu xeyir və şər anlayışının yaranması ilə birgə şagird özündə nəyin doğru, nəyin yanlış olmasını dərk edir. Cəsur igidlərimiz haqqında yazılmış belə poemalar yetişən nəslin – şagirdlərin qəhrəmanlıq və vətənpərvərlik tərbiyəsində əhəmiyyətli rol oynamışdır.

Şairin yaradıcılığının əsas qayəsi vətən sevgisinin tərənnümüdür. Bu sevginin içərisində vətənin hər bir daşı, parçası gizlidir. Ona görə 6-cı sinif ədəbiyyat dərsliyində şagirdlərə təqdim olunan "Azərbaycan dünyam mənim" şeirinə nəzər yetirmək doğru olar. Şeir Azərbaycançılığı özünə ehtiva edir, şair bütün dünyanı yaşayıb-yaratdığı torpağın bir parçası olaraq görməkdədir:

Azərbaycan — qayalarda bitən bir çiçək,
Azərbaycan — çiçəklərin içində qaya.
Mənim könlüm bu torpağı vəsf eləyərək,
Azərbaycan dünyasından baxar dünyaya.
Azərbaycan — mayası nur, qayəsi nur ki,
Hər daşından alov dilli ox ola bilər.
AZƏRBAYCAN deyiləndə ayağa dur ki,
Füzulinin ürəyinə toxuna bilər.

Min illərlə zülmətlərə yollar açıqdı,
Dalğalandı Sabirlərin ümman dünyası.
Azərbaycan qatarı da yollara çıxdı,
Dağılanda qoca Şərqin duman dünyası.

Verilən tapşırıqlarda şagirdlər əsərdəki bədii təsvir və ifadə vasitələrini tapmaqla birgə öz düşüncələrində Azərbaycan mənzərəsini təsvir etmiş olur. Bu onun gələcək illərdə vətənə bağlılığını artırmağa yardımçıdır. Həmçinin, şair xalq olaraq dünəndən ibrət dərsi alaraq bu günümüzdə sağlam addımlamaq, sabahın mənzərəsini aydın şəkildə görməyin ən yaxşı nicat yolu olduğunu vurğulayıbÜmumiyyətlə, dərsliklərdə yer alan əsərlər, onların məzmunu, ortaya qoyduğu problemlər və gənclərə aşıladığı ideyalar həmin məsələlərin reallaşdırılmasına, onların bir şəxsiyyət kimi yetişməsində böyük rol oynayır. M.Arazın 9-cu sinif ədəbiyyat dərsliyində "Əsgər məktubu" şeiri də şagirdlərə vətəni qorumağın nə dərəcədə vacib olmasını göstərir:

Əsgər məktubları alıram hərdən,
Məhəbbət, cəsarət, dəyanət dolu.
Neçə tərifçinin tərifləridən
Bir əsgər məktubu gərəkli olur.
Əsgər nə istəyir? –
Bir təzə nəğmə.
Nəğməsiz darıxır əsgər tüfəngi.
Bir əsgər qəlbində qopan zümzümə
Bir Vətən daşını isidəcəkdir.

Ümumiləşdirmə aparsaq, M.Arazın "Əsgər məktubu" şeirinin tədrisi zamanı şagirdlərin ala biləcəyi müsbət keyfiyyətlər göz qabağına gəlir. Şair "İnamla, qeyrətlə qorunur Vətən. Bunlarsız silahlar lal-kardır" deməklə şagirdlərə dəstək və güclü mübariz hisslər olmadan texnikanın heç bir işə yaramadığını göstərir. Necəki biz bunu 2-ci Qarabağ müharibəsində gənclərin gözündəki vətən eşqində, onların sarsılmaz psixoloji hallarında gördük. Bu gün düzgün tərbiyə olunan şagird, sabahın güclü əsgəridir. Bu əsgərlik isə sadəcə cəbhədə deyil, cəbhə arxasında da özünü göstərir. Xalq fiziki olaraq döyüşən əsgərin arxasında mənəvi gücü ilə lazım gəlir. Ən sonda qeyd etmək lazımdır ki, hər iki şeirdə M.Arazın ifadə etdiyi milli ruh, ideallar gələcək nəsil olan şagirdlərin vətənpərvər və eləcə də humanist düşüncələrinin formalaşmasında böyük rol şəkildə oynamışdır. Bunu da vurğulamaq önəmlidir ki, şagirdlərin tərbiyəsinə müsbət gələcək hər bir əsər önəmlidir və bu sadəcə bir şəxsin yox bütöv bir xalqın şüuruna təsir edərək xalqın psixologiyasına çevrilir.

MƏMMƏD ARAZ POEZİYASINA ÜMUMİ BAXIŞ

Niftiyeva K.R.
Bakı Slavyan Universiteti
Email: niftiyevakubra69@gmail.com

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli söz ustadı, Xalq şairi Məmməd Arazın Azərbaycan ədəbiyyatında olan böyük rolu danılmazdır. M.Arazın yaradıcılığının ilk dövrlərindəki şeirləri şairin təzə lirik duyğulara, həm də xalq məramı ilə bağlı aydın ictimai-siyasi ehtiraslara malik olduğunu göstərir. Poeziyamıza orijinal bir şairin gəldiyini xəbər verirdi. Bu keyfiyyətlər "Görüşməmiş dostlar", "Sən tələsmədin", "Çobanın düşüncələri", "Müqəddəs məzar", "Qaranquş", "Ağarma, saçım, ağarma", "Vətən torpağı", "Səba yeli" kimi şeirlərindən başlayaraq onun sonrakı əsərlərində çoxaldı və dərinləşdi. Onun bədii qüvvəsi vətən torpağından, insanın həyat eşqi və mübarizəsindən irəli gəlirdi. M.Araz üçün poeziya insan taleyidir. O bir çox mövzulara toxunub və hamısında – vətən, azadlıq, sevgi, təbiət və digər məzmunlu şeirləri ilə şair insanı insanlığa çağırmaqdadır. Görkəmli söz ustadı üçün insan fenomen varlıqdır. Şairin tərənnüm etdiyi sevgi isə tək mənalı bir anlayış deyil, bu yolda şəxs gah qazana, gah da itirə bilər. Müəllifin özünün də bildirdiyi kimi, ürəksiz kəlmə yazan deyildir. Onun eşqi saf-təmizdir və insanın məhəbbəti vətən eşqi ilə ölçülməlidir. Vətən daşı olan şəxs şairə görə digər insanlar və canlılara da dəyər verər. O, poeziyanı canlı bir qüvvə kimi görməkdədir. "Şeirim", "Şeirə gətir", "Şair vüqarı", "Poeziya, poeziya", "Mən bir zaman şair idim" şeirlərində şairin poeziyaya olan münasibətini görməkdəyik. Həqiqətən də sözlərin qüvvəsi, enerjisi olduğunu deməliyik. O sözlər doğru zamanda işləndikdə mükəmməl mənalı poetik parçalar ortaya çıxır:

Poeziya, poeziya!

Ey qələm qardaşım!
Mənimlə düz-düzə,
Üz-üzə oturan
Sirdaş bacım,
Həmdəm qardaşım!
Bu dünya yolunda
Sən ömür karvanım!

Şair bu misralardan da göründüyü kimi poeziya ilə söhbətləşir, onu özünə yoldaş kimi görür. Buna görə Yaşar Qarayev Məmməd Araz poeziyasını "hər zaman yaddaşlarda qalacaq ümumbəşəri poeziya" adlandırırdı. Həyat olaraq tanımladığımız zaman kəsimində dəyişən insanlardır, dünya isə olduğu kimi qalır. Bu qoca dünyanı dəyişdirən və ya dəyişdirməyə cəhd edən isə yenə insanın özüdür. M.Arazın yaradıcılığındakı mövzulardan biri olan insan-dünya əlaqəsi də məhz bu ideyanı özündə cəmləşdirir. Nizami Muradoğlu "Sözün Məmməd Araz zirvəsi" kitabında şairin Səməd Vurğun yaradıcılığındakı insan-dünya münasibətinə fikir verdiyini bildirir. Şairə görə dünyada hər şeyin ikili mənası var və bu ziddiyyətlər olmadan dünya maraqsız bir yer olardı. "Mən belə dünyanın nəyindən küsüm" adlı şeirində hisslərini bu şəkildə oxuculara çatdırmışdır:

Bir gözü işıqdı, bir gözü buzdu,
Məkrli qadındı, gülçöhrə qızdı.
Həlimdi, kövrəkdi, sərtdi, quduzdu…
Mən belə dünyanın nəyindən küsüm?

Şair digər şeirlərində də dünyanın həmişə var olub, insanların fani olmasını vurğulayır:

Mənli də, mənsiz də bu dünya vardı,
Göy belə göy idi, qar belə ağdı.
Bu dünya elə bil nəğməli valdı,
Mənli də, mənsiz də oxuyacaqdı.

Tənqidçi, ədəbiyyatşünas, professor Yaşar Qarayev də Məmməd Arazın insan-dünya münasibəti ilə bağlı poeziyada yeni nəfəs gətirməsini bu şəkildə bildirir ki, o yeni təbii iqlimin - çağdaş ekoloji təfəkkürün ilk təməl daşlarını qoyanlardan biridir. Vətən mövzusu onun poeziyasında ötən əsrin 80-ci illərindən daha çox diqqət mərkəzində olmuşdur. Bu vətənə aidlik hissiyyatı səmərəli fəaliyyəti Azərbaycan cəmiyyətində milli ədəbi-ictimai fikrin inkişafına güclü təkan vermişdir. "Qalx ayağa, Azərbaycan!", "Vətən mənə oğul desə!", "Vətən desin" kimi məşhur və bunlardan əlavə bir çox şeirlərində vətən, azadlıq haqqında düşüncə və hisslərini aydın şəkildə qələmə almışdır. Onun şeirlərinin bu gün də aktual olması ondan qaynaqlanır ki, şair dövrün tələbi ilə yazmaq üçün yazmamışdır. Müharibə haqqında hər kəs yaza bilər, lakin onun bu gün də insanlara təsir etməsi üçün savaşdan daha çox ruha ehtiyac vardır. Bu isə M.Araz poeziyasında kifayət qədər duyulur. M.Arazın poeziyası bütövlükdə illərin uğurlu sınağından keçərək, bu gün və gələcək zamanlarda kamil sənət nümunəsi olaraq göstəriləcəkdir.

EKOLOJİ TƏHSİLİN FAYDALARI HAQQINDA

Osmanova L.F.
Bakı Slavyan Universiteti
E-mail:lyamanosmanova7@gmail.com

Müəllimlər ekoloji təhsili akademik fənləri inteqrasiya etmək, gənc şüurun akademik və sosial inkişafını stimullaşdırmaq və təbii mühitin qorunmasını təşviq etmək üçün mükəmməl bir yol kimi qiymətləndirirlər.

Ekoloji təhsil şagirdlərə ətraf mühitlə bağlı bütün məsələləri öyrədərək ətraf mühitin qorunmasının vacibliyini izah edir.Ekoloji təhsil ətraf mühitin üzləşdiyi problemlər haqqında məlumatlar əldə etməyə kömək edir,ətraf mühitin dərindən dərk edilməsini təmin edir.Eyni zamanda, təbiəti qorumaq üçün strategiyaların qurulması da ekoloji təhsilin bir hissəsidir.

Ekoloji təhsilin gənc nəsil və onların yaşadıqları cəmiyyət üçün əhəmiyyəti çoxdur.Bunlar əsasən aşağıdakılardan ibarətdir:

1.Tənqidi və yaradıcı düşüncə bacarıqlarını artırır.

Ekoloji təhsil uşaqları tədqiqat aparmağa, konkret hadisələrin necə və niyə baş verdiyini öyrənməyə və daha sonra sadə ekoloji məsələlərlə bağlı öz qərarlarını qəbul etməyə ruhlandırır. Ekoloji təhsil tənqidi və

yaradıcı düşünmə bacarıqlarını inkişaf etdirməklə gənc nəsli həvəsləndirir. Ətraf aləmin qorunması ilə bağlı müzakirə və öyrənmə uşaqlara ətraf mühitə təsir edən şəraiti qiymətləndirməyə imkan verir.

2.Sağlam həyat tərzini və ətraf aləmin qorunmasını təbliğ edir.

Ekoloji təhsil şagirdlərin ətraf aləmə olan marağını artırmaqla onları fəallaşdırır .

Ətraf mühitin uşaqlara psixoloji,fizioloji,emosional,əqli,sosial və mənəvi faydaları var.Təbiət qoynunda keçirilən asudə vaxt kiçikyaşlı uşaqlarda əhval-ruhiyyənin yüksəlməsinə səbəb olur.

3.Ətraf mühitin yaxşılaşdırılması üçün tədbirlər görür.

Ekoloji təhsil şagirdlərə öz qərarlarının və hərəkətlərinin ətraf mühiti necə dəyişdirdiyini anlamağa kömək edir,sadə ekoloji hadisələri həll etmək üçün lazım olan bilik və bacarıqları artırır.

4.Ekoloji problemlər haqqında məlumat verir.

Ekoloji təhsil uşaqları ətraf mühitə təsir edən problemlər haqqında maarifləndirir, sonra uşaqlara ətraf mühitlə davranış qaydalarını öyrədir.

Ətraf mühitin öyrənilməsi həm də şagirdləri gələcək həyata hazırlayır .

5.Ekoloji balansın bərpasını təşkil edir.

Ekoloji təhsil şagirdlərə öz qərarlarının ətraf mühitə necə təsir etdiyini başa düşməyə kömək edir, ekoloji problemləri həll etmək üçün bilik və lazımi bacarıqlar formalaşdırır.

Müəllimlər şagirdlərə təbiətə sevgini aşılamaqla ətraf mühitin tarazlığının qorunmasına kiçik bir töhfə vermiş olarlar.

ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ YENİ TEXNOLOGİYALAR

Piriyeva K.O.
Bakı Slavyan Universiteti
E-mail: Konulpiriyev11@gmail.com.

2008- ci ildən başlayaraq hər il yeni fənn kurikulumlarının tələbi ilə müvafiq sinfilərdə tələb olunan fənlər üçün müəyyən olunmuş məzmun xətləri və məzmun standartları əsasında dərslik komplektləri nəşr olunur. Ədəbiyyat fənni üçün nəşr olunan Ədəbiyyat təlimində daha çox tətbiq olunan, şagirdləri maraqlandıran, onların əqli qabiliyyətinin formalaşmasına müsbət təsir göstərən BIBÖ üsulundan geniş istifadə olunur. Bu, klassik pedaqogikanın sadədən mürəkkəbə, asandan çətinə, məlumdan məchula qaydasına əsaslanır, nəyi öyrənmişik, nəyi bilirik, nəyi öyrənmək, bilmək istəyirik, nəyi öyrəndik məqsədini həyata keçirmək üçün böyük, eləcə də kiçik qruplarda, cütlərlə iş aparılır. Onun tətbiqinə, adətən, 10-15 dəqiqə vaxt ayrılır. Yeni mövzunun izahı, keçmiş bilik və təcrübə ila yeni bilik və anlayışlar arasında əlaqənin yaradılmasında, ümumiləşdirici dərslərdə bu üsulun tətbiqi müsbət nəticə verir. Məktəb təcrübəsində, metodik mənbələrdə işin ardıcıl- lığı aşağıdakı şəkildə özünü göstərir: 1. "Təklif olunan mövzuya dair nələri bilirik?" sualının cavabları yazılır, cütlərə oxunur, müzakirə edilir və lövhədə "Bilirik" sütununun altında qeyd olunur. 2. Öyrənilməsi nəzərdə tutulan suallar "Bilmək istəyirik" qrafasında qeyd olunur 3. Təklif olunan mövzuya dair təlim materialı şagirdlərə təqdim olunur. Şagirdlər onu oxuyur və oxu bitdikdən sonra "Öyrəndik" qrafasında qeydlər aparılır.

Müəllimlərə metodik kömək göstərmək üçün X sinifdə tədrisi nəzərdə tutulmuş (proqramda 4 saat vaxt ayrılmışdır) "Azərbaycan şifahi xalq ədəbiyyatı" icmal mövzusunun tədrisinin səciyyəvi məqamlarını nəzərdən keçirək. Proqramın və dərsliyin tələbinə uyğun olaraq bu müddət ərzində şagirdlərin folklorun növ və janrları, poetik strukturu, tarixi təkamül və inkişafı, aşıq yaradıcılığı və dastanlar haqqında öyrəndikləri sistemə salınmalı, Azərbaycan şifahi xalq ədəbiyyatının hikmət xəzinəsinin açan olduğu manimsənmi lirik folklor nümunələrindən bayatı ila bağlı öyrədilməsi üçün BIBÖ-nün tətbiqi qaydasını Bilmək üçün şagirdlər lövhədə üç sütundan ibarət şəkil çəkir Şagirdlərə təklif edildi ki, bayatı haqqında siniflərdə öyrəndikləri bilikləri xatırlasınlar. Cütlara f mübadiləsi aparmaq üçün vaxt verildi. Sonra şagirdlər cədvəli birinci qrafasında qeydlər apardılar. Başqa sözlə, bayatı barədə bildiklərini həmin qrafada yazdılar. Bunu şagirdlər fərdi qaydada (hər kəs öz dəftərində yazmaqla) icra etdilər. Şagirdlərə yazdıqlarını oxumaq imkanı yaradıldı. Bütün şagirdlərin razılığı ilə səciyyəvi hesab edilən cavablar yazı taxtasındakı cədvəlin 1-ci qrafasında əks olundu. Sonra müəllim şagirdlərin diqqətini cədvəlin 2-ci qrafasına yönəldi Şagirdlər bayatı ilə əlaqədar öyrənmək istədiklərini söyladilar. Bir-birini təkrar edən fikirlər nəzərə alınmadı, vacib hesab olunanlar yazı taxtasındakı cədvəlin 2-ci qrafasında əks olundu Həmin qrafada əks olunmuş suallar aşağıdakılardır: 1. "Bayatı" sözünün mənası nədir? 2. Nə üçün bayatılar daha çox əzizim", "əzizinəm", "mən aşiq" sözləri ilə başlanır? 3. Yazılı

adabiyyatda bayatı yaradılırmı? Məhz bundan sonra şagirdlərə bayatı barədə məlumatın əks olunduğu mətn paylandı. Şagirdlərə bu mətni va dərslikdəki məlumatı oxumaq üçün vaxt verilir. Ümumi şəkildə deyə bilər ki, belə təlim metodları uşaqların zehni qabiliyyətini, analiz etmə bacarığını qüvvətləndirir. Sonda müəllim qiymətləndirmə meyarları vasitəsilə şagirdlərin fəaliyyətini qiymətləndirir

İKINCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ ƏDƏBİYYAT DƏRSLİKLƏRİNDƏ ƏKS OLUNAN POEZİYA

Piriyeva K.O.
Bakı Slavyan Universiteti
E-mail: Konulpiriyev11@gmail.com.

Böyük Vətən müharibəsi dövründə (1941-1945) ədəbiyyatın təsir və tərbiyə edici gücündən, bədii sözün qüdrətindən yararlanmaq istəyən SSRİ- hökuməti bu fənnin keçirilməsinə, onun məzmun xüsusiyyətlərinin yaxşılaşdırılmasına diqqət daha da artırdı. "Vətənə məhəbbət düşmənə nifrət hissi aşılamaq" adı altında kitablar, məqalələr çap olunmağa başladı. Yeni proqrama uyğun olaraq yeni dərsliklər çap olunurdu. Bu dövr ədəbiyyat dərsinin əsas qayəsi gənc nəsilə vətənpərvərlik ruhunun aşılanması olduğundan dərsliklərdə Azərbaycan yazıçılarının əsərləri çoxluq təşkil edirdi. Bununla bağlı olaraq, S.Vurğun " Kommunist" qəzetində "Balalarımız üçün gözəl əsərlər yaradaq" adlı məqaləsi öz məfkurəvi istiqaməti ilə ədəbiyyatın tədrisimə təkan verdi. Poeziya sahəsində yazıbyaratmış S.Vurğun, S.Rüstəm, R.Rza, M.Rahim, Ə.Cəmil kimi şairlərin bədii əsərləri proqrama daxil edilmişdir. S.Vurğunun "Ananın öyüdü", və "Şəfqət bacısı" şeirləri müharibəyə yollanan oğlan və qızların üstünə düşən öhdəliklərə həsr olunmuşdur.

Bu vaxt yaradıcılıqla məşğul olan şairlər dövrün əhəmiyyətli hadisələrini, Azərbaycan xalqının gördüyü tarixi işlərini, ön və arxa cəbhədə gedən mübarizənin geniş, epik planda təsvir etməyə təşəbbüs göstərirdilər. Nümunə olaraq belə əsərlərə S.Vurğunun " Komsomol poeması", "Ölüm kürsüsü", "Bəsti", R.Rzanın " Almaniya", " Çapey", " Cəlladları düşdü", M.Müşviqin " Səhər", M.Rahimin " Ölməz qəhrəman" poemalarını və digərlərini göstərmək olar. 1939- cu ildə Moskvada çapdan çıxan " Azərbaycan poeziyası antologiyası" Sovet xalqlarını və eləcə də dünya xalqlarını Azərbaycan poeziyasının ən yaxşı əsərləri ilə tanış etməkdə bu çox böyük rolu var idi.

1941-1945- ci illərdə yenidən hazırlanan ədəbiyyat dərsliklərindən müəllimlərin səmərəli istifadə etməsi üçün yeni metodik kitablar hazırlamaq ehtiyac duyulurdu. Feyzulla Qasımzadənin redaktorluğu ilə 1940- cı ildə hazırlanan "Ədəbiyyat metodikası" metodik tövsiyə kitabı bu sahədə mövcud boşluğu doldurmağa xidmət edirdi. F.Qasımzadə "Ədəbiyyat metodikası" kitabını Q.Qolubkovun "Ədəbiyyatın tədrisi metodikası" kitabı əsasında hazırlada da, metodik tövsiyələr Azərbaycan ədəbiyyatı nümunələri əsasında verilmişdir. Həmçinin M.Quluzadənin "Natamam orta məktəblərdə lirik əsərlərin öyrədilməsi" bağlı kitabında poeziya nümunələrinin müəllim tərəfindən şagirdlərə düzgün mənimsənilməsi ilə bağlı düzgün göstərişlər verilmişdir.

Müharibədən sonrakı dinc dövrdə daha savadlı adamlar yetişdirmək və müharibə əhvalruhiyyəsindən uzaqlaşmaq o dövrün müasir tələblərinə cavab vermək məqsədi ilə mətbuatda, müəllim yığıncaqlarında ədəbiyyat proqram və dərslikləri ciddi müzakirə olunurdu. Bununla bağlı müxtəlif məqalələr "Azərbaycan dili və ədəbiyyat tədrisi" metodik məqalələr məcmuəsində və "Azərbaycan məktəbi" jurnalında məqalələr dərc olunur ədəbiyyatın tədrisinin inkişafı ilə bağlı fikirlər irəli sürülürdü.

CÜMHURİYYƏT MÖVZUSUNUN DƏRSLİKLƏRDƏKİ YERİ

Qarayeva L.F.
Bakı Slavyan Universiteti
E-mail: garayevalala88@gmail.com

Torpağı yenicə işğaldan azad olmuş ölkə üçün tariximizin şanlı səhifələrinin məktəblərdə tədris edilməsi, şagirdlərin bu barədə geniş şəkildə məlumatlandırılması diqqət mərkəzində olan məsələlərdəndir. Çünki ölkənin tarixindən xəbərdar, bilgili vətəndaşlara ehtiyacı vardır. Bu vətəndaşlar elə yetişdirilməlidir ki, həm səngərdə, həm də digər cəbhələrdə vətəni ürəklə yanaşı, ağılla da qorusun, onun haqlarını müdafiə etsin, seçkin dairələrdə öz tarixi, ədəbiyyatı barədə fikirlərini düzgün ifadə etməyi bacarsın. Burada da məktəbin,

müəllimin və tədris edilən dərsliklərin üzərinə böyük vəzifələr düşür. Biz "Cümhuriyyət dövrü Azərbaycan poeziyasında vətən, millət ideyasının formalaşması və tərənnümü problemləri" adlı dissertasiya işimiz çərçivəsində dərsliklərdə Cümhuriyyət mövzusunun və bu dövrdə yazıb-yaradan poeziya nümayəndələrinin tədrisini təhlil etdik. Bu xüsusda I-XI siniflər üzrə Azərbaycan dili, V-XI siniflər üzrə ədəbiyyat və I-XI siniflər üzrə tarix dərsliklərini nəzərdən keçirdik. Təhlilə ilk öncə ədəbiyyat dərsliklərindən başladıq. Belə ki, V sinif ədəbiyyat dərsliyində şagirdlərə "Üçrəngli bayraq" mövzusunda essenin yazılması barədə tapşırıq verilir. Burada mövzunun istiqaməti elədir ki, müəllim dərsi, tapşırığı tarix fənni ilə inteqrasiya edərək essenin yazılması üçün şagirdlərə tarixi hadisələrlə tanış olmağı tapşıra bilər. Dərsliyin 143-cü səhifəsində isə şagirdlərə 28 May-Respublika Günü münasibəti ilə Məmməd Namazın "Vətəni çiçəkləndirmək lazımdır" əsərinin və Tofiq Bayramın "Alqış deyim" şeirininin təhlilini layihə şəklində işləmək barədə tapşırıq verilir. Fikrimizcə, burada layihənin işlənməsini Cümhuriyyət dövrü ədəbiyyat nümayəndələrinin əsərləri, şeirləri üzərindən verilməsi daha məqsədəuyğun olardı. Təbii ki, dərslikdə verilən əsər və şeir də vətənpərvərlik mövzusundadır. Lakin dövrün nümayəndələrinin şeir nümunələri tarixi vəziyyəti, poetik motivi əks etdirmək baxımından daha güclü ədəbi əhəmiyyətə malikdir. VIII sinif ədəbiyyat dərsliyində isə Azərbaycan ədəbiyyatı altı dövrə bölünmüşdür. Hər bölmədə dövrün görkəmli ədəbiyyat nümayəndələrinin nəzm və nəsr əsərlərindən parçalar verilmiş, şagirdlər bu istiqamətdə tapşırıqların həllinə yönəldilmişdir. Sonuncu-"Tənqidi realizm və romantizm dövrü" adlı bölmədə dövr nümayəndələrindən Abdulla Şaiqin "Məktub yetişmədi" hekayəsi, Məhəmməd Hadinin "Türkün nəğməsi" şeiri, Hüseyn Cavidin "Ana" dramından bir parça verilmişdir. Dərslikdə öncə Hadi haqqında qısa məlumat və dövrün təhlili üçün düşündürücü suallar əks olunur. Bu dərsin effektiv təşkil olunması üçün müəllim şagirdlərə düzgün istiqamət verməli, tarix fənninə inteqrasiya yolu ilə Cümhuriyyət dövrünün mürəkkəb tarixi vəziyyətini qısa şəkildə izah etməlidir. Çünki şeir özü mürəkkəb tarixi dövrdə-Birinci Dünya Müharibəsinin davam etdiyi (1918-ci il) bir vaxtda yazılmışdır. Həmin ildə yenicə yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin özü də ağır günlərdən keçirdi, torpaqlarına göz dikmiş erməni daşnakları ilə mübarizə aparmaq məcburiyyətində qalmışdı. Düşünürük ki, müəllim bu barədə qısa məlumat verdikdən sonra dərslikdə yer alan geniş və zəngin tapşırıqlar bölməsinə keçə bilər. Dərsliyin qeyd edilən bölməsində, həmçinin Məhmət Akif Ərsoyun "İstiqlal marşı" adlı şeiri də verilmişdir. Dərsliyin sonunda "Oxumağı məsləhət görürük" adlı bölmədə isə şagirdlərə görkəmli ədib Cəlil Məmmədquluzadənin Cümhuriyyət dövründə yazdığı "Millət", "Azərbaycan", "Cümhuriyyət" məqalələrinin oxunması tövsiyə olunmuşdur. Bu da məktəblilərin dünyagörüşünün inkişaf etdirilməsi, eyni zamanda onların məktəbdənkənar asudə vaxtlarının səmərəli keçirilməsi üçün dəyərli tövsiyələrdir. IX sinif ədəbiyyat dərsliyinin birinci - "Azərbaycanda milli-demokratik hərəkat dövründə ədəbiyyat" adlı bölməsində Azərbaycan Xalq Cümhuriyyəti, dövrün ictimai-siyasi, ədəbi-mədəni mühiti, ziyalıları, ədibləri, poeziya nümunələri barədə geniş məlumat verilmişdir. Dərsliyin dövrdən bəhs edən bölməsində qeyd edilir ki, Cümhuriyyət illərində nəsr və dramaturgiya ilə müqayisədə poeziya daha böyük uğur qazanmışdı. Həmin dövrdə sürətlə yayılan lirik janrlar həyatda baş verənlərə daha tez reaksiya vermək imkanından yararlanmış, coşqun inkişaf yolu keçmişdir. Bölmənin 13-cü səhifəsində istiqlal şairi Əhməd Cavad barədə qısa məlumat və şairin "Azərbaycan bayrağına" şeirinin 4 bəndi verilir. Bu şeirə 2 dərs həsr edilir ki, burada da şagirdlərin dövr barədə geniş tədqiqat aparmaqları üçün zəngin tapşırıqlar yer alır. Şeir barədə şagirdlərə ev tapşırığı olaraq "Azərbaycan Xalq Cümhuriyyəti dövründə ədəbiyyatımız" mövzusunda təqdimat hazırlamaları tapşırılır. Şagirdlərə bu barədə təqdimat hazırlamaq üçün digər fənlərdən (məsələn tarix) olan dərsliklərə və digər müvafiq mənbələrə müraciəet etmələri tövsiyə olunur. Dərsin bu tapşırığı fikrimizdə şagirdlərin tarixi, ədəbi biliklərinin artırılması, dövr barədə zəruri məlumatların əldə edilməsi, həmçinin onların təqdimat etmək bacarıqlarının inkişaf etdirilməsi baxımından xüsusi əhəmiyyətə malikdir. İkinci dərsdə isə şeirin yazılma tarixi, mühiti barədə qısa məlumat verilmiş, şagirdlərə bu məlumatı oxuyaraq şeiri təhlil etmək tapşırılmış, bu istiqamətdə onlara yaradıcı suallar təqdim olunmuşdur. Daha sonra bölmənin digər səhifəsində Cəfər Cabbarlı haqqında qısa məlumat verilir və şairin "Ana" şeiri şagirdlərə təqdim olunur. XI sinif ədəbiyyat dərsliyində isə biz Hüseyn Cavidin "İblis" əsərinə və Əhməd Cavadın "Səsli qız" poemasına rast gəlirik. Təhlil etdiyimiz mövzuya uyğun olaraq biz burada "Səsli qız" poemasını xüsusi qeyd etməliyik. Belə ki, Cümhuriyyətin işğalından sonra istiqlal şairi Əhməd Cavad da digər vətənpərvər şairlər kimi dərin iztirablar içində idi. Onun yuxarıda qeyd edilən poeması buna misaldır. Belə ki, şairin 1928-1929-cu illərdə yazdığı poemasında vətənə məhəbbət, azad və müstəqil ölkədə yaşamağın əhəmiyyəti barədə söhbət açılmış, işğalçıya nifrət böyük ədəbi ustalıqla canlandırılmışdır.

Əsərin baş qəhrəmanı, vətənini məhəbbətlə sevən Saranın işğalçı şahı zəhərləyərək öldürməsi, daha sonra xalqın üsyana qalxaraq əvvəlki müstəqilliyi bərpa etməsi sanki Əhməd Cavadın arzularını ehtiva edir. Nəzərə alsaq ki, XI sinifdə təhsil alan şagirdlər artıq erkən gənclik illərindədirlər və onlar artıq müstəqil

düşünə, bəzi qərarları özü-özlüyündə təhlil edə, müəyyən şəxsi düşüncəyə sahib ola bilirlər, bu baxımdan poemanın ifadə etdiyi məna çalarları, məzmun xətti xüsusi əhəmiyyətə malikdir. Yəni artıq vətən anlayışı formalaşmış gənclərə həm də vətəni müdafiə etmək anlayışı, torpağı qorumağın şərəf işi olduğu barədə fikirlər aşılanır. Bu baxımdan XI sinif ədəbiyyat dərsliyində yer alan "Səsli qız" poeması xüsusi tərbiyəvi əhəmiyyətə malikdir.

Biz, eyni zamanda Azərbaycan dili dərsliklərini də yuxarıda adı qeyd edilən dissertasiya mövzusu çərçivəsində təhlil etdik. Belə ki, I sinif Azərbaycan dili dərsliyində "Vətənim Azərbaycan" adlı bölmə verilmişdir ki, burada vətənə aid şeirlər, qısa hekayələr və tapşırıqlar yer alır. Dərsliyin 39-cu səhifəsində Abdulla Şaiqin "Çağırır vətən" adlı şeiri verilmişdir. Elə ilk sinifdən təqdim edilən bu bölmə, burada yer alan ədəbiyyat nümunələri şagirdlərin vətənpərvərlik tərbiyəsi üçün əhəmiyyətli tol oynayır, onları "vətən" anlayışı ilə tanış edir. IV sinif Azərbaycan dili dərsliyində isə Sevil Hüseynliyə aid "Bayrağım" adlı mətn verilmişdir ki, burada da müstəqillik, bayraq, əsgər, Respublika Günü kimi mövzulara toxunulmuşdur. IV sinifdə artıq "Vətən" anlayışını dərk etməyə başlayan, milli atributlardan xəbərdar olan şagirdlərə bu kimi mətnlərlər əsasında tapşırıqların verilməsi onların vətənpərvərlik duyğularının daha da dərinləşməsilə nəticələnir. Burada müəllim də mövzuya həssaslıqla yanaşmalı və şagirdlərin biliklərini vətən, millət mövzuları ilə daha ağıllı şəkildə zənginləşdirməlidir. VIII sinif Azərbaycan dili dərsliyində isə "Qurban Səidin gizli qalmış ömrü" adlı mətn (səh 153-154) verilmişdir. Burada "Əli və Nino" yazarının təxəllüsü, kimliyi və yaşadığı dövr barədə qısa məlumat verilmişdir. Bildiyimiz kimi, Qurban Səidin müəllifi olduğu "Əli və Nino" əsərində Cümhuriyyət dövrünə də yer verilir. Hətta sonda əsərin qəhrəmanı Əlixanın qısa ömrü Cümhuriyyətin ömrünə bənzədilir. Müəllim qeyd edilən dərsə yaradıcı yanaşmalı, "Əli və Nino" əsərini sərbəst oxu kimi tapşırıq verməlidir. Müəllim, həmçinin tarix fənninə inteqrasiya edərək əsərdə qeyd edilən dövr barədə şagirdlərini qısa şəkildə məlumatlandıra bilər. IX sinif Azərbaycan dili dərsliyində Azərbaycan Xalq Cümhuriyyəti Daxili İşlər Nazirliyində nazir müavini vəzifəsini daşımış Məhəmməd Sadıq bəy Ağabəyzadə barədə mətn (41-42-ci səhifələr) verilmişdir. Mətndə M.S.Ağabəyzadənin həyatı, fəaliyyəti, Cümhuriyyətə sadiqliyi, xarici əlaqələri barədə məlumatlar yer alır. Mətnin içində və sonunda şagirdlərə Cümhuriyyətin qurulması və onun xarici alaqələri barədə tədqiqat sualları da təqdim olunur. XI sinif Azərbaycan dili dərsliyində "Azərbaycan" bölməsində (188-ci səhifə) yer alan "Azərbaycan" adlı mətndə Milli Şuranın yaranması, Cümhuriyyətin müstəqilliyinin elan olunması, İstiqlal Bəyənnaməsi, dövlətin daxili və xarici əlaqələri barədə məlumatlar verilir. Həmçinin mətn əsasında şagirdlərə orfoqrafik və orfoepik qaydaların tətbiqi ilə bağlı tapşırıqlar verilir.

Cümhuriyyət dövrü barədə geniş məlumata biz təbii olaraq tarix dərsliklərində də rast gəlirik. Belə ki, V sinif tarix dərsliyində "Azərbaycan müasir dövrdə" bölməsində Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə dair müvafiq başlıqlarda 3 mövzu yer alır. Mövzularda şagirdlərin yaş səviyyələrinə uyğun, sadə və anlaşıqlı tarixi mətnlər əks olunur. XI siniflər üçün tarix dərsliyində isə Cümhuriyyət tarixinə daha geniş yer verilir (28 səhifə). Burada Cümhuriyyət tarixi 6 başlıqda verilmiş mövzular əsasında tədris edilir, şagirdlər Cümhuriyyət tarixi barədə təfsilatı ilə məlumatlanırlar.Mövzunun dərsliklərdə tədrisi geniş olmasa da dövrü əhatə etmişdir. Şagirdlər həm aşağı siniflərdən sadə şəkildə, həm də yuxarı siniflərdə təfsilatlı şəkildə mövzu ilə tanış olurlar. Düşünürük ki, bu kimi mövzulara yaradıcı yanaşma və şagirdlərin lazımi bilikləri əldə etməsi müəllimin təcrübəsi və dərsə məsuliyyətli yanaşmasından asılıdır.

Bakı şəhərində yerləşən bir neçə məktəbin müvafiq fənlər üzrə müəllimləri ilə apardığımız şifahi sorğu əsasında qeyd edə bilərik ki, Cümhuriyyət kimi həssas mövzuya müəllimlər də məsuliyyətlə yanaşır, şagirdlərə həm dərsliklərdəki məlumatları aşılayır, həm də onları bu mövzuya uyğun əlavə tədqiqatlara cəlb edirlər.

SÖZ YARADICILIĞI ÜZRƏ İŞİN MORFOLOJİ QAYDALARIN TƏDRİSİ İLƏ İNTEQRATİV TƏŞKİLİ

Qasımova L.R.
Sumqayıt Dövlət Universiteti
E-mail:kaysimov@gmail.com

Söz yaradıcılığının leksikologiyanın məsələsi kimi lüğət tərkibinin inkişafında mühüm əhəmiyyət kəsb etməsi və onu tənzimləyən üsul və vasitələrin məcmusu olmasıdır. Dilçilik baxımından "Leksikologiya"nı da "Söz yaradıcılığı"nı da müstəqil dilçilik şöbələri olması fikrini qəbul edirlər.

Sözlərin tərkibi və söz yaradıcılığını öyrənən elm sahəsi kimi morfemika sözlərin quruluşundan bəhs

edir. Belə ki, sözlərin mənalı hissələri kök morfem və leksik, qrammatik şəkilçilər şəkilçi morfem adlandırılır. Qeyd olunur ki, yeni mənalı sözlər leksik şəkilçilər vasitəsi ilə yaradır. Sözlərin forması isə qrammatik şəkilçilərlə dəyişilir.

Azərbaycan dilində yeni sözlərin yaranması bir neçə yolla baş verir:

- Leksik yolla yeni sözlərin yaranması, yəni söz əvvəlki mənasından uzaqlaşır və yeni fərqli mənа kəsb edir (məsələn: Ay (planet)-ay (ilin ayları)

- Morfoloji yolla yeni sözlərin yaranması isə əsas nitq hissələrinə aid sözlərə leksik şəkilçi artırmaqla baş verir(məsələn: gül-güldan, güllük və s.).

- Sintaktik yolla yeni sözlərin yaranmasında iki və daha artıq söz iştirak edir (məsələn: günəbaxan, kəklikotu, istiot və s.).

Söz yaradıcılığının hansı səviyyədə morfologiyaya aid olduğunu nəzəri cəhətdən akademik V.V.Vinoqradov əsaslandırmışdır. V.V.Vinoqradov təbirincə desək, sözün bir nitq hissəsindən başqasına keçməsi faktları morfoloji söz yaradıcılığına aid edilməlidir.

Y.M.Seyidov morfologiyaya dair monoqrafik dərs vəsaitində yazırdı: "…söz yaradıcılığı qrammatikanın (morfologiyanın) problemi deyildir, lakin onun qrammatik (morfoloji) aspekti var".

Sözdüzəldici şəkilçilərin-leksik şəkilçilərin xüsusiyyətlərini xarakterizə etsək, görərik ki, bu xüsusiyyətlərdən biri ondan ibarətdir ki, bir qisim leksik şəkilçilər bir nitq hissəsindən eyni nitq hissəsini, bir qismi də bir nitq hissəsindən başqa nitq hissəsini əmələ gətirir. Odur ki, leksik şəkilçilərin aşağıdakı növlərinə rast gəlirik:

- Bir nitq hissəsindən eyni nitq hissəsi düzəldən leksik şəkilçilər:

a) isimlərdən isim düzəldən leksik şəkilçilər: kol (isim)-kolluq (isim), dəniz (isim)- dənizçi (isim) və s.;

b) feillərdən feil düzəldən leksik şəkilçilər: çəkmək (feil) - çəkinmək, görmək (feil) - göstərmək (feil), sürmək (feil)-sürüşmək (feil), çalmaq (feil)-çalışmaq (feil) və s.

- Bir nitq hissəsindən başqa nitq hissəsi düzəldən leksik şəkilçilər:

a) feildən isim düzəldən leksik şəkilçilər: çəkmək(feil)-- çəkmə(isim), süzmək (feil)-süzmə (isim), gəlmək (feil)-gəlin (isim), qovurmaq (feil)-qovurma (isim) və s.;

b) feildən sifət düzəldən leksik şəkilçilər: satmaq (feil)-satıcı qız (sifət), sürmək (feil)-sürücü qadın (sifət), yazmaq (feil)-yazılı vərəq (sifət) və s.;

c) isim, sifət, say, əvəzliklərdən feil düzəldən leksik şəkilçilər: daş (isim)-daşımaq (feil), oxu (isim)-oxumaq (feil); cavan (sifət)-cavanlaşmaq (feil), bir (say)-birləşmək (feil) və s

ç) isimlərdən sifət düzəldən leksik şəkilçilər: duz (isim)-duzsuz xörək (sifət), dağ (isim)-dağdakı çiçəklər (sifət), xurma (isim)-xurmayı rəng (sifət) və s.;

d) isim və saylardan zərf düzəldən leksik şəkilçilər: gün (isim)-gündə bizə gəlir (zərf), bir (say)-birdən (zərf), yaxşı (sifət)-yaxşıca (zərf) və s.

Söz yaradıcılığı üzrə ən əsas məfhumlar - kök, şəkilçi, leksik və qrammatik şəkilçilər, sözlərin quruluşca növləri morfologiya təliminin, nitq hissələrinin məzmununa daxildir. Belə ki, Azərbaycan dilində sözlərin strukturu iki hissədən –kök və şəkilçidən, yaxud kök morfemdən, şəkilçi morfemdən ibarətdir.Sözün qrammatik mənaya malik olan, müstəqil işlənən, sualı cavablandıran, sintaktik vəzifə daşıyan və müəyyən semantik-qrammatik qruplar daxilində, dilin morfoloji sistemində yeri olan sözlər kök morfem adlanır. "…şəkilçilər, eləcə də leksik şəkilçilər sözün qrammatik tərkibində morfem bölgüsünə daxil olur. Ona görə də Azərbaycan sözlərinin tərkibi iki morfemdən (kök morfemdən və şəkilçi morfemdən) təşkil olunur.

Şagirdlərdə kök haqqında ilkin anlayış eyniköklü sözlər üzərində müşahidələr əsasında yaradılır. Eyniköklü sözləri seçərkən ciddi səhvlərə yol verən şagirdlər mənaca yaxın olan sözləri, sinonimləri eyniköklü sözlər hesab edirlər (məsələn, tarla-zəmi, duzlu-şor, geniş-enli və s.). Belə ki, mətndə işlənmiş ot, otlu, otluq, otarmaq sözlərinin bir obyektlə - ot ilə bağlı olması və bu hissənin bütün sözlərdə təkrarlanması təsəvvürü yaradır. Eyniköklü sözlər üzərində iş apararkən həm məna yaxınlığı, həm də hərf tərkibinə görə oxşarlığa fikir verilməlidir. Beşinci siniflərdə isə şagirdlər ayrı-ayrı dil bölmələrində sözün tərkibi, sözün quruluşu və söz yaradıcılığı ilə elmi zəmində tanış olurlar. Bu bölmələrdə şagirdlər sözü tərkib hissələrinə görə təhlil etmək, yəni morfemləri müəyyən etmək üzrə fəaliyyət göstərirlər. Beşinci sinifdə sözün tərkibinin nitq hissələrindən əvvəl öyrənilməsi şagirdlərdə kök və şəkilçi, eyniköklü sözlər, şəkilçilərin növləri; sözdəyişdirici və sözdüzəldici şəkilçilər: leksik-qrammatik şəkilçilər vasitəsilə sözü dəyişmək, yeni söz düzəltmək, sözün quruluşca növləri: sadə, düzəltmə və mürəkkəb sözlər haqqında biliklərini möhkəmləndirir. Söz yaradıcılığının həm qrammatika, həm də leksika ilə inteqrasiyası, onlarla sıx surətdə əlaqəli olması hər yeni sözün yaradılması üzərində müəyyən qrammatik əməliyyatın aparılmasını tələb edir. Buna görə də söz yaradıcılığının

qrammatikanın əsas bölmələrindən olan morfologiya ilə inteqrativ tədrisi zəruridir. Hər bir yeni sözün yaradılması isə həmin sözün dilin lüğət tərkibinə leksik vahid kimi daxil olmasına şərait yaradır.

Sözün tərkibinə görə təhlili də şagirdlər üçün çətinlik törədən mövzulardandır. Məsələn, sözü kök və şəkilçiyə ayırmaqda nöqsanlar (yazı-çılıq, yaz-ı-çı-lıq yazıçı-lıq), eyniköklü sözlərin düzgün müəyyənləşdirilməməsi (məktəb-li, məktəb-dən, məktəb-lilər, məktəb-ə, məktəb-li-lərindir və s.) belə çətinliklərdəndir. Sözün tərkibinin öyrədilməsi prosesində qarşıya çıxan ən böyük çətinlik şagirdlərə leksik və qtrammatik şəkilçilər anlayışları arasındakı fərqin başa salınmasıdır. Əslində, bu məsələ dilçilikdə mübahisəyə məruz qalan məsələlərdəndir. Halbuki dilin real tarixində qrammatik və leksik formalar, onların mənası üzvi surətdə inteqrasiya olunur və daim biri digərinə təsir göstərir. Belə ki, dilin leksik cəhətini nəzərə almadan, onun qrammatik quruluşunu öyrənmək qeyri-mümkündür.Sözün morfoloji tərkibinin öyrədilməsi ona görə böyük əhəmiyyətə malikdir ki, onun quruluşunun dərk olunması şagirdlərə sözün leksik mənasını dərindən başa düşməyə və nitqdə ondan dəqiq istifadə etməyə imkan verir. Sözün tərkibi üzrə iş şagirdlərə sözün leksik mənası ilə onun morfoloji tərkibi arasındakı əlaqələri müəyyənləşdirməyə xidmət etməlidir. Bu sahədə müvəffəqiyyət ilboyu sözün tərkibinə görə təhlili və söz yaradıcılığı üzrə çalışmaların yerinə yetirilməsindən asılıdır. Azərbaycan dili dərslərində leksik və qrammatik şəkilçilərin fərqləndirilməsinə də diqqət verilməlidir. Ona görə ki, şagird yalnız formal əlamətə, şəkilçinin formasını qavramağa istiqamətlənir, o, mənanın dəyişib-dəyişməməsinə, yeni sözün əmələ gəlib-gəlməməsinə fikir vermir. Fəaliyyətin bu cür qurulması nəticədə zəruri zehni ümumiləşdirmənin yaranmasını çətinləşdirir. Tətbiq edilən çalışmaların da birtərəfli olduğu, buradakı əməliyyatlarda yalnız sözdüzəldici-leksik şəkilçilər üzrə iş aparıldığı üçün şagirdlərdə də məhdud, bilavasitə icra olunan işlə bağlı birtərəfli ümumiləşdirmə yaranır.

Təcrübə göstərir ki, ümumiləşdirmə bacarığının inkişafı, Azərbaycan dilindən tədris materialının məzmununun şagirdlərin təfəkküründə möhkəmləndirilməsi, keçilənlərin təkrarı və yeni öyrənilən məlumatların yekunlaşdırılması prosesində gedir. Burada qarşıda duran başlıca vəzifə məzmunun şüurlu mənimsənilməsini təmin etməklə şagirdlərdə inteqrasiya aparma, əqli nəticəyə gəlmə bacarıqlarının formalaşdırılmasına xidmət etməkdir. Bu prosesdə şagirdlərin yiyələndikləri pərakəndə fikirlər, az tanış olduqları faktlar təhlil-tərkib olunur, müqayisə edilir, ümumiləşdirmələr aparılır.

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAĞIN MƏNƏVİ TƏRBİYƏSİNİN FORMALAŞMASI PROSESİ

Qasımzadə A.İ.
Bakı Slavyan Universiteti
E-mail : qasimzadayan@gmail.com

Uşaqlarda mənəvi dəyərlərin, bu dəyərləri özündə əks etdirən davranışların formalaşmasında məktəbəqədər yaş dövrü xüsusi rol oynayır. Həmçinin bu yaşlı uşaqların əksəriyyətinin təlim-tədris aldığı məktəbəqədər təhsil sisteminin və onun üzvlərinin üzərinə müəyyən bir məsuliyyət düşür. Şəxsiyyətin mənəvi aspektdən formalaşmasında ünsiyyət, sosiallaşma prosesi müəyyən əhəmiyyət kəsb edir. Əslində sosiallaşma sadəcə mənəvi cəhətdən uşaqların formalaşması ilə məhdudlaşmır, həmçinin onların hərtərəfli inkişafına təsir edir. Doğrudur, bu hər zaman müsbət şəkildə nəticələnməyə bilir. Hər məsələ də olduğu kimi, burada da müsbət və mənfi istiqamətə yönləndirmə mümkündür. Əsas olan xarici təsir qüvvələr ilə uşaqların daxili aləminin nə qədər uzlaşması və bu uzlaşmanın hansı nəticələrə səbəb olmasıdır. Ünsiyyət və fəaliyyət prosesi uşaqların mənəvi olaraq tərbiyələnmə prosesində əsas təsir edici amillərdəndir, onların mənəvi kompetensiyalarının formalaşmasında zəmin rolunu oynayır.Hazırki dövrdə uşaqların tərbiyələnmə prosesini müşahidə edərsək, onların doğru olan vərdiş və davranışları necə çətinliklə qavradıqlarının fərqində olarıq. Əslində bu sadəcə konkret olaraq, məktəbəqədər yaşlı uşaqlara deyil, bütün yaş kateqoriya üzvlərinə aiddir. Çünki, insan onun üçün doğru olan seçimi görməkdə və o istiqamətdə yoluna davam etməkdə çətinlik çəkir. Zərərli olacaq vərdişlər, mənfi nəticələnək istiqamətlər hər zaman daha asan seçim olur. Bu kimi hallar müasir dövr, el arasında xüsusilə işlənən "zəmanə uşaqları" adlandırılan bu nəsil üçün daha keçərlidir. Belə ki, hazırda dünyamızda gedən sürətli inkişaf prosesi və bunun nəticəsində yaranmış olan ciddi dəyişmələr dünya insanları üçün çox şeyi əl çatan etmiş və insanları rahatlığa sövq etmişdir. Bunun nəticədə insanlarda təmkinlilik, dözümlülük, anlayış, empatiya kimi mənəvi xüsusiyyətlər arxa plana atılmağa başlamışdır. Məsələn, hazırda uşaqlara nə isə öyrətdiyimiz zaman, onların əksəriyyəti səbirlə dinləmək, anlamağa çalışmaq yerinə çılğınlıq edir, səs-küy salır, az yaşlı olsa belə eqoistlik sərgiləyərək sadəcə öz doğrularını qəbullandırmağa çalışırlar.

Onların xarakterində olan bu kimi hallar ətraf mühitlə uzlaşma, ünsiyyət və fəaliyyətdə olma kimi prosesləri çətinləşdirir. Təbii ki, bunun nəticəsində yaranan özünəqapanma halları mənəvi olaraq tərbiyələnmə prosesində ciddi maneələrə səbəb olur.

Uşaqlıqdan başlayaraq hər zaman bizlərə qarşı "bu yaxşıdır və ya bu pisdir" kimi anlayışlar istifadə olunur. Amma heç bir zaman səbəbli, anlaşılır formada bu yaxşı, pis kimi hesab olunan halların izahı verilmir. Sadəcə amiranə şəkildə bu kimi ifadələr uşaqlara deyilir. Fikrimcə, elə məhz o dövrdən mənəvi tərbiyənin başlanğıcı qoyulur. Uşaqlar hər zaman soruşur: bəs nədir axı bu yaxşı, nədir axı bu pis olan. Axı biz nəyə görə nələrəsə pis deyə bilirik ? Ümumiyyətlə uşaqlarda tərbiyə prosesindən bəhs ediriksə, sadəcə başqasının tərbiyə etməsindən deyil, onun özünün özünə tərbiyələndirməsindən də bəhs etməliyik. Özünütərbiyənin məktəkəbəqədər yaş dövründən uşaqlara şüurlu olaraq dərk edilib öyrədilməsi çox önəmlidir. Belə ki, burada özünütərbiyə prosesinə aiddir: özünümüdafiə etməsi; özünüdərk etməsi və özünütəlqin etməsi. Düzdür, bunları məktəbəqədər yaş dövründə olan bir uşaqda tam formalaşdırmaq çox çətin ola bilər. Amma əsas odur ki, ilkin başlanğıcı qoyulsun.Həm unutmayaq ki, hazırki ümumi təhsil və tərbiyə prosesinin əsas məqsədi hərtərəfli şəxsiyyət yetişdirməkdir. İlkin mənəvi dəyərlər məktəbəqədər yaş dövründən elə bu kimi yaxşı, pis anlayışının şüurluca uşağın fərdi xüsusiyyətlərinə uyğun formada izahıla həyata keçirməyə başlayırıq.

Məktəbəqədər yaş dövründə tərbiyə prosesini düzgün formada həyata keçirmək istəyiriksə, müəyyən şərtlərə əməl etməliyik. İlk olaraq qarşımıza məqsəd qoymalıyıq. Məqsədimizə nail olma yolunda addımlarkən hansı şərtlərə, prinsiplərə əməl edəcəyimizi, hansı metodlardan istifadə edəcəyimizi müəyyənləşdirməliyik. Bütün bunlar əvvəlcədən planlaşdırıldığı zaman uşağın düzgün formalaşmasına nail ola bilərik. Hər şeydən əvvəl əsas olan onun hansı xarakterik xüsusiyyətlərə malik olması, buna uyğun olaraq ona hansı üsullarla müsbət istiqamətdə tərbiyə edəcəyimizi müəyyənləşdirməkdir.

HİSSƏ VƏ KƏSR ANLAYIŞLARININ YARANMASI TARİXİ

Qənbərova S.A.
Bakı Slavyan Universiteti
E-mail: sebineqenberova11@gmail.com

Kəsr ədədlərə ehtiyac insanda inkişafın çox erkən mərhələsində yaranmışdır. İnsanlarda cisimləri saymaq zərurəti ilə yanaşı, qədim zamanlardan uzunluq, sahə, həcm, zaman və digər kəmiyyətləri ölçməyə ehtiyac var. Ölçmələrin nəticəsini natural ədədlə ifadə etmək həmişə mümkün olmur və istifadə olunan ölçü hissələri də nəzərə alınmalıdır. Tarixən kəsrlər ölçmə prosesində yaranmışdır.Daha dəqiq ölçmələrə ehtiyac ilkin ölçü vahidlərinin 2, 3 və ya daha çox hissəyə bölünməyə başlamasına səbəb oldu. Parçalanma nəticəsində əldə edilən daha kiçik ölçü vahidinə fərdi ad verildi və dəyərlər artıq bu kiçik vahidlə ölçülürdü.Bu zəruri işlə əlaqədar olaraq insanlar ifadələri işlətməyə başladılar: yarım, üçüncü, iki yarım addım. Buradan belə nəticəyə gəlmək olar ki, kəsr ədədlər kəmiyyətlərin ölçülməsi nəticəsində yaranmışdır.Qədim Misirdə memarlıq yüksək inkişaf səviyyəsinə çatmışdır. Möhtəşəm piramidalar və məbədlər tikmək, fiqurların uzunluqlarını, sahələrini və həcmlərini hesablamaq üçün hesabı bilmək lazım idi. Papiruslardakı deşifrə edilmiş məlumatlardan alimlər öyrəndilər ki, misirlilər 4000 il əvvəl onluq say sisteminə malik idilər, tikinti, ticarət və hərbi işlərin ehtiyacları ilə bağlı bir çox problemləri həll edə bildilər. Qədim misirlilər kəsrləri eramızdan əvvəl 2000-ci ildə müxtəlif praktik məqsədlər üçün, məsələn, torpağı ölçmək, ticarətdə malları bölmək və reseptlərdəki inqrediyentlərin miqdarını hesablamaq üçün inkişaf etdirmiş və istifadə etmişlər. Onlar kəsrləri vahid fraksiyalar sistemindən istifadə edərək təmsil edirdilər, bu kəsrlər payı 1 və məxrəcləri 2-yə bərabər idi. Məsələn, 3/4 kəsri təmsil etmək üçün qədim misirlilər 1/2 + 1/4 vahid kəsrlərin cəmindən istifadə edərdilər. Bu sistem onlara vahid kəsrləri toplamaq və çıxmaqla kəsrlərlə hesab əməliyyatlarını, məsələn, toplama və çıxarma aparmağa imkan verirdi.

Kənd təsərrüfatında qədim misirlilər torpağı ölçmək və onu varislər arasında bölmək üçün fraksiyalardan istifadə edirdilər. Məsələn, bir əkinçinin səkkiz bərabər hissəyə bölünmüş bir torpağı olsaydı, səkkiz uşağının hər birinə bir hissəni, yəni 1/8 hissəsini verə bilərdi.Qədim Misirdə bəzi kəsrlərin öz xüsusi adları var idi - məsələn, təcrübədə tez-tez rast gəlinən 1/2, 1/3, 2/3, 1/4, 3/4, 1/6 və 1/8. Bundan əlavə, misirlilər sürəti 1-ə bərabər olan, yəni 1/n tipli sözdə alikvot kəsrləri (latınca *aliquot* - bir neçə) ilə necə işləməyi bilirdilər - buna görə də onları bəzən "Misir" də adlandırırlar; bu fraksiyaların öz yazılışı var idi: Surəti birdən fərqli kəsrləri alikvot kəsrlərin cəmi şəklində yazırdılar. Məsələn: 2/5 = 1/5 + 1/5, 2/7 = 1/4 + 1/28.

$$\begin{aligned}\frac{2}{3} &= \frac{1}{3}+\frac{1}{3}\\ &= \frac{1}{2}+\frac{1}{6}\\ &= \frac{1}{4}+\frac{1}{4}+\frac{1}{6}\\ &= \frac{1}{3}+\frac{1}{6}+\frac{1}{6}\end{aligned}$$

"Kəsr" sözü latınca "*qırılma*" mənasını verən *"fracio"* sözündəndir. O, bütövü daha kiçik hissələrə bölmək fikrini əks etdirir ki, bu da fraksiyanı təmsil edir. Riyazi mənada kəsr bütövün bir hissəsini təmsil edən ədəddir, burada pay hissəni, məxrəc isə tamı təmsil edir. Məsələn, 1/2 tamın yarısını, 3/4 isə tamın dörddə üçünü təmsil edir. Tamın bir hissəsini təsvir etmək üçün "kəsr" sözünün istifadəsi 14-cü əsrdən bəri ingilis dilində qeydə alınmışdır və riyaziyyatda və digər sahələrdə 1-dən kiçik və ya daha çox olan kəmiyyətləri təsvir etmək üçün ümumi istifadədə qalmışdır.Kəsrlər müxtəlif səbəblərə görə vacibdir və bir çox sahələrdə geniş istifadə olunur. Onlar riyaziyyatın əsas hissəsidir və 1-dən kiçik və ya 1-dən çox olan kəmiyyətləri ifadə etmək üçün istifadə olunur. Məsələn, kəsrlər həndəsədə xətlərin və formaların uzunluqlarını və bucaqlarını təyin etmək üçün istifadə olunur. Cəbrdə bunlar mürəkkəb riyazi ifadələri təmsil etmək və sadələşdirmə və tənliklərin həlli kimi əməliyyatları yerinə yetirmək üçün istifadə olunur.

Kəsrlər elmdə, xüsusən də fizika, kimya və biologiyada geniş istifadə olunur. Fizikada sürət, təcil və qüvvə kimi kəmiyyətləri ifadə edirlər. Kimyada onlar birləşmələrdəki elementlərin nisbətlərini təsvir etmək üçün istifadə olunur. Biologiyada isə toxuma nümunəsindəki müxtəlif növ hüceyrələrin nisbətlərini ifadə etmək üçün fraksiyalardan istifadə olunur.Bununla belə, fraksiyalar gündəlik həyatımızda da da tez-tez rast gəlinir. Tərkibləri ölçmək və reseptləri daha dəqiq etmək üçün yemək bişirərkən fraksiyalardan istifadə edirsiniz. Avtomobil sürərkən iki nöqtə arasındakı məsafəni ölçmək üçün millərdən və millərin (və ya kilometrlərin) fraksiyalarından istifadə edirik. Alış-veriş edərkən biz malların dəyərini və alışdan aldığımız dəyişikliyi hesablamaq üçün istifadə etdiyimiz valyutanın fraksiyalarından istifadə edirik.

Kəsrlər insanların çoxunun həyatları boyu rastlaşdıqları və ya qarşılaşacaqları anlayışdır, lakin onlar çox güman ki, haradan başladıqlarını bilmirlər. Beləliklə, sual yaranır: fraksiyalar haradan gəlir?

Fraksiyaların ixtirası qədim sivilizasiyalara gedib çıxır, burada kəmiyyətlərin bölünməsinə ehtiyac ticarət, kənd təsərrüfatı və ölçmə kimi praktik məqsədlər üçün yaranmışdır.Pifaqor və onun ardıcılları musiqi intervallarını təmsil etmək üçün fraksiyalardan istifadə edirdilər. Onlar musiqinin riyazi nisbətlərlə izah oluna biləcəyinə inanırdılar və musiqi miqyasının müxtəlif notları arasındakı əlaqəni ifadə etmək üçün kəsrlərdən istifadə edirdilər. Məsələn, musiqidə mükəmməl beşlik intervalını təmsil etmək üçün 3/2 kəsrindən istifadə etdilər. Yunan riyaziyyatçısı Evklid isə "Elementlər" kitabında kəsrlər haqqında yazmışdır. Kitabda o, kəsrləri toplamaq, çıxmaq, vurmaq və bölmək qaydalarını, həmçinin ekvivalent kəsrlərin tapılması və kəsrlərin ən sadə formasına endirilməsi üsullarını təqdim edib.Qədim romalılar da fraksiyaların inkişafına əhəmiyyətli töhfələr verdilər, çünki onlar gündəlik həyatlarında ticarət və ticarət üçün istifadə etdilər. Onlar fraksiyaları "vulqar" formadan istifadə edərək, yəni bu gün istifadə etdiyimiz forma olan çubuqla ayrılmış say və məxrəclə təmsil edirdilər. Fraksiyalar əsasən Romalılar tərəfindən bazarlarda və ticarət şəraitində istifadə olunurdu. Ticarətdə romalılar malları bölmək və qiymətləri hesablamaq üçün fraksiyalardan istifadə edirdilər. məsələn, əgər tacirdə on iki bərabər hissəyə bölünmüş şərab miqdarı varsa, o, müəyyən bir qiymətə bir hissəsini və ya 1/12 hissəsini sata bilərdi.Bu gün kəsrlər riyaziyyatın vacib bir hissəsi olmağa davam edir və elm və mühəndislikdən maliyyə və tibbə qədər bir çox sahədə istifadə olunur. Kəsrlərin tarixi insanların ixtiraçılıq və yaradıcılığına, ətraf aləmi dərk etmək və təsvir etmək səylərinə sübutdur.

FEİLİN TƏSRİFLƏNMƏYƏN FORMALARININ AZƏRBAYCAN DİLÇİLİYİNDƏ TƏTBİQİ İMKANLARI

Qubadova Ş.Q.
Sumqayıt Dövlət Universiteti
E-mail: qubadovasefeq@gmail.com

Feil-varlıqların hərəkətini bildirən, Azərbaycan dilçiliyində ən geniş tədqiqat obyektinə çevrilən başlıca nitq hissələrindən biridir. Tədqiqat obyektinin genişliyinə görə daim ilkin pillələrdə yer alır. Nə etdi, nə oldu, nə edir, nə olur, nə edəcək, nə olacaq suallarından birinə cavab verən əsas nitq hissəsi olan feil şəxsə və

kəmiyyətə görə deyişib-dəyişməməsinə uyğun olaraq 2 yerə bölünür: 1. Feilin təsriflənən formaları; 2. Feilin təsriflənməyən formaları.Feilin təsriflənən formaları adından da göründüyü kimi feilin şəxsə və kəmiyyətə uyğun olaraq dəyişməsinə və fərqləndirilməsinə deyilir.

Feilin təsriflənməyən formaları isə feilin kəmiyyətlər və şəxslər üzrə dəyişə və müəyyən semantik xüsusiyyətlər üzrə uyğunlaşdıra bilinməməsinə deyilir. Əşyanın daim dinamikada, dövr edən periodda olduğunu bildirən məfhuma hərəkət deyilir. Feillərsə əşyaların daim hərəkətlilik dinamikasını özündə əks etdirir. Əşyanın şəxsə görə dəyişməməsinə uyğun olaraq feilin təsriflənməyən formaları konkret zaman çərçivəsində və konkret məkan daxilində baş vermir. Feili isim yəni məsdər, feili sifət və feili bağlama feilin təsriflənməyən formalarının əsas komponentləridir. Qeyd etdiyimiz kateqoriyalar, başqa nitq hissələrinin xüsusiyyətlərini daşıyan və onlara doğru meyillənən xüsusi semantik birikimlər kimi meydana çıxmışlardır. Belə ki, müəyyən cəhətlərinə görə onlar ikili xüsusiyyətləri ilə yanaşı adlandırılması da ikili xarakter daşıyır.

Mövzunun tədqiqi zamanı, Azərbaycan dili dərslərində feilin təsriflənməyən formaları ilə bağlı tədris olunma prosesi ilə bağlı tədqiqat aparılmış eləcə də dərslik, dərs vəsaitləri, müəllim üçün metodik vəsaitlər və bir sıra elmi-pedoqoji jurnallarda feillə bağlı məsələlərə müraciət edilmişdir.Feilin təsriflənməyən formalarının müasir təlim texnologiyalarının imkanlarından istifadə etməklə, tədrisi imkanlarını muəyyən etməklə, yeni metod və priyomların tətbiq edilməsi feilin təsriflənməyən formalarının tədrisi baxımından olduqca vacib və əhəmiyyətli məsələlərdəndir. Azərbaycan dilinin müasir metodlarla tədrisi prosesinə dair olduqca vacib metodik vəsaitlər olsa da feilin təsriflənməyən formalarının tədrisinə dair ayrıca elmi metodik vəsaitlər yox dərəcəsindədir və hətta yoxdur. Feilin təsriflənməyən formalarından birincisi olan məsdər, isimlər kimi hallanır mənsubiyyətə görə dəyişir, yeri gəldikdə cəmlənə, sintaktik baxımdan ismin cümlədə tutduğu vəzifələri yerinə yetirə bilər. Feili sifət varlıqların əlamətlərini bildirən sifətlər kimi aid olduğu sözün əvvəlində gəlib onu müxtəlif aspektlərdə izah edir. Necə, nə cur, hansı suallarından birinə cavab verir və cümlədə xüsusilə təyin olma funksiyasını daşıyır. Həm zərfin həm də feilin funksiyasını daşıyan feili bağlamalar da zərflər kimi bir qayda olaraq feilə aid olur və cümlədə əksərən zərflik funksiyasını daşıyır və onun işlənmə mövqeyində işlənir. Bütün xüsusiyyətlərinə cümlədə tutduğu mövqeyinə baxmayaraq hal-hazırki mövqeyində nə məsdərlərə isim, nə feili sifətlərə sifət, nə də feili bağlamalara zərf demək qətiyyən olmaz. Çünki feilin təsriflənməyən formaları feilin ən mühüm xüsusiyyətlərini özündə qoruyub saxlamışdır. Yəni feilin təsriflənməyən formaları öz simasında hərəkət anlayışını ifadə edir, inkarda və təsdiqdə işlənir, təsirsiz və ya təsirli olur, hətta ümumilikdə zaman anlayışını ifadə edir. Feili isim, feili sifət və feili bağlama şəkilçilərii növ şəkilçilərindən sonra artırmaq olar. Məsələn dərmək-dərilmək –dərdirmək və.s. Məhz feil əlamətlərinin üstünlük təşkil etdiyi bu formalar,feilin tərkibində öyrənilir. Fərqlilik yaradan bu cəhətlər onları bir- birinə yaxınlaşdırmaq funksiyasını da icra edir.Dilçilik sahəsində məsdər adını daşıyan feili isim, zaman və şəxslə əlaqədar olmayıb xüsusi şəkilçi vasitəsilə yalnız feillərin adlarını göstərə bilər. Hər bir varlığın adı olduğu kimi işin və hərkətin də adı vardır. Azərbaycan dilçiliyində istifadə olunan maq- mək şəkilçisi feillərin adlarını bildirmək üçün başlıca vasitədir.

Feili sifət- həm feilin ,həm də sifətin xüsusiyyətlərini daşıyan feil formasıdır. Feili sifət varlıqların dövr edən periodla bağlı əlamətini bildirir .Feili sifət an, ən, mış ,miş ,muş, muş, ar, ər, acaq, əcək ,malı, məli, ası, əsi, dıq, dik, duq, dük şəkilçiləri vasitəsilə düzəlir.Həm feilin qismən də zərfin də xüsusiyyətlərini daşıyan söz formasına feili bağlama deyilir. Feili bağlama feili sifətə aid olur. Nümunə: Mən Əmini sevmədən onunla yaşadığım zaman riyakar idim, saxta idim.Feili bağlama ib, (-ıb, ub, ub) araq (-ərək) anda (-əndə) diqda (-diktə -duqda – Duktə) dıqca (dikcə duqca dukcə) ınca (-incə -unca – uncə) alı (-əli) madan (-mədən) caq (cək) andan (əndən) və s şəkilçiləri ilə düzəlir.

FEİLİN TƏSRİFLƏNMƏYƏN FORMALARINDA MÜASİR TƏLİM TEXNOLOGİYARI

Qubadova Ş.Q.
Sumqayıt Dövlət Universiteti
E-mail: qubadovasefeq@gmail.com

Ümumdünya təcrübəsinə əsaslanaraq belə bir nəticəni qeyd edə bilərik ki, fəal-interaktiv təlim üsulu dərs prosesinin şagirdlər tərəfindən yüksək səviyyədə mənimsənilməsində, onların intellektual bacarıqlarının fəallaşmasında şagirdlərin təfəkkürünün fəallaşmasında, dərketmə fəaliyyətinin inkişafına təsir göstərən ən güclü vasitədir.Orta təhsil pilləsində fəal-interaktiv təlimin tətbiqi ənənəvi təlim üsulundan fərqli olaraq şagirdlərdə problemə müstəqil yanaşma qabiliyyətini formalaşdırır. Müasir təlim üsullarının ən mühüm məqsədlərindən biri də ondan ibarətdir ki, şagirdlərdə yeni biliklərlə yanaşı yüksək şəkildə milli- mənəvi

keyfiyyətləri formalaşdırsın. Yəni pedoqoji prosesin bütün xüsusiyyətlərini öyrədici, tərbiyəedici və inkişafetdirici funksiyalarını özündə tam anlamıyla əks etdirməlidir. Nəinki müasir təlim prosesində eyni zamanda ənənəvi təlim üsulu ilə keçirilən, tədris edilən Azərbaycan dili dərslərində ən vacib bölmələrdən biri feilin tədris olunmasıdır.Pedoqoji texnologiyalar anlayışının formalaşması yarım əsrə yaxın inkişaf prosesi keçmişdir. Pedaqoji texnologiyaların zaman keçdikcə daha çox təkmilləşməsi və dəyişərək inkişaf etməsi təlim prosesinin daha çox səmərəli şəkildə inkişafına təkan verir. Qeyd etmək lazımdır ki, bir sıra inkişaf etmiş və hal-hazırda inkişaf etməkdə olan ölkələrin universitetlərində pedaqoji texnologiyalar termininə 20-ci əsrin 70-ci illərindən etibarən başlanılmışdır. Bu dövrdə Avropanın əksər ölkələrində,ABŞ-da təhsil insanların tələb və ehtiyaclarını tam olaraq qarşılaya bilmirdi. Kütləvi şəkildə insanların küçələrə axışması və ümumölkə səviyyəli etirazların baş verməsinin də səbəbə məhz bundan ibarət idi. Pedaqoji prosesin yönünü dəyişdirən yeni təlim texnologiyalarının tətbiqi təhsilin qiymətyönümlüdən çixaraq nəticəyönümlü olmasına əldə olunması nəzərdə tutulan nəticələrin əvvəlcədən müəyyənləşdirilməsinə bir sözlə proqramlaşdırılmış təhsilin inkişafına start verdi. Bununla da, Yeni Təhsil Konsepsiyası yaranmış oldu. Yeni təcrübələr yeni imkanların davamlı inkişafına yol açmaqda davam edirdi. Nəticə olaraq qeyd edə bilərik ki, qarşıya qoyulmuş məqsədlərin cəmi yeni pedaqoji texnologiyalar adlanır.

Pedaqoji texnologiya biliklərin tətbiqini və bütövlükdə tədris prosesinin optimallaşdırılmasını özündə cəmləşdirir. Fəal təlim modeli müəyyən komponentləri özündə əks etdirən, Yeni pedoqoji texnologiyalardan struktur elementi kimi istifadə edir.

Müasir dövrdə çap olunmuş yeni pedaqoji ədəbiyyat nümunələrində yeni üsullar subyekt-subyekt münasibətinə görə aşağıdakı qruplara ayrılır: 1. İzahlı-illustrativ təlim texnologiyaları; 2. Şəxsiyyətyönümlü təlim texnologiyaları; 3. İnkişafetdirici təlim texnologiyaları.

İlk qeyd etdiyimiz təlim texnologiyaları ilə keçirilən dərslərdə, bilik hazır şəkildə şagirdlərə ötürülür və şüurlu şəkildə mənimsədilir. Məsələn: Feil əşyanın hal və hərəkətini bildirir. Burada isbata ehtiyac yaranmır.

Bu gün məktəblərimizdə eləcə də hal-hazırda müasir təlim konsepsiyası olan Kurikulumun ayaq açdığı ali təhsil ocaqlarında belə yeni pedaqoji texnologiyalarda istifadə olunan 4 iş formasından istifadə olunur. Bütün siniflə iş, cutlərlə iş, fərdi iş ,qruplarla iş.Müasir dərslərin səmərəli qurulmasının təkan verici qüvvəsi yeni təlim üsullarından kompleks istifadəni təmin edə bilməkdir.BİBÖ-bu üsul tehsil alanlarda deklorativ biliklərlə, mövcud bilikləri müqayisə etmək və yeni kəşflər üsuludur. Şagirdlər burada tədqiqatçılıq edir və yeni kəşf sevinci yaşayırlar. Şagirdlərin maraq və tələbatlarına uyğun olaraq öyrənmək istədikləri yeni bilikləri bu üsulun yardımı nəticəsində əldə edirlər.Eyler-Venn dioqramı. Bu üsul müasir təlimdə ən çox istifadə olunan üsuldur. Şagirdlərdə bilikləri əlaqələndirmə və fərqləndirmə bacarığını təmin edir.Sokrat dialoqu. Bu təlim texnologiyası şagirdlərdə bir-birilə qarşılıqlı sual-cavaba əsaslanaraq təşkil edilir və onlarda əməkdaşlıq bacarıqlarını formalaşdırır. Sokrat dialoqunda əsas məsələ şagirdlərin müzakirəyə cəlb olunmasıdır.

Təhsil insan münasibətlərinə əsaslanır. Şagirdlərdə düzgün münasibətin qurulması,pozitiv düşüncə dərsin keyfiyyətinə təsir göstərir. Bütün bunlar müasir təlim üsullarının əsasında dayanan başlıca problemlərdir. Azərbaycan dilində, eləcə də digər türk kökənli dil qruplarında feilin təsriflənməyən formaları qrammatikanın ən mühüm bəhslərindən hesab olunur. Bu kateqoriyanın tədqiqi feilin düzgün, dəqiq və ətraflı araşdırılmasına təsir göstərir.Feilin təsriflənməyən formalarının səmərli öyrənilməsində və tələbələrə mənimsənilməsində, yeni pedaqoji texnologiyaların tətbiqi dərslərin əyləncəli və inkişafetdirici istiqamətdə keçirilməsində yeni limanlar açır.

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN KÜTLƏ VƏ ONUN ÖLÇÜLMƏSİ İLƏ TANIŞLIĞI

Quluzadə G.M.
Bakı Slavyan Universiteti
E-mail: gunay_quluzade_00@mail.ru

Görmə, hərəkət, toxunma analizatorları kütlənin qavranılmasını həyata keçirir. Praktik fəaliyyətdə uşaqla əşyalar arasında əlaqə qurulur. Erkən yaş dövründən başlayaraq bu hadisə baş verir. İki yaşından uşaqlar kütlə anlayışını qavrayırlar. Lakin bu anlayışın qavranılması zəif və lokal olur. Əşyanın kütləsinə görə "ağırdır", "yüngüldür" kimi fikirlər irəli sürülür. Əşya olmasa uşaq "ağır və yüngül" anlayışlarını fərqləndirməkdə çətinlik çəkir, bəzən də onları fərqləndirə bilmir. Bu yaş dövründə uşaqlar "böyük", yaxud "kiçik" sözlərindən istifadə etməklə əşyaları kütləsinə görə fərqləndirməyə çalışırlar, lakin həmin anlayışların sözlərlə ifadəsində çətinlik çəkirlər. Həmin sözlərin mahiyyətini tam dərk edə və izah edə bilmirlər.

Müqayisə ölçüsü kimi nümunəni kiçik yaşlı uşaqlar qəbul etməkdə çətinlik çəkirlər. Əşyaları bir yerdən başqa yerə qoyarkən onlar arasındakı ölçü fərqini anlayır, lakin nə üçün bu fərqin olduğunu izah edə bilmirlər.

Müqayisə ölçüsü kimi nümunə orta yaş qruplarından başlayaraq qəbul edilir. Bu yaş qrupuna daxil olan uşaqlardan bəziləri əşyaları qaldırarkən onlar arasındakı kütlə fərqini fərqləndirir, əşyaları əlamətlərinə görə düzür və onlar içərisində ən yüngül, yaxud ən ağırını müəyyən edə bilirlər. Əşyaların ölçülərinə görə artan sıra ilə, yaxud azalan sıra ilə düzülməsi böyük yaş qrupundan etibarən başlayır. Əşyaları tərəzidə çəkməklə onların kütlələrinin ölçülməsini və kütlələr arasındakı fərqin müəyyən olunmasını bu yaş qrupundakı uşaqlar həyata keçirə bilir. Eyni zamanda böyük yaş qrupuna aid uşaqlar bilirlər ki, əşyanı tərəziyə qoyarkən onun kütləsini tərəzinin əqrəbinə əsasən müəyyən edirlər. Kütlənin müəyyənləşdirilməsi zamanı müəyyən mərhələlərə diqqət yetirmək lazımdır.

İlkin mərhələ - burada uşaqlarda əşyaları kütləsinə görə fərqləndirmək və həmin fərqləri "ağırdır", "yüngüldür" sözləri ilə ifadə etmək bacarığı formalaşdırılır.

İkinci mərhələ - Bu mərhələdə tərbiyəçi-müəllim çalışmalıdır ki, əşyaları artan, yaxud azalan sıra ilə düzmə, kütlələrə görə sıranın qurulması anlayışlarını uşaqlara mənimsətsin.

Üçüncü mərhələ - Müxtəlif təlim üsullarından istifadə etməklə tərbiyəçi-müəllim qəbul edilmiş ölçü və kütlə vahidləri ilə uşaqları tanış etməlidir.

Qeyd edilən mərhələlərin orta yaş qrupu, böyük yaş qrupu və məktəbəqədər qruplarda tətbiqi daha səmərəli nəticələr əldə etməyə imkan yaradır. Kütlə və onun ölçülməsini məktəbəqədər yaşlı uşaqlara tədris edərkən müxtəlif oyunlardan, həyati situasiyalardan istifadə və öyrədilən materialın praktikada tətbiqi prosesi ilə daha səmərəli nəticə əldə etmək olar. Kütlə tədris edilərkən ilkin mərhələdə uşaqlara müxtəlif əşyalar verib onun ağır, yoxsa yüngül olmasını müəyyənləşdirməyi tapşırmaq lazımdır. Kiçik yaş qrupunda bu prosesdə 2 əşyadan istifadə edildiyi halda, orta və böyük yaş qruplarında əşyaların sayı artırılır və ən ağırdır, ən yüngüldür anlayışları öyrədilir.

Məktəbəqədər yaşlı uşaqlarda kütlə və onun ölçülməsi sahəsində formalaşan bacarıqları aşağıdakı şəkildə göstərə bilərik:

- Ölçülərin müxtəlif parametrlərinin tanınması, adlandırılması və göstərilməsi (4 yaşadək)
- Əşyaların müxtəlif parametrlərə görə müqayisəsi
- Əşyanı ölçüsünə və ağırlığına görə nizamla sıraya düzmək bacarığının formalaşdırılması (2 -6 yaş).
- Əşyaları ölçülərinə görə ölçü vahidi kimi götürülmüş şərti ölçünün köməyi ilə müqayisə etmək və ölçmək bacarıqlarının formalaşdırılması (5-6 yaş)
- Gözəyarı ölçmənin inkişaf etdirilməsi (4 -6 yaş)
- Üç ölçüsünə görə əşyaların müqayisəsi (5 -6 yaş)
- Əşyanın formasının dəyişilməsi zamanı onun kütləsinin (dəyişməməsi) saxlanılması (5-6 yaş).

AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNƏ YENİ STANDARTLARIN TƏTBİQİ

Rəsulzadə N.S.
Bakı Slavyan Universiteti
E-mail: nigarresulzade@icloud.com

Bu gün Azərbaycan dili müstəqil dövlətin ana dili kimi respublikamızın ümumtəhsil məktəblərində tədris olunur. Müasir məktəbdə ana dilinə nəzəri-praktik əhəmiyyətə malik olan, şagirdləri dil haqqında biliklərlə məlumatlandıran, onların dil və nitq bacarıqlarını formalaşdıran və inkişaf etdirən bir fənn kimi yanaşılır. Azərbaycan dili təliminin müvəffəqiyyəti uyğun bilik və təcrübəyə əsaslanaraq onların şagirdlərə çatdırılması ilə müəyyən edilir. Bunun üçün də həmin biliyə, təcrübə və metodlara uyğun müvafiq vəzifələrin həyata keçirilməsi əsas tələb kimi qarşıda durur. Müstəqillik dövründən etibarən əldə edilmiş təcrübəyə əsasən onların aşağıdakı tərkibdə olması əhəmiyyətli hesab olunur: şagirdlərin elmi dünyagörüşünün formalaşdırılması; şagirdlərin ana dili haqqında biliklərin əsasları ilə məlumatlandırılması; dildə və nitqdə gözəllik ilə bağlı təsəvvürlərin yaradılması; dil və estetik idealın yaranması, inkişafı; orfoqrafik və durğu işarələri ilə bağlı bacarıqların, vərdişlərin formalaşdırılması; Azərbaycan ədəbi dilinin normalarının təkmilləşdirilməsi və şagirdlərin lüğət ehtiyatının, nitqinin qrammatik quruluşunun inkişaf etdirilməsi; şagirdlərə öz fikirlərini yazılı və şifahi şəkildə ifadə etmək bacarığının aşılanması.Kurikulum islahatı çərçivəsində Azərbaycan dilinin tədrisi yeni təhsil standartları ilə-yeni məzmunla tətbiq edilməyə başlandı. Bunun üçün yeni məzmunlu dərsliklərin hazırlanmasına başlanması, müəllimlər

üçün müvafiq metodik vəsaitlərin tərtib edilməsi, yeni məzmuna uyğun iş dəftərlərinin tərtib edilməsi prosesi geniş vüsət aldı. Ana dili kurikulumu bu fənn üzrə məqsəd və vəzifələri müəyyənləşdirən və ona doğru istiqamətlənmiş standartların reallaşması üçün zəruri fəaliyyətləri əhatə edən konseptual sənəddir. Bu sənəd hazırlanarkən cəmiyyətimizin ehtiyac və tələbləri, şagirdlərin imkanları, meyil və maraqları nəzərə alınmışdır. Burada fənn üzrə ümumi təlim nəticələri, məzmun standartları, müəllim və şagird fəaliyyətinə aid texnologiyalar və qiymətləndirmə məsələləri əhatə olunmuşdur. Bu isə dərslik, eyni zamanda dərs vəsaitləri müəlliflərini, müəllimləri, qiymətləndirmə mütəxəssislərini və ana dili təlimi ilə məşğul olan digər təhsil işçilərini istiqamətləndirməyə yönəlib. Azərbaycan dili təliminin məzmunu nəticəyönümlü standartlar əsasında hazırlanmışdır. Nəticələrin əvvəlcədən müəyyən olunması onlara doğru yönəlmişfəaliyyətlərin inkişafını izləmək və istiqamətləndirmək üçün ardıcıl qiymətləndirmə aparılmasına imkan yaradır.Məzmun standartları hazırlanarkən şagirdlərin idraki, informativ- kommunikativ və qeyri-iradi fəaliyyətlərinin əhatə olunması, düşünmə, emosional və psixomotor bacarıqlarının inkişaf etdirilməsi nəzərdə tutulmuşdur.

Bütün standartlar fəaliy- yətlərə aid bacarıqlar şəklində ifadə olunmuş şagirdlərin bilik və bacarıqları ilə bağlı nailiyyətlərini müəyyənləşdirmək diqqət mərkəzində saxlanılmışdır.

MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCAN DİLİNİN İNKİŞAFI

Rəsulzadə N.S.
Bakı Slavyan Universiteti
E-mail: nigarresulzade@icloud.com

Dil hər bir xalqın varlığının əsas təminatçısı, milli-mənəvi dəyəridir. Ana dilimiz xalqın keçdiyi bütün tarixi inkişaf yollarında onhnla bir yerdə olmuş, onun taleyini yaşamışdır. Əsrlərdir ki, xalqımızın əbədi-yaşarlığına xidmət edən dilimizmin illər boyu apardığı mübarizələrdən üzüağ çıxaraq müasir dövrümüzə qədər gəlib çatçış ən dəyərli xəzinəmizdir. Müstəqillik illərində Azərbaycan dilinin statusu yüksəlir, Azərbaycan dilinə qayğı ön planda olur. Milli təhsil sisteminin qurulması ilk növbədə dövlətin təməlini təşkil edən dildən asılıdır. Bu baxımdan hələ 1990-cı illərdən başlayaraq dil sahəsində müxtəlif sənədlər qəbul edilmişdir ki, həmin sənədlər milli təhsil sisteminin qurulması üçün baza rolunu oynamışdır. Həmin sənədlərdə qarşıya qoyulmuş tələblər bu gün Azərbaycan dili dərslərində yerinə yetirilir.

Buna uyğun olaraq Azərbaycan Respublikasının Konstitusiyası təsdiq olunana qədər, ilk öncə bir sıra qanun və sərəncamlat qəbul edilib. Müstəqil Azərbaycan Respublikası 9 dekabr 1991-ci ildə " Yeni Azərbaycan əlifbası layihəsinin tətbiqi" haqqında Azərbaycan Respublikası Ali Sovetinin Qərarı verildi. Milli Şura " Latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi qaydası barədə qərar qəbul etdi.Bu qanunun davamı olaraq mühüm tarixi sənədlərdən biri və ən başlıcası 1992-ci il 22 dekabrda qəbul edilmiş "Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikasının Qanunu" dur. Həmin qanun 19 maddədən ibarət olub, dövlət dili haqqında bütün vacib məlumatları özündə əks etdirmişdir. Həmin qanunun 5-ci maddəsində deyilir:

Maddə 5. Dövlət dilinin təhsil sahəsində işlənməsi.

5.1. Azərbaycan Respublikasında təhsil dövlət dilində aparılır.

5.2. Azərbaycan Respublikasında vaşqa dillərdə təhsil müəssisələrinin fəaliyyəti qanunvericilikdə müəyyən edilmiş qaydda həyata keçirilir. Belə müəssisələrdə dövlət dilinin tədrisi məcburidir.

5.3. Azərbaycan Respublikasında ali və orta peşə ixtisaslı təhsil müəssisələrinə qəbul zamanı Azərbaycan dili fənnindən imtahan verilməlidir.Müstəqilliyimizi bərpa etmək çətin olduğu kimi, həmin dövrdə bütövlükdə milli təhsil sistemini yaratmaq daha çətin və məsuliyyətli bir vəzifə idi. Həmin dövrdə ən əsas problemlərdən biri də milli dərsliklərin, milli proqramların, müəllim kadrlarının çatızmazlığı idi. Azərbaycan dilinin tədrisi ilə bağlı təkmil proqramların hazırlanmasına XX əsrin 20-ci illərindən etibarən başlanmışdır.Həmin dövrdə yeni proqramların tərtib edilməsində əsas üstünlük kimi ilk növbədə Azərbaycan dili fənninin əsas təlim fənləri arasında yer tutması, orfoqrafik, qrammatika qaydalarına əsaslanmaqla şifahi və yazılı nitqin inkişaf etdirilməsi, əvvəlki dövrlərdən fərqli olaraq kitab deyil, canlı danışıq dilinə üstünlük verilməsi,yazı qaydaları bölməsini qrammatikadan ayırmaq məsələləri xüsusi yer tuturdu. Bundan sonra da hazırlanan proqramlar həmin məqsədlərin daha da təkmilləşdirilməsinə xidmət etsə də, tam nəticəyə nail olmaq mümkün olmurdu. Bunun da əsas səbəbi siyasi məsələlərdən yaranan psixoloji mühit, təlim-tərbiyə müəssisələrinin sayca azlığı, həmin müəssisələri təmin edə biləcək mükəmməl dərsliklərin, proqram və dərs vəsaitlərinin yetəri qədər olmaması idi. Eyni zamanda proqramlarda dəyişikliklər tez-tez baş verirdi ki,

bu da təhsil sahəsində nəzərdə tutulmuş keyfiyyətin əldə edilməsində müəyyən çətinliklər yaradırdı. Bütün bu çətinliklərə qarşı yeni təkmilləşdirilmiş məzmuna məzmuna malik proqramların hazırlanması müstəqillik dövründə həyata keçirilmiş islahatlar içərisində idi.

XARİCİ DİLİN TƏDRİSİ ZAMANI İSTİFADƏ EDİLƏN QİYMƏTLƏNDİRMƏ NÖVLƏRİ

Rzayeva A.M.
Bakı Slavyan Universiteti
E-mail: ayshanrza255@gmail.com

Müasir dövrdə qiymətləndirmə prosesi təlim-tədris sistemində böyük rol oynayır və təhsil sisteminin ayrılmaz hissəsi qəbul edilir.Təlim zamanı tələbələrin qiymətləndirilməsinin əsas məqsədi onların bilik və bacarıqlarını müəyyənləşdirmək və uğurlu nəticə əldə etmək üçün müvafiq strategiyalar həyata keçirməkdir. Bu strategiyalar və ya üsullar vasitəsilə öyrənənlərin təhsildə irəliləyişlərini və ya çatışmazlıqlarını aydın etmək və onlara uyğun müvafiq tədbir görmək üçün plan tərtib etmək lazımdır.Qiymətləndirmə prosesi növündən asılı olmayaraq həm müəllim, həm də tələbənin düzgün istiqamət seçməsinə imkan yaradır. Qiymətləndirmənin əsas məqsədi uğurlu təlim metodu seçərək öyrənənləri verilmiş standartlara uyğun təlimə yönləndirməkdir. Müair dövrün tələbatlarına uyğun olaraq təhsilverən daim yenilikçi olmalı və təlim prosesini inkişaf etdirən strategiyalar həyata keçirməyə çalışmalıdır.Xarici dilin/ingilis dilinin tədrisi zamanı müəllimlərin istifadə etdiyi bir sıra qiymətləndirmə metodları vardır. Bu metodlar ilk öncə öyrənənin dil səviyyəsi və yaş aralığına uyğun seçilməlidir. Geniş istifadə edilən qiymətləndirmə metodlarına diaqnostik,formativ,summativ qiymətləndirmə və s. növlər daxildir. Hər bir qiymətləndirmə növü müəyyən edilmiş konteksə uyğun olaraq seçilməli və tələbənin ehtiyaclarını qarşılamalıdır. Düzgün qiymətləndirmə tətbiq edilən zaman tələbənin təlim prosesinə maraq və istəyi artır,motivasiyası yüksəlir. Müxtəlif növ qiymətləndirmələr tələbələr haqqında fərqli və ətraflı məlumatların əldə edilməsinə imkan yaradır.

Təlim-tədris prosesində diaqnostik qiymətləndirmə etdikdə siz tələbə biliklərini başa düşmək və bütün öyrənənləri cəlb etmək üçün lazım olan məlumatları əldə edəcəksiniz və tələbənin xarici dil biliyinin hansı səviyyədə olduğunu öyrənəcəksiz. Diaqnostik qiymətləndirməyə qısa viktorinalar,tələbədaxili müzakirələr və ya müsahibələr daxildir. Formativ qiymətləndirmələr müəllimlərə tədris zamanı təhsilalanların öyrənmə prosesini izləməsinə kömək edir və onlara tədris strategiyalarını müvafiq şəkildə tənzimləmək üçün məlumat verir. Formativ qiymətləndirmələr real vaxt rejimində tələbə biliyinin necə artdığını və dəyişdiyini izləməyə kömək edir. Formativ qiymətləndirmələrə portfellər, qrup layihələri, sinif müzakirələri,qısa, müntəzəm viktorinalar və s. üsullar daxildir. Təlim-tədris zamanı formativ qiymətləndirmələr apararkən, onları qısa, asanlıqla qiymətləndirilə bilən və ardıcıl aparmaq daha məqsədə uyğundr. Formativ qiymətləndirmə sayəsində tədrsi zamanı hər bir öyrənən auditoriyada bir-birininin yanlışları və ya irəliləmələrini şəffaf şəkildə müşahidə edə bilir. Summativ qiymətləndirmələr təlim-tədris prosesində öyrənənlərin bilik və bacarıqlarını yekun formada ölçən rəsmi qiymətləndirmə metodur. Standartlaşdırılmış testlər summativ qiymətləndirmənin bir növüdür və müəllim və ya rəhbər heyyətə yekun məlumat verir. Summativ qiymətləndirmə zamanı tapşırıqları maraqlı etmək üçün onları real həyata uyğunlaşdırın, son testinizi dərsi keçməzdən əvvəl yox sonda verin, öyrənənlərin onlardan nə gözlədiyinizi anlması üçün qısa izahatlar verin, suallar aydın və təlimatları izləmək isə asan olsun. Nəticədə, qiymətləndirmənin yeganə məqsədi tələbələrin biliklərinin qiymətləndirilməsi və ya bilmədiklərinin ortaya çıxarılması deyil, onların nailliyyətlərini və inkişafını üzə çıxarmaqdır. Şübhəsiz ki,təhsil alanın inkişafının təmin olunduğu təhsil sistemi daim qarşıya qoyduğu hədəflərə uğurlara çatacaqdır.

AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ ÇƏTİN SÖZLƏR ÜZƏRİNDƏ İŞİN XÜSUSİYYƏTLƏRİ

Sevdimalı N.R.
Sumqayıt Dövlət Universiteti
E-mail: nigarsevdimali93@gmail.com

Müasir dövrdə ana dilinin öyrənilməsi prosesinə yanaşmada yeni detalların ortaya çıxması onun əhəmiyyətini daha da artırmış, təhsilin hər bir pilləsində bu prosesi ön plana çıxarmışdır. Şagirdlərin kompleks

nitq bacarıqlarının yaradılması və inkişafı Azərbaycan dilinin öyrənilməsi prosesində həll edilməli olan mühüm vəzifələrdən biridir. Cəmiyyətə faydalı şəxsiyyətin formalaşmasının, insanın mədəni yetkinliyinin meyarlarından biri də onun nitq mədəniyyətinə meylidir. Bu, ümumtəhsil məktəbinin qarşısında duran ən mühüm ümumi pedaqoji vəzifələrdən biridir.Azərbaycan dili dərslərində nitqin inkişafı ilə bağlı ümumtəhsil məktəblərində də sistemli iş aparılır. Məlumdur ki, nitqin mənimsənilməsi üçün ən mühüm şərtlərdən biri lüğətin yaradılmasıdır. B.V.Belyaevə görə "... lüğət olmadan, hətta kiçik olsa da, dili mənimsəmək mümkün deyil". Ümumiyyətlə, qrammatika olmadan fikirləri ifadə etmək çox çətindir, lüğətsiz isə heç mümkün deyil.

Müəllimin lüğət üzərində aşağıdakı istiqamətlərdə işləməsi məsləhətdir: 1. Söz ehtiyatınızı genişləndirmək üzərində işləyin; 2. Söz ehtiyatını təkmilləşdirmək üzərində işləyin; 3. Lüğətin aktivləşdirilməsi üzərində işləmək; 4. Lüğətin təmizlənməsi üzərində işləmək.

Uşaqların lüğətini tanış olmayan sözlərlə zənginləşdirmək üçün ən uyğun pedaqoji vəziyyətlər bunlardır: ətraf mühitin fərqləndirici xüsusiyyətləri; faktların və hadisələrin müəyyən edilməsi; təbiət hadisələri, təbiət obyektləri ilə tanışlıq; müşahidə olunan obyekt və hadisələr haqqında həmyaşıdları ilə dialoqa girmək; ictimai həyatda baş verən hadisələrdən xəbərdar olmaq; insanların əməyi haqqında məlumatların mənimsənilməsi, dövlət müəssisələrinin, orada çalışan mütəxəssislərin adlarının öyrənilməsi.

Strategiya aşağıdakı kimi sistemləşdirilə bilər: mətnlərdə tanış olmayan söz və anlayışların mənası üzərində işləmək; sözlərin əmələ gəlməsi (təşəkkül tarixi) üzərində işləmək; orfoqrafiya lüğəti ilə işləmək; izahlı lüğətlə işləmək; sinonimlər və antonimlər lüğəti ilə işləmək; kiçik yaşlı şagirdlər üçün istinad ədəbiyyatı ilə tanışlıq və işləmək.Şagirdlər üçün tanış olmayan ifadə "çətin söz", onun hərtərəfli dərk edilməsi prosesi isə məzmun əhatəsi baxımından lüğətlə genişmiqyaslı işdir. Bu termin nisbi olsa da, geniş linqvodidaktik və psixoloji məzmuna malikdir: linqvistik baxımdan orfoqrafiya, orfoepik, semantik xüsusiyyətləri özündə birləşdirir; didaktik tərəfdən isə şagirddən təhsil, tərbiyə, inkişaf funksiyalarına malik olmağı tələb edir; Psixoloji baxımdan bu proses birbaşa uşağın psixikası ilə bağlı qiymətləndirilir. Müasir dövrdə psixoloqlar "söz ehtiyatının zənginləşdirilməsi" anlayışından istifadə edərkən, tanış olmayan və tanış olmayan sözlər hesabına şagirdin söz ehtiyatının artırılmasını nəzərdə tuturlar. Həmçinin, beyin fəaliyyətini artırmaq üçün başqa bir dildə olan sözləri öyrənmək zəruri hesab olunur. Balanslaşdırma prosesindəki boşluqlar kiçik bir şagirdin (uşağın) psixikasına mənfi təsir göstərir, aqressivliyə, qavrayışın ləngiməsinə, təfəkkürün inkişafında geriləmə və oxşar xarakterli digər problemlərə səbəb olur. Belə halların qarşısını almaq üçün hər üç sahədə ibtidai sinif müəllimlərinin işini daim nəzarətdə saxlamaq, şagirdə hansı növ yardıma ehtiyacı olduğunu müəyyən etməyi bacarmaq lazımdır. Məktəb praktikasında tanış olmayan sözləri belə qruplaşdırmaq olar: neologizmlər, dialektizmlər, poetizmlər, alınma sözlər, işlənməmiş sözlər, az işlənən sözlər, yazılışı tələffüzdən fərqli olan sözlər, frazeoloji ifadələr, arxaizmlər, mənası bilinməyən sözlər, onomastik vahidlər, antroponimlər. və başqaları. Bəzən müəllimlər bəzi ifadələr, sözlərin mənası, yazılış və tələffüzü və digər spesifik xüsusiyyətlər haqqında məlumat verə bilər, lakin şagirdin zehnini çox yükləyən variantlardan istifadə məhdudlaşdırılmalıdır. Çətin sözlərin öyrədilməsi zamanı hərtərəfli işə ehtiyac qeyd olunan sahələrin sıx əlaqəsindən irəli gəlir. Tələffüzdə (eləcə də orfoqrafiyada) pozuntular nitqə ümumi çatışmazlıqlar gətirir, orijinal məzmun itirilir və ya deyilənlər yanlış qavranılır, təsir gücü azalır. Səhv tələffüz orfoqrafiyaya mənfi təsir göstərir. Çətin sözləri yazarkən yazıda tez-tez orfoqrafik xətalara rast gəlmək olar ki, bu da səhv tələffüzdən qaynaqlanır. Yazıda bu qüsurları aradan qaldırmaq üçün ilk növbədə bu sözlərin düzgün tələffüzünə nail olmaq, bütöv şüurun təmin edilməsi və orfoqrafik baxımdan düzgün təqdimatı təmin etmək lazımdır. Diqqət yetirilməli olan ən mühüm məqamlardan biri də çətin sözlərin öyrədilməsində müəllimlə valideynin qarşılıqlı əlaqəsidir ki, bu da müxtəlif formalarda həyata keçirilə bilər. Belə qarşılıqlı əlaqənin əsas məqsədi kiçik yaşlı şagirdlər tərəfindən çətin sözlərin inkişafı, onlara nitq bacarıqlarının aşılanmasıdır.

"MƏTBUAT HAQQINDA NİZAMNAMƏ"NİN QƏBULU

Şeydayeva Z.R.
Bakı Slavyan Universiteti
E-mail: zylfiarovsen@gmail.com

Mətbuatın inkişafı, hüquqi bazaların yaranıb qorunması naminə uğurlu addımlar atan Azərbaycan Xalq Cümhuriyyəti 1919-cu il 30 oktyabr tarixində "Mətbuat haqqında nizamnamə"ni qəbul edərək Azərbaycan mətbuatının ilk hüquqi əsaslarını yaratmağa da nail olmuşdur. Birinci hissədə 20 bənd, ikinci hissədə isə 3 bəndi olan nizamnamə mətbəə işini tənzimləyən, mətbuatın çoxşaxəli inkişafını təmin edən ilk qanunvericilik

aktı olaraq mədəni tariximizdə önəmli yer tutmuşdur. Mətbuat tariximizin bu sənədi heç şübhəsiz ki, Azərbaycanda olan söz və mətbuat azadlığını təbliğ etməklə bərabər dövlətin əsas proioriteti olaraq qiymətləndirilən fikir plüarizminin də varlığını və ümdəliyini bildirmişdir."Azərbaycan"ın redaktoru Şəfi bəy Rüstəmbəyli parlamentin 1919-cu il oktyabrın 23-də baş tutan iclasında qanun lahiyəsini iclasın üzvlərinə təqdim etmişdir. Sosialistlər franksiyasının millət vəkilləri, hakimiyyətə müxalif kimi çıxış edən "Hümmət"çilər lauihəni müzakirə edərək öz fikirlərini bildirmişlər. Nəsib bəy Yusifbəyli, M.Ə.Rəsulzadə, İbrahim Əbilov, Əhməd Pepinov və başqalarının iştirak etdiyi iclasa Həsən bəy Ağayev sədrlik etmişdir. Adı çəkilən şəxsiyyətlər irad və təkliflərini səsləndirərək öz mövqelərini bildirmişlər. Milli mətbu orqanları jurnalistikamızın təcəssümü olmaqla dövrün aktual problemlərini işıqlandırmaqla həllinə yönəlmiş işlər görürdü. Belə ki Azərbaycan müstəqilliyini qorumaq, dili, milləti, vətəni uca tutmaq, ölkənin müxtəlif sahələrini inkişaf etdirməklə bərabər müharibənin, xüsusən də ermənilərin törətdikləri vandalizmi dünyaya çatdırmaq kimi bir çox məsuliyyətli və ağır vəzifələr mətbuat orqanlarının əsasını təşkil edirdi.

"Azərbaycan Cümhuriyyəti hökümətinin əxbarı"nın 1919-cu ili 27 noyabr və 27 dekabr saylarında ilk dərəfə dərc olunmuş "Mətbuat haqqında nizamnamə" ilk dəfə olaraq alim, professor Şirməmməd Hüseynov tərəfindən ərəb əlifbasından latın əlifasına tərcümə edilərək nəşr olunmuşdur.

İSMAYIL ŞIXLI NƏSRİ VƏ MÜASİR TƏDRİS

Süleymanova Q.H.
Bakı Slavyan Universiteti
E-mail: qonchasuleymanova@gmail.com

Azərbaycan ədəbiyyatında nasir,publisist,pedaqoq,yazıçı,ssenarist kimi iz qoyan İsmayıl Qəhrəman oğlu Şıxlı 22 mart 1919-cu ildə Gəncə quberniyasında müəllim ailəsində dünyaya göz açmışdır. İsmayıl Şıxlı görkəmli nasir olmasına baxmayaraq ədəbiyyata gəlişi şeirlə olub. Onun ilk mətbuat əsəri- "Quşlar" şeiri 1938-ci ildə "Ədəbiyyat" qəzetində dərc olunmuşdur. O, Böyük Vətən müharibəsinin də fəal iştirakçısı olmuşdur. Müxtəlif orden və medallarla təltif edilmişdir. Müharibə illərində kommunist partiyasının sıralarına daxil olmuşdur. Müharibədən sonra ali təhsilini başa vurmuş, aspiranturada oxumuş, "Cəbhə gündəliyi" sənədli əsərini yazmışdır. Yazıçının əsərləri keçmiş SSRİ və digər müxtəlif xalqların dillərinə tərcümə edilmişdir.

İsmayıl Şıxlı yazıçı kimi özünü 50-ci illərin əvvəllərində yazdığı "Ayrılan yollar" romanında təsdiq etmişdir. Yazıçının "Dəli Kür" romanı ədəbi tənqid tərəfindən kifayət qədər araşdırılmışdır və tədris proqramına salınmışdır. Orta məktəb dərsliyinə nəzər etdikdə görürük ki, yuxarı siniflərdə, daha dəqiq vurğulasaq, 11-ci sinif ədəbiyyat dərsliyində İsmayıl Şıxlının "Dəli Kür" romanına yer verilmişdir. Qeyd olunmuş ədəbi nümunə 11-ci sinif şagirdlərini yaş xüsusiyyətinə uyğun gəlir. "Dəli Kür" romanı tam şəkildə deyil,ixtisar olunmuş formada şagirdlərə təqdim olunur. Lakin İsmayıl Şıxlının son əsəri olan "Ölən dünyam" romanı kifayət qədər, lazımınca tədqiq olunmamışdır. Xüsusilə də "Ölən dünyam" romanının tədqiqi və müasir tədrislə əlaqələndirilməsi mühüm əhəmiyyət kəsb edir. Çünki "Ölən dünyam" romanında qaldırılan problemlər bu gün də aktuallığını qoruyub saxlayır. Düşünürük ki, yazıçının bu son romanının məktəb proqramına daxil edilməsi şagirdlərin İsmayıl Şıxlı yaradıcılığına daha dərindən bələd olmasına şərait yaradacaqdır.

İsmayıl Şıxlı "Ölən dünyam" romanında Azərbaycan tarixi və ədəbiyyatı üçün mürəkkəb,ziddiyətli məqamlarla zəngin olan bir dövrü - XX əsrin 20-30-cu illərini təsvir etməyə, araşdırmağa müvəffəq olmuşdur. İsmayıl Şıxlı "Ayrılan yollar" və "Dəli Kür" romanlarında dövrün,mühütin ictimai quruluşun, ideologiyanın imkan verdiyi çərçivədə həqiqəti söyləmişdir. Ancaq "Ölən dünyam" romanı Müstəqillik dövründə - 90 - cı illərin əvvəllərində yazılmışdır. Məhz "Ölən dünyam" romanında yazıçı dövr, hadisələr, insanlar haqqında tam həqiqəti söyləməyə müvəffəq olmuşdur. Bu isə az-az sənətkarlara müyəssər olur. Əlbəttə, bir çox müəlliflərdən fərqli olaraq İsmayıl Şıxlı keçmişi, ilk növbədə isə yaşadığı sovet dövrünü inkar etmək, baltalamaq yolunu tutmamışdır. Sonda vurğulanmalıdır ki, böyük nasir İsmayıl Şıxlının sovet dövründəki və sovet dövründən sonrakı yaradıcılığı, hər iki tarixi şəraitdə qələmə aldığı əsərləri Azərbaycan ədəbiyyatı üçün xüsusi yerə və mövqeyə malikdir.

Yuxarıda göstərilən faktlar orta məktəb şagirdləri və ali məktəb tələbələri üçün xüsusi əhəmiyyət kəsb edir. Onların Azərbaycan tarixi, ədəbiyyatı haqqında həqiqəti bilmələri çox vacibdir. Həqiqət isə İsmayıl Şıxlı kimi böyük sənətkarların əsərlərindədir.

FƏAL İNTERAKTİV TƏLİMİN PLANLAŞDIRILMASININ ƏSAS XÜSUSİYYƏTLƏRİ

Sultanlı Ş.A.
Bakı Slavyan Universiteti
E-mail: sultanlishabnam548@gmail.com

Planlaşdırma həm geniş, həm də dar mənada başa düşülür. Dar mənada planlaşdırma dedikdə müəllimin dərsi necə planlaşdırılması nəzərdə tutulur. Geniş mənada planlaşdırma isə hər bir dövlətin inkişaf mərhələlərinin əsasını təşkil edir. Milli maraqlar və dövlət maraqları nəzərdə saxlamaqla planlaşdırmalar müxtəlif cür olur: strateji (uzunmüddətli), taktiki (nisbətən yaxın) və operativ (illik, rüblük və s.). Təhsilin inkişaf etməsi də qeyd etdiyimiz strateji planlaşdırmanın ən əsas tərkib hissəsidir. Həmçinin qeyd edək ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin imzaladığı Sərəncam ilə 2013-cü il oktyabrın 24-də təsdiq edilmişdir. Həmçinin bu sahədə geniş tədbirlər nəzərdə tutulmuş və həyata keçirilmişdir."Strategiya"nın əsas istiqamətlərinə sərişt əyə əsaslanan şəxsiyyətyönümlü təhsil məzmununun yaradılması, təhsil sahəsində insan resurslarının müasirləşdirilməsi, təhsildə nəticələrə görə cavabdehlik daşıma, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılması, müasir tələblərə uyğun və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun qurulması və iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartları ilə eyni səviyyəyə uyğun modelin formalaşdırılması aid edilir.

Planlaşdırmanın birinci mərhələsi olan tematik planlar proqram və dərsliklərdə yer alan mövzular əsasında tərtib olunur. Bu cür tematik planlar iki cür – yarımillik və illik tərtib edilə bilər. Prof. Ə.Əfəndizadə tematik planları araşdırarkən belə nəticəyə gəlmişdir: *"Tematik plan proqramın, bir növ əməli məqsədlərə uyğunlaşdırılmış daha dəqiq "variantı", "sinonimidir". Elə buna görədir ki, müəllimlərin əksəriyyəti tematik planı çox zaman "proqram" kimi başa düşürlər. Bu eyniləşdirmə səhv də olsa, müəyyən obyektiv səbəblə bağlıdır".*

Təqvim-tematik plan və ya rüblük planların tərtib olunması planlaşdırmanın II mərhələsinə daxildir. Bu plan ondan ötrü təqvim-tematik plan adlandırılır ki, bu planda həm keçiləcək dərslərin mövzusu və saatlarının miqdarı, həm də bu saatlardan istifadə olunacaq günlərin tarixləri yer alır. Bu planlar məktəb direktorları tərəfindən və ya tədris işləri üzrə direktor müavini tərəfindən rübün və yarımilin əvvəlində təsdiq edilir. Hal-hazırda ümumtəhsil məktəblərində təqvim-tematik planların ən sadə formalarından istifadə edilir.

Gündəlik plan və ya dərs konspektinin tərtib edilməsi isə planlaşdırmanın III mərhələsinə aiddir. Bu plan təqvim-tematik planın əsasında tərtib olunur və orada qeyd olunmuş mövzular bir-birilə uyğunluq təşkil etməlidir. Ə.Əfəndizadə gündəlik planı izah edərək belə sadə, yığcam və konkretləşdirmişdir: *"Dərs planı ən konkret, ən operativ və imkan daxilində ən qısa plandır. Belə qısa planlar düşünülmüş şəkildə elə tərtib olunmalıdır ki, onların hər birinin arxasında 45 dəqiqəlik dərs canlansın".*

Fənn kurikulumu əsasında tərtib edilmiş təlimin planlaşdırılmasının iki növü vardır: illik (perspektiv) və gündəlik dərs planı. İllik (perspektiv) planlaşdırma hər bir sinif üçün mövcud olan dərsliklərə əsaslanmaqla qurulur. Məsələn, Azərbaycan dili fənni V sinifdə həftə ərzində 5 saat olmaqla, ildə 32 həftə, yəni 160 saat tədris olunur. Gündəlik dərs planı isə müəllimi hər zaman axtarıcılığa, araşdırmağa, öyrənməyə sövq edir. Dərs planı üçün mövcud standart forma yoxdur, lakin gündəlik dərs planlarının hər birində mütləq şəkildə mövzu, məqsəd, dərsin tipi, təchizat və nəticə yer almalıdır.

FƏAL (İNTERAKTİV) TƏLİMİN MEXANİZMLƏRİNƏ DAİR

Sultanlı Ş.A.
Bakı Slavyan Universiteti
E-mail: sultanlishabnam548@gmail.com

Fəal və interaktiv təlim məfhumlarının bir neçə cəhətləri bir-birilə çox yaxınlıq və ümumilik təşkil edir. Belə ki, hər iki metodla tədris olunan dərs öyrənənləri fəallaşdırmağa yönəlmişdir. Bəs bu nə deməkdir? Yəni hər iki metod vasitəsilə öyrənənlərə hazır biliklər verilmir, onları yaradıcılığa, tədqiqatçılığa cəlb edir. Ən əsas olaraq, hər iki metodda da müəllim-şagird, öyrədən-öyrənən münasibətləri, dialoqlar, insanlarla ünsiyyət mövcuddur. Müəllim yönləndirir və öyrədir. Şagird isə öyrənir.

İnteraktiv təlim zamanı şagirdlərə təhsil sahəsində kömək olmaq, təlim prosesi zamanı şagirdlərin fəaliyyətlərini bir-birilə əlaqələndirmək, onlarda yaradıcılığa, axtarışa həvəs yaratmaq, nəyi harada öyrənib tapa biləcəyini öyrətmək müəllimin ilkin vəzifələrindən biridir.

Prinsiplərin hamısının təlim prosesi zamanı tətbiq edilməsi fəal (interaktiv) təlim metodları ilə mümkün olur. Bu təlimdə əsas məqsəd şagirdlərin idrak fəallığının təmin edilməsindən ibarətdir. İdraki fəallıq və onun davamlılığı psixoloji-didaktik mexanizmlərdən (problemli vəziyyətin yaradılması, dialoqun və əməkdaşlığın zəruriliyi, şagird-tədqiqatçı, müəllim-fasilitator, psixoloji dəstək: hörmət və etibar) çox asılıdır. Təlim prosesinə müvafiq olaraq təlim prosesi təkcə öyrənənin tədqiqatçı mövqeyinə, idraki maraqlarına istinad olunanda daha səmərəli olur. Bu vəziyyətin yaranması üçün təlim prosesinin əsas mərkəzində tədqiqat olmalıdır. Hər bir tədqiqat isə, əsasən, problemin ortaya qoyulmasından sonra başlanılır. Fəal (interaktiv) təlim təqdim olunan məlumatın ziddiyyətli və tam olmamasına görə gərgin, problemli halın, vəziyyətin yaranmasına əsaslanır. Problemli vəziyyətin yaradılması. Təlim prosesi zamanı öyrənəni tədqiqatçı kimi yetişdirmək, onun idraki fəallığını artırmaq üçün ortaya mübahisəli və tam olmayan informasiya, yəni problem qoyulmalı, həmin problemi həll etmək üçün şagird bir növ yönləndirilməlidir.Dialoqun və əməkdaşlığın zəruriliyi. Təlim zamanı müəllim-şagird arasında dialoqun yaradılması problemli vəziyyətin aradan qaldırılması üçün ən əsas vasitələrdən biridir. Burada əməkdaşlıq da böyük rol oynayan vasitələrdəndir. Belə ki, ortaq bir nəticəyə, qərara gəlməyin yolu əməkdaşlıqdan keçir.

Şagird - tədqiqatçı, müəllim – fasilitator (bələdçi). Ənənəvi təlimdən fərqli olaraq şagird fəal (interaktiv) təlimdə bərabərhüquqlu bir subyektə çevrilir. Şagird artıq məsələləri müstəqil şəkildə həll edir, yaranmış problemi həll etmək üçün çıxış yolları tapa bilir. Bu sırada müəllim isə şagirdlərə bələdçilik edir, onları doğru yola yönləndirmiş olur.Fasilitasiya prosesi – bir proses olaraq istiqamətləndirici, yönəldici, köməkçi sualların tətbiqinin köməyi ilə müzakirələrin, diskussiyaların təşkili və şagirdlərin fəallaşdırılmasından ibarətdir. Fasilitasiyanın əsas məqsədi şagirdlərin öyrənməsi və yaratmaq tələbatlarının tam ödənilməsi üçün şərait yaratmaqdır.

Psixoloji dəstək: hörmət və etibar. Şagirdin fəallığının lazımi səviyyədə qalması üçün müəllim bütün şagirdlərə hörmət etməli, hər birinə fərdi münasibət bəsləməlidir. Ən əsası isə sinifdə olan hər bir həssaslığı hiss etməsi vacibdir. Müəllimin şagirdlərə hörmət etməsi, xeyirxah davranışları, hər bir şagirdi olduğu kimi qəbul edib fərdi yanaşması, onları dəstəkləməsi şagirdlərdə özünəinam hissini yaradır, yarana biləcək problemlərə soyuqqanlı yanaşmağa vadar edir. Təlim prosesinin bu mexanizmi şagirdlərin hər birində qorxu hissini, uğursuzluq hissini, inamsızlıq hissini aradan qaldırmağa kömək edir. Şagirdə hörmətlə yaxınlaşmaq, ona güvənmək, onların hər birinin suaallarının yaxşı və yaxud pis dərəcədə qiymətləndirilməsi şagirddə həm özünəinam, həm müəllimə hörmət və etibar etmək, həm də ətrafındakı hər kəsə hörmətlə yanaşmaq hissini artırır.

BÖYÜK MƏKƏTƏBƏQƏDƏR UŞAQLARDA SAGLAM HƏYAT TƏRZİNİN ƏSASLARININ FORMALAŞDIRILMASI

Sultanova N.M.
Bakı Slavyan Universiteti.
E-mail:nigarsultanova94@mail.ru

Məktəbəqədər yaş hər bir insanın həyatında ən vacib dövrlərdən biridir. Məhz bu yaşda sağlamlığın, düzgün fiziki inkişafın əsasları qoyulur, hərəki qabiliyyətlərin formalaşması baş verir, bədən tərbiyəsi və idmana maraq formalaşır, şəxsi, əxlaqi-iradi və davranış keyfiyyətləri tərbiyə olunur.Uşağın tam fiziki inkişafı və sağlamlığı şəxsiyyətin formalaşması üçün əsasdır. Məktəbəqədər yaş fiziki və psixi sağlamlığın təməlinin formalaşmasında həlledicidir. Bütövlükdə cəmiyyətin rifahı əhalinin psixi və fiziki vəziyyətinin səviyyəsindən, sağlamlıq vəziyyətindən asılıdır, buna görə də uşaqlarda sağlam həyat tərzinin əsaslarının formalaşdırılması problemi aktual, vaxtında və kifayət qədər mürəkkəb görünür- müasir cəmiyyətdə.Uşaqların sağlamlığına bir çox mənfi amillər təsir edir: ekoloji vəziyyətin pisləşməsi, bütün ölkədə həyat səviyyəsinin azalması, mənəvi və fiziki inkişaf sahələrində uşaqlar üçün sosial təminatların səviyyəsinin azalması, vaxt və pul çatışmazlığı. valideynlərin uşaqların ehtiyaclarını tam ödəməsi, tək valideynli ailələrin sayının artması, habelə ailə təhsilinin vəziyyəti və istiqaməti. Uşaqlıqdan onların sağlamlığına nəzarət etməyi öyrətmək lazımdır.

Məktəbəqədər yaşlı uşaqlarda sağlam həyat tərzinin əsasları sağlam həyat tərzinin elementləri (rejimə uyğunluq, gigiyena prosedurları, fiziki fəaliyyət) haqqında bilik və fikirlərin olması və onları davranış və fəaliyyətlərdə yollarla həyata keçirmək bacarığı ilə müəyyən edilir.Məktəbəqədər yaş- fiziki və psixi sağlamlığın təməlinin formalaşmasında həlledicidir. Məhz bu dövrdə orqanların intensiv inkişafı və orqanların funksional sistemlərinin formalaşması və bədənin funksional sisteminin formalaşması baş verir, əsas şəxsiyyət xüsusiyyətləri qoyulur, xarakter formalaşır.Böyük məktəbəqədər yaşlı uşaqlarda sağlam həyat tərzi haqqında fikirlərin sabit formalaşdırılması üçün bütün ilkin şərtlər var: zehni proseslər aktiv şəkildə inkişaf edir, özünə hörmət və məsuliyyət hissi artır; "fiziki və funksional inkişafda müsbət dəyişikliklər nəzərə çarpır; uşaqlar düzgün duruş saxlamağı və nümayiş etdirməyi bacarır; uşaqlar məişət tapşırıqlarını müstəqil şəkildə yerinə yetirə bilir, özünəxidmət bacarıqlarına malikdir, oyunda, fiziki fəaliyyətin təzahüründə məqsədə çatmaq üçün güclü iradəli səylər göstərir.

Böyük məktəbəqədər yaşlı uşaqların fizioloji vəziyyətinə onların psixo-emosional vəziyyəti çox təsir edir, bu da öz növbəsində psixi münasibətdən asılıdır. Buna görə elm adamları yaşlı məktəbəqədər uşaqlar üçün sağlam həyat tərzinin aşağıdakı aspektlərini müəyyənləşdirirlər: emosional rifah: zehni gigiyena, öz duyğularının öhdəsindən gəlmək bacarığı; intellektual rifah: insanın yeni şəraitdə optimal fəaliyyət üçün yeni məlumatları öyrənmək və istifadə etmək qabiliyyəti.Böyük məktəbəqədər yaşlı uşaqların sağlam həyat tərzi haqqında fikirlərini formalaşdırmaq üçün uşaqların sağlamlığını, bədən tərbiyəsi sistemini gücləndirən xüsusi məşqlər lazımdır. Bunun üçün uşaq bağçası qrupunda hər gün musiqi sədaları altında səhər məşqləri keçirilir. Böyük məktəbəqədər yaşlı uşaqların sağlam həyat tərzi haqqında təsəvvürlərinin formalaşması onlarda səliqəyə, təmizliyə, nizam-intizam sevgisinin tərbiyəsi ilə sıx bağlıdır.

Uşaq üçün ailə, nə olursa olsun, bir səlahiyyətdir. Uşaq bağçada öyrədildiyi bədən tərbiyəsi məşqlərini göstərməkdən məmnun qalacaq ailədə. Təəssüf ki, bir çox valideynlər sadəcə yorğun və heç nə qəbul edə bilmirlər, digərləri uşaqların fiziki inkişafına xüsusi əhəmiyyət vermirlər. Məktəbəqədər təhsil müəssisəsinə getməyən uşaqların əksəriyyətində gündüz yuxusu olmur. Gecə yuxusu da televiziyaya baxmaqla əlaqədar azalır ki, bu da uşağın sinir sisteminin həddən artıq yüklənməsinə ilkin şərait yaradır və xroniki yuxusuzluq onun fiziki və nevropsik inkişafına mənfi təsir göstərir.Ailə ilə iş uşaqların hərtərəfli tərbiyəsini və təhsilini əhatə etməlidir. Sağlamlığın qorunması, məktəbəqədər uşaqların hərtərəfli fiziki inkişafı - bu məsələlər tərbiyəçilərin və valideynlərin diqqət mərkəzindədir.

İDMANDA YARANAN ZƏDƏLƏRDƏN QORUNMA ÜSULLARI VƏ RİCE TERAPİYA

Talıbova L.V.
Naxçıvan Dövlət Universiteti
E-mail: qisimemi@gmail.com

İnsan sağlamlığı onun fiziki tərbiyəsi ilə vəhdət təşkil edir. Fiziki və mənəvi sağlamlığa xidmət edən, cəmiyyətimizin böyük bir hissəsinin maraqlarını özündə birləşdirən və təkamül yolu keçən idman nəzəriyyəsi geniş mənalarda işlədilir. Bəzən bu sahədə qazanılan bir uğur ölkənin bütün mövqeyini, ab-havasını dəyişir. Düzdür, idmanla məşğul olan hər kəs olimpiya, dünya və ya Avropa çempionu olmur. Lakin peşəkar və həvəskar idmançıları birləşdirən bir məqam var: zədə. İdman edərkən rastlaşdığımız ən böyük problem zədələrdir. Bəzən bu zədələr idmançı karyerasına son qoya, hobbi kimi bu sahə ilə məşğul olanları uzaqlaşdıra bilər. Bəs idman edərkən zədələrdən necə qorunmaq lazımdır, yaxud bunun fiziki təlimləri varmı?

İdman alimləri və həkimlərinin apardığı araşdırmalar göstərir ki, zədələrə səbəb daxili amillərdir, yəni yorğunluq, çoxlu fiziki iş, fərdi bədən xüsusiyyətləri. Bunun nəticəsində orqanizmdə sıyrıqlar, yaralar, yumşaq toxuma qırıqları, oynaqlar və sümük sınıqları yaranır ki, nəticədə, bu amillər insanın idmanetmə ənənəsini pozur və onu bu sahədən uzaqlaşdırır. Bu tipli zədələr, xüsusən idmançılar təlim-məşq toplanışlarında olarkən baş verir. Başvermə səbəbi isə idmançıların təlimin sonunda tətbiqi proqramı düzgün qiymətləndirə bilməmələridir.Zədələr, əsasən, idman edərkən oynaqlarda baş verir ki, bu da 38 faiz təşkil edir. Müşahidələr göstərir ki, peşəkar idmanla məşğul olanların yalnız 9 faizi il ərzində qırıqlarla üzləşirlər. Maraqlısı odur ki, qış aylarında zədələr digər fəsillərlə müqayisədə daha çox olur.Bəs zədələnməmək üçün hansı amillər yerinə yetirilməlidir? İlk olaraq idmanla məşğul olan hər bir kəs 20-30 dəqiqə ərzində isinmə hərəkətləri etməlidir. Səbəbi isə odur ki, isinmiş orqanizmdə zədənin əmələgəlmə ehtimalı azalır, isinməmiş orqanizmdə isə vətərlər, əzələlər birbaşa ağır yükə məruz qaldığı üçün zədə riski artır. Bəzən elə olur ki, orqanizmdə gizli xəstəlik baş qaldırır və zamanla vətərlər, bağlar və əzələlər daha çox zədəyə məruz qalır. Bağ və əzələ dartınmaları

idmançılarda hərəkətin biomexanikası pozulduqda baş verə bilər. Bu hallar çox vaxt insanın ayaq və bud nahiyələrində olur ki, belə zədələrə futbol, basketbol, gimnastika növləri ilə məşğul olan idmançılarda rast gəlmək mümkündür. Ümumiyyətlə, bir çox zədələr var ki, onlar müəyyən idman növləri ilə "dostlaşıblar". Məsələn, atletika ilə məşğul olanlar yarımkəskin və xroniki travmatik xəstəliklərlə mübarizə aparmalı olurlar. Onlarda, əsasən, aşağı əzalarda zədələr baş verir. Atıcılar isə tez-tez yuxarı əza və çiyin-qurşaq əzələlərində yaranan problemlərlə üzləşirlər.Bəzən bu zədələri eşidib idman sahəsinə gəlmək fikrindən daşınanlar da var. Lakin qeyd etməliyik ki, idmanın bütün növləri insan üçün faydalıdır, insan sağlamlığına müsbət təsir göstərir və ömrü uzadır. Zədə riski az olan idman növləri sırasında üzgüçülük, suyatullanma, atıcılıq, stolüstü tennisi qeyd etmək olar. Bu idman növləri ilə məşğul olan insanlarda erkən ölüm riski digərləri ilə müqayisədə aşağıdır. Şahmat isə uşaq və yeniyetmələr üçün ən ideal növdür. Hiperaktiv uşaqların daha çox bu idman növü ilə məşğul olması həkimlər tərəfindən məsləhət görülür.

İdman çətin və mürəkkəb sahədir. İdmançı olmaq istəyən kəs bu yolun çox çətin olduğunu qəbul etməlidir. Məqsəd peşəkar idmana yönəlmək deyil, sadəcə, fiziki sağlamlığı qorumaqdırsa, o zaman istənilən növlə hobbi kimi məşğul olmaq olar. Təbii ki, burada fiziki yüklənmənin qarşısı alınmalı, sonra məşq, onun strukturu, texnikası yerinə yetirilməlidir. İdman mütəxəssislərinin də təbirincə desək, idmanda zədələrdən qorunmaq tək idmançının yox, onun məşqçisinin, komandasının da işidir. Çünki məşqçinin düzgün qurduğu məşq prosesi, həkimin düzgün müalicəsi və profilaktika planı idmançını daha tez sağaldır, onu peşəkar idmana daha tez adaptasiya edir.

Biz başa düşməliyik ki, daha tez və effektiv bərpa prosesi keçmək üçün erkən diaqnostika və idman zədələrinin müalicəsi vacibdir. Təəsüf ki, biz öz praktikamızda elə hallarla rastlaşmalı oluruq ki, idmançınnın öz zədəsinə olan qeyri-ciddi münasibəti , xüsusilə də zədə alınmasının ilk günlərində, həm sonralar, həm də sonrakı illərdə idmançını uzun müddətə sıradan çıxarır, onun təkrar zədələnməsi hallarına yol açır. Bəs zədə və ya əzələ dartılması, hətta oynaq birləşmələrinin dartılması baş verdikdə nəyi etmək vacibdir?

Bütün dünyada idman zədələrinin müalicəsinin təməl daşı RİCE-therapy sayılır: R – rest (sakitlik)**;** İ – ice (buz)**;** C- compression (təzyiq)**;** E – elevation (qaldırılma).Bu metodla müalicə zədə baş verdikdən dərhal sonra həyata keçirilməlidir. Yadda saxlayın – zədə aldıqdan sonrakı ilk 20-30 dəqiqə ərzində və sonra tətbiq edilən RİCE, idmançının bir neçə gün və ya hətta bir neçə həftə tez sıraya dönməsinə kömək edə bilər.Sakitlik**.** Ağrı hiss edən kimi dərhal məşqi dayandırın, çünki, yükləmələrin davam etdirilməsi zədələnmiş sahənin vəziyyətinin mütləq daha da pisləşməsinə səbəb olacaq. Əzanın ilk 3 gün ərzində immobilizasiyası məsləhət görülür (oynaqları fiksə edən brace vurulması).Buz**.** Müalicənin növbəti mərhələsi krioterapiyadır – zədəli yerin soyudulması. Soyuğun tətbiq edilməsi iltihab prosesini xeyli dərəcədə azaldır, şişi, ağrı hisslərini azaldır, zədəli sahəni əhatə edən toxumalarda oksigen sərfiyyatını aşağı salır ki, bu səbəbdən zədə zonasının ətrafındakı hüceyrələr yaşaya bilərlər, bu da nekroz sahəsini və toxumaların kobud qaysaqlanmasının yaranmasını azaldır.Fövqəladə hallarda, dərinin sağlam olması şəraitində, zədəli sahədən 20-30 sm məsafədən, 5-8 dəqiqəlik olmaqla bir neçə dəfə soyuqverici spreydən (coolant cold spray) istifadə edin.

Krioterapiyanı metodunun ən geniş yayılmış forması zədələnmiş yerə buz paketinin qoyulmasıdır. Mərkəzdə mütləq bir az isladılmış dəsmal olmalıdır ki, dərinin üst qatının don vurmasına yol verilməsinin. Adi buzdan əlavə birdəfəlik kimyəvi buzlardan da istifadə etmək olar ki, hermetik paketlərdə istehsal edilir və yüngül zərbədən sonra soyutmağa başlayır (cold pack). Çiyin, bazu önü və baldırlar üçün əvvəlcədən dondurulmuş sərinləşdirici lentdən (muellerkold wrap) istifadə etmək rahatdır, pəncə-daban oynaqlarının dartılması halında isə xüsusi sərinləşdirici fiksatordan (cold therapy gel brace) istifadə edilir.Soyuq 20-30 dəqiqə ərzində 45 dəqiqəlik fasilərlə ilk sutka ərzində və 20 dəqiqəlik olmaqla 1-2 saatlıq fasilərlə sonrakı iki gün ərzində tətbiq edilir. Krioterapiyanın müddəti zədələnmə yerindən asılı olmaqla dəyişir, məsələn, diz və pəncə-daban oynaq birləşmələri üst qata yaxın yerləşir, buna görə də onların soyudulması üçün daha az vaxt tələb olunur, nəinki bel əzələlərinin zədələnməsi zamanında.Təzyiq. Zədəli zonada şişin azaldılması üçün sarğı şəklində təzyiqdən istifadə edin. Erkən bintləmə toxumaların stabilləşməsinə yardım edir və mikro qanaxmaları azaldır. Sarğı qoyularkən əsas qaydaları yaddan çıxarmayın – ilk turu zədədən 3-4 sm aşağıdan başlayın və spiral üzrə örtən dövrələrlə yuxarıya doğru hərəkət edin, dərinin rəngini, hərarəti və sarğıdan aşağıda olan sahənin hissetməsini yoxlayın ki, sinir və arteriyaların həddən artıq sıxılmadığına əmin olasınız. Təzyiqin göstərilməsi zədədən dərhal sonra və ilk sutkalar ərzində daha aktual olur.Qaldırma. Zədə yerini ilk iki gün ərzində qanaxmanın azalması və toxumaların şişinin yatması məqsədi ilə yuxarı qaldırılmış vəziyyətdə saxlançması çox mühümdür. Ayaqlar üçün hündür yastığın, əllər üçün isə xüsusi sarğının istifadə edilməsi daha rahatdır.İlk 72 saat ərzində isidici vasitələrdən istifadə etməyin və zədəli zona massaj etməyin. Qeyri-steroidli iltihaba qarşı olan gel növlü preparatlardan istifadə etmək məsləhət görülür – Fastum gellə bərabər ölçüdə Lioton gel – gün ərzində 4-5 dəfə, 5%-lik Diklak, Finalgel və s., həmçinin Voltaren həbləri, ilk 3-5 gün

ərzində, yeməkdən sonra gündə 1 dəfə 100 mq olmaqla. RİCE və iltihab əleyhinə preparatlar - əlbəttə bunlar ilk tibbi yardımı göstərmək üçün olan ilkin müalicə mərhələsinin metodlarıdır. Yekun diaqnozun müəyyən edilməsi və müalicənin aparılması üçün, eləcə də mümkün ola biləcək ağırlaşma hallarında mütləq idman travmatoloquna müraciət edin. Ümid edirik ki, RİCE metodu prinsipləri, eləcə də onların vaxtında tətbiq edilməsi sizə zədələrdən tezliklə sağalıb sıralarımıza dönməyə imkan verəcək

MƏDƏNİ VƏ ƏDƏBİ İRSİN BÖLÜNMƏSİ ƏL-FƏRABİ VƏ "KİTABİ-DƏDƏ QORQUD" DASTANI NÜMUNƏSİNDƏ

Umarova A.H.
Bakı Slavyan Universiteti
E-mail: aynuromarova123@gmail.com

Əl-Fərabi. Fars alimi kimi qələmə verilən alimlərdən biri də Əl-Fərabidir. Əl-Fərabinin tam adı–Əbu Nəsr Məhəmməd bir Tarxan bin Uzluq Əl-Fərabi ət-Türkidir. Fərabi, coğrafi baxımdan aid olduğu nisbədir. Əbu Nəsr künyəsi, Məhəmməd atası, Tarzan babası, Uzluq babasının atasıdır. Əl-Fərabinin doğulduğu yeri bir çox alimlər Türkistan olaraq təqdim edir. Fərabinin Qərbdə Alpharabius Abunnasr kimi adlarla tanındığı, Türküstanın Mavernnehr bölgəsində, bugünkü adı ilə Otrar olan Fərab şəhərinin Vesic qəsəbəsində 870-ci ildə (təxmini) doğulduğu qeyd olunur. Fərabi ilk təhsilini burada alır, Quranı burada öyrənir, daha sonra Irana gedib farsca öyrənir, sonra Bağdada gəlib ərəbcəsini inkişaf etdirir. O, Şama, Hələbə, Misirə getmiş, qısa müddət bu şəhərlərdə yaşamışdır. O, məntiq, qrammatika, musiqi, astronomiya və s. kimi elmlərə yiyələnmiş, məşhur alim, filosof olmuşdur. Əl-Fərabinin türk olduğunu təsdiq edən bir çox qaynaqlar vardır. Bunlardan biri İbn Ebi Useybianın "Uyunul-Enba Fi Tabakatil Etibba" ("Təbiblərin həyatları haqqında xəbərlərin qaynaqları") əsərləridir. Bu əsərində o, Əbu Nəsr Məhəmməd bir Məhəmməd bin Uzluq bin Tarxanın Farab şəhərində olduğunu, bu şəhərin də Xorasan bölgəsinin türk şəhərlərindən biri olduğunu, atasının isə süvari birliyinə mənsub əsgər bir komandiri olduğunu yazır. Ərəbcə "faris", atlı, süvari atlı birlik və s. mənalarına gəlir. Burada işlənən "faris" kəlməsini əsas alan iranlı alimlər, buranın Basra və Hörmüz arasındakı yerin adı olduğunu və buradan olanlara "farisi" deyildiyini əsas gətirirlər. Lakin eyni bir cümlə daxilində İbn Ebi Useybia necə ola bilər ki, Fərabinin həm türküstanlı bir türk şəhərindən olduğunu, həm də atasının iranlı olduğunu deyir? Başqa bir məqam isə, ata-babalarının İranda heç istifadə olunmayan Uzluq və Tarxan kimi türk adlarını almış olmalarıdır. Və İsmayıl Yakıt bir məqamı da bildirir ki, "müntəsib" kəlməsi sonradan iştirak edilən xüsuslar üçün istifadə olunmaz.

İbnul-Kıftı (?-1248) "İhbarul-Ulema bi Ahbaril Hukema" ("Filosofların xəbərlərini alimlərin bildirməsi") adlı əsərində Əl-Fərabinin Mavərnnəhrdə olan türk şəhərlərindən biri olan Fərabdan olduğunu bildirir. Bir çox mənbələr Fərabinin hər yerdə türk paltarı ilə gəzdiyini bildirir. Beyhaki də "Tetimme Sivanul-Hikeme" adlı əsərində Fərabinin türk paltarı ilə gəzdiyini bildirir. Artıq alimlərin böyük bir qismi, onun türk olması məsələsində həmfikirdirlər. Tomas F. Click, Bryan Bunch və başqaları, onun iranlı olduğunu iddia edir. Bu iddiaların bir çoxunun əsası yoxdur, bir çoxu isə, yuxarıda bəhs etdiyimiz "farisi" kəlməsinə dayanır. Bəzi alimlər isə Əl-Fərabi ilə bağlı qaynaqları rəvayət hesab edir, bu qaynaqların yetərsiz olduğunu bildirirlər.

Fərabi bütün əsərlərini ərəbcə yazmışdır. Onun fars olduğunu iddia edənlər, bunu da əsas gətirir. Lakin şairin türk, yoxsa fars şairi hesab olunması, bir sıra meyarlara dayanır. Bu meyarlara şairin doğulduğu ölkə, əsərlərini yazdığı dil, əsərin mədəni məkanı və s. daxildir. Bu meyarlar birmənalı deyil. Ortaq mədəni irs nümunələrindən biri də "Kitabi-Dədə Qorqud" dastanıdır. "Kitabi-Dədə Qorqud" ortaq mədəni irs kimi. **"**Kitabi-Dədə Qorqud" haqqında ilk dəfə F.Dits məlumat vermişdir. Dastanın Vatikan, Drezden, Türkmən Səhra kimi nüsxələri mövcuddur. Dədə Qorqud dastanı müqəddimə və 12 boydan ibarətdir. Dastanın 11-ci əsrdə yazıya alındığı qeyd olunur. Kitabi-Dədə Qorqud qırğız, qazax, türkmən, özbək, Azərbaycan xalqlarının ortaq abidəsidir. H. Əliyev də Kitabi-Dədə Qorqud dastanının bütün türk dünyasına məxsus olduğunu, onun vətəninin Azərbaycan, sahibinin Azərbaycan xalqı olduğunu deyir. Dastanın coğrafiyası da bunu göstərir– Sibir xaric, bugünkü türk dövlətlərini əhatə edir. Dədə Qorqud dastanlarında, tarixi hadisələrin coğrafiyası haqqında müxtəlif fikirlər olsa da, ümumi fikir budur ki, dastan konkret bir zamanda yazılmayıb, buna görə də onu mütləq bir coğrafiyaya sığdırmaq da çətindir. Dastandakı elementlər, süjetlər, obrazlar türklərin yaşadığı torpaqlara-Altaydan başlayaraq İraqa qədər, Dəmirqapı Dərbənddən Diyarbəkr ətrafına, Mardinə, Xəzər dənizindən Qaradəniz sahillərindəki Abqaz ellərinə və Trabzona qədər geniş sahəyə yayılmışdır.

Dastandakı ərazi adlarından da görünür ki, dastan Qafqaz, xüsusən, Azərbaycan ilə bağlıdır. Dərbənd, Əlində qalası, Bərdə, Gəncə, Göyçə gölü, Əlində çayı və s. yer adları, dastanda tez-tez keçir. Kitabi-Dədə Qorqudda işlənən bir çox yer adları, bu gün də Azərbaycanla yanaşı, bir çox yerlərdə toponim kimi qalmaqda davam edir. Məsələn Qaraçuq adı ilk dəfə KDQ-da keçir və bu toponimə Türkiyə, İran, Qafqaz, Orta Asiya, Bolqarıstan ərazilərində rast gəlinir. Dədə Qorqudun məxsus olduğu Bayat boyuna da, etnotoponim kimi İranda (Bayat, Bayatlar, Bayatlı, Bayatan), Qərbi Anadoluda (Bayatlı, Bayatlar), Azərbaycanda Neftçala, Ucar və s. yerlərdə (Boyat), Salur və Təklə adlarına isə Çində rast gəlinir. Dastanın dili Oğuz xalqlarının dilidir. Buradakı sözlər Türk və Azərbaycan dillərində biraz deformasiyaya uğrayaraq qalmışdır. Məsələn, mən-ben, o-ol, dənə-dənə və s.

MAHMUD KAŞĞARİ VƏ MÖVLANƏ CƏLALƏDDİN RUMİ ORTAQ MƏDƏNİYYƏT NÜMUNƏSİ KİMİ

Umarova A.H.
Bakı Slavyan Universiteti
E-mail: aynuromarova123@gmail.com

Mahmud Kaşğarlı. Mahmud Kaşğari XI əsrdə yaşayan türk alimidir. Mahmud Kaşğari "Divani Lüğatit-Türk" əsəri ilə məşhurdur. Kaşğarinin həyatı haqqında məlumatlar çox azdır. Məlum olan bilgilər də, "Divani Lüğatit-Türk" əsərindəndir. Əsərdən məlum olur ki, o soylu bir ailədən gəlir. Kaşğarinin Qaraxanlılar soyundan gəldiyi qeyd olunur. Əsərdən məlum olur ki, atası Barsqanlıdır. "Kaşğarlı Mahmud "Divani lüğətit-türk" əsərində atasının da Barsqanlı olduğu bilgisini verir, buna görə də onun da Barsqanda doğulduğu, doğum yerinin bura olduğu düşünülməkdədir. Barsqan Qırğızıstanın İssik gölünün cənubunda kiçik bir qəsəbədir.

Əsərinin heç bir yerində özünə "Kaşğarlı" deməyən Mahmudun, tez-tez Kaşğari olaraq anılmasının səbəbi, burada böyüməsi, buranın havası və suyu ilə öyünməsi olmuşdur. Kaşgar Çin şəhərlərindən biridir. Əfqanıstan, Qırğızıstanla sərhədə yaxındır. Onun nə zaman doğulması ilə bağlı da müxtəlif fikirlər vardır. Bəzi mənbələrdə 1008, bəzilərində 1025-ci ildə anadan olduğu qeyd olunur. Mahmud Kaşğari soylu bir ailədən gəlir və onun soyunun Şərqi Qaraxanlı xanədanına– İslam dinini seçən ilk türk xaqanı Əbdül Kərim Satuk Buğra xana qədər gedib çıxdığı söylənir. Mahmud Kaşğarinin 1057-ci ildə Türkistan bölgəsinə gəldiyi, burada türklər arasında yaşamağa başladığı qeyd olunur. Burada yaşadığı müddətdə türklərin müxtəlif şivə fərqləri diqqətini çəkmiş və eşitdiyi sözləri yazmışdır. Mənbələrdə qeyd olunan məlumatlara əsasən 20 ilə yaxın, türklərin yaşayışı, dili, ədəbiyyatı, adətləri üzrə axtarışlar etmiş və 1070-ci ildə Bağdada gələrək əsərini– "Divani Lüğatit-Türk"ü tamamlamışdır. Mahmud Kaşğarinin bilinən digər bir əsəri, "Kitabü Cevahirin-Nahv fi Luğatit" əsəridir. Bu kitab günümüzə qədər gəlib çatmamışdır. Mahmud Kaşğarinin başqa bir əsərinin olub-olmaması isə məlum deyil.

Mahmud Kaşğarinin Bağdaddan nə zaman döndüyü də məlum deyil. Lakin onun haqqında söyləmələrə əsasən, 1080-ci ildən Bağdaddan Kaşğara dönür, burada mədrəsə qürur və 10 il burada müdərrislik edir. 1090-ci ildə isə vəfat edir. Mahmud Kaşgari özündən sonra dəyərli bir əsər–"Divani Lüğatit-Türk" əsərini qoyub getdi. Bildiyimiz kimi, latıncanın üstün dil mövqeyinə yüksəlməsində xristian dini mühüm rol oynamışdır. Latın dil mərkəzi dil idi və din, təhsil, idarə bu dildə aparılırdı. Daha sonra xristianlığı daha çox yaymaq üçün kilsə, yerli dillərin önəmini anladı. İncili bu dillərə çevirmək, din propaqandası üçün təsirli olacaqdı. Buna görə, İncil 4-cü əsrdə Qotcaya, 9-cu əsrdə Slavyan dilinə tərcümə olundu. Lakin bu da latıncanın üstünlüyünü əlindən ala bilmədi. Latın dili mədəniyyət dili olaraq uzun müddət dominant olmuşdur. İslam dini gəldikdən sonra ərəb dilində də bu hal yaşandı. Artıq ərəb dili Asiyada dominant dilə çevrildi və türk dillərindən istifadənin reytinqi aşağı düşdü. Bunun qarşısını almaq üçün Kaşğari, "Divani Lüğatit-Türk" əsərini yazdı. Ondan üç yüz il sonra isə Dante, İtalyan dili üçün bunu etdi. O "İlahi komediya" əsərini italyan dilində yazaraq xalq dilinin (italyan) daha gözəl tərbiyə vasitəsi olduğunu düşünürdü. Türk dünyasının ilk ensiklopedik əsəri olan "Divani Lüğatit-Türk"də Oğuz türklərinin 24 boyu ilə bağlı məlumat verir. Əsər türkcə və ərəbcə lüğətdir. Burada həmçinin, türk dilinin qrammatikası, türk yer adları, türk damğaları haqqında məlumat, ətraflı şəkildə verilir. Divan on sözlə başlayır. Daha sonra "sözlük" bölümü gəlir. Burada türkcə kəlimələrin ərəbcə izahı verilir. Kaşğari divanında türk dilini öyrənməyin vacibliyini vurğulayır, buna səbəb kimi isə Peyğəmbərin türklərin hakimiyyətinin uzun sürəcəyi haqqında zikrini əsas gətirir. "Divani Lüğatit-Türk" əsəri bir çox müəlliflər üçün, xüsusilə, türkoloji elmlərlə məşğul olanlar üçün əsas mənbə olmuşdur.

Mövlanə Cəlaləddin Rumi. Mövlanə Cəlaləddin Rumi Əfqanıstanda yer alan Xorasandakı Balx şəhərində anadan olduğu göstərilir. Həmçinin, Vaxş şəhəri də onun doğum yeri kimi göstərilir. Mövlanə məsnəvisinin 4-cü cildində Vaxşa duyduğu həsrəti dilə gətirmişdir. Onun fars olduğunu biildirənlərin əsas iddası, əsərlərinin böyük hissəsini farsca yazması, fars şəhərində doğulmasıdır. Mövlanə ömrünün böyük hissəsini Türkiyə, Konyada yaşamış, fars, türk, ərəb, Yunanca yazmış və Türkiyədə vəfat etmişdir. Doç.dr. Nuri Şimşeklerə görə, Mövlanə türk soyludur, Xarəzmşah nəslindəndir. Onun fars və ərəbcə yazmasının səbəbini isə, Mövlanə dövründə mədəniyyət dilinin farsca, elm dilinin ərəbcə olmasında görür. Həmçinin, digər mübahisə doğuran bir məsələ, onun rübaisində keçən bir sətirdir ki, burada o əslinin türk olduğunu, lakin hindcə danışdığını vurğulayır. Digər bir səbəb isə budur ki, Bəlx şəhəri, Mövlanə zamanında türk şəhəri idi və bura Xarəzmşahlarin yaşadığı bölgə kimi tanınıb. Prof.dr.Dərya Örsə görə, Mövlanə ümumbəşəri dəyərdir, ortaq mədəniyyət nümunəsidir. Ümumilikdə, həm Mahmud Kaşğari, həm Mövlanə Cəlaləddin Rumi, ortaq mədəniyyətin nümayəndələridir.

AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ ATALAR SÖZLƏRİNİN TƏDRİSİ ZAMANI TƏLİM TEXNOLOGİYALARINDAN İSTİFADƏ

Vəliyeva Q.N.
Sumqayıt Dövlət Universiteti
Email: qoncvliyeva@gmail.com

Öyrətmə üsulları son illər ərzində əhəmiyyətli dərəcədə dəyişmişdir. Artıq şagirdlərdən parta arxasında səssiz oturub qeydlər götürmək deyil, dərsə aktiv şəkildə cəlb olunmaq, fikir mübadiləsində iştirak etmək və problemi həll etmək gözlənilir. İnteraktiv təlim zamanı şagirdlər informasiyanı passiv şəkildə qəbul edən tərəf olmaqdan çıxıb, onu aktiv şəkildə analiz edən, qiymətləndirən tərəfə çevrilirlər. Təlimin interaktivliyini təmin etmək üçün bir sıra təlim texnologiyalarından istifadə olunmalıdır. Şagirdlərin dərsə marağını cəlb etmək üçün təlim üsullarından istifadə olunur. Buna "BİBÖ", "Klaster", (şaxələndirmə), "Beyin həmləsi", "Auksion" "Venn diaqramı" və digərlərini misal göstərmək olar. Atalar sözlərinin tədrisi zamanı təlim texnologiyalarından istifadə dərsi həm maraqlı, həm də yaddaqalan edir. Onu da qeyd etmək lazımdır ki, atalar sözlərindən demək olar ki, hər mətnin oxusu zamanı istifadə etmək olar. Məsələn: "Bu mətnə əsasən hansı atalar sözlərini nümunə gətirə bilərik?" sualını verməklə şagirdlərdə idrakı fəallığı artırmaq olar. III sinif Azərbaycan dili dərsliyində də bir çox mətnlər vardır ki, burada atalar sözlərindən istifadə etmək lazım olur. Dərsliyin "Fərd və Toplum" bölməsində "Dürüstlük", "Dostluq", "Mərhəmət", "Məsuliyyət", "Nikbinlik" mətnlərində atalar sözlərindən istifadə mətnlərin məzmun və ideyasını daha yaxşı mənimsənilməsinə kömək edir.

1-ci bölmənin ilk mövzusu "Dürüstlük" mətnidir. Şagirdləri mövzuya daha yaxşı cəlb etmək üçün ilk öncə motivasiya düzgün qurulmalıdır. Bu zaman müxtəlif üsullardan istifadə etmək olar. Bu üsullardan biri də "Beyin həmləsi"dir (və ya əqli hücum). Bu zaman müəllim sualı elə qoymalıdır ki, şagird ətraflı düşünə bilsin və öz fərziyyələrini irəli sürsün. Buna görə də qapalı suallardan istifadə etmək olmaz. "Dürüstlük sözünü eşitmisinizmi?" sualı vermək yanlışdır. "Dürüstlük dedikdə nə anlayırsınız?" sualı zamanı isə şagirdlər öz fikirlərini səsləndirəcək və idraki bacarıqları inkişaf edəcək. Eləcə də "dürüstlük" sözünə sinonim olan sözlərin də tapılmasını "klaster" vasitəsilə həyata keçirmək olar."Dürüstlük" mətnində mətnlə bağlı maraqlı tapşırıqlar öz əksini tapmışdır. "Düşün və cavab ver" hissəsində atalar sözlərinə aid test şəklində tapşırıq verilmişdir. Tapşırıqda deyilir "Mətnin sonunda Elxanın keçirdiyi hissləri hansı atalar sözü ilə ifadə etmək olar?" Burada atalar sözləri təqdim edilir: Bu günün işini sabaha qoyma; Sonrakı peşmançılıq fayda verməz; Bilməmək eyib deyil, soruşmamaq eyibdir

Bu zaman şagirdlər fikirlərini əsaslandıraraq variantlarda seçim edirlər. Müəllim də bələdçilik edərək şagirdləri yönləndirir.Dərslikdəki digər mətnlərin də tədrisi zamanı mətnin daha maraqlı olması üçün atalar sözlərinə müraciət etmək olar.Atalar sözləri tək aşağı siniflərdə yox, yuxarı siniflərdə də tədris olunur. X sinif Azərbaycan dili dərsliyində bir çox mətnlər vardır ki, onların tədrisi zamanı atalar sözlərindən istifadə etmək olar. 3-cü bölmədə (Ailə və Cəmiyyət) Ə. Haqverdiyevin "Mirzə Səfər" əsərinin məzmununa əsasən atalar sözlərinə müraciət etmək olar. Mətnin tapşırıq hissəsində də bunlara rast gəlinir. Tapşırıqda deyilir: "Ot kökü üstündə bitər" atalar sözü ətrafında müzakirə aparıb təqdim olunan yazı ilə əlaqələndirin. Bu zaman müzakirə üsulundan istifadə etmək əlverişlidir.

Mətndən çıxış edərək " Yaxşı dost qardaşdan irəlidir" atalar sözü işlənir. Bu atalar sözünə münasibət bildirin və izah üçün mətnə münasibət bildirin. Mətnin 2-ci hissəsində işlənmiş atalar sözünü tapın, onu eynimənalı məsəl ilə izah edin. Mətndə Mirzə Səfərin dilindən işlənmiş atalar sözünə rast gəlinir: "Usta Zeynal, bu uşaqlar qurtarıblar, bunları belə qoymaq olmaz, yarımçıqlıq dan fayda olmaz." Fərqləndirilmiş hissə atalar sözdür. Bu mətnin tədrisi zamanı "Venn diaqramı"ndan istifadə etmək əlverişli ola bilər. Bu zaman lövhədə iki kəsişən dairə çəkərək məsəl və atalar sözləri arasındakı oxşar və fərqli cəhətləri müəyyən edə bilərik. Kəsişən hissədə onlar arasında oxşar cəhətlər şagirdlər tərəfindən qeyd edilir. Yerdə qalan hissələrdə isə onlar arasındakı fərqli cəhətləri qeyd edəcəklər. XI sinif Azərbaycan dili dərsliyində də atalar sözlərindən istifadə olunmuşdur.

3-cü bölmədə (Fərd və Cəmiyyət) "Oğluma nəsihət" əsərinin tapşırıq hissəsində atalar sözlərindən istifadə olunmuşdur: "Dost dostun eybini üzə söylər" atalar sözü ilə 7-ci nəsihət ziddiyyət yaradırmı? Fikirlərinizi əsaslandırın.Bu zaman şagirdlər 7-ci nəsihətə yenidən baxaraq öz fikirlərini əsaslandıra bilərlər.S. Ə. Şirvaninin "Aslan və iki öküz" əsərində də atalar sözləri vardır: Xah rus əhli olsa, xah firəng; Vətən əhlilə olginən yekrəng.Bir sıra tapşırıqlar da vardır: "Tək əldən səs çıxmaz" atalar sözünə münasibət bildirin."Aslan və iki öküz" təmsilinə həmin atalar sözünü nümunə gətirmək olarmı? Bu tapşırığa əsasən şagirdlər öz fikirlərini əsaslandıracaqlar.

Atalar sözlərinə demək olar ki hər dərslikdə rast gəlmək olduqca müsbət bir haldır. Bu ifadələr şagirdlərin nitqini zənginləşdirir, eləcə də onlara yüksək tərbiyəvi əhəmiyyət verir. Atalar sözlərinin tədrisi zamanı təlim texnologiyalarından istifadə şagirdlərdə məntiqi, tənqidi və yaradıcı təfəkkürü də inkişaf etdirir. Məsələn, "Beyin həmləsi" fərziyyələr toplamaqda böyük rol oynayır, eləcə də şagirdlərdə təfəkkür bacarıqlarını inkişaf etdirir. "Klaster"(şaxələndirmə) şagirdlərin bir mövzu, hadisə, xüsusiyyət haqqında artıq mövcud olan biliklərini aktivləşdirmə üçün istifadə olunur. Venn diaqramının tətbiqi şagirdlərdə müqayisə etmək, təhlil etmək kimi bacarıqları formalaşdırır. Təlim üsullarının hər biri dərsin tədrisində olduqca böyük rol oynayır və şagirdlərdə yüksək bilik, bacarıqlar formalaşdırır.

ORQANİZMİN DÜZGÜN İNKİŞAFINDA TƏBİİ FAKTORLARIN ƏHƏMİYYƏTİ VƏ ONLARDAN SƏMƏRƏLİ İSTİFADƏ METODLARI

Vəlizadə X.S.
Naxçıvan Dövlət Universiteti
E-mail: xeyalvelizade124@gmail.com

Azərbaycan vətəndaşlarının hərtərəfli fiziki inkişafı, sağlamlığının möhkəm- ləndirilməsi və iş qabiliyyətinin artırılması məqsədilə istifadə olunan fiziki hərəkətlər onların maddi və mənəvi həyatının yaxşılaşdırılması ilə sıx surətdə bağlıdır. Bu halda əmək prosesinə şəxsiyyətin hərtərəfli formalaşmasında və inkişafında iştirak edən əsas amillərdən biri kimi baxmaq lazımdır.Fiziki tərbiyə prosesində fiziki hərəkətləri gigieniki faktorlardan istifadə etməklə yerinə yetirmək böyük əhəmiyyət kəsb edir. Gigieniki faktorları iki yerə bölmək qəbul edilmişdir.Gigieniki şərait-gündəlik fəaliyyət rejmi, istirahət, yuxu, xarici mühit, qidalanma, bədənə xidmət və başqaları fiziki hərəkətlərdən asılı olamayaraq istifadə oluna bilər.

Fiziki hərəkətlərlə məşğul olarkən məşğələlərdə gigieniki şəraitin yaradılması vacib məsələlərdən sayılır. Belə ki, bununla fiziki hərəkətlərin orqanizmə təsiri gücləndirilir, bir sıra mənfi təsirlər haqqında məlumat verilir, praktiki nəticələrin əldə olunması yaxşılaşır.İnsanın gündəlik həyatında gigeniki rejimə əməl olunarsa daha böyük nailiyyətlər əldə etmək mümkün olur. Buna görə də fiziki tərbiyə məşqlərinin təşkil olunmasında və daha böyük müvəffəqiyyət qazana bilməsində qarşıya qoyulan əsas məsələlərdən biri də məşğul olanları gigeniki qaydalara adət etdirmək və onların özlərinin müstəqil şəkildə lazımi gigenik şərait yarada bilməsinə nail olmaqdır. Fiziki hərəkətlərlə məşğul olan hər bir kəs özünün idman geyiminin, məşğul olduğu yerin, yeməyinin yarışlar zamanı və təlim məşq toplantılarında qaldığı yerin, idman alətlərinin və s. gigeniki tələblərə cavab verməsinə özü nəzarət etməli və bu əlverişli gigeniki şəraitin yaradılmasında şəxsi iştirak etməlidir. Təbii qüvvələr - günəş şüaları, hava və su sağlamlığın yaxşılaşdırılması və bədənin möhkəmləndirilməsi məqsədilə istifadə olunur. Adətən bu hava və su vannalarının qəbul edilməsi, bədənin yaş dəsmalla silinməsi, duş qəbul edilməsi və çimmə vasitəsilə həyata keçirilir. Fiziki tərbiyə prosesində yuxarıda göstərilən vasitələr tərbiyə məşğələsinin tərkib hissəsi kimi və ayrılıqda istifadə olunur. Sağlamlığın yaxşılaşdırılmasında və bədənin möhkəmləndirilməsində məşğul olanlar təbii faktorlardan, gündəlik həyatlarında müstəqil şəkildə istifadə etmələri daha məqsədəuyğundur. Bu işə hazırlıq üçün əsas vasitələrdən

biri də mütəşəkkil şəkildə təşkil olunmuş fiziki tərbiyə məşğələləridir. Ali məktəblərdə tədris olunan gigiena kurslarında gigeniki şərait və təbii qüvvələrdən istifadə haqqında geniş məlumat verilir.Oyunlar bir çox idman məşğələləri açıq havada keçirilirsə bu ilin bütün fəsillərində məşq prosesində eyni zamanda idmançının həm də hava və günəş vannalarından istifadə etməsinə şərait yaratmış olur. Müəllim və məşqçilərin qarşısında duran vəzifələrdən biri də öz idmançılarının sərbəst şəkildə bu təbii faktorlardan ilin fəsillərinə uyğun şəkildə istifadə etməyi öyrətməkdir. Bütün yuxarıda göstərilən gigieniki şəraitin və təbii faktorların istifadəsinin səmərəli təşkil edilməli yerlərdən biri də idman sağlamlıq düşərgələridir

İdman sağlamlıq düşərgələrində quruplar təşkil olunarkən yaxşı olar ki, onlara gigeniki faktorlardan istifadə haqqında müəyyən məlumatlar verilsin. Belə ki, təbii faktorlardan istifadə edrəkən gün vurma, gün yandırma, küləkli havada hava vannaları qəbul edilərsə və ya birdən çox vaxt ərzində hava vannası qəbul edilərsə soyuqdəymə hallarına təsadüf edilə bilər. bütün bu halların baş verməməsi üçün və ya belə hallar baş veribsə onun nəticələrinin aradan qaldırılması üçün fiziki hərəkətlə məşğul olanlar gigiena haqqında məlumatlandırılmalıdır.

AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ YAZILI NİTQİN İNKİŞAFI İLƏ BAĞLI BƏZİ MƏSƏLƏLƏR

Xəlilli S.A.
Bakı Slavyan Universiteti
E-mail: xelillisema32@gmail.com

İslam Peyğəmbəri cəmiyyətin əxlaqının qorunmasında evlənmənin rolu barədə buyurur ki, evlənən şəxs dininin yarısını hifz etmiş olur, digər yarısı üçün isə təqva seçilməlidir. Dini mətnlərdə əsas yer tutan evlənmə məqsədlərindən biri saleh və layiqli övlad tərbiyəsidir. Bu, ailənin ən böyük məsuliyyəti hesab olunur. Bu işdə müvəffəqiyyət qazanmaq üçün isə böyük ilahi nemətlərdən faydalanmaq lazımdır. Evlənmədə məqsəd şəhvət alovunu söndürmək deyil, çünki bu məqsəd heyvanlara məxsusdur. İslam Peyğəmbəri buyurur ki, layiqli övlad Allahın ata-anaya hədiyyə etdiyi güldür. Yenə nəql olunur ki, mömin bəndənin yadigarı, mirası onun üçün bağışlanma istəyəcək layiqli övladdır. Cahiliyyətdə qadının irs hüququ yox idi. İrs yalnız kişilərə məxsus idi. Quran kişilərlə yanaşı qadına irs hüququ verdi. "ata, ana və yaxın qohumların qoyub getdikləri maldan kişilərə və qadınlara pay düşür". Cahiliyyət quruluşunda əxlaqi və ilahi dəyərlər o qədər alçaldılmışdı ki, qızların və qadınların iffəti mübadilə əşyasına dönmüşdü. "Qurani-Kərim" qadın hüquqlarını, qadın şəxsiyyətini ucaltdı və bu çirkin işi qadağan etdi: "fani dünya malı əldə etmək xatirinə onları zinaya məcbur etməyin" .

Həzrət Əli buyurmuşdur ki, əlaqə və nüfuz yolu xoş rəftardır. Dini əsərlərdə xoşrəftarlı olmaq dəfələrlə tapşırılmışdır. "Qurani-Kərim" buyurur: "insanlarla xoş danışın" (7, "Bəqərə" surəsi, ayə 83).

İslam bütün canlılarla mülayim rəftar etməyi əmr edərək, insanlara zülm etməyi qadağan edir. Uca Allah (c.c.) : "zülm edənlərə meyil etməyin" (7, "Hud" surəsi, ayə 113),- buyuraraq zülm etməyi qadağan etməklə yanaşı, zülm edənlərə meyl etməkdən də onları çəkindirir. "Qurani-Kərim"in "Əhzab "surəsinin 35-ci ayəsində qadınlarla kişilərə eyni anda müraciət olunması olduqca diqqətçəkicidir: "Həqiqətən, Allah məhz müsəlman kişilər və qadınlar, mömin kişilər və qadınlar, (Allaha) müti kişilər və qadınlar, doğru danışan kişilər və qadınlar, səbirli kişilər və qadınlar, təvazökar (yalnız Allah qarşısında kiçilən) kişilər və qadınlar, sədəqə verən, oruc tutan kişilər və qadınlar, ayıb (övrət) yerlərini (zinadan) qoruyub saxlayan kişilər və qadınlar və Allahı çox zikr edən kişilər və qadınlar üçün (axirətdə) məğfirət (bağışlanma) və böyük bir mükafat (Cənnət) hazırlamışdır!" (7, "Əhzab" surəsi, ayə 35).

Əksinə, mənəviyyatsızlığın hökm sürdüyü ailələrdə etimadsızlıq, hörmətsizlik, ləyaqətsizlik övladlara da pis təsir edir, belə ailələrdə böyüyən övladlar cəmiyyət üçün təhlükə törədən şəxslərə, hətta cinayətkarlara çevrilirlər. İslamda qadın Allah-Təalanın əmanəti və ərin xoş ətirli gülü hesab olunur. Ona görə də kişilərə

məsləhət görülür ki, bu gözəl ətirli gülün və ilahi əmanətin tərbiyə olunmasında var qüvvədən istifadə olunmalıdır.Bəzi ailələrdə baş verən mübahisələrdə zorakılığa əl atmaq keçmişdə olduğu kimi, bu gün də əfsuslar olsun ki, əsas faktorlardan biridir. Kişi ailədə sevgi silahı ilə qəbul etdirə bilmədiyini döyməklə, vurmaqla həyata keçirməyə çalışır. Bəzi kişilər evdə söz keçirməyin yeganə yolu kimi döymək taktikasana üstünlük verirlər. Bəzən istədiyi hər hansısa bir işi həyat yoldaşı "vaxtında" edə bilmədiyi üçün qadınlara qarşı bu cür zorakılıq halları baş verir. Zorakılığa məruz qalan qadın isə öz kinini, nifrətini, hirsini başqa birindən və ya övladından çıxarmağa çalışır ki, bunun nəticəsində ailədəki sevgi öz yerini başqa neqativ duyğulara verir.

MULTİKULTURALİZM VƏ LİBERAL DƏYƏRLƏR. MULTİKULTURALİZM İDEOLOGİYASININ MƏNŞƏYİ

İsayev K.İ.
Sumqayıt Dövlət Universiteti
E-mail: materialist.isayev@gmail.com

Qeyd etmək lazımdır ki, klassik liberal çərçivəsində yanaşma, hətta "sərt" multikulturalizm istənilən halda etnik (yaxud daha geniş mənada) yumşaq assimilyasiya formasına çevrilir. sosiomədəni) azlıqları liberal münasibətlər sisteminə çevirərək, tamamilə qiymətli kimi mövqeləndirirlər. Vill Kimlika və Barri Brayan liberal cəmiyyətdə dəyərlərin olduğuna inanırlar.Liberalizmə görə,bu dəyərlər heç olmasa müəyyən dərəcədə bütün icmalar və ya alt qruplar tərəfindən müşahidə edilməlidir.

Brayana görə, onlar liberal normalardan yalnız o halda kənara çıxırlar ki, onlar birləşən tam könüllü birliklər olsun. O da buna inanır. Belə qruplar tərəfindən xüsusi qeyri-liberal formaların saxlanması birlikləri təşviq edilməməlidir.

Kimlika, digər tərəfdən, mədəni azlıqlara kömək etməyə böyük əhəmiyyət verir. Çünki qismən yalnız belə bir dəstək ilə onların üzvləri müəyyən dərəcədə muxtariyyətdən həzz ala bilmək O, bunu liberal dəyərlərin ən mühümü hesab edir. Bu hal azlıqlara həm inteqrasiya axtarışlarında, həm də öz "xüsusi"lərini saxlamaq cəhdlərində köməklik göstərilir. İlk növbədə belə qruplara hüquqi və siyasi stimullar verilməlidir onlara yaşamaq və daxilində inkişaf etmək üçün daha çox imkanlar yaradılmalıdır. Cəmiyyətdə multikulturalizm intellektual reaksiya kimi meydana çıxdı. ABŞ-da hökm sürən "ərimə qazanı" konsepsiyasına XX əsrdə bir növ faydasızlığın etirafı aktıdır. Bu vəziyyət coxmillətli icmaların mədəni homogenləşməsinə yönəlmiş assimilyasiya siyasətinin bariz nümunəsi idi.V.S. Malaxov bu barədə yazır: "XX əsrin ortalarına qədər dövlətlər üzərində liberalizm qurulmuşdur. Liberal demokratiya idealları, milli dövlət quruculuğunun ümumi strategiyasına sadiq qaldılar, yəni, onlar sürətləndirilmiş mədəni azlıqların assimilyasiyasını irəli sürdülər. Bu azlıqların mənşəyindən asılı olmayaraq, onların istər mövcud, istərsə də yaranmaqda olan millətin "ərimə qazanında" əriməsi gözlənilirdi. Köhnə Dünyanın "millət dövlətləri" ilə Qərb yarımkürəsinin "immiqrant ölkələri" arasında əhəmiyyətli fərqlərə baxmayaraq, bu dövrün liberal demokratiyaları üçün xalqın ənənəvi idealına yönəlikliyi ilə səciyyələnirdi.Burada və orada mədəni fərqlər prinsipcə aşılmaz hesab olunurdu və ictimai müzakirələr mövzusu deyildi.Təxminən XX əsrin 60-cı illərin ikinci yarısından etibarən assimilyasiya strategiyasına yenidən baxılmağa başlayır. XX əsrin 60-cı illərdən sonra onilliklər müxtəlif dövlətlər demokratik dünya mədəni müxtəlifliyin müəyyən formada tanınmasına doğru gedir. Onlar artıq mədəni heterogenliyi aradan qaldırılacaq bir şey hesab etmirlər. Multikulturalizm ədəbiyyatında, bir qayda olaraq, mövcud siyasi və sosial-mədəni vəziyyəti formalaşdıran iki əsas amil qeyd edilmişdir.

Birinci amil, azlıqların (etnik, dini, cinsi) mübarizəsini ehtiva edən 1960-70-ci illərin demokratik hərəkatıdır və qadınlar öz hüquqları üçün mübarizə aparırdılar. İkinci və bəlkə də ən mühüm amil artan "görünməmiş" miqrasiya axınıdır. Bu da təxminən eyni vaxta düşür (1960-1970-ci illər). Söhbət böyük bir dövlətin çiçəklənən Qərb ölkələrinə axınından gedir. Asiyanın, Şimali Afrikanın kasıb ölkələrindən gələn miqrantların sayı (Məğrib) və Yaxın Şərq xalqları Qərb ölkələrin əaxın edir.

Belə olan halda dünyanın bu regionlarından olan miqrantların öz maddi və sosial durumlarını yaxşılaşdırmaq istəyi inkişaf etmiş ölkələrin iqtisadiyyatının ucuz işçi qüvvəsinə ehtiyacı ilə üst-üstə düşürdü.Bu proseslər nəticəsində miqrantların xüsusi çəkisi (hüquqi və qeyri-qanuni) inkişaf etmiş Qərb ölkələrinin əhalisinin ümumi tərkibində bir neçə dəfə artmışdır və bu gün (fərqli müxtəlif yollarla dövlətlər) əhalinin 5-dən 20%-nə qədər (və meqapolislərdə bu faiz daha da yüksəkdir və bəzən 50%-ə çatır, o cümlədən həm miqrantların özləri, həm də onların övladları). Bu şəraitdə mədəni plüralizm Qərb ədəbiyyatda vəziyyətin adını alan mövcud vəziyyətə cavab vermək məcburiyyətində qaldı. Bu termin XX əsrin 60-cı illərdə Kanadada

istifadə edilmişdir. Mədəni plüralizmdə ölkə əhalisinin etnik-mədəni, irqi, dini müxtəlifliyinin mövcud vəziyyətini ifadə etmişdir. Bu termin nəhayət 1971-ci ildə Kanadada Baş nazir Pyerre E. Trudeau hökuməti tərəfindən Rəsmi multikulturalizm aktı Kanadada qəbul edilmişdir. Multikulturalizm müxtəlif mədəni qrupların, sektaların bir cəmiyyətdə yaşamasını və etnik-mədəni müxtəlifliyin qorunub saxlanmasını üstün tutduğu halda, liberalism liberal-demokratik ideyaları, fərdlərin hüquq və azadlıqlarına hörməti və onların müdafiəsini üstün tutur. Multikulturalizmə liberalizm aspektindən baxdıqda, liberal demokratik prinsip və dəyərlər aspektindən diqqət yetirməyi tələb edir. Hind əsilli məşhur siyasətçi, professor Çandran Kukatasın multikulturalizmə klassik liberalizm aspektindən yanaşır. Bununla da o,müasir liberalizmə arxalanan Kimlikadan fərqlənir. Klassik liberalizm dövlətin səlahiyyətini azaldaraq əsas diqqəti fərdin azadlıqları üzərinə yönəltdiyi halda müasir liberalizm bərabərliyə çatmaq, tərəqqini sürətləndirmək üçün hökumətdən istifadə olunmasını iddia edir.Müasir liberalizm klassik liberalizmdən fərqli olaraq, dövlətin müdaxilə etməməsi prinsipini cəmiyyətin əziyyət çəkdiyi məsələlərin çıxış yolu hesab etmir. Klassik liberalizm şəxsi azadlığı dövlət üzərinə qoyulan məhdudiyyətlərin nəticəsi kimi qavradığı halda, müasir liberalizm dövlət tərəfindən yeni hüquqların təşkil edilməsini nəzərdə tutur.Klassik liberalizm fərqli mədəni azlıqların yaşamasına daha tolerantlıq aspektindən yanaşır. Ona görə ki, liberal cəmiyyətdə mədəni azlıqların olması normaldır. Buna görə də, liberalizmin əsas vəzifəsi müxtəlif dəyərlərin daşıyıcılarının dinc və münaqişəsiz birgə yaşamasına imkan verən yol axtarıb tapmaqdır.Bu cür axtarış zamanı ziddiyyətlər və çətinliklər üzə çıxsa da, liberal aspektin əsas üstünlüyü ondan ibarətdir ki, nəyin yaxşı və düzgün olması haqqında ziddiyyətlər meydana çıxdıqda, məsələ dominant fikrin digərlərinə yeridilməsi yolu ilə həll edilmir.Klassik liberalizmdə bir cəhətdən fərdiyyətçilik ön plandadır. Digər tərəfdən isə burada tolerantlıq zərurət kimi özünü bildirir. Müasir liberalizmdə qruplar və qrup hüquqları ön plandadır və Vill Kimlikanın irəli sürdüyü "kənar müdafiə" konsepsiyası vasitəsilə həssas və zəif olan müxtəlif qrupların, xüsusən də milli azlıqların başqalarına münasibətdə qorunmasına və bərabərliyinin təmin olunmasını nəzərdə tutur. Kimlika qrup üzvü olan ayrı-ayrı fərdlərə qarşı tətbiq edilən daxili məhdudiyyətlərə haqq qazandırmır.Amma bununla belə o, fərdləri ön plana da çəkmir. Klassik liberalizmin nümayəndəsi, mütəxəssis Çandran Kukatas isə əsas diqqəti fərdlərin azadlığı üzərinə yönəldir və dövlətin rolunu məhdudlaşdırımasını müdafiə edir.Kimlika qruplar arasında tolerantlığı vacib hesab etdiyi halda, Kukatas multicultural cəmiyyətdə fərdlər arasında tolerantlığı zərurət liberalizmin nümayəndəsi Barri Brayan fərdlərin bərabərliyi prinsiplərini qəti olaraq müdafiə edir.

ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN XARİCİ SİYASƏT KONSEPSİYASI

İsmayılova S.İ.
Naxçıvan Dövlət Universiteti
E-mail: sugraismayilova04@gmail.com

Azərbaycanın xarici siyasət sahəsindəki uğurları tanınmış, görkəmli və uzaqgörən siyasi xadim ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün qazandığımız bütün uğurların əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub.

Ulu öndər Heydər Əliyev 1969-cu ilin iyulun 14-də respublikaya rəhbər seçildi. Həmin gündən Azərbaycanda keyfiyyətcə yeni mərhələ başlandı. Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə dövlət idarəçiliyində yeni iş metodu yarandı, elm, təhsil və mədəniyyət sahələrində mühim işlər görüldü.Süleyman Tatlıyevin xatirələrində: "Heydər Əliyev həm özünə, həmdə tabeçiliyində olanlara qarşı çox tələbkar insan idi. Düzlüyü çox sevirdi, intizamsızları, layiqsiz hərəkətlərə yol verənləri, rüşvətxorları görməyə gözü yox idi və bütün bunlara qarşı qətiyyətlə mübarizə aparırdı."

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 14 illik fəaliyyəti dövründə respublikamızın həyatında elə bir sahə olmadı ki, orada inkişaf, tərəqqi müşahidə olunmasın. Onun hakimiyyəti illərində ölkənin iqtisadiyyatı, xalqın sosial rifah halı, mədəniyyət, incəsənət, elm, təhsil, səhiyyə və digər sahələr inkişaf edərək Azərabaycanı keçmiş müttəfiq respublikalar sırasında ən yüksək yerlərdən birinə gətirib çıxardı. Azərbaycan mədəniyyəti beynəlxalq aləmdə özünə yol açdı. Azərbaycan dünyanın 120-dən çox ölkəsi ilə mədəni əlaqələr saxlayırdı. 80-ci illərin ortalarından başlayaraq Azərbaycan xarici ölkələrlə mədəni əlaqələrə dair birbaşa sazişlər bağladı. Azərbaycanın belə inkişaf etməsi SSRİ rəhbərliyində narahatlığa səbəb oldu. SSRİ-nin o vaxtkı rəhbəri Mixail Qarbaçov ulu öndərimiz Heydər Əliyevi SSRİ rəhbərliyindən uzaqlaşdırdı və beləliklə ulu öndərin hakimiyyətdə olduğu vaxtlarda Azərbaycan torpaqlarına qarşı təcavüz planlarını reallaşdıra bilməyən qüvvələr xeyli fəallaşaraq öz işğalçılıq niyyətlərini həyata keçirməyə başladılar. 1988-ci

ildə vəziyyət gərginləşməyə başladı və ictimai-siyasi böhran getdikcə ölkədə vəziyyəti ağırlaşdırdı. 1990-cı il yanvarın 19-da SSRİ Ali Reyasət Heyəti yanvarın 20-də saat 00-dan "Bakı şəhərində fövqəlada vəziyyət tətbiq edilməsi haqqında" fərman verdi.Xalqa məlumat verilməsin deyə yanvarın 19-da saat 19:27-də Azərbaycan Televiziyasının enerji bloku partladılaraq sıradan çıxarılmışdı. Bakı şəhərində qanlı qırğın törədildi. Bu hadisə tariximizə "Qanlı 20 Yanvar" kimi daxil olmuşdur. Azərbaycan xalqı arasında sovet sisteminə nifrət daha da gücləndi.

Suveren müstəqillik və azad olmaq uğrunda mübarizə əməli vəzifəyə çevrildi. Azərbaycan Respublikası Ali Sovetinnin 1991-ci il avqustun 30-da çağrılmış növbədənkənar sessiyası "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyannamə" qəbul etdi.

1991-ci ildə SSRİ-nin süqut etməsiylə Azərbaycan 18 oktyabrda dövlət müstəqilliyini bərpa etdi. Lakin ölkədə xaos, anarxiya, özbaşınalıq hökm sürürdü. Belə bir şəraitdə Azərbaycanda idarəetmə təcrübəsi olan, xalqı arxasınca aparmağa qadir bir şəxsiyyətə ehtiyac yaranmışdı. Xalqın xahişini qəbul edən ulu öndər Heydər Əliyev böyük Vətən, xalq sevgisi nümayiş etdirərək yenidən hakimiyyətə qayıtdı.

1993-cü ilin yayında Azərbaycanda baş verən hakimiyyət dəyişikliyi onun xarici siyasət fəaliyyətinin də yeniləşməsinə və ölkənin strateji maraqları əsasında yenidən qurulmasına şərait yaratdı. Azərbaycan Respublikasının Prezidenti ulu öndər Heydər Əliyev ilk növbədə keçmiş sələflərinin xarici siyasət sahəsində buraxdığı səhvləri və bunun nəticəsində Azərbaycan ətrafında formalaşmış son dərəcə gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq, ölkənin strateji maraqlarını əks etdirən yetkin xarici siyasət kursu formalaşdırmaq zərurəti ilə üzləşdi.

Ulu öndər Heydər Əliyev siyasi hakimiyyətə gəldikdə yeni xarici siyasət kursunun əsas istiqamətlərini müəyyənləşdirdi. Bu yeniləşmiş xarici siyasət xəttində ilk növbədə bir sıra ən mühüm vəzifələrin yerinə yetirilməsi qarşıya qoyulmuşdu. Həmin vəzifələrdən biri və ən əsası Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxarmaq, ölkəmiz haqqında yaradılmış mənfi ictimai rəyi dağıtmaq və xalqımızın haqq işini dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq respublikamız ətrafındakı informasiya blokadasını yarmaqdan ibarət idi. Ona görə də yeni xarici siyasət xətti üçün hər şeydən əvvəl Ermənistanla müharibəni dayandırmaq və dinc şərait təmin edilməli idi. Bu məqsədlə 1994-cü ilin may ayından Ermənistanla atəşkəsə nail olunması, qanunsuz hərbi birləşmələrin buraxılması və ölkə daxilində sabitlik yaratmaq yolunda atılan addımlar sayəsində yeni xarici siyasət xəttini ardıcıllıqla həyata keçirilməsi üçün lazım olan əlverişli şərait yarandı. Azərbaycanın beynəlxalq münasibətlər sistemində layiqli yer tutması üçün dünya siyasətinin formalaşmasında aparıcı rol oynayan dövlətlərlə və beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlərin tənzimlənməsi və inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edirdi

Ümummilli lider Heydər Əliyev bilavasitə rəhbərliyi ilə müstəqil Azərbaycanın dünya standartlarına uyğun ilk Konstitusiyası hazırlanmış və 1996-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunmuşdur. Konstitusiyanın qəbul olunmasıyla Azərbaycanda hakimiyyət bölgüsünün qanuni-hüquqi əsasları bəyan olundu və bu iş müvəfəqiyyətlə həyata keçirildi. Ulu öndər Heydər Əliyevin uğurlu siyasətinin sayəsində Azərbaycan Respublikası diplomatiya sahəsində bir-birinin ardınca möhtəşəm qələbələr əldə etdi, inkişaf etmiş ölkələrlə dostluq və əməkdaşlıq münasibətləri quruldu, Azərbaycan 150-dən artıq ölkə ilə diplomatik əlaqələr yaratdı.

Azərbaycanın xarici siyasət fəaliyyətinin formalaşması və prioritet vəzifələrin müəyyənləşməsi Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun dövründə Azərbaycanın beynəlxalq münasibətlər sistemində iştirakı və özünəməxsus mövqelər qazanması üçün lazimi tədbirlər görüldü, ölkənin xarici aləm üçün kəsb etdiyi maraqlar dairəsi, geosiyasi və iqtisadi əhəmiyyəti düzgün dəyərləndirildi, beynəlxalq aləmin Cənubi Qafqazda, Xəzər regionunda və Azərbaycanda təmsil olunan, üst-üstə düşən, kəsişən maraq dairələri müəyyənləşdirildi. Beynəlxalq münasibətlərin yeni düzəni, dövlətlərarası əlaqələrin prinsipləri, beynəlxalq hüququn təsir gücü və dairəsi, dünyanın böyük dövlətlərinin, regionun aparıcı ölkələrinin və beynəlxalq təşkilatların Azərbaycanla bağlı yürütdüyü və yürüdə biləcəyi siyasət təhlil edildi.Ulu öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyini qorumaq və möhkəmləndirmək üçün tarixən formalaşmış xarici siyasi, iqtisadi və mədəni əlaqələrdən birbaşa imtina edilməsi kimi məhdud baxışlara əsaslanan xarici siyasətə son qoymuşdur. Bu əlaqələrdən Azərbaycanın mənafeləri naminə səmərəli istifadə etməklə, region dövlətlərinin köklü mənafelərinə və maraqlarına toxunmamaq şərti ilə çoxşaxəli və tarazlaşdırılmış siyasət həyata keçirilməyə başlanmışdır.Əvvəlki xarici siyasətin ən təhlükəli məqamlarından biri Rusiya ilə birmənalı qarşıdurma mövqeyi dəyişdirilərək əlaqələr müsbət istiqamətdə inkişaf etdirilmişdi. 1993-cü ilin sentyabr ayında Heydər Əliyev Rusiyaya səfər etmişdir. Ulu öndərimiz Moskvada olarkən Rusiya Prezidenti və digər rəsmi şəxslərlə görüşlər keçirilmişdi. 1993-cü ilin sentyabr ayının 24-də Azərbaycan Respublikasının MDB-yə daxil olmasına dair qərar qəbul olunmuşdur. Eyni zamanda, müstəqil dövlətçilik problemlərini həll

etmək, bu yolda qarşıya çıxan təzyiqlərə birgə sinə gərmək, yeni iqtisadi və dövlətlərarası münasibətlərə uyğun ikitərəfli və çoxtərəfli əlaqələr yaratmaq məqsədilə digər MDB dövlətləri, Ukraniya, Belorusiya, Gürcüstan, Moldova və xüsusən 1993-cü ilin sonuna qədər Azərbaycanla kəskin münasibətlərə malik olan Orta Asiya respublikaları ilə münasibətlərin köklü şəkildə yenidən qurulması üçün yeni forma və vasitələrdən istifadə edildi. 1997-ci ilin iyul ayında Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında" müqavilə imzalanmışdır.

Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra İran və Türkiyə ilə də sıx qarşılıqlı münasibətlər formalaşdırılmışdır. Türkiyə ilə əlaqələr ən yüksək strateji tərafdaşlıq səviyyəsinə çatdırılmışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyənləşdirilən balanslaşdırılmış xarici siyasət xətti müstəqil dövlətimizin regionda və dünyada baş verən əsas iqtisadi və siyasi proseslərdə layiqincə təmsil olunmasına, milli mənafelərin praqmatik şəkildə müdafiəsinə imkan yaratmışdır. Sonrakı dövrdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilən bu siyasət Azərbaycan Respublikasının Cənubi Qafqaz və Mərkəzi Asiya regionunun lider dövləti statusuna yüksəlməsinə səbəb olmuşdur. Azərbaycan dünyanın ayrı-ayrı qitələrində yerləşən müxtəlif inkişaf səviyyəsində olan ölkələrlə əlaqələrini inkişaf etdirməkdədir.

AZƏRBAYCAN MULTİKULTURALİZMİNİN TARİXİ

Məmmədov F.N.
Sumqayıt Dövlət Universiteti
E-mail: http://memmedovfuad999@gmail.com

Azərbaycan, müxtəlif etnik və mədəniyyət qruplarının birləşdiyi bir ölkədir. Bu, qlobal dünyanın çoxmillətlilik və multikulturalizm ideologiyasına tam uyğun gəlir. Azərbaycan, dünyada çox az ölkələrdən biridir ki, bir sıra müxtəlif mədəniyyətlər, dil və dinlər mövcuddur və bu da ölkəni müxtəlifliklərin qəbul edildiyi, təbii və mədəniyyət baxımından zəngin ölkələrdən biri edir.Multikulturalizm Azərbaycanda uzun illərdən bəri mövcuddur. Bu, ölkədəki fərqli etnik və mədəniyyət qruplarının bir-biri ilə təması nəticəsində ortaya çıxan birləşmə və birlik simvoludur. Ən mühüm şey, Azərbaycan bu prosesdə müxtəlif qrupların haqqlarına hörmət və diqqətlə yanaşıb, onların mədəniyyət və dilinə dəyər verir. Ən populyar Azərbaycan mədəniyyətləri arasında Azərbaycan musiqisi, xalq rəqsləri, deyişməli rəqslər, dəstə ədəbiyyatı və eləcə də milli mətbəx var.Azərbaycan hakimiyyəti də multikulturalizmi dəstəkləyir və ölkənin bu zənginliyini və müxtəlifliyini qorumaq üçün bir sıra tədbirlər görür. Bu tədbirlər arasında mərkəzi məktəblərdə müəllimlərə qlobal və mədəni təcrübələr təqdim edilməsi, dövlət tərəfindən qəbul edilən milli minoritətlərin təmin edilməsi, etnik azlıqların sosial və mədəni təminatının təmin edilməsi və eləcə də ölkənin multikultural fərqliyyətlərinin qorunması üçün bir sıra məşğulluqlar yer alır.Azərbaycan, tarixi boyunca müxtəlif xalqların və mədəniyyətlərinin yaşadığı bir ölkə olmuşdur. Bu, ölkədəki çoxmillətli və çoxmədəniyyətli fəaliyyətlərinin inkişafına da təkan vermişdir. Ölkədə yüzlərlə məscid, kilsə və sinagoga, fərqli etnik qrupların mədəniyyətlərini yansıtan muzey və xalq dastanları muzeyləri mövcuddur.Ölkənin fərqli etnik və mədəniyyət qrupları arasındakı hörmət və münasibətlərinin İnkişafı üçün müxtəlif tədbirlər təşkil olunur və dəstəklənir. Bu, ölkədə mədəniyyət və ictimaiyyət sahələrində inkişaf etməyə və daha müxtəlif və zəngin bir mədəniyyət təcrübəsinə sahib olmağa imkan verir.Azərbaycanın multikulturalizmə dair siyasəti, əsasən, hörmət, tolerantlıq və diyaloq prinsiplərində əsaslanır. Ölkədə müxtəlif etnik və mədəniyyət qrupları arasında bir arada yaşamaq və hörmətli münasibətlər qurmaq üçün çeşitli tədbirlər təşkil edilir.

Hökumət tərəfindən multikulturalizmə dair qərarlarda müxtəlif etnik və mədəniyyət qruplarının təmsilçilərinin fikirləri də nəzərə alınır. Bu, ölkədə müxtəlif qruplar arasında diyaloq və münasibətli qarşılıqlı əlaqələrin yaradılmasına kömək edir.Azərbaycan, müxtəlif etnik və mədəniyyət qruplarının mədəniyyət və ictimaiyyət sahələrində fəaliyyət göstərməsinə imkan verən tədbirlər təşkil edir. Bu tədbirlər, əsasən, milli mədəniyyətin və fərqli etnik qrupların mədəniyyətlərinin təbliği,mədəniyyət tərəqqi proseslərinə qoşulmaq, təcrübə mübadiləsi və s. kimi sahələrdə həyata keçirilir.Ölkədəki mədəniyyət və ictimaiyyət sahələrindəki inkişaf, ölkənin müxtəlif etnik və mədəniyyət qrupları arasında diyalog və hörmətli münasibətlərin yaradılması üçün əhəmiyyətli bir rol oynayır. Bu, ölkənin multikulturalizminin inkişafına və müxtəlif qrupların bir arada yaşamasına kömək edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, ölkənin multikulturalizminin inkişafı və müxtəlif etnik və mədəniyyət qruplarının bir arada yaşamaq üçün hörmətli münasibətlər yaratılması üçün bir sıra

fəaliyyətlər göstərir. Ölkədəki müxtəlif etnik və mədəniyyət qruplarının fəaliyyət göstərməsi üçün zəmin yaradır və bu qrupların mədəniyyət və ictimaiyyət sahələrində fəaliyyətlərinin təşviqi üçün dəstək olur.Prezident İlham Əliyev, müxtəlif etnik və mədəniyyət qruplarının ədalətli nümayəndəçiliyinə və qrupların təmsilçilərinin hökumət qurumlarında İştirakına da diqqət yetirir.Heydər Əliyev, Azərbaycanın multikulturalizminin inkişafında önəmli rol oynamış və ölkənin müxtəlif etnik və mədəniyyət qruplarının bir arada yaşaması üçün hörmətli münasibətlərin yaradılması üçün sıxı işlər görüb. Ölkədə müxtəlif etnik və mədəniyyət qruplarının mövcudluğunu və onların bir-biri ilə yanaşı mövcudluğunun əhəmiyyətini dəfələrlə vurğulayıb. O, ölkədəki müxtəlif mədəniyyət qruplarının təbii sərvətləri olduğunu və bu sərvətlərin bütövlüklə qorunması və təşviqi üçün girişilən fəaliyyətlərin müsbət nəticələr verdiyini dəfələrlə vurğulayıb.

Azərbaycan, qədim dövrdən bəri bir neçə etnik qrupun yaşadığı bir ölkə olmuşdur. Qədim dövrdən etibarən Azərbaycanda çoxsaylı etnik qruplar, xalqlar və mədəniyyətlər yaşamışdır. Bu, ölkənin coğrafi mövqeyindən və təriqəti mədəniyyət mənşəyindən qaynaqlanır.Azərbaycanda, qədim dövrdən bəri yaşayan etnik qruplardan biri türklər olmuşdur. Türklərin Azərbaycanda qeyri- mümkün mənada yaşadığı ilk dövrlər Hunlar dövrüdür. Bundan sonra Sasanilər və Sasani İmperiyası, Qadirlər, Selçuklu və İlhanlılar dövründə Azərbaycanın müxtəlif bölgələrində yaşayan türklər mövcud olmuşdur.Azərbaycanın qədim dövründə yaşayan digər etnik qruplar arasında qafqazlılar, yunanlar, ermənilər, qazaxlar, talışlar,ləzgilər, udinlər və digərləri də yer alır.Qədim dövrdə Azərbaycanda multikulturalizm, bir neçə etnik qrupun bir arada yaşaması və bir-biri ilə etibarlı münasibətlər qurması ilə mümkün olmuşdur. Bu, ölkənin tərəqqi və inkişafına dəstək olmuş və ölkədə bir-birindən fərqli etnik və mədəniyyət qruplarının özündən İstifadə etməyə imkan vermişdir.

AZƏRBAYCAN VƏ AVROPANIN MULTİKULTURALİZM SİYASƏTİNƏ MÜNASİBƏTİ

Muradova Q.Ş.
Sumqayıt Dövlət Universiteti
E-mail:muradovsahin2016.12@gmail.com

Multikulturalizm sözü çoxmədəniyyətlilik mənasına gəlir. Multikulturalizmin XX yüzilliyin 60-cı illərində Kanada da meydana gəlməsinə baxmayaraq, Qərbdə multikulturalizm kəskin formada böhran keçirir. Xüsusilə də Almaniya, Fransa kimi ölkələrdə multikultural dəyərlər yavaş-yavaş öz əhəmiyyətini itirməyə başlamışdır. Hətta bir sıra dövlət nümayəndələri belə Avropada xüsusilə də Almaniyada multikulturalizm siyasətinin uğursuzluğa düçar olduğunu açıq şəkildə qəbul edirlər. Multikulturalizm dedikdə ağla ilk öncə həm xalqlar, həm də dinlər arası qarşılıqlı əlaqə gəlir. Çox təəssüf ki, bir sıra Avropa ölkələrində bu dəyərlər qorunmur. Bunun nəticəsi olaraq bir sıra etnik, dini və mədəni problemlərin yaranması halı özünü göstərir. Bu yaşanan hadisələrin ən böyük səbəbi isə multikulturalizmin özünü siyasi maraqlarla əvəz etməsidir. Bu ölkələrdə əsas hədəf mərkəzi isə daha çox qeyri-etnik xalqlar və müsəlman miqrantlar olmuşdur. Elə Qərb ölkələrində izolyasiya , aparteid və islamafobiyanın mövcud olması həm qeyri-vətəndaşlara, həm də müsəlmanlara qarşı aparılan siyasətin ən böyük göstəricisidir. Bir sıra tarixi proseslər Avropa xalqlarının müsəlman xalqlarına, müsəlman dövlətlərinə qarşı siyasətlərinin hansı mövqedə olduğunu və bu mövqenin dəyişmədiyini göstərir. Ümumiyyətlə bəşər cəmiyyəti yarandığı zamandan Şərq, müsəlman ölkələri daima elm, mədəniyyət və incəsənətin beşiyi hesab olunur. Elmə məlum olan ən böyük tarixi şəxsiyyətlərin, elm adamlarının kimliyinə baxdıqda Şərq ölkələrinin nümayəndələri olduqlarını görə bilərik. Hətta belə bir tarixi faktda mövcuddur ki, Avropalılar XIII əsrdən başlayaraq Şərqdən yeməkdən qabaq əllərini yumağı, isti hamamlarda çimməyi , yel dəyirmanlarından istifadəni öyrənmişlər. Bütün bu hadisələr müsəlman ölkələrinin və Şərqin uzaq keçmişdən bəri hər zaman öndə olduğunu sübut etmişdi. Lakin Qərb ölkələri isə islam dininə müxtəlif donlar geyindirərək xalqlar arasında vahimə, qorxu yaratmağa çalışmışdılar. Bir sıra terror hadisələrinə Qərb ölkələri dini don geyindirməyə çalışmışdılar. Xüsusilədə bu hadisə 2001 -ci il 11 sentyabr hadisələrindən sonra daha müntəzəm xarekter almışdır. Bu hadisəni bəhanə edərək Şərqin sürətlə inkişaf etməkdə olan ölkələrinə (İraq) müdaxilə etməyə başlamışdılar. Lakin , Avropanın öz tarixi keçmişinə baxdıqda ayrı-seçkiliyin, söz azadlığının hansı səviyyədə olduğunu görə bilərik. Xüsusilə də qara dərili əhaliyə qarşı olunan ayrı -seçkiliyi görməzdən gəlmək qeyri-mümkündür. Elə buna görə də Corc Stinni haqqında danışmaq çox doğru olardı. O, yeddi və on bir yaşlı Amerikalı qızların öldürülməsində şübhəli bilinərək, edam qərarına hökm verilmişdir. Onun edam üsulu isə elektrik stuluna bağlanaraq öldürülməsi idi. Corc Stinni 1944-cü il 16 iyun tarixində elektrik stuluna bağlanaraq edam olundu. O, ən gənc 14 yaşlı Amerikalı məhkum idi. Lakin onun törətdiyi cinayət hadisəsi ilə bağlı heç bir yazılı məlumat və ya sənədlər yox idi. Bəlkə də Corc

Stinninin ən böyük günahı onun qara dərili olması idi. Zaman keçdikcə bu ayrı-seçkilik dövlət siyasətinə inteqrasiya etməyə başlamışdır. Məsələn: Aparteid siyasəti. Bu adı çəkilən ayrı-seçkilik yalnız qara dərili əhali üçün tətbiq olunmamışıdır. Beləki yəhudi xalqı üçün nəzərdə tutulmuş antisemitizm siyasəti bunun ən böyük təzahürçüsüdür. Azərbaycanda multikulturalizm siyasəti ilə Qərb ölkələrində ki, siyasətdən tamamilə fərqlənir. Azərbaycan xalqı tarix boyu öz qonaqpərvərliyi, tolerantlığı və etik davranışları ilə hər zaman öndə olmuşdur. Elə bu səbəbdən də Azərbaycanda multikulturalizm siyasəti uğurla davam etməkdədir. Çünki Azərbaycanda multikulturalizm artıq dövlət siyasətinə çevrilmişdir. Doğrudur tarixən Azərbaycan çox millətli , çox konfensiyalı olubdur. Eyni zamanda burada daima mədəniyyətlər arası , dinlər arası dialoq hakim olmuşdur. Xalqlar arasında heç bir münaqişə və fikir ayrılığı olmamışdır. Bizi birləşdirən daima multikultural dəyərlər olmuşdur. Amma bu dəyərlərin, bu müxtəlifliklərin mövcud olması kifayət deyildi və bunu bir dövlət siyasətinə qaldırmaq çox böyük əhəmiyyətə malikdir. Bizə məlumdur ki, Azərbaycan Respublikası ölkə daxilində yaşayan xalqların təhlükəsizliyini daima müdafiə edir. Eyni zamanda Azərbaycan nəyinki xarici vətəndaşları , eyni zamanda onların ibadət evlərini də qoruyur. Buda Azərbaycanda multikulturalizmin sözün əsl mənasında nə qədər doğru tətbiq olunduğunu sübuta çatdırır.

Ulu Öndər uzaq görənliklə bu siyasətin əsasını qoymuşdur. Bu gün Azərbaycan multikulturalizmin əsas ünvanlarından biridir. Azərbaycan multikulturalizminin modeli heç də statistik bir siyasət deyildi. Yəni yalnızca daxili sabitliyə yönəlmiş, Azərbaycanda xalqlar arasında münasibətə yönəlmiş siyasət olmaqla kifayətlənməmiş və qlobal miqyasa çıxdı. Bu gün Ulu öndər Heydər Əliyevin qoyduğu irsi bu gün İlham Əliyev uğurla həyata keçirir. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqi belə idi: " Azərbaycan mulrikultulazimlə bağlı çox böyük iş göstərir ki, multikulturalizm yaşayır. Baxmayaraq ki , bəzi siyasətçilər deyirlər ki, multikulturalizm iflasa uğrayıb. Amma Azərbaycanda yaşayır və bu meyllər , bu ideyalar güclənir , ictimaiyyətdən də daha çox dəstək alır. Biz bu yolla gedəcəyik". Azərbaycan yenidən dövlət müstəqilliyini bərpa etdikdən sonra multikultural mühit daha da inkişaf etmişdir. Müstəqillikdən sonra beynəlxalq təşkilatlarla əlaqə (UNESKO, İslam Əməkdaşlıq Təşkilatı, BMT) multikulturalizm siyasətinin daha da inkişaf etdirilməsinə şərait yaranmışdır. Bu gün bizi bütün dünya təşkilatları və xarici dövlətləri Azərbaycanın multikulturalizm modelini öyrənirlər. Bunun əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycan mədəniyyətlər arası və dinlər arası dialoqun mərkəzinə çevrilmişdir. Yalnızca dildə deyil eyni zamanda beynəlxalq arenadakı fəailiyyət bunun ən bariz nümunəsidir. Azərbaycan 2008-ci ildən bəri qlobal formlara və humanitar formlara ev sahibliyi edir. Eyni zamanda xarici ölkələrdə bu model təbliğ olunur. Sırf multikultuklturalizm mərkəzi tərəfindən , dünyanın aparıcı elm mərkəzlərində Azərbaycan multikulturalizm modeli tədris olunur. Eyni zamanda xüsusi olaraq vurğulamaq lazımdır ki, Heydər Əliyev fondu və Mehriban xanım Əliyevanın fəailiyyəti nəticəsində yalnızca Azərbaycanda deyil , dünyada mədəni irsin qorunması istiqamətində çox böyük layihələr həyata keçirilmişdir. 2021 -ci ildə Vatikanda dini abidələrin bərpası ilə bağlı anlaşmanın yenidən imzalanması və bu fəailiyyətin yenidən uzadılması bunu göstərir ki, Azərbaycan xalqı eyni zamanda , Azərbaycan hakimiyyəti mənəvi dəyərlərə, multikultural dəyərlərə sadiqdir və bu Azərbaycan xalqının mənəvi sərvətidir. Azərbaycan bütün dinlərə, bütün inanclara eyni yanaşır, bərabər yanaşır , heç vaxt öz, özgə münasibətlər bəsləməmişdir. Azərbaycan multikulturalizmi bir ölkə çərçivəsində qapalı inkişafını deyil, hərtərəfli inkişafını eyni zamanda həm dinlərin həmdə mədəniyyətlərin qorunmasını təmin edir. Zaman göstərdi ki, Ulu Öndər tərəfindən əsası qoyulmuş multikulturalizm siyasəti bu gün də uğurla davam etdirilir. II Qarabağ müharibəsi göstərdi ki, Azərbaycanda yaşayan bütün xalqlar bu torpaqları öz vətəni hesab edir və qanları bahasına öz canlarını qurban verdilər və hər kəs bir ideyanın ətrafında birləşdi ki, bu ideya "azərbaycançılıq" ideyası idi.

MÜASİR DÖVRDƏ ALMANİYADA MÜSƏLMAN MİQRANTLARIN MƏSKUNLAŞMALARI BURADA İSLAMOFOBİYANIN YAYILMASININ SƏBƏBİ KİMİ

Nəcəfli B.E.
Azərbaycan Dillər Universiteti
E-mail: bakhtiyarnajafli@gmail.com

Almaniyada müsəlmanların məskunlaşmaları haqqında ilk rəsmi məlumat II Dünya müharibəsindən sonrakı dövrə təsadüf edir. Məlum olduğu kimi, II Dünya müharibəsi başa çatdıqdan sonra Almaniya Federativ Respublikasının (AFR) hökuməti dağılmış ölkə iqtisadiyyatını dirçəltmək məqsədilə xarici ölkələrdən ucuz

əmək qüvvəsinə böyük ehtiyac duyurdu. Bu ehtiyacın qarşılanması üçün hökumət tərəfindən "qastabaytə" (qonaq-işçi) proqramı qəbul olundu. 1950-1960-cı illərdə bu proqramla Almaniya bir neçə ölkə ilə (İtaliya, İspaniya, Yunanıstan, Türkiyə, Mərakeş, Cənubi Koreya, Portuqaliya, Tunis, Yuqoslaviya) işəgötürmə ilə bağlı müqavilələr imzaladı. Qonaq-işçi proqramı 1973-cü ilədək davam etdi. Nəticədə bu ölkələrdən yüz minlərlə işçi müəyyən müddətə, yəni müvəqqəti miqrant kimi AFR-ə qonaq-işçi olaraq gəldi.

Qonaq-işçilər əsasən ölkənin sənaye sektorunda yüksək ixtisas tələb etməyən işə cəlb olunurdular. Onların aralarında türklər və ərəblər çoxluq təşkil edirdilər. Bu fakt ilk növbədə müsəlmanların yaşadıqları ölkələrdə işsizliyin yüksək səviyyədə olmasından xəbər verirdi. Müsəlman ölkələrindən olan qonaq-işçilərin digər ölkələrdən olan qonaq-işçilərdən daha bir fərqi onların əksəriyyətinin müqavilə müddəti bitdikdən sonra Almaniyada qalıb burada daimi yaşamaları və bir müddət keçdikdən sonra ailə üzvlərini də bura gətirmələri olmuşdur. Bu, sonrakı illərdə ölkədə müsəlman əhalisinin sayının sürətlə artmasına səbəb olan əsas amillərdən biri oldu. Hazırda İslam Almaniyada yaşayan milli azlıqların sitayiş etdikləri ən böyük azlıq dinidir. Müsəlman icması isə Almaniyada xristianlardan sonra ən böyük dini icma hesab olunur.

Almaniyaya, eləcə də digər Qərb ölkələrinə əsasən Yaxın Şərq və Şimali Afrikadan kütləvi şəkildə miqrantların gəlmələri bu ölkələrdə əhalinin sosial-iqtisadi vəziyyətini çətinləşdirmişdir.İmmiqrasiyanın kütləviliyi bu ölkələrdə qaçqın böhranına səbəb olmuşdur. İkinci Dünya Müharibəsindən sonra Avropanın ən fəlakətli humanitar böhranı hesab olunan qaçqın böhranı 2015-ci ilin yazında başladı.

Hazırda Almaniyada 23 ölkədən müsəlman mənşəli miqrant yaşayır. Miqrantların sayına gəldikdə, 2019-cu ildə Almaniyada əsasən müsəlman mənşəli ölkələrdən miqrant əsilli 5,3-5,6 milyon arasında müsəlman yaşayırdı. Bu, Almaniyanın 83,1 milyon əhalisinin 6,4 – 6,7%-ni təşkil edirdi. Son illərdə ölkədə müsəlmanların sayında artım müşahidə olunur. Belə ki, 2015-ci ildə ölkədə əsasən müsəlman mənşəli ölkələrdən miqrant əsilli 4,4 – 4,7 milyon arasında müsəlman yaşayırdı ki, bu da ovaxtki Almaniyanın 82,2 milyon əhalisinin 5,4 – 5,7%-ni təşkil edirdi. Göründüyü kimi, cəmi 4 il ərzində ölkədə müsəlmanların sayı 0,9 – 1,1 milyon arasında artmışdır. Təbii ki, bu artımın əsas səbəbi Yaxın Şərq, Şimali Afrika, Cənubi Asiya və digər region ölkələrində baş verən hərbi toqquşmalar nəticəsində insanların Avropaya, o cümlədən Almaniyaya kütləvi şəkildə köçmələri olmuşdur. Məlum olduğu kimi, qeyd olunan regionların əhalisinin böyük əksəriyyətini müsəlmanlar təşkil edir.

Almaniyada müsəlmanların məskunlaşmaları ölkədəki sosial-iqtisadi vəziyyəti çətinləşdırır. Ucuz əmək qüvvəsi təklif edən miqranlar almanlarla rəqabətdə qalib çıxırlar. Yerli əhali arasında işsizlərin sayı daim artır. İşsizliklə üzləşən almanlar bütün nifrətini müsəlman miqrantlara yönəldirlər. Bu, onlarla müsəlman miqrantlar arasında ədavət və qarşıdurma yaradır. İcmalar arasındakı ədavət və qarşıdurma öz əksini ölkədə islamofobiyanın yayılmasında tapır.

Məlum olduğu kimi, islamofobiya dözümsüzlüyün, irqçiliyin və ayrıseçkiliyin geniş yayılmış formalarından biridir. İslamofobiya bir sosial hadisə, ideologiya kimi İslama, bu dinə mənsub olan insanlara münasibətdə qorxunu və nifrəti təbliğ edir. Müsəlmanlara, İslama münasibətdə nümayiş olunan qorxu və nifrət qərəzli xarakter daşıyır. Çünki heç bir cinayət törətməyən, günahsız insanlar dini mənsubiyyətlərinə görə nifrətə, təhqirə və təqibə məruz qalırlar. Buna görə də haqlı olaraq islamofobiya ayrıseçkiliyin və irqçiliyin geniş yayılmış formalarından biri hesab olunur.

Müsəlmanların əksəriyyəti Almaniyaya miqrasiya nəticəsində gəldiklərinə görə onlar əsasən keçmiş Qərbi Almaniyada məskunlaşmışlar. Məlum olduğu kimi, 1989-cu ilə qədər Şərqi Almaniya dünya kommunist sisteminin bir parçası olaraq qapalı dövlət idi və buna görə də bura xarici ölkələrdən insanların miqrasiya etmək imkanları yox idi.

Almaniyada müsəlmanların məskunlaşmaları ölkədəki sosial-iqtisadi vəziyyəti çətinləşdırməklə yanaşı mədəniyyət sahəsində də ciddi problemlər yaradır. Avropa ölkələrinə köçən müsəlman miqrantların çoxu etnik-mədəni dəyərlərinin müxtəlifliklərі səbəbindən düşdükləri yeni sosial mühitə adaptasiya oluna bilmirlər. Onlar müəyyən obyektiv və subyektiv səbəblərdən yeni cəmiyyətə inteqrasiya olunmurlar. Bu, özünü ilk növbədə müsəlmanların məskunlaşdıqları ölkənin dövlət dilini, tarixini və mədəniyyətini öyrənmələrinə maraq göstərməmələrində, öz həmyerliləri ilə kompakt şəkildə ölkənin müəyyən ərazilərində yaşamalarında, bir-biri ilə münasibətlərində yaşadıqları ölkələrin qanunlarına zidd olan öz adət-ənənələrini tətbiq etmələrində büruzə verir. Müsəlmanların Avropa cəmiyyətlərinə inteqrasiya olunmaları ilə bağlı yaşadıqları problemlər onların cəmiyyətdən təcrid olunmalarına səbəb olur. Cəmiyyətdən təcrid olunan müsəlmanlar öz icmasına, onun ənənəvi qaydalarına, etnik-mədəni dəyərlərinə əsaslanan patriarxal davranış normalarına sığınırlar.

Beləliklə, qeyd olunan sosial-iqtisadi və mədəni səbəblər nəticəsində İslamın və müsəlmanların avropalıların ictimai şüurunda əsasən mənfi obrazı formalaşmışdır. Müsəlmanlar cəmiyyətdə yoxsulluğun, işsizliyin artması, cinayətin, zorakılığın, radikalizmin, fundamentalizmin, etnik-dini zəmində münaqişələrin

çoxalması kimi mənfi hadisələrin səbəbkarları kimi qələmə verilirlər. Belə bir şəraitdə Avropanın ictimai-siyasi fikrində islamofob fikirlər əsas cərəyanlardan biri kimi özünü büruzə verir. Məlum olduğu kimi, ötən əsrin 30-cu illərində Almaniyada nasional-sosialist partiyasının ideoloqları ölkədə yaşanan sosial-iqtisadi problemlərin səbəbkarları kimi yəhudiləri göstərirdilər. Bu siyasət anti-semitizmin baş qaldırmasına gətirdi. Hazırda bir çox Avropa ölkələrində analoji vəziyyət yaşanır. Lakin bu dəfə ayrı-seçkiliyə müsəlmanlar məruz qalırlar, anti-semitizmin yerini isə islamofobiya tutur. Avropanın bir çox ölkələrində çoxluq təşkil edən millətə mənsub sosial qruplar təhlükəsizlik və sosial-iqtisadi məhrumiyyətlər nəticəsində yaranan sıxıntılarını islamofobiya dili ilə ifadə etməyə daha çox meyllidirlər. Bəzən onlar hətta İslama heç bir aidiyyəti olmayan hadisələri belə qərəzli şəkildə onunla əlaqələndirərək islamofobiyanı təbliğ edirlər.

MULTİKULTURALİZM VƏ MİQRASİYA SİYASƏTİ

Şahmurova N.Q.
Sumqayıt Dövlət Universiteti
E-mail: narminshahmurova@gmail.com

Müasir cəmiyyətdə miqrasiya və onların nəticələri ilə bağlı problemlərin həlli üçün iki yanaşma xüsusilə populyardır - multikulturalizm və assimilyasiya. Bu modellərin məqsədləri eynidir - başqa etnik mənsubiyyət və digər mədəni mənsubiyyət əsasında münaqişələrin olmadığı və ya minimal olduğu inteqrasiya olunmuş cəmiyyətin yaradılması. Üstəlik, assimilyasiya riski o zaman baş verir ki, bu və ya digər etnik qrupun nümayəndələri cəmiyyətdə marjinal statusa malik olsunlar. Multikulturalizm siyasətinin əsas prinsipi miqrantların milli-mədəni kimliyinin qorunub saxlanmasıdır ki, bu da öz növbəsində çox vaxt miqrantlarla yerli əhali arasında müəyyən məsafənin olmasını nəzərdə tutur. Assimilyasiya siyasəti miqrantları qəbul edən cəmiyyətlə birləşdirmək ehtiyacına əsaslanır. "Multikulturalizm" termini ilkin olaraq Kanada hökumətinin siyasətini Kvebekə, Fransa separatizminə cavab olaraq təyin etmək üçün istifadə edilmişdir.Multikulturalizm 1960-cı illərdə ABŞ-da dövlət siyasəti sferasına sıçrayış edərək "ərimə qazanı" ideologiyasını sıxışdırıb və qaradərililərin vətəndaş hüquqları uğrunda mübarizəsi məsələsini müəyyənləşdirdi. Əvvəlcə Avropada assimilyasiya modeli üstünlük təşkil edirdi. Qərbi Avropa ölkələri tədricən assimilyasiya paradiqmasından imtina edərək mədəni plüralizm siyasəti yeridir, onu "multikulturalizm" adlandırırlar. Multikulturalizmin Avropaya idxalı pozitiv ayrı-seçkilik ideyasının yaranması ilə bağlı idi ki, bu da azlıqların imkanlarını əksəriyyətlə bərabərləşdirmək üçün onlara müxtəlif imtiyazların və imtiyazların verilməsini nəzərdə tutur. Qərbi Avropa ölkələrində multikulturalist diskurs əvvəlcə intellektual idxalın məhsulu kimi qəbul edilirdi. Avropa tarixən azlıqlara qarşı repressiv təcrübələrə malik olmadığından, bu ölkələrdə mədəni müxtəliflik uzun müddət heç bir ictimai ifadə almadı. Bəzi hallarda miqrantların siyasi icmaya mədəni şəkildə assimilyasiya etmək niyyətində olduqlarına inanılırdı. Digər hallarda, miqrantların işləmək üçün gələn və vətənlərinə qayıtmalı olan qonaqlar olduğu güman edildiyindən, miqrantların milli icmaya daxil edilməsi problemi qaldırılmamışdır. Üçüncü variant postkolonial cəmiyyətin formalaşmasını nəzərdə tuturdu.Bu halda tərəfdaşlıq kateqoriyası xüsusi diqqətə layiqdir, onun həyata keçirilməsi etnik dairələrin nümayəndələrini Britaniya cəmiyyəti çərçivəsində tam hüquqlu fəaliyyətə cəlb etməyə yönəlmişdir. Multikultural cəmiyyətin konstruktiv şüur siyasəti C.Taylor, U.Kimlika, Y.Habermasai, C.Kukatas və başqalarının nəzəriyyələrinə əsaslanır. Çarlz Taylorun anlayışında multikulturalizm özünütəsdiq formasıdır, bu, təkcə fərdlərin tanınmaq uğrunda mübarizəsi deyil, həm də qrupların orijinallığını, orijinallığını və ekvivalentliyini tanımaq tələbidir. V.Kimlikanın Amerika multikulturalizmi və multikultural vətəndaşlığı nəzəriyyəsinin əsasını onun fikrincə cəmiyyətin sabitliyi və rifahının təminatı olan liberalizm prinsiplərinin təsdiqi təşkil edir.Assimilyasiya elm adamları tərəfindən immiqrasiyanın qadağan edilməsi strategiyasını mədəni himayə siyasəti ilə əvəz edərək, təcridçiliyə alternativ kimi qəbul edilir, bu siyasətdə miqrantlardan ev sahibi dövlətin mədəni məkanına qoşulmaq və onun dəyərlər sistemini qəbul etmək tələb olunur. "Yumşaq" multikulturalizm ümumi mədəniyyət sahəsinin dəstəyini nəzərdə tutur, yerli kimliyi qorumaq istəyən etnik mədəniyyətlərə bərabər münasibəti təbliğ edir. "Çətin" multikulturalizm təcridçiliyə, assimilyasiyaya alternativ kimi baxır və azlıqların mədəniyyətinə hərtərəfli dəstək, onu gücləndirmək və dəstəkləmək mövqeyindədir."Multikulturalizm" fenomeninin rus tədqiqatçıları arasında biz V.A. Tişkova, E.A. Paina, V.S. Malaxova, E.N. Pek. , V.Yu. Smorgunova, O.B. Nemenski.Mədəni müxtəlifliklə bağlı problemləri nəzərdən keçirərkən V.A. Tişkov diqqəti multikulturalizmin təkcə cəmiyyətdə mədəni fərqliliklərin mövcudluğunun müəyyənləşdirilməsi və qəbulu məqamı deyil, həm də hüquq normalarında, ictimai institutlarda ifadəsini tapan "siyasi fəlsəfə və etika

sahəsində konseptual mövqe" kimi dəyərləndirib.Müasir cəmiyyətdə multikulturalizm çoxsaylı mədəniyyətlərin uğurlu birgə yaşaması üçün diskurs və ideologiya kimi inkişaf edir.

Qərbi Avropanın əksər ölkələrində multikulturalizmi dövlətin rəsmi siyasəti elan edən hakimiyyət nümayəndələri multikulturalizm siyasətinin əks tərəfinə məhəl qoymayaraq, yeni, zəif assimilyasiya olunmuş mühacir icmalarının idarə olunmasının yaxşılaşdırılması mövqeyini rəhbər tutmuşlar.Belə bir siyasətlə şəxs öz səlahiyyətlərini etnokonfessional qrupa verməyə məcbur olmuş və onun dövlətlə münasibətləri onun vasitəçiliyinə çevrilmişdir. Multikulturalizm problemlərinin müzakirəsinə fəal təkan Tilo Sarrazinin Almaniyada multikulturalizm siyasətini tənqid edən "Almaniya - özünü ləğv etmə" və Haynts Buşkovskinin "Neukölln hər yerdə" nəşrləri oldu. Statistik məlumatlara əsaslanaraq, T.Sarrazi Almaniyanın ləğvini proqnozlaşdırır, öz qənaətlərini yerli əhalinin demoqrafik azalması və alman cəmiyyətinə inteqrasiya etməyə can atmayan mühacirlərin daim artması ilə əsaslandırır. H.Buşkovski "Hər yerdə Neukölln" kitabında mer kimi təcrübəsinə əsaslanaraq Berlinin Neukölln rayonunun həyatını təsvir edir. O, Neukölln bölgəsini rifah hesabına yaşayan və işləmək istəməyən müsəlman ailələrinin məskunlaşdığı sivilizasiyanın kənarı kimi xarakterizə edir.

Multikulturalizm siyasətinin uğursuzluğu və utopikliyi ilə bağlı fırtınalı ictimai müzakirələr Almaniya, Fransa və Böyük Britaniyanın siyasi liderlərinin "multikulturalizmin uğursuzluğu" başlıqlı rəsmi bəyanatları ilə gücləndirildi. E.V. Andreev Avropada dövlət multikultural siyasətinin uğursuzluğunu araşdıraraq, müasirliyin problemlərini qeyd edir.Almaniya, Fransa və Böyük Britaniyanın miqrasiya qanunvericiliyini tədqiq edən müəllif hesab edir ki, Avropa dövlətlərinin müasir multikultural siyasəti immiqrantların öz milli məkanına daxil edilməsi və ya onların xaric edilməsi arasında ziddiyyət təşkil edir. Başqa sözlə, demoqrafik boşluqları doldurmaq üçün multikultural kontekstdə Aİ-nin miqrasiya siyasəti immiqrantların öz mədəni kontekstinə uyğunlaşmasının rahat variantını təqdim etməyə yönəlib. "Aşağı açar" inteqrasiya siyasətini tətbiq edən Aİ ölkələri milli mədəniyyətdən və ümumi vətəndaş kimliyindən kənara çıxmayan yeni azlıq qruplarını qəbul edərək sayını artırmaqla milli çoxluğun mədəniyyətini qoruyub saxlamağı qarşısına məqsəd qoyub.

Avropada həyata keçirilən multikulturalizm siyasəti "yeni avropalılar" tərəfindən onları qəbul etmiş cəmiyyətə müqavimət göstərmək fürsəti kimi qəbul edilir və vətənləri ilə davamlı əlaqələr təkcə öz mədəni kimliyini qoruyub saxlamağa deyil, həm də zənginlərə məcbur etməyə imkan verir.Miqrantların ətrafdakı reallığa inteqrasiya etmək istəməməsi milli azlıqların bütün nümayəndələrinə düşmən münasibət formalaşdırır, etniklərarası toqquşmaların və münaqişələrin alovlanmasına səbəb olur.

